AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" RESPUBLİKA ELMİ KONFRANSININ M A T E R İ A L L A R I

3-4 may 2024-cü il

Elmi konfrans Mingəçevir Dövlət Universitetinin rektorunun 08 fevral 2024-cü il tarixli 01-02/58 nömrəli əmri əsasında keçirilmişdir.

MİNGƏÇEVİR

Rektor Şahin Bayramovun elmi redaktorluğu ilə

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ:

Ş.V.Bayramov	**–**	**sədr, rektor, i.f.d., dos.;**
V.S.Əyyubov	**–**	**sədr müavini, Elmi işlər üzrə prorektor əvəzi, i.e.d., prof.;**
V.S.Mustafayev	**–**	**məsul katib, Elm və innovasiyalar şöbəsinin müdiri, tex.f.d., dos.;**
H.R.Mahmudov	**–**	**rektorun müşaviri;**
R.Z.Məmmdov	**–**	**rektorun müşaviri;**
A.Ş.Məmmədov	**–**	**Dayanıqlı inkişaf və regional innovasiyalar tədqiqat mərkəzinin müdiri, s.e.f.d., dos.;**
N.D.Zeynalov	**–**	**Təhsil fakültəsinin dekanı, t.f.d.; dos.;**
N.A.Qədimli	**–**	**İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, i.f.d., dos.;**
A.Ə.Əliyeva	**–**	**Mühəndislik fakültəsinin dekan əvəzi, tex.f.d., dos.;**
Ü.Ə.Zeynalov	**–**	**Tədris şöbəsinin müdiri, f.f.d.;**
V.E.Məhərrəmova	**–**	**Magistratura və Doktorantura Təhsil Mərkəzinin müdiri, fil.f.d., dos.;**
F.C.Cəlil	**–**	**Pedaqogika və psixologiya kafedrasının müdiri, fil.e.d., prof.;**
E.H.Cəfərova	**–**	**Humanitar fənlər kafedrasının müdiri, s.e.f.d., dos.;**
E.Y.Hüseynova	**–**	**Sənayenin təşkili və idarəetmə kafedrasının müdiri, i.f.d., dos.;**
A.M.Tağıyev	**–**	**İqtisadiyyat kafedrasının müdir əvəzi;**
M.B.İsmayılov	**–**	**Mexanika kafedrasının müdiri, tex.f.d., dos.;**
M.N.Rəhimov	**–**	**Xarici dillər kafedrasının müdiri, fil.f.d., dos.;**
Ü.İ.Aşurova	**–**	**Energetika kafedrasının müdiri, tex.f.d., dos.;**
T.F.Yusibova	**–**	**Fizika və ekologiya kafedrasının müdiri, f.-r.f.d., dos.;**
A.M.Mustafayeva	**–**	**İnformasiya texnologiyaları kafedrasının müdiri, tex.f.d,;**
R.F.Babayev	**–**	**Riyaziyyat kafedrasının müdiri, r.f.d., dos.;**
Ş.N.Muradov	**–**	**baş mühasib;**
E.O.Xəlilov	**–**	**İnformasiya Texnologiyaları Mərkəzinin direktoru.**

© Mingəçevir Dövlət Universiteti,
Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" Respublika elmi konfransının materialları. 2024, 722 səh.

MİNGƏÇEVİR - 2024

MÜNDƏRİCAT

Ş.BAYRAMOV
Giriş sözü 14

PLENAR İCLAS

Heydər Əliyev – Azərbaycanın dövlət müstəqilliyini əbədiləşdirən dahi
İ.M.İSMAYILOV 15

Heydər Əliyev – Azərbaycanın xalqının əsl milli azadlıq və müstəqillik ideyasının banisi
Ə.M.HÜSEYNLİ 20

Azərbaycanda dayanıqlı inkişafın əsaslarının formalaşmasında Heydər Əliyevin xidmətləri
Ş.V.BAYRAMOV 23

Heydər Əliyev və Azərbaycan elminin inkişafı
A.M.HƏŞİMOV 28

Heydər Əliyev və milli-mənəvi dəyərlər
M.K.İMANOV 30

Heydər Əliyev - innovativ texnologiyaların Azərbaycan Enerji sistemində tətbiqi bazasının qurucusudur!
A.R.BABAYEVA 33

Azərbaycançılıq məfkurəsinin inkişafında Heydər Əliyevin irsi
B.M.MUSTAFAYEV 36

BÖLMƏ İCLASLARI

Heydər Əliyev və milli iqtisadi inkişaf strategiyası
V.S.ƏYYUBOV, Ə.N.MUSAYEV 38

Heydar Aliyev's Strategic Genius: "There is no Azerbaijan without Karabakh and Karabakh without Sshusha"
R.MIRZAZADE …… 42

Heydər Əliyev və müstəqil Azərbaycanın iqtisadi islahatlar siyasəti
C.Q.NURİYEV 44

Heydər Əliyevin uzaqgörən dövlətçilik, idarəçilik və dil siyasəti qələbəmizin təməlidir
İ.MƏMMƏDLİ, X.ƏHMƏDOVA 48

Dizel yanacağının adsorbentlərlə aromatiksizləşdirilməsi və onun tərkibinə əlavələrin tətbiqi
T.A.MƏMMƏDOVA, N.M.ƏLİYEVA, A.M.MİKAYILOVA, Ş.Y.AYDINOVA, T.S.LƏTİFOVA 50

Heydər Əliyev və neft sektorunun inkişafı
S.Q.ƏLİYEVA, E.M.QULİYEVA, M.N.BAYRAMOVA 52

Maye kristal-$Cu_3In_5S_9$ kontaktının elektrik xassələri
A.Z.ABASOVA, L.H.HƏSƏNOVA, Ə.Z.MƏHƏMMƏDOV, S.Ə.CAHANGİROVA 54

Traditions of Religious Tolerance in Azerbaijan Laid down by National Leader Heydar Aliyev
L.MOVSUMOVA 56

Heydər Əliyev və mənəvi tərbiyə kontekstində vətənpərvərlik
Z.B.AĞAYEVA 58

Davamlı iqtisadi inkişaf və onun həlli istiqamətləri
S.M.MİKAYILOVA 62

Улучшение качественных показателей дизельного топлива с использованием кислородсодержащих добавок

Ш.Я.АЙДЫНОВА, Ф.А.БАБАЕВА, Т.С.ЛАТИФОВА …… 65
İri şəhərlərdə nəqliyyat infrastrukturunun inkişafına dair tezislər
V.S.MUSTAFAYEV 67
Müasir dövrdə əldə edilən nailiyyətlər Ulu öndər Heydər Əliyev ideyalarının qətiyyətli icrasının nəticəsidir
N.D.ZEYNALOV 68
Heydər Əliyev siyasəsətinin Azərbaycanda İKT-nin davamlı inkişafına təsiri
A.Ə.ƏLİYEVA, A.M.ABDURRAHMANOVA 69
Ümummilli lider Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi inkişafında imzası
N.A.QƏDİMLİ, T.A.KƏRİMOVA 74
Heydər Əliyev dühasının şah əsəri olan Azərbaycan qlobal siyasətin mühüm subyektidir
E.H.CƏFƏROVA 79
Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası
E.Y.HÜSEYNOVA 84
Azərbaycan müəllimlərinin IX qurultayı – təhsilimizin gələcək inkişafına zəmin
N.R.MANAFOV, M.N.MANAFOVA 88
Ulu öndər Heydər Əliyevin Azərbaycanda ordu quruculuğu sahəsində gördüyü işlər
M.B.İSMAYILOV 90
The Role of Natıonal Leader Heydar Alıyev in The Development of Azerbaıjan Scıence
M.RAHİMOV, F.ISAYEVA 92
Kremli fəth etmiş böyük türk oğlu – Heydər Əliyevin mənalı və keşməkeşli ömür yolu haqqında
F.H.NƏBİYEV 93
Milli-mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolu
H.ÇOBANOVA 97
Heydər Əliyev və neft sektorunun inkişafı
Z.S.ALLAHVERDİYEV 102
Heydər Əliyev və Azərbaycan Respublikasında vətəndaş cəmiyyəti institutlarının inkişafı
D.M.QƏNBƏROV 104
Heydər Əliyev irsində bədii-yaradıcı ziyalıların mədəniyyətin (ədəbiyyatın) inkişafında rolu
N.R.AXUNDOVA 108
Qarabağ Zəfəri Heydər Əliyev irsinin təntənəsidir
M.F.İSMAYILOVA, M.N.MƏMMƏDOV 113
Heydər Əliyevin Azərbaycan gənclərinin vətənpərvər ruhda yetişməsində rolu
N.S.ƏHMƏDOV 116
Zəfər tarixinin öyrənilməsinin elmi-didaktik aspekti
Y.K.ALXASOV 119
Poladlarda elektrik müqavimətinin təkrar qızdırma ilə yaxşılaşdırılması
V.F.QƏHRƏMANOV, N.S.RZAYEV 121
Исследование имплантированных пленок холькогенида свинца
Г.Дж.КАСАМАНЛИ, К.М.СУЛЕЙМАНОВ, Р.И.АСКЕРОВА ……...…… 125
Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli
Y.N.QASIMOVA 127
İdarə sistemlərində stabilitronların xüsusiyyətləri
G.S.KƏRİMZADƏ 129
"Azərbaycan dilinin frazeologiya lüğəti" – leksikoqrafiyada yenilik
R.Ə.MƏMMƏDOVA 133
Heydər Əliyev və Azərbaycan gəncliyi
Ş.Ə.YUNUSOVA 138

Инновационные технологии в обучении математики
Л.К.ГАСАНОВА 141
Vətən müharibəsi və onun Cənubi Qafqazda yaratdığı yeni reallıqlar
Ş.X.BAĞIROV 142
Heydər Əliyev və Azərbaycan dilinin müasir inkişaf tendensiyaları
S.B.BAĞIROVA, O.A.TAĞIYEVA 145
Heydər Əliyevin dövlət quruculuğu strategiyası
F.N.ƏLİYEVA 149
Heydər Əliyev: Azərbaycanda informasiya cəmiyyətinin formalaşması
S.C.İSKƏNDƏROVA 152
Особое отношение к русскому языку Президента Азербайджанской Республики Г.А.Алиева
К.Б.АХУНДОВА 155
Ulu öndər Heydər Əliyevi və Azərbaycanda dövlət quruculuğu
S.Ş.QURBANOV, A.S.FƏRƏMƏZOV, E.A.MUXTARLI 158
Ulu öndər Heydər Əliyev və Gəncə Dövlət Universitetinin inkişafı
C.V.BAĞIRZADƏ 161
Zəngəzur dəhlizinin regional və beynəlxalq əhəmiyyəti
E.M.ASLANOV, C.N.HÜSEYNOV 164
Ahıska türklərinin dil və tarixinə bir baxış
S.ABDULLAYEVA, L.ABDULLAZADƏ 166
Hərbi və siyasi təhlükəsizlik:məzmunu və mühüm istiqamətləri
D.S.HƏŞİMOV 171
Ümummilli lider Heydər Əliyev elm və təhsilin himayədarı idi
S.Ə.QASIMOVA, E.İ.NƏBİYEVA 173
Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının müxtəlif aspektləri
L.Ə.HÜSEYNOVA, B.Ş.ƏHMƏDOV 176
Heydər Əliyev siyasətində demokratik inkişafa əsaslanan cəmiyyət modeli
T.M.QASIMOVA 180
Heydər Əliyevin xaricı siyasət konsepsiyası və onun uğurlu nəticələri
M.A.HÜSEYNOV 182
Heydər Əliyev və Azərbaycanın xarici siyasətində yeni dövr
Y.A.SƏMƏDOV 184
Müqayisə tərcümənin tədrisi və təhlilinin metodu kimi
G.S.SALMANOVA 186
Ulu öndər Heydər Əliyev və Milli Konstitusiyanın təntənəsi
Ə.Ə.KAZIMOV, M.A.MƏMMƏDOV 189
Heydər Əliyev, milli mentalitet və mədəniyyətimiz
Ş.MUSAYEVA 191
Heydər Əliyevin şəxsi nümunəsində kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsi
B.M.SEYİDZADƏ 193
Ulu öndər H.Ə.Əliyevin dövlətçilik strategiyasında ordu quruculuğuna fəlsəfi baxış
Ş.Ə.ZEYNALOV, N.Ş.ZEYNALLI 195
Heydər Əliyev müasir Azərbaycan dövlətinin memarı və qurucusudur
S.E.SÜLEYMANOV, S.İ.NƏSİROVA 220
Xarici elektrik və maqnit sahələrinin istiqamətindən asılı olaraq iki tip yarımkeçiricilərdə cari dalğalanmalar
E.R.HƏSƏNOV, R.K.MUSTAFAYEVA 202
Heydər Əliyev böyük dil siyasətçisi kimi
S.R.ƏLİYEVA 206
Dünyanın yeni nizamı: reallıqlar və perspektivlər
Ü.Ə.ZEYNALOV 208

Şagirdlərin vətənpərvərlik tərbiyəsində "Kitabi-Dədə Qorqud" dastanından istifadə
R.M.MƏMMƏDOVA 211
Heydər Əliyev və Azərbaycan gəncliyi
R.A.HÜSEYNOVA 214
Heydər Əliyevin Azərbaycan korifeylərinə qayğısı
G.K.YUNUSOVA 218
44 günlük Vətən müharibəsində tarixi qələbəmiz Ulu öndər Heydər Əliyevin mükəmməl dövlətçilik strategiyasının təntənəsidir
A.N.İSMAYILOV 224
Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin öyrənilməsində, qorunub saxlanmasında və inkişaf etdirilməsindəki misilsiz rolu
X.R.ABDULLAYEVA 229
HEYDƏR ƏLİYEV ANA DİLİMIZIN QORUYUCUSU KİMİ
S.B.NOVRUZOVA, S.A.AĞAKİŞİYEVA 232
Heydər Əliyev siyasətində Azərbaycan gəncliyi məsələsi
G.M.ASLANLI 233
SDU Heydər Əliyev Mərkəzinin fəaliyyəti və tələbələrin milli-mənəvi dəyərlərinin formalaşmasında Mərkəzin rolu (2015-2018-ci illər)
S.İ.MƏMMƏDOVA, H.S.MƏMMƏDOVA 240
Qarğıdalı yağının C_1-C_4 spirtləri ilə transefirləşmə reaksiyasının hidrodinamik kavitasiya təsirində tədqiqi
Z.M.ƏLİYEVA 243
Heydər Əliyevin ədəbi şəxsiyyətlərə olan diqqət və qayğısı
U.F.QƏHRƏMANOVA 246
Azərbaycanın qlobal və regional mövqeyinin möhkəmləndirilməsinə yönələn xarici siyasət prioritetləri
O.A.NƏSİROVA 248
Heksadekan turşusunun dietanolaminlə əmələ gətirdiyi kompleks kompleks birləşmənin fiziki-kimyəvi xassələrinin tədqiqi
A.F.ŞAHVERDİYEVA 250
Heydər Əliyev – təhsilin ən böyük himayədarı
S.R.İBRAHİMOVA 252
Heydər Əliyev – əbədiyaşar liderimiz
G.Z.ALLAHVERDİYEVA 253
Müstəqil Azərbaycanın xarici siyasət strategiyası
Ş.Q.XƏLİLOVA 257
Педагогический опыт как важный этап в подготовке педагогических кадров
И.С.ДЖАЛАЛОВА 261
The Role of Entrepreneurshıp in the Economıes of Developıng Countrıes
E.KHUDAVERDİYEVA 264
Ulu öndər Heydər Əliyev milli dövlətçilik tariximixin banisidir
S.Q.MƏHƏRRƏMOV 267
Heydər Əliyevin Azərbaycanın ekoloji problemlərinin həllində rolu
K.X.YUSİFOVA 268
Heydar Aliyev`s Oratory
Ch.SHAHBAZLI 270
Azərbaycanın regional inteqrasiyasında Heydər Əliyevin rolu
T.ƏLİYEVA 272
Heydər Əliyev – Azərbaycan elminin, təhsilinin və mədəniyətinin böyük himayədarı
S.N.QULİYEVA 275
Azərbaycanda ev təsərrüfatlarının İKT-dən istifadə imkanlarının tədqiqi
G.A.FƏTƏLİYEVA 278

Ümummilli lider Heydər Əliyevin ideyaları işığında Azərbaycan gəncliyi
M.Y.ƏSƏDOVA, A.M.CAVADOVA 281
Müzəffər Azərbaycan Ordusu – Heydər Əliyevin siyasətinin nəticəsidir
G.İ.ƏJDƏRZADƏ 283
Azərbaycan iqtisadiyyatının dayanıqlı və şaxələndirilmiş inkişafında Ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri
S.Y.MƏMMƏDOV 285
Azərbaycanın iqtisadi inkişafında Heydər Əliyevin rolu
B.B.HÜSÜYEV 289
Heydər Əliyev və Azərbaycanın nəqliyyat strategiyası
Q.K.KƏRİMOV 291
Şam ağacının yonqarının Fe_2O_3 katalizatorunun təsiri altında pirolizi prosesinin tədqiqi
A.A.İMANOVA, Q.C.ƏHMƏDOVA 293
The Dynamic Process of a Hybrid Electric Machine
A.MAMMADOV 294
Heydar Aliyevand Economic Reforms
K.MAMMADZADA 297
Development of the Azerbaijan Language as the Main Priority of the Great Leader Heydar Aliyev's Policy
A.NAMAZOVA 299
Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə Türkiyənin Güney Qafqaz siyasəti
E.Ç.HƏSƏNOV 302
Heydər Əliyev elm və təhsilin inteqrasiyası haqqında: fənlərarası yanaşma
F.Ə.MAHMUDZADƏ 307
Aqrar sahənin inkişafında Heydər Əliyevin rolu
S.O.BABAYEVA 312
Azərbaycanda eko-turizmin inkişafı perspektivləri: yaşıl dünya çərçivəsində
A.M.QOCAYEVA, G.M.HÖKMƏLİYEVA 315
Heydər Əliyev – Tarixi Zəfərə aparan siyasətin banisidir
K.Z.ŞXƏLİYEVA 316
Ana dilinin insanın yetişməsində rolu
M.E.MUSTAFAYEVA 318
Azərbaycan iqtisadiyyatinın strukturunun təkmilləşməsində Heydər Əliyevin rolu
D.Q.SÜLEYMANLI, Ə.A.BABAŞOVA 322
Heydər Əliyev siyasətində vətəndaş cəmiyyəti quruculuğu
S.N.QULİYEVA, A.Ə.QULİYEV 324
Heydər Əliyevin hakimiyyəti dövründə ölkə xarici siyasətinin başlıca istiqamətləri
G.Y.YUSİBOVA 326
Heydər Əliyev irsi
K.N.AYDIN 328
Yaşıl enerjinin təşəkkülü zamanın tələbidir
Ə.H.ƏDİLOV 330
Работа газовой защиты трансформаторов
А.В.НАДЖАФОВ, А.Б.ШАФИЕВА 333
Dayanıqlı inkişaf məqsədləri: Azərbaycan öhdəlikləri və onun reallaşdırılması strategiyası
A.M.TAĞIYEV 335
Müasir Azərbaycan iqtisadiyyatının inkişafında Heydər Əliyev fenomeni
G.M.ŞƏFAQƏTOV 339
20 Yanvardan möhtəşəm Zəfərə doğru

M.C.CAVADOV 342
Heydər Əliyevin neft strategiyasından başlanan 44 günlük Zəfər yolu
N.F.NİFTƏLİYEV 344
Azərbaycan iqtisadiyyatında məqsədyönlü maliyyə siyasətində Heydər Əliyevin rolu
M.A.KƏRİMOVA, A.Q.KƏLƏŞOV 348
Ulu Öndər Heydər Əliyevin milli təhsil siyasətinin inkişafında rolu
S.N.BABUŞOV, K.H.SADIQOVA 351
Heydər Əliyev – Azərbaycan elminin,təhsilinin və mədəniyyətinin böyük himayədarı
V.Ş.ABDULLAYEV, Ə.M.MÜRSƏLOVA 356
Müasir dövrün münaqişəli məzmunu və Heydər Əliyevin sülhpərvər siyasəti
İ.M.MƏMMƏDOV 359
Heydər Əliyevin neft strategiyası: inkişaf mərhələləri və əldə edilmiş nailiyyətlər
Z.Y.RƏSULOV 364
Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin tarixi şəxsiyyəti və Azərbaycan xalqının xilaskarıdır
N.H.KƏLƏŞOVA, İ.Ə.MƏMMƏDOVA 366
Heydər Əliyev irsində islam ideologiyası
İ.Ş.İSMAYILOVA, A.İ.İSMAYILOVA 369
Ana dilinin tədrisi milli təfəkkürün formalaşmasında mühüm vasitə kimi
S.M.İSAYEVA 371
Heydər Əliyev ideyaları və güclü Azərbaycan
A.R.QƏDİROVA 373
Ümummilli lider Heydər Əliyevın ekoloji siyasəti və onun uğurlu davamı
S.M.QULİYEVA 374
Frazeoloji birləşmələrin paradiqmatik formalarının çoxmənalılığı, məna ekvivalentliliyi və tərcümə problemləri
L.M.İBRAHİMOVA 378
Heydər Əliyev və neft sektorunun inkişafı
V.İ.SARIYEV 381
Tarix yaradan Ümummilli Lider
E.O.XƏLİLOV, E.E.XƏLİLOVA 386
Heydər Əliyev müasır azərbaycan ordusunun qurucusudur
X.Q.XƏLİLOVA 380
Heydər Əliyevin xarici siyasəti müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuzudur
A.M.NAMAZOVA 393
Gəncliyin inkişafında dövlətin gənclər siyasəti
G.F.KƏRİMLİ 396
Heydər Əliyev irsi və Azərbaycan gəncliyi
X.R.XƏLİLOV 398
Heydər Əliyev və dövlət uşaq siyasəti
N.N.NİFTƏLİYEVA 399
Müasir gənclərdə informasiya mədəniyyətinin formalaşdırılması
L.V.İSMAYILZADƏ 401
Heydər Əliyevin milli təhsilimizin inkişafında rolu
Z.V.TANRIVERDİYEVA 403
Heydər Əliyev dövründən bu günümüzə qalan insan kapitalı və innovasiyanın inkişafı
N.A.ƏLİYEVA 406
Heydər Əliyev milli iqtisadi inkişaf strategiyasının müəllifi kimi
S.V.MAHMUDOVA 408
Heydar Aliyev – great protector of science, education and culture of Azerbaijan
L.ZEYNALOVA-MAMMADZADE 414
Azərbaycan təhsilinin inkişafında Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri

L.M.RÜSTƏMOVA, G.Q.QURBANOVA 417
Heydər Əliyev və milli sənaye-energetika kompleksinin inkişafı
E.A.MURADZADƏ 420
Ümummilli lider Heydər Əliyevin təhsil islahatları və müasir dövrdə təzahürü
E.M.ƏLİYEV, K.E.EYVAZOVA 422
Azərbaycanın müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır
G.S.OSMANOVA, S.İ.YUSİFOVA 425
Ədəbi əsərlərimizdə təbiətin təsviri
J.E.QASIMOVA 430
Heydər Əliyev - Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin böyük himayədarı
A.F.KƏRİMLİ 433
Azərbaycan nizamişünaslığının inkişafında Heydər Əliyev mərhələsi
N.M.MƏHƏRRƏMOVA 435
Heydər Əliyev Azərbaycan xalqının birliyinin və dövlət müstəqilliyinin rəmzidir
Ü.A.AŞUROVA 438
Azərbaycan təhsilinin təməli Ulu öndər Heydər Əliyevdən başlayır
T.A.RƏŞİDOVA 442
Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasəti
F.M.YUSİFLİ 446
Sağlamlıq ımkanları məhdud uşaqların cəmiyyətdə qarşılaşdıqları çətinliklər
A.F.İSMAYILOVA, İ.Y.ƏMRAHZADƏ 448
Heydər Əliyev fenomeni və milli təhsilimiz
M.A.ABDULLAYEVA 452
Yeni iqtisadi münasibətlər sistemində kommersiya şirkətinin gəlirlərinin formalaşması və onun quruluşu
Y.C.BİNNƏTOV 456
Azərbaycan gəncliyində Heydər Əliyev izi
Ş.T.MƏHİŞZADƏ 458
Heydər Əliyev gənclər siyasətinin banisidir
S.E.MƏMMƏDOVA 461
Azərbaycanın neft sektorunda və nəqliyyat daşımalarında Heydər Əliyevin rolu
T.H.ƏLİFOVA 463
Heydər Əliyev – Azərbaycan dilinin ən böyük himayədarı
G.A.ƏHMƏDZADƏ 466
Heydər Əliyev – Azərbaycan dilinin mühafizəkarı
O.A.ƏHMƏDZADƏ 467
Heydar Aliyev's Legacy: Pioneering the Modernization of Economy in Azerbaijan
A.SAFARLI 468
Heydər Əliyev – tarixi zəfərə aparan siyasətin banisi
B.A.QƏMBƏROV, V.N.ƏLİYEV, T.S.ƏLİYEVA 471
Ulu öndər Heydər Əliyevin Azərbaycan ədəbiyyatının inkişafında rolu
L.Z.HƏSƏNOVA 476
Heydər Əliyev və Azərbaycan dilində siyasi nitqin inkişafı
A.N.RZAYEVA 477
The Educatıonal Legacy of Heydar Alıyev: Advancements in Azerbaıjanı Scıence and Learnıng
S.GULAMOVA 481
Azərbaycanda yanacaq-enerji kompleksinin müasir vəziyyəti
G.A.TAĞIYEVA 484
Heydər Əliyev və neft sektorunun inkişafı
C.N.QULİYEVA 488

Heydar Alıyev - Creator of odern Azerbaıjanı Statehood
Ch.BAGHİROVA 491
Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz
N.R.RƏHİMOVA 495
Ulu öndər Heydər Əliyevin təhsil siyasəti
Ü.İ.QULİYEVA 498
"Böyük İpək Yolu"nun inkişafında Heydər Əliyevin rolu
L.A.HƏZİYEVA 502
Heydər Əliyev müasir Azərbaycanın memarıdır
L.V.QAFAROVA, L.A.SAFRONOVA 504
Heydər Əliyev – gənclərin böyük hamisi
C.İ.HÜSEYNLİ 506
Heydər Əliyevin geosiyasi təlimi: XXI əsrdə
Y.M.BAĞIROVA, H.R.EMİNOVA 511
Azərbaycan Respublikasının informasiya siyasəti və Heydər Əliyev
K.A.MƏMMƏDOV, İ.İ.HÜSEYNOVA 515
Yaşayış məntəqələrinin planlaşdırılmasında davamlı inkişaf prinsiplərinin tətbiqi istiqamətində Heydər Əliyevin rolu
K.H.QASIMOV 518
Milli-mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin xidmətləri
N.N.EMİNOVA 520
Heydər Əliyev və Azərbaycan-İndoneziya münasibətləri
L.H.ZƏRBƏLİYEVA 523
Hidrotəmizlənmiş dizel yanacağının keyfiyyətinin yaxşılaşdırılması
A.F.TAĞIYEVA, S.K.ƏLİYEVA, S.K.ƏHMƏD 524
Ulu öndər Heydər Əliyev və Azərbaycanda neft sənayesinin inkişafı
X.Y.İSMAYILOVA, S.E.RİZVANLI 525
Heydər Əliyev Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin və idmanın inkişafının böyük himayədarıdır
Ə.H.NAMAZOVA 527
Ümummili lider Heydər Əliyevin Azərbaycan elm və idman siyasətinin həyata keçirilməsi sahəsindəki xidmətləri əvəzsizdir
V.M.VƏLİYEV, R.K.YAQNƏLİYEV 530
Milli maraqlar təhlükəsizlik elmində: realist perspektiv
G.F.NURIYEVA 522
Müstəqil Azərbaycanın inkişafında Heydər Əliyevin rolu
D.A.KƏRİMOVA 535
Heydər Əliyev şəxsiyyətində vətənpərvərlik tərbiyəsi
G.A.NƏCƏFOVA 537
Heydər Əliyev – Azərbaycan dilinin ən böyük himayədarı
Ç.A.YOLÇUBƏYLİ 541
Characteristics of Education for Sustainable Development 544
G.NASİROVA, U.MAMMADOVA .....
Ulu öndər Heydər Əliyevin elmə və təhsilə göstərdiyi qayğı və diqqəti danılmazdır
K.Ə.MƏMMƏDOVA 547
Heydər Əliyev irsi və Azərbaycan gəncliyi
İ.İ.İSMAYILOVA 549
Heydər Əliyev nitqində verbal və qeyri-verballıq
Ş.Ş.HEYDƏROVA 533
Heydər Əliyev nitqində müdrik kəlamlar
M.A.YUSUBOVA 556
Heydər Əliyev Azərbaycanda multikulturalizmin banisidir

L.İ.BAYRAMOVA 559
Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasında milli təhsilin inkişafı
V.Z.ƏLLƏZOVA 563
Heydər Əlyev və milli mənəvi-əxlaqi dəyərlər: müstəqil dövlət quruculuğu kontekstində
F.MƏMMƏDZADƏ 568
Heydər Əliyevin təhsil siyasəti və onun nəticəsi
G.M.HƏSƏNOVA 573
Ulu öndər Heydər Əliyevin bədii ədəbiyyatda tarixi hadisələrin təsvirinə münasibəti
A.Y.AXUNDOV, F.B.ƏLIYEVA, Z.N.QƏHRƏMANOVA 575
Heydər Əliyevin Azərbaycan elm və təhsilinin inkişafında rolu
F.M.MİKAYILOVA 579
Azərbaycanın xarici siyasəti milli maraqları tamamilə təmin edir
T.A.BAĞIROVA 581
Heydər Əliyevin təhsil strategiyası və universitetlərin dayanıqlı inkişafının əsas komponentləri
M.M.MƏMMƏDOVA 584
Ümummilli Liderin qurucusu olduğu rəqabətədavamlı təhsil sisteminin əsas istiqamətləri
A.M.ƏZİZOVA 589
Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev siyasətinin rolu
T.A.SƏFƏROVA 591
Azərbaycanın dayanıqlı inkişafının təmin olunmasında Heydər Əliyevin müstəsna fəaliyyəti
T.Ə.ƏLİYEVA 594
Heydər Əliyev müstəqil Azərbaycan Respublikası Konstitusiyasının müəllifidir
T.Ə.SÜLEYMANOVA 597
Davamlı inkişaf məqsədləri çərçivəsində istehlakda və istehsalda resurslardan səmərəli istifadə yolları
A.C.NƏSİBOVA 600
Heydər Əliyevin yaratdığı klassik idarəçilik modeli müasir müəssisənin idarəçilik sisteminin qurulmasında nümunə kimi
N.Z.CƏFƏROV 601
Ətraf mühitin mühafizəsi: yeni texnologiyaların təsiri
V.T.BALAKİŞİYEVA, L.Z.MƏMMƏDOVA 606
Heydər Əliyev irsi və Azərbaycan gəncliyi
R.Z.MƏMMƏDOVA 609
Külək elektrik stansiyalarında külək çarxlarının tarazlaşdırılması
E.S.CƏFƏRLİ 612
Ulu öndər Heydər Əliyev Azərbaycan xarici siyasətinin qurucusu və memarıdır
K.C.HÜSEYNOVA 614
XX əsrin 90-cı illərinin vətəndaş müharibəsinin qarşısının alınmasında Heydər Əliyev zəkası
A.B.ƏLİYEV, H.N.ƏLİYEVA 616
Heydər Əliyev və milli sənaye-energetika kompleksinin inkişafı
Z.X.QƏDİROV 621
Milli-mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin xidmətləri
F.Ə.QASIMOVA 624
Azərbaycan dilinin inkişafinda ideya gedişatı
S.H.ABBASOVA, M.İ.TAĞIYEVA 627
Психолого-педагогические аспекты применения мультимедийных технологий в обучении русскому языку как иностранному

В.Г.ТАГИЗАДЕ …… 630
Dünya şöhrətli dövlət xadimi, ömrünü xalqa bağışlayan Ümummilli lider – Heydər Əliyev
L.K.ƏHMƏDOVA 633
Heydər Əliyev və natiqlik sənəti
Ü.R.RƏCƏBLİ 635
Role of Heydar Aliyev in Establishing Diplomatic and Political Relations between Azerbaijan and Central Asian Republics
L.ALIYEVA …….. 637
Azərbaycan–Türkiyə münasibətlərinin inkişafında Heydər Əliyevin rolu
V.D.ABBASOV 639
Heydər Əliyev elmin, təhsilin və mədəniyyətin böyük himayədarı idi
A.Ş.PAŞAYEVA 643
Heydər Əliyevin Azərbaycan mədəniyyətinə və ədəbiyyatına göstərdiyi xidmətləri
G.A.VƏLİYEVA 645
Heydər Əliyevin təhsil siyasəti konsepsiyası
R.Ş.YUNİSOVA 649
Ulu öndər Heydər Əliyevin ömür yolu vətənə və xalqa xidmət nümunəsidir
K.K.MİRZƏYEVA 652
Ekoloji dizel yanacağının alınmasında hidrogen peroksidin və sirkə turşusunun katalizator kimi istifadəsində dizel yanacağının kükürdsüzləşmə prosesinə ultrasəsli kavitasiyanın təsiri
Z.Q.KÖÇƏRLİ, E.İ.MƏMMƏDOVA 654
Great leader Heydar Aliyev is the founder of modern Azerbaijan
Kh.ALIYEVA …… 656
Azərbaycan Respublikasının BMT-nin bəzi ixtisaslaşmış qurumları ilə əməkdaşlığı (1993-2003)
R.X.QULİYEV 658
The Worldwıde Leader of Azerbaıjan
R.MAMMADOVA 663
Heydər Əliyevin gənclər siyasəti
R.R.QURBANOV 665
Perspektivli optik lifli rabitə xətləri
Q.ADIYEV, E.İMANOV, Ə.SADIXOV, Q.MABUDOV 667
Contributions of Heydar Aliyev to the development of entrepreneurship in Azerbaijan
A.VALIBAYLI 672
Azərbaycanda dövlət idarəçiliyinin Heydər Əliyev modeli: tarixi reallıqlar və müasir baxış müstəvisində
N.S.ŞƏMŞİYEVA 676
Heydər Əliyev elm və təhsilin himayədarı kimi
İ.K.ƏHMƏDOV 681
Azərbaycan Respublikasının Konstitusiyası – demokratik və hüquqi dövlətin təminatçisi
K.S.KAMALOV 683
Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin inkişafında rolu
K.Ə.SADIQOVA, R.H.XƏLİLOV 685
Важные проблемы обеспечения экономическом безопасности в Азербайджане
Г.Ф.ПАНАХОВ 686
Heydər Əliyev Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin böyük himayədarı
Ə.Ş.CƏFƏROVA 691
Azərbaycan natiqlik sənətinin unikal nümunəsi
Z.R.NOVRUZOVA 693

Sağlam ətraf mühitin yaradılmasında yaşıl iqtisadiyyatın rolu
A.R.TAĞIYEVA 697
Heydər Əliyev və təhsil siyasəti
Ü.M.MƏMMƏDOVA 700
Yaşıl dünya naminə
N.Z.MUSTAFAYEVA 703
Əski Azərbaycan əlifbasının tədris müəssisələrində tədrisi
J.Ə.MƏMMƏDOVA 705
Süni intellektin inkişaf perspektivləri
B.Ə.ƏVƏZOVA 707
Tarixi zəfərə aparan yol!
E.V.ƏFƏNDİYEVA 708
Biologiya dərslərində diferensial yanaşma
M.M.ÖMƏROVA 711
Əvəzolunmaz şəxsiyyət
C.O.ƏLİZADƏ 712
Müasir ingilis dilində neologizmlər
G.S.İBRAHİMOVA 713
Əfsanələrin tarixlə birləşdiyi məkan – Beşbarmaq dağı
A.Ş.İBRAHİMOV 714
Xüsusi qayğıya ehtiyacı olan uşaqların şəxsiyyət kimi formalaşmasında dövlətin və Heydər Əliyev Fondunun apardığı işlər
N.M.İSMAYILZADƏ 716

GİRİŞ SÖZÜ

Şahin Bayramov
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universitetinin rektoru

Hörmətli konfrans iştirakçıları!
Hörmətli qonaqlar!
Hörmətli professor-müəllim heyəti!
Əziz tələbə və magistrantlar!

Hər birinizi Ümummilli lider Heydər Əlyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" mövzusunda Respublika elmi konfransının açılış mərasimində universitetimizin kollektivi və şəxsən öz adımdan səmimi qəlbdən salamlayıram.

Hər il bütün elm və təhsil müəssisələrində olduğu kimi, Mingəçevir Dövlət Universitetində də Ulu Öndərin anadan olmasına həsr olunmuş elmi konfransın keçirilməsi bir ənənə halını almışdır. Bu da təbiidir – müasir Azərbaycanın xilaskarı və memarı olan Heydər Əliyevin xatirəsi xalqımız üçün sözlə ifadə oluna bilinməyəcək dərəcədə əzizdir, onu həmişə böyük ehtiramla yad etmək özünü azərbaycanlı sayan hər kəsin mənəvi borcudur.

Heydər Əliyev elə nəhəng tarixi şəxsiyyətdir və onun fəaliyyəti o qədər çoxşaxəli və genişdir ki, nə qədər konfrans keçirilsə də, nə qədər əsərlər yazılsa da, elmi təhlillər və tədqiqatlar aparmaq üçün bitib-tükənməz mənbədir.

Ulu Öndərin uzaqgörən və müdrik siyasəti nəticəsində qazanılan nailiyyət və uğurlar bu gün ölkəmizin hər sahədə davamlı inkişafını şərtləndirən əsas amillərdir. Tam əminliklə deyə bilərik ki, möhtərəm cənab Prezident İlham Əliyevin təşəbbüskarlığı və bilavasitə iştirakı ilə ərsəyə gələn və həyata keçrilən milli və regional səviyyəli irimiqyaslı layihələr, uğurla fəaliyyət göstərən nəhəng təsərrüfat subyektləri məhz Ulu Öndərin tövsiyələrinə uyğun hazırlanmış davamlı inkişaf strategiyasına əsaslanmışdır.

Bu gün dünyada dayanıqlı inkişafdan çox danışılır, bu, ən aktual mövzulardan birinə çevrilib. Azərbaycanda isə bu məsələ müzakirə və diskussiya mövzusu deyil, ölkə rəhbərliyinin düşünülmüş, elmi cəhətdən əsaslandırlmış və ardıcıl şəkildə həyata keçirilən gündəlik fəaliyyətdir. Bu fəaliyyətin isə nəticələri göz qabağındadır – iqtisadiyyatın, demək olar ki, bütün sahələrində ölkəmizin göstəricilərində dəyişməz dinamiki artım tendensiyası hökm sürür. Bu isə respublikamızın iqtisadi qüdrətinin artmasına və bunun nəticəsində həyatın digər sahələrində də inkişafa səbəb olur, xalqın rifah halının yaxşılaşmasına xidmət edir.

Ulu Öndərin müdrik kəlamlarından birini xatırlatmaq istəyirəm: "Azərbaycan adlı dövlətin varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün Azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir." Bu gün Ulu Öndərin layiqli davamçısı, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız düşmən işğalından tam azad olunub, dövlətimizin ərazi bütövlüyü tam bərpa edilib. Dünyanın siyasi arenasında suveren Azərbaycan öz müstəqil və cəsarətli mövqeyi ilə tanınır. Bu gün hər birimiz Azərbaycan dövlətinin vətəndaşı olmağımız ilə qürur duyur, bu dövlətə xidmət etməyə çalışmağımız ilə fəxr edirik. Bütün bunlar Heydər Əliyev ideyalarının qələbəsi, Heydər Əliyev dühasının təntənəsidir!

Xalqının qeyrətli oğlu və liderinin zəngin irsi gənc nəsil üçün əsil həyat məktəbidir. Bu irsi öyrənmək və öyrətmək, təbliğ etmək ilə bağlı ali təhsil müəssisələrinin üzərinə xüsusi vəzifələr

düşür. Bu gün açılışını etdiyimiz elmi konfransın da ali məqsədi məhz bu vəzifənin yerinə yetirilməsinə müəyyən töhfə verməkdən ibarətdir.

Hörmətli konfrans iştirakçıları!

Nəzərinizə çatdırım ki, konfransımıza çox böyük maraq göstərilib. Bunu Təşkilat komitəsinə göndərilmiş məqalə və tezislərin sayı göstərir. Belə ki, konfransa AMEA-nın 3 institutu, Elm və Təhsil Nazirliyinin tabeliyindəki 5 elmi-tədqiqat institutu və 13 ali təhsil müəssisəsi də olmaqla, 33 müxtəlif təşkilat və qurumdan ümumilikdə 230-dan çox məqalə və tezislər daxil olmuşdur. Ən çox məqalə və tezis göndərmiş təşkilatlar AMEA Fəlsəfə və Sosiologiya İnstitutu (17 məqalə), ETN-nin akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu (10 məqalə), Azərbaycan Dövlət Pedaqoji Universiteti (28 məqalə), Gəncə Dövlət Universiteti (9 məqalə), Bakı Slavyan Universiteti (8 məqalə), Azərbaycan Dövlət Aqrar Universitetidir (8 məqalə).

Əminəm ki, bu gün həm plenar iclasda, həm də bölmə iclaslarında Ulu Öndərin zəngin irsinin müxtəlif sahələri ilə bağlı yeni, maraqlı, elmi məzmunlu məruzələr dinləyəcəyik. Bütün məruzəçilərə təşəkkürümü bildirirəm və konfransımızın işinə uğurlar arzulayıram.

Plenar iclası açıq elan edirəm!

PLENAR İCLAS

AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİ ƏBƏDİLƏŞDİRƏN DAHİ

İlham Mehdixan oğlu İsmayılov
siyasi elmlər üzrə fəlsəfə doktoru
Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı

Hörmətli konfrans iştirakçıları,

Mingəçevir şəhər İcra Hakimiyyəti və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar "Ulu öndər Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" mövzusunda keçirilən Respublika elmi konfransının iştirakçılarını, şəhərimizin qonaqları- hörmətli akademiklərimizi öz adımdan, eləcə də bütün mingəçevirlilər adından salamlayır, bu günkü konfransımızın işinə uğurlar arzulayıram.

Bilirsiniz ki, dünyada tarix yazanlar çox olsa da, tarix yaradanların sayı azdır. Çünki tarix yaratmaq tarix yazmaqdan qat-qat çətin və məsuliyyətlidir. Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər ən taleyüklü məqamlarda öz qətiyyətli hərəkətləri ilə xalqı arxasınca aparıb, qalib olmuşlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş müdrik dövlət xadimi və tarix yaradan dahi şəxsiyyət kimi düşmüşdür. Onun Azərbaycanda rəhbərliyinin hər iki dövrünə təhlili yanaşma göstərir ki, bu dahi şəxsiyyət uğurlu, uzaqgörən, məqsədyönlü fəaliyyəti ilə ölkəmizi müstəqil dövlət kimi formalaşmaya hazırlamış və zəruri məqamda bu müstəqilliyin qorunub saxlanılması və əbədiləşdirilməsini təmin etmişdir.

Tarixi statistik faktlardan məlumdur ki, ötən əsrin 60-cı illərində keçmiş ittifaq dövlətinin tərkibində olan Azərbaycanda durğunluq hökm sürürdü, respublika iqtisadi göstəricilərinə görə çox geridə qalmışdır. Bu çətin vəziyyətdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş Plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızın sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olub.

Məhz 1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi daxil oldu. Həmin illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verildi. 630 min yeni iş yeri açıldı. Sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı istehsalı 2,7 dəfə, neft hasilatı 2,8 dəfə artdı. Bir neçə su anbarı istifadəyə verildi, Bakı şəhərinə 3 magistral su kəməri çəkildi. Bakı Dərin özüllər zavodu istifadəyə verildi. Ümumilikdə 20,4 min kilometr asfalt yollar çəkilmişdi. Bu cür yenilikləri çox sadalamaq olar. 1970-ci illərin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxdı.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir.

Azərbaycanın gələcək müstəqilliyi üçün hələ Sovetlər dövründə mütəmadi iş aparan Ulu öndər kadr potensialının artırılmasına böyük əhəmiyyət verirdi.

1969-1982-ci illərdə 770-ə qədər məktəb binası istifadəyə verilmiş, ali məktəblərin sayı 12-dən 17-yə çatdırılmış, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərlərində yerləşən 170-dən çox məşhur ali məktəblərdə 250-dən çox ixtisas üzrə 17 minədək azərbaycanlı gəncin təhsil alması təmin olundu. Ulu Öndər "**Azərbaycanın yetirmələri Azərbaycanın milli sərvətidir"** adlandırdığı gənclərlə 29 avqust 1981-ci ildə görüşü zamanı demişdir: **"İndi bizim respublikada xalq təsərrüfatının daha kəskin ehtiyac hiss etdiyi ixtisasları üzrə Sovet İttifaqının ən yaxşı tədris müəssisələrində hazırlanmış böyük kadr dəstəyimiz vardır. Bu il Azərbaycandan cəmi 3600 oğlan və qız Sovet İttifaqının müxtəlif ali məktəblərində 244 ixtisas üzrə təhsil alacaq"** .

Məhz həmin kadr ehtiyatı sonralar Azərbaycan müstəqilliyə qovuşduqdan sonra ölkəmizin kadr ehtiyacını təmin etdi.

Ulu Öndərin respublikamıza birinci rəhbərliyi dövründəki fəaliyyəti sonrakı dövrdə müstəqilliyimizin təminatı oldu.

Bu gün insanlar həmin tarixi vərəqlədikcə Heydər Əliyev zəkasının, düşüncəsinin, müdrikliyinin böyüklüyünü bir daha hiss edir, Ümummilli Liderin respublikamız, xalqımız üçün misilsiz xidmətlər göstərdiyinin şahidi olurlar.

Ulu Öndərin 1982-1987-ci illərdə Moskvada yaşadığı və işlədiyi dövrdə də Azərbaycana diqqət və qayğısını əsirgəmir, respublikamızın ictimai, mədəni həyatı ilə daimi maraqlanırdı. Ulu öndərin həyatının 1990-1993-cü illər dövrü də tarixi hadisələrlə zəngin olmuşdur. Ulu öndər həmişə, hər zaman, ən ağır anlarda belə xalqının yanında olmuş, xalqın səsinə səs vermişdir. 1990-cı ilin 20 Yanvar faciəsinin səhəri günü Heydər Əliyev Azərbaycannın Moskvadakı nümayəndəliyinə gəlib həyatını təhlükə qarşısında qoyaraq, o zamankı SSRİ rəhbərliyinin anti-Azərbaycan siyasətini ciddi tənqid edərək bəyanat vermişdir.

1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Heydər Əliyev tərəfindən respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı. Muxtar Respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı, üçrəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu. Dünya Azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı. Heydər Əliyev bu cəsarəti, yenilməz vətəndaşlıq mövqeyi ilə özünü hər bir azərbaycanlının gözündə tarixləşdirmişdir. O, 1991-ci il oktyabrın 19-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında teleqram göndərərək, dövlət müstəqilliyinin elan edilməsini böyük milli sərvət kimi dəyərləndirdi, bu münasibətlə bütün Azərbaycan xalqını təbrik etdi. Ulu Öndər bununla bağlı demişdir: **"Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi tarixi nailiyyətdir və bu hər bir azaərbaycanlı üçün ən böyük xoşbəxtlikdir".**

Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışı, 1993-2003-cü illərdəki fəaliyyəti Azərbaycanın öz müstəqilliyini qoruyub saxlamağa və inkişaf etdirməyə həsr edilmişdir.

Dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə bütün sahələrdə dərin tənəzzülə uğrayan Azərbaycan böyük təhlükələrlə, hətta müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qalırdı. O, dövrkü iqtidarın hakimiyyəti dövründə yürüdülən yanlış siyasət nəticəsində iqtisadi tənəzzül dərinləşmiş, inflyasiya görünməmiş həddə çatmış, xalqın yaşayış səviyyəsi son dərəcə pisləşmiş, ictimai-siyasi böhran, vətəndaş müharibəsi, ölkənin parçalanma təhlükəsi yaranmışdır. Ermənistanla müharibə vəziyyətində olan Azərbaycanda nizami ordu yaradılmamışdır, vahid komandanlıq yox idi, silahlı dəstələr müəyyən qüvvələrin ambisiyalarına xidmət edirdilər.

Belə ağır bir dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayış etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısı alındı, dövlətçiliyimiz hər cür sui-qəsdən, dövlət çevrilişi cəhdlərində qorundu və ölkəmiz dayanıqlı inkişaf yoluna çıxdı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər xalqımızın yaranmış, tarixi imkanlardan faydalanaraq, böyük əziyyətlər bahasına müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü il 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş günü kimi yazıldı. Həmin vaxtdan Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü başladı. Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illəri Azərbaycanın daimi müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi illərin unudulmaz səhifələridir.

Heydər Əliyev demokratik dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa son qoydu. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sövetinin sədri seçildi, iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başladı və oktyabrın 3-də keçirilən seçkilərdə səsçoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Prezident seçildikdən sonrakı ilk ayda Ümummilli lider Heydər Əliyev respublikada pul-kredit siyasəti və bankların fəaliyyəti, kriminogen vəziyyət, hərbi quruculuq məsələləri ilə bağlı müşavirələr, ölkədə fəaliyyət göstərən siyasi partiyaların nümayəndələri ilə görüş, cəbhə bölgələrində vəziyyətlə bağlı fövqəladə müşavirə, cəbhəyanı bölgələrdəki vəziyyətlə bağlı iclas, Müdafiə Şurasının ilk iclasını keçirdi.

Ulu Öndərin apardığı diplomatik danışıqlar nəticəsində 1994-cü il mayın 12-də atəşkəs sazişi imzalandı. Beləliklə, müstəqilliyimizin ilk illərində çoxsaylı problemlərin həlli və ölkəmizin inkişaf mərhələsinə qədəm qoyması üçün zəruri şərait təmin edildi, ölkə iqtisadiyyatına sərmayə yatırmaqda maraqlı olan dövlətlərin, şirkətlərin tərəddüdlərinə son qoyuldu. 1994-cü il sentyabrın 20-də Gülüstan sarayında dünyanın 7 ölkəsinin məşhur neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Bu saziş ölkəmizin bütün dünyada neft ölkəsi kimi tanınmasına xidmət edirdi. Ölkə daxilində bir çox sahələrdə geniş miqyaslı islahatların həyata keçirilməsinə başlanıldı. 1995-ci il noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi.

Ulu Öndərin imzaladığı çoxsaylı fərman və sərəncamlarla tarixi şəxsiyyətlərimizin, milli mədəniyyətimizin görkəmli nümayəndələrinin, habelə milli bayramların və tarixi günlərin qeyd edilməsi ilə bağlı çoxsayda tədbirlər keçirildi.

Heydər Əliyevin tarixi nailiyyətlərdən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni – bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Heydər Əliyevin fəaliyyəti sayəsində Azərbaycanın geosiyasi və mədəni potensialından səmərəli istifadə edilməklə ölkənin gələcək dinamik inkişafı üçün əlverişli imkanlar açıldı, məhz Ulu Öndərin təşəbbüsü ilə tarixi Böyük İpək yolunun bərpasına yönəlmiş beynəlxalq proqramın həyata keçirilməsində Azərbaycanın aparıcı rolu təmin olundu.

Ulu Öndərin çox gərgin və genişmiqyaslı fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı.

Heydər Əliyevin dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinin yaradılması işində də müstəsna xidmətlərui vardır. Ulu öndərin təşəbbüsü ilə bilavasitə rəhbərliyi ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi, Azərbaycan diasporunun fəaliyyətinin gücləndirilməsi sahəsində çox mühüm qərarlar qəbul edildi. Ümummilli Lider dövlətin bu sahədə siyasətinin prioritet istiqamətini nəzərə çatdırmışdır: **"Müstəqil azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı- Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".**

Dünyanın ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynadı. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə oldu, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edildi, ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələri genişləndirildi. 1993-2003-cü illərdə Azərbaycanın sosial iqtisadi inkişafı yeni mərhələyə qədəm qoydu. Ulu Öndər Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə yeni inkişaf strategiyasının təməlini qoydu. Aparılan düzgün və səmərəli siyasət nəticəsində ümumi daxili məhsul 1996-2002-ci illərdə 71 % artdı və 2002-ci ildə 6,1 milyard manata çatdı. Ölkədə əhalinin rifah halının yüksəldilməsi üçün 60-dan artıq sənəd imzalandı. 1995-2003-cü illərdə respublikamızda pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə, orta aylıq əmək haqqı 6 dəfədən çox artdı. Müstəqilliyimizin 1993-2003-cü illəri ərzində dahi Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan xalqı mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, Azərbaycan demokratik hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi və gələcək inkişafın strateji hədəflərini müəyyənləşdirdi.

İkinci Qarabağ müharibəsində qazanılmış parlaq qələbə Ulu Öndərin hazırlasdığı güclü dövlət-güclü ordu konsepsiyasının təntənəsidir. Otuz il işğal altında qalan torpaqlarımız məhz bu

konsepsiyanın nəticəsində 2020-ci ildə Ulu öndərin siyasi varisi, Möhtərəm Prezidentimizin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla azad olundu, ərazi bütövlüyümüz təmin edildi. Bu iyirmi birinci əsrdə analoqu olmayan bir dönüş oldu. Azərbaycan dünyaya qalib ölkə kimi təqdim olundu. Bu dövlətimizin başçısının qətiyyətli rəhbər və sərkərdə olmasının, xalqın, birliyinin təntənəsidir. Bu gün azad olunmuş torpaqlarımızda geniş miqyaslı bərpa quruculuq işləri heç kəsdən yardım alınmadan Azərbaycanın öz imkanları hesabına sürətlə davam etdirilir.

2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror əməliyyatlarının uğurla aparılmasından sonra ölkəmiz öz suverenliyini təmin etdi. İndi bütün ərazilərimizdə Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan dünyada ən sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən ilə yüksəldilməsinə imkan yaradır. Regionun gündəliyini bu gün Azərbaycan diktə edir. Dünya gücləri Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq nəhəng transmilli nəqliyyat və enerji layihələri həyata keçirən Azərbaycanın bu günkü təşəbbüsü dünyanın aparıcı dövlətləri tərəfindıən dəstəklənir, ölkəmizə iqtisadi-siyasi dividentlər qazandırır.

Hörmətli konfrans iştirakçıları,

Ulu Öndərin Mingəçevirə və mingəçevirlilərə diqqət və qayğısı böyük idi. Ulu Öndər iki dəfə şəhərimizdə olmuşdur. Onun hər dəfə Mingəçevirə gəlişi şəhər əhalisinin böyük sevincinə və fərəh hissinə çevrilirdi. Ulu Öndərin şəxsi təşəbbüsü və rəhbərliyi ilə Zaqafqaziyanın ən nəhəng İstilik Elektrik Stansiyasının tikintisi Mingəçevirdə həyata keçirilib. Azərbaycan DRES-in tikintisinin başlanması ilə əlaqədar həmin ərazidə qəsəbənin tikintisinə başlanıldı. Az müddət ərzində burada 37min kv.metr mənzil sahəsi ucaldıldı, 20 kilometrə yaxın dəmir yolu çəkildi, ümumilikdə tikintiyə 12 mindən çox zəhmətkeş cəlb olundu. Məhz Ulu Öndərin göstərişi ilə bu gün 20 mindən çox əhalinin yaşadığı "Energetiklər" yaşayış massivi salınmış, onlarla çoxmərtəbəli yaşayış evləri, iki orta ümumtəhsil məktəbi, 4 uşaq bağçası, doğum evi, tibb məktəbi, Uşaq musiqi məktəbi, mədəniyyət və digər sosial obyektlər tikilib istifadəyə verilmişdir. "Azərbaycan İES"in birinci enerji bloku 1981-ci il oktyabrın 20-sində Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə istifadəyə verilmişdir. 1998-ci il oktyabrın 8-ində prezident seçkiləri ərəfəsində Mingəçevir şəhərinə ikinci səfəri zamanı Ulu öndər Heydər Əliyev mingəçevirlilər qarşısında çıxış edərkən demişdir: **"Mingəçevirin tikilməsində, qurulmasında, inkişaf etməsində mən vaxtilə çox zəhmət çəkmişəm. İndi mən buraya gəlib bu hündür binaları, gözəl küçələri, gözəl meydanları, gözəl yaşıllıqları görəndə sevinirəm. Mən çox şadam ki, bizim gördüyümüz bu işlər günü-gündən inkişaf edir və insanlar burada yaranmış bütün imkanlardan istifadə edir, yaşayırlar".**

Biz fəxr edirik ki, müasir Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, xalqımızın böyük oğlu, Ümummilli lider Heydər Əliyevin uzunmüddətli, dəqiq strateji xətti və əbədisönməz işığı ilə onun layiqli, qətiyyətli, qalib davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında bütün respublikamız, o cümlədən Mingəçevir şəhəri günü-gündən inkişaf edir, sabaha doğru inamla irəliləyir. Bu gün Ulu Öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Ulu Öndərin ənənəsinə sadiq qalaraq, Elektroenergetika sahəsini və bu sahədə xüsusi çəkisi olan Mingəçevir şəhərini daim diqqət mərkəzində saxlayır. **"Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın Elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır"** – deyən İlham Əliyev Mingəçevirdə, "Azərbaycan İES"in ərazisində yeni 1280 MVt gücündə İstilik Elektrik Stansiyasının tikintisinin təməlqoyma mərasimində bir daha sübut etdi ki, sükan etibarlı əllərdədir. Cənab Prezidentin tapşırığı ilə 2003-2023-cü illər ərzində Mingəçevir şəhərində böyük abadlıq işləri aparılmış, 1300-dən çox ailə üçün 3 məcburi köçkün qəsəbəsi salınmış, "İzolit", "Kür Elektron Avadanlıqları" zavodları, "Sənaye parkı" yaradılmışdır. Dünya səviyyəsində 3-cü yerdə olan Avarçəkmə bazası yenidən qurulmuş, Tarix muzeyi, "Heydər Əliyev" Mərkəzi, Gənclər evi, "Dövlət Rəmzləri" muzeyi, "ASAN Xidmət", 5 ümumtəhsil məktəbi, 2 məktəbəqədər təhsil müəssisəsi, 3 ədəd dörd ulduzlu otel tikilmiş, 12 məktəb, 4 uşaq bağçası, Şəhər Mərkəzi Xəstəxanası, Dram Teatr, bir neçə mədəniyyət müəssisəsi və digər müəssisələr əsaslı təmir edilmiş, "Mingəçevir SES" və "Azərbaycan İES" yenidən qurulmuş, Politexnik İnstitutunun

bazasında Mingəçevir Dövlət Universiteti formalaşdırılmış, Turizm kolleci və turizm infrastrukturu yaradılmışdır.

Hörmətli konfrans iştirakçıları,

Tarixi təcrübə göstərir ki, Ulu öndər Heydər Əliyevin apardığı məqsədyönlü, ardıcıl siyasət azərbaycanın müstəqil bir dövlət kimi formalaşdırılmasına şərait yaratdı. Məhz onun ideyalarının Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl olaraq yerinə yetirilməsi sayəsində Azərbaycan müstəqil bir dövlət kimi müasir uğurlarını qazanmışdır. Ümidvarıq ki, Ulu öndər Heydər Əliyevin idayalarının qorunub saxlanılması və inkişafı sayəsində Azərbaycanın müstəqilliyi əbədi olacaqdır.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi ümummilli lideri var. Bu gün hər birimizə aydındır ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş dahi Heydər Əliyevin Şah əsəridir. Şübhə yoxdur ki, xalqımız bu müstəqil dövlətin müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu dünyada qoşa səslənəcəkdir.

HEYDƏR ƏLİYEV – AZƏRBAYCANIN XALQININ ƏSL MİLLİ AZADLIQ VƏ MÜSTƏQİLLİK İDEYASININ BANİSİ

Əli Məhəmməd oğlu Hüseynli
hüquq üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası Milli Məclisinin sədrinin birinci müavini

Əziz mingəçevirlilər,
Dəyərli ziyalılar,
Hörmətli konfrans iştirakçıları!

Mənim üçün bu zalda, bu auditoriyada həm Mingəçevir ziyalıları, həm də professor-müəllim heyəti və tələbələr qarşısında, o cümlədən Azərbaycanın tanınmış akademikləri qarşısında Ulu öndər Heydər Əliyev ilə bağlı çıxış etmək həm şərəflidir, həm də məsuliyyətli. Hesab edirəm ki, son hadisələr həm politoloqları, həm tarixçiləri, həm hüquq elmi ilə məşğul olan şəxsləri bir daha bizim tariximizi dəqiq araşdırmağa vadar edir və çıxışımın da məqsədi Azərbaycanın müasir tarixi ilə bağlı, xüsusən də 1987-1993-cü illərlə bağlı analiz və şərhlərdir. Hesab edirəm ki, Azərbaycan tarixinə dair dərsliklər, o cümlədən tariximizlə bağlı, əsasən də müasir tariximizlə bağlı elmi əsərlər reallığı dəqiq əks etdirmir və çalışacağam ki, öz fikirlərim ilə bunları əsaslandırım.

Müasir tariximiz Azərbaycandakı müstəqillik hərəkatını - 1987-ci ildən başlayan hərəkatı Azərbaycan xalqının Sovet rejiminə qarşı mübarizəsi kimi təqdim edir.

Sovet vaxtı Heydər Əliyev Azərbaycana rəhbərlik edən dövrdə Mingəçevir də daxil olmaqla, Azərbaycan çox böyük uğurlar əldə etmişdir. O nəslin nümayəndələri burada iştirak edirlər. Məsələn, bu gün biz Mingəçevirdə yüzlərlə iş yeri açmaq niyyətindəyik. Amma o dövrdə Mingəçevirdə minlərlə iş yeri var idi. Buna Heydər Əliyev nail olmuşdu, o dövrdə nail olmuşdu və indi tam məsuliyyətlə demək olar ki, Heydər Əliyevin sovet dövründə rəhbərlik etdiyi Azərbaycan bir sıra qonşu respublikalardan daha güclü, daha müstəqil idi. Beləliklə, müstəqillik uğrunda mübarizə ideyasının özü, Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin başlamasının ilk və yeganə səbəbi Heydər Əliyevlə bağlıdır.

Heydər Əliyev Sovetlər Birliyinə rəhbərlik edən şəxslərdən biri idi. Müəyyən mənada, Sovetlər Birliyi həm də azərbaycanlının rəhbərlik etdiyi dövlət idi və böyük uğurlar da əldə edilirdi.

Cənab Prezidentin son Moskva səfərində, Baykal-Amur Magistralının tikintisinin yubileyi ilə bağlı tədbirdə, biz, o dövrdə yaşamış insanların Heydər Əliyev şəxsiyyətinə münasibətin bir daha şahidi olduq. Onun bacarığından hamı necə qürurla danışırdı... Və biz bir daha əmin olduq ki, elə o illərdə, yəni ötən əsrin səksəninci illərində ruslar da daxil olmaqla, bütün sovet xalqının arzu etdiyi, rəhbərlikdə görmək istədiyi tək insan Heydər Əliyev idi. Bütün azərbaycanlılar qürur duyurdu ki, belə bir insan, türk əsilli müsəlman, dövlətlər birliyinə rəhbərlik edir.

Amma heç bir əsas olmadan, Heydər Əliyev vəzifədən kənarlaşdırıldı. Əslində bu - Heydər Əliyevin vəzifədən kənarlaşdırılması Azərbaycanda milli azadlıq hərəkatına rəvac verdi. Bu idi tarixi səbəb (Kimlərinsə meydana çıxıb şeir deməyi, lozunqlar səsləndirməyi, şüarlar deməyi yox).

1985-ci ildə M.S.Qorbaçovun siyasi hakimiyyətə gəlməsi və onun "yenidənqurma" adlanan siyasi-iqtisadi islahatlara başlaması ilə ictimai-siyasi proseslərin yeni mərhələsi başlandı. Məhz XX əsrin həmin illəri SSRİ-də millətlərarası münaqişələrin, o cümlədən ermənilərin Azərbaycana qarşı yönəlmiş yeni təcavüzünün başlanğıcı oldu. 1987-ci ildən başlayaraq ermənilər Moskvaya Ermənistanla Dağlıq Qarabağın birləşdirilməsini tələb edən ardı-arası kəsilməyən məktublar göndərirdilər. Həmin ilin avqust ayında Ermənistan Elmlər Akademiyası tərəfindən hazırlanmış və yüzlərlə erməninin imzaladığı ərizədə isə onlar Dağlıq Qarabağla yanaşı, Naxçıvanın da Ermənistan SSRİ-ə verilməsini istəyirdilər.

Heydər Əliyev vəzifədən gedəndən cəmi iki həftə sonra, noyabr ayının ortalarında Sov.İKP-nin baş katibi və SSRİ Ali Soveti Rəyasəti Heyətinin sədri M.Qorbaçovun iqtisadi məsələlər üzrə məsləhətçisi olan erməni Abel Aqanbekyan Fransanın "Yumanite" qəzetinə müsahibəsində bildirmişdi ki, Dağlıq Qarabağ Muxtar Vilayəti tezliklə Ermənistana verilməlidir.

Bundan bir qədər sonra isə Amerika Birləşmiş Ştatlarından bir qrup senator M.Qorbaçovun görüşünə gələrək, Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsini həll etməsini tələb etdilər.

Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ ətrafında Ermənistan və onun himayədarları tərəfindən yaradılmış gərginlik müstəqilliyin ilk illərində Azərbaycan Respublikasının dünyaya inteqrasiyasına və onun müstəqil daxili və xarici siyasət yürütməsinə ciddi problemlər yaradırdı.

1990-cı illərin əvvəllərində - Ermənistan siyasətçilərinin Azərbaycan əleyhinə çıxışlar edib, onu nüfuzdan salmağa çalışdıqları bır vaxtda Azərbaycanın beynəlxalq aləmdə vəziyyəti o qədər də qənaətbəxş deyildi.

1993-cü ildə xalqımızın təkidi və tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev öz düşünülmüş daxili və xarici siyasəti ilə ölkəmizi bu vəziyyətdən qurtardı. Beynəlxalq təşkilatlar və müstəqil dövlətlərlə geniş əməkdaşlıq edən Azərbaycan dünya birliyinin tam hüquqlu üzvünə çevrildi, beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycana təcavüzünə və bunun nəticəsində yaranmış Dağlıq Qarabağ probleminə yönəldə bildi. Məqsəd isə dünya birliyinə və beynəlxalq ictimaiyyətə bu münaqişədə kimin haqlı, kimin haqsız olmasını göstərmək və münaqişənin ədalətli həllinə nail olmaq idi.

Artıq bu proseslərin üzərindən 35 il keçir. Amma bu gün də dünyada və regionda baş verən hadisələrə baxıb, paralellər aparanda necə də yaxınlıq olduğunu görürük. Yəni Fransa və Amerika Birləşmiş Ştatları bu proseslərdə əsas aparıcı qüvvə, Rusiya, Moskva və Sovet rəhbərliyi isə Birləşmiş Ştatların və Qərbin onlar qarşısında qoyduğu vəzifəni icra edən qüvvələr idi. Başqa sözlə təşkilatçı deyildilər. Heydər Əliyev vəzifədən kənarlaşdırılması ilə, necə deyərlər, maneə aradan qalxdı və Dağlıq Qarabağda separatizmə rəvac verildi. Təəssüf olsun ki, o illərdə nə Azərbaycanda Xalq Cəbhəsi Hərəkatı, nə guya milli hərəkata rəhbərlik edən insanlar, nə də vəzifədə olan şəxslər Heydər Əliyevi qorumağa cəhd etmədi, ona dəstək verməklə bağlı heç bir tədbir görmədilər. Əksinə, onlar da erməni lobbisinin həyata keçirdiyi tədbirləri davam etdirərək Moskvaya Heydər Əliyevin ünvanına yalan dolu məlumatlar yazılmasını təşkil edirdilər.

Ulu Öndərlə bağlı ziyalılarımız çox maraqlı kitablar dərc ediblər. Hörmətli akademik Rafael Hüseynovun Ulu öndərin 100 illik yubileyi ilə bağlı dərc olunmuş kitabında Heydər Əliyevin 1982-ci ildə Azərbaycanı tərk edib Moskvaya gedərkən yaşadığı hisslər geniş şərh edilib.

Müəllif, o zaman vəzifədə olan şəxslərin, yəni Kommunist partiyası Mərkəzi Komitəsində Heydər Əliyevin ətrafındakı adamların ulu öndərə müraciətini xatırladır, onların "biz sizi Moskvaya təmtəraqla yola salaq" təklifinə, Heydər Əliyev: "gəlin buna zaman sərf etməyək, başqa bir vaxtı siz

bunu edərsiniz", -deyə cavab verir. Çünki Heydər Əliyev Moskvaya getmək istəmirdi, Azərbaycanda qalmaq istəyirdi. Böyük vəzifə təklif olunmasına baxmayaraq, bununla belə Ulu Öndər düşünürdü. Sanki Heydər Əliyev burada olanların ona xəyanət edəcəklərini intuitiv olaraq hiss edirdi. Belə də oldu. Sonradan, Heydər Əliyev təcrid olunanda, onu təmtəraqla Moskvaya yola salmaq istəyən dırnaqarası silahdaşları heç onun haqqında düşünmədilər, nəinki düşünmədilər, hətta 1990-cı ildə o Bakıya qayıdanda onu qətlə yetirməklə bağlı tədbirlər planladılar.

Bu gün bu konfransda iştirak edən dəyərli akademiklər bilirlər, misal üçün, Əjdər Xanbabayevi qətlə yetirdilər, Heydər Əliyevi müdafiə etdiyi üçün bir necə ziyalımızı təcrid və həbs etdilər. Təəssüf ki, o zaman da nə vəzifədə olan şəxslər, nə də xalq hərəkatına rəhbərlik etmək iddiasında olanlar H.Əliyevi qorumadılar. Ancaq kiçik bir qrup ziyalı Heydər Əliyevi qorumağa cəhd etdi.

Sonrakı hadisələr məlumdur. Heydər Əliyev bir neçə gündən sonra Bakını tərk edib Naxçıvana yollandı və Naxçıvana rəhbərlik etdi. Beləliklə, Azərbaycanın faktiki və real müstəqilliyi məhz Naxçıvan dövründən başladı.

Başqa bir məqama diqqət çəkmək istəyirəm. 18 oktyabr Azərbaycan tarixinin ən mühüm günlərindən biridir. XX əsrin sonlarında SSRİ-nin dağılması yeni tarixi şəraitin yaranmasını şərtləndirdi. (Və cəmi bir neçə il bundan əvvələ qədər bu gün yanlış olaraq Müstəqillik Günü adlanırdı).

Əslində, tarixçilərimiz dəqiq araşdırmalar aparsalar görərlər ki, deputatların 1991-ci ilin oktyabrında keçirdikləri iclasın, yaratdıqları komissiyanın yeganə məqsədi Heydər Əliyevə qarşı mübarizə olub. Onları narahat edən yeganə bir məqam vardı: Konstitusiyanın 101-ci maddəsinə görə Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri həm də Milli Məclisin, yəni faktiki Azərbaycan parlamentinin, dolayısı ilə dövlətin rəhbərliyində idi. Milli Məclisin sədr müavini həm də yuxarıda - tribunada əyləşməli idi. Onlar isə Heydər Əliyevi nəinki tribunaya, heç kürsüyə çıxış etməyə buraxmırdılar. Çox təəssüf hissi ilə qeyd etməliyəm ki, bizim tariximizdə 18 oktyabr - müstəqilliyimizlə bağlı olan müzakirələrin böyük bir hissəsi müstəqillikdən daha çox Heydər Əliyevin əleyhinə edilən çıxışlarla yadda qalıb. Bəzi deputatlar deyirdilər ki, biz heç vaxt müstəqil ola bilmərik, gücümüz çatmaz, ona görə də SSRİ-nin tərkibində qalmalıyıq. Bəziləri çıxış edərək uğurlardan danışırdı (Sovet vaxtı ölkəmizin əldə etdiyi bütün uğurları məhz Heydər Əliyev əldə etmişdi) və bu uğurlar iqtisadi baxımdan müstəqil olmağa zəmin yaradırdı. Amma çıxış edən deputatlardan heç kim bu uğurlarda Heydər Əliyevin adını çəkməyib. Ulu Öndərin adı ancaq Konstitusiyanın 101-ci maddəsi ləğv olunanda çəkilib. Yəni Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının sədri kimi həm də Milli Məclisin Ali Sovetin sədrinin müavini olmasın, təki o, Bakıya gəlməsin.

Nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında 4 gün davam edən müzakirələrdən sonra Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Nəticədə Azərbaycan ikinci dəfə yenidən öz müstəqilliyini bərpa etdi. Bu sənəddə Naxçıvanda həyata keçirilən ümumazərbaycan əhəmiyyətli hadisələrin heç biri dəyərləndirilməmiş, yeni tarixi şəraitdə Naxçıvanın statusuna toxunulmamışdı. Halbuki təcrübi baxımdan Konstitusiya Aktında Naxçıvana da yer ayrılmasına ciddi ehtiyac var idi. Bütün bunlara baxmayaraq, Naxçıvanın rəhbəri kimi Heydər Əliyev bu münasibətlə Azərbaycan xalqını təbrik etdi. Təbrik teleqramında bu hadisənin mahiyyəti dəyərləndirilməklə qeyd edilirdi ki, Naxçıvan Muxtar Respublikasının əhalisi tərəfindən bu, tarixi hadisə kimi qəbul olunur və qeyd edilir ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərinin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər.

Burada həmçinin belə bir paradoksal vəziyyət yaranır ki, müstəqillik uğrunda mübarizə aparan xalq SSRİ-nin tərkibindən ən sonuncu çıxır. Çünki indiki tarix dərsliklərində yazılanlara görə Azərbaycan SSRİ tərkibindən çıxan ən sonuncu respublikalardan birinə çevrilib. Cənab prezident qaçqınlarla görüşlərin birində tarixi hadisələrə çox düzgün siyasi qiymət verdi: "Biz tarixi ədalətlə yanaşmalıyıq. Tarixi olduğu kimi bilməliyik və qiymət verməliyik. 18 oktyabr gününə görə, kiməsə minnətdar olmaq tamamilə yersizdir. Sovet İttifaqı dağılırdı. Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi. Bu baxımdan hesab

edirəm ki, qərarımız tamamilə düzgün olub. Ancaq 28 May bizim Respublika günü, həm də müstəqilliyimiz günüdür".

Cənab Prezident İlham Əliyevin Qarabağı azad etməklə bağlı yeni tarix yazmasının hamımız fərqindəyik. Amma bu tarixi və siyasi fikirləri ona görə söyləyirəm ki, gələcək nəsillər də baş vermiş hadisələrin əsl və düzgün mahiyyətini bilməlidirlər.

İlham Əliyev bu tarixi öz çıxışlarında aydın söylədi: Xalq Cümhuriyyətinin İrəvanı verməyini tənqid etdi. 1990-cı ilin 20 yanvarında sovet qoşunları ilə yanaşı, Xalq Cəbhəsinin də əlinin qana batdığını qətiyyətlə vurğuladı, 1991-ci ildə müstəqilliyin əldə olunmasına görə xalqın heç kimə borclu olmadığını və nəhayət, 1992-ci ildə Xalq Cəbhəsinin məhz dövlət çevrilişi nəticəsində hakimiyyətə gəlməsini açıq vurğuladı. 1991-ci ildə müstəqillik əldə etmiş ölkədə yenidən müstəqillik uğrunda mübarizə ilə, silah yolu ilə hakimiyyəti zəbt etmək olar və bu məqamda bolşevik sovet qüvvələrinin Xalq Cümhuriyyətini işğal etməsi ilə Xalq Cəbhəsinin müstəqil Azərbaycanı işğal etməsi arasında hansı fərq var? Heç bir fərq yoxdur və bu baxımdan hesab edirəm ki, tarix dərsliklərimiz yenidən yazılmalıdır.

Beləliklə, 15 oktyabr 2021-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü kimi, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında müstəqillik günü kimi qeyd olunur. Hesab edirəm ki, tarixçilərimiz məhz bu məsələni də yenidən araşdırmalı və dərsliklərdə, tarix elmində hər şey düzgün qeyd edilməlidir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində, məhz müstəqillik uğrunda mübarizədə yeri misilsiz və əvəzsizdir. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin carçısı Heydər Əliyev olub. Müstəqillik uğrunda mübarizədə xalqın arzuladığı insan da Heydər Əliyev olub və müstəqilliyimizi əbədi edən də Heydər Əliyev olmuşdur.

AZƏRBAYCANDA DAYANIQLI İNKİŞAFIN ƏSASLARININ FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

Şahin Vaqif oğlu Bayramov
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universitetinin rektoru

"Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayır və möhkəmlənir."

(İlham Əliyev)

Tarix boyu müxtəlif sivilizasiyalar, xalqlar, cəmiyyət tarixi şəxsiyyətlər yetişdirmişdir. Belə xöşbəxt xalqlardan biri də Ulu öndər Heydər Əliyevin simasında azərbaycan xalqı olmuşdur. XX əsrin nəhəng siyasətçilərindən və dövlət xadimlərindən biri kimi Heydər Əliyevin formalaşması sovetlər dövrünə təsadüf etsə də, onun bir siyasətçi və dövlət xadimi kimi idarəçilik qabiliyyəti, uzaqgörənliyi və siyasi proqnozlaşdırma qabiliyyəti, iqtisadi təfəkkürü, məntiqli qərarqəbuletmə bacarığı, insanları özünə inandırma qabiliyyətə hələ o dövrlərdən dünya siyasi elitasının diqqətini özünə cəlb edə bilmişdi. Ötən əsrin sonlarında ölkəmizə rəhbərlik etdiyi və dünyanın nəhəng ölkələrindən biri olan Sovetlər İttifaqının hakimiyyət elitasında ən yüksək postlarından birini tutduğu, yəni faktiki olaraq SSRİ iqtisadiyyatının idarəedilməsinə rəhbərlik etdiyi dövrlərdə belə digərlərindən özünün işgüzarlığı, siyasi-iqtisadi uzaqgörənliyi, hadisələri düzgün qiymətləndirmə bacarığı ilə seçilirdi. Sanki o, müstəqillik dövrümüzü artıq hiss edir və görürdü. Eyni zamanda həm özünü, həm ölkəsini, həm də xalqını belə bir dövrə hazırlayırdı. Heydər Əliyev çox yaxşı bilirdi ki, dünya miqyasında kiçik bir ölkə kimi Azərbaycanın müstəqil inkişafı üçün onun çox güclü iqtisadi potensialı, milli kadrları, elmi, sosial infrastrukturu yaradılmalıdır. Təsadüfü deyildir ki, Ulu

öndərin həyat və fəaliyyətini araşdıran, öyrənən və tədqiq edən bütün tədqiqatçılar onun həm ölkəmizə rəhbərlik etdiyi, həm də İttifaq rəhbərliyində təmsil olunduğu dövrlərdə fəaliyyətinin məhz bu ideyalara qulluq etdiyini birmənalı olaraq qəbul edirlər [4].

Ulu Öndərin həyat və fəaliyyəti üzrə aparılan bütün tədqiqatlar bir daha onu cöstərir ki, ölkəmizin təxminən son yarıməsrlik dövründə əldə etdiyi bütün nailiyyətlər ya birbaşa onun adı ilə bağlıdır, ya da onun irsinin nəticələridir. Bu sahədə Heydər Əliyevin formalaşdırdığı "Azərbaycanın iqtisadi inkişaf modeli" onun uzun illər ərzində əsasını qoyduğu davamlı və dayanıqlı inkişaf fəlsəfəsinin real nəticəsi kimi bu gün də siyasi-ictimai və sosial-iqtisadi inkişafımızın strateji yol xəritəsi rolunu oynamaqdadır.

Hamımıza məlum olduğu kimi, davamlı inkişaf konsepsiyasının əsası BMT tərəfindən ötən əsrin 80-ci illərindən qoyulmuş və əsas məğzi gələcək nəsillərin həyatını təhlükə altına qoymadan, indiki nəsillərin tələbatının sosial, iqtisadi və ekoloji cəhətdən normal ödənilməsindən ibarətdir. Bu konsepsiya ilə bağlı BMT-nin təşəbbüsü ilə bir neçə beynəlxalq konfrans və forumlar keçirilmişdir.

BMT-nin təşəbbüsü ilə 2000-ci ilin sentyabrında "Minilliyin Forumu" adı altında keçirilən Beynəlxalq Forumda dünyanın 147 ölkəsinin dövlət və hökumət başçılarının iştirakı ilə qlobal miqyasda davamlı inkişafa nail olmaq məqsədi ilə "Minilliyin Bəyannaməsi" sənəd qəbul etmişlər. Həmin Forumda Azərbaycan prezidenti Heydər Əliyev çox dəyərli və məzmunlu bir çıxış edərək müzakirə olunan bu aktual və qlobal əhəmiyyətli məsələyə öz baxışlarını və münasibətini bildirmişdir.

Artıq ötən əsrin son və XXI əsrin ilk illərindən başlayaraq özünün sürətli iqtisadi inkişaf yoluna qədəm qoyan, dünya iqtisadiyyatına aktiv inteqrasiya edən ölkəmizin dünya ictimaiyyəti tərəfindən qəbul edilmiş Dayanıqlı inkişaf konsepsiyasının reallaşdırılması məqsədi ilə Ulu öndər tətəfindən bir çox zəruri tədbirlərin görülməsinə başlandı. Növbəti illər ərzində H.Əliyev tərəfindən ölkəmizdə davamlı inkişaf ideyasının beynəlxalq səviyyədə qəbul edilmiş prinsiplərdən yaranan öhdəliklərin reallaşdırılması məqsədi ilə ardıcıl olaraq bir sıra əhəmiyyətli qərarlar qəbul edilmişdir. Xüsusilə "Yoxsulluğun azaldılması və İqtisadi inkişaf üzrə Dövlət Proqramı", "Azərbaycanda Davamlı insan inkişafı", "Azərbaycanda Davamlı İnkişaf üzrə Milli Hesabat", "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram", "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsinə və artırılmasına dair Milli Proqram" və digər əhəmiyyətli sənədlər qəbul edildi [6].

Aparılan tədqiqatlar göstərir ki, Ümummilli Liderin baxışlarında davamlı inkişaf fəlsəfəsi ancaq sosial-iqtisadi inkişafla məhtudlaşmırdı. Bu fəlsəfənin ana xəttini milli dəyərlətrin qorunub saxlanılması və onların gələcək nəsillərə ötürülməsi, gələcək dövr üçün sağlam və yüksək təhsilli, intellektual və innovativ qabiliyyətli gənc milli kadrların yetişdirilməsi, onlar üçün gələcəkdə xoşbəxt həyatı təmin edə biləcək qüdrətli dövlətin yaradılması kimi ideyalar və bu ideyaların həyata keçirilməsini təmin edə biləcək dayanıqlı iqtisadi sistemin yaradılması təşkil edirdi.

Bu sahədə Ulu Öndərin ölkəmizdə əsasını qoyduğu dayanıqlı inkişaf fəlsəfəsi irsini davam etdirən möhtərəm Presindetimiz İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan tərəfindən dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən 17 Davamlı İnkişaf Məqsədi, 88 hədəfi və 119 göstərici üzrə öhdəlik qəbul edilmiş və ardıcıl olaraq bu öhdəliklərin yerinə yetirilməsində nümunəvi ölkələrdən biri olmuşdur. Belə ki, cənab İlham Əliyev tərəfindən hələ 2016-cı ildə ölkəmizdə Davamlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının (MƏŞ) yaradılması haqqında qərar qəbul edilmiş və onun əsas məqsədi beynalxalq səviyyədə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) reallaşdırılması üzrə əlaqələrin yaradılması olmuşdur. Bu sahədə Azərbaycanın atdığı real addımlardan biri BMT-nin 2030 Gündəliyi- MARS (2030 Gündəliyi naminə aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək) üzrə öhdəliklərin yerinə yetirilməsi missiyasını həyata keçirən ilk ölkələrdən biri olmas olmuşdur. Nəticədə Azərbaycan ilk dünya ölkələrindən biri kimi 2018-ci ildə keçirilən Davamlı İnkişaf üzrə Bakı Forumunda öz təcrübəsini təqdim etmiş və Forum DİM-nin reallaşdırılması üzrə Bakı Prinsipləri adlı sənədi qəbul etmişdir. Bu sahədə Azərbaycanın nüfuzunu yüksəldən faktlardan biri olaraq, 2017 və 2019-cu illərdə dünyada ilk ölklərdən və MDB məkanında isə ilk ölkə kimi bu prinsiplər əsasında qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi üzrə Könüllü Milli Hesabat təqdim etmişdir. Məhz bu sahədə

üzərimizə götürülmüş öhdəliklərin nizamlı və məsuliyyətlə yerinə yetirilməyinin nəticəsidir ki, COP28-in dekabrın 11-də keçirilən plenar iclasında qəbul edilmiş qərara əsasən bu il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti, 29-cu sessiyası, qısa olaraq, COP29-a ev sahibliyi etmək Azərbaycana həvalə edilmişdir [6]. .

15 dekabr 2023 cü il tarixdə COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə onun tərəfindən qeyd edildiyi kimi "Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı" [3].

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı görülən növbəti tədbirlərdən biri Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi" olmuşdur. Sərəncamda qeyd edildiyi kimi, "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir" [1].

Ölkəmizdə davamlı inkişaf naminə həyata keçirilən və keçirilməsi hədəflənən məqsədlər eyni zamanda həm "Azərbaycan 2030:sosial-iqrisadi inkişafa dair Milli Prioritetlərdə", həm də ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Sərəncamda konkret olaraq öz əksini tapmışdır. Sərəncamda qeyd edilir ki, "Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir" [1].

Bütün qeyd etdilkərimiz ölkəmizin olduqca böyük beynəlxalq nüfuzunun növbəti nümunəsidir. COP29-a ev sahibliyi etməyin qürurverici aspektlərinən biri və bu sahədə Azərbaycanın beynəlxalq nüfuzunun nümunəsi kimi bir faktı da qeyd edə bilərik ki, bu yönümlü tədbirlərin kecirilməsinin, belə demək olarsa, neft-qaz ölkələrinə həvalə edilməsi çox nadir hadisədir. Belə ki, ekoloji pozuntulara və çirkləndirməyə təsir göstərən əsas amillərdən biri təbii sərvətlərdən daha geniş istifadə etməkdir.

Hazırda sürətlə qloballaşan dünya təsərrüfatı sistemində özünə kifayət qədər nüfuz qazanmış və layiqli yer tutan Azərbaycan milli iqtisadiyyatının mövcud real rəqabət mübarizəsinə dayanıqlığını təmin etmək və artırmaq üçün əsaslı tədbirlər görməkdədir. Onlardan birincisi, iqtisadi inkişafın ölkəmiz üçün mövcud reallıqlara əsaslanan prioritetlərini düzgün müəyyən-ləşdirmək, ikincisi isə onların reallaşdırılmasının mövcud reallığa və imkanlara uyğun səmərəli tənzimləmə vasitə və mexanizmlərinin düzgün seçməsidir. Hazırda müşahidə olunan əsas reallıqlar ondan ibarətdir ki, bu prioritetlərin əsasını neft sektorunun imkanlarından istifadə etməklə qeyri-

neft sektorunun inkişafına üstünlük verilməsidir. Bu siyasətin əsas hədəflərindən biri ölkədə ekoloji baxımdan təmiz, ziyansız innovativ və yüksək texnologiyalı iqtisadiyyatın qurulması məsələsidir.

Bu mənada hazırda ölkə Prezidentinin rəhbərliyi ilə formalaşdırılmış Azərbaycanın dayanıqlı inkişaf modelinin əsasını iqtisadiyyatın modernləşdirilməsi təşkil edir. İqtisadiyyatın modernləşdirilməsi fikrimizlə dörd qlobal fundamental problemi əhatə etməkdədir:

- idarəetmənin modernləşməsi;
- istehsalın modernləşməsi;
- infrastrukturun modernləşməsi;
- insan kapitalının modernləşməsi.

Bu gün modernləşmənin qeyd etdiyimiz istiqamətlər üzrə həyata keçirilən əməli işlərin nəticələri milli iqtisadiyyatımızın davamlı və dayanıqlı inkişafının təmin olunmasında öz əksini tapmaqdadır. Ölkə Prezidenti cənab İlham Əliyevin başçılığı ilə həyata keçirilən "Milli iqtisadi inkişaf modeli"nin əsas xüsusiyyətlərindən biri bütün sahələrdə modernləşmənin daimi və davamlı xarakterli olmasıdır. İstehsalın və idarəetmənin, xüsusilə şaxələndirilmiş infrastrukturun və insan kapitalının modernləşdirilməsi, yeni texnologiyalara əsaslanan ekoloji baxımdan innovativ iqtisadiyyatın təşkil olunması hazırda müvəffəqiyyətlə reallaşdırılan iqtisadi inkişafın "Azərbaycan modeli"nin əsas strateji ana xəttini təşkil edir.

Aparılan araşdırmalar göstərir ki, Davamlı inkişaf modelinin reallaşdırılmasının əsas xüsusiyyətlərindən biri də ölkənin iqtisadi inkişaf hədəflərinin ilk növbədə ekoloji baxımdan daha təhlükəsiz və yeni texnologiyalara əsaslanan qeyri-neft sektorunun və özəl sektorun inkişaf etdirilməsidir. Bu mənada ölkəmizdə 2006-2010-cı illərdə ÜDM-n tərkibində qeyri-neft sektorunun xüsusi çəkisi təxminən 40 faizdən aşağı olduğu halda, sonrakı ildən başlayaraq qeyri-neft sektorunun xüsusi çəkisi artmağa başlamışdır. Cədvəl 1-də verilən məlumatlardan göründüyü kimi, BMT-nin Davamlı İnkişaf Konsepsiyasına uyğun olaraq, ölkəmizdə davamlı inkişafın əsas meyyarı kimi daha az ekoloji pozuntu yaradan qeyri-neft sektorunun inkişafına üstünlük verilməsi prinsipi iqtisadiyyatımızda əsas meyyar kimi davamlı inkişaf etməkdədir.

Cədvəl 1

Azərbaycanın əsas makroiqtisadi göstəricilərinin dinamikası

Göstəricilər	vahidi	2018	2019	2020	2021	2022	2023
Ümumi daxili məhsul	*mln.man*	80092.0	81896.2	72578,1	93203.2	133972.7	123005.5
	mln. doll	47112.9	48174.2	42693.0	54825.4	78807.5	72356.2
əvvəlkı ilə nisbətən artım	*%*	101.5	102.5	95.8	105.6	104.6	101.1
Adambaşına düşən ÜDM həcmi	*mln.man.*	8156.5	8268.8	7277.4	9278.9	13270.9	12114.5
	ABŞ $	4797.7	4864.0	4280.8	5458.2	7806.4	7126.2
ÜDM-də qeyri-dövlət sektorunun xüsusi çəkisi	*%*	84.7	85.0	80.8	83.5	86,1	83.0
ÜDM-də qeyri- neft sektorunun xüsusi çəkisi	*%*	52.4	54.5	62.4	55.5	46.0	60.1
Qeyri-neft sektorunda yaradılan dəyər	*.man*	41662.0	44481.0	45312.2	51122.2	61509.1	68341.3

Cədvəl AR DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [7].

Cədvəl məlumatlarından göründüyü kimi, ölkədə qeyri-neft sektorunda yaradılan dəyərin ÜDM-a hisbətən həcmi artıq 2018-ci ildə 52.4 faizə, 2019-cu ildə isə 54.5 faizə, 2020-ci ildə 62.4 faizə, sonrakı illərdə pandemiya və post-konflikt dövrünün nəticələri ilə bağlı bir qədər aşağı düşərək 2021-ci ildə 55.5 faizə və 2022-ci ildə 46,0 faizə, 2023-cü ildən isə yenə də yüksələrək 60 faizə bərabər olmuşdur. Ancaq bu rəqəmlər nisbət xarakterli, yəni ÜDM-ə nisbətən hesablanan bir göstəricidir. Dəyər ifadəsində yanaşdıqda isə qeyri-neft sektorunda yaradılan məhsulun həcmi müsbət dinamikaya malikdir. Belə ki, 2018-ci ildə qeyri-neft sektorunda yaradılan dəyər 41662.0 mln.manat, 2019-cu ildə 44481.0 mln.manat, 2020-ci ildə 45312.2 mln.manat, 2021-ci ildə 51122.2 mln.manat, 2022-ci ildə 61509.1 mln.manat, 2023-cü ildə isə kifayət qədər artaraq 68341.3 mln.manata qədər yüksəlmişdir [5].

Araşdırmalar göstərir ki, son illərdə ölkəmizdə milli iqtisadiyyatın davamlı və dinamik inkişafa keçidini təmin etmək üçün kompleks iqtisadi, təşkilati, siyasi-ictimai xarakterli ilkin şərtləri formalaşdırmaqla bağlı görülən işlər nəticəsində ölkəmizdə kifayət qədər iqtisadi, sosial, elmi-texniki, kadr potensialı, müvafiq hüquqi baza və start kapitalı yaradılmışdır.

Hazırda ölkəmiz iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcək inkişafı bu gün əhəmiyyətli dərəcədə həyata keçirilən struktur siyasətinin xarakteri, miqyası və səmərəliliyi ilə birbaşa bağlıdır.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi" haqqında AR Prezidenti 25 dekabr 2023-cü il tarixli Sərəncamı
2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. AR Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı
3. 15 dekabr 2023 cü il tarixdə COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirənin materialları https://president.az/az/articles/view/61067
4. Dayanıqlı inkişafın Heydər Əliyev modeli/ Heydər Əliyev idarəetmə məktəbinin növbəti III buraxılışı.-Bakı, "İqtisad Universiteti" həşriyyatı. 2009
5. Azərbaycanın statistik göstiriciləri. AR DSK. Bakı, 2023
6. . *https://president.az*
7. .www.azstat.gov.az

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİNİN İNKİŞAFI

Arif Məmməd oğlu Həşimov
texnika elmləri doktoru, professor
Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti v.i.e., akademik

"Elm və təhsilin sürətli inkişafı Azərbaycan xalqının XX əsrdə ən böyük nailiyyətidir."
(Heydər Əliyev)

Hörmətli xanımlar və cənablar!
Hörmətli konfrans iştiakçıları!

Azərbaycan xalqının yetişdirdiyi dahi ictimai-siyasi xadim Heydər Əliyevin titanik fəaliyyətində elm siyasəti istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə milli quruculuq siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Bunun mühüm səbəblərindən biri Heydər Əliyevin dahi siyasi xadim olaraq elmin cəmiyyətin inkişafında rolunun yüksək qiymətləndirilməsi idisə, digər bir səbəbi isə bilavasit "ailə məktəbi" ilə bağlı idi. Məlum olduğu kimi, Ümummilli lider Heydər Əliyevin qardaşları akademiklər Həsən Əliyev, Cəlal Əliyev, m.ü. Aqil Əliyev, bacısı akademik Rəfiqə Əliyeva Azərbaycan elminin inkişafında müstəsna xidmətləri olan şəxsiyyətlər olmuşlar. Heç şübhəsiz, onların dünyagörüşü, elmi fəaliyyət sahəsinə bağlılıqları

Heydər Əliyevə təsirsiz ötüşməmişdir. Ailə ənənəsindən danışarkən bir məsələni də xüsusilə qeyd etmək lazımdır. Ümummilli lider Heydər Əliyevin həyat yoldaşı akademik Zərifə xanım Əliyeva da XX əsr Azərbaycanın elm tarixinin ən görkəmli və yaradıcı simaları sırasına qızıl hərflərlə yazılmışdır.

Heydər Əliyevin Azərbaycan elminin inkişafı strategiyasının əsasını onun bu məsələyə kompleks fəlsəfi yanaşması təşkil edirdi. Heydər Əliyev dahi bir şəxsiyyət olaraq dərindən anlayırdı ki, sovet hakimiyyəti illərində ayrı-ayrı elm sahələrinin inkişafına nail olmaqla iş bitmir. Qarşıda duran əsas məqsəd Azərbaycanın milli elm sisteminin yaradılmasıdır. Əslində onun elmin inkişafı ilə bağlı həyata keçirdiyi bütün tədbirlərin əsasında bu məqsəd dayanırdı. Məhz bunun nəticəsi idi ki, H.Əliyev milli kadr potensialının yetişdirilməsini qarşıya bir nömrəli vəzifə kimi qoymuşdur.

Sovet hakimiyyəti illərində Heydər Əliyev Elmlər Akademiyasının dünya elminin ön sıralarında mövqe tutmasında, elmin maddi-texniki bazasının möhkəmləndirilməsində, elmi işçilərin rifahının yaxşılaşdırılmasında böyük xidmətlər göstərdi. Heydər Əliyevin həyata keçirdiyi kadr siyasəti bu dövrdə elmi tədqiqat işlərinin genişləndirməsinə, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına imkan yaratdı.

Bir detalı qeyd etmək istərdik. 1970-ci ildə Heydər Əliyev respublikanın ən nüfuzlu elm xadimlərini nəzərdən keçirir, müxtəlif elmi müəssisələrdə olur. Həmin vaxt o, Fizika İnstitutnda da olmuş, buradakı nəzəri və tətbiqi işləri yüksək qiymətləndirmişdir. Bu hadisədən bir neçə gün sonra akademik Həsən Abdullayev Akademiyanın prezidenti seçildi. Belə bir hadisənin biz 1980-cü ildə də şahidi olduq. Elmlər Akademiyasına növbəti seçki ərəfəsində Heydər Əliyev Fizika və Energetika institutlarının (o baxt hər iki institut bir binada yerləşirdi) bir sıra laboratoriyaları ilə tanış oldu. Seçkidən sonra bu tanışlığın səbəbi aydın oldu. Hesab edirik ki, Ulu Öndərin Elmi-tədqiqat laboratoriyaları ilə tanışlığının fəlsəfəsinin əsasında onun alimlərə çox böyük qiymət verirməsi dururdu. O deyirdi: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur".

Heydər Əliyev elmdə yeni perspektiv istiqaməti – kosmik sahəni yüksək qiymətləndirmiş və Azərbaycan alimlərinin bu sahəyə cəlb olunmasına nail olmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Beynəlxalq Astronavtika Federasiyasının 24-cü konqresi 1973-cü ilin oktyabr ayının 7-dən 13-dək "Kosmik tədqiqatlar – elm və texnikaya nüfuz" devizi altında məhz Bakıda keçirilmişdir. Heydər Əliyevin həyata keçirdiyi bu siyasət yeni elmi tədqiqat mərkəzlərinin və böyük elmi istehsal birliklərinin yaranmasına şərait yaratdı.

Ümummilli liderimiz Heydər Əliyevin dəvətilə o dövrdə SSRİ Elmlər Akademiyasının prezidenti, akademik M.Keldış Azərbaycana gəlir və respublikanın rəhbərliyi ilə görüşür. Həmin görüşdən sonra o vaxtlar böyük əhəmiyyət kəsb edən, o dövr üçün superkompyuter səviyyəsində olan hesablama maşını Elmlər Akademiyasına verildi. Bunun da nəticəsində respublikamızda proqramlaşdırma, avtomatika, tətbiqi riyaziyyat, kibernetika və digər sahələrdə böyük alimlər, mütəxəssislər ordusu formalaşmağa başladı.Nəticədə 70-ci illərdə Azərbaycanda fizika, riyaziyyat, informatika və texnika elmlərisürətlə inkişaf etmiş və dünyada tanınan elmi məktəb kimi formalaşmışdır.

Azərbaycanda biologiya elminin biokimya, molekulyar biologiya, biofizika, gen biotexnologiyası, bioinformatika, bioenergetika kimi müasir sahələrinin fundamental əsası məhz keçən əsrin 70-ci illərində qoyulmuşdur. Kimya, neft emalı və neft-kimya sənayesinin yüksəlişi də məhz 70-ci illərdə başlamışdır.

Ulu öndər Heydər Əliyev 70-80-ci illərdə Azərbaycana rəhbərlik illərində Azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli liderimizin fikrincə, ana dili azərbaycançılığın təməl prinsipidir.

Hörmətli konfrans iştiakçıları!

Deyilənləri qısa şəkildə belə ifadə etmək olar: Azərbaycan elminin yüksək tərəqqi dövrü Heydər Əliyevin XX əsrin 70-80-ci illərində respublikaya rəhbərliyi ilə bilavasitə bağlıdır. Bunu həmin dövrdə elmi fəaliyyət sahəsindəki statistik göstəricilər aydın şəkildə göstərir. Ulu Öndərin respublikaya rəhbərliyinin birinci dövrü 1969-1982-ci illərdə Azərbaycanda elmi-tədqiqat müəssisə-

lərinin sayı 1.5, bu müəssisələrdə çalışan elmi işçilərin sayı 2.5, elmlər namizədləri təqribən 2, elmlər doktorları 2.5, Elmlər Akademiyasının müxbir və həqiqi üzvləri 2 dəfədən çox artmışdı.

Həmin illər elm, iqtisadiyyat və mədəniyyətin inkişafı, yüksəkixtisaslı kadrların hazırlanması sahəsində qazandığı nailiyyətlərə görə Azərbaycan Elmlər Akademiyasının aldığı yüksək mükafat – "Xalqlar dostluğu" ordeni də Akademiyaya 1975-ci ildə Heydər Əliyev tərəfindən təqdim edildi.

Həmin dövrdə alimlərindən bir neçəsi SSRİ və Azərbaycan SSR Elmlər Akademiyalarına üzv seçilmiş, orden və medallar, fəxri adlar almışlar. Təkcə fizika institutunun əməkdaşlarından 25 nəfər Azərbaycan Dövlət mükafatına, 2 nəfər SSRİ Dövlət mükafatına, 2 nəfər Ukraynanın Dövlət mükafatına, bir nəfər Ümumittifaq, üç nəfər Respublika Komsomolu mükafatına, 2 nəfər SSRİ EA Yabloçkov adına, 1 nəfər D.İ.Mendeleyev, 4 nəfər Vavilov adına mükafatlara layiq görülmüşlər.

Müstəqillik illərində Azərbaycan elmi Ümummilli Liderin növbəti hakimiyyətə gəlişi ilə tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoydu. O, Azərbaycana rəhbərliyə qayıtdıqdan sonra ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Elmlər Akademiyasında keçirməsi də təsadüfi deyildi. Heydər Əliyevin bilavasitə təşəbbüsü əsasında müstəqillik illərində Azərbaycan Elmlər Akademiyasına "Milli" statusu verildi, həmin illərdə xüsusi strateji əhəmiyyətə malik olan Akademiyanın Naxçıvan Bölməsi yaradıldı.

Müstəqillik illərində Heydər Əliyevin xidmətlərindən biri də Azərbaycan elminin beynəlxalq əlaqələrinin xeyli inkişaf etdirilməsi olmuşdurş. Bu baxımdan AMEA ilə Avropa Nüvə Tədqiqatları Mərkəzi arasındakı mövcud əməkdaşlıq əlaqələrinin inkişafında 1997-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış "Avropa Nüvə Tədqiqatları Mərkəzi ilə Yüksək Enerjilər Fizikası sahəsində elmi və texniki əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Əməkdaşlıq Sazişinin təsdiq edilməsi" barədə Sərəncam xüsusi olaraq vurğulanmalıdır.

Hörmətli konfrans iştiakçıları!

Dünya proseslərinin hazırkı inkişaf mərhələsi yüksək dinamikliyi, ahəngsizliyi və qeyri-müəyyənliyi ilə seçilir. Baş verən transformasiyalar bəzən ikili xarakter daşıyır: onları həm mənfi, həm də müsbət kimi şərh etmək olar. Həmişə uzaqgörənliyi ilə fərqlənən Heydər Əliyev 1997-ci il yanvar ayının 31-də Elmlər Akademiyasının aparıcı alimlərini qəbul edərək, elm sahəsində islahatların aparılmasının vacibliyini və Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını müəyyənləşdirmişdir. Ulu Öndərin həmin görüş zamanı dediyi: Əlbəttə,müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya və başqa fənlərin haamısı inkişaf etməlidir.Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi vardır. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq lazımdır. O cümlədən mdəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır" sözləri, hər bir ziyalının, alimin fəaliyyət prinsipinə çevrilmişdir.

Ulu Öndərin elmə, elm adamına diqqət və qayğısı hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir. Çıxışımı ölkə başçımızın 2011-ci il aprel ayının 26-da keçirilən AMEA-nın illik Ümumi yığıncağında dediyi aşağıdakı sözlərlə tamamlamaq istəyirəm: "Biz elə etməliyik ki, Azərbaycan elmi inkişaf etsin, yaşasın və Azərbaycan dövlətinə, Azərbaycan milli maraqlarına həmişə olduğu kimi xidmət etsin. Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir".

Diqqətinizə görə təşəkkür edirəm.

HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

Muxtar Kazım oğlu İmanov
filologiya elmləri doktoru, pofessor
Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitunun direktoru, akademik

Azərbaycana rəhbərliyinin hər iki dövründə Ulu Öndərin milli-mənəvi dəyərlərə xüsusi diqqət yetirməsi ilə bağlı neçə-neçə tarixi fakt var və həmin faktlardan bir neçəsini biz də xatırladacağıq. Amma faktlara keçməzdən qabaq Ulu Öndərin milli mənəvi dəyərlərə – dilə,

ədəbiyyata, mədəniyyətin müxtəlif sahələrinə, dinə, adət-ənənələrimizə münasibəti arxasında hansı ideya və qayənin dayanmasını xatırlatmaq lazım gəlir. Qeyd etmək vacibdir ki, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin dilə, ədəbiyyata, mədəniyyətə, o cümlədən xalq mədəniyyətinə xüsusi diqqət yetirməsi, hər şeydən əvvəl, xalqın özünü tanıması və dünyaya tanıtması ideyası ilə bağlı olmuş, Ulu Öndər mədəni irsə milli ideologiyanı formalaşdırmağın, milli şüuru gücləndirməyin mühüm mənbəyi kimi baxmışdır. Azərbaycana rəhbərliyinin birinci mərhələsində – ana kitabımız "Kitabi-Dədə Qorqud"un və qorqudşünasların repressiyaya məruz qalmasından on beş-iyirmi il sonrakı bir dövrdə folklora geniş meydan vermək, milli ruhlu folklorşünasların fəaliyyətinə əlverişli şərait yaratmaq Ulu Öndərin gələcəyə hesablanmış məqsədyönlü siyasi kursunun səciyyəvi faktları kimi diqqəti cəlb etmişdir. 1970-80-ci illərdə "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi eposlarımız, ayrı-ayrı məhəbbət dastanlarımız, eləcə də nağıllarımız, əfsanə, rəvayət və lətifələrimiz, atalar sözü və məsəllərimiz elmi prinsiplərlə dönə-dönə nəşr edilmişdir. Məmmədhüseyn Təhmasibin "Azərbaycan xalq dastanları (Orta əsrlər)" adlı fundamental tədqiqatı, Mirəli Seyidovun ümumtürk mifologiyasına həsr edilmiş elmi əsərləri, İsrafil Abbaslının Azərbaycan-erməni folklor əlaqələrindən, Azərbaycan folklorunun erməni folkloruna təsir göstərməsindən və bu təsir nəticəsində ermənilərin əsrlər boyu Azərbaycan türkcəsində şeirlər yazmasından bəhs edən araşdırmaları məhz həmin dövrdə ortaya çıxmış, elmi ictimaiyyət arasında populyarlıq qazanmışdır. 1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyinin yalnız Bakı yox, həm də Moskva və İrəvan səviyyəsində keçirilməsi, ustad sənətkarın qəbirüstü abidəsinin qoyulması və əsərlərinin nəfis şəkildə nəşr olunması Qərbi Azərbaycan mədəniyyətinə dövlət səviyyəsində sahib çıxmağımızın işarəsi mahiyyəti daşımışdır. Bu siyasi kurs ardıcıl olaraq davam etdirilmiş, 1981-ci ildə Ulu Öndərin sərəncamı ilə Aşıq Alının 180 illiyinin qeyd edilməsi Qərbi Azərbaycanda ortaya çıxan mədəniyyət örnəklərimizi tədqiq və təbliğ etməyin növbəti mühüm faktına çevrilmişdir.

Heydər Əliyev Novruz ənənələrinin, Qurban və Ramazan kimi dini bayramların dirçəldilməsində, rəsmi dövlət bayramları elan olunmasında tarixi rol oynamışdır. 1970-ci illər bir çox tədbirlərlə yanaşı, həm də Novruzun dövlət səviyyəli bayram kimi qeyd olunması ilə yadda qalmışdır. 1979-cu ildə Heydər Əliyevin göstərişi ilə İçərişəhərdə təşkil olunan Novruz şənliyi Azərbaycan televiziyası ilə canlı yayımlanmışdır. Bu siyasi kursun məntiqi davamıdır ki, Azərbaycana rəhbərliyinin ikinci dövründə – 1993-cü ilin mart ayında Ulu Öndər Novruza Azərbaycan xalqının milli dövlət bayramı statusu verilməsi haqqında sərəncam imzalamışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra Heydər Əliyev azərbaycançılığı milli dövlətimizin əsas ideologiyası elan etmişdir. Dünya azərbaycanlılarının I qurultayının təşəbbüskarı olan Heydər Əliyev həmin qurultaydakı məşhur nitqində (10 noyabr 2001-ci il) azərbaycançılığın əsas prinsiplərini bəyan etmiş və bu ideyanı dünya azərbaycanlılarını birləşdirən başlıca ideya kimi səciyyələndirmişdir. Heydər Əliyev milli ideologiyanın milli dövlətçilik ənənələri və tarixi keçmişimizlə sıx bağlı olmasını mühüm bir şərt kimi irəli sürmüşdür. Heydər Əliyev milli ideologiyanın formalaşmasında mədəni irsin, xüsusən şifahi və yazılı ədəbiyyatın əhəmiyyətini həmişə önə çəkmişdir.

Heydər Əliyevin elm və mədəniyyətin inkişafı istiqamətində gördüyü işlər ona xas sistemlilik, ardıcıllıq və gələcəyə hesablanması ilə seçilmişdir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən bir il sonra – 1994-cü ildə Azərbaycan folklorşünaslığı üçün yadda qalan hadisə baş vermiş, Azərbaycan Milli Elmlər Akademiyasında xüsusi statuslu qurum – Folklor Sarayı Elmi-Mədəni Mərkəzi yaradılmışdır. Bu həmin qurumdur ki, 2003-cü ildə Heydər Əliyevin tövsiyəsi ilə Folklor İnstitutuna çevrilmişdir.

Heydər Əliyevin "ana kitabımız" adlandırdığı "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi haqqında 1997-ci il 20 aprel tarixində fərman imzalaması, Ulu Öndərin təşəbbüsü ilə YUNESCO səviyyəsində həmin eposa aid tədbirlərin təşkil edilməsi müstəqil Azərbaycanın ilk nəhəng elmi-mədəni tədbirlərindən biri kimi Azərbaycan folklorşünaslığının və ümumən humanitariyasının inkişafında mühüm əhəmiyyət daşımışdır.

1999-2000-ci illərdə qorqudşünaslıq sahəsində yeni-yeni tədqiqatlar aparılmış, AMEA Folklor Sarayı Elmi-Mədəni Mərkəzində (indiki Folklor İnstitutunda), Bakı Dövlət Universitetində,

Azərbaycan Dövlət Pedaqoji Universitetində görkəmli alimlərin rəhbərlik etdiyi Qorqudşünaslıq şöbələri və ya elmi-tədqiqat laboratoriyaları fəaliyyətə başlamış, yubiley tədbirləri çərçivəsində "bütün türk xalqlarının tarixi və mədəniyyəti üçün mötəbər bir qaynaq rolu oynayacaq" (Heydər Əliyev) ikicildlik möhtəşəm "Kitabi-Dədə Qorqud" ensiklopediyası" çap olunmuş, eposla bağlı neçə-neçə monoqrafiya (T.Hacıyev. Dədə Qorqud: dilimiz və düşüncəmiz; Ş.Cəmşidov. Kitabi-Dədə Qorqud; K.Abdulla. Sirriçində dastan və yaxud gizli Dədə Qorqud – 2; N.Cəfərov. Eposdan kitaba; B.Abdullayev. "Kitabi-Dədə Qorqud"un poetikası; O.Əliyev. "Kitabi-Dədə Qorqud" və Azərbaycan folkloru; R.Kamal. "Kitabi-Dədə Qorqud": arxaik ritual semantikası və s.) işıq üzü görmüşdür.

AMEA Folklor İnstitutunda rüblük "Dədə Qorqud" jurnalının nəşrə başlaması isə folklorşünaslar üçün mühüm töhfə olmuşdur. Həmin jurnal Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" eposunun öyrənilməsinə və təbliğinə marağın artırılması barədə tövsiyə və tapşırıqlarının bəhrəsi kimi ortaya çıxmışdır.

Heydər Əliyevin "Kitabi Dədə Qorqud" eposunun 1300 illik yubileyi ilə bağlı tarixi fərmanı bu epos haqda, bu eposun meydana gəlmə dövrü, ideya-bədii xüsusiyyətləri və dili haqda yenidən düşünüb-daşınmaq zərurəti yaratdı. "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik tarixini qeyd etmək Azərbaycan ədəbi dilinin 1300 illik tarixini qeyd etmək demək idi. Bu o demək idi ki, Azərbaycan ədəbiyyatında türkdilli ədəbi əsərlərin tarixinin ən azı VII əsrdən başladığını söyləməyə əsas var. Heydər Əliyev heç də təsadüfən qeyd etmirdi ki, "bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi hadisədir. Bu bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır.

Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən də öncə "Kitabi-Dədə Qorqud" dastanlarının yaranması üçün xalqlarımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır".

"Kitabi-Dədə Qorqud"un 1300 illiyi ilə bağlı tarixi fərman bir tərəfdən bu eposun ilk rüşeymlərinin VII əsrdə yaranmasını diqqət mərkəzinə çəkirdisə, digər tərəfdən hansı coğrafiyanın eposda daha qabarıq görünməsinə diqqəti yönəldirdi. "Kitabi-Dədə Qorqud"un nə dərəcədə Azərbaycan, nə dərəcədə ümumtürk, nə dərəcədə dünya mədəni hadisəsi olması Heydər Əliyevin eposa dair mülahizələrində xüsusi yer tuturdu.

1300 il əvvəl yaranması xüsusi olaraq diqqətə çatdırılan, Azərbaycan xalqı ilə yanaşı, digər türk xalqlarının da ədəbi abidəsi kimi təqdim edilən "Kitabi-Dədə Qorqud"a beynəlxalq səviyyədə yubiley keçirmək, Heydər Əliyevin qənaətinə görə, bu eposu layiqincə öyrənməyin və tanıtmağın mühüm bir vasitəsi idi. Yubileyə hazırlıq işlərinin başladığı 1997-ci il, yubileyin keçirildiyi 2000-ci il Azərbaycan üçün ictimai-siyasi və iqtisadi baxımdan heç də asan illər deyildi. Çətinliyi dərindən dərk edən Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsini çox vacib sayırdı: "Bəziləri… var ki, deyirlər: "Belə yubileylərin keçirilməsi nəyə lazımdır?" Hətta bəyan edirlər ki, "bu, keçmiş sovet sisteminin yaratdığı adət-ənənədir və biz bundan imtina etməliyik". Bəziləri deyirlər ki, "ölkəmizin ərazisinin 20 faizi işğal olunduğu zaman, işğal edilmiş ərazilərdən bir milyon vətəndaşın didərgin düşüb, qaçqın və köçkün vəziyyətində çadırlarda ağır şəraitdə yaşadığı bir zaman, bir çox iqtisadi çətinliklərlə rastlaşdığımız zaman belə təntənələrin, belə yubileylərin keçirilməsi nəyə lazımdır?.." Belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, hardan gəlmişik, hardayıq, hara gedirik. Biz, beləliklə, özümüz öz varlığımızı, öz milli köklərimizi dərk edirik". Bu sözlərdən bir daha aydın olur ki, Heydər Əliyev ağır bir durumda olan – ərazisinin 20 faizi işğal edilən, bir milyon vətəndaşı qaçqın və köçkün vəziyyətinə düşən Azərbaycanı böhrandan çıxarmağın mühüm yollarından birini milli şüurun gücləndirilməsində, xalqda özünə inam hissinin dərinləşdirilməsində görürdü. Bu yolda "Kitabi-Dədə Qorqud" eposunun təlqinedici gücü, təbii ki,

əvəzsizdir. Heydər Əliyevin müdrikcəsinə "milli varlığımızın mötəbər qaynağı" adlandırdığı "Kitabi-Dədə Qorqud"da milli özünüdərk ideyası hər hansı başqa dastanımızla müqayisə edilməyəcək dərəcədə qabarıqdır. "Kitabi-Dədə Qorqud"da dövlətçilik düşüncəsinin qabarıq əks olunmasına əsaslanan Heydər Əliyev Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi işində bu eposun mühüm əhəmiyyət daşımasını xüsusi olaraq vurğulayır: "Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir". 1300 illik yubiley tədbirinə qədərki mühüm addımlar sırasında "Kitabi-Dədə Qorqud" ensiklopediyasını xüsusi qiymətləndirərkən Heydər Əliyev həmin ensiklopediyanın da başlıca dəyərini "Kitabi-Dədə Qorqud" eposunun özü ilə birlikdə dövlət müstəqilliyimizə yardımçı olmaqda görür. Xalqa, torpağa, dövlətə bağlılığın ön plana çıxarılması, qəhrəmanlığın xalq qəhrəmanlığı səviyyəsinə qaldırılması "Kitabi-Dədə Qorqud" eposunda Heydər Əliyevin diqqətini cəlb edən başlıca ideya istiqamətlərindən biridir.

Sovet dövründə belə "Kitabi-Dədə Qorqud"un tədqiq və təbliğinə xüsusi diqqət və qayğı göstərən Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin başçısı olarkən bu eposun nəinki hərtərəfli öyrənilməsi və dünyada tanıdılması istiqamətində tarixi xidmətlər göstərdi, eyni zamanda bu eposla bağlı görüləcək işlərə yeni-yeni yollar açdı: "Kitabi-Dədə Qorqud" özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. İndiyə qədər "Kitabi-Dədə Qorqud"un öyrənilməsi və bugünkü nəsillərə çatdırılması yolunda xeyli iş görülübdür… Ona görə də... mən "Kitabi-Dədə Qorqud"un tədqiqi, təbliği ilə məşğul olmuş … alimlərimizə, yazıçılarımıza, bütün vətəndaşlarımıza təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar … öz elmi işlərini bundan sonra da davam etdirəcəklər. "Kitabi-Dədə Qorqud" dastanının hələ açılmayan səhifələri, hələ bu günə qədər məlum olmayan fikirləri bundan sonra aşkar ediləcək, Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinə və bütün türk dünyasına çatdırılacaqdır". Heydər Əliyevin arzu və istəklərinə uyğun olaraq "Kitabi-Dədə Qorqud"un yeni-yeni sirlərinin açılması istiqamətində araşdırmalar davam etdi, dövlət səviyyəsində atılan addımlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci ildə "Kitabi-Dədə Qorqud"un elm aləminə məlum olmasının, ilk dəfə tərcümə və nəşr edilməsinin 200 illiyi ilə bağlı olaraq imzaladığı sərəncam bu eposa yenidən qayıtmaq və onu dünyaya tanıtmaqda müstəsna rol oynadı.

2003-cü il avqustun 4-də Prezident Heydər Əliyev "Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında Azərbaycan Respublikası Qanunu"nun tətbiq edilməsi barədə sərəncam imzalamışdır. Bu qanunun icrasının təmin edilməsi barədə fərmanı isə 2004-cü ilin 29 yanvarında Prezident İlham Əliyev imzalamışdır. Beləliklə, qeyri-maddi mədəni irsin toplanması, qorunması və müdafiəsinin təminatı, eləcə də ondan istifadənin hüquqi prinsipləri və bu sahədə dövlət siyasətinin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Folklor örnəklərinin təhrifi, saxtalaşdırılması və mənimsənilməsi kimi neqativ halların qarşısının alınmasında, qeyri-maddi mədəni irsə dəyər verilməsində qanunun qüvvəyə minməsi müstəsna əhəmiyyət kəsb etmişdir. Qanunda Azərbaycan xalqına məxsus folklor nümunələrinin xarici dövlətlərin ərazilərində hüquqi qorunması və bu məqsədlə beynəlxalq əməkdaşlıq üçün şərait yaradılması ilə əlaqədar maddə təkcə yazılı şəkildə qorunan örnəklərin deyil, həm də xaricdəki azərbaycanlıların folklorunun, məsələn, Borçalının, Dərbəndin, Kərkükün, Cənubi Azərbaycan mahallarının şifahi irsinin qeydə alınmasına və mühafizəsinə rəvac vermişdir.

"Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin İnkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiqi haqqında 4 may 2009-cu il tarixli Prezident sərəncamı, "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" 21 oktyabr 2009-cu il tarixli Prezident sərəncamı, AMEA-nın humanitar-ictimai yönümlü elmi-tədqiqat müəssisələrinə Respublika Prezidentinin Ehtiyat Fondundan davamlı maliyyə vəsaitlərinin ayrılması, Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması və s.

Heydər Əliyevin elm və mədəniyyətlə bağlı siyasətinin bu gün davam etdirilməsinin əyani göstəricisidir.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü ilə mədəni irsimizin bir çox örnəklərinin – tar və kamança ifaçılığı sənətinin, ənənəvi xalçaçılığın və ənənəvi kəlağayı sənətinin, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposlarının, aşıq və muğam sənətlərinin, Novruz bayram kompleksinin, Çovqan və Qarabağ atüstü oyunlarının dünyaya tanıdılması istiqamətində dövlət əhəmiyyətli işlər görülmüşdür. 2000-ci illərin əvvəllərindən bu günədək İçərişəhər, Qız qalası və Şirvanşahlar saray kompleksi, Qobustan qaya sənəti və mədəni landşaftı YUNESKO-nun Ümumdünya İrs Siyahısına, Lahıc misgərlik sənəti, Azərbaycan aşıq sənəti, Azərbaycan muğamı, tar və tar ifaçılığı, kamança hazırlanması və ifaçılığı, ənənəvi Azərbaycan xalçaçılığı, ənənəvi kəlağayı sənəti və s. YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Bütün bunlar onu göstərir ki, Heydər Əliyevin siyasi kursu uğurla davam və inkişaf etdirilir, Ulu Öndərin irəli sürdüyü ideyalar elmin və mədəniyyətin inkişafına əsaslı təsirini göstərir.

HEYDƏR ƏLİYEV - İNNOVATİV TEXNOLOGİYALARIN AZƏRBAYCAN ENERJİ SİSTEMİNDƏ TƏTBİQİ BAZASININ QURUCUSUDUR!

Aytək Ramiz qızı Babayeva
texnika üzrə fəlsəfə doktoru, dosent
"AzərEnerji" ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun direktor müavini

Hörmətli konfrans iştirakçıları,
Hörmətli xanımlar və cənablar,

Sizi "Azərenerji" ASC-nin və Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun rəhbərliyi adından səmimi qəlbdən salamlayıram!

Ötən əsrin 70-ci illərinə qədər ittifaq əhəmiyyətli müəssisələr istisna olmaqla, Azərbaycanda sənayenin digər sahələrinə nisbətən az diqqət yetirilir, Respublikanın təbii sərvətlərindən və potensial imkanlarından lazımınca istifadə olunmurdu.

Ötən əsrin ortalarında – 1969-cu il iyulun 14-də Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə irəli çəkilməsi ölkəmizin həyatında bir dönüşün başlanğıcı oldu.

Heydər Əliyev zəngin və mənalı ömür yolunu Azərbaycan xalqının tərəqqisinə, maddi rifahının yüksəlməsinə, dünya xalqları arasında şərəfli yer tutmasına, elminin və mədəniyyətinin inkişafına sərf etmişdir.

1969-1982-ci illərdə də, 1993-2003-cü illərdə də Azərbaycanın qazandığı nailiyyətlər bu böyük rəhbərin adı ilə bağlıdır. Azərbaycanda böyük enerjisisteminin təməli 1970-ci illərin əvvəllərində məhz Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Respublika, bütün strateji əhəmiyyətli sahələrdə inkişaf etmiş, sosial-iqtisadi və intellektual resurslarına görə postsovet məkanında aparıcı yerlərdən birini tuturdu.

Ulu Öndər yaxşı bilirdi ki, Azərbaycanı inkişaf etdirmək üçün ilk növbədə onun iqtisadiyyatını inkişaf etdirmək lazımdır. İqtisadi inkişaf enerjiyə olan tələbatın yüksək səviyyədə ödənilməsindən asılıdır. Elə bu səbəbdən də Heydər Əliyev 1969-cu ildə respublikamıza rəhbərlik etməyə başladığı andan elektroenergetikanın inkişafını prioritet vəzifə hesab edərək bu sahənin davamlı inkişafı istiqamətində düşünülmüş və uzaqgörən addımlar atmağa başladı.

Ulu Öndər respublikanın elektrik enerjisinə olan tələbatını yerli imkanlar hesabına ödəməyi qarşıya məqsəd qoyaraq, bu istiqamətdə gərgin fəaliyyət göstərdi.

1970-1980-ci illər ərzində Ümummilli Lider iqtisadiyyatın inkişafı və sosial vəziyyətin daha da yaxşılaşdırılması məqsədilə ilk növbədə enerji sisteminin möhkəm bünövrəsini yaratmağı, neft-

qaz sənayesini və elektroenergetika sahəsini yeni texnika və texnologiya əsasında gücləndirməyi məqsədəuyğun hesab etdi.

Beləliklə, 1970-80-ci illərdə sosial-iqtisadi həyatın mühüm sahələrindən biri olan elektro-energetikanın davamlı inkişafını təmin etmək üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, bir sıra irimiqyaslı layihələr icra edilmişdir.

1971-ci ildə Naxçıvan Muxtar Respublikasının elektrik enerjisi ilə təminatının müəyyən hissəsini daxili imkanlar və yaşıl enerji mənbələrindən istifadə etməklə təmin etmək məqsədi ilə Araz çayı üzərində gücü 22 MVt olan Araz SES-i tikilmişdir.

1976-cı ildə Sərsəng su anbarı üzərində hər biri 25 MVt olan 2 hidroaqriqatdan ibarət "Tərtər" SES istismara verildi.

Ötən əsrin 80-cı illərində və elə bu gün də Cənuni Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılan, gücü 2400 MVt olan 8 enerji blokundan ibarət "Azərbaycan" İES istismara verilmişdir.

"Azərbaycan" İES-in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də Ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş, bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur.

"Şəmkir" SES 1975-ci il 16 avqust tikilməyə başlamışdı. 22 dekabr 1982-ci ildə 190 MVt 1-ci aqreqat istismara verildi. 1983-cü ildə isə 2-ci aqreqatın istismara verilməsi ilə 380 MVt gücündə "Şəmkir" SES-in tikintisi başa çatdırıldı.

Yeni güc mərkəzlərinin yaradılması ilə yanaşı, mövcud elektrik enerjisi potensialından daha səmərəli istifadə etmək məqsədilə, 1970-ci illər ərzində Bakıda 6 kV gərginlik sinfindən 10 kV gərginlik sinfinə keçid baş verdi.

Eyni zamanda, daxili imkanlar hesabına, aşağı gərginlikli şəbəkə sxemi 220/127 voltdan 380/220 volta dəyişdirildi. Moskvanın tələbi ilə bu prosesin 1980-ci ilə qədər başa çatdırılması nəzərdə tutulsa da, kommutasiya işləri artıq 1978-ci ildə başa çatdırıldı. Gərginlik sinfinin artırılması - texniki itkiləri 3 dəfəyədək azaltmağa, bununla da enerjiyə qənaətə səbəb oldu.

O dövr üçün innovativ həllərin tətbiqi, bir çox sahələrin də təkmilləşdirilməsinə, inkişaf etdirilməsinə, bəzi hallarda isə köklü rekonstruksiya olunması demək idi.

Hörmətli konfrans iştiakçıları!

Heydər Əliyevin energetika sahəsində yürütdüyü quruculuq, yenidənqurma və müasirləşmə layihələri güclü kadr potensialının, yeni nəsil texniki nailiyyətlərin istismarı üzrə mühəndis-energetiklərin və ilk avtomatlaşdırma mütəxəssislərinin formalaşmasına bilavasitə səbəb oldu.

Bununla yanaşı, elə o dövrdə, elmi-texniki nailiyyətlər əsasında gələcək müasir texnologiya-ların tətbiqi üçün mühüm və dayanıqlı bir baza formalaşmağa başlamışdı.

Hələ 70-ci illərdən geniş vüsət alan Avtomatik İdarəetmə Sistemlərinin elektroenergetika sahəsində tətbiqi zəruri hal almağa başladı. O dövrdə, "Energiya" adlı Avtomatlaşdırılmış İdarəetmə Sistemi həm mühafizə, həm rejimlərin monitorinqi, həm də elektrik enerjisi uçotu sahələrində istifadə edilirdi. Elə bu və bu kimi avtomatlaşdırma sistemlərinin əsasında, Azərbaycan Enerjisistemində ard-arda parlaq mütəxəssislər, pedaqoqlar, bir sözlə, yeni nəsil energetiklər yetişməyə başladı. Bununla yanaşı, artıq formalaşmaqda olan yeni texnologiyalardan istifadə fonunda – müasirliyə can atan gənc mühəndis ordusu yarandı ki, indi də onların dəyərli tövsiyələri elektroenergetikanın müxtəlif sahələrində öz töhvələrini verməkdədir.

Heydər Əliyevin, ölkəmizin elektroenergetika sahəsində, banisi olduğu "texnoloji intibah" özülü, bu günkü müasir, innovativ texnologiya və həllərin tətbiqini daha da asanlaşdırmış, mütəxəssis çatışmazlığı problemini bu sahədən uzaqlaşdırmağa geniş imkanlar yaratmışdır.

Bu gün də, Heydər Əliyevin layiqli davamçısı, ölkə başçısı, möhtərəm cənab Prezident İlham Əliyevin tapşırıqları əsasında Azərbaycan Elektroenergetika sahəsi ən müasir, innovative texnologiyalar tətbiq edilməklə müasirləşdirilir.

Belə ki, 2018-ci ilin sonundan etibarən "Azərenerji" ASC ölkənin enerji sisteminə Avtomat-laşdırılmış dispetçer nəzarətini həyata keçirən SCADA/EMS sisteminin və optik informasiya şəbəkəsinin yenidən qurulmasına başlayıb.

Köhnə SCADA/EMS sisteminin auditini həyata keçirən şirkətlərin tövsiyələri və dispetçer nəzarətinə dair müasir tələblər nəzərə alınmaqla, avtomatlaşdırılmış idarəetmə imkanlarının genişləndirilməsi yolu ilə SCADA sisteminin yenidən qurulması zərurəti yaranmışdı. Bu layihənin icrası nəticəsində Respublikanın Enerji Sisteminin SCADA sisteminə qoşulan obyektlərin sayı 45-dən 110-a çatdırılıb, onlardan 20-si stansiya, qalanları isə yarımstansiyalardır.

21 kiçik su elektrik stansiyası, 1 günəş elektrik stansiyası və gərginliyi 110 kV, 220 kV, 330 kV, 500 kV olan digər yarımstansiyalar da ən müasir idarəetmə və monitorinq sistemləri ilə təchiz edilib.

"Azərenerji" ASC-də yaradılmış mərkəzi SCADA sistemi ilə paralel olaraq, son 4 ildə enerji sistemi üzrə yenidən qurulan təxminən 35 stansiya və yarımstansiyasında lokal idarəetmə sistemləri (MikroSCADA) quraşdırılıb. Bu sistemlər mərkəzi SCADA sisteminə inteqrasiya olunub.

Bu müddət ərzində optik kabelin məsafəsi 850 km-dən 3485 km-ə çatdırılıb.

Yeni tikilmiş 20-yə yaxın kiçik su elektrik stansiyası ilə əlaqə qurulmuş, texniki məlumatlar SCADA sisteminə inteqrasiya olunmuş, enerji sisteminin diaqramına daxil edilmiş və məlumat bazası yenilənmişdir. Bu su elektrik stansiyalarının yerli idarəetmə sistemlərinə internet vasitəsilə məsafədən çıxış təmin edilir.

Enerji sistemi obyektlərinin əksəriyyətində (demək olar ki, 80 %) sərhəd və balans sayğacları yeni yaradılmış Mərkəzləşdirilmiş Ölçmə Sisteminə inteqrasiya olunub.

Enerji sisteminin 130-dan çox stansiya və yarımstansiyalarında quraşdırılmış intellektual uzaq terminal qurğularının köməyi ilə dinamik texnoloji teleməlumatlar toplanaraq mərkəzi serverlərdə emal olunur.

Bu teleməlumatdan istifadə edərək, enerji sisteminin işini tez bir zamanda izləyə, həmçinin zəruri hallarda kommutasiya avadanlığını uzaqdan idarə etmək imkanından istifadə edərək proseslərə müdaxilə etmək mümkündür. Hazırda açar və ayırıcılara nəzarət Mərkəzi Dispetçer Xidməti tərəfindən həyata keçirilir.

8 regional dispetçer mərkəzi (Bakı, Gəncə, Sumqayıt, Şirvan, Abşeron, Mingəçevir, Xaçmaz, Qarabağ) yaradılıb. Bu mərkəzlərdə yerli dispetçerlər öz regionlarında enerji istehsalına və təchizatına asanlıqla nəzarət edə bilirlər.

Qonşu ölkələrin enerji sistemləri ilə enerji mübadiləsi üçün SCADA sistemi ICCP protokolundan istifadə etməklə operativ telemetriya və məlumat mübadiləsi imkanlarını təmin edir. Bu rabitə növü artıq Rusiya, Gürcüstan və İranın enerji sistemləri ilə qurularaq, uğurla istismar edilir.

Hörmətli konfrans iştiakçıları!

Əminəm ki, bu gün, enerjisistemdə aparılan innovativ texnologiya və həllər, gələcək nəsillərin daha mütərəqqi texnoloji nailiyyətlər tətbiq etməklə səmərəli enerji islahatları aparması üçün əlverişli zəmin yaratmaqla yanaşı, təbii sərvətlərimizin və ətraf mühitin qorunub saxlanmasına xidmət edəcək.

Diqqətiniz üçün təşəkkür edirəm!

AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN İRSİ

Bəxtiyar Mustfa oğlu Mustafayev
YAP Mingəçevir şəhər təşkilatının sədri

Hörmətli konfrans iştirakçıları!

Çoxəsrlik ənənələrə malik olan Azərbaycan dövlətçiliyi tarixində görkəmli dövlət xadimi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan epoxa xüsusi əhəmiyyətə malikdir.

Əvvəla, siyasi olimpin zirvəsinə doğru inkişafda Heydər Əliyev adidən aliyə doğru bütün pillələri addım-addım keçmiş, zəngin həyat təcrübəsi əldə etmiş və mükəmməl dövlət idarəçiliyi mədəniyyəti qazanmışdır.

Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq görkəmli dövlət xadimi Heydər Əliyev Ümummilli Lider səviyyəsini fəth etmişdir.

Azərbaycançılığın ümummilli ideologiyaya, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müasir müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı.

Sözün əsl mənasında, Azərbaycan və onun taleyi, xalqın ümidləri və gələcəyi Heydər Əliyev siyasətinin mahiyyətini müəyyən etmişdir. Bu böyük dövlət xadiminin baxışlarında ölkəsini və xalqını dünya azərbaycanlıları ilə birlikdə geniş miqyasda və tam halda təsəvvür etmək miqyasında düşünülmüş bir qavrayışın ifadəsindən ibarət olmuşdur.

Uzaqgörən dövlət xadimi kimi Heydər Əliyevin Azərbaycan anlayışında dünyada gedən proseslərin fonunda ölkəsinin və çoxmilyonlu xalqının taleyinin ən əsas faktor kimi nəzərə alınması, istiqamətləndirilməsi həmişə ön mövqedə dayanmışdır. Beləliklə, Heydər Əliyevin timsalında ümummilli liderlik rəhbəri olduğu ölkənin fövqünə qalxmağı bacarmaq, mənsub olduğu xalqın böyük gələcəyinə xidmət etmək deməkdir.

Ümummilli liderlik ölkə maraqlarını ümumdünya proseslərinin fonunda dəyərləndirib nəticələr çıxarmağı tələb etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev ölkə maraqlarını ümumdünya prosesləri ilə üzvi surətdə uzlaşdırmağı, milli dövlətçilik mənafelərinə xidmət edən qərarlar qəbul etməyi və həmin qərarları zamanında və qətiyyətlə həyata keçirməyi bacarmışdır.

Hörmətli konfrans iştirakçıları!

Azərbaycan tarixinin, dilinin, ədəbiyyatının, mədəniyyətinin hərtərəfli şəkildə və dərindən öyrənilməsi, təbliği, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsində, milli şüurun dirçəlişi, ümumən, bütün sahələrdə azərbaycançılıq amalının möhkəm, etibarlı bazasının formalaşdırılması yönündə həyata keçirilən qətiyyətli tədbirlər məhz Ulu Öndərin parlaq dühası, ardıcıl səyləri sayəsində reallaşmışdı.

Dövlətçiliyin nəzəriyyəsi ilə təcrübəsinin möhkəm vəhdətinə nail olmaq və bütün bunları özünün intellektual qabiliyyətləri ilə əlaqələndirməyi bacarmaq Heydər Əliyev fenomeninin əsaslarını təşkil edir.

Doğma vətəni özünün qibləgahı hesab edən Heydər Əliyevə görə "Azərbaycanı sevmək - azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir". Azərbaycançılıq isə Heydər Əliyev üçün ümummilli ideal və milli dövlətçilik ideologiyası mənasını daşımışdır.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında Ulu öndər Heydər Əliyev tarixi çıxışında dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi zərurəti ilə bağlı tövsiyə xarakterli fikirlərini söyləmişdir. Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, müxtəlif ölkələrdə dilimizin, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği, Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri qurultayın qarşıya qoyduğu başlıca vəzifələr olmuşdur.

Azərbaycançılıq ideologiyasının əsasını qoymuş Ümummilli liderimiz Heydər Əliyev bu ideologiyanın əsas məqsədləri barədə deyirdi: "İndi hər bir azərbaycanlı qürur hissi keçirdə bilər ki, mən azərbaycanlıyam, mənim millətim, mənim millətimin dövləti, ölkəm vardır. İsveçrədə, Almaniyada, Fransada yaşasam da, fərqi yoxdur, mənim xalqımın müstəqil dövləti var və dünya xalqları içərisində yerim vardır. Azərbaycan xalqının əsrin sonunda əldə etdiyi ən böyük nailiyyət budur".

Bu mənada "xalq - Heydər, Heydər - xalq" həmrəyliyinin sarsılmaz qüvvəyə çevrilməsi Heydər Əliyevin dövlətçilik məharətinin dahiyanə əməli ifadəsi olmuşdur.

Hörmətli konfrans iştirakçıları!

"Azərbaycan mənim ürəyimdir, nəfəsimdir" – deyən Ulu Öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir məktəbdir və daim öyrənilməkdədir. Cəmiyyətə xidmət nümunəsi olan

bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: “Xalq mənim dayağım, gücüm və inamımdır”. Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş Ümummilli Liderimizin ideyaları daim yaşayacaq!

BÖLMƏ İCLASIARI

HEYDƏR ƏLİYEV VƏ MİLLİ İQTİSADİ İNKİŞAF STRATEGİYASI

[1,2]**Veysəl Seyfəl oğlu Əyyubov,** [1,3]**Ələsvər Nağdalı oğlu Musayev**
[1]Mingəçevir Dövlət Universiteti
[2]iqtisad elmləri doktoru, professor
veysal.ayyubov@mdu.edu.az
[3]alasvar.musayev@mdu.edu.az

Bazar iqtisadiyyatına keçid metodologiyası sistemli yanaşma, təkamül, resursların variantlı istifadəsi və əhalinin maddi rifahının təminatına istiqamətlənmiş social-iqtisadi inkişafda dayanıqlığın saxlanılması strategiyası üzərində qurulur. Buna əsaslanaraq Ulu öndər Heydər Əliyev Azərbaycanın iqtisadi inkişaf modelini, daxili resursların bazar tələbinə uyğun iqtisadi dövriyyəyə cəlb edilməsi və sosial yönümlü siyasətin həyata keçirilməsi prinsiplərini hazırladı və keçid dövrünəuyğun islahatlar proqramının bazar tipli modelini formalaşdırdı. 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri olan Heydər Əliyev islahatların əsas istiqamətlərini mülkiyyətin forma və əsaslarını yaratmaqla özəlləşmə prinsiplərini hazırlamaqda görürdü. Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatı, torpağın icarəsi, satışı və renta münasibətləri Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul olundu. İslahatların Azərbaycan modeli əhalinin rifah yüksəldilməsinə yönəldilməli, mövcud iqtisadi və sosial resurslardan səmərəli istifadə etməklə müasir şəraitə uyğunlaşan mexanizmlərin tətbiqi ilə reallaşmalı idi. Heydər Əliyev hələ planlı təsərrüfat sistemində SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu dövrlərdə bir sıra ərazi və sahə kompleks proqramların tərtibi və reallaşmasına rəhbərlik etmişdir. Bu proqramların nəzəri-metodoloji, elmi və konseptual yanaşma ideologiyası ölkəni iqtisadi tənəzzüldən qurtarmaq və sosial məqsədlərə nail olmaq idi. Müxtəlif dövrlərdə ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən proqramlı tədbirlər, iqtisadi mexanizmlər real şəraitə adekvat olaraq təkmilləşdirilmişdir. Təbii ki, keçid dövründə radikal islahatların və təsərrüfat risklərinin tətbiqi müstəqil Azərbaycanın dirçəlməsinə zərər verə bilərdi. Bu baxımdan bölgü və istehlak sferasında əhali tələbatını, sosial ədalət prinsipləri nəzərə alan mühafizəkar iqtisadi siyasətin yürüdülməsi daima ön planda idi. Mövcud resursların aktiv dövriyyəyə cəlb edilməsi özəlləşmə risklərinə qarşı yönəlməli idi. Əmlak və resursların özəlləşməsi uzun müddət ictimai xarakter daşıdığı üçün həmrəylik və məhsuldarlıq nəzərə alınmaqla aparılmalı idi Bu baxımdan 1994-cü ildən Azərbaycanda milli sərvətin qiymətləndirilməsi və onun bölgüsündə bütün vətəndaşlara normativ dəyərlərə uyğun pay bölgüsü mexanizmi tətbiq edildi. Heydər Əliyevin iqtisadi konsepsiyasının əsas və vacib istiqamətlərindən biri ölkə iqtisadiyyatının mövcud potensialını qiymətləndirmək, ondan istifadənin cari dövr və gələcək planlarını hazırlamaq üçün atılan təşkilati idarəetmə metodları idi. Ulu Öndərin potensial yanaşma konsepsiyasının əsasında uzun illər strateji səviyyədə məşğul olması təcrübəsi və yüksək idarəetmə qabiliyyəti dururdu. Heydər Əliyevin strateji planlaşma metodologiyası məqsədli, kompleks, sistemli tədbirlərin, səbəb və nəticə, iqtisadi və sosial səmərəyə əsaslanan meyarların üzərində qurulur. Ümummilli Liderin strateji idarəetmə qərarları iqtisadi artım, rifah, təhlükəsizlik, mənəvi dayaqlara istinad etməklə milli dəyərlərin qorunması səyi ilə dünyəvilik prinsiplərinin vəhdətinə uyğun islahatlar həyata keçirmək idi.

XX əsrin 90-cı illərində dərin böhrana düşmüş ölkəmizin bu böhrandan çıxmasını təmin etmək üçün daxili potensialı səfərbər etmək, xarici iqtisadi əlaqələr yaratmaqla dünya təcrübəsinə və milli iqtisadi reallıqlara uyğun struktur siyasəti həyata keçirmək və qabaqcıl dünya standartlarına cavab verən, habelə mövcud imkanlara əsaslanan yeni texnologiyaları istehsala tətbiq etmək lazım idi. MüasirAzərbaycan iqtisadiyyatının inkişafında struktur dəyişmələr məhz planlı təsərrüfat və müstəqillik, bazar iqtisadiyyatı şəraitində uyğun səmərəlilik modelinə əsaslanır. Hələ planlı təsərrüfat dönəmində Azərbaycanda milli gəlirin formalaşması və istifadəsi strukturu, idxal və

ixracın strukturu, tədiyyə balansı və sahələrarası balansların tərtibi və praktikası ilə dövlət başçısı kimi məşğul olan Heydər Əliyev daima ən əlverişli istehsal, bölgü və istehlak strukturu üzərində öz təkliflərini və əməli idarəetmə təcrübəsini sərf etmişdir. Azərbaycanda iqtisadiyyatın sahə strukturunun təkmilləşməsi iqtisadi islahatların tərkib hissəsi idi və müasir şəraitdə milli iqtisadiyyatın inkişafının konseptual əsasını təşkil edir. Məhz Heydər Əliyevin planlı təsərrüfat sistemində təşkil etdiyi ərazi və sahə komplekslərinə istehsal və emal mərhələlərini funksional əlaqədə birləşdirən institusional obyektlər daxil idi. Həmin dövrdə ölkə iqtisadiyyatı iyearxiya prinsiplərinə uyğun qarşıya qoyulan məqsədlər, prioritetlər və onlara çatmaq üçün resurslar, bu resurslardan istifadənin məntiqi sxemləri əsasında idarə edilirdi. Ulu Öndərin struktur təkmilləşməyə aid baxışları iqtisadi artımı təmin edən daxili və xarici tələbatı ödəyən perspektiv ehtiyatların optimal ölçüsünü saxlamaqla ədalətli bölgü prinsiplərinə əsaslanırdı. Heydər Əliyevin iqtisadi dəyişikliklər strategiyası sosial ədalət, ədalətli bölgü və maraqların uyğunlaşması və stimullaşması meyilləri üzərində qurulur. 1993-cü ildən Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olaraq ölkə iqtisadiyyatının böhran vəziyyətini hərtərəfli qiymətləndirməklə, onun bərpası və inkişafı üçün silsilə iqtisadi tədbirlər və islahatlar həyata keçirdi. 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunması isə bir sıra normativ-hüquqi bazasının formalaşmasını, səlahiyyətlərin bölgüsünü və vəzifələrin konturlarını dəqiq müəyyən etməyə imkan verdi. Struktur idarəetmənin təşkilinə aid bir sıra qanunlar qəbul olundu. Heydər Əliyevin islahatlar sistemində ölkənin iqtisadi və sosial potensialından səmərəli istifadənin prioritet istiqamətləri əsas rol oynayır. Kənd təsərrüfatı potensialına əsaslanan emal sənayesinin, aqrar və sənaye komplekslərinin vəhdəti və təşkili, ərazi imkanlarından istifadənin kompleks təşkili müasir dövrdə sənaye klasterlərinin, sənaye məhəllələrinin və digər müasir tipli təsərrüfat subyektlərinin yaradılmasına əsas vermişdir. Sənayeləşmə Heydər Əliyevin iqtisadi idarəetmə metodologiyasında həm planlı təsərrüfat dönəmində, həm də bazar iqtisadiyyatı şəraitində xüsusi yer tuturdu. Azərbaycanın sənaye strukturu onun təbii resurslarına və əhalinin tələbatına uyğun ixtisaslaşmışdır. Aqrar sənayenin inkişafı, neft sektorunun və infrastruktur obyektlərinin müasir tipli inkişaf meyilləri bazar tipli inkişaf modelində əsas yer tutur.

Neft məhsulları və neft istehsalı sənayenin aparıcı halqası olduğu üçün Ulu Öndər Heydər Əliyev 1994-cu ilin sentyabr ayında böyük neft müqaviləsi-"Əsrin müqaviləsi"ni imzaladı. Bu müqaviləyə əsasən dövlət və şirkətlərin iştirak payı və gəlirlərdə pay bölgüsü Azərbaycanın milli iqtisadiyyatının inkişafına və milli maraqlarının üstünlüyünün təmin olunmasına yönəlmişdir. Məhz bu müqavilə ölkənin maliyyə-təminat balansının, tədiyyə balansının səmərəliliyini və qənaət rejimini təmin etdi. Neft gəlirlərinin istifadəsi modeli, Heydər Əliyevin düşündüyü kimi, həmin gəlirlərin neft fondunda toplanılması ilə ölkənin zəruri ehtiyaclarını ödəmək və perspektiv xərcləri maliyyələşdirmək məqsədlərini güdür.

Sosial müdafiə tədbirləri Heydər Əliyevin siyasətinin bütün mərhələlərində prioritet istiqamət olmaqla bütün sosial-iqtisadi qanunların reallaşmasıilə nəticələnirdi. Sosial ədalət prinsipləri, gəlirlərin düzgün diferensiyası, aztəminatlı ailələrin həyat şəraitinin yaxşılaşdırılması tərtib olunan normativ-hüquqi tədbirlərdə öz təsdiqini tapırdı. Heydər Əliyevin 1993-2013-cü illəri əhatə edən islahatlar sistemi regionların sosial-iqtisadi inkişafını, kəndin sosial problemlərini və məskunlaşma strategiyasının əsas istiqamətlərini müəyyənləşdirirdi. Sosial inkişaf strategiyası investisiyaların əsas istiqamətlərini müəyyən edirdi. Xüsusi qayğıya ehtiyacı olan insanların həyat səviyyəsini yaxşılaşdırılması, qaçqın və köçkünlər üçün şəraitin yaradılmasına dəstək proqramlarının reallaşmasıölkə iqtisadiyyatının inkişafı ilə yanaşı aparılırdı. Ölkədə islahatlarsistemi çərçivəsində sahibkarlığın səmərəli inkişafına şərait yaradan mexanizmlər təkmilləşdirilirdi. Ulu Öndər sosial tərəqqinin iqtisadi dirçəlişlə təmin olunmasının praqmatik həllinə can atırdı və iqtisadi dirçəliş olmadan sosial təminatın və inkişafın mümkünsüzlüyünü bəyan edirdi. O, "Деловой мир" qəzetinin 1994-cü il 20 sentyabr tarixli sayında dərc olunmuş müsahibəsində deyir: "Sosial problemlər, əsasən, iqtisadi islahatların həyata keçirilməsi yolu ilə həll ediləcəkdir. Onun həyata keçirilməsi istehsalın həcmini qaldırmağa imkan verəcək, bu isə respublikanın iqtisadi və maliyyə vəziyyətini yaxşılaşdıracaq. Bütün bunlar həyat səviyyəsinin yaxşılaşdırılmasına gətirib çıxaracaqdır" [1].

Sosial siyasətin reallaşması bir sıra obyektiv amillərlə bağlı olduğu üçün onun ayrı-ayrı tərəflərinin idarə olunması və tənzimlənməsi Heydər Əliyev siyasətində aktual problemlər kimi əsas rol oynayırdı. Sosial inkişaf əhalinin məşğulluğunun, bazar şəraitində tənzimləmə mexanizmlərinin elmi və praqmatik əsasları ilə bağlanırdı. Minimum əməkhaqqının, yaşayış minimumu və ehtiyac minimumlarının Milli Məclis tərəfindən tərtibi və təsdiqi Prezidentin təşəbbüsü ilə iqtisadi tənzimləmədə tətbiq edilməyə başladı. Hər il büdcə təsdiqi zamanı əhalinin rifah səviyyəsinin yüksəldilməsi üçün minimum istehlak büdcəsi və ona uyğun yaşayış minimumunun artırılması metodikası əhalinin alıcılıq qabiliyyətində artımı təmin edir.

İqtisadiyyatın inkişafında əhali gəlirlərinin artırılması məqsədi olaraq kiçik sahibkarlığın və biznes mühitinin yaxşılaşması üçün qanunvericilik bazası və buna müvafiq icra mexanizmləri təkmilləşirdi. 1996-cı ildən başlayaraq ölkə iqtisadiyyatındasiyasi sabitliyin təmin olunması, əhəmiyyətli kəmiyyət dəyişmələri, neft gəlirlərinin artımı, sosial müdafiə sistemində və əhalinin istehlak səviyyəsində keyfiyyət dəyişiklikləri baş verdi. Ulu öndər Heydər Əliyevin iqtisadi və sosial islahatlar proqramlarında keçid dövrü üçün maliyyə nəzarətinin öncüllüyü, sahibkarlar üçün vergi yükünün azaldılması, pensiya islahatları, ünvanlı sosial təminat sisteminin tətbiqi və sosial yardımda minimal, orta və yüksək səviyyəli əməkhaqqı sisteminin çevik və stimullaşdırıcı mexanizmləri uğurla həllini tapırdı.

Büdcə sisteminə daxil olan normativ-hüquqi bazanın təkmilləşməsi ilə büdcə təyinatlı xərclər üzərində prioritet istiqamətlər üzrə proqnozlaşdırılma strategiyası həyatakeçirilirdi. Hər il büdcə paketi hazırlanaraq Milli Məclisə təqdim edildikdə Heydər Əliyev ölkə iqtisadiyyatının inkişafında gəlir və xərclərin formalaşması və proqnozunun əsas konturlarını təqdim edirdi. Dövlət büdcəsinin formalaşmasında həlledici rol oynayan vergi bazasının genişləndirilməsinə səbəb olan vergi yükünün azaldılması və sahibkarların vergi ödəmək təşəbbüslərini artırmaq üçün islahatlar çərçivəsində sahibkarlara güzəştli vergi tətbiqi,vergi tətilləri, sadələşdirilmiş vergi mexanizmləri tətbiq edilməyə başladı.

Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, məşğulluğun genişləndirilməsi və kəndin sosial-iqtisadi inkişafı Heydər Əliyev islahatlarında prioritet istiqamətlər olmaqla uzunmüddətli iqtisadi inkişafın əsas təməli idi. Ölkədə ev təsərrüfatlarının, ailə təsərrüfatlarının yaradılması bazar tələbatını ödəməyə xidmət etməklə yanaşı milli iqtisadiyyatın tərkib hissəsi rolunu oynayır. Güzəştli şərtlərlə kreditlərin verilməsi, passiv ünvanlı soisal yardım sistemindən aktiv formaya keçilməsi təsərrüfatçılıqla bağlı kreditlərin verilməsinə səbəb olurdu. Ev təsərrüfatlarına stimul yaratmaq mexanizmləri dövlətin dəstək proqramları ilə baş verir. Dövlətin iqtisadi idarəetmədə ilk rolu xırda və kiçik sahibkarlığın dəstəklənməsinə yönəlir.

Konstitusiyanın əsas prinsipi olan ədalət prinsipi, əməkhaqqının, istirahət hüququnun, sosial təminat hüququnun həyata keçirilməsi müasir şəraitdə də böyük əhəmiyyət kəsb edir. 1996-cıildən başlayaraq Ulu Öndər ayrı-ayrı sahələrin işçilərinin əməkhaqqının artırılmasına dair sərəncamlar vermişdir. Sosial müdafiənin təmin edilməsi və onun ünvanlılığının təşkil edilməsi üçün metodiki əsaslarla qanunlar və icra mexanizmləri təsdiq edilmiş və istifadə edilmişdir. Son illərdə bu sahədə bir sıra vacib qanunlar qəbul olunmuşdur. Bunlardan "Əməyin mühafizəsi haqqında", "Əhalinin məşğulluğu haqqında", "Kollektiv müqavilələr və sazişlər haqqında","Məzuniyyətlər haqqında", "Əlillərin sosial müdafiəsi haqqında", "Vətəndaşların pensiya təminatı haqqında", "Fərdi əmək mübahisələrinin həlli haqqında", "Fərdi əmək müqavilələri (kontraktları) haqqında" Azərbaycan Respublikasının qanunları bazar iqtisadiyyatı şəraitində əhalinin sosial-əmək münasibətlərinin nizamlanmasında, onların sosial müdafiəsinin gücləndirilməsində xüsusi əhəmiyyətə malikdir. Bu sahədə işlər davam etdirilir. Azərbaycan Hökuməti Beynəlxalq Əmək Təşkilatının insan hüquqlarının qorunmasına yönəldilmiş əsas 57 konvensiyasına qoşulmuş və bununla da müstəqil demokratik dövlətçilikdə yeni sosial-əmək münasibətləri sistemini ümumbəşəri normalara uyğun qurmuşdur. Bununla yanaşı, əmək siyasəti, əməkhaqqının ödənilməsi və bu sistemin təkmilləşdirilməsi sahəsində Almaniya, Fransa, İngiltərə, İsveçrə və sair inkişaf etmiş dövlətlərin təcrübəsindən geniş istifadə edilir [3].

Kadr və insan kapitalına dəstək müxtəlif dövrlərdəHeydər Əliyevin özünün uzaqgörən baxışları və metodları ilə həll olunmuşdur. Xaricdə təhsil, aşkarlıq, prioritetlər üzrə kapital axınını

təmin etmək müasir şəraitdə daha çevik və yeni islahatlarla həll edilir. İnsan kapitalının formalaşması və istifadəsi istiqamətində təhsil islahatları, sağlamlıq və sosial müdafiə islahatları sosial dövlətin əsas vəzifəsi kimi formalaşır. Bu model iqtisadi idarəetmə təcrübəsi və milli mənəvi dəyərlərin istifadəsi nəticəsində baş verdi.

Ümummilli lider Heydər Əliyevin islahatlar sisteminin tərkib hissəsini xarici iqtisadi amillərin səmərəli istifadəsi və inteqrasiya sisteminə daxil olmaq şərtlərinin yaradılması təşkil edirdi. Özünüidarəetmə və özünümaliyyələşdirməyə şəraitini yaratmaq, bələdiyyə institutunun tətbiqi və beynəlxalq təşkilatlara üzv olmaq meyilləri genişləndi. Azərbaycan dünya iqtisadi və maliyyə kooperasiyalarına və təşkilatlarına üzv olmaqla müasir xarici amillərdən istifadə hüququ qazandı. Bu isə xarici resursların Azərbaycana axınına səbəb oldu. İnteqrasiya şəraiti idxalın və ixracın keyfiyyət dəyişiklikləri ilə baş verdi. İxracat yönümlü struktur islahatların aparılması inkişaf və məşğulluğun artırılması üçün strateji istiqamətlər idi. İxracat potensialının artırılması qeyri-neft sektorunun hesabına daha prioritet istiqamət kəsb edirdi. İxracat potensialının artırılması bir sıra sahələrin və daha çox turizmin inkişafı yolu ilə təmin olunmağa başlamışdı. Turizmin yeni sahələri ölkənin iqtisadi və sosial potensialına əsaslanırdı və bu gün artıq Azərbaycanda turizmin inkişafından danışa bilərik.

Aparılan iqtisadi və sosial siyasətin səmərəsi müasir şəraitdə iqtisadi və sosial inkişafın dinamikası, struktur dəyişiklikləri və hədəflərə nail olunmasında əldə olunan nəticələrlə izah olunur. Müasir milli iqtisadiyyatın inkişaf dinamikası, bir sıra sahələrdə əsaslı kəmiyyət və keyfiyyət dəyişmələri, dünya iqtisadi sisteminə inteqrasiya göstəriciləri dünya standartları səviyyəsində ifadə olunur. Beynəlxalq səviyyədə qiymətləndirmə metodologiyası ilə müqayisədə Azərbaycanın rəqabət qabiliyyətliliyi, sosial yönümlülüyü və digər göstəricilərlə müqayisədə 192 ölkənin arasında 25-ci yeri tutması əsası Heydər Əliyev tərəfindən qoyulan düzgün iqtisadi və sosial islahatların səmərəsi kimi qiymətləndirilir. 1996-cı ildən bugünə qədər Azərbaycan iqtisadiyyatında baş verən köklü dəyişikliklərin motivi, amilləri və nəticələrinin təhliliölkə iqtisadiyyatının formalaşmış modelini təsvir etməyə imkan verir. Bu modelin əsas istiqamətlərini aşağıdakı kimi qiymətlən-dirmək məqsədəuyğun olardı:

- dayanıqlı inkişaf strategiyasına və iqtisadi artıma əsaslanan konseptual elmi-nəzəri müddəaların tərtibi;
- makro və mikro səviyyədə bölgü və təkrar istehsal sistemində sosial yönümlü siyasətin reallaşması üçün ən əlverişli metodların əsaslandırılması və onların həlli istiqamətində təşkilati-iqtisadi mexanizmlərin tərtibi;
- istehsal və istehlak resurslardan səmərəli istifadə və sosial-iqtisadi potensialın xarici və daxili çağırışlara müvafiq çevik dəyişmələrinə cavab verən yeni texnologiyalara və əmək prosesinə uyğun investisiya, innovasiya tətbiqinin genişlənməsi;
- milli iqtisadi modelin regional xüsusiyyətlərinin prioritetliyi, regionlara dövlət dəstəyinin səmərəli təşkili və regionun iqtisadi və sosial potensialından səmərəli istifadə etmək yolu ilə klastrların, sənaye parklarının və yeni innovasiyalı təşkilati quruluşların planlaşması;
- dünyəvilik və Azərbaycan əhalisinin demoqrafik, təkrar istehsal quruluşunu nəzərə almaqla sosial inkişafın maddi-maliyyə və dövlət himayəçilik mexanizmlərini, təkmilləşdirmək;
- makroiqtisadi sabitlik yanaşı, sosial ədalət prinsiplərinə uyğun əməkhaqqı, pensiya təminatı və müavinətlər sistemində qütbləşmənin hamarlanmasında optimal mexanizmlər tətbiq etmək;
- ölkənin ixracat potensialının artırılması üçün struktur islahatlar hazırlamaq və daxili resursların xarici istehlakçılar üçün istifadəsində milli maraqların təmin olması modellərini vermək [2].

Heydər Əliyevin iqtisadi inkişaf strategiyası mərhələ-mərhələ həyata keçirilən və sonrakı dövrlərdə daha çox keyfiyyət və köklü dəyişilən risklər üzərində qurulur. İlkin mərhələnin məzmunu müstəqilliyin iqtisadi bazasını təmin etmək məqsədilə daxili resursların iqtisadi dövriyyə cəlb edilməsi üçün xarici resursların, beynəlxalq qurumlar və təşkilatların dəstək proqramlarına və şərtlərinə uyğun transformasiya modelini yaratmaq idi. İkinci mərhələnin məzmununu artıq iqtisadi artımla bərabər sahə prioritetlərinin və mənəvi dəyərlərin sürətlənməsinə yönəldilən "sürətlənmə" strategiyası təşkil edirdi. Üçüncü mərhələnin məzmunu isə dünya inteqrasiya sisteminə daxil

olmaqla, daxili imkanların ixracı və resursların dövriyyəyə cəlb edilməsi ilə struktur islahatların həyata keçirilməsi idi [1].

Təbii ki, müasir iqtisadi inkişaf mərhələsi cənab Prezident İlham Əliyevin keyfiyyətcə yeni iqtisadi dəyişmələr və uzunmüddətli hədəflərə nail olmaq strategiyasını əhatə edir. Dünyəvilik, qloballaşan çağırışlar, inkişaf, sosial tərəqqi, insan kapitalının artımı və istifadəsi hazırkı dövrdə inkişaf strategiyasının əsas istiqamətlərini təşkil edir. Məhz qlobal və milli çağırışların kompleks, qarşılıqlı əlaqəsi üzərində qurulan idarəetmə müasir şəraitdə daha geniş tətbiq olunur. Ulu öndər Heydər Əliyevin ən mühüm strateji baxışları Azərbaycan elminin, təhsilinin və mənəvi dəyərlərin qorunması və dünya sivilizasiyasına daxil olmaqla milli-mənəvi xüsusiyyətlərin saxlanılması və inkişafı idi.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası, Monoqrafiya, Bakı: "Şərq-Qərb" 2019, 328 s.

2. "Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar-nəticələr və perspektivlər", Konfrans materialları, Bakı, 2021

3.www.heydaraliyev.preslib.az

HEYDAR ALIYEV'S STRATEGIC GENIUS: "THERE IS NO AZERBAIJAN WITHOUT KARABAKH AND KARABAKH WITHOUT SHUSHA"

Rena Mirzazade
doctor of philosophical science, professor
Institute of Philosophy and Sociology of the National Academy of Sciences of Azerbaijan
mirrena54@yahoo.com

The modern period of Azerbaijan - about 50 years - is associated with the great leader Heydar Aliyev, a great statesman, a perfect strategic politician, a phenomenal personality. In the 1960s, on the way from the security agencies to the Supreme Leader of the Republic, the Karabakh issue was on the agenda of his fateful life, extinguished as a result of the Great Leader's principles, and the national interests of the Azerbaijani people were maintained on top. Thus, as a result of the strong determination of the Great Leader Heydar Aliyev, who said, "In the 60s and 70s, the Armenian nationalists did not give up their attempts to separate Nagorno-Karabakh from Azerbaijan and unite it with Armenia ... in many cases I organised the prevention of those attempts", false and fabricated Armenian allegations were bankrupted.

The Great Leader knew the geopolitical history, geoeconomics and cultural and spiritual life of Karabakh, the history of Azerbaijani and Armenian families living there, the relations of coexistence at the academic level and worked in all areas for the development and improvement of Karabakh. When the Great Leader was still the Head of the State Security Committee, Armenians distributed about 300 leaflets in Armenian on the streets of Khankendi on June 24, 1967. These leaflets, based on false and fabricated chauvinism and reflecting the false Armenian history, propagandized the annexation of Nagorno-Karabakh to the Armenian SSR. Naturally, the national-minded general of the KGB, Heydar Aliyev, who had excellent intelligence qualities, found the authors of these leaflets and punished them severely. Another fact is that in 1967, the Armenian nationalists themselves killed an Armenian and blamed the death on two Azerbaijanis, the killed those two in their trial. The aim was to stir up national relations, create a confrontation, relocate the local population and lay the foundation for the annexation of Karabakh to Armenia. And ... fortunately, the Great leader Heydar Aliyev was written in the fate of Azerbaijan. The Great Leader personally went to Khankendi for 15 days and prevented this process with his skilful and agile intervention.

During the first rule of the Great Leader, he had undeniable services in the awakening of **national thinking, national spirit and national identity** in the country, especially in Nagorno-Karabakh. The Great Leader, who loved the historical Shusha, made great efforts in its economic and cultural development. Later, when he became a member of the Politburo in Moscow, he always blocked the dream of "unification with Armenia."

The Great Leader, who came to power for the second time in independent Azerbaijan, revealed the essence of the issues of ethnic cleansing, aggression, genocide, Armenian nationalism and gave a political and legal assessment to the "desire to unite" of the Dashnaks. He showed the world community the true nature of the Armenian policy of terrorism and aggression.

The Great Leader said: **"Shusha is a dear city, a dear fortress, a dear monument not only for the people of Shusha but for all our citizens who love their homeland and nation."** He also, emphasizing that it is a special and important place for our country and our homeland, said: **"Without Shusha, there is no Karabakh, and without Karabakh, there is no Azerbaijan at all."**(nuhcixan.az/news/cemiyyet/15068). At present, President Ilham Aliyev also declares that **"Our flag will be hoisted in all our occupied lands."**

"We must be ready for every single battle **to ensure the territorial integrity of Azerbaijan**", said the Great Leader, as far-sighted from yesterday to today. He further added **"Our goal is not to wage war;** our army is needed to ensure territorial integrity and inviolability of borders" is the paradigmatic logic of today's way. (Heydar Aliyev. The way to independence, B., 1997. p.37 and 39)

The political philosophy of the Great Leader "Either we must stand up and liberate our lands, or we must be destroyed, or we must admit that we are not a nation," carry's the logic of "The Azerbaijani people have always been strong. But it is needed to raise and mobilize this nation." (Ibid., P. 42).

Let the land be filled with Light, the Great Leader, the political successor, the Blood-Breath, the voice-behaviour, the same President Ilham Aliyev announced a partial mobilization in Azerbaijan in September 2020, as if he awakened in each of us with his resolute courage. "The world should know, including Armenia, that we will never give an inch of our lands to anyone" (Ibid., p. 107)

Rest in peace, the Great Leader, President Ilham Aliyev, who has your blood, breath, voice and behaviour, announced a partial mobilization in Azerbaijan in September 2020 and awakened the words you addressed to each of us **with his resolute courage**. The Great Leader's **orders** that "The world should know, including Armenia, that **we will never give an inch of our lands to anyone**" (Ibid., p. 107) and "Heroic Azerbaijani soldier, FORWARD in defence of the sacred lands of Azerbaijan, the independent Republic of Azerbaijan" (Ibid., p. 40) are still our way to Shusha, and our exclamation that **"KARABAKH is Azerbaijan".**

Addressing the people of Azerbaijan, National Leader Heydar Aliyev said: "Ilham Aliyev will complete all the work that I could not finish" and declared Ilham Aliyev his political successor. This event took place in the autumn of 2003 ... Exactly 17 years later, again in the fall, **President Ilham Aliyev confirmed that the far-sighted genius of the great strategist Heydar Aliyev did not need proof**, and ordered the Azerbaijani Army to counterattack against the aggression of our lands when the occupying Armenia violated the ceasefire again. In the past, the Great Leader Heydar Aliyev introduced the Azerbaijan-Karabakh to the world with a line in his hand and a map of Azerbaijan in front of him. At present, the Supreme Commander-in-Chief Ilham Aliyev asserts **"Karabakh is Azerbaijan"** to the world's famous TV and media.

Although the Azerbaijani lands were occupied, the Great Leader Heydar Aliyev did not stop his political-ideological, military-diplomatic propaganda and restored socio-political stability in the country. 17 years later, President Ilham Aliyev - **the reformer**, leader of the XXI century, President of Azerbaijan, as well as **Saviour Strategist**, Supreme Commander-in-Chief and Diplomatic Commander of the Patriotic War, continued the diplomatic path started by National Leader Heydar Aliyev. **First of all**, in these years, united with **the Strong Army + Strong State + Strong Economic Strategy**, the President formed a factor of respect, for the national interests of the people

and the way of life of all nations living in Azerbaijan, in the formula of Strong Nation and Creative, Intellectual Azerbaijan Citizen. This is **the political-strategic and logical conclusion** of the ideological school of the Great Leader Heydar Aliyev. The state is strong only if it has a strong leader! A **strong leader** is in turn created by **a strong nation**. President Ilham Aliyev is a **Strong, Agile Leader of the Strong Azerbaijani People, Commander-in-Chief of the Diplomatic Strategy.**

The success of the **Patriotic War**, which began on September 27, 2020, has been achieved over the years with patience and cold-blooded diplomacy. Our **restored state borders** under the leadership of a strong leader, along with the liberation of our occupied lands, restore the **self-confidence of the Azerbaijani people** and strengthen their **self-confidence in the power of their leader**. Everyone considers himself Stronger in the light of a Strong Leader - A Strong Supreme Commander-in-Chief. **The "subordination" complex** - which stretches from two centuries (starting with the Gulustan Treaty of 1813) to the present day, **ends**, and respect and love to the Supreme Commander-in-Chief and the President for the defence of the homeland is growing.

No one respects an individual, or a group or even a **nation** as long as they do not have self-respect. Courageous, fearless, those who defend the existence of their homeland are respected, and such nations are also appreciated and are in the spotlight!

The great Azerbaijani Army and our Supreme Commander-in-Chief, Ilham Aliyev, who liberated Karabakh from occupation, is the phenomenal Saviour and Leader of Azerbaijan. I conclude with the wish of the First Vice-President of Azerbaijan, **Mrs Mehriban Aliyeva**, "May Almighty God grant **every Azerbaijani** the opportunity **to kiss the Holy Land of Karabakh**."

HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCANIN İQTİSADİ İSLAHATLAR SİYASƏTİ

Cümşüd Qurban oğlu Nuriyev
siyasi elmlər doktoru, professor
Dövlət Gömrük Komitəsinin Akademiyası
nuriyevjumshud@gmail.com

İqtisadi islahatların həyata keçirüməsində yeni mülkiyyət formalarının və münasibətlərinin yaranması, dövlət mülkiyyətinin özəlləşdirilməsi əsas xətt idi. Heydər Əliyev Prezident sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədə giriş sözündə deyirdi: **«Respublikada bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçmək üçün mülkiyyət forması dəyişməlidir, özəlləşdirmə getməlidir» [1].**

Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi haqqında hələ 1993-cü ilin yanvar ayında Milli Məclis qanun qəbul etmişdi. Heydər Əliyev həmin qanunu özəlləşdirməni həyata keçirmək üçün hüquqi əsas yaradan bir sənəd hesab edirdi. Lakin həmin qanunun qəbul edilməsindən sonra respublikada özəlləşdirmə sahəsində heç bir konkret tədbir görülməmişdi. Mülkiyyət münasibətlərinin islahatı üçün hüquqi zəmin olan bu sənədə əsaslanıb fəaliyyət göstərmək üçün imkanlar açılmışdı. Lakin keçmiş Dövlət Əmlak Komitəsi fəaliyyətsizlik göstərmiş, özəlləşdirməyə dair kompleks proqram və onun həyata keçirilməsini təmin edən normativ sənədlər hazırlamamışdı. Komitənin təqdim etdiyi sənədlərdə isə özəlləşdirmənin lazımi miqyasda aparılması nəzərdə tutulmurdu.

Azərbaycan Respublikası Nazirlər Kabineti də özəlləşdirmə prosesini qaydaya salmaq sahəsində zəruri tədbirlər gönnək əvəzinə, respublikada özəlləşdirmə prosesinin inkişafına mane olurdu. 1995-ci il martın 7-də Prezident yanında respublikada özəlləşdirmənin həyata keçirilməsi məsələlərinə həsr olunmuş geniş müşavirə keçirildi. Prezident Heydər Əliyev çıxışında özəlləş-dirmənin ləngiməsinin səbəblərini dərindən təhlil etdi. Onun obyektiv və subyektiv səbəblərini göstərdi. Obyektiv səbəblərə: ölkənin müharibə şəraitində olması, qaçqınlar problemi və s. daxil idi.

Özəlləşdirmə qanununun həyata keçirilməsinin ləngiməsinin subyektiv səbəbləri isə, her şeydən əvvəl, onunla əlaqədar idi ki, müxalifət və eyni zamanda dövlət strukturlarmda təmsil olunan ayrı-ayrı dairələr buna mane olurdular. Əsassız olaraq belə fikirlər yayırdılar ki, guya özəlləşdirməni həyata keçirməkdə ümumi fikir birliyi yoxdur. Guya özəlləşdirməni kimsə həyata keçirmək istəyir, kimsə istəmir, kimsə bunu ləngidir, mane olur, kimsə bunun tərəfdarıdır. Heydər Əliyev bunları respublikamızda ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələr tərəfindən, yaxud dövlətimizin ümumi siyasətinə, o cümlədən, iqtisadiyyat sahəsindəki siyasətinə ləkə salmaq istəyən qüvvələr tərəfindən irəli atılan şaiyə kimi qiymətləndirdi.

1993-cü il yanvarın 7-də Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında qəbul edilən qanun ona görə həyata keçirilməmişdi ki, bu qanunu həyata keçirmək məqsədilə Milli Məclisin yaratdığı Dövlət Əmlak Komitəsi özəlləşdirmə haqqında proqram hazırlamamışdı. Bu faktı da Heydər Əliyev özəlləşdirmənin ləngiməsinin əsas səbəblərindən biri hesab edirdi. Müşavirəyə yekun vuraraq Prezident onun çox əhəmiyyətli olduğunu və gələcək işlərə böyük kömək edəcəyini qeyd etmiş və müzakirələrdən irəli gələn vəzifələri müəyyənləşdirmişdi. Birinci növbədə özəlləşdirməni sistemli şəkildə həyata keçirmək üçün kompleks proqram tərtib olunması vəzifəsi qarşıya qoyuldu. Özəlləşdirilməli olan obyektlər qiymətləndirilməli, müəyyən edilməlidir ki, hansı sahələr mütləq özəlləşdirilməli, hansı sahələr dövlətin mülkiyyəti kimi saxlanılmalıdır.

Özəlləşdirmədə hər bir vətəndaşın payı olmalıdır. Bu paydan istədiyi kimi istifadə etməlidir. Özəlləşdirmədə əhalinin sosial müdafiəsi təmin olunmalıdır. Böyük müəssisələrin səhmdar cəmiyyətlərə çevrilməsi fikrini də Heydər Əliyev təbii hal, özəlləşdirmənin əsas formalarından biri hesab edirdi. Ona görə də dövlət bölməsində qalan sahələrin, özəlləşdiriləcək və özəlləşdirilməli olan digər sahələrdə isə işlərin müddəti, özəlləşdirmənin nə vaxt, hansı müddətdə keçirilməsi proqramda göstərilməli idi. Heydər Əliyev bütün bu məsələlərin tərtib ediləcək dövlət proqramında öz əksini tapmalı olduğunu məsləhət görürdü.

Heydər Əliyev tamamilə haqlı olaraq bildirirdi ki, iqtisadiyyatda strateji xəttimiz, iqtisadi islahatların keçirilməsini, bazar iqtisadiyyatının bütün sahələrdə tətbiq olunmasını nəzərdə tutur. Bazar iqtisadiyyatı Azərbaycanda tam bərqərar olduğu zaman, iqtisadi islahatlar həyata keçirildikdən sonra, şübhəsiz ki, həm Nazirlər Kabinetinin, həm də bütün mərkəzi idarəetmə, icra orqanlarının funksiyaları və vəzifələri daha da təkmilləşməlidir. Onların həm strukturları, həm say tərkibi, səlahiyyətləri dəyişməlidir. Hazırkı struktur isə, xüsusilə, sənaye sahəsində, o cümlədən, ağır sənaye, maşınqayırma sənayesi sahəsində, ümumiyyətlə, başqa sahələrdə də Sovetlər İttifaqı vaxtından qalan strukturdur. O dövrdə respublikamız tərkibində 90-a qədər nazirlik, komitə, şirkət fəaliyyət göstərirdi. Onlardan 64-ü büdcədən maliyyələşdirilirdi. Heydər Əliyev onların bu qədər saxlanılmasına ehtiyac olmadığını bildirmişdir.

1995-ci ilin sentyabr ayının 29-da Ulu öndər **"Azərbaycan Respublikasında 1995-98-ci illər dövlət mülkiyyətinin Özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında"** Azərbaycan Respublikasının Qanunu ilə bağlı fərman imzaladı. Belə ki, 1995-1998-ci illəri əhatə edən dövlət əmlakının ozəlləşdirilməsi üzrə 1-ci dovlət proqramının reallaşdırılmasına başlanıldı. Özəlləşdirmənin başlıca məqsədi, dövlət proqramlarında təsbit olunduğu kimi, təsərrüfat subyektləri üçün xüsusi mülkiyyət və sərbəst rəqabət prinsipləri əsasında öz-özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin yaradılması, iqtisadiyyatın strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması, iqtisadiyyata investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi, əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edirdi.

Dövlət əmlakının özəlləşdirilməsinin uğurla həyata keçirilməsi nəticəsində ÜDM-də özəl bölmənin payı da artdı. Bu göstərici 1996-cı ildə 25 faizdən 1998-ci ildəki 52 faizə qədər yüksəldi. 2000-ci ildə qəbul edilmiş ikinci dövlət proqramı da qarşıda duran bu məqsədə xidmət edirdi. Nəticədə, 1995-ci ildən başlayaraq və indiyədək davam edən özəlləşdirmə prosesi nəticəsində Azərbaycanda kimya, maşınqayırma, tikinti, ticarət, xidmət, eləcə də bank sektoruna və bir sıra digər sahələrə aid müəssələr özəlləşdirildi. Bu illər ərzində 45 minə yaxın kiçik müəssisə və obyekt xüsusi mülkiyyətə verildi, 1600-dan artıq orta və iri müəssisə səhmdar cəmiyyətə çevrildi.

Əmlakın özəlləşdirilməsi prosesində 530 min nəfərdən çox insanı əhatə edən mülkiyyətçilər təbəqəsi formalaşdı [2].

Bundan başqa, 52-dən çox fərman, qanun və digər hüquqi normativ aktlar respublikamızda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı. 1995-ci ildən başlayaraq aqrar sektorun bazar prinsipləri əsasında yenidən qurulması, sovxoz və kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın kəndlilərə paylanması kimi tədbirlər nəticəsində kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş verdi, keyfiyyətcə fərqli münasibətlər formalaşdı. Hələ 1994-cü il dekabırın 10-da keçirilmiş **"Aqrar islatat: problemlər və onların həllin yolları"** mövzusunda beynəlxalq konfrasda çıxış edən ümummilli lider deyib: **"… Biz islahatçı qüvvələrə yol açmalı, islahatları cəsarələ həyata keçirməliyik. Ən əsas prinsiplərdən biri odur ki, gərək xalqımıza, xususən kasıb təbəqəyə, kəndlilərə, daim torpagla bağlı adamlara zərər vurulmasın, əksinə xeyir gətirilsin. İslahatlar yeni sahibkarlar yaradacaq, ancaq aqrar bölmə ilə bağlı hər bir adam öz payını almalıdır. Bu islahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir" [3].** Belə də oldu. Beləliklə də 3.5 milyon adam və ya 874 min ailə pulsuz torpaq payı alaraq onu şəxsi mülkiyyətinə cevirə bildi.

Umumiyyətlə, aqrar sektorda səmərəli təsərrüfatcılığın, sahibkarlığın inkişafının təmini məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara müddətli vergi "tətillərinin" verilməsinə başlandı. Bununla yanaşı, kənd təsərrüfatı məhsulu istehsalçıları torpaq vergisindən başqa bütün digər vergi odəmələrindən azad edildilər. Dövlət əmlakının özəlləşdirilməsi proqramı çərçivəsində kənddə fermerlər təşəkkül tapdı. Bütün bunlarla yanaşı hələ də bəzi sahələrdə mövcud olan çatışmazlıqların tam aradan qaldırılması və iqtisadiyyatın inkişafı üçün dövlət nəzarəti sahəsində həyata keçirilən islahatların davamlı olmasını zəruri edirdi. Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsassız müdaxilələrin qarşının alınması, korrupsiya, rüşvətxorluq və digər vəzifədən su istifadə halları ilə mübarizənin genişləndirilməsi məqsədilə ölkə prezidenti tərəfindən 7 yanvar 1999-cu il tarixli **"Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında"** Fərman imzalandı [4].

Ötən müddət ərzində dövlət nəzarətinin tərkib hissəsi kimi iqtisadi nəzarət sisteminin mühüm həlqələrindən biri olan maliyyə nəzarəti sahəsində də ciddi dəyişikliklər baş verdi. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dövlətimiz iqtisadiyyata birbaşa müdaxilə etmə siyasətindən imtina edərək dolayı vasitələrlə tənzimləmə siyasətinə üstünlük verdi ki, bunlardan da biri səmərəli maliyyə nəzarəti, o cümlədən vergi nəzarəti sisteminin tətbiqi oldu. Bu məqsədlə vergi orqanları tərəfindən aparılan vergi yoxlamaları əsaslı təhlil olundu və burada mövcud boşluqların aradan qaldırılmasına dair müvafiq dəyişikliklər edildi..

Ümummilli lider Heydər Əliyev sahibkarların problemləri ilə müntəzəm maraqlanıb, onlarla mütəmadi görüşlər keçirib və iş adamlarını narahat edən məsələlərin aradan qaldırılması sahəsində ciddi tədbirlərin görülməsini tapşırıb. Belə görüşlərə nümunə kimi Heydər Əliyevin yerli və xarici iş adamları ilə 2002-ci ilin aprel-may aylarında keçirdiyi görüşləri də diqqəti çəkdi. Bu görüşlərdə sahibkarlığın inkişaf yolları araşdırıldı, inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirildi. Avqust-sentyabr aylarında imzalanmış çox mühum fərman və sərəncamlar isə ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoydu. **"Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" [5], "Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" [6], "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-cı illər)" [7]** qəbul edildi. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericilik aktlarında da təkmilləşmələr aparıldı. Belə ki, **"Bəzi fəaliyyət növlərinə xüsusi razılıq verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında"** Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə [8] ölkədə mövcud olan lisenziyalaşdırma sistemi köklü sürətdə təkmilləşdirildi. Lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 8 dəfə azaldılaraq 240-dan 30-a endirildi, sahibkarların lisenziya almaq mexanizmi xeyli sadələşdirilərək lisenziyaların müddəti uzadıldı.

Heydər Əliyevin Azərbaycan Respublikasında azad sahibkarlığın və bazaar iqtisadiyyatı prinsipləri əsasında rəqabət mühitinin formalaşdırılması sahəsində gördüyü bu tədbirlər öz müsbət təsirini göstərdi və özəl sektorun həm ümumi daxili məhsulda, həm də büdcə gəlirlərində xüsusi payı artdı.

Həyata keçirilən siyasət çox tez bir zamanda iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinin baş verməsinə səbəb oldu. Nəticədə inflyasiya cilovlandı, büdcə kəsiri ÜDM-in 1-2 faizi səviyyəsinə endirildi. Bu dəyişikliklər nəticəsində dərin iqtisadi böhran keçirən ölkədə makroiqtisadi sabitliyə nail olundu. 1996-cı ildə ümumi daxili məhsulun artım sürəti 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-2003-cü illərdə isə orta hesabla 10 faiz təşkil etdi. Əmək haqqı, pensiyalar, istifadəyə verilən sosial obyektlər artdı.

Qarşılıqlı iqtisadi əməkdaşlığın gücləndirilməsi yolu milli iqtisadiyyata xarici investiisyanın cəlb edilməsi vəzifəsinin yerinə yetirilməsində "Əsrin müqaviləsi" və eyni zamanda 1995-ci ildə qəbul edilmiş "Xarici investisiyaların qorunması haqqında" qanunun qəbulunun əvəzsiz rolu oldu. Məhz bu müqavilənin imzalanmasına görə iqtisadiyyata xarici sərmayə qoyuluşu 1995-ci ildə 375,1 mln.dollara, 1996-cı ildə 620,5 mln.dollara, 1997-ci ildə 1307,3 mln. dollara, 1998-ci ildə 1472,0 mln. dollara catdı. 1995-ci ilə nisbətən 1998-ci ildə xarici investisiya qoyuluşu 3,8 dəfə artdı. Bu dövrdə Azərbaycan neftinin dünya bazarlarına çıxarılması ücün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı saziş imzalanmaqla ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Neft və qaz satışından əldə olunan gəlirlərin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin muxtəlif sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata kecirilməsinə yönəldilməsi məqsədilə 1999-cu ildə Heydər Əliyevin qərarı ilə Dövlət Neft Fondu yaradıldı. Azərbaycanda Neft Fondu yaradılarkən neft gəlirlərinin gələcək nəsillər üçün toplanması ilə yanaşı, bugünku nəsillərin problemlərinin həlli üçün də istifadə edilməsini nəzərdə tutan model secildi. Qısa müddət ərzində çoxsaylı dövlət proqramları qəbul edildi, infrastruktur sahələrin, sahibkarlığın, ölkədə işgüzar mühitin inkişaf etdirilməsi və məşğulluğun artırılması istiqamətində tədbirlər həyata keçirildi. Həmin layihələrin maliyyələşdirilməsində Neft Fondunun vəsaitlərindən geniş istifadə edildi və bu gün də istifadə olunur. Yəni, bu fondda toplanan vəsaitlər müxtəlif layihələrin malliyyə mənbəyi rolunu oynayır. Bu sahədə Sahibkarlığa Kömək Milli Fondu, 2006-cı ildə yaradılan Dövlət İnvestisiya Şirkəti, banklar da yaxından iştirak edir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yeni iqtisadi siyasət, bazar iqtisadiyyatına keçid, iqtisadi və sosial islahatlar Heydər Əliyevin layiqli davamcısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə ardıcıl həyata keçirilən islahatlar nəticəsində respublika həyatında bütün sahələrdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edildi. Ölkədə sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atıldı və bu da sahibkarlıq mühitinin daha da əlverişli olmasına şərait yaratdı. Son illərdə Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığının azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin azaldılması və sosial yönümlü müxtəlif problemlərin aradan qaldırılması sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlı idi.

Ümumiyyətlə, arxada qalan illər ərzində Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm mərhələ oldu. Azərbaycan prezidenti İlham Əliyev demişdir**: "Biz Ümummilli lider Heydər Əliyevin siyasi kursuna, yaratdığı ictimai-siyasi sabitliyə və iqtisadi bazaya, xalqın möhkəm dəstəyinə söykənərək çox böyük uğurlara imza atmışıq. Həm ölkənin ümumi inkişaf konturlarını, həm də ayrı-ayrılıqda hər bir sahədə görüləcək işləri əhatə edən çoxsaylı dövlət proqramları qəbul olundu və uğurla icra edildi. Bu işlərin görülməsi daxili sosial-iqtisadi inkişafın təminatına, vətəndaşların rifahının yüksəldilməsinə və cəmiyyət qarşısında duran digər problemlərin həllinə mühüm təsir göstərdi. Azərbaycanın yeni neft strategiyasının işə düşməsi bizə bütün gələcək planlarımızı reallaşdırmağa geniş imkanlar açdı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin, daha sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, Xəzərin karbohidrogen ehtiyatlarının ixrac infrastrukturunun yenilənməsi və şaxələndirilməsi**

Azərbaycan neftinin və qazının birbaşa Avropa və dünya bazarına çıxışını təmin etdi ki, bu da təkcə keçən on ilin deyil, bütövlükdə müstəqillik tariximizin ən önəmli hadisələri sırasına daxil oldu" [9].

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. 1-40-cı kitablar. Bakı-2013
2. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı-2002
3. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2005
4. www.president.az
5. https://unec.edu.az/application/uploads/2015/05/sEHLA.pdf
6. http://anl.az/down/meqale/ses/2010/oktyabr/136663.htm
7. https://siyasielmler.wordpress.com/2011/02/05/heyd%C9%99r-%C9%99liyev-v%C9%99-az%C9%99rbaycan-iqtisadiyyatinin-inkisafi/Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı-2007
8. http://anl.az/down/meqale/azerbaycan/2011/sentyabr/200070.htm
9. Nuriyev C., İbrahimov E. Əsgərov Ə. Heydər Əliyev və Azərbaycanın aqrar kursu. Bakı-2004.

HEYDƏR ƏLİYEVİN UZAQGÖRƏN DÖVLƏTÇİLİK, İDARƏÇİLİK VƏ DİL SİYASƏTİ QƏLƏBƏMİZİN TƏMƏLİDİR

[1]İsmayıl Məmmədli, [2]Xatirə Əhmədova
[1]filologiya elmlər doktoru, professor
AMEA Nəsimi adına Dilçilik İnstitutu
sobetetbiqi@mail.ru
[2]filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
hatira_69@mail.ru

Ulu öndər Heydər Əliyevin zəngin irsi xalqımızın milli sərvətidir və bu tükənməz xəzinədən hamıya – hər bir siyasətçiyə, dövlət adamına, iqtisadçıya, diplomata, elm, təhsil və mədəniyyət xadimlərinə, bütövlükdə hər bir ölkə vətəndaşına pay düşür. Bu gün Azərbaycan Respublikası inkişaf etməkdədir və biz buna görə ümummilli liderimiz Heydər Əliyevə borcluyuq. Əminik ki, nə qədər Azərbaycan və Azərbaycan xalqı var, Heydər Əliyev də qəlbimizdə əbədi olaraq yaşayacaqdır.

Bəşər tarixində qəlbi xalq üçün döyünən elə bir görkəmli şəxsiyyət olmayıb ki, o, ana dilinin qayğısına qalmasın, ana dilinin gələcək inkişafı, taleyi haqqında düşünməsin və narahat olmasın. Azərbaycanın tarixi şəxsiyyətləri, yazıçıları, qabaqcıl ziyalıları bütün dövrlərdə ana dilimizin inkişafına, onun saflığına çalışmışlar. Onlar özlərinin əməli fəaliyyətlərində bu sahədə həmişə nümunə göstərmişlər. Böyük demokrat yazıçı jurnalist Cəlil Məmmədquluzadə vaxtilə yazırdı: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir. Ananın südü bədənin mayası olduğu kimi, ananın dili də ruhun mayasıdır. Hər kəs öz anasını və Vətənini sevdiyi kimi, ana dilini də sevir". Bu sözlər ana dilinə sanki bir məhəbbət himni kimi səslənir. XX əsrin 70-ci illərindən Azərbaycan dili, onun nitq mədəniyyətinin inkişafının yeni bir dövrü, intibah dövrü başlandı. Türk dünyasının dahi bir şəxsiyyəti ulu öndər Heydər Əliyevin qızıl qiymətində olan sözlərini nəzərinizə çatdırmağı lazım bilirəm: " Biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, ən çətin vaxtlarda da dilimiz itməyib yaşayıb. Onu xalq yaşadıbdır, eyni zamanda xalqımızın böyük şəxsiyyətləri yaşadıblar."

Heydər Əliyev Mustafa Kamalların, Nəriman Nərimanovların layiqli xələfi kimi, qeyrətli varisi kimi respublikamızda dil quruculuğunda, dilimizin inkişafında, xalqın nitq mədəniyyətinin

zənginləşməsində müstəsna dərəcədə xidmət göstərmişdir. Heydər Əliyevin dövlətçilik, siyasət, iqtisadiyyat, diplomatiya, tarix, maarifçilik, fəlsəfə, estetika, memarlıq, ədəbiyyatşünaslıq, incəsənət sahələri ilə yanaşı, xüsusilə yüksək nitq mədəniyyəti, natiqlik sahəsində fəaliyyəti də xüsusi araşdırmaya layiq mühüm bir məsələdir.

Zəmanəmizdə, bizim ölkəmizdə müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdə etiraf olunan ilk uğurlarını qazandığı bir vaxtda ana dilinin yüksək səviyyədə qayğısına qalmaq doğma xalqın maddi və mənəvi qüvvələrini səfərbər etmək, ana dilinin konstitusiya hüquqlarını bərqərar etmək kimi şərəfli vəzifələri həyata keçirmək ulu öndər Heydər Əliyevin öhdəsinə düşmüşdür.

Ulu öndər Heydər Əliyevin zəngin irsi xalqımızın milli sərvətidir və bu tükənməz xəzinədən hamıya – hər bir siyasətçiyə, dövlət adamına, iqtisatçıya, diplomata, elm, təhsil və mədəniyyət xadimlərinə, bütövlükdə hər bir ölkə vətəndaşına pay düşür:

"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşlarıdır. Əgər buna nail ola bilsəm, mən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna nail olmağa çalışıram və çalışacağam".

Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidməti odur ki, o, Azərbaycan dövlətçiliyini məhv olmaqdan xilas etdi. Onun Azərbaycan xalqı qarşısındakı ən əvəzsiz xidmətlərindən biri də dünya azərbaycanlılarının həmrəyliyinə nail olmasıdır.

Ulu Öndər Yeni Azərbaycan Partiyasının yaradıcısıdır. H.Əliyevin ən müqəddəs arzularından biri Dağlıq Qarabağ probleminin həll olunması idi. Şahidiyik ki, ulu öndərin bu arzusu 44 günlük II Qarabağ müharibəsində gerçəkləşdi (27 sentyabr 2021-8 noyabr 2021-ci il).

Onun ürəyi Azərbaycan qədər geniş, Odlar yurdu kimi hərarətli idi. Sağlığında olduğu kimi, indi də Heydər Əliyev deyəndə Azərbaycanı, Azərbaycan deyəndə Heydər Əliyevi düşünürük. Heydər Əliyev Azərbaycan üçün Tanrının payı idi.

Heydər Əliyevin zəkası, onun ideyaları yaşamış olduğu həyatı boyu, səmərəli fəaliyyəti illərində Azərbaycan torpağı üzərində günəş kimi parlamış, xalqımızın, millətimizin inkişaf yollarını, həyatını nura qərq etmişdir. Azərbaycanlı adını daşıyan hər bir kəs fəxr duyur ki, Ulu Öndər millətimizin başını uca etmiş, ona şərəh gətirmiş, dahi şəxsiyyət Heydər Əliyev şüurlu həyatı boyu, hələ sağlığında öz mübarək adını dünyanın məşhur, sayılıb-seçilən görkəmli dövlət xadimlərinin, tarixi simalarının ünlü siyahısına yazmış və bu səbəbdən də yer üzündəki 70 milyon azərbaycanlı fəxarət duyur. Heç kəsə sirr deyil ki, Heydər Əliyev Respublikamızda müxtəlif ictimai-siyasi formasiyalara rəhbərlik etmişdir. Onun Azərbaycana rəhbərlik illərini iki mərhələyə ayıra bilərik. 1969-1985-ci illər Heydər Əliyevin rəhbərliyinin birinci mərhələsini əhatə edir. Bildiyimiz kimi, həmin dövrdə Azərbaycan keçmiş Sovet İttifaqının tərkibində idi. O da bəllidir ki, Heydər Əliyev ittifaq büdcəsindən Azərbaycan Respublikasının daha çox vəsait ayrılması üçün sözün əsil mənasında fədakarlıq, qətiyyət göstərmişdir.

Böyük tarixi şəxsiyyətin, ulu öndərin uzaqgörənliyi bu günümüzdə hər bir vətən övladında sevinc və dərin heyrət doğurur. Azərbaycan Respublikasının uzaqgörən rəhbəri Sovet İttifaqı dönəmində belə gələcəyi düşünür, ölkəmizin nə vaxtsa müstəqilliyə qovuşacağına ürəkdən inanır və irəlicədən bunun üçün güclü maddi-texniki baza, təminat yaratmağa var qüvvəsi ilə çalışırdı.

Heydər Əliyevin hakimiyyətinin ikinci mərhələsi respublikamızın müstəqilliyinə 1993-2003-cü illərə təsadüf edir. Həmin dövrdə 1993-cü ilin iyununda Ulu Öndərin ali hakimiyyətə başladığı zaman ölkəmizdə ağlasığmaz dərəcədə ağır vəziyyət hakim idi: ayrı-ayrı antaqonist qüvvələr, nadan, səriştəsiz siyasətçilər Azərbaycanı vətəndaş qarşıdurmasına gətirib çıxarmışdılar, müstəqil-liyimizi itirmək təhlükəsi, ölkənin parçalanması təhlükəsi yaranmışdı. Belə çətin anda, belə ağır, çıxılmaz vəziyyətdə Azərbaycanın o zamankı rəhbərləri, xalq, xalqın müdrik ziyalıları öz böyük oğlu – xilaskar oğlu Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular, ona Azərbaycana rəhbərlik etməyi təklif etdilər. Xalqının etimad dolu səsinə Heydər Əliyev qətiyyətlə cavab verdi, razılaşdı, millətə arxa durdu, özünəməxsus müdrikliklə yaranmış xaosu aradan qaldırdı və Azər-baycan Respublikasını ahəngdar inkişaf relslərinin üstünə çıxardı, nizam-intizamı normaya saldı, dövlətçiliyi bərqərar etdi. Xalqın böyük rəhbəri Bakıya gəldikdən sonra 1993-cü ilin may–iyununda birinci növbədə həmişə olduğu kimi ölkədə vətəndaş müharibəsinin baş verəcəyi və müstəqilliyin

itirilməsi təhlükəsi yaranacağı kimi tarixi hadisələrin gedişində də məhz Azərbaycan xalqına, onun aparıcı qüvvələrinə, o cümlədən yaradıcı ziyalılarına etibar etmiş, onlara arxalanmışdır.

Heydər Əliyevin rəhbər olduğu illərdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük və ölçüyə sığmaz tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün narahat olduğu, düşündüyü, qayğı göstərdiyi doğma yurdu Azərbaycan Respublikasını bir dövlət kimi zamanın ağır, çətin və sərt sınaqlarından çıxarmışdır. O, böyük dövlət və siyasi xadim, müdrik rəhbər, xalqın lideri olaraq hələ sağlığında belə canlı əfsanəyə dönmüş, buna görə də Heydər Əlirza oğlu Əliyev fenomeni həmişə diqqətləri cəlb etmiş, dünya azərbaycanlılarının bu ümummilli liderinin heyranlıq doğuracaq dərəcədə, ağlasığmaz miqyasda coşqun siyasi fəaliyyəti həm Azərbaycan, həm də dünya mətbuatında geniş işıqlandırılmışdır.

Heydər Əliyev Azərbaycanı daim demokratik bir respublika kimi görmək istəyirdi, bunu da öz ömründə görə bildi. Onun ömür salnaməsində yaşamaq, mübarizə aparmaq, taleyin, qüdrətin ona verdiyi sehirli və tükənməz enerjidən istifadə etmək yazılmışdı. Bu enerjidən faydalanarkən o heç bir zaman yanılmadı. O, siyasətdə də, ailə həyatında da, Tanrı qarşısında da öz mənəvi borcunu ödədi. Vətənə layiqli övladlar yetirdi, ölkəmizi müstəqil etdi, imperiya buxovlarını qırdı.

Bütünlükdə onu demək istərdik ki, Ulu Öndərin rəhbərliyi altında keçən illər Respublikamız üçün sabitliyin möhkəmlənməsi, "İqtisadi dirçəliş və çiçəklənmə" nüfuzlu beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə sıx əməkdaşlıq qurulması əhalinin rifah halının yaxşılaşması illəri olmuşdur.

DİZEL YANACAĞININ ADSORBENTLƏRLƏ AROMATİKSİZLƏŞDİRİLMƏSİ VƏ ONUN TƏRKİBİNƏ ƏLAVƏLƏRİN TƏTBİQİ

[1,2]**Təranə Aslan qızı Məmmədova,** [1,3]**Nüşabə Musa qızı Əliyeva,**
[1,4]**Arzu Mütəllim qızı Mikayılova,** [1]**Şəbnəm Yabil qızı Aydınova,**
[1]**Təranə Serafim qızı Lətifova**
[1]ETN akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
[2]texnika elmləri doktoru, professor
[3]kimya üzrə fəlsəfə doktoru
[4]arzu.mikayilova1988@mail.ru

Günümüzdə qlobal problemlərdən biri ətraf mühitin qorunması problemidir. Ekoloji cəhətdən daha təhlükəsiz yanacaqların alınması elmi və praktik maraq doğurur. Hazırda ekoloji təmiz dizel yanacaqlarının alınmasında əsas istiqamətlər onun aromatik karbohidrogenlərdən təmizlənməsi və tərkibinə müxtəlif oksigenli birləşmələrin əlavə kimi istifadə edilməsidir [1-4].

Dizel yanacaqlarının aromatik birləşmələrdən təmizlənməsi prosesi iqtisadi cəhətdən əlverişli adsorbentlərdən istifadə etməklə, həmçinin maqnit sahəsi təsirində adsorbsiyalı aromatiksizləş-dirilmə ilə aparılmışdır. [3]. Bu məqsədlə yanacağın ekoloji göstəricilərini yaxşılaşdırmaq üçün müxtəlif adsorbentlərdən istifadə etməklə onu aromatiksizləşdirib və tərkibində aromatik karbohid-rogenlərin miqdarı 11 kütlə %-dən az olan dizel yanacağı alınmışdır. Bunun üçün yerli yataqlardan götürülmüş və işlənib hazırlanmış AZ-4, БАУ-А markalı aktivləşdirilmiş kömür və Seokar-600 markalı katalizatorlar adsorbent kimi götürülmüşdür. Nəticədə otaq temperaturunda maqnit sahəsi altında adsorbsiyadan sonra dizel yanacağının tərkibindəki aromatik karbohidrogenlərin miqdarı AZ-4 katalizatorundan istifadə etməklə 10,2 kütlə %, БАУ-А katalizatoru ilə 8,5 kütlə %, Seokar-600 katalizatoru ilə 15,2 kütlə % təşkil edir. Qeyd etmək lazımdır ki, ilkin istifadə olunan dizel yanacağının tərkibində aromatik karbohidrogenlərin miqdarı 16,4 % küt. təşkil edir.

Yanacaqların ekoloji göstəricilərini yaxşılaşdırmaq üçün müxtəlif əlavələrdən istifadə edilir. Bunun üçün əmtəə dizel yanacağının (ƏDY), daha sonra isə aromatiksizləşdirilmiş dizel yanacağının (ADY) tərkibinə 5 % küt. miqdarında pambıq yağı turşularının mürəkkəb butil efirləri əlavə kimi tətbiq olunmuşdur. Nəticədə aromatiksizləşdirilmiş dizel yanacaqlarına pambıq yağı əsasında sintez edilmiş butil efirlərini əlavə etdikdə alınmış kompaundların keyfiyyət göstəricilərinə

müsbət təsir etmişdir. Bu faktorlar arasında setan ədədinin artması, alışma temperaturunun artmasını, əlavə olunan biodizel efirlərinə uyğun olaraq aromatik karbohidrogenlərin və kükürdün azalmasını qeyd etmək olar.

Cədvəl 1

Əmtəə DY və aromatiksizləşmiş dizel yanacağının pambıq yağı turşularının butil efirləri ilə 5 % kompaundlarının fiziki-kimyəvi xassələri

Göstəricilərin adı	EN-590 (2004)	ƏDY+PYBE	ADY+PYBE
		5 %	
Kin.özlülük, mm^2/san	2,0-6,0	3,62	3,8
Sıxlıq, kq/sm^3 20 ℃	860,0	841,0	822,0
Donma temperaturu, ℃, çox olmamalı	-10 (-35)	-34	-29
Alışma temperaturu, ℃	55	79	80
Bulanma temperaturu, ℃, çox olmamalı	-10(-25)	-24	-17
Yod ədədi, yod q/100q, çox olmamalı	6	4,6	4,70
Küllülük, %	yoxdur		
Ümumi kükürd, %	0,005-0,001	0,0097	0,0023
Aromatik karbohidrogenlərin miqdarı, % küt.	15,0	24,8	0,8
Turşuluq, mq KOH/100q	5	1,25	0,23
Setan ədədi	51	49	51
100 sm^3 yanacaqda qatranın faktiki miqdarı, mq, çox olmamalı	25	4.3	17,5

İstifadə edilmiş ədəbiyyat

1. Abou-Shana, RAI., Hwang, J.H., Cho, Y.Characterization of microalgal species isolated from fresh water bodies as a potensial source for biodiesel production. Appl. Energy,-2011. V.88(10), - pp.3300-3306

2. Маммадова Т. Тагиева А., Сафарли И., Латифова Т., Айдынова Ш. Адсорбционная деароматизация дизельной фракции. BANM, Ümummilli lider H.Əliyevin anadan olmasının 99-cı ildönümünə həsr olunmuş tələbə və gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransları 18-29 aprel 2022, Bakı, s. 340-341

3. Məmmədova T.A., Abbasov M.M., Aydınova Ş.Y., Tağıyeva A.F., Əliyeva S.K., Məmmədova E.İ. İon mayelərdən istifadə etməklə dizel yanacağının ekstraksiya ilə kükürdlü və aromatik karbohidrogenlərdən təmizlənməsi prosesinin tədqiqi. AMEA Gəncə bölməsi "Xəbərlər Məcmuəsi" "Təbiət və texnika elmləri" seriyası, No1 (84), Gəncə, 2022, s. 14-21.

4. Mövsümov E., Quliyeva L. Ətraf mühitin kimyası. Ali məktəblər üçün dərslik (II nəşr). Bakı:"MBM", 2010. 184 s.

HEYDƏR ƏLİYEV VƏ NEFT SEKTORUNUN İNKİŞAFI

[1,2]**Səyyarə Qulam qızı Əliyeva,** [1,3]**Elnara Mürvət qızı Quliyeva,** [1,4]**Minarə Nəbi qızı Bayramova**
[1]ETN akademik Y.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutu
[2]texnika elmləri doktoru, dosent
[3]kimya üzrə fəlsəfə elmləri doktoru
[4]guliyevaelnara65@gmail.com

Bəşəriyyətin ən ali varlığı insan... Anadan olur, yaşayır və həyatı tərk edir. Amma hər bir kəs öz əməlləri ilə bir iz qoyub gedir. Həmin izin böyük və ya kiçikliyindən asılı olaraq həmin insanın yaşam həyatından sonrakı həyatının müddəti məlum olur. Tarix boyu çox böyük şəxsiyyətlər dünyaya gəlmiş, gördükləri böyük işləri və əməlləri ilə yadda qalmış və unudulmazlar siyahısına yazılmışlar. Bu baxımdan, Azərbaycan xalqının böyük oğlu, dünya şöhrətli ictimai-siyasi xadim, müstəqil Azərbaycan dövlətinin xilaskarı, Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin özünəməxsus həyatı və özündən sonra miras qoyduğu əməlləri bizə bir örnəkdir [1].

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkəmizin nüfuzunu artırmış, hərtərəfli inkişafa nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. İstər keçmiş Sovetlər Birliyində, istərsə də müstəqillik illərimizdə Ümummilli Liderimizin siyasəti hər bir sahədə: elm və təhsildə, ordu quruculuğunda, neft sektorunda, xarici və daxili iqtisadiyyatda və s. özünəməxsus olmuşdur. Heydər Əliyev dünya praktikasını və yerli xüsusiyyətləri nəzərə alaraq xalqı və dövləti üçün lazım olan düzgün qərarlar qəbul etməyi bacaran bir şəxsiyyətdir.

Ulu Öndər zaman-zaman qəbul etdiyi qərarları ilə müstəqil Azərbaycan Respublikasının təməlini qoymuşdur. Vaxtilə Cəmşid Naxçıvanski adına Ali Hərbi məktəbin açılması ilə gələcəkdə müstəqil Azərbaycan Ordusunun yaradılması üçün bir addım atılmışdır. Eynilə, 70-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin hökumət orqanları tərəfindən Azərbaycanın neft emalı zavodlarının modernləşdirilməsi proqramı gündəmə gətirilmişdir. O dövr üçün yeni bir texnoloji proses olan katalitik riforminq qurğusunun – dünyada beşinci, Sovetlər Birliyində isə birinci olan bir qurğunun məhz Bakıda quraşdırılması böyük hadisə idi. Bu riforminq qurğusunun işə salınması ötən əsrin 70-ci illərində Azərbaycanda neft emalının qüdrətli bir sənaye sahəsinə çevrilməsinə səbəb olmuşdur. Ümummilli Liderimiz Heydər Əlirza oğlu Əliyevin şəxsi təşəbbüsü və böyük qayğısı sayəsində Yeni Bakı Neft Emalı Zavodu daha bir yeni və müasir qurğuya sahib olmuşdur. Müəssisənin ELOU-ABT-6 qurğusu çox qısa bir müddətdə tikilmiş və 1976-cı ildə istifadəyə verilmişdir. Onun işə düşməsi ilə zavodda neft emalının həcmində və neft məhsullarının istehsalında ciddi dəyişikliklər baş vermişdir. Zavodda ELOU-ABT-6 qurğularının məhsuldarlığının artması katalitik krekinq qurğularının keyfiyyətli vakuum qazoyl məhsulu ilə təmin olunması işini xeyli yaxşılaşdırdı. Qurğunun tam mənimsənilməsi ilə zavodda istehsal olunmuş əmtəəlik məhsulun həcmi əvvəlki illərə nisbətən 49,1 milyon rubl artaraq 232,6 milyon rubla çatdırıldı [2]. Böyük və haqlı bir qürur hissi ilə qeyd edə bilərik ki, ötən əsrin 70-ci illərində neft emalı müəssisələrində istifadəyə verilmiş qurğular və istehsal sahələri müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmlənməsi işində bu gün də çox mühüm rol oynayır.

Ümummilli Liderimiz eyni zamanda elm və texnologiya sahəsinin inkişafına da xüsusi diqqət ayirmışdır. Onun xüsusi diqqəti nəticəsində Azərbaycanda riyaziyyat, kibernetika, fizika, kosmik tədqiqatlar, kimya, biologiya, tibb, geologiya, həmçinin humanitar elmlər sahəsində bir sıra mühüm nailiyyətlərə imza atılmışdır. Ali təhsil müəssisələrində təhsil alan istedadlı gənclərin elmə, elmi və elmi-pedaqoji fəaliyyətə cəlb edilməsi üçün mühit, doktorantların elmi tədqiqatlar aparması məqsədilə Azərbaycan Elmlər Akademiyası institutlarında, elm-sənaye birliklərində iş yerləri yaradılmışdı. Elmlər namizədləri və elmlər doktorlarının sayı səksəninci illərdə 1969-cu ilə nisbətən 1,7 dəfə artmışdır. 70-ci illərdə Azərbaycanda yeni ali məktəblərin, fakultələrin və elmi-tədqiqat institutlarının yaradılması, hər il mindən çox gəncin təhsil almaq üçün keçmiş Sovetlər Birliyinin aparıcı ali məktəblərinə göndərilməsi təkcə həmin dövr üçün aktual deyildi, bu həm də gələcəkdə qurulacaq müstəqil respublikamızın elmi inkişafının təməli idi [3]. Müstəqillik illərində Heydər

Əliyevin yenidən hakimiyyətə qayıdışı respublikamızın gələcəyi üçün yeni bir tarixi hadisə idi. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusudur. 10 oktyabr 1993-cü ildə Ümummilli Liderimiz müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi and içərək vəzifəsinin icrasına başlamışdır. "Ömrümün qalan hissəsini xalqıma bağışlayıram" deyə o, həm öz həyatında, həm də ölkəmizin tarixində yeni səhifələr yazmışdı [4].Onun uzaqgörən siyasəti sayəsində bütün sahələrdə olduğu kimi, neft sahəsindəki müzakirə və danışıqlar da öz bəhrəsini vermişdi. 20 sentyabr 1994-cü ildə Bakıda "Gülüstan" sarayında müstəqil Azərbaycanımızın tarixində mühüm hadisə baş vermişdir. Azərbaycan xalqının müstəqilliyi həyatında xüsusi məqam sayılan "Əsrin müqaviləsi" imzalanmışdır. Bu müqavilədən sonra "qara qızılımız" sayılan Azərbaycan nefti müstəqil dövlətimizin gələcək "ağ" günlərinin müjdəçisi missiyasını qazanmış oldu.

Əsrin müqaviləsinin imzalanmasından sonrakı illərdə Ümummilli lider Heydər Əliyevin "Yeni neft strategiyası" çox böyük uğurla günümüzün reallığına çevrilmişdir. Ulu Öndərimiz də bunu xüsusi vurğulamışdır: "Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün, eləcə də gələcəkdə xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir". O, özünün nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə doğma Azərbaycanımızda keçmiş Sovetlər Birliyindən miras qalmış rejimlə daban-dabana zidd olan demokratik-hüquqi dövlət yaratmağı bacarmışdır. "Əsrin müqaviləsi"nin ardınca "Bakı-Tbilisi-Ceyhan" boru kəməri layihəsinin həyata keçirilməsi üçün danışıqlar başlanılmış, 18 noyabr 1999-cu ildə saziş imzalanmışdır. Bu layihə tamamlandıqdan sonra müstəqil Azərbaycanımızın maraqları daha da möhkəm qorunacaq, ölkəmizdə hasil olunan neft birbaşa dünya bazarına çıxış əldə etmiş olacaqdı.

Hazırda hasil olunan neft və qaz ehtiyatları dünya bazarlarına bir neçə istiqamətdə çıxarılır. Onlar Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tibilisi-Ərzurum kəmərləridir. Bundan əlavə, "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində TANAP qaz kəməri də istifadəyə verilmişdir. Ulu Öndərimiz çox gözəl demişdir: "Azərbaycan bütün dünyaya bir günəş kimi doğacaqdır" [5]. Həqiqətən də elədir. Hazırda onun layiqli və vəsiyyətinə sahib çıxan gözəl davamçısı olan İlham Heydər oğlu Əliyev sayəsində dünya ölkələri arasında öz sözünü deyə bilən bir dövlətimiz var. Xarici dövlətlər bir çox məsələlərdə artıq müstəqil Azərbaycan Respublikasının fikri ilə razılaşırlar [6].

2020-ci ildə 44 günlük müharibədə və 2023-cü ilin sentyabrında tam bir gün olmayan antiterror əməliyyatında qazanılan qələbələr buna bariz nümunədir. Həmişə "azərbaycanlı" olması ilə fəxr edən Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev hər bir azərbaycanlının qəlbində daim yaşayacaqdır. İllər keçməsinə baxmayaraq, onun haqqında keçmiş zamanda danışmaq olmur. Onun vəsiyyəti və gələcəklə bağlı arzuları xalqımızın yoluna bir mayak kimi həmişə parlaq işıq saçaraq yol göstərəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov V.M. "Liderlik fəlsəfəsi", Bakı, 2013-cü il, 232 s.
2. Akimov K.Ə. "Qara qızılın Kamillik dövrü", Bakı, 2007-ci il, 256 s.
3. "Heydər Əliyev və Azərbaycanda intellektual potensialın inkişaf dinamikası", ADPU-da Pespublika elmi konfransı (videokonfrans), 19 iyun 2020-ci il;
4. Hacıyev İ.M. "Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası", Bakı, 2003-cü il, 164 s.
5. "Heydər Əliyevin Azərbaycan elmi və təhsilində rolu", toplu, Bakı, 2013-cü il, 208 s.
6. "Heydər Əliyev – Müstəqilliyimiz əbədidir", elmi-biblioqrafik göstərici, Bakı, 2013-cü il, iki cilddə

MAYE KRİSTAL-$Cu_3In_5S_9$ KONTAKTININ ELEKTRİK XASSƏLƏRİ

[1,2]**Adilə Ziyat qızı Abasova,** [1,3,4]**Lyudmila Həmid qızı Həsənova,**
[1,3]**Əlinağı Zəkəray oğlu Məhəmmədov,** [1,3]**Sona Əli qızı Cahangirova**
[1]Bakı Dövlət Universiteti
[2]fizika-riyaziyyat elmləri doktoru, professor
[3]fizika-riyaziyyat elmləri namizədi, dosent
[4]ludmilahasanova@mail.ru

Maye kristallar (MK) mühüm fiziki xassələrə malik olub, optik informasiyanın əks etdirilməsində və təhlil edilməsində geniş tədqiq edilir. MK-da baş verən fiziki hadisələri öyrənmək üçün yuva hazırlanır ki, o da metal ya yarımkeçirici elektrodlar arasında yerləşdirilmiş nazik MK təbəqəsindən ibarətdir. MK-yarımkeçirici sərhəddində baş verən elektrofiziki proseslər hazırlanmış elementlərin xassələrinə və işləmə prisipinə çox təsir edir.

İşdə $Cu_3In_5S_9$ üçqat yarımkeçirici birləşməsindən istifadə olunmuşdur. $Cu_3In_5S_9$ layvari quruluşa və n-tip keçiriciliyə malik olan monoklin strukturda kristallaşır, a=6,60; b=6,94; c=8,12 A^0; β=89^0; z=1 [1]. Yarımkeçirici ilə elektrolit arasında yükdaşıyıcı mübadiləsi üçün elektrolit yarımkeçiriciyə çox yaxınlaşmalıdır ki, onun ionu yarımkeçiricidən elektron ola və ya verə bilsin.

Elektronun keçirici zonadan elektrolitin sərbəst enerjisinə [OX] keçmə sürəti keçirici zonanın hal sıxlıqları ilə [N_a] elekrolitin oksidləşdiricisindəki vakant səviyyələrin E_c səxlığından və çəpərdən keçidin ehtimalını xarakterizə edən v – kvant mexaniki tezlik vuruğundan aılıdır:

$$W = vN_cC_{OX}\,exp\left[\frac{(E_c - E_{OX})^2}{4\lambda kT}\right],$$

C_{OX} – oksidləşdiricinin konsentrasiyasıdır. İşlənən maye kristal aşağıdakı tərkibdədir:



Ölçmələrin aparadıldığı qəfəs iki paralel keçirici lay arasına yerləşdirilmiş MK-dan ibarətdir. Keçirici lay olaraq şüşə üzərinə çökdürülümş 10^{-4} sm qalınlıqlı SnO_2, Zn_2O_3 və ya Al nazik təbəqələr, MK-ın sahəsi isə 1 sm^2 götürülmüşdür. Müxtəlif temperaturlarda ölçü aparmaq üçün ölçmə qəfəsi temperaturu 100 ^{0}C-yə qədər qaldırıla bilən termostatda yerləşdirilir. MK-$Cu_3In_5S_9$ arasında diod strukturu hazırlanarkan $Cu_3In_5S_9$-dan istənilən qalınlıqda lay ayırmaq olur və alınmış layların təbii səthi güzgü parıltısına malik olduğundan nümunələrin mexaniki işlənməsinə ehtiyac qalmır.

Maye kristalın qalınlığı teflon aralıqda görə seçilir (~ 20 mkm). $Cu_3In_5S_9$ tərəfdən omik kontakt olaraq In və ya gümüş pastası, MK tərəfdən isə SnO_2 götürülmüşdür. Müxtəlif temperaturlarda hazırlanmış nümunələrin volt-amper xarakteristikaları diod xarakteri daşıyır (şək. 1). U=2,5 V olduqda VAX-dan hesablanmış düzləndirmə əmsalı ~ 10 olub, gərginlik artdıqca artir. VAX-ların təhlili göstərmişdir ki, U≤2 V gərginliklərdə düz bucaq eksponensial qanuna tabe olur:

$$I = I_0 e^{\frac{eU}{\beta kT}},$$

burada I_0=10^{-10} A/sm^2; β=10 – 20. β – qeyri-ideallıq əmsalının belə böyük olması, MK-nın böyük müqavimətə malik olmasıdır.

Belə asılılıq təstiq edir ki, fazaların sərhəddində ikiqat lay yaranır, yarımkeçiricinin səthində kasadlaşmış lay olur, tətbiq olunan gərginlik artdıqca, layın qalınlığı azalır. Gərginliyin U≥2 V VAX-ların düz istiqamətində xətti hissə müşahidə olunur. Lakin müqavimətin böyük olması kontakt potensiallar fərqini dəqiq təyin etməyə imkan vermir, təqribi qiymət isə 1,7 V-dur. Çox guman ki, bu həqiqi qiymətdən bir qədər böyükdür, belə ki, tətbiq edilən gərginliyin xeyli hissəsi MK-nın həcminə düşür və cərəyan əyriləri bütövlükdə böyük gərginliklərə doğru sürüşür.

Gərginliyin U≥2 V qiymətlərində əks istiqamətdə VAX:

$$I \sim exp\left(B/\sqrt{U}\right)$$

asılılığı ilə xarakterizə olunur. Burada B sabitdir [2].



Şək. 1. SnO_2-MK-$Cu_3In_5S_9$ strukturunun volt-amper xarakteristikası.
1 – düz istiqamətdə; 2 – əks istiqamətdə

Müəyyən olunmuşdur ki, SnO_2-MK-$Cu_3In_5S_9$ strukturunda düzləndirmə əmsalı temperaturun artması ilə kəskin azalır (şək. 2).



Şək. 2. SnO_2-MK-$Cu_3In_5S_9$ strukturunun düzləndirmə əmsalının temperaturdan asılılığı

Bu azalma $Cu_3In_5S_9$ monokristalının və MK-ın keçiriciliyinin artması ilə izah olunur. Keçiriciliyin artması ilə diffuziya potensialı və yartımkeçirici və MK tərəfdən həcmi yüklər oblastı kiçilir. VAX-ların düz istiqamətdə qütbləşməsi onu göstərir ki, baxılan MK n-tip $Cu_3In_5S_9$ monokristalına nəzərən elektrokimyəviliyi mənfidir və deməli, n-$Cu_3In_5S_9$ kristalının səthinə mənfi yük induksiya etdirir və termodinamik tarazlıq halında müsbət həcmi yüklərlə kompensasiya olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Тагиров В.И., Гахраманов Н.Ф., Алиев Ф.М. Гусейнов А.Г. Некоторые фундаментальные характеристики новых полупроводниковых соединений типа $A_3^I B_5^{III} C_9^{VI}$. ФТП, 1980, 14, вып. 1., с. 1403-1405.

2. Абдуллаев Г.Б., Искандерзаде З.А. Некоторые вопросы физики электронно-дырочных переходов. Изд. Элм, Баку, 1971, с. 245.

TRADITIONS OF RELIGIOUS TOLERANCE IN AZERBAIJAN
laid down by national leader Heydar Aliyev

Lala Movsumova
doctor of philosophical science
Institute of Philosophy and Sociology of the National Academy of Sciences of Azerbaijan
lalamovsum@mail.ru

1. Azerbaijan is a secular state in which people of various nationalities and religions have lived side by side for centuries in peace. Religion is separated from the state in a political sense, but from the point of view of spiritual self-awareness, enlightenment, personal freedom, it forms a single whole with it. November 16 has been declared by UNESCO as the International Day of Tolerance since 1995. In the same year, the UNESCO General Assembly adopted the "Declaration on the Principles of Tolerance", which documented the recognition that "human beings by nature differ in appearance, position, speech, behavior and values and have the right to live in peace and preserve their individuality". Paying tribute to the memory of the late national leader Heydar Aliyev, it should be noted that the principle of tolerance has always remained cornerstone in his state policy. It can be stated with full responsibility that the foundation for the civilized future of our country and the foundation of sociocultural and religious tolerance was laid by Heydar Aliyev. The building of tolerance there began to be preserved by his successor, President Ilham Aliyev. This undoubtedly constitutes one of the foundations that helps modern Azerbaijan to effectively develop and move forward.

2. It is known that the truth begins its journey with a minority, and often it is born in the head of one, seemingly heretic, person. However, something else is also known: democracy consists in the fact that it expresses the will of the majority of the people, and the very fact of the existence of a special opinion of a minority does not guarantee its correctness or truth. The path to resolving such a contradiction is pluralism, clash of opinions, tolerance for dissent, the ability to conduct dialogue, a high culture of political discussions and legal protection for minorities. Tolerance and the ability to find mutually acceptable solutions are especially necessary in the field of interreligious relations. This, first of all, is manifested in the construction of a rule of law state, consistent, radical democratization of society and the development of a political mechanism that creates reliable guarantees against any manifestations of religious intolerance, against infringement of the interests and rights of all groups of the population, of each individual person.

3. It would be a mistake to believe that the dispute between religious and secular worldviews has been settled. At one time, the artificial transformation of a thousand-year-old dispute between worldviews has already led to a sharp mental degradation of atheism. It would be no less a mistake, however, to ignore the fact that the maturation of such global problems as the threat of nuclear and environmental destruction, the aggravation of contradictions between scientific, technical and moral progress put universal human interests above ideological contradictions. It is these and other real problems of our time that are the platform on which dialogue, cooperation and at the same time a kind of competition and discussion of believers of different faiths unfold. For us, citizens of the sovereign Republic of Azerbaijan, as well as for all citizens of the world, there is now no task more

important or urgent than saving the world from a nuclear, environmental disaster, than implementing the policy of our government aimed at democratizing all spheres of social development. Without this, the growth of well-being, culture of people, and the spiritual elevation of society are unthinkable today.

4. At the end of the twentieth century, due to changes in the social system in some countries, on the basis of some religious differences, the issue of a clash of civilizations became relevant and, unfortunately, there were many supporters of this clash. In these conditions, in order to preserve different cultures, the implementation of interreligious dialogue is a very important matter. From this point of view, the experience of countries with rich traditions of tolerance and religious tolerance can be a model for others. A unique example of such countries is Azerbaijan, where tolerance has become an established national-traditional feature of all peoples inhabiting this country.

5. At the present stage, the religious policy of the Azerbaijani government is based on the course of building a democratic state by Heydar Aliyev. The socio-political stability, national-spiritual harmony, and ethno-religious tolerance that have taken root in the country are the logical result of this successful policy, enriched by progressive historical traditions. Today, our country has created the necessary political and legal conditions to ensure freedom of conscience and religion in accordance with the Constitution of the Republic of Azerbaijan, as well as the requirements of international legal documents. The Republic has developed a unique model of state-religious relations, based on mutually respectful dialogue between secular authorities and traditional religious communities. World religions traditionally operate in the country in conditions of mutual trust and cooperation.

6. Traditions of tolerance and tolerance, formed and strengthened throughout history in Azerbaijan, which became an arena for the spread of various religions and religious-philosophical movements, turned into national-spiritual, national-moral values of the Azerbaijani people and all other peoples historically living on the territory of this great countries. Tolerance and the ability to live in peace with representatives of other religions is one of the main features of the mentality of the Azerbaijani people.

7. Azerbaijan presented the world with a rare wealth of culture. He gained experience in interreligious dialogue between Muslims and representatives of other religions, both within the country, and religious tolerance between Muslims and representatives of other religions in a vast area beyond its borders. At the same time, it becomes sufficient not only to explain the concept of tolerance, but, first of all, one should act in accordance with it, demonstrating this through personal examples. This is a two-way process of open dialogue and the effect can only be achieved with patience on both sides. At the same time, dialogue is effective only in a situation where both parties not only understand each other's language, but also want to come to an agreement. Tolerance is not a concession, condescension or pandering, but the ability of a person, community, state to hear and respect the opinions of others. Tolerance should be understood not only in the meaning of tolerance towards people of different races, nationalities, beliefs, religions, but also as a general principle of social trust.

8. The process of globalization, which is increasingly intensifying and uniting peoples over time, seems to deepen the features caused by religious differences between them. We currently live in an era of increasing religious bias on a global scale, and sometimes even conscious confrontation on religious grounds. From this point of view, the implementation of religious tolerance, tolerance and interreligious dialogue seems necessary and even inevitable.

9. In general, inciting interreligious hatred and enmity is extremely dangerous for humanity and is extremely unacceptable. To prevent this, it is necessary to develop intercultural dialogue and interreligious cooperation. In our time, meetings and discussions held under the name of intercultural dialogue in the field of international relations have in recent years become one of the areas of research and have formed a large literary fund. In the practice that exists to this day in the field of interethnic dialogues, we see two forms or two possibilities: the first of them is the emergence of common cultural elements, and the second, if we consider the distinguishing points, is

cultural wealth that arises and is formed from cultural differences. Both of them serve as a positive factor in dialogue. That is why both the state and civil society must respect the values of all religions and beliefs related to all humanity, demonstrate religious tolerance, suppress any steps related to religious hostility, religious insults and thus develop interreligious dialogue aimed at establishing peace, cooperation between peoples and civilizations.

ƏLİYEV VƏ MƏNƏVİ TƏRBİYƏ KONTEKSTİNDƏ VƏTƏNPƏRVƏRLİK

Ziba Bahadır qızı Ağayeva
fəlsəfə elmləri doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
ziba.agayeva57@gmail.com

Xalqın tarixi yaddaş və mənəvi irsinin bərpası və mühafizəsinə xidmət edən fəaliyyətin həyata keçirilməsi, zəngin daxili aləmə malik sovet vətəndaşı adı altında milli ruhlu azərbaycanlılar nəslinin yetişdirilməsi üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması daima ulu öndərin diqqət mərkəzində saxladığı məsələlərdən olmuşdur.

Hakimiyyətə gəldiyi ilk illərdən Ulu Öndər xalqın mənəvi səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atırdı. İdeoloji işi daha da gücləndirmək sahəsində Respublika Partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK Plenumunda ulu öndər insanların mənəvi aləminin zənginləşməsində incəsənətin, müsiqinin, təsviri sənətin, teatrın, kinonun təsirinin əvəzolunmaz rolunu qeyd edərək deyirdi: "Incəsənət zəhmətkeş-lərin kommunist tərbiyəsində, insanın mənəvi aləminin zənginləşməsində, şəxsiyyətin ahəngdar inkişafında mühüm vasitədir. Azərbaycan incəsənətinin ən yaxşı əsərləri respublikanın hüdudlarında uzaqlarda da böyük şöhrət qazanmışdır" [1; 6].

Bütövlükdə, Ulu Öndər insanların əxlaq tərbiyəsinə olduqca böyük önəm verir, insanların şüurundakı və əməllərindəki əxlaqı təzahürlərin saflaşması, mənəvi simasının kamilləşməsi, xalqımızda cəmiyyətimizə xas ən yaxşı keyfiyyətlərin tərbiyə edilməsi istiqamətində durmadan fəaliyyət göstərirdi.

H.Əliyev müxtəlif vəzifələr daşıyan şəxslərin fəaliyyətinə mənəviyyatın və əxlaqın nüfuz etməsinə çalışırdı. Mənəvi tərbiyədə ziyalılara xüsusi yer verirdi. O deyirdi ki, əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın digər təbəqələrinə nümunə göstərməlidirlər. H.Əliyev deyirdi: "Mən Azərbaycanda ömrüm boyu təmizlik, düzlük, halallıq tərəfdarı olmuşam." [4]

Hakimiyyətə gəldiyi gündən Ulu Öndər vəzifəli şəxslərdən əxlaqi normalara uyğun davranış tələb etməyə başladı. Azərbaycan KP MK-nın 1969-cu il 5 avqust tarixli plenumunda H. liyev vəzifənin əxlaqi normaları barədə deyirdi: "Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik». Nalayiq hallara və pozğunluğa qarşı amansız fəaliyyətini H.Əliyev bütün hakimiyyəti illərində qətiyyətlə davam etdirirdi. O, vəzifəli şəxslərin nalayiq hərəkətlərinə qarşı amansız, sərt və tələbkar idi. Onlarla vəzifə sahibi məhz əxlaqsız, mənəviyyatsız hərəkətlərinə görə ciddi şəkildə cəzalandırılmış və işdən azad edilmişdilər. Həmin məsələlərdə H.Əliyev əsl xalq adamı olmuşdu. Onun bu sahədəki fəaliyyəti xalq tərəfindən yüksək qiymətləndirilirdi. H.Əliyev ictimai həyatın bütün sahələrində əxlaqi normaların bərqərar olmasına çalışırdı. O, 1973-cü ildə keçirilən müşavirələrin birində deyirdi: "Mənəviyyat, əxlaq… bütün işimizə nüfuz etməlidir." [6]

Azərbaycan yazıçılarının V qurultayındakı (1 iyun 1972-ci il) nitqində Heydər Əliyev ədəbiyyatımızı obıvatelliyə, intizamsızlığa, laqeydliyə, vicdansızlığa, mənəvi pozğunluğa, ictimai borcu unutmaq hallarına qarşı mübarizədə çox fəal iştirak etməyə çağırırdı.

Ulu Öndər gənc yazıçıların, bütövlükdə gənc nəslin mənəvi tərbiyələndirilməsi işində fəal, prinsipial, obyektiv olmağı əsas məsələlərdən biri hesab edirdi. O, Azərbaycan gənclərinin digər

xalqların gənclərindən daha savadlı, daha peşəkar, daha mənəviyyatlı, daha mədəni olmasını istəyirdi. Bu məsələ ilə bağlı o, qeyd edirdi:

"Tərbiyə işi - mürəkkəb və incə prosesdir. Burada ifratçılıq olmamalıdır, tərbiyə işi səbirlə, dərin düşüncə ilə, adamlara fərdi yanaşmaq ilə, həm də xeyirxahlıqla aparılmalıdır; xeyirxahlıq - əsas şərtdir. Kim el sənətkarlarının bir-birinə qayğısını, diqqətini, öz peşəsinin sirlərini gənclərə necə həssaslıqla öyrətdiyini görübdürsə, yəqin ürəyində deyibdir: eşq olsun o sənətkara ki, öz yaradıcılığının məhdud çərçivəsində qapanıb qalmır, təkcə öz yaradıcılıq taleyini deyil, böyük sənətin gələcəyini düşünür. Yaşlı nəsildən belə qayğı görən gənclər, əlbəttə, ataların, müəllimlərin etibarını doğrultmağa çalışacaqlar, ədəbiyyatımızın ənənələrini şərəflə davam etdirəcəklər. Biz ümid edirik ki, Yazıçılar İttifaqı gənclərə qayğını artıracaq, onların tərbiyələndirilməsi işini yaxılaşdıracaqdır, istehsalatda, fəhlə kollektivlərində həyat məktəbi keçən gəncləri ədəbiyyata daha çox cəlb edəcəklər" [1; 11].

Ulu Öndər üçün xalqın, rəhbər işçinin, gəncin mənəvi tərbiyəsi məsələsi daima prioritet məsələlərdən olmuşdur. Təsadüfü deyil ki, onun bütün çıxışlarında və nitqlərində bu məsələ qırmızı xətlə keçir. Azərbaycan yazıçılarının VI qurultayındakı nitqində (26 may, 1976-cı il) ulu öndər yazıçılara rəğmən deyir: "Siz bilirsiniz ki, son illərdə respublikanın partiya təşkilatı zəhmətkeşlərin mənəvi tərbiyəsi sayəsində böyük iş görür, tamahkarlığa, rüşvətxorluğa, böhtançılığa qarşı, cəmiyyətimizə yad olan "əşyabazlıq azarı", proteksionizm, yerliçilik kimi bəlalara qarşı barışmaz mübarizə aparır. Bu mübarizənin nəticələri göz qabağındadır, çox böyük dəyişikliklər baş vermişdir, lakin bu mübarizə heç də qurtarmamışdır. Odur ki, biz hər cür əyriliyin, mənəviyyatımıza zidd nə varsa, hamısının kökünü qətiyyətlə və güzəştə getmədən kəsəcəyik". [1; 51]. 1979-cu il 27 aprel - "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" mövzusunda keçirilən ümumittifaq elmi-praktiki konfransda Heydər Əliyevin "İdeoloji işin təxirəsalınmaz məsələləri" mövzusundakı məruzəsi mənəvi tərbiyə problemlərinə dair mühüm bir yenilik oldu. Məruzədə ideoloji sahədə ölkədə toplanan təcrübə ümumiləşdirilir və adamların əxlaq tərbiyəsinin daha da möhkəmləndirilməsi, şəxsiyyətin fəal həyat mövqeyinin formalaşması sahəsində elmi əsaslandırılmış tövsiyələr, məsləhətlər verilirdi. Məruzə konfrans iştirakçıları və ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildi. Bakı konfransı ideya-siyasi və əxlaq tərbiyəsi sahəsində Azərbaycanda mühüm məktəb yarandığını göstərdi. Mənəvi tərbiyənin aktual problemləri və təcrübəsi üzrə Ümumittifaq konfransının Bakıda keçirilməsi Heydər Əliyevə böyük etimad və yüksək inamın ifadəsi idi [2].

Qeyd etmək istərdik ki, mənəvi prinsiplər əxlaq normalarından alidir, yüksəkdir, mütləqdir, zamandan və şəraitdən asılı deyil. Lakin əxlaq zamandan və şəraitdən asılıdır və bunlardan kənarda mövcud ola bilməz. Əxlaq müxtəlif formalarda olur: dini və dünyəvi, quldarlıq quruluşunun əxlaqı, orta əsr, feodalizm və ya kapitalist cəmiyyətinin əxlaqı, müharibə və ya sülh dövrünün əxlaqı, müasir əxlaq və s. Biri üçün qəbul olunan əxlaq normaları, digəri üçün qəbulolunmazdır. İnsanın və ya cəmiyyətin mənəvi səviyyəsi mənəvi prinsiplərə və əxlaq normalarına riayət olunmasının səviyyəsi ilə ölçülür. Mənəvi dəyərlər və mənəvi motivlər hər bir insanın qəlbində istisnasız olaraq əhəmiyyətli yer tutur. Bunu bir sözlə, mənəviyyat adlandırmaq olar. Mənəvilik sanki, insanların yaxşı və pis əməllərinə, xeyirxahlığa-bədxahlığa qoyulan icazələri və ya məhdudiyyətləri mütləq dəyər, kriteriya kimi tənzimləyir. İnsanların qəlbində mərhəmətlə yanaşı həqiqət, ədalət və gözəllik ideallarını formalaşdırır. Heç təsadüfü deyildir ki, Heydər Əliyev də məhz gənclərin mənəvi tərbiyəsinə böyük önəm verir, bu sahədə işlərin daha keyfiyyətli aparılması üçün ciddi tədbirlər görürdü. Tələbələrin respublikanın partiya və sovet fəalları ilə görüşündə Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev öz məruzəsində gənclərə rəğmən deyirdi: "Mənəviyyat anlayışı geniş və çoxcəhətli anlayışdır. Bu anlayışa nəinki fəal həyat mövqeyi, bir tələbat kimi fəaliyyət, yeganə mümkün davranış xətti kimi vətəndaşlıq daxildir. Bu anlayışı həmçinin adamların yüksək mənəvi saflığı: təvazökarlıq, intizamlılıq, hər cür süniliyi daxilən qəbul etməmək, köhnə məişətin ətalətliliyinə və riyakarlığına nifrət bəsləmək, həyatımızda hələ də özünü göstərən mənfi hallara – ictimai borca etnasızlıq, obıvatelcəsinə lovğalıq, əşyaya aludəçilik, yaltaqlıq, rüşvətxorluq, gözdən pərdə asmaq, meşşanlıq kimi hallara amansız münasibət bəsləmək də daxildir. Hər bir gənc sovet vətəndaşı dəqiq ideya mövqeyi, mənəvi mövqe tutmalı, həqiqi nemətləri yalançı nemətlərdən açıq

gözlə fərqləndirməli, daim özünütərbiyə ilə məşğul olmalı, şəxsiyyətinin zövqünü, marağını, mənəvi meyllərini formalaşdırmalıdır" [5].

Hakimiyyətə gəldiyi ilk dövrdən ulu öndəri düşündürən əsas məsələlərdən biri də Azərbaycan gənclərinin təhsili məsələsi olmuşdur. 1970-1980-ci illərdə ulu öndərin məqsədyönlü təşəbbüsü nəticəsində keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına nail olmuşdu. O, bu məsələdə xüsusilə milli kadrların yetişdirilməsinə böyük önəm verirdi. Təsadüfi deyil ki, Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, 1976-cı ildə artıq bu 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97, 6 faizə çatdırıldı. Heydər Əliyevin yüksək təhsilli milli kadrların yetişdirilməsinə göstərdiyi bu böyük qayğı, əslində onun gələcəyə yönəlik uzaqgörən siyasətinin strateji xətti idi. Ulu öndər üçün vətənpərvərlik və milli-mənəvi dəyərlərə sədaqət, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi məsələsi son dərəcə önəmli olmuşdur. Ən böyük şücaətlərin vətənə sonsuz, dərin məhəbbətdən yarandığını qeyd edən Heydər Əliyev özü ən böyük vətənpərvər olaraq: "Anam məni Azərbaycan üçün dünyaya gətirib" deyirdi. Onun "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o, insan mənəviyyatsızdır" kəlamı çox məsələlərə aydınlıq gətirir.

Bildiyimiz kimi, vətənpərvərlik mənəvi dəyərlərin əsas tərkib hissəsi kimi mənəvi mahiyyət daşımaqla yanaşı, birləşdirici və möhkələndirici funksiyanı yerinə yetirir. Vətənpərvərlik , yüksək dərəcədə vətənə məhəbbət olub, öz varlığını, şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də, insanın mənsub olduğu millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə söykənən, milli hissiyyat və ya milli qürur kimi də hallanır. Bura vətəninin bayrağını uca tutmaq, onunla qürur duymaq, mədəni və maddi sərvətini qorumaq, şöhrətini artırmaq, öz xalqının marağına xələl gətirməmək və sair kimi keyfiyyətlər də vətənpərvərliyə aiddir. Vətənpərvərliyin əsasında tarixin sınaqlarından çıxaraq möhkəmlənmiş, bərkimiş milli ruhumuzdan qidalanan, milli mənəvi dəyərlərimizə söykənən, milli təfəkkürümüzün formalaşmasına zəmin yaradan dövlətçilik durur.

Sovet dönəmində vətənpərvərlik ciddi şəkildə ideyalaşdırılmış, və sosializm quruculuğunun aparıcı qüvvəsi kimi kommunist partiyasına sadiqliyə əsaslanmışdır. Əslində isə vətənpərvərlik ölkənin möhkəmlənməsi, xalqın birliyi üçün insanları mobilizə edən dəyərdir.

Milli-vətənpərvərlik ideologiyası Azərbaycanın tarixi inkişafına, rəngarəng Azərbaycan sivilizasiyasının güclü dövlətçiliyin, milli mədəniyyətin, identikliyin, mənəviyyatin qorunmasına istiqamətlənmiş ideologiyanı əks etdirir. Bütövlükdə Azərbaycanın milli-dövlətçilik maraqlarının, iqtisadi qüdrətinin müdafiəsini öz üzərinə götürür.

Qeyd etmək lazımdır ki, vətənpərlik milli identikliyin tərkib hissəsi kimi təhlil olunarkən, dövlətin və əhalisinin "Vətən" anlayışının siyasi formasına çevrilməsi məsələsi ortaya çıxır. İnsan müəyyən milli dövlətə mənsubiyyət hissini, öz ölkəsinə göstərdiyi emosional hisslərlə bildirir. Belə identiklik nəticəsində vətənpərvərlik ayrı-ayrı insanları, sosial qrupları, etnosları birləşdirməklə, ümummilli həmrəylik yaradır. Bu aspektdən vətənpərvərlik milli ideologiyanın əsas tərkib hissələrindən biri kimi müxtəlif etnik millətləri vahid amal, vahid mənəvi dəyər ətrafında birləşdirir. Bu isə ictimai şüurda "milli identiklik", "Azərbaycan xalqı" anlayışlarının formalaşmasına təsir göstərir. Məsələn, şəhid sözü islam dini ilə bağlı bir ifadədir. Lakin Şəhidlər xiyabanında ermənilərin əsassız torpaq iddiası ilə bağlı Azərbaycana qarşı müharibəsində Qarabağ uğrunda müharibədə şəhidlik zirvəsinə yüksəlmiş azəri türkləri ilə yanaşı yəhudi, (xristianlar) ləzgi, talış, avar və digər xalqların nümayəndələri uyuyur. Bu vətənpərvərlik əxlaqıdır, yüksək mənəviyyat mücəssiməsidir, vicdanın səsidir. Vətənpərvərlik ailədən, məktəbdən başlayır. Rəvayətə görə Prussiyanın kansleri, sonralar isə Birləşmiş Almaniyanın kansleri Bismark demişdir ki, "fransa-prussiya müharibəsini prussiya müəllimi udmuşdur". Yəni müharibədə qazanılan qələbə prussiya məktəblərində, vətənpərvərlərin tərbiyəsi nəticəsində əldə olunmuşdur.

Gənclərin hərbi təhsil alması, vətənpərvər ruhlu milli hərbçi kadrların yetişdirilməsi, bütövlükdə təhsili məsələsi də o illərdə ulu öndəri çox narahat edən problemlərdən olmuşdur.

Məlum reallıqdır ki, sovetlər dövründə nüfuzlu hərbi hissələrdə yalnız üç millətin nümayəndələri: rus, belarus və ukraynalılar xidmət göstərirdi. Sovetlər dönəmində etnik ziddiyyətlər bütün sovet cəmiyyətinin olduğu kimi, sovet ordusunun da böyük promblemi olmuşdur. Rus imperiyasında bu məsələ çox sadə şəkildə həll olunurdu. Sadəcə müsəlmanlar azsaylı "vəhşi" diviziyalarda, slavyanlar isə nizamlı orduda xidmət göstərirdilər. Sovet ordusunda isə bu bele deyildi. Partiyada və hökumətdə olduğu kimi orduda da dominant millət kimi ruslar rəhbər vəzifələri tuturdular. Bu rusların digər millətlərin təmsilçilərinə qarşı Böyük Vətən müharibəsi təcrübəsinə əsaslanaraq irəli sürdükləri və o qədər də əsassız olmayan ölkədəki mövcud siyasi sistemi xarici və daxili düşmənlərdən müdafiə etmək istəyinə şübhə ilə yanaşmalarından irəli gəlirdi. Siyasi sadiqliyə şübhə amili ilə yanaşı, digər mühüm və ciddi amillərdən biri də digər millətlərin, xüsusilə müsəlmanların hərbi təhsil və ümumi mədəni səviyyəsinin, habelə ictimai həyat tərzinin slavyan xalqlarınınkindən aşağı səviyyədə olması idi. Sovet İttifaqının slavyan bölgələrinin əhalisi, ənənəvi olaraq Orta Asiyanın, Sibir və Uzaq Şərqin, eləcə də digər regionların müsəlman əhalisi ilə müayisədə daha yüksək inkişaf səviyyəsinə görə fərqlənirdi. Rus dili sovet ordusunda millətlərarası ünsiyyət dili kimi qəbul edildiyindən ukraynalılar və belaruslar üçün rus dilinin mənimsənilməsində xüsusi problem yox idi. Lakin etnik xalqların gəncləri rus dilini mənimsəməkdə çətinlik çəkirdilər. Digər müsəlmanlar kimi azərbaycanlılar da sovet ordusunda diskriminasiya ilə üzləşir, bütün müsəlmanlar kimi azərbaycanlılara qarşı da dəyişməz "pis əsgər" stereotipi möhkəmlənmişdi. Əslində isə belə münasibətin formalaşmasının əsas səbəbi, rus ideoloqlarının hərbi siyasətinin əsas məqsədi olaraq, müsəlmanların hərb elminin sirlərinə yiyələnməsinin qarşısının alınmasına hesablanmış məqsədyönlü böyük imperiya siyasətinin tərkib hissəsi olması idi. Bu səbəbdən digər müsəlman respublikalarının gəncləri kimi Azərbaycan oğulları da sərhəd qoşunlarında, xüsusi müdafiə hərbi hissələrində deyil, əsasən hərbi-tikinti hissələrində xidmətə götürülürdü. Bütün bunlar təbii ki, bir azərbaycanlı, bir müsəlman, vətənini bütün varlığı ilə sevən və onun gələcəyi üçün durmadan çarpışan vətən oğlu kimi Ulu öndər Heydər Əliyevi də narahat edir, dərindən düşündürürdü. Onun bu sahədəki düşüncələri, reallaşdırmaq istədiyi planlar sovet dövrünə deyil, xalqımızın təhlükəsiz gələcəyinə təminat verən qarşıdakı onilliklərə, yüzilliklərə hesablanmış siyasi strategiya idi.

Nəhayət, 1971-ci ildə Ulu Öndərin şəxsi nüfuzu, cəsarərli addımları sayəsində bu istiqamətdə apardığı gərgin iş öz bəhrəsini verdi, bu sahədə əsaslı dönüş yaradıldı, ölkəmizdə milli hərbi kadrların hzırlanması prosesinə start verildi. Azərbaycana rəhbərliyə gəldikdən cəmi iki il sonra, 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb fəaliyyətə başladı. Bu məktəbin yaradılması o zaman çox böyük cəsarət tələb edirdi. Belə ki, Azərbaycanda, əhalisinin əksəriyyətini müsəlmanəar təşkil edən bir respublikada milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan məktəbin açılması o vaxtkı SSRİ rəhbərliyini narahat edirdi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Heydər Əliyevin mahir diplomatiyası, qətiyyəti və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almağı bacardı [3].

Qeyd etmək lazımdır ki, bu hərbi məktəbin məzunları keçmiş SSRİ-nin bir çox ali hərbi məktəblərinə daxil olaraq, hərb elminin sirrlərinə yiyələnmiş və peşəkar hərbçilər kimi ən nüfuzlu hərbi hissələrdə rəhbər vəzifələrdə çalışmışdılar. Qarabağ müharibəsi başlayanda vətənpərvər oğullar kimi vətənə qayıtmiş, bir komandir kimi fədakarcasına döyüşmüşlər. Ümumilikdə Cəmşid Naxçıvanski adına hərbi məktəbin 1500-dən çox məzunu erməni işğalçılarına qarşı qəhrəmancasına vuruşmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin nitqlərindən, məruzələrindən, çıxışlarından, müsahibələrindən seçmələr 1969 (noyabr - 1982 (oktyabr). http://files.preslib.az/projects/toplu/v2/f3_1.pdf
2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
3. https://www.google.az/
4. "Kommunist" qəzeti, 1969, 7 avqust, № 163 (14179).

5. "Kommunist" qəzeti 28 avqust, 1977-ci il.
6. "Kommunist" qəzeti, 1973, 11 avqust, № 187 (15402)

DAVAMLI İQTİSADİ İNKİŞAF VƏ ONUN HƏLLİ İSTİQAMƏTLƏRİ

Sevda Məmməd qızı Mikayılova
iqtisad elmləri doktoru
ETN İqtisadiyyat İnstitutu
huseynpanahov56@gmail.com

Davamlı iqtisadi inkişaf beynəlxalq iqtisadi münasibətləri genişləndirir. Son illərdə Respublikada İnformasiya-kommunikasiya texnologiyaları sahəsində yeni infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi, modernizasiyası sahəsində çox mühüm işlər həyata keçirilir.

Dövlət və özəl müəssisələrdə idarəetmə texnologiyaları sahəsində uğurlu addımlar atılır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, bir çox ölkələr dövlətin ciddi nəzarəti altında tam iqtisadi acıqlıq prinsipi yolu ilə getmişlər və bu bir neçə onilliklər davam etmişdir. Lakin sənayecə inkişaf etmiş ölkələr məsələn,Yaponiya, Fransa, ABŞ, İsveç bu gün də xarici kapital üçün qapalı olan istehsal sahələrini və sferalarını qanunvericiliklə müəyyən etmişlər. Xüsusilə, Yaponiyada müdafiə sahələrində, rabitə və digər sferalarda şirkətlərin səhmlərinin xarici investorlar tərəfindən alınmasına icazə verilmir və bu sahədə ciddi rejim müəyyənləşdirilmişdir [1].

2020-ci ildə ölkəmiz inkişaf etməkdə olan 40 ölkə arasında daha çox dövlət resursları hesabına iqtisadiyyatın dəstəklənməsinə görə birinci yerdə olmuşdur. Belə qənaətə gəlmək olar ki, ölkəmizin sənaye müəssisələrinin və qeyri sənaye müəssisələrinin rəqəmsal iqtisadiyyat modelinə daha intensiv inteqrasiya olunmasına və bu istiqamətdə müvafiq strategiyanın formalaşdırılmasına ehtiyac duyulur. Statistik məlumata əsasən 2022-ci ildə sənayedə istehsal olunan məhsulun 88,5 %-i qeyri-dövlət sektorunun payına düşmüşdür. Rəqəmsal ekosistemin formalaşması, infrastrukturunun yaradılması iqtisadi artıma şərait yaradır.

Rəqəmsal sahibkarlığın yaradılması qeyri-rəsmi iqtisadiyyatın həcminin azalmasına, inkişafa səbəb olar. Dövlət proqramlarında rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi mühüm prioritetlərdən biri kimi öz əksini tapmışdır. Bu tədbirlər sırasına mövcud hüquqi bazanın təkmilləşdirilməsi startap layihələrinə maliyyə dəstəyinin verilməsi, eləcə də bizneslə elm, startaplarla iri şirkətlər arasında əməkdaşlığın gücləndirilməsinin əsas istiqamətləri xüsusilə fərqləndirilir.

İnsan kapitalının formalaşdırılması bütün dünya ölkələrinin strateji hədəfidir. Cəmiyyətin iqtisadi inkişafı insan kapitalını formalaşdırmadan qeyri mümkündür. Hazırda dünya ölkələri insan kapitalının inkişafına xüsusilə elm və təhsilin keyfiyyətcə yaxşılaşdırılmasına və beyin mərkəzlərinin yaradılmasına, istehsal və xidmət sahələrinin ixtisaslı kadr təminatının yaxşılaşdırılmasına çalışırlar. [2]

Respublikamız elm və təhsilin inkişafı sahəsində zəngin təcrübəyə malikdir. Orta - ali təhsil şəbəkəsinin yaradılmasına nail olmuşdur. İşğal olmuş ərazilərdə, Qarabağ bölgəsində təhsil prosesinə böyük zərbə vurulmuş, onların ümumi təhsil sistemindən kənarlaşmasına gətirib çıxarmışdır.

Orada qurulacaq orta və ali təhsil sistemi bu boşluğu aradan qaldıracaqdır. Həyata keçirilən böyük miqyaslı bərpa – quruculuq işləri post-konflikt ərazilərin ölkənin sosial – iqtisadi sisteminə qoşulmasını effektiv şəkildə sürətləndirmək vəzifəsini həyata keçirilməsinə şərait yaradılır. Regionda elm və təhsilin davamlı inkişafını təmin edir, beyin və innovativ məhsullar istehsal edən mərkəzə çevrilməsi üçün xüsusi şərait yaradılır.

2020-ci ilin sentyabrın 27-də Ali Baş Komandan İ.Əliyev cənablarının başçılığı ilə qüdrətli ordumuzun sayəsində 44 gün ərzində işğal olunan ərazilərimizin azad edilməsi və 2023-cü ilin 19

sentyabrında 23 saat içərisində torpaqlarımızın terrorçular və mənfur düşmənlərdən təmizlənməsi, dövlətimizin bütövlüyünün Tarixi qələbəsi olmuşdur.

İşğaldan azad olan ərazilərdə sənayenin, aqrar sahənin və turizminin inkişafı üçün geniş imkanlar yaradılır və ciddi bərpa işləri həyata keçirilir.

Respublika külli miqdarda maddi nemətlər istehsal edə biləcək iqtisadi potensialın xeyli hissəsini Ermənistanın təcavüzü nəticəsində işğal edilmiş ərazilər hesabına itirmiş və Azərbaycan iqtisadiyyatı kəskin böhrana məruz qalmasına baxmayaraq dövlət müstəqilliyini əldə etdikdən sonra öz milli iqtisadiyyatını sosial iqtisadi sistemdə inkişaf etdirmək məsələsini qarşıya qoymuşdur. Azərbaycanın çox zəngin təbii sərvətləri, əvvəlki nəsillərin qurduğu güclü istehsal imkanları, təşəkkül tapmış elmi və zehni potensialı, qlobal iqtisadi problemlərin tələblərinə uyğun həlli yollarının çox möhkəm və etibarlı olması üçün zəmin yaradır. Azərbaycan öz üstünlüklərini gerçəkləşdirmək üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Torpaqlarımızın 30 %-nin mənfur qonşular tərəfindən işğal edilməsi, onun hər cür vasitələrlə çirkləndirilməsi və minalardan, silah-sursatlardan təmizlənməsi üçün çoxlu maliyyə vəsaitləri tələb olunur.

Dövlətimizin qarşısında duran ən vacib məsələ 30 il ərzində mənfur düşmənlərimizin cəmiyyətimizə, iqtisadiyyatımıza, mədəniyyətimizə vurduğu ziyanı aradan qaldırmaq, işğal olunmuş ərazilərdə iqtisadiyyatı yenidən qurmaq, məcburi köçkünlərin təhlükəsiz şəkildə öz doğma yurdlarına qayıtmasını və yaşayışını təmin etməkdir. Hazırda bu istiqamətdə güclü quruculuq işləri həyata keçirilir. İşğaldan azad ərazilərin bərpasına və yenidənqurulmasına 2021-ci ildə 2.2 mlrd. manat, 2022-ci ildə 4.3 mlrd. manat vəsait yönəldilmişdir. "Ağıllı" şəhər və kəndlərin tikintisinə başlanmış, bəzi yerlərdə həmvətənlərimizin öz doğma yurd-yuvalarına qayıtması üçün şərait yaradılmışdır. 2023-cü ildə bu ərazilərin yenidən qurulması və bərpası işlərinə 4.8 mlrd. manat vəsait yönəldilmişdir. [4]

Ölkəmizə dəyən ziyanın məbləği 818,8 mlrd. ABŞ dollarından çoxdur.

Xəzər dənizinə tökülən Kür çayı və onun ən böyük qolu Araz respublika ərazisinə daxil olana qədər qonşu ölkələrin (Ermənistan və Gürcüstan) sənaye çirkabları ilə yetərincə yüklənir. Məsələn, Ermənistan sərhədi yaxınlığındakı Şayıflıda (işğal altında olan Zəngilan rayonu ərazisində yaşayış sahəsi) mis və molibdenın çox yüksək səviyyəsi aşkar edilib. Gürcüstandakı Rustavi sənaye kombinatı hər il Kür çayına min tonlarla çirkab axıdır. Bu və başqa səbəblərdən (kənd təsərrüfatı və məişət tullantılarının atılması) Kür çayının suyu Azərbaycanın içməli su standartlarına normal təmizlədikdən sonra da cavab vermir. Halbuki respublika paytaxtı və Kürətrafi yaşayış məntəqələri məhz bu sudan istifadə edir. Xəzərə axan Kür özü ilə gətirdiyi çoxsaylı çirkabları bu dənizə «boşaldır». Doğrudur, Xəzərin çirklənməsində Volqanın payı (80 %) daha çoxdur, lakin Azərbaycan sahillərinin əksər hissəsi nisbətən az çirkləndiyi halda, Bakı buxtası və Sumqayıtətrafı sular həddən ziyadə çirklənməyə məruz qalıb ki, bu da ərazidə yerləşən sənaye müəssisələrinin təqsiri üzündən baş verir. Sənaye sularından təkrar istifadə, bəzi müəssisələrdə isə hətta birbaşa təchizat sistemi olduğundan su ehtiyatlarına qənaət edilmir və səmərəsizliyə yol verilir. Belə çirklənmə halları daha çox olur. Bəzən sutəmizləyici qurğular tam gücü ilə işləmədiyindən bütün çirkablar təmizləyici qurğulardan keçmir.

İşğaldan azad olunan ərazilərdə çayların, su qovşaqlarının çirkləndirilməsi nəticəsində ölkəmizin suya tələbatı çətinləşmişdir.

Araz və Kür çaylarının Ermənistan ərazisindən keçən qollarının (Oxcuçay və Axstafaçay) çirkləndirilməsi nəticəsində sözügedən çayların suyundan istifadə təhlükəlidir. Respublikanın yerüstü su ehtiyatlarının 70 faizi qonşu ölkələrdə formalaşır. Qarabağda başlayan çaylar əsasən Kür və Araz çaylarına, yaxud da onların hövzəsinə aid olan çaylara tökülür. Çaylar yağış, qar və bulaq suları ilə qidalanır.

Ona görə də təmizlənməmiş və Xəzərə atılmış çirkli suların həcmi daim artır. Bütün bu hadisələrdən zərər çəkənlər insanlardır.

Birincisi, bununla onlar ətraf mühitə ziyan vurur, təbiətdəki disbalansı pozmaqla onun sonuna yaxınlaşır.

İkincisi, başlıcası insanların sağlamlığının pozulmasına səbəb olur.

Bütün bunlar həyatın tükənməsi qorxusunu yaradır. Məsələn, Salyanda Kürün tez-tez daşması rayonun bir çox ərazisinin suyun altında qalmasına səbəb olur ki, bu da insanların laqeydliyinin nəticəsidir.

Respublikanın şəhər və rayonlarının sürətlə inkişafı işsizliyin, yoxsulluğun azaldılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi vasitəsinə çevrilməlidir. Respublikada işsizliyin azaldılması, xüsusilə də gənclərin faydalı olmaqla məşğulluğunun artırılması, yeni iş yerlərinin açılması üçün geniş tədbirlər kompleksinin həyata keçirilməsi lazımdır. Bununla əlaqədar olaraq Respublikada işsizlərin sayının dəqiqləşdirilməsi, işsizlik statusu verilməsi qaydalarının dəqiqləşdirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, iqtisadiyyatın tələbatını nəzərə almaqla kadr hazırlığının gücləndirilməsi məsələləri qarşıya çıxır.

Sosial sahədə mövcud problemləri həll etmək üçün məcburi köçkün və qaçqınların həyat və fəaliyyət şəraitinin yaxşılaşdırılmasına, əmək haqqı, təqaüd sistemlərinin təkmilləşdirilməsinə, həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş proqram xarakterli tədbirlərin görülməsi həyata keçirilir.

Əhalinin ərzaqla təminatı problemi XX əsrin 70-ci illərində inkişaf etməkdə olan ölkələrdə baş verə sosial-iqtisadi proseslərlə əlaqədar olaraq dünya ictimaiyyəti tərəfindən güclü müzakirə predmetinə çevrildi.İnkişaf etmiş ölkələrdə ərzaq məhsullarının ifrat istehsalı bir sıra 3-cü dünya ölkələrində əhalinin kütləvi aclığı və yetməməzliyi ilə müşayət olunurdu.Planetin əhalisi Dünya Bankının proqnozlarına görə 2025-ci ildə 3 mlrd. nəfər artacaqdır. Artım Asiya regionları hesabına baş verəcəkdir. İnsanlar qlobal su ehtiyatları böhranı ilə üzləşəcək və su çatışmamazlığından əziyyət çəkəcək,urbanizasiya böhranı olacaqdır ki,nəticədə də yaxın 30 ildə şəhər əhalisi 3 dəfə artacaqdır. Afrika əhalisinin 2/3 bu gün heç də iqtisadi artım müşahidə edilməyən şəhərlərdə yaşayırlar. Yaxın 25 ildə dünya əhalisini ərzaqla təmin etmək üçün ya məhsuldarlığı yaxud da əkin sahələrini 3 dəfə artırmaq lazım gələcəkdir. Lakin reallıq budur ki, əksər kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı orta hesabla 50 % təşkil edəcəkdir. Yaxın 30 ildə ərzaq məhsullarının istehsalı yalnız 2 dəfə artacaqdır. Deməli, demoqrafik böhran,qlobal su ehtiyatları böhranı,urbanizasiya probleminə ərzaq böhranı da əlavə olunacaqdır [3].

Hal-hazırda yer kürəsinin əhalisi təqribən 8.8 milyard nəfərdir. Bu rəqəm alimlərin fikrincə tükənmiş təbii və mineral sərvətlərdən 3 dəfə çoxdur. Hesablamalar göstərir ki, əhalinin indiki artım sürətini təbii ehtiyatlar 100 il təmin edər və təbii enerji də yer kürəsinin 100 il qızdıra bilər.

Buna görədə qeyd edilən problemlərin həllinə dair aşağıdakı tədbirlər görülməsini təklif edirik:

I. Milli gəlirdə təbii resurslardan istifadənin aşağı salınmasının təmin olunması;

II. Ekoloji təmizliyi yüksəltməklə ölkə iqtisadiyyatına dəyən zərərin minimuma endirilməsinə nail olunması;

III. Qonşu respublikaların təbiətimizin çirklənməsindəki xidmətlərini aşkara çıxarmaqla, dövlətlərarası münasibətlərin indiki dövrdə beynəlxalq sazişlər əsasında qurulmasının təmin edilməsi;

IV. Respublikada təbiətin mühafizəsi sahəsində milli kadrların hazırlanması üçün maddi-texniki baza yaradılması;

Ümummilli liderimiz Heydər Əliyev Respublikaya Prezidentlik etdiyi müddətdə xalqımızın mənəvi həyatında mütərəqqi meyilli dəyişikliklər baş vermiş, elm, təhsil, mənəviyyat, insanlıq keyfiyyəti tədricən öz axarına düşmüşdür. Hazırda respublikamız ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin düzgün qurulmuş çevik siyasəti nəticəsində iri addımlarla inkişaf edir. Düzgün təşkil olunan və müvəffəqiyyətlə həyata keçirilən xarici və daxili siyasət respublikamızın sosial-mədəni həyatında kök salmış bir çox qüsurları aradan qaldırmağa imkan vermişdir. Bu gün respublikamız iqtisadi inkişafın tempinə görə dünyada qabaqcıl yerlərdən birini tutur, ölkədə işsizlik tədricən və inamla aradan qaldırılır, korrupsiyaya, narkomaniyaya, hər cür əyintilərə qarşı ardıcıl və təsirli mübarizə aparılır. Qaçqınlar və məcburi köçkünlərin yaşayışının normal həyat səviyyəsinə qaldırılması üçün böyük işlər görülür. Şəhərlər abadlaşdırılır, yollar çəkilir, əzəmətli körpülər salınır, ölkədə elmin, təhsilin, idmanın inkişafı üçün səmərəli tədbirlər həyata keçirilir.

İstifadə edilmiş ədəbiyyat

1. M.X.Meybullayev, S.M.Mikayılova. İqtisadi təhlükəsizlik nəzəriyyəsi. Dərslik. Bakı, 2015
2. S.M.Mikayılova. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Bakı, 2009
3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 sentyabr tarixli Sərəncamı 2018-2020-ci illərdə Azərbaycan Respublikası Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı.
4. https://president.az/az/articles/view/50474

УЛУЧШЕНИЕ КАЧЕСТВЕННЫХ ПОКАЗАТЕЛЕЙ ДИЗЕЛЬНОГО ТОПЛИВА С ИСПОЛЬЗОВАНИЕМ КИСЛОРОДСОДЕРЖАЩИХ ДОБАВОК

[1,2]**Шебнем Ябиль кызы Айдынова,** [1,3]**Фарида Алекпер кызы Бабаева,**
[1,4]**Тарана Серафим кызы Латифова**
[1]Институт нефтехимических процессов им. акад. Ю.Г.Мамедалиева МНО
[2]докторант
shebnem.ajdynova@mail.ru
[3]feridan@rambler.ru
доктор химических наук, доцент
[4]terane.letifova.60@mail.ru

В настоящее время для улучшения качественных показателей дизельного топлива применяются экологически чистые добавки, полученные на основе альтернативного сырья. Среди них особое место занимают кислородсодержащие добавки растительного происхождения, такие как, сложные эфиры, полученные на основе жирных кислот растительных (подсолнечных, кукурузных, соевых и т.д.) масел [1-3].

В данной работе в качестве кислородсодержащей добавки были использованы оксипропиленовые эфиры жирных кислот соевого масла (ОПЭЖКСМ), полученные на основе жирных кислот соевого масла и оксипропилена, взятые в соотношении 1:2, при температуре 140 ºС и давлении 1МПа. Физико-химические свойства полученных ОПЭЖКСМ представлены в таблице 1.

Таблица 1

Физико-химические свойства оксипропиленовых эфиров жирных кислот соевого масла

Показатели	ОПЭЖКСМ
Кинематическая вязкость при 20 ºС, мм^2/с	5,8
Плотность при 15 ºС, кг/м^3	933,6
Фракционный состав: 50 % перегоняется при Т, ºС 90 % перегоняется при Т, ºС 96 % перегоняется при Т, ºС	 276 344 358
Температура застывания, ºС	-13
Температура помутнения, ºС	-10
Температура вспышки, ºС	108
Йодное число, г йода на 100 г	45,22
Содержание серы, %	0,0001
Кислотность, мг КОН/100г	0,26
Содержание ароматических углеводородов, %	0,0

Как видно из представленных данных таблицы 1, полученные ОПЭЖКСМ обладают высокой плотностью (933,6 кг/м^3), вязкостью (5,8 мм^2/с), температурой вспышки (108 ^{o}C) и высоким йодным числом (45,22 г J_2/100 г). Кроме того, они по фракционному составу соответствуют пределам кипения дизельных фракций. Отсутствие в их составе ароматических углеводородов и низкое значение серы (0,0001 %) делают их подходящими добавками к дизельным топливам.

Затем ОПЭЖКСМ в качестве кислородсодержащей добавки были добавлены в состав гидроочищенной дизельной фракции (ГДФ) в количестве 5-20 %. Были изучены физико-химические свойства полученных компаундов, данные которых представлены в таблице 2.

Таблица 2

Физико-химические свойства 5-20 % компаундов, полученных на основе гидроочищенной дизельной фракции и оксипропиленовых эфиров жирных кислот соевого масла

Показатели	ГДФ	Компаунды на основе ГДФ и ОПЭЖКСМ			
		5%	10%	15%	20%
Кинематическая вязкость при 20°C, мм^2/с	3,54	3,65	3,76	3,87	4,00
Плотность при 15°C, кг/м^3	847,8	852,0	855,3	857,6	858,0
Фракционный состав: 50% перегоняется при Т, ^{o}C 90% перегоняется при Т, ^{o}C 96% перегоняется при Т, ^{o}C	 276 335 356	 274 340 355	 276 342 356	 277 344 358	 278 345 360
Температура застывания, ^{o}C	-27	-28	-29	-30	-31
Температура помутнения, ^{o}C	-18	-20	-21	-22	-23
Температура вспышки, ^{o}C	70	72	74	76	77
Йодное число, г йода на 100 г	0	1,2	1,3	1,5	1,6
Содержание серы, %	0,0302	0,0286	0,0271	0,0256	0,0242
Кислотность, мг КОН/100г	0,75	0,76	0,77	0,79	0,80
Содержание ароматических углеводородов, %	16,0	15,2	14,4	13,6	12,8
Цетановое число	46	47	48	49	49
Диаметр пятна износа, мм	0,590	0,561	0,531	0,502	0,472

Как видно из таблицы 2, добавление ОПЭЖКСМ в состав ГДФ в количестве 5-20 % улучшает качественные показатели полученных компаундов. Так, с увеличением их содержания в составе ГДФ наблюдается увеличение их плотности, вязкости, температуры вспышки - на 2-7 ^{o}C, цетанового числа - на 1-3 пункта и уменьшение содержания серы до 0,0242 %, диаметра пятна износа - до 0,472 мм. Исходя из полученных данных, ОПЭЖКСМ можно использовать в качестве ресурсосберегающей добавки к дизельному топливу.

Использованная литература

1. Кондрашева Н.К., Еремеева А.М., Нелькенбаум К.С. Использование сложных эфиров в качестве добавки к товарным дизельным топливам. Нефтепереработка и нефтехимия, 2017, № 9, сс. 32-35

2. Маммадова, Т.А., Айдынова, Ш.Я. Применение кислородсодержащих добавок для улучшения качественных показателей дизельных топлив // BSU, I Scientific Conference of Baku and Region youth, - Baku, - 20 aprel, - 2023, - c.109-111

3. Романцова, С.В., Нагорнов, С.А., Корнев, А.Ю. Состав добавки для улучшения характеристик современного дизельного топлива // - Известия вузов, Прикладная химия и биотехнология, - 2019. № 3 (9), - с.547–556.

İRİ ŞƏHƏRLƏRDƏ NƏQLİYYAT İNFRASTRUKTURUNUN İNKİŞAFINA DAİR TEZİSLƏR

Vüqar Sabir oğlu Mustafayev
texnika üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
vuqar.mustafayev@mdu.edu.az

1. Dünyanın bütün iri şəhərləri üçün səciyyəvi olan ümumi cəhətlərdən biri odur ki, əhali artdıqca nəqliyyat infrastrukturunun da inkişafı, genişlənməsi zərurəti artır. Bu gün nəqliyyat hər bir meqapolisin və onun ətraf ərazilərinin inkişafında ən mühüm inteqrasiya amilidir.

- Müasir nəqliyyat sistemi şəhərlərin inkişafı çərçivəsində çox uzun məsafələrə gediş-gəlişi təmin etməli, sərnişin və yük daşımalarında durmadan artan tələbatı ödəməli, nəqliyyat infrastrukturunun yüklənməsini tənzimləməli, tıxaclarla mübarizə aparmalı və s. kimi təxirəsalınmaz məsələləri həll etməlidir;

- aparılmış müşahidələr və tədqiqatlar əhalinin sıx məskunlaşdığı iri şəhərlərdə nəqliyyat siyasətinin təkmilləşdirilməsi və müasir nəqliyyat infrastrukturunun inkişafı tendensiyasının olduğunu göstərir. Bu tendensiya həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iri şəhərlərinə aiddir. Bu şəhərlərdə elektrikləşdirilmiş və yüksək sürətli dəmir yollarının, həmçinin örtüyü təkmilləşdirilmiş avtomagistralların uzunluğu artır, bununla yanaşı nəqliyyat yollarının da sıxlığı böyüyür;

- müasir şəhərlər müxtəlif nəqliyyat növlərindən ibarət inkişaf etmiş nəqliyyat sisteminə malikdir: metro, avtobuslar, taksilər və şəhərətrafı nəqliyyat. İri şəhərlərin bir çoxunda az yayılmış, lakin tarixən formalaşmış nəqliyyat növləri mövcuddur, məsələn, Londonda və Nyu-Yorkda – kanat yolları və bərələr, Moskvada – monorelslər, tramvaylar və son dövrlərə kimi fəaliyyət göstərmiş trolleybuslar.

2. Aparılmış çoxsaylı tədqiqatlar dünyanın ən iri şəhərlərində və onlara qonşu ərazilərdə nəqliyyat infrastrukturunun aşağıdakı əsas inkişaf tendensiyalarını müəyyən etməyə imkan verir:

- yüksək sürətli və rahat nəqliyyat infrastrukturunun yaradılması;

- nəqliyyat sisteminin inkişafına dövlət və özəl sektoru tərəfindən birgə sərmayələrin qoyulması;

- ilk növbədə ictimai nəqliyyatın inkişaf etdirilməsi və onun səmərəliliyinin yüksəldilməsi (xüsusi nəqliyyat zolaqlarının təşkil edilməsi, hərəkət tərkibinin modernləşdirilməsi, nəqliyyatın bir neçə növü üçün vahid gediş biletlərinin tətbiqi və s.);

- nəqliyyat sektorunun rəqəmsallaşdırılması, şəhər nəqliyyat axınlarının idarə olunması üzrə intellektual nəqliyyat sistemlərinin yaradılması;

- sərnişin mobilliyinin və nəqliyyat sisteminin inklüzivliyinin təmin olunması;

- müştərək istifadə edilən nəqliyyat vasitələrinin icarəsi üzrə xidmətlərin inkişaf etdirilməsi;

- ictimai nəqliyyatın bütün növlərini birləşdirən və istifadəçilər üçün optimal səyahət marşrutu qurmaq, onun müddətini proqnozlaşdırmaq, vahid gediş biletinin haqqını ödəmək və s. imkanlar yaradan mobil proqramların tətbiqi və s.

3. İri şəhərlərin nəqliyyat siyasətinin hazırlanması beynəlxalq təcrübədə sistemli və kompleks yanaşma əsasında aparılır. Dünya nəqliyyat infrastrukturunun inkişafında aşağıdakı ümumi xüsusiyyətlər müşahidə edilir:

- yük və sərnişin daşımalarının vahid sisteminin formalaşdırılması – sürətə, təhlükəsizliyə, daşımaların həcminin artmasına, nəqliyyat növlərinin qarşılıqlı əlaqəsinə, ictimai nəqliyyatın rolunun artması və s. məqamları prioritet diqqətdə saclamaqla;

- nəqliyyat infrastrukturunun inkişafı üçün müasir və effektiv mühəndis, kommunikasiya, informasiya təminatının yaradılması;

- nəqliyyat infrastrukturunun modernləşdirilməsində investisiya-innovasiya, resurslar və sosial sahələrə qoyulan investisiyalarda dövlətin iştirakının həlledici rol oynaması, bununla bərabər,

biznesin müxtəlif səviyyələrində özəl investisiyaların aktivləşdirilməsi (xərclərin və risklərin bölüşdürülməsi ilə);

- meqapolislərin və onların ətraf ərazilərinin vahid nəqliyyat siyasəti inzibati cəhətdən milli və beynəlxalq əhəmiyyətə malik olan mühüm nəqliyyat mərkəzlərinə çevrilməsi;
- dövlətlərin nəqliyyat siyasətində nəqliyyat infrastrukturuna regional, dövlət və dünya inkişafının əsas amili kimi yanaşılır.

MÜASİR DÖVRDƏ ƏLDƏ EDİLƏN NAİLİYYƏTLƏR ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İDEYALARININ QƏTİYYƏTLİ İCRASININ NƏTİCƏSİDİR

Nizami Dilənçi oğlu Zeynalov
tarix üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
nizami.zeynalov@mdu.edu.az

Bu gün Azərbaycan Respublikasının Cənubi Qafqaz regionunun lider dövlətlərdən biri olması artıq heç kimdə şübhə doğurmur. Azərbaycan özünün davamlı, dayanıqlı və sabit inkişafı, güclü iqtisadi və hərbi potensialı, multikultural dəyərlərə malik sülhsevər siyasəti ilə nəinki regionun, həm də bütün dünyanın diqqətini özünə çəlb etmiş unikal dövlətlərdəndir. Bütün bunlar dövlət müstəqilliyinin 33-cu ilini yaşayan Azərbaycanın son 24 il ərzində əldə etdiyi uğurlu nailiyyətlərin qısa xülasəsidir. Müasir dövrdə respublikamızın əldə etdiyi nailiyyətlərin zirvəsini isə 2020-ci ilin 8 noyabrında əldə edilmiş tarixi Qələbə, böyük Zəfər təşkil edir. Bu böyük nailiyyət 30 ilə yaxın bir dövr ərzində ölkəmizin bir nömrəli problemi olan qondarma "Dağlıq Qarabağ" probleminin birdəfəlik həlli, ölkəmizin ərazi bütövlüyünün tam bərpası və böyük bir tarixi ədalətsizliyə son qoyulması deməkdir [3].

Bu gün tarixin zirvəsindən dönüb geriyə nəzər saldıqda bir daha əmin oluruq ki, Azərbaycanın əldə etdiyi bu tarixi nailiyyətlər ulu öndər Heydər Əliyev ideyalarının qətiyyətlə və dəqiq icrasının məntiqi nəticəsidir. Ölkəmizdə istər sosial-iqtisadi, istər hərbi-siyasi, istərsə də milli-mədəni və diplomatik sahədə həyata keçirilən bütün tədbirlər möhkəm bazisə əsaslanmış, ulu öndərin vaxtilə əsasını qoyduğu təməl üzərində cücərmişdir.

Tam məsuliyyəti ilə etiraf edilməlidir ki, müasir dövrdə ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlər hələ ulu öndərin Azərbaycana birinci rəhbərliyi dövründə respublikada həyata keçirdiyi məqsədyönlü iqtisadi quruculuğun, istər sənaye, istərsə də aqrar sahədə yaradılan iqtisadi potensialın, XX əsrin 90-cı illərinin ortalarından isə yeridilən neft strategiyasının və həyata keçirilən digər islahatların yaratdığı real imkanlar sayəsində mümkün olmuşdur. Əlbəttə, möhkəm iqtisadi təməl ölkəmizin dayanıqlı inkişafını təmin etməklə yanaşı, həm də onun hərbi qüdrətini şərtləndirmiş oldu [2; 5; 6].

Ulu Öndərin cəsarətlə hələ sovetlər dönəmində Azərbaycanın hərbi potensialının inkişaf etdirilməsi və daha da gücləndirilməsi istiqamətində atdığı konkret addımlar, müstəqilliyimizin ilk illərində AXC-Müsavat tandeminin ağır miras qoyduğu ordu quruculuğunun yeni əsaslar üzərində təşkili heç şübhəsiz ki, 2020-ci il tarixi Zəfərinin əldə edilməsində müstəsna rol oynamışdır [4].

Əlbəttə, istər iqtisadi quruculuq, istər ordu quruculuğu, istərsə də dövlət quruculuğu sahəsində ulu öndərin əsasını qoyduğu təməl prinsiplər, təməl ideyalar Ulu Öndərin siyasi kursunu qətiyyətlə davam etdirən cənab Prezident İlham Əliyevin siyasi fəaliyyətində özünün tam ifadəsini tapmış oldu. Təsadüfi deyil ki, ulu öndər böyük uzaqgörənliklə hələ 2003-cü ilin 1 oktyabr tarixində xalqa müraciətində cənab İlham Əliyevin gələcək siyasi fəaliyyətinə ümidlərini məhz belə ifadə etmişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu müraciətdən keçən 21 il ərzində cənab Prezidentin məhz ulu öndərin əsasını qoyduğu və irəli sürdüyü ideyaları, planları, prinsipləri məqsədyönlü şəkildə

dönmədən həyata keçirməsi bu gün Azərbaycanı Cənubi Qafqazda yeni reallıq yaradan söz sahibinə çevirmişdir. Bu reallıq cənab Prezidentin, Müzəffər Ali Baş Komandanın xalqın böyük dəstəyi və şanlı ordumuzun rəşadəti sayəsində bizə bəxş etdiyi ərazi bütövlüyü tam bərpa ounmuş qüdrətli Azərbaycandır. Azərbaycan Respublikasının tarixində sözün əsl mənasnda yeni inkişaf erasının başlanğıcı qoyulmuşdur. Bu eranın adı ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamnda "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" kimi ifadə olunmuşdur [1]. İnanırıq ki, ölkə başçısı cənab İlham Əliyevin ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalan məqsədyönlü siyasəti ölkəmizin daha da inkişafına və qüdrətlənməsinə xidmət edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2 fevral, 2021-ci il tarixli Sərəncamı. *[Elektron resurs]* / https://president.az/az/articles/view/50474

2. Alışanova M. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir. Bakı: Çinar-Çap nəşriyyatı, 2006, 214 s.

3. Babayev E. Yurdsevər xalq, Qalib ordu, Müzəffər Ali Baş Komandan. "Xalq" qəz., 2021, 1 iyul.

4. Hacıyev Q. Ümummilli lider Heydər Əliyevin Dağlıq Qarabağ siyasətinin böyük uğuru. "Xalq" qəz., 2020, 10 dekabr.

5. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı:Təhsil, 2004, 472 s.

6. Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.

HEYDƏR ƏLİYEV SİYASƏSƏTİNİN AZƏRBAYCANDA İKT-NİN DAVAMLI İNKİŞAFINA TƏSİRİ

[1,2]**Almaz Əli qızı Əliyeva**, [1,3]**Asudə Məmmədəli qızı Abdurrahmanova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]texnika fəlsəfə doktoru, dosent
almaz.aliyeva@mdu.edu.az
[3]asude.abdurahmanova@mdu.edu.az

"*İKT sahəsində inkişaf, hər bir ölkənin müasir cəmiyyətinə inteqrasiya olunması üçün kəşfiyyat, təcrübələrin paylaşılması və elmi fəaliyyət sahələrində sürətlənəcək inkişaf yolunu açır."*
(Heydər Əliyev)

Bu gün Azərbaycanın dünya miqyasında nümayiş etdirdiyi uğurlar, qazandığı nailiyyətlər görkəmli dövlət xadimi, xalqın Ümummilli lideri Heydər Əliyevin məqsədyönlü və uzaqgörən siyasətinin nəticəsidir. Ulu Öndərin azərbaycançılıq məfkurəsində Azərbaycanı inkişaf etdirmək, vətəndaşların sosial və maddi rifahını yüksəltmək, ölkəmizi bütün sferalarda irəliyə aparmaq dahi şəxsiyyət Heydər Əliyevin həyatının bütün dövrlərində tək amalı olmuşdur. Müstəqil Azərbaycanın memarı Ulu Öndər ölkəmizi dünyada layiqli mərtəbəsinə çatdırmağa özünün müdrikliyi, dəmir iradəsi, qətiyyəti, zəngin dövlətçilik təcrübəsi sayəsində nail olmuşdur. Heydər Əliyevin müstəqillik konsepsiyasının yaşarlılığı və müasirliyi ondadır ki, mücərrəd seyrçilikdən uzaqdır. Müasir qlobal reallıqları düzgün qiymətləndirən ümummilli lider Azərbaycan xalqının müasir sivilizasiyada özünütəsdiqi məsələsinin həllində milli ideolgiyanın rolunu xüsusi qeyd edirdi.

Bu gün Azərbaycanın inkişaf tarixinə ekskursiya etsək, son yarımərsrdə Ulu öndər tərəfindən gələcəyə istiqamətlənmiş, elm və texnologiyaların inkişafını şərtləndirən, dayanıqlı inkişafın təmin olunmasına, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafına yönəlmiş müdrik siyasətini müşahidə etmiş olarıq. Bu bir danılmaz faktdır ki, Azərbaycanda rabitənin, informasiya-

kommunikasiya texnologiyaları (İKT) sahəsinin inkişafı Heydər Əliyevin rəhbərliyi ilə geniş vüsət almışdır.

Ulu Öndər birinci hakimiyyəti dövründə Azərbaycanı keçmiş ittifaqın ən inkişaf etmiş respublikalarından biri səviyyəsinə yüksəltdi. Həmin dövrdə İKT sahəsi, Azərbaycanın digər sahələri kimi ardıcıl və sistemli şəkildə inkişaf etdi. Dahi liderin fəaliyyəti dövründə əsas xidmətərindən biri Azərbaycanı informasiya blokadasından çıxartmış və müxtəlif media qurumlarında, rabitə və kommunukasiya sahələrində beynəlxalq internet saytlarında Azərbaycana qarşı aparılan qara piyar siyasətinə qarşı cavab verəcək ixtisaslı kadrların yetişməsinə, xüsusilə də bu sahədə çalışacaq gənclərin təhsilinə böyük imkan yaratmışdır. Xüsusi istedadli gənclərin seçilərək xaricdə təhsil almasına və onların İKT sistemi üzrə müasir biliklərə yiyələnməsinə böyük önəm vermişdir. Məhz həmin dövrdə təhsil almış gənclər indi Azərbaycanda müxtəlif sahələrdə çalışır.

Həmin dövrdə İKT ixtisasları üzrə mütəxəssislərin hazırlanması üçün Sumqayıt Dövlət Universitetində, Dövlət Neft Akademiyasında (indiki adı: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti), Azərbaycan Texniki Universitetində və Bakı Dövlət Universitetində maddi-texniki bazalar yaradıldı, elektron avadanlıqların istehsal edildiyi zavodlar tikildi.

Respublikada Kibernetika İnstitutu, informasiya-Kommunikasiya Elmi Mərkəzi, "Neft-qazavtomatika" və başqa elmi-tədqiqat müəssisələri yaradıldı. Heydər Əliyevin səyi nəticəsində respublikamıza ilk böyük EHM (Elektron hesablama maşını) olan "BESM-6" gətirildi və "Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri" - "RASU Azərbaycan" və çeşidli kompüter şəbəkələri quraşdırıldı. Bütün bunlar müxtəlif ciddi hesablamalar tələb olunan məsələlərin avtomatlaşdırılmış şəkildə həll edilməsinə imkan yaratdı.

Ulu Öndər sənayenin inkişafı sahəsində 1971-1985-ci illərdə Azərbaycanda yeni bir era yaratdı. Həmin dövrdə elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq olunmasıyla 581 müxtəlif adlı yeni tipli maşın, avadanlıqlar, cihaz və aparatlar yaradıldı. 1973-cü ildə Bakıda Heydər Əliyevin böyük səyi ilə qurulan "OZON" çip və yarımkeçiricilər elmi-istehsalat birliyinin sayəsində elmi-texniki tərəqqi yeni vüsət aldı. 1975-ci ildə Elektron Hesablama Maşınları Zavodu tikilərək istismara verildi. Tərtər (Mirbəşir) filialı olaraq Lionozovo Elektromexanika zavodunun, radiotexnika və cihazqayırma sənayesi üzrə Radio Maşınqayırma Zavodunun ("Robot" zavodu) tikintisi, Gəncə şəhərində elektron sənayesi üzrə "Billur" zavodun, respublikanın bir neçə şəhərində "Kondesator" zavodlarının tikilməsi, müdafiə sənayesi üzrə Azov Optika-Mexanika (Alov) Zavodunun filialının yaradılması və digər işlər həyata keçirildi. 1969-cu ildə respublikamızda cəmi bir elmi-istehsalat birliyi vardısa, 1980-ci ildə elm birliklərinin sayı 70-dəfə artırılmışdı. Xalqımızın dahi övladının gərgin zəhməti nəticəsində Bakı Elektro-Mexaniki İnstitutunda yeni yaradılan istehsal sahələrinin bazası əsasında "Nord" Elmi-İstehsalat Birliyi (EİB), eləcə də hərbi sənaye kompleksinin və ağır maşınqayırma sənayesinin inkişafına təkan verən "Ulduz" EİB yaradılmışdır. Keçmiş SSRİ Hərbi Dəniz Donanmasının bütün növ sualtı və suüstü gəmiləri üçün "Nord" EİB-də elmi tutumlu cihazlar, komplekslər, sistemlər yaradılmış və istehsal olunmuşdur.

Azərbaycanın başını qara buludlar alarkən, uca tanrı sevdiyi xalqın ən çətin günündə ümummilli lider Heydər Əliyevi xalqımıza xilaskar göndərdi. Birinci hakimiyyət dövründə olduğu kimi, ikinci hakimiyyət dövründə də , yəni 1993-cü ildən başlayaraq Ümummilli lider Heydər Əliyevin yaratdığı siyasi və iqtisadi sabitlik zəminində bir çox sahələr kimi İKT sahəsini də uğurla inkişaf etdirmiş və bu sahəyə xüsusi diqqət yetirmişdir.

Uzaqgörən Ümummilli Lider 1993-cü ilin avqust ayında peyk vasitəsilə birbaşa Amerika qitəsiylə Azərbaycan arasında rabitənin yaradılmasına imkan verən peyk rabitə sisteminin açılışını etmişdir. Ölkəmizdə "Baksell", "Azərsell", "Ultel", "AzEvroTel" birgə müəssisələri Heydər Əliyevin səyləri nəticəsində fəaliyyətə başlamışdır. Bu da öz növbəsində ilk xarici investisiyaların məhz bu sahəyə - telekommunikasiya sahəsinə yatırılmasına səbəb olmuşdur. Eyni zamanda Ulu öndərin İKT siyasətinin əsas istiqamətlərindən biri internetin inkişafı olmuşdu. Azərbaycanın yüksək domen adı olan ".az" domeni 1993-cü ildə "ICANN"-da (Internet Corporation for Assigned Names and Numbers-İnternetdə domen adların və ünvanların verilməsi üzrə təşkilat) qeydiyyata alınmışdır. Bunun ardından bir il sonra ölkənin internetə çıxışı təmin edilmişdir. Bütün bunlar

Heydər Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan milli rabitəsinin parlaq inkişaf yolunun yeni mərhələsi idi.

İlk dəfə olaraq Azərbaycan Cənubi Qafqaz, Orta və Mərkəzi Asiya ölkələri arasında müasir tələblərə uyğun rəqəmli televiziya yayımının tətbiqinə start vermişdir. Radio-televiziya yayımının süni peyk vasitəsilə həyata keçirilməsi, milli televiziya proqramlarının yayımına başlanması ölkənin bütün əhalisinin, xüsusilə blokada şəraitindəki Naxçıvan MR əhalisinin Milli televiziya proqramlarını seyr edə bilməsi imkanının yaranması birbaşa Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1996-cı ildə "Türksat" süni peykinin vasitəsilə AzTV 1 milli televiziya proqramı yayımlanmağa başlamışdır. Heydər Əliyev tərəfindən 1981-ci ildə əsası qoyulan teleqüllədən 1996-cı ildən etibarən televiziya və radio verlişlərinin yüksək keyfiyyətli verilişləri təşkil olunmuşdur.

Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda telekommunikasiya və poçt infrastrukturu modernləşdirilmiş, yeni texnologiyalar tətbiq olunmaqla, ilk beynəlxalq telefon stansiyası və elektron ATS-lər qurulmuş və ölkəmiz bir çox sahəvi beynəlxalq təşkilatlara, Beynəlxalq Telekommunikasiya İttifaqına və Ümumdünya Poçt İttifaqına üzv qəbul olunmuşdur. Demək olar ki, 1993-2003-cü illərdə Azərbaycanda İKT davamlı yüksəlişdə olmuşdur. Ümummilli liderin İKT siyasəti uzun müddətə hesablanmışdır.

Heydər Əliyevin uzaqgörən və müdrik siyasi kursunun layiqli davamçısı kimi Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev Cənablarının məqsədyönlü fəaliyyəti nəticəsində bu gün qlobal dünyada sosial-iqtisadi inkişafın aparıcı istiqaməti olan İKT-nin Azərbaycanda tətbiqi prioritet sahəyə çevrilmişdir. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, ölkədə sosial-iqtisadi inkişafı təmin etmək, xalqın rifahını yüksəltmək cənab Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrindəndir. Təsadüfi deyil ki, bu gün dünyada sosial-iqtisadi inkişafın aparıcı istiqaməti olan İKT-nin Azərbaycanda tətbiqi Heydər Əliyev kursunda prioritet məsələ hesab edilib. Azərbaycanın regionda aparıcı ölkəyə çevrilməsi üçün İKT sahəsində daim məqsədyönlü dövlət siyasəti həyata keçirilmişdir.

Respublikamız MDB məkanında ilk ölkədir ki, yaşayış məntəqələrinin hamısı telefonlaşdırılmış və sabit telefon şəbəkəsi tamamilə elektronlaşdırılmışdır.

Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrün reallıqlarına uyğun həyata keçirilən siyasətin nəticəsi olaraq, ölkəmizin sürətli inkişafı kosmik sənaye sahəsində də böyük nailiyyətlərə imza atmağa imkan verib.

Azərbaycanda ən son texnologiyaların effektiv tətbiqi, rəqəmsal inkişaf, eləcə də, kosmik sənayenin qurulması sahəsində böyük uğurlar qazanılmışdır. Yaxın zamanda ölkədə hərtərəfli dövlət dəstəyi ilə kosmik sənaye üçün müasir infrastruktur yaradılıb, informasiya təhlükəsizliyinin mühüm tərkib hissəsi olan telekommunikasiya peykləri orbitə çıxarılıb, xarici peyklərin istifadəsinə olan ehtiyac aradan qaldırılıb, eyni zamanda peyk xidmətlərinin ixracına başlanılmışdır. Azərbaycanın kosmik sənayesi sahəsindəki uğurları, ölkənin suverenliyini qorumaqla yanaşı, sosial-iqtisadi inkişafına da ciddi dəstək təmin edir. Bu uğurlu layihələr sayəsində Azərbaycan dünya kosmik cəmiyyətinin vacib bir üzvü halına gəlmiş və beynəlxalq kosmik icmada böyük nüfuz qazanmışdır.

2009-cu ildə Azərbaycan Respublikasında kosmik sənayenin yaradılmasına başlanması və bunun əsasında 2010-cu ildə Azərkosmos ASC-nin yaradılması, 2013-cü il fevralın 8-də Azərbaycanın ilk "Azərspace-1" telekommunikasiya peykinin Fransız Qvianasında yerləşən Kuru kosmodromundan uğurla orbitə buraxılması, 2014-ci ilin iyununda "Azersky" Yerin məsafədən müşahidəsi peykinin orbitə çıxarılması, 26 sentyabr 2018-ci ildə Azərbaycanın sayca üçüncü peyki "Azerspace-2"-nin orbitə buraxılması ölkəmizin qüdrətini dünyaya nümayiş etdirən ən önəmli hadisələrdəndir. Bu gün həmin peyklər ölkəmizin iqtisadi, sosial, siyasi baxımdan inkişafında əhəmiyyətli rol oynayır.

Ulu Öndərin birinci hakimiyyəti dövründə Azərbaycanda milli kosmik sənayenin yaradılması sahəsində atdığı addımlar böyük bir inqilab kimi qiymətləndirilir. 50 il əvvəl, 1973-cü ilin oktyabrında, Ümummilli Liderin təşəbbüsü ilə Bakıda "Kosmik tədqiqatlar - elm və texnikaya nüfuz" devizi ilə Beynəlxalq Astronavtika Konqresi keçirildi və dünya kosmos elminin görkəmli simaları burada iştirak etdi. Bu konqresin keçirilməsiylə Azərbaycanın kosmonavtika tarixinin təməli qoyulmuşdu.1974-cü ildə Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının tərkibində

kosmik texnika vasitələrinin istifadəsi ilə təbii ehtiyatların tədqiqi üzrə Cənub-Şərq Mərkəzi – "KASPİ" Elmi Mərkəzinin yaradılması barədə mühüm qərar verdi. 1981-ci ildə həmin elmi mərkəzin bazasında yaradılmış Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyi (KTEİB), daha sonra 1992-ci ildə KTEİB-in bazasında yaradılan Azərbaycan Milli Aerokosmik Agentliyi Heydər Əliyevin sistematik səyləri və yorulmaz fəaliyyətinin nəticəsidir.

Kosmik sənaye və peyk xidmətləri sahəsində qazanılmış uğurların təzahüründə, müstəqil Azərbaycan yarım əsr sonra Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanmış və 2023-cü ilin oktyabrın 2-6-da paytaxtda 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçirilməsini planlaşdırır. 50 ildən sonra Bakı şəhərində keçiriləcək bu konqres Ulu öndərin başlamış olduğu müdrik uzaqgörənliyin təntənəsidir.

29 dekabr 2012-ci ildə təsdiq edilən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası əsasında ölkədə yeni bir inkişaf dövrünün mərhələsi başlandı. İKT sahəsindəki uğurlar, bu sahədə çoxsaylı inkişaf layihələri, müasir infrastruktur və təcrübəli İKT mütəxəssisləri Azərbaycanın beynəlxalq arenada müvəffəqiyyətini artıraraq, qabaqcıl ölkələr sırasında yer almasında əsaslı rol oynamaqdadır.

Məhz Prezident İlham Əliyevin İKT sahəsinə verdiyi böyük diqqətin və bu sahədə əldə edilmiş uğurların nəticəsidir ki, 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmişdir.

Yeni texnologiyaların ölkənin sosial-iqtisadi inkişafı və gündəlik həyatın müxtəlif sahələrində tətbiqinin genişlənməsini nəzərə alaraq, 2013-cü ilin 1 fevral tarixində cənab Prezident İlham Əliyev, informasiya cəmiyyəti sahəsində yüksək səviyyəli kadrların formalaşması üçün "Azərbaycan Respublikasında İnformasiya Texnologiyaları Universiteti"nin yaradılması haqqında sərəncam imzaladı.

Müstəqil dövlətimizin sürətli və sistemli inkişafına təkan verən bu tədbirlər, uzaqgörənliklə hazırlanmış Milli strategiyanın uğurlu tətbiqinin nəticəsidir. Milli Strategiya sahəsində ən əsas vəzifələrdən biri də dahi öndər Heydər Əliyevin "Elektron hökumət"in formalaşdırılması haqqında qəbul etdiyi qərar idi. Bunun sayəsində ölkədə elektron vergi və gömrük bəyannamələri təqdim edilir, sahibkarlıq fəaliyyətinin onlayn qeydiyyatı aparılır, əmlak sənədləri elektron formada verilir, fərqli fəaliyyət növlərinə lisenziyaların verilməsi, pensiya və sosial yardımın təyini elektron formada həyata keçirilir və bu kimi xidmətlərin sayı gündən-günə artır. Dövlət orqanlarının elektron xidmətlərini "bir pəncərə" prinsipinə uyğun şəkildə təqdim etmək məqsədilə "Elektron hökumət" portalı olan "www.e-gov.az" fəaliyyət göstərməkdədir.

Bu işlərin davamı kimi, "Elektron hökumət"in inkişafı, "rəqəmsal hökumət"ə keçidin təmin olunması, dövlət qurumlarının informasiya texnologiyalarına, elektron xidmətlərin yaradılması və tətbiqinə dair dövlət xərclərinin optimalizasiyası, müasir standartlar əsasında informasiya sistemlərinin keyfiyyətli, dayanıqlı və təhlükəsiz infrastrukturda təşkilinin təmini, vətəndaşların bu imkanlardan sərbəst istifadə edə bilməsi məqsədilə "Hökumət buludu" (G-cloud) yaradılmışdır.

Hazırda Azərbaycanda idarəçilik sistemində elektron hökumətin əsas atributlarından biri hesab olunan elektron imzanın tətbiqi uğurla həyata keçirilir. 2022-ci ildə "AzInTelecom" MMC dövlət-özəl tərəfdaşlığı çərçivəsində "SVORT" və "Sinam" şirkətləri ilə birgə SİMA adı altında bulud əsaslı yeni nəsil rəqəmsal imza vətəndaşlara təqdim edilmişdir..

Kibertəhlükəsizlik sahəsində Elektron Təhlükəsizlik Xidməti ölkədəki informasiya infrastrukturunun fəaliyyətini koordinasiya edir və əhalinin, özəl və dövlət qurumlarının kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi və təlimləri ilə məşğul olur. Elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırma tədbirləri təşkil edir və metodiki köməklik göstərir. Bu əlaqələndirici qurum, ölkədə kibertəhlükəsizliyin daha da gücləndirilməsi üçün lazım olan addımları atmaqda öncüllük edir. Bütün bunlardan göründüyü kimi, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin konkret hədəflərə hesablanmış məqsədyönlü siyasətlərinin həyata keçirilməsi ölkəmizin İKT sahəsində də ön mövqelərə çıxmasını və müasir dövlətə çevrilməsini təmin etmişdir.

İKT sahəsində ölkəmiz tək regionda deyil, həm də beynəlxalq aləmdə əhəmiyyətli olan tədbirlərin təşkilatçısı və fəal iştirakçısıdır. Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnova-

siya və Yüksək Texnologiyalar Sərgi və Konfransı – Bakutel texnoloji sərgisinin Azərbaycanda keçirilməsi təqdirəlayiq möhtəşəm bir tədbirdir. Təsadüfi deyil ki, Ulu Öndərin siyasi kursunun davamçısı Cənab prezident İlham Əliyevin sərgini hər il ziyarət etməsi bir daha ölkədə innovasiya və yüksək texnologiyalar sahəsinə olan diqqət və qayğının bariz nümunəsidir.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiqi bir daha sübut edir ki, bu sahənin diqqətdə saxlanılması ən mühüm məsələlərdən biridir.

Bu gün respublikamızda çağdaş dövrün ən yeni 4 texnoloji mobil operatoru abonentlərə xidmət göstərir ki, bu operatorlardan 2G, 3G və 4G texnologiyaları tətbiq edənlərin sayı üçdür. 2009-cu ildən ölkədə 3G texnologiyasının tətbiqinə, 2012-ci ildən isə uğurla 4G texnologiyasının tətbiqinə başlanılmışdır.

Bakı və digər regionlarda yaxın vaxtlarda kabel televiziyaları və digər internet provayderləri tərəfindən evlərədək çəkilmiş fiber-optik kabel infrastrukturunun mövcudluğu əhali tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Son zamanlar Azərbaycanın hava yolları, kosmos və texnologiya sahəsində əldə etdiyi uğurlar qardaş Türkiyədə keçirilən "TEKNOFEST" festivalında da özünü göstərdi. 2021-ci ildə Azərbaycan ilk dəfə "TEKNOFEST" Aviasiya, Kosmos və Texnologiya festivalında iştirak edib. Türkiyədə keçirilən bu tədbir çərçivəsində, professionallıq göstərən Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları,"MiQ-29" qırıcı təyyarələri ilə solo pilotaj uçuşları həyata keçiriblər. Tədbirdə Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən iki "MiQ-29" təyyarəsi, eləcə də Müdafiə Sənayesi Nazirliyi tərəfindən "İti qovan", "Orbiter 2", "Orbiter 3", "Orbiter 4" kimi pilotsuz hava vasitələri də sərgilənib.

Bunun davamı olaraq ilk dəfə Azərbaycanda, 26-29 may 2022 tarixlərində "TEKNOFEST Azərbaycan" keçirildi. Bu festival çərçivəsində, "Smart Qarabağ" Hakatonu, "Take Off Baku" Startap Sammiti, "Rocket League" Avropa çempionatı, "Robotexnika", "Model Peyk Cansat", "Planer", "PUA", "Sosial yönümlü texnologiyalar", "Yaşıl texnologiyalar", "Aqrar texnologiyalar" və "Baku Skills" müsabiqələri təşkil olunub.

Bu gün Ulu öndərin qoyduğu siyasi kurs Azərbaycanda Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev irsinin davamçısı cənab Prezident İlham Əliyev həmin siyasəti davam etdirməklə respublikada İKT sahəsinə xüsusi diqqət və qayğı göstərir. Bu sahənin inkişafında öz siyasi enerjisini və köməkliyini əsirgəmir. Məhz uğurlu siyasətin nəticəsində Azərbaycanın dünya arenasında mövqeləri möhkəmlənir.

Ümumilikdə müasir dövrdə baş verən hərbi toqquşmalar və müharibələr qarşı tərəf üzərində üstünlük əldə etmək üçün təkcə silah gücünə deyil, həm də informasiyanın, texnoloji üstünlüklərin əhəmiyyətli olduğunu göstərir. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan xalqı cəbhə ilə yanaşı, İKT-nin imkanlarından istifadə edərək informasiya müharibəsində də öz sözünü dedi. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda texnoloji əsaslarla şəhərsalmanın həyata keçirilməsi istiqamətində artıq bir çox işlər görülmüşdür. Yenidənqurma işlərinin əsasında texnoloji imkanlarla zəngin "Ağıllı kənd" layihəsi durur. Bu layihənin həyata keçirilməsində əsas məqsəd kənd yerlərində yaşayan insanların şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə kəndlərdə də rahat çıxışının olmasını təmin etməkdir. Eyni zamanda, insanlara kənddə daha çox gəlir əldə etmək və məşğulluq imkanı yaradılmalıdır. Üçüncü məqam isə kənd sakinlərinin dövlət xidmətlərinə çıxışının təmin olunması üçün tam şəraitin formalaşdırılmasıdır. Yəni "Ağıllı kənd" konsepsiyasında xidmət, qazanc və dövlət xidmətlərindən yararlanmaq baxımından kənd və şəhər fərqi faktiki olaraq aradan qalxmış olur. Bu yenilik rəqəmsallaşma və elektron xidmətlərdə əldə etdiyimiz yeni nailiyyətlərin göstəricisidir.

Vətən müharibəsi və ondan sonrakı dönəmdə diplomatik və informasiya sahəsində aparılan siyasət bir daha sübut etdi ki, təkcə iqtisadiyyat və siyasətdə deyil, informasiya texnologiyalarının inkişafı Azərbaycan dövləti üçün böyük önəm daşıyır.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə. Heydər Əliyev və müasir Azərbaycanın İKT siyasəti. // "Azərbaycan" qəz., 2013, 3 may, № 94. s.4
2. Baxşəliyev F. Heydər Əliyev və Azərbaycanın təhsil sistemində aparılan islahatların əsas istiqamətləri (monoqrafiya). Bakı: ADPU-nun nəşriyyatı, 2009, 168 s.
3. " Azərbaycan müəllimi " qəzeti, 2013, 4 oktyabr, № 38, http://www.muallim.edu.az/arxiv/2013/38/30.htm
4. "İlham Əliyev və İKT", 2008, 27 sentyabr, http://www.ict.az/az/index

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA İMZASI

[1,2]**Nüşabə Astan qızı Qədimli,** [1,3]**Təravət Astan qızı Kərimova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]iqtisad üzrə fəlsəfə doktoru, dosent
nushaba.qadimli@mdu.edu.az
[3]taravat.karimova@ mdu.edu.az

Qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub saxlanması, habelə, milli-mənəvi dəyərlərə sədaqət, ümumbəşəri dəyərlərin, beynəlxalq hüquq normaların və s. inkişaf etdirilməsi, böyük dövlətlər və qonşularla münasibətlərin qurulmasında tarazlığın qorunması, – bütün bunlar Azərbaycanın müsbət siyasi aurasını, özünəməxsus beynəlxalq imicini formalaşdırmışdır.

Keçmiş ittifaq səviyyəsində mövcud olan iqtisadi əlaqlələr dağıldıqdan sonra milli iqtisadiyyatımızın dirçəlməsi və dövlətin labüd fəlakətdən, hərcmərclikdən xilas edilməsi üçün təcili tədbirlər görülməli idi. Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq və onu həyata keçirmək güclü dövlət siyasətinin və milli liderin olmasını tələb edirdi. Belə bir dövrdə xalqın iradəsi ilə hakimiyyətə gələn Ümummilli Lider öz yüksək nüfuzu, bacarığı, müdrikliyi, intellektuallığı, novatorluğu, qətiyyətliliyi və s. müsbət keyfiyyətləri ilə xalqın inkişafında müstəsna rol oynadı. Müstəqil Azərbaycan dövlətinin hər bir atributu Heydər Əliyevin uzaqgörən siyasəti, fitri istedadı, rəhbərlik məharəti, idarəçilik mədəniyyəti, böyük həyat və dövlətçilik təcrübəsi ilə bağlıdır. Dahi şəxsiyyətin hakimiiyətdə olduğu dövr ölkəmizin şanlı quruculuq səlnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Məhz bu şəxsiyyətin yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində iqtisadiyyatın bütün sahələrində baş verən tənəzzül tərəqqi ilə əvəzlənmiş, milli iqtisadiyyatımızın sürətli və davamlı inkişafı təmin olunmuşdur.

Ulu Öndər milli iqtisadiyyatın dirçəlməsi məqsədilə ilk öncə, ölkənin malik olduğu təbii resurslardan istifadə olunmasını və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsini ön plana çəkdi. Bu baxımdan qeyd etmək olar ki, hazırki uğurlu siyasətin təməlində bünövrəsi Ümummilli Lider tərəfindən qoyulan neft strategiyası dayanır. O dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etmək və yeni nəql marşrutlarını yaratmaqdan ibarət idi. Məhz o çətin günlərdə bağlanan "Əsrin müqaviləsi" ölkəmizin dünya birliyinə uğurla inteqrasiyasını sürətləndirməklə çox böyük imkanlar əldə etməsinə səbəb oldu. Saziş dünyanın aparıcı dövlət və şirkətlərini bir daha əmin etdi ki, Azərbaycan müstəqil və etibarlı tərəfdaşdır. Bu ölkədə, sərmayə qoyuluşu üçün səmərəli şərait mövcuddur.

Həmin illərdə yaradılmış modern neft-kimya sənayesi ölkəmizin sosial-iqtisadi inkişafında mühüm rol oynamış, neft məhsulları və avadanlığı, polad borular, sintetik kauçuk, elektrik mühərrikləri və s. sənaye məhsullarının istehsal sahələri ilə regionda özünəməxsus mövqeyə malik olmuşdur. Qürurla deyə bilərik ki, ölkəmiz ciddi çətinliklərlə qarşılaşsa da, nəzərdə tutlan bütün proqram və layihələrin reallaşmasına nail olunmuş, beynəlxalq aləmdə layiqli yerini tutmuşdur.

Artıq Azərbaycan nefti və qazı dünya bazarlarına realizə olunur, enerji təhlükəsizliyinin təmin olunması məqsədilə zəruri olan bütün tədbirləri uğurla həyata keçirir.

Ulu Öndər tərəfindən əsası qoyulan və uğurla davam etdirilən məqsədyönlü siyasət, xammal və kənd təsərrüfatı ölkəsi olan Azərbaycanın qabaqcıl sənaye regionuna çevrilməsinə, aqrar sferada irəliləyişə və yüksək göstəricilərə nail olmasına, yeni sənaye müəssisələrinin və istehsal sahələrinin yaradılmasına, qabaqcıl texnologiyaların tətbiqinə, sosial-iqtisadi inkişafa və s. şərait yaratmaqla çox qısa zaman kəsiyində respublikamızın bütün əsas göstəricilər üzrə regionda öncül mövqelərə çıxmasını təmin etmişdir.

Dünya şöhrətli şəxsiyyət Heydər Əliyevin müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi demokratik dövlət quruculuğu və kompleks islahatların reallaşmasına, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına zəmin yaratmışdır.

Ölkənin iqtisadi qüdrətinin artması baxımından bazar iqtisadiyyatı münasibətlərinə keçidin səmərəli mexanizmini formalaşdırmaq istiqamətində dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi təcrübələri nəzərə alınaraq, strateji vəzifələr müəyyən olundu. İqtisadiyyatın müxtəlif sahələrini əhatə edən dövlət proqramlarının həyata keçirilməsi ilə bazar iqtisadiyyatının əsasları möhkəmləndi, onun davamlı inkişafına nail olundu və dünya iqtisadiyyatına inteqrasiyası sürətləndi.

Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, öz dövlətçilik siması, öz inkişaf yolu vardır. Artıq on altı ildir ki, Azərbaycanda əsası Heydər Əliyev tərəfindən qoyulmuş vahid inkişaf strategiyası, siyasi iqtisadi və mədəni-mənəvi təkamül konsepsiyası, vahid milli ideologiya formalaşmaqdadır. Dövlətimizin öz milli maraqlarına söykənən beynəlxalq siyasi kursu, demokratikləşmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyətləri də göz önündədir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Ümummilli lider Heydər Əliyevin siyasi kursunu, sadəcə qoruyub-saxlamaqla kifayətlənməyərək, onu yeni şəraitin tələblərinə uyğun, kreativ ideyalarla, daha müasir və səmərəli şəkildə inkişaf etdirməkdədir. Heydər Əliyevin siyasi kursunun saxlanması heç də hər hansı bir dəyişikliyin olmasını istisna etmir. Əksinə, başqa bir şərait, başqa bir zaman, başqa bir siyasi və iqtisadi situasiya üçün səmərəli olan idarəçilik üsulları vaxtaşırı olaraq yeni zamanın, yeni situasiyanın tələblərinə uyğun surətdə dəyişdirilərək, yüksək inkişafa nail olmağı vəd edir.

Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan bir sıra strateji layihələr XXI əsrin ilk illərindən başlayaraq uğurla həyata keçirilmiş və yeni layihələr işlənib-hazırlanmışdır. ilk növbədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurlu çəkilişi qeyd edilməlidir. Bu kəmərin istifadəyə verilməsi böyük iqtisadi əhəmiyyətə malik olmaqla bərabər, regionun coğrafi-siyasi mənzərəsinə də təsir göstərir və ölkəmizin mövqeyini daha da möhkəmləndirir. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin və Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkədə uğurlu iqtisadi inkişaf, səmərəli vəziyyət yaratmaqdaqdır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev çıxışlarının birində "Azərbaycan Avropa ilə Asiyanı dəmir yolu vasitəsilə birləşdirən ölkəyə çevrilir və əlbəttə ki, regional işlərdə bizim önəmimiz artır" deyə, qeyd etmişdir.

Bu gün Cənubi Qafqaz regionunda bir çox göstəricilərə görə lider olan Azərbaycan, regionun ən güclü iqtisadiyyatına malik ölkəsidir. İqtisadi inkişafın bütün ilkin səviyyəsi Heydər Əliyev islahatları ilə bağlıdır. 1990-cı illərin əvvəllərində Azərbaycanda sosial-iqtisadi böhran hökm sürürdü. Bunun isə bir neçə səbəbi vardır:

1. Sovet İttifaqının dağılmasından sonra inzibati sistemdən bazar iqtisadiyyatına keçid prosesində baş vermiş "şok-terapiya" effekti;
2. Dağlıq Qarabağda erməni vandallarının törətdiyi vəhşilik nəticəsində baş vermiş müharibə;
3. Ölkədə idarəetmə sahəsində ciddi boşluqlar.

Bütün bunlar isə ölkə iqtisadiyyatına, makroiqtisadi göstəricilərə ciddi zərbələr vurdu. Azərbaycanın ümumi milli məhsulunun artım tempi 1991-ci ildə 0,7 %, 1992-ci ildə 22,6 %, 1993-cü ildə 23,1% oldu. Heydər Əliyevin hakimiyyətə gəlməsindən əvvəlki dövrdə isə, yəni 1991-1992-ci illər arasında ÜDM-in artım tempində kəskin azalma (-21,9 %) müşahidə olunmuşdur. Lakin

Heydər Əliyevin hakimiyyətinin birinci ilində (1993) bu azalma dərəcəsi -0,5 %-ə qədər endi. Bu faiz dərəcəsilə heç bir inkişafdan söhbət gedə bilməz, ancaq böhranın qarşısını almaq olardı, [1].

Azərbaycanda inflyasiya səviyyəsi 1991-ci ildə 83,55 %, 1992-ci ildə 1065,329% olmuşdur. Əslində, bu rəqəmlərin belə olmasının səbəbini sosialist rejimindən kapitalizmə keçid və Dağlıq Qarabağ müharibəsi zamanı yaranmış şok-terapiya effekti ilə izah etmək olar. O illərdə ölkə rəhbərliyi tərəfindən düzgün olmayan qərarlar qəbul ediləndə, problem daha da ağırlaşırdı.

Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycanda inflyasiya səviyyəsi 1065,329 %-dən 747,125 %-ə enmişdir. 1994-cü ildə inflyasiyanın artması yeni iş yerlərinin yaradılması ilə bağlıdır. Philips qanununa görə, işsizlik səviyyəsi ilə inflyasiyanın səviyyəsi tərs mütənasibdir. Başqa sözlə, ölkədə işsizlərin səviyyəsi aşağı düşdükcə inflyasiyanın səviyyəsi yüksəlir və ya inflyasiyanın səviyyəsi azaldıqca işsizliyin səviyyəsi artır. Lakin Heydər Əliyev qısa müddətdə öz siyasətini həyata keçirməklə bu problemi həll etdi və 1995-ci ildə ölkədə inflyasiyanın səviyyəsini 1386,067%-dən 545,656%-ə endirməyə nail oldu.

Azərbaycan iqtisadiyyatının inkişafına imkan verməyən amillərdən biri də Dağlıq Qarabağ müharibəsi idi. Bu müharibənin davam etməsi ölkə iqtisadiyyatına böyük zərbə vurdu. Bunu dərk edən Heydər Əliyev diplomatik kanallardan istifadə edərək öz seçicilərinin qəbul edə biləcəyi sülh şərtləri axtarmağa başladı və bunun sonunda Heydər Əliyevin uzun sürən siyasətindən sonra Qırğızıstanın paytaxtı Bişkekdə 5 may 1994-cü ildə Azərbaycan və Ermənistan hakimiyyəti arasında atəşkəs sazişi imzalandı. Bununla Dağlıq Qarabağ müharibəsi müvəqqəti olaraq başa çatmışdı.

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında dəyəri 7,4 mlrd. dollar olan "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırılmış və 400-ə yaxın səhifədə və 4 dildə öz əksini tapmışdır. Dünyanın 8 ölkəsində (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoco, BP, Mcdermott, UNOCAL, SOCAR, Lukoil, Statoil, Exxon Turkish Petroleum, Pennzoil, ITOCHU, Ramco, Delta)

iştirak etmişdir. Bu müqavilənin investisiyaları: Böyük Britaniyanın "British Petroleum" 17,12 faiz, "Ramco" 2,08 faiz, ABŞ-ın "Amoco" 17,01 faiz, "UNOCAL" 11,2 faiz, "Penzzoil" 9 faiz, 81 faiz, "Mcdermott" 2,45 faiz, Rusiya Lukoyl" 10,0 faiz, Norveçin "Statoil" 8,56 faiz, Türkiyənin "Türkiyə nefti" 1,75 faiz və Azərbaycan Neft Şirkəti 20 faizdir. Bununla da "Yeni neft strategiyası" həyata keçirilməyə başlandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmiş və 1994-cü il dekabrın 12-də qüvvəyə minmişdir. İlk dəfə hesablana bilən neft ehtiyatı 511 milyon ton olub. Sonradan neft quyularının istismsrına görə, bu ehtiyat 730 milyon tona çatmış və onunla bağlı yataqların istismarı üçün tələb olunan investisiya xərcləri 11,5 milyard ABŞ dolları məbləğində qəbul edilmişdir. 80 faiz ümumi təmiz gəlirdə Azərbaycanın payına və ya investorların payı 20 faiz azalmışdır, [2].

"Əsrin müqaviləsi" Azərbaycan Beynəlxalq Əməliyyatlar şirkəti tərəfindən yaradılmış və yeganə təsdiq edilmiş proqram olaraq SOCAR ilə birgə tədqiqatlara başlamışdır. Bu sazişdən sonra dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-a yaxın müqavilə imzalanmışdır. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının həcminə, həm də qoyulan investisiyaların həcminə görə dünyanın ən böyük müqavilələri siyahısına daxil olmuşdur. İmzalanmış neft müqavilələrində Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulan 64 milyard dollarlıq investisiyanın 57,6 milyardı dəniz diblərinin istismarı və perspektiv strukturların kəşfiyyatı üçün nəzərdə tutulmuşdur.

Ölkə prezidentinin 1999-cu ildə imzaladığı fərmanla neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir. Azərbaycan Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünü tətbiq edən və namizəd statusuna malik 26 ölkədən tamhüquqlu üzv statusunu almış ilk və yeganə ölkədir.

1995-ci ildən başlayaraq aqrar sektorun bazar prinsipləri əsasında yenidən qurulması, sovxoz və kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın kəndlilərə paylanması kimi tədbirlər nəticəsində kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş verdi, keyfiyyətcə fərqli münasibətlər formalaşdı.

Aqrar sektorda səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmini məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara müddətli vergi tətillərinin verilməsinə başlandı. Bununla yanaşı, kənd təsərrüfatı məhsulu istehsalçıları torpaq vergisindən başqa bütün digər vergi ödəmələrindən azad edildilər.



ÜDM-in real və nominal artım dinamikası (illər üzrə, manatla və faizlə)

Heydər Əliyevin memarı olduğu və uğurla həyata keçirdiyi torpaq islahatı Azərbaycan kəndlisinin çoxəsrlik arzusunu reallaşdırdı, onları torpağın həqiqi sahibinə çevirdi. Bütün qeyd olunan tədbirlərin həyata keçirilməsi nəticəsində aqrar bölmədə özəl sektorun xüsusi çəkisi bu gün demək olar ki, 100 %-ə çatmışdır.

Heydər Əliyev islahatlarının ölkənin iqtisadi inkişafına verdiyi mühüm töhfə, ümumi makroiqtisadi göstəricilərdə aydın görünür.

Qrafikdən də göründüyü kimi, Heydər Əliyev öz islahatları ilə Azərbaycan iqtisadiyyatını çox qısa müddətdə böhrandan inkişaf səviyyəsinə çatdırdı. Heydər Əliyevin irəli sürdüyü məqsədyönlü iqtisadi- siyasət, Azərbaycanda Ümumi Daxili Məhsulun (ÜDM) artım tempini -19,7%-dən 10,208%-ə çatdırdı. Bu nəhəng iqtisadi inkişaf "İqtisadi inkişafın Azərbaycan modeli" kimi tarixə düşdü. Bunlarla yanaşı, araşdırmada inflyasiyanın dərəcəsi də təhlil edilmişdir.

Tədqiqatda həm istehlak qiymətləri, həm də ÜDM deflyatorunun hesablanmış inflyasiya səviyyəsi təhlil edilmişdir. Burada həqiqətən də Heydər Əliyev islahatnın kamilliyi görünür. İş o yerə çatdı ki, Heydər Əliyev Azərbaycanda inflyasiya səviyyəsini (istehlak qiymətləri ilə) 1662%-dən 2,234 %-ə endirdi. Buradan da aydın olduğu kimi, Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi, Azərbaycan Respublikasının müstəqilliyini qeyri-müəyyənlikdən xilas etdi.

Həmin illərdə makroiqtisadi göstəricidə də inflyasiyanın azalması müşahidə olunurdu. Ölkədə inflyasiya səviyyəsi (ÜDM deflyatoru ilə hesablanmış) 1994-cü ildə 1386,067%, 2003-cü ildə isə bu göstərici 6,961% təşkil etmişdir. İnflyasiyanın hesablamasında əhəmiyyətli inkişaf müşahidə edildi. Bütün bunlar Heydər Əliyevin mükəmməl siyasəti və islahatları ilə baş verdi.

1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilən ATƏT-in Zirvə toplantısında ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas ixrac Boru kəməri"layihəsinin qısa bir müddət ərzində həyata keçirilməsinə yönəlmiş İstanbul bəyannaməsi imzalanmış, 2002-ci il sentyabrın 18-də Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş, Bakıdakı Sengəçal terminalında tikintiyə başlanılmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan bölməsi ilə birləşməsi 2004-cü ilin oktyabrında İlham Əliyevin dövründə baş verdi. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində Heydər Əliyevin adından XXI əsrin ən böyük enerji layihəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılış mərasimi keçirildi. BTC istismara verildikdən sonra, 2007-ci ilin sonunda Ceyhan limanından 36 milyon 796 min 555 ton Azərbaycan nefti dünya bazarlarına göndərildi, [3].

Nəhayət, deyə bilərik ki, bu gün Azərbaycan xalqı Azərbaycan xalqının xilaskarı olan Heydər Əliyevə minnətdar olmalıdır. Çünki Dahi Şəxsiyyət Heydər Əliyevin nümunıvi islahatları, Azərbaycanda gedən böyük iqtisadi inkişaf nəticəsində "İqtisadi inkişafın Azərbaycan modeli"ni yaratdı və böyük həriflərlə tarixə düşdü. Bütün bunlar ümumi makroiqtisadi göstəricilər əsasında araşdırıldı.

Dünya Şöhrətli Siyasətçi, dünya nəhənglərinin hesablaşdığı, özlərinə məsləhətçi hesab etdikləri Ulu Öndərimiz Heydər Əliyevin uzaqgörən və məqsədyönlü siyasətini, hazırda onun layiqli sələfi, ölkəsini, xalqını böyük məhəbbətlə sevən, onun azadlığını, suverenliyini hər şeydən üstün tutan, azdlıq bayrağını uzun illər düşməndə əsir qalaraq, talan olunan torpaqlarına iftixarla sancan, xalğına azadlıq müjdəsini qürurla elan edən, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev davam etdirir. Bütün bunların nəticəsidir ki, bu gün Azərbaycan Cənubi Qafqaz regionunda bir çox göstəricilərə görə liderdir və regionda ən güclü iqtisadiyyata malik ölkə sayılır.

Prezident İlham Əliyevin dövlət başçısı olaraq uğurlarının səbəbi heç də təkcə onun öz fəaliyyətini bünövrəsi Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm bir zəmin üzərində qurması ilə məhdudlaşmır, o eyni zamanda yeni iqtisadi münasibətlər şəraitində güclü bir siyasi lider kimi yetişmişdir. Əgər yeni ictimai inkişaf mərhələsinə keçidin birinci fazası kommunist ideologiyasından imtina edilməsini və sosialist iqtisadi münasibətlərindən qarışıq bazar iqtisadiyyatına keçilməsini nəzərdə tuturdusa, ikinci faza həmin bu sinkretik ictimai-iqtisadi sistemin bazasında Qərb standartlarına uyğun islahatların davam etdirilməsini və vətəndaş cəmiyyətinə keçilməsini nəzərdə tutur. Yəni birinci keçid dövründə sosializm cəmiyyətinin, dövlət iqtisadiyyatının, kommunist ideologiyasının xüsusiyyətlərini yaxşı bilmək və yeni iqtisadi münasibətlərə sosializm

dönəmində əldə olunmuş nailiyyətlərin dağıdılmasına yol vermədən keçmək tələb olunurdusa, hazırda bazar iqtisadiyyatının özünü yaxşı mənimsəmək, sahibkarlığın xüsusi çəkisini artırmaq, orta təbəqəni möhkəmləndirmək və vətəndaş cəmiyyətinə keçidi təmin etmək üçün sosial-iqtisadi baza yaratmaq və bütün bu irəliləyişi siyasi və hüquqi müstəvidə təsbit etmək, açılan yeni imkanlardan maksimum səmərəli istifadə etmək tələb olunur. Prezident İlham Əliyev məhz belə bir missiyanı öz üzərinə götürmüş və ardıcıl surətdə yerinə yetirməkdədir. Onu da qeyd edək ki, İlham Əliyevin mövqeyi, sadəcə, vədlər vermək deyil, real iş görməkdir. O, doğrudan da, həyata keçirilməsini planlaşdırdığı, elmi və praktik cəhətdən real olan fəaliyyət proqramları ortaya qoyur ki, bu da əhalidə ona olan inamı daha da gücləndirir və xalqın dərin hörmət və məhəbbətini qazanır.

İstifadə edilmiş ədəbiyyat

1. Ə. Bayramov, V.Bayramov, M.Yaqubzadə / "Xalq qəzeti", 2010, 16 may
2. V.Novruzov. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı / "Azərbaycan" qəz., 2023, 17 fevral.
3. E.Sadıqov. Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü. Bakı, ADİU, 20 aprel 2023

HEYDƏR ƏLİYEV DÜHASININ ŞAH ƏSƏRİ OLAN AZƏRBAYCAN QLOBAL SİYASƏTİN MÜHÜM SUBYEKTİDİR

Esmira Hilal qızı Cəfərova
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
esmira.ceferova@mdu.edu.az

XX yüzilliyin I rübündə strateji əsasları Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycan Respublikası dünya siyasətinin fəal iştirakçılarından birinə çevrilmişdir. 2020-ci ilin payızında (27.09 - 10.11) Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının ədalət mücadiləsində parlaq Qələbə qazanmasından, həmçinin 2003-cü ilin sentyabrmda (19-20.09) həyata keçirilən antiterror əməliyyatları nəticəsində dövlətimizin ərazi bütövlyünün tam şəkildə təmin olunmasından sonra Azərbaycanın qlobal siyasətdə rolu və çəkisi yüksər sürətlə artmışdır. Bu gün unikallığı ilə seçilən balansalşdırılmış xarici siyasətin müəllifi kimi Azərbaycan dövləti yeni dünya nizmaının qurulmasına davamlı töhfəsini verir. Beynəlxalq siyasətdə əldə edilən çox böyük uğurlar isə XX yüzilin 90-cı illərində və XXI yüzilin əvvəllərində Ulu öndər Heydər Əliyevin formalaşdırdığı dövlətçilik strategiyasının nəticəsidir. Bu gün qlobal siyasətdə son dərəcə mürəkkəb və bəşəriyyətin davamlı inkişafı, hətta mövcudluğu üçün ciddi təhlükə yaradan proseslər baş verir. Müasir qlobal siyasətin məzmununa nəzər salsaq, orada süni şəkildə yardılmış mürəkkəb bir mexanizmin qurulmasının şahidi olarıq. Belə bir situasiyada dövlətin və millətin maraqlarını qorumaq, qlobal siyasi proseslərin və fövqəlgüclərin geosiyasi maraqlarının qurbanı olmamaq üçün daha optimal xarici siyasətin həyata keçirilməsi şərtdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu missiya uğurla həyata keçirilir. Bu missiyanın necə bir çətin şəraitdə icra olunduğunu başa düşmək üçün dünyanın son illərdə yaradılmış siyasi və hərbi arxitekturasına nəzər salaq.

XXI əsrin 20-ci illəri ümumdünya tarixində fövqəladə dinamizmi ilə seçilən hadisələrlə yadda qaldı. Bu baxımdan sözügedən dövrü qlobal reformasiyalar dövrü də adlandırmaq olar. Bu dövrün daha bir vacib xarakteri dondurulmuş münaqişələron aktivləşməsi, siyasi stereotiplərin sındırılması, köhnə dünya nizamının dağılması və total hərbi münaqişə təhlükəsinin fövqəladə şəkildə artması ilə bağlıdır. Bu dövrdə dünya siyasətinin lokomotivlərindən biri olan Amerika Birləşmiş Ştatlarında baş verən ictimai-siyasi proseslər dünya siyasətinin kəskin şəkildə dəyişməsinə səbəb oldu. 2020-ci

il noyabr ayının 3-də ABŞ-da keçirilən növbəti prezident seçkiləri zamanı Demokratlar partiyasının nümayəndəsi *Cosef Robinett Bayden* (20 noyabr 1942, - 20.01.2009 - 20.01.2017-ci il tarixdə Barak Obamanın prezidentliyi dövründə ABŞ-ın 47-ci vitse-prezidenti, 1973-2009-cu uillərdə isə Delaver ştatından Senatın üzvü olmuşdu) ABŞ-ın 46-cı prezidenti seçildi və 2021-ci il 20 yanvar tarixindən prezident vəzifəsini icra etməyə başladı [1]. ABŞ Senatının üzvü kimi fəaliyyət göstərdiyi zaman Cozef Bayden 1991-ci ildə Fars körfəzində müharibədə ABŞ-ın iştirakının əleyhinə çıxmış, NATO-nun Avropada şərqə doğru genişlənməsi siyasətini, Şimali Atlantika Hərbi Blokunun Yuqoslaviya müharibələrinə müdaxilə etməsni və ABŞ ordusunun İraqa müdaxiləsini dəstəkləmişdi. Qeyd etmək lazımdır ki, 2020-ci ildə ABŞ-da keçirilən prezident seçkiləri 1900-cü ildən bəri seçici aktivliyinin ən yüksək həddə çatdığı seçki kimi yadda qalmışdı. Hər iki namizəd – Donald Tramp və Cozef Bayden hər ikisi 74 mln seçicinin səsini qazanmışdılar. Həmçinin bu prezident seçkiləri ABŞ-ın dövlətçilik tarixində karantin (COVİD – 19 pandemiyası ilə əlaqədar) rejimində keçirilən ilk seçkilər idi. Bu seçkilər, həmçinin ABŞ-ın siyasi tarixində ciddi konfrontasiya ilə müşayiət olunan hadisələrlə yadda qaldı. Belə ki, Cosef Baydenin inaqurasiya mərasimindən 2 həftə əvvəl, 2021-ci il yanvar ayının 6-da ABŞ Konqresinin binası qarşısında etiraz mitinqləri başlandı. Etirazçılar prezident seçkilərinin nəticələrini ləğv etmək tələbi ilə çıxş edən ABŞ-ın 45-ci prezidenti Donald Trampı dəstəkləyirdilər. Etirazçılar Kapitolini qoruyan mühafizə xidmətini aşaraq binanın bir hissəsini ələ keçirdi. Kapitoliyə edilən hücumlar nəticəsində Cozef Baydenin qələbəsini rəsmi qaydada hesablamaq və təsdiq etmək üçün toplaşmış senatorlar binadan təxliyə olundu, bina isə qapadıldı. Qarşıdurmalar nəticəsində 15 polis yaralandı, daha 50 nəfər xəsarət aldı. Biri polis olmaqla 5 nəfər həlak oldu. 6 yanvar 16:06-da Donald Tramp Kapitoliyə hücum edənləri "böyük vətənpərvərlər", Delaver ştatında Uilminqton şəhərindən xalqa müraciət edən Cosef Bayden isə baş verən bu hadisələri üsyan və sedisiya (*lat. seditio* – parçalanma, yaxud fikir ayrılığı) adlandırdı. O, Donald Trampa müraciət edərək milli televiziyada çıxış etməyi və etirazçılardan çıxışları dayandırmağı tələb etməsini təkilf etdi. Bir neçə dəqiqədən sonra ABŞ-ın vitse-prezidenti seçilmiş Kamala Devi Harris (20 oktyabr 1964, - 2021-ci i il 20 yanvar tarixindən ABŞ-ın vitse-prezidenti) də Cozef Baydenin sözlərini təkrar etdi. Keçmiş prezidentlər Barak Obama, Vilyam Klinton, Corc Buş-kiçik və Ceyms Karter isə Kapitoliyə edilən hücumu qınadılar və Donald Trampı əhalini zorakılığa təhrik etməkdə günahlandırdılar. Tezliklə bütün mübahisələr aradan qaldırıldı və gərginlik tədricən səngiməyə başladı. 2021-ci il 20 yanvar tarixində Şimali Amerikanın şərq bölgələrinin saatına uyğun olaraq 11:49 –da Bayden Bibliyaya (Əhdi-Ətiq) əl qoyaraq 35 sözdən ibarət and içdi. Andı isə ABŞ Ali Məhkəməsinin sədri Con Qlover Robert (1955, - 29 sentyabr 2005-ci il tarixindən ABŞ Ali Məhkəməsinin sədri) qəbul etdi. Qeyd etmək lazımdır ki, Cosef Bayden ABŞ tarixində ən yaşlı və Delaver şatatından olan ilk prezidentdir. İnaqurasiya mərasimdə prezidentin 78 yaşı var idi.

Prezident vəzifəsini icra etdiyi ilk iki gün ərzində Cozef Bayden 17 qərar qəbul etdi. Üçüncü gün isə o, D.Trampın qəbul etdiyi bir sıra qərarları ləğv etdi: Klimat haqqında Paris razılaşmasından və ABŞ-ın Ümumdünya Səhiyyə Təşkilatından çıxması haqqında qərarı, Meksika ilə ABŞ arasında divarın tikintisi haqqında göstərişləri və s. Daha sonra ekoloqların tələbi ilə C.Bayden Keyston XL neft boru kəmərinin inşasını dayandırdı [3]. Prezidentliyinin ilk günlərindən Cozef Baydenin xarici siyasətində Rusiya ilə münasibətlərə xüsusi yer ayrıldı. 2021-ci il yanvarın 26-da ABŞ prezidentinin Rusiya lideri Vladimir Putinlə ilk telefon danışığı baş tutdu. Prezidentlər bir sıra mühüm məsələləri müzakirə etdilər və CHB-III (Amerika Birləşmiş Ştatları ilə Rusiya Federasiyası arasında Strateji hücum silahlarının məhdudlaşdırılması haqqında müqavilə, ing. *Treaty between the United States of America and the Russian Federation on Measures for the Further Reduction and Limitation of Strategic Offensive Arms, New START*) müqaviləsini uzatmaq haqqında razılığa gəldilər. 2021-ci il 3 fevral tarixində CHB-III müqaviləsi 5 il müddətinə uzadıldı. Buna baxmayaraq, Cozef Baydenin razılığı ilə ABŞ 2021-ci il 2 mart tarixində ilk dəfə Rusiya müxalifətçisi Aleksey Navalnının 2020-ci il avqust ayının 20-də zəhərlənməsinə (20 avqust 2020-ci il tarixdə Tomskdan Moskvaya uçarkən zəhərlənmişdi) cavab olaraq, Rusiyaya qarşı sanksiyalar qəbul edildi. 2021-ci il mart ayının 17-də Cozef Bayden ABC News telekanalına müsahibəsində Rusiya prezidenti Vladimir Putuni "qatil" adlandırdı. 2021-ci il 13 aprel tarixində Cosef Baydenlə Vladimir Putin arasında baş tutan növbəti

telefon danışığında ABŞ prezidenti Rusiya liderinə neytral ərazidə görüşmək və iki ölkə arasında münasibətlərlə bağlı bütöv spektr məsələləri müzakirə etməyi təklif etsə də iki gün sonra, aprelin 15-də ABŞ Rusiyaya qarşı yeni sanksiyaların tətbiq edilməsi haqqında qərar qəbul etdi. 2021-ci il iyun ayının 16-da İsveçrənin Cenevrə şəhərində ABŞ və Rusiya arasında sammit keçirildi və ilk dəfə olaraq ölkə başçıları görüşdülər. Görüşdə kibertəhlükəsizlik, insan hüquqları, strateji sabitlik, Ukraynada və Belorussiyada vəziyyət və s. problemlərin də daxil olduğu geniş spektrli məsələlər müzakirə olundu.

XXI əsrin 20-ci illərinin əvvəllərində Avropada, Yaxın və Uzaq Şərqdə, Mərkəzi Asiyada və keçmiş SSRİ məkanında da önəmli hadisələr baş verirdi. 2020-ci il yanvar ayının 3-də ABŞ HHQ-nə məxsus təyyarələr Bağdad beynəlxalq aeroportunu atəşə tutdular. Hədəf İslam İnqilabı Keşikçiləri Korpusunun nəzdində "Əl-Qüds" xüsusi təyinatlılarının komandiri Qasım Süleymani (11 mart 1957-3 yanvar 2020, - İİKK) idi. Nəticədə, onunla birlikdə Əbu Mehdi əl-Mühəndis və daha altı nəfər qətlə yetirildi. 2021-ci il 6-21 may tarixlərində fələstinlilərlə yəhudilər arasında növbəti qarşıdurma baş verdi. 2021-ci ilin 28 iyul - 12 avqust tarixində isə Türkiyədə şiddətli yanğınlar baş verdi.

XXI əsrin 20-ci illərinin əvvəlində baş vermiş ən mühüm hadisələrdən biri də 2020-ci ilin 27 sentyabr - 10 noyabr tarixində baş vermiş 44 günlük müharibədə Azərbaycan Respublikası Silahlı qüvvələrinin "Dəmir yumruq" əməliyyatı nəticəsində 30 il işğal altında olan torpaqları azad etməsi oldu. Ümumiyyətlə, Azərbaycan Respublikasının və Azərbaycan xalqının müasir tarixində son 4 ildə baş verən hadisələrin müstəsna əhəmiyyəti vardır. Bu illərdə də, həm iqtisadi sahədə, həm də siyasi arenada Azərbaycan Respublikası yeni-yeni uğurlara imza atdı. 2021-ci il dekabr ayının 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa telemüraciətində 2022-ci ili "Şuşa ili" elan etdi.

Siyasi sahədə Azərbaycan Respublikası yaxın qonşuluq və iqtisadi əməkdaşlıq prinsiplərini əsas götürərək xarici siyasət prioritetlərini ardıcıl şəkildə həyata keçirməyə başladı. 2022-ci il fevral ayının 22-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibəti ilə iki dövlət arasında müttəfiqlik münasibətləri haqqında Moskva qətnaməsi imzalandı. 2022-ci il aprelin 22-23 tarixində "Şuşa ili" şərəfinə Azərbaycanın Mədəniyyət paytaxtı Şuşa şəhərində Dünya azərbaycanlılarının V Qurultayı keçirildi. 65 dünya ölkəsindən təşrif gətirmiş 400 diaspor nümayəndələrinin iştirakı ilə keçirilən qurultayda "postmünaqişə dövründə diaspoun fəaliyyəti" və "Qarabağın bərpası və yenidən qurulmasında diasporun töhfəsi" məsələləri müzakirə olundu. May ayının 12-də isə Şuşa şəhərində V Xarıbülbül Folklor Festivalı keçirildi. 2022-ci il iyun ayının 16-18 tarixində Bakıda "Qlobal dünya nizamına qarşı təhlükələr" adlı IX Qlobal Bakı forumu keçirildi. Forumda dünyanın 50 ölkəsindən və nüfuzlu beynəlxalq təşkilatlardan nümayəndə heyətləri iştirak etdi.

2022-ci il sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummili lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədi ilə 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında sərəncam imzaladı.

2022-ci il oktyabr ayının 20-də, 2020-ci il oktyabr ayının 20-də Zəngilan rayonunun işğaldan azad olunması şərəfinə, Zəngilan aeroportunun açılışı oldu. 2022-ci il noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səmərqənddə (Özbəkistan) təşkil edilən "Türk dövlətləri təşkilatının" IX Sammitində iştirak etdi. 2022-ci il dekabr ayının 22-də Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında Səlahiyyətli nümayəndəsi təsis edildi.

2023-cü ilin əvvəllərində Qarabağın dağlıq hissəsində vəziyyəti nəzərə alaraq 18 yanvar - 2 fevral tarixlərində Türkiyənin Qars vilayətində "Qış təlimi - 2023" adlanan hərbi təlimlər keçirildi. Prezident İlham Əliyev 2023-cü ildə Mingəçevir şəhərini Azərbaycanın Gənclər paytaxtı elan etdi.

2023-cü ilin əvvəllərində beynəlxalq aləmdə baş verən proseslərin fonunda gərginlik artmağa başladı. 2023-cü il yanvar ayının 27-də səhər saat 08:00-da Azərbaycan Respublikasının İran İslam Respublikasının Tehran şəhərində yerləşən səfirliyinin binasına terror hücumu oldu. Bu terror aktı nəticəsində səfirliyin mühafizə xidmətinin nümayəndəsi Orxan Əsgərov həlak oldu və 2 mühafizəçi

yaralandı. Yanvarın 29-da İranda Azərbaycan səfirliyi fəaliyyətini dayandırdı. Fevral ayının 21-22-də erməni silahlı qüvvələri və Qarabağda yerləşən qanunsuz silahlı dəstələr Azərbaycan ordusunun mövqelərini atəşə tutdu.

2023-cü il mart ayının 9-11 tarixlərində Bakıda X Qlobal Bakı Forumu keçirildi. "Dünya bu gün: çağırışlar və ümidlər" adı altında keçirilən Forumda 61 ölkədən 360 nümayəndə iştirak etdi. Forumda energetika, nəqliyyat dəhlizləri, yeni enerji növlərinə keçid və s. məsələlər müzakirə edildi.

2023-cü il aprel ayının 23-də Azərbaycanın müasir tarixində müsrtəsna əhəmiyyət kəsb edən hadisələrdən biri baş verdi. Həmin gün yerli vaxtla 12.00-da Azərbaycan Respublikası Dövlər Sərhəd Xidmətinin hissələri Azərbaycan – Ermənistan sərhəddində Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-keçid məntəqəsi yaratdılar. Beləliklə, 1992-ci ilin 18 may tarixindən sonra, ilk dəfə olaraq, Azərbaycan Respublikasının sərhədləri bərpa olundu. 2023-cü il 9-11 may tarixində Şuşa şəhərində "Xarıbülbül" VI Beynəlxalq Folklor Festivalı keçirildi.

2023-cü ilin ən mühüm hadisəsi sentyabr ayının 19-da 13.00-da Qarabağın dağlıq hissəsində yerləşən erməni hərbi birləşmələrinə qarşı həyata keçirdiyi antiterror əməliyyatı oldu. Antiterror əməliyyatlarından cəmi bir neçə saat əvvəl Xocavənd rayonunun ərazisində ermənilərin basdırdığı minaların partladılması nəticəsində Daxili İşlər Nazirliyinin əməkdaşları da daxil olmaqla 9 nəfər həlak olmuşdu. Cəmi bir sutka davam edən əməliyyatlar nətcəsində erməni silahlı birləşmələri 20 sentyabr tarixində 13:00-da təslim oldu. Təslim aktına imza atmış ermənlər silahları yerə qoymağı, öz mövqelərini və daha sonra Azərbaycanın ərazisini tərk etməyi öhdələrinə götürdülər.Antiterror əməliyyatı nəticəsində Azərbaycan ordusunun 192 əsgəri və zabiti həlak olmuş 511 nəfər hərçiçi isə yaralanmışdı. Sentyabrın 20-də Rusiya sülhməramlı qüvvələrinin 5 hərbiçisi öldürülmüşdü. Sentyabr ayının 21-də saat 09.00-da Qarabağın erməni əhalisinin nümayəndələri görüş üçün Yevlax şəhərinə gəldilər. Azərbaycan tərəfini görüşdə Qarabağ bölgəsində erməni əhali ilə təmaslar üzrə məsul şəxs Ramin Məmmədov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev və xüsusi nümayəndəliyin qismində İlkin Sultanov, Qarabağın erməni əhalisinin nümayəndələrini isə Sergey Martirosyan və David Melkumyan təmsil edirdilər. Həmçinin, həmin görüşə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri kontr-admiral Oleq Semyonov qatılmışdı. Tərəflər asrasında növbəti görüş sentyabr ayının 25-də Xocalıda baş tutdu. Görüşdə sentyabr ayının 21-də Yevlax şəhərində danışılan məsələlərin həlli istiqamətində atılan addımlardan, xüsusilə də qısa müddətdə humanitar yardımın təminatı, yanacaq təchizatı və enerji verilişinin bərpasından razılıq ifadə edildi. Sentyabrın 29-da Yevlax şəhərində keçirilən növbəti görüşdə ermənilərin reinteqrasiya məsələsi müzakirə olundu. Lakin bütün səylərə baxmayaraq, ermənilər reinteqrasiya olunmaqdan imtina etdilər və sentybr ayının 24-də ermənilərin təxliyyə prosesi başlandı. Sentybar ayının 26-da artıq Azərbaycanı 19 min nəfər erməni tərk etdi. Eyni vaxtda silahların təhvil verilməsi prosesi icra olundu.

Sentyabr ayının 27-dən başlayaraq Laçın dövlət sərhəddində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən separatçıların həbsinə başlanıldı. Həbs edilənlər sırasında qondarma Dağlıq Qarabağ Respublikasının Dövlət naziri vəzifəsində çalışmış Ruben Vardanyan, qondarma Müdafiə Ordusu komandanının birinci müavini David Manukyan, Dağlıq Qarabağ ordusunun hərbi naziri olmuş Lyova Mnatsakanyan və başqaları var idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il sentybarın 25-də Naxçıvan şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü zamanı Qarabağda həyata keçirilən antiterror əməliyyatlarını şərh edərkən Azərbaycan Respublikasının ərazi bütövlüyünün tam şəkildə təmin olunmasını elan etdi. Bu hadisədən 3 gün sonra sentyabrın 28-də Azərbaycanın beynəlxalq qurumlar tərəfindən tanınmış dövlət sərhədləri daxilində yerləşən tanınmamış "Dağlıq Qarabağ Respublikası"nın prezidenti Samvel Şahramanyan qondarma "Dağlıq Qarabağ Respublikası"nın mövcudluğuna son qoyulmasını nəzərdə tutan "2023-cü il sentyabr ayının 19-dan sonra yaranmış vəziyyətdən irəli gələn tədbirlər haqqında" Fərman imzaladı. Sözügedən bu sənəddə, rejimin bütün "dövlət qurumlarının" və "təşkilatlarının" 1 yanvar 2024-cü il tarixinədək buraxılması qeyd edildi.

2023-cü il oktyabr ayının 3-də antiterror tədbirləri çərçivəsində qondarma Dağlıq Qarabağ Respublikasının keçmiş prezidentləri Araik Arutyunyan, Bako Saakyan və Arkadi Qukasyan həbs edilərək Bakıya gətirildilər.

2023-cü il oktybar ayının 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ildə Prezident vəzifəsinin icrasına başlamasının 20-ci ildönümü günü Xankəndi, Xocalı, Xocəvənd və Ağdərə şəhərlərində Azərbaycan Respublikasının dövlət bayraqlarını ucaltdı. 2023-cü il noyabr ayının 8-də Xankəndində növbəti Zəfər paradı keçirildi. Dekabrın 21-də isə Xankəndi stadionunda azərbaycanlı azarkeşlərin iştirakı ilə futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında oyun baş tutdu. Oyunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və 44 günlük Vətən müharibəsində şəhid olan hərbiçilərin övladları da iştirak etdi.

2023-cü il dekabr ayının 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçiriləcəyini elan etdi. Bu seçki siyasət xadimləri və KİV-lər tərəfindən "Zəfər seçkisi" kimi təqdim olundu. 2023-cü il 25 dekabr tarixində isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etdi.

2024-cü il bəşəriyyətin tarixnə "seçkilər ili" kimi daxil oldu. İlin əvvəlində 30 il işğal altında qalmış Qarabağın Azərbaycana inteqrasiya olunması başa çatdı. Fevral ayının 7-də isə Azərbaycan Respublikasında növbədənkənar prezident seçkiləri keçirildi. Azərbaycanın müasir tarixinə "Zəfər seçkisi" kimi daxil olan bu mühüm siyasi hadisə nəticəsində Azərbaycan Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyev seçicilərin 92,12 % (4 567 458) səslərini qazanaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Qeyd etmək lazımdır ki, bu seçkilərdə əhalinin yüksək fəallığı (76,43 %) müşahidə olunurdu. Bundan sonra bütün dünyada prezident və parlament seçkilərinin paradı başlandı və bu proses bu gün də davam edir.

2024-cü il yanvar ayının ilk günlərindən dünyada Azərbaycanın daxili və xarici siyasətinə, bu və ya digər səviyyədə təsir göstərən silsilə hadisələr baş verdi: BRİKS (ing. *BRICS* – Brazil, Russia, İndia, China, South Africa, Peterburq İqtisadi forumu çərçivəsində beş dövlətin iqtisadiyyat nazirlərinin iştirakı ilə 2006-cı ildə yaradılmışdır) dövlətlərarası birliyinə Misirin, İranın, BƏƏ-nin, Səudiyyə Ərəbistanının və Efiopiyanın timsalında yeni dövlətlər daxil oldu [2].

2024-cü il yanvar ayının 3-də İranın Kerman şəhərində Qasım Süleymaninin öldürülməsinin 4-cü ildönümünə həsr olunmuş mərasimdə törədilmiş terror aktı nəticəsində Yaxın Şərq regionunda gərginlik yenidən artdı. 12 yanvar tarixində isə ABŞ-ın və B.Britaniyanın hərbi qüvvələri İranın dəstəyi ilə Qırmızı dənizdə ticarət gəmilərinin hərəkətinə maneçilik törədən Yəmən husilərinə qarşı hərbi əməliyyatlara başladılar. Yanvarın 13-də Tayvanda keçirilən prezident seçkiləri (Demokratik Proqressiv Partiyasının təmsilçisi Lay Tsinde Tayvan prezidenti seçildi) ABŞ-Çin münasibətlərində gərginliyi artırdı.

2024-cü ilin əvvəllərindən Rusiya-Ukrayna qarşıdurmasında intensivlik artdı. Fevral ayının 16-da Xarpda (Rusiyanın Yamal-Nenets Muxtar Dairəsində şəhər tipli qəsəbə) Rusiya müxalifətçisi Aleksey Navalnının ölümü Rusiyada növbəti prezident seçkiləri ərəfəsində ictimai-siyasi vəziyyəti gərginləşdirdi. Belə bir şəraitdə Ermənistan dünyada və Cənubi Qafqaz regionunda yaranmış hərbi-siyasi situasiyadan istifadə edərək xarici siyasətində ritorikanı dəyişdirdi və açıq-aşkar qərbyönümlü siyasət yürütməyə başladı. Fevral ayının 23-də Ermənistan rəhbərliyi de-fakto KTMT-də iştirakını dondurduğunu elan etdi.

Martın 7-də İsveçin NATO-ya tamhüquqlu üzv qəbul edilməsi Qərb-Rusiya münasibətlərində yeni gərginlik yaratdı [4]. Mart ayının 15-17-si tarixində Rusiyada keçirilən Prezident seçkilərində Rusiya prezidenti V. Putinin yenidən Rusiya prezidenti seçilməsi Rusiyada və dünyada birmənalı qarşılanmadı. Martın 22-də Ukrayna yaşayış məntəqələrinin Rusiya tərəfindən güclü raket atəşinə tutlması və həmin gün Moskvada Azərbaycan kökənli məşhur Rusiya biznesmeni Araz Ağalarova məxsus Moskva yaxınlığında (Krasniqorskda) yerləşən "Crocus Sity Holl"da baş vermiş terror aktı nəticəsində ən azı 145 nəfər həlak oldu. Bu hadisə Rusiya-Ukrayna və Qərb-Rusiya münasibətlərinə yeni gərginlik gətirdi. Aprel ayının 5-də Ermənistan prezidenti N. Paşinyanın Belçikanın paytaxtı

Brüssel şəhərində ABŞ-ın Dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının sədri Ursula fon der Lyayenlə görüşündən sonra Ermənistan savaş ritorikasından çıxış etməyə başladı. Beləliklə, Cənubi Qafqaz regionunda yeni münaqişə ocağının yaranması təhlükəsi artdı.

Tezisin müddəalarından göründüyü kimi, hazırda beynəlxalq münasibətlər sistemində gərgin proseslər gedir. Yeni dünya nizamının qurulması uğrunda taktiki və strateji çalışmaların templəri isə dramatik və hətta faciəli səviyyəyə çatmışdır. Belə bir mürəkkəb və çətin şəraitdə Heydər Əliyevin dövlətçilik və xarici siyasət strategiyasını daim rəhbər tutan Azərbaycan hökuməti və dövlətinin başçısı İlham Əliyev xalqın və dövlətin təhlükəsizliyinə etibarlı zəmanət verən mükəmməl xarici siyasət həyata keçirir.

İstifadə edilmiş ədəbiyyat

1. Jeffrey M. Elliot; Sheikh R. Ali. The Presidential-Congressional Political Dictionary. – Wildside Press LLC, LLC, 2017. - P. 18

2. Lissovolik Y., Vinokurov E. Extending BRICS to BRICS + Potential for Development Finance, Connectivity, and Financial Stability // Area Development and Policy. - 2019. - Vol. 4, no. 2. - P. 117-118

3. Memorandum on Construction of the Keystone XL Pipeline // Federal Register newspaper. – 2017. - 30 January (vol. 82). - P. 8663

4. Организация Североатлантического договора / Ташлыков С.Л. // Океанариум - Оясио. - Москва: Большая российская энциклопедия, 2014. - С. 339

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF STRATEGİYASI

Emiliya Yəhya qızı Hüseynova
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
emiliya.huseynova@mdu.edu.az

Azərbaycanın hərtərəfli inkişafı, onun gələcək tərəqqisi üçün möhkəm əsasların yaradılması zəngin təcrübəyə, yüksək siyasi idarəçilik və liderlik bacarığına, yorulmaz enerjiyə malik Heydər Əliyevin sosial-iqtisadi strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında Heydər Əliyevin xidmətləri əvəzsizdir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ilə ölkənin iqtisadi inkişafının, gələcək zəngin iqtisadi potensialının əsaslarının yaradılmasına, xalqın rifah halının yüksəldilməsinə yönəlmiş prosesə start verildi. Azərbaycanın Sovet İttifaqının qabaqcıl respublikalarından birinə çevrilməsi üçün bütün sahələrdə köklü islahatlar aparan Heydər Əliyev həmin dövrdə Azərbaycan tarixində böyük dönüş əldə etdi.

Dahi rəhbərin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirilmiş, sənayenin və kənd təsərrüfatının bütün sahələrində inkişafa nail olunmuş, sənayenin yeni sahələri yaradılmış, bilavasitə bağlı olan tədqiqat sahələrinə diqqət artırılmışdır.

Neft səayesi və kənd təsərrüfatı sahəsində mühüm potesiala malik olmağına baxmayaraq, onun əhalisi 1969-cu ildə Sovet İttifaqı respublikaları içərisində ən aşağı imkana malik idi. Mərkəzi hakimiyyət Azərbaycandakı bu vəziyyətə çox laqeyid münasibət bəsləyirdi və ölkədə hökm sürən kasıbçılığı aradan qaldırmağa maraq göstərmirdi. Ulu Öndərin respublikada hakimiyyət başına gəlməsilə dirçəliş dövrü başlandı.

Heydər Əliyev 70-ci illərdə Azərbaycanda 300-dən çox sənaye müəssisəsinin tikintisini həyata keçirdi. 1969-1985-ci ilə qədər sənaye istehsalı iki dəfə artdı. Nəticədə Azərbaycan İttifaqda neft məhsulları, neft avadanlıqları, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrə, çini və saxsı qablar, xalça istehsalı üzrə öncül

yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Beləliklə, Azərbaycan aqrar ölkədən neft və pambıq istehsalı üzrə liderlik mövqeyi tutmaqla, aqrar ölkədən sənaye-aqrar respublikaya çevrildi.

Ümummilli Liderin uzaqgörən və çevik siyasəti nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı, o cümlədən pambıqçılıq və üzümçülük respublikasına çevrildi. Bu dövrdə respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparıldı, yeni mütərəqqi sənaye sahələri - yüzlərlə zavod, fabrik, istehsal müəssisələri yaradıldı.

Müqayisə üçün qeyd edək ki, əgər XIX əsrdən 1969-cu ilə qədər Azərbaycanda 735 iri sənaye obyekti tikilibsə, Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə, cəmi 14 ildə onların sayı 1048-ə çatıb. İstehsal olunan sənaye məhsullarının həcmi bu illər ərzində son 50 ildə istehsal edilənə bərabər idi.

1993-cü il iyunun 15-də Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə, o cümlədən ölkənin iqtisadi həyatında taleyüklü dəyişikliklərin əsası qoyuldu. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını gözlənilən fəlakətdən və xaosdan xilas edən Heydər Əliyev ölkənin iqtisadiyyatının dirçəlməsi üçün təxirəsalınmaz tədbirlər görməyə başladı. Qısa müddətdə ölkədə bazar iqtisadiyyatının formalaşması üçün qanunvericilik bazası yaradılmış, məqsədyönlü dövlət proqramları qəbul edilmiş, institusional islahatlar həyata keçirilmiş, mülkiyyət münasibətlərində əsaslı dəyişikliklərin həyata keçirilməsi üçün müvafiq addımlar atılmışdır. Onun qarşıya qoyduğu ən mühüm məsələ - bazar iqtisadiyyatı əsaslarilə ÜDM-in artıtılması vəneft sektorunun inkişaf etdirilməsi sahəsində islahatlar aparmaq oldu. Ölkəyə rəhbərliyi dövründə Heydər Əliyevə Azərbaycanın gələcək dövrdə iqtisadi müstəqilliyinə təminat verən güclü iqtisadi baza yaratmaq müyəssər oldu. Onun müəllifi olduğu iqtisadi islahatların həyata keçirilməsi hər bir insanın sosial vəziyyətinin və maddi rifah halının yaxşılaşmasına öz müsbət təsirini göstərdi.

1993-2003-cü illərdə köklü islahatlara töhfə vermək üçün qəbul edilmiş 1715 qanun və normativ aktın əksəriyyəti məhz ümummilli lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim edilmişdir. Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadiyyatın sahələrinin tənzimlənməsi ilə bağlı 70-dən çox qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a qədər dövlət proqramı təsdiq edilmişdir.

Ümummilli Liderin dərin iqtisadi islahatlar strategiyasında ölkə iqtisadiyyatının hərtərəfli inkişafı üçün neft amilindən məharətlə istifadə olunması xüsusi yer tutur.

İqtisadiyyatın inkişafında neft sənayesinin rolunu nəzərə alan Heydər Əliyev 1970-ci illərdə bu sahədə dinamik inkişafa nail olmuş, neft-kimya sənayesinin müasirləşdirilməsini təmin etmişdir. Məhz Ulu Öndərin rəhbərliyi ilə neft sənayesinin inkişafında yeni mərhələ başlandı, "qara qızıl"ın Azərbaycanın rifahına xidmət vasitəsinə çevrilməsinin əsası qoyuldu.

Azərbaycanın iqtisadi dirçəlişində neft amili mühüm rol oynadı. Belə ki, dünyada neftlə zəngin olan ölkələr çox olsa da, onlar iqtisadi inkişafda belə nəticəyə nail ola bilməmişlər. Qərb dövlətləri ilə aparılan işgüzar danışıqlar nəticəsində 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan Sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixində böyük rol oynadı. "Əsrin müqaviləsi" adı ilə tanınmış bu müqavilə, Xəzər dənizinin Azərbaycan sektorunda Azər-Çıraq-Günəşli neft yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin dünyanın 11 ən iri neft şirkəti pay şəklində bölüşdürülməsinə səbəb oldu.

Bu müqavilədə Böyük Britaniyanıb "BP" (qoyulacaq investisiyanın 17,12 faizi) və "Ramko" (2,08 faizi), ABŞ-ın "Amoko" (17,01 faiz), "Unocal" (11,2 faiz), "Pennzoil" (9,81 faiz), "McDermott İnternational" (2,45 faiz), Rusiyanın "Lukoyl" (10,0 faiz), Norveçin "Statoil" (8,56 faiz), Türkiyənin "Turkiye Petrolleri Anonim Ortaklığının" (1,75 faiz) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) isə 20 faiz payı var idi. Bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin təzahürü idi. Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir:

- "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən

neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir. Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

Əsrin müqaviləsi" imzalandığı dövrdən etibarən Azərbaycana investisiya axınları başladı. Beynəlxalq səviyyədə özünün nüfuzundan istifadə edərək Ulu Öndər neft ixracı sahəsində mövcud olan problemləri aradan qaldırmaq üçün geniş miqyaslı layihələrin həyata keçirilməsinə start verdi.

Azərbaycan iqtisadiyyatının inkişafını müstəqillik qazanılan dövrdən dövrdən etibarən aşağıdakı mərhələlərə bölmək olar:

- 1992-1995-ci illər tənəzzül dövrü;
- 1996-2000-ci illər stabilləşmə və bərpa dövrü;
- 2001-2004-cü illər maliyyə bazarı dövrü;
- 2005-2008- ci illər iqtisadi sıçrayış dövrü.

Növbəti illərdə neft sahəsinin inkişafına, "Azəri Layt" markalı xam neftin dünya bazarına çıxarılışına əsas istinad edilməklə yanaşı həmçinin Made in Azerbaijan" brendli qeyri-neft məhsullarının xarici bazarlara ixracı məsələsinə də xüsusi diqqət yetirilirdi. Hal-hazırda gündəlikdə duran əsas məsələlər nəqliyyat dəhlizinin inkişafı, enerji və qeyri-enerji məhsullarının ixracı coğrafiyasının genişləndirilməsi "yaşıl" iqtisadiyyatın yaradılmasıdır.

Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildən bazar münasibətləri əsasında iqtisadiyyatın yaradılması, aqrar islahatların aparılması, sovxoz və kolxoz torpaqlarının, mal-qaranın və əmlakın kəndlilərə bölüşdürülməsi, qiymətlərin liberallaşdırılması və digər tədbirlər aqrar sektorun inkişafına təkan verdi. Kənd təsərrüfatının iqtisadiyyatında ciddi struktur dəyişiklikləri aparılıb, yeni sahələr yaradılıb, məzmunca yeni əlaqələr formalaşıb. Memarı Ulu Öndərin özü olan torpaq islahatının Heydər Əliyev tərəfindən uğurla həyata keçirilməsi kənd təsərrüfatını 1990-cı illərin əvvəllərindəki böhrandan xilas etdi və gələcək inkişafın əsasını qoydu.

Özəlləşdirilən torpaqlarda səmərəli idarəetmənin və sahibkarlığın inkişafını təmin etmək məqsədilə ümummilli liderin təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silinmiş, onlara uzunmüddətli vergi məzuniyyətləri verilməyə başlanmış, bu proses bu gün də davam etdirilir.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl sektorun inkişafına, dövlət tənzimlənməsinin liberallaşdırılmasına, dövlət-sahibkarlar münasibətlərinin institusionallaşdırılmasına yönəlmiş sistemli tədbirlərlə xarakterizə olunur.

Qəbul edilmiş dövlət proqramları bu sahənin inkişafında xüsusi rol oynamış, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirmişdir. Dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı qanunvericilik bazası yaradılmış, bu sahədə dövlət proqramları təsdiq edilmişdir.

1996-cı il iyunun 24-də Prezident sarayında respublikada aqrar islahatların gedişatının vəziyyətinə və torpaq islahatı haqqında qanun layihəsinin müzakirəsinə həsr olunmuş müşavirədə Ulu Öndər böyük uzaqgörənliklə ölkəmizin gələcək inkişafının istiqamətlərini müəyyən etdi: "Mən Prezident kimi Azərbaycan iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar yolu ilə istehsalın artırılması, inkişafı, mülkiyyətin özəlləşdirilməsi, özəl sektorun, bazar iqtisadiyyatının inkişafına təkan vermək, insanlara müstəqillik vermək, sahibkarlıq və təşəbbüskarlığa şərait yaratmaqdır. Bunlar bizim dövlət siyasətimizin əsas prinsipləridir".

1995-2003-cü illərin sosial-iqtisadi göstəricilərinə nəzər saldıqda aparılan iqtisadi islahatların müsbət nəticələrini görmək olar. 1995-2003-cü illərdə ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulu 22,4 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, orta iqtisadiyyatda işləyənlərin əməkhaqqı 6,2 dəfə artmış, inflyasiya 2-3 faizə enmişdir. Bu dövrdə bütün maliyyə mənbələrindən iqtisadiyyata 20 milyard ABŞ dolları həcmində investisiya qoyuluşu təmin edilmişdir.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin təkrarolunmaz idarəçilik qabiliyyəti və gərgin əməyi sayəsində əldə edilən uğurlar sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratmışdır. Ulu Öndər Heydər Əliyevin işinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin zamanın diktəsi ilə daim təkmilləşən, çevik, qətiyyətli və uzaqgörən iqtisadi siyasətinin nəticəsində əldə olunan uğurlar möhkəmləndi, ölkəmiz iqtisadi sahədə keçid dövrünü başa vurdu, liberal bazar iqtisadiyyatına keçid uğurla təmin olundu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-2014-cü illərdə dərin iqtisadi islahatlar davam etdirilmiş, Azərbaycan iqtisadiyyatı dünyanın ən dinamik inkişaf edən iqtisadiyyatlarından birinə çevrilmişdir. Qısa müddətdə Azərbaycan yüksək orta gəlirli ölkəyə çevrildi, onun sosial-iqtisadi infrastrukturu tamamilə yeniləndi, qlobal rəqabət qabiliyyətinə görə dünyada 37-ci yeri tutdu. Bu illərdə ölkə iqtisadiyyatı 6 dəfə, adambaşına milli gəlir 5 dəfədən çox artmışdır. Ölkədə qiymət sabitliyi qorunmuş, xarici valyutada gəlirlərin əhəmiyyətli dərəcədə artması nəticəsində böyük strateji valyuta ehtiyatları formalaşmış, milli valyutanın məzənnəsinin həddən artıq möhkəmlənməsinin qarşısı alınmaqla onun beynəlxalq rəqabət qabiliyyəti qorunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin dərin iqtisadi islahatlar paketi çərçivəsində sahibkarlıq mühitinin yaxşılaşdırılması, lisenziya tələb olunan fəaliyyət növlərinin sayının 59-dan 37-yə endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi ilə bağlı mühüm qərarlar qəbul edilib. sahibkarlıq fəaliyyəti növlərinə verilən icazələrin sayı təxminən 4 dəfə artaraq 330-dan 87-yə çatıb. Bu işlərin davamı olaraq 2016-cı ildən başlayaraq dünyada baş verən iqtisadi proseslər fonunda ölkə iqtisadiyyatının inkişafına, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılmasına, sahibkarlığın genişləndirilməsi üçün əlverişli imkanların yaradılmasına, sahibkarlıq fəaliyyətinin gücləndirilməsinə, qeyri-neft ixrac potensialının artırılması və idxalın əvəzlənməsinə yönəlmiş bir sıra mühüm qərarlar qəbul edilmişdir.

Həyata keçirilən iqtisadi islahatların əhatə dairəsini genişləndirmək və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etmək üçün Prezident İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzini yaratmışdır.

Qarşıya qoyulan əsas vəzifələrin icrası üçün dövlət başçısının 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin icrası da mühüm rol oynayır. Bu dövrdən etibarən ölkə iqtisadiyyatının inkişafında yeni era başladı. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Sənəd təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin GZİT təhlilini, görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə edir.

Azərbaycan bu gün neft ixrac olunan 15 məqsədli bazara malikdir. İllik neft məhsulları ixracının dəyərini 2025-ci ilədək 5 milyard dollara çatdırmağı planlaşdırıb.

Azərbaycan da istehsal olunan məhsulların ixracını genişləndirmək və milli brendlərini dünyada tanıtmaq üçün Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, Qazaxıstan, Belorusiya , Latviya, Polşa, Qətər və Çində 14 ticarət mərkəzi və 4 şərab evi açmışdır.

Dünya iqtisadiyyatına inteqrasiya bir daha göstərir ki, əsası Uıu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasət bu gün də böyük uğurla həyata keçirilir. Hazırda ölkədə neftdən asılı olmayan iqtisadi modelə keçid həyata keçirilməkdədir. İlham Əliyev cənabları tərəfindən başlanmış köklü iqtisadi islahatlar bir çox sahələrdə öz bəhrəsini verməkdədir. Nəqliyyat və logistika infrastrukturunun genişləndirilməsi yeni sənaye sahələrinin, o cümlədən əsas nəqliyyat qovşaqlarının yaxınlığında yerləşən yüksək texnologiyalı müəssisələrin yaradılmasına kömək edir. Böyük neft və qaz ehtiyatları isə nəqliyyat dəhlizlərinin yaxınlığı ilə birlikdə Avrasiyanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın əhəmiyyətini artırır. Bundan əlavə, Azərbaycan artıq Avrasiyanın rəqəmsal mərkəzinə çevrilmək yolundadır. Bütün bunlar ölkənin regional maliyyə mərkəzinə çevrilməsinə şərait yaradır.

Məlumdur ki, davamlı iqtisadi inkişafın meyarları ixrac, idxal, daxili istehsal və istehlak balanslaşdırılmasıdır. Bu, məhz postneft dövründə Azərbaycan iqtisadiyyatının yeni inkişaf vektoru olsa da, ölkənin işğaldan azad edilmiş ərazilərinin bərpası da iqtisadi inkişafa güclü təkan verə bilər və digərləri üçün model olar.

Azərbaycan Prezidenti İlham Əliyevin başlatdığı dərin iqtisadi islahatlar artıq bir çox sahələrdə öz müsbət nəticəsini verməkdədir və bu gün Azərbaycan artıq neftdən asılı olan iqtisadiyyata malik olan ölkə deyil, qeyri-neft sektorunun davamlı, dayanıqlı inkişafına malik bir ölkədir.

Hazırda Azərbaycan dünya ölkələri arenasında özünəməxsus şərəfli yer tutur. Öz suverenliyini qazanan dövrdə yaşadığı çətinliklərə bacarıqla sinə gərərək müstəqil siyasət yeritməklə istər regionda, istərsə də beynəlxalq səviyyədə öz layiqli mövqeyini bərqərar etdi.

İstifadə edilmiş ədəbiyyat

1.Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev. Dərs vəsaiti. Bakı – 2018
2.Xudiyev N.M. Uğurlu yolun layiqli davamçısı. Bakı – 2007, 608 səh
3.https://report.az/ru/analitika/reformy-gejdara-alieva-put-k-ekonomicheskomu-liderstvu/
4.https://azertag.az/ru/xeber/strategiya_glubokih_ekonomicheskih_reform-1054804
5.https://azerbaijan.az/related-information/132.
6.https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi

AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN IX QURULTAYI – TƏHSİLİMİZİN GƏLƏCƏK İNKİŞAFINA ZƏMİN

[1,2]**Namaz Rizvan oğlu Manafov,** [1,3]**Maarifə Nuh qızı Manafova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]filologiya üzrə fəlsəfə doktoru, dosent
namaz.manafov@mdu.edu.az
[3]filologiya üzrə fəlsəfə doktoru
maarife.manafov@mdu.edu.az

Azərbaycan təhsilinin inkişafında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Heydər Əliyev Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin böyük himayədarı idi. Ulu Öndərin ana dilinə, məktəbə, müəllimə olan əvəzsiz qayğısı Azərbaycan təhsilinin gələcək inkişafına zəmin yaratdı.

Azərbaycan müəllimlərinin 1978-ci il 18-19 may tarıxlərində Bakıda keçirilən IX qurultayı bu baxımdan diqqəti daha çox çəkir. Qurultaydan öncə Azərbaycan SSR Maarif Naziliyi Xalq Maarifi Muzeyi ilə birlikdə 32 stenddən ibarət "Qurultaydan- qurultaya" (1967-1978-ci illər) adlı sərgi təşkil etmışdi. Sərgi xalq maarifi sahəsində VIII qurultayla IX qurultay arasında qazanılan nəhəng nailiyyətləri, Sov.İKP XXV qurultayının məktəbin qarşısında qoyduğu vəzifələrin müvəffəqiyyətlə həyata keçirildiyini əks etdirirdi.

Azərbaycan müəllimlərinin IX qurultayı əlamətdar bir vaxtda keçirilirdi: Sov. İKP XXV qurultayının məktəb qarşısında qoyduğu vəzifələrin həyata keçirilməsinin üçüncü ili başlamışdı; SSRİ-nin yeni, sayca üçüncü Konstitusiyasının qəbulundan cəmi 6- 7 ay keçirdi; bircə ay bundan əvvəl isə (1978-ci il aprelin 21-də) Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasında Respublikamızın yeni - sayca dördüncü Konstitusiyası qəbul edilmişdi. Yeni Konstitusiya Heydər Əliyevin təklif etdiyi redaksiyada qəbul olunmuş, 73-cü maddədə Azərbaycan SSR-in dövlət dili olaraq Azərbaycan dili təsbit edilmişdi.

Qurultay iştirakçiları yaxşı bilirdilər ki, ana dili gələcək müstəqil dövlətçiliyin milli atributlarından biridir və Azərbaycan dilinə Dövlət dili statusunun verilməsi Heydər Əliyevin xalq qarşısında heç vaxt silinməyəcək tarixi xidmətidir.

Qurultay günü mətbuatda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qurultaya göndərdiyi təbrik məktubu dərc olundu. Təbrikdə ölkənin ləyaqətli vətəndaşı, alovlu vətənpərvəri olan müəllimlərin əməyinə yüksək qiymət verilirdi.

Qurultay nümayəndələri (qurultayda 1865 nümayəndə iştirak edirdi) 18 may 1978-ci ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyevin proqram xarakterli nitqını gurultulu alqışlarla qarşıladılar.

Heydər Əliyev müəllim əməyini layiqincə qiymətləndirdi. Qeyd etdi ki, ölkəmizdə müəllim bütün xalqın hörmət və ehtiramını qazanmışdır. Cəmiyyətimizin ümidi, gələcəyi olan uşaqların təlim-tərbiyəsi kimi ən mühüm, ən vacıb iş ona etibar edilmişdir. Müəllim öz biliyini, təcrübəsini, qüvvəsini, qiymətli nəyi varsa, hamısını şagirdlərinə, xalqa bəxş edir. Rəşadətə bərabər bu nəcib, fədakar əməyinə görə müəllimin yetişdirmələri, valideynlər ona hədsiz dərəcədə minnətdardırlar.

"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrərmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq" [1].

Heydər Əliyev göstərdi ki, maarif prosesində əsas sima müəllimdir. Məktəblərimizin bütün yetişdirmələrinə həyat vəsiqəsini müəllim vermişdir. Qurultayın yüksək tribunasından Ulu Öndər respublikamızın bütün müəllimlərinə və tərbiyəçilərinə səmimi qəlbdən təşəkkür etdi.

Heydər Əliyev Azərbaycan müəlliminə inanırdı, inanırdı ki, 120 min nəfərlik respublika müəllimlər ordusu öz şərəfli vəzifəsini bundan sonra da vicdanla yerinə yetirəcək, yeni nəsillərin yetişdirilməsində daha böyük üğurlar qazanacaqdır.

Dahi rəhbər cəmiyyətdə müəllimin nüfuzunu daha da yüksəltməyi mühüm vəzifə kimi hesab edirdi. Heydər Əliyev Azərbaycan müəllimlərinin IX qurultayında şagirdlərin təhsilini və əməyə hazırlanması işini təkmilləşdirməyi mühüm vəzifə kimi qarşıya qoydu. Ulu Öndər qeyd etdi ki, məktəbli gənclərin təliminin səmərəliliyini və keyfiyyətini yüksəltmək elmlərin əsaslarının dərindən mənimsənilməsinə, əmək tərbiyəsinin qətiyyətlə yaxşılaşdırılmasına nail olmaq deməkdir, şagirdlərə ictimai işlərdə, ictimai-faydalı fəaliyyətdə yaxından iştirak etmək vərdişləri aşılamaq deməkdir.

Məktəbimiz təbiətin və cəmiyyətin inkişaf qanunlarını yaxşı başa düşən, yaradıcı təfəkkür vərdişləri olan bilikli adamlar hazırlamalıdır. Bu gün faktların müəyyən məcmusunun şagirdlər tərəfindən mənimsənilməsi ilə kifayətlənmək olmaz. Şagirdlərə öz biliklərini müstəqil surətdə artırmaq, elmi və siyasi informasiyanın sürətli axınından baş çıxarmaq vərdişi aşılanmalıdır. Bu mürəkkəb və məsul vəzifələrin yerinə yetirilməsi hər bir pedaqoji kollektivin, hər bir müəllimin fəaliyyəti ilə, müəllimlərin hazırlıq səviyyəsi ilə, təlim metodlarının həyat tələblərinə uyğunlaşdırılması ilə sıx əlaqədardır.

Ölkə rəhbəri Azərbaycan məktəbinin uğurlarına yaxşı bələd idi və bu uğurlara ürəkdən sevinirdı. Bununla bərabər, ulu öndər nöqsanları da yaxşı görürdü: təlim- tərbiyə prosesinin lazımi səviyyədə olmadığı, müəllimlərə, şagirdlərə yüksək tələbkarlıqla yanaşılmadığı, vəziyyəti yaxşı göstərmək üçün qiymətlərin şişirdildiyi və süni surətdə yüksək müvəffəqiyyət faizi yaradıldığı məktəblər, təəssüf ki, hələ az deyildir. Bu nöqsanları aradan qaldırmaq müəllimlərin, bütün xalq maarifi işçilərinin birinci dərəcəli vəzifəsidir.

Ulu Öndər qeyd etdi ki, " çox uzun bir müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə, əsas hesab edilən göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır". Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı gəlib çatmışdır. "Bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı- bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi, bax bu meyarla müəyyən edilir" [3].

Dahi rəhbər məruzəsində, ayrı-ayrı fənlərin tədrisi əhəmiyyətini də qeyd etdi. İctimai fənlərin təlimi keyfiyyətlərinin böyük əhəmiyyəti olduğunu göstərdi: İctimai fənləri yaxşı bilmək hər bir məktəblidə vətənə məhəbbət hissinin, xalqın rifahı naminə fədakarlıqla çalışmaq əzminin tərbiyə olunmasına və inkişaf etdirilməsinə kömək edir.

Bizim məktəb şagirdlərin riyaziyyat, fizika, kimya, biologiya və başqa fundamental fənlər sahəsində möhkəm biliklərə yiyələnməsini təmin etməlidir.

Ölkənin iqtisadiyyatı coşqun sürətlə inkişaf edir və ona hazırlıqlı adamlar lazımdır.

Dahi rəhbər göstərirdi ki, məktəbdə ana dili və ədəbiyyatın tədrisi formaları və metodlarını daim təkmilləşdirmək, uşaqlarda sözə, obrazlı təfəkkürə məhəbbət hissi aşılamaq lazımdır. Ana dilini, doğma xalqın ədəbiyyatını, mədəniyyətini dərindən bilmək elmli adam üçün zəruri keyfiyyətdir, vətəndaşın hərtərəfli inkişafı üçün şərtdir.

Məktəb gənc şəxsiyyətin bir vətəndaş kimi təşəkkülündə, gənclərin vətənpərvərlik tərbiyəsində boyük rol oynayır. Öz vətəni üçün iftixar hissini, vətənpərvərliyi, vətənin nailiyyətlərinin müdafiəsinə hazır olmaq əzmini oğlan və qızların şüurunda bərqarar etmək müəllimlərimizin məsul və mühüm vəzifəsidir. C.Naxçıvanski adına ixtisaslaşdırılmış orta məktəb gənclərin hərbi vətənpərvərlik tərbiyəsində getdikcə daha mühüm rol oynayır.

Ümummilli Lider qeyd edirdi ki, məktəbdə vətənpərvərlik tərbiyəsi işini daim təkmilləşdirmək, onun forma və metodlarının rəngarəngliyinə calışmaq, yüksək səmərəliyinə nail olmaq lazımdır. Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır. "Böyüməkdə olan nəslin fiziki inkişafına daha çox fikir verilməli, bədən tərbiyəsinin tədrisi yaxşılaşdırılmalı, hər bir məktəbdə səmərəli idman məşğələləri üçün şərait yaradılmalı, uşaqlar fiziki cəhətdən hər vasitə ilə möhkəmləndirilməli, onların sağlamlığına qayğı göstərilməlidir [1, s.391].

Pedaqoji ali məktəblərdən danışan ölkə başçısı qeyd edirdi ki, pedaqoji ali məktəblərin başlıca vəzifəsi gələcək müəllimlərə dərin bilik verməkdən, onları öyrətməkdən və tərbiyə etməkdən ibarətdir. Lakin ali məktəb məzunlarının bir hissəsinin hazırlıq səviyyəsi heç də gənaətbəxş deyildir. Bəziləri müasr təlim texnologiyalarına zəif yiyələnmişlər, ixtisasını kifayət dərəcədə bilmir, bu isə məktəblərdə haqlı narazılığa səbəb olur. Pedaqoji ali məktəbin hər bir tələbəsi gələcək müəllimdir, tərbiyəçidir, buna görə də qüvvəni əsirgəmədən onunla işləmək, onu gələcək fəaliyyətə hazırlamaq, öz yüksək borcunu yerinə yetirməsi üçün ona xalq qarşısında məsuliyyət hissi aşılamaq lazımdır.

Çəkinmədən demək olar ki, ölkə rəhbərinin Azərbaycan müəllimlərinin IX qurultayında proqram xarakterli nitqi təhsilimizin inkişafına təkan verdi, Azərbaycan təhsilinin yeni mərhələyə qədəm qoymasına səbəb oldu.

Beləliklə, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, azərbaycanlı gənclərin respublika hüdudlarından kənardakı ali məktəblərə təhsil almağa göndərilməsi, hərbi kadrların yetışdirilməsi, Respublika Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaradırdı [2].

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan müəllimlərinin qurultayları (I-XII) (Tarixi-xronoloji, stenoqrafik materiallar) . Buraxılışa məsul: Misir Mərdanov. Bakı: Çaşıoğlu, 2008. - 784 s.

2. Azərbaycan təhsilinin inkişafında Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri. www/azertag/ az|xeber| 2341676. Bakı, 20.10. 2022

3. Qədirov F. Azərbaycan müəllimlərinin qurultaylarının tarixi yolu // "Azərbaycan müəllimi" qəz., 2023, 01 sentyabr

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA ORDU QURUCULUĞU SAHƏSİNDƏ GÖRDÜYÜ İŞLƏR

Mahir Balaca oğlu İsmayılov
texnika üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
mahir.ismayılov@mdu.edu.az

Təşkilatlanması üçün çox qiymətli işlərin hələ sovet dövründə görüldüyü Azərbaycan milli ordusunun yeni əsaslar üzərində yaradılması, möhkəmləndirilməsi və real qüvvəyə çevrilməsi

məhz Heydər Əliyevin adı və tarixi fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrü ölkəmizin tarixinin ən məsuliyyətli, sınaqlı dövrü olduğu kimi, həm də Azərbaycan Ordusu tarixinin yeni bir mərhələsidir. Bu yeni mərhələ öz başlanğıcını Ulu öndərin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətindən götürür.

Ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət almışdır. Ümummilli liderin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. O zaman bu qərarı vermək böyük cəsarət tələb edirdi. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəb yaradıldı. Təsadüfi deyil ki, C.Naxçıvanski adına Hərbi Məktəb Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi. Ulu Öndər deyirdi: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam".

Sovet hakimiyyəti illərində Azərbaycanın hərb tarixi üçün mühüm əhəmiyyət kəsb edən məqamlardan biri Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə milli zabit kadrlarının yetişdirilməsi sahəsində gördüyü tarixi fəaliyyətdir. Böyük bir uzaqgörənliklə həyata keçirilən bu işlərin nəticəsində Azərbaycanda yeni bir zabit nəslinin yetişdirilməsi mümkün oldu ki, məhz həmin zabitlər XX əsrin sonlarında müstəqilliyini yenidən qazanmış respublikanın milli ordusunun ilkin və gərəkli zabit bazasını təşkil etdilər.

Heydər Əliyev 2-ci dəfə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra şəxsi mənafelərə xidmət edən ayrı-ayrı başıpozuq dəstələri ləğv etdi, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi hərbi sahədə dirçəlişə nail oldu. O, könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, vahid komandanlıq sistemində təşkil olunan nizami ordu yaratdı. Heydər Əliyev ön xətdə səfər edərək döyüşçülərimizlə səngərdə görüşməsi və onları döyüşə ruhlandırması öz real bəhrəsini verdi. Çox keçmədi ki, 1994-cü ilin əvvəllərində Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı uğurlu hərbi əməliyyat həyata keçirildi. 1994-cü il mayın 12-də elan olunan atəşkəsdən sonra Azərbaycanda nizamlı, müasir səviyyəli ordunun qurulması prosesinə böyük inamla start verildi. Ölkədə nizami ordu quruculuğu formalaşdırmağa başladı.

Varislik prinsipi əsas tutularaq Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli sərəncamı ilə 26 iyun Silahlı Qüvvələr günü kimi qeyd olunur.

Məhz ulu öndər Heydər Əliyev dövlətimizin imicini beynəlxalq aləmdə yüksəltdikdən sonra Azərbaycan Ordusunun da dünya ölkələrinin ordularına inteqrasiya etməsinə şərait yarandı. Həyata keçirilən uğurlu islahatlar nəticəsində ordumuzun beynəlxalq əlaqələri qısa müddət ərzində möhkəmləndi və proses bu gün də sürətlə davam etməkdədir. Ümummilli Liderimizin təşəbbüsü ilə Azərbaycan Ordusunun tərkibində formalaşan sülhməramlı taborun şəxsi heyəti Kosovoda, Əfqanıstanda və İraqda sülhün qorunmasında fəal iştirak edib, Azərbaycan əsgəri Əfqanıstan torpağında sülhyaratma əməliyyatlarında xidmət edib. Bütün bunlar ordumuzun beynəlxalq aləmdə artan nüfuzunun bariz nümunəsidir. Ordumuzun zabit və əsgərləri xidmətləri ilə belə dəyərli nümunələrin sayını artırmağa çalışırlar. 2016-cı ilin aprel döyüşləri ordumuzun gücünü və qüdrətini bir daha göstərdi. Aprel döyüşlərindən sonra ordumuz daha da gücləndi. Müntəzəm olaraq təlim və məşğələlərdə iştirak edən zabit və əsgərlərimizin döyüş təcrübəsi və peşəkarlığı daha da artdı.

Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Ali baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbiçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı

Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. "Global Fire Powor" mərkəzinin 55 göstəricisi əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer alır (2021).

Heydər əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalayıb. 1997-ci-2001-ci illərdə zabit heyətinin təkmilləşdirmə kurslarının, Cəmşid naxçıvanski adına Hərbi Liseyin naxçıvan filialının (27 fevral 2004-cü ildən H.Əliyev adına Hərbi Lisey), ehtiyat zabitlərin hazırlıq kursunun və Azərbaycan tibb Universitetində hərbi tibb fakultəsinin yaradılması da Azərbaycan Ordusunun peşəkar, bilikli, Vətəninə, xalqına sadiq hərbiçilərlə təmin edilməsində böyük əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı başladığı işlər Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən, hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir. Silahlı Qüvvələrimiz daha da modernləşdirilib, ən son hərbi texnologiyalar orduya cəlb edilib.

Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə mənim də iştirak etdiyim 44 günlük Vətən müharibəsi ilə hərb tarixinin yeni və şanlı salnaməsini yazdı. Rəşadətli Ordumuzun şücaəti, Vətən torpaqları uğrunda apardığı ölüm-dirim savaşı sayəsində ərazi bütövlüyümüz bərpa olundu, haqq, ədalət öz yerini tapdı. Təsadüfi deyil ki, Azərbaycan Ordusu bu gün dünyanın 50 ən güclü ordusu sırasında yer alıb. 44 günlük Vətən müharibəsi Ordumuzun gücünü dünyaya bir daha nümayiş etdirdi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sərəncamı ilə Silahlı Qüvvələrin hərbi qulluqçularının medallarla təltif olunması dövlətimizin ordumuza və hərb sahəsinə olan diqqətinin bariz nümunəsidir.

İstifadə edilmiş ədəbiyyat

1. M.B.İsmayılov, Heydər Əliyev və Azərbaycanın Energetika Sistemi, "Heydər Əliyev – 100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda Respublika Elmi Konfransının materialları, 04-05 may 2023, MDU, Mingəçevir

2. Ə.H.Əliyev, M.B.İsmayılov, Ə.H.Tağızadə, Azərbaycanda nəqliyyatın inkişafında Heydər Əliyevin rolu, Dayanıqlı inkişaf, Mingəçevir, MDU, 2023, №3, s.88-90

THE ROLE OF NATIONAL LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF AZERBAIJAN SCIENCE

[1,2]**Mehdi Rahimov,** [1,3]**Fidan Isayeva**
[1]Mingachevir State University
[2]Doctor of Philosophy in Philology, Associate Professor
mehdi.rahimov@mdu.edu.az
[3]fidan.isayeva@mdu.edu.az

The Great Leader Heydar Aliyev initiated the course of political and economic development, encouraged the establishment of a successful education system in Azerbaijan, continued reforms and created a foundation for the successful development of the education system. Based on this strategy, the state has adopted many important programs for the development of education, and the expenses allocated to education from the state budget have increased year by year. "... I have always been closely connected with school, education, and education... I believe that the society should save and spend on education, wherever it comes from, and should help the teacher. This is my principle position

During the years of leadership of the National Leader Heydar Aliyev, the number of preschool institutions and those studying there has increased quite a lot. Deeply convinced that socio-economic and cultural growth has passed precisely through general education, the National Leader focused his main attention on this area and made consistent decisions to further improve conditions in schools. According to these decisions, the network of secondary schools has been expanded, quality changes have been implemented, new school buildings have been built and student learning conditions have been improved. During the leadership of the national leader, the provision of pupils with free textbooks began, and this continues at present. The provision of pupils with textbooks and teaching aids of teachers is of great importance to education by the state.

"The title of teacher is the highest title. I do not know a higher name on earth than a teacher. This speech of the Great Leader is an incentive for everyone who chooses the teaching profession. Heydar Aliyev made a number of decisions to strengthen the social protection of teachers. "People who dedicate their lives to teaching are truly loyal to their people and nation, and at the same time heroic people." "Preparing valuable citizens for the society, nation and country is the most important task that falls on the school and teachers," said the Great Leader, and he meant that the school should train personalities who will play a role in the development of independent Azerbaijan and its recognition to the world. [1]

"How valuable this education system is can be seen from the fact that in Azerbaijan there are people with high literacy, knowledge, qualifications, high science, and they make up most of society. Without them, the economy of Azerbaijan would not be able to develop so strongly. Without them, Azerbaijan could not develop science. Without them, we would not be able to rule Azerbaijan as an independent state now. They need to be evaluated ...."(National Leader Heydar Aliyev) [2]

President Ilham Aliyev successfully continued the policy initiated by the Great Leader and signed important works to increase the prestige of the teaching profession. A good education means a state with a strong economy, culture and science. Prominent representatives of our science and culture, educated personalities in the field of education, as always, are able to represent Azerbaijan with honor both inside and outside the country.

References

1. 3. Hacıyev İ. Heydər Əliyev və milli yaddaşın bərpası. Bakı, 2003.
2. https://ikisahil.az/post/431543-azerbaycanda-elm-tehsil-medeniyyetin-inkishafi-ulu-onder-heyder-eliyevin-adi-ile-baglidir

KREMLİ FƏTH ETMİŞ BÖYÜK TÜRK OĞLU – HEYDƏR ƏLİYEVİN MƏNALI VƏ KEŞMƏKEŞLİ ÖMÜR YOLU HAQQINDA

Fikrət Həbib oğlu Nəbiyev
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
nabiyev.fikret@gmail.com

İnsan övladı işıqlı dünyamıza gəlir, ailədə, təhsil ocağında təlim, tərbiyə və təhsil alır, böyüyür, inkişaf edir, xalqına, millətinə xidmət göstərir, ad, san qazanır. Hər bir xalqın, hər bir millətin qismət payına elə şəxsiyyətlər düşür ki, həmin xalq, həmin millət bu şəxsiyyətlərin adı, soyadı ilə tanınır, yüksəlir, ucalır. Bu yüksəlişin və ucalığın sayəsində yaranan və mövcud olan dövlət dünya sivilizasiyasında özünə layiq mövqeyinə çatır. Bu gün biz tarixə nəzər salıb iftixarla deyə bilərik ki, Azərbaycan xalqının, Azərbaycan millətinin də qismət payına belə şəxsiyyətlər düşmüşdür.

Odlar yurdu Azərbaycanımız üçün misilsiz xidmətləri olan böyük şəxsiyyətlərdən, beynəlxalq aləmdə geniş tanınan, ictimai-siyasi və dövlət xadimlərindən söz düşəndə ürəyində doğma vətənimizə məhəbbəti olan hər bir insan qürur və fərəh hissi keçirir, haqlı olaraq qürrələnir, fəxr edir. Ona görə ki, bu torpaq, bu diyar adları dünyanın tarixi səlnamələrini bəzəyən cahanşümül insanlar yetirmişdir. Belə insanlar özlərinin daxili və xarici siyasətləri, dövlətçiliyin möhkəmləndirilməsi, inkişafı və qorunması, yüksək əxlaqi və mənəvi keyfiyyəti, dərin biliyi, elmi zəkalılığı, fitri istedadları, uzaqgörənliyi, dünya siyasətinin, elminin, mədəniyyət və incəsənətinin inkişafına təkan verən qabiliyyət və bacarıqlarını sərf edərək yurdumuza, bütövlükdə bütün Azərbaycanımıza şöhrət gətirmişlər. Biz fəxr edirik ki, bu cür dahilərlə, bir ölkənin övladlarıyıq, bir millətin vətəndaşıyıq. Heç nə ilə əvəz olunmayan uğurlarını, dünyanın hər yerindən gələn xoş sədalarını eşidəndə belə şəxsiyyətləri bizlərə - xalqımıza bəxş etdiyi üçün Ulu Tanrıya dua edirik. Ulu Tanrının bizlərə - xalqımıza bəxş etdiyi əvəzsiz varlıq - dahi və böyük şəxsiyyətlərdən biri də ulu öndərimiz Heydər Əlirza oğlu Əliyevdir.

İnkar edilməz, danılmaz faktdır ki, xalqımızın qismət payına belə bir şöhrətli insan - böyük bir şəxsiyyət nəsib olmuşdur. Sözün həqiqi mənasında Heydər Əliyev əvəz olunmaz insan, dünya şöhrətli siyasətçi, müstəqil dövlətimizin bayraqdarı, müdrik bir şəxsiyyət kimi tanınmış və tarixin ən yaxşı səhifələrində özünə yer tutmuşdur.

Əvvəlcədən deyək ki, Heydər Əlirza oğlunun ömür yolu heç də hamar olmamışdır. Şərəflə, üzüağ və başucalıqla başa vurduğu mənalı həyatının acısını da, ağrısını da görmüşdür: yersiz tənələrlə üzləşmiş, haqsız olaraq vəzifəsindən uzaqlaşdırılmışdır. Lakin heç zaman ruhdan düşməmiş, qırılmamış, bütün zərbələrə özündə güc tapmış, saf əqidəsi, pak əməli, mənalı həyat ideyası uğrunda öz yolundan dönməmişdir: o sözünü hər yerdə hər kəsin üzünə deməyi bacarmışdır. Öz sözünü hər yerdə üzə dediyinə, həqiqəti aşkarladığına görə saysız-hesabsız dost qazanmışdı. Gəlin açıq danışaq: Heydər Əliyev saysız-hesabsız dost qazansa da, az da olsa düşmən də qazanırdı. Bu qismə aid olan kəslər ondan çəkinirdilər, qorxurdular. Çünki belə adamlar müstəqilliyə öz şəxsi mənafeyi, vəzifə pilləsi, şan-şöhrət naminə can atırdılar və arzularına da çatmışdılar. Ancaq Heydər Əliyevin dilindən çıxan acı həqiqətlər onların yuxusuna necə deyərlər haram qatırdı. Elə bu səbəbdən də onlar Heydər Əlirza oğlu Əliyevin doğma vətəninə - Azərbaycana qayıdışına mane olmağa çalışır və bunun üçün dəridən qabıqdan çıxırdılar. Niyə? Hesab edirəm ki, bu sualın cavabı Heydər Əliyevi yaxından tanıyanlar, onun mənalı və keşməkeşli ömür yoluna bələd olanlar üçün aydındır. Bununla belə çoxsaylı, obyektiv və əsas cavablardan biri budur ki, Heydər Əliyev dövlətimizdə tayı-bərabəri olmayan böyük bir şəxsiyyət, əsl fenomen idi. Fenomen olduğu üçün də son dərəcə qeyri adiliyi ilə seçilirdi. Sanki allah-təaladan ona xüsusi bir vergi, fitri istedad verilmişdi. Fitri istedada malik insanlar təkcə siyasətdə deyil, ədəbiyyatda, incəsənətdə, elmin müxtəlif sahələrində olmuşdur. Bizim xalq bu sahədə də başı uca olmaqla özünü xoşbəxt saya bilir. Fəlsəfə və ictimai fikir sahəsində Mirzə Fətəli Axundov, mədəniyyət və incəsənət aləmində Üzeyir Hacıbəyov, Qara Qarayev, ədəbiyyatda Nizami Gəncəvi, Məhəmməd Füzuli, Hüseyn Cavid, dövlətçilikdə Şah İsmayıl Xətai kimi nəhəng şəxsiyyətlərimizlə iftixar hissi keçiririk. Yaşadığımız dövrün dünya şöhrətli siyasətçiləri sırasında fenomen şəxsiyyət kimi tanınanlar çox da deyildir. Sevindirici haldır ki, bu azlıqlar sırasında türk dünyasının, müsəlman aləminin nümayəndələri az deyildir. Fikrimizi aydınlaşdırmaq üçün XX əsrin görkəmli siyasətçiləri sırasında özlərinə layiqli yer tutmuş Atatürkün, Camal Əbdül Nasirin və Heydər Əliyevin adlarını çəkə bilərik. Xalqımızın sayılıb seçilən ictimaisiyasi və dövlət xadimlərindən biri olan Heydər Əliyevin Bakıda gəlib yaşamasına hər cür maneçilik törədilməsinin səbəbini də elə burada axtarmaq lazımdır.

Keçmiş Sovet İttifaqı Kommunist Partiyası və Sovet dövlətinin görkəmli xadimi Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əlirza oğlu Əliyevin, yuxarıda göstərilən vəzifələrindən istefası, sonrakı siyasi həyatı və fəaliyyəti daima bir azərbaycanlı – ziyalı kimi bizi düşündürmüş və onun siyasi fəaliyyətinə olan marağımızı hədsiz dərəcədə artırmışdır. Ermənilərin fitvası və M.Qorbaçovun məkrli siyasəti ilə istefaya göndərilən xalqımızın sevimlisi Heydər Əliyev 20 yanvar faciəsində baş verənlər barədə beynəlxalq aləmə ətraflı məlumat verdi. Böyük və tanınmış siyasi xadimin hələ 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi dövrü Respublikamızın müttəfiq respublikalar arasında birinci yerlərdə getməsi, SSRİ

kimi dünyanın nüfuzlu super dövlətinin vacib sahələrindən birinə neçə illərdən bəri rəhbərlik Heydər Əliyevin siyasi fəaliyyətində diqqəti çəkən məqamları şərh etməyi özümüzə borc bilirik. Azərbaycan Xalq təsərrüfatının bütün sahələrində sanballı uğurlar qazanmış və o vaxtlarda dəbdə olan yarış qabaqcılları sırasında olmuşdur. Təsadüfi deyil ki, o, Sov.İKP MK-nin Siyasi Bürosuna üzv seçilmişdir. Müttəfiq respublikaların rəhbərləri arasında seçilən Heydər Əlirza oğlu Əliyevin öz xalqına bağlılığı, əməyi, qabiliyyət və fərasəti onu daha yüksək vəzifəyə çatdırır: Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkilir. Bu vəzifədə o öz əməksevərliyi, prinsipiallığı, paklığı ilə seçilir. Bütün bunlara baxmayaraq 1987-ci ildə o, tutduğu vəzifədən istefa verir. Xüsusən Heydər Əliyevin Moskva Kreml Sarayından Dünya erməni mafiyasının canfəşanlığı və o vaxtkı Sov.İKP-nin Baş katibi M.S. Qorbaçovun şəxsən özü tərəfindən uzaqlaşdırılaraq istefaya göndərilməsi, ev dustağı həyatı bizi ciddi narahat etmişdir.

Ümumiyyətlə, Heydər Əliyev haqqında danışmaq, onu müdrik dövlət xadimi kimi qiymətləndirmək və onun siyasi fəaliyyətindən bəhs edən kitab yazmaq çox məsuliyyətli və ağır bir işdir. Lakin məsuliyyətli olduğu qədər də şərəflidir. Ulu Öndərin haqqında, daha doğrusu həyatının fırtınalı ayları və illəri barədə yazmış olduğumuz məqalələr əsas verir ki, onun siyasi fəaliyyəti haqqında kitab yazaq. Bir ziyalı kimi həmin illərə ötəri də olsa nəzər salmaq, Azərbaycanda ictimai siyasi vəziyyəti təhlil etmək, o dövrün mətbuatında hökm sürən senzuranın tüğyan etdiyi çağlarda belə, Heydər Əliyevin əleyhinə respublika rəhbərlərinin və Azərbaycan hökümətinin məqsədyönlü iş aparması kimə, hansı bir vətəndaşa, ziyalıya məlum deyildi?! Bu həqiqətdir. Rus atalar sözündə hikmətli bir kəlam var: "həqiqəti hamı tərifləyir, lakin onu hamı demir". Bədxahlar, nankorlar da belədir, həqiqət sözünü tərifləyirlər, ancaq həqiqətin özünü demirlər. Biz qələmi əlimizə alıb öz gördüklərimizi, bildiklərimizi yazmağa başlayanda əsl həqiqəti üzə çıxarmaq, hər şeyi olduğu kimi deməyə çalışdıq.

Heydər Əliyevin SSRİ rəhbərliyinin və dünya ermənilərinin qurduğu tələdən öz mahir kəşfiyyatçı bacarığı ilə xilas olaraq sağ-salamat Azərbaycana gəlməsi respublika rəhbərliyini təşvişə salmışdı. Onlar hamısı qorxu və vahimə içərisində idilər.

Yeri gəlmişkən onu da deyək ki, Heydər Əliyev harada hansı vəzifədə işləyirsə işləsin, hətta işsiz olanda da həmişə və hər yerdə sözünü açıq şəkildə, heç kəsdən, heç nədən çəkinmədən üzə deyərdi. Bax buna görə də saysız-hesabsız dost qazanırdısa, az da olsa düşmən də qazanırdı. Bu sonuncu qrupa aid olan adamlar Heydər Əlirza oğlunu xoşlamırdı. Üstəlik, bu adamlar ondan çəkinirdilər. Elə bu səbəbdən də Heydər Əliyevin Azərbaycana və ilk növbədə Bakıya gəlib yaşamasına mane olurdular. Bütün çətinliklər və hər cür gözlənilən təxribatlara baxmayaraq o, bir başa Bakıya – kiçik qardaşı, dünya şöhrətli alim Cəlal Əliyevin yanına gəldi, onun mənzilində yaşamağa başladı. Di gəl ki, o burada çox qala bilmədi. Səbəb bir idi: çox qəribə və qəribə olduğu qədər də maraqlı bir vəziyyət yaranmışdı: uzun illər respublikaya başçılıq etmiş, SSRİ adlı nəhəng bir dövlətin, hökumətin rəhbərlərindən biri olan Heydər Əliyevin Bakıda normal yaşaması üçün nəinki şərait yaradılmamışdı, hətta onun qardaşı evində yaşaması da təhlükəli idi.

Heydər Əliyev Moskvadan Bakıya gəlməsi və qardaşı, görkəmli elm xadimi, bütün azərbaycanlılara xas olan milli mentaliteti və milli, mənəvi, əxlaqi və mədəni dəyərləri ilə həmişə seçilmiş akademik Cəlal Əliyevə məxsus evdə yaşamağa, burada rahatlanaraq onun sonrakı fəaliyyəti çərçivəsində hərəkət etməyi o vaxtki respublika rəhbərliyini şok vəziyyətinə salmışdı. Təsadüfü deyil ki, akademik Cəlal Əliyevin yaşadığı həmin o mənzildəki otağın pəncərəsi dövlətin güc strukturları tərəfindən nəzarətə götürülmüş, qranatomyotdan atəş açacaqları ilə onu hədələyib xəbərdarlıq etmişdilər. Beləliklə, Heydər Əliyev kimi bir dahinin qardaşıgildə üç gündən artıq yaşamasına imkan verilmədi.

Sual olunur: belə bir halda bəs Heydər Əliyev hara getməli, harada yaşamalı idi? Respublika rəhbərlərinin və hökumətinin nankorluğuna bir baxın...! Bu və digər məsələləri nəzərə alan Heydər Əliyev Bakıya qayıdışının 3-cü günü doğma Naxçıvan torpağına gəldi və hadisələrin sonrakı inkişafı prosesində Ulu Tanrı Heydər Əliyevə qarşı çıxanları, ona nankorluq edənləri, üzünə ağ olanların cəzasını verdi. Heydər Əliyevin üzünə ağ olaraq nüfuzuna xələl gətirənlər, son nəticədə Ulu Tanrının qəzəbinə gəldilər…

XX əsrin axırlarında Sovet İttifaqı rəhbərlərinin biri-birinin ardınca dünyalarını dəyişməsi SSRİ-dəki ictimai-siyasi vəziyyətə və partiya daxili duruma da öz mənfi təsirini göstərmişdi. Bu proses baş katib L.İ.Brejnevin vəfatından sonrakı illərdə baş verdi. L.Brejnevin ardınca Y.Andropov və K.Çernenkonun ölümü sovet xalqını demək olar ki, seçim qarşısında qoymuşdu. Bundan istifadə edən super dövlətlərin beynəlxalq dəstəyi və gizli fəaliyyəti nəticəsində dünya ermənilərinin, onların mafioz qruplarının təsiri altına düşmüş M.S.Qorbaçovun baş katib vəzifəsinə gətirilməsi reallaşdı. Beləliklə, Sov.İKP və SSRİ rəhbərliyi onu dağıdan adamların əlinə keçdi. Erməni lobbisinin təsiri altında işləyən baş katib Qorbaçov tərəfindən Kremli fəth etmiş böyük türk oğlu Heydər Əliyev Siyasi Bürodan və Kremldən uzaqlaşdırılaraq istefa verdi.

Onun Kremldəki yerinə isə milliyyətcə erməni olan və heç bir yerdə tanınmayan partiya və sovet orqanlarında rəhbər vəzifələrdə işləməyən təcrübəsiz Sitaryan adlı birisi gətirildi. Heydər Əliyevin ətrafındakı bu proseslər onu bir daha ehtiyatlı olmağa, öz siyasi sayıqlığını itirməməyə çağırırdı. SSRİ kimi bir dövləti Qorbaçovla birlikdə artıq erməni mafiyası idarə edirdi. Hadisələrin belə inkişafı göstərirdi ki, SSRİ-nin süqutu labüddür. Heydər Əliyevə olan təzyiq və təqiblər onun xəstələnməsinə və infarkt keçirərək xəstəxanaya düşməsinə səbəb oldu. Xəstəxanada da onu rahat buraxmırdılar. Onun vəziyyəti xalqdan gizlədilirdi. Bütün Sovet xalqı Heydər Əliyevdən narahat idi.

SSRİ rəhbərliyi isə tanınmış dövlət xadimi haqqında, xüsusən onun Azərbaycana rəhbərlik etdiyi dövrə aid fəaliyyəti barədə, guya saxtakarlıq etməsi haqqında böhtanlar yağdırırdılar. Bu işdə onlara Azərbaycanın partiya və hökumət rəhbərləri kömək göstərirdilər. Onlar Heydər Əliyevi qohumbazlıq və tayfabazlıqda günahlandırırdılar. Onun Azərbaycana rəhbərlik etdiyi dövrdə guya ki, mərkəzə saxtakarlıqla müşahidə olunan raportlar verilirmiş. Heydər Əliyevi yalan statistik məlumatlar göstərmək və sairə işlərdə günahlandırıb yalan, iftira dolu yazıları Mərkəzi mətbuatda dərc etdirir və bu yazıların tərcüməsini Azərbaycan Mətbuatının səhifələrinə çıxarırdılar. Belə olan halda Heydər Əliyevin Moskvada yaşaması mümkün deyildi. Onun Bakıya gəlməsi zərurəti yaranmışdı. Məlum Qarabağ məsələsini reallaşdırmaq üçün ermənilərin və onlara havadarlıq edən Moskvanın əlinə fürsət düşmüşdü.

Xalqımızın, vətənimizin və Heydər Əliyev kimi alınmaz qalamızın üstünü şimalda və cənubda qara buludlar almışdı. SSRİ rəhbərliyi və ermənilərin əl-qolu açılaraq məkrli planlar həyata keçirirdilər. Respublika rəhbərliyi isə Moskvanın çaldığı havaya oynayır, Heydər Əliyevin respublikaya rəhbərliyi dövrü respublika təsərrüfatının bütün sahələrini yoxlatmaqdan ötrü SSRİ Baş Prokrorluğunun və SSRİ Daxili İşlər Nazirliklərinin milliyyətcə erməni olan mühüm işlər üzrə müstəntiqlərini Bakıya dəvət edib gətirmişdilər. Telman Qdielyan, Qaragözov, Qriqori Arakelov artıq Bakıda idilər. Nankor rəhbərlər komissiya yaratmağı planlaşdırırdılar və Özbəkistan variantını Azərbaycanda tətbiq etmək istəyirdilər. Lakin bu onlara qismət olmadı. Heydər Əliyev hələ Moskvada ikən bu işin təşkilatçılarına başa saldı ki, şantaja, uydurmaya əl atmasınlar, Azərbaycan xalqının alın tərinə, əməyinə böhtan atmasınlar. Beləliklə, Heydər Əliyev atılan odun qarşısını aldı, bütövlükdə Azərbaycan zəhmetkeşlərinin və kənd əməkçilərimizin şəffaf əməyinə ləkə salmaq istəyən müstəntiqlərin bir şey tapa bilməməsinə, yəni əməldə cinayət tərkibi olmadığına görə həmin qrupların Bakıdan çıxarılaraq qovulmasına nail oldu. Son nəticədə Heydər Əliyev özünün və eləcə də respublikamızın əleyhinə SSRİ rəhbərliyinin və onların Azərbaycandakı əlaltılarının arzularını ürəklərində qoydu.

Ermənilər SSRİ prezidenti M.S.Qorbaçovla birgə yanvarın 19-dan 20-nə keçən gecə Bakıda qırğın törədərək soydaşlarımızı gülləboran etdilər. 131 nəfər öldürüldü, xeyli sayda yaralı və itkin düşən oldu.

Bakı şəhəri qana qərq oldu. Bu qırğını respublika rəhbərliyi və Qorbaçov ört-basdır edə bilmədi. Məhz ertəsi gün, yanvarın 21-də xəstə ikən Heydər Əliyevin öz doğmaları və əzizləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək həmin hadisəyə hüquqi və siyasi qiymət verməsi və qanlı hadisədə SSRİ və Azərbaycan rəhbərliyini günahlandırması cəsarət və mərdlik tələb edirdi.

Beləliklə, Heydər Əliyevin həyatına olan təhlükə gündən günə artırdı. Nəhayət, Heydər Əliyev çətinliklə olsa da Moskvadan Bakıya gəlməyə nail olur. Onun Bakıda Binə təyyarə

limanında qarşılanmasından ötrü respublika rəhbərliyi "xüsusi hazırlıq" görmüşdü. Bir qrup dələduz adamları başına yığaraq,

Xalqımızın Heydər Əliyevə olan sevgisi və marağı getdikcə artırdı. Buna baxmayaraq, keçmiş respublika hökuməti sanki yasa batmışdı. Onların hamısı qorxu və vahimə içərisində idilər...

Bu kitabı yazmaqda məqsədimiz, Heydər Əliyevin fırtınalı ömür yolu haqqında əsl həqiqəti qələmə almaqdan ibarət olmuşdur. Onun ətrafında baş verən hadisələri olduğu kimi yazıb təsvir etməyi özümüzə borc bildik.

İstifadə edilmiş ədəbiyyat

Quliyev İ., Nəbiyev F. Kremli fəth etmiş böyük türk oğlu. Monoqrafiya, Bakı, "MBM", 2022. 164 s.

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

Hüsniyyə Çobanova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Heydər Əliyev adına Hərbi İnstitutu
cobanovahusniyye@gmail.com

"Biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik."

(Heydər Əliyev)

Giriş

Nə yaxşı ki, Tanrı Azərbaycan xalqının taleyinə Ümummilli liderimiz Heydər Əliyev kimi dahi insanı, xilaskar rəhbəri nəsib edib. Məhz onun xalqına, vətəninə sonsuz məhəbbəti, misilsiz əvəzolunmaz xidmətləri sayəsində ölkəmizin parçalanmasına, vətəndaş müharibəsinin başlanmasına, düşmən tərəfindən daha çox ərazilərin işğalına, maddi-mədəni sərvətlərimizin mənimsənilməsinə yönələn qəsdlərin qarşısını almaq mümkün oldu. Ulu Öndərin yürütdüyü düzgün və məqsədyönlü siyasət nəticəsində ölkə sabit həyata və dinamik inkişaf yoluna qədəm qoydu.

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı da hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Milli-mənəvi dəyərlərdən danışarkən xüsusi vurğu ilə qeyd olunmalıdır ki, bizim misilsiz mənəvi irsimiz olan Heydər Əliyev şəxsiyyəti bu anlayışla ayrılmaz sürətdə bağlıdır.

Milli dəyərlərimizin qorunması və inkişafı yaxın keçmişimizdə məhz ulu öndərimizin adı ilə bağlıdır. Onun Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında uğurlu yeniliklər, dəyişikliklər başlanmışdır.

Əsas hissə

Heydər Əliyev siyasətinin ən parlaq uğurlarından biri Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin dirçəlişi və qorunub saxlanılması, böyük cəsarətlə milli soykökümüzə, milli tariximizə, milli ədəbiyyatımıza və mədəniyyətimizə, ana dilimizə və Vətən tariximizə verilən böyük qiymətdir

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş Ümummilli lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu Öndər fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz xidmətlər göstərmişdir. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir

"Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" söyləməklə, qürur hissi keçirən Heydər Əliyev öz vətənini və xalqını böyük məhəbbətlə sevən, Azərbaycan dövləti və milləti üçün əlindən gələni edən lider, əslində, ölkəmizdə milli tərbiyə konsepsiyasını bəyan etmişdir. "Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir. Biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik." [5, s.328] deməklə, Ulu Öndər milli ideologiyanın əsası kimi müəyyənləş-dirmişdir.

Ulu Öndərimiz Azərbaycanın müstəqilliyi illərində olduğu kimi, sovet dövründə də, də milli dəyərlərimizə sahib çıxmışdır.

Biz Heydər Əliyevə ona görə Ümummilli Lider deyirik ki, o, yalnız dövləti yox, milləti birləşdirəcək bütün dəyərləri qoruyub mühafizə edirdi və onların inkişafı üçün proqramlar müəyyənləşdirdi. Bunların ən mühümlərindən biri də dil məsələsi idi.

Dünya səviyyəli siyasətçi və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hər zaman politoloqların, filosofların, filoloqların, tarixçilərin və müxtəlif sahənin tədqiqatçılarının daim diqqət mərkəzində olacaqdır. O, Azərbaycan xalqının milli dövlətçilik mübarizəsindəki misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdır. Ulu öndər çıxışlarının birində deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" [6, s.282]

Heydər Əliyev Bakı Dövlət Universitetinin 50 illik yubileyində öz karyerasını təhlükə altına ataraq Azərbaycan dilində çıxış edərək, olduqca dəyərli fikirlər söyləyib: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini - dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir". [11, s.192]

Ulu Öndər bir natiq kimi zəngin söz ehtiyatına malik idi. O, danışarkən duruxmaz, söz axtarmaq üçün fikirləşməzdi. Nitqində söz və ifadələrin təkrarına mümkün qədər yol verməzdi.

Heydər Əliyevin hələ Naxçıvanda işləyərkən öz sərəncamı ilə milli bayrağa rəsmi status verməsi, Dünya Azərbaycanlılarının Həmrəylik gününün elan edilməsi, Novruz, Qurban bayramlarının yeni ruhda və dövlət səviyyəsində qeyd olunması və digər bu kimi qərarlar milli-mənəvi dəyərlərimizin qorunmasına və mədəniyyətimizin inkişafına yönəlmiş addımlar idi.

Heydər Əliyevin hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə həyata keçirdiyi çoxşaxəli fəaliyyəti xalqımızda milli qürur, milli mənlik şüurunun formalaşmasına, azadlıq, müstəqillik duyğularının baş qaldırmasına gətirib çıxarmışdır.

Heydər Əliyevinin fəaliyyətində mədəniyyət abidələrinin, tanınmış şəxsiyyətlərin yubileylərinin təşkil edilməsi və keçirilməsi

Azərbaycan mədəniyyətinin və mənəviyyatının təcəssümü olan klassik abidələrə və sənətkarlara həssas münüsibət ulu öndərin fəaliyyətinə xas keyfiyyət idi.

Heydər Əliyev 1996-cı ilin noyabr ayında dahi şairimiz Məhəmməd Füzulinin 500 illiyi, 2000-ci ilin aprel ayında isə böyük türk eposu, müqəddəs ana kitabımız və ilk yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin keçirilməsi ilə bağlı Türk dünyasının təmsilçilərini, dövlət və hökumət adamlarını, alim, şair və yazıçıları, mədəniyyət xadimlərini Bakıya topladı. Eyni zamanda görkəmli sənətkarlarımızın yubileylərinin dövlət səviyyəsində keçirilməsi ümummilli əhəmiyyəti olan tədbirlər sırasında xatırlanır.

UNESCO səviyyəsində qeyd olunan bu möhtəşəm yubileylər, eyni zamanda, ümumtürk mədəniyyətinin təntənəsi idi.

Heydər Əliyev 2000-ci il aprelin 8-də eposun 1300 illiyi münasibətilə türkdilli dövlət başçılarının Bakıda keçirilən VI zirvə görüşündə söyləmişdir: "Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Digər tərəfdən, belə

yubiley tədbirlərini keçirməklə biz nümayiş etdiririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Qaşqarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlarımız bütün bəşəriyyətin mədəni sərvətidir." [4, s.295]

Repressiyaya məruz qalaraq 1937-ci ildə Sibirə sürgün olunmuş görkəmli ziyalı və dramaturq Hüseyn Cavidin nəşini 1981-ci ildə uzaq Sibirdən Azərbaycana gətirmək üçün apardığı mübarizə də Ulu Öndərin milli irsə ehtiramla yanaşan, bu yolda heç bir siyasi riskdən çəkinməyən şəxsiyyət olduğunu bir daha təsdiqləyir.

Azərbaycan xalqının adət-ənənələrinin, ümumən milli kimliyimizin mühüm komponentlərinin daha çox əksini tapdığı qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud"un xilası, hətta bu eposun təbliği məqsədilə bədii filmin çəkilişi, Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, Üzeyir Hacıbəyov və bir çox söz və musiqi sənəti bahadırlarının dahiyanə əsərlərinin, aşıq poeziyasının təkrarsız nümunələrinin bütün sovetlər məkanında təbliği Azərbaycan mədəniyyətinin təbliği istiqamətində atılan addımlardır.

1972-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Aşıq Ələsgərin 150 illik yubileyinin həm Bakıda, həm də Moskvada ən yüksək səviyyədə keçirilməsi bunu bir daha təsdiqləyir. Belə bir möhtəşəm tədbirin həm də aşığın doğulduğu Göyçə mahalında keçirilməsində əsas məqsədlərdən biri isə el sənətkarını xalqa qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycanın real sərhədlərinin hansı coğrafiyanı əhatə etdiyini, ulu babalarımızın Ermənistan adlanan ərazidə əzəldən yaşadıqlarını və həmin ərazilərin ilkin sahibləri azərbaycanılar olduğu fikrini sovet cəmiyyətinə çatdırmaq idi.

1974-cü ildə Azərbaycan dilinin tədqiqinə görə bir qrup dilçi alimin Dövlət mükafatlarına layiq görülməsi, o cümlədən 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinin çapı, Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutunun yaradılması və nəhayət, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması da Ulu Öndərin ana dilinin xalqı milli özünüdərkə daşıyan ən ciddi amillərdən biri kimi dəyərləndirməsinin daha bir təsdiqidir.

Bir sözlə, sovet rejiminin sərt qanunlarına baxmayaraq, respublikamızda böyük iqtisadi, elmi və ədəbi-mədəni potensialın yaradılması bu uzaqgörən siyasətin nəticəsi olmuş, xalqın azadlıq idealları, XX əsrin əvvəllərindəki dövlətçilik dəyərləri Heydər Əliyevin hakimiyyəti dövründə ictimai şüurda geniş meydan tapmışdır. Lakin özünün və ailəsinin real təhlükə ilə üz-üzə qalmasına baxmayaraq, 1990-cı il qanlı 20 Yanvar faciəsinə ilk olaraq kəskin etirazını bildirən və ən cəsarətli, dəqiq və obyektiv siyasi qiymət verən də Heydər Əliyev oldu. Onun bəyanatından ruhlanan Azərbaycan xalqının milli azadlıq hərəkatı daha da vüsət aldı.

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir.

Ulu öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir". [7, s.126]

Ulu Öndər Azərbaycan ailəsinin həyatını əhatə edən çoxsaylı məsələlərin tənzimlənməsinin dövlət səviyyəsində həyata keçirilməsini təmin etmək və qadın hərəkatının fəallaşmasına şərait yaratmaqla yanaşı, həm də ictimaiyyətin diqqətinin qadınların yeni nəslin milli ruhda tərbiyəsindəki roluna yönəldilməsinin vacibliyini önə çəkmişdir.

1998-ci ildə Heydər Əliyevin şəxsi təşəbbüsü və müvafiq sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin (indiki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi) təsis olunması da məhz bu zərurətdən irəli gəlmişdir. Heydər Əliyev Azərbaycan qadınlarının I qurultayındakı çıxışında yüksək milli, mənəvi-əxlaqi keyfiyyətlərə malik qadınlarımızın cəmiyyətdəki yerini və rolunu yüksək qiymətləndirmişdir: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır. Ancaq bununla bərabər, əsrlər boyu Azərbaycan qadınının üzərinə böyük zəhmətlər düşmüşdür. O

zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmişdir və heç vaxt bu zəhmətdən inciməmişdir". [10, s.153]

Ulu Öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də tarixi ənənə və təməl üzərində milli ideologiyanın formalaşması və inkişafı naminə misilsiz xidmətlər göstərmiş, milli düşüncənin düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmışdır. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" [1, s.182] deyən Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Tarix sübut etmişdir ki, xalq öz milli ruhunu, mənəvi dəyərlərini, əxlaqi keyfiyyətlərini qoruyub yaşadanda, inkişaf etdirib gələcək nəsillərə çatdıranda böyük və qüdrətli olur.

Rəsmi tədbirlərdə Azərbaycan dilində çıxış edən ulu öndər Heydər Əliyev 1978-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dilinin dövlət dili statusu almasına nail olmuşdur.

Ümummilli Liderimizin siyasi fəaliyyətinin 1969-1982-ci illərini öyrəndikcə görürük ki, ulu öndər dilimizə, tariximizə, mədəniyyətimizə, musiqimizə, ədəbiyyatımıza məhz dövlətçilik mənafeləri baxımından yanaşmışdır. Onun məqsəd və məramı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirməklə, xalqın milli dirçəlişi, milli şüurunun oyanışı ilə müstəqil dövlətimizi yaratmaq olmuşdur.

1982-ci ildə Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə seçilməsi o zaman "Kremlə sancılan əzəmətli türk bayrağı" kimi dəyərləndirilirdi. Ulu Öndər həmin vəzifədə də milli maraqlara xidmət etməyi böyük məharətlə bacardı.

Ulu Öndərimiz milli dəyərlərin üç tərkib hissəsini xüsusi qeyd edir: dil, adət-ənənə və milli mentalitetin rolunu xüsusi qiymətləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". [1, s.215]

Ümummilli Liderimiz ailənin cəmiyyətdəki rolunu xüsusi vurğulayaraq qeyd edirdi ki, : "Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəcb edir. Eyni zamanda o ananın da rolunu yüksək qiymətləndirirdi: "… hər bir insan dünyada həyatına görə, bütün varlığına görə Anaya borcludur." [8, s.212].

O, hesab edirdi ki, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin boya-başa çatdığı ailədə formalaşır. Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdükcə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır. "Uşaqların sağlamlığı, onların yaxşı təhsil və tərbiyə alması, Vətən və xalq üçün gərəkli övlad kimi böyüməsi Ümummilli Liderin daim diqqət mərkəzində olmuşdur.

Ulu Öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir: "...Biz öz milli- mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". [2, s.65]

İnsanların yaddaşında ateizm mərhələsi kimi qalan Sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət- ənənələrindən uzaqlaşmamış, əksinə milli və dini əxlaqa söykənərək xeyirxah işlər görərək, qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara əl tutaraq savab qazanmağa can atmışlar.

Azərbaycan Prezidentinin andiçmə mərasimində respublika Konstitusiyası ilə yanaşı, müqəddəs Qurani-Kərimə də əl basaraq, dövlətə, xalqa sədaqətlə xidmət edəcəyinə, milli-mənəvi və dini dəyərlərimizi qoruyacağına and içməsi yuxarıda dediklərimizə əyani sübutdur.

Heydər Əliyev bütün fəaliyyəti boyu milli-mənəvi və dini-əxlaqi meyarlara əsaslanır və bu meyarlar onun dövlət siyasətinin milliliyində və humanistliyində aşkarlanırdı.

Azərbaycanda milli zabit kadrlarının başlanması üçün ilkin yol müəyyən edildi. Bakı-Moskva yazışmalarından, telefon zənglərindən sonra Heydər Əliyevin uzun müddətli şəxsi mübarizəsinin

nəticəsi öz bəhrəsini verdi. 1971-ci ildə Bakıda ilk ibtidai Hərbi təmayüllü məktəb yaradıldı. Həmin məktəbə general Cəmşid Naxçivanskinin adı verildi. Ordumuz üçün zabit kadrlarının hazırlanmasında önəmli yer tutan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması ölkəmizin hərb tarixinə qızıl hərflərlə yazıldı. Nəticədə hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu oldu. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Ulu öndər Heydər Əliyevin adını daşıyan Hərbi İnstitutun məzunlarıdır. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər.

Bu gün müstəqil Azərbaycanın Milli Ordusuna rəhbərlik edən zabitlərin əksəriyyəti məhz Heydər Əliyevin xeyir-duası ilə o illərdə ölkəmizin hərbi məktəblərində və xarici ölkələrdə təhsil almağa göndərilənlərdir.

Nəticə

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında misilsiz xidmətləri unudulmazdır. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək. lakin Azərbaycan xalqının iftixarı olan Heydər əliyevin uzaqgörən strategiyası uğurlu gələcəyə gedən yollarımızı əbədi məşəl kimi daim işıqlandıracaq.

Bu gün qüdrətli dövlət xadimi Heydər Əliyevin zəngin irsi, şərəfli həyat və fəaliyyəti gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması üçün ən dəyərli mənbədir.

44 günlük Vətən müharibəsi nəticəsində qazanılan qələbənin əsasında məhz Ulu Öndərimizin əsasını qoyduğu uzaqgörən siyasət dayanır. Çünki Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş siyasi kursda milli maraqlarımız hər şeydən üstün dayanırdı. Bu kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticə etibarilə qələbəmizi şərtləndirdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi ədalət bərpa edilmiş, işğal altında olan torpaqlarımız azad olunmuş, Zəfər salnaməsi tarixdə layiqli yerini almışdır. Bütün nailiyyətlərin təməlində isə Heydər Əliyev siyasəti dayanır.

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir.

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə çox böyük işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan Heydər Əliyevin mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışan Ümummilli lider Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çatdırmaq üçün əlindən gələni əsirgəməmişdir. Bu gün Azərbaycanda Heydər Əliyev erası davam edir və daim davam edəcəkdir. Dünyanın harasında olursa-olsun, Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyev yada düşür.

Müstəqil və qüdrətli Azərbaycanın memarı və qurucusu, milli-mənəvi dəyərlərimizin himayədarı, milli kadr islahatının banisi Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun parlaq ideyaları gələcəyimizə daim nur saçacaq!

İstifadə edilmiş ədəbiyyat

1. Abdulla Qurbani/ Əbədiyaşar komandan/ Bakı/ 2004/ 447 səh.
2. Abutalıb Səmədov/ Boyük xilaskar/ "Ozan" nəşriyyatı/ 2004/ 286 səh.
3. Abutalıb Səmədov/ Azərbaycanın qurtuluş tarixi/ "Ozan" nəşriyatı/ 2004/ 535 səh.

4. Heydər Əliyev və Azərbaycan/ Bakı/ 2002/ 365 səh.
5. Heydər Əliyev/ Müstəqilliyimiz əbədidir/ Bakı/ 2006/ 552 səh.
6. Heydər Əliyev/ Müstəqilliyimiz əbədidir/ Bakı/ 2009/485 səh.
7. Heydər ƏIiyev / Ədəbiyyatın yüksək borcu və amalı/ Bakı/ 1999/ 388 səh.
8. Heydər Əliyev və Azərbaycan Respublikası Silahlı Qüvvələri/ Bakı/ "Apostrof" çap evi/ 2013/ 400 səh.
9. Heydər Əliyev və Ordu Quruculuğu/ Bakı/ 2006/ 480 səh.
10. İlham Əliyev/ İnkişaf məqsədimizdir/ Bakı/ 2016/ 395 səh.
11. Xudiyev Nizami/ Heydər Əliyev və Azərbaycan dili/ Bakı/ "Təhsil"/ 1997/ 380 səh.

HEYDƏR ƏLİYEV VƏ NEFT SEKTORUNUN İNKİŞAFI

Zaməddin Sultanəli oğlu Allahverdiyev
texnika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
sultanelioglu@gmail.com

"1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir."

(Heydər Əliyev)

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonar iqtisadiyyatın bütün sahələrində dərin keyfiyyət və kəmiyyət dəyişiklikləri baş vermişdir. 1969-cu ildən başlayaraq, Azərbaycanın iqtisadi sahələrinin bütün sahələri kimi neft və qaz sənayesinin də yüksək inkişaf mərhələsinin əsasə qoyulmuşdur. Bu dövrdə Azərbaycanın neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başlayır [1, s.5].

Ulu öndər Heydər Əliyevin iştirakı ilə 1971-ci ildə Azərbaycanda 1 milyard ton neftin hasilatının qeyd edildiyi təntənəli mərasim keçirilmişdir. Heydər Əliyevin böyük səyi nəticəsində XX əsrin 70-80-ci illərdə Azərbaycanda neft sənayesinin inkişafına təkan verən 75 növdə 400-dən çox neft qaz avadanlıqları və neft sənayesi uçun nəqliyat növləri gətirildi. Xəzərdə 2500 t gücündə "Azərbaycan" kranı, "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 m dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yataqları kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. tona çatdırıldı [2, s.5-7]. .

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üçün xüsusi proqram hazırlanmış və həyata keçirilməyə başlanmışdır. Həmin proqrama əsasən yeni texnika və texnologiyaya malik zavodlar yaradılmış, təzə qurğular inşa olunmuşdur.. Eyni zamanda neftayırma zavodlarının yenidən qurulmasına başlandı. "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı mərhələlərlə icra olunduqca, bu sahədə başlanan keyfiyyət dəyişiklikləri də genişlənərək dərinləşirdi. Bu gün ulu öndərin adna olan zavodda 1976-cı ildə "ELOU-AVT-6", 1980-ci ildə "Katalitik Riforminq", 1986-cı ildə "Neftin kokslaşdırılması", 1993-cü ildə "Katalitik Krekinq" qurğularının inşası, hələ sovet hakimiyyəti illərində onun rəhbərliyi ilə respublikamızda görülən digər işlər, yaradılan möhkəm təməl bu gün müstəqil Azərbaycanda dünya standartlarına uyğun neft sənayesinin formalaşmasına imkan yaratmışdır [3; 5]. .

Bu dövrdə dünyada analoqu olmayan Dərin Dəniz Özülləri zavodunun Azərbaycanda, Bakıda tiklməsi üçün Moskvadan belə bir icazənin alınmasına nail olunması (bu zavodun Həştərxanda

tikilməsi nəzərdə tutulmuşdu) cənab Heydər Əliyevin möhkəm iradəsinin və cəsarətinin nəticəsi idi. Zavodun tikilməsinə 1978-ci ildə başlandı və 1989-cu ildə istismara verildi.

Bütün bunlar Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsi idi. Dünya şöhrətli, uzaqgörən siyasətçi ölkəmizin müstəqilliyini görürdü, müstəqillik qazanacaq Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını qoyurdu. Tarix Ümummilli lider Heydər Əliyevin haqlı olduğunu sübut etdi.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra 90-cı illərin əvvəllərində bir çox çətinliklərlə üzləşmişdir. SSRİ-nin keçmiş respublikaları ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin qırılması, respublika ərazisində qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın aşagı enməsi neft və qaz sənayesinin ağır böhran vəziyyətinə salmışdır. Bütün bu çətinliklər maliyyə, texniki və digər problemlər aşkar edilmiş "Azəri", "Çıraq", "Günəşli" kimi yataqların işlənməsinə imkan vermirdi. Belə vəziyyətdə xalqın tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdan cənab Heydər Əliyev "Neft Azərbaycanın milli sərvətidir" devizi ilə çıxış edərək, respublikanın neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmuşdur. Neft sənayesində yaranmış çətin vəziyyətdən çıxmaq və ölkəmizin karbohidrogen ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək lazım idi. Ya uzun illər ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin əlverişli olmasını gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək lazım idi. Azərbaycan xalqının ümummilli lideri xarici iri neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi və "Yeni neft strategiyası" tez bir vaxtda işlənib hazırlandı. O dövrdə Azərbaycan Prezidentinin Sərəncamı ilə Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə xarici şirkətlərlə danışıqlara başlandı. Azərbaycanı daxili qarşıdurmadan xilas edən dahi rəhbər Heydər Əliyev onun iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. Elə ilk günlərdən ARDNŞ-in birinci vitse-prezidenti, İlham Əliyev danışıqlar prosesinə cəlb edildi, yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. 1994-cü ilin sentyabrın 20-də Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə "Məhsulun Pay Bölgüsü" sazişi – "Əsrin müqaviləsi" imzalandı [6; 7].

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən 20 ildən artıq müddət ərzində ümummilli lider Heydər Əliyevin "Yeni neft strategiyası"nın çox böyük uğurla reallaşması günümüzün reallığına çevrilmişdir. Bütün bunları nəzərə alıb, "Yeni neft strategiyası"nın nailiyyətlərinin aşağıdakı istiqamətlərdə reallaşdığını göstərmək olar:

1. Azərbaycanın, neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyaların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına sürətlə çıxışın təmin edilməsi;
2. Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sisteminin yaradılması
3. Azərbaycanın milli sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsillər üçün toplanaraq artırılması, bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsi
4. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu "Yeni neft strategiyası"nın həyata keçirilməsinin nailiyyətlərindən biri də Qərbin qabaqcıl texnologiyasının Azərbaycana gətirilməsidir.

Bütövlükdə "Əsrin müqaviləsi"ndən bugünkü günə qədər xarici neft şirkətləri ilə 32 neft sazişi imzalanmışdır. Bu sazişlərin nəticəsi olaraq Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur ki, bu da respublikamızın iqtisadi inkişafına ciddi təsir göstərmişdir.

Bakı-Novorossiysk və Bakı-Supsa kəmərlərinin həm müsbət, həm də mənfi cəhətlərinin olmasına baxmayaraq Azərbaycan xalqının Ümummilli lideri H.Əliyev, sonradan zaman göstərdiyi kimi, müdrik və yeganə düzgün qərar qəbul edərək hər iki neft kəmərinin çəkilməsini lazım bildi. İlkin neft layihəsinin həyata keçirilməsi və onun dünya bazarına ixracı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarındakı işlərin intensivləşməsinə və Azərbaycanın karbohidrogen resurslarının işlənməsinə yeni investisiyaların cəlb edilməsi üçün şərait yaratdı.

1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistanın prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci ilin sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Ümummilli liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. Neft kəmərin açılışı 2006-cı ilin may ayının 28-də reallaşmısdı.

Azərbaycanın Enerji resuslarının nəqlində Bakı-Tbilisi-Ceyhan istiqamətinin seçilməsi Ümummilli liderimiz Heydər Əliyevin böyük siyasətinin nəticəsidir və illik nəql gücü 50 mln.ton olan bu kəmər dünya bazarına neftin cıxarılmasında müstəsna əhəmiyyət kəsb edir. .

Bu məqsədlə 1999-cu il dekabrın 29-da Ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" fərman imzalamışdır. Hazırda Dövlət Neft Fondunun aktivləri 56 069,7 milyon ABŞ dolları təşkil edir (01.01.2024)

Xüsusilə tikintidə və yataqların işlənilməsində, qazımada və istismarda tətbiq olunan yeni texnika, texnologiya və avadanlıqlar neft sənayesinə pozitiv təsir göstərmişdir. Azərbaycanda ilk dəfə olaraq, Mərkəzi Azəri yatağında 48 quyunun qazılmasına imkan verən nəhəng və əzəmətli dərin dəniz özülü tikilmişdir. Texniki baxımdan dünya miqyasında ən iri terminallardan biri Səngəçal terminal istifadəyə verilmiş və burada yüksək infrastruktur yaradılmışdır.

Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu gün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasının, ölkəmizin 90-cı illərin əvvəlində başlanmış siyasi, iqtisadi və sosial böhranlardan çıxaraq dirçəlməsinin və ən əsası, XXI əsrin astanasında yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının rəmzidir.

İstifadə edilmiş ədəbiyyat

1. Axundova E.Heydər Əliyev. Şəxsiyyət və Zaman: həyat və fəaliyyətinin xronikası. IV hissə : 1969-1989. - Bakı : Ozan, 2008. - 328, [64] s.: foto.
2. Babayev X. (Hacı). Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi. - Bakı : Borçalı, 2004. - 144 s.
3. Mahmudov Y. M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. – Bakı : Təhsil, 2011. – 608 (548+60) s.
4. Mirzəyev R. Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır. – Bakı : [s. n.], 2001. – 124 s.
5. Mirzəyev R. Heydər Əliyev və Müstəqil Azərbaycan Dövlətinin yeni neft strategiyası = Heydar Aliyev and new oil strategy of independent Azerbaijan. – Bakı : Göytürk, 1999. – 89 s.
6. https://azerbaijan.az/related-information/131
7. https://aliyevheritage.org/az/oilstrategy.html

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARININ İNKİŞAFI

Daşqın Məcid oğlu Qənbərov
hüquq üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası
dashqin.bsu@gmail.com

Çoxsaylı spektrə malik insan hüquqları hüququ institunda birləşmək, assossasiyalar yaratmaq hüququ böyük aktuallığ kəsb edir. Bir termin olaraq "birləşmək" dedikdə ümumi maraqlar istiqamətində birgə fəaliyyət göstərmək, fikrini ifadə etmək, həmin maraqları təşviq etmək, izləmək

və ya müdafiə etmək məqsədi ilə fərdlərin və ya hüquqi şəxslərin yaratdığı qrup başa düşülür. [4, s.34-35]

Hazırkı mərhələdə vətəndaş cəmiyyəti quruculuğu və ya vətəndaş cəmiyyəti ideyalarının inkişaf etdirilməsi istənilən demokratik inkişaf yolunu götürmüş dövlət üçün prioritet məqsədlərdəndir. Vətəndaş cəmiyyətinin formalaşması hər şeydən öncə, birləşmək hüququnun və ya birləşmək azadlığının reallaşdırılması ilə bağlıdır. Beynəlxalq hüquqi standartlara uyğun olaraq, həmçinin, Azərbaycan Respublikasının Konstitusiyası ölkəmiz üçün yeni olan bir sıra konstitusiya əsaslarını özündə ifadə etmişdir. Belə əsaslar içərisində siyasi müxtəliflik, çoxpartiyalılıq mərkəzi yerlərdən birini tutmuşdur. Eyni vəziyyətin bütün postsovet ölkələri, ümumiyyətlə, demokratik inkişaf yoluna nisbətən yeni qədəm qoymuş digər dünya dövlətləri üçün də səciyyəvi olduğunu soyləmək mümkündür. Bu baxımdan, əsasən, birləşmək hüququnun reallaşdırılmasına söykənən vətəndaş cəmiyyəti ideyaları, bu ideyalarının reallaşdırılmasının normativ-hüquqi və praktiki əsasları problemi ətrafında elmi-tədqiqat işlərinin aparılması təkcə ayrı-ayrı ölkələr üçün deyil, qlobal müstəvidə böyük aktuallıq kəsb edir. Çünki, belə tədqiqatlar vətəndaş cəmiyyətinin üstün tərəflərlər haqqında dolğun təsəvvürlər yaratmaqla, müvafiq olaraq birləşmək hüququnun insan hüquqları sistemində həlledici rolunu tam təsdiqləşmiş olur.

Birləşmək hüququnun dövlət daxilində təmin olunma səviyyəsi həmin dövlətin demokratik – hüquqi xarakterinin əsas barometlərindən biri hesab olunur. Məhz bu səbəbdən də birləşmək hüququ əsas insan hüquq və azadlıqlarından biri olaraq konstitusiyon qayda tanınan və qorunan bir hüquq kimi əksər dövlətlərin əsas qanunlarında yer alıb. Azərbaycan Respublikasının Konstitusiyasında 58-ci maddısində bu hüquq aydın mətnlə qeyd olunur ki, hər kəsin başqaları ilə birləşmək hüququ vardır. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir və heç kəs hər hansı birliyə daxil olmağa və onun üzvlüyündə qalmağa məcbur edilə bilməz. [1]

İkinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ümummilli liderimiz Heydər Əliyev bütün fəaliyyət sahələrində olduğu kimi, hüquq müstəvisində də mühüm islahatların həyata keçirilməsinə start verdi. Ulu Öndər fəaliyyətinin elə ilk günlərindən xüsusi ilə də insan hüquqlarının qorunması, demokratik cəmiyyət quruculuğu məsələlərinin onun üçün prioritet təşkil etdiyini nümayiş etdirirdi. 1993-cü ilin iyun ayında respublika rəhbərliyinə qayıdarkən ümummilli lider Heydər Əliyev belə demişdi: "Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yer verilməlidir. Azərbaycan Respublikasının Konstitusiyasının pozulmasına, qanun pozuntusuna yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin ola bilərsiniz ki, mən bu yola daim sadiq olacağam".

Ümummilli liderimiz Heydər Əliyevin ilk işlərdən biri Azərbaycan Respublikasının qanunvericiliyinin bazasını təşkil edən yeni Konstitusiyasının hazırlanması üçün ictimai səyləri və təşəbbüsləri səfərbər edilməsi oldu. Hüquqi dövlətin reallıqlarından çıxış etsək görərik ki, insan hüquqları konstitusionalizmin fundamentini təşkil edir. Bu tezisdən söykənərək qeyd edə bilərik ki, hüquqi fenomen kimi insan hüquqları ictimai münasibətlərin konstitusion-hüquqi tənzimlənməsinə xüsusi məna verir. İnsan hüquqları isə universal kateqoriyadır. İnsan hüquqları insanın öz təbiətindən irəli gələn elementar, daha vacib rifahlardan istifadə imkanlarını və şəxsiyyətin təhlükəsiz, azad mövcudluğunu ifadə edir.[9]

Bu istiqamətdə daha dəqiq koordinasiya olunmuş fəaliyyətin reallaşdırılması məqsədi ilə Ümummilli liderimiz Heydər Əliyev Prezident yanında hüquqi islahatlar komissiyası yaratdı. Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanmış konstitusiya layihəsi insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsi üçün yeni bir səhifənin açılmasını şərtləndirdi. Bu məqam ondan xəbər verirdi ki, bütün sahələrdə, həmçinin, insan hüquq və azadlıqlarının qorunması sahəsində normativ-hüquqi əsaslarının yaradılması və zənginləşdirilməsi üçün böyük siyasi iradə ortaya qoyulmuşdu. Bu siyasi iradənin nəticəsi olaraq, qısa zaman kəsiyində çoxsaylı hüquqi sənədlər qəbul olundu. Ən əsas məqamlardan biri də o idi ki, qəbul olunan hüquqi sənədlərin insan hüquq və əsas azadlıqlarına hər hansı bir formada xətər gətirməsini önləmək üçün onların Avropa

Şurasında ekspert rəyindən keçirilməsi təmin olunurdu. Bu məqam Heydər Əliyevin insan hüquq və əsas azadlıqlarına nə dərəcədə böyük həssaslıqla yanaşıldığını aydın ifadə edirdi. Ümummilli lider Heydər Əliyev insan hüquq və əsas azadlıqlarına yönəlik 1998-ci ilin fevralında "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında" Fərman imzaladı. [5] Bu Fərman Azərbaycan Respublikasının Konstitusiyasından irəli gələn hüquqların təmiantı üçün xüsusi əhəmiyyətə malik bir fərman idi.

Heydər Əliyevin birbaşa nəzarəti altında hazırlanmış Konstitusiya aydın sübut etdi ki, müstəqil, demokratik və hüquqi dövlət quruculuğu ilə yanaşı, insan hüquqlarına ciddi həssaslığın təmin olunacağı bir cəmiyyətin formalaşdırılması məqsəd kimi müəyyənləşdirilmişdir. Yəni Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq insan hüquqlarının prioriteti inkişafın başlıca hərəkətverici qüvvələrindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Konstitusiyasının təhlil dəqiq göstərir ki, insan hüquq və azadlıqlarında ilkin hüququ başlanğıc öz ifadəsini tapmışdır. Konstitusiya maddələrinin böyük çoxluğu insan hüquq vəəsas azadlıqlarına həsr olunmuşdur və hər bir kəsin doğulduğu gündən doğluduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqlarının olması haqqında müddəa aydın ifadəsini tapmışdır [1]. Azərbaycan konstitusiyasında hüquqi-aksioloji və təbii-hüquqi komponentlər aydın ifadəsini tapmışdır. Hüquqi-aksiloji komponentin mahiyyəti insan hüquq və azadlıqlarının ali dəyər olmasını ifadə etməsi ilə səciyyələnir. Təbii-hüquqi komponent isə "hər kəsin doğulduğu andan toxunulmaz və ayrılmaz hüquqlara malik olması prinsipinə əsaslanır. Bu məqamın özü bir daha sübut edir ki, Azərbaycan Respublikasının Konstitusiyası hər kəsə öz hüquqlarını reallaşşdırması üçün tam təminat verir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının insan hüquq və əsas azadlıqlarının təmin olunması sahəsində beynəlxalq təcrübəyə həssaslıqla yanaşması və beynəlxalq əməkdaşlıq sisteminin fəal iştirakçısı olması müvafiq istiqamətdə etibarlı hüquqi mexanizmlərin formalaşmasını şərtləndirmişdir. Bu məqam Azərbaycan Respublikasının Konstitusiyasında da aydın ifadəsini tapmışdır. Belə ki, Konstitusiyanın 148-ci maddəsində qeyd olunmuşdur: "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir".[1] Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyasında belə bir məqamın yer alması milli qanunvericilik bazasının zənginləşdirilməsində Beynəlxalq və regional müqavilələrə, konvensiyalara istinad olunması və ya onlardan birbaşa istifadə olunması imkanlarını nərədən tutur. Bu, xüsusilə də, insan hüquq və azadlıqlarının təmin olunmasının beynəlxalq standartlara uyğunlaşdırılması və bu sahədə mütərəqqi təcrübənin daha yaxından öyrənilməsini şərtləndirir. Hər bir ölkə kimi, Azərbaycan Respublikası da insan hüquq və azadlıqlarının qorunması və ya təmin olunması haqqında beynəlxalq konvensiyaları ratifikasiya etməklə və onlara qoşulmaqla öz üzərinə müvafiq istiqamətdə konkret öhtəliklər götürmüş olur. Bütün bu məqamlar aydın sübut edir ki, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarına ölkənin ali qanunu səviyyəsində ciddi təminat vardır. Azərbaycan Respublikasının Konstitusiyasının maddələrinin əksəriyyətinin insan hüquq və azadlıqlarının təminatı sahəsinə aid olması bu sahənin prioritetliliyini aydın şəkildə sübut edir.

Heydər Əliyev tərəfindən qanunvericiliyin dünya standartlarına uyğunlaşdırlıması istiqamətində müəyyənləşdirdiyi texnikadan biri mütərəqqi beynəlxalq standartların milli qanunvericiliyə implementasiyası olmuşdur. Bununla da dünyaya bəyan olunurdu ki, Azərbaycan Respublikasının müvafiq beynəlxalq qanunvericilik aktlarına, konvensiyalara və müqavilələrə qoşulmaqla, insan hüquq və azadlıqlarının daha etibarlı təmin olunması məqsədlərini reallaşdırmaq istəyir. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası təkcə müvafiq beynəlxalq sənədlərə qoşulmaqla deyil, həm də kompleks tədbirlər həyata keçirməklə, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəliliyi təmin edir. Yuxarıda da qeyd etmişəm, bir daha xatırlatmaq yerinə düşərdi ki, 1998-ci il fevral ayının 22-də Heydər Əliyev tərəfindən insan hüquq və azadlıqlarının qorunması sahəsində vəziyyəti kökündən dəyişəcək "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" mühüm Fərman imzalanmışdır [5]. Bu Fərmanın imzalanmasından sonra insan hüquq və azadlıqlarının təmin olunması sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə start verilmişdir. Fərmana əsasən atılacaq strateji addımlardan biri insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının

layihəsinin hazırlanmasından ibarət idi. Bu məqsədə müvafiq olaraq, 1998-ci il iyun ayının 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" Heydər Əliyev tərəfindən təsdiq olunmuşdur. Qəbul edilmiş bu mühüm dövlət proqramına əsasən ombustman institutunun yaradılması, müvafiq istiqamətdə beynəlxalq konvensiyalara qoşulması, insan hüquqlarının qorunması sahəsində beynəlxalq təsisatlarla yaxından əməkdaşlıq edilməsi, bu sahədə yüksək tələblərə cavab verən mütəxəssislərin hazırlanması və s. tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Ümumuyyətlə, təsdiq olunmuş proqram insan hüquqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Ombutsman təsisatının yaradılması haqqında qərarın verilməsi ondan xəbər verirdi ki, ölkədə insan hüquqlarının səmərəli təmin olunması üçün real istək və iradə mövcuddur. 2001-ci ilin dekabrında Ombutsman təsisatı haqqında Konstitusiya aktı qəbul olunmuşdur [3]. Bundan sonra təsisatın yaradılması və hüquqi və maddi bazasının təmin olunması istiqamətində real işlər həyata keçirilməyə başlamışdır. Bu prosesdə mövcud qabaqcıl təcrübədən geniş istifadə olunmuşdur. Müstəqillik qazandığı vaxtdan hazırkı dövrədək Azərbaycanda insan hüquqlarının qorunmasının normativ-hüquqi bazasının zənginləşdirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilmişdir. Bu proses kifayət qədər miqyaslı və ciddi çərçivədə reallaşdırılmışdır. 2002-ci il avqust ayının 24-də baş tutmuş referendum Konstitusiyada bir sıra mühüm əlavə və dəyişiklikləri nəzərdə tutmuşdur. Konstitusiyaya edən edən əlavə və dəyişikliklər içərində insan hüquq və azadlıqlarının daha səmərəli təmin olunmasını şərtləndirən məqamlar çoxluq təşkil etmişdir. 2002-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasına edilmiş ən mühüm dəyişiklik-lərdən biri də ondan ibarət olmuşdur ki, ilk dəfə insan hüquqları pozan hakimiyyət orqanlarından Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə şikayət vermək imkanı təsbit edilmişdir. Həqiqətən də, bu məqam insan hüquq və azadlıqlarının daha etibarlı təmin olunması istiqamətində irəliyə doğru mühüm bir addım idi.

Azərbaycan Respublikası birləşmək hüquqlarının Konstitusiyasında təsbit olunması ilə bitmir. Belə ki, Azərbaycan Respublikasıda müvafiq hüququn reallaşdırılmasını tənzimləyən çoxsaylı sənədlər də hazırlanıb qəbul olunmuşdur. Nümunə olaraaq birbaşa birləşmək hüququnun həyata keçirilməsi ilə bağlılığı olan aşağıdakı sənədləri qeyd etmək mümkündür:

- 1996-ci il iyun ayının 3-də qəbul olunmuş Siyasi partiyalar haqqında qanun [8];
- 1994-cü il fevral ayının 24-də qəbul olunmuş Həmkarlar ittifaqı haqqında qanun [6];
- 2000-ci il iyun ayının 13-də qəbul olunmuş Qeyri-hökumət təşkilatları haqqında qanun [7] və s.

Nəticə

Apardığımız araşdırmalara əsasən belə qənaətə gəldik ki, Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində Ümummilli lider Heydər Əliyev tərəfindən insan hüquq və azadlıqlarının qorunması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi, zəngin normativ bazanın yaradılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirildi. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə ali siyasi hakimiyyətə qayıdışından sonra hüquqi və demokratik cəmiyyət quruculuğu, insan hüquqları sahəsi ciddi diqqət mərkəzinə keçdi. Ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanmış konstitusiya layihəsi insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsi üçün yeni bir səhifənin açılmasını şərtləndirdi. İnsan hüquq və azadlıqlarının səmərəli təmin olunmasına imkan verəcək normativ-hüquqi bazanın yaradılması istiqamətdə kompleks addımlar atılmağa başlanıldı. Bu məqam Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarına nə dərəcədə böyük həssaslıqla yanaşıldığını aydın ifadə edirdi. Ümumiyyətlə, Ulu Öndər fəaliyyətinin elə ilk günlərindən insan hüquqlarının qorunması, demokratik cəmiyyət quruculuğu məsələlərinin onun üçün prioritet təşkil etdiyini nümayiş etdirmişdir. İnsan hüquqlarından biri olan birləşmək hüququnun reallaşdırlması istiqamətində Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri qeyd edilməlidir.

2003-cü ildə cənab Prezident İlham Əliyevin Azərbaycan Respublikasında siyasi hakimiyyətə gəlməsi ilə respublikada bütün sahələrdə olduğu kimi insan hüquqlarının təminatı və səmərəli müdafi mexanizmlərinin inkişafı istiqamətində genişmiqyaslı işlər həyata keçirilməyə başlanıldı. Xüsusilə, qeyri hökümət təşkilatlarına (QHT) dövlətin maliyyə dəstəyinin verilməsi QHT-ləri kənar qüvvələrin aslılığından xilas etdi və onların həqiqi vətəndaş cəmiyyəti təsisatları olmasına

istiqamətləndirdi. 2022-ci ildə siyasi partiyalar haqqında yeni qanunun qəbul edilməsi ilə isə vətəndaşların zamanın çağırışlarına cavab verən daha mütərəqqi qanundan bəhrələnməsinə şərait yaratdı.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitisiyası. https://www.e-qanun.az/framework/897 (müraciət tarixi: 04.01.2024)

2. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 28 dekabr 2006-cı ildə qəbul edilmişdir: [Elektron resurs] / URL: http://www.e-qanun.az/framework/12582 (müraciət tarixi:07.02.2024)

3. "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu // 28 dekabr 2001-ci ildə qəbul edilmişdir: [Elektron resurs]/ URL: http://www.e-qanun.az/framework/1407 (müraciət tarixi:14.03.2024)

4. D.Qənbərov. Birləşmək hüququnun Azərbaycan Respublikası qanunvericilik sistemində təsbiti // BDU Hüquq fakültəsi, "Heydər Əliyev Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı, – c. I, – 2015, - s.34-38

5. "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin Fərmanı // 22 fevral 1998-ci ildə qəbul edilmişdir: [Elektron resurs] / URL: http://www.e-qanun.az/framework/4981 (müraciət tarixi: 09.02.2024)

6. "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu // 24 fevral 1994-cü ildə qəbul edilmişdir: [Elektron resurs]/ URL: http://www.e-qanun.az/framework/8987 (müraciət tarixi:01.03.2024)

7. Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasinin Qanunu: [Elektron resurs] / URL:http://e-qanun.gov.az/framework/511 (müraciət tarixi: 05.03.2024)

8. Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu // 03 iyun 1996-cı ildə qəbul edilmişdir. [Elektron resurs]. URL: <http://www.e-qanun.az/framework/7090> (müraciət tarixi: 19.03.2024)

9. Конституционное право граждан на объединение. [Электронный ресурс] / //http://lektsii.net/2-71027.html (müraciət tarixi: 10.01.2024)

HEYDƏR ƏLİYEV İRSİNDƏ BƏDİİ-YARADICI ZİYALILARİN MƏDƏNİYYƏTİN (ƏDƏBİYYATİN) İNKİŞAFİNDA ROLU

Nigar Rəşid qızı Axundova
tarix üzrə fəlsəfə doktoru, dosent
Bakı Biznes Universiteti
nigar-akhundova@yandex.ru

Azərbaycan xalqının bədii-estetik, ideya səviyyəsinin yüksəldilməsində, milli-mədəni ehtiyaclarının ödənilməsində bədii – yaradıcı ziyalıların ən mühüm amillərdən biri olduğunu aydın dərk edən Heydər Əliyev bu sahənin daim diqqət mərkəzində saxlayırdı. Onun Azərbaycan Kommunist Partiyasının qurultaylarında, MK plenumlarında, yaradıcılıq ittifaqlarının qurultaylarında, ədəbiyyat, mədəniyyət və incəsənət tədbirlərində çıxışlarında Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı strateji vəzifələr müəyyənləşdirilmiş, onların həlli yolları göstərilmişdi. Bu vəzifələrin yerinə yetirilməsi ilə müstəqil Azərbaycan Respublikasında milli mədəniyyət sisteminin möhkəm bünövrəsi qoyulmuşdur.

Heydər Əliyev Azərbaycan ədəbiyyatında insanın simasını formalaşdırılan, xalqın milli ruhunu qaldıran əsas vasitə kimi baxır və hesab edirdi ki, ədəbiyyatı xüsusilə də milli ədəbiyyatı bilməyən adam yüksək mənəvi səviyyəyə çata bilməz. [5, s.174] Buna görə də o, orta məktəblərdə, xüsusilə də rusdilli məktəblərdə Azərbaycan ədəbiyyatının tədrisinin aşağı səviyyədə olmasına çox ciddi milli problem kimi baxırdı, gənc nəslin Azərbaycan milli ədəbiyyatının klassiklərini, müasir nümayəndələrini daha yaxşı tanıması üçün tədbirlər görülməsini təhsil müəssisələri qarşısında əsas vəzifə kimi qoyurdu.

Həmin dövrdə "Azərbaycan", "Ulduz", "Ədəbiyyat və incəsənət", "Qobustan" kimi qəzet və jurnallarda milli dilimizin qorunub saxlanması, mədəniyyətimizin aktual problemləri, müasir ədəbi proseslər haqqında dövrünə görə çox cəsarətli və qətiyyətli materiallar da dərc olunurdu.

Azərbaycan ədəbiyyatının mahir bilicisi olan Heydər Əliyev bütün SSRİ respublikalarından gəlmiş görkəmli ədiblər qarşısında çox böyük fəxarətlə vurğulayırdı ki, Azərbaycan ədəbiyyatı Xaqani, Nizami, Nəsimi, Fizuli, Natəvan, M.F.Axundov və M.Ə.Sabirin timsalında dünya şöhrəti qazanmış, Yaxın Şərq və Qərb ölkələrində ədəbi prosesin, estetik fikrin inkişafına nəcib təsir göstərmiş, Avropa ədəbiyyatını yeni ideyalar, mövzular və süjetlərlə zənginləşdirmişdir. Dahi söz ustaları bizə böyük estetik sərvətlər xəzinəsi, humanizm və xalqlar dostluğu kimi nəcib ideyaların çox zəngin bir aləmini qoyub getmişlər. Biz parlaq simaların adı ilə zənginləşmiş böyük bədii sərvətə yiyələnmişik. Bu mənəvi irs, obrazlı desək, bizim üçün işləyir. [5, s.28] Heydər Əliyevin Azərbaycan ədəbiyyatı qarşısında ən böyük xidmətlərindən biri repressiya qurbanları olmuş yazıçı və şairlərin adının əbədiləşdirilməsi olmuşdur. Onun bilavasitə təşəbbüsü və iradəsi sayəsində görkəmli şair-dramaturq Hüseyn Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən gətirilərək Naxçıvan torpağında basdırılması, adının əbədiləşdirilməsi, onun 90 və 100 illik yubileylərinin keçirilməsi, Bakıda və Naxçıvanda ev muzeylərinin yaradılması, əsərlərinin nəşr edilməsi ilə bağlı siyasi qərarlar qəbul edilmişdi. [8, s.222] Antisovet yazıçı kimi tanınmış Yusif Vəzir Çəmənzəminlinin 1977-ci ildə 90 illiyi, 1978-ci ildə isə Mikayıl Müşfiqin 70 illiyi də Heydər Əliyevin təşəbbüsü ilə keçirilmişdi.

Heydər Əliyev Azərbaycan ədəbiyyatı və mədəniyyəti klassiklərinin xidmətlərini yüksək qiymətləndirir, onların xatirəsi ədəbiləşdirilir, yubileyləri keçirilirdi. 1970-80-ci illərdə N.Gəncəvinin 840, M.Əcəminin 600, N.Tusinin 780, M.P.Vaqifin 250, Aşıq Alının 180, M.S.Ordubadinin 100, Ə.Q.Qəmküsarın 100, S.Vurğunun 70, Aşıq Ələsgərin 150, N.N.Nərimanovun 100 illik yubileylərini keçirilmişdi.

Heydər Əliyevin himayəsi ilə Azərbaycan milli poeziyası və ədəbiyyatının klassiklərinin əsərləri kütləvi tirajda nəşr olunmağa başlamış və ilk olaraq 20 cildlik "Azərbaycan klassik ədəbiyyatı kitabxanası" işıq üzü görmüşdü. 1981-ci ildən başlayaraq, Cənubi Azərbaycan şairi M.H.Şəhriyarın əsərləri Bakıda çap olunaraq Şimali Azərbaycan oxucularına çatdırıldı. Həmin illərdə həmçinin 50 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya ədəbiyyatı kitabxanası"nın da nəşrinə başlanmışdı.

Heydər Əliyev Azərbaycan ədəbiyyatı klassiklərinin yaradıcılığının öyrənilməsi və təbliğinə böyük diqqət verirdi. Bunu 1970-80-ci illər Azərbaycan KP MK qəbul etdiyi "Bədii ədəbiyyat klassikləri əsərlərinin tədqiqini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" xüsusi qərarı, Nizami Gəncəvinin, İmaməddin Nəsiminin, Məhəmməd Füzulinin, Cəfər Cabbarlının, Molla Pənah Vaqifin, Səməd Vurğunun, [3, f. 1, siy.70, iş 411, v.147] Mirzə Şəfi Vazehin və başqa klassiklərin ədəbi yaradıcılıq irsinin öyrənilməsi, nəşrini və təbliğini gücləndirmək tədbirləri haqqında qərarlar da sübut edir. [5, s.186-228] Azərbaycan yazıçılarının VII qurultayındakı nitqində Heydər Əliyev Azərbaycanın klassik və müasir ədəbiyyatı nümayəndələrinin əsərlərinin rus dilinə tərcüməsi sahəsində ciddi problemlərin olduğunu, fəaliyyət planlarının yoxluğunu, yüksək ixtisaslı tərcüməçi kadrların çatışmadığını, bədii tərcümənin keyfiyyətinin ciddi problem olduğunu açıb göstərmiş, Azərbaycan milli mədəniyyətinin daha da yüksəlməsi üçün bütün tərcümə işinin kökündən yaxşılaşdırılmasını tələb etmişdi. [6, s.38-39]

Heydər Əliyev Azərbaycan ədəbiyyatının müasir nümayəndələrinin də yaradıcılığını yüksək qiymətləndirir, onların problemlərinin həllinə nail olur, yubileylərini keçirirdi. O, Azərbaycan ədəbiyyatının üç görkəmli nümayəndəsinə (M.İbrahimov, S.Rüstəm, R.Rza, S.Rəhimov) Sovet

dövlətinin ən yüksək adının - Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə nail olmuşdu. Müxtəlif şairlərin poeziya günlərinin (Şamaxıda M.Ə.Sabirin, Xızıda M.Müşfiqin, Qazaxda S.Vurğunun, Şuşada M.P.Vaqifin, Naxçıvanda H.Cavidin) keçirilməsi mühüm mədəni və bədii hadisəyə çevrilirdi. Heydər Əliyev 1982-ci ilin yanvarında M.P.Vaqifin Şuşa şəhərində abidəsinin açılışında və həmin ilin avqustunda Vaqif poeziya günlərində şəxsən iştirakı həm onun Vaqifin yaradıcılığa verdiyi böyük dəyərin, həm də Qarabığ bölgəsinin Azərbaycan mədəniyyətində tutduğu yerin xalqımızın düşmənlərinə bir daha nümayiş etdirilməsi idi. Həmin illərdə Azərbaycan yazıçıları İ.Əfəndiyev, İ.Qasımov, Ə.Vəliyev, B.Bayramov, Əbülhəsən Xalq yazıçısı, O.Sarıvəlli, M.Dilbazi, B.Azəroğlu, N.Rəfibəyli isə xalq şairi adına layiq görülmüşdülər. Bir çox şair və yazıçılar-ədəbiyyatşünaslar - M.İbrahimov, M.Dadaşzadə, S.Rüstəm, B.Vahabzadə, Qabil, Ə.Cəmil, Anar, H.Arif Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdülər.

Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatının nümayəndələrinə, eləcə də müasiri olduğu yazıçı və şairlərə münasibəti milli ədəbiyyatın gənc nəslinin nümayəndələrində də ruh yüksəkliyi yaradırdı. O, hələ 70-ci illərdə ədəbiyyatın, mədəniyyətin gələcəyini düşünərək, gənc nəslin yaradıcılıq imkanlarının reallaşması üçün hər cür şərait yaratmağa çalışırdı. 1972-ci ildə Azərbaycan yazıcılarının V qurultayında ədəbiyyatda varislik məsələsinə toxunaraq, gənclərə daha geniş meydan verməyin, onları yaradıcılığa həvəsləndirməyin vacibliyini vurğulamış, gənclərin əsərlərinin gec-gec çap olunduğunu, onların yaradıcılığına bəzi hallarda qeyri-obyektiv yanaşıldığını göstərmişdi. Bu məsələyə Azərbaycan KP MK ideoloji işə və siyasi tərbiyə işlərinə həsr olunmuş 17 iyun 1979-cu il plenumunda da yenidən qayıdan Heydər Əliyev demişdi ki, elə etmək lazımdır ki, yaşlı nəsillərin yaratdığı yaxşı və qiymətli nə varsa, hamısı qayğı ilə gənc nəslə verilsin, milli-mənəvi sərvətlər və ənənələr bundan sonra inkişaf edib təkmilləşsin, beynəlmiləl təcrübə və məzmunla zənginləşsin. [4, s.66]

1970-ci illərdə Azərbaycan ədəbiyyatı İ.Məlikzadə, S.Səxavət, A.Məsud, M.Süleymanlı, S.Sərxanlı, A.İbrahimov, P.Heydər, N.Kəsəmənli, A.Muxtar, R.Zəka, Ə.Salahzadə, V.Nəsib, M.Ələsgərli, S.Rüstəmxanlı, Z.Yaqub və b. gənc yazıçı və şairlərin yaradıcılığı sayəsində yeni inkişaf mərhələsinə qədəm qoymuşdu.

Heydər Əliyev xalqın mənəvi sərvəti kimi Azərbaycan dilini qoruyur və inkişaf etdirirdi. Qeyd etmək lazımdır ki, sovet hakimiyyəti illərində Azərbaycan dili xeyli inkişaf etmiş, onun lüğət tərkibi zənginləşmiş, öyrənilməsi və təbliğində, statusunun möhkəmlənməsində böyük uğurlar əldə edilmişdi. Heydər Əliyev göstərirdi ki, sovet hakimiyyəti illərində Azərbaycan dili yüksək səviyyədə inkişaf etmiş, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdi. Lakin eyni zamanda, Sovet dövlətinin xarakterinə uyğun olaraq bütün respublikalarda olduğu kimi Azərbaycan SSR-də də milli dilin rəqabət imkanları, tətbiqi dairəsi getdikcə daralırdı. Əvəzində rus dili dövlət dilinə, respublika ərazisində əsas ünsiyyət, kargüzarlıq, elm, ədəbiyyat, mədəniyyət, tədris dilinə çevrilməyə başlayırdı. Sonralar Heydər Əliyev o dövrü xarakterizə edərək deyirdi: "...keçmiş illərin müəyyən xüsusiyyətlərinə görə Azərbaycan dili Azərbaycanda lazımi qədər inkişaf edə bilməmişdi. Doğrudur, biz buna çalışmışıq, 60-cı, 70-ci, 80-ci illəri də bu barədə çox səylər göstərilmişdir. Ancaq Azərbaycan dili hakim dil ola bilməmişdi. Biz Sovetlər İttifaqının tərkibində idik. Sovetlər İttifaqının ümumi dili rus dili idi və o vaxt valideynlərin çoxu öz övladlarını rusdilli məktəblərə qoyurdu. Bunlar hamısı bizim Azərbaycan dilinə tam inkişaf etməkdə müəyyən maneçilik törədirdi". [2, 2001, dekabr, № 2]

Dili xalqın böyük sərvəti adlandıran Heydər Əliyev ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisinin mümkün olmadığı qənaətində idi. O, Azərbaycan dilinin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərməyi tələb edir, bunu ədəbiyyatın mühüm vəzifələrindən biri hesab edirdi. Azərbaycan yazıçılarının VII qurultayında çıxışında o Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərməyi dilimizin jarqon, dialekt ifadələri ilə zibillənməsinə yol verməməyi, hər bir yazıçıdan dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmağı tələb etmiş və təəssüflə bildirmişdi ki, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər, təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər. [6, s.42-43] Heydər Əliyev

özü isə böyük dövlət xadimi kimi hamının həsəd apardığı bir səviyyədə səlis dilə və nitqə malik bir şəxsiyyət idi. Onun hər nitqi mütəxəssis alimlər tərəfindən xüsusi olaraq qeyd olunurdu.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Heydər Əliyev özü Azərbaycan dilində səlis, rəvan danışığı, qeyri-adi natiqlik qabiliyyəti ilə başqalarına nümunə idi.

Heydər Əliyev çox böyük qətiyyət və fədakarlıq göstərərək, respublikanın 1978-ci ildə qəbul edilmiş yeni Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan SSR-də dövlət dili olması haqqında xüsusi maddənin salınmasına nail olmuşdu. Sonralar özü bunu o zamankı şəraitdə respublikada, ümumiyyətlə Azərbaycan milli tarixində "çox böyük hadisə" adlandırmışdı. [1, 1995, 2 noyabr]

Heydər Əliyev Azərbaycan SSR-in orta və ali məktəblərində Azərbaycan dilinin, ədəbiyyatının, tarixinin zəif tədris olunduğunu dəfələrlə vurğulamış, vəziyyəti düzəltmək üçün konkret tapşırıqlar vermişdi. Məsələn, 1975-ci ildə, tələbələrlə görüşündə deyirdi ki, ana dilini, doğma xalqın ədəbiyyatını, mədəniyyətini dərindən bilmək elm adamı üçün zəruri keyfiyyətlərdəndir. [9, s.100]

Azərbaycan dilinin tarixi, müasir inkişaf problemləri ilə böyük tədqiqat qurumları məşğul olurdu. Çoxcildlik "Müasir Azərbaycan dili" kitabının, ali məktəblər üçün "Azərbaycan dili" dərsliyinin dövlət mükafatlarına layiq görülməsi Heydər Əliyevin ana dilinə qayğısının təzahürü idi.

Azərbaycan xalq yaradıcılığının, folklorun tədqiqi, təbliği və nəşri sahəsində tədbirlər Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi altında həyata keçirilirdi. Onun mənəvi dəstəyi ilə elm və tədris müəssisələrində milli-mənəvi dəyərlərin, folklorun öyrənilməsi ilə bağlı mühüm işlər görülmüşdü. Azərbaycan xalqının milli mənəvi abidəsi – "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsi və təbliği sahəsində işlər birbaşa Heydər Əliyevin adı ilə bağlı idi. H.Araslı, M.H.Təhmasib, F.Zeynalov, T.Hacıyev, Ş.Cəmşidov dastanın öyrənilməsi ilə bağlı geniş tədqiqatlar aparmışdılar. Dədə Qorqud mövzusu təkcə ədəbiyyatın, mətnşünaslığın tədqiqat obyekti olaraq qalmadı. Kinematoqrafçılar, rəssamlar, heykəltəraşlar bu mövzu ilə bağlı bir sıra əsərlər yaratdılar. Yazıçı Anarın ssenarisi əsasında filmin çəkilməsi, M.Abdullayevin, F.Əliyevin, M.Avşarın və b. rəssamların "Dədə Qorqud" motivləri əsasında çəkdikləri silsilə rəsm əsərləri bu möhtəşəm oğuz eposunun xalqımızın mənəvi-tarixi yaddaşında möhkəm yer tutmasına səbəb oldu. [7, s.30]

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan xalqının folklor nümunələri toplanaraq, məcmu şəkildə nəşr edildi. M.H.Təhmasibin "Azərbaycan xalq folkloru" (orta əsrlər) adlı sanballı monoqrafiyası çap olundu. O, xalq yaradıcılığının nümayəndələrinə, el sənətkarlarına, aşıqlara, folklor ifaçılarına dövlət qayğısının və diqqətin artırılmasına xüsusi əhəmiyyət verirdi. 1981-ci ildə isə aşıq sənətinin digər görkəmli nümayəndəsi Aşıq Alının 180 illik yubileyi geniş qeyd olundu, onun irsinin toplanılması və nəşri üçün mühüm işlər görüldü. Heydər Əliyev müasir el sənətkarlarının yaradıcılığına da daim qayğı göstərirdi. Aşıq Şəmkir, Aşıq Hüseyn, Aşıq Pənah və başqaları "Azərbaycanın əməkdar artisti" fəxri adına layiq görülmüş, müxtəlif dövlət mükafatları ilə təltif olunmuşdular. Bu qayğı və diqqət sayəsində Azərbaycan SSR-də xalq yaradıcılığının inkişafı üçün geniş imkanlar yaradılmışdı. Bir çox folklor kollektivləri mədəniyyət saraylarının ştat vahidlərinə daxil edilərək, dövlət büdcəsindən maliyyələşdirilirdi. El sənətkarlarının yaradıcılığını təbliğ etmək məqsədi ilə Bakıda və bölgələrdə konsertlər, festivallar, bayramlar keçirilirdi. 1980-ci ildə Tovuz rayonunda Ozan-Aşıq Muzeyi yaradılmış, Ağstafa şəhərində Saz Məktəbi açılmışdı. Kütləvi informasiya vasitələrində, radio və televiziyada xalq yaradıcılığının nümunələri geniş təbliğ olunurdu. "Ocaq", "Bulaq", "Ozan", "Elin sözü-elin sazı" verilişləri, dastan axşamları, qəzetlərdə, jurnallarda verilən folklor səhifələri xalq yaradıcılığının qorunub saxlanması, tanınması sahəsində çox uğurlu işlər idi. [7, s.27-28]

Bu illərdə xalq yaradıcılığının və folklorun ən görkəmli incilərinin nəşri sahəsində də əməli tədbirlər görülürdü. "Kitabi-Dədə Qorqud", "Aşıq Ələsgər", "Azərbaycan dastanları" və s. nəşrlər çap olunmuşdu. Heydər Əliyev folklor nümunələrinin nəşri ilə kifayətlənməyərək mühüm təşkilati tədbirlərin də həyata keçirilməsinin təşəbbüskarı olmuşdur. Respublika Aşıqlar Birliyinin yaradılması, Aşıqlar qurultayının çağırılması, "İrs", "Atəşgah", "Yallı" kimi kollektivlərin yaradılması, folklor festivallarının keçirilməsi Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamış, xalqın zəngin mənəvi xəzinəsinin qorunaraq, gələcək nəsillərə ötürülməsinə güclü təkan vermişdi.

Xalqın milli-mənəvi yüksəlişində ziyalıların müstəsna rolunu yaxşı başa düşən Heydər Əliyev 1970-80-ci illərdə yaradıcılıq təşkilatlarının qurultaylarındakı çıxışlarında mədəniyyətin, elmin, incəsənətin, ədəbiyyatın problemlərinə əsil dövlət xadimi, milli lider mövqeyindən yanaşır, yüksək professionallıq və erudisiya nümayiş etdirirdi. Bununla o, öz dövrünün ehkamçı kommunist rəhbərlərindən kəskin şəkildə fərqlənirdi. Mənsub olduğu millətin maraqlarını hər şeydən üstün tutan Heydər Əliyev həmişə öz xalqının, onun ziyalı təbəqəsinin dəstəyinə arxalanır, bundan ilham alırdı. Buna görə də istər Sovet Azərbaycanına rəhbərlik etdiyi 70-80-ci illərdə, istərsə də müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi qəbul etdiyi bütün qərarlar xalqın həyati mənafelərinə, onun gələcəyinə tam uyğun idi.

Onun yaratdığı mühit, xalqın milli, siyasi, mənəvi problemlərini açıq müzakirə edən, müstəqil və yeniləşən düşüncəyə malik ziyalı nəslinin yetişməsinə şərait yaradırdı.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Heydər Əliyevin hakimiyyətə gəlməsi (1993) mədəni quruculuqda köklü dəyişikliklərə səbəb oldu. XX əsrin sonlarında sovet imperiyasının süqutu onun tərkibinə qatılmış digər xalqlar kimi, Azərbaycan xalqının da dövlət müstəqilliyinin bərpası üçün əlverişli imkan yaratdı. Bəzi mühafizəkar qüvvələrin müqavimətinə baxmayaraq, Respublikanın Ali Soveti 18 oktyabr 1991-ci il tarixində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul etdi. Bununla da xalqımız 200 ilə yaxın davam etmiş müstəmləkəçilik əsarətindən xilas olaraq müstəqil milli dövlət quruculuğu dövrünə qədəm qoydu. Bərpa edilmiş müstəqillik milli mədəniyyətimizin inkişafı üçün də əlverişli imkan yaratdı.

Azərbaycan mədəniyyətinin vurğunu olan Heydər Əliyev onu yalnız ölkə daxilində deyil, səfər etdiyi bütün xarici ölkələrdə də dərin məhəbbətlə təbliğ edirdi. Bir çox rəsmi dövlət səfərlərinə elm, mədəniyyət və incəsənət xadimlərinin də cəlb edilməsi Azərbaycan mədəniyyətinin bütün dünyada tanınması məqsədinə xidmət edir

Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasında həyata keçirilən mədəniyyət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. 1993-2003-cü illərdə Azərbaycan Respublikasında qeyd olunmuş mühüm tarixi, siyasi və mədəni tədbirlər, habelə yaradılmış beynəlxalq əlaqələr Heydər Əliyevin adı ilə bağlıdır.

Müstəqil dövlətimizin yeni formalaşdığı dövrdə onun sükanı arxasında duran Heydər Əliyev mədəniyyətimizin yalnız dünəni və bu gününü deyil, həmçinin sabahını da düşünürdü.

Azərbaycan Respublikasının mədəni həyatında qazanılmış uğurlu nailiyyətlər bu gün Prezident İlham Əliyev və onun xanımı Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan" qəzeti
2. "Dirçəliş – XXI əsr" jurnalı
3. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, f. 1, siy.70, iş 411, v.147.
4. Əliyev H.Ə. Ədəbiyyatın yüksək borcu və amalı. Nitqlər, məruzələr, çıxışlar. Bakı: Ozan, 1999, 496 s.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Dekabr, 1994 - iyun, 1995, kitab 3. Bakı, Azərnəşr, 1997, 489 s.
6. Əliyev H.Ə. Sovet ədəbiyyatının yüksək borcu və amalı. Respublika yazıçılarının VII qurultayında nitq. 12 iyun 1981-ci il. Bakı: Azərnəşr, 1981, 52 s.
7. Heydər Əliyev və Azərbaycan incəsənəti. Bakı, Elm, 1998, 124 s.
8. Qasımlı M.C., Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: BDU, 2006, 608 s.
9. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 580 s., s.100.

QARABAĞ ZƏFƏRİ HEYDƏR ƏLİYEV İRSİNİN TƏNTƏNƏSİDİR

[1,2]**Məlahət Fərrux qızı İsmayılova,** [1,3]**Məhəmməd Nazim oğlu Məmmədov**
[1]Mingəçevir Dövlət Universiteti
[2]riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
malahat.ismayilova@mdu.edu.az
[3]mahammad.mammadov@mdu.edu.az

"Bizim əsas problemimiz Ermənistanın Azərbaycama təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək , respublikanın ərazi bütövlüyünü təmin etməkdir."

(Heydər Əliyev)

Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində göstərilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Həmin maddənin II hissəsində isə göstərilir ki, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Qeyd edilən maddənin III hissəsinə əsasən Azərbaycan Respublikasının ərazisi özgəninkiləş-dirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

Müstəqil Azərbaycan Respublikası torpaqlarının Ermənistan tərəfdən işğalının əsası, əslində, 19-cu əsrin əvvəllərində qoyulmuşdur. Ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycan-lıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanda deyildiyi kimi, 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

Sovet dönəmində, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikasına birləşməsi haqqında Ermənistan rəhbərliyi tərəfindən vaxtaşırı cəhdlər edilmiş, lakin bu cəhdlərin qarşısı həmin vaxtlar alınmışdı. Ümummilli lider Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçildikdən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi barədə edilən cəhdlərin qarşısının alınmasında xüsusi prinsipiallıq göstərmişdir.

Bu haqda ümummilli lider Heydər Əliyevin aşağıdakı fikirləri xüsusilə maraqlıdır: "... 1969-cu ildən Azərbaycana rəhbərlik etmişəm. O zaman da bu məsələlər qaldırılıbdır. 1977-ci ildə SSRİ-nin Konstitusiyası qəbul olunarkən Konstitusiyanı hazırlamaq üçün komissiya təşkil edilmişdi. Komissiyaya o vaxtkı Kommunist Partiyasının Baş katibi L.İ.Brejnev rəhbərlik edirdi və respublikaların nümayəndələri də, o cümlədən mən də bu komissiyanın üzvü idim. Komissiya layihə hazırladığı dövrdə, təxminən, bir il müddətində həddindən artıq təkliflər gəlmişdi ki, Dağlıq Qarabağ ayrılıb Ermənistana verilməlidir. Hətta, bir-iki dəfə bu məsələnin komissiyada baxılmasına cəhd olmuşdu."

Ümummilli lider Heydər Əliyev daha sonra demişdi: "Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt ó vaxt bunların qarşısını aldım. Amma,qarşısını almaq da çətin idi. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım".

Heydər Əliyev SSRİ rəhbərliyində - Sov.İKP MK Siyasi Bürosunun üzvü, keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi müddətdə erməni şovinistlərinin Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında cəhdləri qətiyyətlə dəf edilmişdi. Lakin keçmiş Sovet İttifaqında "yenidənqurma"nın müəllifi M.Qorboçovun məkrli siyasəti

nəticəsində Heydər Əliyev "səhhətinə görə" ölkə rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra ermənilər və onların havadarlarının əl-qolu açılır. M.Qorboçovun özünə iqtisadi məsələlər üzrə müşavir seçdiyi akademik A.Aqambekyan 1987-ci ilin sonunda Fransanın nüfuzlu "Humanite" qəzetində Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan alınıb, Ermənistana birləşdirilməsi barədə bəyanatla çıxış edir və 1988-ci ilin fevralında məlum Dağlıq Qarabağ hadisələri başlayır.

Ümummilli lider Heydər Əliyev keçmiş Sov.İKP MK-nın 1989-cu ilin aprel ayının 25-də keçirilmiş Plenumunda Sov. İKP MK tərkibindən çıxarıldıqdan sonra ermənilər və onların havadarları , xüsusilə , əl-qol açırlar ,artıq bu zaman məlum Dağlıq Qarabağ hadisələri intensiv surətdə genişlənir və dərinləşir .

Xatırladaq ki, BMT-nin Təhlükəsizlik Şurası Dağlıq Qarabağla bağlı 30 aprel aprel 1993-cü il tarixdə 822 №-li, 29 iyul 1993-cü ildə 853 №-li, 14 oktyabr 1993-cü ildə 874 №-li və 11 noyabr 1993-cü ildə 884 N№-li qətnamələr qəbul etmişdir. Həmin sənədlərdə BMT Təhlükəsizlik Şurası, əslində, Dağlıq Qarabağın və ona bitişik bir sıra rayonların Ermənistan tərəfindən işğalını tanımışdır. Belə ki, BMT-nin Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il tarixdə 822 №-li qətnaməsinin 1-ci bəndində göstərilir ki, atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir.

BMT Təhlükəsizlik Şurasının 29 iyul 1993-cü il tarixli 853 №-li qətnaməsinin 3-cü bəndində göstərilir ki, bütün hərbi əməliyyatların təxirə salınmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Həmin qətnamənin 9-cu bəndinə əsasən Şura Ermənistan Respublikası hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 №-li qətnamənin müddəalarına əməl etməsi və ATƏM-in Minsk qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır.

BMT Təhlükəsizlik Şurası 14 oktyabr 1993-cü il tarixli 874 №-li qətnaməsinin 3-cü bəndinə əsasən, 822 və 853 №-li qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilməsini alqışlayır. BMT kimi mötəbər beynəlxalq təşkilatın bu qətnamələri bu günə kimi icra edilməmişdir.

Nəhayət, BMT Təhlükəsizlik Şurasının 11 noyabr 1993-cü il tarixli 884 №-li qətnaməsinin 4-cü bəndində Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), (5/26522, əlavə) saylı qətnamələrinin yerinə yetirilməsini, hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasını, Azərbaycan Respublikasının işğal olunmuş rayonlarından qəsbkar qüvvələrin çıxarılmasını maraqlı tərəflərdən tələb edir.

Ümummilli lider Heydər Əliyev Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır. Ümummilli lider istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur.

Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində BMT Baş Məclisinin 6 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narhatlığı vurğulanmışdır. Dağlıq Qarabağ münaqişəsinin BMT Baş Məclisinin 61-ci sessiyasında müzakirəyə çıxarılması Ermənistanda siyasi atmosferi gərginləşdirməkdədir. Rəsmi İrəvanın məsələyə soyuqqanlı yanaşmağa çalışması erməni siyasətçilərinə münaqişənin BMT səviyyəsinə çıxarılmasının Ermənistan üçün nə dərəcədə təhlükəli olduğunu demələrinə maneçilik törətmir. Bundan başqa, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanın mövqelərinin getdikcə möhkəmlənməsi erməni siyasətçilərini son hadisədən hakimiyyət uğrunda mübarizədə yararlanmağa vadar edir.

Ermənistan artıq iqtisadi müstəvidə uduzduğu kimi, siyasi müstəvidə də uduzduğunu başa düşür. Bu ölkənin Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi beynəlxalq layihələrdən

kənarda qalması, Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun çəkilməsi ilə beynəlxalq aləmdən təcrid olunması iqtisadi sahədə qazandığı uğurlarıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin BMT-nin Baş Məclisinin sesssiyasına çıxarılması, BMT, AŞ, AB, İKT kimi beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıması isə onun siyasi-diplomatik "uğurları"ndan xəbər verir.

Bir çox əlamətdar və ağrılı-acılı hadisələrlə tarixə qovuşan 2020-ci ilin son aylarında Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı yerə-göyə sığmayan sevinc hissi və qururla Qarabag zəfərini qeyd etdi. Bu böyük qələbəyə aparan keşməkeşli yol 30 il sürdü. 30 il torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində düşmən tapdağı altında qalması Azərbaycan xalqının ürəyində bir yara oldu. 30 il Qarabağ həsrətilə alışıb-yanan ürəklərin fəryadı, 30 il Qarabağa qayıdacağı ümidi ilə yaşayan gözü yaşlı insanların duaları, 30 il bu qələbənin gərçəkləşməsi uğrunda dövlət başçılarımızın apardıqları ədalətli siyasi mübarizə, diplomatik danışıqlar və gərgin ordu quruculuğu, nəhayət ki, bu gözəl Zəfər gününü gətirdi! Ümimmili lider Heydər Əliyev bu günün gələcəyini bilirdi və vaxtılə uzaqgörənliklə söylədikləri bu gün artıq Azərbaycanın reallığıdır: "Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun". Ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanı azad etdi, Qarabağı işğaldan azad etdi. Bu həqiqətən də Azərbaycan tarixinə qızıl hərflərlərlə yazılan Böyük Zəfərdir!

Rəsmi materiallarda qeyd edilir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1996-cı il 2 dekabr Lissabon Zirvə görüçündə səsləndirilən nitqində Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi, erməni təcavüzü barədə ümumi məlumat verib. Heydər Əliyev çıxışında Ermənistan tərəfinin bu münaqişədə məqsədini təcavüzün nəticələrini qanunıləşdirmək və Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmaq niyyəti kimi qiymətləndirib, bütün bunlara yol verilməyəcəyini iştirakçı dövlətlərin başçılarına elan edib (9,c.3) Lissabon sammitinin materiallarını nəzərdən keçirdikdə aydın olur ki, Azərbaycan xalqının lideri Heydər Əliyevin Azərbaycanın gələcəyi uğrunda bütün dünya dövlətləri qarşısında nümayiş etdirdiyi diplomatik istedad, casarat və müdriklik, əminəm ki, bu parlaq şəxsiyyətə hər bir insanda rəğbət və qürur hissi yaradır. Bəli, bir həqiqət danılmazdır - biz Qarabağ zəfərinə vaxtilə Ümummilli lider Heydər Əliyevin gərgin əməyi və siyasi mübarizəsi nəticəsində nail olmuşuq.

Biz, azərbaycanlılar xoşbəxt millətik, çünki Uca Tanrı Heydər Əliyev kimi dahi şəxsiyyəti Azərbaycan xalqına bəxş etmişdir. Heydər Əliyevin öz xalqına qoyub getdiyi zəngin va tükənməz irsindən hələ neçə-neçə yeni nəsillər bəhrələnəcək, yaşayıb-yaradacaq Heydər Əliyevin irsı - həm Qarabağ zəfərinin bünövrəsi, həm də gələcək nəsillərin xoşbəxt və firavan hayatının zəminidir

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, ABŞ və Fransa nümayəndələri də Minsk Qrupunun həmsədrləri təyin olundu. Beləliklə, Heydər Əliyev ərazilərində millətlərarası qarşıdurma yaranan heç bir dövlət başçısının bacarmadığını bacardı danışıqlar prosesinə dünyanın aparıcı siyasi gücə malik olan dövlətlərin liderlərinin cəlb olunmasına nail oldu. Azərbaycan xalqının sədaqətli oğlu Heydər Əliyevin siyasi mübarizəsi nəticəsində Lissabon sammitinin sənədlərində ilk dəfə yazıldı ki, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü tanınsın, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilsin və Dağlıq Qarabağın əhalisinin həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyi təmin edilsin.Bu , öncə Ermənistanla Azərbaycan arasında gedən informasiya müharibəsində kəskin dönüş , daha sonra, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi reallığının dünya ictimaiyyəti tərəfindən yekdilliklə qəbul edilməsi kimi qiymətləndirilməlidir.

Azərbaycan tarixində əbədi rəhbər kimi qalan Heydər Əliyevin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi və doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Bütün azərbaycan millətinin atası olan Heydər Əliyevin vəsiyyətini onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə igid Azərbaycan ordusu yerinə yetirdi - 44 günlük Qarabağ müharibəsində düşməni torpaqlarımızdan qovdu və üçrəngli bayrağımız yenə də doğma yurdumuzda, Qarabağın döyünən ürəyi - Şuşada qürurla dalğalandırıldı.

Ümummilli lider Heydər Əliyevin təyin edib həyata keçirtdiyi müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş İlham Əliyevin mərdi- mərdanə və böyük cəsarətlə məqsədyönlü addımlar ataraq qondarma Dağlıq Qarabağ probleminin ədalətli həllininə nail oldu. Ali Baş Komandanın əmri ilə Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı silah gücünə azad etdi. Beləliklə, Azərbaycan xalqının təbii və müqəddəs hüququ təmin edilərək, Qafqaz xalqları tarixində böyük dönüş nöqtəsi olan tarixi hadisə - Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və dövlət sərhədlərinin bərpa olunması baş verdi.

Dəmir yumruqla başı əzilən düşmən 10 noyabr 2020-ci il tarixində "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı"nı - faktiki olaraq kapitulyasiya aktını imzalamağa məcbur edildi və ərazi bütövlüyümüz təmin edildi.

Beləliklə, Ali Baş Komandana inanan və güvənən cəsur Azərbaycan əsgərləri canları bahasına 30 illik işğala son verdi. 44 günlük İkinci Qarabağ Müharibəsində Böyük Qələbə münasibətilə Bakıda 10 dekabr 2020-ci il tarixində keçirilən möhtəşəm Zəfər Paradı ümummilli lider Heydər Əliyev siyasi irsinin layiqli varisi , Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin təntənəsi oldu.

İstifadə edilmiş ədəbiyyat

1. Xalqımızın ümummilli lideri Heydər Əliyevin şərəfli ömür yolu gələcək nəsillər üçün örnəkdir.
2. Q.Çaxmaqlı. Qarabağ işğaldan əvvəl və... sonra, 788 s. Bakı, 2009
3. Milli Məclisin 23 fevral tarixli iclasında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqi. "Bakı fəhləsi" qəzeti, 24 fevral 2001-ci il.
4. 1994-1996-cı illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində atılan addımlar və ATƏT üzvü olan ölkələrin dövlət və hökümət başçılarının Lissabon Zirvə görüşü (2-9 dekabr 1996-cı il)
5. İ. Hüseynova. Heydər Əliyev və Qafqazda sülh prosesi, 670 s, Bakı, 2008
7. ATƏT-in Lissabon sammiti (2-4 dekabr 1996-cı http://anl.az/el/emb/QARABAQ/ beynelxalq-senedler/ atet (lissabon-sammiti) pdf
8. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" 10 noyabr 2020-ci il, https://president.az/articles/45924

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN GƏNCLƏRİNİN VƏTƏNPƏRVƏR RUHDA YETİŞMƏSİNDƏ ROLU

Nadir Salah oğlu Əhmədov
texnika elmləri namizədi, dosent
ETN akademik Y.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutu, Bakı şəhəri
sey19inxp@rambler.ru

"Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır"

(Mustafa Kamal Atatürk)

Dünya xalqlarının hər birinin öz milli adət-ənənələri və yaşam tərzi vardır. Eyni zamanda, hər bir xalqın müdriklik haqqında özünəməxsus təsəvvürü və öz müdriklik etalonu vardır. Lakin müdrikliyin bütün xalqlar tərəfindən qəbul olunmuş ümumi meyarları da mövcuddur. Azərbaycan xalqının müdrik və dahi şəxsləri çoxdur. Haqqında danışdığımız Heydər Əliyev müdrikliyi həm milli, həm də ümumbəşəri meyarlara cavab verən müdriklikdir [1]. Şərq fəlsəfəsi yalnız o insanları

həqiqi mənada dahi hesab edir ki, sözü ilə əməli düz gəlsin. Belə insanlar öz əməlləri, böyük işləri ilə xalqın həyatında mühüm rol oynayır və cəmiyyətin gələcəyə gedən yolunda mayaka çevrilirlər. Belə şəxsiyyətlər xilaskar qismində Tanrı tərəfindən böyük əməlləri ilə bizim dünyamıza göndərilənlərdir. Xalqın ən ağır və çıxılmaz məqamlarında onlar meydana atılır, xalqı mövcud bəlalardan xilas edərək cəmiyyəti işıqlı sabaha aparırlar. Məhz belə şəxsiyyətlərdən biri də Azərbaycan xalqının böyük oğlu, əvəzsiz siyasətçi Heydər Əliyevdir. O, böyük işlər, əməllər mücəssəməsi və xalqın hifsedicisidir. Tarixdən məlumdur ki, Azərbaycan zaman-zaman böyük fəlakətlərin, faciə və qurbanların məkanına çevrilib. Yadellilər daima torpaqlarımıza göz dikib, fitnə-fəsad törədib, qanlar axıdıb və kütləvi qırğınlara səbəb olublar. Xalqımız böyük əzmkarlıq göstərərək bu torpaqları qorumuşdur. Xalqı bu mübarizəyə qaldıran, yüksək idarəçilik qabiliyyəti ilə istiqamət verib öndə gedənlər isə onun uzaqgörən lideri olub [1, 2]. Heydər Əliyev zamanının qeyri-adi, unikal bir şəxsiyyəti olmaqla, xalqımızın ümummilli liderinə çevrilmişdir. Fenomenal yaddaş, güclü məntiq, misilsiz natiqlik məharəti, qeyri-adi intuisiya, nəhayətsiz fikir, millilik və ümumbəşəriliyin, sadə görünüşlə mürəkkəb məzmunun, mülayimliklə sərtliyin, səmimiyyətlə rəhmin bir şəxsiyyətdə - Heydər Əliyevdə vəhdətidir. Zəngin siyasi təcrübəsi, iti məntiqi və tarixi prosesləri peşəkarlıqla istiqamətləndirmək bacarığı ilə o, digər liderlərdən fərqlənirdi. Heydər Əliyev dahi siyasətçi olmaqla yanaşı, həm də dövrümüzün böyük sosioloqu, politoloqu, mütəfəkkiri, sənət və ədəbiyyat birincisi idi. Azərbaycanda və onun hüdudlarından kənarda Heydər Əliyev haqqında belə bir fikir formalaşmışdır ki, onun üçün mümkün olmayan iş yox idi. Bəzən ən çıxılmaz vəziyyətlərdə çıxış yolu tapan, yeganə mümkün addımları atmaqla ən dərin böhranlardan uğurla çıxan Heydər Əliyev "sirrini" bu gün də açmaq çox çətindir. Situasiyanı düzgün qiymətləndirmək, həm özünün həm də başçılıq etdiyi dövlətin mövcud reallıqlar şəraitində imkanlarını ölçüb-biçmək və daim bu imkanlardan çıxış etmək qabiliyyəti Heydər Əliyev şəxsiyyətini səciyyələndirən əsas keyfiyyətlərdən biridir. Xalqın, millətin uğurlu sabahı, xoşbəxt taleyi dahi liderin həyat devizi idi. Bu, çılpaqlığı ilə son onilliklərdəki hadisələrdə bir daha öz təsdiqini tapdı. Heydər Əliyev sözün həqiqi mənasında müstəqil Azərbaycanı yox olmaq təhlükəsindən xilas etdi. Millətin, xalqın düşünən gənc övladlarını başına yığmağı bacardı. Heydər Əliyev Azərbaycanda idarəçilik məktəbi yaratmış və əlçatmazlıq zirvəsinə zəkası, fərasəti və peşəkarlığı ilə yüksəlmiş bir şəxsdir. Bu günki müstəqil dövlətçiliyimizin bərqərar olduğu dayaqlarından biri də, şübhəsiz ki, Azərbaycan gəncliyidir. Heydər Əliyev xilaskar olduğu Azərbaycan adlı kiçik bir məmləkəti sarsılmaz və düşünülmüş siyasəti ilə dünyaya tanıtdı. Bu yolda o, Azərbaycan gəncliyinə, onun inkişafına, öz sözünü deyə bilməsinə əvəzsiz tövhəsini vermişdir. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Dahi şəxsiyyət sanki gələcəyi görür və gələcəyin məhz savadlı və bacarıqlı gənclərə məxsusluğu fikrini rəhbər tutaraq, bu istiqamətdə misilsiz addımlar atırdı. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək deyirdi: Mənim üçün ən əziz nemət Azərbaycanın gənclərdir. Çünki Azərbaycan Prezidenti kimi, mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə onun gənclərindən asılıdır [4]. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıdışı ilə Dövlət Gənclər Siyasəti formalaşmağa, çox şaxəli və konseptual xarakter almağa başladı. 1994-cü ildə Dövlət Gənclər Siyasətini həyata keçirmək və müxtəlif gənclər təşkilatları arasında mərkəzləşmiş koordinasiyanı təmin etmək məqsədilə Gənclər və İdman Nazirliyi yaradıldı, 1996-cı il fevralın 2-də isə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Ümumrespublika Gənclərinin I Forumu keçirildi. Bu forum Azərbaycanda gənclər hərəkatının vüsət almasına təkan verdi. 1997-ci il fevralın 1-də prezident Azərbaycanda dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolunu və gənclərin I Forumunun keçirilməsini nəzərə alaraq, 2 fevralı "Gənclər günü" elan edilməsi haqqında, 1999-cu il iyulun 29-da isə "Dövlət Gənclər Siyasəti haqqında" fərmanlar imzaladı. Gənclərlə bağlı digər mühüm sənəd 2002-ci ilin aprelində qəbul edilmiş "Gənclərin Siyasəti haqqında" qanunudur. Bu qanunda "Gənclər Siyasətinin formalaşdırılmasında, həyata keçirilməsində gənclərin iştirakı, gənclər təşkilatlarına və gənc ailələrə dövlət yardımı, gənclərin məşğulluğunun təmin edilməsi,

gənclərin sağlamlığının qorunması, fiziki inkişafı, istedadlı gənclərə dövlət qayğısı, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı" - kimi məsələlər yer alır ki, bu da Azərbaycan Respublikasında gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini müəyyən edir. Ulu Öndərimiz deyirdi: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəsilin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik". Bununla da ölkə gəncləri Milli Məclisin üzvü, nazir, icra başçısı, nazir müavini və digər mühüm dövlət və hakimiyyət orqanlarında məsul vəzifələrdə irəli çəkildilər. 1995-ci ildə Azərbaycanda yaranmış Gənclər Təşkilatlarının Milli Şurası 2000-ci ilin aprel ayında Avropa qitəsində ən nüfuzlu qeyri-hökümət təşkilatı olan Avropa Gənclər Forumuna tamhüquqlu üzv, 2002-ci ilin yanvar ayından isə BMT-nin İqtisadi Sosial Şurasına müşahidəçi seçildi. Bu, Heydər Əliyev siyasətinin təntənəsi, onun gəncliyə göstərdiyi etibarın, inamın təzahürüdür. Müasir Azərbaycanın memarı Heydər Əliyev Azərbaycan gənclərinə inanırdı və o, 1998-ci il ölkə gəncləri ilə görüşündə bunu dilə gətirərək deyirdi: "Əziz övladlar! Sizin kimi gəncləri olan, gələcəyi olan Azərbaycan basılmazdır, sarsılmazdır! Məni hədsiz sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün bəlalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncləri var. Bunlar sizsiniz əziz övladlar". İdeyaları [3, 4], fikirləri, qiymətli tövsiyələri, səsi-sözü qəlbimizdə əbədi yer alan Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 34 ildə ən əsas məqsədlərindən biri bu olmuşdur ki, Azərbaycan gəncliyi beynəlxalq arenaya çıxmağı və sözünü deməyi bacarsın, özünü təsdiq etməklə yanaşı, təmsil etdiyi xalqı layiqincə tanıtsın. Ulu Öndər istəyirdi ki, gənclər milli-mənəvi sərvətlərimizə sahib çıxsınlar, milli mentalitetimizə, dəyərlərimizə sadiq qalsınlar, tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi dərindən öyrənsinlər, yaxşı təhsil alsınlar, sağlam böyüsünlər və ən başlıcası, Vətənə şərəflə xidmət etsinlər. Heydər Əliyevin həyatı, dövlətçilik fəaliyyəti və irsi bizə həm demokratik idarəçiliyin mahiyyətini öyrədir, həm də demokratiya ilə anarxiyanın fərqini başa salır. Heydər Əliyev ideologiyasında azərbaycançılıq məfkurəsi bu gün yaradıcılıqla davam etdirilir. Sovet dövründən fərqli olaraq, tədris prosesində milli-mənəvi dəyərlərimizin, eləcə də tanınmış dövlət xadimlərinin, sərkərdələrin, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin zəngin həyat yolunun öyrənilməsinə böyük diqqət yetirilir. Onun ibrətamiz həyat yolu gənclər üçün ən böyük məktəb, örnəkdir [2, 3]. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi öz üzərinə götürdüyü vəzifələrin öhtəsindən layiqincə gəlir və bunu bacarır. Onların uğurlarının sədası beynəlxalq konfranslardan, dövlət və hökumət qurumlarından, ölkələrarası debat, intellektual bilik yarışmalarından eşidilir. Azərbaycan həqiqətlərini, musiqisini, ədəbiyyat və incəsənətini, folklorunu və digər milli-mənəvi dəyərlərini dünyanın müxtəlif ölkələrində təbliğ edən gənclərimiz, bütün səy və bacarıqları ilə dövlətçilik ənənələrimizi tanıdaraq, Vətənimizin dünya ictimaiyyəti tərəfindən sevilməsinə nail olurlar. İndi əsas amal bu günə kimi formalaşan gənclər ordusunu heç bir itki vermədən gələcəyə aparmaqdır. Bu gün Azərbaycan Respublikası durmadan inkişaf edir. Dahi lider cismən aramızda olmasa da, ruhu hər an bizimlə, hər an Azərbaycanı ilə birlikdədir. Bünövrəsini Heydər Əliyevin qoyduğu Gənclər siyasəti bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilərək mahiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Müasir gənclik Heydər Əliyev irsinin uğurla davam etdirilməsini hər keçən gün daha da qabarıq hiss edir. Dövlət başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi" dövlət proqramı təsdiq edib. Dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənc ailələrə kömək göstərilməsi, qaçqın və məcburi köçkün ailələrindən olan yeniyetmə və gənclərin hüquqlarının qorunması, sosial problemlərin həlli, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi dövlət proqramının əsasını təşkil edir. İlham Əliyevin rəhbərliyi ilə və "Heydər Əliyev Fondu"nun dəstəyi ilə müasir tələblərə cavab verən məktəblər tikilir, tədris müəssisələri yeni avadanlıqlarla, kompüterlərlə təchiz edilir. Bu istiqamətdə təhsil ocaqlarında yüksək standartlara uyğun maddi-texniki bazanın yaradılması, müasir tədris prosesinin tətbiq edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilməkdədir. Hazırda təkcə Rusiyada və Türkiyədə minlərlə gənc bakalavr, magistatura, doktorantura və digər proqramlar üzrə təhsil alır. Dövlət vəsaiti hesabına Cənab Prezidentin Gənclər Siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. Ölkə başçısının ardıcıl səyləri

sayəsində Respublikamızda beynəlxalq standartlara cavab verən idman kompleksləri tikilmiş yeni komplekslərin tikintisi bu gün də davam edir. Bakıda Dünya və Avropa birinciliklərinin keçirilməsi, müxtəlif yarışlarda qazanılan çoxsaylı mükafatlar isə gənclərə göstərilən qayğıdan, onlar üçün yaradılan şəraitdən soraq verir. İlham Əliyev 2007-ci ilin fevralın 2-də Prezident Sarayında Gənclər Günü münasibətilə gənclər təşkilatının nümayəndələri ilə görüşməsi gəncləri daha böyük nailiyətlər əldə etməyə ruhlandırmışdır. Cənab Prezidentin gənclər qarşısında nitqi təkcə gənclər üçün deyil, bu sahədə çalışan hər bir vəzifəli şəxs üçün fəaliyyət proqramıdır. Dövlətimizin başçısı gənclərlə bağlı siyasətində çoxsaylı yeniliklərin olduğunu açıqlamaqla yanaşı, gəncliyin qarşısında üç mühüm vəzifənin durduğunu qeyd etmişdir: "Peşəkarlığı və intellektual səviyyəni artırmaq, torpağa, vətənə, yurda bağlılıq və ən nəhayət, yüksək, insani keyfiyyətlərin formalaşması". Məhz bunun nəticəsidir ki, bu günkü Azərbaycan gəncləri vətənpərvərliyi, torpağa, vətənə, yurda bağlılığı, peşəkarlığı və yüksək insanı keyfiyyətləri nəticəsində öz torpaqlarını mənfur düşməndən erməni vandallarından təmizləyərək, Vətənin bütövlüyünü təmin edə bildilər. Ulu Öndərin tövsiyələrində ruhlanan, Ali Baş Komandanın göstərişlərini layiqincə yerinə yetirən bu günkü Azərbaycan gəncləri daha da böyük nailiyyətlərə imza atmağa yaxındır.

İstifadə edilmiş ədəbiyyat

1. V.M. Abbasov Dahilərin, Müdriklərin və Fatehlərin həyat dərsi. I və II cild. Bakı: Təhsil, 2010
2. V.M. Abbasov Liderlik fəlsəfəsi. Bakı: Təhsil, 2013.
3. S. Xəlilov. Lider, dövlət, cəmiyyət. Bakı: Elm, 2006
4. R. Mehdiyev Yeni siyasi inkişafa doğru. Bakı: Oskar, 2008

ZƏFƏR TARİXİNIN ÖYRƏNİLMƏSİNİN ELMİ-DİDAKTİK ASPEKTİ

Yaşar Kamil oğlu Alxasov
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
a-yashar@rambler.ru

Müasir elmi-pedaqoji ədəbiyyatda qeyd olunur ki, hazırda təhsilin əsas qayəsi dövrün sosial çağırışlarına cavab verməyə hazır olan, hərtərəfli inkişaf etmiş gənc nəslin yetişdirilməsidir. Məlumdur ki, təhsil prosesinin əsas komponentlərindən biri tədris olunan fənlərdir. Hər bir fənn sosial sifariş olmaqla, şagirdlərin, tələbələrin hərtərəfli biliyə, sağlam düşüncəyə malik vətənpərvər insanların yetişdirilməsinə, tərbiyə edilməsinə xidmət edən konkret təlim vasitəsidir.

Artıq üçüncü ildir ki, yəni 2021-2022 tədrisi ilindən başlayaraq, Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində "Zəfər tarixi" adlı yeni fənn tədris olunur. Bu fənnin öyrənilməsində əsas məqsəd şanlı ordumuzun qazandığı zəfərin tarixi əhəmiyyətini vurğulamaq, şagirdlərimizin milli-mənəvi dəyərlərə malik vətənpərvər ruhda yetişmələrinə yardımçı olmaqdır. Həmin fənnə dair yeni dərs vəsaiti tərtib olunmuşdur [1]. Dərs vəsaitində Ermənistan-Azərbaycan münaqişəsinin baş verməsi, azərbaycanlı əhalinin soyqırımına məruz qalması, Qarabağın dağlıq hissəsinin və ona bitişik ərazilərin Ermənistanın təcavüzü nəticəsində işğal olunması, atəşkəs rejimi, 2016-cı ilin aprel döyüşləri, 2020-ci ildə 44 günlük Vətən müharibəsi və azad olunmuş torpaqlarımızda bərpa-quruculuq işlərinin aparılması, Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində gördüyü böyük işlər, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğal altında olan torpaqlarımızın azad olunmasında göstərdiyi müstəsna xidmətləri diqqət mərkəzində saxlanılmışdır.

Məlumdur ki, XIX yüzilliyinin birinci yarısında Qafqazı işğal etmək uğrunda gedən müharibələrdə çar Rusiyası öz istəyinə nail oldu. Rusiyanın müvafiq olaraq Qacarlar dövləti və Osmanlı imperiyası ilə imzaladığı Türkmənçay (1828) və Ədirnə (1829) sülh müqavilələri

nəticəsində tarixi Azərbaycan torpaqlarına erməni əhalisinin köçürülməsi prosesi genişləndi. Çar hökuməti bu addımı ilə işğal etdiyi yeni ərazilərdə özünə dayaq yaratmaq məqsədi güdürdü. Sonrakı dövrlərdə də erməni mənşəli əhalinin Azərbaycan torpaqlarına köçürülməsi davam etmişdir. Gəlmə əhali məhsuldar torpaqlarda yerləşdirilir, onların rahat yaşaması üçün hər cür şərait yaradılırdı. Beləliklə, çarizmin köçürmə siyasəti Azərbaycanın şimal torpaqlarında, o cümlədən keçmiş Qarabağ xanlığı ərazisində erməni əhalisinin sayının süni surətdə artmasına səbəb oldu. Bu da öz növbəsində gəlmə əhalidə əsassız ərazi iddialarının formalaşmasına şərait yaradırdı. XX əsrin əvvəllərində çar Rusiyasının çökməsi və Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin meydana gəlməsi xaricdə güclü dayaqlara malik erməni siyasi dairələrinin iştahını bir az da artırdı. Tarixi dədə-baba torpaqlarımızda – keçmiş İrəvan xanlığı ərazisində dövlət qurmalarına baxmayaraq, mənfur qonşularımız Azərbaycan Xalq Cümhuriyyətinə qarşı ərazi iddiaları irəli sürməkdən çəkinmədilər. Bu dəfə onların əsas hədəfi Qarabağ idi. 1920-ci ildə Qarabağda qiyam qaldırıldı, buraya erməni quldur dəstələri yeridildi. Lakin yeni yaradılmış Cümhuriyyət ordusu bu qiyamı yatırdı və Qarabağı təcavüzkar basqınlardan qorudu. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın tarixi torpaqlarının Ermənistana verilməsi prosesi başlandı. 1920-ci il noyabr ayının 30-da Qərbi Zəngəzurun yuxarı hissəsinin Ermənistan SSR-ə verilməsi elan edildi. Təəssüf ki, Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdə respublikaya rəhbərlik edənlərin səriştəsizliyi, Moskvanın və ermənilərin də təzyiqləri nəticəsində Qarabağın dağlıq hissəsində erməni əhalisi üçün muxtariyyətin yaradılması qərarı verildi [3]. Bundan başqa, 1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldı və beləliklə, gələcək münaqişənin əsası qoyuldu. Az sonra Xankəndi şəhəri yeni yaradılan muxtar vilayətin inzibati mərkəzinə çevrildi. Maraqlıdır ki, vaxtilə Qarabağda məskunlaşdırılmış erməni əhalisinə muxtariyyət hüququ verilsə də, bəhs edilən dövrdə Ermənistan SSR-də yaşayan çoxsaylı azərbaycanlı əhali üçün belə hüquq tanınmadı. Azərbaycan SSR-in tərkibindəki DQMV-də yaşayan ermənilər XX əsrin 40-cı illərindən etibarən erməni lobbisinin təhriki ilə Ermənistan SSR-ə birləşmək üçün bir neçə dəfə SSRİ rəhbərlərinə müraciətlər etmişlər. "Lakin 1988-ci ilə qədər sovet rəhbərliyi bunun bütün SSRİ-də milli münaqişələrin alovlanacağını anlamış, bu təklifləri rədd etmişdi. Ancaq XX əsrin 80-ci illərində sovet rəhbərliyinə gələn M.Qorbaçov erməni millətçilərinin separatçı hərəkətlərinə göz yumdu. Beləliklə, silahlı münaqişəyə şərait yaradıldı" [2, s. 13]. Məhz bu aspektdən çıxış etsək, müasir zəfər tariximizin yetişməkdə olan gənc nəsilə öyrədilməsi sosial-pedaqoji aktuallıq kəsbedən bir problemdir.

Dərs vəsaitinin tərtibçilərinin fikrincə, Zəfər tariximizin öyrənilməsinin aşağıdakı mövzu aldıcılığı ilə aparılması elmi və didaktik cəhətdən düzgün və məqsədəmüvafiq hesab edilə bilər:

1. Münaqişə başlayır.
2. Birinci Qarabağ müharibəsi.
3. Atəşkəs.
4. Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq müzakirələrdə.
5. Böyük zəfərə doğru.
6. Vətən müharibəsi.
7. Qəhrəmanlar unudulmur.
8. Müzəffər Ali Baş Komandan.
9. Mədəniyyətimizin incisi – Şuşa.
10. Qarabağ bu gün [1, s.4].

Eyni zamanda qeyd etmək lazımdır ki, dərs vəsaitində məzmun, struktur və onların təqdimatı baxımından xeyli çatışmazlıqlar var.

1. Müharibənin gedişində dönüş nöqtəsi olan Horadiz əməliyyatından bəhs edən tərtibçilər qeyd edirlər: "Ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəldikdən sonra bir sıra vacib tədbirlər həyata keçirdi" [1, s.24]. Hesab edirik ki, bundan əvvəl Ümummilli Lider Heydər Əliyevin xalqın təkidi ilə nə vaxt və necə hakimiyyətə gəlməsi barədə məlumat vermək, eləcə də Heydər Əliyevin simasında xalqın yeganə xilaskar obrazını daha qabarıq şəkildə təqdim etmək lazımdır.

2. "Diplomatiya uğurlarımız" mətnində dövlət başçısı İlham Əliyevin etibarlı tarixi faktlara əsaslanan parlaq çıxışları və müsahibələri vurğulanır [1, s.60]. Ancaq İlham Əliyevin Prezident kimi fenomenal natiqlik məharətindən, öz fikirlərini rus, ingilis və türk dillərində, eləcə də, təbii ki, öz ana dilində, Azərbaycan dilində yüksək səviyyədə ifadə etməsindən bəhs olunmur.

3. Qarabağ iqtisadi rayonunun Xankəndi və diğər ərazilərinin qanunsuz erməni silahlı birləşmələrindən tamamilə təmizlənməsi, həmin ərazilərdə Azərbaycanın dövlət suverenliyinin tam bərpası və digər məsələlərin tarixi-xronoloji aspektdə işıqlandırılması dərs vəsaitinin məzmun və strukturunda ciddi dəyişikliklərin aparılmasını zəruri edir.

Təhsil Azərbaycan dövlətinin strateji hədəfi olmaqla daim təkmilləşən və yeniləşən bir prosesdir. Bu isə öz növbəsində ayrı-ayrı fənlərin, o cümlədən "Zəfər tarixi"nin müasir didaktikanın tələblərinə uyğun şəkildə tədrisini aktual sosial-pedaqoji problem kimi ön plana çəkir.

İstifadə edilmiş ədəbiyyat

1. Zəfər tarixi. Ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün dərs vəsaiti / müəlliflər: Talıb Talıblı, Ramil Tanrıverdi, Pərviz Ağalarov, Niyaməddin Quliyev, Hafiz Cabbarov; elmi redaktorlar: Anar İsgəndərov, Qasım Hacıyev. – Bakı: Şərq-Qərb, 2022. – 112 s.

2. Məmmədov S., Məmmədov T. Qarabağ: mif və həqiqət. Dərs vəsaiti. – Bakı: Təhsil, 2021. – 480 s.

3. Махмудов Я.М., Шукуров К.К. Гарабаг: реальная история, факты, документы. – Баку: Təhsil, 2007. – 380 с.

POLADLARDA ELEKTRİK MÜQAVİMƏTİNİN TƏKRAR QIZDIRMA İLƏ YAXŞILAŞDIRILMASI

[1,2,3]**Vurğun Fəxrəddin oğlu Qəhrəmanov,** [1,2,4]**Natiq Səməndər oğlu Rzayev**
[1]Bakı Mühəndislik Universiteti
[2]texnika üzrə fəlsəfə doktoru, dosent
[3]vqahremanov@beu.edu.az
[4]nrzayev@beu.edu.az

Polad və ərintilərdə elektrik müqavimətinin əhəmiyyəti böyük hesab edilir. Elektrik müqavimətinin lazımi qiymətdə olmaması müxtəlif xassələrin azalmasına və eyni zamanda ümumilikdə metal və ərintilərin keyfiyyət göstəricilərinin aşağı düşməsinə səbəb olur. Məqalədə elektrik müqavimətinin azalma səbəblərinə baxılmış, onun müxtəlif üsullarla yaxşılaşdırılması üçün müəyyən təkliflər irəli sürülmüşdür.

Deformasiyaya uğramamış və deformasiyaya uğramış nümunələrin (yayılmış və çəkilmiş, suda və ya soba ilə birlikdə soyudulması) 1200 ^{0}C-yə qədər qızdırıldıqda və otaq temperaturunda 100 dərəcə/saat sürətlə soyuduqda elektrik müqavimətində bir sıra dəyyişikliklər baş verir. Bu dəyişikliklərdən bəziləri şək. 1-də göstərilmişdir.

Suda tablandırılmış deformasiya olunmamış nümunələrin elektrik müqaviməti müqavimətin müsbət temperatur əmsalı hesabına tədricən 300-400 ^{0}C-ə qədər yüksəlir. Əyrinin 400-dən 700 ^{0}C-ə qədər böyüməsi K vəziyyətinin inkişafını göstərir. 700-925 ^{0}C temperatur diapazonunda bərk məhlul gücləndirmə fazasının hissəciklərinin əmələ gəlməsi ilə parçalanır, bu da elektrik müqavimətinin azalmasına səbəb olur. Əyrinin 950 ^{0}C-dən yuxarı qalxması ikinci fazanın əvvəllər buraxılmış hissəciklərinin əriməsi ilə bağlıdır. Soyutma əyrisi isitmə əyrisinə analojidir və buna bənzəyir və qeyd olunan proseslərin tərs qaydada, yəni əksinə baş verməsini göstərir.

Deformasiyaya uğramış nümunələrdə qızdırma zamanı K vəziyyətinin əmələ gəlməsi daha geniş temperatur diapazonunda (100-dən 700 ^{0}C-ə qədər) baş verir və deformasiya olunmamış nümunələrə nisbətən daha intensiv olur. Sıxılma dərəcəsi nə qədər yüksəkdirsə, qızdırılan zaman elektrik müqavimətinin artması da bir o qədər yüksək olur.



Şək. 1. Qızdırma və soyutma zamanı XH77TIOP ərintisinin elektrik müqavimətinin dəyişməsi (100 dərəcə/saat sürətlə): 1 - 1080 ^{0}C su ilə soyutma; 2 - 1080 ^{0}C -də tablandırma və yayma 50 %; 3 - 1080 ^{0}C - tabalandırma və yayma 75 %; 4 - 1080 ^{0}C -də tablandırma, soba ilə soyutma; 5 - 1080 ^{0}C-də tablandırma, soba ilə soyudulması və 50 % yayma

Deformasiya edilməmiş və həmçinin deformasiyaya uğramış (suda tablandırılmış) nümunələr üçün qızdırma və soyutma zamanı maksimum və minimum elektrik müqavimətləri dəyər baxımından, demək olar ki, eynidir, lakin soyutma zamanı daha aşağı temperaturlara doğru sürüşürlər. Nümunələrin qızdırıldıqdan və soyudulduqdan sonra elektrik müqaviməti qızdırılmadan əvvəl olduğundan daha yüksək olması diqqəti cəlb edən haldır. Burada bir məsələyə xüsusi diqqət yetirmək tələb olunur. Soyuduqdan sonra elektrik müqavimətinin dəyişməsinin yüksəlməsi əvvəlcədən aparılmış termiki emaldan asılıdır [1]. Yalnız suda tablandırılmış nümunələrdə, sıxılma dərəcəsi 50% olan nümunələr üçün - 8,7 %, sıxılma dərəcəsi 75 % nümunələri üçün - 10,5 % yüksək olur. Elektrik müqavimətindəki bu artım, soyutma zamanı K vəziyyətinin görünüşü ilə müəyyən edilir və artımın müxtəlif miqyası deformasiya enerjisinin (yüksək istilikdən sonra saxlanılan) K vəziyyətinin formalaşmasının inkişafına təsiri ilə əlaqələndirilir. Nümunələrin elektrik müqavimətinin yükəslməsi, soyutma sürətindən asılı olmayaraq soba ilə tablandırmaqla 550 ^{0}C qədər müşahidə olunur, və bu artım eyni nümunələrə nisbətən nəzərə çarpacaq dərəcədə az olur. Soba ilə birlikdə soyuduqda, nümunələrdə K vəziyyətinin müəyyən inkişaf etməsi müşahidə olunur ki, və bu prosesin sıxılma dərəcəsinin 50 % qiymətində də davam etməsi qəbul edilir. Sonradan qızdırma zamanı elektrik müqavimətinin az artımı müşahidə olunur və bu artım 550 ^{0}C-yə qədər baş verə bilir. Bundan əlavə, nümunələrin temperaturdan asılı olaraq əyrilərinin fərqli bir xüsusiyyəti 550-950 ^{0}C temperatur aralığında elektrik müqavimətinin iki mərhələli görünüşüdür. 950 ^{0}C-dən yuxarı qızdırıldıqda əyrinin yüksəlməsi möhkəmlənmiş fazasının hissəciklərinin həlli ilə

əlaqələndirilir. Soyutma əyrisinin vəziyyəti suda tablandırılmaqla möhkəmləndirilmiş nümunələrin soyutma əyrisinə bənzəyir ki, bu da 775-500 ^{0}C temperatur intervalında soyutma əyrisi termiki emal əyrisindən bir qədər yüksəkdir bununda səbəbi "başlanğıc" strukturlara görə K vəziyyətinin formalaşmasının müxtəlif dərəcələri ilə bağlıdır [2, 3].

Otaq temperaturundan 500 ^{0}C temperatura qədər 50 000 dəq qızdırmadan əvvəl və sonra ölçülən elektrik müqavimətlərinin qiymətlərinin nisbi dəyişməsini müqayisə edərək göstərmişik ki, deformasiya edilməmiş nümunələr üçün bu qiymət, demək olar ki, eynidir və o təqribən 8 və 7,6%-ə bərabərdir (soyutma temperaturu, suda tabəksiltmə - Cədvəl 1). Deformasiya olunmuş nümunələrdə bu müşahidə edilmir və bu fərq sıxılma dərəcəsinin artması ilə artır. 50 % sıxılma ilə nümunələr üçün otaq temperaturunda elektrik müqavimətinin ilkin və son qiymətləri arasındakı fərq 12,9 %, 50000 dəqiqəlik məruz qalma ilə qızdırma nəticəsində isə yalnız 6 %; 75 % azalma ilə bərkidildikdə, bu fərq müvafiq olaraq 14,5 m 2,5 % təşkil edir (müqayisə suda tablandırılmış və sonra yayılmış nümunələr üçün aparılmışdır). Bu fərq yalnız bərk məhlulda (K vəziyyəti) 500 ^{0}C-də məruz qalmanın ilk 5 dəqiqəsində ardıcıl atom düzülüşünün intensiv formalaşması ilə əlaqədar ola bilər ki, bu da göstərilən dəyərlərin müqayisəsini dərhal istisna edir.

600 ^{0}C-də köhnəlmə təxminən 500 ^{0}C-də olduğu kimi baş verir, lakin 600 ^{0}C-də K vəziyyətinin formalaşması əvvəlcə daha intensiv şəkildə baş verir və sonra proses yavaşlayır. Lakin 600 ^{0}C-də elektrik müqavimətinin sabitləşməsi 500 ^{0}C-də müşahidə edildiyi kimi, 50000 dəqiqə deyil, 500 dəqiqə məruz qaldıqdan sonra müşahidə olunur. 50000 dəqiqə saxlama deformasiyaya uğramış, eləcə də deformasiya olunmamış nümunələrin elektrik müqavimətinin aşağı düşməsinə gətirib çıxarır və deformasiyaya uğramış nümunələrdə bu düşmə daha kəskin nəzərə çarpır. Soyuq üsulla emal olunmuş nümunələrin qızdırılmasının ilk dəqiqələrində elektrik müqavimətinin kəskin artması toplanmı. deformasiya enerjisi hesabına K-vəziyyətinin intensiv formalaşması nəticəsində baş verir. Elektrik müqavimətinin azalması ikinci fazanın hissəciklərinin əmələ gəlməsi ilə bərk məhlulun parçalanması, həmçinin gərginliyin qismən aradan qaldırılması ilə əlaqədardır.

Cədvəl 1

500 ^{0}C-də təkrar qızdırmanın 1080 ^{0}C-dən soyudulmuş və soyuq işlənmiş XH77ЮР ərintisi nümunələrinin elektrik müqavimətinin dəyişməsinə təsiri (müxtəlif ölçmələrdən sonra uyğun qiymətlər)

λ, %	$\rho_{исх.}$ мком·см		ρ_{50000} мком·см (t=20^{0}C)		$\frac{\rho_{исх}-\rho_{50000}}{\rho_{исх.}}100\%$		$\frac{\rho_{исх}-\rho_{50000}}{\rho_{исх.}}100\%$ (t=500 ^{0}C	
	П	В	П	В	П	В	П	В
0	119,3	-	125,2	-	+4,9	-	+5	-
5	119,9	120,8	126,1	126,2	+5,1	4,4	-0,5	-2,9
25	120,6	121,6	124,8	125,5	+3,4	3,1	0	-0,5
50	116,9	117,4	124,0	124,6	+6,6	6,1	-0,1	4,5
75	113,0	113,9	124,9	124,8	10,5	9,5	0	1,6
Havada soyutma								
0	121,0	-	126,2	-	+4,2	-	+4,2	-
5	123,8	122,5	125,6	126,2	+1,4	+2,1	-1,4	-1,6
25	124,6	124,9	125,3	125,0	+0,6	+0,1	0	+0,6
50	119,8	118,5	124,5	124,8	+3,9	5,3	+0,4	-2,2
75	113,8	113,9	124,6	124,2	+3,9	9,0	-1,0	-2,8
Soba ilə birlikdə soyutma								
0	122,0	-	123,4	-	+1,1	-	0	-
5	125,3	124,4	123,6	123,2	-1,8	-0,9	0	-0,6
25	124,8	-	122,9	-	-1,5	-	-0,4	-
50	121,1	121,0	122,7	125,4	0	+0,8	-0,4	-1,0
75	-	-	-	-	-	-	-	-

Şək. 2-də göstərilən mikrostrukturların müqayisəsindən deformasiyanın, temperaturun və gərginliyə məruz qalmanın kələ-kötür sərhədlərin eninə təsirini görmək olar, onların baş verməsi strukturun düzgün formalaşmamsı ilə əlaqədar ola bilər.



Şək. 2. Suda 1080 ^{0}C-də soyudulduqdan sonra XH77TЮP ərintinin mikroquruluşu, 500 (a), 5000 (b), 30000 (c), 50000 dəq saxlama müddətləri və 500 C-də 5 % köhnəlmə ilə. x 1000

Dənə daxilində çoxbucaqlılaşma, bucaq xarakteristikalarının və bu və ya digər dənənin geri çəkilmə sərhədlərinin dəyişməsi ilə bağlıdır. Qızdırma müddətinin və temperaturun artması (müəyyən, orta dəyərlərə) bu dişli sahələrin ölçüsündə bir qədər artıma səbəb olur; 700 və 800 ^{0}C-yə qədər qızdırıldıqda, sərhədlər boyunca belə struktur dəyişiklikləri müşahidə edilmir. 20 kq yük altında bir Matsuzawa MMT-3X (7X) cihazındakı mikrobərklik ölçmələri, kəsikli sərhəd bölgələrinin və dənələrin bitişik hissələrinin mikrobərklik qiymətlərində əhəmiyyətli fərq yaratmağa imkan vermədi bu da təsdiq edir ki, sərhəd həcmlərinin formasının dəyişməsi dənənin özündə proseslərin baş verməsi ilə bağlıdır (bu halda çoxbucaqlılaşma kimi proseslər). Sərhəd bölgələrində dişlərin istiqaməti dənələrin kristalloqrafik yerləşməsindən, həmçinin bitişik dənələrdə gərginliyin paylanmasından asılıdır. 500 və 600 ^{0}C-də qızdırıldıqda sıxılma dərəcəsi 50-75 % olan çəkilmiş nümunələrdə 5000 dəqiqəyə qədər bağlama sürəti ilə aydın şəkildə müəyyən edilmiş qovşaqları olan sürüşmə xətləri şəbəkəsi aşkar edilir. Bu qovşaqlar yuvarlaq formaya malikdir, 1000-1500 dəfə böyüdülmüş işıq mikroskopunda yaxşı həll olunur. Yuvarlanmış nümunələrdə yuvarlanan müstəvidə sürüşmə xətləri yalnız 500 ^{0}C temperaturda 1000 dəqiqə qızdırıldıqdan sonra azalma dərəcəsi 75 % olan nümunələrdə müşahidə edilə bilər. 75 % azalma ilə yuvarlanan iş parçalarının hündürlüyünə əsasən sürüşmə təyyarələrinin iki sistemi, 50 % sıxılma nümunələri üçün isə yalnız bir sistem mövcud olur.

Nəticələr

1. Müəyyən edilmişdir ki, elektrik müqavimətinin yüksək olması növbədə ərintinin tərkibindən asılıdır.

2. Polad və ərintilərin elektrik müqavimətinin yüksəldilməsi, termiki emal proseslərinin düzgün seçilməsi ilə əldə edilmişdir.

3. Məlum olmuşdur ki, qızdırıcı mühit, saxlama müddəti və soyuducu mühit bu xassənin yüksəldilməsi üçün vacib amildir.

İstifadə edilmiş ədəbiyyat

1. Слепцов В.В., Кукушкин Д.Ю., Куликов С.Н. Тонкопленочные технологии в создании электродных материалов для перспективных источников тока, 2012
2. Саяпин С.Н. Новая компоновка металлогидридного линейного привода, 2009
3. Келли А., Никлсон Р. Дисперсионное твердение. М.: Металлургия, 1999

ИССЛЕДОВАНИЕ ИМПЛАНТИРОВАННЫХ ПЛЕНОК ХОЛЬКОГЕНИДА СВИНЦА

[1,2,3]**Гамлет Джумшид оглы Касаманли,** [1,2,4]**Камил Мурсал оглы Сулейманов,**
[1,5]**Рада Исфандияр кызы Аскерова**
[1]Азербайджанский технологический университет
[2]доцент
[3]hamlet.kesemenli@mail.ru
[4]k.suleymanov@atu.edu.az
[5]докторант
r.asgerova@uteca.edu.az

Полупроводниковые соединения группы A^{IV} B^{VI} в частности PbTe, PbSe и твердые растворы на их основе в настоящее время находят широкое применение в технике. Они используются в источниках и детекторах ИК-излучения, термоэлектрических преобразователях энергии тензометрах и других приборах и устройствах.

Один из наиболее перспективных методов управления свойствами полупроводников и создания структур на их основе-ионная имплантация -применительно к полупроводникам A^{IV} B^{VI} мало разработан и исследован. В то же время немногочисленные пока, публикации, посвященные ионной бомбардировке, главным образом PbTe и PbSe показывает, что этот метод имеет несомненные перспективы практического применения.

Первая задача исследования и состояла в проверке предположения о донорным действии галлия и выяснение его активности. Вторая задача, связанная с первой, состояла в выяснении возможности формирования *P- n* перехода в PbSe при бомбардировке ионами галлия.

Влиянии примеси Ga на свойства PbSe до нас вообще не изучалась, поэтому предпринятые нами исследования имели свой целью выяснить характер влияния (донорный, акцепторный) и электрическую активность Ga в PbSe *т.е.* определит тип и число свободных носителей, поставляемых примесью в расчете на один атом.

Имплантация ионов Ga^{+} с энергией 90кэВ осуществлялась на установке ИПУ в режиме горизонтального сканирования. Такой режим соответствовал облучению каждого участка поверхности пленки импульсами длительностью ~ 1,2 *тс* при частоте повторения 50 c^{-1} и амплитудном значении плотности ионного тока ~ 1,7 мкА/$см^2$.

Дозы облучения составляли 10 *мкКl /см*^{2}($6{,}25\cdot10^{13}$см$^{-2}$) и 40 *мкКl /см*^{2}($2{,}5\cdot10^{14}$см$^{-2}$). При толщине пленок d = 0,7мкм, средние концентрации примеси $\langle N_{Ga}\rangle$ были следующими: $9 \cdot 10^{17}$см$^{-3}$ для меньшей дозы и $3{,}6 \cdot 10^{18}$см$^{-3}$ для большей дозы, *т.е.* в первом случае $\langle N_{Ga}\rangle$

несколько ниже, а во втором несколько выше, чем концентрации дырок (акцепторов) в образцах до имплантации.

Профиль распределения Ga после имплантации и отжига исследовался методом вторичной ионной масс-спектрометрии (ВИМС) при травлении ионами O_2^+ с энергией 5,5 кэВ.

На рис.1 показано распределение Ga в пленке PbSe, облученной дозой 40 *мкКl /см²* (кривая 1); распределение при дозе 10 *мкКl /см²* (кривая 3) практически совпадает с распределением 1, если экспериментальные значения N_{Ga} (Z) для этой дозы умножить на 4 (1). Эти два распределения получены для отожженных после имплантации пленок. Кривая 4 отражает распределение Ga = (D = 10 *мкКl/см²*) для неотожженной пленки (рис.1).



Рис.1. Распределение Ga по толщине пленок PbSe
D, мкКл/см²: 1 – 40; 3, 4 – 10;
1, 3 – после отжига; 2 – теоретическое распределение Ga; 4 – до отжига

Масштаб по оси ординат на рис.1 установлен приравниванием площади под кривой N_{Ga} (Z) полной дозе ионов галлия. На единицу площади, т.е. $2{,}5 \cdot 10^{14}$ см$^{-2}$ и $6{,}25 \cdot 10^{13}$ см$^{-2}$.

Кривая 2 изображает теоретическую зависимость N_{Ga} (Z) для дозы 40 *мкКl /см²,* рассчитанную с использованием (2).

Составление теоретической и экспериментальных зависимостей на рис.1 показывает, что и в процессе имплантации и при послеимплантационном отжиге происходит заметное перераспределение внутренней примеси по глубине. «Расплывание» профилей N_{Ga} (Z) в общем случае может быть обусловлено как диффузией при отжиге, так и радиационно-стимулированной диффузией в процессе облучения.

Так же, как в PbTe < Ga^{+}> ты провели сопоставление значений термоэдс – α, коэффициента Нернста – Эттингсгаузена – Q, холловский подвижности в пленках PbSe имплантированных Ga^{+} и в однородных пленках. При этом получены несомненные свидительства неоднородности свойств пленок по толщине и наличия в них слоев *n*- и *p*-типа проводимости.

Использованная литература

1. Алиев В.З. Имамкулиев С.Д., Казмин С.А., Кайданов В.П., Касаманли Г.Д., Суворов А.В. Имплантация ионов галлия в пленки PbSe. – ФТП, 1983, том 17, вып. 4, Ленинград, с.611-613.

2. Касаманли Г.Д., Дашдамирова Н.Д. Исследование имплантированные ионами Ga^{+} пленки PbSe. Актуальные проблемы пищевой и легкой промышленности. Материалы международной научно-практической конференции**.** Гянджа, 2019. с.2.

HEYDƏR ƏLİYEV VƏ MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ

Yeganə Nəriman qızı Qasımova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
yegana.gasimova@mail.ru

Müəyyən inkişaf mərhələlərini keçirən azərbaycançılıq düşüncəsini vahid sistem halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına məhz Heydər Əliyev dühası çevirə bilmişdir. Xalqımızın milli soykökünə qayıdışını təmin etmək, müstəqil və bölünməz Azərbaycanı qoruyub saxlamaq, milli-mənəvi dəyərlərimizi gələcək nəsillərə çatdırmaq, vətəndaş birliyini və dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsinə nail olmaq azərbaycançılıq ideologiyasının əsasını təşkil edir. Azərbaycançılıq ideologiyası Azərbaycan mədəniyyətinin təməlini təşkil edən güclü mənəvi qüvvədir. Bu məfkurə tarixi zərurətdən yaranmışdır. Milli liderimiz Heydər Əliyev bu haqda deyirdi: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" [1].

Tarixin bütün mərhələrində Azərbaycan çoxmədəniyyətli bir dövlət olmuşdur. Ölkəmizin ərazisindən qədim İpək yolu keçmiş, bu əlverişli coğrafi məkanda yerləşməsi onun etnik-mədəni müxtəlifliyə malik bir cəmiyyət kimi formalaşmasında əsaslı rol oynamışdır. H.Əliyev Azərbaycanın uğurlu inkişafı üçün əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini keyfiyyətcə yeni mərhələyə qaldırdı: "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, kumık da başqaları da bütünlükdə hamısı azərbaycanlıdır" [1]. Milli və dini tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi zəmanəmizin ən aktual problemlərindəndir. Multikulturalizm, ilk növbədə tolerantlığın göstəricisidir. Onsuz insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə və dostluq mümkün deyildir. Multikultural dəyərlər insanları əmin-amanlığa, sülh və birgəyaşayışa, vətənin bütövlüyünün qorunmasına səsləyir.

Azərbaycanda multikulturalizm dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Ölkəmizdə milli mədəniyyətə uğurla inteqrasiya olan müxtəlif xalqların nümayəndələri ahəngdar inkişaf edirlər. Quba, Qusar, Xaçmaz, Nabran və s. bölgələrdə yaşayan yəhudi, ləzgi, qırız, xınalıq, buduq, hapıt və b. dillərdə danışan xalqlar azərbaycançılıq ideyası ətrafında birləşmişlər. Bu millətlərin nümayəndələri Qarabağ döyüşlərində mətinliklə vuruşaraq əsl tolerantlıq nümunəsi göstərmişlər.

Azərbaycan multikulturalizmi tarixən formalaşan mənəvi qaynaqlara əsaslanır. İstər tarixi mənbələrdə, istərsə də ədəbi-bədii abidələrdə yaşayan bu qaynaqlar xalqımızın daxili aləmini, ruhunu, mənəvi zənginliyini göstərən etibarlı mənbədir. Xalqımıza xas olan multikultural dəyərlər tarixən əcdadlarımızın qanında, canında yaşayıb bizə miras qalan dəyərlərdir. Azərbaycan multikulturalizmi öz mənşəyini dünyanın ən qədim ədəbi-bədii fikir örnəklərindən olan Türk mifləri və azərbaycanlı peyğəmbər Zərdüştün "Avesta" abidəsindən, "Kitabi-Dədə Qorqud" dastanlarından alır. Azərbaycan klassiklərinin, eləcə də müasir dövr yazarlarının əsərlərində də başqa dinin, millətin nümayəndələrinə həmişə hörmətlə yanaşılmışdır.

Akademik Kamal Abdulla "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" əsərində yazır: Poeziyamızda müxtəlif dinlərin müqəddəslərinə - İbrahimə, Musaya, Süleymana, Yaquba, İsa Məsihə, Məryəmə dərin hörmətlə müraciət edilməsi, onların həyat və əməlləri ilə bağlı Şərq poetikasının sehirli və füsunkar cığırlarında uyğun təşbeh və bənzətmələr qurulması, istər müqayisəli, istərsə də müqayisəsiz bədii fiqurlar yaradılması artıq özü-özlüyündə multikultural və tolerant əhvalın bariz nümunəsi kimi diqqəti cəlb edir" [2].

Multikultural dəyərlər oğuz etnomədəniyyətinin ayrılmaz hissəsi olan "Kitabi-Dədə Qorqud"da daha qabarıq ifadə olunmuşdur. Eposda xristian qızları comərd, sədaqətli və bacarıqlı təsvir edilirlər. Nizaminin "Yeddi gözəl" poemasının qəhrəmanları hərəsi bir ölkədəndir.

İngilis yazıçısı Oskar Uayld "Oxumaq, yaxud oxumamaq" məqaləsində yazırdı ki, pis kitablardan insanları qorumaq işini, hətta universitetlərin missiyaları sırasına daxil etmək vacibdir. Çünki neqativ informasiya tez yadda qalır, uzun müddət onu hafizədən silmək olmur. Ona görə də tolerantlıq kimi həssas mövzu kitab və dərslik materiallarında elə verilməlidir ki, gənclərdə tolerantlıq ənənələrinin möhkəmlənməsinə xidmət etsin.

Multikulturalizmin prinsip və müddəaları təhsil sahəsinə də nüfuz edir. Multikultural təhsil bütün millətlər və etnoslar üçün həyati tələbata çevrilmişdir. Təhsilə multikultural yanaşma insanların müxtəlif etnik mədəniyyətlərə yiyələnməsi, fərqli şəraitə uyğunlaşma, dialoqa girmək bacarığı yaradır, həyata pozitiv köklənməyə kömək edir. Azərbaycan xalq pedaqogikasında bu məsələyə həmişə diqqətlə yanaşılmış, müxtəlif millətlərə hörmət bəslənmiş, birgəyaşayış təbliğ olunmuşdur. Universitet və institutların humanitar fakültələrində, xüsusən də ədəbiyyat müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrə qədim ənənələrimizlə bağlı multikultural dəyərlər və tolerantlıq bədii örnəklərimizdən alınan həssas və inandırıcı nümunələr, o cümlədən poeziyanın dili ilə çatdırılmalıdır. Tədris prosesində ədəbiyyatın multikultural dəyər olması bir daha aydınlaşır. İstər milli ədəbiyyatımızın, istərsə də dünya xalqlarının, o cümlədən Türk və Şərq xalqları ədəbiyyatının dünyəviliyini anlatmaq xüsusilə əhəmiyyətlidir.

Mədəni müxtəliflik şəraitində yaşayan bir xalqın övladları kimi tələbələrimizə dünya ədəbiyyatını milli kontekstdə, xalq ədəbiyyatımızı ümumbəşəri aspektdə tədris etməklə mədəniyyətlərarası inteqrasiyaya, qaynayıb-qarışmaya yol açmış olarıq.

Dövlət başçımız İlham Əliyev bu məqamı xüsusi qeyd etmişdir: "Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Qeyd etməliyəm ki, artıq tarixi keçmişimiz də bunu diqtə edir. Eyni zamanda multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir" [1].

Şübhəsiz ki, təhsil prosesində multikultural dəyərlər aşılanarkən ümumazərbaycan mədəni konteksti, azərbaycançılıq məfkurəsi mənəvi təməl kimi qəbul edilməlidir. Əlbəttə ki, dini və milli tolerantlıq həm də insan hüquq və azadlıqlarının, demokratiyanın təməl prinsiplərindəndir. Çünki mədəniyyətlərin dialoqu hər bir mədəniyyətin, hər bir cəmiyyətin özünəməxsusluğunu anlamaqdan və qoruyub saxlamaqdan keçir. Yaxşı haldır ki, artıq universitetlərimizdə "Azərbaycan multikulturalizminə giriş" fənni tədris proqramında öz yerini tutmaqdadır. Multikultural ənənələrin möhkəmlənməsində milli mədəniyyətimizin, başlıca olaraq dövlətçilik rəmzlərimizin təbliğ olunması da əhəmiyyətli rol oynayır. Milli müstəqilliyimizin simvolu olan Müasirləşmək – Avropalaşmaq ideyasının təsdiqi artıq ideoloji prosesə çevrilmişdir.

Müxtəlif etnos və etnik qruplardan ibarət olan respublkamızın əhalisi qalibiyyətlə başa vurduğumuz 44 günlük müharibədə də öz birliyini qoruyub saxlaya bilmişdir. Məhz bu birlik

ölkəmizin zəngin mənəvi sərvəti və toxunulmaz xəzinəsidir. Dünyada müsəlman dövləti kimi tanınan Azərbaycanda müsəlmanlarla yanaşı, xristianlıq, iudaizm və b. qeyri-ənənəvi dinlərə mənsub xeyli insan yaşayır. Hər hansı başqa dinə və millətə mənsub olduğuna görə Azərbaycan ərazisində bu insanlara heç vaxt radikal münasibət göstərilməyib. Bunun başlıca səbəbi ölkənin əsas əhalisi olan Azərbaycan türklərinin milli mentalitetindəki tolerantlıqdır.

İctimai, siyasi, iqtisadi, hərbi və digər sahələrdə qazanılan uğurlu nailiyyətlərlə yanaşı, nümayiş etdirdiyi tolerantlıq nümunəsi respublikamızı beynəlxalq müstəvidə daha yaxşı təqdim etməyimizə, dünyanın diqqətini bir daha Azərbaycana yönəltməyə imkan verir.

Dünyada müxtəlif dillərdə danışan insanlara məxsus milli-mənəvi dəyərlərin qorunması, xüsusən də azsaylı xalqların mədəniyyətinə hörmət insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və həmrəyliyə geniş zəmin yaradır.

Qətiyyətlə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin fəaliyyəti dövründə azərbaycançılıq məfkurəsi, milli və dini tolerantlıq modeli və xalqımızın multikultural təcrübəsi Azərbaycanın tarixən formalaşmış qeyri-maddi sərvəti olaraq daha da zənginləşdirilmişdir. Belə ki, xalqımızın bir model olaraq dünyaya nümayiş etdirdiyi multikultural ənənələr ata-babalarımızdan bizə miras olan dəyərlərdir.

İstifadə edilmiş ədəbiyyat

1. Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi. 525-ci qəzet, 14 dekabr 2016.
2. Kamal A. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. Bakı, 2016.2015
3. "Multikulturalizm" jurnalı, 2016, № 1
4. Azərbaycan multikulturalizmi fənni dünya universitetlərində uğurla tədris olunur. 525-ci qəzet, 20 iyun 2015

İDARƏ SİSTEMLƏRİNDƏ STABİLİTRONLARIN XÜSUSİYYƏTLƏRİ

Gülşən Sənan qızı Kərimzadə
texnika elmləri namizədi, dosent
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
gulschen98@mail.ru

Təqdim edilən məqalədə idarə sistemlərində geniş tətbiqini tapmış stabilitronların bəzi xarakteristikalarına baxılmışdır. Müasir elektron aparatura qida mənbəyin sabit gərginliyinin stabilliyinə tələblər irəli sürür ki, bu da az stabillik, qida mənbəyin çıxış gərginliyinin dəyişməsi (2-5 % təşkil edir), orta stabillik (0.5-2 %), yüksək və çox yüksək – 0.1 % dən az göstəricilərlə izah olunur. Belə yüksək stabillik göstəricilərini xüsusi qurğusuz – qida mənbəyinin çıxışına qoşulmuş sabit gərginlik stabilizatorsuz, almaq mümkün deyil. Verilən həddlərdə şəbəkə gərginliyi və yük müqavimətinin dəyişmələrində yükdəki gərginliyin tələb olunan dəqiqliyini təmin edən qurğu – gərginlik stabilizatorudur ki, onun da əsasını stabilitron təşkil edir. Gərginlik düşgüsünün axan cərəyandan olan asılılığı stabilitronda onun əsas xüsusiyyətidir, bu da öz növbəsində stabilitron və ona qoşulmuş yükdə gərginliyin praktiki olaraq, sabit saxlanılmasını təmin edir. Stabilitron xüsusi dioddur ki, qırılma rejimində işləyir. Qırılma cərəyanı dəyişdikdə stabilləşdirmə gərginliyinin stabilliyinin dərəcəsini xarakterizə edir. Stabilitronların əsas parametrlərinə şamil etmək olar:

1. Stabilizasiya gərginliyi (3-200) V.
2. Minimal stabilizasiya cərəyanı $I_{st.min.}$(~3 mA).
3. Maksimal stabilizasiya cərəyanı $I_{st.max.}$ (~20 mA - 1 A).
4. Maksimal səpələnmə gücü p-n keçidində ən böyük güc:

$$P_{sep} = U_{st} \cdot I_{st}$$

5. Diferensial müqavimət :

$$r_{st} = \frac{\Delta U_{st}}{I_{st}}.$$

6. Stabilizasiya gərginliyinin temperatur əmsalı (UTƏ); UTƏ=0.1....0.01 % / ^{0}C :

$$\alpha_{st.} = \frac{\Delta U_{st.}}{U_{st.} \cdot \Delta T} 100\%.$$

Əsas parametrlərdən başqa digər parametrlər də mövcuddur ki, onlar müxtəlif faktorlar təsiri altında real cihazın stabilləşdirmə gərginliyinin dəyişməsini təhlil edirlər (stabilləşdirmə gərginliyi, differensial müqavimət, stabilləşdirmə gərginliyinin temperatur əmsalı, stabilləşdirmə gərginliyinin səs və dreyfi). Bu parametrlər dəqiqlik tələblərilə sxemlərin qurulmasında nəzərə alınırlar. Bir sıra hallarda qəfil cərəyan dəyişmələrində cihazın prinsip xüsusiyyətləri nəzərə alınmalıdır, yəni stabilitronun dinamiki parametrləri [1-7]. Stabilləşdirmə rejimi cərəyan və gərginliklərin geniş diapazonunda mövcud olduğundan ($I_{st.min.}$,$I_{st.max.}$,$U_{st.min.}$,$U_{st.max.}$), diapazonların daxilində isə nominal qiymətlərdir ($I_{st.}$, $U_{st.}$). Adətən, minimal stabilləşdirmə cərəyanı əks volt-amper xarakteristikasının qırılma sahəsində çıxışdakı cərəyana bərabərləşdirilir, nominal cərəyan maksimaldan 25-35 % səviyyədə müəyyənləşdirilir.

Şək. 1-də stabilitronun diferensial müqavimətinin stabilləşdirmə cərəyan və gərginliyindən olan asılılığı təqdim edilmişdir. Stabilitronun dinamiki və ya diferensial müqaviməti stabilləşdirmə gərginlik artımının verilən stabilləşdirmə cərəyan nöqtəsində (adətən, nominal) stabilləşdirmə cərəyan artımına olan nisbətidir. Diferensial müqavimət cihazın qida gərginliyinə görə (girişdə) və yük cərəyanına görə (çıxışda) qeyri-stabilliyini təyin edir.



Şək. 1. Stabilitronların differensial müqavimətinin stabilləşdirmə gərginliyi və cərəyanından asılılığı

Gərginliyin temperatur əmsalı stabilləşdirmə gərginliyinin nisbi dəyişməsinin verilən sabit stabilləşdirmə cərəyanında ətraf mühit temperaturunun tam dəyişməsinə olan nisbətidir (şək. 2). Stabilitronun qızmasında (+25 ^{0}C-dən +125 ^{0}C-dək) stabilləşdirmə gərginliyinin dəyişməsi ilkin qiymətin 5-10 %-ni təşkil edir. Kiçik və orta cərəyanlar sahəsində 4.5.....6.5 V gərginlikli stabilitronların volt-amper xarakteristikalarında bir nöqtə təyin etmək olur ki (cərəyan $I_{TƏ0}$ və gərginlik $U_{TƏ0}$ qiymətləri), həmin nöqtədə temperatur əmsalı sıfıra yaxındır. Belə stabilitronun cərəyanını əgər xarici mənbə ilə stabilləşdirilsə ($I_{TƏ0}$), onda stabilitronda gərginlik ($U_{TƏ0}$) temperaturdan asılı deyil. Bu yanaşmanı dayaq gərginlik inteqral stabilitron mənbələrində tətbiq edirlər. 4.5 V-dan az gərginliyi olan stabilitronlar da sıfır GTƏ-nöqtəsinə malikdir, lakin o

təhlükəsiz iş sahəsinin hədlərindən kənar yerləşir. 6.5 V-dan çox gərginliyi olan stabilitronlar bütün cərəyanlar diapazonunda müsbət GTƏ-na malikdirlər.



Şək. 2. Stabilitronda müsbət GTƏ ilə sıfır GTƏ-ın nöqtəsi ($I_{TƏ0} < I_{st.nom.}$)

Presizion stabilitronlar üçün zəruri göstəricilər kimi dayaq gərginlik mənbələrinin səs və dreyf göstəricilərini qeyd etmək olar. Adi stabilitronların yüksək səs səviyyəsi kənar qatqıların yüksək konsentrasiyası ilə və p-n keçid sahəsində kristal hüceyrənin qüsurları ilə izah edilir. Səsin azalmasının radikal üsulu – kristalın dərinliyinə qatqıları deyil, p-n keçidin özünün itələndirilməsi-qapalı strukturu olan azsəsli stabilitronlarda istifadə olunur. Belə cihazların nümunələri kiçik tezlikli səslərdə (0.1 – 10 Hs.) 6mkV.dan az uzunmüddətli dreyfdə 6 mkV-dan az ilk 1000 saat istismarında olan göstəricilərə malikdirlər. Stabilitronların ən yüksək səs səviyyəsi volt-amper xarakteristikasının qırılma sahəsində müşahidə olunur. Volt-amper xarakteristikanın qırılma sahəsindən stabilləşdirmə cərəyanlar sahəsinə keçdikdə səslərin səviyyəsi qəfil azalır [8-11].



Şək. 3. Stabilitronların təhlükəsiz işləmə sahəsinin məhdudiyyətləri

Ümumi təyinatlı stabilitronun çevrilmə tezliyi 100kHs.-dən çox olmur, işləmə müddəti isə üstün mexanizmin parçalanması və stabilitronun konstruksiyasından asılıdır. Belə proses müddəti

ərzində stabilitronda gərginlik stabilləşdirmənin nominal qiymətindən çox ola bilər, çevirgəc sxemlərin tezlik diapazonunu stabilitronla ardıcıl olaraq cəld impuls diodunu qoşaraq, genişləndirmək olar. Stabilitron-diod dövrəsində gərginliyi azaldıqda, ilk olaraq diod bağlanır, və bununla stabilitronun tutumunun boşalmasına mane olur. Bu tutumda yüklənmə kifayət qədər stabilitronda stabilləşdirmə gərginliyini saxlayır. Stabilitronun təhlükəsiz iş sahəsi bir sıra parametrlərlə məhdudlaşır, onlardan zərurisi – sabit cərəyanın, impuls cərəyanın, p-n keçidin temperaturunun və səpələnmə gücünün maksimal qiymətləridir. Bu məhdudiyyətlər eyni zamanda icra olunmalıdırlar, və onların hər hansı birinin nəzərə alınmaması stabilitronun dağılmasına gətirir [1-10]. Temperatura görə buraxılabilən gücün qiymətləndirilməsi tələb olunur və bu anda p-n keçidinin hesablama temperaturu maksimal buraxıla bilən qiymətdən çox olmamalıdır. Texniki sənədlərdə belə qiymətləndirmə buraxılabilən gücün ətraf mühit temperaturundan T olan asılılıq qrafiki formasında təqdim edilir (şək.3).

Baxılan ədəbiyyatlara istinad olaraq, elmi-texniki baza əsasında qeyd etmək olar ki, stabilitron – kremniy diodudur və cərəyan dəyişmələrində daxili müqaviməti az dəyişir.

İstifadə edilmiş ədəbiyyat

1. Kərimzadə G.S., İsmayılova Ə.A. İdarə sistemlərində stabilitronların xarakteristikaları // AATMXəbərləri. Bakı, 2024. Cild 36 (05). Buraxılış 02.2024. DOI: 10.36962/PAHTEİ DOI:10.36962/PAHTEİ 36012024 12024-42.

2. Kerimzade G.S. Indicators of parametrs when designing electrical apparatus with levitation elements // News of Azerbaijan High Technical Edicational Institutions. Volume 24. ISSUE 1 (135).2022. ISSN: 1609-1620. s.39 – 43.

3. Kerimzade G.S. "Analytical Connections of the Parameters and sizes of the Precision Stabilizer of Alternating Current Using the Effect of Inductive Levitation", International Journal on Technical and Physical Problems of Engineering (IJTPE), Issue 52, Vol. 14, No. 3, pp. 175-184, September 2022.

4. Kerimzade G.S. "Analysis of the Methodology for Calculation Current Stabilizer with Induction levitation", International Journal on Technical and Physical Problems of Engineering (IJTPE), Issue 53, Vol.14, No. 4, pp. 170-174, December 2022.

5. Kerimzade G.S. "Analytical Expressions of the Relationship to the Calculation of the AC Stabilizer with induction levitation", International Journal on technical and Physical Problems of Engineering (IJTPE), Issue 54, Vol. 15, No. 1, pp. 135-139, March 2023.

6. Kerimzade G.S. "Controlled AC Stabilizers on the Principle of Induction Levitation", International Journal Universum, No. 2, Issue 107, Vol. 5, pp. 31-35, Moscow, Russai, 2023.

7. Kerimzade G.S. "High Precision Current Stabilizers with Induction Levitation", Journal of Renewable Energy, Electrical, and Computer Engineering, e-ISSN: 2776-0049, Vol. 3, No. 1, pp. 26-31, Indonesia, March 2023.

8. Kerimzade G.S. "Choice of Expressions of the Method of Calculation of the Current Stabilizer on the Principle of Induction Levitation", News of Azerbaijan High Technical Educational Institutions. 2023. Volume. 4, pp. 71-76.

9. Kerimzade G.S."Optimization of parameters of AC stabilizer on the principle of induction levitation", The 19th International Conference on "TPE". ICTPE-2023. Number 06. Code 01PES06. 31 October 2023, pp.32- 36.

10. Kerimzade G.S." Structure of the monitoring and tracking electromechanical control system", PRZEGLAD Elektrotechniczny. Publishing house of magazines and technical literature SIGMA-NOT.ISSN 0033-2097, R.99 NR 2024. Warszawa.

"AZƏRBAYCAN DİLİNİN FRAZEOLOGİYA LÜĞƏTİ" – LEKSİKOQRAFİYADA YENİLİK

Rəna Əlyar qızı Məmmədova
filologiya elmləri namizədi, dosent
Bakı Slavyan Universiteti
rena.alyarqizi@gmail.com

"Mükəmməl lüğəti ancaq Allah-taala tərtib edə bilər."

(Pyer Büast)

Dövlətimiz milli müstəqilliyini yenidən bərpa etdikdən sonra millətimiz, xalqımız adına bir çox müstəqil qərarlara imza atdı. Dövlət kimi var olmağımızı, milliliyimizi, milli varlığımızı, bir daha sübut etdi.

Avqust ayının biri Azərbaycan əlifbası və Azəbaycan dili günü kimi qeyd olunur. Bu əlamətdar gün Ümummilli lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli fərmanına əsasən təsis edilib. Ulu Öndər həmin fərmanı latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütöblükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətinin tarixində mühüm hadisə olaraq imzalayıb. Bu əlifbaya keçidin məqsədi Azərbaycan dilinin daha fəal işlədilməsinin, habelə, başqa funksiyalarının genişləndirilməsinin təmin edilməsidir.

Hər bir xalqın milli mədəniyyətinin tərkib hissələrindən birini həmin xalqın əlifbası, yazı sistemi təşkil edir. Əlifba xalqın mədəniyyət silahı, milli mənəvi sərvətidir. Ana dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tədbirlərində ali kürsülərdən eşidilməsi qürurvericidir. Çünki dil təkcə ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi, ədəbiyyatı, mədəniyyətidir. Bu baxımdan, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı öz ana dilini, dinini, milli adət və ənənələrini unutmamalı, onları təbliğ etməlidir. Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır. Bunlarsız isə vətənpərvərlik formulu yoxdur və ola da bilməz.

Bildiyimiz kimi, Azərbaycan dili çox zəngin və qüdrətli bir dildir. Dilimizin, xalqın milli mədəniyyətinin güc və qüdrətini müəyyən edən amillərdən biri də onun paremiya-frazeologiya fondu və bu fonda daxil olan ifadələrdir. Bu fondun əsasını təşkil edən rəngarəng, əksərən, misilsiz məna dərinliklərinə malik olan söz incilərinin kifayət qədər irihəcmli izahlı lüğətlərinin olmaması düşünülərək maraqlı, eyni zamanda böyük həcmdə toplanmış material bizi belə bir lüğət "Azərbaycan dilinin frazeologiya lüğəti"ni tərtib etməyə sövq etdi. Bu baxımdan frazeoloji ifadələrin istər məzmun, istərsə də forma etibarı ilə zənginliyi, onların dildə geniş şəkildə işlədilməsi frazeologiya lüğətlərinin tərtibini zəruri edir. Lüğətin tərtibində əsas məqsəd dilimizin frazeologiya dünyasını mümkün çərçivədə qeydə almaq, zənginliyini bir daha göstərmək, dilin məna çalarlarını daha dərindən mənimsəmək, böyük auditoriyanın – ədəbiyyatçıların, dilçilərin, tərcüməçilərin, jurnalistlərin, bir sözlə, dilimizlə maraqlanan hər bir oxucunun, dildaşlarımızın və dildaşıyıcısının sözlüyə olan ehtiyacını təmin etməkdir.

Frazeologiya – bir elm kimi geniş mənada, dilin ən parlaq ifadə üsullarından biridir. Frazeologiya leksikoqrafiyanın müstəqil şöbəsi kimi qeyd edilmişdir. Və bununla frazeologiyanın bir elm kimi meydana gəlməsində mühüm addım atılmışdır. Frazeologiya nitqin ifadəli vasitələrini bildirən elmdir. Frazeologiya fikri ifadə edən hazır üsul olan elmdir. Frazeologiya bir elm kimi ilk frazeoloji ifadələri nominatib ifadə (söz birləşməsi) kimi qəbul edən elmdir. Frazeologiya həm də sabit söz birləşmələrini öyrənən bir elmdir. Azərbaycan dilçiliyində – dilçi-alimlərin bu elmə müxtəlif səpgidə öz baxışları, konsepsiyaları olmuşdur. Yaranan müxtəlif konsepsiyalar müxtəlif fikirlər arasında elə də mühüm fərqlilik olmamışdır. Dilin "Frazeologiya" bəhsinin obyekti, predmeti və həcmi barədə dilçilik nəzəriyyəsində hələ də fikir müxtəlifliyi vardır. Belə bir hal mövcud leksikoqrafik mənbələrdə də öz təbii əksini tapmışdır. Bu günə qədər atalar sözləri və farazeoloji ifadələr sonu olmayan mübahisələrə səbəb olub. Bəzi tədqiqatçılar onları frazeo-

logiyanın tərkibinə daxil edir, bəziləri isə əksinə, heç bir arqument, əsas olmadan atalar sözlərini farazeoloji ifadələrdən ayırır. Belələliklə, hazırkı dövrə qədər frazeologiya – frazeoloji ifadələr birmənalı nəticə almayıb. Qeyd etmək lazımdır ki, frazeoloji ifadələr əşyanın, əlamətin, hərəkətin adını bildirmək üçün deyil, onların obrazlı, emisional xüsusiyyətlərini bildirmək üçün dildə doğulurlar.

Atalar sözləri, zərbi ifadələr kommunikativ münasibətdə bitmiş cümlə kimi görünürlər və sözlə bağlılıqları yoxdur. Eyni zamanda zərbi məsəllər, aforizmlər və ya qanadlı sözlər leksik mənası olan sözdən düzəlir. Frazeoloji ifadə komponentlərinin heç birinə məntiqi vurğu düşmür. Frazeoloji ifadə komponentləri aktual üzvləşmədən də məhrumdur. Çox az sayda bəzi atalar sözlərinin yalnız məcazi mənası olur və onlar da semantik və sintaktik cəhətdən cümlə üzvlərinə bölünmür. Məs.: *Ağlını itirmək, Allah bilir, Allahdan olan kimi, Başını piyləmək, Dünya başına dar olmaq, Gözu (gözləri) qaralmaq, Süst düşmək, Yorğan-döşəyə düşmək və s.* [4 və 8]

Beləliklə, frazeoloqizmlər iyerarxiya əlamətindən məhrumdurlar, onların sintaqmatiq əlaqələri həddindən artıq məhduddur. Bu da frazeoloqizmlərin statusu haqqında inkar cavab verməsinə əsas verir. Frazeoloqizmlər iki səviyyədə – leksiko-semantik və sintaktik – formal və məzmunlu (dolğun) əlamətlərə malikdirlər. Frazeoloqizmlər funksional və semantik cəhətdən sözə yaxınlaşan dilin hibrid vahididir. Cümlə quruluşlu modelində yaranan frazeoloqizmlər cümlənin prinsipləri köməyi ilə təyin olunur, ancaq söz birləşməsi quruluşunda yaranan frazeoloqizmlər isə söz birləşməsinin köməyi ilə izah olunur. Frazeologiyada frazeoloji ifadələrin forma əlamətlərində daxili və xarici əlamətləri daha çox qabardılmışdır. Xarici əlamət (görünüş) olaraq komponentlərin ayrı-ayrı yazılmasının, komponentlərdəki sözlərin yerlərinin dəyişməz olmasının və onların başqa sözlə əvəz oluna bilinməsinin mümkün olmadığı önə çəkilmişdir. Frazeoloji ifadələr əksər hallarda qarşılığı bir sözlə, söz birləşməsi, cümlə ilə ifadə olunur və həmişə bir cümlə üzvü vəzifəsində çıxış edir. Frazeoloji ifadələri digər dillərə sözbəsöz tərcümə etmək də mümkün deyil.

Bəzi alimlər frazeologiya bölməsinə daxil olan, frazeologiyanın öyrəndiyi obyejkt kimi "frazeoloji ifadələr"i müxtəlif səpgidə də izah etmişlər. Dilimizin xəzinəsi olan frazeoloji ifadələr arasında müxtəlif adlarla adlandırdığımız – atalar sözləri, zərbi məsəllər, unudulmuş sitatlar, şablon ifadələr, dəyərli sözlər, dilsiz kəlamlar (kəlmələr), dilsiz ifadələr, səssiz kəlamlar, gözəl və əxlaqi kəlamlar, gözəl kəlamlar, hikmətli sözlər, hikmətli sətirlər, hikmət dolu misralar, hikmət xəzinəsi, qızıl kəlamlar (sözlər), qızıldan qiymətli (dəyərli) sözlər, sahibsiz sətirlər, ibratəmiz sözlər (ifadələr), qanadlı sözlər, zərif sözlər, aforizmlər, atmacalar, yazıçıların ən uğurlu sitatları, bir çimdik söz, fikrin tərcümanı ifadələr, metaforik sabit birləşmələr, həyatın hər anında insanlara yol göstərən ifadələr, həyatın mənasını anladan ifadələr, böyük sözlər, şablon ifadələr, şablon sözlər, çeynənmiş sözlər və bəzən də tarixi sitatlar və ya sərt sözlər, dəliqanlı sözlər və, ən nəhayət, ölməz sözlər kimi qəbul edilən, məişət adlarını bildirən tərkibli sözləri, fikri, görüşü dəyişdirən, başqa cür dərk etməyə, yenidən mənalandırmağa kömək edən terminləri, sitatlardan qopan parçaları, ədəb, nəzakət formulu olan ifadələri özündə birləşdirir. Frazeologiyanın obyekti kimi dildə möhkəmlənmiş, öz yerini tutmiş ən məhsuldar material olaraq frazeologiyanın diqqət mərkəzində sintaktik və stilistik şəraitdə sözün olduğunu vurğulayan və "frazeoloji ifadələr" adını alan və kiçik obrazlı dil vahidləri, kiçik bir mətn olaraq həmin dil vahidləri **"miniatür bədii əsərlər"** kimi xarakterizə edilir.

İlk dəfə frazeoloji ifadələr söz birləşməsi kimi qəbul edilib. Frazeoloıi ifadələr yüksək yaradıcı bədii təfəkkürün məhsulu olaraq atalar sözləri ilə zərb məsəllər arasındakı münasibət bütövün hissəyə olan nisbəti kimidir, yəni zərb məsəllər atalar sözünün birinci hissəsidir. Atalar sözləri məcazi mənada işlənən kəlamlar, zərb məsəllər isə kəlamsız fikrin ifadə vasitəsidir. Müxtəlif aspektlərdə öyrənilən frazeologiya bölməsinə daxil olan frazeoloji ifadələrin öyrənilməsində əsas **dörd amili** nəzərə alınmışdır. Frazeoloji ifadələri bildirən ən vacib xüsusiyyətlər bunlardır: Frazeoloji ifadələrdə ilk öncə **məcazilik, estetiklik, emosionallıq və obrazlılıq** olmalıdır. Frazeoloji ifadələrin bütün kateqorial əlamətləri atalar sözləri və zərb məsəllərdə özünü büruzə verir. Bunlar: leksik frazeoloji ifadələr, morfoloji frazeoloji ifadələr və sintaktik frazeoloji ifadələrdir.

Azərbaycan-rus dilçiliyində professor M.T.Tağıyev sabit söz birləşmələrini Məs: *əl qaldırmaq, səsini qaldırmaq, yara almaq, dərd çəkmək, başını bağlamaq* əsl (həqiqi) frazeoloqizmlərə aid edir [6]. M.T.Tağıyevin tərtib etdiyi "Rusca-azərbaycanca frazeoloji lüğət" (1964) müəllifin

fikirlərinin təsdiqidir. Lüğətdə verilən eyni, ancaq mənalarına görə bir-birinə qarşı duran omonim birləşmələr vardır ki, bunlar həm frazeoloji vahid, həm də adi sintaktik birləşmələr kimi işlənir. Məhz bu səbəblərə görə sərbəst söz birləşmələrindən fərqli olaraq frazeoloji ifadələri dilçiliyin leksikologiya bölməsi öyrənir. Lüğətdə ancaq frazeoloji vahidlər verilir və bu lüğətə atalar sözləri, zərbi məsəllər, atmacalar daxil edilməmişdir.

Professor, dilçi-alim F.H.Hüseynov öz monoqrafiasında frazeoloqizmlərin sözlə xarici əlaqəsini hərtərəfli öyrənir. F.H.Hüseynov frazeoloqizmlərin sözlə struktur-qrammatik əlaqəsini öyrənərkən bir çox ümumi qanunauyğunluqlar aşkar edir [3].

Azərbaycan dilçiliyində Səlim Cəfərov, Zinət Əlizadə, Hüseyn Bayramov və başqaları frazeoloji ifadələri tədqiq etmiş və onların bir-birindən fərqliliyini göstərmişdilər. Onlar atalar sözü və zərb məsəllərinin fərqini belə izah edir: zərbi-məsəllər bəzən sadəcə məsəllər də adlanır. Bunlar məna və qrammatik quruluş etibarı ilə atalar sözlərinə çox yaxındır, hətta onları bir-birindən ayırmaq belə çətindir. Zərbi-məsəllərdə atalar sözlərindən fərqli olaraq, fikir nisbətən daha tam şəkildə ifadə olunur və nəticə çıxarılır. Zərbi-məsəllər müəyyən hədəfi güdür, bu və ya digər şəxsin xüsusiyyətini göstərmək üçün işlədilir.

Azərbaycan dilçiliyində hikmətli sözlər termini sözün əsl elmi mənasında ilk dəfə S.Cəfərov tərəfindən işlənmiş və onun səciyyəvi xüsusiyyətləri də şərh edilmişdir. Müəllifə görə bunlar əsasən, müsbət münasibətləri ifadə edir; yazılı ədəbiyyatda geniş yayılmışdır; kütləvi xarakterə malikdir; ifadə olunan məfhumlar daha çox ümumi xarakter daşıyır və təsirli olur; atalar sözlərinin daha mənalı, daha qüvvətli bir növü hesab oluna bilir; dəqiq məna ifadə etməsi xalq kütlələri arasında onların sürətlə yayılmasına imkan yaradır; bunlar ekpressiv-emosional xüsusiyyətə malikdir; fikrin məzmununu dolğunlaşdırır; müxtəlif struktura, fərdi quruluş cizgilərinə malik olur; tərkibində həmcins üzvlərə, ara sözlərə təsadüf edirlir; didaktik səciyyə güclüdür, mənası müstəqildir; nəsihət, məsləhət, yol göstərmə xüsusiyyətləri mövcuddur.

Digər alimlərdən fərqli olaraq, İ.İbrahimov atalar sözü və zərb məsəllərin oxşar və fərqli cəhətlərini şərh edərək atalar sözünün bir hökmü və ya fikri ümumiləşmiş halda, tam bitmiş şəkildə ifadə etməsində, onların məzmun genişliyində, hadisə və xarakterlərin tipikliyinin başlıca şərt olmasında və mürəkkəb halda olmasında görür. Müəllifə görə zərb məsəllərdə əsas xüsusiyyət konkret bir hadisəyə və ya şəxsə aid olmasındadır.

H.Bayramova görə atalar sözü, zərb məsələlər və hikmətli sözlər leksik tərkibinin sabitliyi, obrazlılığı, məcazi məna kəsb etmə xüsusiyyətinə malik olmasına baxmayaraq, şifahi xalq yaradıcılığının tərkib hissəsi olduğu üçün folklorşünaslığın tədqiqat obyekti sayılır. H.Bayramovun fikrinə görə, atalar sözü və zərb məsəllər frazeologiyanın sistemində xüsusi lay təşkil edib bitmiş fikri ifadə edən cümlə şəkilli ifadələrdir, onlar cümlənin üzvu hissəsi kimi cümləyə daxil ola bilmir; cümlə təbiətlidir, bu da onları frazeoloji vahidlərdən fərqləndirir.

2024-cü ilin "Heydər Əliyev ili" olduğunu nəzərə alaraq, müəlliflərin də Azərbaycan dilinin zənginləşməsini, təmizliyini və bu təmizliyin qorunmasını daim vurğulayan, dili zəngin olan, dilində müntəzəm olaraq frazeoloji ifadələr işlədən Hörmətli Heydər Əliyevin 100 illik yubileyinə gözəl hədiyyə və Azərbaycan leksikoqrafiyasına dəyərli bir töhvə "Azərbaycan dilinin frazeolgiya lüğəti" olduğunu düşünürük.

Bütün deyilən fikirlərin nəticəsi olaraq Professor İlyas Həmidovun rəhbərliyi ilə fərqli quruluşda və fərqli formada, həcminə və məzmununa görə analoqu olmayan "Azərbaycan dilinin frazeologiya lüğəti" tərtibinin əhəmiyyəti böyükdür. Lüğət Azərbaycan dilinin ümumi frazeologiya fondunu **transdil konsepsiyası** müstəvisində əhatə edir. [2] "Azərbaycan dilinin frazeologiya lüğəti" dilçiliyimizin leksikoqrafiya tarixində misli görünməmiş frazeologiya lüğətidir. Lüğətin orjinallığı təkcə onun həcmi ilə deyil, birinci növbədə lüğətin xüsusi elmi-nəzəri bazası ilə, lüğət məqalələrinin vahid struktur prinsiplərinə riayət etməklə tərtib olunması ilə ölçülür. Xüsusi elmi-nəzəri baza dedikdə biz frazeologiya nəzəriyyəsi məkanında irəli sürülmüş transdil ideyasını nəzərdə tuturuq, yəni dilin frazeologiya fondunun transdil mahiyyətli bir fenomen olması ideyasını qabardırıq.

Frazeologiyanın transdil konsepsiyası frazeologiyanın həcmini birmənalı təsbit edir və atalar sözləri kimi zərb məsəllərin, nominativ frazeoloji vahidlərin və sosial xarakterli qanadlı sözlərin

frazeoloji vahid kimi təqdim olunmasını arqumentləşdirir. Sözügedən Lüğətin lüğət məqalələrinin strukturunun məhz göstərilən quruluşda təqdim olunmasını təsdiq edir.

Lüğətdə yer alan lüğət məqalərinin aşağıdaki tələblərə cavab verməsinə riayət edilmişdir.

Lüğət məqaləsinin quruluşu birinci növbədə aşağıdakı tələb və prinsiplərlə şərtlənir:

1) vokabula – (lüğət məqalələrinin başlığı) ifadənin dominant formasıdır;

2) dominant vahidlərin leksik-qrammatik variantları təqdim olunur və bu dominant formanın leksik-qrammatik variantları semantik baxımdan dominantdan heç bir konnotasiya ilə fərqlənməməlidir;

3) dominant formanın (vokabulanın) məna izahı verilir; dominant formanın (vokabulanın) məna izahı və ya izahları variantların da adekvat məna izahı kimi çıxış edə bilir;

4) klassik ədəbiyyatımızda işlənmə nümunələri, publisistik və digər kütləvi informasiya məxəzlərindən seçilmiş sabit söz komplekslərinin izahı verilir, məna izahının hər iki pozisiya üçün adekvat olması klassik ədəbiyyatdan cəlb olunmuş illüstrativ materialın köməyi ilə işıqlandırılır;

5) vokabulanın məna mövqeyindən açıqlanmasına kömək edən və onunla sinonimik-kontekstual nisbətdə olan konstruksiyalar toplusu və eyni zamanda dilimizdə həmin ifadəyə uyğun və aid olan alqışlar, dualar və qarğışlar verilir; elə bu pozisiyada vokabula ilə bu və ya digər səpgidə semasioloji nisbətdə olan mənalarını – etimoloji baxımdan, sinonimiya-variativlik və ya "daxili forma" baxımından – açıqlayan dil vasitələrinin toplusu təqdim edilir ki, bu da dilimizin real, amma bəzən unudulmuş rəngarəng ifadələrini oxucu yaddaşında canlandırmaq, oyatmaq məqsədini güdür;

6) və ən nəhayət, böyük tərcüməçi auditoriyasının maraqlarını nəzərə alaraq lüğət məqaləsinin başlıqlarının (vokabulalarının) rus dilində tərcümə-ekvivalentləri də verilir.

O ki qaldı dominant ifadələrin rus dilinə tərcümə-ekvivalentlər blokunun lüğətdə yer tutmasına, demək lazımdır ki, tərcüməçilik praktikasında məhz frazeoloji vahidlərin tərcüməsi xüsusi çətinliklərlə qarşılaşır.

Beləliklə, Lüğətdə frazeoloji ifadələr ətrafında ensiklopedik blok yaradılmışdır. Əsas götürülən bu konsepsiya lüğətin nəzəri bazası olmaqla bərabər həm də lüğət məqalələrinin quruluşunun (strukturunun) sistemli şəkildə təqdim olunmasını təmin edir. Azərbaycan dilinin frazeoloji konstruksiyalar sisteminə nominativ (söz birləşmələri) və predikativ vahidlərin (cümlə quruluşlu sabit söz komplekslərinin) daxil edilməsi məhz frazeologiya fondunun transdil mahiyyəti ilə bağlıdır. Lüğət məqalələrinin strukturunda yer almış kvalifikasiya-şərh pozisiyalarının vaciblik dərəcəsi də göstərilən konseptual ideya ilə şərtlənir.

SÖZ İLƏ PLOV OLMAZ, YAĞ-DÜYÜ GƏRƏK

Sözlə (söz ilə) plov olmaz, yağla-düyü gərəkdir

Sözlə, danışmaqla heç nə əldə etmək olmaz, iş görmək, zəhmət çəkmək, maddi nemət qazanmaq lazımdır mənasında işlədilən ifadə.

Nökərlərin hərəsi bir fikir söyləyirdi, yol axtarırdı ki Rəşid bəy Səadət xanıma yetişə bilsin. Bu məqamda Rəşid bəy onlara fikirləri üçün təşəkkürünü bildirərək, əlavə etdi: ***söz ilə plov olmaz, yağ-düyü gərək****. (İ.B.Qutqaşınlı. Rəşid bəy və Səadət xanım)*

Müq. et: //Ağız ilə (ağıznan) plov bişməz (olmaz), yağ ilə düyü gərək

Ağızla plov bişməz, yağ ilə düyü gərəkdir;Aşı bişirən yağ olar (yağdır), gəlinin üzü ağ olar (ağdır); Aşınkı yağdır, gəlinin üzü ağdır

Pəh-pəh ilə plov bişməz, yağ ilə düyü gərək; Qaf-qaf ilə qovurma olmaz, ət ilə yağ gərək

Boş söz ilə buşel (ölçü qabı – çanaq, qazan) dolmaz

Nə yağ var, nə düyü, vay tava dərdi; Ay qonaq, olaydı yağ, bişirəydim qayğanaq, vay tava dərdi

Ay qonaq, olsaydı yağ, bişirərdim plov, yağımız da yox

Atam oğlu, ay qardaş, sən gəlmisən yer də yox, vay tava dərdi, yağ da yox

Evimizə gəldi qonaq, vay dədəm, vay, dədəm vay, olaydı yumurta, bişirəydim qayqanaq, vay tava dərdi, yağ da yoxdur!

Sözlə plov bişsə, dağ qədər yağı məndən; Gopla plov bişsə, dəniz qədər yağı məndən

Yalanla plov bişsə, dəniz qədər yağı məndən; Yalanla plov bişsə, bir pud yağı məndən

Sözlə (söz ilə) dövran dönmür (dönməz)

Lüğətdə təsvir və tərtib olunan lüğət məqalələri həcminə, məzmununa və rəngarəngliyinə görə də maraqlı olduğu qədər dilimizin duzunu, şərbətini, şirinliyini özündə əks etdirir. Geniş mənada frazeoloji vahidlərdən tərtib edilmiş lüğət məqalələri özlüyündə predikativ birləşmələrdir. Lüğətdə yer tutan frazeoloji vahidlər sözlə, söz birləşməsi ilə cümlə və mətnlə bərabər (eyni) hüquqludur. Onlar sözlə, söz birləşməsi, cümlə və mətnlə ifadə olunurlar.

Təqdim olunan Lüğət polifunksional (izahlı-tərcümə) xarakterli leksikoqrafik mənbə kimi çıxış edir. Polifunksional leksikoqrafik əsərlər leksikoqrafiya tarixində heç də istisna olmamışdır – rusistikada, qermanistikada bu qəbildən olan lüğətlər mövcuddur.

Lüğətdə bu çox da qısa olmayan dövr ərzində nəhəng söz sahiblərinin qələminin məhsulu olan yüzlərlə, minlərlə kitab səhifələrindən seçilən, qərinələrdən süzülüb gələn, müdriklərimizin ələyində ələnən, babalar yadigarı ifadələri həyatın özülünü və varlığını sübut edən canlı və cansızların ümumi məcmuəsi olan fonetik qanununa uyğun əlifba sırası ilə ardıcıl şəkildə ipə-sapa düzülmüşdür. Bədii əsərlərdən oxuduğumuz illərdir dildən-dilə, əsrdən-əsrə, nəsildən-nəslə keçən Azərbaycan folkloruna ölməzlik verən və əsil xəlqilik yaradan yüksək bəşəri hiss və fikirləri özündə cəmləyən həyat sevgisi, vətən sevgisi, insana, əməyə, gözəlliyə məhəbbət aşılayan, habelə haqq və ədalət, azadlıq və səadət uğrunda əsrlər boyu davam edən əzab və məşəqqəti özündə bu ifadələrlə göstərən, böyük sevgi və həvəslə dənə-dənə topladığımız bu cümlələrin arasında axtardığımız – ustadlarımızın qələmindən ağıllı ağıllara, isti ürəklərə və kövrək könüllərə yol açan incilər tapdıq. Öyrəndik ki, SÖZ güllə kimi dəyər, ilan kimi sancar və bıçaq kimi ürəyinizə və ya kürəyinizə saplanar. Bəzən deyə, göstərə bilmədiyimiz hissləri də sözlə ifadə edirik. Gözəllikləri də tərənnüm edən sözdür. İlahi alqışlarımızı da izhar edən sözdür. Ən çətin olan sözdür: sözü anlatmaq da çətindir, sözü anlamaq da çətindir.

Oxunan nəsr əsərlər, hekayələr aləmində və şeir qafiyələrində tapılan ifadələri – dilimizin qədimliyini, zənginliyini və zərifliyini özündə əks etdirən ifadələri, həmçinin, ağbirçəklərimizin dua dolu dilində olan alqışları (alxışları) və qarğışları frazeologiya aləmində elə də güclü olmayan müəllif fantaziyasının köməyi ilə, həm də uzaq keçmişimizi bu gün dilimizdə işlədərək gələcəyə daşımaq, gələcək nəsillərə ötürmək məqsədilə fərqli məzmun və strukturda sistemləşdirilərək "Lüğət" şəklində cəmlənmişdir. Biz ümumxalq mədəni-filoloji aləminə, Azərbaycan dilçilik və lüğətçilik dünyasına fərqli baxışımızla "Dilimiz – mənəviyyatımızdır" fikrini qəbul edərək, tərtib etdiyimiz "Azərbaycan dilinin frazeologiya lüğəti"ni lüğətçilik dünyasına – leksikoqrafiya şöbəsinə bir töhfə vermişik.

Nəzərinizə çatdırırıq ki, sözügedən lüğətdə ilk dəfə olaraq Azərbaycan dilinin frazeologiya fondu geniş müstəvidə öz əksini tapmış, 15000 ədəd vokabula, 16700 ədəd vokabulaya aid leksik-qrammatik variantlar və müqayisə üçün 23500 ədəd ifadə yer almışdır.

Bu da bizim Azərbaycan xalqına – oxuculara ən böyük və dəyərli hədiyyəmizdir!

İstifadə edilmiş ədəbiyyat

1. Abasquliyev T. İngiliscə atalar sözləri və onların azərbaycanca, rusca qarşılıqları. Bakı: Elm, 1981, 208 s.

2. Həmidov İ.H. Azərbaycanca-rusca atalar sözləri lüğəti. Bakı: "Oka-ofset", 2004, 560 s.

3. Hüseynzadə Ə.N. Atalar sözü və məsəllər (rusca-azərbaycanca qarşılıqlar) / Bakı, Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Mətbuat Komitəsi, 1971, 151 s.

4. Məhərrəmli Q., İsmayılov R. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı: Altun kitab, 2015

5. Məmmədzadə K. İngiliscə-azərbaycanca-rusca frazeoliji lüğət. Bakı: Qafqaz Universiteti nəşri, 2008, 323 s.

6. Orucov Ə.Ə. Azərbaycanca-rusca frazeoloji lüğət (5500 ifadə), Bakı: Elm, 1976, 247

7. Seyidəliyev N. F. Frazeologiya lüğəti. Bakı: Çıraq, 2004, 272 s.

8. Vəliyeva N. Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2010, II c-də, I c. 986 s., II c., 987 s.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

Şölə Əsəd qızı Yunusova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti
shola.yunusova@sdu.edu.az

Gənclik cəmiyyətin yeniliyi sevən, daim axtarışda olan aparıcı qüvvəsidir. Sağlam gənclik sağlam nəsil deməkdir. Sağlam düşüncəli yeni nəslin yetişdirilməsi, ictimai və sosial həyatın bütün sahələrində müasir, inkişaf etmiş, yüksək intellektli gənclərin elmi-fiziki güclərinə üstünlük verilməsi dövlətin mühüm vəzifəsi hesab edilir. Yeni nəslin inkişafında əsas amil gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakını təmin etməkdən ibarətdir. Bu səbəbdən də, sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik gənclərin yetişdirilməsi dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi, gələcəyi gənclərdir. İnkişafını düşünən hər bir cəmiyyət özünün xoşbəxt, firavan gələcəyinin təmin olunması istiqamətində mühüm addımlar atır və gənclərə qayğı göstərir. Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi, mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolu danılmazdır. Tariximizə nəzər salsaq, ölkəmizin inkişafının bütün mərhələlərndə Azərbaycan gənclərinin özünəməxsus rolunun şahidi olarıq. Bu vacib məsələnin həyata keçirilməsi, gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılması Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev rəhbərliyinin bütün dövrlərində sağlam düşüncəli yeni nəslin yetişdirilməsində əldə olunan nailiyyətləri dövlət quruculuğu prosesinin tərkib hissəsi hesab etmişdir: "Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir." [5].

Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi ilk günlərdən həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparmış, bu proseslərdə cəmiyyətin aparıcı qüvvəsi olan gənclərin roluna xüsusi diqqət yetirmiş, sağlam düşüncəli yeni nəslin yetişdirilməsinə böyük qayğı göstərmiş, onların potensialından maksimum dərəcədə istifadə etməyi tövsiyə etmişdir.

Heydər Əliyev gələcək nəslin yetişməsində elmin, təhsilin inkişafına yüksək qiymət vermis və gənclərin təhsilinə xüsusi şərait yaratmışdır: "Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir." [6].

H. Əliyevin fikrincə, hər bir Azərbaycan gənci öhdəsinə düşən borcu dərk etməli, yüksək biliyə nail olmalı, gənclərimizin ümumi inkişafı üçün elmi, milli, mənəvi dəyərləri mənimsəməli, öz həyat yolunu müstəqil Azərbaycanimizin əbədi olmasına həsr etməlidir. Bu səbəbdən də, Ulu Öndər dəfələrlə gənc nəslə gənclik dövründən səmərəli istifadə etməyi, yaxşı təhsil almağı və özlərini həyata hazırlamağı tövsiyə etmişdir.

Azərbaycan elminin inkişafı, ziyalıların elmi-tədqiqat işlərinə cəlb olunması, gənclərin mükəmməl ali təhsil almaq üçün nüfuzlu ali məktəblərə göndərilməsi Azərbaycan xalqının uğurlu gələcəyinə zəmin yaratdı: "Azərbaycan xalqı yüksək elmə, biliyə savada malik olan xalqdır. Bunlar hamısı uzun illər-keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticəsidir." [2, s.24].

1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü sayəsində yüzlərlə yeni tədris ocaqları açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində müasir ixtisaslara yiyələnmək üçün təhsil almağa göndərilmişdir. "Təhsil millətin gələcəyi, milli dövlətin təməlidir" - deyən Heydər Əliyev savadlı, istedadlı gənclərə qayğı və diqqət göstərir, çox zaman gəncləri özü seçir, onların qabiliyyətini və biliyini yoxlayırdı. Sovetlər İttifaqının nüfuzlu ali məktəblərində müxtəlif ixtisaslar üzrə 15 mindən çox azərbaycanlı gəncin ixtisaslı kadrlar kimi yetişib vətənə qayıtması o dövrdə bir inqilab idi və Ümummilli Liderin Azərbaycan gənclərinin gələcəyi ilə bağlı planlarından xəbər verirdi. Ali təhsillərini başa vurduqdan sonra vətənə qayıdan bu gənclər savadlı

kadr kimi müstəqil Azərbaycan dövlətinin quruculuğunda yaxından iştirak edir, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafında əvəzsiz xidmət göstərirdilər.

Təhsil aldıqları müddətdə bu gənclər maddi və mənəvi cəhətdən təmin edilir, mükəmml təhsil almalarına hər cür şərait yaradılırdı. Azərbaycan gənclərinin I forumunda çıxışında bu barədə danışan ölkə rəhbəri demişdir: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm." [7]

Ulu Öndərin bu istiqamətdə apardığı siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və elmi potensialının inkişaf etdirilməsinə xidmət edirdi. Bu baxımdan, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı.

Heydər Əliyev 29 avqust 1997-ci ildə Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu ilə görüşdə Azərbaycan gənclərinin bilikli, savadlı, olmaları ilə yanaşı, xalqımızın milli xüsusiyyətlərini, milli ənənələrini, unutmamağı, onları hər yerdə təbliğ etməyi tövsiyə etmiş və demişdir: "Siz Azərbaycanın səlahiyyətli nümayəndələrisiniz, hər yerdə respublikamız haqqında həqiqətləri çatdırmalısınız, təbliğ etməlisiniz. Bunların hamısı siz təhsil alarkən, oxuyarkən ölkənizə, xalqınıza, millətinizə göstərdiyiniz xidmət olacaqdır."[8].

Bu səbəbdən də Heydər Əliyevin gənclər siyasətinin əsasını milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək, elmi, intellektual potensialının artırılması üçün islahatlar həyata keçitrtmək, gənc nəsli müstəqilliyi-mizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək, onlarda məsuliyyət hissini formalaşdırmaq, Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan maksimum dərəcədə yararlanmaq təşkil edirdi. Azərbaycanda həyata keçirilən gənclər siyasəti gənc nəslin hərtərəfli mənəvi-əxlaqi tərbiyyəsini gücləndirmək, sosial rifahını yaxşılaşdırmaq və elmi potensialını inkişaf etdirməklə yanaşı, onların vətənpərvər ruhda formalaşmasına da kömək etdi.

Heydər Əliyevin təşəbbüsü ilə açılmış C.Naxçıvanski adına Hərbi Lisey, ixtisaslaşdırılmış hərbi ali təhsil müəssisələri milli peşəkar hərbçi zabitlərin hazırlanmasında əvəzedilməz rol oynadı. Məhz, həmin zabitlərin sayəsində müstəqil Azərbaycanın Silahlı Qüvvələri formalaşdı və möhkəmləndi. 30 ildən çox düşmən əsarətində qalan torpaqlarımızın azad edilməsi uğrunda gedən amansız döyüşlərdə əldə silah düşmənin üzərinə gedən peşəkar zabitlər, gənclər oldular. Odur ki, 44 günlük Vətən müharibəsinin bütün ağırlığı Azərbaycan gənclərinin üzərinə düşdü və onlar igidliyi, əzmi, şücaəti ilə zəfər dolu döyüş yolu keçərək vətənpərvərlik salnaməsi yazdılar və dillərdə dastan oldular, Azərbaycan gəncinin nəyə qadir olduğunu qəhrəmanlıqları ilə bütün dünyaya nümayiş etdirdilər. Gənclərimizin fəallığı sayəsində bütün sosial media platformalarında düşmənə adekvat cavablar verildi. Qürurla deyə bilərik ki, Vətən müharibəsində qazanılan bu zəfər, şübhəsiz ki, Ulu Öndərin arzularının, uzaqgörənliklə apardığı siyasətin nəticəsi idi.

Heydər Əliyev hər bir işdə gənclərə arxalanıb onlara dəstək olduğuna görə, gənclər də onu lider, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər.

Azərbaycan gənclərinin cəmiyyətin, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini təmin etmək məqsədi ilə 1994-cü il 26 iyunda Gənclər, İdman və Turizm Nazirliyi (indiki Gənclər və İdman Nazirliyi) yaradıldı və 1997-ci ildə "2 fevral – Azərbaycan gəncləri gününün elan edilməsi haqqında" sərəncam imzalandı.

Bütün çıxışlarında gəncliyin qarşısında duran məsuliyyətlərdən danışan Heydər Əliyev Azərbaycan gəncliyinin uğurlu sabahına əmin olduğunu qeyd edir, dövlət quruculuğuna cəlb olunmasına şərait yaradırdı. Ümummilli lider 2 fevral 1996-ci ildə gənclərin I Forumunda çıxışında demişdir: "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır [1].

Heydər Əliyev bütün çıxışlarında hər bir gənci müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməyə çağırır, onların qarşısında böyük vəzifələr qoyur və bu etimadı doğrultmaları üçün onlara şərait yaradırdı.

2002-ci ildə Heydər Əliyev tərəfindən qəbul olunmuş "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etdi və gənc nəslin hərtərəfli inkişafı üçün bu sahədə müxtəlif dövlət strukturlarının səlahiyyətlərini müəyyən edən əsas normativ-hüquqi sənəd oldu. Bu qanunun qəbulundan sonra gənclərin hərtərəfli inkişafı üçün hər cür şəraitin yaradılmasına üstünlük verildi [3, s. 160].

Bütün sahələrdə savadlı, ziyalı intellektual gənclərin yetişdirilməsi Ulu Öndərin müasir prinsiplərə əsaslanan ideoloji kursunun nəticəsi idi. Bu da gənclərin bilik və bacarıqlarının üzə çıxarılması üçün əsaslı təməl yaratdı. H.Əliyev ölkəyə rəhbərliyinin bütün dövrlərində dərin elmi prinsiplərə əsaslanaraq intellektual bazanın dövlət müstəqilliyinin əsasını təşkil edən mühüm amil olduğunu qeyd edirdi.

Azərbaycanın gələcəyinin gənclərin əlində olduğunu bildirən Ulu Öndərin gənclər siyasəti bu gün Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm." [4, s.3].

İlham Əliyevin Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirməsi uzaqgörənliklə deyilmiş müdrik fikirlərin reallaşdığını sübuta yetirdi və bu gün bu tarixi hadisələrin şahidi olduğumuz üçün qürur duyuruq. İlham Əliyevin müvafiq sərəncamları ilə 2005-ci ildə "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nın imzalanması, 2011-ci il dekabrın 19-da "Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu" nun yaradılması, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyası"nın təsdiq edilməsi gənclərin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələrin həyata keçirilməsinə, bilik və bacarıqlarının üzə çıxaılmasına səbəb oldu. Bu isə, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının həyata keçirilməsində gənclərə göstərilən dövlət qayğısının daha da artırılmasına kömək etdi.

Gənclərə münasibət dövlətin gələcəyinə münasibətidir. Gənclər siyasəti ilə bağlı görülən işlər bir daha sübut edir ki, artıq Ulu Öndərin ideyalarına sadiq gənclik formalaşmışdır. Üzərlərinə düşən məsuliyyəti daim hiss edən gənclər Vətəni sevir, Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına sədaqətlilik göstərərək onun ətrafında sıx birləşirlər.

Hazırda gənclər təşkilatları 35-dən artıq beynəlxalq platformada Azərbaycanı təmsil edir və Azərbaycan gənclərinin qələbə sorağı dünyanın hər yerində eşidilir. Bu dövlətimizin dünya birliyinə inteqrasiyasının məntiqi nəticəsidir və Ulu Öndərin arzuladığı intellektual Azərbaycan gəncliyinin formalaşmasını sübut edir. Odur ki, əminliklə deyə bilərik ki, gənclər Heydər Əliyevin zəngin irsindən faydalanaraq onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışır, intellektual səviyyələri, mənəvi-ideoloji yetkinlikləri ilə dünya gəncləri arasında nüfuz qazanır, Azərbaycanın parlaq gələcəyinin təminatçısı kimi bütün güclərini səfərbər edərək xalqına, dövlətinə xidmət edirlər.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H. (1996). Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Azərbaycan Respublikası gənclərinin I forumunda nitq. 02 fevral, 1996-cı il.
2. Heydər Əliyev və Azərbaycan elmi. Biblioqrafik göstərici. Bakı: Şərq-Qərb, 2010, 424 s.
3. Hacıyev R. B. Azərbaycan gəncliyinin himayədarı: Heydər Əliyevin gənclər siyasəti (1993 –2003-cü illər). Bakı: Aspoliqraf, 2016, 192 s.
4. Pənahov I. Əbədiləşən şəxsiyyət. Bakı: Qismət, 2013, 240 s.
5. https://lib.aliyevheritage.org/az/5592041.html
6. http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm
7. https://files.preslib.az/projects/heydaraliyev/articles/he1026.pdf
8. https://lib.aliyevheritage.org/az/37526646.html

ИННОВАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ОБУЧЕНИИ МАТЕМАТИКИ

Лейла Казым кызы Гасанова
кандидат физико-математических наук, доцент
Бакинский государственный университет
leyla.hasanmath@gmail.com

Развитие информационно-коммуникационных технологий (ИКТ) является важным показателем интеллектуального и научного потенциала любой страны. Применение и интеграция ИКТ в образовании – задача высокой значимости, оказывающая непосредственное влияние на формирование нового поколения, обладающего современными знаниями и навыками. В последние годы развитие в системе образования инфраструктуры ИКТ и доведение процесса применения ИКТ в системе образования до уровня мировых стандартов стали одним из приоритетных направлений страны. В этот период подготовлены и осуществлены различные мероприятия и проекты по применению ИКТ во всех уровнях системы образования Азербайджанской Республики.

Одной из приоритетных задач "Государственной Стратегии по развитию образования в Азербайджанской Республике" [1] является ускоренное применение, с использованием международного опыта, современных информационных технологий в учебном процессе. Кризис, обусловленный COVID-19, также послужил стимулом для инноваций в сфере образования. Благодаря оперативным мерам реагирования, принятым для организации бесперебойного учебного процесса правительством и руководителями учебных заведений, учащиеся были переведены на электронное обучение с применением дистанционных технологий.

Процесс информатизации системы образования предъявляет определенные требования к педагогам школ. Они должны обладать высоким уровнем информационной компетенции и информационной культуры. Особенно это касается учителей математики. Математика в курсе средней и высшей школы является довольно сложным предметом. Поэтому для обеспечения максимальной эффективности обучения учителю необходимо найти наилучшее сочетание средств, методов обучения и технологий. Информационные технологии на уроках математики привлекательны тем, что направлены на развитие коммуникативных способностей студентов, делая при этом работу учителя более продуктивной. Так, компьютерные технологии на уроке математики: экономят время, повышают мотивацию, позволяют провести многостороннюю и комплексную проверку знаний, умений, усиливают интерес к уроку, к предмету, наглядно и красочно представляют материал.

Широкий спектр наглядных мультимедийных объектов особо интересен на уроках геометрии и стереометрии. Изображения даже простейших геометрических фигур, выполненные в тетрадях или на доске, как правило, содержат погрешности. Современные компьютерные средства позволяют решить эту проблему. Так, при изучении курса Геометрия-2 мультимедийные средства позволяют представить поверхности вращения в трехмерном измерении, рассмотреть их сечения. Незаменимы они и при изучении проективной геометрии. Данные уроки эффективны не только своей эстетической привлекательностью, но и способствуют активизации разных каналов восприятия студентов, реализуя тем самым принципы доступности и наглядности.

В современных научно-методических работах в области применения ИКТ в математическом образовании выделяются следующие виды программного обеспечения [3]:

- система компьютерной математики;
- системы динамической геометрии;
- специализированные системы (при поддержки отдельных разделов математики).

Применение таких систем позволяет активизировать познавательную деятельность, развивать исследовательские навыки студентов.

Использованная литература

1. Государственная стратегия по развитию образования в Азербайджанской Республике. Утверждена Распоряжением президента Азербайджанской Республики от 24 октября 2013 года.
2. Уленгова Т.Г., Ряйсянен Т.Н. использование новых информационных технологий в преподавании математики в высшей школе. Современные тенденции развития науки и технологий. N 9, 2016, стр.105.
3. Зиатдинов Р.А., Ракута В.М. Системы динамической геометрии как средство компьютерного моделирования в системе современного математического образования. European Journal of contemporary education – Vol. (1), 2012, 93-100

VƏTƏN MÜHARİBƏSİ VƏ ONUN CƏNUBİ QAFQAZDA YARATDIĞI YENİ REALLIQLAR

Şahin Xanoğlan oğlu Bağırov
siyasi elmlər üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
shahin_bagirov17@mail.ru

Keçmiş SSRİ-nin süqutu ərəfəsində Dağlıq Qarabağ münaqişəsi Ermənistanın Azərbaycana hərbi təcavüzü və ərazi iddiası əsasında yarandı. Ermənistan beynəlxalq hüquqa zidd, qeyri-qanuni olaraq işğal etdiyi əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağda və ətraf rayonlarda xarici ölkələrdən gətirdiyi erməni terrorçu ailələrini məskunlaşdırmışdı. Onlar beynəlxalq danışıqlarda "erməni xalqının öz müqəddəratını təyinetmə hüququndan istifadə etməsini" danışıqların predmetinə çevirməyə cəhd edirdilər. İ

şğalçı Ermənistan rəhbərləri, Qarabağ klanının nümayəndə-ləri, əlləri dinc azərbaycanlıların qanına batmış, Xocalı cəlladları, cinayətkar R.Köçəryan, S.Sarkisyan tərəfindən dünya erməni terror təşkilatlarının dəstəyi ilə Livan, İraq və Suriyadan Qarabağa gətirilən erməni "könüllülərdən" ibarət batalyonlar, Ermənistan SSR-dən gəlmiş silahlı quldur dəstələri, sonralar isə Ermənistan silahlı qüvvələri, Artsax ordusu, Rusiya könüllüləri və Rusiyanın 366-cı alayın hərbi döyüşçüləri və texnikası, eləcə də trans-milli erməni terror təşkilatları torpaqlarımızın işğal olunmasında yaxından iştirak etmişlər.

Beləliklə, Dağlıq Qarabağ və ətraf rayonların işğalında minlərlə xüsusi döyüş hazırlığına malik terrorçular, quldur dəstələri və erməni hərbiçiləri fəal iştirak etmişlər.

Azərbaycan tərəfi müxtəlif dövlətlərlə, beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli görüşlər keçirərək münaqişəni beynəlxalq hüquq normaları əsasında həll etməyə cəhd etdi.

"Avropa Şurası, Avropa Birliyi, ATƏT, İKT kimi nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnamə qəbul etmiş BMT (822, 853, 874, 884) problemin həllində ərazi toxunulmazlığı prinsipini önə çəkmişdir. Son illər (44 günlük Vətən müharibəsinə qədər) danışıqlar prosesi yenilənmiş Madrid prinsipləri əsasında aparılırdı. Lakin hər dəfə Ermənistan rəhbərliyinin qeyri-konstruktiv mövqe nümayiş etdirməsi münaqişənin sülh yolu ilə həllinə ciddi maneə törədirdi.

Ermənistanın Dağlıq Qarabağ və ətraf rayonları işğal etdiyi ilk vaxtlardan etibarən beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə (BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrində) dəfələrlə erməni qoşunlarının işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması tələb olunduğu halda həmsədr ölkələrdən heç biri bunu Ermənistandan tələb etmədi. "Bu reallıqdır, unudulmaz faktdır! Və belə həqiqətlərin fonunda atəşkəsdən ağızdolusu danışmaq baş aldatmaqdır, Ermənistanı qorumaqdan başqa bir şey deyildir". Göründüyü kimi, Minsk qrupunun həmsədrləri

təcavüzə məruz qalan Azərbaycanı hərbi yoldan çəkindirməklə işğalçı Ermənistanı müdafiə etmişlər.

2016-cı ilin aprel ayında tarixə dörd günlük müharibə kimi düşən aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizin bir hissəsini və bəzi strateji yüksəklikləri düşmən qüvvələrindən təmizlədi. Bu hadisə Silahlı Qüvvələrimizin döyüş əzminin yüksəlməsində və Azərbaycan diplomatiyasının uğurlarının artmasında mühüm rol oynadı. Aprel döyüşlərindən sonra münaqişənin həll olunması ilə bağlı 16 may 2016- cı ildə Avstriyanın paytaxtı Vyanada ABŞ, Fransa və Rusiyanın təşkilatçılığı ilə keçirilən Ermənistan-Azərbaycan danışıqlarında əlverişli siyasi-hüquqi şərait yaransa da təəssüflər olsun ki, öz müsbət bəhrəsini verməmişdi. Cinayətkar, əli qanlı "Qarabağ klanı", R.Köçəryan və S.Sarkisyan münaqişənin həllini qəsdən uzatdılar. Baş nazir N.Paşinyanın "Qarabağ Ermənistandır" şüarı ilə və "Madrid prinsipləri"ndən imtina etməklə danışıqlara son qoyuldu. Ermənistanın təxribatlarına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi və öz ərazi bütövlüyünü 44 gün ərzində bərpa etməsi Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdı:

- Azərbaycan münaqişənin həllinə dair bütün qərarları və qətnamələri özü həll etdi. Münaqişənin həllindən çox uzadılmasında, dondurulmasında maraqlı olan bütün regional və beynəlxalq qurumlara zərbə vuruldu. Ermənilərin yüz illərlə öz xəstə şüurlarında yaratdıqları ərazi iddiası konsepsiyası, "Böyük Ermənistan" xülyası darmadağın oldu;
- Erməni lobbisinin təsiri altında olan bəzi qüvvələr Azərbaycana qarşı böhtan kampaniyalarına başladı. Bəzi Avropa ölkələrin- Fransa, Niderland, Lüksenburq və s."demokratik" dövlətlərin parlamentləri mövcud olmayan "DQR"ın müstəqilliyini tanıdıqlarını bəyan etdilər;
- Minsk qrupunun həmsədrliyi təsisatı (o cümlədən, ABŞ və Fransa) nizamlama prosesində "oyundan kənar vəziyyətə" düşdü;
- Fransa prezidenti E.Makron özündən əvvəlki liderlərin - J.J.Şirak və N.Sarkozinin ermənipərəst mövqeyini daha güclü şəkildə davam etdirdi. Azərbaycan prezidenti cənab İ.Əliyev ona öz sərt reaksiyasını bildirdi. Fransanın xarici işlər nazirliyi Fransa senatının qərarı ilə razılaşmadığını, qərarın dövlət siyasəti ilə eynilik təşkil etmədiyini rəsmən bəyan etdi və Fransanın Azərbaycanla normal münasibətləri inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi;
- Türkiyə-Azərbaycan əməkdaşlığı, dostluğu və qardaşlığı özünün ən yüksək həddinə çatdı. Türkiyə Cənubi Qafqazda aparıcı mövqeyini sabitləşdirici amil olduğunu sübut etdi. 10 noyabr bəyanatına görə Türkiyə-Rusiya birgə monitorinqinin yaradılması və fəaliyyəti Rusiyanın sülhməramlılıq institutunun ənənəvi streotiplərini (Dnestryanı, Abxaziya, Sxinvali bölgələrindəki "funksiyalarını") alt-üst etdi;
- Ermənistan məğlub tərəf olduğunu etiraf etdi. Qalib Azərbaycan tərəfi Rusiyanı Cənubi Qafqazdakı siyasətini "korektə etməyə" məcbur etdi;
- Qonşu dövlətlərin siyasi-iqtisadi inkişafı üçün yeni reallıqlar yaradıldı. Türkiyənin türk dünyası ilə əlaqələri, Azərbaycanla dəmiryolu, şose yolu bağlılığı üçün əlverişli şərait yarandı. Cənubi Qafqazda və bütün regionda təhlükəsizlik təmin edildi. Sosial, iqtisadi, etnomədəni inkişaf üçün şərait yarandı. Azərbaycan hərbi-siyasi, diplomatik yolla Cənubi Qafqazda öz gücünü reallaşdırdı. Azərbaycan, Türkiyə, Rusiya, İran, Gürcüstan, istəsə Ermənistan arasında iqtisadi əlaqələr üçün münbit zəmin formalaşdı.

2021-ci il iyun ayının 15-də Şuşa şəhərində Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında tarixi bir sənəd - Şuşa Bəyannaməsi imzalandı. Qardaş ölkələrin həyatının bütün sahələrini əhatə edən bu sənədin hər iki dövlətin bu günü və gələcəyi üçün son dərəcə böyük əhəmiyyət daşıması, onların və ən azı regiondakı müttəfiqlərinin qarşısında geniş perspektivlər açması barədə qısa müddət ərzində çox yazılıb, az qala bütün məqamlar təhlil olunub. Çünki bu Bəyannamə iki qardaş xalqın yenilməz iradəsinin ifadəsi, dostları sevindirən, düşmənləri ciddi narahat edən qətiyyətinin təntənəsidir.

Məlum olduğu kimi, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-da Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının Baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin arasında bütün hərbi əməliyyatların tam dayandırılması haqqında üçtərəfli bəyanat imzalandı.

10 noyabr 202-ci il tarixli Bəyanatın imzalanması Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Bəyanat uzun illər davam edən işğala son qoydu.

Bəyanatın imzalanması ilə münaqişənin hərbi mərhələsi başa çatdı. Ağdam, Laçın, Kəlbəcər rayonları qan tökülmədən qaytarıldı. 44 günlük müharibə Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Ermənistan ordusu darmadağın edildi.

Rəsmi Bakını narahat edən məsələlərdən biri 10 noyabr razılaşmasının 4-cü bəndində nəzərdə tutulan erməni silahlı qüvvələrinin hələ də bölgədən çıxarılmamasıdır. Razılaşmaya görə, Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilməli idi. Bir müddət əvvəl Azərbaycan Müdafiə Nazirliyi bu maddənin yerinə yetirilməsi üçün Rusiyaya müraciət etmişdi.

Qeyd edək ki, Qarabağdakı tanınmayan seperatçı hakimiyyət və onun dırnaqarası liderləri silahı yerə qoyaraq təslim olmaq əvəzinə yenə də xam xəyallara düşdülər. Üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək, ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərin həyata keçirilməsini zəruri etdi.

Bundan əlavə, 2023-cü ilin sentyabr ayının 19-u günün birinci yarısında Qarabağ iqtisadi regionunda dördü polis əməkdaşı, ikisi mülki şəxs olmaqla altı nəfər Xocavənddə eyni istiqamətdə mina partlaması nəticəsində həlak olduqdan sonra Azərbaycan dövləti bunu "terror aktı" adlandıraraq elə həmin gün hərbi əməliyyatlara başladı. Sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatında Azərbaycanın 192 hərbçisi həlak oldu və 500-dən çoxu isə yaralandı. 24 saat (23 saat 43 dəqiqə) çəkən antiterror əməliyyatları Qarabağdakı separatçı hakimiyyətin təslim olmasından sonra dayandırıldı. Qarabağdakı tanınmayan hakimiyyət silahı yerə qoyaraq təslim olmağa və Azərbaycanın şərtləri altında Yevlax şəhərində görüşməyə hazır olduğunu bildirdi.

Bundan sonra Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələri, qeyri-qanuni erməni seperatçı silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunaraq ərazimizi tərk edirlər. Eyni zamanda rəsmi Bakı ilə Qarabağ ermənilərinin təmsilçiləri arasında təmaslar qurulmuş, tərəflər iki dəfə - Yevlax və Xocalıda görüşərək erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə bağlı planları müzakirə ediblər.

Beləliklə, postsovet məkanda "dondurulmuş" münaqişələr arasında yalnız "Dağlıq Qarabağ münaqişəsi" Azərbaycanda iqtidar-xalq-ordu birliyi sayəsində, hərbi-siyasi, diplomatik yolla öz uğurlu həllini tapdı. Bu isə Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıq yaratdı. Antiterror əməliyyatı nəticəsində konstitusiyamızda göstərildiyi kimi Azərbaycan dövləti öz ərazi bütövlüyünə nail oldu. Bununla da "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir" prinsipi həyata keçirildi. Qarabağ münaqişəsi tarixə qovuşdu.

Bu gün şanlı Azərbaycan bayrağı işğaldan azad olunmuş bütün ərazilərimizdə dalğalanmaqdadır. Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. İşğaldan azad olunmuş ərazilərimizdə geniş miqyaslı tikinti abadlıq işləri aparılır, yeni-yeni yollar, kommunikasiya xətləri çəkilir. Qaçqın və məcburi köçkünlər 30 ildən sonra öz doğma el-obalarına qayıdırlar.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİNİN MÜASİR İNKİŞAF TENDENSİYALARI

[1,2]**Sevil Baba qızı Bağırova,** [1,3]**Ofeliya Allahverdi qızı Tağıyeva**
[1]Bakı Slavyan Universiteti
[2]pedaqogika üzrə fəlsəfə doktoru, dosent
sevil.bagirova60@mail.ru
[3]filologiya üzrə fəlsəfə doktoru, dosent
ofeliya.salimova@yandex.ru

"Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də, hər bir gənc gərək öz ana dilini, müasir Azərbaycan dilini, müasir dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik."

(Heydər Əliyev)

Hamımız Heydər Əliyevi Azərbaycan dövlətinin memarı və qurucusu, çox dərin mənəviyyata, yüksək insani keyfiyyətlərə, heç bir ölçüyə-meyyara sığmayan zəkaya, iradəyə, vətənpərvərliyə malik bir tarixi şəxsiyyət kimi tanımışıq və sevmişik.

Ümummilli lider Heydər Əliyev hər bir sözündə, cümləsində min bir hikmət ifadə olunan bu əvəzsiz insan, sözün əsl mənasında uca mənəvi-əxlaqi dəyərlərə sahib, milli mədəniyyətimizin, doğma dilimizin tərəqqisi, çiçəklənməsi naminə ardıcıl qətiyyət, fədakarlıq nümunəsi idi. Eyni zamanda, Ulu Öndər hər bir işdə çox tələbkar, nizam-intizamlı və millətinə sıx bağlı olan bir lider idi.

Dünya şöhrətli siyasətçi Heydər Əliyev Odlar diyarının milli tarixi və milli diplomatiyası naminə bənzərsiz ömür yaşamış Heydər Əliyev Azərbaycanı özünəməxsus, yalnız dahilərə xas olan bir ləyaqətlə təmsil etmişdir. Fenomenal yaddaşa, yüksək intellektə, zəngin dünya görünüşünə, aydın təfəkkürə, dəqiq məntiqə, fenomenal yaddaşa malik böyük şəxsiyyət Heydər Əliyevin ölkəmizdə demək olar ki, bütün sahələrin, o cümlədən Azərbaycan dilinin dünəni, bu günü, gələcəyi ilə bağlı düşüncə və ideyaları yetərincə müasir, son dərəcə önəmlidir.

Azərbaycan dili milli sərvətimizdir, xalqın varlığının təsdiqidir. Bizim danışdığımız və daim öyrəndiyimiz, bəhrələndiyimiz misilsiz bir xəzinədir. O, özünəməxsus bir şəkildə xalqın tarixini, mənəvi zənginliyini, dövlətçilik yolunu, coğrafi mənzərəsini hifz edib saxlayır.

Hər bir dili yaşadan və inkişaf etdirən onun mənsub olduğu xalqdır. Dilin hərtərəfli inkişafı, uca zirvələrə yüksələrək beynəlxalq nüfuz qazanması xalqın böyük, əbədiyaşar övladları ilə bağlıdır.

Qərinələrin, əsrlərin təcrübəsi göstərir ki, dilin inkişafında, xalqının tarixində, yaddaşında, hünərli, şərəfli yer tutan siyasi xadimlərin müstəsna rolu olur. Belə qüdrətli dövlət başçısı və siyasi xadimlər cərgəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adı da öz yüksək və layiqli yerini tutur.

Ümummilli liderimiz Heydər Əliyev hələ Sovet dövründə quruluşun bir çox təzyiqlərinə, məcburi diktələrinə baxmayaraq, Azərbaycan dilinin respublikada dövlət dilinə çevrilməsində istisna xidmətlər göstərmişdir. Dilimizin inkişafına müntəzəm diqqəti, qayğısı sayəsində, bu istiqamətdə verdiyi fərman və sərəncamlarda, eləcə də tövsiyələrində, çıxış və məruzələrində ana dili ilə əlaqədar problemləri ön sıraya çəkir, onların hərtərəfli həllini vacib sayırdı.

Hər bir milli dəyər, xüsusilə də ana dili xalqın keçmişini, qədimliyini, koloritini nə qədər özündə əks etdirsə də, dövlətin, ölkə rəhbərinin ardıcıl qayğısı olmasa, ana dilinin inkişafında lazımi səmərədən danışmaq mümkün deyil. Bu mənada öz həyatı, fəaliyyəti boyu bütün milli dəyərlərimizə himayədarlıq edən Ulu Öndərimiz ana dilimizə layiq olduğu statusu verdi. Qarşısına qoyduğu bu ciddi vəzifəni, yüksək məramı ömrü boyu inamla, təmkinlə, məhəbbətlə davam etdirdi.

Heydər Əliyev və Azərbaycan dilinin müasir inkişaf tendensiyaları haqqında danışmaq maraqlı bir mövzudur. Heydər Əliyev Azərbaycanın müstəqillik dövründə əsaslı dillər siyasəti irəli

sürən və dilin inkişafında böyük rol oynayan bir lider idi. Onun dövründə Azərbaycan dilinin standartlaşması və mədəniyyətinin inkişafı üçün əhəmiyyətli addımlar atılmışdır.

Ölkəmizdə ana dilinin inkişafı, onun beynəlxalq münasibətlər sisteminə yol tapması, dünya miqyasında tanınması, sevilməsi məhz ana dilimizin gözəl bilicisi, mahir natiq, Ümummilli lider Heydər Əliyevin dilin qorunmasına yönəldilən düşünülmüş siyasətinin nəticəsi, bəhrəsidir.

Bu siyasətin əsası 1970-ci ildə qoyulub. Ulu Öndərimiz Heydər Əliyev həmin il Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) 50 illik yubileyində Azərbaycan dilində çıxış edir.

Həmin dövrün mətbuatı bu barədə az qala sensasiya xarakterli yazılar verir, əhali də öz arasında fərəh hissi ilə köklənmiş müzakirələr aparır. Çox keçmir ki, bu dil dövlət əhəmiyyətli tədbirlərə yol açır və ali tribunalar səviyyəsinə yüksəlir.

Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi o vaxtlar üçün çox ciddi əhəmiyət kəsb edirdi. Zamanına görə, sərt Sovet ideologiyası şəraitində bu mühüm məsələnin elə təşəbbüscüsü də, aparıcısı da, əsas zəhmətə qatlaşanı da milli məsələlər ilə bağlı Heydər Əliyevin bu xeyirxah əməyi bütün xalqımız tərəfindən əsl uzaqgörənlik, qəhrəmanlıq nümunəsi kimi qiymətləndirilirdi. Həmin çağlarda Azərbaycanda ana dili, dövlət dili uğrunda mübarizə milli istiqlal uğrunda mübarizənin ana xəttini təşkil edirdi.

Dövlət dilinin Azərbaycan dili olması haqqında Konstitusiya müddəasının müəllifi məhz Heydər Əliyev olmuşdur. Bu tarixi şəxsiyyət siyasi taleyini riskə qoyaraq Azərbaycan dilinin dövlət dili olması barədə müddəanın varlığını təmin etmək üçün geniş təşkilati işlər aparmış, elm adamlarını və ziyalı qruplarını da bu məsələyə cəlb etmişdir. Sovet imperiyası şəraitində belə bir əməl, davranış əsl cəsarət, vətənpərvərlik, vətəndaşlıq rəmzi idi. Xalıqının, vətəninin xoş gələcəyinə, nikbin sabahına böyük ümidlərlə baxan ulu rəhbərin sarsılmaz qətiyyəti və iradəsi səviyyəsində Azərbaycan dilinin dövlət dili olması haqqında müddəa Konstitusiyanın 73-cü maddəsində öz təsdiqini tapmışdır.

Bundan sonra, dövlət səviyyəsində ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. Ana Yasamızın müvafiq maddəsi ilə hər kəsin ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ təsbit olundu.

2001-ci il iyunun 18-də Ümummilli liderimiz Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkminlləşdirilməsi haqqında" fərman imzaladı. Bu sənəd ana dilimizin inkişafı üçün daha geniş üfüqlər açdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dil məsələsində müxtəlif ziddiyətlər, fikir ayrılıqları meydana çıxmağa başladı. Bu xüsusi ilə, AXC-Müsavat cütlüyü hakimiyyəti dövründə özünü daha qabarıq şəkildə biruzə verirdi. Bəzi qüvvələr heç bir məntiqi əsasa söykənmədən dövlət dilinin dəyişdirilməsini və onun "Türk dili" adlandırılmasını təklif edirdilər.

1992-ci ilin dekabr ayında Mili Məclisdə Dövlət dili haqqında qanun müzakirə olunmuş, Azərbaycanda dövlət dilinin "Türk dili" adlandırılması ilə bağlı qanun qəbul edilmişdi. Əslində bu qanunun heç bir hüquqi əsası yox idi. İlk növbədə ona görə ki, qərarın qəbulu zamanı Milli Məclisin həmin iclasında səsvermə qaydaları kobud şəkildə pozulmuşdur.

Ümummilli Liderimiz sonralar bu məsələyə toxunaraq demişdi: "Bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan qəbul olunmuşdur". Ulu Öndərin bu mövzuda heç zaman dəyərini itirməyəcək fikirlərindən, kəlamlarından birini də xatırlamaq faydalı olar: "Millətin milliliyini saxlayan onun dilidir...Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar, musiqi də olmaz. Bunların hamısı bir-biri ilə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmləndirilməsi, inkişaf etməsi bizim ən böyük nəaliyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" [7].

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən də, dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülürdü. Onların böyük əksəriyyətində isə ana dilimizin Azərbaycan dili adlandırılması ideyası dəstəklənirdi.

Müzakirələrin sonu olaraq, 1995-ci ildə Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasında dövlət dilinin olması Azərbaycan dilinin olması müddəası öz əksini tapdı [4].

Beləliklə, Azərbaycan Konstitusiyası ilə Azərbaycan dilinin adı bərpa edildi.

Azərbaycan dilinin tarixində, azərbaycan xalqının yaddaşında əbədi məskan salmış Heydər Əliyev dünyaya göz açdığı torpağı, mənsub olduğu milləti xoşbəxt, firəvan görmək üçün bütün həyatını, əməli fəaliyyətini bu yüksək amala həsr etmişdir. Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilini əhəmiyyətini yüksək qiymətləndirmişdir: "Hər bir xalq öz diliylə yaranıb. Ancaq, bu dili yaşatmaq, inkişaf etdirmək və dünya səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti, vətən sevgisi səviyyəsinə qaldırmaq, xalqın qabaqcıl adamlarının, elm bilik xadimlərinin fəaliyyətinin nəticəsində mümkün olur" [7]. Ulu Öndər gənclərimizə məhz ana dilimizdə dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri öyrənməklə yanaşı, ilk növbədə ana dilini daha mükəmməl bilməyi tövsiyyə edirdi.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev də atasının yadigar qoyduğu bu dəyərlərə yüksək şəkildə sahib çıxdı, onun açdığı bu cığırla əmin addımlarla addımladı. Azərbaycan dilinin müasir inkişafı, Heydər Əliyevin prezidentliyi dövründə daha da sürətlənmişdir. Dilin standartlaşması, dilin qrammatikası və lüğəti üzərində işlər aparılıb. Dövlət tərəfindən dilin inkişafı üçün müəyyən olunmuş proqramlar və layihələr həyata keçirilmişdir. Bu, əsasən, milli mədəni dəyərləri təbliğ etmək, dilin qrammatikası və lüğəti ilə bağlı qaydaları dəyişdirmək və dilin təbii inkişafını dəstəkləmək məqsədi ilə idi.

Heydər Əliyev dövründə Azərbaycan dilinin inkişafında iki əsas məqsəd və tendensiya diqqət çəkir:

Standartlaşma və normalizasiya: Azərbaycan dilinin standartlaşması və normalizasiyası prosesi həyata keçirilmişdir. Bu, əsasən dilin rəsmi səviyyədə daha bərabər və dəqiq istifadə edilməsini təmin etmək məqsədi ilə idi.

Dilin modernləşdirilməsi: Dilin müasir tələblərə cavab verməsi üçün qrammatika və lüğət yenilənməsi prosesi həyata keçirilmişdir. Bu, əsasən yeni texnologiyaların və sosial dəyişikliklərin dəyərləndirilməsi ilə əlaqəlidir.

Əsasən, Heydər Əliyev dövründə Azərbaycan dilinin müasir inkişafı, milli mədəniyyətin, ictimai birliyin və dövlətin birləşdirici gücünün bir simvolu kimi işlənmişdir. Bu, dilin müasir tələblərə cavab verən, dinamik və bərabər bir kommunikasiya vasitəsi kimi inkişaf etməsini təmin etmək üçün sürətlənmişdir.

2001-ci ilin iyun ayının 18-də Ümummilli Liderimiz "Dövlət dilinin tədbiqinin təkminləşdirilməsi" haqqında fərman imzalamışdır. Bu tarixi sənəd ana dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. Həmin fərmanda Azərbaycan Prezidenti Yanında Dövlət Dil Komissiyasının yaradılması da nəzərdə tutulurdu. Qeyd edək ki, dünyanın heç bir dövlətində analoqu olmayan belə bir qurumun yaradılması ana dilinin tətbiqi işinin getdikcə mükəmməlləşdirilməsinə daha səmərəli surətdə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı.

Prezident Heydər Əliyevin 2001-ci il avqust ayının 9-da imzaladığı növbəti Fərman "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" idi. İmzalanan ali dövlət sənədinə görə Azərbaycan Respublikasının ərazisində "Hər il avqust ayının 1-i gününün Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü olaraq qeyd ediləcəyi" bildirilirdi [8].

Azərbaycanın müstəqilliyinin, Respublikada demokratiya prinsiplərinin daha oturaqlı şəkildə bərqərar olması, dilimizin həqiqi mənada dövlət dili funksiyası daşıması, milli özünüdərk ardıcıllığının güclənməsi və inkişaf etməsi ədəbi dilimizi xəlqi prinsiplərlə yeni normallaşdırma prosesinə daxil edirdi. Bütün bunlar isə dilimizin tətbiqinə daha diqqətlə yanaşmaq tələbini qarşıya qoyurdu. Azərbaycan dilinə dövlət səviyyəsində himayə göstərilməsi dilçiləri daha mühüm, təxirəsalınmaz işlərə səfərbər edirdi.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dilinə bu cür qlobal qayğı ilə yanaşması, minillik tarixi olan dilimizin bugünki inkişaf səviyyəsinə təkan verib, onun aktual problemlərinin həllinə yol açıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci ilin 29 sentyabr tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin Heydər Əliyev ili elan edilməsi haqqında" Sərəncam imzaladı [8]. Bu sərəncama əsasən ötən müddət ərzində Heydər Əliyevin zəngin həyat yolu, ecazkar

qüdrətə malik fəaliyyətinin bütün mərhələləri, bir daha geniş şəkildə tədqiq olunmuş, milli inkişaf strateqiyasında hər zaman öncül yer tutan Azərbaycan dili ilə də əlaqədar məsələlərə diqqət yetirilmiş, geniş araşdırılmalar aparılmış, bu sahədə respublikamızda və onun sərhədlərindən uzaqlarda da bir çox elmi, mədəni-kütləvi tədbirlər keçirilmiş, məqalələr dərc olunmuş, kitablar çap edilmişdir. "Dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi, az qala, adi hala çevrilmişdir. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir"[3].

Bu sənədlə bağlı gələcəkdə də çox uzun illər, neçə-neçə nəsillər boyu görüləcək işlər yəqin ki, vətənimizə, xalqımıza öz misilsiz tövhələrini verəcəkdir.

Heydər Əliyevin Azərbaycan dilinə sonsuz qayğısı və onun müasir inkişafı naminə ardıcıl fəaliyyəti bu dahi şəxsiyyətin təbii ki, ilk növbədə doğma, müqəddəs ana dilimizə hüdudsuz, böyük, ülvi məhəbbətindən qaynaqlanır. Məhz bu baxımdan xalqımızın nəhəng oğlu Heydər Əliyevi düşünərkən rastlaşdığımız, dəfələrlə ekranlarda gördüyümüz bir mənzərə heç bir yurtdaşımızın, azərbaycanlının yaddaşından silinməyəcək, uzun illər nəsillərdən nəsillərə ötürüləcək: Heydər Əliyevin auditoriyanın, öz soydaşlarının qarşısındadır və Səməd Vurğunun "Azərbaycan" şeirindən bu bəndəni söyləməyə başlayır:

El bilirki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan?!

Şeiri deyir, çatır son misraya, son kəlmələrə. Vətənin adını dilinə gətirəndə anidən qəhərlənir. Qəlbində ömrü boyu gür şəlalə tək çağlayan Vətən eşqi, millət sevgisi, doğma dilimizin möcüzəsinə, ehtişamına bəslədiyi qədərsiz məhəbbət bu qətiyyətli mətin, ali duyğulu insanı kövrəldir, səsini titrədir...

Məqaləni Ulu Öndərimizin doğma ana dilimizə heyrət doğuracaq sevgisini əks etdirən bu həzin duyğulu, sıldırım qaya siqlətli bu sözləri, ifadəsi ilə bitirmək istərdik: "*Dilimiz çox zəngin və ahəngdar dildir, dərin köklərə malikdir, şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm"*

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan" qəzeti 2022-ci il sentyabr -2023-ci il sayları
2. Heydər Əliyev və Azərbaycan dili mövzusunda yazılmış məqalələr toplusu. Bakı, "Zərdabi-Nəşr" MMC, 2023. 664 s.
3. Hüseynova M. İlham Əliyev və dövlətin dil siyasəti https://www.muallim.edu.az/news.php?id=12278
4. https://president.az/az/pages/view/azerbaijan/constitution
5. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı "Təhsil", 1997. 288 s.
6. Ümummilli Lider və Azərbaycan dili: Bakı, "Mütərcim" Nəşriyyatı, 2011. 180 s.
7. "525-ci qəzet" 2022-ci il və 2024-cü il mart sayları.
8. https://president.az/az/articles/view/57413

Heydər ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU STRATEGİYASI

Firuzə Nuru qızı Əliyeva
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
firuza.eko@gmail.com

Heydər Əliyev respublikasını gerilikdən xilas etmək məqsədilə ilk növbədə, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində cəsarətli addımlar atmış oldu. Heydər Əliyev fəaliyyətinin ilkin dövründə vəzifəsindən sui-istifadə edənlərə, rüşvətxorlara, dövlətin əmlakını dağıdanlara, insanların hüquqlarını pozanlara, iqtisadiyyata zərər vuranlara və başqa neqativ hallara qarşı mübarizə onun həyat amalı olmuşdur. Onun vəzifəyə qoyduğu kadrlardan bir tələbi olmuşdur ki, xalqın qeydini qalmaq, vəzifə səlahiyyətlərini vicdanla yerinə yetirmək.

Bütün bu sahələrdə aparılan işlər onun ciddi nəzarəti ilə götürülürdü.

Həmin dövrlərdə xalq təsərrüfatının bütün sahələrində iqtisadi göstəricilər artmış, yeni infrakstrukturlar formalaşmağa başlamışdır. Belə ki, respublikamızda zavod, fabriklərin, yeni yaşayış binalarının, təhsil ocaqlarını, səhiyyə müəssisələrinin tikintisi artmışdır. Məsələn, Bakı şəhərində kondisioner zavodu, fabriklər, Sumqayıt şəhərində kompressor zavodu, toxuculuq və tikiş fabrikləri, süd məhsulları zavodu, qənnadı fabriki və s. tikintisinə başlanmışdır.

Sənayenin kompleks inkişafı bu illərdə, yəni 1969-cu illərdə keçmiş ittifaqın bütün respublikalarına nisbətən daha sürətli inkişaf edirdi. 1969-1982-ci illərdə respublikamızda sənayenin orta illik artımı 7,9 %-ə qədər yüksəlmişdi. Əgər 1969-cu ilə qədər Azərbaycanda fəaliyyət göstərən sənaye obyektlərinin sayı 735 idisə, 1982-ci ildə bu göstərici artıq 1048-ə çatmış, milli gəlirlərin ümumi həcmi 2,5 dəfə artmışdı.

Bu dövrdə Azərbaycan ittifaq büdcəsindən ən çox maliyyə vəsaiti ayrılan respublika statusu qazanmışdı. İri sənaye potensialına malik olan Azərbaycanda 250-dən çox sənaye müəssisəsi tikilərək istifadəyə verilmiş, ittifaq miqyasında strateji əhəmiyyətə malik müəssisələrdən birinə çevrilmişdi.

Artıq həmin illərdə Azərbaycan nəhəng tikinti meydançasına çevrilmişdi. Regionlarda fəaliyyət göstərən bir çox müəssisələr Azərbaycanın sənaye strukturunun ciddi şəkildə dəyişmişdi. Bu illərdə (1969-70) Azərbaycan neft məhsulları, neft avadanlığı, polad borular, sintetik kauçuk, elektrik cihazları, inşaat materialları, məişət kondisionerləri, maşın şinləri, mineral gübrə istehsalına görə mühüm yerlərdən birini tutmuşdu.

70-ci illərdə neft sənayesi yeni inkişaf mərhələsinə qədəm qoydu. Neft sənayesinin nəzəri inkişafını təmin edən elmi-tədqiq institutlarının, istehsalat birliklərinin yaradılması neft hasilatına ciddi təsir göstərmişdi. Neftayırma zavodları və neft-kimya sənayesinin bir çox sahələri inkişaf etdirilərək iqtisadiyyatın mühüm sahəsini təşkil edirdi. XX əsrin sonunda Heydər Əliyevin yenidən işləyib hazırladığı neft strategiyasının əsasları məhz o illərdə qoyulmuşdu. Artıq 60-cı illərdə istehsalı aşağı düşən neft-qaz sənayesində məhsuldarlıq yüksələrək neft sahəsində 3 dəfə, qaz sahəsində 2 dəfə çoxalmışdır. Azərbaycandakı neft emalı institutu və onun müəssisələrində gündə 41 ton benzin, 37 milyon kubmetr qaz istehsal edirdi. 70-ci illərin sonunda Xəzərin dərin yerlərində neft yataqları kəşf edildikdən sonra oradan neftin çıxarılması və nəqli başlandı. Məhz bu dövrdə Heydər Əliyevin böyük səyi nəticəsində SSRİ-nin valyuta fondundan Azərbaycanda Dərin Özüllər Zavodunun tikintisi üçün 400 milyon dollar vəsait xərcləndi, Amerikadan avadanlıq və texnologiya gətirildi. 70-ci illərin sonu- 80- ci illərin əvvəlində respublikada istehsal edilən 350 çeşid məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

1970-1982-ci illərdə sənaye istehsalının ümumi həcmi həcmi 1945-1970-ci illər ərzində istehsalı iki dəfə üstələmişdi. Təkcə 1982- ildə kimya və neft-kimya sənayesinin, maşınqayırma və metal emalının, yüngül və yeyinti sənayesinin xüsusi çəkisi 75,6 faiz artmışdı. Bu illərdə 581 adda yeni tipli maşın, avadanlıq, cihaz nümunələri yaradılmış, 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanmışdır.

1969-cu ildən Azərbaycanda yol tikintisinə xüsusi diqqət yetirilirdi. Bu illərdə tikilib istifadəyə verilən asfalt yolların uzunluğu 20,4 min kilometrə çatırdı. Halbuki, 1969-cu ilə qədər həmin rəqəm 12,7 min kilometr təşkil etmişdi. 1982-ci ildə nəqliyyatın yük dövriyyəsi 57,5 milyard ton-kilometr təşkil etmiş, bu 1969-cu illə müqayisədə 42 faiz artmışdı. Bu dövrdə rabitə müəssisələrinin sayı 1,2 dəfə, şəhər telefon stansiyalarının gücü 2,4 dəfə yüksəlmişdi.

Sosial həyatın tərəqqisi, insanların həyat şəraitinin yaxşılaşdırılması 70-ci illərin mühüm prioritet məsələlərindən biri olmuşdu. Respublikada yaşayış fondunun sürətli inkişafı 1969-1982-ci illərdə Azərbaycanın hər üç vətəndaşından biri yeni mənzillə təmin edilmişdi. 14 ildə respublika əhalisinə 376,1 min yeni tikilmiş mənzil paylanmışdı. Bakı şəhərində mənzil fondunu artırmaq üçün Heydər Əliyev Əhmədli, Yeni Əhmədli, Yeni Günəşli qəsəbələrinin salınması işinə xüsusi diqqət yetirirdi. Bu müddətdə 1 milyon mənzil qazla təmin olunmuş, 2,6 min kəndə qaz çəkilmişdi. 1967-ci ildə Azərbaycanda ilk dəfə metro qatarları əhalinin istifadəsinə verilmişdi.

1969-cu ilədək Azərbaycan elektrik enerjisi alan respublika idi. 1982-ci ildən etibarən o, enerji satan respublikaya çevrilmişdi.

Coğrafiya məkanına görə Azərbaycan su baxımından az təmin olunmuş ərazi hesab olunur. Bu da ki, əhalinin su təchizatına daim təsir göstərmişdi. Paytaxt və Bakı ətrafındakı yeni salınan qəsəbələrdə içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 1970-ci il sentyabrın 27-də Kür su kəmərinin birinci növbəsinin açılışı oldu. Bu illər ərzində Azərbaycanda 2304 km uzunluğunda yeni su kəmərinin çəkilib istifadəyə verilməsi əhalinin su təminatını xeyli yaxşılaşdırdı. Nəticədə 1969-cu ildə respublikamızda içməli su təchizatı 346 milyard kubmetr həcmində olmuşdusa, 1982-ci ildə iki dəfədən çox artaraq 698 milyard kubmetrə çatmışdı. Azərbaycan iqtisadiyyatının inkişafında kənd təsərrüfatı mühüm yer tutur. Azərbaycanda bu sahənin inkişafında Heydər Əliyevin xidmətləri əvəzolunmazdır. 1970-1982-ci illərdə orta illik məhsuldarlıq əvvəlki 13 ilin məhsuldarlığından taxıl üzrə 1,9 dəfə, pambıq üzrə 1,6 dəfə, tütün üzrə 2 dəfə, tərəvəz üzrə 1,6 dəfə, məyvəçilik üzrə 1,4 dəfə, üzüm üzrə 2 dəfə, çay yarpağı üzrə 2,3 dəfə çox olmuşdu. Bütün bunlar əhalinin sosial rifahının yaxşılaşdırılmasına güclü təsir göstərmişdir.

1970-ci illərdə kənd təsərrüfatı sahəsində üzümçülük sahəsində Azərbaycan böyük uğular qazandı. Üzümçülüyün inkişafı şərabçılıq sənayesinin inkişafına təkan verdi. Bu da ki, yüksək standartlara cavab verən yeni texnologiyalarla təmin olunmuş şərab emalı zavodlarının tikilib istifadəyə verilməini sürətləndirdi.

1969-1982-ci illərdə Azərbaycanda çoxsaylı xəstəxana, ambulantoriya, poliklinika tikilmişdi. Xəstəxana çarpayılarının sayı 46,4 mindən 62,2 minə, qadın məsləhətxanalarının, uşaq poliknika və ambulantoriyalarının sayı isə 293 dən 949-a çatmışdı.

Heydər Əliyev xalqın elmi, mədəni səviyyəsinin yüksəlməsinə xüsusi diqqət yetirirdi. 1969-1982-ci illərdə Azərbaycanda mədəni-maarif, ictimai iaşə və sosial xidmət obyektlərinin şəbəkəsinin sayı artırılmışdır. Belə ki, bu illərdə respublika kütləvi kitabxana, klub və muzeylərin sayı artdı.

Respublika rəhbərliyinin səyi nəticəsində ali təhsilli müəllimlərin sayı artırıldı.

Respublikadan kənarda ali təhsil almağa göndərilən tələbələrin sayı artırıldı. Bu da ki, gələcəkdə respublikada milli kadrların artmasına, onların elmi-intellektual potensialının yüksəlməsinə geniş zəmin yaratdı. Azərbaycanda ordu sahəsində milli kadrların çatışmaması Heydər Əliyevi çox narahat edirdi.

Buna görə də Heydər Əliyev Cəmsid Naxçıvanski adına 1971-ci ilin noyabr ayında hərbi mətbəxin açılışını elan etdi. Bu məktəb milli hərbi kadrlarımızın yetişdirilməsində əvəzsiz rol oynadı. Sonralar respublikamızda ali hərbi məktəblər açılmağa başlandaı. Sonralar yüzlərlə gənc SSRİ-nin ali hərbi məktəblərində təhsil almağa göndərildi.

Heydər Əliyevin milli dirçəliş konsepsiyasında Azərbaycan dili, onun işlənmə çevrəsi xüsusi yer tuturdu. Artıq 70-ci illərdən başlayaraq, dövlət əhəmiyyətli tədbirlərdə respublika rəhbəri Azərbaycan dilində çıxışlar etməyə, ana dilinin bütün incəliklərindən istifadə edərək onun nüfuzunu artırmağa, geniş yayılmasına çalışaraq, ziyalıların, elm adamlarının diqqətini dilin inkişafına yönəldirdi.

Azərbaycan Elmlər Akademiyasının tərkibində Dilçilik İnstitunun fəaliyyətinə dəstək verən Heydər Əliyev dilçilik elminin, qrammatikanın yaradılmasına, milli terminologiyanın inkişafına xüsusi qayğı göstərirdi. Həmin vaxtda onun dəstəyi ilə 4 cildlik "Müasir Azərbaycan dili" kitabı respublika dövlət mükafatına layiq görülmüşdü. 1970-ci ildə "Sovetskaya türkologiya" ümumittifaq jurnalı nəşr olunmğa başladı.

Yazıçılar ittifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə katibliyin yaradılması Heydər Əliyevin təşəbbüsü ilə gerçəkləşdi. 1977-ci ildə Azərbaycan dilinin dövlət dili statusunda tanınması Azərbaycanda milli özünüdərk və milli- mədəni intibah yüksəlişinə ciddi təsir göstərdi. Xalqın milli kimlik, dil, mədəniyyət, milli adət-ənənələri özünə qaytarıldı. Heydər Əliyevin səyi ilə Ağdam-Xankəndi xəttinin çəkilməsi Dağlıq Qarabağla Azərbaycanın digər rayonlarını əlaqələndirməklə, təsərrüfat və iqtisadiyyatın inteqrasiyasına nail olundu. Azərbaycan rəhbərliyi tikinti-quraşdırma işləri aparmaqla Şuşanın ümumittifaq əhəmiyyətli kurort şəhərinə çevrilməsinə nail olunmuşdu. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın görkəmli poeziya ustaları Molla Pəhan Vaqifin məqbərəsi, Xurşudbanu Natəvanın abidəsi Dağlıq Qarabağda ucaldı. O vaxtlar SSRİ Plan Komitəsinin Sədri, Nazirlər Soveti sədrinin müavini işləmiş N.K.Baybakov Heydər Əliyev fəaliyyətindın bəhs edərək yazırdı:

"Heydər Əliyev maşınqayırma və nəqliyyatından tutmuş, sosial-mədəni sahədə bir çox nazirliklərə kuratorluq edirdi. Prinsipial adam idi. Zənnimcə, o, təkcə Azərbaycanın deyil, həm də bütün SSRİ xalq və təsərrüfatının inkişafına töhfə vermişdir."

Azərbaycan xalqının Ümummilli lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxərlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan görkəmli bir şəxsiyyətdir. Heydər Əliyev bütün həyatını Azərbaycan xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin qurulmasına sərf etmişdir. Onun vətən, xalq qarşısında xidmətləri misilsizdir. Azərbaycanda hüquqi dövlətin yaranması, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanılması, bu dəyərlərin ümumbəşəri ideyalarla zənginləşdirilməsi ilk Milli Konstitutsiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması məhz Heydər Əliyev xidmətləridir. Azərbaycan və böyük türk dünyasının dahi oğlu Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 70-80-ci illər yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, eyni zamanda həm elmin, təhsilin, mədəniyyətin tərəqqisi illəri kimi qalıb. Məhz 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış əsaslı dəyişikliklər baş vermişdir.

Heydər Əliyev dühasının ən mühüm göstəricilərindən biri də Azərbaycançılıq məfkurəsinin, milli ruhun yüksək səviyyədə olması, milli özünədərkin ikişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması, dövlətçilik arzularının və hisslərinin güclü olması, real siyasi amilə çevrilməsidir.

Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin gələcək inkişaf planını, nə kimi işlər görüləcəyini zərgər dəqiqliyi ilə ölçüb biçilmişdi. 60-cı illərədək Azərbaycan aqrar ölkəsi kimi tanınırdı. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra qısa müddət ərzində Azərbaycanda həm yüngül, həm də ağır sənaye inkişaf etməyə başlandı. Bir sıra zavod və fabriklər istifadəyə verildi. Yeni iş yerlərinin açılması insanların rifah halının yaxşılaşmasına təsir etdi.

Heydər Əliyev respublikamızı nəhəng tikinti meydanına çevirməklə yanaşı, strategisi əhəmiyyətli bir sıra sənaye müəssisələrinin tikintisinə də xüsusi diqqət yetirmişdir. Məhz Heydər Əliyevin rəhbərliyi nəticəsində Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradıldı. Bunun nəticəsində azərbaycanlı uşaqları məktəbdə hərbi təhsilin sirlərini öyrənməyə başladılar. Ordu quruculuğunda bu məktəbin rolu böyükdür. Respublikamız müstəqilllik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, ərazi bütövlüyümüzün qorunması uğrunda mübarizədə ön cəbhədə olmuşlar. Məhz Qarabağ döyüşlərində vuruşan zabitlərin 70 %-dən çoxu liseyin yetirmələri idi.

Heydər Əliyev milli mədəniyyətin inkişafına böyük önəm verirdi. Ulu Öndər Azərbaycanı dünyada məhz milli dəyərləri, tarixi mədəniyyət özəlliyi ilə tanınırdı. Məhz onun təşəbbüsü ilə bəstəkar, müğənni və musiqiçilər dünyanın müxtəlif ölkələrində çıxış edərək Azərbaycanı tanıtmaq məqsədi güdürdülər. Heç təsadüfi ki, Ulu Öndər özü də musiqini həvəslə dinləyir və öz-özünə zümzümə edirdi.

Heydər Əliyev yaşlı nəslin yaradıcılığına da böyük qayğı göstərmiş, gənc nəslin yaradıcılıq imkanlarının genişlənmiş, gənc nəslin yaradıcılıq imkanlarının genişlənməsinə hərtərəfli yardım etmişdir. Ulu Öndər hakimiyyətə gəldiyi ilk illərdən (1969-1982) Azərbaycanda təhsilin, elmin inkişafına böyük əhəmiyyət verərək onun daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirirdi. Belə ki, Ulu Öndər ötən əsrin 70-80-cı illərində gənclərin respublikada və onun hüdudlarından kənarda yüksək səviyyədə təhsil almasına, ixtisaslı kadrların yetişməsinə hər cürşərait yaradırdı.

Heydər Əliyev qadınlarla kişilərin bərabər hüquqa malik olması ilə bağlı hələ 1974-cü ildə "Azərbaycan qadını" jurnalının 50 illik yubiley təntənəsində demişdi: "Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq." [1, s.28]

Heydər Əliyev Azərbaycan onun tarixi, bu günü gələcəyi ilə biliklərin tədrisinə böyük önəm verir və burada gənclərin vətənpərvərlik ruhunda tərbiyəsini mühüm hesab edirdi. Heydər Əliyev bu mənada belə demişdi: "Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz." [2, s.38]

Dövlət müstəqilliyimizin qorunub saxlanılmasında Heydər Əliyevin rolu böyükdür. Belə ki, 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunmasına prosesi sürətlənmiş, dövlət çevrilişinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Ulu Öndər qısa müddətdə özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, liberallığı özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, həmçinin xarici iqtisadi əlaqələrin gücləndirilməsi və biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran müasir innovativ inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır,"- deyən Heydər Əliyev dmeokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyini fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Ailə, Qadın problemləri üzrə Dövlət Komitəsi: Heydər Əliyev irsi: müstəqil dövlətçilik və müasirlik. Bakı, 2005
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr 1998
3. Heydər Əliyev və müasir Azərbaycan. Bakı, 2013

HEYDƏR ƏLİYEV: AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİNİN FORMALAŞMASI

Səbirə Cəfər qızı İskəndərova
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
sebireiskender@gmail.com

İnformasiya cəmiyyətinə keçid mədəni, siyasi, sosial-iqtisadi paradiqmaların radikal dəyişməsinin yeni mərhələsidir. Yeni qlobal dünyanın optimal modelinin tapılması məsələsi isə hələ də tədqiqatçıların əsas problemi olaraq qalmaqdadır. Son onilliklərdə qəbul olunur ki, müasirliyin fenomeni olan informasiyalaşdırma artıq baş tutmuş bir faktdır və milli cəmiyyətlərin bütün sahələrinə təsirləri nəzərə alınmaqla özünün ən ciddi mənalandırmasını tələb edir.

İnformasiyalaşdırma dövründə qlobal və regional strukturlar müasir dövlətlərin milli suverenliyinə və legitimliyinə təhlükə yaradır. Məlumdur ki, milli dövlətin suverenliyi hərbi, iqtisadi və mədəni suverenliyə əsaslanır. Lakin informasiyalaşdırma dövründə qarşılıqlı təsirin və inteqrasiya proseslərinin güclənməsi beynəlxalq aləmdə qəbul edilmiş bir çox müddəaları dəyişdirir [1, s.80-84]. Mütərəqqi inkişaf üçün öz islahatlar proqramının müəyyən edilməsi vacib olduğundan, milli inkişaf modelinin axtarışı da prioritet məsələ kimi gündəliyə çıxarılır.

Qeyd etmək lazımdır ki, XX əsrin sonu – XXI əsrin əvvələrində informasiya-texnoloji nailiyyətlərə əsaslanan qloballaşmanın Qərb modeli qlobal dünyanın yeni hüdudlarını şərtləndirirdi. Sovet İttifaqının süqutundan sonra Azərbaycan Respublikasının inkişaf tarixində tamamilə yeni mərhələ başlanmışdır. Ölkəmiz sovet cəmiyyətinin təcrid edilməsi nəticəsində yaranmış iqtisadi, siyasi, mədəni-dəyər dalanından çıxmalı idi. İqtisadi və texnoloji cəhətdən inkişaf etmiş Qərb ölkələrindən geri qalması ölkəmizin modernləşdirilməsi problemini aktuallaşdırmışdır.

Ümummili lider H.Əliyev hakimiyyətə gəldikdən sonra Qərb iqtisadiyyatına geniş inteqrasiya, nəhəng enerji və nəqliyyat layihlərinin reallaşması, Azərbaycanda informasiya-kommunikasiya texnologiyala¬rının tətbiqi, rabitənin inkişafı sahəsində qabaqcıl dövlətlər sırasına çıxmaq üçün uğurlu addımlar atılmasına şərait yaratmışdır. Belə ki, respublikamızda İKT məhsullarının istehsalı üçün yeni müəssisələr yaradılmış, nəticədə məhsul istehsalının həcmi 2003-cü illə müqayisədə 6-7 dəfə artmışdır. [2, s.2]

Əsas məqsəd milli inkişafın strateji proqramlarının hazırlanması, texnoloji boşluğun azaldılması, sosial sistemin uğurlu transformasiyası üçün imkanların tapılması idi.Dövlətin informasiya siyasətinin iki mühüm aspektini ayırd etmək olar ki, bunlardan birincisi texnoloji məsələlərlə, digəri isə məzmunla bağlıdır. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" kimi sənədlər "Azərbaycan Respublikasında 2005-2008-ci illərdə rabitə və informasiya texnologiya-larının inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı", "Rabitə və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət Proqramı" Azərbaycan Respublikasında 2010-2012-ci illərdə informasiya texnologiyaları" (Elektron Azərbaycan)", "İKT-nin inkişafı üzrə Milli Strategiya" (www.e-qanun.az) və s. informasiya siyasətinin birinci aspekti ilə bağlı fəaliyyəti tənzimləyir."Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "İnformasiya əldə etmək haqqında" qanunlar və digər qanunvericilik aktları, vahid informasiya məkanının formalaşdırılması ilə bağlı tədbirlər və medianın inkişafını informasiya siyasətinin ikinci aspektinə aid etmək olar. [3, s.89–96]

İnformasiya cəmiyyətin mənəvi həyata, dünyagörüşə, elmin, əxlaqın, siyasətin, dinin və s. hansının daha güclü təsir göstərməsi məsələsinə ciddi əhəmiyyət verilməlidir.Qanunauyğunluq xarakteri kəsb edən belə bir müddəa ciddi nəzərə alınmalıdır ki, qeyd etdiyimiz milli, mənəvi amillərdən hansı ictimai münasibətlərinə daha yaxındır, həmin şüur forması mənəvi həyatın bütün komponentlərinə (deməli, dünyagörüşə də) güclü və birbaşa təsir göstərir. Bu baxımdan xüsusilə qeyd etmək vacibdir ki, Azərbaycanda informasiya cəmiyyətinin milli modelinin üstünlüklərinə tolerantlıq, multikulturalizm və plüralizm də aid edilə bilər. Məhz bu fəlsəfə milli identikliyin mahiyyətini açmaqla Azərbaycanın sürətli inkişafının, müstəqil, bərabərhüquqlu dövlət kimi möhkəmlənməsinin və çiçəklənməsinin əsasını təşkil edir.

Modernləşmə prosesində məhz şüurun fərdiləşməsi, şəxsiyyətin yaradıcı potensialı, özünüidentifikasiyası, milli ideya, milli kimlik, insan hüquq və azadlıqları kimi amillər həlledici hesab olunur. Məsələn, bugünkü qeyri-sabit dünyada "identiklik plüralizminin" qorunub saxlanması dünya birliyi üçün əsas problemə çevrilir.

Ümummilli lider Heydər Əliyev hələ 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında dövlətin siyasətini səciyyələndirərkən onun prioritet istiqamətini nəzərə çatdırmışdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" [5].

Ümummilli lider Heydər Əliyev öz tezislərində milli inkişafın perspektiv istiqamətlərini belə müəyyənləşdirdi:"Telekommunikasiya, rabitə, əlaqə böyük əhəmiyyətə malik olan bir sektordur. Bu sektorda bizim nailiyyətlərimiz Azərbaycanın iqtisadi əlaqələrini, insani əlaqələrini, bütün dünya ölkələri ilə əlaqələrini və bütün Azərbaycan Respublikasının həyata keçirəcəyi siyasəti dünya miqyasında bildirməsi üçün çox əhəmiyyətlidir." [4]

Azərbaycanda informasiya cəmiyyətinin təşəkkülünün əsas mərhələlərindən danışarkən qeyd etmək istərdik ki, hələ 1970-80-ci illərdə Elmlər Akademiyasında, universitetlərdə və sahə institutlarında elektronika, avtomatika və hesablama texnikası üzrə istedadlı alimlər və təcrübəli mütəxəssislər yetişdirildi, elektron avadanlıq istehsal edən zavodlar tikildi. Kibernetika İnstitutu, Kosmik Tədqiqatlar Mərkəzi, İnformasiya-Kommunikasiya Elmi Mərkəzi, "Neftqazavtomatika" və digər elmi-tədqiqat müəssisələri yaradıldı. Heydər Əliyevin birbaşa köməyi ilə Azərbaycana ilk böyük elektron hesablama maşını - BESM-6 gətirildi. Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri - RASU - "Azərbaycan", respublika kompüter şəbəkəsi, bütün SSRİ-də tanınan və istifadə olunan avtomatlaşdırılmış neftçıxarma idarəetmə sistemləri və kompleksləri işlənib hazırlandı. "AZON", "NORD" elm-istehsalat birlikləri, Radiozavod, elektron hesablama maşınları zavodu, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat kompleksləri tikilib istifadəyə verildi. Sonralar Naxçıvanda, Tərtərdə, Mingəçevirdə, Şirvanda, Gəncədə, Sumqayıtda və Bakıda 30-dan artıq elektron və cihazqayırma zavodları işə salındı.... Elmi-tədqiqat institutlarının nəzdində "Kristal", "Registr", "Tellur", "Kibernetika", "Biotex", "Mikroelektronika", "Kaskad" xüsusi konstruktor büroları fəaliyyət göstərməyə başladı. Bakı Dövlət Universiteti, Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil müəssisələrində İKT ixtisasları üzrə mütəxəssislər hazırlanması üçün maddi-texniki baza yaradıldı. Beləliklə, indi bütün dünya tərəfindən müasir sosial-iqtisadi tərəqqinin inkişaf sxemi kimi qəbul edilən "Universitet-İqtisadiyyat və Hökumət" üçqat spiral modelinin tətbiqini Heydər Əliyev Azərbaycanda həyata keçirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyevin milli inkişaf siyasətinin layiqli davamçısı kimi cəmiyyətin informasiya¬laşdırılmasını dövlət quruculuğunun prioritet istiqaməti kimi dəyərləndirirdi: "Mən informasiya- kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqini prioritet məsələ elan edirəm. Mənim informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşlərim də məhz bundan qaynaqlanır ki, onlar Azərbaycana gəlsinlər. Azərbaycana yeni investisiyalar gəlsin, biz özümüz dövlət tərəfindən, Dövlət İnvestisiya Şirkəti tərəfindən bu investisiyaları qoyaq. Texnoparklar yaradaq, Azərbaycanda çox güclü informasiya-kommunikasiya mərkəzi yaradaq. Bu, gələcəkdir, gələcəyin inkişafıdır. ...Prioritetlərdən biri də informasiya-kommunikasiya texnologiyalarıdır. Mən buna çox böyük əhəmiyyət verirəm." [2]

Artıq otuz ildir ki, Azərbaycan qlobal forumların, konfransların fəal iştirakçısıdır, dünya birliyinin tamhüquqlu üzvü kimi beynəlxalq qurumlara rəhbərlik edir. Qeyd etmək vacibdir ki, Ümummilli lider H.Əliyevin davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və balanslaşdırılmış xarici və daxili siyasəti ölkənin mütərəqqi inkişafına, iqtisadi rifahına, siyasi sabitliyinə, əhalinin sosial tələbatlarının ödənilməsinə, o cümlədən dövlətçilik sahəsində bütün zəruri islahatların həyata keçirilməsinə əvəzsiz töhfə verib.

"Görülən işlər, eyni zamanda, Azərbaycanın siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə beynəlxalq əlaqələrinin genişlənməsinə, qloballaşan dünyada etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Bütün bunlar isə ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik irsinə ən layiqli töhfələrdir..." [5]

Milli iqtisadiyyatın inkişafı çərçivəsində istehsal strukturlarının yaradılması da Azərbaycan hökumətinin strateji proqramlarında öz əksini tapmışdır. Qlobal iqtisadiyyatda və dünya bazarlarında Azərbaycan qlobal xammal təchizatçısı kimi yüksək qiymətləndirilir. Lakin milli inkişafda yalnız xammal faktoruna əsaslanaraq informasiya cəmiyyətinin qurulması qeyri-mümkün görünür və bununla da dövlətin aparıcı ölkələrdən geri qalmasına səbəb olur. Ona görə də təhsil, elm və texnosfer milli inkişafın prioritet sahələri, milli cəmiyyətin təkamülünün əsas amili kimi qiymətləndirilməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Бауман З.Глобализация. Последствия для человека и общества. М.: «Весь Мир». 2004. 188 с
2. Heydər Əliyevin İKT siyasəti müasir mərhəldə. Azərbaycan 2009, 10 may.
3. Ниязов Х.Г. Особенности государственной информационной политики Азербайджана в период Отечественной войны и в постконфликтный период. Науковий журнал «Політикус». 2021 (5) С. 89–96.
4. http://anl.az/down/medeniyyet2008/noyabr/medeniyyet2008_noyabr_147.htm
5. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/78153.htm

ОСОБОЕ ОТНОШЕНИЕ К РУССКОМУ ЯЗЫКУ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ Г.А.АЛИЕВА

Кёнул Бехбуд гызы Ахундова
доктор философии по филологическим наукам, доцент
Бакинский славянский университет
cakonda2004@gmail.com

Создать язык невозможно, его творит народ; филологи только открывают его законы и приводят их в систему, а писатели только творят на нём сообразно его законам.

Русский язык в настоящее время – один из самых распространённых в мире языков. Русский язык богат, самобытен и уже занимает важное место между образованными языками Европы. Русский язык – один из самых сильных и богатых из всех живых языков. В нынешний век русский язык с каждым днём развивается в области науки и техники и является бесспорным языком для выражения точнейших мыслей. Изучение русского языка с позиций концептуальной науки приобрело у нас объективный характер. Русский язык в настоящее время – один из самых распространённых в мире языков и сегодня нами реально воспринимается как иностранный, и изучается как иностранный язык. Потому и непрерывно увеличивается число желающих изучать русский язык. Вместе с тем растут требования к уровню преподавания русского языка в зависимости от конкретных целей и задач. Это в свою очередь заставляет преподавателя систематически, целенаправленно совершенствовать и обновлять знания, умения и навыки. Иначе говоря, юридически для азербайджанца русский язык имеет такой же «паспорт гражданства», как и английский, французский или немецкий. Просветительская миссия интеллигенции русского и азербайджанского народов на протяжении веков доказала свою историческую правомерность и оправданность.

Русский язык сегодня нами реально воспринимается как иностранный, и официально может изучаться только как иностранный. Изучение русского языка предопределялось категорией нравственных и жизненных потребностей азербайджанской молодёжи. Изучение русского языка в Азербайджане в плане вузовской науки (в том числе в нашем Бакинском славянском университете) за последние 30 лет не уступает в интенсивности результатам прежних времён. Русский язык как предмет изучения в средней общеобразовательной школе, а также в вузах нашей страны был, есть и будет. Необходимость преподавания русского языка в наших школах не подлежит сомнению. Перед нашей школой стоит важнейшая задача – научить детей русскому языку в такой степени, чтобы они свободно владели устной и письменной русской речью, как они владеют родной речью. Не случайно то, что молодое поколение Азербайджана с любовью и упорством стремится овладеть могучим русским языком. Как писал известный азербайджанский поэт-сатирик, просветитель, хороший знаток русского языка, основатель русско-азербайджанской школы в городе Шемахе С.А. Ширвани:

... Особенно язык нам нужен русский,
Со всеми языками дружен русский.

Нам нужен русский – честный и прямой
Ты русский изучай, наследник мой.
И мы в продолжение этой мысли громогласно говорим:
Если ты хочешь судьбу переспорить,
Если ты ищешь отрады цветник,
Если нуждаешься в твёрдой опоре, –
Выучи русский язык!

Он твой наставник, великий, могучий,
Он переводчик, он проводник,
Если штурмуешь, познания кручи –
Выучи русский язык!

Русское слово живёт на страницах
Мир окрыляющих пушкинских книг.
Русское слово – свободы зарница,
Выучи русский язык!

Горького зоркость, бескрайность Толстого,
Пушкинской лирики чистый родник,
Блещет зеркальностью русское слово –
Выучи русский язык!

Мир разобщённых безрадостно тесен,
Спаянных мир необъятно велик.
Сын мой, работай, будь людям полезен –
Выучи русский язык!

И таким образом, большое уважение, большая любовь к русскому языку, русской культуре, русскому народу, дальновидное понимание реальной жизни и проблем, способность воспринимать новые идеи, отвечать вызову времени, проявить политическую инициативу привело к созданию институту русского языка в нашей республике. Постановлением правительства республики в 1972 году на базе Педагогического института языков им. М.Ф.Ахундзаде был восстановлен Азербайджанский педагогический институт русского языка и литературы им. М.Ф.Ахундзаде. Инициатором этого дела был Г.А.Алиев.

13 июня 2000 года по Указу Президента Азербайджанской Республики Г.А.Алиева об усовершенствовании системы образования в Азербайджанской Республике было создано Бакинский славянский университет с расширением профиля Азербайджанского педагогического института русского языка и литературы им. М.Ф.Ахундзаде. И в своей речи национальный лидер Г.А.Алиев выразил: «Представители этого университета – цвет нашей нации, это – люди, которые служили не один год, не одно десятилетие обучения азербайджанской молодёжи русскому языку, подготовки учителей русского языка и литературы для азербайджанских средних школ. У этого университета есть большое будущее, большая перспектива. Мы возлагаем очень большие надежды на этот университет» [1].

Сам факт существования Бакинского славянского университета (БСУ) свидетельствует о том, какое важное значение придается в нашей стране сохранению и приумножению общих духовных ценностей, укреплению всесторонних культурных, научных, экономических связей с Восточной Европой, в том числе и со славянским миром. «Мы всеми возможностями, связями поддерживаем и будем поддерживать, укреплять настоящие, дружеские, искренние связи с Россией, странами СНГ так же, как и со всеми другими странами.» (из выступлений Г.А.Алиева)

В Азербайджане многое делается, чтобы русский язык, русская культура не забывались, а развивались, о чём, в частности, свидетельствует функционирование в столице

нашего государства Бакинского славянского университета, русских школ, Русского драматического театра, трансляция русских телеканалов и, самое главное, тёплое отношения между русскими и азербайджанскими народами. Президент Г.А.Алиев во время своих встреч с главами различных Российских делегаций вполне законной гордостью рассказывал о таких связях.

Свидетельством совершенствования культурных взаимоотношений Азербайджана с Россией явились Дни культуры России в Азербайджане, инициатором которого был азербайджанская сторона, именно – её Президент, тот, который двадцать пять лет тому назад задумал и одухотворил праздник культуры и дружбы между двумя народами. Поистине общение творческих людей, людей созидающих, понимающих значение литературы и искусства в жизни общества, в мире, подтверждает: когда говорят музы, молчат пушки.

Президент Азербайджана Г.А.Алиев отметил, что современная азербайджанская культура, получившая особое развитие в XIX-XX веках и имеющая свои национальные корни, традиции, которыми мы дорожим, во многом формировались под влиянием русской культуры, сочетая в себе многие её элементы.

Феномен Г.А.Алиев в истории азербайджанско-культурной жизни исключителен и неповторим. В своих выступлениях – в мудрой речи (и в русском, и в азербайджанском языках), подчёркивал важную роль русской литературы, русского языка в развитии других национальных литератур страны, в том числе азербайджанской. Общественный и государственный деятель Г.А. Алиев и выдающийся оратор – очень чётко построил свою русскую речь при выступлениях на трибунах. У него бала ясная речь, а это доказательство, что он обладает ясным мышлением. Его речь вытекала и развивалась из знания предмета речи, о он всегда говорил о нужных вещах. Речь Президента была насыщена афоризмами, пословицами и фразеологическими единицами. Словом, он хорошо знал русскую паремиологию. Эти выражения в выступлениях Президента занимает строго определённое место и выполняет чёткую функцию выпячивания. Например: *Делу время, потехе час; Игра – игрою, а дело – делом; Кто не работает, тот отдыха не знает; Хорош отдых, когда дело сделано; Не будет скуки, если заняты руки и т.д.*

Язык выступлений Г.А.Алиева был чрезвычайно богат в лексико-фразеологическом, точен в грамматическом и гибок в стилистическом отношении. Каждое выступление Г.А.Алиева отличалось убедительностью, логической последовательностью, доходчивостью, ясностью и точностью формулировок.

Каждое выступление Г.А.Алиева на литературные темы всегда отличалось не только естественной для общественного деятеля идеологической направленностью, но и литературным профессионализмом в восприятии того или иного писателя – будь это Низами или Физули, С. Вургун или С. Рустам, или из русских поэтов или писателей – А.С.Пушкин или М.Ю.Лермонтов, А.Ахматова или С.Есенин или другие классики и современники. Говоря о живых, творческих связях писателей, сообщалось, что дружба азербайджанской литературы с литературами братских народов воплощена во множестве взаимосвязей, в постоянных творческих контактах и сотрудничестве, переводческой деятельности, встречах, декадах, во многих регулярно проводимых литературно-политических акциях, имеющих широкий общественный резонанс. Этот принцип определял политику и в области межнациональных культурных взаимосвязей, в том числе азербайджанско-русских научных и литературных взаимосвязей.

Языковая культура Г.А.Алиева являет собой хрестоматийный образец отношения к феномену языка, обращения с ним. Она учит осознавать, что человек выражается ясно, когда им владеет мысль, предмет мысли. И эта мысль становиться красивой потому, что автор убеждает в её правдивости, искренности.

Говоря о фигурах и других средствах выражения, используемых Президентом Г.А.Алиевым в своей речи, отметим, что мы имеем ввиду её риторическую структуру, суть которой лежит не в сфере выражения, а в сфере содержания. Речь была содержательная и неповторимая. Г.А.Алиев тонко чувствовал русское слово, и преломленное через его талант

оратора – она порождает, волнует нас. В его языке – страсть, глубина жизни, великий духовный порыв. Речь Президента спонтанным движением развивалась на глазах слушателей. Слушатели – общественные деятели, политологи, философы, языковеды, в основном, молодёжь с большим интересом слушали Оратора.

Использованная литература

1. Абдуллаев К.М., Гамидов И.Г. Русский язык в Азербайджане. История. Современность. Перспективы. Баку: Kitab aləmi, 2005, 550 s.

2. Гамидов И.Г. Развитие русистики в Азербайджане. //Тезисы докладов научной конференции «Русский язык в Азербайджане». Баку: Мутарджим, 1995

3. Гамидов И.Г. Этапы развития русистики в Азербайджане. //Газета «Tələbə dünyası». БСУ, Спецвыпуск, Баку, 2001.

4. Гейдар Алиев и русская культура. Баку: Мутарджим, 1998, 108 с.

5. Новрузов Р.М. Гейдар Алиев и русская культура. В кн: Гейдар Алиев и русская культура. Баку: Мутарджим, 1998, 108 с.

6. Мамедзад О. Гейдар Алиев и русский мир. // Газета «Зеркало», 1999

7. Bakı Slavyan Universiteti – 70. Bakı: Elm və təhsil, 2016, 400 s.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DÖVLƏT QURUCULUĞU

[1]Sultanəli Şükür oğlu Qurbanov, [2]Azər Surətulla oğlu Fərəməzov, [3]Eldar Arif oğlu Muxtarlı
[1]fizika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
sultanali.gurbanov@adpu.edu.az
[2]Lənkəran Dövlət Universiteti.
afaramzov@list.ru
[3]Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
eldar_muxtarli@mail.ru

Azərbaycanın 30 ildən artıq keçdiyi şanlı, şərəfli tarix, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində qazanılmış uğurlar, sürətli inkişaf, tərəqqi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər qədim tarixi, zəngin mədəniyyəti ilə həmişə qürur duyduğu doğma Azərbaycanı özünün uzaqgörən siyasəti və idarəçilik məharətilə zamanın ağır və sərt sınaqlarından şərəflə çıxartmışdır. Ümummilli Liderin azərbaycançılıq ideologiyasının formalaşmasında misilsiz xidmətləri tarixə qızıl hərflərlə yazılmışdır. Hələ XX əsrin 70-80-ci illərində milli özünüdərkin yüksəlişi başlanmış, ədəbiyyatımızda milli ruha, millət və xalq anlayışlarına, Azərbaycan dili ilə bağlı məsələlərə, dünya azərbaycanlılarının təşkilatlanmasına, soydaşlarımızla Azərbaycan arasında əlaqələrin qurulmasına xüsusi önəm verilmişdir.

Heydər Əliyev həm tarixi şəxsiyyətdir, həm də tarixi yaradan şəxsiyyət! Bu fikri qüvvətləndirən, arqumentlərimizi genişləndirən faktlar isə yetərincədir. Ulu öndər Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, O, özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Bu gün isə Onun fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən təkcə xalqımız yox, bütün region xalqları, böyük İslam dünyası və türk xalqları faydalanır. Elə buna görə də, Ulu Öndərimizin adı dünyanın hər yerində Uca tutulur, xatirəsi ehtiramla anılır.

Ulu öndər Heydər Əliyev Azərbaycanın və azərbaycanlıların Ümummilli lideridir. Bu dahi şəxsiyyət haqqında danışarkən öncə qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyevin xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip və norma kimi qəbul edən Ümummilli liderimiz bugünkü müstəqil Azərbaycanın memarıdır. Ulu öndər Heydər Əliyevin ölkəsinə və xalqına bəxş etdiyi misilsiz, əvəzedilməz dəyərlərin və sərvətlərin mahiyyətini daha

dərindən anlamaq üçün isə, sadəcə, bir neçə fundamental önəm kəsb edən fakta toxunmaq kifayət edir. [1, s.136-146]

Yeri gəlmişkən, Ulu öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində müstəqillikdən sonra da dövlət quruculuğu sahəsində fundamental addımlar atıldı. Belə ki, mürəkkəb siyasi problemlər məngənəsində olan ölkəmizdə Ulu öndərimizin praqmatik və rasional strateji siyasi kursu sayəsində sabitlik əldə edildi. İmperialist qüvvələrin korporativ maraqlarının təmin olunması missiyasına xidmət edən daxildəki avantürist subyektlərin bölücü fəaliyyəti neytrallaşdırıldı və ölkədaxili stabillik təmin edildi. Eyni zamanda, erməni işğalının qarşısının alınması istiqamətində əhəmiyyətli strateji və taktiki gedişlər edildi. Beləliklə, 1994-cü ildə atəşkəsin əldə olunması ilə Ermənistanın işğalçı ekspansiyasi dayandırıldı. Bununla da, dövlət quruculuğu prosesinin ardıcıl surətdə davam etdirilməsi, ölkədaxili sabitliyin təmin olunması və möhkəmləndirilməsi baxımından əlverişli siyasi zəmin yaradıldı.

Ulu Öndər xalqımızın tarixinin, maddi-mədəniyyət abidələrinin, milli-mənəvi dəyərlərinin qorunmasına, elm, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə böyük önəm vermişdir. Məhz onun milli təəssübkeşliyi, yorulmaz səyləri sayəsində Azərbaycan Qafqazın mədəniyyət mərkəzinə çevrilmişdir. 1993-2003-cü illərdə "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Turizm haqqında", "Nəşriyyat işi haqqında", "Muzeylər haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" imzalanmış fərman və sərəncamlar bu sahəyə nə qədər əhəmiyyət verildiyinin bariz nümunəsidir. Zəmanəmizin ən böyük azərbaycanlısı Heydər Əliyev 1994-cü il sentyabrın 20-də dünyanın inkişaf etmiş ölkələrinin böyük neft şirkətləri ilə ölkəmizin mənafeyinə xidmət edən "Əsrin müqaviləsi"ni imzalamağa müvəffəq oldu. Neftin, təbii qazın dünya bazarlarına çıxarılması istiqamətində irimiqyaslı layihələr həyata keçirildi. Tam əminliklə demək olar ki, Ümummilli Liderin titanik səyləri sayəsində 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq, dinamik inkişaf və yüksəliş yoluna qədəm qoymuşdur.

Ümummilli Liderimizin siyasi bacarığı sayəsində Azərbaycanın siyasi tarixində yeni bir səhifə açıldı. Bunun ardınca bir neçə istiqamətdə paralel və ardıcıl şəkildə əhəmiyyətli işlər görüldü. İlk növbədə, siyasi sistemin struktur elementlərinin təkmilləşdirilməsi istiqamətində ciddi strateji addımlar atıldı. Belə ki, 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bu akt öz növbəsində siyasi fəaliyyət və inkişafın hüquqi əsaslarının formalaşması mənasına gəlirdi. Daha sonra parlament seçkilərinin keçirilməsi dövlətçiliyin siyasi-hüquqi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verdi. Bu proseslərə paralel olaraq vətəndaş cəmiyyətinin formalaşdırılması və hüquqi dövlətin fundamental komponentlərinin mütləq surətdə bərqərar olunması yönündə əhəmiyyətli addımlar atıldı.

Ulu öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (Ombudsman) təsisatı yaradıldı. Bütün bunlar isə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini və gücləndirilməsi istiqamətində əhəmiyyətli faktor kimi çıxış etdi.

Ulu öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq, Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılmasını hüquqi əsasda təsbit etmiş oldu. [2, s.146-154]

Bununla yanaşı, 1993-cü ildən Ulu Öndərin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu. Beləliklə, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsi genişləndirildi. Bu isə demokratikləşmə prosesini olduqca sürətləndirdi. Bir sözlə, Ümummilli lider Heydər Əliyevin praqmatik xarici siyasət strategiyası Azərbaycanı dünya siyasətinin layiqli təmsilçilərindən birinə çevirdi. Beləliklə, dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri quran Azərbaycan iqtisadiyyatı sürətlə dünya iqtisadiyyatına inteqrasiya olmağa başladı. Ulu Öndərin imzaladığı çoxsaylı fərman və sərəncamlarla ölkə daxilində fundamental iqtisadi islahatlar həyata keçirildi. Məhz bu dövrdə reallaşdırılan geniş iqtisadi layihələr, qətiyyətli və məqsədyönlü tədbirlər nəticəsində iqtisadi

tənəzzülün qarşısı alındı, qısa müddətdən sonra isə inkişaf göstəriciləri qeydə alındı. Azad bazar iqtisadiyyatına uğurlu keçid sayəsində ölkədə orta və kiçik sahibkarlıq sürətlə inkişaf etməyə başladı. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu iqtisadi inkişaf strategiyası Azərbaycanın bir dövlət kimi öz ayaqları üzərində sərbəst inkişafını təmin etdi. Bu strategiyanın bu gün də uğurla davam etdirilməsi nəticəsində Azərbaycan iqtisadi baxımdan regionun lider dövlətinə çevrilib. Ulu öndər Heydər Əliyevin dövlətimizə, xalqımız qarşısında ən böyük xidmətlərindən biri 2003-cü ildə xalqa müraciətində qarşıdakı dövrdə Azərbaycanı möhkəm təməl üzərində uğurla inkişaf etdirməyə qadir ünvanı göstərmək oldu.

2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq, president seçilən İlham Əliyev son 20 ilə yaxın dövr ərzində ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirir. Bu gün president İlham Əliyevin gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzü bərpa etməklə Ata vəsiyyətini yerinə yetirməsi dayanır. Ümummilli Lider qeyd olunan müraciətində axıra çatdıra bilmədiyi işlərin cənab İlham Əliyevin xalqın dəstəyi ilə həyata keçirəcəyinə böyük inamını ifadə etmişdir. Ulu öndər "Ona Özüm qədər inanıram" söyləməklə gələcək bütün inkişafın aydın mənzərəsini təqdim etmişdir. President İlham Əliyev bu müddət ərzində torpaqlarımızı işğaldan azad edilməsiniə hazırlıq işləri çərçivəsində bütün zəruri addımların atılmasına nail oldu. Azərbaycanın iqtisadi imkanları daha da genişləndi,beynəlxalq münasibətlər sistemində rolu artdı, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı və ordu quruculuğu prioritet sahə kimi öndə oldu. Dövlətimizin qətiyyəti prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü ,qüdrəti xalqımızın birliyi sayəsində Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini,müstəqilliyini qorumağa qadir oldu. 44 günlük vətən müharibəsində şanlı zəfərimiz Azərbaycanın qarşısında yeni imkanlar yaratdı.Qürur hissi ilə deyə bilərik ki, Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin, Prezident İlham Əliyev isə torpaqlarımızın xilaskarı kimi adlarını tarixə qızıl hərflərlə yazdılar.

Heydər Əliyev yolu bundan sonra da Azərbaycana daha möhtəşəm uğurlar qazandıracaq.

Ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında ən böyük xidmətlərindən biri 2003-cü ildə xalqa müraciətində qarşıdakı dövrdə Azərbaycanı möhkəm təməl üzərində uğurla inkişaf etdirməyə qadir ünvanı göstərməsi oldu. [3, s.198-206]

2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev son 19 ilə yaxın dövr ərzində ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirir. Bu gün Prezident İlham Əliyevin gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzü bərpa etməklə Ata vəsiyyətini yerinə yetirməsi dayanır. Ümummilli Lider qeyd olunan müraciətində axıra çatdıra bilmədiyi işlərin cənab İlham Əliyevin xalqın dəstəyi ilə həyata keçirəcəyinə böyük inamını ifadə etmişdir. Ulu Öndər "Ona Özüm qədər inanıram" söyləməklə gələcək inkişafın aydın mənzərəsini təqdim etmişdir. Prezident İlham Əliyev bu müddət ərzində torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq işləri çərçivəsində bütün zəruri addımların atılmasına nail oldu, Azərbaycanın iqtisadi imkanları daha da genişləndi, beynəlxalq münasibətlər sistemində rolu artdı, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı və ordu quruculuğu prioritet sahə kimi öndə oldu. Dövlətimizin qətiyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi sayəsində Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir oldu. 44 günlük Vətən müharibəsində şanlı Zəfərimiz Azərbaycanın qarşısında yeni imkanlar yaratdı. Qürur hissi ilə deyə bilərik ki, Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin, Prezident İlham Əliyev isə torpaqlarımızın xilaskarı kimi adlarını tarixə qızıl hərflərlə yazdılar. Heydər Əliyev yolu bundan sonra da Azərbaycana daha möhtəşəm uğurlar qazandıracaq. [4, s.376-381]

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı; Azərməşr,1997- 2007, 800 s.
2. İsmayılov Ə., Əliyev Q, Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. Ba: Zahid, 2003, 246 s.
3. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı; Azərnəşr, 2003; 340 s.
4. Kazımlı X. Böyük siyasətin davamı, Bakı: Nurlan, 2007.768 s.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNİN İNKİŞAFI

Cavid Vəkil oğlu Bağırzadə
tarix üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti
cavid.bagirzade@gdu.edu.az

Ulu öndər Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanın rəhbərliyinə gəlməsi ilə Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyuldu. Ulu öndər Heydər Əliyev hələ o vaxt qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi və təkmilləşdirdi. Ümummilli lider Heydər Əliyev böyük uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi.

Ulu öndər Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli gücləndi və geniş vüsət aldı. Yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti yaradıldı [1, s.178].

Heydər Əliyevin təşəbbüsü ilə partiya və dövlət orqanlarının, ictimai təşkilatların, ziyalıların respublikanın milli kadr potensialının mohkəmlənməsinə diqqəti artdı. Minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı təhsil və elm ocaqlarına göndərildi. Milli hərbi kadrların hazırlanmasına böyük qayğı göstərildi. 1970-1980-ci illərdə SSRİ-nin hərbi məktəblərində müxtəlif hərbi ixtisaslar üzrə iki mindən çox azərbaycanlı zabit hazırlandı.

1970-ci illər Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni və mənəvi həyatında mühüm irəliləmələr dövrü olmuşdur. Bu dövrdə respublikanın bütün sahələrində olduğu kimi, təhsil, elm və mədəni həyatda da intibah xarakterli inkişaf baş vermiş, geniş miqyaslı işlər görülmüşdür. Xüsusilə təhsil sahəsində həyata keçirilmiş işlər öz miqyasına görə diqqəti cəlb edir. Bu dövrdə istər orta təhsil sahəsində, istərsə də ali təhsil sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində respublikada təhsil sistemi yeni bir mərhələyə-sürətli inkişaf mərhələsinə qədəm qoydu. Həmin illərdə respublikada 703 min yerlik 1058 ümumtəhsil məktəb binası tikilib istifadəyə verilmişdi. Müxtəlif fənlər üzrə dərinləşmiş proqramlarla təlim verən kimya-biologiya, fizika-riyaziyyat, fars dili, ingilis dili və başqa təmayüllü internat məktəblər fəaliyyətdə idi. Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsini və SSRİ ali hərbi məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədilə mühüm işlər həyata keçirilmişdir [1, s.210]. Məhz bu uzaqgörən siyasətin nəticəsi idi ki, sonralar, müstəqil Azərbaycan Respublikasının milli ordu quruculuğu sahəsində o zamanlar hərbi təhsil almış azərbaycanlı hərbi kadrların potensialından istifadə olundu. Bu dövrdə peşə təhsili sistemi də inkişaf edirdi. Keçən əsrin 70-80-ci illərində respublikamızda 100 yeni texniki-peşə məktəbi təşkil olunmuşdu.

Təsərrüfat, maarif, mədəniyyət, səhiyyə və başqa sahələr üzrə orta ixtisaslı kadrlar hazırlayan 78 məktəbdə hər il 60-70 min tələbə təhsil alırdı. Bu illərdə Bakı kitabxanaçılıq texnikumunun, Bakı plan-iqtisad və Gəncə tikinti texnikumları, Şuşa pedaqoji məktəbinin tədris binaları və yataqxanaları, Mingəçevir və Naxçıvan politexnik texnikumlarının, Şəki pedaqoji məktəbinin yataqxanaları istifadəyə verildi. Tələbələrin təqaüdləri üç dəfə artırıldı [1, s.211].

Təhsil sahəsində dinamik inkişafın daha çox əhatə etdiyi sahə ali təhsil sistemi idi. Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə, 70-80-ci illərdə Azərbaycanda ali təhsil daha da inkişaf etdi. Yeni ali təhsil ocaqları fəaliyyətə başladı.1971-ci ildə Pedaqoji Dillər İnstitutu bazasında Rus dili və Ədəbiyyatı (indiki Bakı Slavyan Universiteti) və Pedaqoji Xarici Dillər İnstitutları(indiki Azərbaycan Xarici Dillər Universiteti) təşkil olundu. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan (indiki Naxçıvan Dövlət Universiteti), 1973-cü ildə Xankəndi Pedaqoji İnstitutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncədə Azərbaycan Texnologiya İnstitutu təşkil olundu. Ali məktəblərdə hər il 100 mindən artıq tələbə təhsil alır, 17-18 min gəncə ali təhsilli mütəxəsis diplomu verilirdi [2, s.413].

XX əsrin 70-80-ci illərində ali təhsil sahəsindəki inkişaf və dəyişikliklər Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutundan (indiki Gəncə Dövlət Universiteti) da yan keçməmişdir. 1938-ci ildə ikiillik Müəllimlər İnstitutu kimi fəaliyyətə başlamış H.Zərdabi adına GDPİ şərəfli

inkişaf yolu keçmiş, məhz ümummilli lider Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə yüksəliş yoluna qədəm qoymuşdur. Bu ali təhsil ocağının maddi bazası, professor-müəllim heyətinin səmərəli işi, tələbə kontingentinin artımı nəzərə alınaraq 1969-cu ildə H.Zərdabi adına GDPİ-na I kateqoriyalı ali məktəb statusu verilmişdir. Həmin illərdə Azərbaycanın pedaqoji kadrlarla təmin olunmasında bu ali təhsil ocağının öz payı və xüsusi rolu olmuşdur. Bu gün də bu ənənə ləyaqətlə davam etdirilir.

Məlumdur ki, təhsilin, elmi tədqiqatların, ümumi və professional mədəniyyətin yüksək keyfiyyəti olmadan elmi-texniki tərəqqiyə və dünya sivilizasiyasına qovuşmaq mümkün deyildir. Ali məktəblər nəinki ölkəni ixtisaslı kadrlarla təmin edilməsinin mənbəyidir, eləcə də elmi-tədqiqat kompleksinin tərkib hissəsidir. Bu baxımdan Gəncə Dövlət Universiteti də həmişə seçilmişdir. Xüsusilə ulu öndər Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə başqa ali məktəblərdə olduğu kimi, dövlət qayğısı artırılmışdır. Ümummilli lider Heydər Əliyev tərəfindən müəllim əməyinə, onun mövqeyinə həmişə xüsusi qayğı və diqqət göstərilmişdir. Bu böyük qayğı hər bir alimi, pedaqoqu, təhsil və tərbiyə prosesinin iştirakçısını öz imkanlarını səfərbəyliyə almağa, mövcud şəraitdən yaradıcılıqla və məqsədyönlü istifadə etməyə sövq etmişdir.

1970-ci illərdə tədrisin keyfiyyətini yüksəltmək məqsədilə H.Zərdabi adına GDPİ-da yeni-yeni kafedraların təşkili, gənc müəllimlərin məqsədli aspiranturalara daxil olmalarına şəraitin yaradılması nəticəsində bu ali təhsil ocağının yüksək ixtisaslı professor-müəllim heyəti formalaşdı. Məhz, institutun çoxtirajlı "Yüksəliş" qəzeti də bu dövrdə çap olunmağa başlanmışdır. H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun keçən dövr ərzində qazandığı uğurlarını və ali təhsil sahəsindəki xidmətlərini nəzərə alaraq bu ali təhsil ocağı 13 iyun 2000-ci ildə Ulu Öndər, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə profili genişləndirilməklə Gəncə Dövlət Universiteti adlandırıldı [4]. Keçən illər ərzində Gəncə Dövlət Universiteti tarixi ənənlərini davam etdirməklə inkişaf etmiş, müstəqil Azərbaycan Respublikasında elm və təhsilin inkişafına mühüm töhfələr vermişdir. Bütün bunlar dövlət başçısı tərəfindən də yüksək qiymətləndirilmişdir. Belə ki, 2009-cu ilin aprelində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamla universitetin əməkdaşlarından 11 nəfərinə əməkdar müəllim, 2 nəfərinə əməkdar elm xadimi, bir nəfərinə əməkdar jurnalist fəxri adı verilmiş, 14 nəfəri isə "Tərəqqi" medalı ilə təltif olunmuşdu. Prezidentin 2018-ci il 31 oktyabr tarixi Sərəncamı ilə Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Gəncə Dövlət Universitetinin 15 nəfər əməkdaşı "Tərəqqi" medalı ilə təltif olunmuş, 7 nəfərə "Əməkdar müəllim", 1 nəfərə isə "Əməkdar mühəndis" fəxri adı verilmişdir.

Fəaliyyətə başladığı vaxtdan etibarən Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun yüksəliş illəri məhz ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövrünə təsadüf edir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəldiyi 1969-cu ildən başlayaraq sonrakı illərdə fakultədə təhsilə olan qayğının nəticəsi olaraq professor-müəllim heyətinin və tələbə kontingentinin sayı artmış, bu ali təhsil ocağı yüksəliş illərini yaşamışdır.

1970-1980-ci illərdə elmi-pedaqoji kadrların hazırlanması ilə yanaşı tədris prosesinin yaxşılaşdırılması və elmi-metodiki işlərin aparılması sahəsində də institut əməkdaşlarının fərəhləndirici uğurlu nəticələri olmuşdur. Bu illər ərzində institutun professor-müəllim heyətinin elmi-tədqiqat sahəsindəki fəaliyyətləri, elmi yaradıcılıqları da məhsuldarlığı ilə diqqəti cəlb edir. Belə ki, bu dövrdə institut əməkdaşları çoxsaylı elmi-tədqiqat əsərləri, metodik vəsaitlər, ali məktəblər üçün dərslik və dərs vəsaitləri yazıb çap etdirmişlər. Bundan başqa, bəhs olunan dövrdə professor-müəllim heyətinin keçmiş SSRİ-nin nüfuzlu elmi jurnallarında, həmçinin Nyu-York, Berlin, Amsterdam şəhərlərində çap olunan beynəlxalq elmi jurnallarda elmin müxtəlif sahələrinə aid aktual elmi problemlərlə bağlı əsərləri çap olunmuşdur.

Qeyd olunan faktlardan görünür ki, bütünlükdə Azərbaycanda olduğu kimi, Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitut (indiki GDU) üçün də keçən əsrin 70-80-ci illəri uğurlu, yüksəliş və elmi inkişaf, intibah dövrü olmuşdur. Bunlar ulu öndərimiz Heydər Əliyevin

təhsil və elm sahəsində uzaqgörən siyasətinin, bu sahəyə qayğısının və himayəsinin nəticəsidə mümkün olmuşdur. Akademik Fəraməz Maqsudov haqlı olaraq deyirdi ki, əgər bütünlükdə XX əsr Azərbaycanda elmin sürətli inkişafı əsri hesab edilirsə onun ən məhsuldar dövrü ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə düşür. Ulu öndər Heydər Əliyev hansı vəzifəni daşımasından, harada işləməsindən asılı olmayaraq həmişə elmin, mədəniyyətin, ədəbiyyatın himayədarı olmuşdur.

Azərbaycan müstəqillik əldə etdiyi ilk illərdə respublikada yaranmış siyasi və iqtisadi böhran, eləcə də Birinci Qarabağ müharibəsinin ağır nəticələri təhsilə ciddi təsir etmiş, bu sahədə də acınacaqlı vəziyyət yaranmışdı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra təhsilə dövlət qayğısı artmış, bu sahə ulu öndərin himayəsi ilə əhatə olunmuşdur.

Azərbaycanda təhsilin inkişafı, əldə olunmuş elmi naliyyətlər ulu öndər Heydər Əliyevin bilavasitə bu sahələri daim diqqətdə saxlaması və xüsusi önəm verməsi ilə bağlıdır. 1993-cü ildən başlayaraq təhsil sahəsində yeni inkişaf mərhələsi başladı. Müstəqil Azərbaycan Respublikasında milli təhsil konsepsiyası həyata keçirilməyə başlandı. 1998-ci il martın 30-da Prezident Heydər Əliyevin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il iyunun 15-də Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramını təsdiq etdi. Proqramda Azərbaycan milli təhsil sisteminin strategiyası və konsepsiyası müəyyənləşdirilirdi. Burada təhsilin idarə edilməsində yeni prinsiplərin bərqərar olunması, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması, dünya təhsil sisteminə inteqrasiyası və əsaslı şəkildə təkmilləşdirilməsi nəzərdə tutulurdu [1, s.410].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman verdi. Təhsil Problemləri üzrə Respublika Elmi-Metodik Mərkəzi ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutunun bazasında Təhsil Problemləri İnstitutu, eləcə də Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu və onun regionlarda filalları yaradıldı [1, s.411; 3, s.282]. Azərbaycanda təhsilin yeni mərhələsi başladı, onun məzmun və keyfiyyətində də dəyişikliklər müşahidə olnurdu.

Azərbaycan Respublikası ali təhsil sahəsində təhsil sənədlərinin və elmi dərəcələrin tanınması ilə bağlı YUNESKO-nun 1979-cu il Paris Konvensiyasına, 1983-cü il Banqkok Regional Konvensiyasına, habelə Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında 1997-ci il Lissabon Konvensiyasına qoşuldu [1, s.412]. Beləliklə də Azərbaycan ali təhsil sistemi dünya təhsil sisteminə ineqrasiya olundu və ali məktəblərdə yeni-yeni ixtisaslar üzrə kadr hazırlığına başlanılıdı. O cümlədən, Gəncə Dövlət Universitetində bu proses həyata keçirilməyə başlandı

Azərbaycan Respublikasının ali təhsil ocaqlarında dünyanın qabaqcıl ali məktəblərinin təcrübəsi diqqətlə öyrənilir və tətbiq olunurdu. Azərbaycan universitetləri Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Şəbəkəsinə qoşulmuşdu. 2002-ci ilin sentyabr ayında bu təşkilatın II konqresi Bakıda keçirilmiş, 11 ölkənin 70 nümayəndəsinin təmsil olunduğu bu forumda universitet təhsilinin mühüm problemləri, təcrübəsi təhlil və müzakirə olunmuşdu.

Ulu öndər Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, təhsil sahəsindəki konsepsiyası, siyasi kursu onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün dövlət səviyyəsində təhsil və elmə olan diqqət və qayğı bu sahənin inkişafını şərtləndirməkdədir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan tarixi. (7 cilddə), VII cild, Bakı, "Elm", 2008, 608 s.+80 səh. illüstrasiya
2.XX əsr Azərbaycan tarixi. II cild, Bakı, "Təhsil", 2009, 260 s.
3. Azərbaycan Respublikası.1991-2001. Bakı, "XXI-Yeni Nəşrlər Evi" 2001, 360 s.
4. "Respublika" qəzeti, 14 iyun 2000-ci il.

ZƏNGƏZUR DƏHLİZİNİN REGİONAL VƏ BEYNƏLXALQ ƏHƏMİYYƏTİ

[1,2]**Elgün Məhəmmədəli oğlu Aslanov,** [1,3]**Ceyhun Nadir oğlu Hüseynov**
[1]Azərbaycan Dövlət Aqrar Universiteti
[2]tarix üzrə fəlsəfə doktoru, dosent
[3]siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

1861-ci ildə əsası qoyulmuş Zəngəzur rayonu dağ silsiləsi ilə əhatə olunmuşdur [5]. Kürəkçay müqaviləsi ilə bölgə (Qarabağ xanlığı) 1805-ci il mayın 14-də Rusiyaya birləşdirildi [1]. 1905-ci ildə Şimali Azərbaycan bölgəsində ermənilər; Zəngəzur, Pəmbək, Gəncə, Tiftiş kimi bölgələrdə azərbaycanlılara qarşı hücumlar və qırğınlar həyata keçirmişdir. 1918-ci ilin martında ermənilər türkləri həmin bölgədən təmizləmək üçün Bakıya yenidən hücuma keçdilər. Bu hücumla Bakını viran qoydular [4]. 1918-1920-ci illərdə hakimiyyətdə olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur Qarabağ quberniyasının dörd mahalından biri idi. Ərazisinin ölçüsü 7824 km2 idi. Bu dövrdə Zəngəzur dörd vilayətdən ibarət idi: Zəngəzur (rayon mərkəzi Gorus şəhəri idi), Kafan, Mehri və Sisyan [10]. Mudros sülh müqaviləsindən sonra Osmanlı imperiyası öz ordusunu Bakı və Cənubi Qafqazdan çıxardı. Müttəfiq dövlətlər sözügedən bölgələri işğal etdilər. General Tomson Müttəfiq Qüvvələrin komandanı idi. Onun tərəfindən Zəngəzurun beşdə dördü Əbdülvahap Akıncıya - Erməni dəstəsinin başçısı Andronikə verildi. Andronik bölgəni, o cümlədən Qarabağı və Gəncəni "Kiçik Ermənistan" adlandırıb. O, bölgədə yaşayan türkləri və müsəlmanları yox edib, sözügedən torpaqları Ermənistana birləşdirmək istəyirdi. Andronikin başçılığı ilə Balasan Ayrapetov, Usub Hacıyev və Arutyun Loğmanov kimi dəstə başçıları bölgədə böyük bir qırğın törətdilər. Zəngəzur qəzasında yandırılan və dağıdılan kəndlərin sayı 115-dir. Qırğında 2276 qadın, 2196 uşaq və 3257 kişi öldürülüb. Minlərlə insanın yaralandığı hadisələrdə 50 mindən çox Zəngəzurlu köçəri vəziyyətə düşmüşdür [8].

1918-ci ilə qədər yaradılmış bufer zonalarında ermənilər həmişə azlıq təşkil ediblər. Ermənilərin bir bölgədə çoxluq təşkil etməsi 1918-1920-ci illər və 1930-1946-cı illər arasında türklərə qarşı aparılan "etnik təmizləmə" nəticəsində mümkün olmuşdur. Bu məqsədlə 1920-ci ildə Azərbaycanı hissə-hissə parçalamağa və ermənilərin bu bölgəyə, həmçinin Borçalıya Gürcüstana hakim olmasını təmin etməyə nail oldu; Dərbənd Dağıstana, İrəvan və Zəngəzur Ermənistana verildi. Eyni məqsədlə 1923-cü ildə Qarabağın dağlıq hissəsində muxtar respublika yaradıldı[4]. Mehri rayonunun bir hissəsi Ermənistana verilərək orada Mehri vilayəti yaradıldığı halda, rayonun digər hissəsi Azərbaycana verilmiş və həmin bölgədə Zəngilan vilayəti yaradılmışdır. Kafan quberniyasının ərazisinin bir hissəsi 1930-cu ildə Ermənistana verilmişdir. 1933-cü ildə Kafan ərazisinin bir hissəsində Qubatlı vilayəti yaradıldı və Azərbaycana birləşdirildi. Zəngəzur qəzasında yerləşən Zəngəzur quberniyası 1930-cu ildə iki yerə bölünərək Gorus və Laçın quberniyaları yarandı. Laçın Azərbaycana, Gorus isə Ermənistana bağlı idi. Bununla da Zəngəzurun qərb rayonları Ermənistan ərazisinə daxil edildi və Azərbaycan, Naxçıvan və Türkiyə arasında əlaqə kəsildi. Bu gün Zəngəzur bölgəsi deyildikdə, Ermənistanda əsasən Sisian, Gorus, Mehri və Qafan vilayətləri, Azərbaycanda isə Qubatlı, Laçın və Zəngilan vilayətləri başa düşülməlidir [10]. Xüsusən də Zəngəzurun Ermənistana verilməsi Rusiyanın kiçik bir torpaq parçasından istifadə edərək atdığı strateji addımın göstəricisidir. Zəngəzur rayonu Azərbaycan və Ermənistanı ayıran strateji rayondur, eni 40-45 kilometrdir. 1920-ci ildə Zəngəzur bölgəsində əhalinin əksəriyyəti türklər idi. Əksəriyyəti türklərdən ibarət olan bu bölgəyə sonralar Rusiya tərəfindən ermənilər göndərilib. Bu bölgədə müxtəlif tarixlərdə dəfələrlə türk kəndlərinə qarşı qırğınlar həyata keçirilib və türk kəndlərinin sayı azalıb. Məsələn, 1918-ci ildə baş vermiş qırğın nəticəsində Zəngəzurun 115 kəndi dağıdılmış, çoxlu sayda insan qətlə yetirilmiş, 50 min türk kəndi tərk edib köç etmək məcburiyyətində qalmışdır. Bu baş verənlərdən sonra Zəngəzur Naxçıvana və Azərbaycanın digər bölgələri arasıında səddə çevrildi. Bu sədd türk dünyasında süni maneə yaratdı. Bu dövrdə Rusiya Türk mədəniyyətini hövzəni bölmək cəhdlərini təhsil-siyasi strategiyaları ilə uğurla idarə etdi.Ruslaşdırma və assimilyasiya məqsədlərinə çatmağa başladı [4].

Zəngəzur rayonunun işğalı və qırğınlar və sürgünlər nəticəsində Naxçıvan və Azərbaycanın quru əlaqəsi kəsildi. Zəngəzuru tərk etməli olanların bir qismi Naxçıvana getdi [2]. Sovet hakimiyyətinin 28 aprel 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti elan edildikdən sonra 1920-ci il iyulun 28-də Zəngəzur Azərbaycandan ayrılaraq Ermənistanın tərkibinə daxil edildi. Beləliklə, Azərbaycan və Naxçıvan arasındakı bağ qırıldı [7].

İkinci Qarabağ müharibəsində qələbədən sonra Azərbaycan, Ermənistan və Rusiya 2020-ci il noyabrın 10-da Moskvada Dağlıq Qarabağın statusu haqqında imzalanmış sazişlə köklü dəyişikliklər baş verdi. Memorandumun 11-ci maddəsi türk dünyası kontekstində kifayət qədər əhəmiyyətlidir və vacibdir. Həmin maddəyə əsasən Naxçıvanla Azərbaycan arasında mülki şəxslərin və yüklərin daşınması nəqliyyat vasitələri təmin ediləcəkdi. Tərəflərin razılığı ilə Naxçıvanla Azərbaycan arasında nəqliyyat yolları tikiləcəkdi [6].

"Şuşa Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında müttəfiqlik əlaqələri haqqında bəyannamə" 2021-ci il iyunun 15-də imzalanıb. Sözügedən sənəddə Zəngəzur dəhlizindən bəhs edilir. Bu, ilk beynəlxalq sənəd idi.) Şuşa bəyannaməsində Zəngəzur dəhlizinin həm Türkiyə-Azərbaycan əlaqələri, həm də regional əlaqələr baxımından strateji əhəmiyyətə malik olduğu vurğulanıb [9]. İkinci Qarabağ Müharibəsindən sonra Cənubi Qafqazın strateji əhəmiyyəti daha da artmışdır. Bu baxımdan Zəngəzur dəhlizinin açılması türk dünyası ilə quru əlaqə yaratmaq məqsədi ilə böyük əhəmiyyət kəsb edir. Zəngəzur Türkiyə, Azərbaycan və Naxçıvan arasında quru əlaqənin yaradılması baxımından əhəmiyyətlidir. Bu dəhlizin Türkiyə və digər türk dünyaları ilə əlaqələrin qurulması baxımından yeni bir dövrün başlanğıcı sayıla bilər. Lakin məlumdur ki, Ermənistan bu dəhlizlə bağlı Brüssel danışıqları zamanı dəhliz açılmasına şübhə ilə yanaşırdı [2].

Zəngəzur dəhlizinin açılması həm geosiyasi, həm də geostrateji baxımdan əhəmiyyətlidir və bəzi dairələrə görə bu həm də Turan dəhlizinin formalaşması deməkdir. Hazırkı dövrdə Qafqaz, Rusiya və Mərkəzi Asiyanın enerji tranzit nöqtəsi kimi regionda seçilən Azərbaycan, daha əvvəl də qeyd olunduğu kimi, türk dünyası ilə siyasi, tarixi və mədəni əlaqələri ilə də seçilir. Ermənistandan fərqli olaraq, Azərbaycan istər qlobal münasibətlər, dövri inkişaflar baxımından, istərsə də neftinin qiymətinin artması səbəbindən dünya ilə iqtisadi mövqeyini tədricən gücləndirir. Zəngəzurun böyük geosiyasi əhəmiyyəti var. Zəngəzurun açılması sayəsində Çindən Macarıstana qədər coğrafiyanın birləşməsi mümkün olacaq [3].

Naxçıvanla Qərbi Azərbaycan arasında əlaqəni təmin edən Zəngəzur dəhlizi ilə bağlı əldə olunan razılaşma türk dünyasının inteqrasiyasına yol açmış, enerji və ticarətin sağlam logistikası kontekstində yeni vəziyyətin yaranmasına səbəb olmuşdur. Bir Kəmər Bir Yol Layihəsi çərçivəsində marşrutun əhəmiyyətli dərəcədə qısalmasını təmin edən Zəngəzur Dəhlizi qlobal ticarətin həm vaxt, həm də xərc baxımından daha yaxşı şəkildə həyata keçirilməsini təmin edir. Zəngəzur dəhlizində nəqliyyat şəbəkələrinin tamamlanması ilə regionun əhəmiyyətinin daha da artacağı göz qabağındadır. Bu proses türk dünyasının həm zənginləşməsinə, həm birləşməsinə, həm də bir-birinə kömək etməsinə imkan verəcək.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədova, E. (2020), "Erməni işğalından azad edilmiş Kubadlı rayonunun (rayonunun) tarixi və Kubatlı toponiminin etimologiyasına baxış", IV. Beynəlxalq Türk Dünyası Sosial Elmlər Simpoziumu, Osman Kubilay Gül, Berker Kurt və Celal Can Çakmakcı, red., ISBN: 978-605-67570-7-5, 81-86

2. Azərbaycan tarixi, 1900-1920-ci illər. (2001), 7 cild. Cild 5. Bakı, AMEA nəşri.

3. Demirkollu, C. (2020), "Changing Israeli Geopolitics on the Axis of Zəngəzur Corridor", Dördüncü Beynəlxalq İsrail və Yəhudilik Araşdırmaları Konfransı 2020 Proceedings and Abstract Book, ed., M. Mustafa Qulu, səh. 135-137. (E.T.: 13.04.2023), https://dergipark.org.tr/az/download/journalfile/16701#page=141

4. Kızıl, Ö. (2016), Zəngəzur dəhlizindən Əzəzə qədər Türk Dünyasında Süni Divar Böhranı, (E. T.: 02.05.2023,

5. Hüseyn-Zədə, K. və Kocaman, S. (2023), "Qarabağ və Şərqi Zəngəzur Bölgələrinin Alternativ Turizm Potu

6. Özdemir, D. M. və Kantar, G. (2023), "Şuşa Bəyannaməsinin Önəmi və Mümkün Təsirləri". MANAS Sosial Araşdırmalar Jurnalı, 12 (2), səh. 733-744. DOI: 10.33206/mjss.1221730

7. Seyidov, M. və Akıncı, A. (2021), "Türkiyə Naxçıvanın Varlıq Mübarizəsində", International Journal of Disciplines Economics & Administrative Sciences Studies, 7 (30), s. "A Research on 395-401Nsiline", Journal of Social, Human and Administrative Sciences, 6(3), s. 304-318.

8. Seyidova, S. (2014), "Daşnaksütyun Erməni Terror Təşkilatının 1918-1920-ci illərdə Cənubi Qafqazda və Yuxarı Qarabağda törətdiyi qırğınlar" Türkşünaslıq, 9(1), s. 485-494.

9.T ütünsatar, A. (2022), "Beynəlxalq Ticarət Siyasəti və Logistika Aspektində Zəngəzur Dəhlizinin Önəmi", Türkiyə Peşə və Sosial Elmlər Jurnalı, 4(8), s. 66-74

10. Üste, A. N. və Aydın, Ü. S. (2022), "Cənubi Qafqazda regional təhlükəsizlik kompleksi nəzəriyyəsi kontekstində Zəngəzur dəhlizinin əhəmiyyəti", Manisa Celal Bayar Universiteti Sosial Elmlər Jurnalı, 20 (Xüsusi buraxılış), s. 261-274.

AHISKA TÜRKLƏRİNİN DİL VƏ TARİXİNƏ BİR BAXIŞ

[1,2]**Sevda Abdullayeva,** [1]**Lalə Abdullazadə**
[1]Azərbaycan Dövlət Aqrar Universiteti
[2]tarix üzrə fəlsəfə doktoru, dosent
sevda.abdullayeva.1986@ mail.ru

Ahıska türklərinin mənşəyi məsələsi uzun müddət müzakirə mövzusu olsa da, elmi dairələrdə bu məqam tam araşdırılmamışdır. Ahıska türklərinin Qafqaz və Ahıska bölgəsindən sürgün edilməsindən sonra bu tayfa həm Rusiyada, həm də digər muxtar türk respublikalarında məskunlaşmışdırlar. Rusların hazırladığı demoqrafik statistikada Ahıska türklərinin bir-bir hansı bölgələrdə məskunlaşdıqlarını asanlıqla müəyyən etmək mümkündür. Ruslar onlara yaratdıqları mədəni basqılarla bu türk millilərinə öz təsirlərini tətbiq etməyə çalışsalar da bunun uğurlu olmadığını gördükdə bu millətin etnik olaraq gürcülərə aid olduğu fikrini irəli sürmüşdülər. Bu fikrə uyğun olaraq bir çox rus və gürcü mənşəli alimlər kifayət qədər həcmli əsərlər nəşr etdirmişlər. Həyata keçirilən təcrübələrlə yanaşı, Ahıska türklərinin rəhbərlərinə zorla və ya satınalma yolu ilə özlərini gürcü kimi qəbul etmək və xalqı bu fikrə inandırmaq üçün müxtəlif təkliflər irəli sürmüşlər.Tədqiqatın məqsədi Araşdırmamızda həm bu iddianı, həm də digər iddiaları nəzərə alaraq Ahıska türklərinin etnik mənşəyini aydınlaşdırmağa çalışmışıq. Bu tədqiqat aparılarkən Ahıska türklərinin fiziki quruluşu (fiziki antropologiyası), məskunlaşdığı ərazilər (tarixi coğrafiyası) və dil xüsusiyyətləri (dialektləri) ətraflı araşdırılmış, onların mənşəyi nəzərə alınmaqla qeyd olunan fənlərdən bəhrələnməyə diqqət yetirilmiş, metodoloji xüsusiyyətləri və onların tarix elminə verdiyi töhfələr aydınlaşdırılmışdır.

Bundan əlavə, tarix fənnində tətbiq edilən müqayisəli üsulla Ahıska türkləri ilə gürcü və oğuz türkləri arasında oxşar və fərqli cəhətlər ətraflı şəkildə ortaya qoyulmağa çalışılmışdır.

Ahıska adına erməni, gürcü, rus və türk mənbələrində (Ak - Sika, Ak - kale, Akesga, Ahal - tsihe, Axalsixe, Akal kelek, Akal kalak və s. formalarında) rast gəlinir. Ahıska kiçik bir bölgənin adı kimi xatırlandığı üçün coğrafi olaraq "Mesxet Bölgəsi" kimi tanınır. Ahıska türklərinin bəzi gürcü və erməni mənbələrində mesket - misket türkləri adlandırılmasının səbəbi "onların Gürcüstanın cənubunda, Qara dənizin Acarıstan sahillərindən Borjomi çayına qədər 150 kilometrlik ərazidə məskunlaşmalarıdır. Kür çayı..." (Arslan, 1995: 2). Lakin hər iki ad coğrafi adlandırma əsasında verildiyi üçün bu bölgədə etnik cəhətdən məskunlaşan Ahıska türklərinin mənşəyinin müəyyən edilməsində kifayət qədər başlanğıc nöqtəsi kimi görünə bilməz. Xüsusilə Qafqazın çoxəsrlik köçləri qarşılayan ən mühüm tranzit məntəqələrindən biri olduğunu nəzərə alsaq, coğrafi bölgəyə əsaslanan etnik müəyyənləşmələrin keçərli olmayacağını təqdir etmək lazımdır. Coğrafi mühit və mədəni zonalar daxilində olmaq tarix elmində və etnik təhlildə bir çox məsələlərin

işıqlandırılmasında mühüm başlanğıc nöqtələri hesab olunur (Proşteyn, 1978: 76). Bəzi nəzəriyyələr bu nöqtəyə uyğun formalaşdırılmağa çalışılır. Coğrafi ərazi nəzəriyyəsində tayfaların keçid nöqtələri olan Anadolu, Qafqaz və Mesopotamiya kimi müstəsna bölgələr də vardır. Ahıska türkləri belə bir geostrateji bölgədə məskunlaşmış tayfalardan biridir ki, bu da "Tibələr qapısı"dır. Türk tayfaları arasında olan skiflər coğrafi mühit və ictimai həyat baxımından araşdırılmış, dil xüsusiyyətləri, dövlət quruluşları tipik türk dövlət ənənələri ilə müqayisə edilmiş, arxeoloji məlumatları dəstəkləyən xüsusiyyətləri göstərən arxeoloji məlumatlar, yazılı mənbələr nəticəsində etnik quruluşları müəyyən edilmişdir.İskitlərin etnik mənşəyi uzun illər aparılan tədqiqatlar nəticəsində aşkar edilmişdir. Göktürklərin mənşəyinin qısa müddətdə təyin oluna bilməsinin səbəbi bu tayfanın məskunlaşdığı ərazi "mərkəzi yerdə" (Orta Asiyada - Türküstanda) yerləşməsi, işlətdikləri dil açıq-aşkar türkcədir və ictimai həyatları türk xalqlarında görünən fərqli xüsusiyyətlər nümayiş etdirir. Etnik təhlil və müəyyənləşmələr tayfanın hərbi gücü, əhalinin quruluşu, tarixi fəaliyyəti, bölgəsi, mədəni zənginliyi, mədəni qarşılıqlı əlaqəsi, qonşu dövlətlərin salnamələrindəki yazılı məlumatlar, arxeoloji məlumatlar, geosiyasi mövqeyi və s. elementləri ilə müəyyən edilir. Tarixi axarda güclü mədəniyyətə malik olan skiflər və göktürklər sənəti, ordu quruluşu, dövlət idarəçiliyi, dilləri, adət-ənənələri və s. ilə digər dövlətlərlə müqayisə edilirdi. Onlar bir çox cəhətdən təsir gücünə malik iki böyük dövlətdir. Bu böyük tayfalardan başqa tarixdə iştirak etmiş, lakin öz adlarından başqa heç nə qoya bilməyən (Kurukanlar kimi) və milliyyətini belə dəqiq müəyyən etmək mümkün olmayan tayfalar da vardır. Ahıska türklərinin etnik mənşəyi və mədəniyyəti baxımından tarixi inkişafı haqqında birinci əldən mənbələrə və ətraflı məlumatlara rast gəlmək çox çətindir. Ahıska türklərinin etnik mənşəyini müəyyən etmək üçün ilk növbədə onların indiki coğrafiyasını müəyyən etmək lazımdır. Bu gün Ahıska türklərinin yaşadığı coğrafiya Gürcüstan sərhədləri daxilindədir. Məlum olduğu kimi, bu bölgədə gürcülərin tarixi çox qədimlərə gedib çıxır. Mövcud coğrafi bölgə, əhali sıxlığı və Ahıska türklərinin soyadları nəzərə alınaraq, bölgə əhalisinin gürcü ola biləcəyi ilə bağlı fikirlər irəli sürülüb. Bu nəzəriyyə ilə yanaşı, həm də azərbaycanlı sayılan Ahıska türklərinin Oğuz boyları sırasına daxil edilməsi vardır.

Üçüncü nəzəriyyəyə görə, Ahıska türkləri tatarların qohumu hesab edilir.Ahıska türkcəsi, Qafqaz regionunun digər dilləri kimi, Azərbaycan türkcəsindən daha qaba və sərt xəttlərə malikdir. Ahıska türkcəsi bəzi məqamlarda Azərbaycan türkcəsinə bənzəsə də, bu, Azərbaycan ədəbiyyatının bir mədəniyyət sahəsi kimi böyük bölgələrə yayılması və Ahıska türklərinə təsirini göstərməsi kimi dəyərləndirilə bilər. Ahıska türkcəsi həm ənənə, həm ictimai quruluş, həm də dil quruluşu baxımından Azərbaycan türkcəsindən fərqlidir. Ahıska türkləri arasında Azərbaycan əsilli insanlar yaşayır. Sayca az olan bu insanların istifadə etdikləri dil Ahıska türkcəsi ilə qarışsa da, bölgənin dillərini bilən şəxs onu asanlıqla ayırd edə və danışanın etnik mənşəyini anlaya bilər. Ahıska türkləri arasında yaşayan və yerli xalqla ictimai münasibətlərini qarşılıqlı təsir baxımından mürəkkəb şəkildə inkişaf etdirən Tərəkəmələr də var. "Bəzi etnoloqların fikrincə, Məsket türkləri əslən gürcü deyil, tatar türklərinə əsaslanır" (Avşar, et al. 1994: 7, 8). İrəli sürülən iddia qıpçaq qrupları arasında olduğundan tatarlara bənzədiyi əsası ilə qəbul edilə bilər. Amma tatarlarla Ahıska türkləri arasında nə antropoloji, nə dil, nə də mədəni baxımdan tam oxşarlıqdan danışmaq çətindir. Tatarlar da digər türk boyları kimi Qara dənizin şimalından keçərək bu bölgələrə daxil olmuş ola bilərlər, lakin onların bu bölgələrdə daimi qalmaları mümkün deyil. Əl-Məsud "Məlumat və qoşunlar" kitabında yazırdı: "Qabq dağlarında çoxlu tayfalar və hökmdarlar vardır. 72 tayfa bu dağlarda yaşayır, hər bir ekipajın öz "Özünə yaraşan hökmdarı və öz dili var" (Мизиев, 1993: 13) Göründüyü kimi, Qafqaz bir qapıdır, burada minlərlə müxtəlif insanlar yaşayır, bəziləri Asiyanın dərinliklərinə, bəziləri Avropaya, bəziləri İrana, digərləri isə budaqların Mesopotamiya və Misirə keçdiyi tarixi məlumatlardan belə anlaşılır.Tarixin ən erkən dövrlərindən etibarən asenik tayfaları Asiyadan gələnlər bu yoldan əsrlər əvvəl Şumerlər Mesopotamiyaya, Hurri-Mitanilər Anadoluya, Qara dənizin şimalında İskit-Saka adları altında soyundan gəldiyi məlumdur (Kalkan, 1996: 13). Türk boylarının Asiyadan eramızdan əvvəl başlayan köçləri zamanı sabirlər, avarlar, xəzərlər, bulqarlar, qıpçaqlar və peçeneqlər həmişə bu yollardan istifadə edirdilər. 840-cı ildə uyğurların məruz qaldıqları qırğız çevrilişi qərbə doğru hərəkəti sürətləndirdi və bir çox türk tayfaları [Doqquz tatar] (Gumilev, 1994: 432) sürətlə Qafqaza üz tutaraq Dərbənd vasitəsilə Volqa-Ural-Kama çayları

bölgəsinə keçdilər, oradan da Macarıstan düzənliyində yeni dövlətlər qurdular. Bulqar dövlətindən sonrakı dövrdə tatarların qıpçaq tayfaları tərkibində yeri və Qazan xanlığı tərkibindəki hakimiyyəti məlumdur (Mercani, 1989: 53-122). Lakin tatarların işlətdikləri dilin Qıpçaq türkcəsinə daxil edilməsi qıpçaq qrupları arasında olan Ahıska türklərinin fiziki antropologiyaya daxil olduğunu göstərir.Bu, onların eyni dildən istifadə etdikləri anlamına gəlmir. Kaşqarlı Mahmut əsərində türk dilləri haqqında ətraflı məlumat vermişdir. Əsərdə "Uyğurların dili çox sadə və təmizdir. Ən asan dil oğuzların dilidir. Kay, yabaku, tatar və basmil tayfalarının öz dilləri var. O, belə izah edirdi: "Hakanye birliyinə daxil olan xalqların ən ciddi dili türkcədir" (Kaşqari, 1993: 11,12). Tatar türkcəsi qıpçaq dil qrupunun ən zəngin və inkişaf etmiş dillərindəndir. Bu gün Şərqi Anadolu Bölgəsində (Ərzurum - Oltu / Narman, Artvin - Şavşat / Yusufeli, Ərdahan, Qars kimi şəhərlərdə) dağınıq şəkildə məskunlaşan Ahıska türklərinin istifadə etdiyi türkcə, Ahıskaların danışdığı türkcə ilə demək olar ki, eynidir. Gürcüstan sərhədlərində yaşayan türklər.. Doğu Anadolu'da kullanılan bəzi kəlmələr Azərbaycan Türkçəsindən alınmışdır. Ahıska Türkçəsində bu gün gün istifadə edilən ifalər isə az da olsa unudulmuşdur. Tatar Türkçəsi və Ahıska Türkçəsi arasında büyük farklılıklar olduğu gibi Tatarların sosial həyatındakı bəzi motivlər Ahıska Türklərində yoktur. Toy adətləri,yas törələri, qadının ailə içindəki sərbəstlik anlayışı tamamən fərqlidir. Ahıska Türklərində qapalı mədəniyyət anlayışı görülürkən, Tatarlar açıq mədəniyyət üstünlük təşkil edir. Sosial həyatda Tatarlar ticarətlə, Ahıska Türkləri isə maldarlıq və əkinçiliklə məşquldurlar. Musiqi anlayışından yemək dadına, yerli oyunlardan dini yanaşmaya qədər müxtəlif xüsusiyyətlər sərgilənir. Məlum olduğu kimi, Qafqaz bölgəsi (Gürcüstan, Ermənistan və Azərbaycan) Göktürklər Dövləti dövründə türk boylarının məskunlaşdığı bir bölgə olmuşdur. Türk tayfaları bu bölgədə məskunlaşarkən Uyğur dövlətinin inzibati mərkəzini Şimali Çinə köçürməsi Qafqazda məskunlaşma hərəkətlərini dayandıra bilmədi. 840-cı il məğlubiyyəti davam edən və hətta Ərəbistan yarımadasına, İrana və Misirə yayılan sürətli məskunlaşmanı daha da artırdı və qırğızlardan qaçan türk boyları bu bölgələrdə məskunlaşmağa məcbur oldular. Qırğız çevrilişi qapçaqların əvvəllər bu bölgədə məskunlaşan oğuz tayfalarına (Seyhun - Ceyhun və Transoxiana) qarışmasına səbəb oldu. Göktürk kitabələrində də görünən Oğuz - türk adı altında toplanan digər tayfaların mübarizəsi sonralar türk boylarını oğuzlar - qıpçaqlar olaraq iki yerə böləcək və sosial parçalanma baş verəcək (Гумилев, 1992: 99).Bu bölgü dəqiq müəyyən edilməsə də, kitabələrə diqqətlə nəzər salındıqda aralarındakı qızğın mübarizə asanlıqla sezilir. Bu tarixdən sonra qıpçaq qrupları (peçeneqlər, uzlar, kumanlar, tatarlar, daha sonra isə monqol təzyiqi altında uyğurlar və qırğızlar) qərbə, Qafqaz bölgəsinə və Qara dənizin şimalına sürətlə köç etməyə başladılar (Aydarov, 1995). :173-179-180). Göktürklərdən əvvəl insanlar bu bölgələrə köçsələr də, say baxımından əhəmiyyətli bir hərəkət olmamış, bölgənin yerli əhalisi məskunlaşdıqları yerləri tərk etməmişlər.

Bu gün Qafqaz, Gürcüstan və Azərbaycan kimi tanınan torpaqlar əsrlər əvvəl strateji mövqeyi və zənginliyi ilə diqqəti cəlb edən torpaqlardır. Bu bölgə əsrlər boyu Sasanilərin, Romalıların və ərəblərin diqqətini cəlb etmiş və bölgə uğrunda şiddətli mübarizə aparılmışdır. Sasani hakimiyyəti ortadan qalxdıqdan və Roma İmperatorluğu bu geniş coğrafiyada təsirsiz hala düşdükdən sonra bölgə əvvəlcə ticarət mərkəzinə, sonra isə ərəb təsirinin aktiv olduğu yerə çevrildi. Romanın bölgədəki təsiri, MS. V-VI əsrlərdən sonra yox olmağa başlayanda Qafqazda - Cənubi Gürcüstanda siyasi təsir boşluğunu türk tayfaları doldurdu. Asiyada türk boyları arasında davam edən mübarizə, quraqlıq, münbit torpaqlar və qüdrətli dövlətlərin mübarizəsi zamanı yavaş-yavaş azalmağa başladı. Türk əhalisi eramızdan əvvəl VIII-IX əsrlərdə Qafqaz bölgəsinə doğru çevrilmişdir. Türk boylarının bu bölgədə demoqrafik çoxluq təşkil etməyə başlaması etnik quruluşu və ictimai həyatı mütləq dəyişdi. «Azərbaycanın şimalında hündürlüyü bəzən 3000 metrdən çox olan Qafqaz dağları, cənubunda isə Ermənistanın dağ kütlələri yerləşir... Dağlarla əhatə olunsa da, Azərbaycan ərazisinin 40%-i düzənlikdir. Burada hündürlüyü 2000 metrə çatan yüksək dağ zirvələri olan yaylalar, düzənliklər və çöllər, həmçinin dəniz səthinin altındakı qurular var. Dərin dərələr və çay yataqları ilə qırılan əzəmətli silsilələr və çıxıntılar Şimal bölgəsinə qeyri-adi gözəllik qatır. Azərbaycanın ən məhsuldar bölgəsi Kür və Araz çaylarının deltalarının qarışdığı yerdir (Avşar, et al. 1994: 37). Türk tayfaları Azərbaycana və Gürcüstana gəlməzdən əvvəl bu bölgədəki kiçik dövlətlərdə aydın şəkildə görünən fars mədəniyyəti və dilinin təsiri bir müddət sonra Oğuz türkcəsi ilə əvəz olundu. Eyni

zamanda bu bölgədə yaşayan insanların dini həyatında struktur dəyişikliyi baş verib. Zərdüştilik və şamanizm xüsusiyyətlərini nümayiş etdirən qarışıq dini quruluş, yeni tayfaların dini olan Tək Tanrı (Göy Tenqri) inancı ilə əvəz olunacaq. Amma bu gün də bu adət-ənənələr, dini inanclar Azərbaycanda səthi də olsa unudulmamış, davamlı olaraq günümüzə qədər gəlib çatmışdır (Zeynal, 1995: 38). Azərbaycan bir çox tayfaların məskəni olub və zənginliyi həmişə diqqəti cəlb edib. Bu bölgədə gürcülər, lazlar, ermənilər, avarlar, dağlılar, çərkəzlər, çeçenlər və ləzgilər qarışıq ictimai quruluş formalaşdırıblar. Oğuz türkləri bu bölgəyə gələn tək türk boyları deyil, onların əksəriyyətini oğuz türkləri təşkil edir.Türk tayfaları hər zaman güclü olmaqla hərbi dinamizmə və hərəkət gücünə nail ola biləcəklərini bilirdilər. Yoxsa idarədə başqa bir klanın söz sahibi olacağını və hadisələrin gedişatına uyğun olaraq hərəkətlərini tənzimləyəcəyini bilərdi. İki qüdrətli birlik eyni yerdə sağ qalmaq şansı olmadığından bəzən o biri tayfa heç bir mübarizə aparmadan mövcud yeri tərk edərək başqa torpaqlarda özünə dövlət qururdu. Bəzən o, digər klanın idarəçiliyini qəbul edir və idarəyə azacıq təsir etmək üçün yollar axtarırdı (Kalkan, 1995: 18,19). Fiziki quruluş (antropologiya) oğuz tayfalarında qıpçaq tayfalarında fərqlidir. Bu iki qrup brexisefal irq xüsusiyyətlərini nümayiş etdirsə də, qıpçaq tayfalarının fiziki quruluşları diqqətlə araşdırıldıqda oğuz fizioqnomiyasının özünəməxsus xüsusiyyətlər nümayiş etdirdiyi görünür. Bu fərq Roma, gürcü, erməni və slavyan mənbələrində də başa düşülür. Oğuz türkləri; orta boy, yumru üz, enli alın, seyrək saqqal, kiçik yuvarlaq burun, kiçik batıq gözlər (mavi, qara, qəhvəyi), brexisefal monqoloidlərdəki qədər olmasa da, tüksüz bədən, zəif aşağı bədən, güclü inkişaf etmiş əzələlərlə örtülmüş, tünd rəngdə və aydın görünən yanaq sümükləri ilə təsvir edilmişdir. Qıpçaq qrupları bunlardır; orta və hündürboy, yuvarlaq iri yastı üz, uzun düz burun, yanaq sümükləri bir qədər çıxıntılı, inkişaf etmiş sümük quruluşu, tüklü bədən, qalın saqqal və saç, inkişaf etmiş iri əzələlər, uzun ayaqlar və güclü qollar, çox çıxmayan normal ölçülü gözlər (Yaşıl, mavi, qara, qəhvəyi), dar alınlı və ağ dəri rəngli bir irq olaraq təsvir edilmişdir. Bundan əlavə, qıpçaq tayfalarının oğuz boylarından daha sərt və qəddar olduqları xüsusi vurğulanır (Sadıkov, et al. 1995: 66-67). Oğuz tayfalarının qıpçaqlardan zəif olduqları, lakin hələ də fəal olduqları bildirilmişdir. Rus salnamələrində və Roma mənbələrində deyilir: "Qıpçaqlar çox güclü və amansız mübarizə aparan türk tayfalarındandır. "Qıpçaq döyüşçüsü 4-5 slavyan əsgərini öldürəcək qədər yaxşı döyüşür" (Kırzıoğlu, 1992). Qıpçaq tayfaları, «XI. Əsrin yarısından başlayaraq Volqadan başlayaraq qərbə doğru irəliləməyə başladılar.Şərqi Avropanın dərinliklərində bölgədə hərəkətdə olan qıpçaqlar öz adını bu çöllərə (Deşt-i Qıpçaq) verdilər. Kimekləri öz qrupuna daxil edən qıpçaq tayfaları arasında başqırd, peçeneq, korluk və oğuz boyları da var idi. (Akişev, 1994: 76,77).

Rus salnamələrində qıpçaqların (qıfçaqların) Möhür, Tork, "Kəngər" tayfasının Peçeneq, Qıpçaqların Kuman və Poloves kimi adları çəkilir. Qafqazda, Gürcüstanda və Ermənistanda məskunlaşan qıpçaq tayfalarının bir qismi orada qalıb oğuzların hökmranlığını qəbul etdilər. Eyni coğrafiyada məskunlaşan tayfalar arasında dağlılar, çeçenlər, qaraçay-balkarlar, kimeklər və qara papaqlar öz yerini tutmuşlar. Xüsusilə qaraçay-balkarlar, dağlılar, qara papaqlar və kimeklər Qıpçaq qrupunun öz mədəni xüsusiyyətlərini açıq şəkildə nümayiş etdirən qruplarındandır. Tatarlar Dərbənd bölgəsindən sürətlə keçərək, bolqarlara qoşuldular və bu bölgələrdə (Gürcüstan, Qafqaz və Ermənistanda) dayanmadılar. Ahıska türkləri, əsasən, Cənubi Gürcüstanın Mesxetiya adlanan bölgəsində cəmləşiblər. Amma onların Mesxet adı və onun etimologiyası ilə heç bir əlaqəsi yoxdur. Ahıska türklərinin tarixi inkişaf kursu Qafqazda türk boylarının tarixi, məlum olduğu kimi, e.ə. 54-cü əsrə aid edilə bilər. İskit-sak qruplarının bu bölgədən keçid məntəqəsi kimi istifadə edərək Avropaya daxil olduqları mənbələrdə aydın görünür. Qafqazdakı skif dəstələri Avropaya keçdikdən sonra onların qurduqları dövlətlər əvvəlki qüdrətlərini qoruyub saxlaya bilmədiklərinə görə dağıldı və bir çox tayfalar onların çıxış nöqtəsi olan Qafqaza çəkildi.Eyni hadisə hun türkləri tərəfindən e.ə. 3.-4. Atilla və Qərbi Avropa hunlarının qurduğu dövlətin süqutundan sonra hunlu Atillanın oğulları və hunlara tabe olan tayfalar bu bölgəyə qayıtmalı və öz varlıqlarını qorumalı oldular. 8-9-cu əsrlərdən sonra Qafqazda hərəkətin başlanması ilə X-XI əsrdə bəzi qıpçaq tayfaları müxtəlif səbəblərdən bu bölgələrdə məskunlaşmışlar. Bölgənin zamanla türkləşməsi, dalğıc taxtası olaraq da bilinən bu torpaqların məskunlaşma məqsədilə geniş istifadə edildiyini ortaya qoyur. Ahıska türklərinin skif-sak fraqmentlərinin özəyi olması ehtimalı azdır, çünki skif silsiləsi üzərindən Sabir,

Avar, Xəzər, Bulqar, Peçeneq, Kuman, Qıpçaq və Monqol qrupları son nəsil qıpçaq qruplarıdır. Monqol tayfalarının bu bölgəyə güclü təsirindən danışmaq mümkün deyil. Monqolların Qafqaza hücumu zamanı bu bölgədə qıpçaqların və uyğurların hərbi qüdrəti qiymətləndirilirdi.Monqolların əhalinin sıxlığı və hərbi gücü belə uzaq diyarlara çatmaq və əhalinin strukturunu dəyişmək üçün kifayət etməmişdir (Hara Davan, 1992: 195,196). Ahıska türklərinin məskunlaşdığı ərazi qıpçaq boylarının başlanğıc nöqtələrindədir (Madanov, et al. 1994: 35,36). Bundan əlavə, fiziki quruluş baxımından Azərbaycan türkləri ilə qarışmamış Ahıska türkləri bir çox məqamlarda qıpçaqlara çox bənzəyirlər. Ahıska türklərinin fiziki quruluşları qıpçaqlardan bir qədər fərqlənir və bu fərq iqlim və coğrafiyaya görə dəyərləndirilməlidir. Hündür dağ silsilələri ilə əhatə olunmuş Qafqaz son dərəcə sərt iqlimə malikdir və bu iqlim quruluşu bölgə əhalisini soyuğa davamlı edir. Coğrafi quruluş dağlıq olduğundan Qafqazda fiziki şərait sərtdir, soyuqlar isə yağlı qidalarla güclü qidalanma tələb edir. Aktiv həyat, təmiz hava, təbii qidalar, zəngin qida növləri və soyuq iqlim insan bədən quruluşunu cüzi də olsa yaxşılaşdırmış ola bilər. Bu səbəbdən Ahıska türklərinin bədən quruluşları qıpçaq boylarına nisbətən fiziki cəhətdən bir qədər inkişaf etmişdir. Eyni şey, e.ə əsrlərdə dağlıq bölgələrdə yaşamış hun türklərinə də aiddir. 20-ci əsrin əvvəllərində dağlıq ərazilərdə aparılan arxeoloji qazıntılar zamanı kurqanlarda aşkar edilmiş hun cəsədlərinin fiziki xüsusiyyətləri əlaqədarların diqqət mərkəzində olmuşdur. Çöl bölgəsində köçəri olaraq yaşayan hunların cəsədləri üzərində aparılan araşdırmalarda kişilərin orta boyunun 1,65 - 1,70 - 1,75 sm olduğu müəyyən edilərkən, hunların kurqanlarında tapılan cəsədlər üzərində aparılan araşdırmalarda kişilərin orta boyunun 1,65 - 1,70 - 1,75 sm olduğu müəyyən edilmişdir. Bu isə dağlıq bölgələrdə yaşayan hunların arasında (Dağ Hunları) böyük fərqlər olduğunu ortaya qoydu. Dağ Hunları və ya Meşə Hunları kimi tanınan qrupun orta boyunun 1,75 - 1,80 - 1,85 sm olduğu aydınlaşdıqda, digər kurqanlar diqqətlə araşdırılıb. Tapılan cəsədlərin brexisefal olması və türk adət-ənənələrinə uyğun dəfn edilməsi digər şübhələri aradan qaldırmış, son araşdırmalarla türk boyları arasında fərqli fiziki xüsusiyyətlərə malik tayfaların olduğu anlaşılmışdır. Bu dəyişikliyə iqlim və coğrafi quruluşun səbəb ola biləcəyi vurğulanmağa başlandı.

Eynilə, Ahıska türklərinin zahiri görünüşü də Qıpçaq türklərindən bir qədər fərqlənir ki, bu da bu səbəblərlə əlaqələndirilə bilər. Ahıska türklərinin etnik quruluşunun məskunlaşdıqları bölgədəki digər xalqların təsiri altına düşməsi (evlilik və s.) nəticəsində də fiziki fərqliliklər baş vermiş ola bilər. Ahıska türkləri arasında da oğuz tipologiyasını göstərən nümunələr müəyyən edilmişdir, lakin bunların Azər, Tərəkəmə, Qara Papaq və Dağıstan tayfaları ilə qarışması mümkündür. Adı çəkilən tayfalar arasında oğuz mənşəli tayfalarla yanaşı, qıpçaq tayfalarına (dağlılar, qaraçaylar və balkarlar) yaxın tayfalar da olduğu üçün Ahıska türklərinin tipologiyasında o qədər də fərq yox idi. Ahıska türklərinin antropoloji quruluşunda; Orta, hündür bədən quruluşu, geniş üz, uzun düz və ya bir qədər əyilmiş burun, çəngəl-düz çənə, böyük göz yuvaları, kiçik normal ölçülü mavi (göy mavisi və onun çalarları), qəhvəyi, qara gözlər, qalın saqqal soyuq havanın gətirdiyi tüklü bədən, iri sümük quruluşu və inkişaf etmiş bədən xüsusiyyətləri görülür. Osmanlı türkləri olaraq da bilinən Ahıska türklərinin, mədəniyyətlərindən başqa Osmanlı fizioqnomiyası ilə çox oxşarlığı yoxdur... 11-12-ci əsrlərdən sonra bu bölgədə məskunlaşan və Qıpçaq türkləri olduqları (mədəniyyəti, dili, antropoloji quruluşu və adət-ənənələri baxımından) güclü şəkildə iddia edilə bilən Ahıska türkləri Səlcuqlulardan sonra Osmanlı İmperiyasının hüdudları daxilində qalmışdır. "Osmanlılar 1573-cü ildə Gürcüstanı Orta Anadolu bölgəsindən fəth etdikdən sonra; Xüsusilə Konya, Tokat və Yozqatdan seçilən türklər Ahıska və ətrafına yerləşdirildi (Avşar, et al. 1995:15). Uzun müddət Osmanlı İmperiyasının hakimiyyəti altında yaşayan Ahıska türkləri zamanla Osmanlı mədəniyyətinin tam nümunəsinə çevrilərək Şərqi Anadolu türkləri ilə bütünləşdilər. "1828-ci ilin yayında rusların əlinə keçənə qədər 250 il Çıldır/Ahıska vilayətinin mərkəzi olan sərhəd şəhərə sancaq kimi aşağıdakı yerlər bağlı idi: 1. Bedre, 2. Azqur, 3.. Ahılkelek, 4. Hırtıs, 5. Cecerek. , 6. Ahıska, 7. Altunkale (Kabliyan), 8. Acara (Bu sancaq 16 mart 1921-ci il Moskva müqaviləsi ilə sərhədimizdən kənarda qaldı), 9. Maçaxel (üçdə ikisi) bunun Artvinin Borçka rayonunda, üçdə biri Acarıstandadır), 10. Livana (Artvin), 11. Pertekrek (Yusufeli), 12. Ardanuç, 13. İmirxev, 14. Şavşat (Bu son 5 sancak bizimdir. Artvin əyaləti bu gün), 15. Oltu, 16. Narman, 17. Kamxis (Bu, Son üçü indi Ərzurum vilayətindədir), 18. Poskov, 19. Ardahan, 20. Çıldır, 21. Küçük-Ardahan / Göle

(bunlar sonuncusu). 4 sancaq bu gün Qarsdadır) (Avşar, et al. 1995:15). Osmanlı İmperiyası Çıldır vilayətini itirdikdən sonra ruslar bu bölgələri yavaş-yavaş ələ keçirərək, Asiyanın içərilərinə yayılmağa başladılar. Rusların genişlənmələri zamanı ən böyük problemlərlə qarşılaşdıqları yer Qafqaz oldu. Rus orduları həm çar dövründə, həm də kommunist rejimində Qafqazda çoxlu itkilər verdi. Qafqaz xalqları öz müstəqilliklərini asanlıqla Rusiyaya təslim etmədilər. Dağıstanlılar, çeçenlər, balkarlar və qaraçaylar Rusiya tarixində heç vaxt nəzarət altında saxlanılmayan azlıqlar kimi görülüblər. Bu səbəbdən ruslar Qafqaza və Azərbaycan bölgəsinə böyük sərmayə qoymur, mümkün üsyanlara həmişə diqqətlə yanaşırdılar.

İstifadə edilmiş ədəbiyyat

1. K.Akishev - M. H. Asılbekov - K. S. Aldajumanov, (1994), History of Kazakhstan Köne Zamannan Buginge Deyin, Almatı.
2 A.P.Proşteyn - Z.Torqakov, (1978), Vspomogatelny Istoricheskiy Discipline, Almatı. C Zeynal-E. İsmayılov, (1993), Şaman əfsanələri və dəyişiklikləri, Bakı.
3. D.E.Yermeev, (1975), Etnogenez Turok, Moskva. F. Kırzıoğlu, (1992), Qıpçaq türkləri, Yuxarı Kür və Çoruh Boylarında Qıpçaqlar, Ankara.
4. G.Aydarov, (1995), Kültegin Eskertkişi, Almatı. H. Mədənov, C. Musin, (1994), Uly Dala tarixi, Almatı.
5. I. Hara Davan, (1992), Çingiz-Xan Kak Polkovodets və Yigo Nasledie, Alma-ata.
6. I.Miziev, (1993), Mərkəzi Qafqazın Etnik Tarixinin Köklərinə Doğru (Tərcümə: S. Eliyarlı, M.Abdulla), İstanbul.
7. K.Arslan, (1995), Ahıska türkləri, Ankara.
8. L.Gumilev, (1992) Kiyal Patshaliqin İzdeu, (Tərcümə: E. Jumabayev, P.Beysenov), Almatı.
9. L.Gumilev, (1994), Köne Türükter, (Tərcümə: R. İbrahimova), Almatı.
10. Mahmud Kaşqar, (1993), Tübi Bir Türk Tili (Tərcümə: K. Bakatayev), Almatı.
11. M.Kalkan, (1995), Orta Asiya Türk Dövlətlərində Ordu və Savaş Strategiyaları, İzmir.
12. (1996), "Tatarlar ve Türk - Monqol tayfaları Arasındakı Mənşə Problemi", Türk Kültürü Dərgisi, S. 393, İl. XXXIX.
13. O.Süleyman, (1992), Azi Ya, (Tərcümə: N. Seferoğlu), İstanbul.
14. Ş.Mercan, (1998), Müstefadü'l Ahbr f Ahval- Kazan ve Bulgar (Akt: M. Kalkan), Ankara.
15. T.Haşimoğlu, (1992), "Kto Oni Turki ?", (Tərcümə: M. Kalkan), Almatı.
16. T.Haşimoğlu, (1996), Kniga Narodnoy Pamyati, Almatı.
17. T.Sadıkov, H.Abdurahmanov, (1995), Türk Dünyası, Almatı.
18. Z.Avşar, F.Solak, F.Yorulmaz, (1994), Türkiyə və Türk Cümhuriyyətləri Yeni Yüzyılın astanasında, Ankara.

HƏRBİ VƏ SİYASİ TƏHLÜKƏSİZLİK: MƏZMUNU VƏ MÜHÜM İSTİQAMƏTLƏRİ

Davud Soltan oğlu Həşimov
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
davud_418@mail.ru

Ölkənin hərbi təhlükəsizlik aparatı, onun möhkəmliyi, dövlətin güclü siyasi, iqtisadi mövqeyi, hərbi-siyasi vəziyyəti, onun müdafiə qabiliyyəti ilə xarakterizə olunur. Siyasi təhlükəsizlik, həm də hərbi gücün kifayətli müdafiə səviyyəsində saxlanılmasına, təcavüzkar üçün qeyri-münasib qüvvələr nisbətinin yaradılmasına yönəldilmiş məqsədli siyasətin nəticəsi deməkdir. Lakin silahlı qüvvələrin rolunu siyasi təhlükəsizlik kontekstində təhlil edərkən onu da qeyd etmək lazımdır ki, güc aparatının zəifliyi, etinasızlığın göstərilməsi və ya siyasi oyunlara qoşulması, yəni siyasiləşməsi milli təhlükəsizlik strukturunu zəiflədir. Belə hallar daha çox keçid dövrlərində olur.

Keçid dövrü problemlərininin tədqiqi ilə məşğul olan filosofların, politoloqların, sosioloqların diqqəti heç vaxt siyasi proseslərin təhlili zamanı bu məsələlərdən yan keçmir. Məşhur ABŞ politoloqu S.Hantinqtonun fikrincə, yeni yaranmış demokratik cəmiyyətlər iki əsas problemin öhdəsindən gəlmişdir. Bunlardan biri ordu ilə qarşılıqlı münasibətlər, digəri isə iqtisadi islahatlardər. [6, 21]. Ordu cəmiyyətlə sıx bağlıdır. Cəmiyyətin həyatında baş verən siyasi, iqtisadi, sosial və s. hadisələr öz əksini orduda göstərir. Bir meyar kimi ictimai münasibətlərin müsbət və ya mənfi amilləri ordunun hərbi-texniki səviyyəsində, şəxsi heyətin sayında, onun hazırlığında (döyüş, mənəvi-psixoloji, fiziki), struktur təşkilatında, hərbi elmin və nəzəriyyənin inkişafında təsirini bildirir. Siyasi təhlükəsizliyi sabit, iqtisadiyyatı güclü olan dövlətlərin ordusu da, hərbi siyasəti də güclü olur. İctimai-siyasi çaxnaşmalarla daim dolu olan, rejimləri bir-birini əvəz edən, iqtisadiyyatda tənəzzülə uğrayan dövlətlərin orduları siyasiləşir, manipulyasiya obyektlərinə çevrilirlər.

Qeyd etmək lazımdır ki, milli təhlükəsizlik, onun daxili elementi kimi siyasi, hərbi təhlükəsizlik məsələlərinə dair qanunlar, hüquqi-normativ sənədlər, təhlükəsizlik siyasətini həyata keçirən dövlət təhlükəsizlik şuraları XX əsrdə yaradəlsa da, onun nəzəri əsasları daha qədimdir. Belə ki, dövlətin, siyasi hakimiyyətin möhkəmliyi, "uzunömürlüyü", dinamikliyi, onlara nail olma yolları, dövlətin siyasi əsaslarını sarsıdan elementlərin vaxtında aradan qaldırılması, onu mənfi təsirlərdən, təhlükələrdən qorumaq haqqında ilk təsəvvürlər dini-mifoloji formalarda əks olunub. Əlbətdə ki, hər bir xalqın əfsanə və rəvayətlərində onun mifik dünyagörüşü, onun psixologiyası, adət-ənənələri, əxlaqı, ictimai-siyasi, fəlsəfi görüşləri əks olunur. Tarixən siyasi quruluşların, ölkə vətəndaşlarının qorunması, ölkənin ümumi təhlükəsizliyinin təmin edilməsi hərbi vasitələrlə həyata keçirilmişdir. Müharibələrin aparılması, düşmən hücumlarının dəf edilməsi, hərbi zorakılıq aparatlarının yaradılması, möhkəmləndirilməsi və digər amillər siyasi təhlükəsizliyin təmin edilməsinin vasitələri olmuşdur. Türk filosofu C.Heyət yazırdı ki, ordu və ailə türk cəmiyyətinin iki əsas dayağını təşkiol edirdi. [2, 52]. Güclü dövlətin və onun əsasını təşkil edən möhkəm ailənin olması, cəmiyyətin təhlükəsizliyinin təmin edilməsi üçün möhkəm nizam-intizamlı, təcrübəli ordunun olması əsas şərt idi. Ona görə də, türk dövlətinin təhlükəsizliyi məsələsi birbaşa güclü ordunun mövcudluğu ilə bağlı olmuşdur.

Görkəmli türk tarixçisi Bahaəddin Ögəl "Böyük hun imperiyası" adlı əsərində hunların təhlükəsizlik siyasətini hərtərəfli işıqlandırmışdır. O, qeyd edirdi ki, qədim hun dövlətində təhlükəsizliyin təmin edilməsi üçün "ordu xidməti" və müharibə açıq-aşkar bir məslək kimi qəbul olunmuşdur. "Əsgəri ruh və itaət" [4, 44] siyasəti başqa dövlətlərdə olduğu kimi hun-türk dövlətinin təhlükəsizlik strategiyasının əsasını təşkil edirdi.

Yeni dövr siyasi fikrinin dahilərindən olan N.Makiavelli (1469-1527) "Hökmdar", "Florensiya tarixi" və s. əsərlərində yazırdı ki, dövlətin siyasi təhlükəsizliyini qorumaq üçün əxlaqdan deyil, gücdən istifadə etmək lazımdır. O, yazırdı ki, güclü ordu kimin tərəfindədirsə, tale də hər zaman onunladır.

ABŞ alimi S. Hantinqton məşhur "Sivilizasiyaların toqquşması" əsərində hərbi amilə geniş verərək hərbi güc haqqında yazırdı: "Hərbi gücün 4 ölçüsü var:

- kəmiyyət – insanların, silahın, texnika və resursların miqdarı;
- texnoloji – silahların və texnikanın təkmilliyi səviyyəsi və effektliyi;
- təşkilati – qoşunların qayda-qanunu, nizam-intizamı, təlim-tədbiri və mənəvi ruhu, eləcə də komandanlığın və idarəetmənin effektliyi;
- ictimai – cəmiyyətin hərbi qüvvədən səmərəli istifadə etmək bacarığı və istəyi" [7, 126]

Ümumiyyətlə, siyasi təhlükəsizlik milli təhlükəsizliyin digər sahələri, xüsusilə hərbi təhlükəsizlik bağlıdır. Bu mənada, siyasi təhlükəsizliyin təminatı kimi ordu, təhlükəsizlik xidmətləri və digər orqanlar çıxış edir.

XX əsrin 50-ci illərinin ortalarından etibarən respublika təhlükəsizlik orqanlarında milliləşmə və tarixi ədalətin bərpa edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin xalq qarşısında ən böyük xidmətlərindən biri təhlükəsizlik orqanlarının milliləşdirilməsi məsələsinə önəm verməsi idi. Heydər Əliyev dövlət təhlükəsizlik komitəsində rəhbər vəzifələrdə işlədiyi

dövrlərdə bu orqanda həm kəşfiyyat, həm də əks-kəşfiyyat sahəsində çox bacarıqlı, savadlı azərbaycanlı kadrlar yetişdirmişdi.

Azərbaycan Respublikasının siyasi və hərbi təhlükəsizliyinin təmin olunmsında Ulu Öndər Heydər Əliyevin rolu müstəsnadır. O, ölkəni iqtisadi böhranlardan, separatizmdən, daxili çəkişmələrdən, anarxiya, siyasi xaosdan xilas etmiş, çoxpartiyalı sistemə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu prsosesinin əsasını qoymuşdur. Bu işlərin mühüm mərhələsi 1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi ilə başlamışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən 17 avqust 2002-ci il tarixdə imzalanan "Azərbaycan Respublikası Silahlı Qüvvələrinə yardım fondu"nun yaradılması barədə fərmanı ordu quruculuğunda yeni uğurlu addım olmuş, Silahlı Qüvvələrin müasir texnika ilə təmin edilməsi, maddi-texniki bazanın yeniləşdirilməsinə əhəmiyyətli dərəcədə kömək etmişdir.

Müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daxili və xarici siyasəti nəticəsində siyasi və hərbi təhlükəsizliyin daha da möhkəm təmin edilməsi istiqamətində mühüm addımlar atılır, modern təhlükəsizlik sistemi formalaşır.

İstifadə edilmiş ədəbiyyat

1. Ələkbərova N. Siyasi elmin müasir problemləri. Bakı: Elm və təhsil, 2013, 373 s.
2. Hacızadə H. Demokratiya: Gediləsi uzun bir yol. Demokratiya və antidemokratiya antologiyası (e.ə. 430- b.e. 1998). Bakı: Azərbaycan, 2001, 335 s.
3. Maykl R., Robert L. Kard, Ceyms A. Mideyros, Valter S. Cons. Siyasət elminə giriş. Bakı: Teas Press, 2019, 400 s.
4. Ögəl B. Böyük hun imperiyası. Bakı: Gənclik, 1992, 406 s.
5. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: BDU, 2002, 534 s.
6. Демократия 1990-х. Сборник. М., 1999.
7. Хантингтон С. Столкновение цивилизаций. М. АСТ, 2003, 603 с.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN HİMAYƏDARI İDİ

[1,2]**Samirə Əliağa qızı Qasımova,** [1,3]**Esmira İslam qızı Nəbiyeva**
[1]Azərbaycan Dövlət Aqrar Universiteti
[2]tarix üzrə fəlsəfə doktoru, dosent
samira.qasimova82@mail.ru
[3]esmiran6@gmail.com

Yaxın tariximizin son bir qərinəlik dövründə Azərbaycanın bütün sahələrində qazandığı uğurlar, onun günbəgün artan nüfuzu, sözün əsl mənasında, dahi şəxsiyyət Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Müdrik dövlət xadimi Heydər Əliyevin xüsusilə təhsilə, elmə, mədəniyyətə olan qayğısı, məktəbə, müəllimə verdiyi yüksək qiymət siyasi xadim, dövlət rəhbəri kimi daim onun fəaliyyətinin ana xəttini təşkil edib. Onun fəaliyyətində təhsil xalqın qiymətli milli sərvəti kimi həmişə yüksək qiymətləndirilmiş və ona qayğı qüvvətləndirilmişdir. Ulu öndərin təhsil siyasəti dərin milli mənafelər üzərindən qurularaq ölkəmizin davamlı və dayanaqlı inkişafına xidmət etmişdir.

Muasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətində elmə və təhsilə qayğı həmişə mühüm yer tutmuşdur. İnkarolunmaz həqiqətdir ki, ötən əsrin 70-ci illərindən etibarən 30 ildən artıq bir müddətdə Azərbaycanda iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin dirçəlişi və dinamik inkişafı, eləcə də dövlət müstəqilliyinin möhkəmləndirilməsi, qısa bir zamanda Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır [4, 2-3]. Mütərəqqi yeniliklərin tətbiqi yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi

keyfiyyətləri, intellekti, savadı ilə fərqlənən ixtisaslı kadrların yetişdirilməsi fəaliyyətinin bütün mərhələlərində prioritet məsələlər olmuşdur. Çıxışlarında təhsilin mürəkkəb bir sahə olduğunu dəfələrlə vurğulayaraq demişdir ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" [2, 2].

Görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyətində təhsil xalqın qiymətli milli sərvəti kimi həmişə yüksək qiymətləndirilmiş və ona qayğı qüvvətləndirilmişdir. Heydər Əliyev təhsilə, maarifə, tərbiyəyə, mənəviyyata, mədəniyyətə böyük qayğı göstərmiş, gənc nəslin təlim-tərbiyəsi, maariflənməsi, mənəvi və fiziki kamillik fəaliyyətinə yiyələnməsi sahəsində xeyirxah tədbirlər həyata keçirmiş, parlaq uğurlar qazanmışdır [6, 64-65].

Məhz bu baxımdan milli tərəqqidə, müstəqil dövlət quruculuğunda təhsilin, tərbiyənin əvəzsiz rolu oldugunu dəqiq müəyyənləşdirən Heydər Əliyevin zəngin yaradıcılıq irsi, şəxsi nümunəsi və dövlətçilik fəaliyyəti, siyasi gorüşləri böyüyən gənc nəslin milli və umumbəşəri dəyərlər zəminində tərbiyə olunması və təhsil almasi işinin səmərəli təşkili üçün ən dəyərli mənbədir. Müstəqil Azarbaycan gənclərinin vətəndaşlıq, şəxsiyyət bütövlüyü və kamillik örnəyi olan bu mənbənin dərindən öyrənilməsi nəticəsində müstəqil, azad, dünyəvi, hüquqi-demokratik görüşlü müasir gəncliyimizin müstəqillik uğrunda inamlı və inadlı mübarizəsinin şahidi olmaq mümkündür [1, 12].

Cəsarətli və uzaqgörən siyasətçi, müdrik dövlət rəhbəri olan Heydər Əliyev Azərbaycanın müstəqillik üfüqlərini hələ sovet hakimiyyəti illərində respublikaya rəhbərlik etdiyi dövrlərdə yaxşı görürdü. O əmin idi ki, gələcək müstəqil dövlətin bünövrəsinin möhkəm qurulması üçün təhsilin inkişafına indidən güclü təkan verilməlidir. 1977-ci il avqustun 27-də keçirilmiş tələbələrin respublika fəalları ilə görüşündə gənclərə "Bu gün sizin başlıca vəzifəniz oxumaqdan, müstəqil işləmək vərdişləri əldə etməkdən, həqiqəti axtarmaq və ona nail olmaq bacarığına yiyələnməkdən, yəni kamil mütəxəssis olmaq, cəmiyyətimizə daha çox fayda vermək üçün zəhmətlə, səylə, əzmlə, gündən-günə misilsiz bilik, mədəniyyət, ictimai vərdiş ehtiyatı toplamaqdan ibarətdir" müraciəti, 18 may 1978-ci ildə keçirilən Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqində "Biz bu gün də, gələcəkdə də gənclərimizi təhsilə, biliyə cəlb etməliyik, təhsilin keyfiyyətini artırmalıyıq, təhsil sahəsini daha da mükəmməlləşdirməliyik" deməsi, şübhə yoxdur ki, məhz həmin qənaətdən irəli gəlirdi [4, 2-3].

Təkcə 1969-1982-ci illərdə Azərbaycanın şəhər, kənd və qəsəbələrində 700-ə qədər məktəb binası istifadəyə verilmiş, respublikada ali məktəb tələbələrinin sayı 70 mindən 100 min nəfərə çatdırılmışdır. Yenə də həmin illərdə Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu ən dəyərli ənənələr sırasında gərəkli ixtisaslara yiyələnmək üçün azərbaycanlı gənclərin keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilməsi təcrübəsi xüsusi yer tutur. Əgər 1969-cu il üçün Azərbaycandan kənarda təhsil almağa cəmi 67 nəfərin getməsi planlaşdırılırdısa və bunların əksəriyyəti qeyri-azərbaycanlı olurdusa, artıq 80-ci illərin əvvəllərində hər il 1000-1400 nəfər respublikadan kənarda təhsil almağa göndərilirdi ki, onların da böyük əksəriyyətini azərbaycanlı gənclər təşkil edirdi. Azərbaycanlı hərbi kadrların yetişdirilməsi sahəsində də bu siyasət həyata keçirilirdi. Təkcə 1982-ci ildə SSRİ-nin ali hərbi məktəblərinə qəbul olunan 1000 nəfərdən 550 nəfəri milliyyətcə azərbaycanlı olmuşdur [5, 8].

Ulu Öndər 1970-80-ci illərdə Azərbaycandan kənarda təhsil almış həmin mütəxəssisləri "Azərbaycanın yetirmələri", "Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirərək onların potensial imkanlarının vahid amal - milli dövlətçilik məfkurəsi olan azərbaycançılıq ətrafında cəmləşdirilməsi, müstəqil Azərbaycanın sosial-siyasi, iqtisadi və mədəni quruculuğunda səmərəli istifadə olunması, bu tarixi-mədəni ənənələrin bərpası və yeni məzmunda - müstəqillik prinsiplərinə uyğun şəkildə inkişafına kömək məqsədilə həmin mütəxəssislərlə görüşməyin vacibliyindən danışarkən Azərbaycan gənclərinin I Forumunda (1996, 2 fevral) demişdir:

"Burada 70-80-ci illərdə hər il 800-900 nəfər gəncin Azərbaycandan kənarda olan təhsil ocaqlarına göndərilməsi yada salındı. Doğrudan da, hər il burada, bu salonda biz həmin gəncləri Moskvaya, Leninqrada, Kiyevə, başqa - başqa şəhərlərə yola salırdıq, onlara xeyir - dua verirdik, onlara yüksək təhsil almaq üçün, yaxud bizim respublikamızda olmayan ixtisasları mənimsəmək

üçün həmin təhsil mərkəzlərinə göndərirdik. Bunlar öz bəhrəsini verir. Burada deyildi ki, indi həmin təhsil ocaqlarında təhsil almış, mütəxəssis kimi fəaliyyət göstərən şəxslərin cəmiyyəti yaranıb. Mən bu cəmiyyəti salamlayıram, ona çox böyük ehtiramımı bildirirəm və çalışacağam ki, bu cəmiyyətin üzvləri ilə görüşüm. Çünki vaxtilə belə kadrların hazırlanması üçün mən xeyli səylər göstərmişəm" [8].

Heydər Əliyevin 1970-80-ci illərdə Azərbaycanda ali təhsilin inkişafı yolundakı boyük xidmətlərindən biri də o illərdə respublikada geniş vüsət alan tikinti-quruculuq işlərini yüksək ixtisaslı mütəxəssislərlə təmin etmək məqsədilə Azarbaycan inşaat Mühəndisləri institutunu (hazirki Azarbaycan Memarlıq və İnşaat Universiteti), Azarbaycan keçmiş SSRi-nin ən iri üzüm istehsalçısına çevrildiyini nəzərə alaraq Gəncədə bu saha üzrə mütəxəssis hazırlayacaq Azərbaycan Texnologiya İnstitutunu (hazirki Azərbaycan Texnologiya Universiteti) yaratmasıdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə keçmiş SSR-nin ali hərbi məktəblərinə daxil olmanı təmin etmək, milli hərbi kadrlar yetişdirmək məqsədilə 1971-ci ildə indi "Cəmşid Naxçıvanski adına hərbi litsey" adlandırılan məktəb təsis edilmişdir. Hərbi litsey ümumilikdə Azərbaycan milli ordusunun yaranmasında, zabit kadrlarının hazırlanmasında böyük iş görmüş və dəyərli xidmətlər göstərmişdir. Ulu Öndərimiz haqlı olaraq bildirirdi ki, hər bir dövlət üçün vacib şərt dövləti qüdrətli etmək, yaşatmaq üçün onun ordusunun və ordusunu təşkil edən peşəkar zabit korpusunun olmasıdır və bu istiqamətdə Heydər Əliyev əvəzsiz addımlar ataraq, Azərbaycan ordu quruculuğunun bu günkü qələbələri üçün zəmin yaratmışdır [7].

1993-cü illərdə Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdışından sonra böhranlı vəziyyəti aradan qaldırmaq, elm və təhsil sahəsində dövlət siyasətinin mühüm istiqamətlərini müəyyənləşdirmək mümkün olmuşdur. Ulu öndər həmin mərhələdən ictimai həyatın ən müxtəlif sahələrində, o cümlədən elmi-intellektual sferada hökm sürən tənəzzülün qarşısını almış, təhsilin öz məcrasına düşməsi, inkişafı üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşdırmışdır. Elmin inkişafına, bu prosesi həyata keçirən çoxminli ziyalılar ordusuna diqqət və qayğı gücləndirilmiş, Heydər Əliyev Azərbaycan elminin milli əsaslar üzərində dünyaya inteqrasiyanı başlıca vəzifə kimi aktuallaşdırmışdır.

Heydər Əliyev ilk gündən milli təhsil sistemində islahatların təkamül yolu ilə aparılması tərəfdarı kimi çıxış etmiş, bu mövzuda ictimai müzakirələrin açılmasına nail olmuşdur. "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır. Təhsil Qanunu elə bir qanundur ki, təhsil islahatları elə islahatlardır ki, iqtısadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bunda bütün cəmiyyətin iştirakı lazımdır" – deyən ulu öndər bu məsələyə böyük həssaslıqla yanaşdığını nümayiş etdirmişdir. Onun 30 mart 1998-ci il tarixdə imzaladığı "Azərbaycan Respublıkasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında" sərəncamda müstəqil Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların həyata keçirilməsi, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi, Avropa təhsil məkanına inteqrasiyanın təmin edilməsi kimi mühüm vəzifələr önə çəkilmişdir. 15 iyun 1999-cü il tarixdə təsdiq olunmuş "Azərbaycan Respublikasında Təhsil İslahat Proqramı"nın əsas mahiyyətini isə təhsil sistemində islahatların təkamül yolu ilə, mərhələlərlə aparılması, tarixən formalaşmış zəngin, mütərəqqi ənənələrin, təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri ilə çulğaşan prinsiplərinin tətbiqi məsələləri təşkil edir. İslahat proqramının həyata keçirilməsi nəticəsində təhsilin məzmunu yeniləşdirilmiş, yeni proqramlar və dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə standartların hazırlanması istiqamətində ciddi iş aparılmışdır [3, 3].

Ulu Öndərin 2002-ci il oktyabrın 4-də imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi səciyyələndirilən ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi

haqqında" 17 fevral 2003-cü il tarixli sərəncamı ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur [2, 2].

Bütövlükdə, Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycanda təhsilə və təhsil xadimlərinə çox böyük qayğı göstərmişdir. Azərbaycan xalqına sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, təhsilə, həmçinin təhsil xadimlərinə qayğısı Heydər Əliyevə ümumxalq məhəbbəti qazandırmışdır. Hesab edirik ki, "Təhsil millətin gələcəyi, milli dövlətin təməlidir" , - deyən Heydər Əliyev Azərbaycan dövlətçiliyindən, Azərbaycan tarixi və mədəniyyətindən, Azərbaycan elmi və təhsilindən ayrılmaz bir milli dəyər, milli Azərbaycan varlığında əbədi qalacaq tarixi şəxsiyyətdir. Ruhu şad olsun!.. [8].

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 580 s.
2. Həmidov H.Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasəti / "Azərbaycan" qəz., 2008, 5 dekabr. Səh. 2
3. Məmmədzadə İ. Azərbaycan elm və təhsilinin himayədarı / Xalq qəz., 2010, 8 dekabr. №269. Səh.3
4. Mərdanov M. Heydər Əliyev ideyaları müasir təhsil quruculuğunun əsasıdır / "Azərbaycan müəllimi" qəz., 2010, 10 dekabr. № 48. Səh.2-3
5. Qarayev S. Müstəqil Azərbaycan elminin və təhsilinin memarı / "Respublika" qəz., 2013. 19 aprel.- № 80. Səh.8
6. Səmədov A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Dərs vəsaiti. Gəncə, 2010
7. https://files.preslib.az/projects/toplu/v2/f6_2_2.pdf
8. https://muallim.edu.az/news.php?id=24914

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ MÜXTƏLİF ASPEKTLƏRİ

[1,2]**Leyla Əhliman qızı Hüseynova,** [1,3]**Bəxtiyar Şahvələd oğlu Əhmədov**
[1]AMEA A.A.Bakıxanov ad. Tarix və Etnologiya İnstitutu
[2]tarix üzrə fəlsəfə doktoru, dosent
l_huseyinova@mail.ru
[13]tarix üzrə fəlsəfə doktoru
ehmedovbextiyar70@gmail.com

Heydər Əliyev ilində Ümummilli liderin çoxçalarlı həyat və fəaliyyətindən, Azərbaycan naminə gördüyü geniş masştablı işlərdən bəhs edən çoxlu elmi-nəzəri məqalələr oxuduq, çıxışlar dinlədik. Fransız filosofu Şarl Mönteskyö yazırdı ki, xalqların taleyində mühüm rol oynamış şəxsiyyətlər xilaskar missiyaları ilə yeni bir tarix yaradırlar. Azərbaycan xalqını ən ağır ictimai-siyasi vəziyyətdən, mürəkkəb beynəlxalq burulğandan xilas edərək müstəqil dövlət yaradan Ulu öndər Heydər Əliyev dövlətçilik üçün ideologiyanın vacibliyini dərk edir, bütün fəaliyyəti boyu bunu işinin əsas parçası kimi görürdü.

Bəs ideologiya nə üçün lazımdır? Dövlətçilik üçün ideologiyanın əhəmiyyəti nədir? Bildiyiniz kimi, XX əsrdən qloballaşma prosesi beynəlxalq aləmdə dəstəklənən bir proses kimi bütün xalqların həyatına müdaxilə edir, təsir göstərir. Qloballaşmanın bir təzahürü də inteqrasiyadır ki, bu prosesdə xalqlar özünəməxsusluğunu itirə bilir. Bu prosesin digər təhlükələrindən biri də dinc-iqtisadi yolla kiçik dövlətlərin böyük dövlətlərdən asılılığının yeni müasir formaları yaranır. Sərhədlər öz mənasını itirir.

Ümummilli lider Heydər Əliyev dövlətçiliyin Azərbaycan modelini yaradarkən özünün azərbaycançılıq ideologiyasını hissə-hissə həyata keçirərək, xalqın özünəməxsusluğunu qorudu. Bu

ideologiya nə bir ilə, nə 5 ilə yaranmamışdı. Təbii ki, bu ideologiyanın dərin tarixi kökləri vardır. XIX əsrdə Azərbaycan maarifçiləri tərəfindən əsası qoyulmuş ideologiya Azərbaycan Xalq Cümhuriyyətinin istiqlalçı nümayəndələrinin - Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov və başqa ziyalılarımız tərəfindən daha da inkişaf etdirildi. Lakin Ümummilli lider Heydər Əliyev bu ideologiyanı modernləşdirdi, zənginləşdirdi və ən əsası reallaşdırdı. [3, s.14.]

Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Azərbaycançılıq özündə "vətəndaşlıq", "vətənpərvərlik", "loyallıq", habelə cəmiyyət və dövlət qarşısında vətəndaşın məsuliyyətini birləşdirir.

Azərbaycançılıq ideologiyası geniş əhatə dairəsi ilə yanaşı, konkret məqsədlər də güdür. Bu ideologiya Azərbaycanda azad vətəndaş cəmiyyətinin inkişafına və güclü dövlət quruculuğuna xidmət edir.

Müasir dövrdə qloballaşmanın bir sıra inkişaf göstəriciləri milli mənsubluğa da təsir göstərir. Çağdaş zamanda milli ideologiya ilə ümumbəşəri dəyərlərin ahənginə nail olmaq, qloballaşma prosesinə öz milli-mənəvi irsi ilə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır. Azərbaycançılıq ideyası bu çağırışlara cavab verir, milli mənsubluğun müdafiəsi ilə yanaşı, ümumbəşəri dəyərləri də özündə ehtiva edir.

Azərbaycançılıq ideyası qloballaşma şəraitində universal dəyərlərin qorunmasını önəmli hesab edir və ölkəmizin müasir milli modernləşmə yolunu bu dəyərlərin bərqərar olduğu Avropa məkanına inteqrasiyada görür. Azərbaycançılıq ideyası universal dəyər olan insan hüquqlarının qorunması, vahid Avropa məkanında beynəlxalq təhlükəsizliyin təmin edilməsi, eyni zamanda ölkələrin ərazi bütövlüyü prinsipi və digər vacib dəyərləri nəzərdə tutaraq qloballaşmanı müasir dünyanın təbii inkişaf prosesi hesab edir. [1]

Əgər XI əsrdə Azərbaycan xalqının formalaşması prosesi başa çatmışdısa, yaxud XIX əsrin ikinci yarısında Azərbaycan milləti təşəkkül tapmışdısa, bəhs etdiyim dövrdə - XX əsrin sonu XXI əsrin əvvəlində Azərbaycan xalqının bir ideologiya ətrafında birləşməsi baş tutdu.

Sovet dövrünü araşdırarkən məlum olur ki, açıq-aşkar adı qoyulmasa da, Heydər Əliyevin çıxışlarında adı çəkilməsə də azərbaycançılıq məfkurəsi Ulu öndərin fəaliyyətində incə siyasətlə hər zaman həyata keçirilmişdir. Bu barədə danışarkən xüsusi vurğulamaq lazımdır ki, sövet ideologiyasının, sovet sisteminin yetişdirdiyi kadr kimi Heydər Əliyevin sistemin ideologiyasının həyata keçirilməsi ilə paralel milli mədəniyyətin, folklorun, milli tarixin, Ana dilinin, tarixi torpaqların qorunması və bunun gənclərə aşılanması, gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin təmin edilməsi, ittifaqın digər respublikalarında azərbaycanlı gənclərin təhsilinin təşkili və bu kimi bir çox işləri azərbaycançılıq naminə görülmüş ilkin fəaliyyət hesab edilir. İstər sovet dövründə, istərsə də müstəqillik illərində Heydər Əliyev elə istimai mühit yaratdı ki, bu cəmiyyətdə intellektli, dünyagörüşlü gənclər həm də milli soykökünə bağlı, milli dəyərlərinə hörmət bəsləyən vətənsevər şəxsiyyət kimi formalaşdılar. Milli ideologiyaya sadiq azərbaycanlı gənc nə dini mövhumata yuvarlanmır, nə də kosmopolit şəxs deyil. Qərbə inteqrasiya elm, təhsil, texnologiya sahəsində dəstəklənir. Lakin milli-mənəvi özünəməxsusluğun qərbin dünyəvi kosmopolit dəyərlərinə dəyişdirilməsi milli varlığı qorumaq baxımından təhlükəli hesab edilir.

Azərbaycançılıq ideyaları Dünya Azərbaycanlılarının I Qurultayında öz parlaq təcəssümünü tapdı. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş 50 milyonluq azərbaycanlıların milli birlik amalı uğruna toplanması, nəinki Vətəndə, Vətəndən kənarda yaşayan azərbaycanlıların da milli mənsubiyyətinə məsuliyyətlə yanaşmasını – milli varlığın, azərbaycançılığın əsas meyarı hesab edən Heydər Əliyev qurultayda deyirdi: "Soydaşlarımızın əksəriyyəti özgə millətlər içərisində azərbaycançılığı, milli xüsusiyyətlərimizi, adət-ənənələrimizi, dinimizi qoruya bilmiş və övladlarına ötürmüşlər. Amma bir həqiqət qeyd olunmalıdır ki, ayrı-ayrı cəhdlərə baxmayaraq, uzun bir tarixi əhatə edən dövr ərzində dünya azərbaycanlıları yaşadıqları dövlətlərdə bir-birilə birlik nümayiş etdirə bilməmiş, mütəşəkkil qaydada təşkilatlanmamış, icmalar şəklində təmsil olunmuş, dağınıq

şəkildə yaşamışlar. Bu da sözsüz ki, milli əlaqələrin və müvafiq olaraq milli varlığın zəifləməsinə gətirib çıxarmışdır». [5, s.443]

Bildiyiniz kimi, azərbaycançılıq yalnız Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların deyil, həm də bütün dünya azərbaycanlılarının milli-mənəvi maraqlarını ifadə edən məfkurə kimi, xalqımız tərəfindən qəbul olunmuşdur. Bu məfkurənin daşıyıcısı olan azərbaycanlının harada yaşamasından və hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, tarixi Vətəni olan Azərbaycan Respublikasını düşünür, təəssübünü çəkir, onun milli məsələlərinə sahib çıxır. Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan azərbaycançılıq ideyasını irəli sürməsi, onu milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevirməsidir. 1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında azərbaycanlı obrazını belə ifadə etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan". [4, s.360]

Lakin bir məqamı vurğulamaq yerinə düşər ki, azərbaycançılıq məfkurəsi millətçiliklə eyni tutulmamalıdır. Xüsusilə də, Ulu öndər Heydər Əliyev millətçilikdən uzaq bir şəxsiyyət kimi milli-etnik tolerantlığı öz şəxsində, dövlət siyasətində, milli ideologiyada qorumuşdur. Təsadüfi deyil ki, Ümummilli liderimiz Heydər Əliyev xalqımızın Atatürkü adlandırılır. Müqayisə üçün Mustafa Kamal Atatürkün millətçilik ideologiyasının əsas prinsipini qeyd etmək yerinə düşər. Türkiyə tarixçisi, Atatürkün mənəvi qızı Afət İnan 1969-cu ildə "Mədəni Bilgilər ve Mustafa Kamal Atatürk'ün Əl Yazıları" əsərində [2] yazır ki, Atatürkün milliyyətçilik anlayışı belədir: eyni vətəni paylaşan, eyni siyasi yönətim altında yaşayan, aralarında tarixin dərinliklərindən gələn birlik olan və bu ortaqlığı davam etdirmək istəyən insanların formalaşdırdığı toplum – millət olmağa haqq qazanmış deməkdir.

Göründüyü kimi, Atatürkün də milli ideologiyasında din və irq birliyi yer almır. Onun ideoloji məfkurəsinin də təməl prinsipləri – coğrafi və siyasi birlik, mədəni, tarixi birlik və ideya birliyidir. Türkiyə tarixçisi Sait Dinç "Atatürkçü düşüncə sisteminə görə milliyyətçilik prinsipi" məqaləsində [6] yazır ki, Atatürk "nə mutlu türküm deyənə" şüarını səsləndirərkən bir etnik qrupu, yəni sadəcə türkləri nəzərdə tutmayıb. Əgər belə bir millətçi şüar işlətsəydi, "nə mutlu türk olana" – söyləyərdi.

Bu prinsipləri əsas götürərək deyə bilərik ki, Azərbaycan xalqının birliyinin himayədarı Heydər Əliyev haqlı olaraq, Mustafa Kamal Atatürklə eyni zirvədə anılır, tədqiq edilir, eyni dəyərləndirilir.

Tarix boyu etnik təmizləməyə məruz qalmasına baxmayaraq, Azərbaycan xalqının tolerant duruşu vardır. Mənfur qonşularımız monoetnik dövlət qurduğu halda Azərbaycan dövləti milli və etnik cəhətdən çoxçalarlı dövlət kimi regionda seçilir. Bizim dövlətimizdə milli diskriminasiya, milli-etnik ayrıseçkilik yolverilməzdir, hətta məsuliyyətə cəlb edilmənin bir səbəbi kimi dövlətçiliyə qarşı addım olaraq qiymətləndirilir.

Xatırladım ki, XX əsrin 80-90-cı illərinin əvvəllərində Sovet İttifaqına, Sovet Rusiyasına nifrət o qədər yüksək idi ki, cəmiyyətdə millətçilik meylləri güclənmişdi, kor-koranə türkçülük, millətçilik təbliğatı gedirdi. Lakin 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən xalqın adının ali qanuna necə yazılması, dilimizin necə adlandırılması uzun müzakirələrə səbəb olmuşdu. Ümummilli lider Heydər Əliyev öz əsaslandırması ilə, əsaslı arqumentləri ilə elm və ictimai xadimlərə tutarlı cavab vermişdi. Təkliflər səslənmişdi ki, xalqımızın adı Azərbaycan türkləri yazılsın, dlimiz isə Azərbayan türk dili və türkcəsi yazılsın. Heydər Əliyevin cavabı çox elmi, məntiqi və milli mənafe baxımından əhəmiyyətli olmuşdur. O deyirdi: "Bizim taleyimiz elə gətirib ki, çar Rusiyası dövründə bizə tatar deyiblər. 1918-ci ildən 1936-cı ilə qədər türk adlanmışıq. 60 ildir bizə azərbaycanlı deyiblər. Dil haqqında müxtəlif təcrübələr var. Siz deyirsiniz ki, müxtəlif dövlətlər dövlət dilini eyni adla adlandırıb. Mən isə deyirəm ki, ruslar, beloruslar, ukraynalılar da eyni kökdən olsalar da dövlət dilinin adını rus dili, belorus dili və sairə qoyublar. Azərbaycan türkləri adlanmağı təklif edirsiniz. Onda özbəklərə

Özbəkistan türkü, qazaxlara Qazax türkü deyilsin. Bu, elə bir məsələdir ki, geniş ictimaiyyətlə müzakirə olunmalıdır."

Əslində Heydər Əliyev Azərbaycan Respublikasının milli-etnik cəhətdən zəngin tərkibini göz önünə alırdı. Konstitusiyada türk və ya Azərbaycan türkü yazılması ölkədə milli azlıqların, etnik qrupların milli kimlik araşdırması meyllərini yarada bilər, separatizmə yuvarlanma baş verə bilərdi. Bu mövqeyi ilə Heydər Əliyev xalqımızın assimilyasiyası təhlükəsinin də qarşısını aldı. Azərbaycançılıq məfkurəsi təkcə azərbaycandilli əhalinin deyil, respublikada yaşayan bütün xalqların milli mənafeyini ifadə edir. Heydər Əliyevin şəxsiyyətinə, apardığı siyasətə inam nəticəsində milliyyətcə azərbaycanlı olmasa da, bir neçə əsr Azərbaycanda yaşamış və Azərbaycanı özünün tarixi Vətəni sayan insanlar da ölkəmizin maraqlarına xidmət etməklə, azərbaycançılıq məfkurəsinin daşıyıcısına çevriliblər. Göründüyü kimi, Heydər Əliyev milli varlığın Azərbaycan modelini yaratdı və dövlətçilik fəaliyyətində bu varlığı zədələyəcək bütün amilləri kənarlaşdıra bildi.

Heydər Əliyevin bir neçə proqram çıxışı vardır. Onlardan biri "Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"dir. Bu proqram xarakterli çıxışında Heydər Əliyev belə bir fikir səsləndirmişdi:

"Tarixi proseslərin gedişi ona gətirib çıxartdı ki, 1813 və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü. Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın məbədi kimi yüksək qiymətləndirirlər. Bu, XX əsrdə təşəkkül tapmış azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir." [4, s.291]

Soydaşlarımızın azərbaycançılıq ruhunda köklənməsinin nəticəsidir ki, artıq dünyada azərbaycanlıların təşkilatlanması yeni bir mərhələyə qədəm qoyub. Almaniyada, Fransada, İsveçrədə azərbaycanlıların koordinasiya şuralarının yaradılması bunun bariz nümunəsidir. Dünyadakı azərbaycanlı gəncləri azərbaycançılıq ideyası ətrafında birləşdirmək, diaspor fəaliyyətinə cəlb etmək məqsədilə 2012-ci il martın 12-də Bakıda Dünya Azərbaycanlı Gənclər Birliyi təsis edilmişdir.

Müstəqil Azərbaycan Respublikasında dünya azərbaycanlılarının milli birlik və həmrəylik problemi dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. 44 günlük müharibə zamanı Avropa və Amerikada yaşayan azərbaycanlılar dövlətimizi dəstəkləyən nümayiş və mitinqlərə çıxaraq qətiyyətli mövqe, möhkəm iradə nümayiş etdirdilər. Bu vəhdət Ümummilli liderimiz Heydər Əliyevin miras qoyduğu vahid xalq düsturudur.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycançılıq / https://multiculturalism.preslib.az/az_a2.html
2. A.Afetinan. Medeni Bilgiler ve Mustafa Kemal Atatürk'ün El Yazıları. Ankara, 2018, 642 səh.
3. İsgəndərov A. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti. Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu. Bakı Dövlət Universitetinin və Tarix fakültəsinin 100 illik yubileylərinə həsr olunmuş Respublika elmi konfransının materialları. 8-9 oktyabr 2019-cu il. Bakı, 2020.216 səh.
4. Müstəqilliyimiz əbədidir. On birinci kitab. Bakı, Azərnəşr, 2011. 452 səh.
5. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab. Bakı, Azərnəşr, 2011. 512 səh.
6. Sait Dinç. Atatürkçü düşünce sistemine göre milliyyetçilik ilkesi. / https://turkoloji.cu.edu.tr/ATATURK/arastirmalar/sait_dinc_ataturkcu_dusunce_sistemi_milliyetcilik_ilkesi.pdf

HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ DEMOKRATİK İNKİŞAFA ƏSASLANAN CƏMİYYƏT MODELİ

Təzəgül Mirzə qızı Qasımova
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
tezegulgasimova@gmail.com

"Biz Azərbaycanda demokratik respublika quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini qazandıqdan sonra, bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin".

(Heydər Əliyev)

Bu gün Azərbaycanın müstəqilliyi real tarixi faktdır desək, yanılmarıq. Zəngin dövlətçilik ənənələrinə malik olan xalqımız bütün tarixi boyunca çətin yollardan, sınaqlardan keçərək, dövlət müstəqilliyinə, demokratik cəmiyyətə doğru irəliləmişdir. Problemə tarixi metodun köməyilə yanaşsaq, görərərik ki, 1991-ci ildə dünyanın ən iri, nəhəng bir dövlətinin məhv olması nəticəsində əldə edilmiş müstəqillik Azərbaycan dövlətinin regional, siyasi aktor kimi tanınması üçün geniş imkanlar açdı. Birinin məhvi digərinin yenidən doğulmasına şərait yaratdı. Bir çox keçmiş sovet respublikaları kimi, Azərbaycan da bu yetişmiş siyasi vəziyyətdən bacarıqla istifadə etdi. Amma ölkənin yenidən, əsaslı şəkildə qurulması üçün vacib olan demokratik dəyərlərə sahib olmaq lazım idi. Səmərəli inkişafa və dünyada layiqli yer tutmağa iddia edən müasir cəmiyyət və dövlət bu dəyərləri təmin etmədən mövcud ola bilməz. Eyni zamanda həm iqtisadi, həm də siyasi inkişafın bütün sahələrində isalahat transformasiyalarının həyata keçirilməsinə şərait yarandı və daha dəqiq desək, demokratik bir cəmiyyət modelinə çatmaq üçün bu yolları keçmək vacib idi. Tarixi proseslərin gedişatı bir daha sübut etdi ki, birinin tarix səhnəsindən silinməsi, digərinin isə bu səhnədə yeni rol alması o demək deyil ki, əvvəllər mövcud olan tamamilə silinməli, unudulmalıdır. Yeni qurulan köhnədən səmərəli istifadə etməyi bacarmalı, onun buraxdığı səhvləri etməməlidir.Bu addım bütöv sistem olan cəmiyyətin bütün sferalarında nəzərə alınmalıdır. Bu məntiqi ardıcıllıq cəmiyyəti ancaq uğura çatdıra bilər. Tanınmış fransız iqtisadçısı Jak Leon Ryuefin dediyi kimi, "hər bir mərhələdə hökümətin əsas vəzifəsi keçmişin müsir dövrdə saxlamaq mümkün olan payını və müasir dövrün gələcəyə miras qoya biləcəyi payı düzgün qiymətləndirməkdir" [2, s. 14].

Tarixi proseslərin gedişatı göstərdi ki, sovet sistemindən və yerli hakimiyyətdən narazı qalan Azərbaycan cəmiyyəti yeni bir idarəetmə sisteminə, yeni zəkaya, yeni qüvvələrə ehtiyac duyurdu. Yəni bu zamanın tələbi idi. Uğursuzluğa uğramış hakimiyyət artlq xalqın mühakiməsinə tuş gəlmişdi. Və bu vəziyyətdən də səmərəli istifadə edən Azərbyacan xalqı yeni bir liderin, yeni bir siyasi elitanın hakimiyyətə gəlməsi üçün mübarizə apardı. "Cəmiyyət yalnız əməli işdə sübut olunmuş məziyyətləri qəbul edir və onlara hörmət edir. Hər kəs özünün həqiqi qiymətini bilmək istəyirsə, bunu yalnız xalqdan öyrənə bilər və deməli, özünü xalqın mühakiməsinə verməlidir" (Helvetsi). 1993-cü ilin ortalarında Heydər Əliyev başda olmaqla siyasi elita qrupu həyatın ön səhnəsinə çıxdı. Bu elitanın əsas funksiyası ölkəni siyasi və iqtisadi tənəzzüldən, milli sosiostrukturun qiymətdən düşməsi, siyasi hərc-mərclik, xarici siyasətdə tarazsızlıq və "boş piştaxtalar" vəziyyətindən çıxarmaqdan ibarət idi [2].

Müstəqillik əldə etmək, demokratik bir cəmiyyət modeli qurmaq ölkəmizin qarşısında yeni vəzifələr qoydu. Diktaturadan demokratiyaya, komanda iqtisadiyyatından sərbəst bazar iqtisadiyyatına, iki əsrlik işğalçılıq tarixi olan imperiyanın bir hissəsindən milli dövlətə çevrilmək vəzifələrini qoydu. Zaman keçdikcə insanların həyat tərzi, düşüncələri, davranış normaları dəyişməyə başlayır, idarə edənlərin, idarə olunanların bir-birinə qarşılıqlı münasibətləri yeni şəkil almağa başlayır. Və bu da insanları, çoxluğu yenidən düşünməyə, yenidən arzulamağa vadar edir, nəticədə yeni həyat uğrunda mübarizə labüd olur. Ötən əsrin 90-cı illərinin ortalarında Heydər Əliyev Azərbaycanda müstəqil yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmə

proseslərinin mərkəzləşdirilməsi və milli iqtisadiyyatın durğunluq prosesinin dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirməyə başladı. Milli tariximizin bu dövrü milli dövlətçiliyimizin daha da güclənməsi üçün yeni yanaşmanın əsasını qoymuşdu. Demokratiya, bazar təsərrüfatı və vətəndaş cəmiyyəti idealı tədricən cəmiyyətin inkişaf strategiyasının əsas səmtinə çevrilmiş, beləliklə də müsir milli dövlətin başlıca vəsilələri olmuşdur [3, s.9].

"Demokratiya onda yaranır ki, yoxsullar daxili çəkişmədə qalib gəlir, bundan sonra öz düşmənlərinin bir hissəsini məhv edir, bəzilərini ölkədən qovur, yerdə qalanlarını isə, vətəndaş hüquqları və dövlət hakimiyyətində iştirakına görə hamı ilə bərabərləşdirir" [4, s.89]. Bu demokratiyanın Platonsayağı təsviri idi. Bu təsvir demokratiyaya çatmağın və onu əldə etməyin çətinliklərinin bir daha dərk etmək üçün örnəkdir. Azərbaycan cəmiyyəti də yeni bir demoktatik model qurmaq üçün əzmlə, güclü iradə ilə çətin mübarizə yolu keçmişdir. Bu mübarizə güclü liderin, uzaqgörən səxsiyyətin xalqla birgə olması sayəsində mümkün olmuşdur. Demokratiya modelinin dərk olunması üçün onun struktur elementlərinə nəzər yetirsək daha uğurlu nəticə əldə edə bilərik.

12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilən Azərbaycan Respublikasının ilk Konstitusiyası, ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesinə böyük təkan vermişdir. Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqlarının təmin edilməsi, ölkəmizin Avropa Şurasına inteqrasiyasını sürətləndirmək məqsədilə bir sıra mühüm fərman və sərəncamlar imzalanmışdır. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi demokratik islahatların nəticəsi olaraq, Azərbaycanda Milli Məclisə seçkilər keçirilmiş, müstəqil bələdiyyə institutları formalaşmışdır. Eyni zamanda Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi də məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. İnsan hüquqları və azadlıqlarının təmini məqsədilə həyata keçirilən hüquqi islahatların ən mühümü, məhz yaşamaq hüququnun təmin edilməsi olmuşdur. 1993-cü ildə ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da, Şərqdə ilk dəfə olaraq, ölkəmizdə ölüm cəzası ləğv edilmişdir. Ümummilli liderin 2002-ci il 22 iyun tarixli fərmanı ilə Konstitusiyada dəyişikliklər edilməsi üçün referendum təyin olunmuş və bununla da ölkəmizdə demokratik islahatlar yeni vüsət almışdır. Daha sonra ölkəmiz "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmuş, məhkəmə islahatları həyata keçirilmiş, seçki sistemi təkmilləşdirilmiş, mətbuat və söz azadlığının daha etibarlı müdafiəsi təmin olunmuşdur [1, s.5-6].

Aparılan uğurlu demokratik islahatlar nəticəsində Azərbaycan 2001-ci ilin yanvar ayında Avropa Şurasına qəbul edilmişdir. Ölkəmizin Avropaya inteqrasiyasını reallığa çevirmiş bu hadisə, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsində görülən nəhəng işlərin məntiqi nəticəsi olmuşdur. Ümummilli lider Heydər Əliyevin ölkəmizin demokratik inkişafı və tərəqqisi naminə həyata keçirdiyi demokratik islahatlar Azərbaycanın Avropaya inteqrasiyasına etibarlı zəmin yaratmışıdır.

1993-cü ildən ötən müddətdə Azərbaycanda demokratik dəyərlərin bərqərar edilməsi, vətəndaşın cəmiyyətdə özünü azad hiss etməsi, hüquq və azadlıqlarını müdafiə etməsi üçün bütün zəruri addımlar atıldı və bu gün də həmin ənənələr qorunub saxlanılır və daha da təkmilləşir. Bu gün Azərbaycan hüquqi dövlət ideyasının reallaşdığı, şəxsiyyət, vətəndaş və cəmiyyət münasibətlərinin demokratik prinsiplərə əsaslandığı, müxtəlif milli-dini sivilizasiyaların qovuşduğu tolerant ölkə kimi tanınır. Azərbaycanda demokratikləşmə prosesi artıq müəyyən qol qət etmişdir. Olkəmizdə demokratik transformasiyanın və vətəndaş cəmiyyətinin qurulmasının əsasını hərtərəfli azadlıq təşkil edir, bu da güclü xalq, güclü hakimiyyət formulunun başa düşülməsinə əsaslanır.

Nəticədə bu bərabərlik formulu bir daha sübut edir ki, bu gün Azərbaycanda formalaşan demokratiya modeli hərtərəfli inkişaf edir və dövlətimiz tərəfindən mühafizə olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Demokratik inkişafın Heydər Əliyev modeli // Səs, 2010, 7 may.- S. 5-6. https://anl.az/down/meqale/ses/2010/may/118456.htm
2. Mehdiyev, R. Modernləşmə xətti yenə də gündəlikdədir. Bakı: Şərq-Qərb mətbəəsi, 2008
3. Mehdiyev, R. Yeni siyasət: inkişafa doğru. II cild. Bakı: Oskar NPM-nin mətbəəsi, 2008
4. Popper, K. Açıq cəmiyyət və onun düşmənləri. Bakı: Qanun nəşriyyatı, 2023

HEYDƏR ƏLİYEVİN XARİCI SİYASƏT KONSEPSİYASI VƏ ONUN UĞURLU NƏTİCƏLƏRİ

Məhəmməd Allahverdi oğlu Hüseynov
tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
sahibanasirova1963@mail.ru

SSRİ-nin dağılması və dünya sosializm sisteminin süqutu planetimizin siyasi mənzərəsinin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan müstəqil dövlətlərin beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilməsi və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dövlətlərarası münasibətlərin yeni sistemini formalaşdırdı.

Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Hər şeydən əvvəl əmin-amanlığın, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanılması sahəsində tədbirlər görüldü, Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyən-ləşdirildi.

1993-cü ildən başlayaraq, Heydər Əliyev bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sayəsində də prinsipial və ciddi dəyişikliklərin əsasını qoydu. Azərbaycanın xarici siyasət kursunda ölkənin geosiyasi mövqeyi, tarixi gerçəkliklər, ictimai-siyasi, iqtisadi və mənəvi-psixoloji inkişaf xüsusiyyətləri, qarşıda duran yaxın və uzaq hədəflər, o cümlədən Ermənistanın davam edən təcavüzü və bu kimi amillər əsas götürülərək, prioritet istiqamətləri müəyyən edildi. Dövlətlərarası xarici siyasət konsepsiyasını açıqlayan Ulu Öndər 1993-cü il oktyabrın 10-da prezident seçilməsi ilə əlaqədar keçirilən andiçmə mərasimindəki çıxışında deyirdi: "... Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, xarici bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq... Bizim daxili siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir". [2]

Xarici siyasətimizin vəzifələri, onun başlıca istiqamətləri, əsas prinsipləri, milli mənafe və yerli şəraitdən irəli gələn xüsusiyyətləri, özünəməxsusluğu, Heydər Əliyevin sonrakı çıxışlarında, konkret tövsiyyə və göstərişlərində, dövlətimizin beynəlxalq aləmdə atdığı əməli addımlarda yaradıcılıq inkişaf etdirilərək tez bir zamanda daha da təkmilləşdirildi. Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında qəbul olunmuş konstitusiyasının xarici siyasət fəaliyyətindən bəhs edən, 7 və 10-cu maddələrində deyilir: "Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır...Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur". [1]

1992-ci ilin ikinci yarısından başlayaraq Heydər Əliyev bütün amilləri nəzərə alaraq, Azərbaycanın xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirdi. Həmin istiqamətlərdən

biri Azərbaycanın beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmizin beynəlxalq imicinə zərbə vuran məqamları aradan qaldıraraq, haqq işimizi dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikanın ətrafındakı informasiya blokadasını qorumaqdan ibarət idi. Digər mühüm vəzifələrdən biri böyük dövlətlərlə sıx əlaqələr yaratmaq və onları genişləndirmək, dünyada mövcud olan müxtəlif universal və regional beynəlxalq təşkilatlarlara qoşulmaq və orada fəal iştirak etmək, beləliklə də Azərbaycanın dünya siyasi və iqtisadi sisteminə inteqrasiyasını təmin eləmək də mühüm vəzifə kimi qarşıda dururdu.

Daha vacib bir məsələ də ölkəmizin zorla cəlb edildiyi Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu təşkilatları qoşaraq onların fəal dəstəyinə nail olmaq idi.

1994-cü ilin əvvələrində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə olundu. 90-cı illərin ikinci yarısında Azərbaycan Prezidenti Heydər Əliyevin bir sıra ölkələrə rəsmi səfərləri, keçirdiyi görüşlər eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikaya gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı.

Müstəqil Azərbaycan Respublikasının dövlətçilik və milli maraqları baxımından səmərəli, realist və proqamatik siyasət kursunu uğurla həyata keçirən Heydər Əliyev bütün ölkələrlə münasibətlərin qarşılıqlı sürətdə faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında qurulmasına çalışırdı. Bu məqsədlə Prezident Heydər Əliyev ABŞ, Rusiya, Böyük Britaniya, Polşa, Rumıniya, Yaponiya, Çin Xalq Respublikası, Ukrayna, Türkiyə, İran, Pakistan, Səudiyyə Ərəbistanı vəziyyəti başqa dövlətlərə dəfələrlə rəsmi səfərlər etmiş , ölkələrin arasında səmərəli, bərabərhüquqlu əlaqələrin yaradılmasına nail olmuşdur. Ölkə başçısının islam ölkələrinə rəsmi və işgüzar səfərləri respublikamızın islam dövlətləri ilə əlaqələrinin inkişafında müstəsna rol oynamışdır. Bütün bunlar Azərbaycanı beynəlxalq aləmdə nüfuzunun artmasına həlledici təsir göstərmişdir. Məhz buna görə də Azərbaycan BMT, Avropa Şurası, MDB, GÜOAM, İslam Konfransı Təşkilatı, NATO, Avropa Birliyi və digər təşkilatlarla fəal əməkdaşlıq edir.

Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul ümumavropa avropa ailəsinə qoşuldu və burada öz layiqli yerini tutdu. Bununla da ölkəmizdə hüququ islahatların uğurla aparılması, demokratik hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini aldı.

Heydər Əliyevin uğurlu xarici siyasət kursunun tərkib hissələrindən biri 11 sentyabr 2001-ci il hadisələrindən sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə fəal iştirakıdır. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq edir.

Heydər Əliyevin uğurlu xarici siyasət kursunun ən mühüm strateji tərkib hissələrindən birini Azərbaycanın təbii ehtiyatlarından bəhrələnməklə ölkəmizin iqtisadi maraqlarının təmin olunması təşkil edir. Bu baxımından 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adını almış irimiqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar yeni-yeni müqavilələr imzalanması ölkəmizin iqtisadi potensialının dirçəldilməsi xarici investisiyaların həcminin artırılması üçün geniş imkanlar yaratmışdır.

Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzu, uzaqgörən siyasəti nəticəsində tarixi İpək Yolunun bərpası ilə bağlı layihələrin həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması ölkəmizin iqtisadi inkişafına təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin gerçəkləşməsinə səbəb olmuşdur. "Əsrin müqaviləsi" , "İpək Yolu" və digər nəhəng layihələrin həyata keçirilməsi Azərbaycanın xarici siyasətinin uğurlarıdır.

Heydər Əliyevin xarici siyasət məsələsinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Müasir dövrdə Prezident İ.Əliyev Ulu Öndərin xarici siyasət kursunu layiqincə davam etdirir. İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik, milli maraqlara əsaslanan xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü dövlətinə, yüksək beynəlxalq mövqeyə malik olan subyektinə çevrilib.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider kimi adını əbədi olaraq tarixə yazdırdı. Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən Müharibəsində Prezident Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm tarixi qələbə qazanan Azərbaycan həm öz ərazi bütövlüyünün, həm də tarixi ədalətin bərpasına müvəffəq oldu.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
2. Xalqa bağışlanan ömür. II Kitab, Bakı, 2004.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ YENİ DÖVR

Yaqub Abbasqulu oğlu Səmədov
tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
yaqub.semedov63@mail.ru

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidə hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev digər sahələrdə olduğu kimi, Azərbaycanın xarici siyasət sahəsində də mühüm dəyişiklikləri həyata keçirdi və bu siyasəti ölkəmizin strateji maraqlarına cavab verən istiqamətə yönəltdi. İlk növbədə xarici siyasət sahəsində yol verilən nöqsanları aradan qaldırmaq üçün, həmçinin ölkəmizlə bağlı meydana çıxan gərgin və ziddiyyətli siyasi duruma son qoymaq üçün Ulu Öndər özünün dövlətçilik təcrübəsini və siyasi iradəsini bütünlüklə ortaya qoydu. Həm ölkəmizin strateji maraqlarını, həm də Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqlarını nəzərə almaqla bu bölgədə tarazlaşdırılmış siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev ölkəmizin xarici siyasətinin başlıca vəzifələrini və istiqamətlərini belə müəyyənləşdirdi: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır" [1].

1994-cü ilin sentyabrında Heydər Əliyevi təşəbbüsü ilə "Əsrin müqaviləsi"nin imzalanması da Azərbaycanla Qərb arasındakı münasibətlərdə mühüm dönüş nöqtəsi oldu və xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığı Dəstək Aktı"na ədalətsiz "907-ci düzəliş"in icrasının dondurulması ilə nəticələndi [2]. Digər tərəfdən, Heydər Əliyevin 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının ali kürsüsündə, habelə 1995-ci ilin oktyabrında BMT-nin 50 illiyi münasibətilə Baş Assambleyada etdiyi məruzələr və irəli sürdüyü müddəalar da Azərbaycanın xarici siyasətinin gələcək fəaliyyət istiqamətlərinin bütün dünyaya çatdırılmasında əhəmiyyətli rol oynadı.

Prezident Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda geniş və çoxşaxəli fəaliyyətinin əsasını münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Bu istiqamətdə ən zəruri təşəbbüslərdən biri müvəqqəti sülhün və atəşkəsin əldə edilməsi oldu. Belə ki, 1993-cü ilin sonları - 1994-cü ilin əvvəllərində ATƏT-in və digər vasitəçi dövlətlərin iştirakı ilə həyata keçirilən danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəsə nail olundu.

Bununla yanaşı, 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə etdiyi səfərləri də, keçirdiyi görüşləri də, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə apardığı danışıqları da erməni təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması [3] baxımından mühüm hadisə hesab etmək olar. Heydər Əliyevin apardığı uğurlu xarici siyasət tezliklə öz bəhrəsini verdi. Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə arada qaldırıldı və milli maraqlara cavab verən uğurlu siyasət həyata keçirildi. 1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında Ümummilli Liderin siyasi iradəsi və diplomatik fəaliyyəti sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivəsini müəyyənləşdirən xüsusi sənəd qəbul edildi [4].

Azərbaycan Respublikasının siyasi və hərbi təhlükəsizliyini təmin etmək məqsədilə Heydər Əliyev müasir dünyanın ən güclü və nüfuzlu hərbi-siyasi təşkilatı olan NATO ilə əməkdaşlığa da çox böyük üstünlük verdi. Bu məqsədlə 1994-cü ilin may ayının 4-də NATO-nun mənzil-qərargahının yerləşdiyi Brüssel şəhərinə səfər edən Ulu Öndər orada "Sülh Naminə Tərəfdaşlıq Proqramının" çərçivə sənədini imzaladı. Sənəd imzalandıqdan sonra Azərbaycan-NATO əlaqələrində böyük canlanma baş verdi və ölkəmizin təhlükəsizliyi ilə bağlı Alyansla mühüm vaxtaşırı məsləhətləşmələr aparıldı, Azərbaycan ordusunda islahatların gerçəkləşdirilməsi və

Müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardan biri də məhz Avropa Şurası oldu. 1996-cı il iyunun 26-28-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) növbəti sessiyası zamanı Assambleyanın Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul etdi. Bu mühüm qərar Azərbaycanın AŞPA-da təmsil olunmasına və Avropa Şurası tərəfindən qəbul olunmuş bəzi konvensiyalara qoşulmasına imkan yaratdı. Azərbaycanın Avropa Şurasına bərabərhüquqlu üzvü seçilməsi respublikamızın siyasi həyatında əlamətdar hadisə oldu və ölkəmiz mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv şəkildə çatdırılmasında bu təşkilatın timsalında yeni və çox mötəbər tribuna əldə etdi. Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də isə nümayəndələr səviyyəsində keçirilmiş iclasında isə Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi üçün qərar qəbul edildı [6].

1998-ci il sentyabrın 7-8-də Heydər Əliyevin təşəbbüsü ilə 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçiriilən Bakı beynəlxalq konfransı və onun nəticələri də Azərbaycanın xarici siyasət sahəsində qazandığı ən mühüm nailiyyətlərindən biri hesab olunmalıdır [7]. Bir mühüm cəhətə xüsusi diqqət yetirmək yerinə düşər ki, məsələn, Heydər Əliyev təkcə 1993-1998-ci illərdə, yəni ilk prezidentliyi dövründə 33 xarici ölkəyə 79 dəfə səfər etmiş, 232 tədbirdə Azərbaycanı təmsil etmiş, 431 sənədə imza atmışdır. Döğurdan da Ulu Öndər tərəfindən həyata keçirilən çoxtərəfli tarazlaşdırılmış xarici siyasət Azərbaycanın dünyanın bütün güc mərkəzləri ilə, o cümlədən qonşu və qeyri-qonşu dövlətlərlə yeni, qarşılıqlı faydalı əməkdaşlığa əsasalan münasibətlərinə yeni nəfəs verdi və bu istiqamətdə böyük uğurlar əldə olundu.Eyni zamanda onu da, xüsusi vurğulamaq yerinə düşər ki, Heydər Əliyevin xarici siyasət kursu hal- hazırkı zaman kəsiyində Respublika prezidenti İlham Əliyev tərəfində uğurla davam etdirilir.

Beləliklə, yuxarıda qeyd olunanları yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, Müstəqil Azərbaycanın uğurlu xarici siyasətində Heydər Əliyev şəxsiyyətinin rolu mühüm əhəmiyyət kəsb etmiş və bu istiqamətdə çoxşaxəli elmi- tədqiqat işlərinin aparılmasın zəruri ehtiyac vardı.

İstifadə edilmiş ədəbiyyat

1. Məmmədov N. "Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli". Xalq qəzeti.- 2010.- 9 may.- S. 5-6.

2. Abdullayeva S. "Xarici siyasət strategiyasında Heydər Əliyev dəst-xətti". "İki sahil" qəzeti. 26 aprel 2023-cü il.

3. Xuduyev S. "Heydər Əliyev və Azərbaycanın müstəqil xarici siyasətinin formalaşması". MİA. 30-04-2014 [11:53]. Link: https://mia.az/w104202/104202.

4. Ulu öndər Heydər Əliyevin xarıci sıyasət kursu və Azərbaycanın diplomatik uğurları (baş məqalə). Memorial. Az. 12 dekabr 2018.16: 00.Link: https://kaspi.az/az/ulu-nder-heyder-eliyevin-xarici-siyaset-kursu-ve-azerbaycanin-diplomatik-uurlari/?action=disablemobile.

5. Əsgərov Z. "Heydər Əliyevin xarici siyasət strategiyası və Azərbaycanın milli təhlükəsizliyi". Azərbaycan.- 2011.- 7 may.- S. 7.

6. Səmədova A. "Heydər Əliyevin xarici siyasəti". Ülfət qəzeti. 01 mart 2023-cü il.

7. Xuduyev S. "Heydər Əliyev və Azərbaycanın müstəqil xarici siyasətinin formalaşması". Yeni Azərbaycan qəzeti. Link: https://yeniazerbaycan.com/Siyaset_e16001_az.html

MÜQAYİSƏ TƏRCÜMƏNİN TƏDRİSİ VƏ TƏHLİLİNİN METODU KİMİ

Gülgəz Sabir qızı Salmanova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
gulgez67@mail.ru

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təhsil satandartlarına" dair məlum qərarı ölkənin pedaqoji kollektivi qarşısında ciddi vəzifələr qoyur. Ulu öndər Heydər Əliyev deyirdi ki, "təhsil millətin gələcəyidir". Ancaq qeyd etməliyik ki, təhsilin mövcud tələbləri bəzən yetərincə dəyərləndirilmir. Fikrimiz, əsla hansısa tədris müəssisəsini tənqid etmək deyildir. Ancaq məsələ burasındadır ki, ölkəmizin ən müxtəlif ali təhsil müəssisələrindən Bakı Slavyan Universitetinin magistratura şöbəsinə qəbul olunmuş tələbələrlə yaxından təmas zamanı aydın olur ki, tərcüməçilik ixtisasının tədrisində fərqli metodlar mövcuddur. Bəzi universitetlərin bakalavr pilləsində tərcümənin tədrisində əsas diqqəti daha çox praktik tərcüməyə yönəldirlər, ixtisasın nəzəri aspektlərini isə ikinci plana çəkirlər.

Şübhə yox ki, mütərcimin praktik hazırlığı həlledici şərtdir. Ancaq bir faktı da unutmaq olmaz ki, peşəkar tərcüməçilik üçün bu kifayət etmir. Heç kim üçün sirr deyil ki, bu gün tərcümə mətninin redaktəsinin və tənqidinin funksiyalarını əsasən mütərcimlərin özləri yerinə yetirirlər. Bu sahələrə məsul olan şəxslərin fəaliyyəti bir çox hallarda, formal xarakter daşıyır desək, yəqin ki, bizi qınamazlar. Dediklərimizi kifayət qədər sayda tərcümə nəşrləri sübut edir.

Tərcümə tarixindən çoxsaylı nümunələr sübut edir ki, tərcümənin tənqidi və nəzəri aspektləri ilə mütərcimlərin özlərinin məşğul olması daha səmərəli nəticələrə gətirib çıxarır. Bünövrəsi Siseron M., Drayden C., Kramer S.N. kimi mütərcim-nəzəriyyəçilər tərəfindən qoyulmuş bu nəcib ənənələr bu gün də uğurla davam etdirilir. Təbii ki, gələcək mütərcim bu imkanlara ali məktəb auditoriyalarında topladığı nəzəri və praktiki biliklərləri qarşılıqlı şəkildə daima zənginləşdirərək nail ola bilər. Yəni hər şey tədris illərindən formalaşmağa başlayır.

Müqayisə metodu tərcümə nəzəriyyəsinin tədrisi və onun pratik icrasının spesifikasından irəli gəlir. Bunların hamısının bütövlükdə, müqayisə metodu üzərində qurulması faktı heç kimdə şübhə doğurmamalıdır. Dünyaca məşhur dilçi alim İ.A.Boduen de Kurtene yazırdı ki, "müqayisə bütün elmlər üçün mühüm sayılan əməliyyatdır, ümumiyyətlə, təfəkkür prosesi ona əsaslanır, və yalnız müqayisənin köməyi ilə hər hansı bir baxımdan həmcins faktorları ümumiləşdirmək və müəyyən qanunauyğunluqları barədə nəticə çıxarmaq olar" [2, s.51].

Praktik və nəzəri baxımdan hər bir mütərcim bilinqv rolunda çıxış edərək, ilk növbədə, orijinalın və tərcümənin məxsus olduğu dillərin qanunauyğunluqlarını müqayisə edir və optimal variantı seçməyə çalışır. Lakin mətinin informasiya tutumunu reseptora çatdırmaq üçün sırf linqvistik vasitə kifayət etmir. Bunu bədii tərcümədə daha qabarıq şəkildə müşahidə etmək olar. Başqa sözlə desək, orijinal mətnin tam interpretasiyası geniş ekstralinqvistik faktorların nəzəri baxımdan dəyərləndirilməsini tələb edir. Təbii ki, mütərcim mətnin makro və mikro strukturunun ekvivalentliyi məsələsini bütün bunlardan sonra həll edə bilər.

Əlbəttə, bu sadalanan faktlardan öncə gələcək tərcüməçi tədris prosesində sosial-mədəni aspektin mahiyyətini ,digər tərəfdən mətnin dilini təşkil edən mövzu və obrazlı stilistik vasitələrin vahidliyini, habelə hadisələrin cərəyan etdiyi yeri və məkanı yetərincə dəyərləndirməyi öyrənməlidir. Şübhə yox ki, bu sadalananlarla yanaşı mütərcim lazımi yaradıcılıq qabiliyyətinə malik olmalıdır ki, orijinalın bədii təsvir vasitələrinin adekvat invariantını axtarıb tapa bilsin.

Əlbəttə , mütərcim heç də orijinalın bütün obrazlı xüsusiyyətlərini yenidən yaratmaq imkanına malik bütün stilistik vasitələrə sahib deyil. Ancaq o ikinci dilin imkanlarından maksimum istifadə edərək, "tərcüməolunmayan" leksikanın, frazeologizmlərin semantikasını qismən də olsa əvəz edən vasitələri seçməyi bacarmalıdır. A.Popoviç, bu tapıntını"subsiduya" [6, s.93] adlandıraraq, onun labütlüyünü qeyd edir.

Xatırladaq ki, gələcək mütərcim bu nəzəri praktiki biliklərə müəllimin nəzarəti altında yiyələnə bilər. Müşahidələr göstərir ki, bir sıra nəzəri mülahizələr müəllimin ilkin, yaxud əlavə izahatını tələb edir. Məsələn, bakalavr pilləsinin aşağı kurslarında tələbələrin əksəriyyəti "Tərcümə transformasiyaları" mövzusunu sırf linqvistik mövqedən dərk edirlər. Yalnız müəllimin bədii tərcüməyə aid gətirdiyi konkret nümunələrdən sonra tələbələr konnotativ, praqmatik və s. ekstralinqvistik transformasiyaların mövcudluğunu dərk edir və onları praktik tərcümədə reallaşdırır.

Tərcümənin tədris prosesi bir qayda olaraq, nəzəri biliklərin bir növ tədbiqi ilə müşayət olunur. Əgər gələcək mütərcim mətnin janr spesifikası, yaxud üslub xüsusiyyətləri haqqında yetərincə nəzəri biliklərə malik deyilsə, onların tərcümədə necə qorunması haqqında müstəqil fikir yürüdə bilməz.

Yeri gəlmişkən qeyd edək ki, bu baxımdan fon bilikləri məsələsi xüsusi həssaslıq tələb edir. Tədris prosesində gələcək mütərcimə aşılanmalıdır ki, fon bilikləri cansız dekorasiya haqqında anlayış deyil. Lakin bu sadə olmayan məsələni daxilən duymaqdan ötrü mütərcim geniş filoloji biliklərə malik olmalıdır. Bu baxımdan tədris zamanı gənc tərcüməçiyə bədii tərcümədə zaman və məkan anlayışları haqqında mövcud elmi mülahizələri köklü şəkildə mənimsətmək son dərəcə vacib şərtlərdəndir. Bügünki tələbə sabahın mütərcimi kimi tam əminliklə bilməlidir ki, zaman faktoru sırf "təqvim məfhumu anlamına qətiyyən gəlməməlidir" [6, s.122-130].

Tərcümə nəzəriyyəsi və praktikası kurslarının tədrisi zamanı üzləşdiyimiz çətinliklərin böyük bir qismi də milli dildə orta məktəbi bitirmiş tələbələrin ikinci dilin öyrənməsi ilə bağlıdır. Bu məsələ birbaşa və dolayısı ilə tərcümənin psixoloji aspekti ilə izah olunur. Məlum olduğu kimi, tərcümənin özü üçfazalı (eşitmə, yaxud görmə, dərk etmə və ikinci dildə yenidən yaratma) psixoloji aktdır. Ancaq əcnəbi dilə yiyələnmənin özü də üç mərhələdən (passiv, yarımpassiv və produktiv) ibarət olduğunu nəzərə alan mütəxəssislər doğma dilə əsaslanma məsələsində yekdil deyillər. Ancaq rus dilçisi L.V.Şerbanın aşağıda dedikləri həmin opponentlərə tutarlı cavabdır:"Tədris prosesindən qovub çıxarmaq olar...,ancaq doğma dili tədris şəraitində şagirdin beynindən çıxarmaq mümkün deyil" [8, s.56-57]. Alimin bu sözləri, guya ana dili müəyyən mərhələdən sonra ikinci dilin "öyrənilməsində maneə törədir" iddiasını alt-üst etdi.

Bir daha qeyd edək ki, tərcümədə doğma və əcnəbi dillərin müqayisəli tipologiyası , habelə mətnlərin məxsus olduqları mədəniyyətlərin xarakterik kodları mövzularında məşğələlərin aparılması zəruridir. Qeyd edək ki, K.D.Uşinskinin vaxtilə söylədiyi analoji didaktik fikirlər müasir dövrdə tərcümə nəzəriyyəsi və praktikasının tədris metodikası və bütövlükdə, hər bir yeni kursun lazımı səviyyədə mənimsənilməsi məsələsi üçün bu gün də öz aktuallığını saxlamaqdadır: "Müqayisə istənilən anlamanın və istənilən dərkin əsasıdır...Biz dünyada hər şeyi müqayisə yolu ilə öyrənirik" [7, s.332].

Bu gün universitetin bakalavr pilləsində xüsusi kurs kimi tədris olunan "Ümumi və xüsusi tərcümə nəzəriyyəsi anlayışı" fənni gələcək mütərcimlərin tərcüməşünaslıq sahəsində bilik səviyyələrinin və praktik vərdişlərinin yüksəldilməsi məqsədilə tədris planına daxil edilmişdir. Kursun başlıca vəzifəsi milli dildə təhsil almış tələbələrə müqayisəli qrammatika və tərcümə nəzəriyyəsinin əsas prinsiplərini, metodlarını yiyələndirmək, doğma və əcnəbi dillərində olan ümumi, oxşar və səciyyəvi xüsusiyyətləri aşkarlayıb onları dərindən öyrətmək, tərcüməçi ixtisasını

seçmiş tələbələrin lüğət ehtiyatlarını artırmaq, ikinci dilin qanunauyğunluqlarını daha dərindən öyrətmək və əldə edilmiş biliklərdən praktik tərcümə işində istifadə etməkdir.

Bir daha xatırladaq ki, qeyri xalqların mədəniyyətlərinə, habelə onların dillərinə həssaslıq ilk növbədə doğma dilə olan sevgidən başlayır. V. Humboldt haqlı olaraq qeyd edirdi ki, "dil xalqın ruhudur", bununla belə mütərcim "doğma mədəniyyətlə əcnəbi mədəniyyət arasındakı sərhədi aydın dərk etməlidir" [4, s.138-140]. Doğma dilin qanunauyğunluqlarını, onun mədəniyyət tarixini yetərincə bilməyən şəxsdən kamil mütərcim olma bilməməsi təkzibolunmaz aksiyomadır.

Aparılan müşahidələr və çoxillik pedaqoji təcrübə onu deməyə əsas verir ki, gələcək mütərcimlərin üzləşdiyi başlıca çətinliklər obrazlı frazeologizmlərlə bağlı olur. Bu da təbiidir; frazeoloji birləşmələr, paremioloji vahidlər hər bir xalqın keçdiyi mədəniyyət tarixinin müxtəlif dövrlərində formalaşaraq onun psixologiyasından, düşüncə tərzindən qaynaqlanmış və özünün təkrarsızlıqlarını əsrlər boyu qoruyub saxlaya bilmişdir. Məhz elə bu təkrarsızlığa görə onlar hətta təcrübəli mütərcim qarşısında böyük çətinliklər törədirlər, çünki tərcümədə onların tam forma və məzmun qarşılığı demək olar ki, yoxdur. Ancaq mövcud çətinliklərin aradan qaldırılması üçün tələbələrə həmin vahidlərin. yaxud birləşmələrin mənsub olduğu xalqın mədəniyyət tarixinin, adət və ənənələrinin, habelə mental düşüncə tərzinin öyrənilməsi tövsiyə edilir.

Mütərcim-tələbələrin daha çox üzləşdikləri çətinliklər sırasında ekvivalenti olmayan leksikanın mənasının ikinci dildə verilməsi mövzusunun tədrisi və bu sahədə olan mövcud mülahizələrin praktikaya tədbiqi məsələsidir. "Ekvivalenti olmayan leksika" məvhumu tərcümə-şunaslıq baxımından özündə kifayət qədər geniş anlayışları ehtiva edir. Lakin bu qəbildən olan leksikanın ikinci dildə verilməsi haqqında mövcud yazıların, habelə irəli sürülən mülahizələrin çoxluğuna baxmayaraq, mütəxəssislərin əsas diqqəti demək olar ki, milli realilərin verilməsinə yönəldilmişdir" [1, s.158]. Xatırladaq ki, tədris zamanı bu barədə danışarkən bəzi formalaşmış stereotiplərin aradan qaldırılması olduqca vacibdir. Belə ki, əksər dərsliklərdə "tərcümə olunmayan", yaxud "ekvivalenti olmayan leksika" adı altında yalnız milli realilər başa düşülür. Ancaq unutmaq olmaz ki, buraya spesifik ifadələri-deyimləri, dövrün rəsmi dövlət, yaxud ictimai-siyasi atributlarını bildirən və sair leksikaların da aid olduğunu göstərmək lazım gəlir.

Bu gün universitetimizin tərcümənin tədrisi ilə məşğul olan fakültələrin yuxarı kurslarında təhsil alan tələbələrə xüsusi fənn kurslarının azad seçmək imkanının verilməsi bu sahədə tədrisin yeni çalarlarla zənginləşməsinə dəlalət edir. Bakı Slavyan Universitetində ənənəyə çevrilmiş bu yenilik gələcəkdə tərcüməçinin sevdiyi və bacardığı istiqamətlər üzrə seçim etməsinə şərait yaradar. Məlum olduğu kimi, janrından asılı olmayaraq, əsl tərcümə variantına bacarıqla yanaşı mütərcim sevgisi sayəsində nail olmaq mümkündür. Cingiz Aytmatov tərcüməni heç də təsadüfən "sevgidən yaranmış övlad " adlandırmamışdır [5, s.172]. Bəli, məşhur tərcüməşunas T.Savorinin təbrincə desək, sevginin övladı olan tərcümə sənətinin bəşəriyyətin "ən qədim yaradıcılıq növlərinə" aid edilməsi tamamilə qanunayyğundur." [3, s.460-463].

Yeri gəlmişkən, qeyd edək ki, bakalavr pilləsinin yuxarı kurslarında və xüsusən də magistraturada tədris olunan "Tərcümənin müasir problemləri" kursu tərcümə nəzəriyyəsi və praktikasının zamanla səsləşən aktual problemlərinin öyrənilməsini ortaya qoymaqla, gələcək tərcüməşunaslar qarşısında tamamilə yeni və maraqlı axtarışlar üçün geniş perspektivlər vəd edir.

Bütün bu sadalanan və sadalanmayanlardan sonra gənc mütərcim yaxşı başa düşəcək ki, seçdiyi mətnin janrı semantik, praqmatik və sintaktik parametrlər kimi üç ölçü ilə müəyyənləşdirilir. İ.Ağakərimov tanınmış dünya tərcüməşunaslarına istinadən yazır ki, janr kimi mühüm məsələni "təhlil edərkən ilk növbədə üç faktorun vəhdətini əsas götürürlər: konseptual informasiya aparatı, mətnin linqvistikası və funksional stilistika. Belə ki, bu üç amil nisbi müstəqilliyə malik olsa da, onlardan biri digərindən təcrid şəkildə təhlil oluna bilməz. Mətnin semantikası məsələsi onun stilistikası ilə birbaşa və dolayısı ilə bağlı olur. A. Şveyser və K. Rays bu baxımdan "mətnin tipini", "janrını" nəzərdə tuturlar" [1, s.122].

Tərcümə nəzəriyyəsi və praktikası kursunun tədrisi ilə bağlı yuxarıda gətirilən faktlar bir daha onu deməyə əsas verir ki, bu gün istənilən fənnin tədrisi zamanı dövlət və hökümətimizin pedaqoji kollektiv qarşısında qoyduğu vəzifələrə ciddi riayət etməklə qabaqcıl beynəlxalq standartlara cavab vermək olar.

İstifadə edilmiş ədəbiyyat

1. Ağakərimov İ.M. Tərcümə nəzəriyyəsi və praktikasının aktual problemləri. Bakı. "Mütərcim", 2022.
2. Бодуэн де Куртэнэ И.А. Избранные труды по общему языкознанию.Т.1.М. «Наука». 1963.
3. Мастерство перевода . Сбор. М.СП 1959.
4. Нелюбин Л.Л., Хухуни Г.Т. Наука о переводе . М. «Флинта». 2006.
5. Перевод –средство взаимного сближения народов. М. «Прогресс», 1987.
6. Попович А. Проблемы художественного перевода. М.ВШ.1980.
7. Ушинский К.Д. Сочинения. т. VII. Изд. АПН РСФСР.1949.
8. Щерба Л.В. Преподавание иностранных языков в средней школе. Общие вопросы методики. 2 изд. М.1974.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ MİLLİ KONSTİTUSİYANIN TƏNTƏNƏSİ

[1,2]**Əbdürəhman Ənvər oğlu Kazımov,** [1]**Mahir Amin oğlu Məmmədov**
[1]Azərbaycan Dövlət Aqrar Universiteti
[2]hüquq üzrə fəlsəfə doktoru, dosent
e.aslanov85@mail.ru

Azərbaycan Respublikası müstəqilliyinin ilk günlərindən öz qarşısında vətəndaşlarına ləyaqətli həyat şəraitini təmin edən inkişaf etmiş demokratik dövlətlər sırasına daxil olmaq, habelə dünya ölkələri arasında layiqli yer tutmaq məqsədini qoymuşdu. İnsan hüquqları ilə demokratik konstitusion quruluş arasında əlaqə konstitusiyasının qəbul olunması və ya konstitusiya islahatının aparılması prosesindən başlayır.

Azərbaycan xalqının dövlət müstəqilliyi uğrunda apardığı mübarizənin istər siyasi, istərsə də hüquqi nəticələri "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında, "Azərbaycan Respublikasınıın dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamədə müəyyən edilmişdir. Adı çəkilən normativ hüquqi aktlar ölkəmizin dövlətçiliyi tarixində çox böyük tarixi və ictimai – siyasi əhəmiyyət kəsb etməklə yanaşı müstəqil Azərbaycanın dövlət quruluşunu, hakimiyyətin bölgüsü prinsipini insan və vətəndaşların əsas hüquq və azadlıqlarını, ölkənin siyasi sistemini təsbit edir və bütün müasir ölkələrdə olduğu kimi dövlətin Konstitusiyasının qəbul edilməsini zərurətə çevirirdi.

Belə bir Konstitusiya xalqımızın milli dövlətçiliyi tarixində ilk dəfə qəbul ediləcəkdi. Məhz buna görə yeni Konstitusiya layihəsinin hazırlanması gərgin əmək və gələcək nəsilləri qarşısında məsuliyyət tələb edir,

Azərbaycan Respublikasının Milli Məclisinin 2 may 1995-ci il tarixli 1048 nömrəli qərarı ilə Ulu öndər Heydər Əliyevin sədri olduğu yeni Konstitusiyasının layihəsini hazırlayan komissiyanın 35 nəfər üzvdən ibarət tərkibi müəyyən edildi. Bu Komissiyanın tərkibinə Milli Məclisin Nazirlər Kabinetinin, Prezident Administrasiyanın, hüquq – mühafizə orqanlarının rəhbərləri, görkəmli ictimai – siyasi xadimlər, alimlər, hüquqşünaslar, tarixçilər, filosoflar və dilçilər daxil idi.

Komissiyanın ilk iclası 5 iyun 1995-ci ildə keçirilmişdi. Bu iclasda ulu öndər öz nitqində ölkəmizdə konstitusiya quruculuğu tarixindən danışmış və Azərbaycan müstəqillik qazanandan sonra baş vermiş ictimai – siyasi hadisələrin ətraflı təhlilini vermişdir. O qeyd etmişdir ki, müstəqil dövlətimizin ilk Konstitusiya layihəsinin hazırlanması respublikamızın həyatında böyük bir hadisədir. Azərbaycan Respublikasının yeni konstitutiyasının layihəsinin hazırlanması üçün təşkil olunmuş komissiya 6 aydan çox fəaliyyət göstərmişdir. Altı ay ərzində komissiyanın 8(səkkiz) iclası keçirilmişdir. Konstitusiya Komissiyasının hər bir üzvü iclaslarda fəal iştirak etmişdir, ancaq Konstitutisiya komissiyası tərəfindən yaradılmış işçi qrupu, layihənin hazırlanmasına cəlb edilmiş

hüquqşünaslar, mütəxəssislər günbəgün çalışaraq müstəqil dövlətimizin layihəsini hazırlayaraq xalqın müzakirəsinə təqdim edə bilmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 10 noyabr 1995-ci il tarixində keçirilmiş iclasındakı çıxışında demişdir: tarixi bir iş görülübdür, tairixi bir sənəd yaradılıbdır. Bu gün biz ölkəmizinin bütün ictimaiyyəti qarşısında deyə bilərik ki, Azərbaycan Respublikasının, xalqımızın tarixində ilk demokratik konstitusiya yaranmasında biz bilavasitə iştirak etmişik və bu layihənin yaranması bizim hamımızın birlikdə məhsuldar əməyimizin, fəaliyyətimizin nəticəsidir. Üzərimizə düşən məsuliyyəti vicdanla xalqımıza, vəzifəmizə sədaqətlə həyata keçirmişik və gördüyümüz işə, xalqa təqdim etdiyimiz layihəyə görə fəxr edə bilərik. Hesab edirəm ki, bütün gələcək nəsillərdə meydana çıxacaq sualların hamısına burada cavab var.

Azərbaycan Respublikasının konstitusiya tarixində 1921-ci ildə, 1937-ci ildə və 1978 ci ildə konstitusiyalar qəbul edilmişdir. Ancaq 12 noyabr 1995-ci tarixində ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş konstitusiya indiyə qədər olan bütün konstitusiyalardan tamamilə fərqlənir. Çünki bu müstəqil dövlətimizin Konstitusiyasıdır. Ümummilli Liderin təbirincə desək, "bu Birləşmiş Millətlər Təşkilatının üzvü olan, dünya birliyində bərabər hüquqlu yerini tutmuş Azərbaycan dövlətinin Konstitusiyasıdır. Fərqlənir ona görə ki, bu konstitusiya Azərbaycan xalqının iradəsini, ifadə edərək, heç bir mərkəzdən idarə olunmadan, konstitusiya komissiyasının və geniş miqyaslı vətəndaşlarımızın əməyinin nəticəsidir."

13 noyabr 1995-ci ildə ölkə vətəndaşları böyük ruh yüksəkliyi nümayiş etdirərək referendum (ümumxalq səsverməsi) yolu ilə müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının qəbul etdilər. Konstitusiyanın qəbulu ölkəmizin dövlətçilik tarixində çox əlamətdar bir hadisə, yeni canlı bir səhifə oldu. Bu konstitusiya özünün demokratikliyi, aliliyi və mükəmməlliyi ilə diqqəti cəlb edərək ökəmizdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması, Azərbaycan dövlət müstəqiliyinin qorunub saxlanması və inkişafı üçün geniş imkanlar yaradır.

Belə bir yüksək səviyyəli sənədin qəbul olunması ölkəmizin uzun əsrlik dövlətçilik təcrübəsinin, Azərbaycan xalqının tarixi tərəqqisinin təntənəsi idi. Ulu öndər Heydər Əliyevin 12 noyabr Konstitusiya günü münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikində xüsusi vurğulayaraq deyirdi ki, "Azərbaycanın indiki konstitusiyası xalqımızın müstəqil azad, demokratik dövlət qurmaq və dünya birliyində layiqli yer tutmaq istəyini, sülhə, tərəqqiyə, bəşəriyyətin sivil inkişafına öz töhfəsini bəxş etmək əzmini və iradəsini nümayiş etdirir. Konstitusiyamız ümumbəşəri dəyərlərə və mütərəqqi milli ənənələrə söykənərək, bu günün reallıqlarını, dövlətin, cəmiyyətin inkişaf perspektivlərini əks etdirir"

Konstitusiyanın qəbul olunmasında ötən illər ərzində ölkəmizdə həyatın bütün sahələri Əsas Qanunun tələblərinə uyğunlaşdırılmışdır, bu sənədin yaratdığı imkanlardan yararlanaraq, dövlət idarəçiliyinin, iqtisadiyyatın, demokratikləşdirmə proseslərinin inkişaf etmiş dünya ölkələri standartlarına çatdırılması Azərbaycan Respublikasının yürütdüyü dövlət siyasətinin təməlini təşkil etmişdir. Dövlət hakimiyyətinin, hakimiyyətlərinin bölgüsü prinsipinə uyğun həyata keçirilməsi, məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması insan və vətəndaşların Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlarının təmin edilməsi, ölkəmizdə vətəndaş cəmiyyətinin və hüquqi dövlətin formalaşdırılması qarşıda duran çox zəruri məsələlərdən sayılır.

Ulu öndər Heydər Əliyev uzaqgörənliklə demişdir; "Əminəm ki, Azərbaycan xalqı demokratiya və siyasi plüralizm yolu ilə gedəcək, milli xüsusiyyətləri, tarixi ənənələri və ölkəmizin reallıqlarını nəzərə almaqla öz Konstitusiyasında əks olunmuş prinsiplərin tamamilə həyata keçirilməsinə çalışacaqdır"

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2023
2. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktı
3. Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Ali sovetin 30 avqust 1991-ci il tarixli Bəyannaməsi

4. Azərbaycan Respublikasının Konstitusiyasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi haqqında, Azərbaycan Respublikası Milli Məclisinin 2 may 1995-ci il tarixli 1048 saylı qərarı.

B.M.Vəhabzadənin Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibinə daxil edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 13 iyun 1995-ci il tarixli 1055 saylı Qərarı

5. Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi haqqında ümumxalq səsverməsinin (referendumun) keeçirilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin 3 oktyabr 1995-ci il tarixli 1125 saylı Qərarı

6. "12 noyabr Konstitusiya günü münasibətilə Azərbaycan xalqına təbrik" , "Heydər Əliyev, Müstəqiliyimiz əbədidir, otuz birinci kitab. Bakı: Azərnəşr, 2010, səh 32-35

7. H.Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr. 1997, dördüncü kitab. Səh 472-473

HEYDƏR ƏLİYEV, MİLLİ MENTALİTET VƏ MƏDƏNİYYƏTİMİZ

Şəhla Musayeva
fəlsəfə üzrə fələsəfə doktiru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
musayevashahla63@gmail.com

Milli-mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı adət-ənənələri, milli xüsusiyyətləri ilə özünə məxsus yer tutur. Ümummilli lider Heydər Əliyev böyüklüyü ondadır ki, rəhbər vəzifəyə gəldiyi gündən bu dəyərləri düzgün qiymətləndirmiş, daim diqqət mərkəzində saxlamış bunların qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən hesab etmişdir.

Xalqımızın ona xas olan mili adət-ənənəsindən doğan çox yaxşı keyfiyyətləri var. Misal üçün; qonaqpərvərlik, xeyirxahlıq və s. Biz bu gün dəyərlərimizi qorumaqla xalqımızın mənliyini, kimliyini qorumuş oluruq.

Azərbaycanı gəzib-dolaşarkən azərbaycanlılarla söhbət edərkən bu xalqın nəcib rəftarından mütəəssir olmamaq mümkün deyil. Azərbaycan tərəqqi etmiş ölkədir, Azərbaycan xalqı mədəni xalqdır. İntellekt yüksəkliyi, eləcə də texniki tərəqqiyə cəhd, abadlığa meyl hər şeydə, hər yerdə özünü göstərir.

Siyasi sabitliyin bərqərar olduğu bu ölkədə insan özünü başqa ölkələrə nisbətən daha rahat və təhlükəsiz hiss edir. Məlumdur ki, Azərbaycan xalqı qonaqpərvərliyi ilə seçilir. Ölkədəki asayiş isə, xalqın qonaqpərvərlik hissləri, qonağa hədsiz hörmət və ehtiramı ilə birləşərək gözəl ünsiyyət ab-havası yaradır. Hədsiz dözümlüyü ilə seçilən, təmkinlə davranmağı bacaran Azərbaycan xalqı sülhpərvər bir xalqdır. Dünyanı çalxalayan ixtilaf və çəkişmələrdən uzaq durmaq, xoş münasibətlər yaratmaq bu xalqı səciyyələndirən xüsusiyyətlərdəndir.

"Azərbaycan vətəndaşları vətənpərvərdirlər. Hər növ sosioloji sorğular göstərir ki, müstəqil dövlətimiz, onun ərazi toxunulmazlığı bizim üçün ən önəmli dəyərdir...Vətənpərvərlik təkcə hisslər deyil, həm də müəyyən bilik, məntiq, prosesləri qabaqcadan görmək, duymaq bacarığı və hissləri ehtiva edir. Ümummilli Liderin vətənpərvərliyi məhz belə idi. Onun vətənpərvərliyi , artıq biliklərə söykənən maarifçi vətənpərvərlikdir. Görkəmli şəxsiyyətlərə, liderlərə gəldikdə istedadlı insanlara qayğı ilə yanaşma xüsusi yer tutur. Bu kontekstdə xatırlatmaq istərdik ki, Ümummilli Liderimiz yalnız biliyin əhəmiyyətini çox yaxşı bilməsi ilə deyil, həm də alimlərə, sənət adamlarına və.s. xüsusi hörmət bəsləməsi ilə başqalarından fərqlənirdi. Belə ki, 1993 cü ildə, Azərbaycanın müstəqilliyinin taleyi təhlükə altında olan zaman, hakimiyyətə qayıdan Heydər Əliyevin ilk baş çəkdiyi qurumlardan biri Azərbaycan Milli Elmlər Akademiyası oldu. Onun bu münasibətində ictimai elmlərə və hər şeydən əvvəl fəlsəfəyə, əxlaqa, adət ənənələrə, tarixə xüsusi yanaşma özünü

göstərirdi... Onun vətənpərvəriyi həmişə maarifçi, biliyə, müasir elm və mədəniyyətin nailiyyətlərinə hörmətə əsaslanmış, cəmiyyətin tərəqqisinə yönəlmiş, amma başqa ölkə və xalqlara nifrətdən uzaq olmuşdur". [4, s.69]

Bu sözləri deyən xarici vətəndaşların qarşısında qürur hissi keçirməyimizə, rahat, firavan həyatımıza görə Ulu Öndər Heydər Əliyevə minnətdar olaraq, onun bu sözlərini unutmuruq: "Gərək insanın mənəviyyatı yüksək olsun. Mənəviyyat yüksəkliyi də insanın mənliyindədir, vətənpərvərliyindədir. Ona görə də gərək insan öz tarixini, millətinin köklərini, tarixi və ədəbi abidələrini bilsin. Ona görə bilsin ki, öz milləti, xalqı ilə daim fəxr etsin, vətənpərvər olsun, xalqına, torpağına, dövlətinə sədaqətli olsun.

Biz Avropa qitəsinə daxilik. Amma eyni zamanda Avropa ilə Asiya arasında tariximizlə, milli mədəniyyətimizlə, köklərimiz və mentalitetimizlə Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Azərbaycanın böyük şəxsiyyətləri, elm, mədəniyyət xadimləri xalqımızın milli mənəvi dəyərlərini yaradırlar. Bu həm də bizim milli mentalitetimizdir. Ulu öndərin sözləri ilə desək: "Bizim xalqımızın mənəvi-əxlaqi mentaliteti onun ən böyük milli sərvətidir. Biz bunu qiymətləndirməliyik". [1]

Heydər Əliyev xalqımızın milli- mənəvi dəyərlərinin formalaşmasında, onların qorunub saxlanılmasında və nəsildən nəslə ötürülməsində Azərbaycan qadınlarının roluna hər zaman önəm verirdi. "Azərbaycan xalqının mənəvi dəyərlərinin formalaşması, inkişafı və qorunmasında qadınlarımızın müstəsna rolu olmuşdur. Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi Vətən, torpaq, dil anlayışları Ana adı ilə bərabər tutulmuşdur". [2, s.100]

Ensiklopedik alim, Azərbaycan filosofu Nəsirəddin Tusi "Əxlaqi-nasiri" əsərinin "Ölkəni dolandırmaq siyasəti" hissəsində belə yazır: "Xalqın xeyri əmin-amanlıq, sakitlik, bir-birinə kömək, dostluq, ədalət, sədaqət və bu kimi işlərdə olar. Xalqın zərəri qarışıqlıq, iztirab, vahimə, iğtişaş, zülm, əziyyət, xəyanət, təhqir və bu kimi işlərdə olar. Hər iki halda camaat gözlərini hökmdara dikər". Rəhbərin yeddi xisləti olmalıdır: Birinci - atalıq, yəni xalqın ürəyinə yol tapmaq, hiss və qəzəbini idarə etmək bacarığı, ikinci - alicənablıq. Bu insanlığın ali hisslərini cəmləşdirib göstərməyi bacarmaq. Üçüncü - mətinlik. Bu qəti nöqteyi-nəzər, fitri-iradə, dərin mühakimə, böyük təcrübə və keçmişdən ibrət dərsi götürməklə əmələ gəlir. Dördüncü - tam əzm. Buna kişilik əzmi də deyilir. Beşinci - səbirli olmaq. Bu ağır günlərdə, ümidsiz anlarda davam gətirə bilməyə deyilir. Altıncı - gözütoxluq. Bu xalqın malına öz dikməmək və tamah salmamaq üçün lazımdır. Yeddinci - sadiq və əməlisaleh köməkçilər. Bu xislətlərə sahib olan böyük insanlar ölkəyə, xalqa rəhbərlik edə bilərlər". [5, s.42]

Bütün bu keyfiyyətlərə malik olan yüksək ziyalı, mənəviyyatlı Heydər Əliyev qısa fasilə ilə 30 illik siyasi rəhbər fəaliyyətində bir azərbaycanlı kimi həmişə mentalitetimizə böyük ehtiramla, diqqətlə yanaşdı, hər zaman – xalqın ağır günlərində də, xoş günlərində də Öndər oldu.

Ümummilli lidermiz bizləri bəşəriyyət tarixinin ən mükəmməl dini abidəsi "Qurani-Kərim"in "əz-Zümər" surəsinin ayələrinə diqqət yetirməyə səsləyərək:

"- Yaxşı əməllərə dəvət, pis işlərdən çəkinmək;

- İnsanın cismani, mənəvi təmizliyi və sağlamlığı;

- Valideynlərə, böyüklərə hörmət, qohum, qonşu və başqalarına qayğı və insani rəftar göstərmək;

- Çarəsizlərə və ehtiyacı olanlara yardım;

- Ədalətli olaraq zülm ilə mübarizə;

- Yaxşılıq, xeyirxahlıq və xeyriyyəçilik;

- Vətən sevgisi və vətəni qorumaq hissinin tərbiyəsi kimi şərtlərə vacib insani şərtlərə əməl etməyi məsləhət görürdü". [2]

Böyük rəhbər çıxışlarının birində «Biz öz milli köklərimizi, dini mənsubiyyətimizi qorumuşuq, qoruyacağıq. Mənəvi ənənələrimizi, adətlərimizi qoruyub inkişaf etdirəcəyik. Ancaq bununla bərabər, biz ümumbəşəri dəyərlərdən də bəhrələnməliyik. Hesab edirik ki, bizim mənəvi mili dəyərlərimizin ümumbəşəri dəyərlərlə birgə inkişaf etməsi, onların sintezi xalqımızın gələcəyi üçün, inkişafı üçün daha da əhəmiyyətli olacaqdır..." - deyərək bizləri müasir azərbaycanlı kimi görmək istədiyini bildirmişdir. [1]

"Heydər Əliyev xalqın milli-mənəvi birliyinin formalaşmasında yaradıcı ziyalıların roluna xüsusi əhımiyyət verirdi. Vurğulayırdı ki, əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyzlılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər". [3, s.101]

Öz sevimli xalqının tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sonsuz məhəbbət duyğuları ilə yanaşan görkəmli dövlət xadimi, müdrik şəxsiyyət kimi o, yaxşı başa düşür ki, bütün bu dəyərlər xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir. Milli dövlətçilik və mili-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. Ulu Öndər nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbr və təmkinlə həyata keçirtdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" - deyən Ümummilli Liderimiz bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Tarixi abidə və eksponatların qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında sərəncam imzaladı. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirildi. Ulu Öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatı məsələyə təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. "Biz öz mili-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" - deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev Heydər, Müstəqilliyimiz əbədidir, 44 cü cild, Bakı:"Azərnəşr",2013,səh.137
2. Qurani Kərim , 39 cu surə Əz Zumər
3. Mədətli E., Qafarov A. Heydər Əliyev: Dövlətçilik, milli özünüdərk, mənəvi dəyərlər, Bakı 2023, səh.101
4. Məmmədzadə İ. Həsənov S. , Heydər Əliyev və İlham Əliyev: Güclü dövlət, Qələbənin fəlsəfəsi, böyük qayıdış, Bakı, Elm və Təhsil 2023, səh. 69
5. Tusi Nəsirəddin, Əxlaqi Nasiri, Bakı, Lider nəşr. 2005, səh.42

HEYDƏR ƏLİYEVİN ŞƏXSİ NÜMUNƏSİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN EKOLOJİ TƏRBİYƏSİ

Bəsti Məhəmməd qızı Seyidzadə
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
besti.seyidzada@mdu.edu.az

Gənc nəslin ekoloji biliklərə yiyələnməsi məktəbəqədər tərbiyə müəssisələrindən başlayır və məktəbdə davam etdirilir. İnsanların yaşayış tərzi təbii sərvətlərin zənginliyi ilə, onlardan səmərəli istifadə etmək və mühafizəsi ilə sıx bağlıdır.

Təbiətə qayğı ilə yanaşmaq, onun gözəlləşməsinə nail olmaq və bu işdə yaxından iştirak etmək öyrənənlərin qarşısında duran əsas vəzifədir. Bu vəzifələrin layiqincə yerinə yetirilməsi öyrədənin üzərinə düşür. Yəni bu işin təməli aşağı siniflərdən qoyulur. Müəllim uşaqlara ekoloji tərbiyəni, ekoloji bilik və bacarıqları aşılayır.

Şagirdlərin ətraf mühitə düzgün və qayğılı münasibət bəsləməsi, onu qorumağa hazır olması istiqamətində son dövlərdə məktəblər xeyli iş görür. Sinif müəllimi insan təbiət münasibətlərinin mahiyyəti, onun sağlamlıq və inkişafda rolu barədə tədbirlər keçirir, uşaqlarda ekoloji mədəniyyəti inkişaf etdirir.

Hazırda respublikamızda ətraf mühitin qorunmasına xüsusi diqqət yetirilir və onun daha sağlam, zəngin, gözəl, insan üçün yararlı olmasında hamının iştirakı vacib sayılır. Ekologiya məsələləri, ətraf mühitin qorunması dövlət səviyyəsində həll olunmağa başlamışdır. Bu məqsədlə bir sıra qərarlar da qəbul edilmişdir. Hər bir azərbaycanlı ekologiya məsələlərini bilməlidir. Ətraf mühitin saflaşdırılmasının insan orqanizminə, mədəniyyətə, əxlaqa, təsərrüfata və s. bu və ya digər dərəcədə təsir etdiyini bilən şəxs öz mənzilini, həyətini, küçəsini, kəndini, şəhərini ekoloji cəhətdən təmiz saxlamağa çalışır. Ekoloji bilik daha çox müəllimə və digər tərbiyəçilərə lazımdır. Çünki, onlar uşaqlarla, yeniyetmələrlə uzun müddət təmasda olurlar. Digər biliklərlə yanaşı ekoloji biliklərlə gənc nəslin silahlandırılması, birinci növbədə, müəllimlərin və tərbiyə ilə məşğul olan digər şəxslərin üzərinə düşür [1].

Məlum olduğu kimi təlim və tərbiyə prosesləri bir-biri ilə üzvü surətdə əlaqədardır. Deməli, təlim elə təşkil olunmalıdır ki, bu şərait ekoloji tərbiyə hissini aşılamaq üçün tamamilə əlverişli və səmərəli olsun. Təbiətlə rəftarın əsasını xeyirxahlıq, qayğıkeşlik, həssaslıq, ədalətlilik kimi yüksək əxlaqi keyfiyyətlər təşkil edir, belə hisslərin formalaşmasına zəmin yaradır. Ona görə də təlim zamanı bu keyfiyyətlərin formalaşmasına lazımi diqqət yetirilməlidir.

Müəllimlər şagirdlərin kol və ağac bitkiləri, bir illik və çox illik bitkilər haqqında təsəvvürlərini möhkəmləndirmək üçün məktəbin tədris təcrübə sahəsindən istifadə edirlər. Bağ, bostan, tərəvəz bitkilərinin həyatında torpağın, havanın və suyun rolunu onlara əyani surətdə izah edirlər.

Təbiəti qorumaqla insan özünü qorumuşdur. Təbiətin qorunmasına dair bilik, bacarıq və vərdişlər sisteminə yiyələnmə prossesi ekoloji tərbiyə adlanır. Ekoloji tərbiyə prossesində şagirdlər doğma yurd, vətən haqqında, onun flora və faunası haqqında məlumatları mənimsəyir. Doğma torpağın qorunmasının müqəddəs vəzifə olduğunu dərk edirlər [2].

Şagirdlər ekoloji tərbiyə prossesində öyrənirlər ki, təbiət-insan-cəmiyyət silsilə bir-birindən ayrılmalıdır və bunların arasında bir nizam vardır. Ekoloji tərbiyə prossesində şagirdlər dərk edirlər ki, təbii ehtiyatların tükənməsi, erroziya, havanın, suyun, torpağı çirklənməsi bir çox bitki və heyvan növlərinin insanların fəaliyyəti nəticəsində yoxa çıxması insanın təbiətə mənfi təsirinin nəticəsidir. Təbiət insandan asılı olmayaraq obyektiv şəkildə mövcuddur. Təbiətə hər cür əmr etmək olmaz. İnsan təbiət üzərində dəhşətlər yaradıb qanunlar diktə edə bilməz. Yalnız, həmin qanunları dərk etmək, onlardan öz məqsədləri üçün istifadə etmək yolu ilə tərəqqi edə bilər.

Ekoloji tərbiyənin qarşısında duran vəzifələrə nəzər salaq:

1. Öyrənilənləri yurd, el-oba, vətən onun təbiəti qorunması və s. haqqında biliklərlə yiyələndirmək.
2. Onları təbiətə və sərvətlərinə qayğıkeşli münasibətlə yönləndirmək.
3. Ətraf aləmin qorunması işinə cəlb etmək.
4. Şagirldərin təbiətə və onun flora və faunasına qayğılı münasibət hissini aşılamaq.
5. Vətənimizin yerüstü və yüraltı sərvətlərini göz-bəbəyi kimi qorumaq, onlardan qənaətlə istifadə etmək, onların dəyərini bilməyi öyrədir [3].

Şagirdlərdə təbiətə qayğı hissinin tərbiyə olunması nisbətən uzun müddət, ardıcıl və müntəzəm iş aparılmasını tələb edir. Sinifdənxaric tədbirlər zamanı ekoloji tərbiyənin vəzifələri şagirdlərdə doğma diyarlarımızın təbiətinin korlanmasının qarşısını almaq onu göz bəbəyimiz kimi qorumaq və dözümlülük kimi keyfiyyətləri yaratmaqdır.

Ekskursiya uşaqları təbiətlə tanış etmək üzrə məşəğələlərin növərindən biridir. Ona görə ki, ekskursiya zamanı təbiətlə tanışlıq təbii şəraitdə gedir. Təbiət haqqında ümumi təsəvvürləri konkretləşdirmək və dəqiqləşdirməkə yanaşı uşaqlar hərəkət edir, oksigenlə zəngin mühitdə nəfəs alır, fiziki sağlamlığını möhkəmləndirir, bitki örtüyünün və heyvanlar arasında olan qarşılıqlı əlaqəni öz gözləri ilə görür, müşahidə edir və nəticə çıxarırlar.

Kiçikyaşlı məktəbliləri müəllim Heydər Əliyev adına parka ekskursiyaya tez-tez aparmalıdır. Uşaqlarla məqsədli gəzintilər təşkil etməlidir.

Ümummilli liderimiz Heydər Əliyevin torpağa verdiyi yüksək qiymətdən, torpaqda üzüm, taxıl, pambıq və s. yetişdimək üçün insanlara göstərdiyi qayğıdan, köməkdən, eyni zamanda uşaqlara torpağın əkin üçün yararlı hala salınması, taxılın səpilməsi və yığılması ilə əlaqədar bilgilər verilməlidir. Təbiətin insalara bəxş etdiyi əvəzedilməz nemətlərdən danışılmalıdır.

Bununla əlaqədar Ulu öndərimiz Heydər Əliyevin şəhər və qəsəbələri yaşllaşdırılması üçün gördüyü işlərdən, meşələrin qurulmasına qarşı çıxmasında, onun özünün də ekologiyanın qorunması işinə həvəslə qoşulduğundan uşaqlara ətraflı, faktlarla məlum verir. Belə olduqda şagirdlər ətraf mühitin insanların sağlamlığı üçün əhəmiyyətini daha dərindən dərk edirlər. Təbiətin mühafizəsi ilə daha həvəslə məşğul olur və təbiəti çirkləndirən insanlarla mübarizə aparmağa başlayırlar.

Ümumiyyətlə, ekoloji tərbiyə işini müasir tələblər səviyyəsinə qaldırmaq üçün məktəbin bütün kollektivi, digər ictimai təşkilatlar və valideynlər əlbir fəaliyyət göstəmlidirlər. Əks halda, ekoloji tərbiyə lazımi nəticə verə bilməz.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının ətraf mühiti mühafizə haqqında qanunu Bakı, 1999
2. Abdullayev H.X, Məsimov H.M. Uşaqların ekoloji tərbiyəsi, Maarif 1993, 182 s.
3. "Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Prezidentinin Fərmanı, "Azərbaycan" qəzeti, Bakı, 1999, 11 avqust

ULU ÖNDƏR H. Ə. ƏLİYEVİN DÖVLƏTÇİLİK STRATEGİYASINDA ORDU QURUCULUĞUNA FƏLSƏFİ BAXIŞ

[1,2]**Şölət Əlövsət oğlu Zeynalov,** [1,3]**Nərgiz Şölət qızı Zeynallı**
[1]AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
[2]fəlsəfə üzrə fəlsəfə doktoru, dosent.
sholet@mail.ru
[3]nargizzeynalli41@gmail.com

Hazırda Cənubi Qafqazda son 30 ilin ən problematik hadisələrindən biri olan Azərbaycan Respublikasının pozulmuş ərazi bütövlüyü hərbi və siyasi-uğurlu strategiya nəticəsində bərpa edilmişdir. Uzun illər xarici havadarlarının dəstəyi ilə Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan 2023-cü ilin 10 Noyabr tarixində kapitulyasiya aktını məcburən imzaladı. Lakin sonradan Ermənistan üzərinə götürdüyü öhdəlikləri və sülh müqaviləsini əngəlləmək məqsədi ilə revanşizmə cəhd edərək – müəyyən siyasi, hərbi, pozucu oyunlara əl atsa da, 19 sentyabr 2023-cü ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun həyata keçirdiyi bir günlük lokal antiterror əməliyyatı nəticəsində Ermənistan ordusunun Qarabağda olan qalıqları tam məğlub olaraq torpaqlarımızdan qovuldu. Əgər 2020-ci ildə baş verən 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycan Ordusu Ermənistanı hərbi yolla məğlub etmişdisə, bir günlük lokal anti-terror əməliyyatından sonra, həm Ermənistan rəhbərliyi məğlubiyyətin bütün parametrlərlə baş verdiyini anladı, həm də dırnaqarası elan olunmamış "respublika" məcbur qalaraq özünü buraxmaq haqqında bəyanatla çıxış etdi. Daha sonra 2023-cü il oktyabr ayının 15-də Azərbaycan Respublikasının prezidenti Ali Baş Komandan İlham Əliyev Xocalı, Xocavənd və ən əsası Xankəndinin mərkəzində Azərbaycan bayrağını ucaldaraq uzun müddət ərzində pozulmuş Azərbaycanın Konstitusion Suverenliyini bərpa etdi. Beləliklə, Azərbaycanın siyasi rəhbərliyinin dəfələrlə birgəyaşayış və reinteqrasiya haqqında təminatı elan etməsinə baxmayaraq, 90-cı illərdən sonra dünyanın müxtəlif ölkələrindən Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgəsinə köç etmiş separatçılar 19 sentyabr lokal antiterror əməliyyatından sonra Qarabağı kütləvi şəkildə tərk etməyə başladılar. Bu dinc və könüllü köçü dünya ictimaiyyətin əksər hissəsi, – obyektiv həqiqəti və beynəlxalq hüququ əsas tutan dövlətlər, tam ədalətli qiymətləndirsə də, bəzi qərəzli dairələr [Fransa başda olmaqla] Azərbaycanın etnik təmizləmə siyasətini həyata keçirməsini iddia etmək cəhd ilə çıxış etdilər. Ancaq fakt faktlığında qalır: Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycanın həyata keçirdiyi strategiyanın fəlsəfi mahiyyəti bütün dünya üçün məlum olduğundan əksər dövlətlər ermənilərin növbəti bu uydurma "köç" oyununu təbliğatını qəbul etmədilər. Belə ki, beynəlxalq ictimaiyyət və bir çox problemin tarixindən xəbəri olan tərəflər

gözəl anlayır ki, Azərbaycan dövləti tarixin heç bir mərhələsində nəinki Ermənistana, o cümlədən regionun hər hansı bir dövlətinə qarşı ərazi iddiasında olmayıb. Əksinə, onun əraziləri son əsrlərdə dəfələrlə işğala məruz qalmışdır. Lakin buna baxmayaraq tarixən olduğu kimi Azərbaycanın müasir siyasi, iqtisadi, mədəni və hərb tarixi də özündə yüksək əməkdaşlığı ifadə edən dialoq və dialoq mədəniyyəti ilə bağlıdır.

Modern dünyanın çağırışlarının əsas ideyası bilavasitə davamlı inkişaf və dialoji təfəkkürlə əlaqədar olduğundan tarixin bütövlükdə yaratdığı ziddiyyətləri yalnız silah gücünə həll etmək olmaz. Bu strategiyanı müdafiə etmək və dünya nizamında həyata keçirmək hazırda çətin olsa da, bilavasitə onun müdafiəsindən və reallaşmasından mübaliğəsiz desək, sivilizasiyanın gələcəyi asılıdır. Hansı ki, bu ideyalar Azərbaycanda Ulu öndər Heydər Əliyevin daima siyasi, milli və dövlətçilik hədəfi olmuşdur və hazırda Ali Baş Komandan, Prezident İlham Əliyevin əsas strateji hədəfi kimi inkişaf etdirilməkdədir [7, s.211].

Sonrakı tarixi təcrübə bir daha təsdiq etdi ki, həqiqətən də, Ulu Öndər Heydər Əliyevin strateji məqsədlərində bu strategiyanın başlıca prinsipləri və konstruksiyası demokratiyaya əsaslanaraq sekulyar dövlət qurmaq, iqtisadiyyatı, mədəniyyəti inkişaf etdirmək, regional təhlükəsizliyi və milli maraqları qorumaq və təmin etməklə bərabər ordu quruculuğu da əsas hədəf olmuşdur. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycan Ordusunun Vətən Müharibəsi və 2023-cü il sentyabr ayında həyata keçirdiyi bir günlük antiterror əməliyyatı nəticəsində qazandığı qələbə son üç əsrlik tariximizin ən ciddi uğurudur və bu uğurun başlıca prinsipləri Heydər Əliyev dühasının uzaqgörənliyindən, onun dövlətçilik fəlsəfəsinin düzgün konstruksiyasından gəlir. Dövlətçilik fəlsəfəsini dərindən anlayanlar çox gözəl bilir ki, bütövlükdə bu uğurlara gedən yol asan olmayıbdır. Əksinə, bu tərəqqi və inkişaf elə mürəkkəb mərhələlərdən keçmişdir ki, mübalığəsiz qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyevin dövlətçilik təcrübəsi və fenomenal şəxsiyyəti həmin illərdə əgər Azərbaycana siyasi strategiyada, iqtisadiyyatda, ordu quruculuğu və diplomatiyada düzgün istiqamət verməsəydi hazırda qazandığımız uğurların bəlkə də nəinki bir çoxu, ola bilər ki, heç biri də həyata keçməzdi. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti bu misilsiz strategiyanın mahiyyətindən bəhs edərkən qeyd etmişdir: "Heydər Əliyev və Yeni Azərbaycan Partiyası bizim siyasi xəttimizdir".

Bütün bu uğurların nəticəsidir ki, "ulu öndər Heydər Əliyevin irsinə, həyat və fəaliyyətinə dair həm ölkəmizdə, həm də müxtəlif ölkələrdə onlarla kitablar, məqalələr yazılmış, onun müdrik dövlətçilik təcrübəsinə dəfələrlə müraciət edilmişdir. Məsələn, 2004-cü il mayın 5-də Bakının Gülüstan Sarayında görkəmli Azərbaycan tarixçisi, tarix elmləri doktoru, professor [indi akademik] Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" kitabının təqdimatı oldu. Kitabda qeyd olunur: "...keçən əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində Heydər Əliyev şəxsiyyəti bizim Azərbaycanı bugünkü müstəqil həyata hazırlayırdı". Müəllif bu maraqlı kitabın paraqraflarından birini məhz belə adlandırmışdı: "Bizim Vətənimizin Atatürkü". Müəllif yazır ki, Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş bir dünyadır[aləmdir]... O böyük Azərbaycanlıdır" [4, s.22]. Azərbaycanın hazırda dünyada tutduğu mövqe və inkişaf səviyyəsi göstərir ki, Heydər Əliyev strategiyası nəinki ölkəmiz və region üçün, həm də müasir narahat, qeyri-məlum, ziddiyyətli yeni *"dünya nizamında"* dünya miqyasında əvəzsiz bir paradiqmadır. Təsadüfi deyildir ki, Ali Baş Komandan İlham Əliyev dahi Liderin anadan olmasının 100-cü ildönümü münasibətilə H. Ə. Əliyevin möhtəşəm xatirəsinə ehtiram əlaməti olaraq müvafiq sərəncamı ilə 2023-cü ili "Heydər Əliyev İli" elan etdi. Sərəncamda qeyd edilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir" [1].

Yuxarıdakı qeyd edilənlər bir daha təsdiq edir ki, indi dövlətlər üçün ədalətli olmaqla bərabər, həm də dayanıqlı güc amili, iqtisadi, hərbi, mədəni və sosial güc də, o cümlədən elm və onun hüdudsuz imkanları, tarixə münasibət və tarix barədə mükəmməl fəlsəfi interpretasiyalar və ordu quruculuğu dövlətçilik fəlsəfəsinin başlıca atributu kimi çıxış etməkdədir. Bunsuz dövlətin gələcəyini təsəvvür etmək mümkün deyildir. Başqa sözlə desək, iqtisadi, sosial, mədəni inkişafın

arxasında mütləq həm də dayanıqlı iqtisadiyyat, təhsil, güclü elmi potensial və sosial cəhətdən inkişaf etmiş cəmiyyət, təmin olunmuş güclü və modern ordu dayanmalıdır ki, dövlət terrora məruz ya qalmasın, ya da beynəlxalq hüquq və təhlükəsizliyin təmin edilməsi işini öz üzərinə götürərək sülhü təmin edə bilsin. Hər halda 44 günlük Vətən müharibəsi bir daha təsdiq etdi ki, dayanıqlı ərazi bütövlüyü və təhlükəsizlik üçün beynəlxalq hüquqa istinad edərək, məhz öz ordu gücünün hesabına ərazilərini işğaldan azad edə, terrorçuları diz çökdürə bilərsən. Fakt odur ki, Ali Baş Komandan İ.H.Əliyevin qeyd etdiyi kimi, "Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür. [2020-ci il nəzərdə tutulur] Buna, əlbəttə ki, ehtiyac var. O da bizim tariximizdən qaynaqlanır və biz görürük ki, bu gün beynəlxalq hüquq normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir. Biz uzun illər bu yanaşmaya məruz qalmışıq. Biz səsimizi ucaldırdıq və deyirdik BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, Ermənistan qoşunları dərhal və qeyd-şərtsiz Azərbaycanın ərazisindən çıxarılmalıdır. Ancaq o qətnamələrə riayət edilmirdi və bu gün həmin o tendensiya davam edir" [2]. Yuxarıda qeyd olunan bu qızıl faktin təsdiq üçün Azərbaycan otuz ildən artıq bir mübarizə apardı və BMT-nin həyata keçirə bilmədiyini özü-öz resursları hesabına reallaşdırdı. İstər 44 günlük Vətən Müharibəsinin, istər 19 sentyabr 2023-cü il lokal anti-terror əməliyyatının müəllifi Azərbaycan xalqı, Azərbaycan Ordusu və onun Müzəffər Ali Baş Komandanı oldu. Ali Baş Komandan 15 Oktyabr 2023-cü il tarixində Xankəndidə Azərbaycan Bayrağını qaldırarkən qeyd edirdi: "Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın" [3].

Bu strategiyanın təməli isə şübhəsiz təməli Ulu Öndərin dövlətçilik fəlsəfəsinin əsaslarından gəlir. Düzdür, mütəxəssis və ya alim gözəl anlayır ki, dövlətçilik fəlsəfəsində sülh, əminamanlıq, təhlükəsiz region və dünya nəzərdə tutulan bir konsepsiyada müharibə mövzusu istisna təşkil edir. Ancaq ölkə başçısının dəfələrlə öz çıxışlarında qeyd etdiyi kimi, Azərbaycan yalnız ədalətin bərpası işində, öz torpaqlarının müdafiəsi və azad olması yolunda hərbə əl ata bilərdi və bunu son anda etdi. Məsələ ondadır ki, həqiqətən də, istər fəlsəfi interpretasiya və ya siyasi yanaşmalar, istərsə də adi vətəndaş və ya mütəxəssis indi bu faktı təsdiq edir ki, bəzi dövlətlər, o cümlədən, beynəlxalq təşkilatlar əslində özlərinin "sülh oyunu" ilə uzun müddət beynəlxalq hüququ hərəkətsiz mexanizminə çevirə bilirlər. Ona görə də Ali Baş Komandan İ.Əliyevin qeyd etdiyi kimi, "Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda sülhün təminatı yalnız gücdür. Bunu deyərkən, əlbəttə, biz gələcəkdə yarana biləcək təhlükələri istisna etməməliyik, çünki dünya və bizim regionumuz bu gün çətin proqnozlaşdırılır. Ancaq hazırda xaricdən qaynaqlanan təhlükə səviyyəsi o qədər də yüksək deyil. Yəqin, bu, ona görədir ki, biz həmin təhlükənin öhdəsindən gələ bilirik" (2).

Xüsusi qeyd etmək lazımdır ki, hazırda istər regional sülh, istərsə də qlobal anlamda sülh və təhlükəsizlik problemi gündəmin trendidir. Təsadüfi deyildir ki, XX əsrin siyasi liderlərindən biri və Azərbaycanın daima haqq işini dəstəkləyən Türkiyə prezidenti R.T.Ərdoğan mütəmadi olaraq bəşəri ədalətin bərpa problemini hər dəfə siyasi, mədəni, humanitar gündəmin bir nömrəli vəzifəsinə çevirməyə çalışır. Bu zaman sual yaranır bəşəri ədalət siyasi anlamda həqiqətənmi əbədi fəlsəfi problemdir? Yaxud, R.T.Ərdoğanın israrla "dünya beşdən böyükdür" tezisinin fəlsəfəsi dünyanın qlobal dövlətləri tərəfindən necə olur ki, pozitiv reaksiyalar gəlmir. Şübhəsiz, bütün qeyd olunan sualların cavablandırılması çiddi araşdırmalar tələb edir və onların ümumiyyətlə, bəzilərinin heç sona kimi cavablandırılması da mümkün görünmür. Ancaq bir fakt dəqiqdir: Problemin nəzəriyəsindən çixiş edərək mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, müasir beynəlxalq

nizam, bütövlükdə, Qərb ölkələri daxil olmaqla ciddi böhran mərhələsindədir və prosesin nə ilə qurtaracağını bəzən proqnozlaşdırmaq mümkün görünmür. Məhz bu səbəbdən də tendensiya öz növbəsində regional dövlətlərin milli, mədəni, siyasi, iqtisadi, sosial və s. varlıqlarını qorumaq, təhlükəsizliklərini təmin və inkişaf etdirmək məsələsini bir daha aktuallşdırır: köhnə qaydalarla nizamı saxlamaq mümkün olmur, yeni qaydalarsa mövcud deyildir, digər bir tərəfdən isə elmi-texniki tərəqqinin inkişafı, süni intellektin aktuallaşması, informasiya cəmiyyətinin inkişafı ölkələr, cəmiyyət və dövlətlər, o cümlədən, mədəni identikliklər arası əlaqə və münasibətlərdə yeni reformaları tələb edir və s. Bu isə onu göstərir ki, hər şeydən əvvəl müasir problemlərin dərkində dialoq amili bütün alternativlərin alternativi kimi çıxış etsə də, o, bir növ müasir cəmiyyət üçün unudulur. Lakin biz unutmamalıyıq ki, dialoq qədim tarixə malik bir terapevtik üsuldur, onu həyata keçirmədən hansısa ciddi uğurlar qlobal səviyyədə həyata keçirmək mümkün deyildir. Azərbaycan paradiqmasının məhz əsasları dialoq üzərində qurulmuşdur. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin stratefiyası və dövlətçilik fəlsəfəsi nəinki regional problemlərin həllində o cümlədən qlobal nizamın təmin olunması işində əvəzsiz bir üsuldur. Göründüyü kimi yuxarıda qeyd edilənlə ziddiyyətlər toplusundan çıxış nöqtəsi tapmaq asan məsələ deyildir. Lakin ümid həm də onadır ki, "etikanı öhdəliklər haqqında təlim saymaq mümkün olmasa da" [6, s.172]. qlobal mədəniyyət və etikaya da ümid böyükdür. Başqa sözlə desək, modern dünyanın yaratdıqları tendensiya nə qədər ziddiyyətli olsa da, idrak, şüur və müasir elmin paradiqmaları sübut edir ki, problemdən qurtulmaq asan olmasa da ona – problemə düzgün istiqamət vermək olar. Bu işdə liderin, şəxsiyyətin, aparıcı dövlətlərin üzərinə müasirlik ciddi vəzifələr də qoyur.

Şübhəsiz bütün bunlar siyasi anlamda səriştə tələb etməklə yanaşı dövlətin, millət və cəmiyyətin həm reallığı dərk etməsindən, həm də belə bir şəraitdə liderin, dövlətə rəhbərlik edən birinci şəxsin şəxsi keyfiyyətlərindən, siyasi dühası və xarizmasından strategiyasından ciddi şəkildə asılıdır. Ulu öndər H.Ə.Əliyevin Davamlı İnkişaf kontekstində regional təhlükəsizlik və sülh strategiyasının möhtəşəmliyi ondan ibarətdir ki, sonrakı [hazırkı] hadisələrin analizi göstərdi ki bu strategiya tarixi bir zərurətdir və onun başlıca məqsədi dövlətin dayanaqlılığı və davamlı inkişafı, xalqın, millət və cəmiyyətin inkişafı və bütövlüyü olmuşdur. İkinci Qarabağ savaşından sonra regionda yaranan yeni geostrateji, iqtisadi, siyasi, sosial, mədəni, humanitar və s. reallıqlar bir daha praktikada sübut etdi ki, vaxtilə, 90-cı illərin ortalarından başlayaraq Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu siyasi kurs və dövlətçilik fəlsəfəsi nə qədər dəqiq və nizamlı olmuşdur – və onun nəticələrinin miqyası həqiqətən də qlobal xarakterlidir. Sonrakı tarixi tendensiya sübut etdi ki, "Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir" [1]. Bu fəlsəfənin əsas fundamental anlamı ondadır ki, Ulu Öndərin həyata keçirdiyi bu qlobal miqyaslı strategiyanın təməlində hər şeydən əvvəl tariximizin bərpası, dövlətçilik şüurunun inkişafı, ideoloji, siyasi, milli, mədəni, humanitar və s. vəhdətin təmin edilməsi tarixi yaddaşımızın ən başlıca elementi kimi konsolidasiya olunaraq irəli sürüldü. Başqa sözlə desək, Ulu öndər hadisə və proseslərin inkişaf dinamikasını elə siyasi gedişlərlə tənzimlədi ki, bir tərəfdən Azərbaycan dünyada öz ədalətli mövqeyi ilə xüsusi hörmət qazandı, digər tərəfdən də xalqın etnomilli dəyərləri, milli kimliyi konsolidasiya olunaraq yeni iqtisadi, siyasi, mədəni, sosial mərhələyə qalxdı. Bölümün sonunda yuxarıda irəli sürülmüş nəzəri mülahizələrin məntiqi yekunu olaraq bir daha qeyd edək ki, "Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya

qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir"[1].

Bütün bu əxlaqi strategiyanın təməlində Lider və Xalq birliyi dayanır ki, bu da Ulu Öndərin strateji hədəflərinin sütununu təşkil etməklə yanaşı, Heydər Əliyev dühasını Azərbaycan tarixində bir rəmzə, sarsılmaz simvola çevirməkdədir. Təsadüfi deyildir ki, bu möhtəşəm irsə ehtiram əlaməti olaraq "Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir" [1]. Bütün bunlar tarixi faktlardır və hazırda Azərbaycan Respublikasının həyata keçirdiyi uğurlu strategiya bir daha təsdiq edir ki, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş Ulu öndərin sülh və təhlükəsizlik, birgəyaşayış ideyaları, Ordu quruculuğu konsepsiyası regional təhlükəsizliyə qarant kimi qiymətləndirilməkdədir. Tarixi faktlar sübut edir ki, "...Müstəqilliyimizin və milli birliyimizin sarsıldığı tarixi bir məqamda Heydər Əliyev dühası xalqın xilaskarlıq missiyasını yerinə yetirməklə öz taleyini Azərbaycan xalqının canı-qanı bahasına əldə etdiyi müstəqilliyinin qorunmasının qarantına çevirdi" [5, s.36].

Yuxarıdakı təhlillərdən bir daha aydın şəkildə məlum olur ki, ulu öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsasında milli birlik ideyaları, sülh və təhlükəsizlik, dinc yanaşı yaşama, regional münasibətlərin normallaşdırılması paradiqması əsas meyar kimi onun siyasi təfəkkürünün, dövlətçilik strategiyasının başlıca istiqaməti olmuşdur. Bu hədəflər indi də ölkə rəhbərliyi tərəfindən daha da inkişaf etdirilərək həyata keçirilir.

Nəticə olaraq qeyd edək ki, yaxin tariximizdən bəllidir ki, məhz bu strategiya nəticəsində Azərbaycanın Ordusu Ali Baş Komandan İlham Əliyevin başçılığı altında işğala son qoydu. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu XXI əsrin tarixini yenidən yazaraq dünya miqyasında analoqu olmayan bir Zəfərə imza atdı və torpaqlarımızın hər bir nöqtəsində ölkənin suverenliyini bərpa etdi. Şübhəsiz Bu strategiyada, milli maraqlar, regional təhlükəsizlik, sülh siyasəti, humanizm, birgəyaşayış, multikulturalizm və tolerantlıq prinsipləri haazırda da Prezident İlham Əliyev tərəfindən daima inkişaf etdirilərək dünyaya təqdim edilir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən təsbit edilmiş bu paradiqma özündə birgəyaşayış normalarını, beynəlxalq hüququ, dialoq və təhlükəsizliyi birləşdirdiyindən faktiki olaraq o dünya üçün bir örnək hesab edilməkdədir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev İlham. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/az/articles/view/57413
2. Əliyev İlham: "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda keçirilən Şuşa Qlobal Media Forumu https://president.az/az/articles/view/60544
3. Əliyev İlham: İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və çıxış edib. https://president.az/az/articles/view/61587
4. Mədətli Eynulla. Heydər Əliyevin "Bir Millət – iki dövlət düsturu" Azərbaycan -Türkiyə birliyinin yol xəritəsidir. // Heydər Əliyev ideyaları və müasir dövr respublika elmi konfransının materialları. I hissə. Naxçıvan, "Tusi",2023 s. 206 səh. s. 22-29.
5. Məmmədzadə İ., Həsənov S. Heydər Əliyev və İlham Əliyev: Sabitlik, qüdrətli dövlət və qələbənin fəlsəfəsi. "Bilgi" MMC mətbəəsi "Bakı, 2021 Qələbənin fəlsəfəsi. 228 s.
6. Şopenhauer A. Müxtəlif predmetlər haqqında düşüncələr. Bakı: Qanun, 2018, 192 s.
7. Zeynalov, Ş. Ə. Dialoq mədəniyyəti və müasirlik. Bakı: Avropa, 2020, 330 s.

HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN MEMARI VƏ QURUCUSUDUR

[1,2]**Seymur Elman oğlu Süleymanov,** [1,3]**Sahibə İsmayıl qızı Nəsirova**
[1]Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
[2]fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
seymursuleymanov71@mail.ru
[3]sahibanasirova1963@mail.ru

Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, Onun müəyyənləş-dirdiyi daxili və xarici siyasət xətti dayanır. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Yəni Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir

Azərbaycan dövləti 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan, hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı, ölkədə ictimai-siyasi gərginlik daha da dərinləşərək anarxiya həddinə çatdı. Bu vəziyyət 1993-cü ilə qədər davam etdi. 1993-cü ilin iyununda Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsindən sonra ölkəmizdə xaotik proseslərin qarşısı alındı - ictimai-siyasi sabitlik təmin edildi.

Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında olarkən xalqımız 1993-cü ildə Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli lider Heydər Əliyevə üz tutdu. O zaman ölkəyə "rəhbərlik" edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər. Beləliklə, iyunun 9-da Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. [1,2].

Ümummilli Liderin Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də isə Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu.

1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Ümummilli lider Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazanaraq 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonra Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi və sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. Ən əsası, 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı. Reallaşdırılan ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi, ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş meydan verildi, genişmiqyaslı islahatlara başlandı. 1994-cü il sentyabrın 20-də isə Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycanın dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi.

Uğurlu dövlət quruculuğu Azərbaycanın müstəqilliyini möhkəmləndirdi. Ulu Öndərin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu, Azərbaycanın müasir müstəqil dövlət kimi inkişafı baxımından çox mühüm əhəmiyyətə malikdir. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən

ideologiyanın yaradılması bu kontekstdə xüsusilə vurğulanmalıdır. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda ölkənin siyasi-hüquqi sistemində müsbət mənada əsaslı dəyişikliklər oldu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu Öndər Heydər Əliyev, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlarını atdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Bu kontekstdə Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar da xüsusi vurğulanmalıdır.

Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Məlum olduğu kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Şübhəsiz, Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda görülən işlərin və əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

Bütün bunların nəticəsidir ki, müstəqil Azərbaycan 1993-cü ildən bu günə qədər inkişaf yolunda əmin addımlarla irəliləyir, möhtəşəm nailiyyətlər əldə edərək yeni zirvələr fəth edir. Azərbaycan beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, səmərəli ikitərəfli və çoxtərəfli xarici əlaqələr quruldu.

Qeyd edilənlərlə yanaşı, Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursu nəticəsində Azərbaycanın beynəlxalq əlaqələri genişlənməyə başladı. Yəni Azərbaycan uğurlu xarici siyasət həyata keçirərək öz beynəlxalq mövqeyini möhkəmləndirmiş oldu. Ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələr quruldu."Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatında dönüş yarandı və genişmiqyaslı işlərə başlandı. Daha sonra Azərbaycan neftinin dünya bazarlarına nəqli istiqamətində müstəsna əhəmiyyət kəsb edən tədbirlər görüldü və mühüm əməkdaşlıq layihələri gerçəkləşdirildi. Bütövlükdə, milli maraqlara əsaslanan uğurlu xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyini möhkəmləndirdi, Azərbaycan etibarlı tərəfdaş kimi tanınmağa başladı.

Müasir müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib. Təsadüfi deyil ki, ölkəmizin iqtisadi nailiyyətləri beynəlxalq miqyasda da təqdir olunur - yüksək qiymətləndirilir. Nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında yer alan məqamlar ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin müsbət nəticələrini əks etdirir.

Bu gün ölkəmiz dayanıqlı inkişafa, möhkəm ictimai-siyasi sabitliyə malikdir və Azərbaycan çoxəsrlik tarixində heç vaxt indiki qədər güclü, qüdrətli olmayıb. [4, 5].

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla sübuta yetirib. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Mərdanov M.C, Quliyev Ə. Heydər Əliyev. Təhsil millətin gələcəyidir Bakı: Təhsil, 2002.

2. Mərdanov M.C. "Azərbaycan təhsili dünən, bu gün, sabah". Bakı, Təhsil, 2006.
3. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. Bakı, "Çaşıoğlu", 2005.
4. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, "Çaşıoğlu", 2009.
5. www.google.az
6. www.edu.az.

XARİCİ ELEKTRİK VƏ MAQNİT SAHƏLƏRİNİN İSTİQAMƏTİNDƏN ASILI OLARAQ İKİ TİP YARIMKEÇİRİCİLƏRDƏ CARİ DALĞALANMALAR

[1]**Eldar Rəsul oğlu Həsənov,** [2]**Ruhiyyə Kərəm qızı Mustafayeva**
[1]fizika-riyaziyyat elmləri namizədi, dosent
Baki Dövlər Universiteti
ETN Fizika İnstitutu
[2]fizika üzrə fəlsəfə doktoru
Baki Dövlət Universiteti
ruhi-qrk@mail.ru

Giriş

Şək. 1-də göstərildiyi kimi, (ε, k) diaqramda verilən iki alt zonalardan ibarət olan keçirici zonaya baxaq.



Şək. 1. Yarımkeçiricilərdə alt zonalar

Aşağı zona a, yuxarı zona isə b işarə olunur. Minimumların enerjiləri $\varepsilon_{a,b}$, bu enerjilərin fərqi isə E -ə bərabərdir. Zolaqlardakı vəziyyətlərin effektiv sıxlıqları $N_{a,b}$ bərabərdir. Fərz edək ki, k istiqamət elektrik sahəsi F -ə paralel olan əsas oxla üst-üstə düşür, effektiv kütlələr $m_{a,b}$ və yürüklüklər $\mu_{a,b}$ bərabərdir və zonalarda elektron konsentrasiyaları $n_{a,b}$. Keçiricilik

$$G = e(\mu_a n_a + \mu_b n_b)F \qquad (1)$$

ifadə ilə müəyyən edilir. Kristala kifayət qədər böyük elektrik sahəsi tətbiq edildikdə, elektronlar sürətlənir və onların effektiv temperaturu qəfəs temperaturundan yuxarı qalxır və ümumiyyətlə şəbəkənin temperaturu da artmalıdır. Nəticədə, zolaqlardakı elektronların təkcə hərəkətliliyi deyil, həm də sıxlığı dəyişir. Artan sahə ilə keçiriciliyin artması kimi yazıla bilər

$$\frac{dG}{dF} = e\left(\mu_a \frac{dn_a}{dF} + \mu_b \frac{dn_b}{dF}\right) + e\left(n_a \frac{d\mu_a}{dF} + n_b \frac{d\mu_b}{dF}\right)$$

Və ya, fərz etsək $n_a + n_b = n$, n sabit bir qiymətdir və $\mu_{a,b} \sim F^p$ seçərək,

$$\frac{dG}{dF} = e(\mu_a - \mu_b)\frac{dn_a}{dF} + e(\mu_a n_a + \mu_b n_b)\frac{p}{F} \qquad (2)$$

Cərəyan sıxlığı $J = GF$ və $\frac{dJ}{dF} = G + F\frac{dG}{dF}$. Mənfi müqavimətin yaranması $-\frac{dG/dF}{G/F} > 1$ şərti formaya malikdir. Və ya (1) və (2) düsturlarından istifadə edərək $f = n_b/n_a$ -da

$$\left[\frac{\mu_a - \mu_b}{\mu_a + f\mu_b}\left(-\frac{F}{n_a}\frac{dn_a}{dF}\right) - p\right] > 1 \qquad (3)$$

F -in üstündəki p göstəricisi sahənin eksponenti səpilmə mexanizmindən asılıdır və mənfi və böyük ola bilər. Buna görə də, aşqarlı səpilmə son dərəcə arzuolunmazdır, çünki üstünlük təşkil etdikdə, sahə artıqca yürüklük artır və beləliklə p müsbət olur. Lakin qəfəsin rəqsləri ilə səpilmə üstünlük təşkil etdikdə, p mənfi olur və qəfəsin və daşıyıcıların temperaturlarından asılı olacaq. Qəfəsin temperaturu sabit qalsa, aşağı qəfəs temperaturlarında ($\leq 20^\circ K$) isti elektronlar üçün cərəyan-gərginlik xarakteristikasının üç müxtəlif bölməsi olur.

1. $p = -0{,}5$ akustik fononlarla toqquşma nəticəsində səpilmənin üstünlük təşkil etdiyi sahə $F^{1/2}$ [5].

2. $p = -0{,}8$ əsas səpilmə mexanizminin akustik fononların emissiyası olduğu sahə $F^{1/5}$ [5].

3. $p = -1{,}0$ optik fononlarla səpilmənin üstünlük təşkil etdiyi sahə F^0 [5].

(3) ifadəsində F^0 in mənfi müqavimət verəcəyini asanlıqla görmək olar. Bu elektronlar kifayət qədər qızdıqda alına bilər və yuxarı zonaya keçirlər, aşağı hərəkətliliyi ilə xarakterizə olunduğu təqdirdə yuxarı zonaya keçə bildikdə görünür.

Sahənin artması ilə qəfəsin temperaturunun artması da mümkündür. Bunun nəyə gətirib çıxaracağını öyrənmək üçün fərz edək ki, bir zonamız var və qəfəs temperaturu əsasən vahid həcmə düşən cərəyanın buraxdığı istiliklə Q müəyyən edilir, lakin bu temperatur elektronların temperaturu ilə müqayisədə kiçikdir, ona görə də $T \sim QF \sim \mu^2 F^{1/2}$ sahədə μ qiyməti $\mu \sim F^{-1/2}T^{-3/4}$ [5]. Belə ki, $\mu \sim F^{-8/7}$ və $p \sim -8/7$, yəni mənfi müqavimət zona strukturu tərəfindən heç bir təsir olmadan yaranır.

Bərabərsizliyin sol tərəfindəki birinci vurğu (3) sadə məna daşıyır: $\mu_a > \mu_b$ bərabərsizlik təmin edilməlidir. Sahə tərəfdən qızdırıldıqda elektronlar az kütləli zonadan böyük kütləli zonaya keçməlidir. $\mu_a >> \mu_b$ - da bu vurğunun maksimum qiyməti vahiddir.

İkinci vurğu daha mürəkkəbdir. Artan sahə ilə yuxarı zolaqdakı elektronların sayının dəyişmə sürətinə bərabərdir və zolaqlardakı vəziyyətlərin effektiv sıxlıqlarının, elektronların temperaturu və alt zolaqlar arasındakı enerji boşluğunun fərqlərindən asılıdır. Bu kəmiyyətin sırasını qiymətləndirmək üçün həmişə olduğu kimi elektron temperaturu T_e və Maksvell-Bosman paylanmasını götürürük. Əgər $T_e \sim F^q$, onda $-\frac{F}{n_a}\frac{dn_a}{dF} = -q\frac{T_e}{n_a}\frac{dn_a}{dT_e}$. Əgər E - zonalar arasındakı enerji boşluğudursa, o zaman $f = (N_b/N_a)\exp(-E/kT_e)$ ifadəsi etibarlı olduğunu göstərmək olar.

Burada N_a və N_b effektiv sıxlıqlarıdır. Bu ifadə maksimum qiymətinə çatır

$$-\frac{T_e}{n_a}\frac{dn_a}{dT_e}=\frac{f}{1+f}\left(\ln\left(\frac{N_b}{N_a}-\ln f\right)\right)$$

$$\ln\frac{N_b}{N_a}-\ln f=1+f\cdot$$

İlk dəfə Qann effekti nəzəriyyəsi [2-4] işlərdə verilmişdir. Ancaq bu nəzəri işlərdə elektrik sahəsinə nəzərən maqnit sahəsinin istiqamətinə baxılmamışdır. Biz xarici elektrik sahəsinə nəzərən maqnit sahəsinin bütün istiqamətlərində iki-dərəli yarımkeçiricilərdə yaranan rəqsləri təqdid edəcəyik.

Əsas tənliklər

GaAs da elektronların konsentrasiyası sabitdir, ona görə də

$$n_0=n_a+n_б=const$$

$$n'_a=-n'_б \tag{4}$$

Kəsilməzlik tənliyi "a" və "b" dərələrdə:

$$\frac{\partial n'_a}{\partial t}+div\vec{j}'_a=\frac{n'_a}{\tau_{12}} \tag{5}$$

$$\frac{\partial n'_б}{\partial t}+div\vec{j}'_б=\frac{n'_б}{\tau_{21}} \tag{6}$$

(3) nəzərə alaraq xarici elektrik və maqnit sahələrin ifadəsini "a" və "b" dərələr üçün

$$\vec{j}_a=\sigma_a\vec{E}+\sigma_{1a}\left[\vec{E}\vec{H}\right]+\sigma_{2a}\vec{H}\left[\vec{E}\vec{H}\right] \tag{7}$$

$$\vec{j}_б=\sigma_б\vec{E}+\sigma_{1б}\left[\vec{E}\vec{H}\right]+\sigma_{2б}\vec{H}\left[\vec{E}\vec{H}\right] \tag{8}$$

Burada $\sigma_{a,b}=en_{a,b}\mu_{a,b}$ $\sigma_{1a,b}=en_{a,b}\mu_{1a,b}$; $\sigma_{2a,b}=en_{a,b}\mu_{2a,b}$ $\mu_{a,b},\mu_{1a,b},\mu_{2a,b}$ elektronların yürüklüyüdür.

$$\frac{\partial H'}{\partial t}=-irot\vec{E}' \tag{9}$$

$\vec{H}_0\parallel\vec{E}_0$ olduqda nəzəriyyə

$X=\dfrac{\omega}{\omega_a}$ işarə edək

$$\begin{aligned}&\omega^3-\left[\frac{i}{\tau_{21}}+\mu_{2b}^0k_xE_0+\alpha_a\omega_a+\frac{m_a}{m_b}\frac{\omega_a}{\omega_b}\left(\frac{i}{\tau_{12}}+\mu_{2a}^0k_xE_0\right)\right]\omega^2+\\&+\left[\omega_a\left(\frac{i}{\tau_{21}}+\mu_{2b}^0k_xE_0\right)\alpha_a+\omega_x\omega_a+\alpha_b\omega_a\left(\frac{i}{\tau_{12}}+\mu_{2a}^0E_0k_x\right)\right]\omega-\\&-\omega_a\omega_x\left(\frac{i}{\tau_{21}}+\mu_{2b}^0E_0k_x\right)-\omega_x\omega_a\frac{m_a}{m_b}\left(\frac{i}{\tau_{12}}+\mu_{2a}^0k_xE_0\right)=0\end{aligned} \tag{16}$$

Burada $\omega_x=\dfrac{16\pi cE_0}{H_0L_x}$, $\alpha_a=2\Phi_a+\dfrac{2cL_y}{\mu_aH_0L_x}$, $\alpha_b=2\Phi_b+\dfrac{2cL_y}{\mu_bH_0L_x}$, $\omega_a=\dfrac{4\pi\mu_a^0E_0}{\Phi_aL_y}$

$$\begin{aligned}&x^3-\left[\frac{\omega_{ax}}{\omega_a}+\alpha_a+\frac{i}{\omega_a}\left(\frac{1}{\tau_{12}}+\frac{1}{\tau_{21}}\right)\right]x^2+\left[\frac{\omega_{bx}}{\omega_a}+\frac{\omega_x}{\omega_a}+\frac{\omega_{ax}}{\omega_a}+\frac{i}{\omega_a}\left(\frac{\alpha_b}{\tau_{12}}+\frac{\alpha_a}{\tau_{21}}\right)\right]x-\\&-\frac{\omega_x\omega_{bx}}{\omega_a^2}-\frac{\omega_x\omega_{ax}}{\omega_a^2}+\frac{i\omega_x}{\omega_a^2}\left(\frac{1}{\tau_{12}}+\frac{m_a}{m_b}\frac{1}{\tau_{21}}\right)\end{aligned} \tag{17}$$

Və yaxud $x^3 - bx^2 + cx + d = 0,\ x = y + \frac{b}{3}$

$$\left(y^2 + \frac{2b}{3y} + \frac{b^2}{9}\right)\left(y + \frac{b}{3}\right) - b\left(y^2 + \frac{2b}{3y} + \frac{b^2}{9}\right) + c\left(y + \frac{b}{3}\right) + d = 0 \tag{18}$$

alarıq. $X = Y + \frac{b}{3}$, (18) –dən

$$y^3 + \left(-\frac{b^2}{3} + c\right)y + \left(-\frac{2b^3}{27} + \frac{cb}{3} + d\right) = 0 \tag{19}$$

Və yaxud

$$y^3 + 3py + 2q = 0;\ 3p = c - \frac{b^2}{3};\ 2q = -\frac{2b^3}{27} + \frac{cb}{3} + d \tag{20}$$

alarıq. Burada $b = \frac{\omega_{ax}}{\omega_a} + \alpha_a + \frac{i}{\omega_a}\left(\frac{1}{\tau_{12}} + \frac{1}{\tau_{21}}\right) = b_0 + ib_1$ $c = \frac{\omega_{bx}}{\omega_a} + \frac{\omega_x}{\omega_a} + \frac{\omega_{ax}}{\omega_a} + \frac{i}{\omega_a}\left(\frac{\alpha_b}{\tau_{12}} + \frac{\alpha_a}{\tau_{21}}\right) = c_0 + ic_1$

$d = -\frac{\omega_x\omega_{bx} + \omega_x\omega_{ax}}{\omega_a^2} + \frac{i\omega_x}{\omega_a^2}\left(\frac{1}{\tau_{21}} + \frac{m_a}{m_b}\frac{1}{\tau_{12}}\right) = -d_0 + id_1$

(20) –i belə yazaq:

$$\begin{aligned} y^3 + 3py + 2q &= (y + A)(y + B)(y - 1) = \left[y^2 + (A + B)y + AB\right](y - 1) = \\ &= y^3 + [-1 + A + B]y^2 + ([-A - B + AB])y - AB \end{aligned} \tag{21}$$

$$2q = -(3p + 1) \tag{22}$$

(22)-dən

$$B^2 - B - 2q = 0 \tag{23}$$

$$B_{1,2} = \frac{1}{2} + \sqrt{\frac{1}{4} + 2q} \tag{24}$$

alarıq. (21) tənliyin kökləri:

$$y_1 = 1, y_2 = -A, y_3 = -B \tag{25}$$

(25) köklərin analızı onu göstərir ki, GaAs tipli yarımkeçiricinin daxilində həyacanlanmış rəqslər stabil deyil. $y = -\left(\frac{1}{2} + \alpha\right)$ olduqda, yəni, (17)-dan əgər $\beta < 0$ cərəyan rəqslərin tezliyini $\omega_0 = -\omega_a\left(\frac{1}{2} + \alpha\right)$ alarıq. Əgər $\beta > 0$, onda $\omega_0 = \omega_a\left(\alpha - \frac{1}{2}\right)$ $\beta = 0$ olanda rəqslər hamonikdir.

$\alpha = \frac{1}{\sqrt{2}}\left[\sqrt{\varphi^2 + q_1^2} + \varphi\right]^{1/2}; \beta = \frac{1}{\sqrt{2}}\left[\sqrt{\varphi^2 + q_1^2} - \varphi\right]^{1/2}$ alarıq. Burada $\varphi = \frac{1}{4} + 2q_0$

$H_0 \perp E_0$ olanda dispersiya tənliyi

$$\frac{\omega}{\omega_a} = x$$

$$x^2 - \left[\frac{\omega_b}{\omega_a} + \frac{\tilde{\sigma}_b}{\tilde{\sigma}_a} - \frac{\sigma_1^2 + \sigma_2^2}{\sigma_a\sigma_b} + \frac{i}{\omega_a}\left(\frac{1}{\tau_{21}} + \frac{\tilde{\sigma}_b}{\tilde{\sigma}_a}\cdot\frac{1}{\tau_{12}}\right)\right] - \frac{\sigma_1^2 u_{b0} + \sigma_1^2 u_{a0}}{\omega_a^2} - \frac{i}{\tilde{\sigma}_a\omega_a^2}\left(\frac{\sigma_1^2}{\tau_{21}} + \frac{\sigma_2^2}{\tau_{12}}\right) = 0$$

$$\omega_0 = \omega_a (b_0 - 1)$$
$$\omega_1 = b_1$$

alarıq.

Nəticə

Nəzəri hesablama yolu ilə, GaAs tipli iki dərəli yarımkeçiricilərdə cərəyan rəqslərin tezliyini və inkrementini aldıq. İsbat olundu ki, aşağı enerji minimumdan yuxarı enerji minimuma keçid vaxtı yuxarı enerji minimumdan aşağı enerji minimuma keçin vaxtından kiçikdir. Nəzəri hesablamalarda Qann Elektron enerji minimuma enmə minimumu olan elektronların yuxarı enerji minimumu olan elektron minimumdan olan elektron minimumdan Nijniyə keçdikcə isbat edilmişdir. Nəzəri hesablamada GaAs tipli iki dərəli yarımkeçiricilərdə elektrik sahəsi üçün təcrübədə alınan ədədi qiymətlərdən istifadə olunub [1].

İstifadə edilmiş ədəbiyyat

[1] Gunn J.B., "Current instabilities and potential distribution in GaAs and InP Plasma Effects in Solids", Paris, p.199-207, 1964

[2] Hasanov E.R., Khalilova Sh.G., Mansurova E.O., Tabatabaei N.M. Unstable thermomagnetic waves in anisotropic medium of electronic type of charge carriers. International Journal on "Technical and Physical Problems of Engineering" (IJTPE) Turkey,March 2020, Issue 42, Volume 12, Number 1 Pages 49-52.

[3] Hasanov E.R., Khalilova Sh.G., Tagiyeva Z.A., Hajiyeva V.M., Ahadova S.S. Excitation of thermomagnetic and recombination waves in impurity with two types of current carriers International Journal on "Technical and Physical Problems of Engineering"(IJTPE), march 2021, Issue 46, Volume 13, N 21, pp. 57-61

[4] Hasanov E.R., Khalilova Sh.G., Mammadova G.M., Mansurova E.O. Excitation of unstable waves in impurity semiconductors with two types of charge carriers in external electric and weak magnetic fields. International Journal on "Technical and Physical Problems of Engineering" (IJTPE) June 2021, Vol.13, № 2, pp. 94-97

[5] Yamashita J., Watanabe M., Progr. Theor. Phys., 12, 1954, pp. 443

HEYDƏR ƏLİYEV BÖYÜK DİL SİYASƏTÇİSİ KİMİ

Sitarə Rəhim qızı Əliyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
aliyeva-sitara@mail.ru

Bir dövlətin inkişafı üçün nə etmək lazımdır? Onun təhsilini, dilini, iqtisadiyyatını siyasi cəhətdən inkişaf etdirmək lazımdır. "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə, dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" (Heydər Əliyev).

Deyirlər, ulu tanrı bəşər övladını düçar olduğu sıxıntıdan, çətinliklərdən qurtarmaq üçün hər əsrdə ona bir dahi şəxs bəxş edir. Müasir dövrümüzdə Azərbycan xalqının, dövlətinin xilaskarı kimi adı tarixə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyev oldu.

Dünya tarixinə böyük dil siyasətçilərindən biri kimi daxil olmuş Heydər Əliyev XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda gedən milliləşmə prosesinə, 90-cı illərdən etibarən isə

müstəqil dövlətimizdə quruculuq işlərinə rəhbərlik etməklə yanaşı dil siyasəti məsələlərinə də xüsusi önəm vermişdir. Akademik Ağamusa Axundov qeyd edir ki, yaşadığımız yüzilliyin son otuz ili ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı, sözün həqiqi mənasında dövlət dilinə çevrilməsi, nüfuz dairəsinin genişlənməsi, beynəlxalq diplomatiya aləminə yol tapması və dünyanın mötəbər kürsülərindən eşidilməsi məhz Ümummilli lider Heydər Əliyevin yürütdüyü düzgün dil siyasəti ilə bağlıdır [1, s.7].

Azərbaycan xalqının Ümummilli Lideri hətta dövlət müstəqiliyimizə qədərki dövrdə sovet imperiyasının bütün maneələrinə baxmayaraq, dilimizin inkişafı və yüksəlişi uğrunda mübarizə aparmış, sözün həqiqi mənasında dövlət dili səviyyəsinə qalxmasına nail olmağa çalışmışdır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin dövrdəHələ 1978-ci ildə dahi rəhbərin prinsipiallığı sayəsində Konstitusiyanın 73-cü maddəsinə Azərbaycan dilinin Dövlət dili olması barədə xüsusi bir maddə daxil edilmişdir. Həmin illərdə H.Əliyev milli dildə yaranan ədəbiyyatın, elmin, incəsənətin miqyasını genişləndirmiş və öz mükəmməl nitqi ilə dilimizə beynəlxalq aləmdə hörmət gətirmişdir.

Heydər Əliyevin dil quruculuğu sahəsində apardığı islahatlar müstəqil Azərbaycan Respublikasının yaranması ilə özünün ən yüksək səviyyəsinə gəlib çıxmışdır. Müstəqilliyimizin ilk illəri xalqımızın ictimai-siyasi həyatında köklü dəyişikliklərin baş verməsi, milli şüurun formalaması, eyni zamanda, ziddiyyətli sosial şətaitin yaranması ilə zaraktrrizə olunurdu. Həmin dövrdə, 1992- ci illərdə bizim dilimizin türk dili olduğunu qeyd etmişdilər. Lakin bu səhv, yanlış fikir idi. Ulu öndər Heydər Əliyev bu münasibətlə qeyd etmişdir ki, düzdür, bizim əcdadlarımız türkdür.

Amma zaman keçdikcə türkdilli xalqlar ayrılmış, hərəsi bir vahid xalq yaratmışdır. Məsələn, özbək, türkmən, qırğız, qazax, başqırd, tatar və b. bunlar hamısı türk dillidir, amma hərəsinin də öz dili vardır. Biz ola bilər ki, həmin insanları tam başa düşə bilməyək. Millətin milliyini saxlayan onun dilidir, Azərbaycan dili onun üçün çox əzizdir. "Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm, amma hesab edirəm ki, öz dilimizlə - Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınıb, dilimizin adı tanınıb" (Heydər Əliyev).

1995-ci ildən etibarən, yəni müstəqil dövlətimizin Konstitusiyası qəbul edildikdən sonrakı dövrlərdə Azərbaycan dilinin və dilçiliyinin inkişafı çox mühüm qərar və sənədlərlə müşayiət olunmuşdur. Bu dövr ana dilimizin "əsl çiçəklənmə dövrü" hesab edilir. Ümummilli liderin müstəqillik illərində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi barədə" tarixi fərmanı (18 iyun, 2001-ci il), latın qrafikalı yeni əlifbaya keçidlə bağlı qərar (1 avqust, 2001-ci il), 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi (9 avqust, 2001-ci il), "Azərbaycan Respublikasının Dövlət dili haqqında Qanun (2 yanvar, 2003-cü il) və bu sahədə gördüyü işlər dilimizin nüfuz dairəsinin yüksəlməsinə, beynəlxalq münasibətlər sisteminə yol tapmasına xidmət etmişdir.

Tam səmimiyyətlə deyə bilərik ki, bu gün dövlətçiliyimizin, dilimizin, elm və təhsilimizin inkişafı istiqamətində aparılan uğurlu siyasət məhz Ulu öndər Heydər Əliyevin formalaşdırdığı ənənələrin davamıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov A. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil, 1997
2. Bayramov C. Uğurlu təhsil islahatlarının banisi / "Azərbaycan" qəzeti, 2019, 12 iyul
3. Heydər Əliyevin dil siyasəti (rəsmi sənədlər). Bakı: Şirvannəşr, 2009
4. https://youtu.be/ZgFTfBOe_iA

DÜNYANIN YENİ NİZAMI: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

Üzeyir Ələmşah oğlu Zeynalov
fəlsəfə üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
üzeyir.zeynalov@mdu.edu.az

Mövzunun aktuallığı: Soyuq müharibənin sona çatması və Sovet İttifaqının dağılmasından sonra dünya nizamı yeni qaydalar əsasında formalaşmağa başladı. Müasir dövrdə dünyanın yeni nizamının qurulması müxtəlif regionlar daxilində nizam-intizam konsepsiyasının yaradılmasına və regional nizamların bir-bir ilə əlaqələndirilməsinə yönəlmiş ardıcıl strategiya tələb edir. Bu məqsədlər həmişə üst-üstə düşmür. Belə ki, bir regionda həyata keçirilən fəaliyyət nizam-intizam yaratdığı halda digər regionda, ölkələr arasında qarşıdurma, təlatümlər yarada bilər. Eyni zamanda dinlərin yeni dünya nizamında fəallaşması müşahidə edilməyə başladı. Son dövrlərdə Qərb fəlsəfi düşüncəsində sivilizasiya və din fenomenlərinin əlaqələndirilməsi təsdiq edir ki, yeni dünya nizamında dinlərin rolunu artırmaq istəyənlər tədricən öz məqsədlərinə yaxınlaşırlar. Bunu, sekulyarizm ilə klerikalizm arasında gedən mübarizə kimi də dəyərləndirmək olar.

Mövzunun işlənmə səviyyəsi: Mövzu araşdırılarkən bir çox xarici və yerli tədqiqatçıların əsərlərinə istinad edilmişdir. Xarici müəlliflərdən H.Kissencer, P.Xanna, S.Hantiqton, Z.Bjezinski, C.Stiqlitz, K.Layn, yerli müəlliflərdən Ə.Həsənov, A.Abbasbəyli, Ə.Abbasov, E.Arif və digər tədqiqatçıları göstərə bilərik. Araşdıraln mövzu daha çox Qərb mütəxəssislərinin, xüsusilə də ABŞ tədqiqatçılarının diqqət mərkəzində olduğunu qeyd edə bilərik.

Əsas hissə: Hazırda "Yeni dünya nizamı" anlayışı özündə beynəlxalq hüququn ,beynəlxalq münasibətlər sistemində əsas tənzimləyici qüvvəyə çevriləcəyi, ədalət prinsiplərinin önə çəkiləcəyi, problemlərin azalacağı, qlobal və regional problemlərin həll olunacağı, bütün dövlətlərin bərabər hüquqlara malik olması kimi bəşəri dəyərləri birləşdirməli olduğu halda, daha çox reallıqda bunlara zidd məzmun daşıdığının şahidi oluruq. Yeni dünya nizamını SSRİ dağıldıqdan sonra ABŞ-ın hərb gücünü işə salaraq, dünyada öz hakimiyyətini qurmaq məqsədinin bariz nümunəsi adlandıra bilərik. ABŞ tərəfindən yeni qaydaların hazırlanması və həyata keçirilməsi dünyada birmənalı qəbul edilmədi. Bu isə Avropa Birliyi, Çin, Rusiya, Türkiyə kimi ölkələrlə fikir ayrılıqlarının ortaya çıxmasına səbəb olurdu. Bəzən bu dünyanın "təkqütüblü" idarəçiliyi kimi də xarakterizə olunurdu. Ötən əsrin 90-cı illərindən ABŞ-ın ortaya qoyduğu təkqütblü dünya nizamı layihəsi dünyada birmənalı qarşılanmadı. K.Layn bunu xam xəyal adlandırdı [8, s.11] və ABŞ qismən bu layihədən imtina etmək məcburiyyətində qaldı. Getdikcə dünyanın monosentrik-təkqütblü şəkildə idarə olunmasının mümkün olmadığını irəli sürən tədqiqatçıların sayı ildən-ilə artdı. S.Hantinqton təkqütblü sistemin müvəqqəti olacağını və onun çoxqütblü sistemə keçəcəyini iddia edirək bildirir ki, yeni dünya nizamının "vahid çoxqütblülük" ("uni-multipolarity") əsasında qurulacaq [7, s.36]. H.Kissencer "Dünya nizamı" kitabında izah edir ki, ABŞ üçün dünya nizamının axtarışı iki səviyyədə aparılır. Bir tərəfdən ümumbəşəri prinsiplərin təntənəsi əsas götürülməli, digər tərəfdən isə digər regionların tarixi, mədəniyyətinin reallığı tanınmalıdır [6, s.11]. Onun fikirncə "tarix ölkələrə möhlət vermir, onlara daha az çətin görünən bir kurs naminə öz öhdəliklərindən və ya kimlik şüurundan geri çəkilməyə imkan yaradır. Amerika - bugünkü dünyada insanın azadlıq istəyinin güclü ifadəsi və humanizm dəyərlərinin qorunmasında əvəzsiz geosiyasi qüvvə kimi - istiqamət hissini itirməməlidir. Amerikanın mənalı rolu əsrimizin həm fəlsəfi, həm də geosiyasi baxımdan çağırışlarına cavab vermək üçün lazımdır. Ancaq təkbaşına hərəkət edən heç bir ölkə dünya nizamını formalaşdıra bilməz." [6, s.210]. Müəllif, həqiqi dünya nizamını qurmaq üçün onun elementlərinin öz dəyərlərini saxlamaqla yanaşı, qlobal, strukturlaşdırılmış və hüquqi olan ikinci mədəniyyətə - hər hansı konkret regionun və ya bir ölkənin perspektiv və ideallarından kənara çıxan nizam anlayışına ehtiyac duyulduğunu əsaslandırır. H.Kissencer XXI əsrin dünya nizamının inkişafında məsuliyyətli rol oynamaq üçün ABŞ bir sıra suallara cavab verməyə hazır olmalı olduğunu bildirir. "Biz nəyin qarşısını almağa çalışırıq, necə olursa olsun, lazım gələrsə, təkbaşına da olsun? Cavab cəmiyyətin yaşaması üçün minimum şərtləri müəyyən edir. Çoxtərəfli səylər bizi

dəstəkləməsə belə, nəyə nail olmaq istəyirik? Bu cavab milli strategiyanın minimum məqsədlərini müəyyən edir. Yalnız bir növ ittifaq tərəfindən dəstəklənəndə nəyə nail olmağa və ya qarşısını almağa çalışırıq? Bu, qlobal sistem daxilində ölkənin strateji istəklərinin xarici sərhədlərini müəyyən edir. Çoxtərəfli qrup və ya ittifaq bizi məcbur etsə belə, nələrdə iştirak etməməliyik? Bu, Amerikanın dünya nizamında iştirakının məhdudlaşdırıcı şərtlərini müəyyən edir." [6, s.211]. Fikirlərini davam etdirən müəllif vahid dünya nizamı haqqında bədbin danışır. " Son vaxtlara qədər tarix boyu əsasən dünya nizamı regional nizam olub, ilk dəfə olaraq indiki dövrdə dünyanın istənilən bölgəsi bir-biriylə qarşılıqlı əlaqədə ola bilər. Bu qloballaşan dünya üçün yeni dünya nizamını zəruri edir. Lakin universal qəbul edilmiş qaydalar mövcud deyildir. Çin, İslam, Qərb və müəyyən mənada rus yanaşması vardır və onlar heç zaman bir-birilə uzlaşmır." [6, s.193]. Müəllif yeni dünya nizamının qurulması üçün qlobal həmrəyliyin vacib olduğunu bildir.

Dünyanın yeni nizamının formalaşmasına fərqli yanaşan tədqiqatçılardan biri olan E.Arif "Yeni dünya və onun mahiyyəti" əsərində multizəngin ailələrin beynəlxalq siyasətin formalaşmasına təsirlərini dövlətlərdən az olmadığı qənaətinə gəlir. Müəllif bu ailələr mənsub şəxslərin heç birinin adı dünyanın zəngin insanları siyahısında göstərilmədiyini və hesbatlarda yer almadığını qeyd edir. "Lakin istər beynəlxalq miqyasda, istərsə də fərqli ölkələrdə maliyyə böhranı və müharibələr baş verərsə diqqət istər-istəməz həmin ailələrə yönəlir." [4 , s.144]. Müəllif həmin ailələrin (Rotşild ailəsi, Rokfeller ailəsi, Du Pont ailəsi, Morqan ailəsi, Astor ailəsi və s.) beynəlxalq aləmdə baş verən hadisələrə təsir etdiyi nəticəsinə gəlir.

Dünyada baş verən geosiyasi və geoiqtisadi hadisələr dünyanın təkqütblü idarəetmə sisteminin daha davam edə bilməyəcəyini göstərir. Çünki bir çox regional güclər (Rusiya, Çin, Türkiyə, İran), onun öz regionlarına daxil olmasına imkan yaratmır və ya buna mane olmaq istəyirlər. ABŞ-Rusiya, ABŞ-Çin, ABŞ-Türkiyə, ABŞ-İran münasibətləri, eləcə də Rusiya-Ukrayna müharibəsinin dolayısı ilə ABŞ və Rusiya arasında getməsi artıq heç kəsdə şübhə doğurmur. Bunu isə dünyanın birqütblü idarəedilməsinə dirəniş kimi qəbul etmək olar. Ümumiyyətlə tarixən dünyanın qlobal idarə olunması modelləri arasında müəyyən keçid qanunauyğunluqları vardır. Bəzi istisnaları nəzərə alsaq deyə bilərik ki, dünyanın təkqütblü qlobal idarə olunması modeli tədricən çoxqütblüyə, çoxqütblük tədricən ikiqütblülüyə, ikiqütblük isə tədricən təkqütblülüyə doğru meyl edərək, sanki spiralvari bir dinamikanı xatırladır.

Kanadalı tədqiqatçı Aleks Bettler ABŞ-a rəqib kimi Çinin çıxacağını söyləyir. "Gələcəkdə beynəlxalq səhnədə ABŞ-ın təkbaşına liderliyinə qarşı əsas problem isə Çin olacaqdır. İqtisadi baxımdan davamlı inkişafda olan Çin Şərqi Asiyada inteqrasiya zonasının formalaşdırılmasını başa çatdırdıqdan sonra digər regionlarda da analoji kursu həyata keçirməyə çalışacaqdır" [60, s.75]. 2013-cü ildən başlayaraq, Çinin Avrasiyanı hörümçək toru kimi bürüdüyünün və XXI yüzilliyin siyasi-iqtisadi gələcəyinə böyük ölçüdə təsir edəcəyinin şahidi oluruq. "Bir kəmər, bir yol" layihəsini (BRİ) elan edərək, 2016-cı ildən "təkqütblü dünya"ya etirazlarını dilə gətirməyə başlamışdır. Dünyanın aparıcı istehsal ölkəsi kimi önə çıxması, hərbi gücünü sürətlə artırması, iqtisadi böyüməsi, dollara qarşı milli valyuta siyasəti və heç bir ölkənin daxili işlərinə qarışmadan Çinin yeni dünya gücü kimi ortaya çıxması, ən az ikinci qütb olmasının yolunu açmışdır. Yaxud yeni dünyada Çinin ikinci qütb olmasının yolunu açırlar da deyə bilərik. Dünyanın yeni siyasi xəritəsində ABŞ və Çin iki nəhəng qütb, Rusiya və Türkiyə bu iki qütb arasında tarazlayıcı regional güclər olaraq görünür. Heç təsadüfi deyildir ki, amerikalı məhşur strateq P.Xanna "Yeni dünya nizamı:yeni yüksələn güclər XXI əsri necə müəyyənləşdirir" əsərində dünyanın ABŞ, AB və Çin daxil olmaqla 3 böyük güc üzrəində qurulduğunu bildirir [4, s.8].

Çinin Rusiya dövləti ilə yaxınlaşması ABŞ-nın formalaşdırdığı birqütüblü dünya modelinə son qoymaq arzusundan irəli gəlir. Çin və Rusiya ABŞ-la mübarizədə yeni mərhələyə qədəm qoymuşlar. Lakin Rusiya-Ukrayna müharibəsi Çinin üçün daha münasib şərait yaratmışdır. Belə ki, hər iki rəqibi arasındakı münasibətlərdə gərginliyin yaranması Çinin hegemonluğuna imkan verə bilər. Eyni zamanda Çin və Rusiyanın mütəffiqliyi çoxqütüblü dünyanın yaranmasında mühüm addım ola bilər.

Çinin timsalında ikinci qütb və Türkiyənin regional gücə çevrilməsi açıq-aşkar görünür. Rusiya və Ukrayna arasında gedən müharibə siyasi arenada siyasi güclərin balansında dəyişikliklərə

gətirib çıxardı. Belə bir münasibətlər sistemində Türkiyənin rolu dəyişmişdir. Burada Türkiyə bir çox dövlətlər üçün vasitəçi rolunda çıxış etmək imkanı qazanmışdır. Türkiyə həm NATO, həm Rusiya, həm Orta Şərq dövlətləri, həm də Cənubi Qafqaz dövlətləri üçün mühüm bir dövlətdir. Türkiyə belə bir vəziyyətdə balans siyasəti yürütməklə regional gücə çevrilmək imkanı qazana bilir.

Formalaşan yeni dünya nizamında Azərbaycan dövlətinin yerinin necə olacağı dövlətçiliyimizin qorunması və inkişafı baxımdan aktuallıq kəsb edir. Həyata keçirilən uğurlu xarici siyasət bu məsələdə optimist olmağa imkan verir. Milli maraqlara söykənən Azərbaycanın xarici siyasəti müstəqildir və bu siyasət sayəsində Azərbaycan dövləti artıq regionun lider dövlətinə çevrilmişdir. Azərbaycan dövləti Cənubi Qafqazda təhlükəsizliyin qarantı olaraq yeni geosiyasi reallıqlar fonunda sülhün təminatçısına çevrilmişdir. Cənubi Qafqazda Azərbaycan dövlətinin iradəsindən kənarda hər hansı bir layhinənin həyata keçirilməsi mümkün deyildir. Azərbaycanın 44 günlük müharibədə Zəfər qazanması Cənubi Qafqazda yeni siyasi reallıq yaratmışdır. Həmin siyasi reallığın konturlarının Azərbaycan tərəfindən cızılması artıq heç kimdə şübhə yaratmır. Eyni zamanda bu misilsiz Qələbənin nəticələrinin beynəlxalq aləmdə qəbul edilməsi Azərbaycan xarici siyasətinin uğurudur. Dövlətimizi tarixi uğurlara aparan bu siyasətin müəllifi Ulu öndər Heydər Əliyev olmuşdur.

Həmin siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyev dünya reallıqlarında baş verən dəyişikliklərə adekvat olaraq həyata keçirilən uğurlu xarici siyasət nəticəsində istər 44 günlük müharibə, istərsə də postmüharibə dövründə Azərbaycanın haqq işini təkcə müsəlman dövlətlər deyil, digər dövlətlər açıq şəkildə müdafiəedildi.

Nəticə olaraq:

- dünyada baş verən xaosun qarşısının alınması üçün formalaşacaq "yeni dünya nizamı"nın geosiyasətlə daima toqquşma olmasını;
- yeni dünya nizamının formalaşmasında transmilli şirkətlərinin rolu artması milli dövlətlərin mövcudluğunu təhlükə altına almasını;
- dinlərin və milli kimliklərin yeni dünya nizamında fəallaşması müşahidə edilməsini;
- formalaşmaqda olan yeni dünya nizamında Almaniya və Fransanı kənarda qalanlar sırasında olacağını;
- yeni dünya nizamının çoxqütblülük əsasında formalaşacağını göstərə bilərik.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov, Ə. Yeni dünya nizamı: siyasət və idarəetmə/ Ə.Abbasov. – Bakı: "Zərdabi" nəşriyyatı, – 2019. – 451 s.
2. Əliyev, Heydər. 7 sentyabr 2000-ci ildə Nyu-Yorkda Minilliyin zirvə görüşündə çıxışı // – Bakı: Dirçəliş – XXI əsr, – 2000. № 9 (31) s.5 – 12.
3. Həsənov, Ə. Geosiyasət / Ə.Həsənov. – Bakı: Aypara – 3, Dərslik. – 2010. – 604 s.
4. Arif (Şıxəliyev), E. Yeni dünya nizamı və onun mahiyyəti/ E.Arif (Şıxəliyev). – Naxçıvan: "Əcəmi" nəşriyyatı, – 2020. – 220 s..
5. Stiqlitz, C.E. Qloballaşma və onun doğurduğu narazılıqlar / C.E.Stiqlitz. – Bakı: İqtisadi İslahatlar Mərkəzi, Xəzri Ekspress, – 2004, – 318 s.
6. Киссенджер, Г. Мировой порядок /Г. Киссенджер – Москва: АСТ: – 2015. – 226 s.
7. Хантингтон, С. Столкновение цивилизаций / С. Хантингтон. – Москва: Аст, – 2006. – 571 с.
8. Layne, C. The Unipolar Illusion: Why New Great Powers Will Arise –International Security, – 1993. Vol. 17, No. 4 (Spring), p. 5 – 51
9. https://president.az/az/articles/view/57283

ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ "KİTABİ-DƏDƏ QORQUD" DASTANINDAN İSTİFADƏ

Rahilə Mirzəli qızı Məmmədova
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
rahile.mamedova@mdu.edu.az

Keçən əsrin son on illiyi xalqımızın tarixində dərin izlər buraxılmışdır. Sovetlər birliyinin süqutu, torpaqlarımıza edilən təcavüz, erməni işğalçılarının törətdikləri vəhşiliklər xalqımızın keşməkeşli taleyinin yaddançıxmaz səhifələridir. Tarixi yaradan da, yaşadan da xalqın özüdür. Hər hansı bir xalqın tarixi, dünya xalqları arasında o vaxt özünəlayiq yer tutur ki, bu tarix vətən və millət məfhumları ilə sıx bağlı olsun, vətənpərvərlik hissi, ana xətt kimi onun hər bir səhifəsindən keçsin. Müasir dövrdə ümumtəhsil məktəblərində ən aktual problemlərdən biri milli vətənpərvərlik tərbiyəsidir.

Müstəqil Azərbaycan Respubliksının milli-bəşəri dəyərlər üzərində qurulan ideologiyasının uğurla həyata keçirilməsi ümumtəhsil məktəbləri qarşısında da mühüm vəzifələr qoyur. Ulu öndər Heydər Əliyev gənclər günü münasibətilə gənclərlə görüşündə bu vacib məsələni xüsusi vurğulayaraq demişdir: "Birinci növbədə, hər bir gənc vətənpərvər olmalıdır. İndi Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir gəncin, xüsusən hər bir məktəblinin ən ümdə borcu və vəzifəsidir. Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir məktəblinin qəlbində olması üçün lazimi tədbirlər görmək lazımdır" [1].

Bu baxımdan kiçikyaşlı məktəblinin vətənpərvərlik ruhunda tərbiyə olunması, hər bir şagirdin milli soykökünə, tariximizə, folklorumuza, min illərdən bəri xalqımızın yaratdığı mənəvi dəyərlərə dərindən yiyələnməsində oxu dərslərinin də geniş imkanları vardır. Qabaqcıl təcrübə göstərir ki, oxu dərslərində folklor materiallarından məqsədyönlü istifadə, bugünkü nəslin təlim-tərbiyəsində çox mühüm rol oynayır.

Xalqımızın ana kitabı "Kitabi-Dədə Qorqud"un müxtəlif boylarının bu dastanla bağlı hekayələrin tədrisində şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi məsələsinə hər bir sinif müəllimi xüsusi diqqət yetirməlidir. Oxu dərslərində "Kitbi-Dədə Qorqud"la əlaqədar verilmiş parçaların tədrisinə dair vətənpərvərlik motivli materiallar müəyyənləşdirib qruplaşdırılır. Hər bir müəllim çalışır ki, ulu babalarımızdan miras qalmış qiymətli sərvəti hər bir Azərbaycan vətəndaşı göz bəbəyi kimi qorusun, ona qayğı göstərsin.

Ulu babalarımız həmişə dinc həyat sürməyə çalışmış, başqa xalqlara hörmətlə yanaşmışlar, lakin zaman-zaman yadelli işğalçılar yurdumuzun var-dövlətini daşıyıb aparmaq, xalqı qul etmək istəmişlər. Yurdumuza basqın olanda ağsaqqal ozanlar xalqı, vətənimizi qorumağa, mərdlik göstərməyə çağırıblar.

Çox keçmiş zamanlarda belə müdrik bilicilərdən biri el ağsaqqalı Dədə Qorqud olmuşdur. Dədə Qorqud həmişə xalqın köməyinə gəlib, onun ağıllı məsləhətçisi olub, gələcəkdən xəbər verərmiş. Dədə Qorqud həmişə məclisə üz tutub alqışlar söylərmiş.

Çapa-çapa ağ, boz atlar büdrəməsin!
Çarpışanda qılıncınız kütəlməsin!
Evdə yanan çırağınız daim yansın!
Heç kəs namərdə möhtac olmasın!

Bu dünyada vətəndən əziz, doğma eldən qiymətli nə var? Heç kəs ondan ayrılmasın, qürbət ellərə düşməsin. Qürbətə düşənlər sağ-salamat geri dönsünlər. Mərd igidlər dar ayaqda vətəninə dayaq olar. Bir igid düşsə qərib, gör başına nələr gələr!... İgid ölər adı qalar, namərd ölsə, nəyi qalar?

"Kitabi-Dədə Qorqud" boylarında oğul ataya inanır, dərin hörmətlə yanaşır. Qazan xanın oğlu Uruz atasına deyir: [5]

Noldu sənə atam Qazan?!

Tez ol söylə, söylə atam?!
Sağa baxdın, çox sevindin,
Baxdın önə məni gördün,
Uşaq kimi nə hönkürdün?
Səbəb nədir söylə mənə!
Qara başım qurban sənə!

Atası isə oğlundan igid olmağı, vətəni qorumağa hazır olmağı tələb edir:

Önə baxdım, səni gördüm
Köks ötürdüm, qəlbim yandı,
Keçmisən on beş yaşını,
Tapdamısan tay-tuşunu.
Yay çəkmədin, ox atmadın,
Eldə bir ad çıxarmadın,
Yox hələ şöhrətin-şanın,
Adı gərək qəhrəmanın!
Sabah ölsəm söylə əgər,
Bu yerimdə kim əyləşər?

Qazan xanın özü güclü qəhrəman idi. Düşmən onu əsir alıb, ölümlə hədələyəndə də düşmən qabğında əyilməzdi.

Bu dastandır, əfsanədir,
Amma düşün, məna nədir?

İnsan gözəl həyat sürsə, qısa ömür uzun olar.

Can deyib, can eşidərsə,
Bir il dönər yüz il olar!
Yaxşı dostun sədqəti
Ölümdən də qüvvətlidir!
Sədaqətlə güc birləşsə,
Ölüm üçün dəhşətlidir!

Bu boylarda Dədə Qorqud qopuz çalır, dastan qoşur, gənclərə öyüd verir, alqışlar söyləyirdi.

III sinifdə "Basatın Təpəgözü öldürməsi" boyu tədris olunarkən Basatın vətənpərvərliyi, doğma yurda, elinə, obsına sönməz sevgisi, onun qorxunc yağı qarşısında əyilməzliyi və cəsarəti ön plana çəkilmişdir. Kifayət qədər şan-şöhrət sahibi olan Basat Təpəgözün üstünə, bəlkə getməyə də bilərdi. Ancaq ana yurda məhəbbət, amansız düşmənin qəddarlığı, Oğuz elinin üstünü alan təhlükə onu bu nəhəglə ölüm-dirim mübarizəsinə sövq edir. Ata-anası ağlayıb sızlasa da, Basat öz yolundan dönmür. Hətta Oğuz elinin bəylərbəyi Salur Qazan belə Təpəgözlə savaşın çox qorxulu olduğunu Basata anlatmağa, onu öz yolundan döndərməyə çalışasa da, o, yolundan dönmür:

Böyük nəhəg oldu Təpəgöz,
Göydə çevirdim, yıxa bilmədim, Basat!
Uca dağlarda fırlandıq, yıxa bilmədim,Basat!
Ağsaqqalı atanı ağlatma!
Ağbirçəkli ananı göynətmə! [6]

Bu sözlərdən sonra real təhlükənin nə qədər qorxulu olduğu anlaşılır, çünki bütün Oğuz elinin dövləti, "ümmət-soyunun aslanı, qalmış yigit arxası" kimi tanınan Qazan xan belə Təpəgözün qarşısında acizliyini etiraf edir. Müəllim şagirdlərin diqqətini bu istiqamətə cəlb edərək, Basatın nə qədər cəsarətli və təhlükəli bir addım atdığını, həm də bu addımın nəcib bir məqsədlə - xalq, doğma yurd və onun övladları naminə atıldığını qeyd etməli, məktəblilərə vətənpərvərlik tərbiyəsi aşılamalıdır.

IV sinifdə bu məzmunda aparılan işlər öz əksini tapmışdır. Belə ki, "Dədə Qorqud" dastanı ilə bağlı "Ana südü, dağ çiçəyi" hekayəsindən danışarkən şagirdlərə başa salmaq lazımdır ki, Vətən ana ilə bərabər tutulur. Vətən haqqı ana haqqıdır. Oğuz igidləri vətənin keşiyində ayıq-sayıq durub, onu göz bəbəyi kimi qoruyublar. Onlar bilirlər ki, vətən torpağını düşməndən qorumaq hər bir namuslu oğulun və qızın müqəddəs borcudur. İgid atanın yolunu oğul davam etdirməsə, vətənin

müdafiəsi təmin edilə bilməz. Dirsə xan buna görə övladsızlığa dözmür. Allah ona bir oğul verir Dirsə xanın adsız böyüyən oğlu Dədə Qorqudun dilindən Buğac adını alır. Şagirdlərə çatdırmaq çatdırmaq lazımdır ki, "Dədə Qorqud" dastanı M.Rzaquluzadənin "Ana südü, dağ çiçəyi" əsəri üçün mövzu mənbəyi olmuşdur [2].

Bayandır xan ildə bir kərə Oğuz bəylərini qonaq çağırıb, atdan ayğır, dəvədən buğra, qoyundn qoç kəsdirir. O, bu qonaqlıqda bəylər üçün otaqlar da ayırır. Oğlu olanı ağ, qızı olanı qızıl, oğulu-qızı olmayanı qara otaqda otuzdurur.

Dirsə xanın oğlu Buğac ovda ölümcül yaralanır. Bozatlı Xızır yaralı oğlanın yanında hazır olur. Üç dəfə yarasını əliylə sığallayıb deyir: "Oğlan, qorxma, sənə bu yaradan ölüm yoxdur. Dağ çiçəyi ilə ananın südü sənin yarana məlhəmdir". Oğlanın anası at çapıb, oğlunun yaralandığı yerə gəlb çıxır, baxıb görür ki, oğlu al qanına boyanıb yatır. Oğlan azacıq gözünü açır və anasına deyir:

- Ana ağlama, qorxma, bu yardan mənə ölüm yoxdur. Bozatlı Xızır yanıma gəldi, üç dəfə yaramı sığalladı və əlavə etdi ki, bu yaradan sənə ölüm yoxdur, dağ çiçəyi ilə ana südü sənə məlhəmdir.

Oğlan belə deyən kimi qırx incəbelli qız ətrafa yayılıb dağ çiçəyi topladı. Oğlanın anası əmcəyini bir sıxdı, südü gəlmədi, iki sıxdı, yenə südü gəlmədi. Üçüncüdə özünə bir güc verdi, əmcəyini sıxdı, qanla qarışıq süd gəldi. Dağ çiçəyi və ana südü oğlanı sağaltdı [5]. Bu mövzu ilə bağlı danışarkən aşağıdakı müsahibəyə yer vermək lazımdır:

- "Kitbi Dədə Qorqud" dastanındakı boylarda qonaqlar neçə qarşılanırdı?
- Bozatlı Xızır yaralanmış oğlana necə kömək edir?
- Bozatlı Xızırın əlində müalicə əlamətinin olduğunu nədən bilmək mümkündür?
- Hansı dağ çiçəklərindən indi də müalicədə istifadə olunur?
- Dastanda göstərilən hansı ənənələr indi də yaşayır?
- Dədə Qorqudda və onun ətrafında dolanan qəhrəmanlara oxşamaq istəyirsinizmi? Bunun səbəbi nədir?
- Uşaqlar, 30 il ərzində Qazan xanın, Qaraca Çobanın, Beyrəyin yurdu düşmən tərəfindən yenə də talanırdı. Bunun üçün nə etdik? Bu talanan, dərdli, yaralı torpağı yadelli işğalçılardan, qatı düşməndən 2020-ci ildə, 44 gün ərzində xilas edən bizim bugünkü gənclər oldu. Siz də vətəni qorumağa hər zaman o gənclər kimi hazır olmalısınız.

Dünya şöhrətli bu dastanın bütün boyları ulu babalarımızın vətən sevgisi, yurd məhəbbəti ilə yoğrulmuşdur. Atası tərəfindən ölümcül yaralanmış Buğac el təəssübü, yağıya nifrət hissi ilə silaha sarılaraq atası Dirsə xanı və doğma yurdunu xail əllərdən, məkirli düşmən caynaqlarından qurtarır. Əvəzsiz sənət nümunəsi olan dastanın digər qəhrəmanları – Qazan xan, Beyrək, Qaraca Çoban, Qaragünə, qanturalı və başqaları haqqında d eyni sözləri demək olar.

İbtidai siniflərdə şagirdlərin milli-vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün çox geniş işlər görülür. Bu işlərin görülməsi üçün şagirdlərin bütövlüyünə, gənc vətəndaşların ictimai baxışları və mənəvi dəyərlərinin düzgün formalaşmasına çox ciddi fikir verilməlidir. Vətənpərvərlik tərbiyəsi Azərbaycan Respublikasının milli ideologiyasının ən mühüm tərkib hissələrindən biridir. Ulu öndər Heydər Əliyev dediyi kimi: "Azərbaycanın bütün təhsil, tərbiyə müəssisələrinin, gənclər təşkilatlarının başlıca vəzifəsi uşaqları, şagirdləri, bütövlükdə gəncləri, müstəqil dövlətimizin milli ideologiyasının prinsipləri əsasında tərbiyələndirməkdən ibarətdir" [3].

İbtidai siniflərdə zəngin folklor materiallarından fəal təlim prinsiplərinə uyğun şəkildə istifadə etməklə, kiçikyaşlı məktəblilərin milli-vətənpərvərlik tərbiyəsi hörmətli Prezidentimizin göstərdiyi istiqamətdə aparılmalıdır. Məktəbdə, millətin bütün gələcəyinə böyük diqqət göstərən görkəmli ədib H.Cavid 1915-ci ildə "Açıq söz" qəzetində yazırdı: "Rus-yapon müharibəsində bəzi mütəfəkkirlər yaponların qalibiyyətlərini, onların komandalarında, zabitlərində deyil, ibtidai məktəblərində, məktəb müəllimlərindən, müəllimlərin xalqa vermiş olduğu tərbiyədə aparmışdır."

İbtidai siniflərin "Oxu" dərsliklərində "Kitabi-Dədə Qorqudla"la əlaqədar verilmiş parçaların tədrisinə dair vətənpərvərlik motivli materialları müəyyənləşdirib qruplaşdırır, onların tədrisi ilə bağlı müvafiq yollar üzərində iş aparılır. "Ktabi-Dədə Qorqud"da "küçük ölüm"adlanan yuxu "oğuzun başına nə gəlsə yatanda gələr" fikrinin altında gizlənən həqiqətən incələnib, aşkarlanması gənc nəsli ayıq olmağa, düşmənin şirin dilinə heç vaxt aldanmamağa çağırır. Qazan xan kimi bir

bahadırın yağı əlində illərlə dustaq olmasının səbəbini araşdırarkən şagirdlər belə bir qənaətə gəlirlər ki, türk oğlu heç vaxt öz sayıqlığını itirməməlidir. Sayıqlığını itirən andan onun faciəsi başlayır. Bugünkü faciələrimizin bir səbəbi də öz sayıqlığımızı itirməyimiz, düşməni lazımınca qiymətləndirməməyimiz oldu.

Əvvəlki illərdə erməni tapdağında qalan yurd yerləri, füsunkar Qarabağ doğma vətənimizlə bağlı əfsanəvi rəvayətlər, nağıl və dastanlar, bayatı və nəğmələr pedaqoji ustalıqla seçilib, şagirdlərin mühakiməsin verilməlidir. Bu, gənc nəslin vətənpərvərlik tərbiyəsində əvəzsiz vasitədir [4].

Ağbabadan Çıldıra,
Yol gedir sıra-sıra
Ağlım vətən dərdindən
Qorxuram ki, çıldıra.
Dağ başında qara bax,
Üstün alan sara bax.
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ!

Bu və ya bunun kimi onlarla bayatılarda qədim yurd yerləri şagirdlərin nəzərinə çatdırılmalıdır.

"Vətən", "Vətəndaşlıq", Vətənpərvərlik!" Bu sözlər şagirdlərdə daha dərin və əziz hisslər oyadır. Vətənə məhəbbət-öz xalqına məhəbbətdir. Vətən uğrunda hər cür fədakarlığa hazır olmaq lazımdır. Necə ki, bu gün vətən oğullarımızın qanı-canı bahasına artıq Qarabağ azaddır. Vətəni sevmədən, qorumadan, ata-babalarımızın keçdikləri yollara nəzər salmadan, onların qəhrəmanlıq nümunələrini öyrənmədən vətənpərvər yetirmək olmaz.

Vətən məhəbbəti, insanın qəlbində yaşayan, onu vətənin çiçəklənməsinə təhrik edən ən güclü mənə-əxlaqi hissdir. Bu hissi hələ uşaqlıq illərindən, bağça yaşlarından, ibtidai siniflərdən aşılamaq hər bir müəllimin başlıca vəzifəsidir.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov A. Pedaqogika (orta ixtisas məktəbləri üçün dərs vəsaiti). Bakı: Mətərcim, 2010, 344 s.
2. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Ali məktəblərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2015. 324 s.
3. Ağayev Ə.Ə. Məktəblərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi. Bakı, 1975
4. Babayev Y. Əxlaqi-didaktik əsərlərimiz milli sərvətimizdir // Azərbaycan məktəbi. Bakı, 2014, № 3
5. Cəmşidov Ş. Kitabi-Dədə Qorqudu vərəqlərkən. Bakı: Elm, 1969, 60 s.
6. Kitabi-Dədə Qorqud. Bakı: Elm, 1962, s.37-92

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

Ruhiyyə Adil qızı Hüseynova
iqtisad üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
ruhiyye.huseynova@mdu.edu.az

Gənclik elə bir qüvvədir ki, onun qaynar enerjisi, axtarışlara baş vurmaq həvəsi, müxtəlif sahələrə düzgün istiqamətləndirilməsi ölkənin gələcəyinin inkişafı və millətin tərəqqi etməsində, onun qorunub saxlanılmasında başlıca amillərdəndir.

"Gənclərimizin qarşısında xalqımıza, dövlətimizə, ölkəmizə sədaqətlə xidmət etmək, həyatda fəal olma, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq vəzifəsi durur...."

Ümummilli liderimiz Heydər Əliyevin bu sözləri ölkəmizdə gəncliyin qarşısına qoyulan ən şərəfli vəzifələrdəndir. Müdrik dövlət xadimi H.Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə yenidən qayıdışı, ölkə gənclərinin də cəlb olunduğu qardaş qarşıdurması şəraitində respublikamızın başının üstünü almış dəhşətli fəlakəti aradan qaldırmağa, gənclərin qarşısında duran problemlər və onların həllinə münasibəti kökündən dəyişdirdi. Gənc nəslə göstərilən diqqət və qayğı isə dövlətin ən önəmli fəaliyyət istiqamətlərindən birinə çevrildi. Eyni zamanda ölkə gənclərinin yenidən təşkilatlanma zərurəti irəli sürüldü.

Qarşıda duran əsas məsələ görüləcək işlərlə bağlı vahid dövlət siyasətinin reallaşdırılmasının təmin edilməsi idi ki, bu baxımdan da ulu öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Məhz bu addım ayrı-ayrı dövlət qurumlarının gənclərlə iş sahəsindəki fəaliyyətini koordinasiya etmək, çərçivə və istiqamət yaratmaq baxımından mühüm əhəmiyyət kəsb edən bir addım oldu. Gənclər və idman siyasətini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanının yaradılması, respublikamızın sosial-iqtisadi və mədəni inkişafına uyğun gələn gənc nəsli tərbiyə etmək, gənclərin qüvvə və bacarıqlarını, yaradıcılıq potensialını, milli dövlət quruculuğunun möhkəmləndirilməsi, ölkədə həyata keçirilən islahat və proqramların gerçəkləşməsi işinə səfərbər etmək və bütün digər mühüm istiqamətlərdə gənclərlə iş aparmaq kimi bir vəzifəni reallaşdırmaq bu dövlət orqanının üzərinə düşdü. [2]

Gənclər cəmiyyətin ayrılmaz bir hissəsi, ən perspektiv sosial təbəqə olduğu üçün H.Əliyev milli dövlətçiliyimizin təhlükə altında qaldığı bir vaxtlarda, hələ prezident səlahiyyətlərini icra etdiyi bir zamanda Ali Sovetdə respublikamızın fəal gəncləri ilə görüşməsi, onların fikir və mülahizələrini dinləməsi, onlara tövsiyələr verməsi, bunların davamı olaraq qeyd etdiyimiz kimi Nazirliyin yaradılması və digər məsələlər bu sahədə atılan addımların başlanğıcı oldu.

1996-ci il fevralın 2-də Azərbaycan Gənclərinin I forumu keçirildi. Forumda ölkə başçısı cənab Heydər Əliyevin dərin məzmunlu və proqram xarakterli nitqində dediyi: "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kim qəbul etməlidir və öz həyatını qurarkan özünü həyat fəaliyyətinə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən, özü haqqında da, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir..." sözləri müstəqil respublikamızda gənclər siyasətinin həyata keçirilməsində, dövlət orqanlarının vəzifələrinin müəyyənləşdirilməsində əsas rol oynadı. Forumdan sonra gənclərin problemlərinin həlli, mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi, beynəlxalq gənclər təşkilatları ilə əlaqələrin qurulması, çoxsaylı gənclər təşkilatlarının fəaliyyətlərinin əlaqələndirilməsi və digər sahələrdə də işlər geniş vüsət aldı.

Azərbaycan gənclərinin birinci forumunda H.Əliyev qeyd etmişdir: "Azərbaycanın müstəqilliyini inkişaf etdirmək üçün, qorumaq üçün, möhkəmləndirmək üçün və onu əbədi etmək üçün vaxt lazımdır. Ancaq, eyni zamanda, hər gün çalışmaq lazımdır, hər gün fəaliyyət göstərmək lazımdır. Buna görə də sizin əsas vəzifəniz bundan ibarət olmalıdır. Bunun üçün Azərbaycanın Əsas Qanunu var, Konstitusiyası var. İndi bütün gənclərin fəaliyyəti artıq keçmiş ideoloji tələblərdən, ideoloji prinsiplərdən, ideoloji buxovlardan azaddır. Hamımız üçün bir məqsəd var, müstəqil Azərbaycan Respublikası və onun Əsas Qanunu Konstitusiyası var". [1]

1999-cu ildə Mingəçevir şəhərindən seçilmiş nümayəndə heyəti ilə birlikdə Azərbaycan Gənclərinin II Forumunda iştirak etmişəm və bundan çox qururluyam. Forumda və fasilə zamanı sərgidə ümummlli liderimizi daha yaxından görmək, dinləmək xoş xatirələrlə xatırlanılır.

II Forumda ulu öndərimiz qeyd etmişdir: "Həll olunmayan məsələlər, nöqsanlar məruzələrdə və çıxışlarda cəsarətlə göstərilmişdir. Bunlar şəxsən məni çox sevindirir. Çünki bugünkü gənclər cəsarətli olmalıdırlar, hər şeyi açıq-aydın deməlidirlər, nöqsanların üstünü örtməməlidirlər. Şübhəsiz ki, nöqsanlar dövlət və hakimiyyətin ayrı-ayrı orqanlarının fəaliyyətinə aiddir. Eyni zamanda, gənclər təşkilatlarının, gənclərin özünə aiddir. Beləliklə, siz bizi, hakimiyyət orqanlarını tənqid etdiniz. Çox da yaxşı etdiniz. Mən sizin bu cür çıxışlarınızı xüsusi qiymətləndirirəm. Eyni zamanda, təəssüf edirəm ki, sizin burada göstərdiyiniz nöqsanları və həll olunmamış problemləri müvafiq orqanlar indiyə qədər həll edə bilməmişlər. Ancaq güman edirəm, sizin də nöqsanınız ondan ibarətdir ki, bu məsələləri siz vaxtında kəskin olaraq qaldırmamısınız. Yəqin ki, ancaq forumu gözləmisiniz. Mən bəyan edirəm ki, sizin tənqidi çıxışlarınızdan hamımız nəticə

çıxarmalıyıq. Hakimiyyət orqanları özləri üçün ciddi nəticə çıxarmalıdırlar. Nöqsanlar qısa müddətdə aradan götürülməlidir. [1]

Ulu Öndərin bu dəyərli tövsiyələri, gənclərimiz üçün böyük örnək olan nəsihətləri şübhəsiz ki, Azərbaycan gənclərini həyat yollarında mətin, cəsarətli, mərd olmağa çağırır. Bu yolların açarı isə təhsil və elmin qapılarından başlayır. O dövlət güclüdür ki, onun basılmaz ordusu, güclü iqtisadiyyatı, zəngin kadr potensialı, inkişaf etmiş təhsil sistemi var. Heydər Əliyev xalqımıza, millətimizə istər təhsildə, istər elmimizdə, istərsə də digər sahələrdə saysız töhfələr vermiş bir şəxsiyyətdir.

H.Əliyevin fəaliyyəti ilə bağlı görülmüş işlərə, aparılan tədqiqatlara nəzər salsaq görərik ki, o, elmi uzaqgörənliklə milli tərbiyənin məzmununa gənc nəslin milli vətənpərvərlik anlayışını da daxil etmişdir. Bu, gənclərimiz üçün, gələcək nəsil üçün olduqca böyük və vacib bir məsələdir.

Əgər milli tərbiyənin təməli möhkəm qoyularsa, onda həmin xalqın vətənpərvərlik əzmi güclü olur, həmin millət öz kimliyini dərk edir, öz Vətəninin şərəfini hər yerdə uca tutur. Bu mənada ölkəmizin aparıcı qüvvəsi olan gəncliyin gördüyü işlər olduqca zəruri və vacibdir.

Heydər Əliyevin "Azərbaycanı sevmək-azərbaycançılıq hissiyatını özünə cəlb etmək deməkdir" sözləri hər bir insanın həyat və fəaliyyət dairəsinin inkişafı üçün hər şeyin vətən sevgisindən, Vətənə övladlıq borcundan ibarət olduğuna və bu sevginin fövqündə insanın qurub-yaratmaq əzminin, daim artığına parlaq misaldır. Həqiqətən də vətən sevgisi, dövlətçiliyimizin qorunması bizim hər birimizin başlıca vəzifəsi olmalıdır.

1996-cı ildə Azərbaycan hökumətinin "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" qərarından sonra bu sahədəki tənəzzül aradan qaldırıldı. Hazırda respublikada kifayət qədər ibtidai peşə təhsili müəssisəsi, peşə məktəbləri fəaliyyət göstərir ki, onlarda müxtəlif peşə üzrə mütəxəssis hazırlanır.

Gənclərimizi müstəqil həyata aparan ali və orta ixtisas məktəbləri baxımından qeyd etmək olar ki, 1970-1980-ci illərdə Azərbaycanda ali təhsil müəssisələrinin sayı 1969-cu illə müqayisədə 12-dən 17-yə, təhsil alanların sayı isə 70 mindən 10 minə çatmışdısa, bu illərdə fəaliyyət gös- tərən 78 orta ixtisas məktəbində hər il 80 minə yaxın tələbə təhsil almış, ali və orta ixtisas məktəblərinə qəbul olan tələbələrin sayı bu illərdə sürətlə artmışdır.

Hazırda respublikamızda 39 dövlət, 11 qeyri-dövlət ali təhsil, 51 orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərir ki, bu da gənclərimizin ixtisas seçmələri üçün geniş imkanlar açır. Azərbaycandan kənarda təhsil almaq istəyən gənclərimiz üçün də lazımi şərait yaradılması H.Əliyevin diqqətindən kənarda qalmamışdı.

70-ci illərdə Azərbaycanda yüksək təhsilli mütəxəssislər hazırlamaq üçün çox işlər görülmüşdür. 1970-ci ildən başlayaraq Azarbaycanda qeyd etdiyim kimi, 15-16 ali məktəb olmasına baxmayaraq, H.Əliyev uzaqgörənliklə yüksək ixtisaslı mütəxəssislər hazırlamaq üçün Moskva, Ukrayna, Belarusiya və həmin vaxtlar Sovetlər İttifaqının başqa respublikalarının mərkəzi şəhərlərinə azərbaycanlı uşaqlarını göndərib, onların orada müxtəlif ixtisaslara yiyələnmələri üçün şərait yaratmaqdır.

Heydər Əliyev 1997-ci ildə respublikamızdan kənarda təhsil almağa gedən gənclərə müraciətlə demişdi: "Azərbaycandan kənara-başqa ölkələrə təhsil almağa gedən gənclərə xüsusi tövsiyə ondan ibarətdir ki, siz hansı ölkədə olursunuzsa olun, birinci vəzifəniz yüksək təhsil almaqdan, o təhsil ocağının imkanlarından istifadə edib hərtərəfli, hazırlıqlı bir vətəndaş olmaqdan ibarətdir. Eyni zamanda siz respublikamızı xarici ölkələrdə təmsil edən insanlar, gənclər olacaqsınız. Siz sadəcə olaraq təhsil almaqdan kifayətlənməməlisiniz. Azərbaycanı ləyaqətlə təmsil etməlisiniz".

Heydər Əliyevin istənilən sahədəki fəaliyyətinə gənclərin mənafeyi baxımından, gənclik prizmasından yanaşmaq mümkündür.

Ulu Öndərin 1999-cu il iyunun 29-da imzaladığı "Dövlət gənclər siyasəti haqqında" fərmanı bu istiqamətdə aparılan işlərin sürətləndirilməsi və genişləndirilməsinə də böyük təkan verir. Və bu da fərəhlidir ki, ötən dövrdə bu fərmana uyğun olaraq. Gənclərin Problemləri Üzrə Elmi Araşdırmalar Mərkəzi, Respublika Uşaq İstirahət ve Sağlamlıq Mərkəzinin yaranması, bədən tərbiyəsi və idmanın inkişafı, beynəlxalq sahədə əlaqələrin yaradılması və genişləndirilməsi və s.

məsələlər gənclərlə aparılan işin, nəinki ilbəil, hətta deyərdim ki, günbəgün sürətləndirilməsinə parlaq misaldır.

Məhz Prezidentimizin müdrik, uzaqgörən siyasəti nəticəsində elə bu müxtəlif istiqamətləri birləşdirən və ona nəzarət edən bir qurumun yaradılması və bu qurumun əlaqədar təşkilatlarla birgə fəaliyyəti göstərir ki, həqiqətən də Azərbaycan gəncləri az vaxt ərzində çox böyük uğurlar qazanmaqla yanaşı, hatta öz bayramlarını qeyd etmək imkanı da əldə ediblər. Artıq 1997-ci il fevralın 2-dən başlayaraq respublikamızda "Azərbaycan Gəncləri günü"nün keçirilməsi ənənə halını alıbdır.

Ölkəmizdə yeni-yeni müasir standartlara cavab verən idman saraylarının inşası, gənclərin sağlam ruhda böyüməsinə geniş imkanlar açdı. Az keçmədi ki, idmana verilmiş bu töhfələr öz nəticələrini verdi, gənc Azərbaycan idmançıları olimpiya oyunlarında, dünya va Avropa çempionatlarında və digər mötəbər turnirlərində uğurlar qazanaraq, yüksək mükafatlar əldə edərək, bu illər ərzində Vətənə medallar gətirdilər, dünyanın bir çox ölkələrində Azərbaycanın bayrağını qaldırmağa, himnini səsləndirməyə müvəffəq oldular. Göstərilmiş nəticələrə yüksək qiymət verən Heydər Əliyev 2002-ci il oktyabrın 18-də Prezident Sarayında olimpiyaçılarla görüşərək, bir neçə idmançımızı orden və medallarla təltif etdi. Onlara, orden və medalları, pul mükafatlarını şəxsən özü təqdim etdi. Görüşdə böyük nitq söyləyən Heydər Əliyev Azərbaycan idmanının yüksəliş yolunda olduğunu bir daha qeyd edərək, idmançıları yüksək nailiyyətlər əldə etmələri münasibəti ilə ürəkdən təbrik etdi.

Ulu öndər Heydər Əliyevin "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" fikri Azərbaycanda həyata keçirilən gənclər siyasətinin fəlsəfi və ideoloji əsasıdır ki, məhz bu da gəncləri həm bu günün reallıqları, həm də gələcəyin çağırışları ətrafında səfərbər edir. Mövcud fəlsəfənin daha da sağlamlaşdırılması, uğurla realizə edilməsi bütün sahələrdə olduğu kimi gənclər siyasəti sahəsində də Ulu Öndərimizin siyasətini layiqincə icra edən Prezident İlham Əliyevin də illər ərzində əsas fəaliyyət istiqamətlərindən biri olub. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənclərə xitab edərək deyir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Məhz bu səbəbdən dövlətimizin başçısı tərəfindən gənclərin rifahına xidmət edən 2005-2009-cu illər ərzində "Azərbaycan gəncliyi Dövlət Proqramı", 2006-2010-cu illər ərzində "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı kimi mühüm proqramlar təsdiq edilib. [2]

Prezident İlham Əliyevin gənclər siyasəti onların milli inkişafa fəal cəlb edilməsinin vacibliyini bəyan etmək, inkişaf üçün ümumi məqsədləri olan çərçivənin təmin edilməsi ilə yanaşı, dövlət və gənclər arasında koordinasiya ruhunun təşviq edilməsindən ibarətdir. Prezident İlham Əliyevin gənclər siyasəti sahəsinə göstərdiyi diqqət və qayğı dövlət başçımızın gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür. Xüsusilə dövlətimizin başçısının 2007-ci ilin "Gənclər İli" elan edilməsi ilə bağlı Sərəncamı gənclərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığının daha da artmasına səbəb olub. [2]

Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücü gənclərdir. Ölkə gənclərinin potensialının üzə çıxarılması, fəallığının artırılması, hadisələrə fərqli baxış bucaqlarının gətirilməsini cəmiyyət üçün zəruri hesab edən Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da 2020-ci ilin Azərbaycanda "Könüllülər İli" elan edilməsi haqqında Sərəncam imzaladı. İndi könüllülər ordusu kimi böyük bir hərəkat formalaşıb ki, onlar müxtəlif sahələrdə çalışaraq bilik və bacarıqlarını daha da artırmaqla yanaşı, işlədikləri qurumlara yeni nəfəs, gənc ovqat gətirir, bir digər tərəfdən də uğurlu gələcəklərini könüllülük fəaliyyəti ilə təmin edirlər.

Həm Ümummilli liderimiz Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin gənclər siyasətinin mərkəzində bir əsas xətt dayanır ki, bu da Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsidir. Çünki tarix boyu üzləşdiyimiz reallıqlar və Vətən müharibəsindən sonra Azərbaycanın diktə etdiyi reallıq bir daha göstərdi ki, gənc Azərbaycan oğullarının Şuşa

qayalarında, bütün Qarabağ torpağında yazdıqları qəhrəmanlıq salnaməsinin kökündə məhz azərbaycançılıq ideologiyası, Vətənə, yurda sədaqət, torpağa bağlılıq amilləri dayanır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bununla bağlı demişdir: "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər". [2] Və bu bir reallıqdır ki, gənclərdən ibarət könüllülərimiz Şuşada keçirilən ekoaksiyada iştirak edərək Azərbaycanın haqlı mövqeyini dəstəkləyərək dövlətçiliyimizin qoruması istiqamətində fəallıq göstərmişlər.

Mingəçevir şəhəri 2023-cü ildə Gənclər və İdman Nazirliyinin iclasında elektron səsvermə zamanı Azərbaycanın Gənclər Paytaxtı seçilmişdir. Bu il isə Lənkəran şəhəri Azərbaycanın Gənclər Paytaxtı seçilmişdir.

Azərbaycan gəncləri onlara işıqlı Azərbaycan qoyub getmiş Ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərimizin ruhunu, Prezident İlham Əliyevin inamını və etimadını qazanaraq, Vətənə, millətə, dövlətimizə sədaqətlə xidmət etməyə şərəf duyurlar.

Bu gün ölkəmiz dinamik inkişaf yolu ilə inamla irəliləyir. Bu yolun əsas aparıcı qüvvələrindən biri isə Ümummilli Liderimizin, daha sonra onun siyasi varisi Prezident İlham Əliyevin daimi qayğı və diqqəti ilə əhatə olunmuş Azərbaycan gəncliyidir.

Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması və cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır.

İstifadə edilmiş ədəbiyyat

1. "Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin qurucusu"mövzusinda keçirilən konfrans materialları, Yeni Azərbaycan Partiyası İcra Katibliyi, Bakı, 2003
2. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_gencler_siyaseti_geleceye_hesablanmis_ugurlu_siyasetin_tecessumudur-1993877
3. https://report.az/daxili-siyaset/mingecevirin-gencler-paytaxti-secilmesi-ile-bagli-tedbir-kecirilib/
4. https://elchi.az/ming%C9%99cevir-v%C9%99-l%C9%99nk%C9%99ran-g%C9%99ncl%C9%99r-paytaxti-secildi/
5. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan%C4%B1n_ali_t%C9%99hsil_m%C3%BC%C9%99ssis%C9%99l%C9%99rinin_siyah%C4%B1s%C4%B1
6. https://sia.az/az/news/social/786051.html

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN KARİFEYLƏRİNƏ QAYĞISI

Günel Kamil qızı Yunusova
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
gunel.yunusova@mdu.edu.az

Giriş

Tarix qədim və zəngin Azərbaycan ədəbiyyatının klassikləri və korifeylərinin misilsiz ədəbi-bədii xəzinə yaratdıqlarını təsdiqləyir. Arxiv materiallarında, xatirələrdə, tərcümeyi-hal mahiyyətli bədii əsərlərdə, tarixi araşdırmalar əsasında aparılmış tədqiqatlarda, ensiklopedist və humanist yaddaşlarda, dövri mətbuatda, dərs vəsaitlərində Azərbaycan ədəbiyyatının görkəmli sənətkarları, klassikləri, korifeyləri haqqındakı məlumatlar müasir dövrümüz üçün çox qiymətlidir.

Müxtəlif əsrlərdə müəyyən dövlət başçıları, hökmdarlar ədəbiyyat və incəsənətə himayədarlıq etmiş, şair, yazıçı, rəssam və müsiqiçilərlə təmas saxlamış, onlara hörmətlə yanaşmışlar. Tarixi qaynaqlar və insanların yaddaşları bu fikrin düzgünlüyünü təsdiqləyir. Şərqdə və Qərbdəki fikir

titanları, elmin müxtəlif sahələrini öz yaradıcılıqlarında əks etdirən insanlar bəşəriyyətin zehni inkişafındakı faydalı mənbələri və nümunələri mühafizə edib müasir dövrə çatdırmışlar.

Müasir dövrümüzdə də ədəbiyyata, incəsənətə, mədəniyyətə, elmə, təhsilə misilsiz qayğı göstərildiyini görürük. Bu işdə Heydər Əliyevin rolu daha böyükdür. Ümummilli Liderin Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, elminə və təhsilinə böyük qayğısı ona ümumxalq məhəbbəti qazandırmışdır. Heydər Əliyev özünün şəxsiyyət kimi formalaşmasında və mənəvi cəhətdən kamilləşməsində Azərbaycan ədəbiyyatının mahiyyətini yüksək qiymətlən-dirmişdir.

Məqsəd

Heydər Əliyevin Azərbaycan ədəbiyyatı, mədəniyyəti, incəsənətinə münasibətini, istər klassik, istərsə də müasir dövr şair və yazıçıların dünya miqyasında tanıdılmasındakı rolunu göstərmək.

Tədqiqat metodu

Məqaləni yazarkən tarixilik prinsipindən, tipoloji-müqayisəli təhlil metodlarından bəhrələnilmişdir.

Əsas materialın ifadəsi

Ulu Öndərin dövlət ideologiyası və siyasəti üçün mədəniyyət, ədəbiyyat ən mühüm, vacib amillərdən biridir. Heydər Əliyevə görə, ədəbiyyat azərbaycançılıq fəlsəfəsinin üzvi tərkib hissəsidir. O, Azərbaycan ədəbiyyatını inkişaf etdirmək və tanıtdırmağı bu ideologiya üçün vacib hesab edirdi. Buna görə də ədəbiyyatla bağlı fəaliyyətinə onun azərbaycançılıq ideologiyasının izhar və gerçəkləşmə forması demək olar. [2]

Heydər Əliyev Azərbaycan ədəbiyyatının bütün dövrləri, şəxsiyyətləri ilə ciddi maraqlanmış, diqqətlə nəzərdən keçirmiş, onlara orijinal münasibətini bildirmişdir. Ədəbiyyatın gəncliyin ən güclü və təsirli tərbiyə vasitəsi olduğunu göstərmişdir.

Ulu Öndər Azərbaycan sənətkarlarını, tənqidçiləri məhəbbətlə qarşılamış, klıassik ədəbi-mədəni irsə milli təəssübkeşlik və vətənpərvərlik cəbhəsindən yanaşmışdır. Klassik ədəbi-mədəni irsin öyrənilməsində, təbliğ olunmasında, nəşr edilməsində və beynəlxalq miqyasa çıxarılmasında onun xüsusi himayədarlığı olmuşdur.

O, Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinin keçirildiyi ildə, 1969-cu ilin noyabrında Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələrinin Azərbaycan Dövlət Universitetində inkişaf etdiyini söyləmişdir.

Azərbaycanın çoxəsrlik mədəniyyətinə öz töhvəsini verən, onu zənginləşdirən və bu mədəniyyətin bəzəyinə çevrilənlər sırasında məşhur filosof Bəhmənyar, dahi Nizami, N.Tusi, Fizuli, orta əsrlərin böyük alimləri sırasına adını yazdıran Rəşidəddin, üsyanar şair Nəsimi, Bakıxanov, Axundov, satirik şair M.Ə. Sabir, Mirzə Cəlil və bir çox dahinin adlarını çəkmək olar və biz onlara minnətdarıq, çünki Azərbaycanın ictimai fikrini, elmini və mədəniyyətinin işığını zülmətli irtica və özbaşınalıq vəziyyətində qoruya bilmişlər. [4, s.14]

Ümummilli Lider Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrini bütün dünyaya tanıtdırmaqda şərəfli xidmət göstərmişdir. Xalqda sənətkarların əsərlərini oxumaq marağı artırıldı, xalq ədiblərin xatirəsini anmaq, abidələrini ucaltmaq, ev muzeylərini yaratmaq sahəsində H. Əliyevin şərəfli xidmətlərini yüksək qiymətləndirdi.

Heydər Əliyev üçün klassik ədəbiyyat ilk öncə, müasirlik, konkret tarixi situasiyada xalqa mənəvi-mədəni xidmət göstərmək potensialı idi və onun siyasi müdrikliyinin, uzaqgörənliyinin zəminində Azərbaycan klassik ədəbiyyatına münasibətin keyfiyyət və miqyasca özünü daha qabarıq göstərdiyinin şahidi oluruq. Bu, uzaqgörən şəxsiyyətin milli-mənəvi və ədəbi qüvvənin yaradılması ilə şərtlənən siyasəti idi. [1, s.36]

Ulu Öndər klassiklərin əsərlərinin dünyanın bir çox dillərinə tərcümə edilməsində, həyat və yaradıcılıqları haqqında fundamental tədqiqat əsərlərinin yazılmasında dövlət himayəsi və qayğısını əsirgəmədi. Onun xeyirxah münasibət və himayədarlığı nəticəsində 70-ci illərdən başlayaraq Azərbaycanın klassik ədəbiyyatına maraq artdı, onun bir sıra nümayəndələri sözün həqiqi mənasında ikinci həyat qazandılar, dünya miqyasında xalqımızın mənəviyyat və mədəniyyət pasportuna çevrildilər.

Heydər Əliyev həmişə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, elminə və təhsilinə səmərəli qayğı göstərmiş, onun inkişafına parlaq uğurlar qazandırmışdır.

Dünyanın bir çox məşhur şərqşünaslarının və tarixçilərinin, nizamişünasların obyektiv mövqeyini və onların Nizaminin məhz Azərbaycanın klassik ədəbiyyatına aid olduğu fikrini Heydər Əliyev çox yüksək qiymətləndirmişdi.

Nizami Gəncəvi irsi barəsində ulu öndərin başçılığı ilə həyata keçirilmiş qərar Azərbaycanı, Azərbaycan xalqını tanımağa, təbliğ etməyə xidmət edən tarixi bir sənəddir. 1993-cü ildə dahi sənətkarın irsinin öyrənilməsi ilə bağlı respublika rəhbərliyinin vaxtilə qəbul etdiyi tarixi qərarın əhəmiyyətini xatırlayan Heydər Əliyev demişdi: "Əgər Qərb ölkələrinin, o cümlədən İngiltərənin kitabxanalarında, elm mərkəzlərində dahi Nizaminin yaradıcılığını alimlər təhlil edib, onunla bağlı müəyyən əsərlər ərsəyə gətirmişlərsə, onda Azərbaycanda, xüsusən, 1948-ci ildən sonra bu mövzu ilə bağlı lazımi səviyyədə işlərin görülməməsini, dahi şairimizin əsərlərinin qədərincə çap olunmamasını deyə bilərik. Nizami Gəncəvinin əsərlərinin Moskvada, rus dilində çap olunması barəsində qərar qəbul edilmişdir. Lakin sonra "*Xudojesstvennaya literatura*" mətbəəsində bu əsərlərin çap olunmamasını öyrəndik. Böyük bir nəaliyyət olmaqla yanaşı, həm də xalqıma xidmətim kimi deyə bilərəm ki, Moskvada işlədiyim müddətdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin ayrı-ayrılıqda rus dilində nəşrinə nəzarət etdim... Nizaminin əsəsrlərini Moskvada böyük çətinliklə nəşr etdirdik. Bakıya gələndə isə Nizami muzeyində onun əsərlərinin hamısının orada nümayiş etdirildiyini gördüm". [3, s.202]

Azərbaycan ədəbiyyatının dahi sənətkarı Nizami Gəncəvinin 840 illiyi 1981-ci ildə respublikamızda geniş qeyd edildi. Yubiley illərində "Pravda" qəzeti Heydər Əliyevin Nizami Gəncəviyə həsr olumuş məqaləsini çap etmişdi. Şairə böyük sevgi və hörmətlə yazılmış bu məqaləsində ulu öndər söyləmişdir ki, "Bəşər tarixində Dante, Şekspir, Puşkin, Balzak, Tolstoy, Qorki kimi dünyaya son dərəcə dəyərli mənəvi sərvətlər vermiş dahilər vardır ki, onlar öz yaradıcılıqlarında dövrlərini açıq şəkildə əks etdirərək insanları humanizmə, yüksək mənəviyyata və yaxşı əməllərə səsləyirlər. Dahi Nizaminin də adını bu sıralara əlavə edə bilərik. Çünki o da əsərləri ilə Şərq bədii düşüncə tarixində yeni səhifə açmışdır". [3, s.204]

Nizaminin dünya ədəbiyyatı korifeyləri ilə bir cərgədə dayanması bəzən isə öz fikir və ideyaları ilə onları qabaqlaması, Şərqin və Qərbin ünlü sənət dahilərinə örnək olmasını Heydər Əliyev göstərib demişdir ki, tarixçi və ədəbiyyatşünaslar Nizami Gəncəvini ənənəvi qəliblərlə öyrənmək məcburiyyətində qalmasaydılar, "böyük filosof Höte özünün bəzi fəlsəfi iddialarını dahi şairin fəlsəfi fikirləri əsasında aydınlatmışdır" həqiqətinə gəlib çıxardılar.

Heydər Əliyevin başçılığı ilə 1973-cü ildə filosof-şair İmadəddin Nəsiminin 600 illik yubileyi dünya səviyyəsində keçirildi.

Klassik Azərbaycan ədəbiyyatının heyranları 1948-ci ildən Nizami aclığı keçiridilər, bundan fərqli olaraq Nəsiminin əsərlərinin nəşri uzun illər qadağan olunmuşdur, elə bil Azərbaycan ədəbiyyatı tarixində belə bir sənətkar olmamışdır. Onun "Divan"ının yeganə nəşri görkəmli ədəbiyyatşünas alim S.Mümtaz tərəfindən 1926-cı ildə, ərəb əlifbası ilə çap olunmuşdur.

Azərbaycan ədəbiyyatşünasları orta əsr klassiklərimizin yaradıcılığına türk ədəbiyyatı konteksində yanaşmış, Qazi Bürhanəddin, Nəsimi, Füzuli və başqa sənət korifeylərini milli şeirimizin deyil, ümumtürk poeziyasının nümayəndələri kimi araşdırmışlar. Bu sənətkarların Azərbaycan türkü olduqları, tarixi baxımından türklüyün bu qoluna mənsub olduqları doğrudur. Necə ki, Əlişir Nəvai özbək, Cəlaləddin Rumi və Baki osmanlı-türk, Məxtumqulu türkmən ədəbiyyatının nümayəndələridir, ancaq onlar ümumtürk ədəbi fikrinin yazarları hesab olunur.

Heydər Əliyev ilk olaraq keçən əsrin 60-cı illərində Nəsimi yaradıcılığı ilə yaxından tanış olmuşdur. Nəsimi Suriyada, Hələb şəhərində dəfn edilmişdir. Ulu Öndər 1970-ci ildə Suriyada səfərdə olanda prezident Hafiz Əsədlə Hələbdə Nəsiminin məzarını ziyarət etmişdir.

1973-cü il 22 sentyabrda Bakıda şairin 600 illik yubileyi keçirilmiş, Nəsimi abidəsinin təməli qoyulmuşdur. Cahangir Qəhrəmanov Nəsiminin əsərlərinin üç cidliyini, Qabil "Nəsimi" poemasını yubiley ərəfəsində çap etdirmişdir. Onun əsərləri rus dilində də çap olunmuşdur.

Rusiya şairi Lev Ozerov böyük sənətkarı "dünya lirikasının Koperniki" adlandırmışdır. Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin heykəli ucaldıldı, əsərləri çap olundu, oxucuların mütaliəsinə verildi.

1994-cü ildə ədəbiyyatımızın böyük klassiki Firudin bəy Köçərlinin "türk şeirinin babası" adlandırdığı Azərbaycanın görkəmli şairlərindən biri Məhəmməd Füzulinin də 500 illik yubileyi keçirildi.

Füzulinin yubileyinin beynəlxalq miqyasda layiqli şəkildə qeyd olunmasına hazırlıq elə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra, yəni 1993-cü ildə başladı. Həmin il sentyabrın 21-də, Azərbaycan üçün son dərəcə çətin günlərdə, Elmlər Akademiyasında ziyalılarla görüşən prezident səlahiyyətlərinin icraçısı Heydər Əliyev müharibədən və iqtisadi çətinlikdən daha çox mədəniyyətə qayğıdan danışmış və Füzulinin qarşıdan gələn yubileyinin yüksək səviyyədə keçirliməsi zəruriliyini vurğulamışdır. [3, s.206]

1993-cü ildən sonra müharibə şəraitində yaşayan Azərbaycanda mədəniyyətin inkişafına, görkəmli sənət adamlarının yubileylərinin keçirilməsinə və onların xatirələrinin əbədiləşdirilməsinə yönəldilmiş diqqət və qayğı xalqı razı salırdı. Azərbaycan Prezidenti ölkənin ən çətin anlarında onun xilasının yanlız silahda, hərbi qüvvədə deyil, həm də bu torpağın qədim və təkrarsız mədəniyyət yurdu olmasında axtarırdı, bu mədəniyyətin dünya miqyasına çıxarılması ilə bütün dünyaya Azərbaycanın olduğu kimi tanıdılmasına xüsusi önəm verirdi.

1994-cü ilin əvvəllərində Heydər Əliyevin Füzulinin yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə əlaqədar olaraq görkəmli ədəbiyyatşünaslar, dilçilər, mətnşünaslar, tarixçilərdən ibarət yaratdığı komissiya yaxşı nəticə verdi.

Heydər Əliyev iftixar hissi ilə Füzulini dünyaya tanıtdırmaq, onun necə böyük şair, filosof, mütəfəkkir olaraqdan dünya mədəniyyətinə verdiyi töhvələrdən, onu necə zənginləşdirdiyini göstərməyə həmişəkindən fərqli olaraq, müstəqilliyimizi əldə etdiyimiz dövrdə ehtiyacımızın daha çox olduğunu söyləmişdir.

Tarix və ədəbiyyatla bağlı mühazirələrdə obyektiv və ədalətlilik prinsipini əsas tutan Heydər Əliyev klassiklərə və onların yaradıcılığına dərin məhəbbət bəsləyir, düzgün araşdırmaların aparmağın proqramını verirdi.

Ankarada zirvə tədbirlərində "Azərbaycan türkcəsi" ilə yazan dahi Füzulinin yubileyi yüksək səviyyədə keçirilmiş, ona dərin məhəbbət bəslənmişdir. Noyabrın 2-də TBMM-də Füzulinin anma mərasimində millət vəkilləri qarşısındakı çıxışında Heydər Əliyev demişdir: "500 ildir ki, Məhəmməd Füzuli yaşayır, 500 ildir ki, türk xalqları onun ideyaları ilə yaşayıb, onun əsərlərindən ilham alaraq bu günə gəlib çatmışdır. Füzuli haqqında dünyanın çox yerində, eləcə də Türkiyədə, Azərbaycanda böyük elmi əsərlər yazılıb, ayrı-ayrı sənətkarlar ona öz qələm işlərini həsr ediblər. Onun yaradıcılığı əsasında musiqidə, rəssamlıqda böyük əsərlər yaradılıb. Azərbaycanda bir çox qələm əhlinin Füzuli yaradıcılığından bəhrələnmiş əsərləri var. Ancaq bunların hamısından ən dəyərlisi bəstəkar Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasıdır. Çünki Füzulinin "Leyli və Məcnun" əsəri əsasında yaradılmış bu əsər Şərq aləmində ilk böyük, klassik professional operadır ki, xalqımızın demək olar ki, çox qaranlıqda yaşadığı, savadın çox az adama qismət olduğu bir dövrdə ərsəyə gəlib". [3, s.213]

Türkiyə parlamentindəki parlaq nitqində Heydər Əliyev çox obrazlı və gözəl şərhi ilə Füzuli sənətkarlığının əhəmiyyətini ətraflı aşkarlamış, onun poeziyasının zəngin tərbiyə vasitəsi olduğunu göstərmişdir. Dahi Azərbaycan şairi Füzuli Şərq intibahının bayraqdarına çevrilmişdir. YUNESKO-nun qərarı ilə 1996-cı il dünya miqyasında Füzuli ili elan olunmuşdur. Ölkəmizdə üç il, 1994-1996-cı illərdə Füzuli illəri böyük məhəbbətlə yaşandı.

1967-ci ildə Molla Pənah Vaqifin anadan olmasının 250 illiyi ilə bağlı yubiley tədbirləri keçirilmişdir. Onun Şuşa şəhərindəki məzarının üzərində ucalan əzəmətli məqbərə Heydər Əliyevin təşəbbüsünün parlaq nəticəsidir, Qarabağ xanlığının baş vəziri olmuş Vaqifin heykəlinin ucaldılması da dünya miqyasında gözəl təsir bağışladı.

Heydər Əliyev 1995-ci ildə Molla Pənah Vaqifin xatirəsinin əbədiləşdirilməsi tədbirində demişdir: "Ürəkli deyirəm ki, biz Şuşada, Molla Pənah Vaqifin məzarı üstə onun adına layiq gözəl bir məqbərə ərsəyə gətirdik..." [3, s.214] Ulu öndər onun açılışının böyük bir təmtəraqla, respublika

ictimaiyyətinin, ədəbiyyat və incəsənət nümayəndələrnin iştirakı ilə baş tutduğunu qeyd etmişdir. Eyni zamanda o, təəssüf hissi ilə Şuşanın işğal altında olduğunu söyləmiş və əminliklə oranın işğaldan azad olunacağını və şairin məqbərəsinin xalqımıza qayıdacağını qeyd etmişdir. Helə də oldu. Qırx dörd günlük müharibə nəticəsində Şuşa geri qayıtdı və məqbərə yenidən bərpa olundu.

Heydər Əliyevin nitqi tarixi hadisələrin geniş şərhi olmuşdur. Vaqif bir nümunə idi və onun timsalında yüz əlli, yüz altmış il bundan öncə Qarabağda məskunlaşmış ermənilər bilirdi ki, bu ərazilərin əsl sahibi azərbaycanlılardır. Şuşada ucaldılan bu məqbərə bir şairin abidəsi idi, o torpaqlarda türk-azərbaycanlı ruhunun əsrlər boyu hakimliyinin simvolu idi.

Ulu Öndər 1972-ci ildə Nəriman Nərimanovun 100 illik yubileyinin geniş şəkildə keçirilməsinə də nail olmuşdur.

Xalqımızın hər zaman birlik olmasını, tariximizi sevib ona dəyər verməsini, xalq, vətən üçün alışıb yanan şəxsiyyətlərin hər zaman dəyərinin bilinməsini və heç vaxt unudulmamasını arzu edən Ümummilli Lider N.Nərimanov haqqında danışarkən onun 100 illiyi ərəfəsində materiallarla tanışlığı zamanı N.Nərimanovun həyatının son dönəminin faciəli olmasının ona nə qədər ağrı verdiyini söyləmişdi. N. Nərimanovun 100 illik yubileyinin 1970-ci ildə tamam olmasına baxmayaraq, onun 1972-ci ildə keçirilməsinin səbəbinin izahını verən ulu öndər iki il mübarizə aparığını, Nərimanovun üzərindəki "millətçi" damğasının silinməsi üçün xeyli çalışdığını dilə gətirmiş, bu yolda ona millətçi ermənilərin gizli yolla mane olduğunu söyləmişdi. Ancaq bütün bunlara baxmayaraq o, istədiyinə nail olmuş və xalqına, mədəniyyətinə böyük qayğısı olan N.Nərimanovun yubileyini keçirmişdi.

Heydər Əliyev Nəriman Nərimanovun "millətçi" olduğunu iddia edənləri ifşa edərək həqiqəti vurğulamışdır. Eyni zamanda "Nərimanovun abidəsinin qoyulmasında da çətinliklərlə üzləşən, iki dəfə Suslovun, Brejnevin yanına gedərək, onlara Nərimanov haqqında yalnış məlumatların verildiyinin də mübarizəsini aparan Ulu Öndər Əjdər İbrahimovun İsa Hüseynovla birlikdə Nərimanova həsr etdiyi filmin ermənilərin təsiri ilə MK-nin bəzi məsul işçiləri tərəfindən "Mosfilm"də yayımının qadağan edilməsi yolunda da yorulmadan istəyinin ardı ilə getmiş və arzusunu həyata keçirə bilmişdir. [3, s.217]

Onun fəaliyyəti ilə Özbəkistanda şəhərlərdən biri Nərimanov adını daşımış, Həştərxan aeroportuna Nəriman Nərimanov adı verilmişdir. Heydər Əliyevlə İsa Hüseynov (Muğanna) Nərimanova ümumxalq məhəbbəti qazandırmış, erməni daşnaqlarını ifşa etmişlər.

Heydər Əliyev həmişə həqiqətin keşiyində durmuş, onu müdafiə etmiş və vətənini, xalqını sevmişdir. O, Nəriman Nərimanovun xidmətlərini yüksək qiymətləndirərək iftixar hissi ilə demişdir: "Nəriman Nərimanov müstəqil demokratik dövlətin xadimlərinin hamısını qoruyanlardandır. M. Ə. Rəsulzadə onlardan biri idi. Generallar Mehmandarov və Şıxlinskini Leninə yazdığı məktubla həbsdən qoruya bilmişdir. Bunlarla dediyim odur ki, tarixi təhrif edənlər xalqına, vətəninə xəyanət edənlərdir və buna son qoyulmalıdır." [3, s.219].

Heydər Əliyevin həm şəxsiyyətinə, həm də yaradıcılığına böyük hörmətlə yanaşdığı sənətkarlardan biri də Cəlil Məmmədquluzadə idi. Ədibin zəngin bədii irsi və şərəfli ömrünün tarixi salnaməsi vardır. Ulu öndərin başçılığı ilə 1981-ci ildə ədibin ev muzeyi yaradılmış, 1994-cü ildə anadan olmasının 125 illiyi keçirilmişdir.

Bakıda Ü.Hacıbəyovun, N.Nərimanovun, S.Vurğunun ev muzeylərinin yaradılması, M.Ə.Sabirin Şamaxıdakı ev muzeyinin yenidən qurulması və zənginləşdirilməsi işləri də ümummilli liderin təşəbbüsü ilə yerinə yetirilmişdir.

Heydər Əliyev şəxsiyyətini, yaradıcılığını yüksək qiymətləndirdiyi Cəlil Məmmədquluzadənin zəngin irsində müasirlik, aktuallıq, təravətlilik, əxlaqi keyfiyyətlərin parlaqlığını göstərmişdir. O, milli şüurun və müstəqillik idealarının formalaşmasında ədibin bədii əsərlərinin və "Molla Nəsrəddin" jurnalının rolunu dəyərləndirmişdir. Ulu Öndər Cəlil Məmmədquluzadənin yaradıcılığını dibi görünməyən dərya adlandırır, onun milli oyanış və milli özünüdərk ideyalarındakı səmərəli xidmətini dəyərləndirir.

Cəlil Məmmədquluzadə anti-humanist, işğalçı və cəmiyyətin inkişafına mane olan keçmiş köhnə üsul və qaydaları mühafizə edən rejimi kəskin tənqid edir və lənətləyir. Bu rejim Azərbaycan

türklərinin hüququnu tapdalayır, ana dillərini təkmilləşdirməsinə, özlərinin maarif və mətbuatlarını yaratmağa imkan vermirdi.

Müstəqillik ideyalarının formalaşmasında və insanların dərk etməsində müdrik fəaliyyət göstərən Mirzə Cəlil haqqında H.Əliyev demişdir: "Cəlil Məmmədquluzadə ədəbiyyatçı, yazıçı, publisist olmaqla yanaşı, bir də böyük siyasətçidir. Ona bu gözlə baxmalıyıq, çünki o öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişaf etməsində, milli ruhun yüksəlməsində böyük rola malik bir şəxsiyyətdir. Bu ədəbiyyatla, mədəniyyətlə yanaşı siyasətdə də böyük xidmət sayılır. Cəlil Məmmədquluzadənin ana dilinə - Azərbaycan dilinə olan qayğısı və diqqəti, onu təbliğ etməsi və inkişafında xüsusi səylər göstərməsi ədibin fəaliyyətindəki ən dəyərli cəhətlərdən biridir".

Azərbaycan dili anlayışının yenidən vətəndaşlıq hüququ qazanmasında Cəlil Məmmədquluzadənin irsi əsas örnək olmuşdur. Dövlət başçısı milli idealogiyanın bünövrəsində klassiklərin irsindən öyrənməyi zəruri saymışdır. Bu sahədə Cəlil Məmmədquluzadənin yaradıcılığı zəngin mənbədir və səmərəli öyrənilməsi zəruridir.

Azərbaycan ədəbiyyatı tarixinin görkəmli sənətkarı, romantik şair və dramaturq, filosof Hüseyn Cavidə Heydər Əliyev böyük ehtiram və qayğı bəsləmiş, onun həyat və yaradıcılığını yüksək qiymətləndirmişdir.

Heydər Əliyev 1981-ci ildə şairin anadan olmasının 100 illiyinin keçirilməsi haqqında qərar vermişdir. Hüseyn Cavid Sibirin Tayşest qəsəbəsinin yaxınlığında 1941-ci ildə 59 saylı adsız qəbrdə dəfn olunmuşdur. Ulu öndər qırx ildən sonra onun cənazəsini Bakıya gətirtdi.

Heydər Əliyev demişdir: "Hüseyn Cavidin həm ədəbi, həm də elmi, fəlsəfi baxımından xalqa gərəkli olan əsərləri bu gün lazımi səviyyədə nəşr olunmayıb. Onu Şərqin Şekspiri adlandırırlar, ancaq mən Höte ilə müqayisə edirəm. Mənə görə H. Cavidin əsərlərindəki fəlsəfi fikirlər Höteninkilərlə eyni səviyyədədir. Hüseyn Cavidin"İblis"i Hotenin "Faust" əsərindən geri qalmır, ancaq biz inciləri qədərincə dəyərləndirə bilmirik". [3, s.227]

Onun təşəbbüsü ilə 1992-ci ildə Cavidin doğum günü geniş qeyd edildi, ev muzeyi yaradıldı, əsərləri çap olundu, adı əbədiləşdirildi, haqqında tədqiqat əsərləri yazıldı.

Heydər Əliyev Nətavan, Mir Möhsun Nəvvab, Üzeyir Hacıbəyov dühasının zənginliyini, tarixi əhəmiyyətini dəyərləndirir, bu dahi sənətkarlara çox böyük qayğı bəsləyirdi.

1995-ci ildə Üzeyir Hacıbəyovun anadan olmasının yüz on illik yubileyi böyük təmtəraqla qeyd edildi.

Heydər Əliyev Üzeyir Hacıbəyovu böyük vətəndaş kimi dəyərləndirmiş, onun yaradıcılığının əvəzsiz, zəngin, qiymətli, həmişəyaşar olduğunu söyləmişdir, onun "Leyli və Məcnun", "Arşın mal alan", "O olmasın, bu olsun" kimi milli opera və operretalar yaratmaqla yanaşı "Həyat", "İrşad", "Tərəqqi", "Açıq söz" və başqa mütərəqqi ruhlu, milli əqidəli mətbuat orqanlarının səhifələrində xalqın qayğılarından söz açan yüzlərlərlə püblisist məqalə və felyeton çap etdridiyini göstərir.

Nəticə

Son olaraq onu qeyd edək ki, Ümummilli lider, dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin ədəbiyyata, mədəniyyətə, incəsənətə, elmə, təhsilə və ədəbiyyatın korifeylərinə böyük etimadı, hörməti, qayğısı çox misilsiz idi, sənətə və sənətkara parlaq sevgi idi.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2009, 245 səh.
2. Məmmədova Ş. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri". Fil.ü.f.d. avtoreferat. Bakı, 2014
3. Səmədov A. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Gəncə, 2008, 532 s.
4. Yusifov M. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Bakı, 2003, 203 s.

44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ TARİXİ QƏLƏBƏMİZ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜKƏMMƏL DÖVLƏTÇİLİK STRATEGİYASININ TƏNTƏNƏSİDİR

Anar Nadir oğlu İsmayılov
tarix üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
anar.ismayilov@mdu.edu.az

Azərbaycan xalqının müasir tarixində ən mühüm və həyati əhəmiyyət kəsb edən hadisələrdən biri 2020-ci ilin payızında 30 il işğal altında qalmış torpaqların azad olunması hadisəsidir. Lakin bu hadisə təkcə yaxşı hazırlanmış, xalqın, milli liderin və ordunun sarsılmaz birliyinə əsaslanan hərbi əməliyyat kimi deyil, həm də əsrlər ərzində Azərbaycan xalqına qarşı törədilmiş haqsızlıqlara son qoyulması və Azərbaycanın çoxəsrlik tarixində yeni dövrün başlanğıcı kimi qiymətləndirilməlidir. 2020-ci ilin isti payızında 1828-ci ildən bəri tarixi Azərbaycan torpaqlarının Rusiya ilə İran arasında Türkmənçay müqaviləsilə iki hissəyə ayrılmasından sonra, ilk dəfə olaraq, Azərbaycanın Arazadan şimalda yerləşən torpaqlarının bütövlüyü öz rəsmi sərhədləri çərçivəsində bərqərar edildi. Beləliklə, 2020-ci il sentyabr ayının 27-si müasir milli tariximizi qüruru sınmış və ayaqlar altına atılmış xalqın "ona qədərki" və Möhtəşəm Qələbə qazanmış xalqın "ondan sonrakı" tarixi kimi iki fərqli hissəyə ayırdı. Bu həlledici məqam xalqımızın taleyində "həqiqət anı" [4] kimi təzahür etdi və bizlər həmin gün Azərbaycan Respublikasının Prezidenti, Azərbycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş komandanı cənab İlham Əliyevin rəhbərliyi altında düşmənlərimizin acığına haqsızlığa qəti şəkildə "yox" dedik və müasir milli tariximidə şanlı bir səhifə açdıq. Dünya xalqımızın gücünü, iradəsini və şücaətini, İlham Əliyevin timsalında milli liderimizin qətiyyətini gördü. Bu gün artıq Azərbaycan Respublikası, həm Cənubi Qafqaz regionunda, həm də beynəlxalq miqyasda söz sahibidir və yeni dünya nizamının qurulmasında fəal iştirak edir. Bu şanlı məqama biz Ulu öndər Heydər Əliyevin XX yüzilliyin 60-cı illərindən başlayaraq, formalaşdırdığı çox mükəmməl dövlətçilik strategiyasının sayəsində çatmışıq. Həm iqtisadi, həm hərbi-siyasi, həm də ictimai-mədəni sahələrdə əldə etdiyimiz bütün uğurlar Heydər Əliyev dühasının təntənəsidir. Ölkəmizi və xalqımızı keyfiyyət baxımından yeni tarixi müstəviyə çıxarmış 44 günlük Vətən müharibəsinin xronikasını nəzərdən keçirdikcə, biz onun hər bir səhifəsində Heydər Əliyev dühasının şah əsəri olan milli dövlətçiliyimizin yenilməz gücünü və qüdrətini görürük.

Azərbaycan xalqının milli-mədəni və sosial-iqtisadi dirçəlişi hələ XX əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində Heydər Əliyevin Azərbaycan birinci rəhbərliyi dövründə başlamışdır. [1]. 1990-cı ilin 20 iyul tarixində, ölkəmizdə misli görünməmiş təlatümlü hadisələrin baş verdiyi və olduqca ciddi təhlükənin olduğu bir dövrdə Ulu öndərin Moskvadan Vətənə qayıtması Azərbaycan naminə bütün sınaqlara hazır olması isə tarixi zərurətin diqtəsi kimi qiymətləndirilməslidir [2].

Heydər Əliyev dühasının nəticəsi olan möhtəşəm yaradıcılıq aktının pik nöqtəsi Ulu öndərin Azərbaycana ikinci rəhbərliyi dövründə xalqın yeni dirçəlişi və tərəqqisi oldu. Bu xidmətlərinə görə Heydər Əliyev "Ümummilli lider" statusuna, dahilik kürsüsünə, əbədiyyət məqamına yüksəldi. O, hələ sağlığında özünün möhtəşəm heykəlini öz əlləri və əməllərilə ucaltdı. Gücünü və enerjisini sərf etdiyi milli toplum isə onun xatirəsini daim qəlbində yaşadacaq, onun siyasi kursuna, min bir əzab-əziyyətlə qurduğu dövlətə, ərsəyə gətirdiyi iqtisadi, siyasi və mədəni ənənələrə sadiq qalacaq. Ulu öndərin rəhbərliyi altında 1993-2003-cü illərdə görülən böyük və sistemli tədbirlər sayəsində ölkə qarşısında duran tarixi vəzifələr uğurla icra olundu. Azərbaycan Respublikası müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi sürətlə inkişaf etməyə başladı. Xalqımızın və dövlətimizin bugünkü uğurları, ölkəmizdə hökm sürən dayanıqlı sabitlik və firavanlıq, məhz Ulu öndər Heydər Əliyevin tarixi qayıdışının, Azərbaycan naminə bütün gücünü, enerjisini və istedadını sərf etməsinin məntiqi nəticəsidir [3]. Bu gün Heydər Əliyevin çox mükəmməl dövlətçilik strategiyasının yaradıcı gücü öz töhfəsini verib. Güclü iqtisadiyyat, müasir silahlarla təchiz olunmuş, mükəmməl döyüş taktikasına əsaslanan güclü ordu, sarsılmaz siyasi iradə sahibi olan milli lider, öz liderinə bütün varlığı ilə sadiq olan xalq və onun möhkəm həmrəyliyi müasir dünya tarixində və siyasətində müvafiq korrektivlər etdi. Azərbaycan Prezidenti İlham Əliyevin timsalında dünya şöhrətli dövlət başçısının mütərəqqi

əməllərini, onun sərkərdəlik bacarığını, siyasi istedadını və diplomatik qabiliyyətini müşahidə edən müasir dünya bu dəyərlərin və nailiyyətlərin hansı tükənməz mənbədən qidalandığını görür.

Ulu öndər Heydər Əliyev üçün Qarabağa qayıdış prioritet təşkil edirdi. Onun ən böyük arzusu yenidən Qarabağı, onun incisi Şuşanı, işğal edilmiş rayonlarımızın azad edilməsi idi. Heydər Əliyev Qarabağın azadlığı uğrunda gedən Vətən müharibəsini, xalqımızın həmrəyliyini və monolit birliyini görməsə də, onun arzularını və hədəflərini layiqli varisi - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev reallaşdırdı. İlham Əliyev "Qarabağ Azərbaycandır!" şüarı ilə milli birliyimizi, həmrəyliyimizi daha da möhkəmləndirdi, haqqı və ədaləti bərpa etdi, bütün beynəlxalq təşkilatların 30 ildə görə bilmədiyi işi 44 gündə reallığa çevirdi. Hər bir azərbaycanlının sınmış qürurunu özünə qaytardı.

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" adı altında başlanmış 44 günlük Vətən müharibəsi XXI əsr Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. İdeoloji və əxlaqi-mənəvi baxımdan şərəf məsələsi olan bu hadisə milli kimliyimizi və planetar miqyasda taleyimizi diametral şəkildə dəyişərək bizi nüfuzlu, iradəli və qətiyyətli söz sahibi olan etnik-siyasi subyektə və hərbi güc faktoruna çevirdi. Xalqımızın və müstəqil dövlətimizin qürur mənbəyi olan möhtəşəm Qələbəmiz isə əsrlərin və minilliklərin ağır sınaqlarından keçərək formalaşan etnik-milli kimliyimizin və milli mentalitetimizin əzəmətli obrazını bütün dünyaya nümayiş etdirdi.

2020-ci il sentyabrın 27-də dünya ictimaiyyəti torpaq uğrunda son damla qanınadək mücadilə etməyə hazır olan, Vətənin varlığı və bütövlüyü naminə öz həyatını belə əsirgəməyən qəhrəman bir xalqın başladığı ədalət mücadiləsinin şahidi oldu. Hər növbəti gün qazanılan və Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük təntənə ilə elan edilən hər bir qələbə müjdəsi Azərbaycan xalqının "Qalib" və "Müzəffər" imicini formalaşdırdı, onun öz əli ilə yaratdığı böyük qəhrəmanlıq abidəsinə yeni kərpiclər qoydu. Bu zaman dünya ədalətsizliyə qəti şəkildə "yox" deyən fədakar bir xalqın cəmi 44 gün davam edən və parlaq qələbə ilə yekunlaşan haqq mücadiləsini heyrət dolu heyranlıqla seyr edirdi. 2020-ci ilin bazar gününə açılan 27 sentyabr səhəri milli taleyimizin dönüş nöqtəsi oldu və dünyadan küsmüş milli qururumuzu, 30 il ərzində tapdalanan haqqımızı və şərəfimizi özümüzə qaytardı. Bununla da onilliklər ərzində ictimai-siyasi şüurmuzda dərin kök salmış bütün stereotiplər qəti şəkildə sındırıldı.

Xalqımız haqq savaşında Möhtəşəm Qələbə qazandıqdan sonra regionda geosiyasi və hərbi-siyasi vəziyyət kəskin şəkildə dəyişdi. İndi bütün mövcud üsullarla aparılan qlobal siyasi oyunlarda Azərbaycan öz şərtlərini israrla diqtə edir. Haqqı və hüququ naminə hər hansı güzəştə getmir və geri addım atmır. Bu isə bizim siyasi şüurumuzun möhkəm əqidəyə çevrilmiş prinsipi kimi təzahür edir. Öz çirkin məqsədlərinə çatmaq üçün bütün mümkün üsullara əl atan müharibə partiyasının mövqeyi və məramı isə tamam başqadır. Lakin müharibə ritorikası ilə çıxış edən qüvvələr unutmamalıdır ki, Böyük Qələbəni dadmış müzəffər Azərbaycan əsgəri, Azərbaycan xalqı və cənab İlham Əliyevin timsalında Azərbaycan lideri istər sülh, istərsə də müharibə yolu ilə bütün problemləri həll etməyə həmişə qadirdir.

2020-ci il sentyabrın 27-də düşmənə qarşı haqq mücadiləsində ordumuzun qazandığı Böyük Qələbə Azərbaycanın ərazi bütövlüyünü bərqərar etməklə yanaşı, həm də xalqımızı minillik tarixi irsinə qovuşdurdu. Azərbaycanın çoxəsrlik tarixi Qarabağdan - Azıxdan, Tağlardan, Köndələnçay, Quruaçyay, Xocalı mədəniyyətlərindən başlayır. Lakin 30 il idi ki, tariximizin və mədəniyyətimizin beşiyi sayılan bu ərazilər düşmənə əsir düşmüşdü. Xalq, ordu və lider birliyi isə Qarabağda və Şərqi Zəngəzurda ədaləti bərpa edərək oğurlanmış yurdları öz sahiblərinə qaytardı. Sönmüş ocaqlarımız yenidən alovlandı, qərib düşmüş ellərimiz yenidən nura qərq oldu.

44 günlük Vətən müharibəsində Azərbaycan xalqı müzəffər Ali Baş Komandanının ətrafında sıx birləşərək düşmənin Qarabağla bağlı çoxəsrlik çirkin iddialarına tarixi bir nöqtə qoydu. Qarabağ Azərbaycandır! ifadəsi Azərbaycan milli istiqlalının canlı və alovlu simvoluna, xalqın ictimai-siyasi aktivliyinin ideoloji loqotipinə çevrildi. Tarixi yaddaşı qəhrəmanlıq dastanları ilə toxunmuş, igidlik və şərəf kodeksini bütün dinlərdən və məzhəblərdən üstün tutan bir xalq tarixinin beşiyi sayılan Qarabağı yurdsuz və imansız bir qəbiləyə, qorxaq və şərəfsiz bir düşmənə vermədi. İndi artıq milli tariximizi öyrənən gənc nəsil Qarabağı misilsiz abidələri və əsrarəngiz təbiəti ilə birlikdə xəritələrdə

və təsvirlərdə deyil, canlı şəkildə görür, qədim bir mədəniyyətin qanuni xələfi olmasından, təmsil etdiyi qəhrəman xalqın böyük tarixi əməllərindən sonsuz qürur duyur, milli tariximizi vəhşicəsinə yağmalamış, müqqəddəs ocaqlarımızı ələ keçirmiş və dağıtmış düşmənlərin övladlarının və onların havadarlarının üzünə dik baxır. 2020-ci il sentyabrın 27-də başlanan mücadiləmizin şərəf məsələsi sayılan əsl mahiyyəti də elə budur. Bu gün qanuni sərhədlərində bərpa olunmuş Azərbaycan hər bir vətənsevər azərbaycanlıya qürur hissi yaşadan müqəddəs dəyərdir.

44 günlük Vətən müharibəsinin Böyük Zəfərlə başa çatmasını şərtləndirən çox sayda mühüm amillər var: xalqı yumruq kimi birləşdirməyə qadir olan uzaqgörən, müdrik və cəsur lider, toplumun milli ruhunun misli görünməmiş yüksək səviyyəyə çatması və istiqlal ideallarına sarsılmaz sədaqəti, "Ya Qarabağ ya ölüm" çağırışının reallıqda ruhani və mənəvi tələbata çevrilməsi, ən müasir üslubda hibrid müharibənin tələblərinə tam cavab verən, ən yeni silahlarla və texnologiyalarla təchiz olunan yüksək döyüş qabiliyyətli milli ordu, bu orduya komandanlıq edən savadlı generallar, xüsusi təlim keçmiş hərbi birləşmələr, ağıllı, cəsur və istedadlı komandanlar, qardaş Türkiyənin, Pakistanın və İsrailin ideoloji, psixoloji, diplomatik və hərbi-siyasi dəstəyi, nəhayət, ən başlıcası – mücəhidliyə və şəhidliyə hazır olan Azərbaycan əsgərinin timsalında milli insan faktoru. Bütün bu amillərdən başqa daha bir samballı və mühüm amil var: tarixi zərurəti mütləq şəkildə bəşəri ədalətə çevirən, Böyük Yaradanın diqtəsi altında baş verən, yalanın, zorakılığın, şərin və insanlığa qarşı cinayətin, bir sözlə, bütün pisliklərin üzərindən qalın və qara xətt çəkən, bununla da qoca dünyanın sarsılmaz sütunlarını təşkil edən ilahi həqiqət. O, bütün hallarda haqqın və bəşəri ədalətin tərəfindədir.

2020-ci il sentyabrın 27-də xalqımızın qətiyyətlə başladığı ədalət mücadiləsi xalqın, dövlətin, milli liderin bütün dünyanın gözü qarşısında verdiyi şərəf imtahanı və Heydər Əliyev ideyalarının ərsəyə gətirdiyi "Yeni Azərbaycan"ın sarsıdıcı gücünün nümayişi idi. Sentyabr ayının 27-si səhər 06.00. radələrində erməni mövqelərinə açılan ilk top atəşlərindən tutmuş noyabrın 10-da düşmənin rüsvayçı kapitulyasiyasına qədər hər bir məqam hər bir azərbaycanlının fərdi dünyasını dəyişməklə yanaşı, onun mənsubu olduğu dövlətə, bu dövləti ərsəyə gətirmiş Ulu öndərin müdrik siyasətinə, düşmənlərə göz dağı verən milli liderinə inamını və məhəbbətini də fövqəladə şəkildə artırdı.

2020-ci il sentybar ayının 27-də erməni həyasızlığına tuşlanmış top mərmilərinin çağırışı ilə Azərbaycanın yüksək döyüş qabiliyyətli hərb maşınının və şəhidliyə hazır olan cəsur Azərbaycan əsgərinin qəti şəkildə hərəkətə keçməsi regionda və dünyada mövcud problemlərin və haqsızlıqların radikal həllini nəzərdə tutan yeni bir eranın başlanğıcı oldu. Sentyabrın 27-də başladığımız azadlıq mücadiləmizin bir vacib siyasi-ideoloji nəticəsi də şişirdilmiş erməni mifinin darmadağın edilməsi oldu. Üzdəniraq "Böyük Ermənistan" xülyası ilə yaşayan, fərari Tiqranla, şərəfsiz Anaitlə və körpə qatili Zoru Balayanla öyünən, başkəsən M.Melkonyana, faşist Q.Njdeyə abidələr ucaldan, Xocalıda silahsız insanlara isgəncələr verməkdən, Azərbaycan şəhərlərini və kəndlərini vandalizm üslubunda xarabazarlığa çevirməkdən sadistcəsinə zövq alan və "Ohanyan xətti"ni, az qala Böyük Çin səddi qədər keçilməz elan edən xəstə təxəyyülü bir toplumun saxta mahiyyətini bütün mütərəqqi dünyaya açıb göstərdi. Erməninin Şərqdə və Qərbdə havadarlarına arxalanaraq "Məğrur Qurda" diş qıcıyan "qorxaq çaqqal" imici, onun kütlə xarakteri və yalnız mağara səviyyəsində düşünmək bacarığı ortaya çıxdı.

Azərbaycan xalqının hərb tarixinin ən şanlı səhifələrindən biri sayılan II Qarbağ müharibəsi öz miqyasına, xarakterinə və nəticələrinə görə, "Vətən müharibəsi" kimi xarakterizə olunur. "Dəmir yumruq" əməliyyatı adı ilə başlanmış bu irimiqyaslı hərbi əməliyyatın əsas məqsədi 1988-1994-cü illərdə I Qarabağ müharibəsi zamanı Erməni Silahlı Qüvvələri tərəfindən Dağlıq Qarbağda və onun ətrafında zəbt edilmiş Azərbaycan torpaqlarının azad olunmasından ibarət idi. 1994-cü il may ayının 12-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində "Bişkek protokoluna" əsasən atəşkəs əldə olunmasından sonra münaqişə "dondurulmuş" münaqişə qismində 26 il davam etmişdir. 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə erməni işğalçılarının atəşkəsi pozması nəticəsində Dağlıq Qarabağ münaqişəsi yenidən aktiv fazaya keçmiş və dörd gün davam edən şiddətli döyüşlər zamanı Azərbaycan Respublikası Silahlı Qüvvələri Tərtər rayonunun Seysulan və Talış kəndlərini, burada yerləşən bir sıra mühüm strateji yüksəklikləri, həmçinin Cəbrayıl rayonunda Lələtəpə yüksəkliyini, Cocuqmərcanlı kəndini, Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Suqovuşan (Madagiz) və Qazaxlar kəndləri istiqamətində yolları düşmən işğalından

azad etmişdi. Ümumilikdə 2 min hektar ərazi erməni işğalçılarından təmizlənmişdi. Rusiya Federasiyasının və ermənilərə havadarlıq edən digər dünya güclərinin "fəal şəkildə prosesə qarışmasından" sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hücumu dayandırılmış və 2016-cı il aprel ayının 5-də atəşkəs haqqında yeni müqavilə imzalanmışdı. Buna baxmayaraq, erməni tərəfi öz təcavüzkar və nadürüst xislətinə sadiq qalaraq atəşkəsi dəfələrlə pozmuşdu.

2020-ci il iyulun 12-də Tovuz rayonu istiqamətində Azərbaycan Respublikasının sərhədyanı məntəqələri iriçaplı silahlardan və toplardan atəşə tutuldu. İyul ayının 17-ə qədər davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin on iki hərbiçisi həlak oldu, 4 hərbiçisi isə yaralandı. Kəşfiyyat məlumatlarından məlum oldu ki, Ermənistan tərəfi Azərbaycan torpaqlarının ələ keçirilməsi istiqamətində yeni hərbi planlar hazırlayır. Bundan sonra Azərbacan tərəfi təşəbbüsü ələ aldı. 2020-ci il sentyabr ayının 27-də Ermənistan Silahlı Qüvvələrinin növbəti təxribatından sonra Tərtər, Cəbrayıl və Füzuli rayonları istiqamətində iriqyaslı hərbi əməliyyatlara başladı. Beləliklə, Azərbaycanın hərb tarixinə "44 günlük savaş" kimi daxil olan Vətən müharibəsi başlandı.

Ermənilər işğal etdikləri ərazilərdə 30 il ərzində "Ohanyan xətti" adlandırdıqları istehkamlar qurmuşdu. Azərbaycan ordusu ciddi itkilərdən qaçmaq və qısa müddət ərzində düşmən müdafiəsini cinahlardan yarmaq məqsədi ilə "Hilal taktikasını" tətbiq etdi. Hərbi əməliyyatlara 100 min nəfərlik hərbi kontingent cəlb edilmişdi. Ən müasir silahlarla (özüyeriyən artilleriya qurğuları, Türkiyədə, İsraildə, Pakistanda və Azərbaycanda istehsal olunan pilotsuz uçan aparatlar – Bayraktar, İtiqovan, Harop, İsrail istehsalı hava hücumundan müdafiə qurguları "Dəmir qübbə") silahlanmış Azərbaycan ordusu qısa müddət ərzində Ermənistan ordusuna sarsıdıcı zərbə vuraraq bir-birinin ardınca işğal altında olan əraziləri azad etməyə başladı. Beləliklə, 03.10.2020-ci il tarixdə Suqovuşan qəsəbəsi, 04.10.2020-ci il tarixdə Cəbrayıl, 17.10.2020-ci il tarixdə Füzuli, 20.10-2020-ci il tarixdə Zəngilan,

25.10.2020-ci il tarixdə Qubadlı, 08.11.2020-ci il tarixdə isə Şuşa işğaldan azad olundu. Demoralizə olunmuş düşmən ordusu böyük itkilər verərək mövqelərini, hərbi texnikanı və yaralanmış və məhv edilmiş əsgərlərin cəsədlərini döyüş meydanında qoyaraq qaçmağa başladılar. Şuşa şəhərinin azad edilməsi isə dünyanın hərb tarixinə misli görünməmiş rəşadət nümunəsi, insan qüररunun təntənəsi və vətənə məhəbbətin ali təzahürü kimi daxil oldu. Erməni rəhbərliyi və erməni komandanlığı bütün çirkin üsullardan istifadə edərək Azərbaycan xalqının döyüşkənlik ruhunu, qələbəyə olan ümidlərini sındırmağa çalışır, dinc əhalini, sivil və strateji əhəmiyyət kəsb edən obyektləri qadağan olunmuş silahlarla, "Smerç", "Toçka-U" və s. tipli ballistik raketlərlə, kasetli bombalarla, xlor qarışığı olan kimyəvi silahlarla atəşə tutdu. Lakin nə bu, nə də digər çirkin tədbirlər Azərbaycan xalqının qələbə əzmini və iradəsini sındıra bilmədi. Azərbaycan Respublikasının Müzəffər ordusu və Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, İlham Əliyevin rəhbərliyi altında xalqımız Vətən naminə sıx birləşdi və düşmənə sarsıdıcı zərbələr vuraraq torpaqlarımızı işğaldan azad etdi. Diz çökdürülən düşmən müharibə başlayandan 43 gün sonra 9 noyabr 2020-ci il tarixində təslim oldu və rüsvayçı kapitulyasiya aktı imzalamağa məcbur oldu. Təslim olmaq haqqında razılaşmaya görə, Azərbaycan əsgərindən ölümcül zərbə almış mənfur düşmən noyabrın 20-də Ağdamdan, 25-də Kəlbəcərdən, 01 dekabrda isə Laçından qovuldu. Bundan sonra münaqişə diplomatik müstəviyə keçdi. Laçın dəhlizində 10 noyabr 2020-ci il tarixdən 1660 nəfərdən ibarət Rusiya sülhməramlılarının məhdud kontingenti yerləşdirildi.

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərininin erməni işğalçılarından azad edilməsi uğrunda apardığı döyüş dünyaının hərb tarixində nadir əməliyyatlardan biri sayılır. Şuşa və ətrafındakı dağlıq ərazi Qarabağ bölgəsindəki ən əhəmiyyətli yerlərdən biridir. Bölgənin "döyünən ürəyi" adlandırılan Şuşa şəhəri XIX yüzilin ortalarına qədər regionda yaşayan azərbaycanlı əhalinin mədəni və siyasi mərkəzi sayılırdı. Şuşa şəhəri 1992 ci il mayın 8-də Birinci Qarabağ müharibəsi zamanı Erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş və azərbaycanlılardan ibarət olan şəhər əhalisi məcburi köçkünə çevrilmişdir. Həm ərazi, həm də nəqliyyat vasitələri üçün uyğun olmadığından Azərbaycan hərbi qüvvələri beş gün Şuşa istiqamətində piyada hərəkət etməli oldu. Daha sonra Azərbaycan ordusunun baş komandanlığı miqyasına, planına və ardıcıllığına görə misli görünməmiş qərar verdi və Şuşa şəhərinə sıx Qarabağ meşələrindən yeni yollar açıldı. Böyük

Tağlardan meşələrlə Şuşaya, Çanaqçı və Sığnax kəndlərinə doğru 3 gün ərzində 42 km uzunluğunda yol qət edildi. Bununla da mühəndis-istehkamçılar ensiz dağ cığırını texnikanın hərəkət edə biləcəyi meşə yoluna çevirdi. Nəticədə, Azərbaycan bölmələri artilleriya qurğularını Çanaqçı ətrafına çəkə bilmişdi. Noyabrın 4-də döyüşlər artıq Şuşa yaxınlığında gedirdi. Azərbaycan qüvvələri Şuşa-Laçın yolunun bir hissəsinin nəzarət altına alaraq Ermənistandan qoşun hissələrinin gəlməsinə mane oldu. Bu dövrdə Rusiya mətbuatı Azərbaycan döyüşçülərinin şəhəri üç tərəfdən - cənub, qərb və şərqdən mühasirəyə almasını yazmışdı. Artıq noyabr ayının 7-də Azərbaycanın mərd oğulları şəhərə daxil oldu. Bir dəstə Ermənistandan əlavə qüvvələr gəlməsin deyə, Laçın yolunu nəzarətə götürdü. Başqa bir dəstə Daşaltını işğaldan azad etdikdən sonra Şuşaya daxil olan qüvvələri atəş dəstəyi ilə təmin etdi. Yüngül silah-sursatla təshiz edilmiş və hərəsi 100 nəfərdən ibarət dörd qrupa bölünmüş 400 nəfərlik Azərbaycan Xüsusi Təyinatlıları Şuşanın sıldırımlı dağlarına kəndirlərlə dırmaşaraq səhər saatlarında şəhərə 4 tərəfdən daxil oldular və şəhərdə dərhal əlbəyaxa döyüşlər başlandı. Ermənistan qüvvələri artıq günortadan sonra şəhərdən qovuldu və şəhər tamamilə Azərbaycan döyüşçülərinin tam nəzarəti altına keçdi. Noyabrın 8-də Şuşanın bütün ətarfı işğalçılardan təmizləndi. Beləliklə, 8 noyabr 2020-ci il tarixi Şuşanın 28 ildən sonra erməni işğalçılarından azad edildiyi gün kimi tarixə düşdü. 8 noyabr 2020-ci il tarixində Prezident İlham Əliyev Şəhidlər Xiyabanına gələrək orada Şuşa şəhərinin erməni işğalçılarından azad edildiyini elan etdi: "Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa sən azadsan! Əziz Şuşa biz qaytmışıq! Əziz Şuşa biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

2020-ci il dekabrın 10-da 44 günlük Vətən müharibəsində əldə etdiyi Böyük Qələbəyə həsr edilmiş hərbi parad müasir tariximizin daha bir möhtəşəm hadisəsi oldu. Bu parad Heydər Əliyev ideyalarının 27 il ərzində qazandığı qələbələrinin paradı idi. Qələbə Paradındakı hər bir məqamda - prezidentlərin çıxışında, mərasimin hər bir təşkilati elementində, əsgərlərin yerişində, komandirlərin məruzəsində, hərbi nəğmələrdə, Bakı havasında, Azadlıq meydanın möhtəşəm aurasında, insanların sevinc dolu çöhrələrində Heydər Əliyev dühasının ən parlaq cizgiləri görünürdü. Qalib Azərbaycan xalqını, onun dostlarını sevindirən, düşmənlərinin gözünü kor edən bu möhtəşəm mənzərə Heydər Əliyev qüdrətinin təntənəsi idi. İnanılmaz bir nağıl kimi çox böyük qürur hissi və ruh yüksəkliyi ilə izlədiyimiz bu qalibiyyət aktında reallığa çevrilmiş Azərbaycan arzusu bütün möhtəşəmliyi ilə canlı təcəssüm olunurdu.

Bu gün cərəyan edən qlobal və regional miqyaslı hadisə və proseslərə nəzər yetirəndə dünya miqyasında total dəyişikliklərin getdiyini, yeni dünya nizamının qurulduğunu, müasir bəşəriyyətin Kainat miqyaslı bir imtahan qarşısında olduğunu açıq-aşkar görmək olar. Bu nizamda, bu imtahanda daim yenilənən, bütün tarixi stereotiplərdən azad olan Azərbaycanın özəl yeri, nüfuzu və çəkisi var. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycan Müzəffər liderimiz - cənab İlham Əliyevin rəhbərliyi altında böyük yeniliklərə və tərəqqiyə əsaslanan müasir dünyanın inşasını reallaşdırmaqda davam edir.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev: biblioqrafiya / Layihə rəhbəri: Ə.Qarayev; tərt. ed.: M.Vəliyeva, M. İbrahimova, A. Hüseynova; elmi red. K.Tahirov; red. G. Səfərəliyeva. - Bakı, 2018. - 340 s. - S. 23-24

2. Heydər Əliyev. Elektron Sənədlər Toplusu. Abdullayev M. Tarixi qayıdış... 33 il öncə bu gün - 1990-ci il 22 iyul. Yeni Azərbaycan. - 2023. - 22 iyul. - № 128. - S. 5

3. Müstəqillik yollarında. Bakı, "Şərq-Qərb" nəşriyyatı. 2016. - 628 s. - S. 12

4. Душенко К.В. Момент истины // Цитата в пространстве культуры из истории цитат и крылатых слов / Ответственный редактор: О.В. Кулешова. - Теория и история культуры. - Институт научной информации по общественным наукам РАН, 2019. - С. 252

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ÖYRƏNİLMƏSİNDƏ, QORUNUB SAXLANMASINDA VƏ İNKİŞAF ETDİRİLMƏSİNDƏKİ MİSİLSİZ ROLU

Xəyalə Rəmiyəddin qızı Abdullayeva
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
xayala.abdullayeva@mdu.edu.az

Milli-mənəvi dəyərlər və azərbaycançılıq - bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Dövlət müstəqilliyini bərpa edərək, xalqımız keçmişin bütün buxovlarından azad olduqdan sonra, əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev ilk gündən inkişafa mane olan ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və Öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. [1]

Ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Ulu öndər Heydər Əliyev Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan görkəmli dövlət xadimi, müdrik şəxsiyyət kimi O, hələ ötən əsrin 70-ci illərində yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yolgöstərəni və bələdçisidir. [5]

Milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. Ümummilli lider nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbr və təmkinlə həyata keçirtdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" - deyən Ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Hələ keçmiş sovetlər dönəmində tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında Sərəncam imzaladı. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirildi. İti fəhmi, intuisiyası ilə gələcək müstəqilliyi duyub-hiss edən Heydər Əliyev o illərdə milli-mənəvi intibah üçün möhkəm zəmin hazırlayırdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi rəhbərliyə gələn Heydər Əliyev həyata keçirdiyi dövlət quruculuğu prosesi ilə paralel surətdə mədəni-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərinə başladı. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Heydər Əliyev hər il qədim milli bayramımız olan

Novruzda əhali ilə bayramlaşmağa çıxır, azad və müstəqil xalqımızın Novruz sevinclərindən xüsusi zövq alırdı. Heydər Əliyev bu tədbirləri təkcə Azərbaycan yox, bütün türk dünyası miqyasında həyata keçirirdi. Ortaq türk mədəniyyəti və mənəviyyatının öyrənilib təbliğ edilməsi, keçmişdən gələcəyə ötürülməsi yönündə müstəsna xidmətlər göstərirdi. Qırğızların "Manas" eposunun 1000 illik yubileyində iştirak və çıxış edən Heydər Əliyev bütün türk dünyası üçün əvəzedilməz müdrik bir şəxsiyyət olduğunu bir daha sübut etdi.

Milli müstəqilliyin ilk illərində Azərbaycan cəmiyyəti üçün həyatın bütün sahələrində olduğu kimi, din sahəsində də müəyyən pərakəndəlik səciyyəvi idi, 70 illik sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə çox iş görülmüşdü. İfrat dərəcədə ideolojiləşdirilmiş stereotiplər bütövlüklə materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sistemi yaradılmasına yönəldilmişdi. Erməni təcavüzü nəticəsində ölkə ərazisinin böyük bir hissəsinin işğal edilməsi, bir milyonluq qaçqın və köçkünlər ordusunun yaranması ilə bağlı sosial gərginlik şəraitində bu hal, həqiqətən, cəmiyyətimizin, xalqımızın gələcəyi, onun müasir millətlər toplusuna daxil olması yolunda ciddi əngəllər törədirdi.[4]

Ümummilli lider Heydər Əliyev respublikada yenidən hakimiyyətə qayıdanda cəmiyyətin dinə bağlı durumu belə mürəkkəb və ziddiyyətli idi. Bu cür çətin şəraitdən yalnız yüksək dövlətçilik təcrübəsi olan bir şəxs baş çıxara, vəziyyəti düzgün qiymətləndirib dönüş yarada bilərdi. Yalnız Heydər Əliyev Öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini inzibatçılığa yol vermədən, məqbul beynəlxalq standartlara müvafiq şəkildə öz təbii məcrasına qaytara bilər, dövlətin strateji xəttinə əsasən tənzim edə bilərdi. İlk növbədə, din-dövlət münasibətlərində yaranmış uçurum aradan götürülməli, qarşılıqlı inam bərpa olunmalı idi və dövlətin antidin, ateist siyasəti yeritməməsinə insanları inandırmaq, dinin, həqiqətən də, milli-mənəvi dəyərlərdə yerini müəyyən etmək tələb olunurdu. Bu, asan və tezliklə həyata keçirilməsi mümkün olan iş deyildi. Yəqin ki, hər şeydən əvvəl vəziyyətdə köklü dəyişiklik yaratmaq üçün problemə münasibət bildirməklə yanaşı, qanuni zəmin hazırlamaq lazım idi. Bu məqsədlə "Dini etiqad azadığı haqqında" Azərbaycan Respubikası Qanununda müəyyən dəyişikliklər edildi, bəzi maddələr ləğv, bəzisinə isə əlavələr edildi. [3]

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Prezidenti İlham Əliyev regionda cərəyan edən proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilmişdir. Bu gün Prezident İlham Əliyevi, eyni zamanda, Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Dövlətçilik hisslərinə malik olmadan xalq milli dövlətini inkişaf etdirə bilməz. Tarix boyu ölkəmizdə bütün xalqların və dinlərin nümayəndələrini həmişə dostluq, qardaşlıq münasibətləri birləşdirib. Ayrı-ayrı etiqad və inanclara malik insanların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında xalqımıza xas olan mədəni və mənəvi dəyərlər müstəsna rol oynayıb. İndi də Azərbaycanda müxtəlif dini və etnik qruplar sülh şəraitində birgə yaşayırlar və tarixən tolerant cəmiyyətin bərqərar olması burada məskunlaşmış azsaylı xalq və etnik qrupların öz varlığını qoruyub saxlamasına əlverişli mühit yaradıb.

Dünyanın inkişaf etmiş ölkələri inkişafın bu həddində belə tolerantlıq anlayışını mədəniyyətlərinə daxil edə bilmir, dini zəmində qarşıdurmalarla tez-tez rastlaşırlar. Lakin Azərbaycan Respublikasının bu istiqamətdə apardığı siyasət bu kimi dövlətlərə nümunə ola bilər. Hətta bir çox konfranslarda xarici mütəxəssislər bu işin necə təşkil olunmasının öyrənilməsi ilə də məşğul olduqlarını ifadə etmişdilər. Multukulturalizm anlayışını bəzi Avropa ölkələri qəbul etmirlər. Buna səbəb isə bu ölkələrin həmin ərazilərdə yaşayan xalqların mədəniyyətinə önəm verməmələri, onların özlərinin vahid mədəniyyətinə tabe olmalarını tələb etmələridir. Lakin humanizm ideyalarının, insan hüquqlarının qorunduğu bu əsrdə istər böyük, istərsə də kiçik xalqların mədəni mövqeyinə hörmətlə yanaşmaq dövlətin siyasətinin əsasını təşkil etməlidir. Azərbaycan ərazisində yaşayan ən xırda xalqların belə hüquqları qorunmuş, onlara qanun çərçivəsində azadlıq verilmişdir. Öz mədəniyyətlərini inkişaf etdirmək üçün teatr binaları, dillərinin

qorunması üçün məktəblər və mətbu orqanlar yaradılmış, eyni zamanda, dini etiqadlarına hörmətlə yanaşılaraq ibadətgahlar tikilmişdir.

Bu cür etnik və dini zənginliyə malik Azərbaycan hər sıravi vətəndaşına qucaq açaraq onların hər birinə bərabər şərait və hüquqlar təmin edir. Fərqli dinlərin nümayəndələri hər zaman həmrəy olaraq vətənin azadlığı və firavanlığı uğrunda çalışıb, yeri gələndə silaha sarılaraq Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda vuruşublar. Ana vətən üçün canını fəda vermiş belə vətəndaşların anım yeri - Şəhidlər xiyabanı qardaşlıq və vəhdət simvoludur. Azərbaycan Respublikası Konstitusiyasına əsasən, demokratik, hüquqi və dünyəvi dövlətdir. Azərbaycan bütün dini etiqadlara qarşı pozitiv sekulyarizm modelini tətbiq edir. Belə ki, dövlət dinə qayğı və dəstək göstərərək tolerantlığı din siyasətinin əsası və tərkib hissəsi kimi həyata keçirir. Konstitusiyada tolerantlığın qorunması üçün xüsusi maddə də əks olunub. Belə ki, qanunun 18-ci maddəsinin I bəndində göstərilir ki, "bütün dini etiqadlar qanun qarşısında bərabərdir". 48-ci maddədə isə Azərbaycanda yaşayan hər kəsin vicdan azadlığı, ictimai qaydanı pozmayan, yaxud ictimai əxlaqa zidd olmayan dini mərasimlərin yerinə yetirilməsinin sərbəstliyi təsbit olunur.

Konstitusiya ilə qorunan bu hüquqlardan yararlanaraq Azərbaycanın hər bir vətəndaşı öz dini inancını, sosial fəaliyyətini rahat şəkildə yerinə yetirə bilir. Çünki əgər tolerantlıq avropalı üçün hüquqi bir vəzifədirsə, azərbaycanlı üçün mənəvi məsələdir. Bu gün ölkədə hökm sürən ictimai sabitlik, vətəndaş həmrəyliyi, etnik və dini tolerantlıq milli siyasətin məntiqi nəticəsidir. Əgər Azərbaycanın tarixinə nəzər salsaq, görərik ki, burada heç vaxt milli və dini zəmində ayrı-seçkilik və ya qarşıdurma baş verməyib, bunun tam əksi, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli, mədəni və dini münasibətlər mövcud olub və olmaqda davam edir. Müstəqilliyinin ilk dövrlərində dünyada gedən dinlərarası və mədəniyyətlərarası dialoq prosesinin aktiv iştirakçısı olan Azərbaycan bu gün, demək olar ki, bu prosesin hərəkətverici qüvvəsinə çevrilib. Bunun məntiqi nəticəsidir ki, tarixən formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanların birgə mehriban yaşadığı bir ölkə, Şərqlə Qərb, Qərblə İslam dünyası arasında bir körpü olaraq mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük önəm verir. Multikulturalizmin əsasında müxtəlif millətlərdən olan insanların hər bir şəxsiyyətə hörmət qoyaraq, qanunlar əsasında birgə yaşama ideyası dayanır. Bu zaman mədəni, dini, etnik və digər xüsusiyyətlərə zərər dəyməməlidir. Əsl multikulturalizmin hökm sürdüyü cəmiyyətə nail olmağın vasitələri tolerantlıq, qanunlara və bir-birinin azadlığına hörmət təşkil edir. [2]

Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şərait yaradılmışdır. Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra ölkəmizdə multikulturalizm ənənələrinin güclənməsinə dövlət dəstəyi formalaşıb və bu siyasət ildən-ilə daha da güclənir. Azərbaycan multikulturalizm cəhətdən dünyaya nümunə olan bir ölkəyə çevrilmişdir. Azərbaycanda multikulturalizm dövlət siyasətinə çevrilmişdir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli, çoxkonfessiyalı bir dövlət kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Bu gün Azərbaycanda mədəni, etnik müxtəlifliyin qorunmasına yönələn və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi ənənələri qoruyub saxlamağa və daha da inkişaf etdirməyə yönəlmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev, Sabir. Heydər Əliyevin milli müstəqillik və dövlətçilik ideyalarının gerçəkləşdirilməsində tarixi rolu // Respublika.- 2020.- 12 iyul.- № 134.- S.

2. Quliyeva, Zərifə. Heydər Əliyevin xarici siyasət xətti: Müstəqil Azərbaycanın beynəlxalq aləmdə tanınması // Səs.-2015.-24 aprel.-№ 71.-S.6.

3. Mahmudov, Yaqub. Tariximizin dirçəliş konsepsiyasının müəllifi // Azərbaycan.-2015.-9 may.-№ 99.-S.9.

4. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001, 324 s..Novruz Məmmədov, "Heydər Əliyev və Xarici Siyasətin Azərbaycan Modeli" Xalq qəzeti.- 2010.- 9 may.- S. 5-6.

5. "Azərbaycan Respublikası Prezidentinin mətbuat xidmətinin məlumatı". Respublika qəzetinin saytı (az.). respublica-news.az. 11.05.2003.

HEYDƏR ƏLİYEV ANA DİLİMIZIN QORUYUCUSU KİMİ

[1,2]**Səbinə Bəlohər qızı Novruzova,** [1,3]**Səadət Arif qızı Ağakişiyeva**
[1]Mingəçevir Dövlət Universiteti
[2]sabina.novruzova@mdu.edu.az
[3]filologiya üzrə fəlsəfə doktoru
saadat.aghakishiyeva@mdu.edu.az

Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi inkişafında əhəmiyyətli rolu olan lider idi. O, Azərbaycanın siyasi və iqtisadi baxımdan inkişafını sürətləndirmək üçün strateji planlar hazırlamaq və həyata keçirmək üçün mübarizə aparmışdır. Onun dövründə, Azərbaycan dilinin qorunması ön planda olmuş və ölkənin mədəni əlaqələrinin inkişafına önəmli təsir etmişdir. Heydər Əliyev Azərbaycanın müstəqilliyini qazanmasından sonra ölkənin daxili və xarici məsələlərini idarə etməkdə də ciddi bir lider kimi tanınmışdır. O, xalqı və dövləti birləşdirmək üçün effektiv siyasi strategiyaları tətbiq etmiş və ölkənin müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışmışdır. Onun siyasi metodları və idarəetmə üslubu zaman-zaman müzakirələrə səbəb olmuşdur.

Müasir dövrdə də, Heydər Əliyevin Azərbaycanın siyasi, iqtisadi, mədəni və sosial inkişafında göstərdiyi xidmətlərin izləri davam edir. O, Azərbaycanın xarici münasibətlərinin inkişafına, daxili sülh və sabitliyi təmin etməkdə, dilimizin saflığının qorunub, inkişaf etməsində əhəmiyyətli iz qoyub. Heydər Əliyev, Azərbaycanın ən nüfuzlu siyasi şəxsiyyətidir. O, Azərbaycan dilinin inkişafına və dilimizin qorunmasına hələ Sovet hakimiyyəti illərində başlamışdı. Dil məsələsi onun zamanında da həll edilməli məsələlərdən biri idi. Onun dövründə Azərbaycan dilinin statusu və tədrisi ilə bağlı çox işlər görülmüş və dövrün tələblərinə uyğun olaraq dillə bağlı qərarlar qəbul edilmişdi. Heydər Əliyev, Azərbaycan dilinin inkişafı və mövqeyinin güclənməsi üçün bir çox addımlar ataraq müasir Azərbaycan dilinin inkişafında əhəmiyyətli rol oynamışdır. O, Azərbaycan dilinin təkmilləşməsi, dilin zənginləşməsi, mədəniyyətimizin dəyərlərinin qorunması və dünya miqyasında təbliğ olunması istiqamətində müəyyən siyasətlər həyata keçirib. Əliyev dövründə dilimizə dövlət səviyyəsində diqqət ayırıb, Azərbaycan dilinin inkişafına yönəlmiş dövlət proqramları təşkil edilmiş və dilimizin öyrənilməsi və tədrisinə dair mühüm addımlar atmışdır. Bu zamana aid olan vətəndaşların dil biliyi və dil tədrisinə dair təşkilatlanmış işlər həm də bu prosesin əhəmiyyətini vurğulayır.

Azərbaycan dili, türk dil ailəsinin şərq-qərb qrupuna mənsub olan bir dil olmaqla birlikdə, zəngin bir tarixi və ədəbi irsə sahibdir. Azərbaycan dilinin saflığının qorunub saxlanmasına dahi lider xüsusi önəm vermişdir. Ümummilli liderin təşviqi ilə ümumxalq səsverməsi yolu ilə qəbul olunan 1995-ci ildə Konstitusiyanın 21-ci maddəsində Azərbaycan dilinin dövlət dili olması öz əksini tapmışdı. Bu, dilimizin inkişafı və qorunması üçün əvəzsiz bir addım olmuşdur. Onun kəlamları daim xatırlanacaqdı; " Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm", "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir ", "Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdi, ölməzdir, böyük gələcəyə malikdir." [2] Bu kəlamlar, Azərbaycan dövlətçiliyinə, Azərbaycan dilinə sevgi ideologiyasının təzahürüdür.

Heydər Əliyevə çox gözəl məlum idi ki, xalqın yaratdığı ədəbiyyatı, dili əsrlərin süzgəcindən keçərək bu günümüzə gəlib çıxmışdır. Körpəlik çağlarında anasının dilindən eşitdiyi laylaların, bayatıların, oxşamaların Azərbaycan xalqının qədim tarixə malik olduğunun göstəricisi olduğunu dəfələrlə vurğulamışdı. Dahi lider Ana dilinin, Ana dilində yazılan nümunələrin dəyərini hər zaman

anlamış və gələcək nəsillərə ötürməyə çalışmışdır. Heydər Əliyev həmişə deyərdi: " Xalqın, millətin, insanın dilindən əziz heç nə ola bilməz" [1; 41].

Xalqın tarixi keçmişinin öyrənilməsi üçün əvəzsiz mənbələr olan tarixi qaynaqlarımız, Ana dilimizdə yazıldığı üçün ən müqəddəs kitabələrimiz idi. Azərbaycan dilinin tarixi inkişaf mərhələlərini izləməkdə əvəzsiz rola malik olan yazılı abidələrimiz içərisində ən qədim və möhtəşəmi olan dastanlardan "Dədə Qorqud " un 1300 illik yubileyinin beynəlxalq səviyyədə keçirilməsi üçün verdiyi fərmanı nəzərdən keçirmək kifayət edər. Bütün bunlar Heydər Əliyevin ümumilikdə türk dillərinə qayğısının, diqqətinin bariz nümunəsidir.

Bizim fikrimiz ayrı-ayrı dövrlərdə milli dilimizə, mədəni həyatımıza və mənəviyyatımıza şahid, örnək, qaynağı olan yazılı abidələrimiz şərh, izah etmək deyildir. Xalqımızın ictimai həyatında gedən dəyişiklikləri, hadisələri, həmin qaynaqlar bizə bu gün göstərirsə, ictimai dəyişiklikləri özlərində əks etdirən yazılı kitablar, mətbuat nümunələri də gələcək nəsillərə ötürəcəkdir. Ona görə də, bu gün nə ediriksə, gələcək nəsillər qarşısında borcumuzun ödənilməsi üçün çalışırıq. Heydər Əliyev həyatı, onun "Ana Vətənimiz" Azərbaycanın taleyi ilə bağlı önəmli, uğurlu tarixi fəaliyyəti haqqında yazılan kitablar ancaq ömrünün müəyyən anlarını əks etdirir.

Ulu öndər Heydər Əliyev, dövlətinin inkişaf yolunda, dilimizin inkişafında ən şanlı səhifələrdən birini yazmışdır. Heydər Əliyev obrazı xalqımızın dövlətçilik şüurunun, müasir ictimai-siyasi fikrinin ən bariz təcəssümüdür. Dahi şəxsiyyət milli qürur və iftixar mənbəyimizdir. Onun əziz xatirəsi həmişə uca tutulur və Azərbaycan xalqı ona minnətdarlıqla anır. Bunun bariz nümunəsi 2023-cü ilin "Heydər Əliyev ili" kimi qeyd edilməsi olmuşdur. Onun xalqımıza qoyub getdiyi tarixi izlər bu gündə qorunub saxlanılır və gələcək nəsillərə ötürülür. Heydər Əliyev, Azərbaycanın xilaskarı və lideridir. Onun bizlərə qoyub getdiyi mənəvi dəyərlər gələcək nəsillər üçün dövlətçilik ənənələrinin inkişafında və qorunub saxlanılması üçün önəmli rol oynayır. O, gənclərlə bağlı çıxışında deyirdi: " Siz, əziz gənclər, müstəqil Azərbaycan Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək, müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsınız. Mən buna əminəm..! Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyaya gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına , dövlətinə xidmət etməlidir" [3].

İstifadə edilmiş ədəbiyyat

1. Əlizadə M. Tarixə yaddaş ömür. Bakı, 2002, s 240
2. https://www.adalet.az/az/posts/detail/heyder-eliyev-dil-her-bir-milletin-menliyinin-esasidir-1650527132
3. https://science.gov.az/az/news/open/23477

HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ AZƏRBAYCAN GƏNCLİYİ MƏSƏLƏSİ

Günel Mobil qızı Aslanlı
tarix üzrə fəlsəfə doktoru
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
g.aslanli-85@mail.ru

Müstəqil Azərbaycan Respublikasının siyasi strategiyasının prioritet istiqamətlərindən biri də gənclər məsələsidir. Gənclər siyasəti mürəkkəb, çoxşaxəli münasibətlər sistemidir və bu siyasət ideyalar, konsepsiyalar, prinsiplər, funksiyalar toplusu kimi struktur elementləri, gənclərin sosial inkişafının prioritetləri, əsas istiqamətləri, strategiyaları, taktikaları və s. özündə ehtiva edir.

Ulu öndər Heydər Əliyev uzaqgörənliyi ölkənin sosial dəyişikliklərin mühüm subyekti, eyni zamanda nəhəng innovativ qüvvəsi sayılan gəncləri öncədən dəyərləndirə bilmişdir. Azərbaycan gəncliyinin rifah dolu gələcəyinin təmin edilməsi, gənclərimizin istedadının, potensial imkanlarının

aşkarlanması və tətbiqi sahələrinin genişləndirilməsi, onların bir fərd kimi, bir şəxsiyyət kimi formalaşması üçün lazım olan şəraitin yaradılması Heydər Əliyevin idarəçilik siyasətinin prioritet istiqaməti idi.

Beləki, Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti inteqrativ xarakter daşımalı, ölkənin bütün subyektləri üçün inkişaf strategiyasının hazırlanmasında və həyata keçirilməsində istifadə olunmalı, bununla yanaşı gənclər cəmiyyətin yenilənməsinə maksimum cəlb edilməli idi.

Heydər Əliyev hələ dövlət başçısı səlahiyyətlərini yerinə yetirdiyi bi vaxtda 1993-cü ilin 22 sentyabrında ilk görüşlərindən birini məhz gənclərlə keçirmişdir.

Dahi liderin gənclərlə bağlı yürütmək istədiyi siyasətin əsas qayəsi ölkəmizin gənclərini günün tələblərinə uyğun gələn, gələcəyin çağırışlarına cavab verən, yerli dəyərlərə həssas yanaşan, vətənpərvər, dünya mədəniyyətini inkar etməyən innovativ və rəqabətədavamlı səviyyəyə çatdırmaq idi: "Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" [8, s.323].

Ulu öndər hüquqi, dünyəvi dövlət quruculuğu getdiyi bir ərəfədə cəmiyyətimizdə gənclərə, gənclik enerjisinə xüsusi dəyər verir, ölkənin gələcəyini təşkil edən "gənclik" anlamını yüksək qiymətləndirirdi. Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyinin ilk günlərindən milləti dirçəltmənin əsas çarəsini gənclikdə və gənc ideyalarda olduğunu görürdü. Gənc nəsildə olan çılğınlığı, təfəkkürü, əzmi, iradəni gələcəkdə daha da inkişaf etdirərək vətənin rifah dolu sabahı üçün onu hər cür təhlükələrdən qoruyacaq, onun tarixini əbədi yaşadacağına böyük ümidlərlə inanaraq, ilk öncə 26 iyul 1994-cü il Fərmanı ilə Gənclər və İdman Nazirliyini yaratdı [5]. Bu ölkədə mövcud mürəkkəb vəziyyət və keçid dövrü olduğu bir vaxtda pərakəndə gənc qüvvələri vahid ümumi məqsədlər ətrafında birləşdirmək, onları epoxal, ümumdövlət əhəmiyyətli strateji vəzifələrin həllinə yönəltmək üçün atılan ən uğurlu addım idi [2, s.19]. Nazirliyin funksiyalarını, hüquq və vəzifələrini əks etdirən Əsasnaməsində Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun gənc nəslin tərbiyəsi; gənclərlə iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən siyasətin həyata keçirilməsi; gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq imkanlarının milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə həyata keçirilən islahatlar proqramlarının gerçəkləşdirilməsinə səfərbər olunması; gənclər arasında ümumbəşəri və milli dəyərlərin təbliğinin təmin edilməsi; gənclər arasında Azərbaycanın tarixi və mədəni irsini yaymaqla, onların vətənpərvərlik, Vətənə sədaqət, müstəqəlliyimizin, dövlətçiliyimizin, torpaqlarımızın müdafiəsinə daimi hazırlıq ruhunda tərbiyə edilməsi və məsələlər nəzərdə tutulurdu [24].

Gənclər siyasətinin həyata keçirilməsi istiqamətində ayrı-ayrı dövlət proqramları, onların müxtəlif sahələrdə reallaşması, mühüm vəzifələrin gənclərə həvalə edilməsi prosesi sürətlə gedirdi. Bunlardan ən önəmlisi ölkə prezidenti Heydər Əliyevin 1996-ci ildən təklif etdiyi və şəxsi təşəbbüsü ilə keçirilən Gənclər Forumları idi. Heç təsadüfi deyildir ki, 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" [8, s.318].

Forumda şəxsən iştirak edən Ulu öndər Heydər Əliyev nitqində gənclərə müraciət edərək onların milli ruhda tərbiyəsinin və təhsilinin müstəqil Azərbaycan üçün əhəmiyyətini xüsusi vurğulamışdır: "Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir" [8, s.318].

Bu forumlar çərçivəsində qeyri-hökumət gənclər təşkilatlarının vəzifə və öhdəlikləri, gənclərin ictimai və siyasi fəallığı, tələbələrin sosial problemləri, təhsilin keyfiyyəti, gənc alimlərin perspektivləri, yaradıcı gənclərin problemləri və yeni layihələri, gənclərin idarəetmə sferasına cəlb

edilməsi, gənclərin xaricdə təhsil layihələrinin dəstəklənməsi və həyata keçirilməsi, beynəlxalq əməkdaşlıq və digər mühüm məsələlər müzakirə olunur, müvafiq qərarlar qəbul edilir. Bütün bunlar gənclərin problemlərinin bilavasitə həlli üçün böyük əhəmiyyət kəsb edir [4, s.6].

Ulu öndər Heydər Əliyev gənclər forumunun 2 fevral 1998-ci ildə keçirilən tədbirdə gənclərə müraciətində qeyd edirdi ki, "Mən sizi gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin - gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik" [9, s.204].

Gənclərə diqqət və qayğının daha da artırılması məqsədilə Heydər Əliyevin 1997-ci il Sərəncamı ilə 2 fevral "Gənclər günü" kimi qeyd olunmağa başlandı. Bundan əlavə, "Dövlət gənclər siyasəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Gənc istedadlar üçün təqaüdlərin təsis edilməsi haqqında" müxtəlif sərəncamlar və fərmanlar məhz Heydər Əliyev tərəfindən imzalanması onun bu sahəyə bəslədiyi rəğbətin bariz nümunəsidir.

II Gənclər Forumunun məntiqi nəticəsi olaraq Heydər Əliyev 1999-cu il 29 iyulda "Dövlət Gənclər Siyasəti Haqqında" Fərman imzaladı. Bu fərman respublikanın ictimai-siyasi həyatında gənclərin daha da fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətinin gənclik problemlərinin həllinə yönəldilməsi baxımından, eyni zamanda gənclərin beynəlxalq əlaqələrinin genişlənməsi istiqamətində olduqca qiymətli addım oldu. Tədbirlər planının icrası ilə bağlı Gənclər, İdman və Turizm, Təhsil, Əmək və Əhalinin sosial müdafiəsi, Səhiyyə, Mədəniyyət, İqtisadi İnkişaf, Müdafiə, Daxili və Xarici İşlər Nazirlərinin hər il gənclərlə bağlı illik hesabatları təqdim olunmalı idi [15].

Dövlət gənclər siyasəti ölkənin innovativ inkişafı üçün zəruri sosial şəraitin formalaşdırılmasını təmin edən, vətəndaş cəmiyyəti institutları, ictimai birliklər, yerli və beynəlxalq gənclər təşkilatları ilə fəal qarşılıqlı əlaqə əsasında həyata keçirilən dövlət fəaliyyətinin müstəqil istiqaməti kimi qəbul edilirdi.

Bu məqsədə nail olmaq üçün cəmiyyətdə gənclərin həyatının bütün problemləri - səhiyyə, idman, təhsil, beynəlxalq əlaqələr, asudə vaxt, iş, sosial həyat, ailə və s vəzifələrin həllini həyata keçirmək gərəkli idi.

Gənclərlə iş müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsi, onların şəbəkəsinin genişləndirilməsi, təlim sisteminin müasirləşdirilməsi və gənclər işçilərinin davamlı təhsili mexanizmlərinin formalaşdırılması və s. istiqamətdə Gənclər və İdman Nazirliyinin qarşısında mühüm vəzifələr dayanırdı.

Dövlətin gənclər siyasətinin mühüm tərkib hissəsindən birini də gənclərin vətəndaş kimi vətənpərvərlik tərbiyəsi, gənclər arasında hüquqi, mədəni və mənəvi dəyərlərin formalaşması tuturdu. Ulu Öndərin görmək istədiyi gənclik ayrı ideallar arxasınca gedən bölünmüş, parçalanmış gənclik deyil, əksinə, müstəqil Azərbaycanın ortaq mənafeyini təmsil edən, yad ideologiyanın əsiri olmayan bir gənclik idi ki, onlar da öz növbəsində ölkənin gələcək inkişafının əsaslarını daha da möhkəmləndirəcək və dövlətin idarə edilməsində aparıcı qüvvə olacaqdır.

Gənclərin ilk öncə Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiqlik ruhunda tərbiyə edilməsi Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətini təşkil edirdi. O, vurğulayırdı: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir" [10].

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın gəncləri qarşısında qoyduğu ən mühüm vəzifələrdən biri də dövlətimizin beynəlxalq nüfuzunun, beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsində, eyni zamanda beynəlxalq münasibətlərin genişlənməsində bugünkü gəncliyin əhəmiyyətli rola malik olmaları idi. İstər iqtisadi, istər sosial, istərsə də siyasi sahədə beynəlxalq təşkilatların həyata keçirdiyi proqramlarda gənclərimizin iştirakı yüksək səviyyədə təşkil edilirdi. Prezident Heydər Əliyevin başçılığı ilə günü-gündən artan beynəlxalq nüfuzumuzun

genişlənməsində, məhz Gənclər və İdman Nazirliyinin yaradılması ilə gənclərin də bu sahəyə cəlb olunması məsələləri öz hüquqi təsdiqini tapdı.

21 noyabr 1995-ci ildə 11 gənclər təşkilatının təşəbbüsü ilə Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (ARGTMŞ) yaradıldı. Gənclər Təşkilatları Milli Şurası əsasında regional, milli və beynəlxalq səviyyədə fəaliyyət göstərən gənclər təşkilatları birləşdirildi. Milli Şura Azərbaycanın gənclər təşkilatlarının vahid əlaqələndirmə və əməkdaşlıq mərkəzi olmaqla onların eyni zamanda gənclər təşkilatlarının beynəlxalq inteqrasiyasını təşkil və təmin edən qurum oldu [25].

Azərbaycan Respublikası Gənclər Təşkilatı Milli Şurası (NAYORA) özündə üç əsas məqsədi ehtiva edir:

1. İnstitusional tərəfdaşlarla əməkdaşlıq;
2. Beynəlxalq səviyyədə gənclərin təmsilçiliyi;
3. Beynəlxalq proqram və layihələrin icrası [26].

Qarşıya qoyulan bu vəzifələrin yerinə yetirilməsi məqsədilə bir sıra beynəlxalq təşkilatlarla əlaqələr qurulmağa başlanıldı. Beləki, Avropa Gənclər Forumu(1997), Avropa Gənclər Mərkəzi, Türk Dünyası Gənclər Birliyinin və beynəlxalq gənclər təşkilatları, MDB üzvü olan ölkələrin gənclər strukturları ilə beynəlxalq sazişlər imzalanmış, əməkdaşlıqlar qurulmuşdur.

Beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı sahəsində yaradılmış ən böyük qurum olan Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan Gənclər Təşkilatları Milli Şurası arasında da beynəlxalq sazişlər bağlanmağa başlandı.

BMT gənclərin yaradıcılığı, ideyaları və enerjisi onların yaşadıqları cəmiyyətlərin gələcək inkişafı üçün həyati əhəmiyyətinin vacibliyini daima təbliğ edirdi. 1995-ci ildə Beynəlxalq Gənclər ilinin onuncu ildönümündə BMT gənclərə olan bağlılığını daha gücləndirərək, beynəlxalq birliyin diqqətini cəlb edən və gənclərin üzləşdiyi aktual problemlərin həllinə öz səylərini yönəldən beynəlxalq strategiya, eyni zamanda 2000-ci ilə qədər və sonrakı dövrlərdə Gənclər üçün Ümumdünya Fəaliyyət Proqramını qəbul etmişdir [20].

1996-cı ilin oktyabrında "Gənclik" BMT-də "Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində gənclərin yeri və rolu" mövzusunda respublika seminar-müşavirəsi keçirilmişdir. Burada gənclərin ən böyük bəlasına çevrilmiş narkomaniya, cinayətkarlıq, qanun pozuntularının qarşısının alınması, gənclərin hüquqlarının qorunması, gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsi işi, milli-mənəvi dəyərlərin qorunması, təbliği və s. haqqında geniş məruzələr dinlənilmişdir [6].

Gənclər təşkilatlarının sıx əməkdaşlıq etdiyi Avropa məkanında ən nüfuzlu beynəlxalq fond təşkilatı olan Avropa Gənclər Forumu (AGF) idi. Foruma üzvlük tam, namizəd və müşahidəçi olmaqla 3 mərhələdən ibarət olsa da, Azərbaycan GTMŞ sınaq müddəti və müşahidəçistatusu almadan, birbaşa Forumun üzvlüyünə namizəd kimi qəbul edilmişdir [21, s.151]. Eyni zamanda Azərbaycan Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusu almışdır. Avropa Şurasının gənclər direktorluğunun rəhbəri L.Suralanın 1999-cu ilin martında Bakıya səfər edir və burada "Azərbaycan gəncləri beynəlxalq aləmdə" mövzusunda dəyirmi masada şəxsən iştirak edir [16]. Toplantıda ölkəmizdə mövcud gənclər təşkilatlarının fəaliyyətini, gənclər hərəkatında iştirakını yüksək qiymətləndirmişdir.

Azərbaycan Respublikası Gənclər Təşkilatı Milli Şurası öz növbəsində Qafqazda və Xəzər dənizi hövzəsində regional əməkdaşlığına da böyük önəm verirdi. 1996-cı ilin martından başlayaraq ARGTMŞ Avropa İttifaqı tərəfindən keçirilən "Qafqaz gəncləri dialoqunun" aktiv iştirakçısı olmuşdur Əsas məqsəd Qafqazda sülhün bərqərar edilməsində gənclərin iştirakını təmin etmək, Qafqazda sülh yaradılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirmək idi [13].

Türk və islam dünyası ilə əməkdaşlıq Azərbaycan gənclərinin beynəlxalq əlaqələrində mühüm rol oynayırdı. 1996-cı ildən Dünya Türk Gənclər Birliyinin (DTGB) keçirdiyi tədbirlərində Azərbaycan Gənclər Təşkilatları Milli Şurası daima iştirak edirdi, 1997-ci ilin aprelində isə bu quruma tamhüquqlu üzv qəbul edildi. 1997-ci ilin sentyabrında Türkiyədəki Əskişəhərdə qaçqın və məcburi köçkün gənclərin problemlərinə və ətraf mühitin qorunmasına həsr edilmiş "Habbibat-2" və "Gündəm-21" adlı beynəlxalq konfransda dünyanın 35 ölkəsindən, o cümlədən Azərbaycandan

gənclər təşkilatlarının nümayəndələri qatılmışdılar. Burada, əsasən, Azərbaycanın ən böyük problemi olan qaçqın və məcburi köçkün gənclərə dövlət qayğısı, ictimai-siyasi vəziyyət, müasir cəmiyyətə onların inteqrasiyası mövzusunda məruzələr oxunmuş, "Qarabağ həqiqətləri" mövzusunda sərgi nümayiş etdirilmişdir [11].

Azərbaycan-Türkiyə Gənclərinin Dostluq Cəmiyyəti ilə də qarşılıqlı əlaqədə olan gənclərimiz türk dünyası gəcləri arasında körpü olmağa müvəffəq olmuşdur. Cəmiyyət gənclərin simasında dünyaya Qarabağ həqiqətlərini, ermənilərin Qarabağda törətdikləri vəhşilikləri, soyqırımları, erməni vandallığını xüsusi hazırlanmış elektron resurslarda, internet saytlarında beynəlxalq ictimaiyyətin diqqətini çatdırırdılar.

Azərbaycan Respublikasının gənclərinin beynəlxalq əlaqələrinin mühüm bir parçasını da Müstəqil Dövlətlər Birliyi ölkələri ilə əməkdaşlıq təşkil edirdi. MDB-yə daxil olan ölkələr arasında tarixən formalaşmış siyasi, iqtisadi, mədəni, humanitar əlaqələr gənclər siyasəti sahəsində əməkdaşlığı zəruri edən faktorlardan idi. Ulu öndər Heydər Əliyevin vurğulayırdı ki, Birləşmiş Millətlər Təşkilatı dövlət və qeyri-dövlət gənclər təşkilatları arasında ünsiyyətin davam etdirilməsi və öz fəaliyyətlərini əlaqələndirmələri MDB-nin səmərəliliyini yüksəltmək, onun fəaliyyətini təkmilləşdirmək işinə böyük dəstək idi. 1997-ci ilin dekabrında Moskvada Azərbaycan, Belarusiya, Qazaxıstan, Ermənistan, Gürcüstan, Moldova, Rusiyanın gənclərlə iş üzrə dövlət orqanları rəhbərlərinin görüşü keçirildi. Görüşdə MDB ölkələrində gənclərlə iş üzrə dövlət siyasətinin həyata keçirilməsinin səmərəliliyini yüksəltmək, bərabərlik, demokratik əsasda əlaqələri möhkəmləndirmək məqsədilə məşvərətçi qurum – "Nazirlər klubu" yaradılmış, onun əsasnaməsi, iclaslarının keçirilməsi qaydaları təsdiq edilmişdi [18].

Daha sonra 1999-cu ildə Minsk şəhərində keçirilmiş MBD gənclər təşkilatlarının konqresində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və gənclər təşkilatının nümayəndələri iştirak etmişlər, gənclərə dair müxtəlif problemlərin həllinə münasibətlərini bildirmişlər.

Respublika gəncləri həmçinin ABŞ, Böyük Britaniya, Səudiyyə Ərəbistanı və s. ölkələrin gəncləri ilə sıx əməkdaşlıq etmişlər, qarşılıqlı müqavilələr bağlamışlar. 1992-ci ildən Azərbaycanda fəaliyyət göstərən Amerika Beynəlxalq Təhsil Şurası ölkənin istedadlı gənclərini Amerikada təhsil almaları birgə layihələr həyata keçirməyə başlamışdır.

1999-cu ilin oktyabrında ABŞ-ın Honolulu şəhərində keçirilən Dünya Gənclərinin Minillik Konqresində Azərbaycan 30 nəfərlik nümayəndə heyəti ilə təmsil olunmuşdu. Həmin konqresdə BMT-nin elan etdiyi "Sivilizasiyalararası dialoq ilinin keçirilməsi haqqında" qərar qəbul edilmişdi. 2001-ci ilin sentyabrında "İlin uşağı" Beynəlxalq təşkilatının təşəbbüsü və AR GİN dəstəyi ilə dialoq ili çərçivəsində Bakıda "Gənclik" BTM-də ümumdünya zirvə görüşü keçirilmişdi. Azərbaycan belə bir zirvə görüşünün keçirildiyi ilk ölkə olmuşdu [14].

Gənclərimiz Böyük Britaniya gənclər təşkilatları ilə beynəlxalq əməkdaşlıq edirdilər. "Azərbaycan-Böyük Britaniya Gənclərinin Açıq Dostluq Cəmiyyəti" adlı dostluq əlaqələrinin yaradılması, gənclərin sosial inkişafının, elmi, mədəni və digər əməkdaşlığının inkişaf etdirilməsi, habelə informasiya mübadiləsinin həyata keçirilməsi məqsədi daşıyırdı və bu cəmiyyət öz fəallığı, bir neçə birgə layihəni uğurla həyata keçirmələri ilə fərqlənirdi. Cəmiyyət üzvləri tərəfindən "Azərbaycan-Böyük Britaniya münasibətlərinin inkişafı haqqında" adlı kitabın nəşri bunun əyani sübutu idi [12].

Ulu öndər Heydər Əliyevin yürütdüyü məqsədyönlü gənclər siyasətinin məntiqi nəticəsi kimi artıq 2000-ci illərin əvvəllərində Azərbaycan gəncliyi ümumdünya gənclər hərəkatının mühüm subyektinə çevrilmişdir. Azərbaycan beynəlxalq gənclər təşkilatlarının iştirakı ilə mötəbər tədbirlərə ev sahibliyi edirdi.

Dahi liderin çoxşaxəli siyasi fəaliyyətinin mühüm bir hissəsini də gənclərin beynəlxalq əlaqələr sistemində təhsil sahəsi tuturdu. Heydər Əliyev təhsili böhrandan çıxarmaq, onun inkişafını təmin etmək üçün kompleks tədbirlər həyata keçirdi. Heydər Əliyev bütün imkanların gənclərin təkmilləşməsinə, tərbiyələnməsinə həsr edilməsini, təhsildə nöqsanların, naqis cəhətlərin aradan götürülməsinə yönəltməyi tələb edərək, hər bir vətəndaşa gənclərin yaxşı tərbiyə və təhsil alması, müasir tələblərə çatması üçün çalışmasını tövsiyə edirdi. Heydər Əliyevin başçılığı altında həyata keçirilmiş təhsil islahatları, özəl təhsilin inkişafı, təhsil sisteminin maddi-texniki bazasının

yaxşılaşdırılması, tədrisin və təlimin yeniləşdirilməsi qısa zaman ərzində inkişafın əsas özəyi olan təhsil sisteminin böhrandan çıxmasına və inkişafına gətirib çıxardı [21, s.79].

Ulu Öndər təhsil sahəsində beynəlxalq əlaqələrə xüsusi önəm verirdi. 1992-ci ildə Naxçıvandan Türkiyəyə 75 nəfər gənc təhsil üçün yollandı. Dünyanın 40-a yaxın ölkəsində 160 ixtisas üzrə 3000-dən çox azərbaycanlı təhsil alırdı. Azərbaycan ali məktəblərinin dünyanın bir sıra ali məktəbləri ilə sıx elmi-tədris əlaqələri yaranmış, onlar müxtəlif beynəlxalq təhsil proqramları və layihələrində yaxından iştirak etməyə başlamışdılar. [21, s.81].Ümumiyyətlə 2001-ci ilin sonunda respublikanın ali məktəblərində 50 xarici ölkədən 2000-dən çox tələbə, magistr, aspirant təhsil alırdı [19, s.46].

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıtması və bütün vacib sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafında da xüsusi dövlət strategiyasının qurulması, dövlət proqramlarının qəbulu və həyata keçirilməyə başlaması, bu fəaliyyətlər sayəsində Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurla çıxış etməsi və böyük qələbələrə imza atması tezliklə ölkənin beynəlxalq idman nüfuzunu da artırdı. Azərbaycan və Azərbaycan idmanı haqqında pozitiv beynəlxalq ictimai fikir formalaşdı və respublikanın güclü infrastruktura sahib olması, ardıcıl və müasir tələblərə cavab verən iqtisadi siyasəti və uğurlu idman strategiyası 2000-ci illərin əvvəllərindən etibarən onu beynəlxalq idman yarışlarının mərkəzinə çevirməyə başladı.

Xüsusilə, 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbərliyinə İlham Əliyevin gəlməsi ilə idman sahəsində köklü dəyişikliklər nəticəsində beynəlxalq idman federasiyaları qitə və dünya çempionatlarının Azərbaycanda keçirilməsi ilə bağlı müraciətlər etməyə başladılar. Azərbaycan Milli Olimpiya Komitəsi ölkədə beynəlxalq yarışların əsas təşkilatçılarından biri oldu. MOK prezidentinin müraciəti ilə 1999-cu ildə boks üzrə yeniyetmələr arasında Avropa çempionatı ilk dəfə Azərbaycanda keçirildi. Bu çempionatın yüksək səviyyədə təşkil olunması və keçirilməsi Beynəlxalq Həvəskar Boks Assosiasiyasının diqqətini cəlb etdi. Yeniyetmələr arasında boks üzrə ilk dünya çempionatının 2001-ci ildə Bakıda keçirilməsi barədə qərar qəbul olundu [7].

Azərbaycanın idman diplomatiyası multikultural dialoq və yaxınlaşma vasitəsi kimi son iki onillikdə geniş tətbiq edilməkdədir. İdman diplomatiyasının daha geniş şəkildə reallaşdırılması üçün imkanlar açılmışdır. Xüsusilə Olimpiya hərəkatına böyük diqqət ayrılmağa başlanmışdır.

1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, 1997-ci ildə isə Milli Olimpiya Komitəsinin təşkili və "Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu"nun qəbulu ölkədə bədən tərbiyəsi və idman sahəsində münasibətləri tənzimləməklə yanaşı, Azərbaycanın beynəlxalq idman arenasında dövlət siyasətini müəyyənləşdirmişdir, xüsusi idman strategiyasını qurmuşdur. 1993-2022-ci illər ərzində Azərbaycanın beynəlxalq idman yarışlarında iştirakı və əldə etdiyi nəhəng uğurlar məhz bu strategiyanın həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Ümumiyyətlə, qloballaşan və inkişaf edən dünyada gənclərin ümumbəşəri dəyərlərə yiyələnməsi, informasiya cəmiyyətində yaşamaq bacarıqlarının artırılması, müxtəlif ölkələrin gəncləri ilə dostluq və əməkdaşlıq münasibətlərinin yaradılması, beynəlxalq gənclər hərəkatında iştirakı dövlətin gənclər siyasətinin prioritet istiqaməti olaraq qəbul edilir.

Heydər Əliyev siyasi xəttini, ideyalarını yeni yanaşmalarla daha da inkişaf etdirirək irəlilədən Prezident İlham Əliyev gənclərə böyük qayğı və diqqətlə yanaşırdı. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin gələcək mənafeyi üçün düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının təmin olunması və genişləndirilməsi məqsədilə qəbul edilən dövlət proqramları, Gənclər Fondunun yaradılması və s. ölkə başçısının Azərbaycan gəncliyinə verdiyi xüsusi dəyərin bariz nümunəsidir.

Prezident İlham Əliyev öz çıxışında müstəqil Azərbaycanın gənclərinə belə münasibət sərgiləyirdi: "Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər" [17].

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran tarixi vəzifələrin yerinə yetirilməsi, o cümlədən cəmiyyətin ardıcıl sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi, ölkəmizin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin şərtlərinə müvafiq olan şəxsiyyətin harmonik inkişafına nail olunması, Azərbaycan gənclərinin Vətənin müdafiəsinə və inkişafına hazırlanması kimi məsələlərin həlli gənclər təşkilatlarının daha da sürətlə inkişaf etdirilməsini şərtləndirir.

Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlıqda müvəffəqiyyətlə çıxış etməsi Azərbaycan haqqında pozitiv beynəlxalq ictimai fikrin formalaşmasında müstəsna rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Abiyev A. (2008). Ölkəmizdə idmanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. "Respublika"qəzeti, 10 oktyabr 2008.
2. Aslanı Günel"İlham Əliyev və Azərbaycanda idmanın tərəqqisi (2003-2020)". Bakı, 2021, s.19.
3. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqram 15 sentyabr 2017. https://president.az/az/articles/view/25237.
4. Azərbaycanın ictimai həyatında gənclərin rolu. A. M. Cəfərovun, E. B.İmaməliyevin redaktəsi ilə. — SPb.; Bakı, MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi., 2012, 112 s. s.6,
5. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 iyul 1994-cü il.№ 179. https://e-qanun.az/framework/8948.
6. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin fəaliyyəti haqqında arayış. Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. İnformasiya bülleteni. Bakı, Elm, 2000, №6, s.50-90.
7. Boks Azərbaycanda. Azərbaycan Boks Federasiyası (2022, 12 Sentyabr). http://abf.az/az/azerbaijan-boxing-federation/boxing-azerbaijan.
8. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. V kitab, Noyabr 1995 – mart 1996. Bakı, Azərnəşr, 1998, 500 s., s.323.
9. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. XIV kitab, dekabr 1997 – fevral 1998. Bakı, Azərnəşr, 2005, 520 s., s.204.
10. Fərhad Hacıyev. "Azərbaycan dövlət gənclər siyasəti: məqsəd və nailiyyətlər". Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı 3 (59)2017, s.233-238.
11. Gənclərin beynəlxalq konfransında. Azərbaycan qəzeti, 1 oktyabr 1997.
12. Gənclərimiz dünya ilə dost olmaq istəyir. Azərbaycan qəzeti, 10 aprel 2001.
13. Gənclər Müstəqil Azərbaycanın gələcəyinin qurucularıdır, Azərbaycan gənclərinin II Forumunun materialları. Azərbaycan qəzeti, 4–9 mart 1999.
14. Gənclərin ümumdünya zirvə görüşü başlayır. Azərbaycan qəzeti, 5 sentyabr 2001.
15. "Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi". Bakı, QAPP-Poliqraf kooperasiyası, 2003, s.231.
16. Həmzə Cəfərov. Müstəqillik illərində respublikanın ictimai-siyasi və sosial-mədəni həyatında gənclərin iştirakı. "Xəbərlər" - İctimai və humanitar elmlər seriyası, 2009, №1, s.27-33.
17. İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak edib.
18. MDB ölkələrinin Gənclərin İşləri üzrə Nazirlər klubunun 2-ci iclasının iştirakçıları ilə görüşdə çıxış. 28 mart 1998-ci il, Azərbaycan qəzeti 29 mart 1998.
19. Mərdanov Misir. Heydər Əliyev və Aərbaycan təhsili // Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı, Təhsil, 2002, 46.
20. Peace, dignity and equality on a healthy planet. United Nations. Youth. https://www.un.org/en/global-issues/youth
21. Rəhman Hacıyev "Azərbaycan gəncliyinin himayədarı (Heydər Əliyevin gənclər siyasəti (1993–2003-cü illər)). Bakı, "Aspoliqraf", 2014, 192 s., s.151.

22. Yaqut Ağaşahqızı. Prezident İlham Əliyev - Gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi. İki sahil qəzeti, 23 dekabr 2020. https://ikisahil.az/post/185802-prezident-ilham-eliyev-genclerimizin-en-boyuk-himayechisi-ve-destekchisi.
23. 01 fevral 2019, https://president.az/az/articles/view/31737.
24. https://mys.gov.az/nazirlik/nazirlik-haqqinda.
25. https://nayora.org/az/biz-kimik.
26. https://nayora.org/az/beynelxalq-terefdaslar.

SDU HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN FƏALİYYƏTİ VƏ TƏLƏBƏLƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN FORMALAŞMASINDA MƏRKƏZİN ROLU (2015-2018-ci illər)

[1,2]**Samirə İsgəndər qızı Məmmədova,** [1,3]**Hikmət Sadiq oğlu Məmmədova**
[1]Sumqayıt Dövlət Universiteti
[2]tarix üzrə fəlsəfə doktoru
samire.mammadova@sdu.edu.az
[3]baku_2007@mail.ru

Ali məktəblər tələbələrdə milli-mənəvi dəyərlər əsasında formalaşmasına böyük təsir göstərir. Ona görə də ali məktəblər bu məsələyə xüsusi diqqətlə yanaşırlar. Belə ki, ali məktəblərdə tələbələrin vətənpərvər ruhda yetişməsi üçün Ulu öndər Heydər Əliyevin irsinin öyrənilməsi ilə əlaqədar müxtəlif seminarlar həyata keçrilir. Bu seminarların təşkil edilməsinə xüsusi diqqət yetirən universitetlərdən biri də Sumqayıt Dövlət Universitetidir.

Sumqayıt Dövlət Universitetində Heydər Əliyevin irsinin öyrənilməsi ilə əlaqədar müxtəlif seminarlar keçrilməsi məqsədi ilə 2015-ci ildə universitetin rektoru professor E.Hüseynovun №R-25/1 əmri ilə "Heydər Əliyev Mərkəzi" yaradılmışdır [8]. Bu mərkəzin nəzdində "Heydər Əliyev məktəbi" fəaliyyət göstərir. Bu məktəbdə 2017-ci ildən bəri hər il Heydər Əliyevin irsinin öyrənilməsi ilə əlaqədar müxtəlif seminarlar keçrilir. Bu seminarlarda YAP-ın yaranması, Qurtuluş Günü, Respublika Günü, Əsrin müqaviləsi, Müəllimlər Günü, Silahlı Qüvvələr Günü, Ulu Öndərin Anım Günü, 1918-ci il Mart soyqırımı, AXC-nin yaranması, Dirçəliş Günü, 20 Yanvar hadisələri, Xocalı soyqırımı və digər müvafiq mövzularda keçirilir [7].

Heydər Əliyev məktəbinin digər diqqətə layiq önəmi tələbələrdə milli-mənəvi dəyərlərin formalaşmasi üçün təşkil edilən tədbirlərdir. Qeyd etmək lazımdır ki, tədbir zamanı əyani vəsaitlərdən - sənədlər, şəkillər, film nümayişi və digər innovativ metodlardan istifadə edilir. Heydər Əliyev məktəbinin guşələrinə Ulu Öndərin bir çox şəxsi sənədləri, orta məktəbi bitirməsi ilə əlaqədar attestatı, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirdiyini təsdiqləyən diplom, I və II hakimiyyəti dövründə aldığı təltiflər yerləşdirilib. Bu əyani vəsaitlərin canlı olaraq tələbələrə göstərilməsinin böyük önəmi vardır. Belə ki, bu vəsaitlərin əyani olaraq tələbələrə nümayiş etdirilməsi tələbələrdə ruh yüksəkliyi artır, öz gələcək planları qurmağa motivasiya edir.

Burada müstəqil Azərbaycan dövlətinin dünyaya tanıdılması məqsədi ilə Heydər Əliyevin xarici ölkələrə səfərləri və bir çox ölkə başçıları ilə görüşlərini əks etdirən tarixi fotoşəkillərə yer verilib. Eyni zamanda Heydər Əliyev haqqında yazılmış tarixi kitablar da mərkəzdə yer alıb.

2015-ci ildən bəri Heydər Əliyev məktəbini tanınmış yerli və xarici ictimai-siyasi xadimlər, elm və təhsil nümayəndələri ziyarət edir. Bu mərkəzə baxış zamanı qonaqlar Heydər Əliyev məktəbi haqqında xoş təəssüratlarını bölüşür və Heydər Əliyev Mərkəzinin xatirə kitabına Ulu Öndərlə bağlı xoş sözlər, tarixi fikirlər qeyd edirlər.

Heydər Əliyev məktəbində keçrilən seminarlar haqqında daha ətraflı danışsaq, 2017-ci il sentiyabrın 28-də "Yeni əsrin müqaviləsi" Heydər Əliyevin neft sənayesinin kinkişafına ilk töhvəsi olan"Əsrin müqaviləsi"nin davamı kimi mövzusunda seminar keçrilmişdir. Bu seminarda xüsusi

olaraq məruzəçi qismində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti "Azərkimya" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Muxtar Babayev iştrak etmişdir. Əlavə olaraq bu seminarda SDU professor, müəllim kollektivi, tələbələri iştrak etmiş və diqqətə layiq çıxışlar etmişdirlər. Bu kollektivə misal olaraq "Əsrin Müqaviləsinin siyasi aspektləri" mövzusunda Tarix və onun tədrisi metodikası kafedarsının professoru, AMEA Tarix institutunun şöbə müdiri Həsənov Hacını göstərə bilərik. Tələbələr isə "Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın sosial iqtisadi siyasəti", "Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın xarici siyasəti" mövzularında çıxışlar etmişdirlər [1].

Seminarda Heydər Əliyev ölkəsinin neft strategiyasının formalaşmasında mühüm rolu haqqında müzakirələr edilmişdir. Xüsusən bu müzakirələrdə qeyd edilir ki, Heydər Əliyev uzaqgörənliyi və qətiyyəti ilə Azərbaycanın qlobal enerji bazarında əsas oyunçu kimi çıxış etməsinin əsasını qoymuşdur. Heydər Əliyevin neft sahəsində ən mühüm töhfələrindən biri Azərbaycanın neft ehtiyatlarını maksimum dərəcədə artırmaq və ölkə neftini dünya bazarına transformasiya etmək məqsədi daşıyan 1994-cü ildə "Əsrin müqaviləsi"nin həyata keçirilməsi idi. Bu müqavilənin ölkənin talehinə mühüm təsiri olmuşdur. Belə ki, "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkə iqtisadiyatında, siyasətində mühüm dəişikliklər oldu. Məsələn: iqtisadi sahədəki dəişiklikləri qeyd edək. Ölkənin neft ehtiyatlarının mənimsənilməsi əhəmiyyətli xarici investisiyaları cəlb etdi, nəticədə çoxsaylı iş yerləri açıldı və müxtəlif sahələrin inkişafı təmin edildi. Neft gəlirlərinin axını hökumətə yollar, körpülər, hava limanları kimi infrastruktur layihələrinə investisiya qoymağa və ölkələr arasında əlaqələri yaxşılaşdırmağa imkan verdi. Bundan əlavə neft sektoru tikinti, daşınmaz əmlak, qonaqpərvərlik də daxil olmaqla, digər sənaye sahələrini stimullaşdıraraq, iqtisadiyyatın şaxələndirilməsinə və ÜDM-in artımına səbəb olub. "Əsrin Müqaviləsi" Azərbaycan nefti üçün yeni ixrac marşrutları açan mühüm infrastruktur layihəsi olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaradılmasına kömək etdi. Bu kəmər ölkənin neft nəqlində qonşu ölkələrdən asılılığını azaltmaqla beynəlxalq bazarlara birbaşa çıxışı təmin etdi. Nəticədə Azərbaycan öz enerji resursları üzərində daha çox nəzarət əldə etdi və regionda geosiyasi təsirini artırdı.

Heydər Əliyev məktəbində keçrilən digər önəmli seminarlardan biri 2018-ci ildə martın 3-də "Heydər Əliyev və Milli mənəvi dəyərlərimiz" movzusunda keçrilən seminardır. Seminarda məruzəçi kimi Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, professor, Əməkdar jurnalist Avtandil Məmmədov iştrak etmişdir. Bundan əlavə seminarda universitetin müəllim kollektivi, tələbələr iştrak etmiş və mühüm önəmə sahib çıxışlar etmişdirlər.

Seminarda milli-mənəvi dəyərlərmizin əsas göstəriciləri olan "Novruz bayramı", "Kitabi-Dədə Qorqud", "Heydər Əliyevin Fondu" və s haqqında çıxışlar, müzakirələr edimişdir. Çıxışlarda milli-mənəvi dəyərlərmiz nələrdir və onların vacibliyi haqqında danışılmışdır. Xüsusən də seminarda Heydər Əliyevin milli-mənəvi dəyərlərmizə verdiyi önəm barəsində müzakirələr edilmişdir. Müzakirələrdə qeyd edilmişdir ki, Heydər Əliyev ölkənin milli mənəvi dəyərlərinin qorunub saxlanmasında mühüm rol oynamışdır. Heydər Əliyev Respublikaya rəhbərlik etdiyi müddətdə Azərbaycanın mədəni irsinə və adət-ənənələrinə dərin qiymət verdiyini nümayiş etdirərək birliyin, hörmətin, etik davranışın vacibliyini vurğulamışdır. Heydər Əliyev Azərbaycanın mədəni irsinin qorunub saxlanmasının vacibliyini milli birliyin və özünəməxsusluğun möhkəmləndirilməsi vasitəsi kimi dərk edirdi. Bundan başqa Heydər Əliyev cəmiyyətin mənəvi dəyərlərinin formalaşmasında təhsilin həlledici rolunu dərk edirdi. O, gənc nəsil arasında etik davranışın aşılanmasına yönəlmiş təhsil islahatlarına üstünlük verib. Əliyev hesab edirdi ki, Azərbaycanın tərəqqisi və inkişafı üçün möhkəm mənəvi təməl vacibdir. Onun rəhbərliyi ilə dürüstlük, hörmət və şəfqət kimi dəyərlərə önəm verilərək əxlaqi tərbiyənin kurrikuluma daxil edilməsi üçün səylər göstərildi.

Seminarda universitetin tələbələri də fəal şəkildə çıxışlar etmişdir. Onlar "Heydər Əliyevin Fondu milli mənəvi dəyərlərimizin qoruyucusudur", "İlham Əliyev milli mənəvi dəyərlərimizin hamisi Heydər Əliyevin davamçısı kimi", "İlham Əliyev milli mənəvi dəyərlərimizin hamisi Heydər Əliyevin davamçısı kimi" mövzularında çıxışlar etmişdirlər [2].

Seminarın əvvəlində Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında məlumat verilmişdir. Qeyd edilmişdir ki, Heydər Əliyev həqiqətən də Azərbaycan siyasətində görkəmli şəxsiyyət olmuşdur. 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olan H.Əliyev bir neçə onillikləri əhatə edən uzun və nüfuzlu karyerası olmuşdur.

H.Əliyevin siyasi yolu sovet dövründən başlamışdır. O, Azərbaycan Kommunist Partiyasında müxtəlif yüksək vəzifələrdə çalışıb. 1969-1982-ci illərdə Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsində çalışıb. Daha sonra Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvü olub. Bu müddət ərzində o, Sovet İttifaqı daxilində Azərbaycanın siyasi mənzərəsinin formalaşmasında mühüm rol oynayıb.

H.Əliyevin Azərbaycana ən ciddi təsiri ölkənin 1991-ci ildə Sovet İttifaqından ayrılıb müstəqillik əldə etdikdən sonra oldu. 1993-cü ildə siyasi və iqtisadi təlatümlər dövründə H.Əliyev Azərbaycan prezidenti seçildi. O, Dağlıq Qarabağ münaqişəsi nəticəsində xarabalığa çevrilmiş və ağır iqtisadi problemlərlə üzləşmiş bir ölkəyə rəhbərlik edib.

Seminarda həmçinin H.Əliyevin uzaqgörən siyasəti haqqında müzakirə edilib. Müzakirələrdə qeyd edilmişdir ki, Prezident kimi Əliyev ölkədə sabitlik və iqtisadiyyatı dirçəltmək üçün bir sıra islahatlar həyata keçirib. Belə ki, H.Əliyev xarici investisiyaları ölkəyə cəlb edən, neft, qaz kəşfiyyatını təşviq edən və Azərbaycanın enerji infrastrukturunu inkişaf etdirən siyasət yürüdürdü. Nəticədə bu səylər əhəmiyyətli iqtisadi artıma gətirib çıxardı və Azərbaycanın inkişaf etməkdə olan regional gücə çevrilməsinə kömək etdi.

Əliyevin rəhbərliyi həm də milli təhlükəsizlik və ərazi bütövlüyünə sadiqliyi ilə seçilib. Onun prezidentliyi dövründə Azərbaycan 1990-cı illərin əvvəllərindən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ regionu və bir sıra ətraf ərazilərə nəzarəti bərpa edib. Nəticədə 2020-ci ildə bu ərazilərin azad edilməsi ilə nəticələnən uğurlu hərbi əməliyyat H.Əliyevin prezidentliyinin mühüm nailiyyəti hesab olunur.

Siyasi uğurları ilə yanaşı, H.Əliyevin şəxsiyyəti və liderlik tərzi hamı tərəfindən qəbul edilib. O, xarizması, strateji düşüncəsi və mürəkkəb siyasi situasiyaları idarə etmək bacarığı ilə tanınırdı. Bütün bu xüsusiyyətlər göstərir ki, H.Əliyevin fenomenal şəxsiyyət olmuşdur. Bu seminarda iştirak edən tələbələr H.Əliyevin fenomenal şəxsiyyət olmasını bir daha öyrəndilər.

Heydər Əliyev məktəbində keçrilən digər diqqətə layiq seminar 2018-ci ildə mayın 23-də "Müstəqil Azərbaycan Respublikası - Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mözusunda keçrilən seminardır. Bu seminarda məruzəçi kimi Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının dosenti, Azərbaycan Respublikasının əməkdar müəllimi, tələbələrin sevimli müəllimi Bəhram Məmmədli iştrak etmişdir. Bundan əlavə, seminarda universitetin müəllim kollektivi, tələbələr iştrak etmiş və möhüm önəmə sahib çıxışlar etmişdirlər [3]. Seminarda AXC haqqında və indiki müstəqil dövlətin AXC varisi olması barəsində müzakirələr edilmişdir. Çıxışlarda ilk növbədə AXC tarixi haqqında məlumat verilmişdir.

Heydər Əliyevin Azərbaycançılıq idealogiyasının daha da tanınması və gənc nəslin bu idealogiyada yetişdirilməsi məqsədi ilə Heydər Əliyev məktəbində 2018-ci il dekabrın 28-də "Heydər Əliyevin Azərbaycançılıq ideologiyası" mövzusunda seminar keçrilmişdir. Seminarda məruzəçi qismində Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının birinci müavini iştark etmişdir. Bundan başqa seminarda universitetin müəllim kollektivi, tələbələr iştrak etmiş və diqqətə layiq çıxışlar etmişdirlər [4]. Çıxışlarda ilk növbədə Heydər Əliyevin Azərbaycançılıq ideologiyası haqqında və onun önəmi barəsində iştarkçılara məlumat verilmişdir. Bundan əlavə Heydər Əliyevin Azərbaycançılıq ideologiyasına baxışı üzərində müzakirələr edilmişdir. Bu müzakirələrdə qeyd edilir ki, Heydər Əliyevin azərbaycançılıq ideologiyası bir neçə əsas prinsiplərə əsaslanır. İlk prinsipdə Azərbaycan daxilində müxtəlif etnik və dini qrupları ümumi milli kimlik altında birləşdirməyin vacibliyini vurğulanır. Heydər Əliyev hesab edirdi ki, sabitlik və tərəqqi üçün güclü, həmrəy xalq vacibdir. İkinci prinsip olaraq, mədəni müxtəlifliyin dəyərini dərk edən Heydər Əliyev ənənəvi incəsənəti, musiqini, ədəbiyyatı və dili qorumağa, yaşatmağa çalışırdı. O, azərbaycançılıq ideologiyasının Azərbaycan xalqının kollektiv kimliyini gücləndirə bilən birləşdirici qüvvə kimi baxırdı.

Yekun olaraq qeyd edək ki, Heydər Əliyevin azərbaycançılıq ideologiyası milli birliyin, mədəniyyətin qorunub saxlanmasına və iqtisadi tərəqqini ifadə edir. Bu idealogiyanın prinsipləri Azərbaycanın inkişafına dərin və davamlı təsir göstərmişdir. Bundan əlavə kollektiv kimlik hissini aşılamaqla və mədəni irsi təbliğ etməklə Heydər Əliyev vahid, qürurlu xalqın əsasını qoymuşdur. Üstəlik, onun apardığı iqtisadi islahatlar Azərbaycanın böyüməsinə və beynəlxalq nüfuzuna öz töhfəsini vermişdir. Müasir Azərbaycanda azərbaycançılıq prinsipləri öz aktuallığını qoruyub saxlayır və xalqın davamlı tərəqqisi üçün rəhbər qüvvə kimi çıxış edir.

Bu seminarların keçrilməsi ilə tələbələr, müəllimlər Heydər Əliyevin ölkə üçün fəaliyyəti haqqında yenidən düşünməyə təşviq olunur. Xüsusən müəllimlər tələbələrlə Heydər Əliyevin fəaliyyəti ilə bağlı marifləndirici müzakirələr edirlər. Bundan əlavə tələbələr də bu seminarlarda öz aralarında Heydər Əliyevin fəaliyyəti ilə bağlı elmi mübadilə edirlər. Beləliklə bu seminarların keçrilməsi ilə tələbələrdə milli-mənəvi dəyərlər formalaşdırılır və möhkəmləndirilir.

Qeyd edilən məlumatları diqqətə alaraq belə nəticəyə gəlirik ki, Sumqayıt Dövlət Universitetidə fəaliyyət göstərən Heydər Əliyev məktəbi tələbələrin milli-mənəvi dəyərlərinin formalaşmasında, dünyagörüşlərinin inkişafında, vətənpərvərliyin möhkəmlənməsində mühüm rolu var.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev Mərkəzinin arxiv materialları. Məşğələ ssenarisi 28.09.2017
2. Heydər Əliyev Mərkəzinin arxiv materialları. Məşğələ ssenarisi 28.03.2018
3. Heydər Əliyev Mərkəzinin arxiv materialları. Məşğələ ssenarisi 23.05.2018
4. Heydər Əliyev Mərkəzinin arxiv materialları. Məşğələ ssenarisi 27.12.2018
5. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz
URL: http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/98711.htm
6. Heydər Əliyev və azərbaycançılıq ideologiyası
URL: http://www.anl.az/down/meqale/respublika/2010/may/119512.htm
7. Heydər Əliyev Mərkəzi
URL: https://www.sdu.edu.az/az/Heydar_Aliyev_Center
8. Heydər Əliyev Mərkəzi | SDU - Sumqayıt Dövlət Universitetinin rəsmi portalı

QARĞIDALI YAĞININ C_1-C_4 SPİRTLƏRİ İLƏ TRANSEFİRLƏŞMƏ REAKSİYASININ HİDRODİNAMİK KAVİTASİYA TƏSİRİNDƏ TƏDQİQİ

Zülfiyyə Mehdi qızı Əliyeva
texnika üzrə fəlsəfə doktoru
ETN akademik Y.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutu
zulfiya_aliyeva@inbox.ru

Hazırda kimyəvi reaksiyaların sürətləndirilməsi üçün bir sıra fiziki təsirlərdən istifadə olunur, hansılarki bir o qədər böyük xarici enerji sərflərdən istifadə etmədən maddənin daxili rezervlərindən istifadə etməklə onun strukturunu dəyişmyə imkan verir. Maddənin strukturuna təsir edən xarici təsirlər kimi elektrik, elektromaqnit, maqnit, vibrasiya və akustik sahələri ola bilər. Bu metodlar qənaətli, effektivli və əlverişli olduğuna görə daha perspektivdirlər .

İstifadə olunan fiziki amillərdən biri də hidrodinamik kavitasiyadır. Bu növ kavitasiya mayelərdə yüksək sürət və dəyişkən trayektoriya üzrə hərəkətdə əmələ gəlir. Dəyişkən trayektoriya dedikdə mayenin dəyişkən diametrli borular üzrə hərəkəti nəzərdə tutulur. Məsələn, mayenin hərəkəti istiqamətində borunun diametrinin daralması və yenidən genişlənməsi bu növ kavitasiya effektini təmin edə bilər. Hidrodinamik kavitasiya harada ki, hərəkət istiqamətində mayenin təzyiqi onun kritik təzyiqindən (P_{kr}) (real mayelər üçün P_{kr} mayenin həmin temperaturda olan doymuş buxar təzyiqinə bərabər olur) aşağı olan zonalarda əmələ gəlir.

Təqdim olunan işdə trietilamin (TEA), fenilendiamin (FDA), difeniamin (DFA), izoprpo-pilamin (İPA), üçlübutilamin (TBA) amintərkibli birləşmələrdən katalizator kimi istifadəsində qarğıdalı yağının sadə metanol, etanol, i-propanol və butanol spirtləri ilə transefirləşmə prosesi hidrodinamik kavitasiya şəraitində tədqiq olunmuşdur. Tədqiqatlar xammal tutumu, burulğanlı nasos, dəyişkən diametrli boru və məqsədli məhsulların tutumu ilə təciz olunmuş qurğuda aparılmışdır (şək. 1).

Xammalın boruya verilmə sürəti 7-8 m/san, prosesin aparılma müddəti xammalın sistemdə dövr edilməsilə tənzimlənmişdir.



Şək. 1. Hidrodinamik kavitasiya qurğusunun sxemi
1 - xammal tutumu, 2 - nasos, 3 - deyişkən diametrli boru, 4 - dövr edən reaksiya məhlulunun tutumu, 5 - hazır məhsulların tutumu

İstifadə olunan amintərkibli katalizatorların miqdarı 3 % götürüldükdə reaksiya məhlulu 10 dəq ərzində hidrodinamik kavitasiyaya uğradılaraq spirtin yağa nisbəti 1:4 - 1:8 dək olaraq tədqiqatlar aparılmışdır.

Alınan nəticələr cədvəl 1-də verilmişdir.

Cədvəl 1

DFA, FDA, TEA, İPA və TBA katalizatorların iştirakında qarğıdalı yağının alkil efirlərinin çıxımlarının hidrodinamik kavitasiya şəraitində spirt: yağ mol nisbətinindən asıllığı

Katalizatorlar	spirt: yağ mol nisbəti		
	4:1	6:1	8:1
	Qarğıdalı yağının turşularının metil efirlərinin çıxımı		
DFA	92,2	98,6	98,8
FDA	92,3	98,3	98,5
TEA	94,1	99,2	99,0

İPA	87,5	97,5	98,0
TBA	92,5	97,0	97,8
	Qarğıdalı yağının turşularının etil efirlərinin çıxımı		
DFA	90,3	97,3	97,6
FDA	89,2	97,1	96,9
TEA	91,7	98,0	98,1
İPA	78,2	84,4	87,1
TBA	90,1	97,1	97,1
	Qarğıdalı yağının turşularının izo-propil efirlərinin çıxımı		
DFA	74,1	90,2	94,1
FDA	75,9	91,4	94,6
TEA	81,5	92,6	95,8
İPA	67,7	81,5	88,7
TBA	77,9	87,1	95,2
	Qarğıdalı yağının turşularının butil efirlərinin çıxımı		
DFA	93,1	98,0	98,2
FDA	92,6	98,3	98,6
TEA	93,5	98,7	99,0
İPA	86,1	94,2	97,4
TBA	90,8	97,8	97,8

Cədvəl 1-dən göründüyü kimi, hidrodinamik kavitasıya şəraitində qarğıdalı yağının metil efirlərinin DFA, FDA, TEA, və TBA katalizatorlarının iştirakında alınmasında spirt - yağ nisbətinin 4:1 olması artıq bitki yağları turşularının metil efirlərinin çıxımları 92,1-94,1 % küt. təşkil edir. Bir qədər aşağı çıxımlar İPA katalizatorunun iştirakında müşahidə olunur və 87,5 % küt təşkil edir.

Bütün istifadə olunan katalizatorların iştirakında hidrodinamik kavitasiya şəraitində spirtlərin yağa 4:1 olan nisbətində alınan çıxımlar EN 14214 standartın tələblərindən aşağı olduğundan spirtlərin yağa nisbəti 6:1 artırılmışdır. Bu zaman alkil efirlərin çıxımları DFA, FDA, TEA, və TBA katalizatorların iştirakında metil efirləri üçün 97,0-98,6 % küt., etil efirləri üçün 97,1-98,0 % küt., butil efirləri üçün 97,8-98,7 % küt. təşkil edir və alınan nəticələr yaxşı sayıla bilər.

Bu halda spirtlərin yağa olan nisbətlərinin 8:1 dək artırılması çıxımlara bir o qədər təsir etmədiyindən optimal şərait kimi spirtlərin yağa 6:1 olan nisbəti götürülə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Saifuddin, N.; Samiuddin, A.; Kumaran, P. A Review on Processing Technology for Biodiesel Production. Trends // Appl. Sci. Res. 2015, 10, 1–37.

2. Patent CN 200810157645 2009-03-04 Method for preparing biodiesel by synergic ion liquid catalysis under cavitation effect

3. De Souza, R.O.M.A. Theoretical Aspects of Microwave Irradiation Practices; // Springer: Dordrecht, The Netherlands, 2015; pp. 3–16.

4. Aliyeva, Z.M. The research into reaction of transesterification of vegetable oils with C_1-C_4 alcohols in terms of hydrodynamic cavitation // - Baku: Chemical Problems, - 2019. V. 4, № 17, - p. 591-599.

KREMLİ FƏTH KREMLİ FƏTH HEYDƏR ƏLİYEVİN ƏDƏBİ ŞƏXSİYYƏTLƏRƏ OLAN DİQQƏT VƏ QAYĞISI

Ulduz Fərhad qızı Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ulduzkahraman1@gmail.com

Giriş

Qeyd edək ki, H.Əliyev Azərbaycan Yazıçılarının V Qurultayında Azərbaycan yazıçılarına yeni bir status vermişdi: "Azərbaycan ziyalılarının qabaqcıl dəstəsi". Heydər Əliyev deyirdi ki, heç bir xalq başqa xalqların nailiyyətlərindən istifadə etmədən inkişaf edə bilməz. Heydər Əliyev yaradıcılığına bələd olmadığı yazıçı və şairin adını dilinə gətirməzdi. Hətta müasiri olduğu dövrünün yazıçı və şairlərin əksəriyyəti ilə şəxsən tanış idi.

H.Əliyev söz, bədii sənət işini "fədakarlıq" adlandırırdı: "Ədəbiyyat, mədəniyyət isə həmişə fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri, yüksək incəsənət əsərlərini yaradan insanlar həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər fədakar olmasa, böyük sənətkar ola bilməzlər". [5, s.113]

Əsas hissə

Heydər Əliyev təkcə ictimai-siyasi xadim deyil, həmçinin ədəbiyyatın və mədəniyyətin bütün sahələrini duyan və bunlara qiymət verən yaradıcı bir şəxsiyyət idi. H.Əliyev Azərbaycan ədəbiyyatının və mədəniyyətinin keçdiyi çoxəsrlik tarixi dərindən bilirdi. Ona görə də mütəxəssis səviyyədə ədəbiyyat və incəsənət sahələrinin qarşılıqlı təhlilini etməyi ustalıqla bacarırdı. Onun ədəbiyyat və mədəniyyətimizin müxtəlif sahələri ilə bağlı verdiyi təhlillər mütəxəssisləri həmişə heyran qoymuşdur.

Heydər Əliyevə görə, hər bir şairin, yazıçının və dramaturqun ən böyük məziyyətlərindən biri onun mövzu seçmək bacarığıdır. Sənətkarı seçdiyi mövzu ilhama gətirməlidir. Yəni sənətkarın gördüklərini, duyduqlarını, dövrünün ondan tələb etdiklərini, başqalarının hələ müşahidə etmədiklərini və ya müşahidə edərək, bu məsələ haqqında danışa bilmədikləri problemləri oxucuya söyləmək imkanını yaratmaq dövrün ictimai sifarişidir.

H.Əliyev türkçülüyü, azərbaycançılığı, islami dəyərləri, dünyəviliyi milli-ideoloji məsuliyyət səviyyəsinə yüksəltdi. V Qurultaydan başlayaraq, H.Əliyev Azərbaycan yazıçılarının bütün qurultaylarında iştirak etmişdir. Dahi lider H.Əliyev yaradıcı şəxslərin fikrinə həmişə hörmətlə yanaşmış, məruzələrini, elmi mülahizələrini sevərək dinləmiş və xüsusi qiymət vermişdir. Heydər Əliyev hətta milli təfəkkürlü yaradıcı şəxsiyyətləri dissident təzyiqlərə məruz qalmalarına imkan verməmiş və onları qorumağı da bacarmışdır.

H.Əliyevin Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərinə olan münasibətinin parlaq təzahürü kimi sənət adamlarına təqdim etdiyi fəxri adları, ordenləri göstərmək olar. Belə ki, Sovet dönəmində yazıçı, şair, mədəniyyət işçilərinə o vaxtın ən yüksək fəxri adı olan "Sosialist Əməyi Qəhrəmanı", müstəqillik illərində "Şöhrət", "İstiqlal" ordenlərinin yazıçılara təqdim edilməsi H.Əliyevin ədəbiyyat elminə olan sevgi və diqqətindən irəli gəlirdi.

Heydər Əliyevin yaradıcılığına dəyər verdiyi belə ədəbi şəxsiyytlərdən biri də Məmməd Araz yaradıcılığı idi. Heydər Əliyev Məmməd Araz yaradıcılığını "qədim və zəngin ənənələri olan milli poeziyamızın töhfəsi" adlandırmışdır.

– Heydər Əliyev M.Arazın 1995-ci il 16 apreldə yaradıcılıq gecəsini təşkil etmişdir. Heydər Əliyev Məmməd Arazın bu yaradıcılıq gecəsini "mənəviyyat axşamı", "mənəviyyatı dərindən dərketmə günü" adlandırmışdır.

– Heydər Əliyev Məmməd Arazın səhhəti qayğısına qalmış, onu Almaniyaya müalicəyə göndərmişdir.

– Xalq şairi fəxri adına layiq görmüşdür.

– Geniş mənzillə təmin etmişdir.

– Ömürlük prezident təqaüdü vermişdir.

– Xalq şairi Məmməd Arazın 60 illik yubileyi münasibəti ilə 6 oktyabr 1993-cü ildə ona təbrik məktubu göndərmişdir.

– İstiqlal ordeni ilə 1995-ci ildə təltif etmişdir...

Qeyd edək ki, Azərbaycan ədəbiyyatı tarixində ilk milli ordenimiz olan "İstiqlal" ordenini alan 3 sənətkarlardan biri də Məmməd Araz olmuşdur. Digər şairlər: Bəxtiyar Vahabzadə və Xəlil Rzadır. Məlumdur ki, "İstiqlal" ordeni Azərbaycan Respublikasının milli dövlət təltifidir. 1992-2005-ci illərdə Azərbaycan Respublikasının ən yüksək dövlət təltifi olmuşdur. Bu barədə Heydər Əliyev demişdir: "Dünən mən üç fərman vermişəm. Bildiyimiz kimi müstəqil Azərbaycanın ən yüksək ordeni "İstiqlal" ordenidir. İndiyə qədər bu ordenlə heç bir vətəndaş, heç kəs təltif olunmayıbdır. Dünən isə mən fərman verərək, Bəxtiyar Vahabzadəni, Məmməd Arazı, mərhum Xəlil Rzanı "İstiqlal" ordeni ilə təltif etmişəm". [5, s.186]

"İstiqlal" ordeni milli ideologiyanın, milli şüurun, istiqlal uğrunda mübarizənin formalaşmasında xidməti olan şəxslərə layiq görülür. "Müstəqil Azərbaycanın ilk "İstiqlal" ordenlərini alan şəxslər qalanları üçün örnək olacaqdır". [5, s.187]

Qeyd edək ki, Nəbi Xəzrinin qəhrəmanlıq eposu olan "Kitabi Dədə Qorqud" dastanının motivləri əsasında yazılan "Burla Xatun" pyesinin yeni quruluşlu tamaşasına baxmağa gələnlərdən biri də Ulu Öndər Heydər Əliyev olmuşdur. Ümumiyyətlə, Nəbi Xəzrinin qəhrəmanlıq eposu olan "Kitabi Dədə Qorqud" dastanının motivləri əsasında yazılan 3 əsəri aşağıdakılardır:

– "Əfsanəli yuxular" poeması;

– "Torpağa sancılan qılınc" pyesi;

– "Burla xatun" pyesi.

1999-cu il 10 dekabrda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında xalq şairi Nəbi Xəzrinin anadan olmasının 75 illiyi münasibətilə onun "Burla Xatun" adlı 2 hissəli mənzum-epik pyesi yeni quruluşda tamaşaya qoyuldu. Nəbi Xəzri 70-ci illərin əvvəllərində "Burla Xatun" pyesini poema şəklində yazmışdır. Sonra bu pyesi mənzum drama çeviribdir. Nəbi Xəzrinin bu pyesi keşmiş klassik teatrın ənənələri ilə müasir dövrün ənənələrinin vəhdətindən yaranmışdır. "Burla Xatun" pyesi Nəbi Xəzrinin 75 illiyi münasibətilə təqdim edilən yubiley tamaşasıdır. Həm də bu ərəfə Azərbaycan teatrının 125 illik yubileyi dövrü idi.

Heydər Əliyev deyirdi: "Şəxsən mən tarixi keçmişimizə həsr olunmuş əsərlərə -ya roman olsun, ya poema, ya səhnə əsəri – bunlara həmişə yüksək qiymət vermişəm, bu gün də çox yüksək qiymət verirəm." [5, s.169] Xüsusən, "Burla Xatun" Heydər Əliyevin ona görə xoşuna gəlmişdi ki, Nəbi Xəzri bu pyesini "Salur Qazanın evinin yağmalanması" boyunun motivləri əsasında ("Dədə Qorqud" dastanı əsasında) yazmışdır. Əsərin tamaşası isə dastanın 1300 illik yubileyi ərəfəsinə təsadüf etmişdir. O zaman Milli Dram Teatrı bu əsəri hazırlayıb səhnəyə qoymuşdur.

Heydər Əliyev Nəbi Xəzrinin 2 pyesinə xüsusi olaraq tarixilik və müasirlik baxımından da qiymət veribdir.

– "Əfsanəli yuxular" poeması;

– "Burla xatun" pyesi.

"Burla xatun" tamaşasının quruluşcu rejissoru respublikanın əməkdar artisti Vaqif Əsədov, rejissoru Əsgər Əsgərov, rəssamı Adil Azay, bəstəkarı incəsənət xadimi Cavanşir Quliyevdir. Vaxtı ilə bu əsər Milli Dram Teatrının səhnəsində qoyulubdur.

Göründüyü kimi, Heydər Əliyev Azərbaycan ədəbiyyatını dünyaya tanıtmaq üçün əlindən gələni əsirgəmirdi. Heydər Əliyevin mədəni həyatımıza verdiyi dəyərin yüksək göstəriciləri:

- "İstiqlal" və "Şöhrət" ordenləri;
- "Tərəqqi" medalı;
- Fəxri adlar: Xalq yazıçısı, Xalq artisti, Xalq rəssamı, Əməkdar artist, Əməkdar rəssam, Əməkdar memar, Əməkdar İncəsənət xadimi, Əməkdar Mədəniyyət işçisi və s.

Nəticə

Əminliklə deyə bilərik ki, Heydər Əliyevin Azərbaycan xalqına böyük sevgisi həm də onun milli ədəbiyyatımıza böyük sevgisindən qidalanırdı. Ulu Öndər ədəbiyyatımızı xalqımızın qürur mənbəyi sayır, onun keçdiyi inkişaf yolunda milli varlığımızın və dövlətçiliyimizin tarixi mənzərəsinin dəqiq təsvirini görürüdü. Heydər Əliyev mənsub olduğu xalqın ədəbiyyatına qəlbi ilə,

ruhu ilə bağlı idi. Çünki Heydər Əliyev gözəl bilirdi ki, xalqın ədəbi-tarixi yaddaşın bərpası və qorunması mahiyyətcə həmin xalqın milli tarixi yaddaşın qorunması və bərpası demək idi. Məhz bu məqsədlə Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının özünün təsdiqində əhəmiyyətli rolu olan ədəbi şəxsiyyətlərin yubileylərinin keçirilməsini vacib hesab edirdi və şəxsən özü də iştirak edirdi.

İstifadə edilmiş ədəbiyyat

1. Xəlilov Buludxan, (24 aprel 2003, № 3) Heydər Əliyev və mədəni irsimiz, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU
2. Xəlilov Buludxan, (10 may 2004-cü il, № 2) Heydər Əliyev və azərbaycanşünaslıq, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU
3. Xəlilov Buludxan, (2004) Azərbaycan dili: dünən və bu gün, Bakı
4. Qurbanov Afad, (1997) Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı, Bakı, Gənclik
5. Novruzov Tərlan, (2007) Heydər Əliyev və ədəbiyyat məsələləri, Bakı
6. Ümummilli liderin ədəbiyyat strategiyası, (2023) Elm və təhsil, Bakı

AZƏRBAYCANIN QLOBAL VƏ REGİONAL MÖVQEYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ YÖNƏLƏN XARİCİ SİYASƏT PRİORİTETLƏRİ

Ofelya Adil qızı Nəsirova
iqtisad üzrə fəlsəfə dokotru
Azərbaycan Memarlıq və İnşaat Universiteti
ofelya74@bk.ru

Azərbaycanda müstəqil dövlət quruculuğu vəzifələri, müstəqilliyin möhkəmləndirilməsi, təhlükəsizliyin, ərazi bütövlüyünün və iqtisadi maraqların təmin olunması və s. özünəməxsus xüsusiyyətlərlə, vəzifə və taktiki gedişlərlə fərqlənən müxtəlif istiqamətli xarici siyasət yeridilməsini tələb edirdi. Ölkənin müstəqilliyinin dönməzliyinə nail olmaq, onu tədricən ənənəvi siyasi təsir dairəsindən çıxarmaq, tarixən formalaşmış xarici iqtisadi, siyasi və mədəni əlaqələrdən müstəqillik mənafeləri üçün səmərəli istifadə etmək, Şərqlə Qərb arasındakı münasibətlər sistemində Azərbaycanın özünəməxsus yer tutmasını təmin etmək üçün region dövlətlərinin köklü mənafelərinə və maraqlarına toxunmamaq şərtilə çoxşaxəli və tarazlaşdırılmış siyasət həyata keçirildi. İlk növbədə regionda böyük təsir gücünə malik olan Rusiya ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlər qaydaya salındı. İki ölkə arasındakı münasibətləri normallaşdırmaq üçün bütün incəlikləri nəzərə alaraq yollar, vasitələr araşdırıldı, hər iki tərəfin mənafeyinə cavab verən iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı üçün bir sıra təsirli addımlar atıldı. [1]

Azərbaycanın xarici siyasət prioritetləri ölkənin strateji maraqlarını və müstəqilliyini qorumaq, regional sabitlik və təhlükəsizliyi təmin etmək, beynəlxalq əməkdaşlığın inkişafına xələl gətirən prinsiplərə əsaslanır.

Əhatə olunan prioritetlərdən bəziləri aşağıdakılardır:

- Təhlükəsizlik və yoldaşlıq:
- Regional dostluq:
- Çoxtərəfli inkişaf:
- Depressiyada iştirak:
- Enerji Təhlükəsizliyi və İnkişafı:

Azərbaycanın aktual prioritetlərindən biri regional və dünya səviyyəsində təhlükəsizliyin təmin edilməsi və müxtəlif münaqişələrin həllidir. Mahiyyət etibarı ilə regionda digər ölkələrlə əməkdaşlığın gücləndirilməsi və qlobal təşkilatlarda daha fəal iştirak bu məqsədlərə çatmaq üçün mühüm addımlardır.

Azərbaycanın regional və dünya səviyyəsində təhlükəsizliyi təmin etmək, müxtəlif münaqişələri həll etmək üçün bir çox yolları var. Bu məqsədlər üçün bəzi vacib addımlar ataraq diplomatik vasitələrlə regionda və dünya səviyyəsində sülhün və təhlükədən azadlığın təmin edilməsinə çalışır. Bu, qonşu dövlətlərlə diplomatik dialoqların genişləndirilməsi, mübahisələrin diplomatik yollarla həlli və beynəlxalq ictimai təşkilatlarla sürətli və fəal əməkdaşlıq deməkdir. Azərbaycan regionda və dünyada mövcud təhlükələrə qarşı mübarizədə hərbi qurumlarla da dostluğu təmin edir. Bu, NATO, Şərqi Beynəlxalq Əməkdaşlıq Təşkilatı və digər regional təşkilatlarla döyüş təlimlərinin keçirilməsi, hərbi texnologiya mübadiləsi və təhlükəli olmayan məsələlərin müzakirəsi deməkdir.

Azərbaycan regionun ümumi inkişafında və sabitliyində rol oynayır və həm öz ölkəsinin, həm də ətraf ölkələrin inkişafına dəstək verir. Bunu infrastruktur inkişafı, iqtisadi əməkdaşlıq və humanitar yardım vasitəsilə həyata keçirir.

Bu addımlar Azərbaycanın regionda və dünya səviyyəsində sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində atdığı mühüm addımlardır.

Azərbaycanın beynəlxalq təşkilatlarda daha fəal rol alması onun regional və dünya siyasətində güclü tərəf kimi iştirakını təmin edir. Bura NATO, BMT, Şərq Beynəlxalq Təşkilatı və Avropa Şurası kimi platformalarda iştirak etmək, ölkənizin maraq və mənafelərini qorumaq üçün effektiv strategiyalar həyata keçirmək daxildir. Azərbaycan regional və qlobal sülh və təhlükələrdən azad olmaq üçün onun ətrafında baş verən böhranda fəal iştirak edir.

Azərbaycan enerji təhlükəsizliyi və inkişafı sahəsində strateji prioritetlərə malikdir. Bunu enerji layihələri və Cənub Qaz Dəhlizi vasitəsilə həyata keçirir, öz regionu ilə Avropa arasında enerji avadanlığı təmin edir. Bu prioritetlər bütövlükdə Azərbaycanın beynəlxalq aləmdə maraqlarını qorumaq, ölkəsini daha müstəqil və risksiz etmək üçün tərtib edilib.

Azərbaycanın beynəlxalq aləmdə maraqlarını qorumaq, müstəqilliyini təmin etmək məqsədilə Azərbaycanın enerji təhlükəsizliyi və inkişaf sahəsində strategiya prioritetləri müəyyən edilib. Bu prioritetlər Azərbaycanın enerji sənayesini və onun təhlükəsizliyini gücləndirir və onun müstəqil enerji istehsalına doğru daha da irəliləməsinə kömək edir. Əhatə olunan prioritetlərdən bəziləri aşağıdakılardır:

Enerji Planları: Azərbaycan öz enerji planları ilə öz enerji resurslarının və tranzit xətlərinin strateji əhəmiyyətini artırır. Bu inkişaflar ölkəni enerji səmərəliliyi və inkişaf baxımından daha müstəqil və sabit edir.

Cənubi Qaz Dahlizi (CQD): Cənubi Qaz Dahlizi layihəsi Azərbaycanın strateji prioritetidir və enerji istehsalının müxtəlifliyini artırmaq, yeni bazarlar yaratmaq və ölkəni beynəlxalq əməkdaşlığa daha çox cəlb etmək üçün vacibdir.Bu, faydalı alətdir. Bu inkişafla Azərbaycan enerji səmərəliliyində, regionun sülh və müstəqilliyində mühüm rol oynayır.

Transenerji dəhlizləri: Azərbaycan alternativ enerji istehsalı və nəqli marşrutlarını inkişaf etdirməklə öz enerji təhlükəsindən azad olmaq üçün daxili və xarici dostluğu gücləndirir. Bu dəhlizlər ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində və regionun müstəqilliyinin dəstəklənməsində mühüm rol oynayır.

Azərbaycan enerji sahəsində digər ölkələrlə dostluğu inkişaf etdirir və regionda əməkdaşlığı genişləndirir. Bunlar enerji təhlükəsizliyini strateji və əməliyyat səviyyəsində təmin etmək, regionun müstəqilliyini və təhlükəsizliyini dəstəkləmək, enerji sənayesinin inkişafını təmin etmək üçün mühüm addımlardır.

Bu prioritetlər Azərbaycanın enerjiyə qənaət və inkişaf sahəsində strateji diqqətini və beynəlxalq aləmdəki mövqeyini gücləndirir.

Azərbaycanın zəngin təbii sərvətlərə malik olması, ölkənin inkişafına, xalqının rifahına və milli təhlükəsizliyinə böyük bir sərfəlidir. Xəzər dənizindəki zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi, ölkənin enerji strategiyasının əsasını təşkil edir və bu, Azərbaycanın siyasi müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsində əhəmiyyətli bir rol oynayır.

Bu strateji, ölkənin başqa dövlətlər ilə olan münasibətlərini də təyin edir. İlham Əliyev başçılığı altında uğurla həyata keçirilən bu strateji, Azərbaycanın beynəlxalq arenada güclü bir

fəallıq göstərməsini təmin edir. Ölkə, enerji resurslarını effektiv şəkildə istifadə edərək siyasi stabilliyi və inkişafı dəstəkləyən bir vətəndaşlıq inkişafı modeli olaraq özünü nümayiş etdirir.

Bu strateji, Azərbaycanın xarici siyasətinin əsasını təşkil edir və beynəlxalq təmaslarında da əhəmiyyətli bir yer tutur. Ölkə, enerji sahəsindəki münasibətləri vasitəsilə digər dövlətlərlə iş birliyini gücləndirir və bölgədəki qlobal təhlükələrlə mübarizədə mövqeyini möhkəmləndirir.

Bütün bunlar, Azərbaycanın zəngin enerji ehtiyatlarının milli təhlükəsizlik və siyasi müstəqilliyi möhkəmləndirən strateji bir amil olduğunu göstərir. Bu, ölkənin beynəlxalq arenada mövqeyini gücləndirir və regionun stabilliyinə və təhlükəsizliyinə dəstək olur. [2]

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir. [3]

Azərbaycanın regional dostluqda mərkəzi rol oynamaq istəyi qonşu və dost ölkələrlə iqtisadiyyat, enerji, nəqliyyat və digər sahələrdə dostluğun inkişafını sürətləndirir, yığılmanın qarşısını alır. Buna Bakı-Tbilisi-Qars dəmir yolu, Trans-Adriatik Boru Kəməri (TAP), TANAP və digər infrastruktur layihələri ilə nail olmağa çalışır. Trans Adriatik Boru Xətti - Xəzərin Azərbaycan sektorundan təbii qazı Yunanıstandan Albaniya və Adriatik dənizindən keçərək İtaliyaya və daha sonra qərbi Avropaya nəql edəcək boru xətti proyektidir. [4]

Trans-Adriatik Boru Kəməri Layihəsi (TAP), Yunanıstan ərazisində Yunan-Türkiyə sərhədindən başlayaraq, Trans-Anadolu Boru Kəmərinə (TANAP) birləşən, Yunanıstandan, Albaniya və Adriatik Dənizindən keçərək İtaliyada başa çatan və "Snam Rete Gas" (SRG) şəbəkəsinə birləşən təbii qaz boru kəmərinin layihələndirilməsindən, tikintisindən və istismarından ibarətdir. TAP layihəsi Avropa Birliyinin strateji məqsədlərinin birində "enerjinin təhlükəsizliyi və enerji mənbələrinin diversifikasiyası" adı altında aparıcı rol oynayır. TAP layihəsi təbii qazın Azərbaycandan Avropa bazarlarına ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilmişdir. TAP layihəsi üzrə Albaniya, İtaliya və Yunanıstan arasında Dövlətlərarası Saziş 2013-cü ilin fevral ayında imzalanmışdır.TAP boru kəmərinin Yunanıstanda yerləşən hissəsi Türkiyə-Yunanıstan sərhədinin yaxınlığında Kipoi məntəqəsindən başlayaraq Leropigidən cənub-qərbdə Yunanıstanın Albaniya ilə sərhədində başa çatır və uzunluğu təxminən 550 km təşkil edir.[5]

İstifadə edilmiş ədəbiyyat

1. https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf səh 6
2. https://az.wikipedia.org
3. https://president.az/
4. https://az.wikipedia.org/wiki/Trans-Adriatik_boru
5. https://www.socarmidstream.az/az/project/tap/

HEKSADEKAN TURŞUSUNUN DİETANOLAMİNLƏ ƏMƏLƏ GƏTİRDİYİ KOMPLEKS KOMPLEKS BİRLƏŞMƏNİN FİZİKİ-KİMYƏVİ XASSƏLƏRİNİN TƏDQİQİ

Asya Fərhad qızı Şahverdiyeva
kimya üzrə fəlsəfə doktoru
ETN akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
asya21-89@mail.ru

Müasir dövrdə dünyada neftçıxarma və neftayırma sənayesinin obyektlərində, neft və neft məhsullarının daşınması zamanı baş verən qəzalar ekoloji cəhətdən böyük miqdarda zərər vurur.

Suyun səthinə dağılmış nefti mexaniki üsulla kənarlaşdırdıqdan sonra suyun səthində kənarlaşması mümkün olmayan nazik neft təbəqəsi meydana gəlir. Suyun səthində yaranan nazik neft təbəqəsi atmosfer və hidrosfer arasında sərhəd yaradaraq oksigen qazının suda həll olmasına, suyun buxarlanmasına, günəş şüalarının suyun daha dərin qatlarına keçməsinə çətinlik yaratdığına görə bütün növ canlı orqanizmlərin yaşayış şəraitini pisləşdirir, onları məhv edir.

Suyun səthindən nazik neft təbəqələrini kənar etmək üçün istifadə olunan səthi aktiv maddələr (SAM) neftdispersləyici və neftyığıcılara bölünür [1-6].

Təcrübənin metodikası

Heksadekan turşusu $C_{15}H_{31}COOH$ ümumi formuluna malik nisbi molekul kütləsi 256.4 q/mol, ərimə nöqtəsi 62.9 °C, qaynama nöqtəsi 351 °C olan ağ kristal şəkilli, qoxusuz suda həll olmayan doymuş birəsaslı karbon turşusudur.

Dietanolamin (DEA) molyar kütləsi 105.14 mol/q olan su ilə istənilən nisbətdə qarışan güclü əsasi xassəyə malik maddədir. DEA benzol və efirdə yaxşı həll olunur, aseton, xloroform, qliserin və metanol ilə istənilən nisbətdə qarışır.

Maddələrin səthi aktivliyi Du Nui halqasından istifadə edərək KSV Sigma 702 (Finlandiya) tensiometrindən istifadə edərək hava-su sərhəddində müəyyən edilmişdir.

Tədqiqatın aparılması

Heksadekan turşusu və DEA arasında reaksiya laboratoriya şəraitində 1:1 mol nisbətində 65-70 °C temperaturda intensiv qarışdırmaqla 1 sutka ərzində aparılmışdır.

Reaksiyanın sxemi aşağıdakı kimidir:

$C_{15}H_{31}COOH + NH_2(C_2H_4OH)_2 \rightarrow [C_{15}H_{31}COO^- N^+ H_2(C_2H_4OH)_2]$

Nəticələr və onların müzakirəsi

Heksadekan turşusu və DEA əsasında alınan kompleksin nisbi moleku kütləsi 405.3 q/mol, 0.01 %, 0.025 %, 0.05 %, 0.75 %, 0.1 %-li məhlulları suda kolloid məhlul əmələ gətirməklə həll olur, etil və izopropil spirtlərində yaxşı həll olur.

Heksadekan turşusunun DEA ile əmələ gətirdiyi kompleksinin İQ-spektri çəkilmişdir. Alınan kompleks birləşmənin İQ-spektrində 3238 sm^{-1}-də OH qrupunun valent, 2849, 2916, 2954 sm^{-1}-də C-H valent, 1401, 1555 sm^{-1}-də mürəkkəb efir fraqmentindəki COO^- valent, 1466 sm^{-1}- də C-H deformasiya, 2530, 2674 sm^{-1}-də N^+ -H rəqsləri zolaqları vardır.

Bu reaksiya ilə alınmış kompleksin hesablama üsulu ilə element tərkibi hesablanmışdır. Müəyyən olunmuşdur ki, heptadekan turşusunun DEA ilə əmələ gətirdiyi kompleksdə karbonun kütlə payı 66.4 %, hidrogenin külə payı 12 %, oksigenin kütlə payı 17.7 %, azotun kütlə payı 3.9 % -dir.

Heksadekan turşusunun DEA ilə əmələ gətirdiyi kompleksin müxtəlif qatılıqlı məhlulları 21°C temperaturda su-hava sərhədində tenziometr vasitəsilə səthi aktivlik xassəsi müəyyən edilmişdir (Cədvəl 1).

Heksadekan və heptadekan turşularının TEA ilə əmələ gətirdiyi kompleksin müxtəlif qatılıqlı məhlulları 21 °C temperaturda su-hava sərhədində tenziometr vasitəsilə səthi aktivlik xassəsi müəyyən edilmişdir (Cədvəl 1).

Cədvəl 1

Heksadekan və DEA kompleksinin hava-su sərhədində səthi aktivliklərinin tədqiqatı nəticələri (t =21 °C)

SAM-ın qatılığı (% kütlə ilə)											
0.00025	0.0005	0.00075	0.001	0.0025	0.005	0.0075	0.01	0.025	0.05	0.075	0.1
Hava-su sərhədində səthi gərilmənin qiymətləri, $mN \cdot m^{-1}$											
67.1	58.9	54.9	52.5	45.4	41.6	39.7	38.6	36.7	36.2	35.5	35.2

Heksadekan turşusunun DEA ilə əmələ gətirdiyi kompleks isə səthi gərilməni həmin sərhəddə 71.98 mN/m-dən 35.2 mN/m -ə endirməklə yüksək səthi-aktivlik nümayiş etdirir.

İstifadə edilmiş ədəbiyyat

1. *Hamdan L.J., Fulmer P.A.* // Aquatic microbial ecology, 2011. V. 63. P. 101.
2. Khatoonabadai, A.; Dehcheshmeh, A.R.M. Int. J. Environ. Pollut. 2006, 26, 347.
3. Kostka J.E., Prakash O., Overholt W.A. et al.//Appl. Environ. Microbiol. – 2011. – 77, № 22. – pp.7962-7974.
4. Levy J.K., Gopalakrichnan Ch..// J.Natural Resources Policy Res. – 2010, – 2, № 3. – pp.297-315.
5. *Wang Z., Stouts.* Oil spill environmental forensics: fingerprinting and source identification. London: Elsevier, 2010.
6. Zhu K., Shang Y-Y., Sun P.-Z.et. al.// Froniers Materials Science.- 2013.-7, № 2. –pp.170-176

HEYDƏR ƏLİYEV – TƏHSİLİN ƏN BÖYÜK HİMAYƏDARI

Sahilə Rafiq qızı İbrahimova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
sahila.ibrahimova@yahoo.com

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və onun uğurlu siyasəti nəticəsində bu gün dövlətimiz yeni inkişaf dövrünə başlayıb. Onun ürəyi daim Azərbaycan xalqının müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xöşbəxtliyi üçün çırpınıb. Ulu Öndər Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıq göstərib, ölkəsini bəlalardan qurtarmaq üçün əlindən gələni edib və bunu da bacarıb. Azərbaycanı inkişaf etdirmək, söhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi.

Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə elm və təhsilin inkişafına xüsusi qayğı və həssaslıqla yanaşıb. Bu da təsadüfi deyildir. Çünki dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın inkişafının yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsində, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir. Heydər Əliyev elm və təhsilin ən böyük himayədarı idi.

Hər bir insan ömrün həyatı boyunca özünəməxsus xatirələr izləyir. Xatirələr dünən və gələcək gün arasında körpü rolu oynamaqdan başqa, həmin xatirələri yaşadan, konkret olaraq bir insan həyatını mənalandıran, kimliyini təyin edən, mənəvi aləmini, könül dünyasının qiymətləndirən bir meyardır. Ümummili Liderimizin həyatını izlədikdə isə görürük, milləti, xalqı, dövləti üçün həmişə can yandıran, bütün sahələrdə ən düzgün, ən yaxşı qərarlar verən bir prezident olmuşdur.

Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Bu dahi insan düşüncələri zəngin olduğu qədər tükənməz enerjiyə malik idi. Heydər Əliyevi milyonlardan fərqləndirən üstün cəhəti bu idi ki, o dövlətinin inkişafı üçün vacib olan məqamları görə bilirdi, qarşısına məqsədlər qoyurdu və insanları bu məqsədlər naminə səfərbər edirdi, qüvvələri səmərəli şəkildə istiqamətləndirirdi.

Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşırdı. Bu da təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.

"Bizim bugünkü gəncliyimizin sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir" - deyən Ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin daha möhkəmləndirilməsi və gənclərin aparıcı qüvvəyə çevrilməsində əvəssiz xidmətləri olmuşdur. Dahi Liderin Azərbaycan gəncliyinə göstərdiyi qayğının nəticəsi olaraq 19995-ci ildə Azərbayacan Gənclərinin Formunun keçirilməsi təşəbbüsü irəli sürülmüş və 2 fevral 1996-cı il ildə isə müstəqil Azərbaycan

gənclərinin ilk forumu keçirildi [1, s.161-162]. Onun gənclərə olan diqqəti və qayğısı gənclərin elm, təhsil sahəsində inkişafa yol açırdı.

Ulu öndər Heydər Əliyev daha uzaqgörən lider və cəsur insan idi. Ümummillil liderimiz Heydər Əliyev həyatını doğma xalqına həsr edib. Azərbaycan xalqının Ümummilli Lideri müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev hər zaman xalqına ləyaqətlə, səqadətlə xidmət göstərmişdir. Bu xidmət ən çox da təhsil sahəsində olmuşdur. Cəmiyyətin hansı vəziyyətdə olmasından asılı olmayaraq, Ulu Öndər daima xalqının, xüsusən də gənclərin ona olan dəstəyini hiss edərək, Azərbaycanı bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də inamla irəli apardı.

Ümumiyyətlə, təhsilli gənclərin yetişdirilməsi daima dahi lider Heydər Əliyevin diqqət mərkəzində olubdur. Ümummilli Liderin söylədiyi kimi müstəqilliyi əldə etmək çətindir, lakin onu qoruyub saxlamaq ondan da çətindir [2, s.131]. Gənciliyin təhsilli olması bir dövlətin, ölkənin inkişafı deməkdir.

Gənclərin ruhunun sağlam olması, onaların savadlı olması, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün əhəmiyyətlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdisə inkişaf inteqrasiya da onların adı ilə bağlıdır. Cəmiyyətin gələcəyi gənclərdir və gələcəyini düşünən hər bir cəmiyyət gənclər böyük əhəmiyyət verir. Beləliklə, ölkə özünü xöşbəxt və firavan sabahını təmin etmək istəyirsə üçün faktiki olaraq vacib addımlar atmışdır.

Banisi Ümummilli lider Heydər Əliyev olan və onun böyük uğurla davam etdirən Prezidentimiz İlham Əliyev elm sahəsində gördüyü işlərin nəticəsi olaraq tam deyə bilərik ki, bu gün Azərbaycan təhsilinin inkişafı, uğurları dünya təhsili arasında nüfüz qazanmağa yol açıb. Buna ən gözəl nümunə Qarabağ Universitetinin yaradılması oldu. Qarabağ Universiteti qalib dövlətimizin yüksək eləm və təhsilinin, uğurlu və sürətli inkişafının nümunəsi olaraq dünyanın təhsil məkanında yeni imza olacaqdır. Bu nüfuzun qorunması və təhsilimizin, elmimizin inkişaf etdirilməsi hər bir Azərbaycan gəncinin borcudur.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. Bakı. Azərnəşr. 1998. 500 s.
2. Əliyev İlham. İnkişaf – məqsədimizdir. İyirmi ikinci kitab. Bakı. Azərnəşr, 2015, 384

HEYDƏR ƏLİYEV – ƏBƏDİYAŞAR LİDERİMİZ

Günel Zöhrab qızı Allahverdiyeva
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
babayeva2009@hotmail.com

Xalqımızın Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev bəşəriyyətin yetirdiyi dahi şəxsiyyətlərdəndir. Müasir Azərbaycan dövlətinin bütöv bir qərinəsini, 34 illik bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi, elm, təhsil və səhiyyənin, eləcə də mədəni həyatımızın bütün sahə və istiqamətlər üzrə dirçəlişi Ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu illərdə Heydər Əliyev rəhbəri olduğu Azərbaycanın bütün məsuliyyətini üzərinə götürmüş, onu bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağırvə sərt sınaqlarından uğurla çıxarmış, müasir Azərbaycanın etibarlı bünövrəsini yaratmışdır.

Ulu Öndərimiz böyük işlər görmək, xalqını irəliyə aparmaq üçün yaranmışdı. Bu keyfiyyətlər onda fitrətən vardı. Onun liderlik bacarığı, potensialı çalışdığı bütün işlərdə, tutduğu bütün vəzifələrdə özünü bariz şəkildə göstərmişdi. Ulu Öndərimiz Azərbaycana rəhbərliyinin hər iki mərhələsində qarşıya qoyduğu ali məqsədlərə doğru irəliləyərkən təkcə daxili inamına, yüksək intelektinə və parlaq zəkasına deyil, həm də ictimai etimada əsaslanmış, ən böyük dəstəyi xalqdan almışdır. Heydər Əliyev dühasının böyüklüyü həm də onun daim xalq qarşısında yüksək mənəvi və

siyasi məsuliyyət hissi daşıması, İctimai inamı doğrultmaq üçün böyük səylə, əzmlə, vicdanla çalışması olmuşdur. Siyasətə idealların realizə vasitəsi kimi yanaşan böyük strateq bütün məsələlərdə daim ümumxalq mənafeyindən çıxış etmiş, hakimiyyətdə olduğu hər iki mərhələdə eyni əzmlə, həvəsla çalışma qarşıya qoyduğu hədəflərə yetişmək üçün büt gafərbər etmişdir. Məhz bu keyfiyyətləri sayəsində Heydər Əliyev millətə, xalqa rəhbərlik edərək ümummilli lider zirvəsinə qədər ucalmışdır. Şəxsiyyət miqyasının böyüklüyü ona hələ sağlığımda ümummilli liderlik zirvəsini fəth etmək imkanı vermişdir. "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, irad verib və bütün uğurlarımı təmin edib" [4]. Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar dövlətçiliyimizin ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət ha sözlərdəki həqiqəti dəfələrlə təsdiqləyib. Azərbaycan dövlətçiliyi çevriliş cəhdi ilə silkələnəndə Heydər Əliyev xalqa müraciət etdi, onun Azərbaycanın müstəqilliyinin müdafiəsinə çağırdı. Həmin müraciətdən dərhal sonra on minlərlə insan gecə saatlarına baxmayaraq, Prezident Sarayının qarşısına toplaşdı, ulu öndərə dəstəyini nümayiş etdirdi. Heydər Əliyev Azərbaycanın güclü dövlətçilik xəttini, onun siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli intibah və inkişalin təməl sütunu olan ideyanın azərbaycançılıq məfkurəsini banisi oldu. Çünki o, vətənpərvər lider olmaqla bərabər eyni zamanda böyük azərbaycanlı idi. Heydər Əliyev Azərbaycanın türk dünyasında özünə layiq yer tutmas türk dövlət va toplumları arasında inteqrasiyanın güclənməsində böyük xidmətlər göstərib. Onun tarixi səyləri nəticəsində dahi Məhəmməd Füzulinin 500 illik yubileyi, böyük türk dastanı "Kitabi-Dədə Qorqudun 1300 illik yaşı YUNESKO səviyyəsində, bütün dünyada qeyd olunub. Onu vurğulamaq hökmən lazım gəlir ki dastanın yubileyini yüksək səviyyədə keçirilməsi ancaq xalqımızın öz mənəvi keçmişinə daha sıx bağlamaqdan ibarət deyildi, Ümummilli Lider bununla tərəqqipərvər siyasi, bəşəriyyətə öz mənsub olduğu xalqın hansı dəyərlərin daçıyıcısı olduğunu göstərirdi. Bunları nəzərdə tutaraq 2000-ci il aprel ayının 9-da Dastanın 1300 illik yubileyində prezident Heydər Əliyev deyirdi:

"Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhə- miyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır. Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır [2].

Ümummilli Liderimiz bu çıxışında da həmişə olduğu kimi, öz xalqının keçdiyi möhtəşəm yolun qətiyyən hamar olmadığını, tarixinin müəyyən məqamlarında müxtəlif keşməkeşli hadisələrdən keçdiyini, hətta böyük itkilərə məruz qalmasına baxmayaraq insanlığın ən uca məziyyətlərini itirmədiyini, əksinə inkişaf etdirərək qoruduğunu qeyd etməyi lazım bilir.

Tarixin inkişaf dialektikasını dərindən bilən və əlbəttə, həmin inkişaf xəttinin dayandırıl-masının qeyri-mümkünlüyünə də inanan Heydər Əliyev onu ləngidə bilən xüsusi amillərin mövcudluğu faktını yada salır, həmin faktların aşkar edildiyi məqamlarda xalqın daxili potensialının işə düşəcəyinə inamını ifadə edirdi. Bunları nəzərə alaraq, Ümummilli Lider tarixi yubiley tədbirində deyirdi: "Bizim xalqımız bu gün "Kitabi-Dədə Qorqud"un bu vəsiyyətlərinə sadiqdir. Ermənistan tərəfindən Azərbaycana edilən təcavüz nəticəsində torpaqlarımız 20 faizi işğal olunubdur, işğal edilmiş ərazilərdən bir milyondan artıq azərbaycanlı yerindənyurdundan didərgin düşüb çadırlarda ağır vəziyyətdə yaşayırlar. Biz böyük zərbələr almışıq. Amma bunlara baxmayaraq, Azərbaycan xalqı yenə də bütün dünyaya öz sülhsevərlik siyasətini nümayiş etdirir. Biz Dədə Qorqud yolu ilə gedirik. Biz sülh yolu ilə gedirik. Biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz bütün ölkələrdə, türkdilli ölkələrdə sülhün, əmin-amanlığın bərqərar olunmasını istəyirik. Beləliklə, bu gün biz yubiley günündə Dədə Qorqud vəsiyyətlərinə sədaqətimizi bir daha nümayiş etdiririk. "Kitabi-Dədə Qorqud" özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən

abidədir. İndiyə qədər "Kitabi-Dədə Qorqud"un öyrənilməsi və bugünkü nəsillərə çatdırılması yolunda xeyli iş görülübdür" [2].

Ümummilli Liderimiz həmin görülən və görülməli işlərdə Azərbaycan elm adamlarının daşıdığı məsuliyyət yükünü bir daha xatırladır, onların qarşısında duran vəzifələrin nə qədər mühüm olduğunu göstərir. Prezident Heydər Əliyev buna görədir ki, Azərbaycanda siyasi hakimiyyətdə olduğu hər iki dönəmdə elm və incəsənət insanlarının ən yaxın dostu olmuş, onların hamisinə çevrilmişdir. O, elmin qiymətini bilirdi və buna görə də tariximizin hər bir məqamına ancaq elmi yanaşmaları zəruri sayır, həmin yanaşmaların cəmiyyətə və xalqa verə biləcəyi faydaları diqqətə çatdırırdı:

Bütün bunlarla yanaşı, Heydər Əliyevin azərbaycançılığı milli ideya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi və dünya azərbaycanlılarının həmrəyliyi naminə göstərdiyi tarixi xidmətdir.

Çünki məhz bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin qarşı ında güclü ideoloji sipər oldu. Bu ideologiya Heydər Əliyevin böyük vətəndaş hünərinin göstəricisidir və dünya azərbaycanlılarının tarixi Vətən Azərbaycan ətrafında birləşməsinə müstəsna töhfədir. Azərbaycançılıq öz milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə sintezindan, inteqrasiyasından bəhrələnmək deməkdir. "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Böyük ön dərin Dünya Azərbaycanlılarının I Qurultayında söylədiyi bu tarixi sözlər onun müdrik siyasəti kimi zamanm sınağından uğurla çıxmaqdadır.

Xalqımız Heydər Əliyev siyasətinə olan yüksək etimadın sayəsində dövlətə, hakimiyyətə inamı bərpa etmişdir. Məhz bu inam da cəmiyyətin hərtərəfli inkişafına güclü təkan vermişdir. Bu mənada, Heydər Əliyevin siyasi irsinin alternativsizliyi təkcə praktik məsələlərdə özünü təsdiqləməmişdir-bu amil cəmiyyətin ideoloji yetkinləşməsi baxımından da ciddi əhəmiyyətə malikdir. Şübhəsiz, hüquqi, demokratik, dünyəvi dövlət məhz demokratik qanunlar əsasında yaradılır. Dünyanın demokratik ölkələrində isə dövlətin hüquqi təməlini Konstitusiya təşkil edir, digər qanunlar məhz onun əsasında hazırlanaraq qəbul edilir. 1995-ci il noyabrın 12-də ulu öndərin təşəbbüsü əsasında Azərbaycan Respublikası Konstitusiyasının referendumla qəbul edilməsi ilə respublikamız hüquqi və demokratik dövlət quruculuğu yolunda inamla addımladığını bir daha dünyaya nümayiş etdirmişdir. Bu mərhələdən hüquqa və ədalətə söykənən dünyəvi cəmiyyətin formalaşdırılması üçün, ilk növbədə, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması prosesi davam etdirilmişdir.

Təsadüfi deyil ki, Konstitusiya layihəsinin yekun müzakirəsində Azərbaycan Respublikasının prezidenti bunları nəzərə alaraq demişdi: "Bu gün biz ölkəmizin bütün ictimaiyyəti qarşısında, dünya ictimaiyyəti qarşı sında deyə bilərik ki, Azərbaycan Respublikasının, xalqımızın tarixində ilk demokratik konstitusiya yaranmasında biz bilavasitə iştirak etmişik və bu layihənin yaranması ki, bizim hamımızın birlikdə məhsuldar əməyimizin, fəaliyətimizin nəticəsidir. Komissiya öz işinə başlayarkən mən demişdim ki,bizim üzərimizə böyük məsuliyyət düşür. Biz gələcək nəsillərin qarşısında çox cavabdeh olacağıq. Eyni zamanda üzərimizə böyük və şərəfli bir vəzifə düşür. Bu gün mən deyə bilərəm ki, komissiya üzvlərindən heç kəs narahat olmasın. Mən buna tam əminəm. Çünki üzərimizə düşən məsuliyyəti biz vicdanla, xalqımıza, vəzifəmizə sədaqətlə həyata keçirmişik və gördüyümüz işə, xalqa təqdim etdiyimiz layihəyə görə fəxr edə bilərik. Hesab edirəm ki, bütün gələcək nəsillərdə meydana çıxacaq sualların hamısına burada cavab var. Yəni biz tarixi bir sənədin yaradılmasının iştirakçılarıyıq və bununla fəxr edə bilərik".

Dövlətimizin Ana Qanunun "tarixi bir sənədin" meydana gəlməsi işində xidmətlərini təvazökarcasına "tarixi sənədin yaradılmasında iştirakçı" kimi dəyərləndirən ümummili lider ölkənin Ali sənədinin hansı xüsusiyyətlərinə görə fərqləndiyini belə təqdim edirdi: "Mən şəxsən bu sənədin hazırlanmasına böyük məsuliyyət hissi ilə yanaşmışam. Çünki mənim çoxillik həyat yolumda olan təcrübəm və keçmişdə, bəzi mərhələlərdə ağır sınaqlarda olduğum illərdə qarşımda duran çətinliklərin hamısı məni daha da məsuliyyətli olmaq üçün formalaşdırıbdır. Ona görə də komissiyanın sədri kimi şəxsən mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir

sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesah məliyik. edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd-siyasi, hüquqi sənəd yaratmışıq. İndi komissiyanın layihəsini təhlil etməyə ehtiyac yoxdur. Çünki burada, bu salonda olan şəxslərin hər biri bu konstitusiya layihəsini hazırlayanlardır, onun iştirakçılarıdır. Yenə də deyirəm, bu, hamımızın birgə yaradıcılığımızın nəticəsidir, zəhmətimizin məhsuludur. Ancaq bir neçə məqama toxunmaq istəyirəm. Bizim konstitusiya layihə sinin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, xalqımızın, respublikamızın tarixində bu, ilk, tamamilə sərbəst, müstəqil şəkildə yaranmış konstitusiyadır".

Əlbəttə, ölkəmizin həyatındakı ən mühüm Ali sənədin hazırlanması işinə rəhbərlik etməklə bərabər, onun hər bir sözü və fikrinə sonsuz məsuliyyət hissi ilə yanaşmaq prezident Heydər Əliyevin şəxsi göstəricilərinin bir nümunəsi olaraq maraqlıdır. Daha maraqlı cəhət ondan ibarətdir ki, zəngin dövlətçilik təcrübəsi Azərbaycan Sovest Sosialist Respublikasının nominal müstəqilliyini ehtiva edən müqayisənin aparılması üçün ümummilli liderə imkan verir: "Ümumiyyətlə, deyə bilərəm ki, ilk konstitusiyadır. Keçən iclaslarımızda Azərbaycan Respublikasının konstitusiya tarixi haqqında danışıldı. Biz 1921-ci ildə, 1937-ci ildə və 1978-ci ildə qəbul olunmuş konstitusiyalar haqqında danışdıq. Bu konstitusiyalar Sovetlər İttifaqının tərkibində olan, sosialist quruluşuna mənsub olan respublikanın konstitusiyaları olmuş, amma eyni zamanda 70 il müddətində xalqımızın, Azərbaycan Respublikasının tarixi yol keçməsində, yaşamasında və gəlib bu günlərə çatmasında böyük rol oynamışdır. Biz tarixə daim hörmətlə yanaşmalıyıq, keçmişimizi qiymatixə dirməliyik. Bu gün mən o konstitusiyanı yaradanlara və o konstitusiya əsasında on illər boyu Azərbaycanda görülmüş işlərə hörmət və ehtiramımı bildirirəm. Ancaq hazırda yaranan konstitusiyanın layihəsi indiyə qədər olan bütün konstitusiyaların, qanunların hamısından tamamilə fərqlənir. Ona görə fərqlənir ki, bu, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır. Bu, Birləşmiş Millətlər Təşkilatının üzvü olan, dünya birliyində bərabərhüquqlu yerini tutmuş Azərbaycan dövlətinin Konstitusiyasıdır. Fərqlənir ona görə ki, bu konstitusiya Azərbaycan xalqının iradəsini ifadə edərək, heç bir mərkəzdən idarə olunmadan, bizim, yəni konstitusiya komissiyasının və konstitusiya layihəsi hazırlanmasında bizimlə bərabər iştirak edən geniş miqyaslı vətəndaşlarımızın əməyinin nəticəsidir. Yəni bizim sərbəst, müstəqil fəaliyyətimizin nəticəsidir. Ona görə də bu konstitusiya layihəsi əvvəlki bütün kons- titusiyalardan fərqlənir və tarixi əhəmiyyət kəsb edir".

Ümummilli Liderin ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahat-ların qayəsində məhz insana qayğı, insan ləyaqətinə, şəxsiyyətinə hörmət prinsipi dayanmışdır.

Ümumiyyətlə, bu gün Azərbaycan dövlətinin tarixində baş verən dəyişikliklər və yüksəlişləri nəzərdən keçirərkən, cəsarətlə deyə bilərik ki, Azərbaycan dövlətinin hərtərəfli inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

İstidadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev və mədəniyyət (müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar). 3 cilddə (birinci cild), 1969-1982, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008

2. Heydər Əliyev və mədəniyyət (müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar). 3 cilddə (ikinci cild), 1997-1998, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008

3. Heydər Əliyev və mədəniyyət (müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar). 3 cilddə (üçüncü cild), 1999-2003, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008

4. Mahirə Hüseynova. Missiya. Bakı, 2019

5. Timuçin Əfəndiyev. "H. Əliyev və milli-mənəvi dəyərlərimiz" Monoqrafiya Bakı, 2011

6. Şahin Mustafayev. "Heydər Əliyev–Müadsir Azərbaycanın qurucusu" http:/wwww.economomy go.az. /index

MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏT STRATEGİYASI

Şəhla Qənbər qızı Xəlilova
fizika üzrə fəlsəfə doktoru
ETN Fizika İnstitutu
shahlaganbarova@gmail.com

Hər bir xalqın tarixində unudulmaz şəxsiyyət, müdrik lider olub və hər bir xalq öz tarixi lideri ilə fəxr edir. Heydər Əliyev Azərbaycan xalqın taleyinə öz müdrik uzaqgörənliyi ilə silinməz iz qoyan liderdir. Müasir Azərbaycanın təməlini qoymuş, ölkəmizin müstəqilliyi və inkişafı naminə əvəzedilməz işlər görmüş, hər zaman qürur hissi ilə xatırlayıb və fəxr edəcəyimiz Ümumimilli lider Heydər Əliyev dahi şəxsiyyətdir. Öz uzaqgörən siyasətilə və taleyüklü məsələlərin həllini öz üzərinə götürməklə dünya siyasətinə təsir göstərdir. Heydər Əliyev öz ensiklopedik zəkasıyla böyük siyasətçi kimi tarixə düşdü. Heydər Əliyev həqiqətən də əfsanəvi şəxsiyyətidir. Ulu öndər Hüydər Əliyev hər zaman xalqın yanında olmuşdur. Məhz Heydər Əliyevin siyasi təcrübəsinin nəticəsidir ki, indi Azərbaycanda sabitlik və torelantlıq var [15].

Azərbaycan xoşbəxt dövlətdir ki, onun belə güclü lideri olub. Dünyanın bir çox ölkəsində insan və cəmiyyətin həyatında geosiyasətin rolu son dərəcədə artmışdır. Lakin ölkə və regionlarda siyasi problemlər və vəziyyətlər müxtəlif olsa da, daxili və beynəlxalq proseslərin əksəriyyəti oxşardır: inteqrasiya-dezinteqrasiya, əməkdaşlıq-konflikt, tərəqqi-böhran və s. Məhz bu tipli problemləri həll etmək üçün ölkəyə dünyagörüşlü siyasətçi lazımdır. Dünyada beş minə yaxın xalq yaşayır ki, onların hamısının öz müstəqil dövləti yoxdur. Yalnız iki yüzə yaxın xalqın öz dövləti var. Və biz xoşbəxt xalqıq ki, biz məhz bu iki yüz xalqın sırasındayıq. Kim bilir, bəlkə də beş min xalqın içərisində olacaydıq əgər Heydər Əliyev olmasaydı. XX əsrdə Azərbaycanın tarixində iki dəfə dönüş olmuşdur. Birinci dəfə 1969-1982- ci illərə təsadüf edir. Yeni Azərbaycanın quruculuğu dövrü məhz o dövürdən başlandı. Demək olar ki, bu quruculuğa 40-cı illərdən başlamışdır. Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinədək ucaldıqda başlanmışdır. Onun məqsədyönlü və səmərəli fəaliyyəti nəticəsində xalqımızın layiqli övladlarının fəal sürətdə Dövlət Təhlükəsizliyi Komitəsinə işə cəlb olunmasında başlanmışdırş [12].

Heydər Əliyev XX əsrin bütün dünya tərəfindən qəbul edilən və qiymətləndirilən parlaq simalarındandır. Heydər Əliyev Müstəqil Azərbaycan Dövlətinin banisidir. O, öz həyatını Azərbaycanın tərəqqisinə və çiçəklənməsinə, beynəlxalq aləmdə tanınmasına həsr etmişdir. Onun üçün dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanılması, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, Azərbaycanda demokratik dövlət quruculması hər şeydən öndə gəlir. Heydər Əliyev həmişə vurğulayırdi ki, bir dövlətin güclü iqtisadiyyatı olmalıdır. Və bunu da bilirdi ki, uğura gedən yol təhsildən keçir. Ona görə Umummilli lider Heydər Əliyev birinci növbədə təhsildə islahatlara başladı. Elmin əsasları, ali məktəblərə və elmə gedən yol ümumtəhsil məktəblərindən keçir. Buna görə də savadlı gənclər yetişdirilməsi üçün ümumtəhsil məktəblərinin təhsilinə diqqət yetirmək lazımdır. Ulu öndər Heydər Əliyev bununla əlaqədar orta ümumtəhsilə dair qayğı göstərirdi [6].

XX əsrin tarixinə nəzər salsaq görərik ki, müstəqilliyin bünövrəsi o vaxtdan başlanmışdır. Heydər Əliyev 1969-cu ildə respublikanın siyasi rəhbərliyinə gələndə Azərbaycanın taleyi yaxşıya doğru dəyişdi. 1969-1982 illər Azərbaycan istər social-iqtisadi, istərsə də ictimai-mədəni sahələrdə güclü inkişaf yolu keçməyə başladı. Elə həmin dövrdə demokratik idarəetmənin ilk rusşeymləri yarandı.

Sovet dönəmində azərbaycan kadrları, demək olar ki, cox az idi, SSRİ-in ən nüfuzlu ali məktəblərində azərbaycan gənclərinin təhsil almasının da şansı yox idi. Heydər Əliyevin hakimiyyətə gəlişi azərbaycan gənclərinin gələcəyinə işıq saçdı. 1970-1980-ci illərdə Heydər Əliyevin sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 170 dən çox ən nüfuzlu ali məktəblərində tibb, xalq təsərrüfatı, elm, təhsil, incəsənət və mədəniyyət sahələrini əhatə edən və ehtiyac duyulan ixtisas üzrə 15 000 artıq azərbaycanlı gənci ali təhsil almışdır. Hərbi milli kadrların hazırlanması da, Heydər Əliyevin diqqətindən kənarda qalmadı. Azərbaycan gəncləri sistemli şəkildə SSRİ-nin ali hərbi məktəblərinə göndərildi. 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə

Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradılmasını da xüsusi vurğulamaq lazımdır. C. Naxçıvanski adına hərbi məktəbin yaradılması Azərbaycanda hərbi məktəblərlərin inkişafına sonrakı dövrlərdə də mühüm rol oynadı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universiteti yaradılıb. Həmçinin Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına hərbi litsey, Cəmşid Naxçıvanski adına hərbi litsey və Tibb Universitetinin Hərbi Tibb Fakültəsi də Milli Müdafiə Universitetinin adı altında fəaliyyət göstərəcəklər [5; 7; 8]

Qürur hissi ilə demək olar ki, bu gün müstəqil Azərbaycanın milli ordusuna rəhbərlik edən zabitlərin əksəriyyəti məhz Heydər Əliyevin o illərdə təhsil almağa göndərilən gənclərdir.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldiyi gündən ölkədə ilk olaraq daxilində ictimai-siyasi əsayişi bərpa etdi. Hərbi qanunları əsasında ordu yaradılmasına başladı, atəşkəsi bərpası üçün məsələləri həll etdi, hər tərəfli inkişaf proqramı hazırladı və həyata keçirtdi. 1995-ci ildə Heydər Əliyevin göstərişi və tövsiyəsi ilə məharət qabiliyyətli və xüsusi bacarığı olan hərbi biliyə yiyələnmək istəyən vətənpərvər gənclərin sərhəd qoşunlarında kadrların hazırlanması məqsədi ilə xüsusi kurslar açıldı. Həmin kursların müdavimləri uğurla öz peşə bacarıqlarını və xüsusi ixtisaslarını təkmiləşdirərək, sərhəd qoşunların inkişafında dəniz və quru sərhədlərini, habelə hava sərhədlərinin qorunmasında, etibarlı mühafisəsində fasiləsiz olaraq həyata keçirmişlər. Bu illər ərzində sərhəd qoşunları qarşısında duran mühüm tapşırıqların yerinə yetirilməsində bir sıra uğurlu nəticələr və naliyyətlər əldə olunmuşdur. Sərhəd qoşunlarının yaranmasında ulu öndərin, Respublikanın dahi memarı, idealları ölməz, bəşəri prinsiplərlə xalqına dəyərli olan Heydər Əliyevin rolu əvəzsizdir.

Heydər Əliyev üçün hər şeydən öndə gənclərdə azərbaycançılıq məfkurəsinin və milli ruhun inkişafı, ana dilinin unudulmaması idi. Bu öz növbəsində xarici siyasətə təsiri var idi. Çünki öz ana dili olmayan xalq dünya tərəfindən tanıla bilməzdi. Odur ki, Azərbaycan dili Dövlət dili kimi qəbul olunması o zamanlar üçün çətin olsa da Heydər Əliyev buna nail oldu. Bu akt Azərbaycan SSRİ-in 1978-ci il Konstitusiyasında təsbit olundu [2]. Sovet dövründə bu cəsarətli addım idi. Heydər Əliyevin ikinci hakimiyyət dövründə də bu məsələ diqqətdən kənarda qalmadı. Heydər Əliyev 1995-ci ildə referendumla qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində dövlət dilimizin Azərbaycan dili olması öz əksini tapdı. 2001-ci ildə Ulu öndər Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı [410. Bu Fərmanın əsas məqsədi dilimizin inkişafı və tətbiqində yaranan problemlərin aradan qaldırılması və Dövlət Dil Komissiyasının yaradılması idi.

Azərbaycan 1991-ci ildə müstəqillik əldə etsə də, problemlərlə qarşı-qarşıya idi. Ciddi sosial, iqtisadi problemlər cərəyan edirdi. Azərbaycanın əldə etdiyi müstəqilliyi itirmək təhlükəsi var idi. Sənətdə müstəqillik, idarə etmədə Moskvadan asılılıq... Azərbaycan müstəqilliyini elan etsə də, İmperiya öz əlini Azərbaycandan çəkmək istəmirdi, digər tərəfdən bu vəziyyətdən istifadə edib hakimiyyətə gəlmək istəyən qüvvələrin vuruşması... Nəticədə uduzan xalq olur, Azərbaycan olur. Daxildə yaranan vəziyyətdən istifadə edərək düşmənlərimiz tərəfindən torpaqlarımız işğal olunur. Təbii ki, Azərbaycanı belə bir vəziyyətdən yalnız idarəcilyi bilən bir lider çıxarda bilərdi. Belə bir vaxtda xalqımız, Azərbaycan ziyalıları 1993-cü ildə Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli lider Heydər Əliyevə müraciət etdi. Ulu öndər xalqın müraciətinə səs verdi. Ulu öndər bilirdi ki, milli idealogiya olmasa Azərbaycan da olmayacaq. O, 1969-cu ildə birinci hakimiyyət dövründə başladığı və apardığı kommunist idealogiyası ilə paralel azərbaycançılıq idealogiyasını da həyata keçiridi. Ulu Öndərin ikinci hakimiyyət dövründə həmin azərbaycançılıq idealogiyasını gündəmə gətirdi. Bunula, Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etdi [13]. Ümummilli lider Heydər Əliyevin haqqında fəxrlə onu deyə bilərəm ki, bəşər tarixində nadir rast gəlinən haldır ki, siyasi liderlik keyfiyyətlərini bir dövlət adamı özündə birləşdirsin. Heydər Əliyevin 1993-cü il 24 iyunda Prezident səlahiyyətlərinin icra etməyə başlaması belə ayrıca böyük

bir tarixdir. İndi Azərbaycan dünyada güclü və nüfuzlu dövlət kimi tanılır. Ölkəmizin inkişafında uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır.

Beləliklə, 1993-cü il iyunun 9-da Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi, və iyunun 15-də isə Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi Azərbaycanın taleyində çühüm hadisə oldu. Nəticə etibarilə, Ümummilli Lider Azərbaycanı vətəndaş müharibəsindən xilas etdi.

Bəli, 1993-cü ilin 15 iyun tarixində Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. O, sədr seçildiyi ilk gündən idarəçilikdə şəffavlıq prinsipinə nail oldu. Milli Məclisin iclasları, mətbuat konfransları və digər tədbir və iclaslar birbaşa yayımlanmağa başlanıldı. Ölkədəki vəziyyət olduğu kimi xalqa çatdırıldı. 1993-cü il 24 iyunda keçirtdiyi iclasında Milli Məclis Prezident səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə verilməsi barədə qərar qəbul etdi. Bu da bütün hadisələrin dövlətin nəzarəti altına götürülməsi demək idi. Heydər Əliyev öz fəaliyyətini ilkin olaraq ölkədə islahatların aparılması ilə başladı. Ölkənin bütün sahələrində: elm, təhsil, səhiyyə, mədəniyyət, iqtisadi və siyasi sahələrdə böyük islahatlara başlandı. Ümummilli Liderin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi dövrlərdə ordu quruculuğu sahəsində mühüm qərarlar, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Ordu quruculuğu sahəsində daha böyük islahatlara başlandı. Məhz bu günkü qələbəmiz həmin islahatların nəticəsidir. Ulu Öndərin apardığı islahatlar uğurla həyata keçirilirdi, çünki ədalətlilik prinsipinə əsaslanırdı. Dövlət quruculuq işinə xüsusi diqqət yetirirdi [15].

Cənubi Qafkaz diqqətçəkən regiondur. Bunu 300 il ərzində baş verən hadisələr təsdiq edir. Son dövrdə erməni işğalına son qoymağa çalışmaq əvəzinə ATƏT-in Minsk qrupu bu məsələni daha da uzadırdı. Bu da Cənubi Qafqazı geosiyasətin həssas hissəsinə çevirmişdi. 44 günlük Vətən müharibəsi geosiyasi-hərbi proseslərə nida qoydu. Qazanılan Zəfər Cənubi Qafqazda geosiyasət yaratdı [1,3,14].

Azərbaycan Respublikasının enerji sənayesi Qafqazda əsas sənayedir. SSSR-ri dağıldıqdan sonra hər bir respublikanın hökuməti öz ölkəsini ayağa qaldırmağa çalışırdı. Belə çətinliklər Azərbaycanda da oldu. Qeyd etmək vacibdir ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan böyük uğurlara imza atmışdır. 1990-cı illərin əvvəllərində sənayenin və iqtisadiyyatın bütün sahələrində, o cümlədən energetikada dağıdıcı proseslər dayandırıldı. Bildiyimiz kimi, mənfur düşmən torpaqlarımızda 30-dan çox elektrik stansiyasını dağıdıb. 2021-ci ildən bu stansiyaların bərpasına başlanılıb.

Bir neçə ölkələr var ki, onların iqtisadi maraqları Bakının maraqları ilə üst-üstə düşür. Bu ölkələrin içində Türkiyyə əsas roldadır. Bu maraqlar enerji və nəqliyyat sahələrində layihələrə imza atmaqda imkan yaradır. Türkiyənin strateji kursunun əsas məqsədi Cənubi Qafkazda geosiyası təsirini gecləndirməyə imkan verən enerji axınlarının mərkəzinə çevrilməkdir [3,5,6,14].

1990-2020-ci illər Azərbaycan üçün elə də asan dövr olmadı. Cənubi Qafqazda geosiyasi baxımdan çətin bir durum yaratmışdı. Bəzi qüvvələr ikili standartlar fəaliyyət göstərirdilər. Bu qüvvələr Cənubi Qafkazda konfliklərin bitməsini əngəlliyirdilər. Cənubi Qafkazda marağı olan ölkələr öz maraqların xeyrinə oyun aparırdılar. Bu oyunun da nəticəsi Ermənistanın işğalçı siyasətini əbədiləşdirmək idi. Lakin Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətini, bu siyasətin davamçısı, Ali Baş Komandan İlham Əliyevin qətiyyətini və iradəsini, çox uğurlu dövlət quruculuğu, milli ruhda böyüyən azərbaycan gənclərinin vətənpərvəlliyini və xalqın milli birliyini nəzərə almamışdılar.

Bu gün biz Qalib Azərbaycanda yaşayırıq. Bu qalibiyyət Ümumimilli lider Heydər Əliyevin uzaqğörənliyinin və prezidentimiz İlham Əliyevin uğurlu siyasətin nəticəsidir.

Prezident İlham Əliyev: "*...Bizim siyasətimizlə bağlı son vaxtlar dünyada aparılan düzgün təhlillər və fəaliyyətimizə verilən yüksək qiymət həqiqəti tam əks etdirir və İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaradıb. Bölgədə yeni əməkdaşlıq imkanları yaranıb. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər, eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb*".

İstənilən inkişaf etmiş dövlət tək öz daxili istisadiyyat və siyasət durumuna əsaslanmır. Xarici siyasət inkişaf etmiş dövlət üçün böyük amildir. Güclü istisadiyyatı olan dövlətin xarici siyasəti də uğurlu olar. Bu baxımdan 1991-ci ildə dövlət istiqlaliyyətini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə, milli mənafeləri qorunmasına yönəlmiş, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur [7].

Xarici siyasət hər bir dövlətin beynəlxalq münasibətlər sistemində mövqelərinin müəyyən edilməsini və möhkəmlənməsini, iqtisadi, siyasi və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın qurulmasını və inkişafını, milli təhlükəsizlik sahəsində mənafelərinin ödənilməsini, regional və beynəlxalq problemlərin birgə səylərlə aradan qaldırılmasını nəzərdə tutur [9, 10] .

Ümummilli lider Heydər Əliyev: "*Biz bu siyasətin təməl prinsiplərini elə şəkildə yaratmışıq ki, yeritdiyimiz kurs dövlət müstəqilliyimizin əbədiləşdirilməsinə və ölkəmizin ərazi bütövlüyünün bərpasına xidmət etsin*". Bütövlükdə həmin prinsiplər müstəqil, dünyəvi və demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləməyə, Azərbaycanın regionda həlledici söz sahibi olmasına, bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrinin qurulmasına əlverişli zəmin yaratmışdır [9, 10] .

Beləliklə, Azərbaycanın keçdiyi yolu və son illərdə aparılan uğurlu siyasətin nəticəsi onu təsdiq edir ki, Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradıb. Və bu regionda Azərbaycan Liderdir!

10 il prezidentlik dövründə Ümummilli Lider Heydər Əliyev xalqına misilsiz xidmətlər göstərdi. Ölkəmizdə ictimai-siyasi vəziyyət düzəldi. Ulu öndərimiz hər zaman söyləyirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Bu da onun uzaqgörən siyasətin nəticəsi idi.

2003-cü ildə xalqına müraciət edərək cənab prezident İlham Əliyev haqqında belə demişdir: "*Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümüdlər bəsləyirəm."*

Budur, 44-günlük müharibənin nəticəsi ilə, Zəfəri ilə cənab prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi və xalqının etimadını doğrutdu.

Biz bu qələbəyə görə müzəffər ali baş komandanımıza, şəhidlərimizə, əsgərlərimizə, zabitlərimizə, qazilərimizə ömrümüzün sonuna qədər borcluyuq. Biz qalib ölkənin qalib vətəndaşıyıq. Bizim üç rəngli bayrağımız Şuşamızda dalğalanır Ümummilli Lider bilirdi ki, o, İlham Əliyevə arxalanaraq, bu günün gələcəyini görürdü və cənab prezident bu günü bizə qismət elədi.

Azərbaycan prezidenti cənab İlham Əliyev Milli Məclisdə çıxışından: "*Mənim üçün Milli Məclis çox əziz və doğma bir yerdir, mənim doğma evimdir....Biz bir məqsədə qulluq edirik. Amalımız da, məramımız da birdir – ölkəmizi möhkəmləndirmək, gücləndirmək, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, güclü, zəngin dövlət yaratmaqdır*".

Azərbaycan xalqı hər zaman azadlığı, müstəqilliyi uğrunda bütün çətinliklərə mərdliklə sinə gəlib. Bu dəfə də gəldi. Bu gün də Heydər Əliyev siyasi məktəbinin yetirməsi, prezident İlham Əliyevin rəhbərliyi ilə öz şanlı tarixini yazmaqdadır [14].

İstifadə edilmiş ədəbiyyat

1. Adıgözəlov K. Cənubi Qafqaz: yeni geosiyasi konfiqurasiya və Azərbaycanın liderliyi https://www.yeniazerbaycan.com/SonXeber_e80458_az.html

2. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). (1978-ci il aprelin 21-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında qəbul edilmişdir), Bakı, 1978

3. Cənubi Qafqazın geosiyasi mövqeyi və təhlükəsizlik problemləri. http://sia.az/az/news/analysis/309496-cenubi-qafqazin-geosiyasi-movqeyi-ve-tehlukesizlik-problemleri

4. Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmani, Bakı şəhəri, 18 iyun 2001-ci il, № 506, https://e-qanun.az

5. Həsənov E.R., Xəlilova Ş.Q., Xalqına və Azərbaycan ölkəsinə həsr olunan ömür, Heydər Əlirza oğlu Əliyev ömrü, "Heydər Əliyev100: Müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasınını müəllifi" Respublika Elmi Konfrans, Mingəçevir şəh., Mingəçevir Dövlət Universiteti, 05-06 may 2023, s. 148-152

6. Həsənov. A. M. Политика национального развития и безопасности Азербайджанской Республики. Баку, "ZərdabiLTD" MMC, 2014

7. https://azerbaijan.az/information/806

8. https://mod.gov.az/az/

9. https://news.milli.az/politics/1043876.html

10. XARİCİ SİYASƏT https://azerbaijan.az/information/801

11. Xəlilova Ş.Q., Böyük azərbaycanlı, https://sia.az/az/news/politics/1112846.html?fbclid=IwAR2Z22_UZwpXMZo7SLGJg45xtseXWkZD6ne38pkewfRj-SlC9cW_mv6HGmE, 11.12.2023)

12. Xəlilova Ş.Q., Azərbaycanın xilaskarı – Ulu Öndər Heydər Əliyev https://sesqazeti.az/news/politics/1068895.html?fbclid=IwAR0C3KC75QQfD0PG3zccgeU3NCbe4DeAEIeBxIwbHj05x2Buhzy1Dh-SWOc , 24 İyun 2023

13. Xəlilova Ş.Q., Həsənov E.R., Cənubi qafqaz regionunun geosiyasi reallıqları, H.Əliyevin anadan olmasının 100 illiyinə və Qələbənin üçüncü ildönümünə həsr olunmuş "Milli təhlükəsizlik və müasir hərb sənəti" mövzusunda respublika elmi-praktiki konfrans. 1-2 Noyabr 2023-cü il, s. 54-57

14. Xəlilova Ş.Q. Şəhidlər və qazilər qürur mənbəyimizdir. https://sesqazeti.az/news/politics/1092254.html?fbclid=IwAR3CS5geLRcC1lxUVMX-D1c3uspMq4vzaOWViG9n18xdfGBYbwYlxJOtU_U

15. Xəlilova Ş.Q.Azərbaycanın uğurlu layihəsi https://sesqazeti.az/news/politics/1063882.html?fbclid=IwAR20RUa_ZgjwLLWI7NrVXFqBO3qTEqh1D5aQZLXRArPL_y5l9gQy2o8Roes

16. Qurbanov S., Zaman sığmayan lider, Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi, Bakı, 2022, 436 s.

ПЕДАГОГИЧЕСКИЙ ОПЫТ КАК ВАЖНЫЙ ЭТАП В ПОДГОТОВКЕ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ

Ирада Саттар гызы Джалалова
доктор философии по педагогике
Бакинский славянский университет
adari67@mail.ru

В настоящее время в связи с внедрением национального куррикулума в систему среднего образования Азербайджанской Республики были внесены существенные изменения в содержание подготовки педагогических кадров в вузах, обновлены подходы к реализации содержательных линий и векторов профессиональных учителей. В этой функциональной системе особое место занимает педагогическая практика. Слово «практика» происходит от древнегреческого слова πράξις, что означает буквально «деятельность». Любая практика – это разумная человеческая деятельность, основанная, естественно, на сознательном целеполагании и направленная на преобразование действительности, в том числе и самого человека (Аржанцева, 2008, стр.59). Другими словами, под практикой понимают деятельность, служащую для приобретения определённого опыта в каком-либо деле. Говоря о практике, часто отмечают и то, что это индивидуальный опыт того или иного специалиста в своей области (Ali, 2008, səh. 9).

В научной литературе выделяют социальную, производственную, духовную. Социальная практика – процесс взаимодействия субъекта и системы общественных отношений, приводящий к изменению как личности, так и общества. Производственная практика – получение опыта на реальном производстве после получения определённых теоретических знаний. Духовная практика йога, исихазм, суфизм – это практика индивидуального самосовершенствования (например: йога, суфизм и т. д).

Наряду с перечисленными видами практики, специалисты выделяют ещё медицинскую и дизайн-практику. По их мнению, медицинская практика как целенаправленная деятельность связана с преобразованием человеческой природы. А дизайн-практика – это практика преобразования и развития визуального языка для хранения и передачи информации в рамках конкретного социума либо человечества в целом.

Педагогическая практика нами рассматривается как одна из разновидностей производственной практики. Хотя в нормативных документах по образованию уже долгое время педагогическая практика считается как один двух видов практики, наряду с производственной. В двух главах раскрыты такие проблемы, как сущность педагогической практики, её роль в подготовке педагогических кадров, а также особенности педагогической практики студентов Бакинского славянского университета (БСУ) в новых условиях. Предложена новая модель организации и проведения педагогической практики студентов на уровне бакалавриата, успешно реализуемой уже несколько лет кряду в БСУ (Ali, 2008).

В современной дидактической литературе, да и в нормативных документах по образованию педагогическая практика квалифицируется как неотъемлемая часть учебно-воспитательного процесса, обеспечивающая соединение теоретической подготовки студентов с их практической деятельностью, которая позволяет применять полученные теоретические знания и умения на практике и служит одним из эффективных средств успешной подготовки студентов к будущей профессиональной деятельности. Все исследователи едины в том, что педагогическая практика углубляет и закрепляет приобретённые в стенах вуза знания, умения и навыки студентов по общепрофессиональным и специальным дисциплинам. Педагогическая практика формирует у студентов общие профессиональные и педагогические умения и навыки самостоятельного ведения учебно-воспитательной работы с учащимися учреждений среднего общего образования. Педагогическая практика обеспечивает студентам окончательно и твёрдо убедиться в правильности выбора будущей своей профессии.

В дидактической литературе определены следующие цели педагогической практики:

а) знакомство с условиями профессиональной педагогической деятельности;

б) закрепление полученных теоретических знаний по общепрофессиональным и специальным дисциплинам;

в) овладение необходимыми методами, навыками и умениями по избранной студентом специальности.

В то же время указываются следующие задачи педагогической практики:

– изучение студентами-практикантами методик преподавания и педагогического опыта преподавателей факультетских кафедр;

– проведение различных типов уроков с использованием разработанных педагогических методов и приёмов;

– развитие навыков коммуникации;

– развитие у студентов-практикантов интереса к научно-исследовательской работе в области методики преподавания русского языка

В педагогической практике, как и во всём учебном процессе, основным субъектом является, безусловно, студент. Он перестаёт быть простым и механическим накопителем знаний (а преподаватель – их репрезентатором и ретранслятором) с нормированными реакциями: представить данные о школе, об учителе, об учащихся, провести и проанализировать столько-то уроков и внеклассных мероприятий. При этом важным становится решение студентом педагогических проблем в школьных условиях, ибо главное –

сам студент, изменения в его опыте, формирование его профессиональной компетенции как совокупности коммуникативной, лингвострановедческой, социальной, лингвистической и т.д. компетенций. Практика студентов, которые обучаются по программе подготовки бакалавров по специальности «учитель начальных классов» и «учитель иностранного языка», проводится в средних учебных заведениях.

В период педагогической практики студенты проводят широкую учебную работу, внеклассные и внешкольные мероприятия, тестирование, готовят наглядные пособия. Многие студенты проходят практику в ведущих школах города Баку.

В ходе практики широко апробируются в образовательном процессе нетрадиционные формы проведения уроков. Студенты-филологи проводят уроки-сказки, уроки-концерты, путешествия, дебаты, диспуты и др.

Особое место в педагогической практике студентов отводится их исследовательской работе. Эксперименты студентов находят отражение в курсовых и творческих работах.

Педагогическая практика может быть рассмотрена и как организационная форма обучения в педагогических вузах, которая имеет своей целью научить студентов творчески применять в практике научно-теоретические знания и практические навыки, приобретённые при изучении педагогики, психологии, методики преподавания русского языка и литературы, а также специальных дисциплин, способствовать развитию у будущих учителей интереса к научно-исследовательской работе в области педагогических наук. В ходе педагогической практики предусмотрено изучение всех сторон жизни школы (учебно-воспитательная работа, организация внеклассной и внешкольной работы), а также проведение уроков под руководством методиста. По итогам педагогической практики студенты представляют отчёт. Итоги же практики обсуждаются на заключительной конференции. При проведении педагогической практики и подведении итогов все её участники руководствуются едиными требованиями к урокам и к квалификации преподавателя. Раньше различали активную и пассивную педагогическую практики. В настоящее время педагогическая практика носит активный характер.

Нами изучены действующие нормативные документы по педагогической практике, которые определяют основные параметры проводимой практики по педагогике в Бакинском славянском университете. Новая модель педагогической практики включает в себя следующие моменты: общие положения, виды и задачи практики, организация практики, форма отчёта студента о прохождении практики и результатах практики, а также материальное обеспечение практики (Ali, 2008).

В общих положениях отмечается, что новые правила разработаны в соответствии с "Положением о проведении практики студентов высших (средних) учебных заведений по специальности", утвержденным Постановлением Кабинета Министров Азербайджанской Республики № 221 от 19 сентября 2008 года. Практика студентов в Бакинском славянском университете (далее – университет) является составной частью соответствующих учебных программ по специальностям, по которым ведётся подготовка специалистов. Организация, объём, цели и сроки проведения практики определяются государственными образовательными стандартами соответствующих специальностей, по которым ведётся подготовка специалистов. Правила проведения практики студентов высших учебных заведений утверждается Учёным Советом университета.

В дидактической литературе определены следующие цели педагогической практики:

а) знакомство с условиями профессиональной педагогической деятельности;

б) закрепление полученных теоретических знаний по общепрофессиональным и специальным дисциплинам;

в) овладение необходимыми методами, навыками и умениями по избранной студентом специальности.

В данной статье описывается новая модель педагогической практики, которая вот уже несколько лет успешно реализуется в БСУ. Она включает в себя следующие моменты: общие

положения, виды и задачи практики, организация практики, форма отчёта студента о прохождении практики и результатах практики, а также материальное обеспечение практики.

Использованная литература

1. Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə. – Bakı, 2008 – 12 s.

2. Аржанцева, Т.В., Бондаренко, Л.А. Педагогическая практика как составляющая формирования профессиональной компетенции учителя-филолога // Диалог культур. Теория и практика преподавания языка. Материалы 2-ой Международной научно-практической конференции, посвящённой 30-летию первого выпуска иностранных студентов филологического факультета 6-8 сентября 2007 г. – Симферополь: Изд-во «ДОЛЯ», 2008. – С. 57-66.

3. Педагогическая практика: Справочник: учебно-методическое пособие / Автор-составитель М.Е.Сысоева. – М.: Изд-во журнала «Народное образование». 2002. – 126с

THE ROLE OF ENTREPRENEURSHIP IN THE ECONOMIES OF DEVELOPING COUNTRIES

Elnura Khudaverdiyeva
doctor of philosophy in economics
Ganja State University
elnura_israfilova@mail.ru

The development of business relations in most former colonial countries in Africa was significantly influenced by factors such as the policies of the former metropolises, the scale of production of export raw materials, traditional interethnic and religious relations, etc. It should be noted that in the interests of the bourgeoisie of the metropolises, the colonial authorities tried to prevent the formation of the national private sector, and primarily in industry. In tropical Africa, only in a few countries (Nigeria, Ghana, Tanzania, Côte d'Ivoire) the national private sector received some development in the pre-war years.

African entrepreneurs do not have the traits inherent in the bourgeoisie of the period of the formation of capitalism in Europe. There are very few economically and technically competent businessmen. For a number of reasons, funds accumulated within the national private sector are often not used in accordance with pressing development needs. This happens primarily because the activity of local capital in most cases is limited to the most profitable areas (trade, usury, house construction, etc.), which in modern conditions are not of primary importance for economic development [2].

The structure of local private capital is very multifaceted and diverse, which corresponds to the forms of entrepreneurship represented in Africa - from pre-capitalist to mature capitalist. In most countries of Tropical Africa, local private enterprise in industry is at an early stage of development. At the same time, in a number of countries on the continent, as a result of the concentration and centralization of local private capital, industrial magnates emerged, surrounded by thousands of small entrepreneurs. The strengthening of the positions of large industrialists is facilitated by the policy of national governments towards creating a mixed sector with the participation of state, local and foreign private capital. The real owners remain large firms controlled by foreign investors, who concentrate in their hands, in addition to capital, technology, patents, market and banking connections [1].

The vast majority of small entrepreneurs operate in the informal sector, covering enterprises with no more than 10 employees. In the context of capital shortages and labor surpluses in Africa, small enterprises are able to increase employment and output at relatively low cost. This determines

the great socio-economic importance of small businesses, which are rapidly developing within the national private sector of the economy [3].

The development of business relations in most former colonial countries in Africa was significantly influenced by factors such as the policies of the former metropolises, the scale of production of export raw materials, traditional interethnic and religious relations, etc. It should be noted that in the interests of the bourgeoisie of the metropolises, the colonial authorities tried to prevent the formation of the national private sector, and primarily in industry. In tropical Africa, only in a few countries (Nigeria, Ghana, Tanzania, Côte d'Ivoire) the national private sector received some development in the pre-war years.

African entrepreneurs do not have the traits inherent in the bourgeoisie of the period of the formation of capitalism in Europe. There are very few economically and technically competent businessmen. For a number of reasons, funds accumulated within the national private sector are often not used in accordance with pressing development needs. This happens primarily because the activity of local capital in most cases is limited to the most profitable areas (trade, usury, house construction, etc.), which in modern conditions are not of primary importance for economic development [5].

The structure of local private capital is very multifaceted and diverse, which corresponds to the forms of entrepreneurship represented in Africa - from pre-capitalist to mature capitalist. In most countries of Tropical Africa, local private enterprise in industry is at an early stage of development. At the same time, in a number of countries on the continent, as a result of the concentration and centralization of local private capital, industrial magnates emerged, surrounded by thousands of small entrepreneurs. The strengthening of the positions of large industrialists is facilitated by the policy of national governments towards creating a mixed sector with the participation of state, local and foreign private capital. The real owners remain large firms controlled by foreign investors, who concentrate in their hands, in addition to capital, technology, patents, market and banking connections [4].

The vast majority of small entrepreneurs operate in the informal sector, covering enterprises with no more than 10 employees. In the context of capital shortages and labor surpluses in Africa, small enterprises are able to increase employment and output at relatively low cost. This determines the great socio-economic importance of small businesses, which are rapidly developing within the national private sector of the economy [7].

Specific types of state assistance to local entrepreneurs alternate and intertwine, constantly being replenished with new incentive measures (in particular, this may be the provision of credit funds to local entrepreneurs importing equipment necessary for the development of local industry, or a reduction in customs duties and fees for industries supplying products for export).

For local businesses that are in dire need of funds, the state's credit policy, aimed at redistributing part of the funds available in the country in the interests of local businesses, is of great importance. The reluctance of commercial banks to lend to local entrepreneurs forces national governments to establish, with the financial assistance of central banks, various relief funds that provide loans to small and medium-sized entrepreneurs. In order to alleviate the situation of such enterprises, the government obliges national banks and other financial institutions to provide them with loans, in some cases targeted (development of handicraft production, buyout of foreign trading enterprises, etc.). In a number of countries, national development corporations are the conductors of state policy to support African entrepreneurship. In Kenya, for example.

Agriculture in Kenya employs three-quarters of the population and contributes 24% of GDP. Most of the country's territory is unsuitable for agriculture. The share of mining in Kenya's GDP is small. Soda, table salt and gold are mined. The development of the manufacturing industry here began under the colonial regime - earlier than in other countries. The main manufacturing industries are light industry, food processing, textiles, chemicals, and automobile assembly. The main industrial centers of the country are Nairobi and Mombasa.

Tourism is developed. It provides a significant portion of the country's foreign exchange earnings. Tourists are attracted by the climate, wildlife and sandy beaches. After the terrorist attack on the US Embassy in August 1998, the number of tourists decreased.

The Trade and Industry Development Corporation attracts foreign and local funds with the aim of providing them to citizens to buy out enterprises from foreigners and create new enterprises and stores. It also takes part in the financing of facilities, which are then transferred to local businessmen.

The special role of small production in the economic development of African countries led to the authorities' interest in small business and the transition in the 70s from its sporadic regulation to the development and implementation of programs including targeted lending, assistance in vocational training, organization of production and sales of products, etc. d. Thus, in Kenya, in one of the associations of small entrepreneurs, all persons applying for a loan are required to attend a three-day course on business issues before receiving it; six months later, the owner of the enterprise must complete a five-day course on marketing, reporting, and pricing [6].

Seminars for entrepreneurs representing a certain industry (owners of bakeries, sewing workshops, woodworking workshops, etc.) are considered an effective form of training in technical and managerial skills. Similar training centers, sometimes funded by the International Labor Organization, operate in Ghana, Uganda, Malawi and other countries. In the interests of small entrepreneurs, organizations such as the National Center for Assistance to Small Entrepreneurs in Cameroon, the Directorate of Small Industry and Crafts in Sierra Leone, etc. For example, agriculture in Ghana employs 60 % of the working population and contributes 37.3 % of GDP. Industry employs 15 % of the working population and produces 25.3 % of GDP. The manufacturing industry is represented mainly by the light and food industries.

Experience shows, however, that the economic insolvency of small entrepreneurs often does not allow them to resort to the services of the credit guarantee system created by the state; this is also hampered by the inflated amounts of the initial minimum loans.

Legal acts adopted in recent years have significantly expanded business opportunities for foreign private entrepreneurs, which inevitably entails a decrease in the effectiveness of the state function of protecting the interests of national private capital. It is obvious that in these conditions the state should expand support for local businesses (the experience of recent years indicates attempts of this kind are being made). It should be noted that during the implementation of the structural adjustment program, new methods of government regulation are emerging, reflecting the expansion of mixed forms of entrepreneurship. In the relations between the state, local business and foreign capital, the role of the latter as a factor determining the functioning of local private capital is increasing. There are no contradictions in this phenomenon, since it only reflects different aspects of the process of formation of the national private sector.

On the one hand, the state seeks to support and stimulate its growth, on the other, the development of this sector is directly related to the integration of the backward national economy into the system of the world capitalist economy.

References

1. Горфинкель В.Я. «Предпринимательство», Москва, «Банки и биржи», 2004. 30 с.
2. Войтов А.Г. «Экономика. Общий курс», Москва, «Маркетинг», 2006 - 48 с.
3. Мамыров Н.К. «Основы предпринимательства», Алматы, Экономика, 2005. - 38 с.
4. Фатхутдинов Р.А. Управление конкурентоспособностью организации: учебник., 2005. - 75 с.
5. Курс экономической теории / Под ред. М.Н.Чепурина, Е.А.Киселевой. - Киров: АСА, 2009. - 285 с.
6. http://www.chinadata.khv.ru/scit_ma.htm

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MİLLİ DÖVLƏTÇİLİK TARİXİMİXİN BANİSİDİR

Samir Qasım oğlu Məhərrəmov
tarix üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti
meherremovsamir394@gmail.com

Hər bir xalqın müstəqil və suveren bir formada azad yaşaması, dövlətinin bu günkü və gələcək taleyini sərbəst şəkildə həll etmək bacarığına malik olması qarşısına qoyduğu ən uca vəzifələrdən biridir [3, s.8].

Azərbaycan xalqı qədim dövrlərdən öz müstəqilliyi və ərazi bütövlüyü uğrunda yadelli işğalçılara qarşı daimi mübarizə aparmış və bu amal uğrunda saysız qurbanlar vermişdir. [1, s.17]

Ulu öndər Heydər Əliyevin dövlətçilik irsinin əsas qarşıya qoyulmuş məqsədlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsi olmuşdur. Ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunur. Lakin müstəqilliyin ilk illərində Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin yarıtmaz siyasəti nəticəsində bu amil ölkənin dövlətçiliyi üçün təminata deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğu sahəsində və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılması istiqamətində yol verilən kobud səhvlər son nəticədə Azərbaycanda qanunsuz hərbi birləşmələr tərəfindən vətəndaş müharibəsinin baş verməsinə səbəb olmuşdu. Yalnız ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra bu özbaşınalığa qarşı ciddi mübarizə apararaq, dövlətin milli təhlükəsizliyinin, eləcə də ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit və güclü silahlı qüvvələrin yaradılması və inkişafına nail olmuşdur [5].

Ulu Öndər özünəməxsus müdrikliklə bəyan etmişdir ki, ölkədə siyasi sabitlik yaradılmadığı müddətdə yeni idarəetmə sisteminə keçidi formalaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi əsas prinsiplərin tətbiqinə nail olmaq qeyri-mümkündür. Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin vacib inkişaf istiqamətlərini həyata keçirərkən xalqın milli düşüncələrini və onun səciyyəvi xüsusiyyətlərini də nəzərə almışdır. Ulu öndər Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf istiqamətlərini müəyyən etmiş, bu sahədə mövcud problemlərin həlli yollarını bəyan etmişdir. Demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycanda da bazar iqtisadiyyatının ayrı-ayrı sahələri, qeyri-neft sektorunun, sənayenin inkişafı arqumentləri bir məqsəd kimi qarşıya qoyulmuşdur. İqtisadi sahədə həyata keçirilən islahatların əsas məqsədi neft sektorundan gələn gəlirlər hesabına qeyri-neft sektorunun da inkişaf etdirilməsi istiqamətində də işlərin görülməsindən ibarət idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq, həyata keçirilməsi oldu. 1994-cü ilin 20 sentyabrında Azərbaycanın inkişaf tarixində çox böyük rol oynayan "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın dünyanın güclü dövlətləri ilə əlaqələrinin daha da güclənməsinə və bu istiqamətdən gələn gəlir hesabına isə ölkədə bütün sahələrin inkişafına səbəb oldu [4].

Ümummilli lider Heydər Əliyev 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik etdiyi dövrdə müstəqil dövlətimizin tərəqqisi istiqamətində çox böyük işlər həyata keçirmişdir. Bu dahi insan var qüvvəsi və bacarığını Azərbaycanımızın yüksəlişinə və böyük zirvələri qət etməsinə sərf etmişdir. Ulu Öndər öz həyatının uğurlarını xalqına arxalanmaqda görərək demişdir: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət edir. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam [2, s.57]. Bu da, mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". Xilaskarlıq missiyasının banisi kimi tanınan ümummilli lider Heydər Əliyev XX əsrin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində Azərbaycanı idarə etmişdir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır [6].

Ulu öndər Heydər Əliyevin 2003-cü ilin dekabr ayında vəfatı Azərbaycan xalqını dərin hüznə boğdu. Bəzi qüvvələr bundan istifadə edərək Azərbaycanda qanlı bir qarşıdurma yaratmağa çalışsalar da xalqın güclü dəstəyi ilə hakimiyyətə gələn İlham Əliyev bütün bu proseslərin qarşısını böyük ustalıqla aldı. Hətta Azərbaycanda regionların inkişafı və insanların həyat şəraitinin daha da yaxşılaşdırılması sahəsində tədbirlər planının hazırlanmasına nail oldu. Prezident İlham Əliyevin həyata keçirdiyi milli dövlətçilik strategiyasının ən böyük təntənəsi məhz 2020-ci ilin 27 sentyabrında başlayan və 2020-ci ilin 10 noyabrında Ermənistanın kapituliyasiya aktına imza çəkməsi ilə bitən 44 günlük müharibənin yekununda əldə edilən tarixi Zəfər oldu.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin liderliyi ilə nəinki regionda qlobal miqyasda hörmət edilən mövqeyi nəzərə alınan bir dövlətə çevrilib. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıq məhz bu bölgədə sülhü və əməkdaşlığı özündə ehtiva edir. Azərbaycanın təklif etdiyi platforma Cənubi Qafqazda ümumi inkişafa, sülhə, sabitliyə hesablanmışdır. Bütün bunların baş verməsi üçün Ermənistan ilk növbədə Azərbaycanın ərazi bütövlüyünü tanımalı və bütün gələcəyə hesablanmış bütün mənfur planlarından əl çəkməlidir. Əldə ediləcək sülh Cənubi Qafqazda yeni bir strategiyanı inkişaf konsepsiyasını ehtiva edir. Güclü və qüdrətli Azərbaycan Vətən müharibəsindəki tarixi qələbəsi ilə bundan sonra da öz üzərinə düşən missiyanı böyük şərəflə icra edəcək. Azərbaycan dövlətinin əsas hədəfi bu bölgədə daimi sülhün əldə edilməsi və region xalqlarının inkişafına və tərəqqisinə xidmət edəcək addımların atılmasına nail olmaqdır. Sonda qeyd etmək istərdim ki, İlham Əliyev hakimiyyətə gəldikdən sonra ulu öndər Heydər Əliyevin dövlətçilik istiqamətində gördüyü işləri layiqincə davam etdirməkdədir.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. (Məqalələr, çıxışlar, müsahibələr, rəylər.. .). Bakı, «Təhsil», 2003, 504 səh.
2. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 1-ci cild. Bakı – 2013, 632səh.
3. Yusifov M. milli lider və müstəqil dövlətçilik, Bakı, nurlan 2005 212 səh
4. https://ganja-ih.gov.az/az/news/ulu-onder-heyder-eliyevin-dovletcilik-tariximizde-rolu-ve-yeri.html
5. https://files.preslib.az/projects/heydaraliyev/articles/he1378.pdf
6. https://sia.az/az/news/politics/963842.html

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN EKOLOJİ PROBLEMLƏRİNİN HƏLLİNDƏ ROLU

Kəmalə Xəlil qızı Yusifova
iqtisad üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
yusifovakemale38@gmail.com

Son illər Azərbaycanda ekoloji problemlərə lazımi diqqət yetirilir. Azərbaycan hökumətinin yardımı ilə bu sahədə ümumi vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş ekoloji layihələr yaradılır. Ətraf mühitin mühafizəsi dövlət ekoloji təşkilatları, 2001-ci ildə yaradılmış Ekologiya və Təbii Sərvətlər Nazirliyi və 2009-cu ildə yaradılmış Azərbaycanın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən tənzimlənir.

Azərbaycan ərazisində planetin, demək olar ki, bütün növ landşaft və iqlimlərinə rast gəlinir. Buna görə də, Azərbaycan qlobal müxtəlifliyin qorunmasında mühüm rol oynayır.

Azərbaycan Respublikasının əsas ekoloji problemləri su ehtiyatlarının tikinti suları ilə çirklənməsi, transsərhəd çirklənmə, həmçinin nəqliyyat və sənaye müəssisələrindən havanın çirklənməsidir. Azərbaycanın torpağı eroziya və şoranlaşma təhlükəsi ilə də üzləşib. Bərəkətli

torpaqlar deqradasiyaya uğrayıb. Ölkədə keyfiyyətli su təchizatı aşağı səviyyədə olub, lakin nəhəng Oğuz-Qəbələ-Bakı su kəməri çəkildikdən sonra bu problem artıq öz həllini tapmışdır.

Digər ekoloji problem kanalizasiya xətlərinin olmaması idi. Respublika indi bərk sənaye və məişət tullantılarının təkrar emalı prosesini necə düzgün idarə edəcəyini, daha ciddi, təhlükəli tullantıların nə olduğunu həll edir. Bu problem dərhal da həllini tələb edir.

Son illər Azərbaycanda biomüxtəlifliyin azalması müşahidə olunur ki, bu da nadir heyvanların tələf olmasına səbəb ola bilər. Meşə ehtiyatlarının və faunanın, o cümlədən balıq ehtiyatlarının sayı azalıb. Ona görə də dövlət orqanları bu problemə daha diqqətli olmalı və ölkədə brakonyerliyin qarşısının alınması üçün təsirli tədbirlər görməlidir. Lakin "İDEA" İctimai Birliyinin fəaliyyəti sayəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə regionda ətraf mühitin mühafizəsi və bioloji müxtəlifliyin qorunması ilə bağlı bütün problemlər artıq ən yüksək səviyyədə həll olunur.

Təbiətin qorunmasına xüsusi önəm verən Ümummilli Lider Heydər Əliyevin ekoogiyanın qorunmasında rolu çox böyükdür. Heydər Əliyevin 1970-ci illərin əvvəllərindən apardığı məqsədyönlü siyasəti sayəsində Azərbaycanın bioloji resursların mühafizəsi, nəsli kəsilməkdə olan növlərin bərpası və onların əhatə dairəsinin genişləndirilməsi sahəsində mühüm işlər görmüşdür.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Heydər Əliyev ekologiya və ətraf mühitin qorunması sahəsində dövlət siyasətinin əsaslarını formalaşdırmışdır. Respublikada ərazilərin yaşıllaşdırılmasına, pozulmuş ekoloji tarazlığın bərpasına diqqət artırılmışdır. Həmçinin Azərbaycan ətraf mühitlə bağlı çoxsaylı beynəlxalq konvensiyalara qoşulmuşdur [1].

Heydər Əliyevin "yaşıl dünya" ilə bağlı siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda ətraf mühitin və biomüxtəlifliyin qorunması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir [2]. Azərbaycanın indiki hakimiyyətinin siyasəti ötən əsrdə sənayeləşmə nəticəsində yaranmış bütün problemlərin həllinə yönəlib.

Hazırda ətraf mühitin mühafizəsi probleminin təcili praktik həllinə ehtiyac bütün dünya ölkələrində ümumən qəbul edilir və qlobal beynəlxalq problemlərdən biri hesab olunur. Lakin ekoloji fəaliyyətin səmərəliliyi həmişə problemin əhəmiyyətinə və onun həlli üçün sərf olunan səylərə adekvat deyildi. Uzun müddət ətraf mühit aspektləri məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi diqqətdən kənarda qaldı, baş plana iradəli düzəlişlər edildi, sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi aparılmadı və ya gecikdirildi.

İnsanlar ətraf mühitə ciddi yanaşmaq və ekoloji tədbirlər görmək zərurəti haqqında yalnız o zaman düşünməyə başladılar ki, istehlakçıların ətraf mühitə münasibəti öz nəticəsini verdi və kommersiya növlərinin istehsalının həcmi kəskin azaldı.

Azərbaycanda 1993-cü ilə qədər və ondan sonrakı bütün sahələrdə vəziyyət xeyli fərqlidir. Yeni Azərbaycan Partiyasının apardığı siyasət müsbət nəticələr vermiş ölkədə vəziyyət yaxşılaşmışdır. Qısa müddət ərzində Azərbaycan haqlı olaraq müasir inkişaf edən, müxtəlif sahələrdə hər gün daha böyük uğurlara imza atan ölkəyə çevrilmişdir.

Uzun müddət Azərbaycanda ekoloji problemin olmadığına inanılırdı. Ətraf mühitin mühafizəsi tədbirlərinin xərcləri az idi. Təbii sərvətlərdən səmərəli istifadə məsələsi də diqqət mərkəzində saxlanılmadı. Bir çox təhlükəli sənaye sahələrinin ağır nəticələri barədə ictimaiyyətə məlumat verilmirdi, çünki bu barədə açıq şəkildə yazıb danışmaq adət deyildi. Tədqiq olunan illər ərzində ümumittifaq ixtisaslaşdırılmış sənaye sahələrində istehsal həcminin artması nəticəsində ətraf mühitin vəziyyətinin, atmosferin torpaq və su ehtiyatlarının çirklənməsinin öyrənilməsinə həsr olunmuş bir dənə də olsun böyük əsər nəşr olunmamışdır .

Hazırda zərərsiz kənd təsərrüfatı istehsalının inkişafına, xüsusilə də həm respublika daxilində, həm də xaricdə tələbatı artacaq ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalına ciddi diqqət yetirilməlidir. Bu, ekoloji təmiz məhsullar üzrə respublikalararası iqtisadi əlaqələrin genişlənməsinə səbəb olacaqdır.

1960-1980-ci illərdə resursdan istifadənin səmərəliliyini əks etdirən istehsalın iqtisadi nəticələri arzuolunmaz dinamikaya malik idi. Odur ki, resursların qorunması mahiyyət etibarilə milli iqtisadiyyatın artan tələbatının ödənilməsinin yeganə mənbəyinə, ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılmasında və iqtisadiyyatın tarazlaşdırılmasında mühüm amilə çevrilir.

Unikal layihə Heydər Əliyev Fondunun vitse-prezidenti, habelə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri Leyla Əliyevanın təsis etdiyi "IDEA" İctimai Birliyidir. "IDEA" ictimai birliyinin fəaliyyəti sayəsində Azərbaycanın ekologiyasının bərpası istiqamətində çox böyük işlər görülüb. Çoxlu sayda ağaclar əkilib, kütləvi təmizlik günləri keçirilir, gənclərin ekoloji maarifləndirilməsinə böyük diqqət yetirilir.

Azərbaycanda ekologiyaya haqlı olaraq yüksək diqqət yetirilir. Azərbaycan Prezidenti 2010-cu ili "Ekologiya ili" elan edib. Çoxlu qlobal iş aparıldı, bunun sayəsində qısa müddət ərzində böyük nəticələr əldə edildi. Ekoloji problemlərin həllində dönüş nöqtəsi "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı" beşillik plan oldu. Planda Bakı buxtası yaxınlığında, Bibi-Heybət zonasında, Heydər Əliyev Beynəlxalq Aeroportunda, Abşeron yarımadasında göllərin, neftlə çirklənmiş torpaqların, qrunt suları ilə basmış ərazilərin və digər sənaye tullantıları ilə çirklənmiş ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması öz əksini tapıb.

Azərbaycanın ətraf mühitə böyük önəm verməsi, onun problemlərini səmərəli və vaxtında həll etməsi bu sahədə müsbət dinamikadan xəbər verir.

İstifadə edilmiş ədəbiyyat

1. https://files.preslib.az/projects/heydaraliyev/articles/he1063.pdf
2. https://www.azerbaijan-news.az/az/posts/detail/heyder-eliyevin-irsi-butun-dovrler-ucun-onemlidir-1676497220

HEYDAR ALIYEV`S ORATORY

Chinara Shahbazli
doctor of philosophy in phylology
Baku Business University
chinara.shahbazli@mail.ru

Public speaking has a long history as both an art and a science. So, since ancient times, people with meaningful, clear, concise, effective, emotional speech have always been highly valued by society, and their speech has been used as an effective tool. [7; 160]

The art of public speaking is understood as a field of professional activity, and on the other hand, science and rhetoric that speak about that field of activity are meant. A speaker is a person whose speech conforms to the existing literary norms, but also is precise and beautiful, expressive.

As we know, the real homeland of the art of oratory was Greece, which is considered the cradle of world culture. Oratory as a science was born and developed in Greece.

However, interest in this art also arose in the East, which has an ancient cultural history, and in the works of poets and philosophers of the time, the science of rhetoric was highly valued as a special type of human activity. [2; 133]

In Azerbaijan, the theory of public speaking has been studied for centuries, many perfect speech principles have been defined, and special attention has been paid to the art of public speaking.

There are many examples of oratorical skills in Azerbaijan, and Heydar Aliyev's speeches in various addresses, social and political events, and meetings with scientists and artists have a special place among those examples. In each of those speeches, it is possible to feel the heartbeats of the great man's anxious heart along with his dreams and aspirations for his people at all times, as well as his visions of the future. The most vivid example of this is the statement he made at the Permanent Mission of Azerbaijan in Moscow, one day after the bloody crime committed against Azerbaijanis on January 20, 1990, in Baku, the capital of the Republic of Azerbaijan, by the will of the then USSR political leadership. That statement can be considered as an indicator of the

objective assessment of the events even in the most tense moments, along with the sacrifice shown by the amazing personality for his people in a difficult moment. In the statement, conditionally divided into three parts, Heydar Aliyev initially recalls his personal life path. Given that the statement was intended mostly for an audience outside the USSR, it goes without saying how important this is. During that speech of Heydar Aliyev, the elements characteristic of his style can be clearly seen, it is clearly emphasized that a clear political line is being introduced in the country under the image of austerity with iron logic, and that this line is accompanied by the activation of mechanisms for punishing the people of Azerbaijan: "I learned about the events that happened yesterday and Of course, I could not remain indifferent to these events. I came here first to express my condolences to the people of Azerbaijan regarding the tragedy that caused great losses in the Permanent Mission of Azerbaijan, a small part of it in Moscow. [1; 120] On the other hand, I want to express my opinion on this issue". With his own determination, he shows what is actually happening in the endless country and presents the culprits in what happened with their addresses: "As for what happened in Azerbaijan, I consider them alien to law, democracy, humanism and contrary to the principles of legal state-building announced in our country. [5; 61] There are a number of reasons for the complicated situation that has arisen in Azerbaijan. An inter-ethnic conflict has been going on in Azerbaijan and Armenia for two years now. That conflict was caused by the events that took place in and around Nagorno-Karabakh. If necessary measures had been taken by the political leadership of the supreme party of the country at the initial stage of the Nagorno-Karabakh events, the tension would not have reached the current level, the parties would not have suffered losses, and most importantly, the military intervention on the night of January 19-20, 1990, which resulted in many human massacres. there would be no ground for it". [6; 303]

Heydar Aliyev's inimitable eloquence is his individual, innate talent as a human being, his constant work on himself, his interest and attention to the events happening around him, in the world, their causes and consequences, as well as his love for his native language, which he has deeply mastered, his spiritual pleasure from this language, and his great inspiration. was directly related to At the same time, he loves the nation he belongs to from the heart, knows its history, mentality, and culture in depth and is the carrier of all these at the most perfect level, as well as being more responsible for the nation, the people, the national statehood in a complex historical period, at the stage of independent state building, for this his entry into a justified, great struggle was used as the main line in the speeches of the great personality. For example, in 1993, in his first historic speech in the Azerbaijani Milli Majlis, in his address to the deputies and the people, in his appeals to the people during the suppression of the uprisings that threatened the state and our statehood, in his meetings with foreign leaders, he sometimes showed emotionality, and when necessary, wisdom, restraint, and high diplomatic merits in front of the national statehood. demonstrated the unity of extraordinary responsibility.

In his speech, there is no trace of the tiring effect of written language, the liveliness of oral speech always allows the audience to pay attention to him. Orality, direct expression of ideas, strong generalization ability, deep logic, analytical thinking, talent to react to events in time, as well as the ability to communicate with society and tendency to active exchange of ideas are the main elements of H. Aliyev's speaking style. [3; 91] His majestic, meaningful appearance, meaningful voice leaves a deep impression on listeners and their thoughts. These qualities make the speaker more comprehensible to the audience.

One of the international summits that show the power of Heydar Aliyev's speech and diplomacy is the Lisbon summit. This summit was marked by many important political-diplomatic moments of historical importance. Speaking at the summit, Heydar Aliyev sharply condemned Armenia's policy of aggression, and strongly emphasized that this country has invaded our republic in order to take the ancient land of Azerbaijan, Karabakh, and as a result, twenty percent of Azerbaijan's territory has been occupied. In the final document of the Lisbon summit, the principles that should form the basis of conflict resolution were recommended, and Armenia was the only country among the 54 member states of the OSCE that voted against this proposal. In other words, Armenia abused the principle of consensus and vetoed one of the provisions reflected in the

declaration of the summit - Article 20, which contains the principles of conflict resolution. The Great Leader Heydar Aliyev expressed his strong objection to the removal of that article from the text of the statement and declared that he would veto all documents of the summit. After long and intense discussions, a consensus was reached that all the principles reflected in Article 20 should be established in a special statement of the OSCE Chairman-in-Office. The statement said: "The co-chairs of the Minsk Group have recommended 3 principles that will be part of the settlement of the Nagorno-Karabakh conflict. These principles are defended by all countries that are members of the Minsk Group. In relation to the issue of conflict resolution, the issues in accordance with the national interests of Azerbaijan and the decisive support for the territorial integrity of our country were reflected here. The Great Leader made a statement after the summit and emphasized that this statement of the chairman was the expression of the will of all the participants of the summit - the OSCE members, except for Armenia: "... We are satisfied that this statement of Flavio Cotti is on behalf of all the members of the OSCE, except for Armenia given". Thus, Heydar Aliyev showed the political will and diplomatic power of Azerbaijan to the whole world, including to the occupying Armenia. Even Levon Ter-Petrosyan, who was the president of the occupying country at that time, when talking about the results of the Lisbon summit, described this summit as Azerbaijan's diplomatic achievement and superiority. He emphasized that "the foundation of our diplomatic failures was laid at the Lisbon summit". [4; 10]

All these historical facts show what kind of speaker and political leader Heydar Aliyev was. Heydar Aliyev, an exemplary person for world diplomacy, wrote his name in world history as a great politician and speaker. The people of Azerbaijan will be grateful to him for a lifetime.

References

1 .Azerbaijan on the word arena: V.7. (Materials related to the foreign visits of the President of the Republic of Azerbaijan Heydar Aliyev for the year of 2001)/ Compiled by: E.I. Abdullayev, F.I. Muradov, Ed.:N. Suleymanov-B.: Nurlan,2022-.344p

2. Heydar Aliyev makes Azerbaijan known over the world/ Compiled by: N.Ibrahimov, I.Shukurov-B.: Azerbaijan 1994-190p.; pictures

3. Azerbaijan-Germany: Our Republic is strenghtening its position in the European family of countries/Compiled by N. Hasanzadeh, etc - B.: Sharg-Garb, 1996. 95 p.

4. Azerbaijan- France important contribution to broaden the cooperation (Official visit of the President of the Republic of Azerbaijan Heydar Aliyev to France)/Compiled by: O. Sadigov; Resp.:H.Orujov ,E.Namazov.-B.: Sharg-Garb, 1997. 116 p. (The book is about the official visit of the President of the Republic of Azerbaijan Heydar Aliyev to France from January 13-15, 1997)

5. Global horizon: Official visit of President Heydar Aliyev to the USA.-B.:, 1997.-68 p

6. Abdullayev V. Azerbaijan in the new diplomatic arena/ Scientific Editor: A.Abbasbeyli.-B.: Azerbaijan, 2000.-480 p.

7. Azerbaijan- USA: In the way of friendship and coperation (Business trip of President Heydar Aliyev to the USA: February 12-18, 2000). B., 2000 -182 p.

AZƏRBAYCANIN REGİONAL İNTEQRASİYASINDA HEYDƏR ƏLİYEVİN ROLU

Təhminə Əliyeva
tarix üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialı
tehmine.eliyeva@quba.adpu.edu.az

Azərbaycanın Qafqaz və Mərkəzi Asiya ilə inteqrasiyasında Heydər Əliyevin rolu danılmazdır. H.Əliyev Azərbaycanın müstəqillik qazandığı zamanən çətin dönəmlərində rəhbərliyə dəvət olunmuş vəAzərbaycanın möhkəmlənməsi istiqamətində siyasət yeritmişdir. Onun rəhbərliyi

altında Azərbaycan geosiyasi baxımdan mühüm mövqe tutmuş və bununla da regional inteqrasiya səylərində təsirli rol oynamışdır. H.Əliyev ölkənin regional və qlobal siyasətdə daha görkəmli faktora çevrilməsinə kömək etdi, çünki Azərbaycan enerji resursları ilə zəngin təbii ehtiyatlara malikdir. Bundan əlavə, Əliyevin xarici siyasət yanaşması Azərbaycanın Qafqaz və Mərkəzi Asiyanın digər ölkələri ilə əməkdaşlıq və əlaqələri gücləndirmək səyləri regional birlik və ya əməkdaşlıq istiqamətində idi ki, bu isayət də, Azərbaycanı regional inteqrasiyanın mühüm tərkib hissəsinə çevrildi.

Qloballaşan dünyamızda inteqrasiya prossesləri getdikcə böyük vüsət alır. Xalqlar və ölkələr sürətlə bir-birinə yaxınlaşır hətta lokal və regional problemlər belə əksər halda beynəlxalq ictimaiyyətin müzakirəsinə çıxır. Planetimiz getdikcə sərhədsizləşir. Təcrid olunma hansısa ölkənin özünü ayrıca bir dünya kimi təsəvvür etməsi mümkün deyil. Bu türkdilli ölkələrə də aiddir. Öz müstəqilliyinin 33-cü ilini yaşayan Azərbaycanın Qazaxıstan Qırğızıstan Türkmənistan və Özbəkistanın bütün sahələrdə mmühüm islahatlar apardıqlarını demokratikləşmə insan haqlarının təmin olunması bazar iqtisadiyyatı infrosturukturunun yaradılması prosesində böyük tərəqqiyə nail olduqlarını və bunun onların dünya birliyinə inteqrasiyasına kömək etdiyini xüsusi vurğulamaq lazımdır. Beynəlxalq iqtisadi əməkdaşlığın nümunəsi kimi Bakı-Tiblisi-Ceyhan əsas ixrac boru kəməri TRASEKA və Böyük İpək Yolunun bərpası layihələri türkdilli xalqların bir-birinə və bütövlükdə dünyaya inteqrasiyasına bariz nümunədir.

Cənubi Qafqaz dövlətlərinin milli təhlükəsizlik anlayışı sərhədlərindən kənarda yerləşən böyük dövlətlər tərəfindən təkcə işğal edilmə təhlükəsi ilə deyil, birbaşa sərhəd qonşuları ilə yaşadıqları siyasi və hərbi problemlərə görə milli təhlükəsizliklərinin təhdid edildiyinin düşünülməsidir. Bölgədə təhlükəsizliyin təmin edilməsinin qarşısında ən böyük əngəl Ermənistandır. Çünki bu dövlət Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, Gürcüstanın Cavaxeti əyalətində yaşayan ermənilərin separat tələblərini dəstəkləmiş, Türkiyəni qondarma soyqırımı ilə günahlandırmış, torpaq və təzminat tələb etmişdir.

Cənubi Qafqazda bölgə dövlətləri və digər böyük dövlətlər inteqrasiya problemlərini həll edilmək üçün müxtəlif layihələr hazırlamışdır. Bu layihələrin əsas məqsədi bölgədəki problemləri qəti şəkildə həll etmək, bölgənin iqtisadi, siyasi və sosial həyatında inkişafı təmin etmək və ən əhəmiyyətlisi özlərinin də bölgəyə yönəlik iqtisadi, siyasi və hərbi siyasətlərini rahat bir şəkildə həyata keçirə biləcəkləri şəraiti hazırlamaq olmuşdur.

Bu layihələrdən birincisi 1993-cü ildə Gürcüstan Prezidenti Eduard Şeverdnadze tərəfindən "Qafqaz Evi" adı ilə təklif edilən və daha sonra "Sülhsevər Qafqaz üçün Pakt" adı ilə bilinən layihədir. Azərbaycanın ümummilli lideri Heydər Əliyev və Şevardnadze arasında "Sülhsevər Qafqaz üçün Pakt" imzalanmışdır. Ancaq Rusiya bu layihədən kənarda qaldığı üçün bölgədəki bu şəkildə qruplaşma və problemlərin həlli üçün belə bir mexanizmin təşəbbüsü Rusiyanı narahat etmişdir.

Belə layihələrdən biri də 1993-cü ilin mayında qəbul olunmuş "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (TRASEKA)" proqramıdır. Bu proqram Avropa, Qafqaz və Asiya arasında nəqliyyat şəbəkələrinin gücləndirilməsinə yönəlmiş mühüm təşəbbüsdür. 1993-cü ildə qəbul edilib və Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan da bu proqramda iştirak edib. Bu proqramın məqsədi avtomobil, dəmir yolu, dəniz və hava nəqliyyatı kimi müxtəlif nəqliyyat növləri arasında əlaqə yaratmaq və inteqrasiyanı artırmaqdır. TRASEKA regional ticarəti təşviq etməklə iqtisadi artım və inkişafı dəstəkləməyi hədəfləyir.

Avropa Birliyi Komissiyasının təklifi ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Tacikistan, Türkmənistan, Özbəkistan nümayəndələrinin Brüsseldə görüşü olmuş və bu görüşdə regionun nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı məsələlər müzakirə edilmişdir.

Brüssel bəyannaməsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əhəmiyyətini, onun inkişaf etdirilməsi sahəsində əməkdaşlığın konkret istiqamətlərini, forma və mexanizmlərini müəyyənləşdirmiş ilk beynəlxalq sənəd olmuşdur. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan bu saziş və müqavilələrin imzalanması müstəqil Azərbaycan dövlətinin nəqliyyat blokadasına alınmasının qarşısını aldı. 1997-ci ilin martında Rusiya Federasiyası Azərbaycanla sərhəddəki məhdudiyyətləri götürdü. Üçillik fasilədən sonra 1997-ci ilin may ayında

Bakı-Moskva, Bakı-Kiyev, Bakı-Həştərxan qatarları yenidən işləməyə başladı. Bakı-Poti limanı arasında etibarlı dəmiryolu əlaqəsi yaradıldı.

Görüldüyü kimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan TRASEKA-nın reallaşmasına öz töhfəsini vermiş, regional inteqrasiya və əməkdaşlığın inkişafına kömək etmişdir. Bu layihə regional əlaqələrin möhkəmlənməsinə və region ölkələri arasında əlaqələrin dərinləşməsinə töhfə verə bilmişdir.

22 aprel 1996-cı ildə Lüksemburqda Avropa Konfrans Mərkəzində Cənubi Qafqazın digər iki respublikasının (Gürcüstan və Ermənistan) prezidentləri ilə birgə mətbuat konfransı zamanı – Cənubi Qafqazın inteqrasiyasının mümkünlüyünə inanırsınızmı? - sulaına cavab olaraq ümummilli lider belə demişdir: "…Avropa ilə inteqrasiya bütün Cənubi Qafqaz respublikaları üçün bütövlükdə dünya iqtisadi sistemi ilə inteqrasiyadan, demokratik proseslərin inkişafından, demokratik islahatların həyata keçirilməsindən ötrü çox mühüm vasitədir. Artıq Avropa Birliyindən aldığımız kömək, humanitar yardım, habelə müxtəlif bazar islahatlarının aparılması üçün göstərilən kömək ona dəlalət edir ki, inteqrasiya səmərəli və faydalı olacaqdır... Əlbəttə, Cənubi Qafqaz respublikaları arasında inteqrasya mümkündür. Məsələn, Azərbaycanla Gürcüstan arasında çox sıx inteqrasiya mövcuddur. Bu yaxınlarda biz Tiflisdə bir sıra sənədlər imzaladıq. Cənab prezident Şevardnadze və mən, Gürcüstanın və Azərbaycanın digər nümayəndələri inteqrasiyaya dair böyük bir proqram nəzərdə tutmuşuq. Şübhəsiz ki, Azərbaycan ilə Ermənistan arasında da çox sıx inteqrasiya mümkündür. [1, s.33] Təbii ki, hər bir dövlətin inteqrasiya prossesinin sürəti özünün təşəbbüsündən asılıdır.

Heydər Əliyevin dövründə Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin möhkəmləndirilməsi, əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımlar atıldı. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin 1996-cı ildə Azərbaycana rəsmi səfəri iki ölkə arasında siyasi və iqtisadi əməkdaşlığın artırılmasına yönəlmiş mühüm sazişlərin imzalanmasına səbəb oldu. Bu sazişlər iki ölkə arasında münasibətlərin əsasını təşkil edib və əməkdaşlığın möhkəmlənməsinə töhfə verib. Azərbaycanla Qazaxıstan arasında əlaqələrin möhkəmlənməsi təkcə rəsmi səfərlərlə məhdudlaşmayıb. Heydər Əliyevin Qazaxıstana rəsmi səfərləri də bu əməkdaşlığın dərinləşməsinə öz töhfəsini verdi. Xüsusilə 1997 və 1998-ci illərdə rəsmi səfərlər zamanı imzalanmış mühüm sənədlər və sazişlər iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə, əməkdaşlığın genişlənməsinə imkan yaratmışdır. [4, s.52]

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin inkişafı regional əməkdaşlığın möhkəmlənməsinə və Qara dənizdən Xəzər dənizinə qədər regionun sabitliyinə öz töhfəsini verdi. Bu səfərlər və imzalanmış sənədlər Azərbaycan və Qazaxıstanın strateji tərəfdaşlığını və qarşılıqlı faydalı münasibətlərini möhkəmləndirdi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə region ölkələri və böyük dövlətlər tərəfindən 1998-ci il sentyabrın 8-də "Gülüstan" sarayında "Böyük İpək Yolu"nun bərpası üzrə beynəxalq konfrans keçirildi [2, s.64].

Bu konfrans regional əməkdaşlığın və mədəni əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş mühüm təşəbbüs idi. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi İpək Yolunun dirçəldilməsi və müasirləşdirilməsi ideyasını irəli sürmüş və bu işdə fəal rol oynamışdır. Konfransın məqsədi Böyük İpək Yolunun qədim ticarət yollarının dirçəldilməsi və onların müasir nəqliyyat şəbəkələri ilə inteqrasiyasını müzakirə etməklə regional və qlobal ticarəti təşviq etmək olub. Bu tədbir regional əlaqələrin yaxşılaşmasına və mədəni mübadilənin artmasına kömək etdi və Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın regional inteqrasiyası üçün səylərinə böyük addım oldu.

1999-cu il ATƏT-in İstanbul zirvə toplantısında Terorizmə qarşı mübarizəni gücləndirmək və bölgədən kənar dövlətlərin hərbi güclərinin Qafqaza yerləşməməsi, separat qrupların fəaliyyətini, etnik qruplara təzyiqi aradan götürmək və bölgə dövlətlərini iqtisadi münasibətlərinin inkişaf etdirilməsi istiqamətində "Cənubi Qafqaz Təhlükəsizlik Paktı" adı ilə təqdim edilmiş layihə hazırlandı. Lakin Ermənistan tərəfindən müsbət rəy alınmadığına görə bu layihə reallaşmadı.

Qafqaz G8-ləri olaraq bilinən 3+3+2 (Cənubi Qafqaz dövlətləri + Rusiya + Türkiyə + İran + ABŞ + Avropa Birliyi) adlı layihə bölgə və digər dövlətlər tərəfindən dəyərləndirilsə də, bu haqda irəliləyiş əldə edilməmişdir. [3]

Nəticə etibari ilə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu artmış, ölkə regional inteqrasiya səylərini dəstəkləyən beynəlxalq platformalarda fəal iştirak etmişdir. Bu, Azərbaycanın regional əməkdaşlığının və inteqrasiyasının güclənməsinə töhfə verdi. Bunun nəticəsidir ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan regional inteqrasiyanın gücləndirilməsinə və ölkənin regional aktor kimi rolunun artırılmasına mühüm töhfələr vermişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev Heydər Əliriza oğlu. Müstəqilliyimiz əbədidir. (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). 46 cilddə. buraxılışa məsul şəxs R.Mehdiyev, H.Orucov- I cild Bakı: "Azərnəşr", 1997, 615 s.; VI cild Azərnəşr, Bakı: "Azərnəşr", 1997, 148s.; XIII cild, Bakı: "Azərnəşr" nəşriyyatı, 1998, 219 s.
2. M.Əmrahov. Böyük İpək Yolu. Dərs vəsaiti. – Бакы: Mütərcim, 2011. – 84 с
3. H.Cabbarlı. Cənubi Qafqazda təhlükəsizlik təşkilatları layihələri// new times // 17 avqust 2012
4. G.Baxşəliyeva. Heydər Əliyevin Xarici şərq siyasəti konsepsiyasında Türk dövlətləri // Türkologiya. - 2023 - № 1. - S. 48-54

HEYDƏR ƏLIYEV – AZƏRBAYCAN ELMİNİN, TƏHSİLİNİN VƏ MƏDƏNİYƏTİNİN BÖYÜK HİMAYƏDARI

Samirə Niftalı qızı Quliyeva
pedaqogika üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti
quliyevsamire 1979@.gmail.com

Həyatı boyunca Ulu Öndər Heydər Əliyev Azərbaycan elminə, təhsil və mədəniyət sahələrinə böyük diqqət yetirmiş və daim dəstək olmuşdur. Onun hakimiyyət etdiyi dövrlərdə Azərbaycan elminə dəstəyi böyük önəm kəsb etmişdir. O, elmi insititutların, universitetlərin və tədqiqatların inkişafına ciddi maddi və mənəvi yardım göstərmiş və elmi potensialın artması üçün addımlar atmışdır. Bunun üçün o, elmi insitutların və universitetlərin maddi-teniki bazasının gücləndirilməsi, elmi-tədqiqatların dəstəklənməsi, beynəlalq əməkdaşlığın genişləndirilməsi, elmi kadrların yetişdirilməsi və peşəkarlaşdırılması, elmi məqalələrin və kitabların yayılması və s. kimi işlər görmüşdür. Onun sayəsində Azərbaycan elmi-texniki sahələrdə çoxsaylı nailiyyətlər əldə etmiş, beynəlxalq arenada tanınmış elmi mərkəzlərə çevrilmişdir və ölkədə elmi potensialın inkişafı və peşəkar elmi kadrların yetişdirilməsi prioritet olmuşdur.

Hələ 1981-ci il iyunun 12-də Respublika yazıçılarının VII qurultayındakı çıxışında o, nitq mədəniyyəti məsələlərinə toxunmuş, nitqində bəlkə də kimsənin gözləmədiyi halda daha ciddi bir şəkildə nitq mədəniyyəti məsələsinin vacibliyi problemini ortaya qoydu. Nitq mədəniyyəti o dillərdə öz bəhrəsini verir ki, onların mükəmməl quruluşu və bu quruluşu təsbit edən qaydaları olsun. Azərbaycan dili də məhz min illər ərzində öz aqlütinativ quruluşu təməlində formalaşmış və sabit struktura malik bir dil idi. Bu dilin mükəmməl qaydaları və həmin qaydaların sabitləşməsini təmin edən daxili strukturu var idi. Belə bir dilin nitq mədəniyyətinin inkişaf etdirilməsi isə onun yazılı və şifahi aspektlərinin təkmilləşməsinə münbit şərait yaradır. Dil informasiyalarında intensivlik o zaman baş verir ki, onun yazılı və şifahi normaları mükəmməl olsun, stabil olsun. Bu halda intensivliyin özü kütləviləşir. Kütləviləşmə odur ki, yazılı və şifahi dil normaları dil istifadəçiləri tərəfindən mənimsənilmiş olsun. Belə olduqda informasiyalar məntiqə söykənir, asan ifadə olunur, düzgün çatdırılır və maneəsiz ötürülür. Heydər Əliyev də məhz böyük bir dahiyanəliklə nitq mədəniyyətinin kütləviləşməsini tövsiyə edirdi. Heydər Əliyev göstərirdi ki, "Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir. Yazıçı dilin, nitq mədəniyyətinin, ədəbi normaların qanunvericisi olmalıdır. Bununla əlaqədar

olaraq mətbuat, radio, televiziya, teatr, kino işçilərinə, mühaziraçilərə və müəllimlərə xüsusi tələbkarlıqla yanaşmaq lazımdır" [3, 42-43].

Heydər Əliyevin Azərbaycan dili və onun nitq mədəniyyəti barəsində dediyi və milli oyanışın gələcək perspektivlərinə dair irəli sürdüyü bu fikirlər çox da gec olmadan ictimai həyatda öz təsdiqini tapdı. Azərbaycan Respublikası Ulu Öndərin yenidən hakimiyyətə qayıtdığı 1993-cü ildən sonra qəti şəkildə öz müstəqilliyinə qovuşdu. Ancaq o zaman ana dilinin adını dəyişməyə cəhd göstərən və onun öz kökləri üzərindəki inkişafdan döndərməyə çalışan başqa qüvvələr də peyda olmuşdu. Heydər Əliyev, əlbəttə ki, bir vətəndaş kimi, bir uzaqgörən rəhbər kimi buna biganə qala bilməzdi [7, s.16-17].

Heydər Əliyev Azərbaycan dilinin etnik mərkəzləşdirici rolunu və əhəmiyyətini də xüsusilə çox yüksək qiymətləndirərək göstərirdi ki, "Azərbaycan dili bizi bir-birimizə birləşdirib. Burada bizim bir çox etnikköklü millətlərə mənsub olan adamların hamısı Azərbaycan dilini ana dili kimi qəbul edib. Azərbaycan dili bizi keçmişdə də gələcəkdə də birləşdirəcəkdir" [2].

Ulu Öndərin təhsilə verdiyi diqqət də çox böyük olmuşdur. O, təhsil sistemini möhkəmləndirmək üçün çoxsaylı layihələr həyata keçirmiş, məktəblərin və universitetlərin ifrastrukturunu inkişaf etdirərərk təhsilin keyfiyyətini yüksəltmişdir. Həmçinin, peşəkar təhsilin inkişafı və elmi-texniki sahələrdə təhsil alan tələbələrə dəstək vermişdir. O, tələbələrin təhsilinə geniş imkanlar yaratmaq, ali təhsilin inkişafını təmin etmək üçün müxtəlif proqramlar həyata keçirmişdir. Bu proqramlar arasında ali məktəblərin tikilməsi, tələbələrə özəl təqaüd və maliyyə yardımları vermək və s. yer alır. Bütün bu addımlar təhsil sistemini inkişaf etdirməyə və tələbələrin potensialını maksimum səviyyədə işlətməyə kömək etmişdir. Bunu üçün bir sıra srategiyalar həyata keçirmişdir. Ulu Öndərin təhsil srtrategiyaları çox geniş və müxtəlif olmuşdur. Əsas məqsəd ölkədə təhsilin keyfiyyətini yüksəltmək və beynəlxalq standartlara yaxınlaşdırmaq idi. Bu məqsədlə bir sıra tədbirlər həyata keçirmişdir:

1. Təhsilin dərəcəli modernləşdirilməsi: Məktəblərə daha çox texnalogiyaların tətbiqi, müasir müəllim təlimləri və müəyyən dərəcədə müstəqil təhsil idarəetməsinin tətbiqi kimi dəyişikliklər edilməsi planlaşdırılmışdır.
2. Peşəkar təlimin inkişafı: Elimi və texniki təhsilin keyfiyyətini artırmaq üçün universitetlərə və peşəkar məktəblərə dəstək verilməsi, yeni peşəkar təhsil sahələrinin açılması təşəbbüs edilmişdir.
3. Beynəlxalq əməkdaşılq: Beynəlxalq təhsil mübadilələri, tədqiqt və təlim proqramları vasitəsilə Azərbaycan tələbələrinin beynəlxalq standartlara uyğun təhsil almaları təmin edilməsi üçün çətin işlər görmüşdür.

Bu tədbirlə H.Əliyev dövründə Azərbaycan təhsil sistemində müsbət dəyişikliklərə səbəb olmuşdur

1993-2003-cü illərdə təhsil sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində də görülən işlərə nümunə olaraq 200 yeni məktəb binasının tikilərək istifadəyə verilməsini, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı bölgələrdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edilməsini, istedadlı uşaqlarla iş sahəsində xüsusi proqramların tətbiqi nəticəsində 12 minə yaxın şagird tutumlu 30-a yaxın və gimnaziya yaradılmasını göstərə bilərik.

Ulu Öndərin təhsilə qayğısı təkcə təhsil ümumtəhsil müəssisələri ilə yekunlaşmırdı. İstedadlı gənclərin təhsilə həvəsləndirilməsi üçün də əsaslı işlər görülürdü. Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında 2001-ci il 3 sentyabr tarixli Fərman bunun bariz nümunəsidir. Ulu Öndər bu gənclərlə şəxsən görüşür, onlarda daha yaxşı oxumağa motivasiya yaradır, öz dəyərli tövsiyələrini əsirgəmirdi.

Heydər Əliyev təhsilin cəmiyyətdə rolunu savadlı, bilikli, vətənpərvər, mənəvi baxımdan sağlam, milli dəyərlərə malik gənc nəsil-vətəndaş yetişdirmək missiyasının reallaşdırılmasında, dövlətçiliyə xidmətdə görürdü. "Təhsil millətin gələcəyidir" deyən Ümummilli Lider təhsilə millətin gələcəyi kimi baxırdı.

"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram", - deyən Heydər Əliyev

hakimiyyətdə olduğu bütün dövrlərdə müəllimə və müəllim əməyinə yüksək qiymət verirdi. Onun müəllimə münasibəti ən ali səviyyədə idi. Müəllim peşəsini yüksək qiymətləndirən Ulu Öndər deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır".

Heydər Əliyev, Azərbaycan mədəniyyətinin böyük himayədarıdır. O, Azərbaycanın ənənələrini, tarixini və mədəni irsini qoruyub, dəyərləndirib, inkişaf etdirərək bu mədəniyyətin inkişafına və yayılmasına dəstək olmuşdur.

Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Bu dahi insan düşüncələri zəngin olduğu qədər də tükənməz enerjiyə malik idi. Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhət bu idi ki, o, məmləkətin inkişafı üçün zəruri olan məqamları görə bilirdi, qarşıya konkret məqsədlər qoyurdu və insanları bu məqsədlər naminə səfərbər edirdi, qüvvələri səmərəli şəkildə istiqamətləndirirdi.

Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşırdı. Bu da təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.

Məhz buna görə də ümummilli liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi bazasının gücləndirilməsi əhalinin gün-güzəranının yaxşılaşdırılması, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövründə illər Azərbaycanın tarixinə elmin və təhsilin, mədəniyyətin tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, kino-teatr, klub, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Mədəniyyətin bütün sahələrində görünməmiş uğurlar qazanıldı. Bu qayğı sayəsində neçə-neçə görkəmli bəstəkar, rəssam, şair, yazıçı, heykəltəraş yetişdi. Onlara fəxri adlar verilməsi, Bakıda və Moskvada yubileylərinin keçirilməsi ənənə halını aldı.

Heydər Əliyev hakimiyyətinin birinci dönəmində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə digər bina istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır.

Yeri gəlmişkən, Ulu Öndər Heydər Əliyevin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə "Füzuli ensiklopediyası"nın hazırlanması və nəşr edilməsi haqqında sərəncamı, 1999-cu il mayın 15də isə Azərbaycan xalqının qədim tarix və mədəniyyət qaynaqlarından olan "KitabiDədə Qorqud"un 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi haqqında fərman imzalaması da onun elmə və mədəniyyətə verdiyi yüksək qiymətin təcəssümüdür.

Tarixin vərəqlərini çevirdikcə çox hadisələr yada düşür. 1937-ci ilin repressiyaları həm millətin istedadlı insanlarının sinəsinə tuşlanmışdı, həm də maddi mədəniyyət abidələri yerləyeksan edilmişdi. Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsi, doğulduğu doğma Naxçıvanda torpağa tapşırılması və müqəddəs Cavidin ruhuna hörmət olaraq məqbərənin ucaldılması, eləcə də Bakıda bu böyük şairin adına ev muzeyinin açılması məhz Heydər Əliyevin misilsiz xidmətidir.

Heydər Əliyev özünün müqayisə olunmaz və ölçüyə gəlməz xidmətləri ilə Azərbaycan Mədəniyyət Salnaməsinin hər bir səhifəsinə qızıl hərflərlə həkk olunmuşdur. Bu gün tam cəsarətlə və qətiyyətlə demək olar ki, Azərbaycan mədəniyyətinin yüksəlişi, onun dirçəlişi, zənginləşməsi geniş miqyasda təbliği və bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Həqiqətdir ki, Azərbaycan mədəniyyətində mövcud olan böyük simalar və onların yaratdığı ölməz əsərlər tariximizin heçbir mərhələsində Heydər Əliyev zamanında olduğu qədər yüksək qiymətlən-

dirilməyib. Heydər Əliyevin həyat epopeyası əsrin mübarizəsində qalib çıxmış epopeyadır. Onun irsi vətənə xidmət sevgisi duyğuları ilə yaşayan hər bir insan üçün dərin idrak mənbəyidi. Bu mənbə isə layiqli hər bir vətəndaş üçün daim qiymətli və əzizdir. Mədəniyyətimizin milli, mənəvi dəyərlərimizin və mədəni incilərimizin yaşadılması və qorunması bugün möhtərəm prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan müəllimi" qəzeti, 14 noyabr, 2015-ci il.
2. Heydər Əliyev. Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqi. "Xalq qəzeti", 24 noyabr, 1998-ci il.
3. "Xalq qəzeti", 10 dekabr 2012-ci il.
4. "Xalq qəzeti", 24 may 2012-ci il.
5. Mübariz Yusifov. Dahi şəxsiyyətin nitq fenomenliyi. Bakı, 1997, s. 16-17 (144 s.).

AZƏRBAYCANDA EV TƏSƏRRÜFATLARININ İKT-DƏN İSTİFADƏ İMKANLARININ TƏDQİQİ

Gülnarə Akif qızı Fətəliyeva
iqtisad üzrə fəlsəfə doktoru
ETN İqtisadiyyat İnstitutu
feteliyevagulya@gmail.com

Giriş

Rəqəmsal transformasiya hökumətlərdən zamanın tələbinə uyğun olaraq innovativ, rəqəmsal texnologiyaları qəbul və tətbiq etməyi tələb edir. Bu proses ümumilikdə həm ölkə, həm müəssisələr, həm də əhali səviyyəsində baş verir [2]. Bu baxımdan ev təsərrüfatları da istisna təşkil etmir.

Hazırda dünyada ev təsərrüfatları tərəfindən informasiya-kommunikasiya texnologiyalarının (İKT) mənimsənilməsi və istifadəsi genişlənməkdədir. Ev təsərrüfatlarının İKT-dən istifadəsinin bir sıra üstünlükləri vardır. Məsələn, İKT-dən istifadə insanların gündəlik həyatda bir-biri ilə əlaqə saxlaması, ünsiyyət qurması baxımından səmərəliliyi artırır. Həmçinin, İKT ev təsərrüfatları üzvlərinə uzaqdan işləmək və öyrənmək, müxtəlif mövzularda geniş məlumat əldə etmək imkanları yaradır. Digər bir müsbət cəhət də odur ki, İKT ev təsərrüfatlarına rahat şəkildə mal və xidmətləri onlayn formada əldə etməyə, internet üzərindən təhlükəsiz əməliyyatlar aparmağa imkan verməklə e-ticarət fəaliyyətlərini asanlaşdırır. Qeyd edilənləri nəzərə alaraq, Azərbaycanda ev təsərrüfat-larının İKT-dən istifadəsi ilə bağlı mövcud vəziyyətin öyrənilməsi və müvafiq göstəricilər üzrə sərhəd ölkələrlə müqayisələrin aparılması maraq doğurur.

Azərbaycanda ev təsərrüfatlarının İKT-dən istifadəsi sahəsində mövcud vəziyyət

İKT-nin geniş yayılması gündəlik həyatda köklü dəyişikliklərə gətirib çıxarır. Ölkəmizdə son illərdə İKT-yə tələb nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Bunu 1 saylı Diaqramda Azərbaycanda bütün ev təsərrüfatlarının tərkibində İKT-si olan ev təsərrüfatlarının payı haqqında məlumatların öz əksini tapdığı 2018-2022-ci illərin göstəricilərinin müqayisəsindən aydın görmək mümkündür. Bu illər ərzində ölkədə bütün ev təsərrüfatlarında yalnız sabit telefonu olanların xüsusi çəkisində azalma müşahidə edilmişdir. Qeyd edilən göstərici 5 ildə 11,7 % azalmışdır. Bu isə hər yerdə əlçatan olan mobil rabitə xidmətlərinin istifadəsinin genişlənməsi ilə izah oluna bilər. Göründüyü kimi, həmin dövrdə mobil telefonu olan ev təsərrüfatlarının payı 3,9 % artaraq 91,5 %-ə çatmışdır (Diaqram 1).

Azərbaycanda təhlil dövründə ev təsərrüfatlarının kompüterlə təmin olunma səviyyəsində 11,7 % artım qeydə alınmış və bu göstərici 2022-ci ildə 75,8 % təşkil etmişdir. Müqayisə üçün qeyd etmək olar ki, bu nəticə ilə ölkəmiz ona sərhəd olan dövlətləri – Rusiya (73 %), Gürcüstan (60,3 %), Türkiyə (52,7 %) və Ermənistanı (49,9 %) üstələmişdir [4].

Eynilə, respublikada evdə internetə çıxış imkanları üzrə də müsbət tendensiya nəzərə çarpır. Başqa sözlə desək, 2022-ci ildə 2018-ci ilə nəzərən 9,6 % daha çox ev təsərrüfatı internetə çıxış əldə etmişdir ki, bu da 87,8 % deməkdir. Qeyd edilən göstəriciyə görə ölkəmiz Rusiyadan (86,6 %) bir qədər öndə olsa da, Türkiyə (94,1 %), Ermənistan (89,7 %) və Gürcüstandan (88,4 %) geridədir [5].

Həmçinin o da qeyd olunmalıdır ki, 2022-ci ildə respublikada ev təsərrüfatlarının əksəriyyətinin (96,5%) radiosu, hamısının isə (100 %) televizoru olmuşdur [1, s.15].



Diaqram 1. İKT-si olan ev təsərrüfatlarının bütün ev təsərrüfatlarında xüsusi çəkisi, %
Mənbə [1, s.15] əsasında müəllif tərəfindən hazırlanmışdır.

Lakin Azərbaycanda hələ də internetə çıxışı olmayan ev təsərrüfatları qalmaqdadır. 2 saylı Diaqramda ölkəmizdə 2022-ci ildə mənzillərdə internetə çıxışın olmaması səbəbləri ilə bağlı rəqəmlər təsvir edilib. Ev təsərrüfatlarının böyük əksəriyyəti (48,1 %) internetin olmamasını məhz ona ehtiyacın duyulmaması ilə izah ediblər. Bir qismi isə (11 %) başqa yerdə qoşula bilməsi səbəbindən evə interneti çəkdirməyi lazım bilmir. Xidmət haqqının yüksək olması (10,1 %) və internetə qoşulmaq üçün zəruri olan avadanlıqların bahalığı da (8,3 %) ev təsərrüfatları üçün müəyyən əngəllər yaradır. Ölkənin bəzi ərazilərində texniki imkanların olmaması halları da internetə qoşulma istiqamətində mövcud olan əsas maneələrdəndir (5,9 %).



Diaqram 2. Evdə internetə çıxışın olmaması səbəbləri, %, 2022-ci il
Mənbə: [1, s.39] əsasında müəllif tərəfindən hazırlanmışdır.

Diaqram 3 2018-2022-ci illərdə Azərbaycanda ailələrin İKT xərclərinin ev təsərrüfatlarının ümumi xərclərindəki payı üzrə göstəriciləri əhatə edir. İKT xərcləri dedikdə, İKT malları və xidmətlərinə sərf olunan xərclər nəzərdə tutulur. Statistik göstəricilərə nəzər saldıqda aydın olur ki, 2022-ci ildə ümumi ev təsərrüfatları xərclərinin 7,2 %-ni İKT xərcləri təşkil etmişdir ki, bu da əvvəlki illərlə müqayisədə artım deməkdir. Qeyd edilən rəqəm həmin ildə Gürcüstan (5%) və Ermənistanın (2,83%) müvafiq göstəricisindən yüksək olmuşdur. Lakin Rusiya (9,16%) bu baxımdan irəlidədir [3].



Diaqram 3. İKT üzrə xərclərin ev təsərrüfatlarının ümumi xərclərində xüsusi çəkisi, %
Mənbə [1, s.24] əsasında müəllif tərəfindən hazırlanmışdır.

2022-ci ilin yekunlarına görə, respublikada əhalinin İKT xərclərinin strukturuna diqqət yetirdikdə məlum olur ki, başlıca hissəni internet şəbəkəsinə qoşulma ilə bağlı xərclər (35,4 %) təşkil etmişdir. Ev təsərrüfatlarının telefon avadanlıqlarının alınması və təmiri üzrə xərclərinin həcmi onların ümumi xərclərinin tərkibində 27%-ə bərabər olmuşdur. Bununla yanaşı, evlərdə xərclərin 16,1 %-i telefon rabitəsi, 4,3 %-i kabel TV xidmətləri, 3 %-i isə kompüter, noutbuk, planşet, printer kimi İKT avadanlıqlarının alınması üzrə olub. Xərclərin yerdə qalan hissəsi (14,2%) digər istiqamətlər üzrə ayrılıb (Cədvəl 1).

Cədvəl 1

Ev təsərrüfatlarının İKT xərclərinin bölgüsü, %, 2022-ci il

İnternet şəbəkəsinə qoşulma	35,4
Telefon avadanlıqlarının alınması və təmiri	27,0
Telefon rabitəsi xidmətləri	16,1
Digər İKT xərcləri	10,7
Kabel TV xidmətləri	4,3
Kompüter, noutbuk, planşet, printer, kompüter proqram paketləri və s. alınması üzrə	3,0
Audiovizual, foto avadanlıqlarının, kompüter, noutbuk, planşet və printerlərin təmiri üzrə	1,4
Peyk rabitəsi xidmətləri	0,8
Audiovizual və foto avadanlıqları üzrə	0,7
IPTV xidmətləri	0,6

Mənbə [1, s.32] əsasında müəllif tərəfindən hazırlanmışdır.

Nəticə

Araşdırmanın nəticəsi Azərbaycanda son illərdə ev təsərrüfatları tərəfindən İKT-dən istifadə sahəsində müsbət meyillərin olduğu qənaətinə gəlməyə əsas verir. Bu, xüsusilə kompüter və internetdən, mobil rabitədən istifadə üzrə baş vermişdir. Buna müvafiq olaraq, təhlilin son ilində ailələrin İKT xərclərinin ümumi xərclərdəki xüsusi çəkisində də əvvəlki illərə nəzərən artım qeydə alınmışdır.

Təhlillər internet şəbəkəsinə qoşulma xərclərinin ev təsərrüfatlarının ümumi xərclərində üstünlük təşkil etməsinə baxmayaraq, hələ də ölkəmizdə müəyyən səbəblərdən internetə qoşulmayan ev təsərrüfatlarının olduğunu göstərir. Bu səbəblər, həm insanların şəxsi yanaşmaları

(məsələn, interneti zərərli hesab etmə, zərurət duymamaq, şəxsi məlumatların qorunması ilə bağlı narahatlıq), həm xidmətlərin qiyməti (məsələn, istifadə haqqının və avadanlıqların baha olması), həm də texniki məsələlər (başqa yerdə internetə qoşula bilmə, texniki imkanların olmaması, sürət və keyfiyyətin aşağı səviyyəsi) ilə bağlı olmuşdur.

Ümumilikdə, insanların İKT-dən geniş istifadəsi onların rəqəmsal bacarıqlarının artması kimi də səciyyələnir. Bu da, rəqəmsal məhsul və xidmətlərə tələbatın yüksəlməsinin təşviqinə səbəb olur. Beləliklə də, ev təsərrüfatları tərəfindən İKT-dən istifadə imkanlarının genişlənməsi rəqəmsallaşmanın vüsət aldığı hazırkı dövrdə səmərəliliyin artması ilə yanaşı, eyni zamanda iqtisadiyyatın rəqəmsal mühitə transformasiyasını sürətləndirmiş olur.

İstifadə edilmiş ədəbiyyat

1. ARDSK, 2023. Azərbaycanda informasiya cəmiyyəti. Statistik Məcmuə. Bakı, 140 s. [https://stat.gov.az/source/information_society/]
2. Fətəliyeva G., 2024. Azərbaycanda rəqəmsal transformasiya – 2023. Bülleten. Bakı, 2024. "Elm və Bilik" nəşriyyatı. 64 s.
https://economics.org.az/administrator/uploads/media/Gulyabul2024.pdf
3. ITU, 2022. Household expenditure on ICTs.
https://datahub.itu.int/data/?e=IRN&i=16379&c=TUR
4. ITU, 2022. Households with a computer
https://datahub.itu.int/data/?e=ARM&i=12046&c=IRN
5. ITU, 2022. Households with Internet access at home.
https://datahub.itu.int/data/?e=RUS&i=12047&c=TUR

ÜMUMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İDEYALARI İŞIĞINDA AZƏRBAYCAN GƏNCLİYİ

[1,2]**Məryəm Yahuzər qızı Əsədova,** [1,3]**Aytac Murad qızı Cavadova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]Azərbaycan Texniki Universitetinin doktorantı
maryam.asadova@mdu.edu.az
[3]Lənkəran Dövlət Universitetinin doktorantı
aytac.cavadova@mdu.edu.az

Gələcəyimiz gəcliyimizdir, gələcəyimizin təminatıdır. Gələcəyi təhlükəyə atmaq gəncliyə etinasız yanaşmaq deməkdir. Gənclərinə dəyər verməyən, onlara qayğı göstərməyən bir dövlətin yaşaması mümkün deyildir.

Tarixə diqqət yetirdikdə görürük ki, gəncliyə dəyər verən, onun inkişafına sərmayə qoyan dövlətlər məhv olmaq təhlükəsindən nəinki xilas olub, vaxt keçdikcə daha da güclənib, inkişaf edib. Təbii ki, əksər xoşbəxtliyə çatan ölkələrə nəzər yetirdikdə görünür ki onların çətin dövrlərdə güclü və uzaqgörən liderləri olub. Liderlər, xalq tərəfindən sevilib, inanılıb və güvənilərək, ən çətin anlarda dəstək görürlər. Buna örnək olaraq, ölkəmizdə 1990-1993-cü illər kimi çətin bir dövrdə xalqın Ümummilli lider Heydər Əliyevə güvəndiyi kimi. Naxçıvanda yaşanan zorlu blokada şəraitində, Ulu Öndərün liderliyi altında başlanan qurtuluş mübarizəsi, xalqın istəyi ilə gerçəkləşmişdir. Bu mübarizə zamanında alınan qərarlar, milli kimliyimizi özümüzə qaytarma yolunda mühüm addımlar atılmasını sağlamışdır. İnsanların gündəlik ehtiyaclarının qarşılanmasında yaşanan çətinliklər və sərhəddəki hərbi toqquşmaların olduğu bir dövrdə, Ulu Öndər, gənclərin təhsilinə və gələcəyinə diqqət yetirərək, onların inkişafı üçün əhəmiyyətli addımlar atmağa öncülük etmişdir [2].

1993-cü ildə xalqın istəyi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Ulu Öndər, ölkədə gəncliyin inkişafına öz diqqətini yönəltmiş və onları dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi görülmüşdür. Bu dönəmdə, vətəndaş müharibəsi təhlükəsi ilə qarşılaşılan bir zamanda, Ümummilli Lider Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başladıqdan sonra, gənclərlə ilk görüşlərindən birini təşkil etmişdir. Gənclərin həyatında yaradılan qaos zamanında, Ulu Öndər, onların gələcəyini də dəyərləndirərək onlara dərin inam bəsləmişdir. Görüş zamanı, Ulu Öndər gənclərə, dünya sivilizasiyasının möhkəm təhsil və elmə əsaslandığını və bu yolda getməyin vacib olduğunu bildirərək onları bu yola dəvət etmişdir. Həmçinin, müstəqil Azərbaycan Respublikası gənclərinin bu yolda inkişaf etmələrinin əhəmiyyətini vurğulayaraq, onlara kömək etməyə hazır olduklarını və şərait yaradacaklarını ifadə etmişdir[1]. Ulu Öndərin bu tövsiyələri və gənclərə verdiyi dəstək, ölkədə yaşanan sosial-siyasi proseslər zamanında gənclərin mənəviyyatca formalaşmasında, düzgün istiqamətlənməsində və gələcək həyatlarına hazırlanmasında əhəmiyyətli rol oynamışdır. O dövrdə gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlər davamlı şəkildə genişlənmişdir. Yaradıcılıq baxımından xüsusi istedadı olan və idman sahəsində uğur qazanmış gənclərə verilən diqqət daha da artırılmışdır. Ümummilli Liderin 1993-cü ildə imzaladığı "Xüsusi istedadı olan və idman sahəsində uğur qazanmış gənclərin ali və orta ixtisas məktəblərinə qəbulu haqqında" Sərəncam, gənclərin yaradıcılığının və intellektual inkişafının təşviqi məqsədi ilə atılmış əhəmiyyətli addımlardan biridir. Bu tərəf ölkədən kənarda yaşayan azərbaycanlı gənclərin də diqqətə alındığını göstərməkdə idi[3].

Ümummilli Liderin 1994-cü ildə imzaladığı "Gürcüstan Respublikasında və Rusiya Federasiyasının Dağıstan Respublikasında yaşayan Azərbaycanlı gənclərin respublikanın ali məktəblərində yerləşdirilməsi haqqında" Sərəncam, yüksək ixtisaslı kadrların yetişdirilməsi məqsədilə əhəmiyyətli bir addım idi. Dahi şəxsiyyətin rəhbərliyi ilə aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması və nəhəng iqtisadi layihələrin həyata keçirilməsi, ölkəmizin inkişafı üçün yeni imkanlar yaratmışdır. Bu inkişafın sağlam təməllər üzərində inşa edilməsi üçün zamanın çətinliklərindən keçmiş gənclərin imkanlarından faydalanmağı vacib saymaq lazımdır. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə ölkəmizin gələcəyi adlandıran Ümummilli Liderin dövlət gənclər siyasətinin inkişafı istiqamətində müəyyənləşdirdiyi siyasi xətt, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndərin tövsiyələri ilə yönəldilmiş gənclik müstəqilliyimizi, milli-mənəvi dəyərlərimizi, adət və ənənələrimizi gələcəyə daşıyır. Bugün Azərbaycan gəncliyi üçün müasir təhsil mühiti yaradılıb, yeni iqtisadi imkanlar əldə edilmiş, gənclərin hüquqları genişləndirilib, maddi təminatları möhkəmləndirilib və mənəvi inkişafı təmin edilmişdir. Həyata keçirilən tədbirlər gəncliyi inkişafın yeni mərhələsinə çıxarıb. Gənc nəslin ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəallığı artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib. Yaradılan şəraitin nəticəsidir ki, bu gün minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edir, gənclərimizin qələbələri sayəsində Azərbaycan Bayrağı xarici ölkələrdə Dövlət Himnimizin sədaları altında yüksəklərə ucaldılır. Gənclərin mədəniyyətlərarası dialoqun aparılmasında fəal iştirakı ölkəmizi beynəlxalq arenada daha yaxından tanıdır. Bir sözlə, gənc nəsil onlar üçün yaradılan şəraitdən səmərəli istifadə etməklə ölkəmizin ümumi inkişafına öz töhfəsini verir [4].

Gənclər, müstəqil Azərbaycanın dövlət quruculuğunda və ərazi bütövlüyünün təminində aparıcı rol oynamışdır. Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi illərdə doğan, böyüyən və istiqamət-lənən, cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə yetişən, formalaşan gənclər, bir sıra əhəmiyyətli hadisələrdə ölkənin müstəqilliyi və torpaqlarının müdafiəsində əsas rolu oynamışdır. 2016-cı ildə Aprel döyüşlərində, 2018-ci ildə Naxçıvanda Günnüt əməliyyatında, 2020-ci ildə Tovuz döyüşlərində Ermənistan ordusuna qarşı qələbə qazanmaq, onların yalan miflərini darmadağın etmək gənclərin mövqelərinin güclü olduğunu göstərmişdir. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsi dövründə gənclərin qəhrəmanlığı və mövqeləri ən çox təsir göstərmişdir. Bu müharibədə, işğalçı dövlətin ordusu məğlubiyyətə uğrayaraq, Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad etmiş və tarixi ədaləti bərpa etmişdir. Şuşa əməliyyatı isə ordumuzun gücünü və yenilməzliyini bütün dünyaya nümayiş etdirib. Ölkə Prezidenti cənab İlham Əliyevin Şuşada Cıdır düzündə müraciəti zamanı ifadə etdiyi fikirlər, Ümummilli Liderin 1994-cü ildəki

çıxışı ilə üz-üzə gələn uzaqgörənlik və müdrikliklə eynilik göstərməkdədir. Bu, gənc nəslin canını fəda edərək və öz qanı-canı bahasına torpaqlarımızı düşmənin əlindən aldığı və təhsil alıb böyüyərək, cəmiyyətdə öz yerlərini tutduğu bir dönəmin nəticəsidir [5].

Zamanın axınında durub, liderin böyüklüyünü tam başa düşmək üçün keçmiş dövrlərdə qəbul olunan qərarları yenidən qiymətləndirmək vacibdir. Mövzu ilə bağlı vaxtdan asılı olmayaraq, bizim dövlət lideri, Prezident İlham Əliyev, "Heydər Əliyev İli" ilan olunan 2023-cü ilə dair 2022-ci ilin 29 sentyabr tarixli sərəncamı ilə Ulu Öndərin xidmətlərini və yaşadığı dövrün əhəmiyyətini özündə əks etdirir. Bu sərəncam, Ümummilli Liderin müstəqilliyimizin ilk illərində atdığı möhkəm addımların dövlətçilik dəyərlərimizi qoruyub saxlayan, intellektual və vətənpərvər gənclərin yetişməsinə apardığı mühüm rolu vurğulayır. Liderimizin ifadə etdiyi kimi, gənc nəsil ölkəmizi müstəqilliyini qorumağa və dünyanın ən güclü dövlətlərindən biri olmağa nail olacaq. Bu, öz əqidəli, bilikli, dünyagörüşlü və mətin gənclərimizin fəaliyyəti sayəsindədir. Beləliklə, liderimizin sözləri ilə, bugünkü müstəqil Azərbaycanın quruluşunun əsaslarının necə qoyulduğunu və möhkəmləndirildiyini başa düşmək mümkündür.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan müəllmi" qəzeti, 4 Oktyabr 2013 - №38" http://www.muallim.edu.az/arxiv/2013/38/30.htm
2. "İlham Əliyev və İKT" Sentyabr 27, 2008 http://www.ict.az/az/index.php?option=com_content&task=view&id=800&Itemid=122
3. Azərbaycan müəllimi qəzeti, 2011, 11 iyun
4. Əli Abbasov "İnformasiya cəmiyyətinin qurulması Azərbaycan Respublikasının dSOlətsiyasətinin əsas prioritetlərindən biridir" məruzəsi, http://www.ict.az/az/index.php?option=com_content&task=view&id=66&Itemid=1
5. http://president.az/articles/7119

MÜZƏFFƏR AZƏRBAYCAN ORDUSU – HEYDƏR ƏLİYEVİN SİYASƏTİNİN NƏTİCƏSİDİR

Gülər İlham qızı Əjdərzadə
Mingəçevir Dövlət Universiteti
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı
gular.ajdarzada@mdu.edu.az

Ermənistan millətçilərinin Azərbaycan torpaqlarına iddiası SSRİ dağıldıqdan sonra Ermənistan hərbi birləşmələrinin torpaqlarımızın bir hissəsinin işğalına gətirib çıxardı. Azərbaycanın həmin dövrdə birləşdirici və təcrübəli liderinin olmaması, Ermənistanın ordu quruculuğu prosesinə xeyli əvvəlcədən hazırlaşması birinci Qarabağ müharibəsində Ermənistanın ilkin uğuruna zəmin yaratdı. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra respublikanın həyatının bütün sahələrində olduğu kimi ordu quruculuğu sahəsində böyük işlər görülməyə başlandı.İlk növbədə, qanunsuz hərbi dəstələr buraxıldı, Silahlı Qüvvələr dövlət nəzarətinə alındı. Digər ölkələrin nümunələrindən və Qarabağ müharibəsi təcrübəsindən istifadə olunaraq mükəmməl hərbi qanunvericilik sistemi yaradıldı. Heydər Əliyevin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı, səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri elə yerindəcə mükafatlandırması şəxsi heyətin mənəvi gücünü artırırdı.Ordu quruculuğunun elmi-təcrübi əsaslar üzərinə qoyulması, vahid komandanlıq prinsipinin həyata keçirilməsi Qarabağ bölgəsində gedən döyüş əməliyyatlarına öz müsbət təsirini göstərdi.

1993-cü il noyabrın 2də Ermənistan – Azərbaycan cəbhə xəttindəki ağır vəziyyətlə bağlı Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətində ordu quruculuğu məsələlərini də ciddi

şəkildə ön sıraya qoydu. Öz hərbi borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərliyin, hərbi komissarların işinin şəraitin tələblərinə uyğun qurulması tələbinin qoyulması, hərbi texniki təminatın gücləndirilməsi sahəsində atılan addımlar ordumuzun döyüş hazırlığının yüksəlməsinə səbəb oldu [1]. Ordu quruculuğu sahəsində aparılan işlərin sistemləşdirilməsi, ordunun vahid komandanlıq prinsipi əsasında fəaliyyət göstərməsi qısa müddətdən sonra öz səmərəsini verdi. Azərbaycan Ordusu tərəfindən aparılan uğurlu döyüş əməliyyatlarından təşvişə düşən və gücümüzün artmasını hiss edən düşmən 1994-cü il mayın 12-də atəşkəs haqqında müqaviləni imzaladı. Sonrakı dövrlərdə ordumuzun daha da möhkəmləndirilməsi sahəsində bir çox mühüm tədbirlər həyata keçirildi. Çağırış və səfərbərlik işi xeyli təkmilləşdirildi, hərbi hissələrdə intizam möhkəmləndi, qanun-qaydalara tam riayət olunması təmin edildi. Bütün bunlar orduya gələn gənclərin peşəkar hərbi qulluqçu kimi hazırlanmasına, hərbi ixtisaslara dərindən yiyələnməsinə şərait yaratdı. Hələ o dövrdə Azərbaycan ordusunun müasir NATO standartlarına uyğun olaraq qurulacağı tam aydın idi. Prezident Heydər Əliyevin avrointeqrasiya siyasəti NATO ilə sıx əməkdaşlığı vacib edirdi [2]. Bunun üçün Azərbaycanda yetərli potensial da mövcud idi. Eyni zamanda Azərbaycanda ali hərbi məktəblər sisteminin yaradılması, onun tədris prosesinin NATO ölkələri hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması öz nəticəsini tədricən verirdi. Hələ Azərbaycanın dövlət müstəqilliyinin bərpasından xeyli əvvəl 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə yaradılan C.Naxçıvanski adına Hərbi Liseyi ötən illər ərzində minlərlə gənc bitirərək ali hərbi məktəblərə daxil olmuş və böyük ordu həyatına vəsiqə almışlar.

Hazırda respublikamızın Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələr üçün müxtəlif kateqoriyadan olan hərbi kadrların hazırlanması Azərbaycan Ali Hərbi Məktəbində, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, Hərbi Akademiyada və digər hərbi təhsil müəssisələrində uğurla həyata keçirilir. 1997-ci ildən bu məktəblərdə NATO standartlarına uyğun tədris proqramı tətbiq olunur.

Silahlı Qüvvələrin Hərbi Akademiyasında hərbi qulluqçularla yanaşı, dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə müharibə ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsi təşkil edilir. Hətta MDB-yə üzv olan bir neçə dövlət ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən imzalanmış sazişlərə əsasən bu ölkələrin hərbi qulluqçuları Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alırlar. Adları çəkilən hərbi təhsil müəssisələrinin maddi-tədris bazası yüksək standartlara cavab verən tədris, idman və mədəni-məişət komplekslərini əhatə edir.

Ötən illər ərzində Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri xeyli genişlənmiş və keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. 1994-cü il may ayının 4-də Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin zabitləri NATO-nun strateji və regional qərargahlarında müxtəlif vəzifələrə təyin edilmişlər. Hər il Azərbaycan Respublikası ilə NATO arasında fərdi əlaqələndirmə proqramı hazırlanır və təsdiq edilir. Proqrama əsasən Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri NATO-nun hərbi məktəbləri, kollecləri və başqa strukturlarında keçirilən sülhməramlı kurslarda, Avropa təhlükəsizlik sahəsində əməkdaşlıq, adi silahlara nəzarət, böhran vəziyyətini idarəetmə, ətraf mühitin mühafizəsi, inteqrasiya proseslərinin genişləndirilməsi və digər tədbirlərdə iştirak edirlər. Hərbçilərimiz sülhməramlı, humanitar və digər çoxmillətli təlimlərin planlaşdırılması, hazırlanması və həyata keçirilməsində yaxından iştirak edirlər [3]

2004-cü ilin may ayında Fərdi Tərəfdaşlığın Fəaliyyət proqramı NATO Baş katibinə təqdim edilmişdir. Bu proqram 2005-ci ilin may ayında NATO tərəfindən təsdiq edilmiş və onun icrasına başlanmışdır. Son illərdə NATO-nun müxtəlif tədbirlərində Azərbaycan Silahlı Qüvvələrinin yüzlərlə nümayəndəsi iştirak etmişdir.

NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində respublikamızda bir neçə çoxmillətli komanda-qərargah təlimləri keçirilmişdir. "Kooperativ Determineyşn", "Regional cavab – 2009" – bu təlimlərdə NATO üzvü və tərəfdaş dövlətlərdən nümayəndələr iştirak etmişdir.

Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla silahlanıb. Ordumuzun şəxsi heyəti üçün həmin silahlardan istifadə edilməsi təlimi həm ölkə daxilində, həm ölkəmizdən kənarda keçirilir.

Silahlı Qüvvələr üçün kazarmalar əsaslı təmir edilir, yeniləri tikilir. Zabit və gizir heyətinin mənzil problemi və digər sosial problemləri həll olunur, hərbi qulluqçuların əməkhaqqı məsələsi daim diqqətdə saxlanılır, dövlətin imkanları artdıqca, bu məsələnin həlli yolunda çox ciddi tədbirlər görülür.

Bütün bunlar öz müsbət nəticəsini verməyə başladı. Ermənistanın cəbhə və sərhəd xətlərində etdiyi hərbi təxribatların qarşısı alınır, düşmən kiçik döyüşlərdə məğlub edilirdi. 2016-cı il aprel və 2020-ci il iyul Tovuz döyüşlərində Azərbaycan Ordusu Ermənistan ordusu üzərində öz üstünlüyünü göstərdi. Aprel döyüşlərində və 2018-ci ilin mayında Naxçıvan istiqamətində işğal altında olan torpaqların bir hissəsinin azad edilməsi Azərbaycan Ordusunun yüksək döyüş hazırlığını və torpaqları işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu müdafiə xəttini yararaq, düşmənin silahlı qüvvələrini darmadağın etdi və Zəfər əldə etdi. Uğurlu hərbi əməliyyatlar nəticəsində 44 gün ərzində düşmənin müxtəlif təyinatlı 1045 hərbi texnikası məhv edildi. 2165-i isə hərbi qənimət kimi əldə edildi. Bu rəqəmlər hərbi texnikaların növləri və sayları konkret göstərilməklə Prezident İlham Əliyevin 2020-ci il dekabrın 1-də xalqa növbəti müraciətində səsləndirildi [4].

Azərbaycan Respublikası İkinci Qarabağ müharibəsində müasir döyüşlərin aparılmasının nümunələrini yaratdı. Həmçinin ordumuz beynəlxalq humanitar hüquqa uyğun olaraq, mülki əhalini və mülki obyektləri hədəfə almadı, döyüş sahəsindəki cəsədlərin toplanması və mübadiləsinin həyata keçirilməsi üçün Ermənistan tərəfinə hətta hərbi əməliyyatlar arasında fasilədə şərait yaratdı.

Bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd edirlər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb.

Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən düşünülmüş hərbi-siyasi strategiya, mümkün hərbi əməliyyatlara ciddi hazırlıq Zəfəri yaxınlaşdıran əsas amillərdən oldu.

İstifadə edilmiş ədəbiyyat

1. Əsədov O. Heydər Əliyev. Bakı, 2008
2. Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, 2013
3. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002
4. Mirzəzadə A. Vətən müharibəsinin tarixi-siyasi dərsləri. Bakı, 2022

AZƏRBAYCAN İQTİSADİYYATININ DAYANIQLI VƏ ŞAXƏLƏNDİRİLMİŞ İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏVƏZSİZ XİDMƏTLƏRİ

Saqib Yaşar oğlu Məmmədov
Mingəçevir Dövlət Universiteti
Gəncə Dövlət Universitetinin dissertantı
saqib.mammadov@mdu.edu.az

Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında Heydər Əliyevin xidmətləri misilsizdir. Qeyd etmək lazımdır ki, Heydər Əliyev 1969-cu ildə ölkə rəhbəri seçilən vaxt Azərbaycan iqtisadiyyatı keçmiş İttifaq ölkələri ilə müqayisədə çox zəif inkişaf etməklə milli gəlirinin artım sürətinə və adambaşına düşən milli gəlirə görə SSRİ-nin orta göstəricisindən geri qalırdı. Belə ki,1960-cı ilə nisbətən 1965-ci ildə SSRİ-də sənaye məhsulu 65,0 faiz artdığı halda Azərbaycanda bu göstərici cəmi 41,0 faiz təşkil etmişdir. Əsas kapitala qoyulmuş investisiyaların daha çox hissəsinin neft sənayesinə yönəldilməsi səbəbindən iqtisadiyyatın digər sahələri, o cümlədən kənd təsərrüfatı diqqətdən kənarda qalmış, nəticədə, əsas aqrar məhsulları üzrə - taxıl, pambıq, üzüm, kartof, bostan-tərəvəz məhsullarında məhsuldarlıq müttəfiq respublikaların

çoxundan geri qalmışdır. 1960-1969-cu illərdə taxıl istehsalında məhsuldarlıq 10,4 sentnerdən 9,5 sentnerə, pambıqda 16,6-dan 15,1 sentnerə düşmüşdür. Həmin illərdə əsaslı infrastruktur islahatları həyata keçirilməmiş, kadr siyasəti düzgün formalaşdırılmamış, sosial sahələrin inkişafı üçün zəruri addımlar atılmamışdır.

Belə bir çətin dövrdə Azərbaycana rəhbərliyə başlayan Ulu öndər Heydər Əliyev qısa müddətdə ölkə iqtisadiyyatının dərindən və kompleks təhlilinə, geriliyin əsas səbəblərini aşkara çıxarmağa nail olmuşdur. İqtisadiyyatın hərtərəfli inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün yeni inkişaf strategiyaları, proqramlar hazırlanmış və mərhələli şəkildə onların icrasına başlanılmışdır. Hər bir məsələyə xüsusi həssaslıqla yanaşan Ümummilli lider strateji xətti və prioriteti yüksək peşəkarlıqla müəyyənləşdirməklə ölkənin sosial-iqtisadi inkişaf modelini yaratmağa müvəffəq olmuşdur. Nəticədə, ölkə iqtisadiyyatı böhrandan çıxmış, onun bütün sahələrində istehsalın sürətlə artması müşahidə olunmuş, iqtisadi və sosial inkişafın ümumiləşdirici göstəricisi olan milli gəlir 1969-1982-ci illərdə 2,5 dəfə artmışdır.

Bu illər ərzində sənaye məhsulları istehsalının real həcmi 2,7 dəfə artmış, ölkə sənayesi keçmiş İttifaqın bütün respublikaları arasında daha yüksək sürətlə - orta illik artımı 7,9 faiz olmaqla inkişaf etmiş, sənaye istehsalının ümumi həcmi 1970-ci ilədək olan 25 illik dövrün istehsalını 2,0 dəfə üstələmişdir.

1969-cu ildən başlayaraq, respublikada tikinti kompleksinin inkişafına xüsusi qayğı göstərilmiş, mövcud istehsal potensialından daha səmərəli istifadəyə başlanmışdır. 1969-1982-ci illərdə ölkə iqtisadiyyatının inkişafında, xüsusilə qeyri-neft sahəsində mühüm əhəmiyyəti olan 170-dən çox sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, mövcud müəssisələr yenidən qurulmuş, genişləndirilmiş və yeni istehsal sahələri istismara verilmişdir. İrimiqyaslı tikinti proqramının həyata keçirilməsi üçün böyük məbləğdə kapital qoyuluşu cəlb edilmiş, 1969-1982-ci illərdə iqtisadiyyatın inkişafına 1920-1968-ci illər ərzində istifadə edilmiş kapital qoyuluşundan 4,5 dəfə çox vəsait yönəldilmişdir. Təkcə 1982-ci ildə istifadə edilmiş kapital qoyuluşunun həcmi 1950-ci ildəkindən 29,5 dəfə, 1956-cı ildəkindən 12,6 dəfə, 1968-ci ildəkindən 6,7 dəfə çox olmuşdur. [2]

Azərbaycanın iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, uzun illər diqqətdən kənarda qalmış kənd təsərrüfatının inkişafı üçün Heydər Əliyevin rəhbərliyi ilə mühüm qərarlar qəbul edilmişdir. "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını inkişaf etdirmək tədbirləri haqqında", "Azərbaycan SSR-də kənd təsərrüfatını daha da intensivləşdirmək tədbirləri haqqında", "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülük və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" qərarlarda kənd təsərrüfatının vəziyyəti hərtərəfli təhlil olunmuş, onun inkişaf perspektivləri müəyyənləşdirilmiş, əkinçilik və heyvandarlığın inkişafında mövcud olan nöqsanların aradan qaldırılması üçün tədbirlər planı hazırlanmış, kənd təsərrüfatının dinamik inkişafını təmin etmək məqsədilə intensivləşmənin tətbiqinə əsaslı vəsait qoyuluşunun artırılması məsələləri öz əksini tapmışdır. Məhz onların uğurla icrası hesabına 1982-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun 1969-cu illə müqayisədə 2,5 dəfə artımına nail olunmuşdur.

Ümumi istifadədə olan nəqliyyatla daşınan yüklərin həcmi 1982-ci ildə 477,9 milyon tona, sərnişinlərin sayı 961,5 milyona çatdırılmış, 1969-cu ilə nisbətən yük daşınması 2 dəfəyə yaxın, sərnişin daşınması isə 82,2 faiz artmışdır. Dəmir yolu, dəniz və avtomobil nəqliyyatı sahəsində aparılmış ciddi islahatlar nəticəsində yük daşınması dəmir yolunda 21,1 faiz, hava nəqliyyatında 25,0 faiz, boru kəmərləri üzrə 3,7 dəfə, avtomobil nəqliyyatında 2,2 dəfə artmışdır. Avtomobil nəqliyyatının inkişaf etdirilməsi, regionlararası və beynəlxalq daşımaların keyfiyyətlə yerinə yetirilməsi üçün bərk örtüklü yollar salınmışdır. 1969-cu ildə bərk örtüklü yolların uzunluğu 12,7 min km olduğu halda, 1970-1982-ci illərdə çəkilmiş 7,7 min km yeni yolların hesabına bu göstərici 20,4 min km-ə çatdırılmışdır.

XX əsrin 70-ci illərində vüsət almış istehsalın sürətli artımı ilə yanaşı, iqtisadiyyatın bütün sahələrində təsərrüfatçılığın təkmilləşdirilməsi, maddi və əmək ehtiyatlarından səmərəli istifadə müəssisə və təşkilatların daha yüksək mənfəətlə fəaliyyət göstərmələrinə imkan yaratmışdır. Belə ki, 1969-1975-ci illərdə Azərbaycan Respublikasının müəssisə və təşkilatlarının mənfəəti 63,2 faiz, növbəti yeddi il ərzində isə 69,1 faiz artmışdır. [1]

Ölkə iqtisadiyyatının bütün sahələrində gəlirlərin artması dövlət büdcəsinin də ilbəil böyüməsini təmin etmişdir. 1969-cu illə müqayisədə 1982-ci ildə büdcənin gəlirləri 1,9 dəfə artmış, onun əsas hissəsi dövlət və kooperativ müəssisə və təşkilatlarının gəlir, mənfəət və dövriyyələrindən tutulan vergilərin hesabına formalaşmışdır. Həmin dövrdə kolxoz, kooperativ müəssisələr və ictimai təşkilatlardan gəlir vergisi üzrə daxilolmalar 4,7 dəfə, dövlət müəssisə və təşkilatlarından mənfəət və dövriyyədən vergilər üzrə daxilolmalar isə müvafiq olaraq 2,0 və 1,6 dəfə artmışdır. Dövlət büdcəsinin vəsaitləri, əsasən, ölkənin istehsal qüvvələrinin inkişafına və əhalinin maddi və mədəni tələbatlarının ödənilməsinə xərclənmişdir. 1969-cu ildə büdcə vəsaitlərinin 95,5 faizi, 1982-ci ildə isə 93,6 faizi iqtisadiyyatın və sosial-mədəni sahələrin (elm, təhsil, idman, səhiyyə, mədəniyyət, incəsənət, kütləvi informasiya vasitələri və sosial təminat da daxil olmaqla) inkişafına sərf olunmuşdur.

1982-ci ildə məşğul əhalinin sayı 1969-cu illə müqayisədə 1,4 dəfə artaraq 2428,2 min nəfərə çatmış, nəqliyyat və rabitədə, mənzil-kommunal təsərrüfatı və əhaliyə məişət xidməti sahəsində, təhsil, mədəniyyət və incəsənətdə, elm və elmi xidmətdə və digər sahələrdə işləyənlərin sayı xeyli artmışdır. Fəhlə və qulluqçuların əməkhaqqının artırılması və tənzimlənməsi üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində 1993-cü ilin iyununda vətəndaş qarşıdurması, dağılmaq təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda xalqımız yenidən öz taleyini məhz Heydər Əliyevə etibar etməklə müdrik qərar qəbul etdi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan dünya şöhrətli dövlət xadimi Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində nəinki ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtardı, eyni zamanda, sosial-iqtisadi islahatlara start verməklə bazar iqtisadiyyatı prinsiplərinə cavab verən yeni iqtisadi siyasətin həyata keçirilməsinin əsasını qoydu. Bazar iqtisadiyyatı prinsiplərinin, sahibkarlıq sinfinin formalaşdırılması məqsədilə dövlət tərəfindən zəruri addımlar atıldı. Sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafı və bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün ardıcıl Dövlət proqramları qəbul edildi, qanunvericilik bazası yaradıldı. İqtisadi sferada dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi məqsədilə ciddi tədbirlər görülməklə bu sahədə bir-birini təkrarlayan, paralel və lüzumsuz yoxlamaların sayı azaldıldı. Bir sözlə, Ulu Öndər Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə yeni inkişaf strategiyasının təməlini qoydu. [5]

Ümummilli Liderin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrində aparılan düzgün və səmərəli siyasətin sayəsində sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı və ticarətdə əldə edilmiş yüksək nailiyyətlərin nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illər ərzində 71,0 faiz artmış və 2002-ci ildə 6,1 milyard manata çatmışdır.

1996-cı ilə qədər sənayedə davam edən istehsalın azalması prosesinin qarşısı alınmış və 1997-ci ildən başlayaraq bu sahədə dönüş yaranmışdır. 1994-cü ildə imzalanmış, Ulu öndərin müəllifi olduğu "Əsrin müqaviləsi"nin praktiki cəhətdən reallaşması, sənayenin bir çox sahələrinə sərmayələrin yönəldilməsi, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi sənayedə dirçəlişin təməlini qoymuşdur. Nəticədə, sənayedə yaranmış əlavə dəyərin ümumi daxili məhsulda xüsusi çəkisi 1993-cü ilə nisbətən 12,6 faiz bəndi artaraq 2002-ci ildə 37,4 faiz təşkil etmişdir.

1993-cü ildən başlayaraq kənd təsərrüfatı sahəsi yenidən dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş bu siyasət MDB məkanında ilk dəfə olaraq, torpaq üzərində xüsusi mülkiyyət münasibətlərinin formalaşması ilə başlanılmış, aqrar sahənin inkişafı yönümündə ciddi islahatlar həyata keçirilmişdir. Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı məqsədilə verilmiş qərarlar öz müsbət təsirini göstərmiş, əhalinin əkinə marağı yüksəlmiş, əkin sahələri artırılmış, mal-qaranın sayı çoxalmışdır. Tənəzzülün qarşısı tədricən alınmış, əsas kənd təsərrüfatı məhsullarının istehsalında artıma nail olunmuşdur. [3]

1993-cü ilin ikinci yarısından başlayaraq, ölkədə ictimai siyasi sabitliyin bərqərar olması daxili və xarici investorlar üçün öz investisiyalarından məqsədyönlü istifadə etməyə əlverişli şərait yaratmış və 1993-2002-ci illər ərzində ölkənin istehsal və qeyri-istehsal sahələrinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən 70-dən çox yeni tikililərin və obyektlərin inşası təmin edilmişdir.

1993-2002-ci illərdə bütün maliyyə mənbələri hesabına ölkə iqtisadiyyatının və sosial sahələrin inkişafına 8,2 milyard manat investisiya yönəldilmişdir. 2002-ci ildə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 1993-cü ilə nisbətən 36,3 dəfə çox olmuşdur. 1993-2002-ci illərdə xarici investorlar tərəfindən əsas kapitala 5,3 milyard manat və ya ümumi investisiyanın 63,8 faizi qədər investisiya yönəldilmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra keçid iqtisadiyyatına xas olan böhranlı proseslər başqa sahələrdə olduğu kimi, nəqliyyat sektorunda da baş vermişdir. Lakin bütün nəqliyyat növlərində müşahidə olunan geriliyin qarşısı 1996-cı ildə alınmış, bu sahədə görülmüş tədbirlər nəqliyyatın ayrı-ayrı növlərinin inkişafında müsbət meyillərin yaranmasına təsir etmişdir. 1996-2002-ci illərdə nəqliyyat sektorunda yük daşınması 2,4 dəfə artmış və orta illik nisbi artım 13,5 faiz təşkil etmişdir. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bərpası Ulu Öndərin Azərbaycan xalqına ən böyük töhfələrindən biridir və artıq bu dəhliz regional nəqliyyat dəhlizləri ilə rəqabət aparmaqla ölkə iqtisadiyyatının inkişafına, yerüstü nəqliyyat infrastrukturunun formalaşmasına ciddi təsir edən amillərdən birinə çevrilmişdir. [6]

Əgər 1996-cı ildə ölkədə fəaliyyət göstərən xarici ivestisiyalı müəssisələrin sayı 602-yə bərabər idisə, 2002-ci ildə bu rəqəm 3,5 dəfə artaraq 2104 olmuşdur. Bu dövr ərzində xarici şirkət və ya fiziki şəxslərin iştirakı ilə yaradılmış birgə müəssisələrin sayı isə 94,1 faiz artaraq 957-yə çatmışdır.

Məlum olduğu kimi, 90-cı ilin əvvəllərində iqtisadiyyatda baş verən böhran və onun aradan qaldırılması üçün səmərəli tədbirlərin görülməməsi, habelə inflyasiyanın çox sürətlə artması əhalinin sosial-iqtisadi vəziyyətinin pisləşməsinə gətirib çıxarmışdır. 1991-1994-cü illərdə əhalinin həyat səviyyəsini xarakterizə edən pul gəlirləri real ifadədə 3,6 dəfə aşağı düşmüşdür. Əhalinin gəlirlərində xüsusi rolu olan əməkhaqqının artması bu dövrdə pulun qiymətdən düşməsi ilə ayaqlaşa bilməmiş, 1991-ci ildən başlayaraq dörd il ərzində əhalinin əməkhaqqı üzrə əldə etdiyi gəlirinin səviyyəsi 8,2 dəfə aşağı düşmüşdür.

Bazar iqtisadiyyatına keçid dövründə ölkə iqtisadiyyatında aparılan islahatlar dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını və 90-cı illərin əvvəlində yüksək olan büdcə kəsirinin azalmasını təmin etmişdir. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artaraq 910,2 milyon manata çatmış, xərcləri isə 72,2 dəfə artaraq 931,8 milyon manat təşkil etmişdir. Büdcə kəsirinin ümumi daxili məhsulda xüsusi çəkisi 1993-cü ildəki 7,1 faizdən 2002-ci ildə 0,4 faizə endirilmişdir. Dövlət büdcəsinin xərclərində sosial müdafiə və sosial təminat xərclərinin payı ildən-ilə artmışdır. 1993-cü ildə bu məqsədlərə 1,1 milyon manat (ümumi büdcə xərclərinin 8,5 faizi) sərf olunmuşdursa, 2002-ci ildə bu xərclər 190,3 milyon manata çatdırılmışdır ki, bu da büdcə xərclərinin 20,4 faizinə bərabərdir. [4]

Ulu öndər Heydər Əliyev əmək bazarının inkişafına, məşğulluq və işsizlik problemlərinin həllinə geniş yer vermiş, bu sahədə görülmüş tədbirlər hesabına iqtisadiyyatın qeyri-dövlət sektorunda məşğulluğun payının 1995-ci ildəki 43,9 faizdən 2002-ci ildə 69,7 faizədək artmasına nail olunmuşdur. Azərbaycanda bu dövrdə qəbul edilmiş Əmək Məcəlləsi, məşğulluq və əmək miqrasiyası haqqında qanunlar, Demoqrafik İnkişaf və Pensiya İslahatı konsepsiyaları, "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" əmək və əhalinin sosial müdafiəsi sahələrində yeni strateji istiqamətlərin əsasını qoymuşdur. [7]

Yuxarıda qeyd olunanlar əminliklə onu deməyə əsas verir ki, Azərbaycanın bugünkü uğurları müasir Azərbaycan dövlətinin banisi, Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilərək həyata keçirilmiş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən keyfiyyətcə yeni müstəviyə keçirilmiş islahatlarla bağlıdır. Məhz bu islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə söykənən sosialyönümlü iqtisadiyyatın inkişafına nail olunmuş, ölkə əhalisinin həyat səviyyəsi yüksəldilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı: Azərnəşr, 2000, 412 s.
2. Əliyev O - Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Zahid, 2003, 246 s.

3. İsmayılov Ə., Əliyev Q. Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. Bakı: Təbib, 1998. 149 s.
4. Kazımlı X. Böyük siyasətin davamı. Bakı: Nurlan, 2007, 768 s.
5. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: Azərnəşr, 2003, 340 s.
6. Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi.Bakı-Avropa2019.594 səh.
7. Yusifov M. Milli Lider və müstəqil dövlətçilik. Bakı – 2005, 210 s.

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Babək Bəxtiyar oğlu Hüsüyev
Mingəçevir Dövlət Universiteti
İstanbul Dövlət Universitetnin doktorantı
babak.husuyev@mdu.edu.az

Azərbaycan yenidən müstəqillik əldə etdiyi zaman iqtisadi böhram yaşanmaqda idi. Heydər Əliyevin uzaq görən siyasəti nəticəsində bir sıra addımlar atıldı ki, buda müasir dövürdə öz töhvəsin verməkdədir. 1994-cü ildə bağlanmış əsrin müqaviləsi xarici investorların ölkəyə marağını artırmışdır, neft sənayesinin inkişafı digər sənaye sahələrinin inkişafının bünövrəsi qoymuşdur. Ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində ölkə iqtisadiyyatının dirçəlməsinə nail olunmuşdur. Bu siyasətin layiqli davamçısı olan Prezident İlham Əliyevinin qəbul etdiyi programlar və qanunlar regionalar arası sosial-iqtisadi qeyri bərabərliyi azaltmağı hədəfləmişdir. Əsrin müqaviləsinin bağlansamı sadəcə iqtisadi deyil, eyni zamanda siyasi bir uğur idir. Yeni müstəqillik əldə etmiş ölkədə investisya yatırımı çox riskli bir hall olmasına baxmayaraq Heydər Əliyev xarici şirkətlərə uğurlu danışıqlar apararaq onlarnın ölkəyə maraq göstərməsinə və nəticə etibarilə investisiya yatırımları etmələrinə təşviq etmişdir. Bu gün Azərbaycaniqtisadiyyatının inkişaf etməsi və davamlı olması qəbul edilən qərarlar və atılan doğru addımların nəticəsidir. Statistik məlumatlara baxaraq illər ərzində ölkə iqtisadiyyatının ÜDM artımını görə bilərik.



Yuxarıda göstərilən diagramda biz illər üzrə idxal, ixrac, xalis ixrac və ÜDM üzrə artım tempini görə bilərik. İqtisadi inkişaf qapalı iqtisadiyyatda mümkün olmadığından xarici iqtisadi əlaqələri inkişaf etdirmək vacib bir faktordur. Heçbir ölkə xarici iqtisadi münasibətlər olmadan inkişaf edə bilməz. Yerli istehsalı ucuz olan məhsulları ixrac, ölkə daxili istehsalı baha başa gələn

məhsulları idxal edərək iqtisadi faydalılığı və iqtisadi rifah halı yaxşılaşdırılmalıdır. İllər üzrə Azərbaycan xarici ixrac məhsullarından əsas gəlir qaynağı neft və neft məhsulları olmuşdur. İqtisadi böyümə və ÜDM-da neft sektorunun payını azaltmaq üçün bir sıra dövlət proqramları işlənib hazırlanmışdır. Bu programlara Azərbaycan Respublikası Prezidenti Ulu öndər Heydər Əliyevin layiqli davamçısı olan İlham Əlliyevin Sərəncamlarını misal göstərə bilərik. Azərbaycan Respublikası Prezidenti İlham Əlliyev tərəfindən 2015-ci il Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili", 2016-cı il Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin qəbul olunmasını, Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023 cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı, 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı Sərəncamlar qəbul edilmişdir.

Ölkədə baş verən iqtisadi dəyişikliklər ÜDM həcminin artmasına gətirib çıxarmışdır. Eyni zamanda idxal və ixrac arasında yaranan mənfi saldo müsbət istiqamətdə dəyişikliklər göstərmişdir.



Statistik məlumatlara əsasən 1995-ci ildə ÜDM 2.1330,8 mln.manat olduğu halda, 2022-ci ildə bu göstərici 133.825,8 mln.manat olmuşdur. Eyni zamanda İxrac əməliyyatlarının dəyəri 1995-ci ildə 693,2 mln.manat olduğu halda, 2022 ci ildə bu rəqəm 80.366,0 mln.manat olmuşdur. İdxal əməliyyatlarının dəyəri 1995-ci ildə 1.139,6 mln.manat olmuş, 2022-ci ildə bu rəqəm 36.166,5 mln.manat olmuşdur. Həmçinin xalis ixrac dəyəri 1995-ci ildə -446,4 mln.manat olduğu halda, 2022-ci ildə bu rəqəm 44.199,5 mln.manat olmuşdur. Aparılan araşdırma göstərir ki, iqtisadi böyümə həm neft, həmdə qeyri neft sektorunda özünü təcəssüm etdirməktədir. İqtisadi nailiyyət əldə etməmiş heçbir ölkə müstəqil şəkildə yaşaya bilməz. İqtisadi müstəqilliyin olması ölkənin hərbi infrastrukturunun formlaşamasına təsir göstərməktədir və biz bunun 2020-ci ildə 44 günlük vətən müharibəsində şahidi olduq.

İqtisadi inkişaf və makro iqtisadi sabitliyin formalaşması, yeni yaradılan iş imkanları ölkədə məşğul əhali sayını artırmaqdadır. Məşğul əhali sayının artması ölkədə orta əmək haqqı miqadırınımn artamasına buda öz növbəsində tələbin artmasına gətirib çıxarır. Tələbin artması yeni və rəqabət qabiliyyətli məhsulların ortaya çıxmasın imkan yaradır. Ölkdə rəqabət bazarının formalaşması xarici şirkətlərin ölkəyəmarağını artırmaqdadır. Xarici investisiya qoyuluşları ölkə valyutasının dəyərlənməsimə və bununlada iqtisadi sabitliyin əldə olunmasına yol açmaqdadır. Cədvəl 1-də 2000-2022 illəri üzrə məşğul əhali artımını görə bilərik.

Cədvəl 1

Göstərici	2000	2005	2010	2015	2020	2021	2022
İşçi qüvvəsinin sayı (min nəfər)	4,370.2	4,380.1	4,587.4	4,915.3	5,089.9	5,141.6	5,194.4

Məşğul əhalinin sayı (min nəfər)	3,855.5	4,062.3	4,329.1	4,671.6	4,721.2	4,831.1	4,901.1
İşsiz əhalinin sayı (min nəfər)	514.7	317.8	258.3	243.7	368.7	310.5	293.3

2000-ci ildə İşçi qüvvəsinin sayı ilə müqayisədə İşsiz əhalinin sayı faiz nisbəti ilə 11.77 % olduğu halda bu nisbət 2022-ci ildə 5.64 % olmuşdur. Əhalini demoqrafik artımı və yeni iş yerlərinin yaranma imkanı iqtisadiyyatda məşğul əhalinin faiz nisbətinin artmasına gətirib çıxarmışdır. Buda öz növbəsində ölkədə rifah halının yaxşılaşdırılmasına bilavasitə təsir göstərmişdir.

Heydər Əliyev siyasəti və bu siyasətin layiqli davamçısı olan Prezident İlham Əliyevinin qəbul etdiyi programlar və qanunlar nəticəsi olaraq Azərbaycan iqtisadiyyatının müstəqilliyini müşahidə etmək mümkündür.

İstifadə edilmiş ədəbiyyat

1. 2014-cü ilin Azərbaycan Respublikasında "Sənaye ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
2. 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
3. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı.
4. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
5. https://www.stat.gov.az/source/industry/
6. https://president.az/

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN NƏQLİYYAT STRATEGİYASI

Qaragöz Kərim oğlu Kərimov
Mingəçevir Dövlət Universiteti
Azərbaycan Texniki Universitetinin doktorantı
qaragoz.karimov@mdu.edu.az

Nəqliyyat infrastrukturu ölkənin iqtisadi inkişafında və əlaqələrində mühüm rol oynayır. Azərbaycan kontekstində nəqliyyat sektorunda Prezident Heydər Əliyevin rəhbərliyi altında mühüm dəyişikliklər baş verib. Əliyevin nəqliyyat sektorunda apardığı siyasət və təşəbbüsləri təhlil etdikdə biz onun rəhbərliyinin Azərbaycanın nəqliyyat mənzərəsini necə formalaşdırdığını daha dərindən dərk edə bilərik.

Onun təcrübəsi və Azərbaycanın siyasi mənzərəsindəki təsiri ona ölkənin nəqliyyat infrastrukturunun inkişafının əsasını qoyan əsas siyasət və təşəbbüsləri həyata keçirməyə imkan verib. Onun liderliyi ilə Azərbaycanın nəqliyyat şəbəkəsinin modernləşdirilməsi və genişlənməsi, o cümlədən avtomobil yollarının, dəmir yollarının və limanların tikintisi həyata keçib.

Heydər Əliyevin nəqliyyat siyasəti regionun nəqliyyat sisteminin əlaqələndirilməsi və bununla da ticarəti genişləndirmək, iqtisadi artıma nail olmaq məqsədi güdürdü. Onun nəqliyyatın planlaşdırılmasına strateji yanaşması Azərbaycanı qlobal iqtisadiyyatın əsas oyunçusuna çevirmək üzrə daha geniş siyasətinin tərkib hissəsidir. Heydər Əliyevin nəqliyyat strategiyasının irsi Azərbaycanın inkişaf trayektoriyasını formalaşdırmaqda davam edir. [1]

Heydər Əliyev dövründə Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı ölkənin iqtisadi mənzərəsində mühüm transformasiya dövrünü qeyd etdi. Prezident H.Əliyevin müəyyən etdiyi

strateji baxış, xüsusilə nəqliyyat infrastrukturu sahəsində geniş inkişaf təşəbbüslərinə yol açdı. Azərbaycanın əsas ticarət yollarının kəsişməsində yerləşən geosiyasi mövqeyi ilə Əliyevin rəhbərliyi altında nəqliyyat şəbəkələrinin gücləndirilməsinə verilən diqqət milli tərəqqinin təməl daşına çevrildi. Bakı-Tbilisi-Ceyhan boru kəməri kimi layihələrin həyata keçirilməsi Azərbaycanın həyati enerji və nəqliyyat qovşağına çevrildiyini bir daha vurğuladı. İnfrastrukturun inkişafına kompleks yanaşma, işğaldan azad edilmiş böyük ərazilərin qaytarılması proqramına diqqət yetirilməsi ilə vurğulandığı kimi, təkcə iqtisadi perspektivləri gücləndirmədi, həm də sosial və mədəni tərəqqiləri asanlaşdırdı. Heydər Əliyevin fəaliyyəti dövründə nəqliyyat infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsi üzrə əlaqələndirilmiş səyləri, onun rəhbərliyi altında Azərbaycanın inkişaf trayektoriyasını müəyyən edən strateji uzaqgörənliyi və dayanıqlı inkişafa sadiqliyi onun nə qədər böyük siyasi zəkaya sahib olduğunun əyani nümunəsidir. [2]

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın nəqliyyat strategiyası Qafqaz regionunda regional əlaqələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi infrastruktur layihələrinə sərmayə qoymaqla Azərbaycan Avropa və Asiyanı birləşdirən əsas tranzit qovşağı kimi rolunu artırıb. Müasir nəqliyyat şəbəkələrinin inkişafı təkcə region ölkələri arasında ticarət əlaqələrini yaxşılaşdırmayıb, həm də malların və insanların daşınmasını asanlaşdırıb, iqtisadi artımı və sabitliyi təşviq edib. Bundan əlavə, Azərbaycanın əsas beynəlxalq ticarət yollarının kəsişməsində yerləşən strateji mövqeyi onu regional əməkdaşlıq və inteqrasiyanın təşviqində həlledici oyunçu kimi təyin edir. Bundan əlavə, nəqliyyat layihələrinin həyata keçirilməsi Azərbaycanın geosiyasi əhəmiyyətini artırmış, onun daha geniş Avrasiya arenasında nüfuzunu və tərəfdaşlığını gücləndirmişdir. [3]

Azərbaycanın nəqliyyat strategiyasının çağırışları və gələcək perspektivləri diqqətlə nəzərdən keçirilməli və strateji planlaşdırma tələb edən ən əhəmiyyətli sahələrdəndir. Əsas problemlərdən biri ölkənin coğrafi mövqeyindədir, çünki Azərbaycan Avropa və Asiya arasında həlledici əlaqə rolunu oynayır və onu qlobal iqtisadi dalğalanmalara və geosiyasi gərginliklərə qarşı həssas edir. Bundan əlavə, köhnəlmiş infrastruktur və nəqliyyat sektoruna kifayət qədər investisiya qoyulmaması mövcud şəbəkələrin səmərəliliyinə mane ola, darboğazlar yarada və əlaqəni məhdudlaşdıra bilər.

Bu çağırışların öhdəsindən gəlmək üçün Azərbaycan nəqliyyat infrastrukturunun modernləşdirir, qonşu ölkələrlə əlaqənin gücləndirilməsinə və konkret dəhlizlərdən asılılığı azaltmaq üçün nəqliyyat marşrutlarının şaxələndirilməsinə üstünlük verir. Rəqəmsallaşdırma və avtomatlaşdırma kimi texnoloji irəliləyişlərin tətbiqi həm də fasilələr qarşısında əməliyyat səmərəliliyini və dayanıqlılığı artıra bilər.

Azərbaycanın strateji mövqeyi və dayanıqlı nəqliyyat sektoruna iddialı baxışı gələcəkdə iqtisadi artım və regional əməkdaşlıq üçün güclü perspektivlər təqdim edir. [4]

Nəticə etibarilə, Heydər Əliyevin Azərbaycanın nəqliyyat strategiyasının formalaşmasında və infrastrukturunun inkişafında həlledici rol oynadığı aydındır. O, özünün uzaqgörən rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi mühüm layihələrin təşəbbüskarı olub və bu layihələr ölkənin bütün dünya ilə əlaqəsini əhəmiyyətli dərəcədə artırıb. Heydər Əliyevin strateji baxışı nəinki iqtisadi artım və inkişafa kömək etdi, həm də Azərbaycanın regionda geosiyasi mövqeyini gücləndirdi. Bu nəqliyyat təşəbbüslərinin uğurla həyata keçirilməsi davamlı inkişaf üçün uzunmüddətli planlaşdırmanın və infrastruktura investisiya qoyuluşunun vacibliyini vurğulayır.

Zaman keçdikcə Azərbaycanın qloballaşan iqtisadiyyatın inkişaf edən tələblərinə cavab verməsi üçün nəqliyyat şəbəkəsini daha da şaxələndirmək və modernləşdirməkdə Heydər Əliyev irsinə əsaslanmağa davam etməsinin vacibliyi daha çox hiss olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Günay Feyziyeva. (2018). Azerbaijan in the South Caucasus policy of great powers. p. 151-160. https://www.semanticscholar.org/paper/415eb1e4bda2a82c5b385d56d684cef15548a947</u

2. T. Yadigarov, Ş. Əliyev. (1996). THE IMPACT OF ECONOMIC GROWTH FREED FROM OCCUPATION ASSESSMENT. https://www.semanticscholar.org/paper/8e509953292005db68b535983e6af1498de8f596</u

3. Asian Development Bank. (2020-01-01). CAREC Transport Strategy 2030. Asian Development Bank. https://play.google.com/store/books/details?id=EMnhDwAAQBAJ&source=gbs_api</u

4. Mahir Hümbətov. (2017-11-30). The South Caucasus-centred Transport Hub: The Crossroads of the East-West and the North-South Corridors. http://books.google.com/books?id=NEUIEAAAQBAJ&dq=Challenges+and+Future+Prospects+of+Azerbaijan%27s+Transport+Strategy+Challenges+and+Future+Prospects+of+Azerbaijan%27s+Transport+Strategy&hl=&source=gbs_api</u

ŞAM AĞACININ YONQARININ Fe_2O_3 KATALİZATORUNUN TƏSİRİ ALTINDA PİROLİZİ PROSESİNİN TƏDQİQİ

[1]**Afaq Asif qızı İmanova, [2]Qərənfil Ceyhun qızı Əhmədova**
[1]ETN akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
imanovaafaq@gmail.com
[2]doktorant
Bakı Ali Neft Məktəbi
qerenfil.ehmedova@bhos.edu.az

Bildiyimiz kimi, yeni minillikdə ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemə çevrilmişdir.

Dünyada demoqrafik artımla yanaşı istehlakın kəskin artması, istixana qazlarının atmosferə buraxılması nəticəsində ozon qatının zədələnməsi, qlobal istiləşmə nəticəsində səhralaşma prosesinin getməsi, quraqlıq və iqlim dəyişikliyi problemlərinin doğurdu məsələlərin həlli insanların qarşısında duran məqsədlərdən biridir.

İkinci narahatlıq doğuran məsələ isə təbii ehtiyyatların tükənməsidir. Təbii yanacaq istehlakının daim artması onun müəyyən olunmuş ehtiyatlarının yaxın 70-80 il ərzində tükənməsinə gətirib çıxara bilər. Ona görə birinci növbədə həll olunmalı məsələ bu iki problemin həllinə yönəldilməlidir. [1-3]

Bunları nəzərə alaraq, Neft-Kimya Prosesləri İnstitutunda yerli bitki xammalın piroliz prosesi aparılmış və araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, şam ağacı yonqarının 300 ^{0}C temperaturda, Fe_2O_3 katalizatorun təsiri altında aparılan piroliz prosesində kömürün çıxımı 36.0-34.4 % küt, qazların çıxımı isə müvafiq olaraq 64.0 və 64.6 % küt. təşkil edir . Piroliz prosesinin material balansları aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 1

Şam ağacı yonqarının piroliz prosesinin material balansları

Göstəricilər	**Şam ağacı yonqarı**
Götürülmüşdür, % küt.	100
Alınmışdır, % küt.	
Kömür	36.0
Qazlar	64.0

Şam ağacının yonqarının pirolizi prosesində alınan qazların tərkibi isə cədvəl 2-də təqdim edilmişdir. Cədvəldə təqdim edilən məlumatlardan görünür ki, bu prosedə alınan karbohidrogen qazların tərkibi əsasən metan və C2-C3 qazlarla təmsil olunub.

Cədvəl 2

Şam ağacının yonqarının pirolizi prosesində alınan karbohidrogen qazların tərkibi

Piroliz prosesində alınan qazların tərkibi, % küt	Şam ağacının yonqarı
Karbohidrogen qazları, O cümlədən	
metan	40.28
Etan+etilen	26.41
Propan+propilen	15.61
i-butan	2.26
Buten-1	0.89
n-butan	3.90
Digərlər	10.85

İstifadə edilmiş ədəbiyyat

1. Pooja Ghosh, Virendra Kumar Vijay , Advances in biogas valorization and utilization systems, Bioreactors, Biotechnology, 2020, pp 89-104
2. C.Charcosset, Membranes for Clean and Renewable Power Application, .Membrane Science 2014, pp 44-62
3. Sakib Bin Amin, Farhan Khan , Renewable Energy Consumption and Income Inequaltity, Comprehensive Renewable Energy 2022, pp 59-90

THE DYNAMIC PROCESS OF A HYBRID ELECTRIC MACHINE

Ayshad Mammadov
doctoral student
Azerbaijan State Oil and Industry University
ayshadm@bk.ru

Introduction

A Hybrid Electric Machine (HEM) is a device that combines the functions of a starter and an internal combustion generator of a car. The calculation of the stability of such a device may include an assessment of its operation as a starter (when starting the engine) and a generator (when charging the battery and maintaining the electrical systems of the car).

Here is an example of the MATLAB code for assessing the stability of the HEM [1, 3]:

```
% parameters HEM
R=0.2;% Winding resistance
L=0.05;% Winding inductance
J = 0.1; % Moment of inertia of the engine
B = 0.02; % Engine damping coefficient
% Creation of matrices of the system of equations of motion of the HEM
A = [-R/L 0 -1/L 0; 0 0 1 0; 1/J 0 -B/J 0; 0 0 0 0];
B = [1/L; 0; 0; 0];
C = [0 1 0 0];
D = 0;
% System object creation
sys = ss(A, B, C, D)
margin(sys)
```

This code simulates a HEM using a simple mathematical model and analyzes its stability using the margin function. However, it should be noted that real HEMs may have more complex

characteristics and may be subject to various operating conditions, such as varying loads and variable speeds. Therefore, a more accurate stability analysis may require a more complex model and additional aspects such as electromagnetic and mechanical models, consideration of the dynamic characteristics of the internal combustion engine, etc [2, 3, 6].

Let's create a simple HEM model in Simulink to assess its stability (fig. 1). To do this, we will use a simple electrical model of the generator and motor, as well as a linear approximation for the control system.

HEM simulation:

First, create a starter generator model in Simulink. We can use blocks to represent electrical components and blocks to create a control system.

Linearization of the model: After creating the model, we need to linearize it around the nominal point of operation for stability analysis.

Stability analysis: Using Simulink analysis tools (for example, linear analysis), we can assess the stability of the system.



Fig. 1. Model of the HEM

An example of a model in Simulink simulates a simple HEM that includes a generator, starter, and control system. Electrical components can be represented using the "DC Source" blocks for the generator and starter, as well as the "Resistance" and "Inductance" blocks to simulate their characteristics. The control system can be represented using a PID controller or other appropriate units [1, 5].

To perform linear stability analysis, you can use the linmod function in MATLAB to automatically linearize the model, and then use stability analysis tools in Simulink, such as Bode Plot, to assess the stability of the system.

The following formulas and ratios are usually used to calculate the characteristics of the starter generator, including its electrical and mechanical parameters, as well as to evaluate its operation in various modes:

Electrical parameters: Generator voltage (EMF): The magnitude of the voltage generated by the generator is usually determined by the formula

$$EMF=k\omega,$$

where k is the coefficient of proportionality, and ω is the angular velocity of rotation of the generator.

Starter current: The current consumed by the starter when starting the engine can be determined from the Ohm's Law equation:

$$I=V/R,$$

where V is the supply voltage and R is the resistance of the starter.

Mechanical parameters:

The moment of inertia of the rotor: This parameter determines the inertial characteristics of the starter generator and affects its dynamic behavior. It can be calculated based on the geometric dimensions and mass distribution inside the device.

Damping coefficient: Describes the energy loss in the mechanical HEM system and can be determined experimentally or through analysis of the dynamic characteristics of the system.

Performance characteristics:

Startup efficiency: An assessment of how efficiently the starter generator is able to start the engine, taking into account its current and voltage.

Stability of operation: Analysis of the stability of the HEM in various modes, including engine start and power generation.

The formulas may vary depending on the specific design and type of starter generator. The exact values of the parameters are usually determined by manufacturers based on testing and experimental data [4, 5].

The transfer function of the starter generator can be derived based on its mathematical model. Usually, a starter generator is modeled as an electromechanical system that includes electrical and mechanical components [1].

Suppose we have a HEM, which can be described by the following differential equations:

1. For the electrical part:

The equation for the EMF generator (output voltage):

$$V_g(s)=k_g\omega(s)$$

Equation for starter current (input current):

$$I(s)=V_g(s)/R_s$$

2. For the mechanical part:

The equation for the torque of the engine:

$$T_m(s)=J*d\omega(s)/dt$$

The equation for the mechanical load (for example, the moment of resistance): $T_l(s)=B\cdot\omega(s)$

Taking into account these equations, it is possible to derive a general equation describing the transfer function of the HEM. For example, if we want to derive a transfer function between the input current of the starter $I_s(s)$ and the output voltage of the generator $V_g(s)$, we can combine the equations for $I_s(s)$ and $V_g(s)$ and linearize the system around the nominal point of operation.

Let's consider a simple example of a starter generator with a single mechanical loading torque $T_l(s)$. In this case, the transfer function can be written as follows:

$$\frac{V_g(s)}{I_s(s)}=\frac{k_g}{R_s(Js+B)+k_g},$$

where k_g - the coefficient of proportionality between the angular velocity and the voltage of the generator, R- the resistance of the starter, J - the moment of inertia of the rotor, B - the damping coefficient.

This is the transfer function of the HEM. In the future, if necessary, you can use this transfer function to analyze the dynamics and control the HEM system.

Conclusions

Analysis of the dynamics and control of the HEM can include a number of steps, such as determining time characteristics, stability, speed control, voltage and current regulation. Below are some of the possible aspects of analyzing and controlling the HEM:

3. Temporary characteristics: Analyzing time characteristics such as transient time, overshoot, and steady-state value can help you understand how quickly and efficiently the HEM reacts to changes in input parameters or requirements.

4. Stability: Evaluating the stability of the HEM, including analyzing the root poles of the transfer function or performing a frequency analysis, will help determine how reliably the system can operate under various conditions.

5. Speed control: The development of speed control controllers can be an important aspect to ensure optimal system performance. PID controllers or other control algorithms can be used to maintain a given rotational speed or torque control.

6. Voltage and current regulation: HEM can also have voltage and current regulation functions to ensure stable power supply to the vehicle's electrical systems. This may include the

development of controllers to regulate the output voltage of the generator and control the battery charge.

7. Adaptive management: Depending on the operating conditions and requirements of the vehicle, the HEM can be equipped with adaptive control algorithms that can automatically respond to changes in load, speed or other parameters.

8. Modeling and Simulation: The use of mathematical models and simulations in environments such as Simulink allows for extensive analysis and testing of various control algorithms before their actual implementation.

9. The general approach to the analysis and control of the HEM includes a combination of theoretical calculations, modeling, experimental analysis and optimization of controllers to achieve the required performance and reliability of the system.

References

1. M. Andwari, A. Pesiridis, V. Esfahanian, A.Karvountzis. **"**Hybrid electric vehicle performance with organic ranking cycle waste heat recovery system**".** Applied Sciences No. 7 pp. 437, 2017

2. S.A. Khanahmedova "Analysis of mathematical relations in the calculation of dynamic processes of the starter-generator complex", Mechanical engineering technology No. 1, Moscow, 2015. http://www.ic-tm.ru /info/1_26

3. Y. R. Abdullayev, S.A. Khanahmedova. "Calculation of dynamic processes of a single-machine complex", Journal "Problems of Mechanical Engineering and Automation" No. 3, pp. 66-73, Moskow, 2017.

4. Z. N. Musaev, S.A Khanakhmedova. "Starting system operation in the starter-generator". International Journal on "Technical and Physical Problems of engineering" (IJTPE), vol.1, No. 1, pp.79-83, March 2010.

5. Y. Wanga, A. Biswas, R. Rodriguez, Z.Keshavarz, M.A.Emad. "Hybrid electric vehicle specific engines: State-of-the-art review", Energy Reports, vol.8, pp. 832-851, November 2022.

6. N.V. Savosteenko, S.Usynin "Prospects for the development of starter generators for industrial vehicles", Vestnik YuUrGU. Seriya: Energetika. Power Engineering vol. 20, No. 4, pp. 96-102, 2020.

HEYDAR ALIYEV AND ECONOMIC REFORMS

Konul Mammadzada
doctoral student
Azerbaijan State Pedagogical University
konul.ahad@mail.ru

Introduction

Today, Azerbaijan is an irreplaceable participant and main voice in solving all political and economic issues of the region. Our country makes a name for itself in the world arena with its highly developed economy. During the reign of Heydar Aliyev, the founder of the modern state of Azerbaijan, the achievements achieved as a result of his unparalleled management ability and hard work have created a solid foundation for the sustainable and dynamic development of the country's economy today. Even the serious economic problems experienced in some countries recently, the rapid increase in prices, sharp fluctuations in the currency markets, the economy of Azerbaijan shows high stability, which clearly shows that the implemented policy has no alternative.

Main paragraph

The principle of democratization of society, which is the main line of Heydar Aliyev's state-building strategy, has already recognized the independent Republic of Azerbaijan all over the

world. Heydar Aliyev, while talking about the main directions of his activities as president at that time, said: "However, the republic has great socio-economic, scientific and technical potential. The geographical and political situation of Azerbaijan, its natural resources, the main funds created over many years allow the republic to get out of this severe crisis. On the other hand, we need to move towards a market economy by implementing new reforms." [4]

Economic reforms in Heydar Aliyev's economic platform meant conducting the economy of Azerbaijan through a market economy, expanding the activities of the private sector and implementing privatization, creating ample opportunities for entrepreneurship, building the country's economy on the basis of the economic system of the developed countries of the world, and integrating it into the world economy. The achieved macroeconomic stability, the growth of economic indicators in industry and other areas, the initial results of the implemented large-scale economic reforms confirmed the correctness of the implemented policy and Azerbaijan's confident steps towards the market economy. In the words of the great leader: "A country with a strong economy is capable of everything!" The main requirement of sustainable and solid state building is the presence of a strategic action program, the existence of the state and the nation, and the national idea that acts as the goals and priorities of development. During the period of his leadership of Azerbaijan Heydar Aliyev did a lot of work in terms of economic revival and rapid development. In the years that he led our republic, the work done in the field of the organization of the country's independent economy, the implementation of successive socio-economic reforms, the creation and improvement of the legislative framework that will ensure the sustainable development of this field, gave a significant impetus to economic development. The main goals of the great leader are to fundamentally change the economy of the republic, to transform it from a powerful state consumer of raw materials into an advanced industrial base equipped with modern equipment and technology, to raise agriculture, to restore the image of Baku as the most beautiful and prosperous city in the world, to restore the Azerbaijani countryside, to revive, to raise the social, cultural and educational level of the population. In the early days of Heydar Aliyev's activity our republic maintained its place in the cotton harvesting, cultivation of grapes and technical plants. During Heydar Aliyev's tenure, Azerbaijan became the largest producer of grapes, fast-growing vegetables, tobacco, and tea. A person who cares about his people and his homeland like Heydar Aliyev was well aware that the strong economic potential is both for the benefit of the country and serves to raise the standard of living of the population. [1]

Heydar Aliyev, the great leader said about the current issues of the republic's economy and other spheres of life: "We are on the path of building a legal-democratic state in our republic. This is our strategic path in state building and in the political field in relation to this, it is the management of the economy by democratic means, that is, democratic reforms in the economy, the path of the market economy. All these are the ways and directions leading our republic to the future in a complex way."

In a short period of time, the establishment of democratic principles and more reliable protection of law and order was ensured. One of the nationally important achievements of the President of Azerbaijan Heydar Aliyev is related to oil. Bringing Azerbaijan's oil to the world market, restoring and strengthening the national budget with the obtained income, and raising the social level of the population was the result of a successful economic policy. On September 20, 1994, an agreement on oil production of "Azeri", "Chirag", "Guneshli" fields in the Azerbaijani sector of the Caspian Sea was signed in Gulustan Palace in Baku. The agreement was just the beginning of Heydar Aliyev's success in the oil field. This agreement, which is vital important for Azerbaijan, played an exceptional role both in establishing stability within the republic and in achieving success in foreign policy.

As Heydar Aliyev himself emphasized, with the signing of the "Contract of the Century", Azerbaijan opened the Caspian Sea and its energy resources to the whole world, and historians will write how important this event is for the country's future.

Along with the signing of the "Contract of the Century", it was also important to find a suitable route for the export of the produced oil to the world market. Heydar Aliyev managed to

start the Baku-Supsa pipeline and at the same time intensify the negotiations on the construction of the "Baku-Tbilisi-Ceyhan" oil pipeline to transport the main oil to be produced under the "Contract of the Century". [2]

In November 1999, the presidents of Azerbaijan, Georgia and Turkey signed an intergovernmental agreement on the construction of the Baku-Tbilisi-Ceyhan main export oil pipeline with the participation of the US president. All the obstacles were overcome and the realization of this project became a reality, in 2003 the construction of the pipeline was started. Despite many difficulties, the path chosen by Heydar Aliyev was successful and the introduction of Azerbaijani oil to the world market became a reality. The great leader, who declared to the world that he supports Azerbaijan's liberal economic line based on free market relations, is great in the fact that he knows that true independence and political freedom pass through economic power and development, and he appreciated the country's progress in just such a way.

Heydar Aliyev also laid the foundation of the Baku-Tbilisi-Erzurum gas pipeline, which is considered to be a fairly important project of the region, intended for the export of Azerbaijani gas to the world markets. Heydar Aliyev is also remembered for his services, such as the creation of the State Oil Fund with the aim of transparent transmission of oil revenues and preservation for future generations. On December 29, 1999, he signed the Decree "On the establishment of the State Oil Fund of the Republic of Azerbaijan". Based on the wise decision of the great leader Heydar Aliyev, the first funds from the Oil Fund were directed to the improvement of the social and household conditions of the refugees and internally displaced persons, who live in the most difficult conditions and are the most vulnerable social class of the Azerbaijani people. [3]

Results

As a logical continuation of a successful economic policy, an efficient budget system and a public expenditure management system were required to ensure a more efficient distribution of resources, and a lot of work was done in this area by national leader Heydar Aliyev.

As a continuation of the political course of the great leader Heydar Aliyev, Azerbaijan entered a new stage of development under the leadership of President Ilham Aliyev with the determination to implement the democratic state building model, its economic development strategy.

References

1. Heydər Əliyev. Azərbaycan XXI əsr və üçüncü minillliyin ayrıcında. - Bakı, 2001.
2. Heydər Əliyev. İqtisadi inkişaf strategiyasının təntənəsi. – Bakı, 2008.
3. Heydər Əliyev. Müasir Azərbaycanın banisi, xilaskarı və qurucusu. – Bakı: Şəms, 2006.
4. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_iqtisadiyyat%C4%B1

DEVELOPMENT OF THE AZERBAIJAN LANGUAGE AS THE MAIN PRIORITY OF THE GREAT LEADER HEYDAR ALIYEV'S POLICY

Aynur Namazova
Phd student
Azerbaijan State Pedagogical University
aynamaz@mail.ru

National Leader Heydar Aliyev had invaluable services in the formation of political speech in Azerbaijan. The speech of the Great Leader can be compared with the speeches of political figures of the world with its sincerity, richness and originality. The prominent statesman Heydar Aliyev preferred oral speech in his speeches and almost refused written reports or speeches.

The audiences where the National Leader spoke were distinguished by their richness. He could also attract the audience's attention with his magnificent appearance, gaze, and voice. The great speaker interacted with the audience, asked questions and received answers. The

systematicity, consistency and logic in the speech of this genius was evident in all his speeches. When Heydar Aliyev spoke, he spoke with all his presence and confidence. He skillfully used the expressions from the colloquial language of the people.

The adoption and implementation of decisions aimed at the development of our mother tongue, which is the national wealth of our people, is considered one of the great historical services of the Great Leader Heydar Aliyev.

One of the important steps taken in this direction is the Law of the Republic of Azerbaijan "On the State Language of the Republic of Azerbaijan" signed on September 30, 2002. In this law, which embodies the comprehensive concern of the independent Azerbaijan state for its mother tongue, the development, development, preservation of the state language, compliance with the norms of the literary language, the creation of necessary conditions for the development of the theoretical and applied fields of linguistics in our country, etc. issues such as

Great leader Heydar Aliyev always emphasizes the importance of protecting the purity and spiritual richness of our language in his speeches. In general, the formation of the language policy in the Republic of Azerbaijan on solid foundations, the improvement of the application of the Azerbaijani language as the state language, and the increase in the reputation of the world's Azerbaijanis in the international world by becoming a means of communication are directly related to the name of the Great Leader.

The most significant indicator of Heydar Aliyev's long-term leadership of Azerbaijan is the tremendous rise of the Azerbaijani ideology and national spirit, the liberation of national self-awareness from the shackles of the past, and the achievement of the strengthening of the dreams and feelings of national statehood, becoming a real political factor, based on fundamental principles such as the return of the people's blood memory.

Heydar Aliyev highly appreciated the role of the mother tongue in the formation and life of the nation: "Each nation is born with its own language. However, keeping this language alive, developing it and raising it to the level of world culture is possible as a result of the activities of the leading people of the nation, scientists and intellectuals."

The Great Leader advised our young people to understand the world on the basis of their mother tongue. Azerbaijani youth learn foreign languages - English, German, French, Chinese, etc. by learning languages, he recommended first of all to become more proficient in one's mother tongue.

The policy implemented by Heydar Aliyev in the direction of the development of the Azerbaijani language, the expansion of its field of application and protection from foreign influences, as well as the purity and cleanliness of this language, is successfully continued today by the honorable President Ilham Aliyev, a worthy follower of his political course. Heydar Aliyev's language policy, his historical services to the development of our language are a real school, and the experience of this school will be used from time to time.

Today, as a result of the sensitive approach of the President of the Republic of Azerbaijan, Ilham Aliyev, a worthy follower of the ideas of the National Leader Heydar Aliyev, to our native language, the re-publishing of the Azerbaijani literature and works reflecting the Azerbaijani thought in Latin script took place precisely on the initiative of Ilham Aliyev. The decree signed by the President on January 12, 2004 "On the implementation of mass publications in the Azerbaijani language with Latin script" also solved the problems related to the alphabet.

Despite all obstacles and difficulties, the political line of the National Leader, who took great steps to protect our mother tongue, is confidently continued by President Ilham Aliyev. According to the Decree "On the implementation of mass publications in the Azerbaijani language with Latin script" signed by the head of our state on January 12, 2004, a list of works to be printed in the Azerbaijani alphabet with Latin script is prepared every year. In addition, on January 14 of the same year, "On the publication of the Azerbaijani National Encyclopedia", as well as on December 30, 2007, "On the approval of the list of works of prominent representatives of world literature to be published in the Azerbaijani language" application has been implemented. Taking into account the requirements and realities of the modern era, the President of Azerbaijan approved the "State

Program on the use of the Azerbaijani language in accordance with the requirements of the time and the development of linguistics in the country" with the Decree dated April 9, 2013, the protection of the purity and richness of our mother tongue, which is the mirror of our national and spiritual existence. is an important historical event. The purpose of the State Program is to increase the state's concern for the use and study of the Azerbaijani language, the use of our language in accordance with the requirements of the time in the conditions of globalization, and the improvement of linguistic research in the country. At the same time, the document envisages the unification of creative efforts aimed at the development of fundamental and applied research in the leading directions of linguistics and the connection of linguistics with the current problems of modern society.

The Decree of President Ilham Aliyev dated July 17, 2018 "On a number of measures to ensure wider use of the Azerbaijani language in the electronic space" is of particular importance in terms of further expanding the scope of the development and application of the Azerbaijani language. The Decree "On measures related to the protection of the purity of the Azerbaijani language and further improvement of the use of the state language" signed by the head of state on November 1, 2018 confirms once again that the state language is always in the center of attention in our country. This document related to language construction is one of the important steps taken in the direction of strengthening the national-moral, political-legal status of the Azerbaijani language.

Taking into account the requirements and realities of the modern era, the President of Azerbaijan approved the "State Program on the use of the Azerbaijani language in accordance with the requirements of the time and the development of linguistics in the country" with the Decree dated April 9, 2013, the protection of the purity and richness of our mother tongue, which is the mirror of our national and spiritual existence. is an important historical event. The purpose of the State Program is to increase the state's concern for the use and study of the Azerbaijani language, the use of our language in accordance with the requirements of the time in the conditions of globalization, and the improvement of linguistic research in the country. At the same time, the document envisages the unification of creative efforts aimed at the development of fundamental and applied research in the leading directions of linguistics and the connection of linguistics with the current problems of modern society. The Decree of President Ilham Aliyev dated July 17, 2018 "On a number of measures to ensure wider use of the Azerbaijani language in the electronic space" is of particular importance in terms of further expanding the scope of the development and application of the Azerbaijani language. The Decree "On measures related to the protection of the purity of the Azerbaijani language and further improvement of the use of the state language" signed by the head of state on November 1, 2018 confirms once again that the state language is always in the center of attention in our country. This document related to language construction is one of the important steps taken in the direction of strengthening the national-moral, political-legal status of the Azerbaijani language.

References

1. Aliyev Isa. Heydar Aliyev paid great attention to the development of science and education. People's newspaper.- 2009.- December 12.- P. 6.

2. Bakhshaliyev Farid. Heydar Aliyev and the main directions of reforms in Azerbaijan education. Baku, 2011, 30

3. Mustafayev Fasting. The fruits of the successful policy implemented by the Great Leader in the 70s and 80s of the last century are immeasurable, Baku, Elm, 265

4. Samadov Abbas. The care of our national leader Heydar Aliyev for education and education workers in Azerbaijan. Textbook, Ganja, 2010, 231

5. Zamanov Nagdeli. Heydar Aliyev and Azerbaijani speech culture (Book I). Baku, "Science and Education", 2013, 324

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ

TÜRKİYƏNİN GÜNEY QAFQAZ SİYASƏTİ

Elvin Çingiz oğlu Həsənov
doktorant
Gəncə Dövlət Universiteti
elvin.hasanov1001@gmail.com

Cüney Qafqaz regionu Şərq-Qərb və Şimal-Cənub arasında keçid bölgəsi olması xüsusiyyətinə görə strateji əhəmiyyətə malikdir. Regionun Avrasiya üçün strateji əhəmiyyəti ilə yanaşı, Cənubi Qafqaz regionunda sabitlik və firavanlıq Türkiyənin özünün təhlükəsizliyi və sabitliyi üçün xüsusi əhəmiyyət kəsb edir. Həmçinin Cənubi Qafqazı Türkiyənin Orta Asiyaya açılan qapısı kimi böyük önəm daşıyır.

Müasir dövrdə aparıcı dövlətlərin bölgəyə yönəlik siyasəti Türkiyəni narahat etməklə bərabər, böğəni Türkiyə üçün cəlbedici etməkdədir. Çünki Cənubi Qafqazın istər coğrafi, istərsə də mədəniyyət və din baxımından Türkiyə ilə tarixi bağlılığının olması və qonşuluq münasibətləri Türkiyə-Qafqaz münasibətlərini aktuallaşdıran siyasi çağırışlardır. Sözügedən fövqəldövlətlərin tələb və gözləntiləri bölgədəki yeraltı və yerüstü sərvətlərdən maksimum yararlanmaq olduğu üçün Türkiyənin də bu paylaşımdan lazımi payı alması amilini önə çıxarmaqdadır. Ümumilikdə Türkiyənin bölgəyə marağı təhlükəsizlik, iqtisadiyyat və mədəniyyət baxımından dəyərləndirilməli və təhlil olunmalıdır.

Əhməd Davudoğlu Cənubi Qafqaz bölgəsinin strateji əhəmiyyətini bu şəkildə şərh etmişdir: "Regionun beynəlxalq mövqeyini üç xüsusiyyətlə izah etmək olar. Əvvəla, regionun adətən dağlıq və keçilməz çoxlu dərələrdən ibarət olması bölgənin ictimai-siyasi quruluşunu şərtləndirən ən mühüm xüsusiyyətdir. Bu amil bölgədə yaşayan xalqların tarix boyu işğallardan qorunaraq mədəniyyətlərini qoruyub saxlamağa imkan yaratmışdır. Coğrafi kontekstdə daha bir xüsusiyyət regionun böyük dövlətlər arasında bufer zona rolunu oynamasıdır. Ərəblər, ruslar və türklər həmişə Zaqafqaziya ilə yaxından maraqlanmış və bu səbəbdən də bölgə zaman-zaman müxtəlif güclərin ağalığı altına düşmüşdür. Bölgənin coğrafi quruluşu ilə bağlı başqa bir xüsusiyyəti də ticarət və nəqliyyatda böyük bir körpü rolunu oynamasıdır. [9, s.124-125]

1991-ci ildə Sovet imperiyasının süqutu ilə Cənubi Qafqaz ölkələri (Azərbaycan, Gürcüstan, Ermənistan) müstəqilliklərini elan etdilər. SSRİ-nin dağılmasından sonra bölgədə yaranan nüfuz boşluğunu doldurmaq üçün qlobal və regional güclər bu gün də davam edən böyük bir mübarizəyə başladılar. Mustafa Öztürk Qafqazın strateji əhəmiyyəti ilə bağlı tədqiqatlarında qeyd edir ki, "Bu bölgə regional və qlobal güclərin geosiyasi, geoiqtisadi və strateji maraqlarını əldə etmək üçün girdikləri çoxölçülü, çoxşaxəli və dinamik güc mübarizəsinin mərkəzinə çevrilmişdir [16, s. 9].

Müstəqilliyini elan etmiş bu üç Cənubi Qafqaz dövlətindən Azərbaycan və Gürcüstan xarici siyasətlərini daha çox ABŞ və Aİ istiqamətində formalaşdırmış, Ermənistan isə özünəməxsus xarici siyasət qura bilməyərək Rusiya hegemonluğunun təsiri altında öz müstəqilliyini qoruyub saxlamaq qərarına gəlmişdir. Bəzi dövrlərdə isə Ermənistan uğursuz cəhdlər edərək Rusiyanın əleyhinə ABŞ-yönlü siyasət yürütməyə təşəbbüs etmişdir.

Müstəqilliklərini elan etdikdən sonra mürəkkəb tarixi dövrlərini yaşayan Cənubi Qafqaz Respublikaları dünyada baş verən proseslərin tərkib hissəsi olmuş, bölgə uğrunda gedən rəqabətin gerçək aktorlarına çevrilmişlər.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi, bir tərəfdən ölkədə siyasi saqbitliyi və təhlükəsizliyi bərqərar etməklə yanaşı, həmçinin ümumən Cənubi Qafqazda sülhün və iqtisadi inkişafa ciddi təkan verdi.

Cənubi Qafqaz ətrafında baş verən proseslərin bölgə uğrunda gedən mübarizənin bir tərkib hissəsi olduğunu vurğulayayan Əhməd Sapmaz da öz əsərində qeyd edir ki, "Qafqaz, Balkanlar - Qara dəniz-Xəzər dənizi - Mərkəzi Asiya və Rusiya Federasiyası - Yaxın Şərq və Türkiyə-Aralıq dənizi oxlarında baş verən proseslərdən ciddi şəkildə təsirlənir. Qara dənizin isinən, Şimali Qafqaz və Yaxın Şərqin durulmayan, Mərkəzi Asiyanın Çin və Rusiya Federasiyası Şanxay Əməkdaşlıq

Təşkilatı rəhbərliyi altında formalaşan geopolitik düzəni Qafqazın geosiyasətinə ciddi şəkildə təsir edir" [17, s. 45].

Müstəqillikdən sonrakı dövrdə regionda etnik-mədəni fərqliliklər regiondaxili etnik münaqişələrə və xaosa səbəb olmuşdur. Problemin əsas səbəblərindən biri də SSRİ-nin "arxa bağçası" kimi qələmə verdiyi Qafqazda əsrlər boyu davam etdirdiyi "parçala, hökm sür" siyasətinə uyğun olaraq cızılan süni sərhədlərin bölgədə qeyri-bərabərliyə və ədalətsizliyə təkan verməsi olmuşdur. Xüsusilə də Rusiyanın bölgədəki etnik, dini, mədəni və tarixi faktlara məhəl qoymadan yaratdığı siyasi xəritəsi Qafqazda qeyri-sabitliyin ən mühüm səbəblərindən biri olmuşdur. SSRİ-nin süqutundan sonra Cənubi Qafqazda müstəqilliklərini elan etmiş dövlətlərin demokratikləşmə prosesində qarşıya çıxan problemlərinin bölgədə mövcud olan etnik-siyasi problemlərə əlavə olunması, bölgənin lazımi səviyyədə inkişafına ciddi maneələr yaratmış, mövcud sosial-iqtisadi strukturlaşmanın formalaşmasına əngəl olmuş, nəticədə bölgə dünyanın ən qeyri-sabit və münaqişə mənbəyi olan bölgələrindən birinə çevrilmişdir.

Bu gün Cənubi Qafqazda və Xəzər hövzəsində ABŞ, Rusiya, Aİ kimi böyük dövlətlərin maraqları toqquşur. Dünyanın zirvəsi kimi qəbul edilən Avrasiyanı öz nəzarətinə götürməklə "Dünya hökmranlığı" fəlsəfəsini reallaşdıra biləcəyini düşünən ABŞ, Avrasiyanın ürəyi olan Qafqaz regionuna maksimum önəm verirməkdədir. Digər tərəfdən, hələ də regionu özünün "arxa bağçası" kimi görən Rusiya Cənubi Qafqazda nüfuzunu qorumaq və enerji yollarını nəzarətdə saxlamaq istəyini açıq şəkildə biruzə verməkdədir.

Xüsusilə vurğulamaq lazımdır ki, Aİ-nin regiona və regionun enerji resurslarına marağı günügündən artır. Xüsusilə ABŞ və Rusiya Federasiyası üçün rəqabət zonaları əsasən Cənubi Qafqaz və Xəzər hövzəsidir. ABŞ regionda demokratiya, insan haqları və terrorla mübarizə adı altında qeyri-hökumət təşkilatları ilə təsirli olmağa çalışarkən, Rusiya bölgədə köhnə üsullarla (məsələn, etnik gərginlikdən istifadə etməklə) təsirli olmağa çalışır.

Bu strateji əhəmiyyətli coğrafiyanı ələ keçirəcək güc mərkəzləri Xəzər hövzəsi, Mərkəzi Asiya və Qara dənizə qədər uzanan enerji dəhlizinin yeganə hökmdarı olmaqla yanaşı, həm də bugünkü dünya konyukturasında hər cür platformada özünə əhəmiyyətli yer tapacaqdır. Problemə nəzəri təhlil perspektivindən yanaşan Hakan Kantarcı qeyd edir ki, "Bu kontekstdə Makkinderin "Qara Hakimiyyət" nəzəriyyəsində, Spykmanın "Kənar Kəmər" nəzəriyyəsində və nəhayət, Bjezinskinin "Böyük Şahmat Taxtası" nəzəriyyəsində deyildiyi kimi, "Bu bölgənin sahibi olan Asiyaya, Asiyaya sahib olan isə dünyaya hakim olacaq. Qafqaz bu rolu ilə Şimal-Cənub və Şərq-Qərb arasında körpü və bir həmlə yeridir, bu, Qafqazın önəminin ən mühüm səbəblərindən biridir." [13, s. 2]

Cənubi Qafqaz regionu bir çox səbəblərə görə Türkiyə üçün çox önəmlidir. Bu region Şərq-Qərb və Şimal-Cənub arasında keçid bölgəsi olması xüsusiyyətinə görə strateji əhəmiyyətə malikdir. Soyuq müharibədən sonra bölgədə baş verən hadisələr regionun mövqeyini daha da gücləndirmiş, Avrasiyada sabitliyin və rifahın bərqərar olması üçün getdikcə daha çox əhəmiyyətini artırmışdır. Regionun Avrasiya üçün strateji əhəmiyyəti ilə yanaşı, Cənubi Qafqaz regionunda sabitlik və firavanlıq Türkiyənin özünün təhlükəsizliyi və sabitliyi üçün xüsusi əhəmiyyət kəsb edir. Həmçinin Cənubi Qafqazı Türkiyənin Orta Asiyaya açılan qapısı kimi böyük önəm daşıyır. [7, s. 398]

2000-ci illərdə gündəmə gələn enerji təhlükəsizliyi konsepsiyası və 11 sentyabr terror hadisələrindən sonra Mərkəzi Asiya-Qafqaz oxunda kəskinləşən qlobal güc rəqabəti Rusiyanın Qafqazı öz "arxa bağça"sına çevirmək siyasətinin sonunu gətirmiş, regionu beynəlxalq siyasət meydanında ön plana çıxarmışdır. Başda ABŞ, Aİ və Rusiya olmaqla qlobal güclərin regional rəqabətinə, həmçinin Türkiyə və İran kimi regional güclərin əməkdaşlıq və rəqabətinə səhnə olan region, tarixi, etnik quruluşu. Həlli çətin olan daxili problemləri səbəbindən çox dəyişkən siyasi zəminə malikdir. [1, s.953]

Qeyd olunduğu kimi, Soyuq müharibənin sonu və Sovet imperiyasının dağılmasından sonra müstəqillik əldə etmiş keçmiş sovet respublikaları ilə qurulan əlaqələr Türkiyənin xarici siyasətində yeni bir dövrün başlanmasının əsasını qoymuşdur. "Yeni aktivizm" adlanan bu dövrdə Türkiyənin dəyişən dünya düzənində necə mövqe tutacağı məsələsi ilə sıx bağlı olmuşdur. Soyuq müharibənin

son dövründə təhlükəsizliyinə təhdid olmadığı təqdirdə regional münaqişələrdən uzaq duran, ehtiyatlı və balanslı xarici siyasət yeridən Türkiyə, ikiqütblü dünya nizamının dağılmasından sonra daha təsirli xarici siyasət həyata keçirməyə başladı. [12, s.3-4]

Cənubi Qafqaz regionuna ciddi önəm verən Türkiyə, bölgədə etnik, mədəni və tarixi bağlılığına görə ilk olaraq Azərbaycanın müstəqilliyini 1991-ci il noyabrın 9-da tanımış, həmçinin 16 dekabr 1991-ci ildə Gürcüstan və Ermənistanın da müstəqilliyini tanıdığını elan etmişdir. Soyuq müharibədən sonra yeni bir diplomatik açılım mərhələsinə qədəm qoyan Türkiyə, Orta Asiya və Qafqazda meydana çıxan yeni konyukturada fəal rol almağa başlamış, uzun illər SSRİ-nin müstəmləkəsi kimi yaşamış Türk Cümhuriyyətləri ilə yaxşı əlaqələr yaratmağa çalışmışdır.

Türkiyənin Cənubi Qafqaz bölgəsində yürütdüyü siyasətin əsas istiqamətlərini anlamaq üçün ilk növbədə ölkənin ümumilikdə regiona necə baxdığına və hansı əsaslarla siyasət formalaşdırmağa çalışdığına diqqət yetirmək lazımdır. Əvvəla, Türkiyə ilk dövrdən bütün Qafqaz ölkələrinin müstəqilliyini, siyasi sabitliyini və ərazi bütövlüyünü dəstəkləyən siyasi xətti yürütmüşdür. Bu siyasətin səbəbini, Qafqaz dövlətlərinin Türkiyə üçün strateji əhəmiyyəti, Türkiyənin bölgəyə yönəlik köklü xarici siyasət prinsipi, xarici güclərin regiona yönəlik aktiv siyasətinin doğurduğu narahatçılıq, xüsusilə də bölgədə qeyri-sabitlik yaranarsa, bunun asanlıqla Türkiyə ərazisinə keçə biləcəyindən narahatlıq duyması kimi faktorlarla izah etmək olar. [3, s.203]

Strateji baxımdan Azərbaycan, Ermənistan və Gürcüstan Türkiyə ilə onun Qafqazdakı tarixi rəqibi Rusiya arasında bufer zona təşkil edir. Tarixi proseləri izlədikdə çar Rusiyası Türkiyənin sələfi Osmanlı İmperiyasını əsrlər boyu təhdid etmiş, onun varisi Sovet imperiyası isə 20-ci əsrin böyük bir hissəsində Türkiyəni təhdid etməyə davam etmişdi. Soyuq müharibənin sona çatması və bölgədə müstəqil dövlətlərin yaranması nəticəsində şimaldakı böyük qonşusu ilə quru sərhədi olmayan Türkiyə, bu vəziyyəti saxlamağın ən yaxşı yolunun Qafqaz ölkələrinin müstəqilliyini, sabitliyini və bütövlüyünü dəstəkləmək olduğuna inanırdı. Türkiyənin Qafqaz siyasətinin müəyyən edilməsində təsirli olan və bu gün də davam edən əsas anlayışlardan biri də ondan ibarət idi ki, həmsərhəd olduğu ölkələrin sabitliyi Türkiyənin öz təhlükəsizliyinə və sabitliyinə də təsir edəcəkdi. Digər tərəfdən əgər hər hansı bir Qafqaz ölkəsində qeyri-sabitlik baş verərdisə, bunun Türkiyəyə sıçrama ehtimalı olmasa belə, Türkiyənin Orta Asiya və digər region ölkələrlə ən azı ticarət əlaqələrinə zərər verəcəyi təhlükəsi böyük idi. 1990-cı illərin əvvəllərində Türkiyə regional mübahisələrə qarışmaq istəməsə də, regionda çoxlu sayda türksoylu əhalinin yaşaması Türkiyənin bölgədəki proseslərdən tamamilə uzaq durmasına imkan vermədi. [3, s.204-205]

Türkiyənin nəzərində Qafqaz ölkələrinin ərazi bütövlüyü həm də regionun sabitliyi və regionda artan nüfuz mübarizəsinin neqativ təsirinin azaldılması demək idi. Bölgə ölkələrinin müstəqil sərhədləri daxilində ərazi bütövlüyünün qorunub saxlanması Türkiyənin xarici siyasətinin çoxillik ümumi prinsipinə əsaslanırdı. Gürcüstanda Açarya, Abxaziya və Cənubi Osetiya, Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişələri ilə bağlı Türkiyənin ümumi mövqeyi əsasən bu ölkələrin sərhədlərinin sabit qalması ilə xarakterizə olunmuşdur. Bu münasibət qonşu dövlətlərdən hər hansı birinin sərhədləri zorla dəyişdirilərsə, bunun bütün regionu bürüyəcək zəncirvari reaksiyaya səbəb olacağı narahatlığından irəli gəlirdi. Bundan əlavə, Türkiyənin Qafqaz ölkələrinin ərazi bütövlüyü və müstəqilliyinə verdiyi dəstək soyuq müharibədən sonra Rusiyanın bölgədəki təsirini azaltmaq cəhdindən də irəli gəlirdi. Çünki bu dövlətlər öz müstəqilliklərini və siyasi sabitliklərini qoruyub saxlaya bildikləri halda, Rusiya Federasiyasının Türkiyə ilə qonşu olan bu ölkələrə təsir göstərməsi çətin olacaqdı. Bu səbəbdən Qafqaz ölkələri öz müstəqilliklərini elan edəndə Türkiyə bu ölkələrin müstəqilliyini dərhal tanımışdır. Yalnız Ermənistan siyasi dairələrində iki ölkə sərhədi ilə bağlı yersiz torpaq iddialarına söykənən müzakirələrin getməsi və 1915-ci il hadisələri ilə bağlı Ermənistanın yersiz davranışları Türkiyəni səfir mübadiləsi etməməyə vadar etmişdir. Zaman keçdikcə iki ölkə arasında fikir ayrılığı yaradan məsələlərə Qarabağ münaqişəsi də əlavə olunmuşdu. [2, s.406].

Tarixi, mədəni və etnik bağları olan Azərbaycanla əməkdaşlıq istəkləri Türkiyənin bölgə ilə əlaqələrinin əsas hərəkətverici qüvvəsi kimi görünürdü. Eyni zamanda Ankaranın Cənubi Qafqaz siyasəti praqmatik iqtisadi və strateji mülahizələrə əsaslanırdı. [5, s.4]

İlk növbədə Cənubi Qafqaz bölgəsi Türkiyə üçün əhəmiyyətli təbii qaz və neft ehtiyatlarına malik qonşu ərazidir. Təsdiqlənmiş və təxmin edilən neft və təbii qaz ehtiyatları dünya ehtiyatlarının təxminən 12 %-ni təşkil edən Xəzər hövzəsi yeni bir Yaxın Şərq bölgəsi olmasa da, 1970-ci illərdə baş verən enerji böhranının təkrarlanmasının qarşısını ala biləcək mühüm alternativ enerji hövzəsinə çevrilmişdir. [8]

Təkcə Azərbaycan qazı və neftini deyil, həm də Qazaxıstan neftini və Türkmənistan qazını özündə birləşdirən Xəzər hövzəsi soyuq müharibədən sonra Türkiyənin xarici siyasətinin əsas maraq dairəsində olan bölgələrdən birinə çevrilmişdir. Digər tərəfdən, Türkiyə Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına nəqlində əsas tranzit ölkəyə çevrilmək istəyində Rusiya ilə rəqabət aparırdı. 1990-cı illərdə Türkiyə və Rusiya regionun neft və qaz məntəqələrində aparıcı rola malik olmaq üçün rəqabət aparırdılar. Nəticədə Türkiyə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərini və Bakı-Tbilisi-Ərzurum (BTE) təbii qaz kəmərini, Rusiya isə Tengiz-Novorossisk neft kəmərini inşa etmişdi. Lakin 90-cı illərdə başlayan bu rəqabət, 2000-ci illərdə Rusiyanın "Cənub axını" layihəsi və Türkiyədən keçərək Avropaya təbii qaz verəcək Nabukko layihəsi arasında davam etmişdir. [3, s. 207)]

Neft və qazın tranzitindən əldə olunan gəlirlər ölkələrin boru kəmərlərinin öz ərazilərindən keçməsinə marağını artıran yeganə amil deyildi. Boru kəməri marşrutları bir çox ölkələr tərəfindən Mərkəzi Asiya və Qafqazda nüfuzu ələ keçirmək və saxlamaq üçün əsas element kimi görünürdü. Türkiyə həmçinin ümid edirdi ki, bu cür təmaslar onun bölgədəki mövqeyini gücləndirəcək əməkdaş aktorları da ortaya çıxaracaqdı. [5, s.13]

Enerji marşrutları arasında BTC layihəsi 1990-cı illərin əvvəllərində Qərbdən, xüsusən də ABŞ-dan dəstək aldı. Vaşinqtonun dəstəyi birbaşa Avrasiya və Yaxın Şərqdəki strateji prioritetləri ilə bağlı idi. Bu dövrdə Türkiyənin maliyyə resursları və siyasi çəkisi Rusiyanın bölgədə neo-hegemonluğuna mane olmaq gücündə deyildi. Bu baxımdan Qərbin transmilli şirkətləri enerji layihələrində liderliyi ələ keçirdikcə ABŞ-ın bölgədəki mövqeyi nəzərəçarpacaq dərəcədə artırdı. Bu mərhələdə regional enerji ehtiyatlarının istehsalı ilə bağlı ABŞ Rusiyanın təsirini zəiflətmək üçün daha qətiyyətli addımlar atmışdı. Bundan əlavə, İranı Xəzər neft və təbii qaz hasilatından kənarda saxlamaq və Xəzər regionundan İran vasitəsilə Fars körfəzinə və ya Hind okeanına açılacaq nəqliyyat və boru kəməri marşrutlarının inkişafının qarşısını almaq ABŞ-ın strateji hədəflər sırasında idi. [18, s.30]

Azərbaycandan Aralıq dənizinə ən qısa boru kəməri marşrutu Ermənistandan keçsə də, Dağlıq Qarabağ münaqişəsi bu marşrutu mümkünsüz etmiş, ABŞ-ın İrandan keçən boru kəmərinə qarşı çıxması isə Qərb xətti üçün mümkün marşrutlar sırasında Gürcüstan və Türkiyə istiqaməti ön plana çıxmışdı. Türkiyənin Azərbaycanla mövcud olan tarixi və mədəni əlaqələr daha sıx iqtisadi və siyasi əlaqələrin qurulmasına imkan yaratmış, həmçinin Türkiyə, Azərbaycan və Gürcüstan boru kəməri siyasəti vasitəsilə strateji tərəfdaşlara çevrilmişlər.

Türkiyənin regionla bağlı siyasətində daim diqqətdə saxladığı digər mühüm amil də Rusiya Federasiyasının mövqeyi və siyasəti olmuşdur. Cənubi Qafqazda hegemonluq mübarizəsində Rusiya qısa müddət ərzində oyundan kənarda qalsa da, 1993-cü ilin sonunda elan etdiyi "yaxın çevrə" siyasəti Rusiyanın Mərkəzi Asiya və Qafqazdakı keçmiş sovet ərazilərində maraqlarının davam etdiyini açıq şəkildə büruzə vermişdir. Sonrakı mərhələlərdə iqtisadi və siyasi güclənməsi ilə Rusiya yenidən regional oyuna fəal şəkildə qarışmışdı. 90-cı illərdə Türkiyə ümumilikdə Qərbin, o cümlədən ABŞ-ın dəstəyinə malik olsa da, Rusiya ilə rəqabət aparmaq üçün kifayət qədər iqtisadi resurslara və siyasi gücə malik deyildi. Nəticə etibarı ilə Türkiyə 1994-cü ildən bölgədə Rusiya ilə üz-üzə gəlməyin təhlükələrinə qarşı daha diqqətli olmağa başlamış. ticari və siyasi əlaqələrini artıraraq əməkdaşlığın inkişaf etdirilməsinə üstünlük verən siyasət yürütməyə başlamışdı. [5, s. 8-9]

2002-ci il noyabrın 3-də Türkiyədə keçirilən ümumi seçkilərdə Ədalət və İnkişaf Partiyası (AKP) ümumi seçici səslərinin 34,28 faizini və parlamentdəki 550 yerdən 363-nü qazandı. AKP hakimiyyətinin ilkin dövrlərində Türkiyənin Cənubi Qafqaz dövlətləri ilə bağlı siyasətinin ümumi xəttlərində heç bir dəyişiklik olmasa da, dövrün milli və qlobal hadisələri AKP iqtidarının prioritetlərinə, bölgəyə münasibətinə təsir etmişdi.

AKP iqtidara gələrkən müəyyən siyasi dairələr və cəmiyyət arasında Türkiyənin regionla bağlı fəal siyasət yürdəcəyinə şübhə ilə yanaşılmış və AKP-nin universal İslamçı düşüncəsinə səbəbindən Qafqaz və Orta Asiya respublikaları ilə sıx əlaqələrə sələfləri qədər önəm verə bilməyəcəyi iddia edilmişdi. Həqiqətən də AKP iqtidarı region ölkələri ilə tarixi və mədəni əlaqələrin eyforiyasına qapılmaq əvəzinə, iqtisadi əlaqələrin inkişafına, xüsusilə də boru kəməri layihələrinə diqqət yetirməyə üstünlük vermişdi. Digər tərəfdən, AKP iqtidarının bölgədə daha ehtiyatlı siyasət yürütməsinin səbəbi olaraq, ABŞ-ın İraqa müdaxiləsi, qeyri-sabit Türkiyə-Aİ münasibətləri, Kiprlə bağlı müzakirələr, PKK terroru kimi məsələlərin də rolunu qeyd etmək lazımdır. [3, s. 210]

Hökumətin regionda maraqlı göründüyü əsas sahə enerji məsələsi idi ki, burada həm ölkənin ehtiyaclarını ödəmək, həm də Avropaya daşımaq üçün regionun enerji ehtiyatlarını Türkiyəyə gətirməyi hədəfləyən fəal siyasət aparılırdı. Bu kontekstdə Türkiyənin "regional enerji mərkəzinə" çevrilməsi ideyası hökumət tərəfindən əsas məqsəd olaraq gündəmə gətirildi və Türkiyənin Gürcüstan və Azərbaycan üzərindən Xəzər dənizi ehtiyatları ilə əlaqələrini gücləndirmək üçün fəal siyasətr həyata keçirildi. [10]

AKP hökumətinin Qafqaz siyasətinə təsir edən başqa bir amil isə "qonşularla sıfır problem" və "region mərkəzli xarici siyasət" prinsiplərinə əsaslanan "qonşuluq siyasəti"ni həyata keçirməsi idi. Bu prinsiplər AKP iqtidarı tərəfindən inkişaf etdirildi və zaman keçdikcə hökumətin xarici siyasət xəttinə çevrildi. AKP iqtidarının xarici siyasətində Cənubi Qafqaz bölgəsinə yönəlik fəal siyasət yürütməsi görünməkdədir. Bu dövrdən etibarən Türkiyənin bölgədə fəallaşmasının əsas səbəbləri sırasında Türkiyə-Avropa İttifaqı danışıqları prosesində ciddi irəliləyişin olmaması, Amerikanın İraq əməliyyatı və yaratdığı ciddi regional problemlər də mövcud idi. [3, s. 210-211]

Ümumiyyətlə, Cənubi Qafqaz regionu geosiyasi və iqtisadi baxımdan Türkiyə üçün çox önəmlidir. Bu region Şərq-Qərb və Şimal-Cənub arasında keçid bölgəsi olması xüsusiyyətinə görə strateji əhəmiyyətə malikdir. Soyuq müharibədən sonra bölgədə baş verən hadisələr regionun mövqeyini daha da gücləndirmiş, Avrasiyada sabitliyin və rifahın bərqərar olması üçün getdikcə daha çox əhəmiyyətini artırmışdır. Regionun Avrasiya üçün strateji əhəmiyyəti ilə yanaşı, Cənubi Qafqaz regionunda sabitlik və firavanlıq Türkiyənin özünün təhlükəsizliyi və sabitliyi üçün xüsusi əhəmiyyət kəsb edir. Həmçinin Cənubi Qafqazı Türkiyənin Orta Asiyaya açılan qapısı kimi böyük önəm daşıyır.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi, bir tərəfdən ölkədə siyasi saqbitliyi və təhlükəsizliyi bərqərar etməklə yanaşı, həmçinin ümumən Cənubi Qafqazda sülhün və iqtisadi inkişafa ciddi təkan verdi.

Cənubi Qafqazın istər coğrafi, istərsə də mədəniyyət və din baxımından Türkiyə ilə tarixi bağlılığının olması və qonşuluq münasibətləri Türkiyə-Qafqaz münasibətlərini aktuallaşdıran siyasi çağırışlardır. Sözügedən fövqəldövlətlərin tələb və gözləntiləri bölgədəki yeraltı və yerüstü sərvətlərdən maksimum yararlanmaq olduğu üçün Türkiyənin də bu paylaşımdan lazımi payı alması amilini önə çıxarmaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1. Andican A. "Kafkasya ile İlişkiler", Türk Dış Politikası 1919-2008, Barış Platin Yayınları, Ankara, 2008.
2. Aydın M. "1990–2001 Kafkasya ve Orta Asya'yla İlişkiler", Baskın Oran (der.), Türk Dış Politikası, Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar, İstanbul, İletişim Yayıncılık, 2002.
3. Aydın M. Kafkasya'da türk dış ve güvenlik politikalarının degişen dinamikleri. Avrasya Üçlemesi, Ankara, Nobelyayınları, 2012 s.203-227
4. Aydın M. New Geopolitics of Central Asia and the Caucasus. Ankara, Center for Strategic Research, 2000.
5. Aydın M. "Foucault's Pendulum: Turkey in Central Asia and the Caucasus", Turkish Studies, Vol, 5 (2), 2004.

6. Bakü-Tiflis-Kars Demiryolu Canlanıyor. https://www.haberler.com/baku-tiflis-kars-demiryolu-canlaniyor-haberi/. 19.09.2007.

7. Bal İ. "Türkiye-Ermenistan İlişkileri", 21. Yüzyılda Türk Dış Politikası, 2. Baskı, Nobel Yayınları, Ankara, Ocak, 2004.

8. BP, Statistical Review of World Energy 2010; http://www.bp.com/productlanding.do?categoryId=692 (21.11.2010)).

9. Davutoğlu A. Stratejik Derinlik. Küre Yayınları, İstanbul 2003.

10. Dışişleri Bakanlığı. Turkey's Energy Strategy, Ocak 2009, http://www.mfa.gov.tr/data/DISPOLITIKA/EnerjiPolitikasi/. (21.11.2010).).

11. Gaudiano M. "Can Energy Security Cooperation Help Turkey, Georgia, and Azerbaijan to Strenghten Western Oriented Links?". NATO Defense College Academic Research Branch Research Note, No 5, June, 2007.

12. Görgülü A. "Türkiye- Ermenistan İlişkileri: Bir Kısır Döngü", TESEV yayınları, Dış Politika Analiz Serisi-8, İstanbul, Mayıs 2008.

13. Kantarcı H. "Kafkasya Jeopolitiğinde Kriz Alanları Ve Güç Mücadelelerinin Türkiye'ye Etkileri", http://www.2023.gen.tr/eylul05/4.htm, Eylül 2005, erişim tarihi:29.10.2008.

14. Kanbolat H. Kafkas İstikrar ve İşbirliği Paltformu'na Ankara Ev Sahipliği Yapacak. Kasım 05, 2021. https://www.hurriyet.com.tr/dunya/kafkas-istikrar-ve-isbirligi-paltformu-na-ankara-ev-sahipligi-yapacak-10767661.

15. Özey R. "Kafkasya ve Kafkas ülkeleri", Avrasya Etütleri, TİKA yayınları, sayı 17, ilkbahar-yaz 2000.

16. Öztürk M. Kafkasya'nın Tarihi Coğrafyası ve Stratejik Önemi, Sekizinci Askeri Tarih Semineri Bildirileri 1, ATASE Yayınları, Ankara 2003.

17. Sapmaz A. Rusya Federasyonu'nun Transkafkasya'ya Yönelik Dış Politikasının Türkiye'ye Etkileri, İstanbul Harp Akademileri Komutanlığı, İstanbul, 2006.

18. Shimizu M. IDE Spot Survey: The Caspian basin Oil and its Impact on Eurasian Power Games, Tokyo, Institute of Developing Economies, 1998.

19. "TBMM'den ABD Senatosunun 'Ermeni kararı'na kınama", Anadolu ajansı, 13 aralık, 2019.

HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN İNTEQRASİYASI HAQQINDA: FƏNLƏRARASI YANAŞMA

Fərid Əflatun oğlu Mahmudzadə
doktorant
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
fmahmudzade@gmail.com

Giriş

XXI əsrdə hər bir cəmiyyət üçün elm və təhsilin strateji əhəmiyyət daşıdığı şübhə doğurmur. Bununla bağlı fəlsəfi və elmi araşdırmalar kifayət qədərdir. Başlıca arqument ondan ibarətdir ki, müasir cəmiyyətləri əsasən elmi-mədəni faktorlar formaşladırır. Buna görə də bir sıra filosoflar müasir cəmiyyətlərə "informasiya cəmiyyəti" və ya "bilik cəmiyyəti" deyirlər. Son zamanlar "texnologiyalar cəmiyyəti" kimi ifadəyə də fəlsəfi-elmi leksikonda rast gəlinir.

Bunlar filosoflar qarşısına bir sıra aktual sualların çıxmasına səbəb olur. Məsələn, elm, bilik və mədəniyyətin dominantlıq təşkil etdiyi bir şəraitdə təhsili necə təşkil etmək daha faydalı olardı? Elmi fəaliyyətlə təhsili təşkilati səviyyədə necə optimal inteqrasiya etmək mümkündür? Hansı elmi yanaşma elm-təhsil inteqrasiyasını daha adekvat araşdırmağa imkan yaradır? Bunlara bənzər digər suallar da meydana çıxmaqdadır.

Vurğulanana sualaların işığında müasir cəmiyyətlərdə elmlə təhsilin qarşılıqlı əlaqələrinin fəlsəfi dərki başqa aspektlərlə yanaşı, fənlərarası yanaşma prizmasında da olduqca aktual görünür. Çünki məhz fənlərarası yanaşma çərçivəsində hazırkı mərhələdə elmlə təhsil arasında münasibətlərin adekvat dərkinə nail olmaq mümkündür. Bununla bağlı intensiv olaraq və kəmiyyətcə artım tempi ilə araşdırmalar aparılır. Həmin araşdırmalar bir qayda olaraq müxtəlif tədqiqat komandaları və onlar arasında münasibətlər əsasında təşkil edilir. Buradan elmi fəaliyyətin təşkili ilə tədrisin təşkili arasında sistemli əlaqələrin fəlsəfi dərki aktuallaşır. O cümlədən, elmlə təhsilin inteqrasiyasının perspektivləri kontekstində çox maraqlı və aktual problemlər meydana çıxır. Onların fəlsəfi-elmi dərki vacib məsələyə çevrilir.

Hazırda həmin istiqamətdə müxtəlif ölkələrin filosofları tədqiqat kollektivləri (komandaları) yaradaraq fərqli aspektləri təhlil edirlər. Bu cür yanaşmada faktiki olaraq kollektiv yaradıcılıqdan söhbət gedir. Müxtəlif yanaşmalar və alınan fərqli nəticələr vardır. Onların prizmasında Azərbaycanda həmin istiqamətdə vəziyyətin təhlili də aktualdır. Məqalə məhz problemin vurğulanan aspektinə həsr edilmişdir.

Biz bu məqalədə Heydər Əliyevin elm və təhsil haqqında fikirlərinin işığında Azərbaycanda elm və təhsilin inteqrasiyası imkanlarının bir sıra fəlsəfi aspektlərinə nəzər salmağa çalışacağıq.

Bunun üçün fənlərarası yanaşmadan istifadə edirik. Metodoloji prinsiplər kimi qeyri-xəttilik, intersubyektivlik və dinamik sintezi seçirik. Buna uyğun metod olaraq sistem analiz və sinergetik sintezi tətbiq edirik.

1. Heydər Əliyev: elm və təhsil sosial-mədəni faktordur

Ulu öndər Heydər Əliyevin həm ümumiyyətlə elm və təhsilin xalqların həyatında rolu, həm də birbaşa Azərbaycan cəmiyyətində elm və təhsilin rolu haqqında çoxsaylı fikirləri vardır [3, s. 14; 6; 5, s. 23-44; 1, s. 6 və s.]. Ulu Öndərin elm və təhsillə bağlı bir neçə fikrinə baxaq.

Heydər Əliyev, ümumiyyətlə, insanların həmişə elm və təhsilə yüksək qiymət verdiyini vurğulayırdı. Ulu Öndər elm və təhsilin cəmiyyətdəki yeri və roluna adətən üç aspektdə baxırdı. Birincisi, elm və təhsil cəmiyyətin ali dəyəridir. İkincisi, bütün tarixi dövrlərdə elm və təhsil yüksək qiymətləndirilib. Üçüncüsü, məhz elmi kəşflər cəmiyyətin inkişafını stimullaşdırmış, ona yön vermişdir. Bu kontekstdə Heydər Əliyevin ifadə etdiyi aşağıdakı fikri göstərə bilərik: "İnsanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşf etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar" [5, s. 24].

Elmin cəmiyyətin inkişafını müəyyən etməsi, bütövlükdə insanların elmin funksiyasına yüksək qiymət verməsi və onun toplumda ali dəyər olaraq qəbul edilməsi faktiki olaraq müasir elmdə geniş yayılmış sosial epistemoloji xarakterli mövqedir. Heydər Əliyev elm və təhsili, bilik və savadı fərdin özündənrazılığı faktoru kimi qətiyyən qəbul etmirdi – daim məsələni sosial-mədəni kontekstdə qoyurdu. Buna görədir ki, Heydər Əliyev həyatda mənəvi-əxlaqi dəyərlərə çox yüksək qiymət vermişdir. Ümummilli lider mənəviyyatı və əxlaqı düzgün olmayanın cəmiyyətdə aparıcı olmasının mümkün olmadığını vurğulayırdı. O cümlədən. siyasətçinin ilk növbədə əxlaqi dəyərlərə sahib olmasını vacib şərt kimi qoyurdu və onun cəmiyyətdə rolunun bu şərtlə sıx bağlı olduğunu vurğulayırdı [1; 3, s. 14].

Bütün bunların əsasında Heydər Əliyev elm və təhsilin cəmiyyətdəki rolu ilə bağlı müasir fəlsəfə üçün böyük əhəmiyyəti olan maraqlı nəticə çıxarmışdır. Ulu Öndər deyirdi ki, elm və təhsilli cəmiyyət müxtəlif dinlərin, dillərin və mədəniyyətlərin dinc yanaşı yaşaya bildiyi məkandır. Çünki elm və təhsil cəmiyyətdə tolerantlıq və dözümlülük yaradır. Azərbaycan da qədimdən müxtəlif dinlərin, mədəniyyətlərin, sivilizasiyaların kəsişdiyi sosial, coğrafi, siyasi və mədəni məkan olmuşdur. Həmin səbəbdən Azərbaycanda daim insanlar bir-birinə "yüksək tolerantlıq", "qarşılıqlı hörmət", "paylaşma" və dözümlülük"lə yanaşmışlar, bütövlükdə isə Azərbaycanda cəmiyyət miqyasında dinclik, tolerantlıq və dözümlülük "mühiti mövcud" olmuşdur [4, s. 140-142].

Vurğuladığımız məqamlar Heydər Əliyevin hansı səbəblərdən müstəqil dövlət quruculuğunda elm və təhsilin strateji rol oynamalı olduğunu önə çəkdiyini aydınlaşdırır. Tədqiqatçılar vurğulayırlar ki, "Heydər Əliyev müstəqillik illərində...elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır". Ümummilli Lider "...bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və

Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır" [1, s. 6].

Heydər Əliyevin özü də elm və təhsilin inkişafını bütövlükdə xalqın ən böyük nailiyyəti olaraq qiymətləndirmişdir. Ulu Öndər demişdir: "XX əsrdə ən böyük nailiyyətlərimizdən biri elm və təhsilin sürətlə inkişaf etməsdir" [5, s. 23].

Nəhayət, Heydər Əliyev xalqın yüksək biliyə və savada malik toplum kimi formalaşması üçün cəmiyyətdə elm və təhsilin sistem kimi ənənəsinin mövcudluğunu vacib şərt kimi görmüşdür. Azərbaycanda belə bir ənənə qədimdən mövcuddur və ona görə də xalq yüksək biliyə və savada malikdir. Bununla bağlı Heydər Əliyevin aşağıdakı fikri maraqlıdır: "Azərbacyan xalqı yüksək biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər – keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticəsidir. Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir" [5, s. 24].

Beləliklə, Heydər Əliyev elm və təhsilə iki aspektin sintezində qiymət vermişdir. Onlardan biri sırf idraki (koqnitiv) aspektdir. Ulu Öndər elm və təhsilin insanı bilikli, savadlı etdiyini vurğulayır. Eyni zamanda, elm və təhsil insanı dünyagörüşlü, fərqli mədəniyyətləri öyrənməyə həvəsli edir. İkinci aspekt insanın və cəmiyyətin sosial-mədəni həyatında elm və təhsilin ciddi rol oynaması ilə bağlıdır.

Yuxarıdakı nümunələr də göstərir ki, Ulu Öndər həmişə elmiliyə və yüksək təhsilə cəmiyyət kontekstində yanaşmışdır. Onları heç zaman ayırmamışdır. Yəni elmli, bilikli və təhsilli olmağın ilk növbədə cəmiyyət, xalq üçün lazım olduğu fikrini irəli sürmüşdür. Hətta fəal insanın kimliyini onun sosiumdakı fəaliyyəti ilə sıx bağlamışdır.

Konkret olaraq, Ulu Öndər alimliyi, müəllimliyi və siyasi liderliyi birbaşa xalqa xidmətlə əlaqələndirmişidr. Bunların hər birinin yalnız xalq fayda verdiyi məqamlarda yüksək dəyəri vardır. Buna görədir ki, Heydər Əliyev alim və müəllimlərin cəmiyyət üçün əvəzsiz rol oynadığını konkret fikirlərində vurğulamışdır.

Heydər Əliyev deyirdi ki, "Bizim böyük alimlər...Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər" və "Mən əminəm ki, müəllimlərimizin...əksəriyyəti...öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yetirəcəkdir" [5, s. 27 və s. 35].

Nəhayət, Ulu Öndər elm və təhsilin gələcəkdə də cəmiyyət üçün strateji əhəmiyyəti olan faktorlar olaraq qalacağına inanırdı. Hətta gələcək cəmiyyətləri tamamilə elm və təhsilin fromalaşdıracağını ifadə edirdi. Heydər Əliyev deyirdi: "Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır" [5, s. 32].

Heydər Əliyevin yuxarıda elm və təhsil, xalqın mədəniyyəti, təhsili və ziyalıların cəmiyyətdəki rolu ilə bağlı söylədiyi fikirlərin işığında müasir mərhələdə elm və təhsilin qarşılıqlı əlaqəsinə fənlərarası yanaşma maraqlı və aktual görünür. Məsələnin bu tərəfi üzərində geniş dayanaq.

2. Müasir fənlərarası yanaşma: elm və təhsilin inteqrasiyası problemi

Elm və təhsilin qarşılıqlı əlaqəsi məsələsinə müasir filosoflar bir qayda olaraq fənlərarası yanaşma prizmasında baxırlar. Bunu bütövlükdə müasir fəlsəfi idrakın yeniləşməsi, o cümlədən elmlərarası əlaqələrin struktur-funksional olaraq yeni məzmin kəsb etməsi ilə əsaslandırırlar. Məsələn, Azərbycan filosofu professor İlham Məmmədzadə yazır ki, ictimai elmlərdə elmin fənlərə bölünməsi idraki (koqnitiv) aspektdə kreativliyini (nəzəri yaradıcılıq+praktiki tətbiqin sintezi) tükətməkdədir. Müasir mərhələdə adekvat elmi araşdırma prinsipcə fənlərarası, inteqrativ xarakter daşıyır [8, s. 15]. Deməli, elm-təhsil inteqrasiyası ümumi halda fəlsəfi-elmi idrakın müasir özəllikləri prizmasında dərk edilməlidir.

Bu istiqamətdə tədqiqatlar son illər çoxalır. Nümunə kimi, S.Hoffmann, S., J.L.Deutsch, J.T.Klein, M.O'Rourke, S. Parjanen, M.Hyypiä, A.C.Edmondson, J.Harvey, S.Kyunghee, H.Yaeji və çoxlu syda başqa filsofları göstərə bilərik. Filosoflar elm-təhsil münasibətlərinə tədrisin uğurlu olması aspektində həm fənlərarası elmi tədqiqin təşkili, həm də elmi yaradıcılığın kollektiv fəaliyyət zamanı aldığı yeni məzmunu prizmasında meydana gələn problemlər kontekstində

baxırlar. Burada əhəmiyyətli olan fəlsəfi məqamlardan biri elmlə təhsilin qarşılıqlı münasibətlərində konkret sosial-mədəni mühitin oynadığı ciddi roldan ibarətdir. Məsələn, koreyalı filosoflar S.Kyunghee, H.Yaeji Koreyada yaradıcı təhsilin perspektivinə Koreya sosial-mədəni təcrübəsi kontekstində baxırlar. Ümumi halda isə problemi Asiya fəlsəfi məktəbi çərçivəsində tədqiq edirlər. Onlar müəyyən etmişlər ki, koreyalı müəllimlərin təhsilin yaradıcılığı və pozitiv nəticəliliyi, onun elmlə inteqrasiyası potensialı ilə bağlı baxışları Qərb ölkələri müəllimlərinin mövqeyindən fərqlənir. Bunun səbəbi isə, tədqiqata görə, məhz fərqli sosial-mədəni mühitin mövcud olmasıdır. Burada təcrübə ilə müasirliyin vəhdəti özəl anlam kəsb edir. O cümlədən, Koreya müəllimləri təhsildə yaradıcılığı özlərinə xas məzmunda konseptuallaşdırırlar [7, s. 2-8].

Bu tədqiqatda gəlinən qənaət Heydər Əliyevin elm və təhsilə yanaşmasının müasir mərhələ üçün çox doğru olduğunu təsdiq edir. Çünki Heydər Əliyev Azərbaycanda elm və təhsilin inkişafına sosial-mədəni özəllikləri nəzər almaqla vəhdətdə baxmışdır. Eyni zamanda, bu inkişafı dövlətçilik kontekstində, xalqın ümumi şüur səviyyəsinin yüksəlməsi aspektində görmüşdür. Buna görədir ki, Heydər Əliyev Azərbaycanda elmi fəaliyyətin və təhsilin təşkili ilə bağlı çoxlu sayda sərəncamlar vermişdir. Həmin bağlılıqda müasir elmi tədqiqatların təhsillə qarşılıqlı əlaqəsi çərçivəsində əhəmiyyətli olan bir başqa məqam aktual görünür.

A.C.Edmondson və J.Harvey birgə araşdırma nəticəsində belə ümumi qənaətə gəlmişlər: innovasiyalılığın perspektivli strategiyasında fənlərarası yanaşma getdikcə daha çox dominantlıq təçkil etməyə başlayır [2, s. 346-350]. Bu yanaşmanın fonunda S.Hoffmann, J.Deutsch, J.T.Klein və M.O'Rourke məsələni konkret elm-təhsil vəhdəti kontekstində araşdırmışlar. Onlar fənlərarası yanaşmanın praktiki səmərəli olması üçün təhsil proqramlarında yeniliklər etməyi və müxtəlif fənlərin qarşılıqlı əlaqəsini əks etdirən pedaqoji kriteriyaların tətbiq edilməsini təklif etmişlər. Bu o deməkdir ki, A.C.Edmondson və J.Harveyin vurğuladığı innovasiyalılığın konkret tədris proqramlaı vasitəsi ilə tələbələrə əxz edilməsi məsələsini aktuallaşdırırlar. Bu yanaşmanın digər tərəfi həmin proqramlar ifadə edilən mövqenin sosial-mədəni mühitə tətbiqi imkanları ilə bağlıdır. Deməli, müasir fəlsəfi-elmi düşüncədə elmlə təhsilin qarşılıqlı əlaqəsində əsas olaraq onların konkret proqramlar təməlində inteqrasiyası mövqeyi üstünlük təşkil etməkdədir.

Bunlarla yanaşı, elm-təhsil vəhdəti kontekstində fənlərarası yanaşmanın tətbiqi zamanı bir sıra çətinliklər meydana çıxır. Həmin sırada filosoflar pedaqoji faktorlarla yanaşı, psixoloji, linqvistik və metodoloji aspektləri də vurğulayırlar. Tədqiqat aparılan ali təhsil ocaqlarında tələbələrlə pedaqoqların psixoloji uyğunsuzluğu özünü gəstərmişdir. Müxtəlif elm sahələrini təmsil edənlərin ortaq elmi dildə müzakirə aparması da müəyyən problemləri ortaya çıxarmışdır. Metodoloji aspektdə isə ayrı-ayrı fənlərin nümayəndələri öz metodlarına üstünlük verilməsi tələbini irəli sürmüşlər [9, s. 1-14].

Bütün bunlardan belə nəticə çıxarılır ki, real aspektdə fənlərarası yanaşma çərçivəsində elm-təhsil inteqrasiyasının baş verməsi üçün üç özəlliyi nəzərə almaq gərəkdir.

Birincisi, problemin araşdırıldığı ölkənin sosial-mədəni xüsusiyyətləri.

İkincisi, fənlərarası yanaşma çərçivəsində hər araşdırma üçün konkret idraki strategiyanın düzgün müəyyənləşdirilməsi.

Üçüncüsü, elm-təhsil əlaqələrinin inkişafına xidmət edən xüsusi tədris proqramlarının hazırlanması.

Bu üç şərtin kompleks halında həyata keçməsinin özü mürəkkəb prosesdir. Aydındır ki, istənilən ölkədə onu kütləvi olaraq təhsilə tətbiq etmək imkanı yoxdur. Deməli, proses seçimlə aparılmalıdır. Pilot məktəblərdə tələbələr arasında aparılan araşdırmaların nəticələri ümumiləşdirilməlidir. Ancaq yenə də bir region üçün faydalı olan nəticə başqa regionda gözlənilən nəticəni verməyə bilər. Bu da o deməkdir ki, müasir elmi yanaşma üçün xarakterik olan qeyri-xəttilik prinsipi ciddi olaraq gözlənilməlidir.

Bu üç şərtin qarşılıqlı əlaqəsi üçün aktual olan digər fəlsəfi məqam, ümumiyyətlə, "yaradıcılıq" anlayışının nəzəri dərki ilə bağlıdır. Filosoflar məsələni biz baxdığımız kontekstdə belə qoyurlar: hansı metodoloji sistem çərçivəsində tələbələrin yaradıcılıq potensialını optimal inkişaf etdirmək mümkündür?

Öncə onu vurğulayaq ki, müasir mərhələdə filosoflar belə qənaətdədirlər ki, kollektiv yaradıcılığı ancaq interdisiplinarlıq kontekstində inkişaf etdirmək mümkündür [10, s. 27-32]. Görünür ki, buna görədir ki, 2020-ci ilə qədər olan tədqiqatlarda fənlərarası yanaşmanın yaradıcılıqla bağlı istiqaməti üzrə araşdırmaların sayı iki dəfə artmışdır. Başqa məqam ondan ibarətdir ki, həmin tədqiqatlara görə, innovasiyalılıq üçün fənlərarası əməkdaşlığın rolu vacib əhəmiyyət kəsb edir. Buna görə də interdisiplinarlığı ümumilikdə yeni pedaqoji strategiya kimi tətbiq etmək gərəkdir. Bu prosesdə qarşıya çıxan problemləri dərketmədə "fənlərarası komandalarda kollektiv mexanizmlərin aktiv idarəedilməsi sayəsində" aradan qaldırmaq olar [9, s. 1-3].

Bununla müasir fənlərarası yanaşma prizmasında təhsil müəssisələrində tələbələrin kollketiv yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün vacib olan metodoloji şərtlər prosesin kollektiv idarəedilməsi mexanizmlərinin səmərəli tətbiqi ilə bağlıdır. Bu qənaət bir sıra tədqiqatlarda, məsələn K.van Broukhoyen və həmkarlarının interdisiplinar və ayrı-ayrı fənni yanaşmalar çərçivəsində apardıqları araşdırmada öz təsdiqini tapmışdır [11, s. 2-12].

Yuxarıdakı təhlildən belə nəticə çıxır ki, indiki mərhələdə elm-təhsil inteqrasiyası böyük dərəcədə elmi fəaliyyətin təhsil kontekstində təşkili mexanizmi ilə bağlıdır. Bu da problemin nəzəri ilə praktiki-tətbiqi aspektin sıx qarşılıqlı əlaqəsi sayəsində həll edilə biləcəyini göstərir.

Nəticə

Heydər Əliyev elmlə təhsilin Azərbaycanda qarşılıqlı əlaqəsinə bir qayda olaraq üç aspektin sintezində baxmışdır.

Birinci aspekt tarixi təcrübənin mütləq nəzərə alınmasıdır.

İkinci aspekt Azərbaycan cəmiyyətinin təməldən elm və təhsil üzərində bərqərar olmasıdır.

Üçüncü aspekt isə müasir mərhələdə Azərbaycanda elmlə təhsilin qarşılıqlı əlaqəsinə müasir elmi yanaşmalar prizmasında yanaşmaq zərurətidir.

Bu aspektlər kompleks halında Ulu Öndərin mövqeyinə görə, Azərbaycan cəmiyyətini əhəmiyyətli dərəcədə funksionallaşdırmalıdır. Onlardan biri fərdi səviyyədə savadlılığın yeni səviyyəyə yüksəlməsi, digəri cəmiyyətin müasir tələblərə uyğun ziyalılaşması, üçüncüsü isə hər iki faktorun müstəqil dövlətçiliyə xidmət etməsidir.

Bu məqalədə nümunə kimi gətirilən müasir fənlərarası tədqiqatlar Heydər Əliyevin elmlə təhsilin münasibətləri ilə bağlı müəyyən etdiyi şərtlərin müasir tələblərə tam cavab verdiyini təsdiq edir.

İstifadə edilmiş ədəbiyyat

1. Aliyev, İ. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı // - Bakı: Xalq qəzeti.- 2009, 12 dekabr.- s. 6.

2. Edmondson, A. C., & Harvey, J. Cross-boundary teaming for innovation: Integrating research on teams and knowledge in organizations // Human Resource Management Review. – 2018, № 28(4), – pp. 347–360.

3. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. İkinci kitab: may, 1994 – dekabr, 1994 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, - 1997. – 604 s.

4. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: cıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar.

Otuz birinci kitab: noyabr, 2000 - yanvar, 2001 / H.Əliyev; bur. məsul R.Ə.Mehdiyev. - Bakı: Azərnəşr, - 2010, - 512 s.

5. Əliyeva-Kəngərli, A. Heydər Əliyev və Azərbaycan elmi. Biblioqrafik göstərici. – Bakı, "Şərq-Qərb", – 2010, – 424 s.

6. Heydər Əliyevin tarixə düşən kəlamları: [Elektron resurs] // Oxubil.info, 21.11.2022. URL: https://oxubil.info/aforizmler/heyder-eliyevin-tarixe-dusen-kelamlari/. Müraciət tarixi 07.04.2023.

7. Kyunghee So, Yaeji Hu. Understanding creativity in an Asian school context: Korean teachers' perspectives //Thinking Skills and Creativity. Volume 33, September – 2019, – pp. 1-9.

8. Мамедзаде, И., Дадашова, С. Философия сознания и ИИ:некторые проблемы их взаимодействия // Проблемы восточной философии. – Bakı: "Elm və təhsil". – 2023, №29, – с.8-18.

9. Moirano, R., Sánchez, M.A., Štěpánek, L. Creative Interdisciplinary Collaboration: A Systematic Literature Review: [Electronic resource] // Thinking Skills and Creativity. – 2020, vol. 35, – pp.1-14. URL: http:// repositoriodigital.uns.edu.ar/handle/123456789/5082. Müraciət tarixi 06.04.2024.

10. Parjanen, S., & Hyypiä, M. Innotin game supporting collective creativity in innovation activities // Journal of Business Research. – 2019, № 96, – pp.26–34.

11. Van Broekhoven, K., Cropley, D. Philipp, C.S. Differences in creativity across Art and STEM students: We are more alike than unalike // Thinking Skills and Creativity, Volume 38, December – 2020, – pp.1-13.

AQRAR SAHƏNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Səmayə Oqtay qızı Babayeva
dissertant
Azərbaycan Dövlət Aqrar Universiteti
nihat-020@mail.ru

Müasir Azərbaycan tarixinin 45 ildən artıq bir dövrü Ulu öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Azərbaycan xalqının əldə etdiyi bütün nailiyyətlərdə,respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında Heydər Əliyev imzası var.

Azərbaycan xalqının müasir tarixinin yaradıcısı, müstəqil dövlətimizin qurucusu Ulu ödər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən bir çox islahat, inkişaf xarakterli dövlət proqramlarının nəticəsidir ki, bu gün ölkəmiz iqtisadiyyatın bütün sahələrində uğurlar qazanmış, dövlətimizin sosial-iqtisadi, elmi–texniki vəziyyəti yaxşılaşmış, təhsilin dünya standartlarına uyğun təşkili və idarə edilməsi həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyevin ölkəmizin sosial iqtisadi inkişafına yönəltdiyi bir sıra tədbirlər onun uzaqgörən iqtisadi strategiyasının nəticəsidir ki, bu gün xalqımız müstəqil, suveren, dünya arenasında tanınan bir dövlətdə yaşayır. Belə ki, ölkəmizdə 1991-1994-cü illərin makroiqtisadi göstəricilərinə nəzər salsaq, görərik ki, ölkə iqtisadiyyatında ÜDM hər il orta hesabla 16,5 % azalması müşahidə olunmuş, sənaye sahəsində tənəzzül meyli xüsusilə kəskin xarakter almış, 80-ci illərə nisbətən sənaye istehsalının həcmi 1991-ci ildə 10 %, 1992-ci ildə 37 %, 1993-cü ildə isə 50 %-ə qədər azalmışdı.1992-ci ildə ölkədə inflyasiya səviyyəsi əvvəlki ilə nisbətən 4,9 dəfə artaraq 1012,3 %, 1994-cü ildə isə özünün ən yüksək həddinə, hiperinflyasiya mərhələsinə – 1763,5 %-ə çatmışdı. Büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 1991-ci ildəki 0,1 %-dən 1994-cü ildə 13 %-ə qədər artmışdı. 1992-1994-cü illərdə xarici ticarət dövriyyəsinin həcmi 42 % azalmış, 1994-cü ilədək ölkə iqtisadiyyatına bir manat da olsun belə xarici sərmayə qoyulmamışdı. 1994-cü ildə Milli Bankın uçot dərəcəsi 250%-ə çatmışdı. Yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtması ilə ölkədə siyasi sabitlik bərqərar olmuş,ölkənin maliyyə vəziyyəti sabitləşmiş, ildən-ilə investisiyaların həcmi artmış,xalqın həyat səviyyəsi yaxşılaşmağa başlamışdı. Ulu öndərin hakimiyyətə gəlişi ilə qısa müddətdə 1997-2003 cü illərdə ÜDM - 74,8 %; sənaye məhsulu 30,8 %; kənd təsərrüfatı məhsulu 58,0 % , adambaşına düşən ÜDM-in həcmi 2003-cü ildə 1995-ci ilə nisbətən 4,9 dəfədən çox artaraq, 879,7 dollara ,xarici ticarət dövriyyəsi isə 4 dəfə artaraq 5,28 milyard dollara çatmışdır. [3]

Ulu Öndər hələ müstəqilliyin ilk illərində ölkəmizin investisiya imkanlarının məhdud olduğunu nəzərə alaraq,həmin dövrlərdə xüsusi olaraq qeyd edirdi ki, Azərbaycan iqtisadiyyatının elə sahələrinin inkişafını təmin etmək lazımdır ki, bu sahələr ölkəmizin müstəqilliyini qorumağa,

əhalinin ehtiyaclarını mümkün qədər ödəməyə imkan versin,bu sahələrdən əldə edilən gəlirlər ilə ölkənin sosial iqtisadi inkişafını təmin etmək mümkün olsun.[4]

Beləliklə, Ulu öndər Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə 1994-cü sentyabrın 20-də ölkəmizin dünyanın bir çox aparıcı şirkətləri ilə Azərbayacan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı. Dünyanın ən nüfuzlu neft şirkətləri ilə neft sazişinin imzalanması iqtisadiyyatın digər sahələrinin,o cümlədən də kənd təsərrüfatının inkişafının əsası oldu. Ümummilli Lider çox yaxşı bilirdi ki, neft-qaz sənayesinin inkişafı ölkəmizdə iqtisadiyyatın digər sahələrinin inkişafı üçün möhkəm təməl yaradacaq. Ulu Öndərin fəaliyyət planının əsas hədəflərindən biri kənd təsərrüfatını həmin illər düşdüyü ağır vəziyyətdən çıxarmaq dünyanın inkişaf etmiş kənd təsərrüfatına malik ölkələrindən birinə çevirmək idi. Böyük fransız yazıçısı, filosofu, bəstəkarı və botaniki JanJak Russo (1712-1778) demişdir: "Yalnız kənd təsərrüfatı ölkələrin azadlığını təmin edə bilər. Ticarət var-dövlət yaradırsa, kənd təsərrüfatı ölkələrə azadlıq verir". Bu, həqiqətən də belədir. Çünki əhalisini öz yerli istehsalı olan ərzaqla təmin etməyən ölkə başqasından asılı olur, onun siyasi tələblərini qəbul etməyə məcbur olduğundan öz müstəqilliyini itirir və əhali həmişə ərzaq təhlükəsi ilə üzləşir. Məhz Ulu Öndər də kənd təsərrüfatının ərzaq təhlükəsizliyinin əsas təminatçısı olduğunu çox yaxşı bilirdi və bu sahənin inkişafı üçün saysız-hesabsız xidmətləri olmuşdur. [1]

1995-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə ölkə iqtisadiyyatının bazar münasibətləri Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş,aqrar sahədə bir çox islahatlar həyata keçirilmişdir.1996-cı ildən artıq bütün sovxoz və kolxozlar ləğv olunaraq onların bütün torpaqları kənd əhalisi və təsərrüfat üzvləri arasında bölünmüşdü. Əvvəllər yalnız dövlətə məxsus olan torpaqlar islahatdan sonra dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid edildi. Beləliklə, sahibkarlıqla məşğul olmaq üçün fiziki və hüquqi şəxs qismində kənd təsərrüfatı məhsulları istehsalçıları böyük imkanlar əldə etdilər.Daha sonrakı illərdə "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Meliorasiya və irriqasiya haqqında", "Torpaqların münbitliyi haqqında", "Taxıl haqqında", "Seleksiya nailiyyətləri haqqında", "Baytarlıq təbabəti haqqında", "Bitki karantini haqqında", "Toxumçuluq haqqında" və bir sıra digər qanunlar və normativ hüquqi sənədlər qəbul edilmişdir.

Aqrar sahənin dövlətin diqqət və dəstəyi olmadan inkişaf etdirməyin çətin olduğunu bilən Ulu Öndər bu sahənin dövlət dəstəyinə daha çox ehtiyacı olduğunu bildirmiş və müəyyən tədbirlər görmüşdür. Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçıları əkin aparmaq üçün bir neçə il müəyyən miqdar pulsuz yanacaqla təmin edilmiş, 2001-ci ildən isə fermerlər torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad edilmişlər. [5]

Artıq Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar və digər tədbirlər tezliklə öz nəticəsini göstərməyə başladı və aqrar sektorda müsbət cəhətdən ciddi dəyişikliyə səbəb oldu. Aqrar sahədə 1991-ci ildən davam edən tənəzzülə son qoyuldu və 1996-cı ildən başlayaraq, bu sahədə ilbəil artım müşahidə olunmuş, heyvandarlıq və bitkiçilik sahəsində rekord nəticələr əldə etmişdir. Bu gün ölkəmiz öz əhalisini bir çox ərzaq məhsulları ilə , o cümlədən ət, kartof, tərəvəz, meyvə və digər məhsullar ilə yerli istehsal hesabına tələbatını tam ödəyir və digər məhsullar üzrə isə xarici ölkələrdən asılılıq səviyyəsi isə minimuma enmişdir. Bütün bu kimi nailiyyətlər ümummilli lider Heydər Əliyevin uzaqgörən aqrar siyasətinin uğurla həyata keçirilməsi və bu gün onun Prezident İlham Əliyev tərəfindən böyük əzmkarlıqla davam etdirilməsi sayəsində mümkün olmuşdur.

Əsası Ulu Öndər tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən aqrar siyasət sözün əsl mənasında ölkəmizin kənd təsərrüfatın sahəsində dönüş yaratmış və ölkəmizin inkişaf səlnaməsinə tarixi töhfə vermişdir. Belə ki, bu gün respublikamızda aqrar sahədə yüksək nəticələr əldə edilməsində və kənd təsərrüfatında hər il dinamik artıma nail olunmasında kənd təsərrüfatı texnikasının lizinqə verilməsi, damazlıq mal-qaranın 60 faiz güzəştlə satılması mühüm rol oynayır. Əkin sahələrinin və çoxillik əkinlərin becərilməsinin stimullaş-dırılması davam etməklə yanaşı, emal müəssisələrinə təhvil verilən pambıq, tütün, şəkər çuğunduru və barama məhsuluna görə də dövlət büdcəsindən əlavə vəsait ödənilir. Bundan başqa, ting və toxum istehsalçıları, süni mayalanma yolu ilə doğulan buzovların sahibləri və arı ailəsi saxlayan arıçılar da dövlət büdcəsi vəsaiti hesabına stimullaşdırılır.

Eyni zamanda aqrar sahədə çalışan fiziki və hüquqi şəxslərə hər il güzəştli şərtlərlə mineral gübrələr, kreditlər verilir, habelə kənd təsərrüfatı bitkilərinin və heyvanlarının sığorta haqqının bir hissəsi dövlət büdcəsi hesabına ödənilir.

Məlumdur ki, bütün bunlara baxmayaraq müasir şəraitdə aqrar bölmənin emal sənayesini inkişaf etdirmədən kənd təsərrüfatının artımına nail olmaq qeyri mümkündür. Son illər bu istiqamətdə Prezident İlham Əliyev rəhbərliyi ilə əsaslı işlər görülmüş, respublikamızın bir çox rayonlarında kənd təsərrüfatının inkişafını təmin edən yeni bitkiçilik və heyvandarlıq məhsulları emalı obyektləri, soyuducu və taxıl anbarı kompleksləri və digər emal müəssisələri tikilib istifadəyə verilmiş, onlar müasir texnologiya ilə təchiz olunmuşlar. İlham Əliyevin imzaladığı regionların inkişafına, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə, yoxsulluğun azaldılmasına və digər məsələlərə dair Dövlət Proqramlarının icrasının nəticəsidir ki, ölkəmizin bütün bölgələrinin siması kökündən yaxşılaşmış, yaşayış məntəqələrinin infrastruktur və kommunal xidmətlərlə təminatı səviyyəsi yüksəlmişdir. Prezidenti İlham Əliyev aqrar siyasətin mühüm istiqamətlərindən biri də ölkəmizdə kənd təsərrüfatının inkişafında iri təsərrüfatların və aqroparkların yaradılmasına xüsusi önəm verilməsidir.

2023-cü ildə ölkə statistikasına nəzər salsaq görərik ki,ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 123,0 milyard manatlıq və ya 2022-ci illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir ki, bunun 5,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində istehsal edilmişdir. 2023-cü il üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 12210,6 milyon manat təşkil etmişdir ki, onun da 6276,7 milyon manatı heyvandarlıq, 5933,9 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.2022-ci illə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 3,0 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 3,2 faiz, bitkiçilik məhsulları istehsalı 2,7 faiz artmışdır. [6]

Aqrar sahədə həyata keçirilən islahatlara və əldə olunan uğurlara baxmayaraq, hələlik bu sahənin davamlı və dinamik inkişafına nail olunması üçün daha intensiv inkişaf yoluna, elmi-texniki tərəqqinin nailiyyətlərindən, innovasiyalardan istifadə etməklə yeni idarəetmə metodlarına keçmək vacibdir. Bundan başqa, ölkəmizdə aqrar sahənin inkişafı baxımından işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatı sahələrinin bərpa edilməsi mühüm əhəmiyyət daşıyır. [2]

Qarabağın ənənəvi kənd təsərrüfatı potensialı olduğunu nəzərə alaraq,artıq ölkə rəhbərliyi tərəfindən bu torpaqların dirçəlməsi və inkişafı üçün real addımlar atılır.Yaxın gələcəkdə tarixi Azərbaycan diyarı olan və Azərbaycanın aqrar sektorunda mühüm paya malik olan Qarabağın ölkəmizin kənd təsərrüfatı sahəsindəki uğurlarının tanıdılmasında və aqrar məhsulların ixrac potensialının artırılmasında öz töhvəsini verəcəyi gözlənilir.

İstifadə edilmiş ədəbıyyat

1.Aqrar sahədə struktur və səmərəlilik problemləri B.X.Ataşov. Bakı , 2017, s. 13

2.Aqrar iqtisadiyyat. R.R.Mustafayeva, A.N.Hətəmov, M.H.Həsənova, F. V. Süleymanov Bakı, 2022, s. 7

3.https://republic.preslib.az/az_c1.html

4.https://www.yeniazerbaycan.com/xeberlenti_e82159_az.html

5.https://files.preslib.az/projects/heydaraliyev/articles /he1030.pdf. Azərbaycan. - 2023.- 10 may. - № 96. - S. 9.

6.https://www.stat.gov.az/news/source/doklad_2024-01.pdf

AZƏRBAYCANDA EKO-TURİZMİN İNKİŞAFI PERSPEKTİVLƏRİ: YAŞIL DÜNYA ÇƏRÇİVƏSİNDƏ

[1]Aysel Möhrəddin qızı Qocayeva, [2]Günel Möhrəddin qızı Hökməliyeva
[1]Mingəçevir Dövlət Universiteti
Bakı Dövlət Universitetinin dissertantı
aysel.qocayeva@mdu.edu.az
[2]Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti
gunel7263@mail.ru

Müasir iqtisadi şəraitdə dünya ölkələrində turizm, xüsusilə ekoloji turizm yüksək sürətlə inkişaf etməkdədir. BMT-nin Ümumdünya Turizm Təşkilatının Məlumatına əsasən, ekoturizmin payına bütün dünya üzrə olunmuş səyahətlərin yalnız 7 faizi düşürdü. Lakin sözügedən təşkilatın hesablamalarına əsasən müəyyən olunmuşdur ki, ekoloji turizm üzrə səyahətlərin həcminin hər 4 faiz artması ümumilikdə səyahət olunan ərazilərin gəlirlərinin 10-30 faiz həcmində artması ilə nəticələnir. Bu isə ekoloji turizmin ölkə iqtisadiyyatında kifayət qədər rentabelli olduğunu bir daha sübuta yetirmiş olur.

Ekoloji turizm turizm sənayesinin davamlı olaraq inkişaf edən perspektivli sahələrindəndir. Bu turizm növü turistin ətraf aləmlə münasibət yaratmaq tələbatını formalaşdırır, canlı aləmə, mədəniyyətə, estetikaya neqativ əməllərin qarşısında durur və turizmin imkanlarını canlı aləmin xeyrinə, həmçinin sosial-iqtisadi tərəqqisinə istiqamətləndirir. Ekoturizmin yüksəlişi həm turistlərin, həm də yerli insanların ekoloji, təhsil, mədəni və iqtisadi göstəricilərinin yüksəlməsinə köməklik göstərir.

Ölkəmiz təbii ekoloji turizm sahəsində gerçək potensial imkanlara malikdir. Maraqlı və potensial ekoturizm ehtiyatları ilə zəngin ölkə olaraq, onun ərazisinin yarıdan çoxunu qum landşaftları (yarımsəhralar və dağlıq çöllər həmçinin dağətəyi) əhatə edir. Coğrafi və təbii şəraitin rəngarəngliyi, unikallığı və zənginliyi burada fauna, floranın növ müxtəlifliyinin rəngarəngliyinə şərait yaratmışdır. Yer üzündə mövcud olan on bir iqlim tipinin doqquzunun Azərbaycanda təsadüf etməsi ekoturizmin ölkəmizdəki mövcud potensialı kimi göstərmək olar. Ölkəmiz zəngin biomüxtəlifliyin formalaşmasında hər zaman mühüm rol oynayır.

Ekoloji turizmin inkişafına şərait yaradan əsas amil ölkənin təbii tarixi görünüşə və ehtiyatlara sahib olmasıdır. Bu baxımdan Respublikamız kifayət qədər üstünlüyə malikdir. Belə ki, ilk qədim insanın alt çənə sümüyünün Azıx mağarasında tapılmasından kifayət qədər istifadə edərək əhali qruplarının Azərbaycana gəlməyinə şərait yaratmaq olar. Qədim insan məskənlərinin Respublikamızın ərazisində çoxluğu, bir çox mağaraların mövcudluğu təbii tarixi ekoloji turizmin ölkəmizdə formalaşmasına kömək edə bilər. Başqa bir nüans isə Qobustan qaya daşlarının olmasıdır. Qaya daşları üzərindəki şəkillər xaricilərin ölkə ərazimizə ekoloji turist olaraq gəlməyinə şərait yarada biləcək əsas amillərdən biridir. Bu səbəbdən də deyə bilərik ki, ölkəmizdə ekoloji turizmin müxtəlif növlərinin inkişafı üçün əlverişli infrastruktur mövcuddur. Həmçinin ölkəmizdə kifayət qədər qoruqların, yasaqlıqların mövcudluğu da ekoloji turizmin inkişafına şərait yaradır. Əsas məqsəd bu sahələrə düzgün investisiya siyasəti yeritmək və bunun nəticəsində ekoloji turizmin inkişafının təmin olunmasına nail olmaqdır.

Müasir dünyada turizmin sürətlə inkişaf etməsi, turizm sənayesinin geniş infrastruktur şəbəkəsi, insanların istirahəti üçün böyük imkanlar yaratmaqla yanaşı, bir sıra problemlər də yaradıb. Bu problemlərdən biri də ekologiya və ətraf mühitin mühafizəsi məsələsidir. Gözəl təbiət, cəlbedici landşaft, təmiz hava, göl və çaylar, çimərliklər, meşə sahələri-bütün bunlar turizmin inkişafı üçün başlıca sərvətdir. Lakin turizm sənayesi genişləndikcə bu təbii sərvətlərin istismar olunması və ətraf mühitin çirklənmə təhlükəsi də artır. Odur ki, turizmin ekologiyaya olan zərərli təsirini tamamilə aradan qaldırmaq müasir turizm sektorunun qarşısında duran mühüm vəzifələrdəndir. Bu baxımdan ekoturizmin inkişaf və təşviq etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi ölkə başçısının müvafiq sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir.

Ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə böyük hörmət və etimadın bariz nümunəsidir.

İşğaldan azad edilmiş ərazilərdə olan xüsusi mühafizə olunan ərazilərin fəaliyyətlərinin bərpasına başlanılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 oktyabr tarixli Sərəncamı ilə Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyəti bərpa edilmiş, Sərəncamın icrası ilə bağlı Qoruğun Əsasnaməsi hazırlanmış, sanitariya-mühafizə zonası müəyyənləşdirilmiş, aidiyyəti qurumlar ilə razılaşdırılmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 29 noyabr tarixli 424 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə yerləşən digər xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətlərinin bərpası ilə bağlı işlərə başlanılmışdır. Digər xüsusi mühafizə olunan ərazilər ilə bağlı işlərin də mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulub.

Bioloji müxtəlifliyin bərpası, tarixən arealları həmin ərazilər olmuş fauna və flora növlərinin qaytarılması ilə bağlı layihələr də var. Artıq Şərqi Zəngəzur və Qarabağ ərazisinə 33 baş ceyran, 5 baş şahin quşu və 4 baş Şərqi Qafqaz turu buraxılıb. Həmçinin 2023-cü il ərzində Laçın rayonunun ərazisindən axan Həkəriçayına 33 515, eləcə də Suqovuşan və Xaçınçay su anbarlarına 250 000 fərd qızılxallı forel və çəki cinsli balıq körpələri buraxılmışdır.

Turizmin inkişafı üçün Azərbaycanda zəruri şərtlər mövcuddur. Ölkədə turizmin inkişafı üçün müsbət amillər arasında əlverişli coğrafi mövqe, mülayim bir iqlim, inkişaf etmiş infrastrukturun rekreasiya, təbii, misilsiz tarixi, mədəni, memarlıq obyektlərinin olması, kadrların mövcudluğu, dövlət tərəfindən lazımi dəstək vardır.

Dövlətimiz əhalinin, xüsusilə uşaqların və gənclərin mədəni istirahəti üçün lazımi şəraitin yaradılmasına böyük diqqət yetirir. Həm bölgələrdə, həm də paytaxtda istirahət üçün hər cür şəraitin olduğu ictimai yerlər və parklar yaradılır, ölkənin zəngin mədəni irsinin qorunub saxlanılmasına və inkişafına xidmət edən mədəniyyət mərkəzləri tikilir, yaradıcılığın üzə çıxarılmasına töhfə verən müxtəlif dərnəklər fəaliyyət göstərir.

2003-cü ildən başlayaraq, ənənəvi olaraq hər il Ümummilli lider Heydər Əliyevin anadan olması münasibəti ilə yaşıllaşdırma aksiyası keçirilir. Bu aksiyada gənclərlə bərabər, millət vəkilləri, ziyalılar aktiv iştirak edirlər. Minlərlə ağac, gül tingləri əkilir. Bildiyiniz kimi, hələ qədimdən ağac əkmək ən müqəddəs iş hesab olunub. Hava, su, torpaq, od ünsürlərinə ulu əcdadlarımız böyük ehtiramla yanaşıblar. Bu gün də təbiətə məhəbbətimiz qədim mədəni-tarixi köklərə bağlıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Q.Ş.Məmmədov. Azərbaycan: ekoturizm potensialı: I cild. Bakı-2012
2. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 2000
3. www.eco.gov.az

HEYDƏR ƏLİYEV – TARİXİ ZƏFƏRƏ APARAN SİYASƏTİN BANİSİDİR

Könül Zaur qızı Şxəliyeva
doktorant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
konul.eliyeva.17@mail.ru

Vətən sadəcə torpaq ilə sərhədlənmiş ərazi deyil. Vətən bizi qoynunda böyüdən, bir ana kimi bizi qoruyan yuvadır. Ana qədər bizə doğma olan, əllərini uzadaraq bizləri özünə çəkən, beşiyində

laylay deyən cansız varlıqdır. Cansız olsa belə, onun da qəlbi qırılır. Onu tərk edən, onu təhqir edən xainlər üzündən qəlbinə yüzlərlə iynə batır. Bu zaman isə vətənin qoynuna sığınan, onun üçün canından keçən şəhidlər vətəni sahiblənir. Öz vətənini qoruyan, sevən, qanının son damlasına qədər vuruşan şəxsiyyətlər doğma yurdlarını ağuşuna alırlar.

İnsana doğulduğu gün bəxş edilmiş "Vətən" adlı qənimət özündə ən qədim tarixi, milli-mənəvi dəyərləri cəmləşdirən birlikdən təşkil olunmuşdur. Özəyini cəmiyyətin əhatə etdiyi bu birlik hər daim böyüməkdə və inkişaf etməkdədir. Lakin vətən asan yaranmır. Bu yaranış minlərlə ölümə, vəhşətə, ağrılı-acılı günlərə şahid olur. Qaysaq atmış yarası dəfələrlə soyulub həmin ağrıları yenidən xatırladır. Ancaq bu mübarizələr əbəs yerə deyil. Bu sayədə bir vətən, bir dövlət, bir cəmiyyət meydana gəlir.

Azadlıq elmi mənada müxtəlif hallar arasında heç bir təzyiq olmadan fərdi seçim imkanı deməkdir. Amma eyni zamanda insanların ehtiyac duyduğu əsas duyğulardan biridir. Lakin tarixə nəzər saldıqda bunun bir o qədər də qəliz olduğunu görürük. Öz doğma vətənlərindən qəddarcasına təcrid olunan və işgəncələrə məruz qalan insanların qəlbində azadlıq arzusu hər zaman dirçəlməyə çalışmışdır. Çox təəssüf ki, onların haraylarına səs verən, onlara dəstək olanlar say etibarı ilə azdır və dünya ölkələri bu vəziyyətə biganə yanaşmaqda davam edirlər.

Azərbaycan tarixində bir sıra məhrumiyyətlərə qaldığımız anlar olmuşdur. SSRİ zülmünü yaşadığımız dövrlər bunun ən bariz nümunələrindən biridir. Azadlıq duyğusundan məhrum olmuş xalqın gözü biçarə vəziyyətdə kömək axtarışında idi. Boyunduruq altında qalmaqdan bezmiş, azadlığın qoxusuna məhrum qalmış xalqın səsinə cavab verən tapılmırdı. Lakin hər çətin günün bir qurtuluşu var. Azərbaycan xalqının qurtuluşu isə bir şəxsiyyətin əllərində idi. O insan ki, illər sonra doğulub boya-başa çatdığı vətəninin Ümummilli Lideri olaraq yaddaşlarda qalacaqdı. Bizim Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev.

Bir anlıq düşünün. Azərbaycanın çətin dövrləridir. Xalq soyqırımlarının hələ öz təzəliyini qoruyan bir vaxtdır. Belə çətin bir vaxtda kim nə edəcəyini bilməz vəziyyətdə kömək diləyir. Bu köməyə tezliklə yardım əli uzanır. 1993-cü il, iyunun 15-də Heydər Əliyev Milli Məclisin sədri seçilir. Bu vətənimiz üçün tək ümid mənbəyi idi. 1997-ci ildən etibarən isə həmin bu tarix Milli Qurtuluş günü kimi qeyd edilir. 1993-cü ildə Milli Məclis prezidentin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə edir. Oktyabr ayının üçündə isə Əliyev mütləq səs çoxluğu ilə birinci müddətə prezident seçilir və tarixin yeni səhifələrinə qızıl qələm ilə Azərbaycançılıq ideyaları yazılmağa başlayır.

Heydər Əliyev prezident olduğu müddətcə Azərbaycanın dirçəlişi üçün onlarla islahatlar həyata keçirir. Qəbul etdiyi qərarlar gələcəyə öz parlaq işıqlarını bəxş edəcəkdi.

1994-cü il 20 sentyabr tarixində, Bakıda "Əsrin müqaviləsi" bağlanır. 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə tariximizə bir ev misalı öz yeni daşlarını hörür. 1994-cü il may ayında Dağlıq Qarabağ münaqişəsinin həllində atəşkəs elan edilməsinə nail olunur. 1995-ci ildə isə müstəqil dövlətin Konstutisiyası qəbul olunur.

Necə də gözəl səslənir. Müstəqil bir dövlət. Müstəqillik arzusunun baş qaldırdığı bir vətənə necə də gözəl yaraşır bu şirin duyğu. Bunu bizlər üçün edən isə bu vətənin şərəfli, onun üçün canını qurban verməyə hazır olan Azərbaycan oğlu idi. Bəs bu şəxsiyyətinin vətənpərvər böyüməsinə səbəb nə idir? Gəlin keçmişə, bir əsr əvvələ qayıdaq...

1923-cü il,10 may tarixində, Əlirza Əliyevin evində körpə səsi eşidildi. Evdəki ilk körpə, evin ilk nuru dünyaya gəldi. Heydər uşaqlıdan təhsilə can atan biri idi. 1939-cu ildə Əliyev Naxçıvanın Pedaqoji Texnikumunu bitirdikdən dərhal sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olur. Lakin başlanan müharibə onun təhsilini başa çatdırmağa imkan vermir. Müharibə şəraitini, insanların ağrı-acılarını görmüş Heydərin qəlbində yeni qığılcımlar oyanmağa başlamışdı. Hansı ki, bu duyğular onun illər sonra əsl vətənpərvər kimi Azərbaycançılıq ideologiyasını yaratmasına təkan verəcəkdi.

Liderimizin yuxarıda sadaladığım fəaliyyətləri hələ buz dağının görünən tərəfi idi. Yazmağa cümlələr, sətirlər bəs etməyən prezidentin fəaliyyəti bu millətin, bu dövlətin sarsılmaz bir dağ kimi durmasının ən başlıca səbəbi idi. Ordusuz bir dövlətə ordu bəxş edən Əliyevin Fərmanı nəticəsində

26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü olaraq elan edilmişdir. Tariximizin ən böyük nailiyyətlərindən biri olan bu gün gələcəyə təsir edəcək ən möhtəşəm hadisə idi.

2003-cü ildə vətən ən qara günlərindən birini yaşayır. Bir dövlətin dirçəlməsinə ömrünü həsr etmiş şəxsiyyət, dünyaya gözlərini yumur. Xalq tərəfindən böyük bir hüznlə yola salınan prezident geridə isti qalblar qoyaraq gedir. Lakin geridə qoyduğu sadəcə hüzn deyildi. Həmin günlərdə əslində vətənin yarım qalmış qisasını alacaq cəngavərlər böyüməkdə idi. Tam olaraq 17 il sonra üçün...

Çörək qoxulu vətənin bir parçası olan Qarabağımız illər idi ki, qurtulmağı gözləyirdi. Liderimizin bizlərə qoyub getdiyi ordumuz bunun üçün var gücü ilə savaşır, vətəni yad əllərdən çəkib almağa çalışırdı. Bu çətin vəziyyətdə Ümummilli Liderimizin davamçısı İlham Əliyevin vətən uğrunda mübarizasi təqdirə layiqdir.

2020-ci il, 27 sentyabrda Böyük Zəfərə doğru ilk addımlar atıldı. Gecə-gündüz demədən Azərbaycanın igid oğulları canları bahasına vuruşub, öz yurdlarını, doğma vətəni qurtarmağa çalışdılar. Əziyyətli, çətin, qanlı müharibə bizlərdən minlərlə övladımızı aldı. 44 günlük müharibə həm sevincə, həm də kədərə şahid oldu. İllər əvvəl Liderimizin bizlərə qoyub getdiyi vəsiyyəti yerinə yetirən oğullarımız cənnət bağçalarından, azad etdikləri torpaqlara gülümsəyərək baxdıqlarına hər kəs əmindir. Eynilə Ümummilli liderimiz Heydər Əliyev kimi.

Böyük Zəfəri əldə etmək cümlələrə tökmək qədər asan deyildir. Biz bu cümlələri yazarkən, danışarkən neçə-neçə analar öz oğlunun qoxusu üçün darıxır, göz yaşlarını bir daha onlar üçün axıdır. Bunların hər biri isə bir vətənin asan qazanılmadığının bariz sübutudur. Xalqın yaranması, vətənin qurulması eynilə bir evin tikilməsi kimidir. Təməlindən güclü qoyulmuş evi arada sərt küləklər sarsacaq, soyuq havalar divarlarına çırpacaq. Ancaq bərk hörülmüş həmin ev əsla dağılmayacaq. Necə ki, vətənimiz yüzlərlə təhlükə çətin günlər ilə üzləşdiyi halda öz bütövlüyünü qoruduğu kimi.

Azərbaycanın milli ideologiyası müstəqil dövlətçilik zəminində ilk dəfə zəmanəmizin ən böyük siyasətçisi və dövlət xadimi Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Möhtərəm prezidentimiz müstəqil dövlətçilik və milli ideologiya barədə fikirlərini belə ifadə etmişdir: "... müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq və onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, bundan da böyük xoşbəxtlikdir" ["Xalq qəzeti", 24 noyabr 1998].

Tarixin Milli Qurtuluşunu, Böyük zəfərini, Azərbaycançılıq ideologiyasını bizlər gələcək nəsillərə, böyüməkdə olan fidanlara aşılamalı, bağçalarımızı güllər ilə bəzəməliyik. Çünki biz bir ölüb, min dirilən xalqıq. Biz düşmənə zaval verməyib, vətənini canı bahasına qoruyan millətik və bu millətdə hazırda yüzlərlə Heydərlər, Mübarizlər. Xudayarlar. Salatınlar və adını çəkmədiyim qəhrəmanlar böyüyürlər. Onları düzgün böyütmək, evin yeni təməllərini yaratmaq isə bizlərin öhdəsindədir. Bizlərin səyləri nəticəsində Azərbaycançılıq, Ümummilli Liderə olan sevgi hər daim qəlblərdə yaşayacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Xalq qəzeti, 24 noyabr 1998.

ANA DİLİNİN İNSANIN YETİŞMƏSİNDƏ ROLU

Mətanət Eldar qızı Mustafayeva
doktorant
Gəncə Dövlət Universiteti
mustafayeva20091214@mail.ru

Dil mücərrəd və məntiqi təfəkkür vasitəsilə yaranır, bioloji varlıq olan insan sosial mənada məhz dil vasitəsilə fərd olur. Dil insanları formalaşdırır, şəxsiyyət kimi yetişdirir. Dil sadəcə

ünsiyyət vasitəsi deyil, psixologiyamızı doğulduğumuz andan, bəzi yanaşmalara görə daha əvvəldən formalaşdırır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, uşaq ana bətnində olarkən ətrafdakı səsləri, onun üçün seçilən adı, valideynin xəyallarını, onunla əlaqəli planlarını eşidir, doğuş prosesində, ananın hamiləlik dövründə ünsiyyət etdiyi dili daha asanlıqla tanıyır, duyur. Ana dili fərdi sakitləşdirir, kömək edir, digər tərəfdən müsbət (incəlik, qayğı, ana sevgisi, təhlükəsizlik hissi) və mənfi, ağrılı, travmatik (ayrılıq, məyusluq, qısqanclıq, narazılıq, aqressiya) ilk, şüursuz təcrübələrimizlə əlaqələndirilir.

Yeni doğulmuş körpələr ilk 4-8 aylıq dövrdə insan nitqini duymağa həssas olurlar, eşitmə zamanı analarının səsinə, dillərinə üstünlük verirlər. Həyatın ilk ili ərzində digər nitq səsləri arasındakı ziddiyyətləri ayırd etmək qabiliyyəti azalır, ananın dilinə qarşı həssaslıq isə qorunur (9-11). Körpələr görüntü olaraq tanış olanlara üstünlük verirlər, yeni nümayişlər, mürəkkəblik kimi amillərə görə onlarn reaksiyası dəyişə bilər, çox vaxt körpələr analarının üzü, tanış siması və ya ilkin sima kimi vizual olaraq tanış olanlara üstünlük verirlər.

Dil mühitini dəyişdikdə maraqlıdır ki, nə baş verir. Hər şeydən əvvəl, ana dililə əcnəbi dil arasında qalması insanın özü ilə başqası arasında toqquşmasına bənzəyir. Bu proses yeni təcrübələr gətirməklə yanaşı, eyni zamanda öyrəşilmiş, qəbul edilmiş sistemi pozmalı olan yeni bir hadisədir. Və prosesin əvvəlində çaşqınlığa səbəb olan ünsiyyət və anlaşma yaranır. Eyni zamanda yad və fərqli olan hər şey təhlükə mənbəyi kimi qəbul edilir, özü ilə narahatlıq, gərginlik də gətirir: başa düşülməmək qorxusu, başqasını anlaya bilməmək qorxusu, doğma dilini itirmək qorxusu, xarici dildən asılılıq qorxusu, sonsuza qədər qərib qalmaq qorxusu, uyğunlaşa bilməmək, yad mühitdə itmək qorxusu, qəbullana bilməmək, qəbul edilməmək qorxusu və s.

Bəzən öyrənmə zamanı düşünülür ki, hər şey öz-özünə həll olunur, mükəmməl uyğunlaşma rahatlıqla baş verir. Lakin unutmaq olmaz ki, uyğunlaşma həddindən artıq da ola bilər, müdafiə mexanizminə də çevrilə bilər. Hər hansı bir şəxs öz ana dilindən tamamilə imtina edə bilər, ondan ünsiyyətdə məcburi və ya istəyərək istifadə etməyə bilər. Ana dilini tamamilə itirmək mümkündürmü? Tamamilə ondan uzaqlaşmaq mümkün deyildir.

Bəzi hallarda da ikinci dili öyrənmə zamanı fərd ən adi istinad nöqtələrini itirməmək üçün ana dilindən kənara çıxmamağa qərar verir. Françesko Sinatra hesab edir ki, məhz ana dilini itirmək və yad dilin "girovu"na çevrilmək qorxusundan bəzi mühacirlər qrup halında toplaşıb təcrid olunmuş vəziyyətdə yaşayırlar. Hər iki vəziyyət (həddindən artıq uyğunlaşma və təcridolma) qoruyucu mexanizm hesab oluna bilər. Paradoks ondan ibarətdir ki, mühacirət kütləvi psixoloji qorunma riski ilə yanaşı, zehni məkanı genişləndirmək, zənginləşdirmək və yaradıcı potensialı inkişaf etdirmək üçün əsl şans verir, çünki o, həmişə psixoloji yenidənqurma ilə əlaqələndirilir. Məhz adi fəaliyyətin bu yenidən qurulması arxaik təcrübələri dəyişdirməyə və hətta neyronlar səviyyəsində görünən yeni əlaqələr yaratmağa imkan verir.

Ana dilini və nitqini mənimsəmək məktəbəqədər yaşda olan uşaqların ən vacib bacarıqlarından biridir və müasir məktəbəqədər təhsildə uşaqların tərbiyəsi və təhsili üçün əsas hesab olunur Nitqin inkişafı şüurun inkişafı, ətraf aləmin biliyi və bütövlükdə şəxsiyyətin inkişafı ilə sıx bağlıdır. Ana dili məktəbdə bilik əldə etmək və sonra bütün akademik fənləri öyrənmək və öyrətmək üçün bir vasitədir. L.S.Vygotski düşüncə və nitq proseslərinin uzun bir öyrənilməsinə əsaslanaraq belə bir nəticəyə gələrək qeyd etmişdir: "yalnız uşağın intellektual inkişafını deyil, həm də xarakterini, bütövlükdə hisslərin və şəxsiyyətin formalaşmasını təsdiqləyən faktlar birbaşa nitqdən asılıdır". Rus psixoloqlarının və psixolinqvistlərinin araşdırmaları göstərir ki, nitq ustalığı yalnız uşağın inkişafını tamamlamır, həm də bütövlükdə psixikasını və bütün fəaliyyət növlərini yenidən qurur.

Dil əldə etmə və nitq inkişafının rolunu nümayiş etdirmək üçün dil və nitqin yerinə yetirdiyi funksiyaları təhlil etmək lazımdır. I.A.Zimnaya, dil və nitqi təhlil edərək, şərti olaraq dilin funksional xüsusiyyətlərinin 3 qrupunu müəyyənləşdirir (geniş mənada). Bunlar a) Sosial, B) intellektual və C) insanın şəxsi funksiyalarını təmin edən xüsusiyyətlərdir.

Birinci qrupa dil olan xüsusiyyətlər daxildir:

1) sosial qarşılıqlı əlaqə forması kimi ünsiyyət;

2) Sosial-Tarixi və sosial-mədəni təcrübənin mənimsənilməsi və digər insanlarla ünsiyyət prosesində xarakter.

Kommunikativ funksiya nitqin əsas və genetik cəhətdən ilkin funksiyasıdır.

İkinci qrup, insanın intellektual funksiyalarının həyata keçirildiyi dilin xüsusiyyətlərindən ibarətdir. Bu xüsusiyyətlər dili bir vasitə kimi müəyyənləşdirir:

1) reallığın təyinatları (adları) və əlamətləri (işarələri);

2) bir insanın konseptual aparatının formalaşması, genişlənməsi, fərqlənməsi və aydınlaşdırılması prosesində ümumiləşdirmələr;

3) bir insanın ali zehni funksiyalarının vasitəçiliyi;

4) idrak qabiliyyətlərinin inkişafı, maraqlar;

5) kommunikativ və idrak ehtiyaclarının ödənilməsi (varlığın və özünü ifadə etmənin emosional-iradi sferasının formaları).

Burada dil bütövlükdə intellektual fəaliyyət vasitəsi, insanın zehni inkişafında həlledici amil olan bir insanın "dil şüurunun" formalaşması vasitəsi kimi xarakterizə olunur.

Üçüncü qrup dilin "Şəxsi" funksiyalarından ibarətdir. Burada bir vasitə kimi çıxış edir: 1) bir insanın "Mən"ini dərk etməsi və 2) əks tərəfə özünü ifadə, özünü tənzimləmə.

Bu, dil qruplarının xüsusiyyətləri şəxsiyyətin özünü tanımasında rollarını göstərir. Bu qrupun xüsusiyyətləri ilə əlaqədar olaraq dilin uşağın mənəvi inkişafındakı rolu barədə danışmaq lazımdır. Ana dilinin tədrisi mənəvi tərbiyə problemini həll etməyə kömək edir. Dil vasitəsilə uşaq əxlaq normalarını, düzgün tərbiyə ilə öz davranışının, ətrafındakı dünyaya, insanlara və özünə münasibət standartına çevrilən mənəvi qiymətləndirməni öyrənir.

Ana dilinin funksional xüsusiyyətlərini ümumiləşdirilmiş formada mənimsəyərkən aşağıdakı məqamlar təzahür edir:

1. Ünsiyyət vasitəsi, sosial qarşılıqlı əlaqə forması
2. İctimai-tarixi təcrübənin mənimsənilməsi, fərdin ictimailəşdirilməsi vasitəsi
3. Mədəni və tarixi dəyərlərin tanıdılması vasitəsi (dilin ümumi təhsil mənası)
4. Nominasiya, göstəriş vasitəsilə obyektiv reallıqla əlaqələndirmə vasitəsi
5. Konseptual aparatın ümumiləşdirilməsi, formalaşması, fərqləndirilməsi, aydınlaşdırılması vasitəsi
6. İnsanın ali psixi funksiyalarına vasitəçilik vasitəsi
7. Koqnitiv marağın inkişaf etdirilməsi vasitəsi
8. Kommunikativ və koqnitiv problemlərin həlli üçün vasitə
9. Öz "mən"ini dərk etmək vasitəsi, əksi

10 Özünü ifadə etmək (özünü ifadə etmək) və özünü tənzimləmə vasitəsi.

Dil, ümumiyyətlə, mədəniyyətin əsasını təşkil edir. Əvvəlki nəsillərin sosial təcrübəsini "mənimsəyən" uşaq dili ölkə mədəniyyətinin bir hissəsi kimi mənimsəyir. Məktəbəqədər yaşda olarkən uşaqlar ana dilini və onun estetik xüsusiyyətlərini öyrənirlər. Ana dilinin öyrənilməsi prosesində estetik tərbiyə estetik hisslərin də formalaşmasıdır. Təbiət, cəmiyyət, insan şəxsiyyəti, sənət öz şifahi əksini tapır. Ana dilində nitq bacarıqlarını inkişaf etdirərək eyni zamanda təbiətə, insana, cəmiyyətə və sənətə zərif münasibət formalaşdırırıq. Ana dili öz-özlüyündə inkişaf obyekti kimi gözəllik xüsusiyyətinə malikdir. Müəllimlər uşaqların diqqətini məcazi ifadəlilikdən, səs və melodiya vasitələrindən, dil vasitələrindən istifadənin məqsədəuyğunluğuna yönəldir və bununla da dilə estetik münasibətin əsasını qoyulur. Uşaqların özlərinin bədii dili, şifahi yaradıcılığı və bədii-linqvistik fəaliyyəti estetik inkişaf üçün xüsusi əhəmiyyət kəsb edir.

K.D.Uşinski ana dilinin insanın mənəvi və mənəvi inkişafındakı rolunu yüksək qiymətləndirdi. Dili ünsiyyət vasitəsi kimi istifadə edərək, uşaq öz nəslinin mədəniyyətinə qoşulur, ətrafındakı dünya və özü haqqında öyrənir, sosial qarşılıqlı əlaqə normalarını öyrənir. Nitq mədəniyyətinə yiyələnmək, fikirlərini səriştəli və məntiqi şəkildə ifadə etmək bacarığı intellektual və mənəvi cəhətdən inkişaf etmiş bir şəxsiyyətin formalaşması üçün zəruri şərtdir. Buna görə Uşinski nəzəriyyəsinə görə ana dili şagirdlərin fərdi olaraq tərbiyəsi və inkişafında əsas amillərdən biridir. O, dillə yanaşı, insanların "minillik tarixi hərəkatında" baş verən mənəvi inkişaf məhsullarını mənimsəyən gənc nəslin formalaşmasında ana dilinin ölçülməz əhəmiyyətini qeyd

etdi. "İnsanlardan hər şeyi götür və hər şeyi geri ala biləcəklər, ancaq dili götürəcəklər və heç vaxt yenidən yaratmayacaqlar." Ana dilini mənimsəmiş ilk müəllimləri oldular. [3]

Erkən uşaqlıqdan nənə və babamızın nağıllarını, bayatılarını və əfsanələrini dinləyirik, Vətənimizin dağlarının və çaylarının, göllərinin və meşələrinin gözəlliyi bütün bədii nümunələrdə yaşayır. Nənələrimiz bizim üçün mahnı oxuyur, nağıllar danışır, atalar sözləri və kəlamlar vasitəsilə həyatı öyrədir, təkcə idrak deyil, həm də estetik imkanlardan istifadə edir, amma bu gün vəziyyət dəyişmişdir. Mövcud vəziyyət, demək olar ki, tamamilə tərbiyə, ana dilinə, tarixə və ənənələrə olan məhəbbətdə böyük rol oynamış nənə və baba məktəbini uşaqların həyatından kənarlaşmış, əvəzində ona virtual və elektron dünya təqdim edilmişdir.

Ana dilinin tədrisinin əsas məqsədi müxtəlif nitq fəaliyyətlərində tələbələrin nitq bacarıqlarını inkişaf etdirməkdir. Danışıq bacarıqları müəyyən bir məşq sistemindən istifadə etməklə əldə edilir. Bu vəziyyətdə düşüncələrini ifadə etmə üsulunu, mövcud nitq vasitələrindən istifadə etmək bacarığını, habelə nitqin qurulmasının xüsusiyyətlərində özünü göstərən hər bir uşağın nitqinin spesifik və bənzərsiz xüsusiyyətlərini nəzərə almaq lazımdır. (üz ifadələri, intonasiya, jestlər).

K. D. Uşinski uşağın ana dilinin ilk tədrisində 3 məqsəd görürdü.

Birincisi, nitq bacarıqlarının inkişafı, yəni fikirlərini ifadə etmək bacarığıdır. Bunun üçün öyrənmənin əyani olması və uşağın qəbul etdiyi müəyyən görüntülərə (təbiət hadisələri, rəsmlər) əsaslanması vacibdir.

İkinci məqsəd uşağa fikirlərini ən yaxşı şəkildə təqdim etməyi öyrətməkdir. Bu formanın ideal nümunəsi həm xalq, həm də milli sənət əsərləridir. Uşinski uşaqlar üçün əsərlərin seçilməsi üçün tələbləri aydın şəkildə müəyyənləşdirdi: müsbət fikirlər, sənətkarlıq, məzmunun mövcudluğu.

Üçüncü məqsəd qrammatikanın bir elm kimi öyrənilməsindən əvvəl praktik mənimsənilməsidir. Müxtəlif məşqlər bu məqsədə xidmət edə bilər. (müəyyən bir sözlə cümlələr tərtib etmək, düzgün formada bir söz seçmək və s.)

Hər üç məqsədə eyni vaxtda nail olmaq lazımdır.

Dil həm də şagirdləri şəxsiyyət kimi formalaşdıran intellektual, əxlaqi və estetik tərbiyə vasitəsi və mənbəyidir. Mükəmməl nitq onun uğurlu təlim və inkişafının açarıdır. K. D. Uşinski bütün akademik fənlərin tələbələrin dünyagörüşünü formalaşdırdığına inanırdı, lakin bunda aparıcı rol, şübhəsiz ki, ana dilinə aiddir. "Ana dili bütün biliklərin doğru olması üçün geyilməli olan mənəvi geyimdir." [3]

Altı yaşlı uşaqlarda hisslərini və düşüncələrini ifadə etmək üçün hiss və düşüncələrin özlərindən daha çox söz və ifadələr var. "Bu, bir çox cəhətdən yalnız bir insanın böyüklərin nitqini qavramaq qabiliyyətinə görə baş verir, lakin özü bu dil üçün hələ yetişməmişdir. Şagirdlərin ana dilinin bütün imkanlarını şüurlu şəkildə öyrənməsinə nail olmaq vacibdir.

Ana dili nə vaxt və niyə daha emosional olur? Ana dilində danışanların emosional halları araşdırılmışdır. Məsələn, müxtəlif L1-L2 (L1- ana dili, yaxud birinci dil, L 2 ikinci dili deməkdir) cütlərindən istifadə edən bir Avropa tədqiqatında aydın olmuşdur ki, mesaj L2-də deyil, respondentin ana dilində yazılıbsa, reklam şüarları daha emosional olaraq təsir edir. [5]

Psixologiya tarixinin ən qədim suallarından biri dilin zehnə necə təsir etməsi ilə bağlıdır. İstifadə etdiyimiz dil dünyaya baxışımıza təsir edirmi? Bilirik ki, bir çox psixi proseslərimiz dildən təsirlənir. Fərqli dillər rəng məkanını fərqli şəkildə seqmentləşdirir. Məsələn, rus dilində ingilis dilində danışanların "mavi" adlandırmaları üçün iki fərqli söz var, bunlar təxminən açıq mavi və tünd maviyə uyğundur. Bəzi tədqiqatlar belə deməyə əsas verir: Doğma rus dilində danışanlar mavinin iki çalarını görürlər ki, bu d açıq mavi və tünd mavi arasındakı fərqi ingilis dilində danışanlardan daha çox fərqləndirir. Əgər danışdığımız dil dünyaya baxış tərzimizə təsir edirsə, bu, qavrayışda mədəniyyətlərarası müxtəlifliyin əsas mənbəyidir.

Avstraliyanın Kvinslend şəhərində yaşayan aborigen Pormpuraav xalqında Kuuk Thaayorre dilində danışanlar kosmosu bizdən çox fərqli qəbul edirlər. Birincisi, onlar coğrafi olaraq ətrafdakı məkanı təmsil edirlər. Ona görə də onların solunda nəsə olduğunu demək əvəzinə, bunun Qərbə aid olduğunu söyləyirlər. Ancaq zamanın təsvirinə gəldikdə daha da maraqlı versiyalar yaranır. Çox insan vaxtın soldan sağa və ya sağdan sola axdığını düşünür və bunun oxuduğumuz yazının

istiqamətilə əlaqəsi ola bilər. Belə düşünməyin bir səbəbi odur ki, ərəb və ibrani dillərində danışanlar zamanı sağdan sola axan kimi təmsil edirlər. Soldan sağa yazanlarda zaman soldan sağa axır.

Cənubi Amerikada And dağlarında yaşayan Aymaralar zamanı öndən arxaya axan kimi təmsil edirlər. Deməli, keçmiş bizim qarşımızda, gələcək isə arxamızdadır. Bu, ingilis dilində danışanların istifadə etdiyi bəzi metaforalarla ziddiyyət təşkil edir. Və ya əksini düşünən xalqlar da vardır: gələcək qarşımızda (ona doğru gedirik), keçmiş arxamızdadır (ordan gəlirik). [6]

Deməli, dil xalqın təfəkkürünü ifadə edir. Dil genetik fakt olmasa da, təfəkkür etnopsixologiya ilə sıx bağlıdır. Bu mənada ilk öyrədilən dil insanın öz genetik kodlarını da ifadə etməli, buna xidmət göstərməlidir.

Odur ki, gənc nəslin təlim-tərbiyəsində, təhsilində, gündəlik kommunikasiyaya hansı dildə qoşulmasının da çox böyük əhəmiyyəti, təsiri vardır. Gələcək nəsli yetişdirməkdə olan valideynlər, pedaqoqlar bu baxımdan həssas olmalı, ana dilə laqeyd münasibət göstərməməlidirlər.

Ümummilli lider Heydər Əliyevin də, cənab prezident İlham Əliyevin də siyasətinin, startegiyasının da ən əsas motivini Ana dili məsələsinin təşkil etməsi təsadüfi deyildir.

İstifadə edilmiş ədəbiyyat

1. Kristeva J., Etrangers à nous-mêmes, Paris, Fayard, 1988.
2. Sinatra F., « La figure de l'étranger et l'expérience de l'exil dans la cure », in Différence culturelle et souffrances de l'identité, Paris, Dunod, 1998.
3. https://nsportal.ru/shkola/rodnoy-yazyk-i-literatura/library/2015/11/10/rol-rodnogo-yazyka-v-razvitii-i-vospitanii
4. https://pedlib.ru/Books/4/0018/4_0018-20.shtml#book_page_top
5. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC4172089/
6. https://www.psychologytoday.com/intl/blog/psychology-tomorrow/202402/does-your-native-language-affect-how-you-feel-pain

AZƏRBAYCAN İQTİSADİYYATİNIN STRUKTURUNUN TƏKMİLLƏŞMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

[1,2]Dilşad Qürbət qızı Süleymanlı, [1,3]Əfşan Ağazayıd qızı Babaşova
[1]dissertant
[2]ETN akad. H.Ə.Əliyev adına Coğrafiya institutu
dilshad8080@mail.ru
[3]Azərbaycan Dövlət Pedaqoji Universiteti

Azərbaycanın, xüsusən də Bakının inkişafında neftin xüsusi rolu olmasına baxmayaraq, heç vaxt bu sərvətin sahibi xalq olmayıb. Yalnız müstəqillik əldə etdikdən sonra, suveren Azərbaycan Respublikası yarandıqdan sonra neft Azərbaycan xalqının mülkiyyətinə çevrildi. Əvvəllər olduğu kimi, bu gün də neft Azərbaycanın gələcək tərəqqisinin açarıdır. Xarici kapitalın axını sayəsində Azərbaycanda 19-cu əsrin sonlarından, yerli neft sahibləri ilə birlikdə neftin hasilatı və satışına nəzarət edən iri neft şirkətləri yarandıqdan sonra sürətlə inkişaf etməyə başladı. Ötən əsrin əvvəllərində Bakı təkcə Rusiya imperiyasının deyil, həm də dünyanın əsas neft mərkəzinə çevrildi. Ötən əsrin 70-ci illərindən başlanan Azərbaycan sənayesinin emal müəssisələrinin yenidən qurulması və yeni texnologiyaların tətbiqi ilə iqtisadiyyatın bu sahəsi görünməmiş sürətlə inkişaf etməyə başladı. Müstəqillik illərində isə xarici neft şirkətləri ilə Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsinə dair danışıqlar aparilmışdır. Bu, Heydər Əliyevin böyük səylərinin nəticəsi idi. Ötən əsrin 70-ci illərindən başlanan Azərbaycan sənayesinin yenidən qurulması, emal müəssisələrinin tam yenidən qurulması Qara şəhərin ekoloji problemlərini qismən həll etdi [2]. Bu, Heydər Əliyevin böyük səylərinin nəticəsi idi. 70-80-ci illərdə aparılan neft

hasilatının yenidən qurulması, neft emalı sənayesinin texniki yenidən qurulması, yeni texnologiyaların tətbiqi ilə iqtisadiyyatın bu sahəsi görünməmiş sürətlə inkişaf etməyə başladı. Həmin dövrdə Heydər Əliyev tərəfindən Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləş-dirilməsi onun gələcək inkişafı üçün güclü zəmin yaratdı. Respublikada neft sənayesinin inkişaf mənbələrini diqqətlə təhlil edən Prezident Heydər Əliyev neft hasilatının artırılması üçün yeni imkanlar kəşf etdi. Elmi tədqiqatların nəticələrinə, neft sənayesində çalışan alimlərin, mühəndislərin, mütəxəssislərin rəylərinə əsasən belə bir qənaətə gəlib ki, Azərbaycanın yataqları neft ehtiyatları ilə zəngindir. Lakin onların inkişafı bir sıra çətinliklərlə əlaqələndirildi [1].

Quruda neft hasilatının səmərəliliyinin artırılması yeni texnologiyalar tələb edirdi. Dəniz yataqlarının kəşfiyyatı və istismarı isə Xəzər dənizinin onların yarandığı yerin üstündəki böyük dərinliyi ilə çətinləşirdi. 1990-cı illərə qədər nisbətən dayaz dərinliklərdə yerləşən sakit yataqlar istismar olunurdu. Böyük dərinliklərdən neft hasilatı böyük kapital qoyuluşu, müasir texnika və texnologiya və təcrübə tələb edirdi. Qərbin aparıcı neft şirkətləri ilə birgə dərinsulu yataqların işlənməsinə dair genişmiqyaslı saziş bağlamaq məsələsi ortaya çıxdı. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Qərbin iri neft şirkətləri arasında Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsinə dair danışıqlar 1990-cı ildə, SSRİ-nin mövcud olduğu dövrdə başlamışdır. Azərbaycanın neft sənayesi üçün böyük əhəmiyyət kəsb edən neft mədənləri ərazisində iri platformaların tikintisi nəzərdə tutulurdu.

Hələ 80-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda dərinsulu özüllər üçün güclü zavod tikildi. Həmin illərdə o, Sovet İttifaqında quyuların qazılması və dənizdə neft hasilatı üçün platformalar tikən yeganə müəssisə idi. Amma son illər zavodun yenidən qurulmasına ehtiyac olduğu üçün fəaliyyətini dayandırıb. "Əsrin müqaviləsi" qüvvəyə mindikdən sonra müəssisənin tam modernləşdirilməsi nəzərdə tutulmuşdur [4]. Burada təkcə Xəzər dənizinin Azərbaycan sektoru üçün deyil, onun digər sektorlarında da neft hasilatı üçün platformaların tikilməsi nəzərdə tutulurdu. Müqavilə imzalandıqdan sonra əvvəllər istifadə olunan və indi köhnəlmiş qurğuların, gəmilərin əvəzinə otuz ildən sonra Azərbaycanın mülkiyyətinə keçəcək yeni gəmilərin, tankerlərin, qurğuların alınması nəzərdə tutulurdu. Neft Daşlarında salınmış estakadaların təmiri və abadlaşdırılması da qarşıya qoyulmuşdur. Konsorsiumdan və neftin Azərbaycan payının satışından əldə edilən vəsait neft qurğularının, quyularının və yataqlarının bərpasına sərf edilməli idi. Nəhayət, üç ildən artıq davam edən danışıqlardan sonra 1994-cü il sentyabrın 20-də Bakıda, Gülüstan sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın 11 ən böyük neft şirkətinin konsorsiumu arasında birgə işlənməsi haqqında müqavilə imzalandı. və Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri" yataqlarından, "Çıraq" və "Günəşli"nin dərinsulu hissəsindən neft hasilatı imzalanıb. Bu sənəd "Əsrin müqaviləsi" adını alaraq dünyada böyük rezonans doğurdu. Müqaviləni Amerikanın Amoko, Unocal, Penzoil, Exxon şirkətləri, Böyük Britaniyanın British Petroleum, Remco, Rusiyanın Lukoil, Norveçin Statoil, Türkiyənin Turk Petrolary, Səudiyyə Ərəbistanının "Delta" şirkəti və Yaponiyanın "Itochu" şirkəti imzalayıb. Onun praktiki həyata keçirilməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradılmışdır. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin təntənəli imzalanması mərasimini Azərbaycan Prezidenti Heydər Əliyev açdı. O, ilk növbədə mərasimdə iştirak edən qonaqları, o cümlədən ABŞ, Rusiya Federasiyası, Böyük Britaniya, Türkiyə, Norveç nümayəndə heyətlərini səmimiyyətlə salamladı. Dövlətimizin başçısı neft sənayesinin zəngin tarixini qeyd edərək bildirdi ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycanın neft sənayesində yeni mərhələ başlayır. İndi xalqımızın öz təbii sərvətlərini idarə etmək imkanı var. Azərbaycan Respublikası müstəqil dövlətdir, Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Onları öz mülahizəsinə görə sərəncam verə bilər. Heydər Əliyevin əsas arzusu xalqın arzusunun həyata keçirilməsi, respublikanın gələcəyidir.

İstifadə edilmiş ədəbiyyat

1. S.Şükürov, M.Səfərov. Millət atası. Bakı, 2000.
2. O.Sultanov. 80-ci illərin sonu 90-cı illərin əvvəlində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995. 298. Sülhə aparan yollar. Azərbaycan Respublikasmın Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarma işgüzar səfəri. 1-14 aprel 2001-ci il. Bakı, 2001.

3. Tarixin memarı. Bakı, 1998.
4. D.Seyidzadə. Azərbaycan XX əsrin əvvəllərində: Müstəqilliyə aparan yollar. Bakı, 1998.

HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞU

[1,2]Sevinc Niman qızı Quliyeva, [1,3]Asif Əlvan oğlu Quliyev
[1]dissertant
[2]AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
[3]Bakı Slavyan Universiteti
asif.quliyev.1960@mail.ru

Bildiyimiz kimi, vətəndaş cəmiyyəti institutlarının inkişaf etdirilməsi Azərbaycan Respublikasında ictimai həyatın demokratikləşməsinin əsas istiqamətlərindəndir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran vəzifələrdən biri milli dövlət və modern cəmiyyət quruculuğu prosesinin əsasının qoyulması və onun davamlılığının təmin edilməsi idi. Bu prosesin mühüm strateji stiqamətlərindən biri də vətəndaş cəmiyyətidir. Vətəndaş cəmiyyəti siyasi sistemin bir parçasıdır, çünki demokratik siyasi sistemin modernləşməsi sosial dövlətin təşəkkülü və inkişafı ilə bağlıdır. Cəmiyyətin siyasi sistemi dövlət təsisatlarının, siyasi partiyaların və ictimai təşkilatların mürəkkəb kompleksidir, onun çərçivəsində cəmiyyətin siyasi həyatı baş verir, ictimai və dövlət hakimiyyəti həyata keçirilir, vətəndaş cəmiyyətinin ayrı-ayrı ünsürləri siyasi sistemin bütün ünsürləri ilə sıx üzvü vəhdətdə olur və biri-biri ilə qarşılıqlı əlaqədə cəmiyyətin və dövlətin hüquqi əsasını təşkil edən qanunlar əsasında və çərçivəsində fəaliyyət göstərir. Fərdin hüquq və azadlıqlarının prioritet olduğu, dövlətin bu hüquq və azadlıqlara hörmət göstərməyi, onların həyata keçirilməsi üçün şərait yaratmağı öhdəsinə götürdüyü vətəndaş cəmiyyəti qurmaq prosesi sürəkli, uzun müddətli, həm də dönməz prosesdir. Azərbaycanda vətəndaş cəmiyyəti artıq utopiya deyil, tamamilə hiss edilən gerçəklikdir [1, s.85].

Cəmiyyətin bir çox özünüidarə problemləri var ki, onların həllində dövlətə kömək göstərmək lazımdır. Bu baxımdan ictimai birliklər vətəndaş cəmiyyətinin inkişafında müstəsna rol oynayırlar. Dövlətlə, ictimai birliklərə aid olan QHT-lərin sıx əməkdaşlığı vətəndaş cəmiyyətinin inkişafına çox böyük təkan verir. İctimai təşkilatlar dövlət-cəmiyyət münasibətlərini tənzimləyir. Onlar dövlətin apardığı vacib siyasətə dair məsələləri bir növ, fərdiləşdirib əhaliyə təqdim edirlər və bunları əhalinin probleminə çevirməyi bacarırlar. Onlar problemləri aktuallaşdırıb, dövlətin nəzərinə çatdırır və məlum olur ki, bunları həll etmək lazımdır [2, s.226].

İctimai birliklərlə dövlət əməkdaşlığının və tərəfdaşlığının əsasını demokratik hüquqi dövlət quruculuğu təşkil edir. Demokratik hüquqi dövlət quruculuğu cəmiyyət və dövlət işlərinin idarə olunmasına, qərarların hazırlanması, müzakirəsi, qəbulu, icrası və qiymətləndirilməsi prosesinə vətəndaşların daha geniş cəlb olunmasını, vətəndaş fəallığının və təşəbbüskarlığının artırılmasını zəruri edir. Vətəndaşlar ictimai birliklərdə birləşməklə öz baxışları və dəyərlərini ifadə etmək, öz məqsəd və maraqları istiqamətində birgə fəaliyyət göstərmək, bəzi problemləri birgə həll etmək üçün yeni imkanlar əldə edirlər. Yəni ictimai birliklər demokratik hüquqi dövlət quruculuğu prosesində vətəndaş cəmiyyətinin institutları olmaq etibarilə vətəndaş təşəbbüskarlığı və fəallığını ifadə edən qurumlar kimi çıxış edir, cəmiyyətlə hakimiyyət orqanları arasında bir növ əlaqələndirici vasitəyə çevrilir, ictimai faydalı fəaliyyətlə məşğul olaraq vaxtı çatmış bir çox problemlərin həllinə kömək edirlər. Digər tərəfdən, əksər ictimai birliklərin qarşısına qoyduğu məqsəd və vəzifələr son nəticədə hakimiyyət orqanlarının həyata keçirməli olduğu vəzifələrlə uyğunluq təşkil edir. Bunlar dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən bir çox sosial, iqtisadi, hüquqi, mədəni və s. məsələlərin həlli ilə bağlıdır. Vətəndaş cəmiyyətinin institutları olmaq etibarilə ictimai birliklərlər bu istiqamətlərdə fəaliyyət göstərməklə dövlət orqanlarına kömək edir, həmin orqanların həyata keçirməli olduqları bəzi məsələlərin həllinə öz töhfələrini verirlər. İctimai birliklərlə dövlət əməkdaşlığı və tərəfdaşlığı dövlət orqanları üçün öz fəaliyyətlərində cəmiyyətin tələbatını daha çox

nəzərə almaq, resursları daha da genişləndirmək, işin səmərəliliyini yüksəltmək, cəmiyyətlə əks-əlaqə formalaşdırmaq, etimad və dəstək əldə etmə formalarından biri kimi qiymətləndirilə bilər. İctimai birliklər üçün bu əməkdaşlıq və tərəfdaşlıq qarşıya qoyulan məqsədlərə nail olmaq naminə ictimai faydalı fəaliyyətin konkret nəticələrə gətirib çıxarmasına kömək edən amillərdən biridir. Belə əməkdaşlıq və tərəfdaşlıq nəticəsində hakimiyyət orqanlarının fəaliyyətinə ictimai nəzarət təmin olunur, cəmiyyətin maraqları naminə hakimiyyətə, qəbul edilən qərarların məzmununa sistemli olaraq ictimai təsir həyata keçirilir.

İctimai birliklərlə dövlət əməkdaşlığı və tərəfdaşlığının tam şəkildə reallaşması üçün hər iki tərəf buna hazır olmalı və can atmalıdır. Bu gün ayrı-ayrı dövlət orqanlarında ictimai birliklərə daxil olan QHT-lərə münasibətdə bəzən ehtiyatlı mövqenin, stereotiplərin hələ də qalmasına baxmayaraq, Azərbaycan hökuməti öz siyasətində QHT sektoru ilə yeni münasibətlər modelinin formalaşdırılmasına üstünlük verir. QHT-lərə münasibətdə dövlət siyasəti bütövlükdə QHT-lərin inkişaf problemlərinin həllinə, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsinə, dövlət orqanları ilə QHT-lər arasında tərəfdaşlıq münasibətlərinin sabit və səmərəli sisteminin yaradılmasına yönəldilib və son nəticədə ölkədə vətəndaş cəmiyyətinin inkişafına xidmət edir. Eyni zamanda, mövcud QHT-lərin əksəriyyəti də dövlət orqanları ilə konfrontasiyaya yox, əməkdaşlığa və tərəfdaşlığa üstünlük verməyə başlayıb.

İlk məqsədləri əhalinin sosial cəhətdən zəif təbəqəsinin ən zəruri problemlərini həll etmək olan bu ictimai birliklərin fəaliyyət dairəsi sonralar genişlənməyə başladı.

Ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtması ilə ictimai sektorun hərtərəfli formalaşma dövrü başladı. Belə ki, Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə insan hüquqları və azadlıqlarına, eləcə də vətəndaşların sərbəst birləşmək azadlığına geniş yer ayıran ölkə konstitusiyasının qəbulundan sonra ictimai sektor özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu konstitusiya dövlətçilik və həm də vətəndaş cəmiyyəti üçün mühüm tarixi sənəd oldu. Azərbaycan Respublikasının Konstitusiyasının əsas milli niyyətlərindən biri vətəndaş cəmiyyətinin qurulması idi. Məhz yeni konstitusiya siyasi və sosial sabitliyin tədricən bərqərar olunması ilə ölkədə QHT (ictimai birliklər və fondlar) hərəkatının kütləviləşməsinə şərait yaratdı. Bu mərhələ həm də onunla xarakterizə olunur ki, ölkədə demokratik və hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatlar vətəndaş cəmiyyəti institutlarının təşəkkül prosesi ilə paralel şəkildə həyata keçirildi. Məhz bu dövrdə vətəndaşlar müxtəlif təşkilatlarda birləşərək, yüzlərlə ictimai birlik və ya qeyri-hökumət təşkilatı yaratmağa nail oldular. Ulu Öndərin dövlətçilik fəlsəfəsində təkcə dövlət strukturlarının gücünə deyil, həm də ictimai təşkilatların fəaliyyətinə geniş meydan verilmişdir [3].

Ümummilli Lider Azərbaycan dövlətçiliyinin bütün vacib sferalarda möhkəmləndirilməsi ilə yanaşı, güclü vətəndaş cəmiyyətinin formalaşması məsələsini də prioritet istiqamət kimi diqqətində saxlayırdı. 1993-cü ilin avqustunda H.Əliyev vətəndaş cəmiyyəti institutlarının ən fəal təbəqəsi olan gəhclər təşkilatlarını bir araya gətirərək onlarla ilk və tarixi görüşünü keçirdi. Bununla hazırda ölkəmizdə sayı iki yüz əlliyə yaxınlaşan gənclər təşkilatlarının sərbəst çalışma imkanlarının, fəaliyyətlərinin stimullaşdırılmasının, gənc, bacarıqlı, dövətinə sadiq yeni liderlərin meydana çıxmasının əsası qoyuldu. 1997-ci ildə bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə BMT və Azərbaycan hökuməti arasında Azərbaycanda QHT-lərin (ictimai birliklər və fondlar) institusional inkişafı və vətəndaş cəmiyyəti quruculuğuna kömək adlı birgə layihənin həyata keçirilməsi haqqında saziş imzalandı. Bu Azərbaycan üçün çox cəsarətli addım idi və postsovet məkanında qəbul edilmiş ilk tarixi qərar idi. Bu qərar ictimai sektorun gələcək inkişafına çox böyük təkan verdi. Əslində, müasir və beynəlxalq standartlara uyğun olaraq yaranmış və fəaliyyət göstərən ictimai birliklər məhz Azərbaycanın müstəqillik əldə etməsindən, əsasən, 1995-ci il Konstitusiyasının qəbulundan sonra yaranmağa başlamışdır. Onu qeyd etmək olar ki, yalnız 1988-1993-cü illərdə cəmi 198 ictimai birlik qeydə alınmışdır [4, s.12).

Bu gün Azərbaycanın sürətli iqtisadi və sosial inkişafı vətəndaş cəmiyyətinin fəaliyyətinə kömək göstərilməsi üçün dövlətin imkanlarını genişləndirir. İctimai sektoru dəstəkləmək və təşviq etmək dövlət siyasətinin təkmilləşdirilməsini şərtləndirir. Dövlətin ictimai sektora dəstəyi cəmiyyətimizdə yeni münasibətlər modelinin formalaşdırılmasına, vətəndaş cəmiyyəti institutlarının

müasirləşdirilməsinə, vətəndaş təşəbbüsünün artırılmasına, sosial əhəmiyyətli problemlərin həllinə xidmət edir.

İstifadə edilmiş ədəbiyyat

1. MQF, QHT-hökumət dialoqunun yekun hesabatı, Bakı, "Azərbaycan" nəşr., 2001
2. Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində. Bakı. Avrasiya Press, 2011.
3. anl az/down/meqale/azerbaycan/2010/ may 119114 htm
4. Azay Quliyev "QHT-lərin tarixinə ümumi bir nəzər." 525-ci qəzet 12.01.2008.

HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ ÖLKƏ XARİCİ SİYASƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ

Günel Yalçın qızı Yusibova
dissertant
Gəncə Dövlət Universiteti
gunel.yusibova@gdu.edu.az

SSRİ-nin dağılması dünyadakı tarazlığı pozduğu kimi beynəlxalq münasibətlərdə də tamamilə yeni bir şərait yaratdı. Bu dövrdən etibarən öz müstəqilliyini əldə etmiş xalqlar arasındaa əlaqələrdə yeni bir dövr başlamışdır. Dövlət müstəqilliyini bərpa edən digər dövlətlər kimi Azərbaycan Respublikasının da xarici siyasətinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi zərurəti meydana gəlmişdir. Bu dövrdə idarətetmədə olan şəxslərin idarəetmə zəifliyi, bir tərəfdən Qarabağ müharibəsi, digər tərəfdən ağır iqtisadi, sosial və siyasi qeyri-sabitlik, Dağlıq Qaarabağ problemi və etnik separatçı birləşmələr ölkəni xaos vəziyyətinə sürükləmişdi.

1993-cü ilin ortalarında Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın xarici siyasət strategiyası dəyişməyə başlamışdır. Ulu Öndər Azərbaycanın və bütövlükdə dünya düzəninin tələblərini nəzərə alaraq, yeni bir xarici siyasətə yönəlik siyasət yürütməyə başlamışdır. Bu siyasətin əsasında Azərbaycanda və regionda sülh və əmin-amanlığı təmin edəcək əlaqələriinkişaf etdirmək nəzərdə tutulur. Heydər Əliyevin siyasi təcrübəsi, bürokratik mexanizmləri, Rus dövlət ənənəsini yaxından bilməsi, ona səmərəli yanaşma və siyasətin qurulmasında köməklik göstərmişdir.

Ulu Öndərin milli mənafelərə əsaslanan tarazlaşdırılmış xarici siyasəti, əsasən, aşağıdakı məsələlərin həllinə istiqamətləndirilmişdi.

- Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq;
- ölkənin beynəlxalq imicinə zərər vuran məqamları aradan qaldırmaq;
- haqq işimizi dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq;
- Azərbaycan ətrafındakı informasiya blokadasını yarmaq;
- Azərbaycanın taleyində təsiredici rol oynaya bilən dövlətlərlə münasibətlərdə yaradılmış əsassız gərginliyi aradan qaldırmaq;
- qonşu ölkələrlə münasibətlərin yaxşılaşdırılmasına, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin bərpa edilməsinə və qorunub saxlanılmasına nail olmaq;
- böyük dövlətlərlə sıx əlaqələr yaradıb bunları daha da genişləndirmək, müxtəlif universal və regional beynəlxalq təşkilatlara qoşulub onlarda fəal iştirak etməklə Azərbaycanın dünya siyasi və iqtisadi sisteminə inteqrasiyasını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etmək;
- öÖlkəmizin zorla cəlb edildiyi münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları qoşaraq onların fəal dəstəyinə nail olmaq. [1]

Heydər Əliyev həmin dövrdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğuladı. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının

vacibliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığı dəstək aktı"na 907-ci düzəliş" deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi.

Münaqişənin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərində qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü münaqişənin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, ölkəmizin cəlb olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi.

Heydər Əliyevin prezidentliyi dövründə çoxvektorlu xarici siyasətin mahiyyətinə uyğun olaraq Azərbaycanın dünyanın bütün güc mərkəzləri ilə, qonşu və qeyri-qonşu dövlətlərlə yeni, qarşılıqlı faydalılığa əsaslanan münasibətləri formalaşdırıldı və inkişaf etdirildi. Cənubi Qafqazda maraqları və təsir imkanları olan böyük və regional dövlətlərlə münasibətlər Heydər Əliyevin xarici siyasətində xüsusi yer tuturdu. Qısa olaraq bu əlaqələrə nəzər salaq. Eyni etnik soykökü birliyinə, tarixi, mənəvi yaxınlığa malik olduğumuz qardaş Türkiyə Cümhuriyyəti Heydər Əliyevin xarici siyasət strategiyasında ən əhəmiyyətli yerlərdən birini tutmuşdur. Heydər Əliyev Türkiyəyə ilk rəsmi səfərini 1994-cü il fevralın 8-11-i tarixlərində həyata keçirib. Qeyd olunan səfər zamanı iki dövlət arasında "Dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə" də daxil olmaqla, müxtəlif sahələri əhatə edən sazişlər imzalanmışdır. Heydər Əliyevin prezidentliyi dövründə hər iki dövlət arasında strateji tərəfdaşlıq münasibətləri sözdən əmələ, daha dəqiq desək, real müstəviyə keçmişdir. Hazırda Azərbaycan-Türkiyə münasibətləri rəsmi müttəfiqlik səviyyəsinə qədər inkişaf edib və hesab edirik ki, bu müttəfiqliyə gedən yolda Heydər Əliyevin siyasi-diplomatik mirasının xüsusi yeri vardır.

Müstəqilliyimizin ilk illərində münasibətlərimizin gərgin və ziddiyyətli olduğu Rusiya ilə əlaqələrə Heydər Əliyev ciddi önəm verirdi. Rusiya ilə münasibətlərdə əsasən bir sıra 5 məlum geosiyasi və digər səbəblərdən meydana çıxan kəskin problemlər həmin dövrdə yenicə müstəqilliyini əldə edən, Ermənistanla müharibə içərisində olan ölkəmiz üçün ciddi təhlükəsizlik riskləri yaradırdı. H.Əliyevin Rusiya ilə münasibətlərdə əsas götürdüyü prinsiplər mövcud geosiyasi reallıqları nəzərə alaraq ehtiyatlılıq, qarşılıqlı olaraq maraqların uzlaşdırılması və bütün bunlarla bərabər, müstəqilliyin, həyati milli maraqların qorunması, bərabərhüquqlu tərəfdaş kimi Azərbaycanın qəbul etdirilməsi olmuşdur. Prezidentliyi dövründə Heydər Əliyev dəfələrlə Rusiyaya

işgüzar və rəsmi səfərlər reallaşdırıb. Bu səfərlərdən ən vacibi, fikrimizcə, onun 1997-ci ilin iyulunda Rusiyaya etdiyi ilk rəsmi səfərdir. Bu səfər müddətində iki ölkə arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" müqavilə də daxil olmaqla, bir sıra vacib sənədlər imzalanmışdır. Rusiya prezidenti V.Putinin də 2001-ci ilin yanvarında Azərbaycana rəsmi səfəri müəyyən nəticələri ilə yadda qaldı. Ümumiyyətlə, hər iki səfər müddətində aparılan danışıqlar və imzalanan müqavilələr iki ölkə arasında münasibətlərin normallaşmasında, yeni mərhələyə daxil olmasında ciddi rol oynadı.

Heydər Əliyevin xarici siyasətdə önəm verdiyi əsas istiqamətlərdən biri də Qərb vektoru olmuşdur. Qərbin aparıcı dövlətləri ilə münasibətlərin dərinləşdirilməsinə Heydər Əliyev həm milli maraqlarımız, həm də regional geosiyasi proseslər kontekstində yanaşırdı. Belə ki, dərin siyasi təfəkkürə malik olan Heydər Əliyev aydın dərk edirdi ki, müstəqilliyimizi möhkəmləndirmək və bəzi neoimperialist siyasət həyata keçirən regional güc mərkəzlərinin neqativ təsirlərini azaltmaq üçün Qərbin Cənubi Qafqazda ciddi geosiyasi, geoiqtisadi maraqlarını formalaşdırmaq lazımdır. 1994-2003-cü illərdə xarici siyasətimizdə atılan bir sıra ciddi addımlar, reallaşdırılan böyük geostrateji əhəmiyyətli layihələr ("Əsrin Müqaviləsi", "Bakı-Tiflis-Ceyhan kəməri", "Böyük İpək Yolu" və s.) ölkəmizi Avro-Atlantika məkanına yaxınlaşdırmaqla bərabər, Cənubi Qafqazın Qərb üçün geosiyasi cəlbediciliyini də artırdı.

Beləliklə, Heydər Əliyevin düşünülmüş xarici siyasət strategiyası gənc, müstəqil dövlətimizin beynəlxalq münasibətlər sistemində milli maraq və mənafeyinin qorunmasında, təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadı. Heydər Əliyev balanslaşdırılmış xarici siyasətin Azərbaycan modelini yaratmaqla, həm də özündən sonra həyata keçiriləcək uğurlu xarici siyasətin əsasını qoymuş oldu. Bu baxımdan birmənalı şəkildə vurğulamaq olar ki, İkinci Qarabağ Müharibəsində əldə etdiyimiz tarixi zəfərimizdə də, mürəkkəb dünya düzənində layiqli yer tutmağımızda da Heydər Əliyevin zəngin siyasi-diplomatik irsi böyük rol oynamışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Məmməd Rzayev. Heydər Əliyevin Xarici Siyasəti və Azərbaycanın Beynəlxalq Uğurları. https://dergipark.org.tr/en/download/article-file/3364979

HEYDƏR ƏLİYEV İRSİ

Könül Nadir qızı Aydın
Əməkdar müəllim
Mingəçevir Dövlət Universiteti
konul.aydin@mdu.edu.az

Azərbaycan xalqı dünya xalqları arasında zəngin mədəniyyəti, şərəfli tarixi ilə öyündüyü kimi, yetirdiyi qəhrəman övladları ilə də daim fəxr etmiş, qürur duymuşdur. O qəhrəmanlar ki, dar ayaqda elinə, obasına dayaq olmuş, həyatını xalqına həsr etmişlər. Səbri, müdrikliyi, əzmkarlığı və millətinə, xalqına sonsuz sevgisi ilə bütün dünyanı heyrətləndirən Ulu öndər Heydər Əliyev kimi. Insana elə gəlir ki, tanıdığı, doğma, yaxın bir şəxsiyyət haqqında danışmaq o qədər də çətin olmayacaq. Lakin haqqında yazılanları oxuduqca, deyilənləri dinlədikcə, gördüyü böyük işlərə nəzər yetirdikcə bu şücaət, bu əzəmət haqqında danışmağın nə qədər məsuliyyətli olduğunu anlayırsan.

Heydər Əliyev haqqında dünyanın əksər siyasi liderləri fikirlər söyləmiş, heç biri heyrətini gizlədə bilməmişdir. Hamı onun qətiyyətini, dahiliyini, uzaqgörənliyini etiraf etməyə məcbur olmuşdur. Amerika Birləşmiş Ştatlarının sabiq prezidenti Bill Klintonun dediyi sözlər bunun bariz nümunəsidir. "Heydər Əliyev nəinki Azərbaycanı və Amerika Birləşmiş Ştatlarını, hətta bütün dünyanı idarə edə biləcək siyasi liderdir". [1]

Bəli, o bütöv bir şəxsiyyət idi. Sözü ilə əməli bir olan şəxsiyyət.

Bu dahi şəxsiyyət deyirdi ki, "Həyatın mənası çox ,yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır" .

Və O, belə bir nümunəvi həyat yaşadığını işi, əməli, zəkası, xalqına sədaqəti ilə həyatı bahasına sübut etmişdir. Azərbaycan adlı bir gəminin mahir kapitanı kimi onu qayalara çırpılıb məhv olmağa qoymamışdır. Quduz, sərt dalğaların arasından məharətlə çıxartmışdı. Bu gün müstəqillik yollarında sürətlə addımlayan, iqtisadi uğurları, siyasi sabitliyi, elm, təhsil nailiyyətləri ilə dünyanın diqqət mərkəzində olan Azərbaycan Heydər Əliyev zəkasına, müdrikliyinə borcludur.

Öz xalqını tanıyan, ona inanan Ulu Öndər bugünkü yüksəlişin möhkəm əsasını qoymaqla inanırdı ki, "Azərbaycan dünyaya bir günəş kimi doğacaq". Bu gün Heydər Əliyev özü Azərbaycanın üfüqlərində doğan bir günəşdir. Öz əli ilə çəkdiyi Azərbaycan adlı möhtəşəm əsərinə onun kimi yeni cizgilər əlavə edən ölkə prezidenti İlham Əliyevin yoluna işıq saçır. Ölkəmizin xoşbəxt gələcəyi üçün bəslədiyi arzularının reallaşdığını gördükcə ruhu sevinir. Çünki yanılmadığını, ölkənin etibarlı əllərdə olduğunu görür.

Biz H.Əliyevi düşünərkən, ilk nöbbədə onun qədd-qaməti, nurlu çöhrəsi, dərin mənalı gözləri, mükəmməl nitqi, insanlarla ünsiyyəti, məğrur yerişi, qalib görkəmi gözlərimiz önündə canlanır. O, hər bir adamla onun öz dilində danışmağı bacarırdı. Biz onu rəsmi görüşlərdə nə qədər ciddi, qayğılı görürdüksə, xalq arasında- vətəndaşlarla, sadə adamlarla, məktəblilərlə görüşlərində bir o qədər səmimi, doğma görürdük. Bayram şənliklərində xalqla birgə olmağı, onlarla deyib-gülməyi sevərdi. Bütün bunlar bu böyük şəxsiyyətin sadəliyindən, insanlara məhəbbətindən irəli gəlirdi.

Belə insanlar üçün xalq şairimiz Səməd Vurğunun deyimi ilə desək:

Böyük təbiətlər yaranır az-az,
Hər yerdə, hər zaman inci tapılmaz.

O, uşaqları, gəncləri şox sevirdi. Uşaqlarla elə davranardı ki, sanki onlarla danışan dünyanın ən məşhur siyasətçisi deyil, onların ailə üzvlərindən biridir. Tez-tez təhsil müəssisələrində olur, məktəblilərlə, tələbələrlə görüşürdü. Deyirdi ki, siz gənclər müstəqil Azərbaycanın gələcəyisiniz. Dilimizi, ədəbiyyatımızı, tariximizi sevin! Çünki bunları sevmədən əsl vətənpərvər kimi yetişmək olmaz. Hər bir məktəbliyə ilk sualı bu olurdu: "Azərbaycan dilini bilirsənmi? Nə qədər xarici dil öyrənirsinizsə, öyrənin. Bu da yaxşıdır. Amma bu, ana dilimizi sıxışdırmaq hesabına olmamalıdır". [2]

Hər bir inkişafın təməlində təhsil dayanır. Müəllimlər isə bu təməlin özülü olaraq şüurlarda çox önəmli dəyişikliklər yaratmaq gücündə olanlardır. Hər bir insanın həyatında özünü tanımağa, arzularının ardınca getməyə, öz potensialının fərqinə varmağa səbəb olmuş bir müəllim vardır. Bu gün ümumtəhsil müəssisələrində kiçikyaşlı uşaqlarda Heydər Əliyev şəxsiyyətinə hörmət hisslərinin aşılanmasında, onun ideyalarının həyata keçirilməsində müəllimin rolu böyükdür. Bu da öz növbəsində , tərbiyə işində şəxsiyyətin nümunəsinin və irsinin təsir gücünün əsas faktor olduğunu bir daha önə çıxarır.

H.Əliyev elə bir şəxsiyyət idi ki, rəssamla rəssam, memarla memar, alimlə alim kimi danışırd. " Zəhmət və bacarıqla irəliləyən adamlar öz işinin şərəfini və məsuliyyətini yaxşı dərk edirlər " deyən bu əziz insan cəmiyyətin bütün təbəqələrinə xüsusi diqqəti, qayğısı ilə seçilirdi. İşıqlı zəkası ilə O, Azərbaycana rəhbərlik etdiyi gündən doğma xalıqının mədəniyyətinin inkişafı sahəsində xeyli işlər gördü.

Mədəniyyətimizdə silinməz izləri olan İ.Nəsimiyə, Ş.İ.Xətaiyə, H. Cavidə, N.Nərimanova, C. Cabbarlıya və başqalarına ucaldılmış möhtəşəm heykəl və abidələr məhz H. Əliyev yadigarlarıdır. O dövrdə yaşayan insanlar bilirlər ki, 70-80-ci illərdə Azərbaycanda nə qədər şair və yazıçılarımızın yubileyləri keçirilmişdir. H.Əliyevin keçirdiyi hər bir yubiley əsl mədəniyyət hadisəsinə çevrilirdi. Belə mərasimlər isə xalqı sadəcə tanıtmır, həm də ucaldırdı.

Deyirlər min qəddi əyən yük bir çiyinə düşdükdə dahilik yaranır. Və bizlər də məhz dahilərdən həyat dərsi alırıq, adilərdən yox. Çünki onlar müzakirə olunmur, onlar öyrənilir.Bu həqiqətən də, belədir. Ümummilli lider H.Əliyev şəxsiyyəti özü kimi tarixi hadisədir. Onun şəxsiyyəti hələ əsrlər boyu öyrəniləcək və gələcək nəsillərə çatdırılacaq.

Onunla eyni bir xalqın, eyni bir Vətənin övladı olmağımla qürur duyuram. Onun azərbaycanlı olması ilə qürur duyduğu kimi!

Qəbrin nurla dolsun, ey dahi insan!
Şairsən, alimsən, gözəl memarsan,
Səni unudarmı Can Azərbaycan?
Biz harda varıqsa, sən orda varsan!

İstifadə edilmiş ədəbiyyat

1. Paşayev Q.M. Xilaskarlar, Bakı: Təhsil, 2021, 135 s.
2. Məmmədov C.V. Cəmiyyət, şəxsiyyət, təhsil, din. Bakı: Nurlar, 2021, 174 s.

YAŞIL ENERJİNİN TƏŞƏKKÜLÜ ZAMANIN TƏLƏBİDİR

Əbülfət Həsən oğlu Ədilov
Mingəçevir Dövlət Universiteti
abulfat.edilov@mdu.edu.az

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü il Respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Bu sərəncam ekoloji məsələlərin həlli üçün bütün fəaliyyət istiqamətlərinin, xüsusən, energetiklərin, üzərinə böyük məsuliyyət qoyur.

Xalq təsərrüfatının artan inkişafı ilə əlaqədar atmosferə atılan tullantıların miqdarı daim artmaqdadır. Məhz bu səbəbdən planetin hərarətinin yüksəlməsi prosesi baş verir. Temperaturun təqribən hər on ildə 1 ºC artmasını nəzərə alsaq, əsrin sonuna qədər bu artım 11 dərəcəyə çata bilər. Yer kürəsinin iqliminin kəskin dəyişməsi isə, öz növbəsində, qarşısıalınmaz fəsadlar, hətta faciələrlə nəticələnə bilər. Xalq təsərrüfatının sürətli inkişafı bir tərəfdən zərərli tullantıların artmasına, digər tərəfdən dolayısı ilə meşə sahələrinin azalmasına səbəb olur. Bu isə, atmosferdə oksigen ehtiyatı miqdarının azalması, karbonun isə çoxalması deməkdir. Texnikanın inkişafı ilə milyonlarla maşınlar, qazanxanalar, zavodlar, kondensionerlər və sairədən (xüsusən dizel mühərriklərindən) ayrılan texniki tullantlıar bu qəbildən olan proseslər olmaqla addım-addım dünyamızı məhvə sürükləməkdədir. Okeanlardan ayrılan su və fotosintez hadisələri atmosferdə oksigenin tənzimlənməsinin əsas təbii istiqamətləri olsa da, texnikanın inkişaf sürəti ilə ayaqlaşa bilmir və tarazlığın pozulması qaçılmaz olur. Nəticədə ozon qatının məhvi və oksigen çatışmazlığı kimi ekoloji pozuntular zəncirvari şəkildə digər fəsadların ortaya çıxmasına şərait yaradır. Belə ki, günəşin ultra bənövşəyi şüalarının atmosfer qatını keçməsi, hava çatışmazlığı, kəskin iqlim dəyişikliyi və bu təsirlərdən təbii fəlakətlərin artması kimi qarşısıalınmaz proseslər bəşəriyyəti öz ağuşuna almaqdadır. İri şəhərlərdə illər boyu yığılıb istifadəsiz qalmış məişət və sənaye tullantıları da ciddi ekoloji problemlər yaranmasına səbəb olan məsələlərdəndir. Respublikamızda Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə yaradılmış tullantı məntəqələrində illər boyu yığılıb qalmış tullantılar ekoloji pozuntulara səbəb olmaqla yanaşı insanların sağlamlığı cəhətdən də böyük təhlükə mənbəyidir. Odur ki, ekoloji cəhətdən belə təhlükə mənbələrinin idarə olunması cəmiyyətin qarşısında qoyulmuş ümdə məsələlərdəndir. Bunun üçün aşağıdakı strateji məsələlərin həyata keçirilməsi labüd şərtlərdəndir:

a) təhlükəli sənaye tullantılarının yerləşdirilməsi üçün yeni sənaye poliqonlarının yaradılması;

b) sənaye tullantılarının çeşidlənməsi, utilizə edilməsi və təkrar emalının təşkili məqsədilə mütərəqqi təcrübədən istifadə olunması;

c) tullantılardan bioqazın alınması üçün müvafiq üsulların tətbiq olunması;

d) enerji, eləcə də, kompost alınması məqsədi ilə tullantılardan səmərəli istifadə və s.

Sadalanan problemlərin həlli istiqamətdə 2021-ci ildə Qlazqo şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 26-cı Sessiyasında (COP26) geniş

müzakirələr aparılmışdır. Müzakirələrdə iştirak edən Azərbaycan nümayəndəliyi 2050-ci ilə qədər istixana emissiyalarının 1990-cı il səviyyəsi ilə müqayisədə 40 %-ədək azaldılmasını şərti hədəf olaraq elan etmiş, eyni zamanda, həmin müddətədək işğaldan azad olunmuş ərazilərdə karbon neytrallığı zonası yaratmaq təşəbbüsünü bildirmişdir.

Ölkəmizdə çirklənmə səviyyəsi barədə təsəvvür yaratmaq üçün 2003-2007-ci illərdə aparılmış ölçmələrin nəticələrini nəzərdən keçirək: 2007-ci ildə Azərbaycan ərazisində atmosferə atılan zərərli maddələrin ümumi miqdarı 385,9 min ton olmuşdur. Bu maddələr içərisində qazaoxşar maddələr (kükürd anhidridi-SO_2, azot 4-oksid-NO_2, karbon 4-oksid-CO_2) xüsusi yür tutur. 2005-ci ildə ölkəmizin atmosfer tullantılarında bu maddələrin miqdarı SO_2 - 13,8 min ton, NO_2 - 25,8 min ton, CO_2 - 26,1 min ton olmuşdur. Görülən effektli tədbirlər sayəsində 2007-ci ildə bu miqdar SO_2 - 9,2 min ton, NO_2 - 25,3 min ton, CO_2 - 23,1 min ton səviyyəsinə endirilmişdir. 2003-cü ildə toksiki istehsalat tullantılarının miqdarı 29,5 min ton təşkil etdiyi halda, həyata keçirilən tədbirlər sayəsində 2007-ci ildə bu rəqəm 10,4 min ton səviyyəsinə qədər endirilmişdir. Göründüyü kimi istehsalat və məişət tullantılarının idarə olunması ekoloji problemlərin azaldılması deməkdir və bu bəşəriyyətin ən vacib məsələsidir. Bu mənada Hörmətli Prezidentimizin "Yaşıl dünya naminə həmrəylik ili" barədə sərəncamı vaxtında həyata keçirilən tədbir kimi təqdirə layiqdir. Ölkəmizdə xalq təsərrüfatının bütün istiqamətləri bu sərəncam sayəsində yaşıl dünya naminə öz töhvələrini vermək üçün səfərbər olunmuşdur. Bundan öncə də, "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrası çərçivəsində, bəzi işlər həyata keçirilmişdi. Belə ki, Bakı şəhərində bərk məişət tullantılarının kompleks yandırılması zavodu tikilib istifadəyə verilmişdi. Zavod müasir texnologiyanın tətbiqi sayəsində Avropa İttifaqının ən sərt ekoloji normativlərinə cavab verməklə, Avropa və MDB məkanında bu tipli ən iri müəssisə sayılır. Zavodun illik gücü 500 min ton məişət və 10 min ton tibbi tullantıları emal etmək üçün nəzərdə tutulmuşdur. Bu tullantıların yandırılması sayəsində 100 min ev təsərrüfatını elektrik enerjisi ilə təmin etmək mümkündür.

Respublikamızda "Yaşıl dünya naminə həmrəylik" tədbiri, bütün fəaliyyət sahələri kimi, energetiklərin də üzərinə böyük məsuliyyət qoyur. Energetik tullantıların təsirini və miqdarını azaltmaq üçün daim tədqiqatlar aparılır və əldə olunan müsbət nəticələr istehsalata tətbiq olunur. Energetikada ekoloji problemlərin həlli istiqamətində həyata keçirilən ən vacib işlər "yaşıl" texnologiyanın həyata keçirilməsidir. Son on illiklərin nailiyyəti kimi elektrik enerjisinin istehsalında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə geniş vüsət almaqdadır. Müasir dünyada resurslara qənaət edilməsi ən aktual məsələlərdən sayıldığı uçun belə texnologiyaların tətbiqi, bütün sahələrdə olduğu kimi, energetikada da perspektivli olduğu qəbul edilir. Belə texnologiyalardan biri, üzvü yanacağın tərkib hissəsinin əsasını təşkil edən hidrogen və karbohidrogenlərin yanacaq elementlərindən istifadə etməklə, kimyəvi reaksiya sayəsində elektrik və istilik enerjisinin əldə olunması prosesidir. Yanacaq elementləri əsasında yaradılan ekoloji cəhətdən təmiz, müxtəlif təyinata və gücə malik elektrokimyəvi generatorlar tətbiq olunmağa başlanılmışdır. Belə qurğular xalq təsərrüfatının müxtəlif sahələrində mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş energetikada, nəqliyyatda, istehsal proseslərində, o cümlədən, dəniz hidrotexniki qurğularında istifadə oluna bilər. Yanacaq elementlərindən istifadə sənayedə, nəqliyyatda və məişətdə inqilabi çevrilişə qadir texnologiya hesab edilir. Müqayisə üçün deyək ki, bu texnologiya ilə hasil olunan elektrik enerjisinə sərf olunan şərti yanacağın xüsusi sərfi müasir buxar-qaz turbin qurğulu stansiyalara nəzərən iki dəfə az olur. Atmosferə atılan tullantılar isə iki dəfədən də artıq azaldılmış olur. Mərkəzdən uzaq məsafələrdə yerləşən ərazilərin, elektrik mühərriki ilə işləyən nəqliyyat vasitələrinin, açıq dəniz şəraitində istismar olunan qurğuların və s. elektrik enerjisi ilə təchizatında bu texnologiyanın tətbiqi əvəzsizdir. Ümumiyyətlə yanacaq elementləri texnologiyasının tətbiqi elektrik enerjisi istehsalında neft və qaz yanacaqlarının sərfini 30-50 %, istehsalat və istismar xərclərini 25-40 % azaltmaqla, elektrik enerjisinin maya dəyərini də 20-30 % azaltmış olur. Eyni zamanda bu texnologiya qeyri-əsas enerji resurslarından və kənd təsərrüfatı məhsullarından istifadəyə şərait yaradır, həm də atmosferə atılan zərərli elementlərin, o cümlədən karbon qazının 50 % azaldılmasına imkan verir.

Ölkəmizdə 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair plan hazırlanmışdır. Bu planın beş əsas prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" səviyyəsinin əldə olunmasıdır. Bunu əldə etmək üçün ətraf mühitin sağlamlaşdırılmasına nail olmaq, yaşıllıqların bərpası və artırılması tədbirlərini həyata keçirmək, su ehtiyatlarından və bərpa olunmayan enerji resurslarından səmərəli istifadə etmək, bərpa olunan enerji növlərindən istifadəyə perspektivdə geniş yer vermək vacib şərtlərdəndir. Sadalanan məsələlərin həlli ilə əlaqədar işğaldan azad edilmiş Qarabağ, Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan edilmişdir. Azərbaycanın enerji siyasətinin prioriteti olaraq yaşıl enerjiyə geniş yer verilməsi, enerjinin istehsalı və dünya bazarlarına nəqli energetiklərin ən ümdə məsələsi kimi qarşıya qoyulmuşdur. Bu məqsədlə 2030-cu ilədək elektrik enerjisi istehsalının qoyulmuş gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması hədəf olaraq nəzərdə tutulmuşdur. Göstərilən hədəfə yetişmək üçün artıq bəzi tədbirlər həyata keçirilməkdədir. Belə ki, 2020-ci ilin yanvarında Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpa olunan enerji sahəsi üzrə pilot layihələrin həyata keçirilməsi barədə icra müqaviləsi imzalanmışdır. Müqavilə əsasında "ACWA Power" şirkəti tərəfindən 240 MVt/saat gücündə külək, "Masdar" şirkəti tərəfindən 200 MVt/saat gücündə Günəş Elektrik Stansiyalarının tikilməsi nəzərdə tutulmuşdur. Həmin il dekabrın 30-da Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında külək elektrik stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. Ötən il yanvarın 13-də isə "ACWA Power" şirkəti ilə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bundan başqa, 2022-ci il martın 15-də Bakıda keçirilən 230 MVt/saat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilmiş və bu zaman "Masdar" şirkəti ilə dörd anlaşma memorandumu qəbul edilmişdir. Ölkəmiz bərpa olunan enerji istiqamətində əsasən üç enerji şirkəti ilə müqavilələr imzalamışdır. Müqavilələr əsasında uyğun olaraq həm dənizdə, həm də quruda 25000 MVt günəş və kulək bərpaolunan enerji istehsalı nəzərdə tutulmuşdur. Bunun 12000 MVt-ı "Fortescue" şirkətinin öhdəsinə düşür. Energetika sahəsində dünyanın ən aparıcı şirkətləri və investorları ilə bağlanmış müqavilələr deməyə imkan verir ki, yaxın illərdə ölkəmizdə istehsal olunan bərpa olunan enerjinin miqdarı 10000 MVt-a çatdırılacaqdır. Bağlanmış müqavilələrin nəticəsi olaraq ötən ilin oktyabrında "Masdar" şirkəti tərəfindən Xəzər dənizi və Qafqaz regionunun ən böyük gücdə olan (230 MVt/saat) Qaradağ Günəş Elektrik Stansiyasının açılışı olmuşdur.

2023-cü ilin dekabrında Azərbaycan Respublikası Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində tərəfdaşlıq üzrə Buxarestdə "Saziş" imzalanması barədə plenar iclas keçirilmişdir. Burada prezident İlham Əliyev çıxış edərək demişdir: "Bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27000 MVt-dan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157000 MVt təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3000 MVt/saat külək və 1000 MVt/saat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Ölkəmiz 2037-ci ilə qədər ən azı 6000 MVt/saat-lıq əlavə energetik güclərin yaradılması istiqamətdə işlər planlaşdırır. Azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 MVt/saat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 MVt/saata çatdırılacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 MVt/saat təşkil edəcək. Hazırda ölkəmizdə 4000 MVt/saat gücündə bərpa olunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırma hazırlanır".

Nəzərdə tutulan hədəflərə yetmək üçün artıq bəzi işlər görülməkdədir. Buna misal olaraq istifadəyə verilmiş, tikilməkdə olan və nəzərdə tutulan əsas bərpa olunan enerji stansiyalarından aşağıdakıları göstərmək olar: "Xızı-Abşeron" Külək Elektrik Stansiyası,"Qaradağ" Günəş Elektrik Stansiyası, "Xırdalan" və "Qız qalası" Su Elektrik Stansiyaları, Şərqi Qarabağ və Naxçıvan "Yaşıl Enerji" Zonası və digər layihələr bu qəbildəndir.

İstifadə edilmiş ədəbiyyat

1. Nurəliyeva R.N.: Azərbaycanın yanacaq enerji kompleksinin inkişafının iqtisadi-ekoloji problemləri. Bakı, - Azərnəşr- 2010;
2. Azərenerji ASC mətbuat xidmətinin məlumatları;
3. Azərbaycan Respublikası Prezidentinin sərəncam və çıxışları

РАБОТА ГАЗОВОЙ ЗАЩИТЫ ТРАНСФОРМАТОРОВ

[1,2]**Алим Везир оглы Наджафов,** [1,3]**Айбаниз Бахыш кызы Шафиева**
[1]Мингячевирский государственный университет
[2]alim.nacafov@mdu.edu.az
[3]aybaniz.shafiyeva@mdu.edu.az

Газовая защита как известно, является чувствительной защитой от внутренних повреждений или ненормального режима трансформаторов. Эта защита в зависимости от интенсивности газообразования срабатывает либо на сигнал, либо на отключение трансформатора.

При срабатывание газовой защиты на сигнал, это означает что небольшие внутренние повреждения трансформатора привели к слабому газообразованию, или при заливке и очистке масла в трансформатор попал воздух, или медленно понижается уровень масла из-за снижения температуры или вследствие течи масла из бака.

Если газовая защита сработала на сигнал и на отключение, это вызывается внутренними повреждениями и другими причинами, сопровождаемыми сильным газообразованием. Это означает, что произошло замыкание между витками первичной или вторичной обмотки трансформатора. Это повреждение может быть вызвано недостаточной изоляцией переходных соединений, продавливанием изоляции витков при прессовке или вследствие наличия заусенцев на меди витка, механическими повреждениями изоляции, естественным ее износом, электродинамическими усилиями при коротких замыканиях, обнажением обмотки вследствие снижения уровня масла.

По замкнутым накоротко виткам проходит ток большой силы, причем ток в фазе может лишь незначительно возрасти, изоляция витков быстро сгорает, могут выгореть сами витки, причем возможно разрушение и соседних витков. При развитии аварии может произойти междуфазное короткое замыкание.

Если число замкнутых витков значительно, то в короткий промежуток времени масло сильно нагревается и может вскипеть.

При отсутствии газового реле может произойти выброс масла и дыма через предохранительную пробку расширителя.

Замыкание между витками характеризуется не только ненормальным нагревом масла и некоторым увеличением тока на стороне питания, но и уменьшением омического сопротивления фазы, имеющей замыкание.

Если, произошло междуфазное короткое замыкание, вызванное теми причинами, что и пробой изоляции и протекающие весьма бурно, то при этом может произойти выброс масла из расширителя или через диафрагму предохранительной трубки.

При образовании короткозамкнутого контура из-за повреждения изоляции болтов, стягивающих активную сталь трансформатора, короткозамкнутый контур сильно нагревается и вызывает нагрев масла. Болт и близлежащие листы активной стали могут быть разрушены.

В трансформаторах состыковыми магнитопроводами короткозамкнутый контур может образоваться при соприкосновении накладок, прессующих стержни с ярмами.

Если произошло замыкание между листами активной стали вследствие повреждения междулистовой изоляции, естественного износа изоляции, то из-за такого повреждения

изоляции появляется значительные вихревые токи, которые вызывают большие местные перегревы активной стали, что с течением времени может привести к местному выгоранию стали. В стыковых магнитопроводах может произойти сильное нагревание стыков вихревыми токами из-за повреждения прокладок в них.

Когда после ремонта или же вследствие резкого похолодания, значительно снижается уровень масла в трансформаторе, то интенсивно выделяется воздух из масла. Следует отметить что в практике отмечены также случаи ложного срабатывания газовой защиты из-за неисправности цепей вторичной коммутации защиты.

Так как срабатывание газовой защиты может быть вызвано весьма различными причинами, то прежде чем приступить к устранению неисправности, необходимо точно установить причину, вызвавшую срабатывание газовой защиты. Для этого необходимо выяснить, какая из защит сработала, произвести исследование газов, скопившихся в газовом еле и определить их горючесть, цвет, количество и химический состав.

Чтобы определить горючесть газа, к верхнему крану газового реле подносят с боку зажженную спичку, после чего открывают кран. Горючесть газа свидетельствует о наличии внутреннего повреждения. Если газы бесцветны и не горят, то причиной действия реле является выделившийся из масла воздух.

Цвет выделившегося газа позволяет судить о характере повреждения:

Бело-серый цвет свидетельствует о повреждении бумаги или картона, желтый - дерева, черный - масла.

Так как окраска газа может через некоторое время исчезнуть, то его цвет следует определить тут же при его появлении.

Снижение температуры вспышки масла также свидетельствует о наличии внутреннего повреждения.

Если причиной действия газовой защиты является выделение воздуха из масла, то воздух из реле следует выпустить.

При снижении уровня масла его следует долить, отключив защиту от действия на отключение. Когда доливка масла закончена и воздух перестал выделяться защиту включают на отключение.

При повреждениях обмотки необходимо найти места повреждения и произвести соответствующий ремонт. Для этого необходимо вскрыть трансформатор и извлечь магнитопровод.

Замкнутые накоротко витки обмотки можно найти при включении трансформатора со стороны высшего напряжения на пониженное напряжение. Короткозамкнутый контур будет сильно разогрет, и в обмотках появится дым. Этим способом могут быть найдены и другие короткозамкнутые контуры.

Поврежденные места в активной стали могут быть найдены при холостом ходе трансформатора, эти места будут сильно нагреты. При этом испытании напряжение подводят к обмотке низшего напряжения и поднимают с нуля, а обмотка высшего напряжения должна быть предварительно разъединена в нескольких местах во избежание пробоя обмотки, из-за отсутствия масла.

Замыкания между листами активной стали и ее оплавление можно устранить перешихтовкой поврежденной части магнитопровода с заменой между листовой изоляции. Поврежденную изоляцию в стыках магнитопровода заменяют новой, состоящей из листов асбеста толщиной 0,8÷1,0 мм. Для изоляции между листами активной стали сверху и снизу прокладывают кабельную бумагу толщиной 0,07÷0,1 мм, пропитанных глифталиевым лаком.

Использованная литература

1. В.А.Булат, А.Г.Губанович, С.М.Силюк Электромагнитные переходные процессы, Минск, БНТУ, 2020

2. Л.Е.Паперный, М.В.Алейникова Эксплуатация силовых трансформаторов, Минск, БНТУ, 2015

DAYANIQLI İNKIŞAF MƏQSƏDLƏRİ: AZƏRBAYCAN ÖHDƏLİKLƏRİ VƏ ONUN REALLAŞDIRILMASI STRATEGİYASI

Arif Məmmədhəsən oğlu Tağıyev
Mingəçevir Dövlət Universiteti
arif.taqiyev@mdu.edu.az

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ölkəmizin davamlı və dayanıqlı inkişaf konsepsiyası bu gün uğurla inkişaf etməkdə davam edir. "Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyası hər şeydən əvvəl zəngin məzmuna və böyük təsir gücünə malik olması ilə fərqlənir. Tam qətiyyətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi onun tarixinin ən intensiv inkişaf mərhələsi kimi yadda qalmışdır" [3, s.37].

Məlum olduğu kimi, davamlı inkişaf konsepsiyası beynəlxalq statusa malik bir iqtisadi kateqoriya, inkişaf strategiyası, günümüzün reallığına əsaslanan aktual və gələcək həyatımıza istiqamətlənmiş bir inkişaf yanaşması, inkişaf strategiyasıdır. Bu gün davamlı inkişaf anlayışına müxtəlif yanaşmalar mövcuddur. Hazırda davamlı inkişaf konsepsiyası sosial-iqtisadi inkişafın prinsipcə yeni modeli olmaqla sosial ədalət anlayışının daha genişləndirilmiş formasını ifadə edir. Məhz bu baxımdan davamlı inkişaf modelinə həm bu günün tələbatının ödənilməsi, həm də gələcək nəslin tələbatının ödənilməsinə imkan verən bir kateqoriya kimi yanaşılır. "Resurslardan maksimum səmərəli istifadə və ətraf mühitin mühafizəsi yolu ilə gələcək nəsillərin ehtiyat mənbələrinin tükənmədən bugünkü nəslin ehtiyaclarının ödənilməsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzində dayanan əsas ümumbəşəri məqsəddir" [3, s.5]

Davamlı inkişafı izah edən digər bir xüsusiyyət isə milli iqtisadiyyatın daim dəyişikliklərə meylli olan sosial-iqtisadi proseslərə dayanaqlı olmasıdır. Yəni davamlı inkişaf ancaq iqtisadi amillərdən deyil, eyni zamanda iqtisadiyyatın tənzimlənməsi, idarə edilməsi, çevik idarəetmə mexanizminin yaradılmasından da asılıdır. Mahiyyət etibarı ilə davamlı inkişaf konsepsiyası iqtisadi, sosial və ekoloji problemlər fonunda mövcud problemlərə keyfiyyətcə yeni yanaşmadır. Belə bir yanaşma isə davamlı inkişaf modelinin əsas prinsipləri hesab edilir.

Son dövrlərdə dünya təsərrüfatı sistemində baş verən sürətli texnoloji inkişaf və qloballaşma, təbii və iqtisadi resurslardan intensiv istifadə edilməsi, dünyada ekoloji durumun pozulması, iqtisadi və maliyyə böhranlarının, sosial-iqtisadi problemlərin yaranmasına birbaşa və ya bəzi hallarda dolayısı olaraq təsir göstərməkdədir.

Zəngin bazar iqtisadiyyatı təcrübəsi göstərir ki, ölkənin milli iqtisadiyyatının davamlı və kompleks inkişafına ancaq onun həm iqtisadi, həm də sosial, həm də eyni zamanda ekoloji təmiz ətraf mühit baxımdan bərabər səviyyəli inkişafı nəticəsində nail olmaq olar. Bu üç amil bir-biri ilə sıx bağlı olan bir çox iqtisadi kateqoriyaların vəhdətliyindən əmələ gələn təmiz ətraf mühitə əsaslanmış sosial-iqtisadi inkişaf konsepsiyasını formalaşdırır. Məlumdur ki, güclü, dayanaqlı və daim inkişafa meylli iqtisadiyyat qurmadan sosial inkişafa nail olmaq mümkün olmadığı kimi, güclü sosial bazaya, keyfiyyətli əmək ehtiyatlarına malik olmadan güclü iqtisadiyyat qurmaq mümkün deyil. Odur ki, güclü və davamlı milli iqtisadiyyatın formalaşdırılması ilk növbədə dövlətin elmi cəhətdən əsaslandırılmış, yeni texnologiyalara cavab verən maddi-texniki bazaya malik sosial-iqtisadi inkişaf konsepsiyasının mövcudluğunu tələb edir.

Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi Dayanıqlı İnkişaf Gündəliyi hazırda dünyanın əksər ölkələri tərəfindən dəstəklənir. Belə ki, 25 sentyabr 2015-ci ildə Azərbaycan da daxil olmaqla BMT-nin 193 üzv dövləti "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"ni qəbul etmişdilər. Bu inkişaf proqramı 3 təməl prinsipinə əsaslanır: iqtisadi artım; sosial inkişaf və ətraf mühitin qorunması (ekoloji təhlükəsizliyin təmin olunması). Bu proqram çərçivəsində Azərbaycan 17 məqsədi, 107 hədəfi və 150 göstəricini özü üçün seçib və onların icrası üzrə müvafiq işlər görülməkdədir.

Azərbaycanda qəbul olunmuş 17 Dayanıqlı İnkişaf Məqsədləri (DİM) əsasən aşağıdakı məqsədləri əhatə edir:

- Yoxsulluğa son;

- Aclığa son;
- Sağlamlıq və rifah;
- Keyfiyyətli təhsil;
- Gender bərabərliyi;
- Təmiz su və sanitariya;
- Sərfəli və təmiz enerji;
- Layiqli əmək və iqtisadi artım;
- Sənaye, innovasiya və infrastruktur;
- Bərabərsizliyin azaldılması;
- Dayanıqlı şəhərlər və icmalar;
- Məsuliyyətli istehsal və istehlak;
- İqlim dəyişikliyi ilə mübarizə;
- Su altında həyat;
- Torpaq ekosisteminin mühafizəsi;
- Sülh, ədalət və səmərəli institutlar
- Davamlı inkişaf naminə tərəfdaşlıq (şək. 1).

Şək. 1. Dayanıqlı inkişaf üzrə Azərbaycanın üzərinə götürdüyü 17 məqsəd

Buradan göründüyü kimi, Davamlı inkişaf konsepsiyası daxilində qəbul edilmiş öhdəliklər kifayət qədər geniş əhatəlidir və onun yerinə yetirilməsi üçün dövlət milli iqtisadiyyatda güclü struktur siyasətinin reallaşdırmasını təmin etməlidir. Bundan əlavə dövlət üzərinə düşən öhdəliklərin yerinə yetirilməsində şəffaf hesabatlığın təmin edilməsi məqsədi ilə "2018-ci ildən etibarən Dövlət Statistika Komitəsi tərəfindən "Dayanıqlı İnkişaf Məqsədləri: statistik icmal" adlı illik statistik məcmuə nəşr olunur" [2]. İllik statistik məcmuədə qəbul olunmuş hər bir məqsəd üzrə beynəlxalq standartlara uyğun statistik məlumatlar əsasında geniş hesabat verilir.

İqtisadiyyatın və iqtisadi sistemin strukturlaşması təbii və iqtisadi resursların və güclərin təmərküzləşdirilməsi, onları milli iqtisadiyatın maraqlarını ifadə edə biləcək daha əhəmiyyətli və strateji məqsədlərin reallaşdırılmasına yönəldilməsini şərtləndirir. Mahiyyət etibarı ilə dövlətin struktur siyasəti onun sosial-iqtisadi inkişaf konsepsiyasının tərkib hissəsi kimi qəbul edilmiş strateji və taktiki vəzifələrin yerinə yetirilməsinin mühüm vasitəsi olaraq dövlətin struktura və struktur dəyişikliklərinə olan münasibətini ifadə edir. Bu baxımdan müasir yanaşmada dövlətin struktur siyasəti onun həyata keçirdiyi dövlət idarəetməsi və tənzimlənməsinin, təkrar istehsalın,

sosial, ekoloji, sahəvi, regional problemlərin həllinə istiqamətlənmiş və dövlət tərəfindən daha məqbul hesab edilən sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsini nəzərdə tutan tədbirlər sistemi kimi qəbul edilir.

Müasir dövrümüzdə dövlətin struktur siyasətinin xarakterik xüsusiyyəti onun daha perspektivli, uzunmüddətli olmasıdır. Yəni nəzərə almaq lazımdır ki, burada həyata keçirilən və ya tədbiq edilən tədbirlər öz nəticələrini tez bir zamanda deyil, müəyyən dövrdən, bir neçə ildən, hətta bəzi hallarda onilliklərdən sonra göstərə bilər. Bu mənada Azərbaycan dövlətinin struktur siyasətinin əsas parametrlərini özündə əks etdirən Strateji Yol Xəritələri, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", daha əvvəl "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası və digər çoxsaylı reginal, sahəvi və problem xarakterli Dövlət Proqramları qəbul edilmiş və icra edilməkdədir. Dövlətin struktur siyasəti birbaşa olaraq onun idarəetmə, maliyyə-büdcə, innovasiya-investisiya, regional, xarici-iqtisadi siyasəti ilə əlaqəli və bağlıdır, yəni dövlətin struktur siyasətinin reallaşdırılması üçün, ilk növbədə, kapital qoyuluşu, onun maliyyələşdirilməsi, elmi cəhətdən əsaslandırılması çox vacibdir. Burada vacib amillərdən biri ölkədaxili və xarici investisiyaların ölkənin iqtisadi-sosil maraqlarına uyğun strukturlaşdırılması, şaxələndirilməsi və diversifikasiyasıdır. Burada əsas amillərdən biri reallaşdırılan investisiyaların innovativ xarakterli olmasına üstünlük verilməsidir.

Milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi zəruriyyəti onun, ölkənin sosial-iqtisadi inkişafındakı xüsusi əhəmiyyətdən irəli gəlir. Milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi prioritetlərin seçilməsi və onların inkişaf etdirilməsi, dövlətin iqtisadi-sosial inkişaf siyasətinin və strategiyasının reallaşdırılması, ilk növbədə, ciddi struktur dəyişikliklərinin, yeniliklərinin həyata keçirilməsini zəruri edir. Bu isə, öz növbəsində, iqtisadi strukturun və onun prioritet sahələrinin təkmilləşdirilməsini, yenidən qurulmasını tələb edir.

"Milli iqtisadiyyatın balanslaşdırılmış və dayanıqlı inkişafında iqtisadi struktura xüsusi əhəmiyyət kəsb edir. İqtisadi struktura olduqca dinamik və iqtisadi situasiyalara olduqca həssasdır. Təkcə iqtisadi amillər deyil, eyni zamanda cəmiyyətin həyatında baş verən siyasi və sosial-ictimai xarakterli proseslərdə iqtisadi struktura ciddi təsir göstərə bilər" [4, s.76].

Milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi istiqamətlərindən biri istehsalın şaxələndirilməsi və diversifikasıyasıdır. Lakin burada düzgün sahələrarası balansın qurulması və tənzimlənməsi olduqca vacibdir. Sahələr arası balansın əsas təyinatı milli iqtisadiyyatın strukturunun təhlili, proqnozlaşdırılması və tənzimlənməsində istifadə edilməsidir. Balans metodu planlaşdırmanın əsas metodu olmaqla tarixən bir çox istiqamətlər üzrə təkmilləşdirilmişdir. Məşhur rus əsilli Amerika iqtisadçı alimi V.Leontyev bir ölkə daxilində sahələr arası əlaqələri regionlar arası və rayonlar arası əlaqələrlə uzlaşdırmaqla bu metodikanı bir qrup ölkələrə, son nəticədə isə dünya təsərrüfatına şamil etmişdir.

Hazırda sahələrarası balansa ÜDM formalaşdırılması, yaradılması, yenidən bölgüsü və istifadəsi proseslərini özündə əks etdirən bir vasitə kimi baxılır. Yüzlərlə sahələrə bölünməklə ümummilli məhsulun istehsalı və bölüşdürülməsinə dair sahələr arası balans dünyanın səksəndən çox ölkəsində tətbiq olunur və son nəticədə bunun vasitəsi ilə milli iqtisadiyyatın təhlili, inkişafın proqnozlaşdırılması və planlaşdırılması aparılır. Bazar iqtisadiyyatı şəraitində proqnozlaşdırma, proqramlaşdırma və planlaşdırmanın əsas məqsədi ölkənin sosial-iqtisadi inkişafı konsepsiyasının, onun cari və perspektiv məqsədlərinin həyata keçirilməsi üçün bazar subyektlərinin maraqlarının bu istiqamətdə cəmlənməsi və birləşdirilməsindən ibarətdir.

Ayanıqlı inkişaf konsepsiyasının reallaşdırılmasının əsas şərtlərindən biri də ölkənin milli təhlükəsizliyinin əsas bazasl kimi onun iqtisadi təhlükəsizliyinin təmin olunmasıdır. Odur ki, Azərbaycan Respublikası Prezidentinin 29 iyun 2004-cü il tarixli Fərmanı ilə təsdiq olunmuş "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununda ölkənin milli, o cümlədən onun tərkib hissəsi kimi iqtisadi, sosial və ekoloji təhlükəsizliyinin təmin olunmasına xüsusi yer verilmiş, onun konkret istiqamətləri və prioritetləri öz əksini tapmışdır.

Adı çəkilən qanunun 6-cı maddəsində qeyd edildiyi kimi Azərbaycan Respublikasının əsas milli maraqlarını:

"- iqtisadi sahədə: iqtisadi potensialın artırılması; bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi; iqtisadi sabitliyin təmin olunması; iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılması; təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsi; regional və dünya bazarlarının formalaşdırılmasında və fəaliyyət göstərməsində azad və bərabər hüquqlu iştirakın təmin edilməsi;

- sosial sahədə: xalqın genofondunun qorunması; əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi; səhiyyə və sosial müdafiə sisteminin səmərəli fəaliyyətinin təmin edilməsi;

- ekoloji sahədə: cəmiyyətin yaşayışı üçün təhlükəsiz ekoloji və texnoloji şəraitin yaradılması kimi məsələlər təşkil edir" [1].

Aparılan araşdırmalar göstərir ki, milli mənafeyi qorumağı bacarmaq, sosial yönümlü siyasət yeritmək, hətta daxili və xarici inkişaf proseslərinin ən əlverişsiz şəraitində belə ölkənin iqtisadi təhlükəsizliyini təmin etməkdən ibarətdir. İqtisadi təhlükəsizlik eyni zamanda ölkənin davamlı və dayanıqlı inkişafının, iqtisadi artım dinamikasının, dünya təsərrüfatı sistemində mövqeyinin, rəqabətə davamlılığının əsas əlamətlərindən və ya şərtlərindən biri kimi qiymətləndirilir. Yəni "Davamlı iqtisadiyyatın təmin olunmasının əsas göstəricisi onun rəqabətqabiliyyətlik və iqtisadi təhlükəsizlik göstəricilərdir. Ümumi halda bu göstəricilər sisteminin tərkib hissəsini ümumi makroiqtisadi göstəricilər və onların artım dinamikası təşkil edir. Ümumən "iqtisadi artım" kimi dəyərləndirilən bu göstəricilərin arxasında müəyyən dövr ərzində ümumi daxili və ya milli məhsulun, milli gəlirin ümumi həcminin və onların ölkə əhalisinin hər nəfərinə düşən və ya başqa sözlə adam başına düşən həcminin artım dinamikası durur" [5, s.141-142].

Bu mənada apardığımız tədqiqat göstərir ki, son 6 ildə iqtisadi inkişafın ümumi göstəricisi olan Ümumi Daxili Məhsulun artım tempi kifayət qədər artıma meyilli olmuşdur. Doğrudur 2020-ci ildə baş verən pandemiya ilə bağlı bu dinamika bir qədər aşağı düşsə də, sonrakı illərdə bu dinamika təmin olunmuş və Dövlət Statistika Komitəsinin rəsmi məlumatları əsasında qeyd edə bilərik ki, 2018-ci ildəki 80.1 milyard ÜDM-ə qarşı 2023-cü ildə 123.0 milyard manat dəyərində ÜDM əldə etməklə son 6 il ərzində nominal ifadədə bu artım 153.8 faizə qədər yüksəlmişdir. İqtisadi inkişafda kəmiyyət göstəcisindən daha çox keyfiyyət və iqtisadi artım göstərisici kimi qəbul edilən ÜDM-in adambaşına düşən həcminin də sürətlə artması müşahidə olunur. Əgər 2018-ci ildə ÜDM-ın adambaşına düşən həcmi 4797.7 dollar olmuşdursa, artıq bu göstərici 2019-cu ildə 4864.0 dollar, 2020-ci ildə 4280.8 dollar, 2021-ci ildə isə 5458.2 dollar, 2022-ci ildə isə 7806.4 dollar, 2023-cü ildə isə 7126,2 dollar səviyyəsinə yüksəlmiş, yəni son 6 il ərzində adambaşına düşən ÜDM-in həcmi ümumilikdə 148.6 faiz yüksəlmişdir ki, bu da dünya və ölkə iqtisadiyyatında baş verən fors-major hadisələrinə baxmayaraq kifayət qədər yüksək iqtisadi artım deməkdir. Statistik məlumatlar göstərir ki, yüksək iqtisadi artım tempi eyni zamanda ölkə üzrə digər makroiqtisadi göstəricilərin dinamikasına da öz təsirini göstərmişdir. [6]

İstifadə edilmiş ədəbiyyat

1. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanunu // Azərbaycan Respublikası Prezidentinin 29 iyun 2004-cü il tarixli Fərmanı

2. Dayanıqlı İnkişaf Məqsədləri statistik icmal. DİM üzrə tərəqqinin milli kontekstdə statistik göstəricilərlə təsviri Azərbaycan Respublikasinin Dövlət statistika komitəsi. Bakı-2023

3. Dayanıqlı inkişafın Heydər Əliyev modeli / Heydər Əliyev idarəetmə məktəbinin növbəti III buraxılışı.-Bakı, "İqtisad Universiteti" həşriyyatı. 2009

4. Musayeva, C.Q. Azərbaycan iqtisadiyyatı. Ali məktəblər ücün dərs vəsaiti. / Musayeva, C.Q., Tağıyev A.M. - Bakı:"Avropa" nəşriyyatı. -2018, -420 s.

5. Əyyubov, V.S. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərs vəsaiti. /Əyyubov V.S., Tağıyev A.M. – Bakı: "Avropa" nəşriyyatı, -2014.-350 s.

6. Azərbaycanın statistik göstəriciləri – 2023. AR DSK. Bakı, "Səda", 2023

7. www.azstat.gov.az

MÜASİR AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA HEYDƏR ƏLİYEV FENOMENİ

Günəş Musa oğlu Şəfaqətov
Mingəçevir Dövlət Universiteti
gunash.shafaqatov@mdu.edu.az

Bəşəriyyətin uzunmüddətli təcrübəsi göstərir ki, hər bir xalqın tarixi inkişafında liderlərin özünəməxsus rolu olmuş və bu rol bir çox hallarda həlledici səciyyə daşımışdır. Zəngin keçmişə, qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının da tarixi bu baxımdan istisnalıq təşkil etməmiş, xalqımızın bu günə qədərki tarixi inkişafında da dahi, müdrik və qəhrəman övladlarının rolu bir çox hallarda həlledici olmuşdur. Şübhəsiz ki, bu, bir tərəfdən Azərbaycan xalqının dahi şəxsiyyətlər yetişdirmə imkanlarının göstəricisi olduğu halda, digər tərəfdən də onun tarixin həlledici məqamlarında cəsarətli liderləri seçə bilmə qabiliyyətindən xəbər verir. Ümummilli lider Heydər Əliyev də məhz Azərbaycan xalqının yetişdirdiyi və həlledici məqamlarda taleyini əmanət etdiyi dahi, cəsarətli və məğlubedilməz şəxsiyyətlərdən biridir.

Liderlərin bir ölkənin tarixindəki rolu müxtəlif cəhətlərdən qiymətləndirilə bilər. Ancaq iki sahə var ki, həmin sahələrdə gördüyü işlər, tətbiq etdikləri yeniliklər onların xalqın tarixi yaddaşında əbədi həkk olunmasında mühüm əhəmiyyət daşıyır. Bunlardan birincisi iqtisadiyyat, ikincisi isə təhsildir. İqtisadiyyat xalqın maddi inkişafını, təhsil isə mənəvi inkişafını təmin edən önəmli sahədir. Heç şübhəsiz ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqımızın inkişafındakı rolundan danışarkən də, ilk növbədə onun bu iki sahədəki fəaliyyətinə, gerçəkləşdirdiyi islahatlara diqqət yetirmək, onların əhəmiyyətini dərk etməyə çalışmaq zəruridir.

İqtisadiyyatın inkişafı heç də neft-qaz amili ilə bağlı deyildir. Əsas məsələ dövlət idarəçiliyinin uzun illər ərzində formalaşan və təcrübədən uğurla çıxan çevik mexanizmlər əsasında gerçəkləşdirilməsi, monetar və fiskal tənzimləmə üsullarından səmərəli istifadə olunması ilə əlaqədardır. Bu məqamda iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Ronald Kouzun fikrini xatırlatmaq yerinə düşür. O yazırdı: "Dayanıqlı iqtisadi inkişaf, ilk növbədə, çevik mexanizmlərdən, institusional islahatlardan, həmçinin monetar və fiskal tənzimləmə metodlarından qaynaqlanır. Bu zaman siyasi iradə və liderlik institutunun mövcudluğu da vacib şərtdir".

R.Kouz daha sonra qeyd edirdi: "Keçmiş sosializm düşərgəsinə daxil olan dövlətlərin liderləri bazar iqtisadiyyatına keçmək həllini tapmaqda çətinlik çəkirlər. Bazara keçmək üçün əvvəlcə bazarın səmərəli fəaliyyətini təmin edən institutları yaratmaq lazımdır...".

Avstriya iqtisadi məktəbinin görkəmli nümayəndəsi, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı F.Hayek isə bildirirdi ki, bazar iqtisadiyyatı müəyyən prinsiplərə əməl olunması ilə yanaşı, həm də bazara keçid qanunlarını ölkənin maddi-mənəvi imkanlarına yaradıcılıqla uyğunlaşdırmağı tələb edir.

Bütün həyati əhəmiyyətli sahələrdə yüksək tərəqqiyə imza atan, sürətlə modernləşərək qarşıya qoyduğu strateji hədəflərə doğru inamla irəliləyən müstəqil Azərbaycan bu gün dünya miqyasında, həm də özünəməxsus milli inkişaf modeli ilə seçilir. Şübhəsiz ki, bu məsələdə Nobel mükafatı laureatı R.Kouzun iqtisadi inkişafda şəxsiyyətin mühüm rolu barədə irəli sürdüyü fikirlər də əsas rol oynayıb.

Heydər Əliyev xalqın təkidi ilə Azərbaycanda yenidən rəhbərliyə başlayanda respublikada siyasi, sosial-iqtisadi sahələrdə dərin böhran, tənəzzül hökm sürürdü. Azərbaycan parçalanmaq təhlükəsi, həmçinin erməni işğalı ilə üzləşmişdi. Belə ağır, üzücü şəraitdən xilas olmaq üçün ulu öndərin müdrikliyi və əzmkarlığı sayəsində 1994-cü ilin may ayında Ermənistanla atəşkəs elan edildi. Daha sonra isə ölkənin sosial-iqtisadi inkişafı, silahlı qüvvələrimizin yenidən qurulması məsələləri diqqət mərkəzinə yönəldildi.

Xatırladaq ki, Heydər Əliyev bu dövrdə tənəzzüldən xilas yolunu güclü dövlət tənzimlənməsində, iqtisadiyyatın sabitliyinin təmin edilməsində, radikal islahatların reallaşdırılmasında, iqtisadi dirçəlişə nail olunmasında görürdü: "Respublika iqtisadiyyatı, demək olar ki, dağılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki

potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır vəziyyətdən çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".

Heydər Əliyevin ölkə daxilində siyasi sabitliyi təmin etməsi, kompleks islahatlar proqramını həyata keçirməsi nəticəsində 1996-cı ildə respublika iqtisadiyyatında sabitlik təmin olundu, 1997-ci ildən isə inkişaf meyilləri müşahidə olunmağa başladı.

Yeri gəlmişkən, həmin dövrdə ümummilli liderin rəhbərliyi ilə iqtisadi inkişafa zəmin yaratmaq məqsədi ilə həyata keçirilən tədbirlərə və onların müsbət nəticələrinə qısaca nəzər salaq. İqtisadiyyatda liberallaşmanı reallaşdırmaq üçün xüsusi mülkiyyətə əsaslanan bazar münasibətlərinin formalaşdırılmasına başlanıldı, investisiya qoymaq istəyən ölkələr üçün əlverişli münbit şərait yaradıldı. Yerli və xarici investisiyaların cəlbi, müasir texnologiyaların tətbiqi sürətləndirildi, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin qurulmasına, infrastrukturun yeniləşdirilməsinə mühüm önəm verildi. Bütün bunlar isə özəl bölmənin, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, iş adamlarının cəmiyyətdəki mövqelərinin güclənməsinə müsbət təsir göstərdi, yeni iş yerlərinin açılmasına əlverişli şərait yaratdı.

Burada tarixi əhəmiyyət daşıyan bir məqamı da xatırlatmaq yerinə düşərdi. Heydər Əliyev Azərbaycana yenidən siyasi rəhbərliyə başlayanda aqrar bölmənin bazar prinsipləri əsasında qurulmasını, torpaq sahəsi üzərində mülkiyyət hüququnun reallaşdırılmasını da mühüm vəzifə kimi qarşıya qoydu. Ulu öndərin təşəbbüsü və rəhbərliyi altında MDB-də ilk olaraq 1995-ci ildən başlanan aqrar islahatların həyata keçirilməsi, sovxoz və kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın özəlləşdirilməsi kimi tədbirlər nəticəsində kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş verdi, keyfiyyətcə fərqli münasibətlər formalaşdı.

Torpaq islahatı nəticəsində 1350 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanıldı, kolxoz və sovxozların yerində fermer təsərrüfatları yaradıldı.

Aqrar bölmədə səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmin edilməsi məqsədi ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi və onlar torpaq vergisindən başqa digər vergi ödəmələrindən azad olundu.

Sosial ədalətə istiqamətlənən və 1993-2003-cü illərdə ulu öndərin 52-dən artıq fərman və sərəncamı ilə qanuniləşdirilən, düzgün icra mexanizmləri ilə gerçəkləşdirilən aqrar siyasətin reallaşdırılması nəticəsində Azərbaycanda bu sahə tədricən dirçəlməyə, inkişafa başladı. Bununla da möhtərəm dövlət başçımızın dediyi kimi, "Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür".

1995-ci ildən etibarən ölkədə gerçəkləşdirilən ardıcıl və sistemli iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması idi. Bu, təsadüfi deyildir. Çünki Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının özəl bölmə ilə bağlı olduğunu bilirdi: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".

Ulu Öndərin həmin vaxt müəyyənləşdirdiyi və rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönələn tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə səciyələnirdi.

Azərbaycanın əlverişli geosiyasi mövqeyini nəzərə alan Heydər Əliyev Şərq-Qərb və Şimal-Cənub nəqliyyat-kommunikasiya dəhlizi layihələrinin reallaşmasına da xüsusi əhəmiyyət vermişdir. Ümummilli liderin təşəbbüsü ilə 1998-ci ilin sentyabr ayında TRASEKA layihəsinə dair ilk beynəlxalq konfransın Bakıda keçirilməsi də bunun bariz ifadəsi idi. Həmin konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak edirdilər. Tədbirdə layihənin reallaşdırılmasının iqtisadi və texniki tərəflərini özündə əks etdirən "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında Çoxtərəfli Əsas Saziş" adlanan çox mühüm bir sənəd qəbul olundu.

TRASEKA proqramı çərçivəsində dəmir yolu sahəsində həyata keçirilən ən böyük layihə isə Avropa ilə Asiyanı birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi idi. Bu dəmir yolunun tikintisinə dair saziş 2007-ci ildə Tbilisidə imzalandı. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyuldu. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirildi.

Azərbaycanın təşəbbüskarı olduğu və bütün dünyada geniş əks-səda doğuran Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi- Ərzurum qaz kəmərləri, Cənub Qaz Dəhlizi, TANAP kimi strateji əhəmiyyətli tarixi layihələr reallaşdırılmışdır.

Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilmiş, o cümlədən Avropa-Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti güclənmiş, Bakı-Tbilisi-Qars dəmir yolu istismara verilmiş, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı olmuş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir.

İnkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat bölməsinin irihəcmli investisiyaların yönəldilməsi nəticəsində hava limanlarının, körpülərin, tunellərin, yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması və başqa işlər davam etdirilmişdir.

Ümummilli Liderin ölkənin gələcək inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrdən biri də regionların tarazlı və davamlı inkişafının təmin edilməsi oldu. Bu baxımdan, 1995-2003-cü illərdə bazar münasibətlərinin geniş vüsət alması, hərtərəfli iqtisadi islahatların aparılması, özəlləşdirmə proqramlarının həyata keçirilməsi, milli sahibkarlar sinfinin formalaşması ilə regionların hazırkı inkişafına əlverişli zəmin yaradıldı.

Heydər Əliyev strategiyasının həyata keçirilməsi sayəsində 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlanıb. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 1,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, sənaye məhsulunun həcmi 23,3 faiz, kənd təsərrüfatı istehsalı 53,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artıb. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard dollar həcmində investisiya qoyulub.

İqtisadiyyatın şaxələndirilməsi və sənayenin modernləşdirilməsi istiqamətində mühüm layihələrdən biri də telekommunikasiya və Yer səthinin müşahidəsi peykləri olan üç gəmi – iki "Azerspace" və "Azersky" kosmosa buraxılmışdır. Beləliklə, Azərbaycan "kosmik ailə"nin azsaylı üzv dövlətlərindən birinə çevrilmişdir.

Son illərdə ölkəmizin maliyyə imkanları güclənmiş, dövlət büdcəsinin, strateji valyuta ehtiyatlarının həcmi xeyli artmışdır. Belə ki, dövlət büdcəsinin gəlirləri 29,7 dəfə artaraq, 2003-cü ildəki 1,2 milyard manatdan 2023-cü ildə 35,6 milyard manata çatmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə həyata keçirilən iqtisadi islahatların, eləcə də yeni inkişaf mərhələsinin tələb və şərtlərini nəzərə alaraq, Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan 2018-ci il 10 yanvar tarixli iclasında və "Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan 2018-ci il 29 yanvar tarixli konfransda milli iqtisadiyyatımızın cari və perspektiv inkişafı ilə bağlı sistemli və çoxşaxəli vəzifələr müəyyən etmişdir. İqtisadiyyatı şaxələndirməklə dayanıqlı iqtisadi artıma nail olunması, makroiqtisadi sabitliyin qorunması, iqtisadi, o cümlədən institusional islahatların, strateji layihələrin icrasının davam etdirilməsi, qeyri-neft bölməsinin və sahibkarlığın dəstəklənməsi, sənaye potensialının daha da gücləndirilməsi, ixracın artırılması və idxalın əvəz edilməsi, aqrar-sənaye kompleksinin və regionların inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, meliorasiya və irriqasiya sahəsində tədbirlərin görülməsi, inflyasiyanın, işsizlik və yoxsulluq səviyyəsinin minimal həddə saxlanılması və infrastruktur layihələrinin icrası kimi vəzifələr hazırda Azərbaycan dövlətinin fəaliyyətinin prioritet istiqamətləri olaraq uğurla həyata keçirilir.

Sonda onu da qeyd edək ki, ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan sosial-

iqtisadi sahələrdə böyük uğurlar qazanıb, ölkənin qüdrəti artıb, siması bütünlüklə dəyişib, insanların həyatı yaxşılaşıb. Bu isə iqtidara xalqın böyük etimadını səciyyələndirən mühüm göstəricidir.

İstifadə edilmiş ədəbiyyat

1. Bəkir Nəbiyev, Heydər Əliyev haqqında etüdlər // Bəkir Nəbiyev, Seçilmiş əsərləri. Beş cilddə, 4-cü cild, Bakı, "Çinar-Çap", 2009.
2. İsa Həbibbəyli, Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, s. 6
3. https://xalqqazeti.az
4. https://www.azerbaijan-news.az

20 YANVARDAN MÖHTƏŞƏM ZƏFƏRƏ DOĞRU

Mirzə Cavad oğlu Cavadov
Mingəçevir Dövlət Universiteti
mirza.cavadov@mdu.edu.az

Bu il (2024-cü il) xalqımızın qan yaddaşı olan 20 Yanvar faciəsindən 34 il keçir. Azərbaycan xalqı və dünyanın müxtəlif qütblərində yaşayan soydaşlarımız Dövlət Müstəqilliyimizin bərpasına, suverenliyimizə, ərazi bütövlüyümüzün qorunub saxlanılmasına və milli-azadlığımıza doğru gedən magistral yolun ilk cığırlarını açmış 20 yanvar şəhidlərinin parlaq xatirəsini onların müqəddəs ruhlarına dərin hörmət və ehtiram hissi ilə yad edirlər.

Öz varlığının sonlarını yaşayan keçmiş Sovet imperiyası kommunist rejimini saxlamaq, öz milli azadlığı və istiqlaliyyəti, torpaqlarının müdafiəsi uğrunda mübarizəyə qalxmış xalqımıza divan tutmaq üçün 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə açıq silahlı təcavüzə başladı. Bakının küçə və meydanları günahsız insanların qanına boyandı, görünməmiş vəhşiliklər törədildi, uşaqlar, qocalar, qadınlar qətlə yetirildi, yüzlərlə adam şikəst vəziyyətinə salındı. Bu,tarixdə dövlətin öz vətəndaşlarına qarşı misli görünməmiş bir vəhşiliyi, amansız terror aktı idi.

Həmin gün torpağını, vətənin ruhu və varlığı qədər sevən, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd vətən övladları canlarından keçərək, şəhidlik zirvəsinə yüksəldilər.

SSRİ-nin 1-ci və sonuncu prezidenti, türk-müsəlman xalqlarının qatı düşməni M.Qorbaçovun əmri ilə törədilmiş bu qanlı faciə xalqımızın mübarizliyini, əyilməzliyini, mərdliyini və məğrurluğunu bütün dünyaya nümayiş etdirdi [5].

Bu qanlı faciə ondan əvvəlki dövrlərdə Azərbaycan xalqının başına gəlmiş və gətirilmiş bəlalar və hadisələrlə sıx bağlı idi. Hələ faciədən bir neçə il əvvəl təcavüzkar qüvvələr tərəfindən Azərbaycanı parçalamaq, dağıtmaq, torpaqlarımızı zəbt etmək niyyətləri planlaşdırılmışdı və yavaş-yavaş həyata keçirilirdi (Qərbi Azərbaycan soydaşlarımızın deportosiya edilməsi, Dağlıq Qarabağ hadisələri, Topxana meşəsinin qırılması və s.).

Bunları həyata keçirmək üçün isə Azərbaycan xalqının iradəsini qırmaq lazım idi. 20 yanvar faciəsi də məhz bu məkrli məqsəd üçün törədilmişdi.

Birmənalı şəkildə qanlı Yanvar faciəsinin əsas günahkarları M.Qorbaçov başda olmaqla o vaxt ki sovet rəhbərləri və həmin dövrdə Azərbaycan dövlətinin başında duran şəxslər idi.

1990-cı yanvarın 19-da M.Qorbaçov "Yanvarın 20-də Bakı şəhərində fövqaladə vəziyyətin tətbiq edilməsi haqqında "fərman imzalamışdı. Fərman yalnız yanvarın 20-də, səhər saat 6-7 radələrində, yəni televiziyanın enerji bloku partladıldıqdan və qırğın törədildikdən radio ilə elan edilmişdi. Bundan xeyli qabaq, 1990-cı yanvarın 11-də Bakı şəhərinə əlavə əsgər, milis və kursant dəstələri gətirilmişdi. Yüksək vəzifəli rus vətəndaşlarının ailə və uşaqları aeroportdan Rusiyanın müxtəlif yerlərinə yola salınmışdı. Bütün bunlar 20 Yanvar qırğınının M.Qorbaçov tərəfindən planlı şəkildə, xüsusi məqsədlərlə hazırlandığını və həyata keçirildiyini sübut edir [1].

Əfsuslar olsun ki, Azərbaycanın o vaxtkı kosmopolit rəhbərləri öz hakimiyyətlərini qorumaq naminə Moskvanın, Kremlin qəzəbinə tuş gəlməmək üçün bu qanlı hadisənin üzərindən sükutla keçmiş, laqeydlik və susqunluq nümayiş etdirmişdilər. Belə laqeydlik və susqunluq şəraitində, 20 yanvar faciəsinin yaşandığı o ağır günlərdə Azərbaycan xalqı böyük bir həqiqəti də bütün mahiyyəti ilə dərk etdi. Bu həqiqət isə ondan ibarət idi ki, meydanda həqiqi lider yox idi. Zatən, o müthiş günlərdə Ümummilli lider Heydər Əliyevin respublikada yoxluğu günün ən böyük və ən acı həqiqəti kimi dərk olundu. Faciənin ilk günündə xalqının səsinə hər kəsdən əvvəl səs verən də məhz Ulu öndər Heydər Əliyev oldu. Qanlı yanvar hadisələrindən bəhs edən möhtərəm prezidentimiz cənab İlham Əliyev deyirdi: "Hamımız yaxşı xatırlayırıq ki, pensiyada olan Heydər Əliyev faciə baş verəndən dərhal sonra Azərbaycanın Moskvadakı daimi Nümayəndəliyinə gəlmişdi, öz etiraz səsini ucaltmışdı. O vaxt Sovet ittifaqının çökməsinə hələ 2 il vaxt qalırdı. Biz o vaxt Sovet İttifaqına qarşı ittihamları, demək olar ki, çox nadir hallarda görürdük. Bu, böyük cəsarət tələb edirdi. Heydər Əliyev həmişə olduğu kimi, o, ağır günlərdə də xalqı ilə birlikdə idi" [3].

Danılmaz həqiqətdir ki, M.Qorbaçovun təzyiqləri nəticəsində yüksək Sovet rəhbərliyindən istefa vermiş, ağır xəstəlik və psixoloji gərginlik keçirmiş, ciddi siyasi nəzarət və təqiblərə məruz qalmış Ulu öndər Heydər Əliyev xalqının faciəsinə laqeyd qala bilməzdi. Faciədən cəmi bir gün sonra öz həyatına və ailə üzvlərinin həyatlarına böyük təhlükənin ola biləcəyinə rəğmən oğlu İlham Əliyevlə birlikdə adı çəkilən Daimi Nümayəndəliyə gələrək faciə haqqında məşhur bəyanatını səsləndirdi. Onun bu bəyanatında işlətdiyi aşağıdakı tək bir cümlə kifayətdir ki, məsələnin əsil mahiyyəti açılsın:

Sitat: "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya-siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı: Bu fikirlər əslində, M.Qorbaçov başda olmaqla Sovet rəhbərliyinin açıq ifşası demək idi. Ulu Öndər bəyanatında Bakıya ordu kontingentinin yeridilməsini böyük siyasi qəbahət və kobud siyasi səhv hesab edərək, qonşuların dərhal Bakıdan çıxarılmasını tələb edirdi.

Yuxarıda qeyd edildiyi kimi, Sovet İttifaqının hələ hökm sürdüyü bir zamanda bu hərəkətləri etmək, sözün əsil mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ümummilli Lider öz cəsarətli bəyanatı ilə dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqının siyasi iradəsini ifadə etdi, baş verən hadisələri hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edərək, yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına təcavüz və cinayət adlandırdı və hadisəyə siyasi qiymət verilməsini tələb etdi. Bəyanat aşağıdakı sözlərlə qurtarmışdı: "Qırğın törədənlərin hamısı layiqincə cəzalandılmalıdır".

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi.

20 Yanvar hadisələri Ulu öndərin sonrakı fəaliyyəti zamanı da prioritet təşkil etdi və onun xalqımızın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Qanlı Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verilməsi məsələsi öz dolğun həllini tapdı. Ümummilli liderin 1994-cü il yanvarın 5-də imzaladığı fərmana əsasən Milli Məclis 1994-cü il martın 29-da qəbul etdiyi qərarla faciəyə tam hüquqi-siyasi qiymət verdi [6].

Öz varlığının sonlarını yaşayan Sovet imperiyası və onun Azərbaycandakı əlaltılarının törətdiyi Qanlı 20 Yanvar faciəsi xalqımızın iradəsini, azadlıq və müstəqillik eşqini söndürə bilmədi. Bu faciə nə qədər ağır, dəhşətli olsa da, eyni zamanda yurdumuzun tarixinin heç bir zaman unudulmayan milli qürur və şərəfli qəhrəmanlıq səhifəsinə çevrildi, xalqımızın gələcək azadlıq mücadiləsini daha da alovlandırdı və az müddətdən sonra dövlət müstəqilliyimizin bərpasına gətirib çıxardır.

20 Yanvar şəhidlərinin qəhrəmanlıq yolunu davam etdirən Azərbaycanın mərd oğulları Ulu öndər Heydər Əliyevin ölkəmizdə yaratdığı zəngin sosial-iqtisadi, elmi-mədəni və hərbi potensial sayəsində Şəhidlik zirvəsinə yüksələrək Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Böyük Zəfər qazanaraq xalqımızın 30 illik torpaq həsrətinə son qoydu.

2023-cü il sentyabrın 19-20-də birgünlük uğurlu anti-terror tədbirləri nəticəsində düşmən ağ bayraq qaldıraraq təslim oldu, Xocalıda, Xocəvənddə, Əsgəranda, Ağdərədə, Xankəndidə Ali Baş Komandan tərəfindən Dövlət Bayrağımız qaldırıldı, Xankəndidə möhtəşəm tarixi Zəfər paradı keçirildi.

2024-cü il fevralın 7-də ölkəmizdə keçirilmiş növbədənkənar Prezident seçkilərində xalqımız 92%-də artıq səs çoxluğu ilə yenidən öz müdrik rəhbərinə sədaqətini bir daha nümayiş etdirdi.

Bəli, uğrunda 20 Yanvar şəhidlərinin mübarizə apardıqları haqq işi sonda Böyük Zəfərlə başa çatdı.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. 42 cildə, Bakı, 1997- 2012.
2. Heydər Əliyev Yeni 2001-ci il: yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət Bakı 2001.
3. İlham Əliyev inkişaf məqsədimizdir, Bakı, 2001.
4. İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin Heydər Əliyev ili elan edilməsi haqqında sərəncam . Bakı, 2022-ci il.
5. İradə hüseynova, Müstəqilliyimizin təminatçısı, Bakı, 2003.
6. Əsrlərə bərabər illər 1969-1999. Faktlar və rəqəmlər. Bakı, 1999.
7. Azərbaycan tarixi 7-ci illdə, VII-ci ildə, Bakı, 2007.
8. Zəfər tarixi –Bakı, 2021.
9. Azərbaycan Milli Ensiklapediyası, Bakı, 2007.
10. "Azərbaycan" qəzeti, 17 yanvar 2013
11. "Azərbaycan" qəzeti, 22 yanvar 2013
12. "Azərbaycan" qəzeti, 20 yanvar 2015

HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASINDAN BAŞLANAN 44 GÜNLÜK ZƏFƏR YOLU

Nazim Fazil oğlu Niftəliyev
Mingəçevir Dövlət Universiteti
nazim.niftaliyev@mdu.edu.az

Yaddaşlarda əbədi iz qoymaq hər siyasi xadimin, dövlət başçısının taleyinə yazılan xoşbəxtlik deyil. Bütün həyatını xalqının işıqlı gələcəyinə həsr etmiş böyük insan, Heydər Əliyevi tarixdə əbədiləşdirən, ilk növbədə onun Vətəninə, xalqına, milli-mənəvi dəyərlərinə olan hüdudsuz sevgisidir. Həmçinin onların qorunması və tərəqqisi uğrunda bütün dönəmlərdə apardığı taleyüklü mücadilələr, cəsarətli addımlar, Azərbaycanın bu günü naminə həyata keçirdiyi misilsiz və möhtəşəm layihələrdir. Azərbaycanın müasir tarixinin bütöv bir dövrü məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Milli liderliklə siyasi liderlik kimi unikal xüsusiyyətləri özündə birləşdirən bu dahi insan müasir Azərbaycan dövlətinin banisi, qurucusu kimi tarixə düşüb. Hər bir Azərbaycanlının güvən və fəxr yeri olan, hər dəfə adını eşidəndə sevinc və qürur hissi keçirtdiyimiz Heydər Əliyev ölkənin ictimai, siyasi və iqtisadi həyatının bütün sahələrində böyük işlərə öz imzasını atıb.

Fitri istedada, son dərəcə geniş dünyagörüşünə malik olan, doğma xalqını və Vətənini hədsiz məhəbbətlə sevən Heydər Əliyev fenomenal şəxsiyyət, dəmir iradə və cəsarət simvolu idi. Onun doğma Vətəninin, xalqının mənafelərini hər şeydən uca tutaraq ən mürəkkəb vəziyyətlərdə yeganə doğru qərar qəbul etmək bacarığı, uzaqgörənliyi, mübarizliyi, qətiyyətliliyi, fədakarlığı və əzmkarlığı bir insan şəxsiyyətinə sığışması əslində mümkün olmayan inanılmaz dərəcədə nadir hadisə, Tanrı möcüzəsi idi.

Hələ ötən sərin 40-cı illərindən dövlət təhlükəsizliyi orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev milli kadr kimi qarşılaşdığı maneələrə baxmayaraq, respublikanın Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinədək yüksəlmiş, Azərbaycan xalqının mənafeləri naminə bu orqanın milli kadrların cəlb edilməsi mənasında "milliləşdirilməsi" üçün mühüm işlər görmüşdü.

60-cı illərin sonunda isə Heydər Əliyevin xidməti yüksəlişində baş vermiş tarixi hadisə, respublikada ən yüksək vəzifəyə irəli çəkilməsi xalqa xidmət yolunda onun üçün böyük imkanlar açdı və onun fəaliyyətinin daha genişmiqyaslı, çoxşaxəli, strateji hədəflər baxımından perspektiv əhəmiyyətə malik son dərəcə məsul və Azərbaycan xalqı üçün taleyüklü bir dövrü başlandı.

1969-cu il iyulun 14-də Heydər Əliyevin sovetlər dönəmində ölkəyə faktiki rəhbərlik edən partiya sistemində respublikada birinci vəzifəyə - Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilməsi ilə Azərbaycanı öz tarixində yeni dövrə qədəm qoydu. Ulu Öndərin respublikanın rəhbəri kimi fəaliyyət göstərdiyi 1969-1982-ci illər Azərbaycan tarixinə hərtərəfli yeniləşmə, köklü dəyişikliklər, dinamik inkişaf illəri kimi daxil oldu. 80-ci illərin axırları - 90-cı illərin əvvəllərində baş vermiş sonrakı proseslər, tarixin gedişatı aydın şəkildə göstərdi ki, bugünkü müstəqil Azərbaycanın təməlini Heydər Əliyev hələ Azərbaycan KP MK-nın birinci katibi olarkən qoymuşdu.

Heydər Əliyev respublika partiya təşkilatının rəhbəri vəzifəsinə seçiləndə Azərbaycan öz inkişaf səviyyəsinə görə Sovet İttifaqı respublikaları arasında ən aşağı yerlərdə qərarlaşmışdı, bütövlükdə iqtisadiyyatda geriləmə, tənəzzül və durğunluq prosesləri daha da dərinləşir, bütün sahələr üzrə göstəricilər, o cümlədən sənaye və kənd təsərrüfatı istehsalının həcmi ilbəil azalırdı.

Zəngin və fitri idarəçilik təcrübəsinə və istedadına malik olan Heydər Əliyev sovet rejiminin bütün imkanlarından dərindən düşünülmüş uzaqgörən siyasət və ustalıqla istifadə edərək Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq, həyatın bütün sahələrində respublikanın gələcək müstəqilliyinə xidmət edəcək strateji layihələr, uzaqmənzilli proqramlar gerçəkləşdirmək üçün məqsədyönlü addımlar atmağa başladı.

Gördüyü böyük işlərlə tarix yazan və yaradan ulu öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin iqtisadi-siyasi tərəqqisinə və ümumiyyətlə, hərtərəfli inkişafına nail olub, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanın nüfuzunu beynəlxalq səviyyəyə qaldırıb.

Heydər Əliyev özünəməxsus sərişta və təcrübə, hərtərəfli ölçülüb-biçilmiş addımlar və incə siyasətlə respublikanın perspektivə hasablanan potensialını yaratmaq üçün sosial, iqtisadi və mədəni quruculuq sahəsində kompleks inkişaf proqramlarını həyata keçirməyə başladı. Beləliklə də Azərbaycan tarixində Heydər Əliyevin adı ilə bağlı olan yüksəliş, tərəqqi və intibah dövrü başlandı.

Heydər Əliyevin titanik səyləri, misilsiz bacarığı və təşkilatçılıq məharəti sayəsində tez bir zamanda Azərbaycan keçmiş SSRİ miqyasında qabaqcıl respublikalar sırasına çıxdı, Sovet İttifaqında mərkəzdən dotasiya almayan iki respublikalardan biri oldu. Heydər Əliyevin başlıca məqsədi Azərbaycanı iqtisadi cəhətdən qüdrətli bir respublikaya çevirmək idi.

Məhz o illərdə Azərbaycanda sənayenin, kənd təsərrüfatının maddi-texniki bazası möhkəmlənmiş və inkişaf etmiş, istehsalın həcmi və nomenklaturu artmış, infrastruktur layihələrinin icrası sahəsində çox böyük işlər görülmüşdü. Bütün bu işlər bu gün müstəqil Azərbaycanın iqtisadi potensialının bünövrəsini təşkil edir. Neft-qaz, maşınqayırma və emal sənayesinin inkişafı sahələrində əldə edilmiş nailiyyətlər, yaradılmış iri müəssisələr bu gün müstəqil Azərbaycana sanballı xidmət göstərir.

1969-1982-ci illər sovet Azərbaycanının tarixinə böyük inkişaf illəri, fəal quruculuq dövrü kimi daxil oldu. Respublika iqtisadiyyatının bütün sahələrində canlanma baş verdi, struktur dəyişiklikləri həyata keçirildi. Hələ o vaxtlar sənayenin şaxələndirilməsi, sənaye istehsalının proporsional və coxşaxəli inkişafı, çoxprofilli sənaye müəssisələrinin yaradılması üçün mühüm işlər görüldü.

Heydər Əliyevin məqsədyönlü və qətiyyətli fəaliyyəti, dərin təsərrüfatçılıq sərişta sayəsində Azərbaycan kənd təsərrüfatı istehsalı, xüsusən də pambıqçılığın və üzümçülüyün inkişafı sahəsində dinamik addımlar ataraq yüksək rekord göstəricilər qazandı. Bununla eyni zamanda Azərbaycan

kəndi dirçəlməyə başladı, kənd əhalisinin sosial rifahı yüksəldi, şəhərlə kənd arasında fərqin azaldılması kimi irəli sürülmüş sosializm şüarının həqiqətən gerçəkləşdirilməsinə başlandı [2].

Bütövlükdə respublika ərazisində yüzlərlə yeni zavod, fabrik, istehsalat sahələri yaradıldı, iri sənaye müəssisələri, aqrosənaye kompleksləri işə salındı. Sənaye və kənd təsərrüfatı istehsalı məhsullarının həcmi və ixrac coğrafiyası xeyli dərəcədə genişləndi. Azərbaycanın rayonları və paytaxt Bakı geniş tikinti meydanına çevrildi. İri sənaye müəssisələri, istehsal kompleksləri, infrastruktur obyektləri sürətlə inşa edilərək istismara verildi.

70-80-ci illərdə Azərbaycanda elm sahəsi də sürətlə inkişaf etməyə başladı. Sovet rejiminin bütün məhdudiyyətlərinə, fəaliyyət üçün müəyyən olunmuş dar çərçivələrə baxmayaraq, Heydər Əliyev milli-mənəvi dəyərlərin və milli ruhun qorunması və təbliği, milli ədəbiyyat, incəsənət və mədəniyyət məsələlərini daim diqqət mərkəzində saxlayırdı. Təsadüfi deyil ki, 1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunanda məhz Heydər Əliyevin təkidi ilə Azərbaycan dili Konstitusiyaya ana dili kimi daxil edilmişdi.

Müstəqilliyin ilk illərində respublika iqtisadiyyatındakı tənəzzül prosesinin və inflyasiyanın qarşısını almaq üçün aparılan sərt büdcə-kredit siyasəti nəticəsində makroiqtisadi sabitliyə nail olundu. Tənəzzüldən sonrakı inkişaf dövrü isə daha çevik makroiqtisadi siyasət alətlərindən istifadə etməyə imkan verdi. Azərbaycanı düşdüyü ağır iqtisadi durumdan çıxarmağın yeganə yolunu respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadədə görən Heydər Əliyev neft amilini məharətlə işə saldı. Bu gün qətiyyətlə demək olar ki, hakimiyyətə qayıdışı ilə əldə edilən bütün uğurların kökündə Heydər Əliyevin neft strategiyası dayanır [3].

Çətin və mürəkkəb danışıqlar prosesindən sonra, 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakıda, "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənməsi haqqında xarici neft şirkətləri ilə bağlanmış müqavilə Azərbaycanın qədim neft tarixində yeni dövrün başlanğıcını qoymaqla bərabər, ölkə iqtisadiyyatının uzunmüddətli təminatına, bütövlükdə ölkəmizin parlaq sabahına geniş bir yol açdı.

Miqyasına və əhəmiyyətinə görə sonralar bütün dünyada haqlı olaraq "Əsrin müqaviləsi" adlandırılan bu müqavilə Azərbaycanın müstəqilliyi və rifahı naminə Ümummilli Lider Heydər Əliyev tərəfindən hazırlanmış və Xəzər dənizini dünyanın yeni neft mərkəzlərindən birinə çevirmiş neft strategiyasının reallaşdırılmasının əsasını qoydu.

"Əsrin müqaviləsi" Azərbaycanın uzunmüddətli strateji maraqlarının, siyasi, iqtisadi mənafelərinin təmin edilməsinə, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsinə, beynəlxalq mövqelərinin möhkəmlənməsinə, genişmiqyaslı beynəlxalq əməkdaşlığının vüsətlənməsinə güclü təkan verdi.

Heydər Əliyev müstəqil dövlətimizi demokratik inkişaf yoluna doğru istiqamətləndirdi. Qısa bir zaman ərzində dövlət quruculuğu sahəsində böyük irəliləyişlər əldə olundu. Demokratiyanın inkişaf etməsi ilə insan hüquq və azadlıqlarının qorunması, milli şüurun yüksəldilməsi sahəsində mühüm dəyişikliklər baş verdi. Ölkə başçısı kimi fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev dövlət quruculuğu prosesini demokratik prinsiplər əsasında qurdu. O, Azərbaycanı müstəqil, demokratik, hüquqi, dünyəvi vətəndaş cəmiyyətinə əsaslanan qüdrətli bir dövlətə çevirmək üçün gecə-gündüz yorulmadan gərgin fəaliyyətə başladı. Ulu Öndərimiz milli-mənəvi dəyərlərimizin, irsimizin qorunub saxlanmasını, daha da inkişaf etdirilməsini vacib məsələ kimi irəli sürdü və bu təməl üzərində yeni, müasir Azərbaycan yaratdı. O, mənəvi zənginliyi xalqın ən böyük sərvəti hesab edir, xalqımızın intellektual səviyyəsinin yüksəldilməsinə xüsusi əhəmiyyət verirdi [1].

Heydər Əliyev dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan şəxsiyyət idi. Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib. Heydər Əliyev dünya səviyyəsində tanınan və qəbul edilən siyasətçi idi.

Təsadüfi deyil ki, dünya liderləri və nüfuzlu rəsmi şəxslər Heydər Əliyev haqda maraqlı fikirləri ilə yadda qalıb. Dünya liderlərinin, tanınmış dövlət adamları və siyasi xadimlərinin, məşhur yazıçıların dediklərinə nəzər salarkən qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır. Məhz

ona görə dünya liderləri Heydər Əliyevi siyasət nəhəngi, nadir istedad sahibi, tarixi və əfsanəvi şəxsiyyət adlandırır, ona bəslədikləri böyük hörmət hisslərini dilə gətirirdilər.

Heydər Əliyev şəxsiyyəti o qədər zəngindir ki, istənilən aspektdən yanaşdıqda onun intəhasız fəaliyyətinin geniş okeanına çıxa bilirsən. Öyrənildikcə öyrənilən, heç zaman tükənməyən Heydər Əliyev irsi, onu müasiri olduğu digər dünya siyasətçilərindən fərqləndirən siyasi dühası, yaradıcı zəkası hələ uzun illər çoxtərəfli araşdırmaların mövzusu olacaq. Və hər zaman bu şəxsiyyətin tarixdə oynadığı əhəmiyyətli rol daha dərin məzmunda, daha geniş panoramda və daha konseptual şəkildə açılacaq. Amma bir həqiqət heç zaman dəyişməyəcək: Heydər Əliyev müasir Azərbaycanımızın qurucusu olmaqla yanaşı, tərəqqi və ədalət, sülhpərvərlik və humanizm ideyalarına əsaslanan geniş spektrli fəaliyyəti ilə bəşər tarixinin yetişdiriyi nadir şəxsiyyətlərdəndir!

Heydər Əliyev hər zaman azərbaycançılıq məfkurəsinin nəzəri əsaslarını inkişaf etdirirdi. Xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra isə banisi olduğu azərbaycançılıq məfkurəsini öz fəaliyyətinin təməl prinsipinə çevirdi. Ömrü boyu xidmət etdiyi xalqını etnik mənsubiyyətindən, dinindən asılı olmayaraq vahid ideologiya ətrafında birləşdirdi.

Məlumdur ki, bütün xalqların qarşısında duran ən ümdə vəzifə müstəqil dövlətə nail olmaqdır. Lakin azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər məsuliyyətli və mürəkkəbdir. Bunun üçün hər bir dövlətin özünün suverenliyi və ərazi bütövlüyünü qoruması onun güclü ordu quruculuğundan asılıdır. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra da apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində ölkəmizdə Milli Ordu formalaşdırıldı, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü. Orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Ordu quruculuğu prosesinin, müasir dövrün tələblərinə cavab verə biləcək Silahlı Qüvvələrin formalaşmasının bünövrəsi məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub.

Ulu öndər deyirdi: "Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq".

Ümumxalq məhəbbəti qazanmış, bitib-tükənməyən enerjisi ilə xalqını inkişaf yolu ilə irəliyə aparan Ulu Öndərin adı dünya siyasətçiləri, türk dünyası öndərlərinin ön sırasında çəkilir. 1993-2003-cü illərdə Azərbaycanda dövlət quruculuğu prosesi uğurla getmiş, dövlətin əsasları qoyulmuşdu. Məhz buna görə həmişə deyirik ki, Heydər Əliyev müstəqil Azərbaycanın banisidir. Hər dəfə o tarixi yada salaraq, təəssüf hissi ilə qeyd edirik ki, əgər müstəqilliyimizin ilk illərindən Heydər Əliyev hakimiyyətdə olsaydı, ölkəmiz Qarabağ problemi ilə üzləşməzdi. O, heç vaxt imkan verməzdi ki, orada separatçılar baş qaldırsınlar. Heç vaxt imkan verməzdi ki, xalqımıza qarşı qanlı cinayətlər törədilsin. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu gün Azərbaycan sözün əsl mənasında inkişaf yolundadır. Əbəs yerə deyilmir ki, hər bir azərbaycanlının taleyində ulu öndər Heydər Əliyev dühasının bir zərrəsi var. XXI əsrin çağırışlarına hazır olan Azərbaycanda ulu öndər Heydər Əliyev siyasəti zənginləşdirilir, vətəndaş həmrəyliyi formalaşır, cəmiyyət vahid amal uğrunda birləşir.

Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan, torpaqlarımızı erməni işğalından azad edən güclü və qalib Orduya malik olması Heydər Əliyevin misilsiz xidmətlərindən sadəcə biri sayıla bilər. Ümummilli Lider uzun illər ordu quruculuğu ilə yanaşı, Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışıb.

Ulu Öndər istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırıb və buna da nail olub. Məhz Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində işğal altında olan torpaqlarımız azad edildi. Əsasını Ulu Öndərin qoyduğu müasir və güclü Azərbaycan Ordusu cəmi 44 günə düşmənin silahlı qüvvələrini darmadağın etdi. Ata-baba torpaqlarımızın işğaldan azad olunması ilə bitən möhtəşəm zəfərdə Ali Baş Komanda İlham Əliyevin də qeyd etdiyi kimi Azərbaycan gəncləri əsas rolu oynadılar. Qorxmaz, igid gənclərimiz canları və qanları bahasına torpaqlarımızı işğaldan azad edərək adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazdılar. Təbii ki, gənclərin belə vətənpərvər, milli ruha sadiq yetişdirilməsində ulu öndər Heydər Əliyevin əsasını

qoyduğu gənclər siyasətin müstəsna əhəmiyyəti var. Vətən müharibəsi Azərbaycanda vətənpərvər gənc nəslin yetişdiyini bir daha sübut etdi. Bütün Azərbaycan vətəndaşları yeni əsrin başlanğıcında belə bir həqiqəti tam dərk etdilər ki, ölkəmizdə milli tərəqqinin 30 ildən artıq bir mərhələsi milli mənafeyi hər şeydən üstün tutan zəmanəmizin böyük siyasi və dövlət xadimi, milli dövlət quruculuğumuzun memarı Heydər Əliyevin millət və vətən sevgisindən qaynaqlanan fəaliyyəti ilə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı və parlaq qələbəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi Heydər Əliyevin neft strategiyasının əsas məqsədlərindən biri idi.

İndi çox aydın görünür ki, Azərbaycan xalqının ən böyük arzusu və istəyi olan bu müqəddəs Qələbə tək 44 günün ərzində qazanılmamışdır.

Bu Qələbə və Qələbəyə aparan yollar torpaqlarını itirmiş, hər şeydən ümidi üzülmüş, iqtisadi böhrana düçar olmuş, evindən-eşiyindən didərgin düşmüş bir xalqın Ulu Öndər Heydər Əliyevə müraciəti və xalqın israrlı tələbi ilə Ümummilli Liderin hakimiyyətə qayıdışından, Azərbaycan dövlətçiliyini xilasından, Azərbaycanın varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardığı taleyüklü tarixi anlardan başlamışdır.

Bu Qələbə Heydər Əliyevin Azərbaycanı dünyaya tanıtdığı, iri dövlətlər, mötəbər beynəlxalq qurumlar, dünya siyasətində mühüm rol oynayan nüfuzlu dairələr və mərkəzlər ilə səmərəli əməkdaşlıq müstəvisi qurduğu illərdən başlamışdır.

Bugünkü müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir. Sevinirik ki, Ulu Öndərimizin siyasi kursu bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bu gün dahi şəxsiyyət Heydər Əliyev cismən aramızda olmasa da əziz xatirəsi daim qəlbimizdə yaşayacaq, onun müəyyənləşdirdiyi, ölkənin gələcəyinə, inkişafına hesablanmış siyasəti Azərbaycan vətəndaşının yoluna həmişə işıq saçacaq... Müasir Azərbaycanın qurucusu Heydər Əliyevi anadan olmasının 101-ci ildönümü ilə əlaqədar hörmətlə və minnətdarlıqla anırıq. Əbədiyaşar lider xalqı üçün etdiyi bütün fədəkarlıqları ilə hər zaman qəlbi Azərbaycanla döyünən bütün azərbaycanlıların qəlbində ən xoş duyğularla yaşayacaq!

İstifadə edilmiş ədəbiyyat

1. Tarixi Zəfərə aparan yol: Heydər Əliyev strategiyası. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun lektoriyası. Heydər Əliyev Azərbaycanda dövlət quruculuğunun banisidir. Mühazirələr toplusu. Bakı 2017. səh. 160.

2. Qələndərli N. Çoxəsrlik tariximizin Heydər Əliyev dövrü dövlətçilik salnaməsidir. Yeni Azərbaycan. - 2022.- 07 may. - № 92. - s. 4.

3. Bayramova Y. Tarixi Zəfərin Banisi. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Yeni Azərbaycan. - 2023.- 26 may. - № 92. - s. 4.

AZƏRBAYCAN İQTİSADİYYATINDA MƏQSƏDYÖNLÜ MALİYYƏ SİYASƏTİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

[1,2]**Mehriban Allahverən qızı Kərimova,** [1,3]**Arif Qəhrəman oğlu Kələşov**
[1]Mingəçevir Dövlət Universiteti
[2]mehriban.karimova@mdu.edu.az
[3]arif.kalashov@mdu.edu.az

Azərbaycanın maliyyə sektorunun inkişaf strategiyasında Heydər Əliyev irsi

Xalqımızın ümummilli lideri Heydər Əliyev təkcə müstəqil Azərbaycan dövlətinin memarı deyil, həm də müasir dünyada sürətlə inkişaf edən, sabit xarakterə malik güclü iqtisadiyyatın banisi, maliyyə sektorunun yaradıcısıdır. Artıq 1990-cı illərin ortalarında Heydər Əliyev tərəfindən

qoyulmuş möhkəm sosial - iqtisadi təməl bu gün xalqımızın yüksək rifahının yüksəldilməsinə şərait yaradır, əhalinin parlaq gələcəyinin təmin olunmasına xidmət edir [2].

Uzun illər Sovet İttifaqının tərkibində olan Azərbaycanda da maliyyə siyasəti Marks və Leninin nəzəri müddəalarının təsiri ilə aparılırdı. Bu, ölkəmizi bir çox sahələrdə olduğu kimi, maliyyə sektorunu da geriləməyə məcbur etmişdi. Azərbaycanın müstəqilliyini əldə etdikdən sonra Heydər Əliyevin də hakimiyyətə gəlməsi ilə dövlət kimi maliyyə siyasətinin perspektiv istiqamətlərinin müəyyənləşdirilməsi üzrə bir sıra addımlar atılmış, xüsusilə, 1995-ci ildən başlayaraq ölkəmizin sürətli inkişafını təmin edən maliyyə siyasəti formalaşdırılmışdır. Perspektiv istiqamətlər ilk növbədə gömrük tariflərinin yenidən gözdən keçirilməsində, dövlət xərclərinin azaldılmasında, vergi siyasətində və s. nəzərə çarpmağa başlamışdır.

Heydər Əliyevin memarı olduğu bu ölkədə maliyyə siyasətində bankların və bank olmayan kredit təşkilatlarının rolunu da qeyd etmək lazımdır. Bank sistemindəki islahatların maksimum mənfəət əldə etməsi deyil, minimum komissiya ilə müəssisələrə və əhaliyə xidmət göstərməsi isə xüsusilə diqqəti çəkir. Məhz onun səyləri nəticəsində Azərbaycan iqtisadiyyatında kredit münasibətləri sistemi də həyata keçirilən tədbirlər nəticəsində təkmilləşdirilməyə başlanılmışdır. Bu isə kredit münasibətlərinin inkişafı həm istehsalat, həm də xidmət sahəsinin də inkişafına təkan vermişdir [4].

Hazırki dövrdə üzərindən illər keçməsinə baxmayaraq, Ümummilli liderimiz Heydər Əliyevin ideyaları yüksək keyfiyyətlə tətbiq olunur, uğurlu nəticələr qazanılır. Onun iqtisadiyyatın istənilən sahəsində balanslı inkişafı təmin etmək səyləri, maliyyə sektorundü gördüyü tədbirlər, bir sözlə Azərbaycanı müstəqillik əldə etdikdən sonra yenidən dirçəltmək cəhdləri nailiyyətlə nəticələnmiş, mühüm uğurlar əldə olunmuşdur. Ulu Öndərin qurduğu prinsiplər hazırda Prezident İlham Əliyevin maliyyə strategiyasında da yer alır, həyata keçirdiyi siyasətin əsas məqsədlərini təşkil edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə maliyyə-bank sektorunda inkişafın yeni mərhələsi

2003-cü ildən etibarən görülən işlər nəticəsində Azərbaycanda maliyyə sektoru daha sürətlə inkişaf etmişdir. Azərbaycan bir neçə uğurlu nümunədən biridir ki, qısa müddət ərzində aşağı gəlirli ölkələr qrupundan çıxıb, yuxarı - orta gəlirli ölkələr qrupunda yer almışdır. Ən əsası isə Azərbaycan uğurlu siyasət nəticəsində istər 2008-ci il böhranından, istərsə də koronavirus pandemiyasının yaratdığı dərin böhrandan minimum itkilərlə çıxmış nadir ölkələrdəndir.

Ölkəmizin hətta digər ölkələrə, xüsusilə inkişaf etməkdə olan dövlətlərə nümunə ola biləcək maliyyə siyasəti xüsusilə investisiya siyasəti ilə ayrılmaz şəkildə bağlıdır. Bunu qısaca belə şərh etmək olar ki, investisiya siyasəti Azərbaycanın maliyyə siyasətinin tərkib hissəsini formalaşdırır və əsas hədəf kimi ölkənin investisiya fəaliyyətinin maliyyələşdirilməsinə istiqamətləndirilmişdir. Başqa sözlə, həyata keçirilən investisiya fəaliyyətinin başlıca məqsədini aşağıdakı şəkildə ümumiləşdirmək olar:

- zəruri olan maliyyə ehtiyatlarının səfərbər olunması;
- investisiya fəallığının hər zaman yuxarı səviyyədə saxlanılması;
- kapital qoyuluşlarında ehtiyatlı davranmaqla səmərəliliyin əldə olunması.

Sadalanan fəaliyyətlər nəticəsində ölkəmiz yeni müstəqillik qazanmış və inkişaf etməkdə olan bir çox dövlətlərdən fərqli olaraq, istər yerli, istər xarici investisiya sahəsində yüksək nailiyyət əldə etmişdir. Bunu təxminən 144 milyard manat sərmayə kimi dəyərləndirmək olar. Dünyada baş verən qlobal transformasiyaları nəzərə alaraq qeyd etmək olar ki, artıq maliyyə sistemi ölkəmizin milli iqtisadiyyatının əsas hərəkətverici qüvvəsinə, drayverinə çevrilmişdir. Bank, sığorta və bu kimi maliyyə sahələrində qlobal və daxili risklərə qarşı yüksək səviyyəli dayanıqlılıq nəzərə çarpır. Məhz doğru istiqamətdə kapitallaşdırma, düzgün maliyyələşdirmə nəticəsində bank sektorundakı göstəricilər də daim müsbətə doğru dəyişir.

Göstəricilərə əsasən demək olar ki, Heydər Əliyev və İlham Əliyevin davamlı maliyyə siyasəti nəticəsində bank sektorunun aktivləri, eləcə də depozitlər artmış, müvafiq olaraq 44 və 52 dəfə olmaqla artım göstərmişdir. Maliyyə sektorunda dollarlaşma kəskin şəkildə aşağı düşüb və Cənubi Qafqazda ən aşağı həddə çatıb. Məhz bu sadalananlar bank sek-toruna, eləcə də milli valyutamıza olan yüksək inamın göstəricisidir [1].

Cənab Prezidentimizin siyasəti nəticəsində ölkəmizdə müasir maliyyə infrastrukturunun əsas atributu hesab edilən nağdsız ödənişlərdə də son 20 il ərzində sürətli inkişaf aydın şəkildə görünür. Belə ki, milli ödəniş sisteminin dövriyyəsi 80 dəfəyə qədər artmışdır. Eyni zamanda ölkəmizdə artıq rəqəmsallaşmanın yüksək səviyyədə həyata keçirilməsi nəticəsində nağdsız əməliyyatların həcmində də 950 dəfəyə qədər artım var və bu, ölkəmiz üçün kifayət qədər yaxşı göstəricidir. Təbii ki, əhalinin ödəniş kartları ilə təmin olunması sahəsində də arrtım baş vermiş və 151 dəfə artım kimi qiymətləndirilmişdir. Hazırda uğurlu siyasətin nəticəsidir ki, nağdsız ödənişlərin həyata keçirilməsi üçün nəzərdə tutulan vaxt sadəcə saniyələr çəkir[3].

Bank sektoru ilə yanaşı, sığorta sektorundan da müvəffəqiyyətlə bəhs etmək olar. Əslində, ölkəmizdə görülən ilk tədbirlər sırasında sığorta nisbətən gec yer alsa da, son 20 ildə sığorta şirkətlərinin aktivləri 36 dəfəyə qədər artmışdır. Qısa müddətdə sığorta haqlarının 17 dəfəyə qədər artırılmasında sektorun rəqəmsallaşdırılmasının da rolu böyükdür. Sığorta sahəsində göstərilən xidmətlərin rəqəmsallaşdırılması dövlət üçün də, əhali üçün də böyük əhəmiyyət kəsb edir. Artıq xidmətlər daha əlçatan olmaqla yanaşı, istər keyfiyyət baxımından, istər vaxt baxımından da daha çox rəğbət görməyə başlamışdır. Qeyd etmək lazımdır ki, müvafiq olaraq sığorta ödənişləri də 37 dəfəyə qədər yüksəlmə göstərmişdir [6].

İqtisadiyyat və maliyyə sahəsində qazanılan hər bir uğur növbəti hədəflər üçün böyük potensial yaradır və onun uzunmüddətli davamlı inkişafının əsasını qoyur. Hal-hazırda Azərbaycan hökuməti keyfiyyətcə yeni inkişaf prioritetlərini də dəqiqləşdirməklə yeni böyük addımlar atmağa başlamışdır. Azərbaycanın maliyyə siyasəti bu gün maliyyə ehtiyatlarının yığılması, onların lazımi şəkildə bölüşdürülməsi, eləcə də bu resursların istifadəsi ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər kompleksindən təşkil olunur.

Bu gün ölkəmizin yürütdüyü maliyyə siyasəti sosial-iqtisadi, eləcə də beynəlxalq əlaqələr də daxil olmaqla ictimai həyatın bütün sahələrini birləşdirir. Azərbaycan dövləti də bu siyasətin əsas subyekti kimi çıxış edir, maliyyə inkişafının perspektiv istiqamətlərinin strategiyasını, hər növbəti mərhələ üçün fəaliyyət planlarını, taktikasını, görüləcək işləri, iqtisadi problemlərin həlli üsullarını müəyyənləşdirir. Ölkə başçısının rəhbərliyi ilə inkişaf potensialına malik, daxili və xarici şoklara davamlı maliyyə sistemi qurulmuşdur. Bu sistem ilk növbədə möhkəm, dayanıqlı infrastruktur elementlərindən təşkil olunmuş, risklərin idarə edilməsi proseslərinə dərindən köklənmişdir. Sadalanan bütün bu amillər cənab İlham Əliyevin ölkənin davamlı iqtisadi inkişafının təmin edilməsi baxımından müəyyənləşdirdiyi əsas vəzifələr və hədəflər arasında başlıca yer tutur və bunun nəticəsində inkişaf potensiallı maliyyə sistemi yaradılır [5].

Nəticə

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident cənab İlham Əliyev yüksək səviyyədə və böyük inamla davam etdirilən maliyyə strategiyası məhz irimiqyaslı məsələlərin həllini nəzərdə tutur və uzunmüddətli perspektivə əsaslanır. Azərbaycanda müəyyənləşdirilmiş maliyyə taktikası maliyyə strategiyasının demək olar ki, bütün sahələrində yaranan maliyyə məsələlərinin, qarşılaşılan problemlərin həllində əsas üsul kimi çıxış edir. Nəzərə alsaq ki, Azərbaycanda maliyyə strategiyası sabitdir, deməli, maliyyə taktikası da buna əsasən çevik xarakter daşıyır. Ən əsası odur ki, maliyyə siyasətinin strategiyası və taktikası ayrılmaz şəkildə əlaqəlidir.

Maliyyə vəsaitlərinin müəyyən bir hissəsinin dövlətin mərkəzləşdirilmiş fondlarında cəmləşdirilməsi dövlətin müəssisələri mərkəzləşdirilmiş qaydada maliyyələşdirilməsini təmin etmək məqsədini özündə birləşdirir. Maliyyə ehtiyatlarından istifadəyə dair başlıca istiqamətlərin müəyyənləndirilməsi məhz onların səmərəli şəkildə istifadəsinə əsaslanır. Bu, ilk növbədə, maliyyə ehtiyatlarının daha yüksək səviyyəli sahələrə və sosial sferaya ayrılması hesabına əldə edilir. Daha az maliyyə xərcləri ilə daha yaxşı nəticələrin əldə edilməsi istər dövlətimiz, istərsə də bütün təsərrüfat subyektləri üçün prioritet vəzifə sayılır.

Nəticə olaraq demək olar ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu şəkildə inkişaf etdirilən strateji maliyyə kursu ölkəmizi artıq əksər inkişaf etmiş ölkələrlə belə müqayisə etməyə imkan verir, Azərbaycanı beynəlxalq zirvələrə yüksələn ölkələr arasında lider mövqeyə qoyur. Təbii ki, bütün bu tədbirlər davam

etdirilməklə, gələcəkdə də bu strateji istiqamətdə ölkənin inkişafı səviyyəsində istər kəmiyyət, istər keyfiyyət göstəricisinə əsaslanan uğurların əldə olunması şübhəsizdir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan üzrə Ölkə Strategiyası 2019-2024. 25 aprel 2019-cu il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur. European Bank for Reconstruction and Development (EBRD). s. 12
2. Əliyev Ü. Heydər Əliyevin inkişaf strategiyası Azərbaycanın uğur modelinin əsasıdır. "Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər" mövzusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi-praktiki konfransın materialları. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2021. s. 40
3. Prezident İlham Əliyevin rəhbərliyi ilə maliyyə-bank sektorunda inkişafın yeni mərhələsi başlayır. Xalq qəzeti. 2020. s. 7
4. Majumdar A. (2022). Heydar Aliyev: National leader of Azerbaijan. 2nd International Congress of Azerbaijan`s Architect Heydar Aliyev in the 99th anniversary of his birth. Baku. Azerbaijan. p. 51
5. https://modern.az/news/36848/
6. https://report.az/maliyye-xeberleri/azerbaycanin-maliyye-sektoru-prezident-ilham-eliyevi-destekleyir/

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL SİYASƏTİNİN İNKİŞAFINDA ROLU

[1,2]**Sabir Nəriman oğlu Babuşov,** [1,3]**Könül Hacı qızı Sadıqova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]sabir.babushov@mdu.edu.az
[3]konul.sadiqova.h@mdu.edu.az

"Cəmiyyət təhsilsiz inkişaf edə bilməz"

(Heydər Əliyev)

Azərbaycan Respublikasının demokratik, milli və bəşəri dəyərlərə sadiq müstəqil dövlət kimi inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev müasir, müstəqil Azərbaycanın memarı və qurucudur. Ulu Öndərin birinci dəfə 1969-1982-ci illəri əhatə edən quruculuq fəaliyyəti qədim dövlətçilik tariximizin ən böhranlı dövrlərindən hesab edilən 1990-cı illərin həlledici məqamında ikinci dəfə siyasi hakimiyyətə gəldiyi zaman yeni vüsət aldı. 1993-cü ilin iyun ayında xalqın istəyi və tələbi ilə Azərbaycan Respublikasında siyasi hakimiyyətə Heydər Əliyevin qayıdışı Azərbaycanın nicat günü, milli kimliyimizin yenidən dərki və xoşbəxt gələcəyin ilk təməlinin qoyulduğu müstəqillik tariximizdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" sərəncamında deyilir: *"Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".*[1]

Ulu öndər Heydər Əliyev deyirdi ki, "Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, milli mənafelər əsasında qurulmalıdır ki, biz məqsədimizə nail olaq". Bu məqsədlərə xidmət edən təhsil islahatları bilavasitə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilməyə başladı.

Ulu öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "*İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən*

böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun". [2]

1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın tərəqqisi, elm, təhsil və mədəniyyətinin yüksəlməsi üçün çox məharətlə düşünülmüş strategiya və taktika seçməyə nail oldu.

Bu illər ərzində Azərbaycanda təhsilin inkişafı geniş vüsət almışdı. Məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə çıxaraq, Azərbaycan əhalisinin təhsil, ümum mədəni və intellektual səviyyəsinin yüksəldilməsində böyük rol oynadı.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", 1973-cü ildə isə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlar qəbul edildi. Bu qərarların icrası nəticəsində ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-ə, 1982-ci ildə isə 3750-ə çatdırıldı. Ümumtəhsil məktəblərində şagirdlərin sayı 1980-ci ildə 710 min nəfərə çatdırıldı ki, bu da 1969-cu illə müqayisədə iki dəfə çox idi. Həmin illər ərzində 5 yeni ali təhsil müəssisəsi yaradıldı və ali təhsil alanların sayı 70000 nəfərdən 100000 nəfərə çatdırıldı. Bununla yanaşı, həmin illərdə SSRİ-nin ən nüfuzlu ali məktəblərində respublikanın inkişafı üçün zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15000 nəfər ali təhsil almışdır. Bu, çox böyük nailiyyət idi.

1970-1980-ci illərdə Azərbaycanda yeni texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması həm də həmin sahələr üzrə ali və orta ixtisas təhsili müəssisələrinin, elmi tədqiqat institutlarının yaradılmasına imkan verirdi.

Heydər Əliyevin 1969-cu il noyabrın 1-də Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində geniş nitqlə çıxışı və 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi milli mənlik şüurunun, azərbaycançılıq məfkurəsinin təşəkkülünə güclü təkan verdi. Milli oyanış, soy kökünə yeni baxış və təhsil ocaqlarında milli ədəbiyyatımızın, ana dilimizin, tariximizin və mədəniyyətimizin tədqiqini, öyrənilməsini gücləndirdi. [3]

Azərbaycanın qədim tarixinin ayrı-ayrı dövrlərində yaşayıb yaratmış məşhur azərbaycanlı alim, filosof və şairlərin həyat və yaradıcılığı geniş şəkildə tədqiq edilməyə başlanıldı, əsərləri böyük tirajla çap edildi, müxtəlif dillərə tərcümə olundu, tarixi filmlər çəkildi, beynəlxalq konfranslar, yubiley tədbirləri təşkil edildi. Azərbaycan xalqının bütün dünyaya qədim dövlətçilik tarixi və zəngin mədəniyyəti olan xalq kimi tanıdılması başlandı.

1993-cü ildə xalqın təkidi ilə yenidən siyasi hakimiyyətə gələn və 1993-cü il Prezident seçkilərində Azərbaycan xalqının 90 faizdən çox səsini qazanan Heydər Əliyev təhsil siyasətinin prioritet sahə olduğunu bəyan edərək bu istiqamətdə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başladı. 1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev müstəqil dövlətimizin Konstitusiyasının hazırlanması ilə bağlı təşəbbüs irəli sürdü. Azərbaycan Respublikasının Milli Məclisi 6 dekabr 1993-cü il tarixli qərarı ilə Heydər Əliyevin sədrliyi altında Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının layihəsini hazırlayan komissiya yaradıldı.

Ümummilli Lider Heydər Əliyev ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra təhsil sahəsində ardıcıl, davamlı dövlət siyasəti müəyyən edildi. Onun qəbul etdiyi qərarlara, imzaladığı fərman və sərəncamlara uyğun olaraq təhsil sahəsində düşünülmüş, Avropa təhsil məkanına inteqrasiyanı və ölkənin iqtisadi inkişafını təmin edə biləcək mütəxəssis hazırlığı ilə bağlı köklü islahatlara başlanıldı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu ilin 15 iyununda "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nı təsdiq etdi. Üç mərhələdən ibarət olan bu islahat proqramı miqyasına, əhatə dairəsinə və müddətinə görə ən böyük Dövlət Proqram idi və təhsilin sisteminin XXI əsrin çağırışlarına, iqtisadi inkişafın davamlı və dayanıqlı olmasına, Avropa əmək bazarına çıxışın təmin edilməsinə yönəlmişdi. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Azərbaycanın təhsil sistemində keçmiş ənənələrdən, nailiyyətlərdən, böyük potensialdan istifadə

edərək təhsil sistemini yeni tələblərə uyğunlaşdırmaq, islahatlar həyata keçirmək işi başlanmışdır və bunlar da öz müsbət nəticəsini verir". Bu islahat proqramı müstəqil dövlətin təhsil sisteminin XXI əsrin çağırışlarına uyğun yenidən qurulmasının təmin edilməsinə yönəlmişdi. Eyni zamanda, onu da qeyd etməliyik ki, bu islahat proqramı Ulu Öndərin 1969-cu ildə Azərbaycana birinci dəfə rəhbərliyə gəldikdən sonra başlatdığı, amma 1987-1993-cü illərdə baş vermiş hadisələrin gerçəkləşməsinə imkan vermədiyi təhsil strategiyasının davamı kimi də qiymətləndirilə bilər. [4]

Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 13 iyun 2000-ci ildə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Yeni Minilliyin milli təhsil sisteminin yaradılmasına yönəlmişdi.

Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" sərəncamı ümumtəhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsində və müasirləşdirilməsində əhəmiyyətli rol oynadı.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar da təhsilin inkişafında böyük əhəmiyyətə malik idi. Tarixi, siyasi və milli əhəmiyyət kəsb edən latın qrafikasına keçidin təmin edilməsi həm müstəqilliyin möhkəmlənməsi, həm də türkdilli dövlətlərin gələcək birliyi istiqamətində həyata keçirilmiş uğurlu layihələrdən biri oldu.

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə üçün Prezident təqaüdünün təsis edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin "Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli fərmanı da Ulu Öndərin gənclərin ali təhsil almalarına böyük dəstəyinin bariz təzahürü idi. Prezident təqaüdü gənclər arasında yüksək bilik, bacarıq, səriştələr və yüksək əxlaqi dəyərlər qazanmaq uğrunda yarışa çevrildi. Bu, xalqa, müstəqil dövlətə sədaqətlə xidmət edəcək yaradıcı şəxsiyyətin formalaşdırılmasına verilən böyük töhfələrdən biri idi.

*"Biz 1970-ci ildən başlayaraq Azərbaycandan gənclərin keçmiş Sovetlər İttifaqının ən böyük universitetlərinə, ali məktəblərinə oxumağa göndərilməsinə nail olduq. Onların sayı hər il artırıldı. Mənim xatirimdədir, 70-ci illərin sonunda ildə 800-900 nəfər və 80-ci illərin əvvəlində ildə 1000-1400 nəfərə qədər gənclərimiz respublikamızdan kənardakı ali məktəblərə göndərildi. Bunun böyük əhəmiyyəti var idi. İndi biz bunun müsbət nəticələrini görürük"*deyən ümummilli Lider qürurunu sözləriylə bildirmişdir.

Doğrudan da, 1970-1982-ci illərdə hazırlanan həmin mütəxəssislər Azərbaycanın iqtisadi, siyasi, mədəni inkişafına öz töhfələrini veriblər və bu gün də bu fəaliyyəti uğurla davam etdirirlər. Müstəqillik əldə edildikdən sonra inkişaf etmiş ölkələrə azərbaycanlı gənclərin təhsil almağa göndərilməsi dövlətin mühüm vəzifələrindən birinə çevrildi.

Milli təhsil sistemi üçün Azərbaycan əlifbasının qəbulu və Azərbaycan dilinin inkişaf etdirilməsi olduqca əhəmiyyətli hadisə idi.

Ulu Öndər ümumi təhsilin qarşısında duran vəzifələri müəyyən edərkən bir məsələyə xüsusi diqqət ayrılmasını mühüm hesab edirdi. Onun fikrincə, uşaqlar tədris edilən fənlərin hamısını yaxşı mənimsəməlidirlər, bilikli olmalıdırlar, ancaq hamısından daha çox "Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər".

Ana dilinin şəxsiyyətin yaradıcı təfəkküründə inkişafında oynadığı rolu Heydər Əliyev belə ifadə edirdi: *"Ancaq bir var ki, Azərbaycan dilində oxuyursan, bir də var ki, dilinin incəliklərini*

bilirsən, Azərbaycan dilində yüksək səviyyəli söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq edə bilirsən". [5]

Ulu Öndərin müəyyənləşdirdiyi təhsil siyasəti bu gün Azərbaycan Respublikasının I vitse-prezidenti xanım Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən də uğurla davam etdirilir. Azərbaycanda ilk dəfə fondlar tərəfindən yeni məktəb binalarının inşasının və ya əsaslı təmirinin, maddi-texniki bazasının möhkəmləndirilməsinin əsası məhz həmin fond tərəfindən qoyuldu. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin, musiqisinin təbliğinə və təhsilinin inkişafına özünün böyük töhfələrini verir.

"Azərbaycanda elmin, təhsilin, mədəniyyətin və incəsənətin inkişafında, milli-mənəvi dəyərlərin dünya miqyasında tanınmasında Heydər Əliyev Fondunun xüsusi əməyi var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına daim diqqət və qayğı ilə yanaşaraq bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirir. Ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı, "Təhsilə dəstək" kimi dövlət maraqları baxımından xüsusi əhəmiyyət daşıyan bir sıra layihələri fond uğurla gerçəkləşdirir".

Burada bir məsələni də xüsusi olaraq qeyd etmək istərdik. İnteqrasiyalı təhsil, inklüziv təhsil sahəsində Heydər Əliyev Fondunun fəaliyyəti nəinki təqdirəlayiqdir, həm də ən yaxşı nümunə və örnəkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yeni dövrün yeni təhsil sisteminin, o cümlədən yeni ali təhsil sisteminin yaradılması məqsədi ilə insan kapitalının yaradılması konsepsiyasını irəli sürdü. Təhsilin inkişaf etdirilməsi ilə bağlı yeni dövlət proqramlarını təsdiq edildi. Azərbaycanda ali təhsilin inkişafını təmin etmək, Avropa təhsil və əmək məkanına sərbəst çıxış əldə edə biləcək mütəxəssis hazırlığını təmin etmək məqsədilə ölkəmizin Bolonya prosesinə qoşulması ilə bağlı qərar qəbul edildi və Azərbaycan 2005-ci ildə Bolonya prosesinə qoşuldu. Bununla da faktiki olaraq ali təhsildə aparılacaq islahatların istiqaməti müəyyən edildi.

İslahatların daha da genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 2013-cü il 24 oktyabrda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", 2015-ci il 19 yanvarda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı" və 2018-ci il 16 noyabrda "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edildi. [6]

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları nəticəsində "maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi" siyasəti Azərbaycanın davamlı inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi gerçəkləşdirilir. Prezidentin təhsilə olan xüsusi diqqəti, qarşıya qoyulan vəzifələrin ardıcıl surətdə həlli, təhsil sahəsində genişmiqyaslı dövlət proqramlarının təsdiqi və icrası, həyata keçirilmiş islahatlar keyfiyyətli təhsilin maddi-texniki bazasını və kadr potensialını möhkəmləndirmişdir.

Azərbaycanda təhsil sahəsində islahatlar davamlı xarakter daşıyır və dövlətin təhsil strategiyası ən müasir təhsil müəssisələrinin yaradılmasını, vətəndaşların keyfiyyətli təhsil almalarını təmin edir.

Azərbaycan Respublikasının Milli Məclisində 2009-2019-cu illər ərzində "Təhsil haqqında", "Peşə təhsili haqqında", "Ümumi təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Bununla da təhsilin inkişafının qanunvericilik əsasları möhkəmləndirilmiş, təhsilverənlərin və təhsilalanların hüquqları, sosial müdafiəsi təmin edilmişdir.

Ali təhsilə əlçatanlığı təmin etmək məqsədilə ali məktəblərdə təqaüd alan tələbələrin sayı 2019-2020-ci tədris ilində 45%, 2020-2022-ci tədris ilindən başlayaraq isə 50 % çox olmuşdur. Bununla yanaşı, doktorantlara, ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləği də orta hesabla 20 % artırılıb. Bu tədbirlər 110 mindən çox tələbəni və

doktorantı əhatə edib. Eyni zamanda, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi yerləri 66% artaraq 12300-dən 20500-ə çatdırılıb.

Ulu Öndər Heydər Əliyevin 1970-1982-ci illərdə Azərbaycanlı gənclərin ən nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsi ənənəsi bu gün də uğurla davam etdirilir.

Prezident İlham Əliyevin neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində təhsilini təşkil etmək məqsədilə bir neçə dövlət proqramı qəbul edilib. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın əsas hədəfi ayrılan maliyyə vəsaitləri çərçivəsində bakalavriat, magistratura, rezidentura, doktorantura təhsil səviyyələri üzrə xaricdə və ali təhsil müəssisələri arasında beynəlxalq tələbə mübadiləsi əsasında mütəxəssis hazırlığının respublikanın iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla təmin edilməsidir. Bu Dövlət Proqramı uğurla başa çatdıqdan sonra yeni dövlət proqramları da qəbul edildi. Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2022-ci il tarixli sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edildi. Hal-hazırda yüzlərlə gənc dövlət hesabına dünyanın ən qabaqcıl universitetlərində təhsil alır. [7]

Azərbaycan təhsilində sistemli islahatların uğuru həm də bu sahəyə dövlət tərəfindən ayrılan vəsaitin həcmi ilə şərtlənir. Statistik məlumatların təhlili göstərir ki, təhsilə dövlət tərəfindən ayrılan xərclərin həcmi ölkənin ümumi iqtisadi inkişafına uyğun olaraq dəfələrlə artıb. Təhsilə dövlət büdcəsindən ayrılan xərclərin sürətli artımı 2005-ci ildən etibarən başlayıb və 2006-cı ildə təhsil xərcləri 480 milyon manata yaxın idisə, 2011-ci ildə dövlət büdcəsindən təhsil ayrılan xərclər 1.27 milyard manata, 2023-cü ilin dövlət büdcəsində isə bu rəqəm 4.5 milyard manata çatdırılmışdır.

Azərbaycan Respublikasının 2023-cü il büdcəsində də elm və təhsil prioritet istiqamətlərdən biridir.

Ulu Öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "*İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır*"

Heydər Əliyev Azərbaycan təhsilinin məqsəd və vəzifələrini müəyyən etməklə yanaşı, həm də müəllimlərin özlərinin vətənpərvər, dövlətə və millətə sadiq olmalarını xüsusi vurğulayır. Azərbaycan təhsilinin qarşısında dayan bu vəzifə uğurla icra edilir. Vətənpərvərlik ruhunda tərbiyə edilən, formalaşan Azərbaycan gəncləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandalığı altında igid əsgər və zabit kimi öz müəllimləri ilə birlikdə qəhrəmanlıqla döyüşərək 44 günlük Vətən müharibəsindən ərazilərimizi erməni-faşist işğalçılarından azad etdilər. Azərbaycanın Zəfər tarixini yazdılar və Ulu Öndərin vəsiyyəti yerinə yetirildi. Hesab edirik ki, bu, həm də Azərbaycan təhsilinin ən böyük uğurlarından biridir.

Bu gün milli təhsilimiz ölkəmizdə savadlılığı 100 faiz təmin etməyə çalışır və bunun əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən Azərbaycanın təhsil strategiyası uğurla davam etdirilir və müstəqilliyimizin iqtisadi yüksəlişini təmin edir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // https://e-qanun.az/framework/52506
2. Pənahov İ. Əbədiləşən şəxsiyyət. Bakı-2013 192 s.
3. Mahmudov Y. Heydər Əliyev Azərbaycan elminin keşiyində. Bakı-2013. 668 s.
4. Naxcıvanlı A. Mədəniyyət, mənəvi dəyərlər, mənəvi tərbiyə. Bakı-2011.
5. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Bakı, 2007, 21-ci cild, 254s.
6. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" // https://e-qanun.az/framework/5363

7. Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında // https://e-qanun.az/framework/48310

HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN ELMİNİN,TƏHSİLİNİN VƏ MƏDƏNİYYƏTİNİN BÖYÜK HİMAYƏDARI

[1,2]**Vaqif Şahismayıl oğlu Abdullayev,** [1,3]**Əfsanə Məzahir qızı Mürsəlova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]vaqif.abdullayev@mdu.edu.az.
[3]afsana.mursalova@mdu.edu.az

Heydər Əliyev şəxsiyyətini, Heydər Əliyev fenomenini öz dəyərincə bütün incəliklərinə qədər qiymətləndirmək mümkün deyil. Çünki ulu öndərimiz kimi dahilər min ildə bir doğulur və xalqının taleyində, tarixində silinməz izlər qoyur, məmləkətin, ölkənin ən çətin, ağır dövründə xilaskar rolunu oynayır.[1]

Bu dahi insanın fəaliyyətinə, keçdiyi ömür yoluna nəzər salanda aydın görürük ki, Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı bütün həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Ulu Öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin, üzücü anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Bu dahi insan düşüncələri zəngin olduğu qədər də tükənməz enerjiyə malik idi. Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhət bu idi ki, o, məmləkətin inkişafı üçün zəruri olan məqamları görə bilirdi, qarşıya konkret məqsədlər qoyurdu və insanları bu məqsədlər naminə səfərbər edirdi, qüvvələri səmərəli şəkildə istiqamətləndirirdi.

Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşırdı. Bu da təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.[3]

Məhz buna görə də Ümummilli Liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi bazasının gücləndirilməsi əhalinin gün-güzəranının yaxşılaşdırılması, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövründə illər Azərbaycanın tarixinə elmin və təhsilin, mədəniyyətin tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, kino-teatr, klub, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Mədəniyyətin bütün sahələrində görünməmiş uğurlar qazanıldı. Bu qayğı sayəsində neçə-neçə görkəmli bəstəkar, rəssam, şair, yazıçı, heykəltəraş yetişdi. Onlara fəxri adlar verilməsi, Bakıda və Moskvada yubileylərinin keçirilməsi ənənə halını aldı. [2]

Heydər Əliyev hakimiyyətinin birinci dönəmində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə digər bina istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində

xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır.

1993-cü ilin iyununda xalqın istəyi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması Azərbaycan mədəniyyətinə yeni ab-hava gətirdi. Təhsil işçiləri, ziyalılar dövlətin yüksək qayğısı ilə əhatə olundular. Onlarca sənətkara fəxri ad, Prezident təqaüdü, müxtəlif mükafatlar verildi. Neçə-neçə unudulmuş mədəniyyət xadiminin yubileyləri keçirildi... Heydər Əliyev hakimiyyətinin birinci dövründə Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza və digərləri Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər.[4]

Heydər Əliyev azərbaycançılıq ideologiyasına mühüm önəm verirdi. Qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud"da milli düşüncə, azərbaycançılıq ideologiyası geniş əksini tapdığından ulu öndər alimlərin dastanın araşdırılması və tədqiqinə normal şərait yaratdı. "Azərbaycan ədəbiyyatı çoxəsrlik tarixi "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir" - deyən Heydər Əliyevin təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud"un motivləri əsasında bədii film çəkildi. [2]

Təsadüfi deyil ki, bu gün də həmin dövr Azərbaycan elminin, mədəniyyətinin və təhsilinin intibah dövrü kimi xarakterizə olunur və qiymətləndirilir. 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişi ilə bütün sahələrdə sürətli inkişaf dövrü başlayıb. O, Azərbaycanda təhsilin bütün pillələrinin inkişafına davamlı olaraq diqqət göstərirdi. Ulu Öndərin xüsusi diqqəti nəticəsində istər məktəbəqədər, istər ümumi təhsil, istər peşə və istərsə də ali təhsil müəssisələrinin infrastrukturunun yenilənməsi, yeni məktəb binalarının tikintisi, peşə təhsilinin genişləndirilməsi, həmçinin ali təhsil ocaqlarının yaradılması və yeni profilli ixtisasların açılmasının mümkünlüyünü təmin etmək məqsədilə kafedraların, laboratoriyaların yaradılması, güclü elmi-pedaqoji kadr potensialının formalaşdırılması istiqamətində ciddi işlərə imza atılmışdı. Ümummilli lider Heydər Əliyevin gərgin səyi və yorulmaz zəhməti qarşılığında ötən əsrin 70-80-ci illərində məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatdırıldı, həmin müəssisələrdə təlim-tərbiyə alanların sayı 110 mindən 147 min nəfərə yüksəldi. Heydər Əliyev ümumi təhsilin inkişafı istiqamətində də ardıcıl qərarların qəbul edilərək icra edilməsinə nail ola bilmiş, həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin yüksəlişi ciddi şəkildə təmin edilmişdi. [5]

Heydər Əliyev öz çıxışlarında deyirdi ki, təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" mühüm əhəmiyyətə malik qərarların icrasından sonra Azərbaycanda orta ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-yə çatdırılmışdı. Bu, məktəblərin əhatə dairəsinin 3 dəfə genişlənməsi deməkdir. Həmçinin təhsilin keyfiyyətini təmin edən vacib elementlərdən olan dərslik təminatına toxunmaq yerinə düşər. Belə ki, təhsilanlar üçün 1978-ci ildən başlayaraq pulsuz dərslik təminatına start verilmişdi. Məktəb tikintisinin geniş vüsət aldığı həmin dövrün yeni məktəb quruculuğu sahəsində göstəriciləri də ciddi rəqəmlərlə özünü göstərir. Belə ki, onun rəhbərliyi dövründə şagird tutumu 683 mindən artıq olan 1191 yeni ümumtəhsil məktəb binası tikilərək istifadəyə verilmişdi. [3]

Ulu Öndər respublikaya birinci rəhbərlik dönəmində hər zaman müəllimlərə xüsusi qayğı ilə yanaşıb. Müəllimlərin əməyinin stimullaşdırılmasına, onların fədakar əməyinin qiymətləndirilməsinə dair müxtəlif qərarların qəbulu da məhz Heydər Əliyevin müəllim adına və əməyinə ehtiramının nümunəsi sayılmalıdır. Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi illərində 817 nəfər "Əməkdar müəllim" fəxri adına, 3 nəfər müəllim isə həmin dövrün ən ali təltiflərindən olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.

Peşə təhsilinin intibah dövrü də Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. Heydər Əliyevin təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirildi, nəticədə 54 yeni texniki peşə təhsili müəssisəsi tikilərək istifadəyə verildi. Bu istiqamətdə məqsədyönlü işlər növbəti illərdə də davam etdirilib. 1978-1987-ci illərdə respublikamızda 5276 yerlik müasir texniki peşə təhsili müəssisələri, 2400 yerlik tədris binaları, 2800 yerlik təcrübə korpusları, ümumi sahəsi 15559

kvadratmetr olan yataqxana binaları tikilib istifadəyə verildi, 194 tədris istehsalat emalatxanası, 786 tədris kabineti və laboratoriyası yaradıldı. Müqayisə üçün 1970-ci ildə təxminən 41 min şagird yerlik 76 peşə məktəbi mövcud idisə, 1980-ci ildə təxminən 100 min yerlik 173 peşə məktəbi fəaliyyət göstərirdi. Növbəti iki ildə, yəni 1982-ci ildə 184 peşə təhsili müəssisəsində 230 peşə üzrə təhsilalanların sayı 110 min şagirdə çatdırıldı.

Heydər Əliyevin ali təhsilin inkişafına qayğısı təkcə respublikamızda yüksəkixtisaslı ali təhsilli kadr potensialının formalaşdırılması ilə deyil, həm də böyük uzaqgörənliklə xalqın intellektual səviyyəsini yüksəltmək yolu ilə gələcək müstəqillik dövrü üçün təminat formalaşdırılmasına xidmət edirdi.

Dahi rəhbərin təşəbbüsü və himayəsi ilə XX əsrin 70-80-ci illərində ali təhsil müəssisələrinin sayı artırıldı, fəaliyyət dairəsi genişləndirildi, onların maddi-texniki potensialı möhkəmləndirildi, tədris korpusları tikilərək istifadəyə verildi, yeni ali təhsil müəssisələri yaradıldı. Aşağıda konkret rəqəmlərlə ifadə olunan münasibət statistik mənzərəni daha aydın göstərəcək: Belə ki, ümumilikdə 1970-1982-ci illərdə Azərbaycanda 5 yeni ali təhsil müəssisəsi yaradıldı, yüzlərlə yeni ixtisaslar açıldı, kafedralar fəaliyyətə başladı, problem laboratoriyaları, təcrübə bazaları istifadəyə verildi. Heydər Əliyev respublika rəhbərliyinə gələndə mövcud 12 ali təhsil müəssisəsində 105 fakültə, 450 kafedra fəaliyyət göstərirdi ki, bu müəssisələrdə də 139 ixtisas üzrə kadr hazırlığı reallaşdırılırdı. 1982-ci ildə artıq ali məktəblərin sayı 21 idi. Həmin ali təhsil məktəblərində fakültə sayı 136-ya, kafedra sayı 530-a çatdırıldı, tələbələrin sayı isə 100 minə yüksəldi. Bu, Ulu Öndərin milli kadr hazırlığı siyasətinin yalnız bir hissəsini əks etdirən statistikadır. Heydər Əliyevin bu istiqamətdə əvəzsiz və müstəsna xidmətlərindən biri də SSRİ-nin ən nüfuzlu və aparıcı ali məktəblərinə azərbaycanlı gəncləri təhsil almağa göndərmək istiqamətində gördüyü işlər idi. Heydər Əliyev işinin çoxluğuna baxmayaraq, hər il təhsil almağa göndərilən gənclərlə görüşərək onlara tövsiyələrini verirdi. [4]

Ümummilli Liderin respublikadan kənarda milli kadr hazırlığı istiqamətində apardığı siyasətin mühüm tərkib hissələrindən biri də hərbi kadrların yetişdirilməsi məqsədilə hər il yüzlərlə gənci SSRİ-nin hərbi məktəblərinə təhsil almağa göndərməsi idi. Müstəqillik əldə edildikdən sonra həmin illərdə oxumuş zabitlər olmadan Azərbaycan Milli Ordusu yaradıla bilməzdi və deməli, ordu olmadan müstəqillikdən də danışmaq mümkünsüz idi. Heydər Əliyev Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi olduqca mühüm dövlət vəzifəsində çalışmasına baxmayaraq həmin gəncləri unutmur, onlarla görüşərək qayğılarının qarşılanmasında və problemlərinin həllində ən yüksək səviyyədə dəstəyini əsirgəmirdi. [5]

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev M. Xalq qəzeti (16 may 2010-cu il)- Səh 4-6.
2. Cəfərova E.H.,"Ulu öndər Heydər Əliyevin banisi olduğu Azərbaycan multikulturalizmi" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-Nəzəri konfransın materalları (4may 2021 – ci il). Mingəçevir,2021,səh.44-47.
3. Hüseyinova R.A. "Heydər Əliyev dühası – bütöv şəxsiyyətin mücəssiməsinin öyrənilməsinin ideoloji istiqamətləri" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi –Nəzəri konfransın materalları (4May 2021 –ci il).Mingəçevir,2021,səh.95-98.
4. Kərimov Q.K.,"Heydər Əliyev ideyalarına sadiq Azərbaycan gənclərinin Vətən müharibəsində fəal iştirakı" Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-Nəzəri konfransın materialları(4 May 2021-ci il).Mingəçevir,2021,səh.21-25
5. Qədimli N.A.," Heydər Əliyev Azərbaycanın davamlı iqtisadi inkişafının banisidir" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının

müəllifi" mövzusunda Respublika elmi konfransının materialları (4-5 may 2023 – ci il).Mingəçevir,2023,səh.68-73.

MÜASİR DÖVRÜN MÜNAQİŞƏLİ MƏZMUNU VƏ HEYDƏR ƏLİYEVİN SÜLHPƏRVƏR SİYASƏTİ

İlham Mabud oğlu Məmmədov
Mingəçevir Dövlət Universitet
ilham.mammadov@mdu.edu.az

XX əsrdə ən geniş yayılmış humanist təlimlərdən biri də pasifizmdir. Pasifizm (lat. *pasifikus* - sülhyaradan deməkdir, burada *"pax"* - sülh, *"facio"* - edirəm və yaradıram) zorakılığa qarşı çıxan və onun yox edilməsini özünün ali məqsədi hesab edən bir ideologiyadır. O, müharibə və zorakılıq əleyhinə ictimai hərəkat kimi təzahür edir, zorakılığı və hərbi-siyasi hüdudsuzluğu kəskin şəkildə tənqid edir. "Silahsız və yalnız sülh yolu ilə müharibəyə müharibə elan etmək", "dinc yolla etiraz etmək" kimi prinsiplər pasifizmin məzmununu təşkil edir. Pasifizmin görkəmli ideoloqlarından biri olan B. Britaniya filosofu Bertran Artur Rassel (1872-1970 – pasifist və ictimai xadim, 1950-ci ildə Nobel mükafatı laureatı) olmuşdur. 1917-ci ildə hərbi-siyasi hüdudsuzluğun hökm sürdüyü dövrdə B. Rassel özünün "Siyasi ideallar" (ing. *Political ideals*) əsərində yazırdı ki, *"yeganə layiqli siyasi məqsəd - cəmiyyətdə hər bir insanın təbii yaradıcı imkanlarının maksimum şəkildə inkişafının təmin edilməsidir".* Pasifizmin nümayəndələri sırasında aşağıda adları çəkilən böyük şəxsiyyətlər var idi: Bertran Rassel (1972-1970), Alfred Nobel (1833-1896), Mahatma Qandi (1869-1948), Məhəmməd Əli (1942-2016), Maykl Cekson (1958-2009), Albert Eynşteyn (1879-1955), Lev Tolstoy (1828-1910), Con Lennon (1940-1980), Bob Marli (1945-1981) və b. Beləliklə, sülh yaratmaq motivləri üzərində formalaşan pasifizim bütün müharibələrin və münaqişələrin qarşısını almağa, sarsılmaz və əbədi barış yaratmağa, Yer kürəsində varlığın əbədi olmasını təmin etməyə istiqamətlənmişdir. XX yüzildə sülhyaradan missiyanı həyata keçirən qüdrətli şəxsiyyətlərdən biri də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev olmuşdur. Qeyd edmək lazımdır ki, Heydər Əliyev böyük siyasətə qlobal siyasi münasibətlərin fövqəladə şəkildə kəskinləşdiyi XX əsrin 60-cı illərində gəlmişdi. Ulu öndər həm Azərbaycana 1-ci (1969-1982) və 2-ci (1993-2003) rəhbərliyi dövründə, həm də SSRİ-rəhbərlərindən biri olduğu 1983-1987-ci illərdə öz siyasi fəlsəfəsini sülhyaradan missiya üzərində kökləmişdi. Bu dövrdə, hələ II Dünya müharibəsindən sonra başlamış soyuq müharibə ritorikası pik nöqtəyə çatmış və planetin müxtəlif bölgələrində regional münaqişərdə üzə çıxaraq qlobal siyasətin münaqişəli məzmununa yeni və çox təhlükəli elementlər qatmışdı.

II Dünya müharibəsindən sonra - 1946-cı il 5 mart tarixində Böyük Britaniyanın keçmiş Baş naziri (1940-1945 və 1951-1955-ci illərdə Britaniyanın Baş naziri) Uiniston Çerçillin (1874-1965) ABŞ-ın Missuri ştatının Fulton şəhərciyində yerləşən Vestminster kollecində çıxışı (ing. *Sinews of Peace*) soyuq müharibənin başlanmsına bir siqnal oldu. Beləliklə, ABŞ-ın rəhbərliyi altında Qərb dövlətləri ilə SSRİ və onun satellitləri arasında 1991-ci ilədək davam etmiş konfrontasiya başlandı. Bu konfrontasiyanın əsas məzmununu ideoloji mübarizə təşkil edirdi. Bununla belə, qarşıdurmanın məntiqi əsasları tərəfləri ayrı-ayrı məhəlli münaqişələrdə iştiraka da sövq edirdi. ABŞ və SSRİ bu mübarizədə öz maraq dairələrinə sahib olaraq, onları hərbi-siyasi bloklarla (NATO - 1949, 4 aprel və VMT - 1955, 14 may) möhkəmləndirdilər. XX yüzilin 50-ci illərinin əvvəllərində SSRİ ilə Çin Xalq Respublikası arasında münasibətlərin pisləşməsindən, xüsusilə də 1969-cu ildə Damansk (çin. *Çjenbao dao* - Qiymətli ada, Xabarovskdan 230 km cənubda Ussuri çayında yerləşir. 1991-ci ildən Çinə məxsusdur) adasında baş vermiş insidentdən (1969-cu il 2 və 15 mart tarixlərində SSRİ və Çin orduları arasında böyük itkilərlə nəticələnən lokal silahlı toqquşma) sonra dünya sosialist blokunun mövqeyi xeyli zəiflədi və SSRİ-ÇXR münasibətlərində uzun müddət davam edən gərginlik hökm sürdü.

"Soyuq müharibə" ifadəsini, ilk dəfə 1945-ci il 19 oktyabr tarixində Böyük Britaniya yazıçısı, jurnalist və publisist Corc Oruel (əsl adı Erik Artur Bler - 1903-1950) "*Tribune*" həftəlik jurnalında nəşr etdirdiyi "Sən və atom bombası" adlı məqalədə işlətmişdi. Rəsmi şəkildə "Soyuq müharibəyə" "Trumen doktrinası" (ing. *Truman Doctrine* - 1945-1953-cü illərdə ABŞ-ın 34-cü prezidenti olmuş Harri Trumenin 1947-ci il 12 mart tarixində ABŞ Konqresində çıxışı zamanı elan etdiyi proqram) elan edildikdən sonra start verilmişdi."Trumen doktrinası"ında qeyd olunurdu ki, "Dünyanın bir çox xalqlarına II Dünya müharibəsindən sonra, onların iradəsinin əksinə olaraq, zorla totalitar rejimlər sırınmışdır və ABŞ bu xalqları totalitarizmdən azad etməyi öz öhdəsinə götürür. "Soyuq müharibə" adi silahlarla, həm də nüvə silahı ilə silahlanma şəraitində daha gərgin və təhlükəli xarakter almışdı. Bəzi hallarda, hətta Üçüncü Dünya müharibəsi təhlükəsi də yaranırdı. 1962-ci ildə baş vermiş Karib böhranı bunu sübuta yetirir. Qeyd etmək lazımdır ki, məhz XX yüzilliyin 60-cı illərində müharibə ideoloqlarının təbliğat maşınından güc alan insnanlar bəşəriyyəti yeni münaqişəyə sürəkləməyə can atırdılar. Bu təbliğata sistemli şəkildə hələ XIX əsrdə starat verilmişdi. Tanınmış alman mütəfəkkiri, insan və cəmiyyət haqqında spesifik fəlsəfi təlimin müəllifi Fridrix Nitsşe (alm. *Friedrich Wilhelm Nietzsche* - 1844-1900) ilahi və insani həqiqətləri özünəməxsus dəyər əmsalları ilə qiymətləndirmiş, insanlar arasında formalaşan ideoloji, əxlaqi-mədəni və ictimai-siyasi münasibətlərin fundamental prinsiplərini şübhə altına almışdı [2]. *"Zərdüşt belə demişdir. Kitab hamı üçün və heç kim üçün"* (alm. *Also sprash Zarathustra.Ein Bush für Alle und Keinen* - 1883-1885) əsərində Nitsşe növlərin mübarizəsi haqqında darvin təlimini sosial müstəviyə çıxarır (sosial-darvinizm), insanları zəiflər və güclülər, "fövqəlbəşər" və "bitmiş bəşər" kimi ziddiyyətli kateqoriyalara ayırmışdı. Mürtəce inkişaf konsepsiyasını tərənnüm edən Fridrix Nitsşe güclülərin zəifləri məhv etməsini təbii bir proses kimi qiymətləndirir, daim münaqişəyə və savaşa can atan "bəyaz döyüşçünü" və "ağsaçlı bestiyanı" (lat. *bestia* - vəhşi) bütün dünyanın ağası elan edirdi. F. Nitsşe hakimiyyətə can atan insan iradəsini ali potensiya kimi "tarixin dinamik və sarsılmaz ruhu" adlandırırdı. Nitsşe iddia edirdi ki, "fövqəlbəşər dünyanın mənasıdır", "müharibələr və cəsurluq isə başqa insana məhəbbətdən daha böyük xariqələr yaradır". Fridrix Nitsşe opponentlərinə müraciət edərək deyirdi: "Siz soruşursunuz ki, xeyirxahlıq nədir? Xeyirxahlıq - cəsurluqdur" [3]. Təsadüfi deyildir ki, təlatümlərlə dolu XX əsrdə məhz bu cür ideyalar konflikt ruhlu insanları bütün dünyanı lərzəyə gətirmiş hərbi münaqişələrin müəlliflərinə və iştirakçılarına çevirmişdi. Minlərlə insanı qatı millətçiliyə, ksenofobiyaya, şovinizmə və rasizmə sürükləmişdi. Nəticədə, cəmi 31 il ərzində əvvəllər dünya tarixində analoqu olmayan iki dağıdıcı hərbi münaqişə - I və II Dünya müharibələri baş verdi.

I Dünya müharibəsi (28.07.1914 - 11.11.1918) bəşər tarixində ilk total hərbi münaqişə kimi XX yüzilliyin tarixinə həlledici təsir göstərmişdir. Bu müharibə Napoleon müharibələrindən (1799-1815-ci illərdə Fransada Birinci konsul və imperator olduğu dövrdə I Napoleon Bonapartın bir sıra Avropa dövlətləri ilə apardığı müharibələr. Geniş mənada "Napoleon müharibələrinə" 1796-1797-ci illərdə baş vermiş İtaliya müharibələri və 1798-1799-cu illərdə baş vermiş "Misir ekspedisiyası" da daxildir) sonra formalaşmış köhnə dünya nizamını dəyişən bir hadisə kimi qiymətləndirilir. I Dünya müharibəsinin yekunları 20 il sonra tarixdə 2-ci total hərbi münaqişənin – II Dünya müharibəsinin (01.09.1939 - 02.09.1945) başlanması üçün zəmin yaratdı. I Dünya müharibəsi dövründə baş vermiş irimiqyaslı hərbi əməliyyatlar nəticəsində 10 milyon hərbiçi həlak olmuşdu. Onların 1 milyonu itkin düşmüşdü. 21 mln hərbiçi yaralanmışdı. I Dünya müharibəsində canlı itkilər, hərbi əməliyyatlarda iştirak edən dövlətlər arasında aşağıdakı kimi bölünmüşdür: Fransa - 1,9 mln, Almaniya - 1,7 mln, Rusiya - 1,7 mln, Avstriya-Macarıstan - 1,2 mln, Britaniya - 951 min, Türkiyə - 771,884 (onlardan 243,598 nəfər hərbi əməliyyatlarda həlak olmuş, 466,759 nəfər epidemiya və xəstəliklər nəticəsində dünyasını dəyişmiş, 61,847 nəfər itkin düşmüşdü. Bundan başqa 763,753 türk hərbiçisi döyüşlərdə yaralanmış və 145,104 nəfər əsir düşmüşdü), İtaliya - 460 min, ABŞ - 115 min, Avstraliya - 60 min, Kanada - 60 min və Yeni Zelandiya - 16,783. I Dünya müharibəsi başa çatdıqdan sonra 1918-1920-ci illərdə 550 mln əhali bütün dünyanı bürüyən "İspan qripinə" (isp. *gripe española*, "İspanka" kimi tanınan pandemiya) yoluxmuşdu. *H1N1 serotipi* (serovariant - ümumi antigen strukturda birləşən və seroloji metodla müəyyən olunan eyni növ mikroorqanizmlər qrupudur) adlanan viruslar tərəfindən törədilən "İspan qripi" nəticəsində 17,4 - 100 mln arası insan tələf olmuşdu (o dövrdə Yer kürəsində yaşayan əhalisinin 5,3 %-i). İlk rüşeymləri 1916-cı ildə görünən "İspamka pandemiyası" I Dünya

müharibəsindən sonra hökm sürən antisanitariya, qida çatışmazlığı, antibiotiklərin, müvafiq dərman və müalicə vasitələrinin olmaması, həmçinin insanların qaçqın düşərgələrində yerləşməsi şəraitində özünün pik nöqtəsinə çatmışdı [4]. Bu hadisələr ilk total hərbi münaqişə nəticəsində bəşəriyyətin yaşadığı faciəni daha da ağırlaşdırırdı.

38 dövlətin iştirak etdiyi I Dünya müharibəsinə o dövrdə planetdə yaşayan əhalinin 67 %-i (1 mld) cəlb olunmuşdu. Hərbi əməliyyatlarda iştirak etmək üçün 65 mln insan səfərbərliyə alınmışdı. Müharibənin gedişində bu və ya digər səbəblərdən 5 mln dinc əhali həlak olmuşdu. Faiz etibarı ilə ən çox insan itkisinə məruz qalmış ölkələr aşağıdakılar idi: Serbiya - 6%, Fransa - 3,4%, Rumıniya - 3,3 %, Almaniya – 3 %. Beləliklə, I Dünya müharibəsi bəşəriyyətin genofonduna, insan resurslarına və insan kapitalına sarsıdıcı zərbə vurmuş və sosial tərəqqini bir neçə onillik geri atmışdı. I Dünya müharibəsi dünya xalqlarının təsərrüfat-iqtisadi və mədəni inkişafında da çox ciddi deqradasiyaya səbəb olmuş və müharibədə iştirak edən dövlətlər böyük iqtisadi və maliyyə itkiləi ilə üzləşmişdilər: B.Britaniya – 30 %, Almaniya - 20 %, Fransa – 15 % və ABŞ – 14 % təsərrüfat-iqtisadi resurslarından məhrum olmuşdu. Hərbi əməliyyatların daha intensiv getdiyi ərazilər - Fransa, Belçika, Rusiya, - ciddi dağıntılara məruz qalmışdı. Müharibə nəticəsində dünyanın siyasi xəritəsində də əhəmiyyətli dəyişikliklər baş vermişdi:

1. Dünya müstəmləkə sisteminin mərkəzi sayılan Avropa artıq bu roldan məhrum olmuşdu.
2. Dörd imperiyanın (Osmanlı, Rusiya, Avstriya-Macarıstan, Almaniya) tarixinə son qoymuşdu.
3. Kommunizm ideologiyasının bir dövlət (Rusiya) çərçivəsində bərqərar edilməsi və başqa dövlətlərə (ilk olaraq Monqolustan) yayılması prosesi gerçəkləşmişdi.
4. Qlobal siyasətdə ABŞ lider statusu qazanmışdı.
5. Avropada yeni müstəqil dövlətlər (Polşa, Çexoslovakiya, Litva, Finlandiya, Latviya, Estoniya, Macarıstan, Avstriya, Sloveniyalıların, xorvatiyalıların, serbiyalıların dövləti) yaranmışdı.
6. XIX əsrin sonu, XX əsrin əvvəllərində çox geniş vüsət almış sosial-iqtisadi proseslər dayanmışdı.
7. Sosial-sinfi və etnik-milli zəmində münaqişələr, dövlətlərarası ziddiyyətlər kəskinləşmişdi.
8. I Dünya müharibəsinə qədər olan beynəlxalq hüquqi qaydalarda çox əhəmiyyətli dəyişikliklər edilmiş və müasir dövrün ideya-siyasi ruhuna və tələblərinə uyğun beynəlxalq hüquqi sistem yaradılmışdı.

Təəssüf ki, yuxarıda sadalanan bütün məhrumiyyətlərdən nəticə çıxarmayan Avropa və Qərb sivilizasiyası bir neçə onillik ərzində yeni total hərbi münaqişəyə şərait yaradan beynəlxalq siyasi münasibətlər sərgiləmiş və bəşəriyyət II Dünya müharibəsinin timsalında daha böyük və ağır faciə ilə üzləşmişdi. Beləliklə, II Dünya müharibəsini doğuran tarixi şərait I Dünya müharibəsinin başa çatmasından sonra formalaşmağa başlamışdı. Versal Sülh müqaviləsi I Dünya müharibəsində ağır məğlubiyyətlə üzləşmiş Almaniyanın hərbi qüdrətini maksimum məhdudlaşdırmışdı. Məğlubiyyətin acısını yaşayan alman xalqı hesab edirdi ki, Versal Sülh müqaviləsinin Almaniya ilə əlaqədar diqtə etdiyi şərtlər hüquqi baxımdan ədalətsiz, iqtisadi baxımdan isə yerinə yetirilməsi qeyri-mümkündür. Həm də Almaniyanın üzərinə qoyulan reparasiyaların məbləği əvvəlcədən razılaşdırılmamış, Versal müqaviləsi imzalanana qədər 2 dəfə artırılmışdı. Bütün bunlar hamılıqla yenilmiş almanlarda nifrət, hiddət, qisasçılıq və revanşizm duyğuları oyatmış və alman xalqının əhval-ruhiyyəsində, xüsusilə də gənc nəslin vətənpərvərlik tərbiyəsində neqativ təəssüratlar yaratmışdı. Almaniya tarixini öyrənən alman gəncləri cəmi 50 il əvvəl Fransa-Prussiya müharibəsində müzəffər alman ordusunun Fransanı bir neçə ay ərzində necə diz çökdürməsi, Fransa imperatorunu (III Napoleon Bonapart) və ölkənin Silahlı qüvvələrinin baş komandanını (Patris de Mak-Maqon) necə əsir götürməsi, Parisi necə ələ keçirməsi (1-3.03.1871) haqqında qəhrəmanlıq səhifələrini oxuduqca mövcud şəraitlə heç cür barışa bilmirdilər. Bütün bunlar Almaniyada yeni qisasçı nəslin yetişməsinə şərait yaradırdı. Artıq Versal sülh konfransı başa çatdıqdan sonra beynəlxalq gərginliyin artması yaxın gələcəkdə yeni total hərbi münaqişənin qaçılmaz olacağından xəbər verirdi. 1928-ci il iyulun 27-də imzalanmış Brian-Kelloq paktı yeni müharibə təhlükəsinin aradan qaldırılması ilə bağlı müəyyən ümidlər yaratsa da, 1933-cü ildə Veymar Respublikasında (1918-1933) Adolf Hitlerin rəhbərliyi altında Nasional-Sosialist Fəhlə Partiyasının (alm. *National Sozialistische Deutsche ArbeiterPartei- NSDAP*) hakimiyyətə gəlməsilə

vəziyyət sürətlə gərginləşməyə başladı. Bundan sonra Almaniya tərəfi Fransa və Böyük Britaniya tərəfdən hər hansı bir narazılığa və müqavimətə rast gəlmədən Versal müqaviləsinin müəyyən etdiyi məhdudiyyətlərə əsla məhəl qoymur, orduya çağırışı bərpa edir, silah və hərbi texnika istehsalını genişləndirirdi. Daues planı (1924, 16 avqust, - Almaniyanın reparasiyaları haqqında ***Çarlz Qeyts Dauesin*** (1865-1951) rəhbərliyi altında beynəlxalq ekspertlər komitəsi tərəfindən tərəfindən tərtib edilmiş plan), Lokarno müqavilələri (1925, 5-16 oktyabr), Almaniyanın Millətlər Liqasına qəbul edilməsi (1926, 10 sentyabr) və gərginliyin azaldılmasına istiqamətlənmiş digər tədbirlər almanların revanşist əhval-ruhiyyəsini kompromisə çevirə bilmədi. Beləliklə, 1939-cu il sentyabr ayının 1-də Almaniyanın Polşaya hücumu ilə bəşər tarixində yeni total hərbi münaqişə - II Dünya müharibəsi başlandı. II Dünya müharibəsi miqyasına və onda iştirak edən dövlətlərin sayına görə bütün əvvəlki hərbi münaqişələri kölgədə qoymuşdu. Əgər I Dünya müharibəsində 38 dövlət iştirak edirdisə, II Dünya müharibəsində onların sayı artıq 62-yə çatdı. Qeyd edək ki, II Dünya müharibəsi dövründə dünyada 74 müstəqil dövlət var idi. Cəmi 12 dövlət hərbi əməliyyatlarda iştirak etmirdi. Bununla belə, onların çoxu bu və ya digər formada döyüşən tərəflərə simpatiyalarını ifadə edirdilər.

II Dünya müharibəsi iki böyük koalisiya arasında total hərbi münaqişə idi. Bu koalisiyalardan biri Nasist bloku dövlətləri ("Ox" dövlətləri), digəri isə Antihitler (Antifaşıst) koalisiyası idi. 1941-ci ilin sonunadək (Yaponiya hərbi-hava qüvvələrinin ABŞ-ın Havay adalarında yerləşən Pirl-Harbor hərbi-dəniz donanmasının bazasına hücumadək) ABŞ, formal olaraq müharibə vəziyyətində deyildi. Bununla belə, Antihitler koalisiyasının "döyüşməyən müttəfiqi" kimi nasist blokuna qarşı döyüşən ölkələrə hərbi və iqtisadi yardım göstəriridi. Qeyd edək ki, bəzi hallarda koalisiyalara mənsubiyyət şərti xarakter daşıyırdı. Məsələn, 1939-1940-cı illərdə Sovet-Finlandiya müharibəsi (30.09.1939 - 15.03.1940) zamanı Finlandiya Fransa, B. Britaniya və Almaniya tərəfindən dəstək alsa da sonralar nasist blokuna daxil olmuşdu. Nasist blokuna daxil olan dövlətlər əvvəlcə "Polad pakt" (1939-cu il 22 may tarixində Almaniya ilə İtaliya arasında bağlanmış müttəfiqlik müqaviləsi. Sözügedən paktı Almaniyanın xarici işlər naziri İoahim fon Ribbentrop və İtaliya diplomatı, Mussolininin kürəkəni Qaleatso Çiano imzalamışdı), daha sonra "Üçlər paktı" (alm. *Dreimächtepakt,* ita. *Patto Tripartito*, 1940-cı il sentyabrın 27-də "Ox ölkələri" - Almaniya - İoahim fon Ribbentrop, Yaponiya - Saburo Kurusu, İtaliya - Qaleatso Çiano arasında 10 il müddətinə bağlanmış beynəlxalq müqavilə) əsasında birləşmişdilər. Lakin bu birlik əsasən formal xarakter daşıyırdı. Onu imzalayan dövlətlər II Dünya müharibəsi başlayanda hərbi əməliyyatlara müxtəlif vaxtlarda və öz təşəbbüsləri ilə qoşulmuşdular: "Üçüncü reyx" 1939-cu ildə, İtaliya 1940-cı ildə və s. Yaponiya isə Çinə qarşı əməliyyatlara hələ 1937-ci ildə start vermiş, 1942-ci il dekabrın 7-də öz təşəbbüsü ilə ABŞ-a qarşı hərbi əməliyyatlara başlamışdı. Bununla belə, bu paktın üzvləri təbii resursların və hərbi texnologiyaların mübadiləsini həyata keçirir və müştərək strateji planlaşdırma işində əməkdaslıq edirdilər. İtaliyanın müharibədə məğlubiyyətindən sonra Almaniya və Yaponiya ayrı-ayrılıqda, hər biri özlərinin "hərbi əməliyyatlar teatrında" (Almaniya Avropada və Yaponiya Sakit okean hövzəsində) hərəkət etməyə başladı. Ayrı-ayrı vaxtlarda Antinasist koalisiyasına daxil olan dövlətlər II Dünya müharibəsinə qoşulmuşdular: Avstraliya (1939, 3 sebtyabr), Belçika (1939-cu ildə neytralitet haqqında qərar versə də, 1940-ci il 10 may tarixində Almaniya bu neytraliteti pozmuş və Belçikanın ərazisinə daxil olmuşdu. Boliviya (1942, 7 aprel), Braziliya (1942, 22 avqust), Argentina (1945, mart), Kanada (1939, 10 sentyabr), Kolumbiya (1943, 26 noyabr), Meksika (1942, 1 iyun) və s. [1].

II Dünya müharibəsi bəşəriyyətin taleyinə və onun gələcəyinə çox ciddi neqativ təsir göstərdi. II Dünya müharibəsinin ən başlıca yekunlarından biri də 1945-ci il iyun ayının 26-da Antifaşist koalisiyasına daxil olan 50 dövlətin iştirakı ilə BMT-nin yaradılması oldu (BMT-nin nizamnaməsi 1945-ci il 24 oktyabr tarixində təsdiq edildi). BMT-nin yaradılması ilə 1946-ci il 20 aprel tarixində 1920-ci ilin 10 yanvar tarixində yaradılmış Millətlər Liqası buraxıldı. Müharibə başa çtdıqdan cəmi iki il sonra "Soyuq müharibə" dövrü başlandı. Müharibə nəticəsində SSRİ Rusiya imperiyasının 1904-1905-ci ilərdə baş vermiş Rus-yapon müharibəsində (Portsmut sülhü - 1905-ci il 5 sentyabr) itirdiyi Cənubi Saxalini, Port-Artur və Dalni məntəqələrilə birlikdə Kvantun yarımadasını (Lyaodun yarımadasının cənub-şərq sahilləri), 1875-ci ildə Yaponiyaya verilmiş Kuril adaları qrupunu və 26 yanvar (7 fevral) 1855-ci il tarixində imzalanmış Simoda müqaviləsinə görə Kuril adalarının cənub

hissəsini geri aldı. Şərqi Prussiyanın bir hissəsi Köniqsberq (indiki Baltikyanı Kalininqrad) şəhəri ilə birlikdə SSRİ-nin tərkibinə qatıldı.

XX əsrin 80-ci illərində SSRİ-nin və dünya sosializm sisteminin dağılması şəraitində regional münaqişələrin sayı artdı. Həmin münaqişələrdən biri də 1988-2023-cü illərdə davam etmiş Qarabağ münaqişəsi idi. Bu münaişənin sülh yolu ilə həlli kimi tarixi məsuliyyəti isə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz üzərinə götürmüşdü. Heydər Əliyev bütün siyasi, diplomatik və digər üsullarla bu münaqişənin Azərbaycanın xeyirinəhəll etmək üçün durmadan çalışırdı. Beləliklə, Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək, Azərbaycanın dövlət müstəqiliyini və suverenliyini möhkəmləndirmək, Azərbaycanın dünya ölkələri arasında layiqli yer tutmasını təmin etmək, dostluq və əməkdaşlıq münasibətləri yaratmaq Ulu öndər Heydər Əliyevin dövlətçilik strategiyasının əsas məzmununu təşkil edirdi. 1996-cı il dekabrın 2-3-də Portuqaliyanın paytaxtı Lissabonda ATƏT-in zirvə toplantısında Azərbaycan diplomatiyası mühüm nailiyyət qazandı. Azərbaycan nümayəndə heyəti aşağıdakı prinsiplərlə Qarabağ münaqişəsinin həlli strategiyasını irəli sürdü: 1. Azərbaycanın ərazi bütövlüyünün tanınması. 2. Erməni kökənli əhalinin kompakt şəkildə məskunlaşdığı Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək status verilməsi. 3. Qarabağda ermənilərin təhlükəsizliyinə təminat verilməsi. ATƏT-in üzvü olan 54 ölkədən 53-ü Azərbaycan prezidentinin irəli sürdüyü bu prinsipləri bəyəndi. Təkcə Ermənistan bu prinsipləri qəbul etmədi və Azərbaycan Respublikasının ərazi bütövlüyünü israrla tanımadı. 1997-ci il 9-11 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Strasburqda Avropa Şurası üzvü olan dövlətlərin zirvə toplantısında iştirak etdi və bu tədbirdə "Avropada adi silahların azaldılması haqqında" müqavilənin müzakirə etdi. 1999-cu il noyabrın 18-19-da İstanbulda ATƏT-in növbəti zirvə toplantısı keçirildi. Burada 1990-cı ildə qəbul edilmiş "Paris xartiyası"-ndan sonra dünyada baş vermiş dəyişiklikləri əks etdirən yeni "İstanbul xartiyası" qəbul olundu. Istanbul Zirvə toplantısında ABŞ-ın iştirakı ilə Azərbaycan, Gürcüstan və Türkiyə arasında "Bakı-Ceyhan" Əsas İxrac Neft Kəməri haqqında saziş imzalandı. Bütün bunlar Ümummilli lider Heydər Əliyevin sülhpərvər siyasətinin məntiqi nəticəsi idi. 2001-ci il aprel ayının 3-də ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində danışıqlar zamanı ABŞ Dövlət Departamenti 13 ildən sonra Ermənistanı təcavüzkar dövlət kimi tanıdı. 2001-ci il sentyabrın 11-də ABŞ-ın Nyu-York şəhərində Beynəlxalq Ticarət Mərkəzinin qoşa binalarının ərəb terrorçuları tərəfindən partladılmasından sonra Azərbaycan Respublikası ABŞ-ı terrorçuluğa qarşı mübarizədə dəstəklədi və terrorçuluğa qarşı mübarizəyə qoşuldu. ABŞ prezidenti Corc Buş Kiçik (2001-2009-cu illərdə Respublikaçılar partiyasından ABŞ-ın 43-cü prezidenti) Azadlığı Müdafiə Aktına 907-ci düzəlişi dayandırdı. Bundan sonra ölkəmizə maliyyə yardımı ilə yanaşı ABŞ-ın Azərbaycana silah satışı üzrə qoyduğu qadağa 2002-ci il mart ayının 30-da ləğv edildi. Göründüyü kimi Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev XX əsrdə böyük siyasətin ən görkəmli simalarından biri kimi xalqımızın və dövlətimizin tərəqqisi naminə qlobal siyasəti Azərbaycanın dövlət maraqları ilə hesablaşmağa məcbur etmiş, özünün sülhyaradan missiyası ilə beynəlxalq münasibətlərin və dünya siyasətinin pozitiv məcrada inkişafına öz möhtəşəm töhfəsini vermişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Военно-экономическое сотрудничество союзников по антигитлеровской коалиции. Энциклопедия Великой Отечественной войны. Архивная копия от 23 ноября 2018 на Wayback Machine, Том 19, & 8. - С. 575

2. Ницше Ф. Полн. собр. соч.: в 13 т. Москва: Культурная революция, 2014. Т. 12, с. 468; Т. 3. - С. 477

3. Ницше Фридрих. Так говорил Заратустра. Перевод с немецкого В.В. Рынкевича. Москва, 2013. - 320 с. - С. 1-2.

4. Peter Spreeuwenberg, Madelon Kroneman, John Paget. Reassessing the Global Mortality Burden of the 1918 Influenza Pandemic //American Journal of Epidemiology. - 2018-12- 01. Т.187, вып. 12. С. 2561

HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI: İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ ƏLDƏ EDİLMİŞ NAİLİYYƏTLƏR

Zaur Yusif oğlu Rəsulov
Mingəçevir Dövlət Universiteti
zaur.rasulov@mdu.edu.az

Bu il Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın aparıcı neft şirkətləri arasında "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq Yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" imzalanmış müqavilənin 30 ilidir. Məhz 30 il əvvəl müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün Ümummilli lider Heydər Əliyev tərəfindən gələcək siyasi və iqtisadi islahatların köklü transformasiyası üçün əsas olan neft strategiyası müəyyənləş-dirilmişdir. Bu strategiya Azərbaycanın neft yataqlarının işlənməsinə xarici investorların cəlb edilməsini, xam neftin nəqli marşrutlarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə olunmasını və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etmişdir [4].

1994-cü il sentyabrın 20-də Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə XX əsr Azərbaycan tarixində siyasi, iqtisadi və strateji əhəmiyyət kəsb edən ən mühüm müqavilələrdən biri - Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq Yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü üzrə "Əsrin müqaviləsi" imzalanmışdır[1] . Bununla da dəyəri 7,4 milyard ABŞ dolları olan 7 ölkəni (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkətinin (Amoco, BP, McDermott, UNOCAL, SOCAR, LUKoil, Statoil, Türkiye Petrolleri, Pennzoil, Ramco, Delta) iştirak etdiyi "Əsrin müqaviləsi" müstəqil dövlətimizin neft strategiyasının və doktrinasının əsası qoyulmuşdur. Bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi təbii sərvətlərini idarə edən, milli, iqtisadi və strateji maraqlarını təmin edən iradəsini bütün dünyaya nümayiş etdirmiş, dövlət müstəqilliyinin mühüm təminatçısına çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan "Əsrin müqaviləsi" respublikamızın salnaməsinə neft strategiyasının şanlı səhifəsini yazmışdlr. Bu sənəd həm karbohidrogen ehtiyatlarının həcminə, həm də investisiyaların həcminə görə dünyanın ən böyük sazişləri siyahısına daxil edilmişdir.

1997-ci il noyabrın 7-də "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasında ilk neft hasil edilmiş, noyabrın 12-də bu münasibətlə platformada ulu öndər Heydər Əliyevin, layihə üzrə əməliyyat şirkəti - BP və tərəfdaşların nümayəndələrinin, xarici qonaqların iştirakı ilə təntənəli mərasim keçirilmişdir.

Bu, Azərbaycanın neft strategiyasının uğurunun başlanğıcı olmuşdur. Bu hadisə ilə eyni vaxtda Azərbaycanın neft sənayesində beynəlxalq standartlara uyğun istehsal müəssisələrinin yaradılmasının əsası qoyulmuşdur.

"Əsrin müqaviləsi"ndən sonra xarici şirkətlərlə daha 34 müqavilə bağlanmışdır.

Bununla yanaşı, "Əsrin müqaviləsi" respublikamızdada neft hasilatının artımına səbəb olmuşdur. Neft hasilatı Azərbaycan tarixində ən aşağı səviyyədən - 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona yüksəlmişdir. Beləliklə, istehsal 5,6 dəfə artmışdır[5].

1996-cı ilin yanvarında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəqlinə dair hökumətlərarası saziş imzalanmışdır. Bu kəmər 1997-ci ilin oktyabrında istismara verilmiş və 1998-ci ildə boru kəməri ilə AÇG nefti Qara dəniz limanlarına ixrac olunmağa başlanmışdır.

"Əsrin müqaviləsi" çərçivəsində hasil edilən böyük həcmdə neftlə müqayisədə kəmərin ötürücülük qabiliyyəti məhdud olduğundan, ixrac boru kəmərlərinin çoxsaylı variantlarına ehtiyac yaranmış, alternativ marşrutlar üzərində ciddi işlərə başlanılmışdır. 1997-ci ildə ölkəmizlə Gürcüstan arasında Azərbaycan neftinin Bakı-Supsa marşrutu ilə nəqlinə dair müqavilə imzalanmış, 1999-cu ilin aprelində Bakı-Supsa neft kəməri və Qara dənizin Gürcüstan sahillərində Supsa ixrac terminalı istifadəyə verilmişdir[5].

Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərlərinin gücü artan Azərbaycan neftini dünya bazarlarına çıxartmaq imkanları az olduğundan, ixrac üçün əsas neft kəmərinin tikintisinə ehtiyac yaranmışdır. Məhz belə şəraitdə ulu öndər Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan (BTC) Əsas İxrac Boru Kəməri ideyasını irəli sürmüşdür. İstər respublikada, istərsə də onun hüdudlarından kənarda qərəzli mövqe tutanlar Azərbaycanın gələcəkdə bu kəmərlə nəql etmək üçün kifayət qədər neftinin olmayacağı barədə bəyanatlar verir və beynəlxalq ictimaiyyətə bu ideyanın utopik olduğu fikrini aşılamağa çalışırdılar. Lakin zaman Ulu öndər Heydər Əliyevin bu konsepsiyasının tam reallığını və iqtisadi səmərəliliyini göstərmiş oldu.

2002-ci ildə ulu öndərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyulmuşdur. Dörd ildən sonra Azərbaycan nefti BTC kəməri ilə Ceyhan limanına çatdırılmışdır. Hazırda bu kəmərin əhəmiyyəti bütün dünyada aydın şəkildə qəbul edilmişdir [2].

Bu gün Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri istər beynəlxalq enerji təhlükəsizliyi sistemində, istərsə də ölkəmizin neft ixracı sahəsində uğurlu tərəfdaşı olan ölkələr, xüsusən də dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edir.

Neft strategiyasının həyata keçirilməsi ilə respublikamızın neft ehtiyatlarının istismarına irimiqyaslı xarici investisiyalar cəlb olunmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, SOCAR 15 ölkədən 25 şirkətlə imzalanmış hasilatın pay bölgüsü haqqında saziş çərçivəsində Azərbaycan dövlətini uğurla təmsil edir. Təkcə 1995-2013-cü illərdə neft sazişləri çərçivəsində Azərbaycanın neft-qaz sektoruna təqribən 51,6 milyard ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. "Azəri-Çıraq-Günəşli" layihəsindən daxil olan gəlir 160 milyard ABŞ dollarını ötmüşdür [5].

14 sentyabr 2017-ci il tarixində dünya daha bir tarixi hadisənin şahidi olmuşdur. Azərbaycan Respublikasının Prezident İlham Əliyevin iştirakı ilə Bakıda "Azəri", "Çıraq" yataqlarından neft hasilatının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və pay bölgüsü haqqında dəqiqləşdirilmiş və yeni tərtib edilmiş sazişin imzalanması mərasimi olmuşdur. "Yeni əsrin müqaviləsi" adlandırılan sazişi Azərbaycan hökumətinin rəsmi nümayəndələri, SOCAR, BP, Chevron, IMPEX, Statoil, ExxonMobil, TP, ITOCHU və ONGC Videsh imzalamış və nəhəng neft yatağının işlənməsində yeni dövr başlamışdır. İlk növbədə, "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənməsi müddəti 2050-ci ilə qədər uzadılmışdır. İkincisi, bu müqavilənin şərtləri Azərbaycan üçün daha sərfəli şərtlərlə baölanmışdır. Yeni sazişə əsasən, SOCAR-ın AÇG-dəki payı 11,65 faizdən 25 faizə yüksəlmişdir. Bundan başqa beynəlxalq tərəfdaş şirkətlər SOCAR-a 3,6 milyard ABŞ dolları bonus ödəməlidir. Azərbaycanın əldə edəcəyi gəlirli neftin səviyyəsi 75 faizə yüksəlmişdir. Bununla da, ölkəmizin ümumi mənfəət göstəricisi 89,1 faiz olacaqdır ki, bu da daha da yeni strateji layihələrin həyata keçirilməsinə zəmin yaradacaqdır. 2050-ci ilə qədər AÇG-yə 40 milyard ABŞ dollarından çox sərmayə qoyulacaqdır [5].

AÇG böyük ehtiyatlara malikdir. 1994-cü ildə müqavilə imzalananda təxmini neft ehtiyatları 511 milyon ton hesablanmışdır. Bu gün isə "Azəri-Çıraq-Günəşli"də 500 milyon tona yaxın hasil olunmamış neft ehtiyatı mövcuddur. Ekspertlərin fikrincə, bu da, yekun rəqəm deyil.

Beləliklə, Ümummilli lider Heydər Əliyevin tarixi məsuliyyətli məqamlarda əvəzsiz rolu Azərbaycanın son 30 ildə qazandığı nailiyyətləti bir daha əyani şəkildə nümayiş etdirir. Bu gün təsdiq edə biləcəyimiz real tarixi reallıq ondan ibarətdir ki, Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi ilə təməlini qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi neft strategiyası respublikamızın sosial-iqtisadi inkişafını təmin etmiş, müstəqilliyimizi qoruyub saxlamış, həyata keçirilən çox mühüm islahatlar, əldə edilən nailiyyətlərin əbədiliyini və davamlılığını təmin etmiş və edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq Yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 2 dekabr 1994-cü il, № 933

2. Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Sazişin və həmin Sazişə əlavə edilmiş

sənədlərin, İstanbul Bəyannaməsinin və Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Gürcüstan arasında Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 26 may 2000-ci il, № 885-IQ

3. "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 31 oktyabr 2017-ci il № 818-VQ
4. https://president.az/ - Azərbycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi.
5. https://azertag.az/ - Прошло 28 лет со дня подписания «Контракта века».

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN TARİXİ ŞƏXSİYYƏTİ VƏ AZƏRBAYCAN XALQININ XİLASKARIDIR

[1,2]**Natəvan Həmdiyyə qızı Kələşova,** [1,3]**İradə Əli qızı Məmmədova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]natavan.kalashova@mdu.edu.az
[3]irada.mammadova@mdu.edu.az

Tarix və siyasət bir-birini tamamlayan, eyni zamanda nisbi müstəqilliyini saxlayan elm sahələridir. Bu gün siyasət sayılan, sabah tarixə çevrilir. Tarix böyük hadisələrlə, ya da böyük şəxsiyyətlərlə yadda qalır. Tarixi böyük şəxsiyyətlər və böyük hadisələr yaradır. Yetkin siyasətçilərin fəaliyyəti nəticəsində tarix gözlənilməz hadisələrlə zənginləşir. Görkəmli tarixi şəxsiyyətlər xalqın və dövlətin tarixinin fəal yaradıcılarıdır [2, s.53-55].

Bəşər tarixində çox az xalq var ki, onların taleyində böyük şəxsiyyətlər, dahi insanlar, liderlər aparıcı rol oynamış olsun və bəşəriyyət üçün xoş məramlı, olduqca əhəmiyyətli olan işlər görsün. Bu səbəbdən də yer üzündə minlərlə xalq, milli azlıq, etnik qrup və hətta çoxlu sayda böyük xalqlar var ki, onlar özləri üçün dövlət qura bilmirlər. Bu xalqların tarixən yaşadıqları ərazilərdə təbii sərvətlər olsa da, onlar bu resurslara sahib ola bilməmişlər [6, s.251-252].

Müasir dünyamızda hər bir dövlətin inkişaf yolu həmin ərazidə yaşayan xalqların öz qarşısına qoyduğu vəzifələrlə üzvi surətdə bağlıdır. Bu gün dünyada təqribən 200-ə yaxın irili-xırdalı dövlət olsa da, bu dövlətlərin inkişaf səviyyələri heç də eyni deyildir [1, s.191-192]. Yüksək inkişaf edən dövlətlərin tarixinə nəzər saldıqda görürük ki, orada cəmiyyət vahid bir məqsəd ətrafında sıx birləşmişdir. Araşdırmalar göstərir ki, dövlət qura bilməyən, təbii sərvətlərinə sahib çıxa bilməyən xaıqları səfərbər edib, onlar arasında birlik yaratmağa nail olan və onları öz arxasınca aparmağa qadir olan dahi şəxsiyyətlərinin liderlərinin, olmamasından irəli gəlir. Hər bir cəmiyyət nisbi şəkildə idarə edilənlərə və idarəçilərə bölünmüşdür. Bu zaman cəmiyyəti idarə edən, digər insanlatdan fərqlənən dahi şəxslər - lider şəxslər meydana çıxmışdır [3, s.278-280]. Belə liderlər milli dövlətçilik ideyalarının praktik surətdə gerçəkləşməsində, davamlı və sabit tərəqqi üçün dayanıqlı əsasların müəllifinə çevrilirlər [1, s.191-192]. Liderlik problemi hər bir dövrdə aktual olmuşdur. Liderlik bacarığı, qabiliyyəti yüksək olan şəxslərin ən vacib xüsusiyyətləri ümumi inkişafa təkan verməkdir. Liderlik başqalarına təsir etmək və onları müəyyən məqsədlərə, vəzifələrə uyğun olaraq, hərəkətə gətirmək gücüdür. Liderlik qrup üzvlərinin işlə əlaqəli fəaliyyətlərinə təsir və istiqamətləndirmə prosesidir [4, s.278-280].

Fenomenal bacarığına inandırmaq, arxasınca aparmaq və s. kimi qabiliyyətlərinə görə o, kütlələrin üzvləri arasında fikir birliyi, ideya birliyi yarada bilir, toplumun güclü dəstəyini qazanaraq, xalqı düşdüyü ağır vəziyyətdən xilas edə bilir [7, s.54-56]. Belə liderlərdən isə tarixdə adı müstəqil dövlətçiliyin rəmzinə çevrilən çox az sayda dahi şəxsiyyər, siyasətçilər, liderlər vardır. Heydər Əliyev məhz belə bir liderdir. O, fitri istedada, nadir idarəçilik və liderlik keyfiyyətlərinə, yüksək vətənpərvərlik hissinə, güçlü dərketmə qabiliyyətinə, möhkəm yaddaş

funksiyasına, əqidə saflığına, şəxsiyyət böyüklüyünə, ağlının güçündən, qüdrətindən bacarıqla istifadə etmək məharətinə, dərin zəkalılığına, əhatəli bilik dairəsinə malik olmuş Azərbaycan xalqının dahi şəxsiyyətdir [4, s.95-98].

Bütün həyatını millətin xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndər 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. O, apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində mahiyyətcə yeni mərhələnin təməlini qoydu. Prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən bəhs edərək Heydər Əliyev iki halı xüsusi qeyd etmişdir: "Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir". Heydər Əliyev Azərbaycanın inkişafına nail olmaq kimi çətin vəzifələri yerinə yetirmişdir. Bu vəzifələr ölkədə strateji əhəmiyyət kəsb edirdi və eyni zamanda yerinə yetirilməsi çox vacib idi.

1) Müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi;

2) İnzibati-amirlik sistemi ləğv edilərək, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunması;

3) Qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiq edilməsi ilə bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya edilməsi.

Belə tarixi vəzifələrin hər biri kifayət qədər ciddi idi və bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi [5, s.9-11]. Ulu öndər Heydər Əliyev bütün bu vəzifələrin öhdəsindən bacarıqla gəlmişdi. O, ölkədə sabitliyin və davamlı inkişafın hüquqi təminatının təmin olunması istiqamətində ciddi addımlar ataraq, yeni Konstitusiyanın layihəsinin hazırlanması üçün xüsusi komissiyanın yaradılmasına göstəriş verdi və Konstitusiyanın layihəsini müəyyən vaxt ərzində ümumxalq müzakirəsinə təqdim etdi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bu Konstitusiya 1995-ci ildə noyabrın 12-də referendium yolu ilə qəbul edildi. Konstitusiyaya görə Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlət elan olundu. "Konstitusiya Azərbaycanın gələcək inkişaf yolunu müəyyən edən bir qurumdur" qeyd edən Ümummilli lider Heydər Əliyev deyirdi: "Hesab edirəm ki, biz Azərbaycanın bu günü və gələcəyi üçün çox böyük bir sənəd siyasi-hüquqi sənəd hazırlamışıq" [10, s.132-135].

Dövlətin müstəqil, azad yaşaması üçün bir çox amillər vacibdir. Bu amillərin ən başlıcası, dövlətçiliyin ideoloji bazasının yaradılmasından və formalaşdırılmasından ibarətdir. Müstəqil dövlətçilik isə milli psixologiya zəminində yetişmiş milli ideologiyanın mənimsənilməsini zəruriləşdirir. Azərbaycanın milli ideologiyası müstəqil dövlətçilik zəminində ilk dəfə zəmanəmizin ən böyük siyasətçisi və dövlət xadimi Heydər Əliyev tərəfindən irəli sürülmüşdür [8, s.106-107]. Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edirdi ki, bu da onun dövlət başçısı olmaqdan əlavə bir milli lider kimi üzərinə götürdüyü missiyaya böyük məsuliyyətlə yanaşmasından irəli gəlirdi" [9, s.108-109].

Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu fəaliyyətini araşdırarkən müəyyən etmək olur ki, bu siyasi və genişmiqyaslı işlərin əsasında böyük bir məqsəd, ideyalar, prinsiplər dayanır. Bu prinsip və ideyaların daşıyıcıları, gələcək nəsillərə ötürənlər isə gənclərdir. Ona görə də gənclərə xitabən Ulu Öndər demişdir: "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir. Gənclərin əsas vəzifəsi özünü Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır. Vətənini, torpağını, dövlətini müstəqil Azərbaycanı qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir".

Müasir Azərbaycan dövlətinin memarı, yaradıcısı olan Heydər Əliyev qurduğu dövlətin gələcəyi və hər zaman var olması onun diqqət mərkəzində olmuşdur. Buna görə də gənclərlə bağlı məsələləri siyasətinin tərkib hissəsinə daxil etmişdir. Onun həyata keçirdiyi gənclər siyasətinin başlıca məqsədi vətəninə bağlı, milli dəyərlərə əsaslanan müasir düşüncəli gənclər yetişdirmək və onların köməyindən, potensialından istfadə edərək, ölkəni, cəmiyyəti işıqlı gələcəyə aparmaq olmuşdur. Bu barədə Ulu Öndər demişdir: "Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə

bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır".

Ulu öndər Heydər Əliyevin gənclərlə bağlı imzaladığı bir çox sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratmışdır. Heydər Əliyev gənclərə, onların qüvvəsinə, bilik və bacarığına inanır və yüksək qiymətləndirirdi. O, gənclərlə görüşüb, onların fikirlərini dəyərləndirmək, gənclər siyasətinin yeni istiqamətlərini müəyyənləşdirmək üçün gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə təşəbbüs irəli sürdü. Bundan sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirlməyə başladı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Ulu Öndər tərəfindən 2 fevral 1997-ci il tarixində imzalanmış Sərəncama əsasən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib.

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr etdiyi kimi, Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, n xalqının xilaskarı olan, Ulu öndər Heydər Əliyevi qürur və fəxr hissi ilə xatırlayır. O, Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir. Çətin anlarda millətinə dayaq olmağı bacaran dahi liderimiz, təkrarolunmaz şəxsiyyət Heydər Əliyev bu gün də və hər zamanda mənəvi varlığı ilə daim xalqımızın yaddaşındadır, bizim hamımızın qəlbindədir.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədov Y.P., Əmirova S.S. "Milli – mənəvi dəyərlərin himayədarı" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev Azərbaycan dövlətinin memarıdır" mövzusunda Respublika Elmi Konfransın Materialları (4 may 2018 –ci il).Sumqayıt Dövlət Universiteti. Sumqayıt, 2018, səh. 191-192.
2. Əhmədov Y.P., Qasımova N.V., "Heydər Əliyev Şəxsiyyəti" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev Azərbaycan dövlətinin memarıdır" mövzusunda Respublika Elmi Konfransın Materialları (4 may 2018-ci il).Sumqayıt Dövlət Universiteti. Sumqayıt, 2018, səh. 53-55.
3. Həsənova S.M., " Liderlik anlayışının mahiyyəti" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev dühasi və müasir Azərbaycan" mövzusunda Elmi-Nəzəri Konfrans Materialları, (4-5 may 2022 – cü il). MDU. Mingəçevir, 2022, səh.278-280.
4. Hüseyinova R.A., "Heydər Əliyev dühası – bütöv şəxsiyyətin mücəssiməsinin öyrənilməsinin ideoloji istiqamətləri" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi Zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi –Nəzəri Konfrans Materalları (4 May 2021 –ci il). Mingəçevir, 2021, səh. 95-98.
5. Qurbanov F.İ., "Azərbaycanda təhsilin inkişafında Heydər Əliyev fenomeni: Ulu Öndərin ideyaları yaşayır və qalib gəlir". Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində Qazandığımız tarixi Zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi –Nəzəri Konfrans Materialları (4 May 2021 –ci il). Mingəçevir ,2021, səh. 9-11.
6. Məmmədov A.A., "Heydər Əliyev irsi – əhəmiyyəti, tədqiqi və təbliği" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev Azərbaycan dövlətinin memarıdır" mövzusunda Respublika Elmi Konfrans Materialları (4 may 2018 –ci il).Sumqayıt Dövlət Universiteti. Sumqayıt, 2018, səh. 251-253.
7. Məhərrəmova V.E., "Azərbaycan" adını dünya tarixinə qızıl hərflərlə yazdırmış lider, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi Zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-Nəzəri Konfrans Materialları (4 May 2021-ci il). MDU. Mingəçevir, 2021, səh. 54-56.
8. Mehdiyev E.M., "Müstəqil dövlətçilik zəminində azərbaycançılıq ideologiyasının formalaşması" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci

ildönümünə həsr olunmuş "Heydər Əliyev Azərbaycan dövlətinin memarıdır" mövzusunda Respublika Elmi Konfrans Materialları (4 may 2018-ci il). Sumqayıt Dövlət Universiteti. Sumqayıt, 2018, səh. 106-107.

9. Mehdiyeva G.F., "Azərbaycançılıq idealogiyasının inkişafında Heydər Əliyevin rolu" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev Azərbaycan dövlətinin memarıdır" mövzusunda Respublika Elmi Konfrans Materialları (4 may 2018 –ci il). Sumqayıt Dövlət Universiteti. Sumqayıt, 2018, səh. 108-109.

10. Mikayılov Ş.S., "Ümummilli lider Heydər Əliyevin siyasi kursunda demokratik cəmiyyət quruculuğu" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi Zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-Nəzəri Konfrans Materialları (4 May 2021-ci il). MDU. Mingəçevir, 2021, səh. 132-135.

HEYDƏR ƏLİYEV İRSİNDƏ İSLAM İDEOLOGİYASI

[1,2]**İlhamə Şubay qızı İsmayılova,** [1,3]**Aygün İslam qızı İsmayılova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]ilhame.ismayilova@mdu.edu.az
[3]aygun.ismayilova@mdu.edu.az

İslam ideologiyası ən yüksək mədəniyyəti özündə əks etdirir. Dövlətimizin təməl prinsiplərindən biri islam olduğu üçün dövlətin əsas atributu bayrağımızda da bu öz əksini tapıb. Bu ideologiyanın daşıyıcılarından biri olduğumuz üçün fəxr etməliyik, necə ki, Ümummilli liderimiz Heydər Əliyev qeyd edirdi: "Biz azərbayacanlılar öz tariximizdə milli-mənəvi dəyərlərimizlə fəxr edirik öz ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız milli-mənəvi dəyərlərimizdir. Buna görə də biz islam dininə islam mədəniyyətinə mənsub olmağımızla fəxr edirik".

Uzun müddət yetmiş ildən artıq sovet ateist ideologiyasının təsirinə məruz qalsaq belə xalq bu mədəniyyəti qoruyub saxlamağa qadir olduğunu göstərmişdir. Müstəqillik qazandıqdan sonra bu din daha inkişaf etmişdir. Hal-hazırda 2000-artıq məscid fəaliyyət göstərməsi 2009- cu ildə Bakının islam mədəniyyəti paytaxtı elan edilməsi, 2016-cı ilin multikulturalizm ili elan edilməsi, 2017-ci ilin islam həmrəyliyi ili elan edilməsi buna sübutdur. İslam ideologiyası bizim mədəniyyətimizin, adət-ənənələrimizin, ədəbiyyatımızın, qanunlarımızın yaranmasında əsas rol oynayıb və oynayır. İslam ideologiyası geniş anlayışdır və bu barədə saatlarla danışmaq və fikir mübadiləsi etmək mümkündür. Lakin mənə ayrılan bu az vaxtda istərdim islam ideologiyasının psixoloji tərəflərini nəzərdən keçirək necə olur ki, yarandığı dövrdən bütün bəşəriyyəti və düşünən beyinləri öz təsirində saxlaya bilməsinin psixoloji tərəflərini nəzərdən keçirək.

İslam dini sonuncu səmavi kitab olan "Qurani-Kərim"ə əsaslanır. Bəşəriyyətə Allah tərəfindən ünvanlanmış bu kitab sonuncu olduğu üçün son dərəcə mükəmməl və dəyərlidir. Ondan öncə göndərilən səmavi kitablar tövrat və incildən fərqli olaraq onu dəyişdirmək Qurani Kərimin özündə deyildiyi kimi mümkünsüzdür. Psixologiyada belə bir məsələ var ki, din əqidə dəyişmək çox çətin bir işdir. Peyğəmbərimizə həsr olunmuş filmdə bir fraqmenti diqqətinizə çatdırmaq istəyirəm. Həbəşistan kralına pənah gətirmiş ilk müsəlmanlara kralın sualı belə olur: Sizin kitabınızda və dininizdə xristianlığa İsa peyğəmbərə və Məryəm anaya münasibət necədir? Sözsüz ki, İslam dini özündən əvvəl gəlmiş səmavi kitablara və peyğəmbərlərə hörmətlə yanaşır.

Müsəlmanlar peyğəmbərimizin fikrini çatdırırlar "məndən əvvəl gələn bütün peyğəmbərlər mənim kimi müqəddəsdirlər". Sonra onlar Qurani-Kərimdə ayrıca Məryəm anaya həsr olunmuş Məryəm sürəsinin olduğunu Məryəm ananında müqəddəs qadın olduğunu qeyd edirlər. Dini inancına münasibət kralı təsirləndirməyə bilməzdi. Nəticədə o da bi mütərrəqi dini müsəlmanlığı qəbul edir.

Özündə son dərəcə mənəvi dəyərləri əks etdirən elmi və əxlaqi olan Qurani Kərim "oxu"! tövsiyyəsi ilə başlayır, elmi əxlaqi təbliğat edir. Az qala hər sürətdə insana təfəkkür edin, düşünün deyir. İnsanı ilk növbədə ağıla, ədəbə, ədalətə, sevgiyə qardaşlığa səsləyir. Bu ideologiyanın insanlar tərəfindən qəbul edilməsi insanın fitrətilə bağlıdır. İnsan psixologiyasına bir şeydə xasdır. O məcburiyyəti sevmir. Qurani-Kərimin Bəqərə sürəsində deyilir: "Dində məcburiyyət yoxdur". Bu din yarandığı dövrdən etibarən heç bir vaxt məcbur etdirməyib.

İslam dini təhsilə elmə böyük dəyər verir. "Alimlər peyğəmbərlərin varisləridir" deyilir. "Beşikdən qəbrəcən öyrənin" hədisinə nəzər yetirək: Yaradılışı tamamlanmayan yeganə varlıq insan sayılmalıdır. Çünki o daima özünü dəyişdirmə təkmilləşməyə möhtac hiss edir.

Hər bir xalqın öz adət-mənəvi, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli- mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, öz adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdı və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. H.Əliyev Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı barışmaz xəyanətdir. [1, s.10]

Məhz onun görə də H.Əliyev siyasi kurunun layiqli davamçısı İlham Əliyev tərəfindən həyata keçiririlən milli-mənəvi dəyərlərin qoruması konsepiyasının kökündə bu amil dayanır. Prezident İlham Əliyev açıq şəkildə bəyan edir. "Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır". Məhz bu faktoru nəzərə olaraq deyək bilərik ki, milli-mənəvi dəyərlərin inkişafı, beyin mərkəzlərinin formalaşması istər-istəməz maddi kapitalın intellektual kapitala keçdiyini tənzimləyir". [2, s.157]

Böyük millət o zaman tanrı qarşısında öz böyüklüyünü sübut edir ki, o bütün milli-mənəvi dəyərlərin mövcudluğuna hörmətlə, mərhəmətlə, məhəbbətlə yanaşır. Beləliklə, "Böyük millət" özünün müstəsnalığını əlində bayraq tutaraq digər millətləri əsarət altında saxlayan millət deyil, əlində bərabərlik, ədalət, bayrağı daşıyan millətdir. [3, s.154]

Tənqidçi –esseist Təranə Vahid ədəbiyyat qəzetinin 12 mart 2016-cı il sayında yazırdı. "Müharibə insanın ən böyük sınaqlarından biridir. Yazı masası hərbiçidən fərqli süngərləri çiçəklərlə əvəzləmək olmalıdır. Yoxsa ədəbiyyat kimə və nəyə xidmət etmiş olar".

Yaşadığımız 21-ci əsr özünün sürətli dəyişiklikləri ilə və yenilikləri ilə seçilməkdədir. Ona görə də hər bir şəxs öz bilik və qabiliyyətlərini təzələməyə inkişaf etdirməyə can atmalıdır. Əks təqdirdə çətinliklərlə problemlərlə üz-üzə qalacaqlar. Müasir dövrün insanı həm bilik həm də özünü sosial cəhətləri ilə seçilməlidir. İnsanlar təhsilindən və yaşından asılı olmayaraq öyrənməyə, öz bilik və bacarıqlarını artırmağa davam etdirməlidirlər. Məsələn bu gün bir çox təhsil ocaqlarında yeni nəslin müasir günün tələblərinə uyğun yetişdirilməsində problemlər vardır. Bunun səbəbi orada olan müəllim və texniki avadanlıqların günün tələblərinə uyğun olmaması, müəllimlərin müasir texniki vasitələrdən istifadə edə bilməməsi və ya yeniliklərdən xəbərdar olmamasıdır.

Müsəlmanlıqdan əvvəl əsr düşən düşmənləri qul kimi işlədər və ya böyük miqdarda pul aldıqdan sonra əsirlikdən xilas edərdilər. Peyğəmbərin dövründə isə müharibədə əsr düşən savadlı adamların qarşısında şərt qoyardılar. On nəfər müsəlmana yazmaq oxumaq öyrədərlərsə əsrlikdən xilas edərdilər. Beləliklə, bu din mürəkkəb insan düşüncəsinin formalaşdırdığı bütün cavabsız suallara cavab verməsi və bütün sahələri əhatə etməsi ilə bağlıdır ki, bütün tərəqqipərvər bəşəriyyət onu qəbul edir. İslam dini sevgi üzərində qurulub. Sevgi ictimai əsayişin təminatıdır. İnsanın sağlam bir sevgiyə sahib ola bilməsi üçün kimləri necə sevməli olduğunu da bilməsi mühüm xüsusiyyətdir. İslam mədəniyyətinin özünəməxsus cəhətlərindən biri heç bir zaman özündən olmayana düşmən nöqteyi- nəzərindən yanaşmamasıdır. Xristianlıqda isə belə deyil.

Həmçinin islam dininin müharibəyə münasibəti aydındır. Sürələrdən birində qeyd edilir: iki mübahisə edəni barışdırın əgər sizinlə vuruşmaqda davam edərlərsə sizdə vuruşun. Dinimizə qarşı haqsızlıq edənlərə yalnız elmi biliyimizlə cavab verə bilərik. Həyat ölçülərimizi dəyərlərimizi mühafizə edərək yaşatımızı düzənə salmaq məcburiyyətindəyik. Əks halda istəmədiyimiz ünsürlər bizim həyatımızı istədiyi şəkildə idarə etməyə başlayar və o zaman fərqinə varmadan bataqlığa düşdüyümüzü görərik. Hər bir fərd birinci növbədə özünü qorumalı sanki vücuduna beyninə qəlbinə antivirus yükləməsi lazımdır ki, özünü saf təmiz tutaraq ailəsini yaxınlarını sevdiklərini fitnə fəsatdan qoruya bilsin. Hər şeyə birinci növbədə özümüzdən başlamalıyıq.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı // Xalq qəz., 2001, 13 avqust
2. Əliyev P.B., Əhmədov H.H., Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı:Təhsil nəşriyyatı 2006, 263 s.
3. Əliyev H.Ə., Əzilov, Zeynalov və oğulları. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı: 1997, 165 s.

ANA DİLİNİN TƏDRİSİ MİLLİ TƏFƏKKÜRÜN FORMALAŞMASINDA MÜHÜM VASİTƏ KİMİ

Sevil Mirhəsən qızı İsayeva
Mingəçevi Dövlət Universiteti
sevil.hesenova@mdu.edu.az

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev yazır: "Biz çalışırıq ki, gənclərimiz savadlı, bilikli, tərbiyəli olsunlar. Çünki bilik tərəqqinin əsasıdır" [3, s.289].

"Dünyaşöhrətli dahi şəxsiyyət Heydər Əliyevin təbirincə desək: "Xalqımızın tarix səhifəsində ən öyünməli və fəxr etməli bir səhifəsi varsa, o da dilimizin yaranması və qorunmasıdır" [5, s.148].

Müasir dovrdə orta ümumitəhsil məktəbi və ali təhsil ocaqlarının başlıca strategiyası yüksək intelektual hazırlığa malik olan, qazandığı biliklərdən həyatın müxtəlif sahələrində istifadə etməyi bacaran mütəxəsisin yetişdirilməsidir. Şagirdlər ana dilində səlis danışmağı özlərinə vəzifə borcu bilməlidirlər və bu istiqamətdə onlara nümunə ola biləcək adamlardan örnək götürməlidirlər. Ümummilli lider Heydər Əliyevin nitqi hamımız üçün örnək ola bilər. Belə ki, söz bəşərin nəfəsi, fikri və düşüncəsidir. Bu mənada dahilərin nitqindən nümunə görürməyi bacarmaq bir vəzifə borcumuz olmalıdır.

Bildiyimiz kimi, Azərbaycan dili geneoloji təsnifata görə türk dillərindən biri olub, həmin dil ailəsinin oğuz qrupuna daxildir və ən yaxın qohumları olan türk, türkmən və qaqauz dilləri ilə birlikdə ərazi prinsipinə görə türk dilləri arealının cənub-qərb qrupunu təşkil edir. Hər bir xalq, millət öz dilini sevərək yad təsirlərdən qorumağı, dilinin dialekt səviyyəsindən ədəbi dil səviyyəsinə qaldırılmasında müəyyən qədər rol oynamağı bacarmalıdır. Məlumdur ki, hər hansı bir dilin qorunması və inkişafına yönəlmiş əsas məsələlərdən ən başlıcası həmin dilin tədris olunması, öyrədilməsidir. Qloballaşan dünyada milli dillərin qorunması, onların perspektivliyinin müəyyənləşdirilməsində tədris prosesi mühüm rol oynayır. Dil tədris prosesində yalnız ünsiyyətə xidmət etmir, müxtəlif fənlərin mənimsənilməsi, şagirdlərin hərtərəfli inkişaf etmiş əsl vətəndaş kimi formalaşmasında əsas faktor kimi çıxış edir. Ümumiyyətlə, təhsil alanlar cəmiyyətin, yəni ölkənin, bölgənin, şəhərin, kəndin təhsil ehtiyaclarını öyrənir, araşdırır, nəticələr əldə edir və təlim prosesində tətbiq edir. Onlar həmçinin cəmiyyətin ehtiyaclarının hüquqi sənədlərdə necə təsbit edildiyini tətbiq etməklə müəyyənləşdirir və bunu təlim peosesində təhlil edərək nəticə əldə edir.

Bəli, məktəbdə ana dili təlimi yüksək nəzəri səviyyədə təşkil olunmalıdır. Bu yüksək səviyyə, ilk növbədə, dilçiliyin dil haqqında elmi müddəalarına uyğunluqla müəyyən edilir. Dil üzrə verilmiş məlumatların şüurlu mənimsənilməsi mühüm şərtdir.

Dil mədəniyyətin ən etibarlı dayağı, enerjisi, gücü olmaqla yanaşı, təkcə mədəniyyətin təməlində dayanmır, həm də millətin, dövlətin əsasını təşkil edir. Belə ki, millətin və dövlətin dilə həmişə ehtiyacı olmuşdur. Məlumdur ki, millət olmazsa, dövlət də olmaz. Folklor nümunələrimizdən başlamış müasir ədəbiyyatımıza qədər yazılanların hər birində millətin ruhu təzahür edilmişdir. Bunların hamısının xalqa çatdırılmasında dilin rolu və gücü əvəzedilməzdir.

Dünya ölkələrində ana dilinin öyrədilməsi milli təfəkkürün formalaşmasında mühüm vasitə kimi yüksək dəyərləndirilir. Milli kurikulum bir qayda olaraq milli maraqlar və dövlətçilik baxımından ana dili ilə başlanır. Ana dilinə yiyələnmə isə ailədən başlayır. Hər bir uşaq məktəbə

qədəm qoyanadək ana dilinin köməyi ilə ətraf aləm haqqında müəyyən biliklər əldə edir. Bu da onun lüğət ehtiyatını zənginləşdirir, tanıdığı əşya və şahidi olduğu hadisələr haqqında fikirlərini formalaşdırır, real həyatda eşitdiklərini anlamağa imkan yaradır. Ana dilinin ümumtəhsil məktəblərində tədrisi şagirdlərdə müasir Azərbaycan ədəbi dilinin orfoqrafiya və orfoepiyasının, eyi zamanda şifahi və yazılı nitq mədəniyyətinin düzgün formalaşmasına xidmət edir. Şagirdlər ana dili vasitəsi ilə dil və nitq, dil və təfəkkür məsələlərini, dilin səs sistemini, lüğət tərkibini, qrammatik quruluşunu öyrənir, üslubi-qrammatik xüsusiyyətlərinə yaxından bələd olur, elmi, bədii, publisistik və diğər üslublarda yaradılmış ədəbiyyət nümunələri ilə tanış olmaq imkanı qazanırlar.

Azərbaycan dili təliminin əsas didaktik vəzifəsi şagird və tələbələrin şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirməkdir. Buna görə də ilk növbədə, fonetika, leksikologiya, söz yaradıcılığı, morfologiya, sintaksisdən proqrama daxil edilən və öyrədilən dil qaydalarının nitq inkişafı üçün praktik əhəmiyyəti nəzərə alınmalı, mətn üzrə işlərdə əsas məqsəddən uzaqlaşmamaqla mövzunun tədrisinə ayrılan vaxtdan səmərəli istifadə edilməlidir. Dərslər bütün şagirdlərin təlimə fəal şəkildə cəlb edilməsi, onların idraki, ictimai və fiziki inkişafının təmin olunması və lazımi səviyyədə stimullaşdırılması baxımından təlimin təşkilinə verilən tələblərə cavab verməlidir.

U.Prabhu müəllimə etimadın əhəmiyyətini qeyd edərək yazırdı: "Yaxçı təhsil sistemi...o demək deyil ki, bütün və yaxud əksər müəllimlər təklif olunan eyni üsulları tətbiq etsinlər, yaxşı sistem odur ki, orada bütün və ya əksər müəllimlər istənilən üsulu icra etmək üçün seçməkdə inamlı olurlar və hər bir müəllimin etimad hissi canlı və yaxud aktiv, həmçinin gələcək inkişaf, dəyişiklik üçün ola biləcəyi qədər açıqdır. [4]

Müəllim öyrənənlərin diqqətinə çatdırmalıdır ki, müasir Azərbaycan dilini mükəmməl bilən hər bir adam səslərin uzanması, qısaldılması, vurğu, intonasiya və s. vasitələrlə fonetik üslub yarada bilər. Məsələn, intonasiya – nitqin ahəngi, yəni səsin alçalmaası, ucalması, nitqin tempi, və ya sürəti, nitqin intensivliyi, yəni nəfəsalmanın güclənməsi və ya zəifləməsi, qorxu, sevinc və daha başqa belə hissi hallara görə dəyişikliklərə uğraması hadisəsidir. Bu hadisə məhz cümlə ilə bağlıdır.

Müəllim müxtəlif tədris metodlarından istifadə etməklə dil materiallarının öyrədilməsində əvəzsiz rola malikdir. Tədris metodlarına müəllimin söhbəti, nəqli, izahı və mühazirəsi, məşq xarakterli müstəqil işlərin idarə olunması, öyrənənlərin tədris ədəbiyyatı üzərində rəhbərlik və s. aid edilir [2**].**

Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin tədrisi ilə bağlı çıxışlarının birində demişdir: "Təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə. Təhsil müəssisələrinin rəhbərliyinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar" [1].

Bəllidir ki, 30 sentyabr 2002-ci ildə isə Ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ötən illər ərzində isə bu qanun xeyli dərəcədə təkmilləşdirilib. Bu, Azərbaycan dili tarixində əlamətdar, önəmli hadisədir. Bundan əlavə, qəbul edilən digər fərman və sərəncamlar əsasında dilimizin inkişafı, ana dilində təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb.

Ulu öndər müxtəlif ölkələrdəki diaspor nümayəndələrimizlə görüşlərində dəfələrlə vurğulayıb ki, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı öz ana dilini, milli adət-ənənələrini unutmamalıdır. "Nə yaxşı ki, Azərbaycan dili bütün tələblərə cavab verir. Daha doğrusu, onun böyük potensialı imkan verib ki, o, artıq dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur", - ifadəsi də böyük öndərimizə məxsusdur. Ulu Öndər Heydər Əliyevin təbirincə desək: "...tarixini, böyük şəxsiyyətlərini unudan, milli dəyərlərinə, dilinə, ədəbiyyatına, mədəniyyətinə biganə qalan millətin yaşamağa haqqı yoxdu" [3.s.289].

Hər bir Azərbaycan vətəndaşının borcu Heydər Əliyevin şah əsəri olan Azərbaycanı və onun dilini qoruyub saxlamaqdır [3, s.111].

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan müəllimi " qəzeti, 4 sentyabr 1997-ci il.
2. Fəal təlim üzrə nümunəvi dərslərin toplusu. Dərs vəsaiti. İ cild. UNİSEF, Bakı, 2001.
3. Müdriklik zirvəsi (kitabda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev barədə Kütləvi İnformasiya Vasitələrində çap olunmuş məqalələr toplanmışdır). Bakı - "Yazıçı" nəşriyyatı" -2011. 300 səh.
4. Ur P.Acourse inEngish LanguageTeaching Cambridge University Press, 2012, 325 p.
5. Rzai A. Nitq mədəniyyəti və üslubiyyat. Bakı, 2000. ADİU mətbəəsi, 201səh.

HEYDƏR ƏLİYEV İDEYALARI VƏ GÜCLÜ AZƏRBAYCAN

Aygün Raqif qızı Qədirova
Mingəçevir Dövlət Universiteti
aygun.qedirova@mdu.edu.az

"Heydər Əliyevin siyasəti yaşayır, onun ideyaları, fəlsəfəsi, ideologiyası yaşayır, qurduğu, yaratdığı müasir Azərbayacan yaşayır və onun yolu ilə inkişaf edir."

(İlham Əliyev) [1]

Ulu öndər Heydər Əliyev 71 ilə yaxın müstəmləkə edilən və 90-ci illərdə hər sahəsi tənəzzül dövrünü yaşayan Azərbaycanı yenidən qurdu, dövlətçiliyin demokratik və hüquqi əsasları yaradıldı. Heydər Əliyev rəhbərlik etdiyi dövrdə, gördüyü hər işdə Azərbaycanın parlaq gələcəyi haqqında düşünür, gələcək üçün güclü təməl yaradır, bütöv Azərbaycan üçün inkişaf bünövrəsi qururdu. Unudulmaz şəxsiyyət Heydər Əliyev neft sahəsindədə uzaqgörənliyi sayəsində 1999-cu ildə yaradılan Dövlət Neft Fondunun vəsaitləri hesabına Azərbaycanın tərəqqisi üçün, çox mühüm sosial-iqtisadi layihələr həyata keçirilirdi.

Ulu öndər Heydər Əliyevin siyasi kursu regionun ən güclü dövləti olan Azərbaycanda cənab Prezidentimiz İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. Görülən bütün işlər bunun bariz nümunəsidir ki, Azərbaycan Cənubi Qafqazda söz sahibi, dünyada isə qalib dövlətə çevrilmişdir. Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ regionu və ona bitişik ərazilər uğrunda təxminən 44 gün davam edən müharibə Cənubi Qafqazda hərbi və siyasi sahələrdə qüvvələr nisbətinə tektonik dəyişikliklər gətirdi [1]. Azərbaycan 44 gün ərzində yalnız hərb meydanında deyil, siyasətdə, diplomatiyada və informasiya savaşında da xaliqələr yaratdı. Regionda yeni layihələrin, o cümlədən Naxçıvan üzərindən Aralıq və Xəzər dənizi hövzələrini birləşdirən "həyat yolu"nun reallaşdırılması yeni inkişaf perspektivləri vəd edir [2].

Torpaqlarımız işğaldan azad edildikdən sonra müəyyən ərazilər minalardan təmizlənmiş və ərazilərin bərpası işinə başlamışdır. Təəssüflər olsun ki, hələ torpaqların çox hissəsində minalardan təmizlənməsi başa çatmamışdır. Prezident tərəfindən mühüm strateji obyektlərin, müxtəlif sahələri əhatə edən müəssisələrin təməli qoyulur, tikinti işləri isə getdikcə daha geniş vüsət alır, xüsusilə yüksək texnologiyaların tətbiqinə start verilir.

Dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjinin və ekoloji tarazlığın təmin edilməsinə diqqət yetirilir. "Yaşıl enerji" zonası kimi qurulması nəzərdə tutulan Qarabağın dünyanın ən müasir və ən gözəl yaşayış məskənlərindən olaraq qurulmasına xüsusi diqqət yetirilir. Qarabağa "Böyük Qayıdış" surətli həyata keçirilir. Doğma torpaqlarından, əzəli və əbədi dədə-baba yurdundan qovulan azərbaycanlılar artıq bir çox ərazilərə köçürülüb. İşğaldan azad olunan rayon və kəndlərin çox hissəsində bərpa-quruculuq işləri surətli davam edir.

Prezident İlham Əliyevin başçılığı ilə Azərbaycan müasir çağırışlara cavab verən qalib və güclü bir dövlətə çevrilməyi bacarmışdır. Azərbaycan Avropanın bir çox dövlətinin enerji təhlükəsizliyinə öz töhfəsini verən, dünyanın bir çox ərazilərini birləşdirən nəqliyyat dəhlizi və əhəmiyyətli ölkədir. Cənab Prezident İlham Əliyevin güc nəticəsində xalqımızı yenidən

sevindirərək, 23.04.2023-cü ildə Laçın Xankəndi yolunun girişində Ermənistanla sərhəddə müstəqil Azərbaycan dövlətinin növbəti sərhəd-keçid məntəqəsi yarandı. Qazanılmış bütün uğurların əsası ulu öndər və böyük azərbaycanlı Heydər Əliyevin azərbaycançılıq ideyaları dayanır. Xalqımız müstəqil Azərbaycanın müəllifi olan Hydər Əliyevi tarixində və daima qəlbində əbədi yaşadacaq. Həm Azərbaycan həm də Ulu öndər Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcəkdir.

Vaqif Kəhrizli "Şəfəq saçır yenə Heydər" şeirində yazırdı:

Vətən eşqi gecə-gündüz ürəyində alovlanan,
Xalqı üçün yorulmadan zəhmət çəkən hey yaradan.
Həyatının mənasını bəxş eyləyən bu xalqına,
Əməliylə yol açan Vətənin baharına.
Gələcəyə işıq saçan, nur bəxş edən günəş kimi,
Düşmənləri yandıran bir alov kimi, atəş kimi,
Prezidentim bu xalqına bir qürurdur, bir inamdır.
Ölkəmizi bəlalardan hifz eyləyən qəhrəmandır!
Onun sonsuz məhəbbəti ürəklərdə tutub qərar.
Abadlaşır gündən-günə Vətənimdə hər bir diyar!
Xalqa birdir rəhbərimin əqidəsi, vuran qəlbi,
O, xalqının böyük oğlu, qüdrətli gənc Heydər idi [3].

Müstəqil Azərbaycan dövlətinin bütün sahələrdə inkişafı yolunda mühüm tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin dünyada nüfuzunun artması naminə töhfələr vermişdi. Milyonların ürəyindən gələn bu sözlər ona ümumxalq məhəbbətinin ifadəsi oldu: "Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev ürəklərdə yaşayacaqdır" [4].

İstifadə edilmiş ədəbiyyat

1. https://genprosecutor.gov.az/az/post/2427
2. Nurulla, Əliyev. "Vətən müharibəsində Azərbaycanın qələbəsi". -Bakı: "Afpoligr AF", -2021, 1096 səh.
3. Роза Аскерова. "Как геополитические изменения повлияют на экономику и безопасность Южного Кавказа", Центр анализа международных отношений, Баку, 29 октября 2021-го года.
4. Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev: Heydər Əliyevin 95 illik yubileyi münasibətilə metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, -2018. – 63 s.
5. Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev:; metodik vəsait 2018. – 63 s.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVIN EKOLOJİ SİYASƏTİ VƏ ONUN UĞURLU DAVAMI

Səbinə Mürsəl qızı Quliyeva
Mingəçevir Dövlət Universiteti
sabina.quluyeva@mdu.edu.az

Xalqımız əsrlər boyu torpaqlarının xaricdən təcavüzlərlə üz-üzə qalmasına, təbii sərvətlərin kortəbii istismarına və talan edilməsinə qarşı mübarizə aparmış, böyük itkilərə baxmayaraq bugünkü zənginliklərin qorunub saxlanılmasına nail olmuşdur. 150 ildən artıq müddətdə neft sənayesinin kortəbii istismarı, ekologiyanın, ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin görülməməsi müstəqil Azərbaycana ağır ekoloji durumun miras qalmasına səbəb olmuşdur.

Azərbaycanın müstəqillik qazanmasında, qorunub saxlanılmasında və möhkəmlənməsində ölkə iqtisadiyyatının sürətli inkişafında, xalqın rifahının yüksəldilməsində təkrarolunmaz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin fəaliyyətində ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə məsələləri də həmişə xüsusi diqqət mərkəzində olmuşdur. Heç də təsadüfi deyil ki, məhz ümummilli liderimizin 1969-1982 və 1993-2003-cü illərdə Respublikamıza rəhbərlik etdiyi dövrdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar, qərarlar, sərəncamlar qəbul edilmiş, institusional dəyişiliklər baş vermişdir. Respublikada həyata keçirilən struktur islahatları çərçivəsində, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadənin ayrı-ayrı aspektlərilə məşğul olan və fəaliyyətlərində qismən bir-birini təkrarlayan bir neçə dövlət qurumu ləğv edilmiş, ulu öndərmiz Heydər Əliyevin 23 may 2001-ci il 485 saylı Fərmanı ilə ölkədə ekologiya, ətraf mühitin mühafizəsi sahəsində vahid dövlət siyasətin həyata keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır.

Müasir Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə başlanmış çoxsahəli islahatların bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkənin sosial-iqtisadi inkişafı daha da sürətlənmiş, əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün əhəmiyyətli işlər görülmüş, inkişaf sürətinə görə Azərbaycan nəinki regionda, hətta dünya ölkələri arasında ön sıralara çıxmışdır. Ekoloji şəraitin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, meşələrin mühafizəsi, hidrometeorologiya, geologiya, balıqartırma sahəsində son bir neçə ildə ölkə rəhbərliyinin prinsipial mövqeyi nəticəsində böyük işlər görülmüş, uzun illər ərzində yaranmış və müstəqil Azərbaycana miras qalmış ekoloji problemlər təhlil edilərək, onların kompleks həllinə yönəldilən 5 Milli və Dövlət Proqramları təsdiq edilmiş [1], ekologiya və ətraf mühitin mühafizəsi sahəsində qanunvericilik aktları və hökumət qərarları qəbul edilmiş və ya təkmilləşdirilmiş, ölkəmiz beynəlxalq əlaqələri genişləndirərək 20-dək beynəlxalq konvensiyalara qoşulmuşdur.

Ölkə rəhbərliyinin ətraf mühitin mühafizəsinə təkrarolunmaz xidmətinin parlaq nümunəsi ölkəmizdə xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafına göstərdikləri diqqətdir.

Hələ 2003-cü ildə Azərbaycan Respublikasının Baş Naziri olarkən cənab İlham Əliyev ulu öndərimiz Heydər Əliyevin Sərəncamları ilə yaradılmış üç Milli Parklardan (Həsən Əliyev adına Ordubad, Ağ-göl və Şirvan Milli Parkları) birinin Şirvan Milli Parkının açılışında olmuş və bu sahədə fəaliyyətin davam etdirilməsinin vacibliyini qeyd etmişdir. Bu səfər zamanı cənab İlham Əliyev həmçinin regionda ən müasir, ildə 15 milyon ədəd nərə cinsli balıq körpəsi yetişdirmək gücünə malik olan Xıllı Nərə Balıqartırma Zavodunun açılış mərasimində də iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ölkəmizin cənub bölgəsində səfərdə olarkən, şəxsən onun iştirakı ilə 8 sentyabr 2005-ci il tarixdə Hirkan Milli Parkının rəsmi açılışı olmuşdur. Beləliklə, hazırda Respublikamızda ümumi sahəsi 233576 hektar olan 7 Milli Park, ümumi sahəsi 179800 hektar olan 11 Dövlət təbiət qoruğu, ümumi sahəsi 285878 hektar olan 21 Dövlət təbiət yasaqlığı mövcuddur. Xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi, ekoloji şəbəkənin yaradılması üçün məqsədyönlü tədbirlər davam etdirilərək, cari ildə Goranboy rayonunun inzibati ərazisində Korçay Dövlət Təbiət Qoruğunun yaradılması istiqamətində müvafiq işlər görülür, "Samur-Yalama Milli Parkının yaradılması" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsi»nin və həmin Müqaviləyə dair Xüsusi Razılaşmanın təsdiq edilməsi haqqında 4 aprel 2006-c1 il tarixli Qanuna müvafiq olaraq Samur-Yalama Milli Parkının yaradılması istiqamətində müvafiq işlər davam etdirilir.

Azərbaycan Respublikasının ərazisində vəhşi təbiətdən qanunsuz tutularaq saxlanılan, müsadirə edilmiş və ya təbiətdə müxtəlif təbii təsirlərə məruz qalaraq zədələnmiş və ya xəstələnmiş heyvanlara xüsusi şəraitdə baytarlıq xidməti göstərərək sağlamlıqlarını bərpa etməklə vəhşi təbiətə uyğunlaşmalarını təmin etmək və yenidən təbiətə reintroduksiyasını həyata keçirmək məqsədilə 2006-cı ilin aprel ayından Nazirliyin nəzdində "Vəhşi Təbiətin Reabilitasiyası Klinikası", "Vəhşi Təbiətin Bərpası və Qanunsuz Əldə Edilmiş Heyvanların Təbii Mühitə Uyğunlaşdırılaraq Təbiətə Qaytarılması üzrə Mərkəz", "Xüsusi Mühafizə Olunmayan Ərazilərdə, habelə Şəhərlərdə Vəhşi və Qeyri-Təsərrüfat Canlıları ilə İş Mərkəzi" və "Vəhşi Təbiətə Epidemioloji Nəzarət laboratoriyası" yaradılmış və fəaliyyətə başlamışdır.

2001-ci ildə görülmüş meşəsalma və meşəbərpa tədbirləri 4700 hektar sahəni əhatə edirdisə, 2006-cı ildə bu işlər 10 min hektardan çox sahədə görülmüşdür. 2001-ci ildə ting yetişdirilməsinin həcmi 6,0 mln ədəd olduğu halda, 2006-cı ildə bu rəqəm 37,5 mln ədəd təşkil etmişdir. Nazirlik yarandığı dövrdən sonra, meşələrin mühafizəsi, bərpası və ar- tırılması üzrə Milli Proqramın tələblərinə uyğun respublikanın düzən, dağ və dağətəyi bölgələrində arid zona bozqırlarında yeni meşələrin və yaşıllıqların yaradılması üçün 4 yeni meşəsalma müəssisələri (Cəngi, Giləzi, Qaradağ və Zərdab), qiymətli ağac və kol cinslərindən ibarət əkin mate- rialı yetişdirmək məqsədilə Abşeron, Quba və Kür regional tinglik müəssisələri yaradılmışdır ki, bu da sonrakı dövrlərdə meşəbərpa və meşəsal- ma işlərində öz müsbət nəticələrini göstərmişdir. Respubli- kada ilk dəfə olaraq sənaye əhəmiyyətli səpinti qızıl yatağı aşkar edilmişdir. Gədəbəy filiz rayonunda aşkar edilmiş Moruqludağ mis-porfir təzahüründə, Şəki-Qax filiz rayonunda Bucaq mis-nikel təzahüründə qazıl- mış quyularda, Göygöl filiz rayonunda Tülallar qızıl təzahüründə qazılmış mağarada müsbət nəticələr alınmış, filizlərdə misin, qızılın və nikelin miqdarı sənaye tələbatına uyğun olduğu müəyyən edilmişdir.

Şamaxı, İsmayıllı, Qobustan, Ağsu, Lerik, Cəlilabad, Astara, Gədəbəy, Qusar, Xızı, Dəvəçi rayonlarında və Abşeron yarımadasında ekzogen geoloji proseslərinin (EGP) (sürüşmə, abraziya, uçqun, subasma və s.) öyrənilməsi və monitorinqi üzrə kompleks tədqiqatlar davam etdirilmiş, müvafiq miqyaslı xəritələrin tərtibi üçün kifayətedici məlumatlar əldə olunmuş- məqsədilə regional müşahidə şədur. Həmçinin, respublika ərazisinin seysmogeodinamik şəraitinin və zəlzələlərin proqnoz amillərinin öyrənilməsi bəkəsinə daxil olan 12 quyuda seysmohidrogeodinamik tədqiqatlar davam etdirilmişdir. Qazax və Siyəzən müşahidə məntəqələri yaradılmış və regional şəbəkəyə qoşulmuşdur. Fiziki-Kimyəvi Tədqiqatlar Mərkəzinin yenidən qurulması və modernləşdirilməsi istiqamətində əsaslı işlər görülmüş, yüksək dəqiqliyə malik müxtəlif təyinatlı cihaz və avadanlıqlar alınmış və quraşdırılmışdır. Milli hidrometeorologiya xidmətinin müasir tələblərə uyğun olaraq in- kişafını təmin etmək məsələlərini daim diqqət mərkəzində saxlayan ölkə Prezidenti cənab İlham Əliyev bu məqsədlə 28 yanvar 2004-cü il tarixli Sərəncamla 2003-2010-cu illəri əhatə edən «Azərbaycan Respublikasında Hidrometeorologiyanın inkişaf proqramı»nı təsdiq etmişdir. Proqramda Xüsusiləşdirilmiş Hidrometeoroloji Xidmət sahələrində - dəniz, aviameteoroloji, aqrometeoroloji proqnozlar və məlumatlar sistemi- nin inkişafı üçün müasir texnika, cihaz və avdanlıqla bərabər, həmin tex- nikanı idarə edən yüksək ixtisaslı kadrların hazırlanması sahəsində ardıc1 tədbirlər həyata keçirilmişdir. Hal-hazırda ölkədə 68 stansiya və 94 məntəqədən ibarət meteoroloji müşahidə şəbəkəsi fəaliyyət göstərir. Bu stansiya və məntəqələrdə Aeoroloji, Radiometeoroloji, Hidroloji, Aqrometeoroloji və Su səthindən buxarlanma müşahidələri aparılır. Daxil olan məlumatlar əsasında Ümumdünya Meteorologiya Təşkilatı- nın beynəlxalq kodları əsasında bülleten hazırlanaraq ölkə daxilində Mil- li Meteorologiya Mərkəzlərinə, mülki və hərbi aviasiyanın meteorologiya xidmətlərinə çatdırılır, eyni zamanda Ümumdünya Meteorologiya Təşki- latının Qlobal Telekommunikasiya Sisteminə daxil edilir, həmçinin regio- nal və qlobal mübadilə üçün yayımlanır. Ötən dövrdə Maştağa Aeroloji stansiyası yenidən tam bərpa edilmiş və modernləşdirilmişdir. Dəniz Hidrometeoroloji müşahidələri və Xəzər dənizinin hidrometeo- roloji rejiminin öyrənilməsi təsdiq edilmiş plana uyğun dəniz şəbəkəsinə daxil olan 14 stansiya və məntəqədə aparılır. 2004-cü ildə Milli Hidrometeorolgiya Departamentində quraşdırılmış VSAT sistemi (Very Small Aperture Terminal sistemi) rabitə peyki (TÜRKSAT) vasitəsilə yüksək keyfiyyətli ikitərəfli kommunikasiya əlaqəsinin yaradılması üçün istifadə edilməklə bu sistem sinoptik proqnozla- rın keyfiyyətinin xeyli yaxşılaşdırılmasına və məlumat mübadiləsinin təşkilinə təsirli kömək göstərmişdir. Təcili həlli tələb olunan ekoloji problemlərdən biri də torpaqların de- qradasiyasıdır. Ölkənin suvarılan torpaqlarının 665 min hektarı şoranlaşmaya, 480 min hektarı isə şorakətliyə məruz qalmışdır. Bunun əsas səbəbləri arasında təbii amillərlə (iqlim dəyişmələri, külək, sellər və s.) yanaşı, antropogen təsir xüsusi yer tutur. İntensiv otarma, irriqasiya sistemlərinin tələblərə cavab verməməsi, aqrotexniki qaydalara əməl olunmaması, son vaxtlar xırda və iribuynuzlu mal-qaranın sayının 3 dəfədən çox artması, suvarma əkinçiliyinin ekstensiv əsaslarla inkişaf etməsi və s. bu kimi səbəblər səhralaşma prosesini sürətləndirir. Bütün bu problemlərin aradan qaldırılması məqsədilə Azərbaycan Res- publikası Prezidenti cənab İ.Əliyevin 22 may 2004-

cü il tarixli Sərəncamı ilə «Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair» Dövlət Proqramı təsdiq edilmişdir. Dünyada enerji təhlükəsizliyi, ətraf mühitin çirklənməsi və s. problemlərin həlli yollarından biri kimi hazırda ən aktual olan alternativ enerci mənbələrindən istifadədir. Ölkəmiz külli miqdarda neft və qaz ehtiyatla- rna malik olmaqla yanaşı, alternativ enerji mənbələri olan günəş və külək enerjiləri ilə zəngin olduğundan, bu sahədə böyük imkanlara malikdir. Bu- nunla əlaqədar, Prezidentimiz cənab İlham Əliyev alternativ və bərpa olu- nan enerji mənbələrindən istifadə etməklə ətraf mühitin çirklənməsinin azaldılması, emal olunan neft və qazdan gələn gəlirlərin əsasən əhalinin sosial rifahının yaxşılaşdırılmasına, qeyri-neft sektorunun inkişaf etdiril- məsinə yönəldilməsini prioritet bir vəzifə kimi qarşıya qoymuşdur. Bu vacib məsələlərin həlli məqsədilə Azərbaycan Respublikası Prezi- denti cənab İlham Əliyevin 21 oktyabr 2004-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə" Dövlət Proqramı qəbul olunmuşdur. [1] Bu sahədə artıq ölkədə müəyyən işlər görülmüş, bioqaz qurğularının, külək enerjisindən istifadə etməklə elektrik enerjisi alan qurğuların və günəş batareyalarının quraşdırılmasına başlanılmış, respublikamızda bioqazın istehsalı ilə əlaqədar pilot layihələr həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin qabaqcıl dünya təcrübəsinə və yeni texnologiyaların tətbiqinə diqqəti nəticəsində ölkədə ilk dəfə olaraq ətraf mühitin monitorinqi sistemi yaradılmış, respublikanın müxtəlif bölgələrində ən müasir cihazlarla təmin olunmuş 8 laboratoriya təşkil edilmiş, ətraf mühitin vəziyyəti barədə gündəlik, həftəlik və aylıq məlumatlar hazırlanaraq geniş ictimaiyyətə və müvafiq dövlət qurumları- na təqdim edilir. Çayların transsərhəd çirklənməsinin qarşısının alınması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi müvafiq tədbirlər həyata keçirmiş, bu çaylar- da daimi monitorinqin keçirilməsi üçün 2005-ci ilin sentyabr-oktyabr ay- larında Qazax və Beyləqan rayonlarında müasir avadanlıqlarla təhciz edilmiş analtik tədqiqat laboratoriyaları fəaliyyətə başlamışdır. Bu laboratoriyalar vasitəsi ilə əldə olunmuş dəqiq məlumatlar, müvafiq tədbirlərin görülməsi üçün Beynəlxalq təşkilatlara təqdim olunur. Quruda və dənizdə neft və qaz hasilatı ilə məşğul olan xarici və yerli müəssisə və təşkilatlarda görülən işlərə və bu proseslərdə əmələ gələn tullantıların idarə olunmasına ciddi nəzarət olunur. "Sahənin civə çirklənməsindən təmizlənməsi və təhlükəli tullantıların basdırılması üçün Poliqonun tikintisi" layihəsi Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış «Inkişaf üçün kredit haqqında Saziş»in şərtlərinə əsasən Dünya Bankının krediti hesabına Sumqayıt şəhərindən 15 km şimal-qərbdə Pirəküşkül qəsəbəsi yaxınlığında Poliqon ti- kintisi üçün 50 hektar sahə ayrılmış və regionda anoloqu olmayan poliqonun tikintisi başa çatdırılmış, 2004-cü ilin iyun ayından isə istifadəyə verilmişdir. Bu günə qədər artıq 40 min m^3 artıq təhlükəli civə tullantısı burada basdırılmışdır.[2] Layihənin həyata keçirilməsi Azərbaycan Respublikasının bütün regionlarında fəaliyyət göstərən sənaye müəssisələrinin fəaliyyəti nəticəsində formalaşan və həmin müəssisələrin ərazilərində yığılıb qalmış təhlükəli tullantıların buraya daşınması, basdırılması və idarə edilməsi təmin edilir. Ekoloji məsələlərin Azərbaycan Respublikasının iqtisadiyyatının planlaşdırılması və inkişafı ilə effektiv inteqrasiyası üçün ekoloji menecment sistemində dəyişikliklərin aparılması, təhlükəli tullantıların idarəetmə sisteminin təkmilləşdirilməsi, xammal və material ehtiyatlarından səmərəli istifadəyə, istehsalın iqtisadi səmərəlililiyinin artmasına səbəb olmuşdur. Ölkə Prezidenti möhtərəm İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət və beynəlxalq əlaqələr sahəsində qazandığı müvəffəqiyyətlər ətraf mühitin mühafizəsi sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin də beynəlxalq əməkdaşlıq sahəsində səmərəli fəaliyyətinə şərait yaratmışdır.

Ekologiyanın qorunması, ətraf mühitin mühafizəsi sahəsində Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu uğurlu siyasətin bu gün ölkə Prezidenti möhtərəm İlham Əliyev cənablarının bilavasitə rəhbərliyi ilə uğurla davam etdirilməsi, bu sahədə görülmüş möhtəşəm işlər, həyata keçirilən ardıcıl tədbirlər ölkəmizin siyasi, iqtisadi, sosial-mədəni həyatının bütün sahələri ilə yanaşı, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində də yeni-yeni uğurların qazanılacağına inamı bir daha təsdiq edir.

İstiadə edilmiş ədəbiyyat

1. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasinin Qanunu, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 157 s
2. Göyçaylı Ş., İsmayılov T. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları, Şirvannəşr, 2006, 176 s.

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN PARADİQMATİK FORMALARININ ÇOXMƏNALILIĞI, MƏNA EKVİVALENTLİLİYİ VƏ TƏRCÜMƏ PROBLEMLƏRİ

Lamiyə Mahir qızı İbrahimova
Mingəçevir Dövlət Universiteti
lamiya.ibrahimova@mdu.edu.az

Qloballaşma dövründə milli mənəvi dəyərlərin qorunmasını, nəsildən-nəsilə keçirilməsini, o cümlədən Azərbaycan dilinin tarixi köklərinin, müasir tendensiyalar şəraitində dilimizin imkanlarından geniş istifadənin, saflığının qorunub saxlanmasını təmin etmək, bütövlükdə prosesi nəzarətdə saxlamaq Ulu Öndər Heydər Əliyevin dil siyasətinin təməlini təşkil edirdi. Hətta sovet dövrünün imperiya qadağalarına rəğmən, dilimizə dövlət dili statusu verilməsinə nail olmaq, Azərbaycanlı dilçi alimlərin genişmiqyaslı tədqiqat işlərinə ruhlandırılmasına şərait yaradaraq dilimizin inkişafı istiqamətində müxtəlif elmi-tədqiqat işlərinə təşviq edilməsi məhz görkəmli siyasi xadim Heydər Əliyevin təşəbbüsü və şəxsi nəzarəti altında həyata keçirilən uzaqgörən siyasətin əsas tərkib hissəsi idi.

Müxtəlifsistemli dillərdə frazeoloji birləşmələrin paradiqmatik münasibətlərinin araşdırılması rus və Azərbaycan dilçiliyində aktual bir problem kimi qarşıda durur. Rus və Azərbaycan dillərinin frazeoloji paradiqmlərinin ümumi sistem qanunauyğunluqları çərçivəsində təhlili məntiqi səciyyə daşıyır. Strukturalizm dilçilik tədqiqatları qarşısında məhz belə tələblər qoyur.

Azərbaycan və rus dillərində frazeoloji paradiqmlərin çoxmənalılığı leksik vahidlərin polisemiyası ilə bilavasitə əlaqədardır. Yəni frazeoloji paradiqmi təşkil edən əsas komponentlərdən birinin çoxmənalılığı ilə səciyyələnir. Leksik vahidlərin çoxmənalılığı isə eyni leksik vahiddə bir sıra mənaların toplanması nəticəsində yaranır. Sözlərin çoxmənalılığı onların mətnlə, bu və ya digər sözlə əlaqəsi zamanı, yəni mətn daxilində müəyyənləşir. Frazeoloji vahidlərin çoxmənalılığı onların nitq prosesində, başqa sözlərlə əlaqəsi şəraitində olur. M.İ.Adilov, Z.N.Verdiyeva, F.M.Ağayevanın "İzahlı dilçilik terminləri" lüğətində çoxmənalılığa belə bir tərif verilir: "Eyni sözdə və ifadədə ilkin məna əsasında meydana çıxan və bir-biri ilə əlaqədar olan müxtəlif mənalar. Bu mənalar belə qruplaşdırılır: əşyəvi-məntiqi məna, emosional məna, adlandırma mənası". Çoxmənalılıq müxtəlif yollarla meydana gəlir. Bunlardan ən çox yayılanları məna genişlənməsi, məna daralması və məna köçürülməsidir.

Bildiyimiz kimi dil işarələr sistemidir. Ferdinand de Sössürə görə dil işarəsi ikitərəflidir. Yəni dil tamamilə ideal hadisə olaraq danışan insanların şüurunda formalaşır və işarənin forması səs toplumunun akustik obrazından, mənası isə məfhumdan ibarətdir. Ferdinand de Sössür formanı işarələyən, mənanı isə işarələnən adlandırır [7, 44-47].

İşarə vahid bir məfhumdur və onun hər iki tərəfi nisbi müstəqilliyə malikdir. Frazeoloji birləşmə adlanan dil vahidinin əsas əlaməti işarə olunanın işarə edənə uyğun olmasıdır. Frazeoloji birləşmə çoxfunksiyalı semantikaya malikdir. Frazeoloji semantikanın çoxcəhətliliyini dərk edəndən sonra ayrı-ayrı frazeoloji vahidlərin çoxfunksiyalı semantikaya malik olması müəyyənləşdirilir. Çoxmənalı frazeoloji paradiqmlər də çoxmənalı sözlər kimi ilk baxışda omonim vahidlərə bənzəyir. Lakin bunlar bir-birindən tamamilə fərqli anlayışlardır. Çoxmənalı frazeoloji paradiqmlərin digər mənaları ilə əsas məna arasında möhkəm semantik əlaqə olur və bu mənalar bir-biri ilə bağlı olur.

Omonim frazeoloji paradiqmlərdə isə bu xüsusiyyət olmur. Məsələn, Azərbaycan dilində çoxmənalı frazeoloji paradiqmlərə misal olaraq aşağıdakıları göstərmək olar:

I.1) Can vermək – ölüm ayağında olmaq, afoniya vəziyyətində olmaq.

2) Can vermək – canlandırmaq, yenidən həyata qaytarmaq.

II. 1) Can almaq – öldürmək. *(Gözü göyçək gəlinlərin, qızların canını çox almısant". (M.Ergin. Dede Korkut kitabı)).*

2) Can almaq – cəzalandırmaq. *Haqq söz deyənin canını alıb, çeşmini oyardım (M.Ə.Sabir).*

3) Can almaq – bir işi başa çatdırmaq.

Məndən asılı bir iş varsa, deyin canını alım (S.Rəhman).

4) Can almaq – valeh etmək.

"Maşallah, tovuz quşuna oxşayır. Qaşını süzdürüb, gözünü oynadanda adamın canını alır" (Mir Cəlal). Bu birləşmələrdəki digər mənalar birinci məna ilə bağlı olub onun əsasında yaranmışdır.

Bu tip paradiqmlərə ağzı açılmaq, ağzına almaq, aynası (eyni) açılmaq, alt-üst etmək, bağrı çatlamaq və s kimi ifadələri aid etmək olar.

Rus dilində də çoxmənalı frazeoloji paradiqmlər çoxdur:

I. Брать на себя - öz üzərinə götürmək.

1) брать на себя – обязываться выполнить, осуществить что-либо самому. Nəyi isə yerinə yetirməyə, həyata keçirməyə söz vermək. *("Этнографические исследования и маршрутные съемки я взял на себя". Арсеньев. По уссурийской тайге).*

2) Брать на себя – проявлять смелость, заботу. Müəyyən bir məsuliyyəti, qayğını öz üzərinə götürmək. (*Исчисляя в ней героев, прославивших Францию, взял на себя смелость обратиться к знаменитой вашей родственнице. (А.С.Пушкин. Последний из свойственников Иоанны д'Арк).*

3) Брать на себя – присваивать себе звание или титул. Hər hansı titulu və ya rütbəni öz üzərinə götürmək. (*Государь не брал на себя звание главнокомандующего, но распоряжался всеми Армиями. (Л.Н.Толстой. Война и мир).*

II. Взять свое – istədiyini əldə etmək.

1) Взять свое – qarşıya qoyulan məqsədə çatmaq.

2) Взять свое – bütün qüvvəsi ilə, var qüvvəsi ilə hərəkət etmək.

3) Взять свое – kimə isə güclü təsir göstərmək.

4) Взять свое – müəyyən bir hadisənin təsirini hiss etmək Əsasən illərin, yaşın təsiri haqqında. *("Но годы взяли уже свои" – İllər öz işini görürdü və təsirini göstərirdi).*

Məlumdur ki, dillərin müqayisəli-frazeoloji tədqiqi oxşar və fərqli dil faktlarını toplamaqdan və araşdırmaqdan ibarətdir. Frazeoloji paradiqmlərin müqayisəli araşdırılması məhz bu xüsusiyyətlərin tədqiqinə, onların dil sistemində və nitqdə funksionallaşmasının öyrənilməsinə əsaslanır. Bu sahədə əsas problem kimi müqayisə olunan dillərdə ekvivalent münasibətlərin öyrənilməsi götürülür. Frazeoloji paradiqm öz tərkibində bir-birindən öz semantik özəlliyi, qrammatik strukturu, komponentlərinin məna baxımından birləşmə dərəcəsi və motivaziyası ilə seçilən sözləri birləşdirir. Beləliklə, hər hansı frazeoloji paradiqmin müqayisə olunan dildə ekvivalentinin tapılması əsas meyar kimi götürülməlidir.

Qeyd etmək lazımdır ki, müasir frazeologiyada ekvivalent frazeoloji paradiqmlərin və onların məna uyğunluğunun əsas meyarlarını ifadə edən vahid terminoloji sistem yoxdur. Ekvivalent anlayışının özü də müəyyən dərəcədə mücərrəd səciyyə daşıyır. Bu problem barədə alimlərin fikirləri fərqlidir. S.S.Tolstoyun fikrincə, ekvivalent orijinal ifadə və ya sözlə tam əks oluna bilən leksik vahiddir [8, 13-15].

O.S.Axmanova "Linqvistik terminlər lüğəti"ndə (Словарь лингвистических терминов) ekvivalent anlayışını belə izah edir: "Ekvivalent başqa bir dil vahidinin oxşar funksiyasını yerinə yetirməyə müvəffəq olan dil vahididir".

Z.Z.Qatiatulina yazır: "Dillərarası frazeoloji ekvivalentlər müxtəlif sistemli dillərdə komponentlərinin eyni leksik-morfoloji tərkibi, ümumi qrammatik strukturu və vahid mənası olan frazeoloji birləşmələrdir" [4, 11-14].

İ.Həmidov isə bu fikirdədir ki, müxtəlifsistemli dillərdə frazeoloji ekvivalentlər ilk növbədə öz obrazlılığına, mənasına və üslubi çalarlrına görə bir-birini əvəz edə bilən struktur-qrammatik ifadələrdir [3, 8-18].

Y.P.Solodovun fikrincə, müxtəlifsistemli dillərdə frazeoloji paradiqmlərin ekvivalentləri üçün leksik və qrammatik səviyyə baxımından komponentlərin eyniliyi və ya oxşarlığı vacib deyildir. O, israrla qeyd edir ki, bu müqayisə zamanı əsas yeri obrazlılıq tutur. Alimin fikrincə frazeoloji obrazları tam eyniyyət təşkil etməyən ifadələr dillərarası frazeoloji ekvivalent deyil, dillərarası frazeosemantik ekvivalentlərdir [6, 33-37].

A.D.Rayxşteynin araşdırmalarına görə, tam frazeoloji ekvivalentlik struktur-semantik uyğunluğun çox az hissəsini təşkil edir. S.S.Tolstoyun fikrincə, tam və natamam ekvivalentlər mövcuddur. Tam frazeoloji ekvivalentlik isə aşağıdakı şərtlərlə səciyyələnir

1) Daxili forma oxşar olmalıdır.

2) Frazeoloji paradiqmin qrammatik və üslubi parametrlərinin də oxşarlığı vacibdir. Lakin bu zaman qrammatik və üslubi fərqlər tam frazeoloji ekvivalentliyə təsir göstərə bilmir.

Əgər rus ədəbiyyatında biz frazeoloji ekvivaletlərin tam, natamam, absolyut və nisbi ekvivalentliklərə bölündüyünü görürüksə, Azərbaycan alimi B.Tahirbəyov frazeoloji paradiqmlərin ekvivalentliyində 3 növünü xüsusi qeyd edir. Alim bu silsiləyə 1) Transsinonimlər – natamam qarşılıqlar – hipoekvivalentlər – uyğunsuz uyğunluqlar, 2) Transsinonimlər – tam qarşılıqlar – ortoekvivalentlər – uyğunlu uyğunsuzluqlar, 3) Transsinonimlər – yanlış qarşılıqlar – psevdoekvivalentlər – uyğunlu uyğunsuzluqları daxil edir.

B.Tahirbəyovun fikrincə, atalar sözlərinin ən böyük qismi "uyğunsuz uyğunluqlardır". İfadə oxşarlığı olmadan məzmun oxşarlığına imkan yaradan natamam qarşılıqlar (hipoekvivalentlər) yaxud transsinonimlər məhz atalar sözləridir [2, 18-24]. O, qeyd edir ki, məzmun oxşarlığı olmadan ifadə oxşarlığına bais olan yanlış qarşılıqlar (psevdoekvivalentlər və ya transsinonimlər) məhz belə atalar sözləridir. Atalar sözlərinin bir qismi tam qarşılıqlar, yəni ortoekvivalentlər (transsinonimlərdir). Məsələn: rus və Azərbaycan dillərində bu atalar sözlərinin tam qarşılığı vardır: У коровы молоко на языке – İnəyin südü ağzındadır; Железо в работе не ржавеет – İşləyən dəmir paslanmaz; Дело шуток не любит – İş zarafatı sevmir [1].

Frazeoloji paradiqmlər də sözlər kimi öz həqiqi mənalarını mətn daxilində alır. Qeyd etmək lazımdır ki, frazeoloji ekvivalentliyin müəyyənləşdirilmə meyarları və frazeoloji uyğunluqların növlərinin seçilməsi müasir dilçilikdə üç aspektdən araşdırılır: semantik, struktur-qrammatik və komponent. Semantik aspekt müqayisə olunan dillərdə frazeologizmlərin semasioloji baxımdan formalaşmasımı, məna planında olan oxşarlıqlar və fərqləri müəyyənləşdirir.

Struktur-qrammatik aspekt müqayisə olunan dillərdə frazeoloji paradiqmlərin struktur özəlliklərini: struktur modelləri və adekvat əvəzetmə imkanlarını səciyyələndirir. Komponent aspekt frazeoloji paradiqmlərin komponent baxımından formalaşmasını, komponentlər tərkibini təşkil edən elementlərin oxşarlığını və fərqlərini müəyyənləşdirir. Fikrimizcə, dillərarası ekvivalentliyi aşağıdakı meyarlar əsasında müəyyənləşdirmək məqsədəuyğun olardı:

1.Absolyut ekvivalentlər. Bu ekvivalentlər semantik, struktur-qrammatik və komponent tərkib baxımından eynidir və milli məna çalarlarına malik deyildir. Rus və Azərbaycan dillərində tamamilə eyni mənada işlənən atalar sözləri buna misal ola bilər: 1) Лицо зеркало души – üz ürəyin aynasıdır; 2) Цыплят по осени считают – cücəni payızda sayarlar; 3) Сто раз отмерь, один раз отрежь – yüz dəfə ölç, bir dəfə biç.

B.Tahirbəyovun fikrincə, tam qarşılıqların əksər hissəsi tərcümə məhsuludur. Burada iki yol – şifahi tərcümə və yazılı tərcümə yollarıdır. Birinci yol – atalar sözünün dilmanclar vasitəsilə ağızdan-ağıza ötürülməsi münasib şəraitdə tam qarşılıqların əmələ gəlməsinə gətirib çıxarır. Bunun bir neçə şərhi vardır: dil qohumluğu, mənşə ümumiliyi, təbiət eyniliyi, ictimai oxşarlıq, ərazi vəhdəti, iqtisadi əlaqələr, mədəni təmas. Sadalanan şərtlərdən bəzilərinin vaxtilə mövcud olması sami-türk, iran-türk, slavyan-türk birliyi şəraitində atalar sözünün tərcüməsi üçün yol açmışdır. Məsələn: Ərəbcə-Azərbaycanca "Elm insanın bəzəyidir", farsca-Azərbaycanca "O atlıdır, mən piyada", rusca-Azərbaycanca "Не имей сто рублей, а имей сто друзей" – "Yüz manatın olunca, yüz dostun olsun"

Müxtəlifsistemli dillərdə dillərarası ekvivalentliyə hansı amillər təsir göstərir. Bu barədə A.D.Rayxsteynin fikirləri maraqlıdır: "Dillərarası frazeoloji ekvivalentliyin səviyyəsi ilk növbədə struktur-semantik ekvivalentlərin olub-olmamasından asılıdır". Bu xüsusiyyətlər frazeoloji paradiqmlərin komponent tərkibinin, sintaktik strukturun frazeologiyasının semantik və formal mexanizminin və üslubi çalarların vəhdəti ilə bilavasitə əlaqədardır [5, 29-34].

Dillərarası frazeoloji ekvivalentliyin amillərindən biri kimi frazeoloji mənanı göstərmək olar. Bu zaman əsas göstərici universalilərin, yəni bütün xalqların başa düşəcəyi ümumi anlamların ekvivalentliyi ilə əlaqədardır. Milli-mədəni özəlliklərlə bağlı olan frazeoloji paradiqmlərin ekvivalentlik dərəcəsi nisbətən aşağıdır. Qeyd etmək lazımdır ki, frazeologizmlər hər bir xalqın milli-mədəni dəyərlərini əks etdirir.

Frazeoloji paradiqmlər güzgü kimi xalqın ruhunu əks etdirir. Burada hər bir xalqın milli xarakteri, psixologiyası və düşüncə tərzi ifadə olunur. Müxtəlifsistemli dillərdə frazeoloji paradiqmlərin ekvivalentlərini tapmaq ona görə mümkündür ki, dillər arasında frazeoloji universalilər mövcuddur. Frazeoloji universalilər xalqlara məxsus ümumi məntiqi-semantik modellərə əsaslanır.

İstifadə edilmiş ədəbiyyat

1. Seyidəliyev N. Frazeologiya lüğəti. Bakı, 2004.
2. Tahirbəyov B. Atalar sözü və zərb-məsəllərin tərcüməsi. NDA, Bakı, 1966.
3. Гамидов И. Философия грамматики афоризмов и пословиц. Б., 2001.
4. Гатиатулина З.З. Сравнительное исследование фразеологических единиц с компонентом глагола движения. М., 1969, 246 с.
5. Райхштейн А.Д. О сопоставлении фразеологических единиц. ИЯШ, 1980, № 4.
6. Солодуб Ю.П. Русская фразеология как объект сопоставительного структурно-типологического исследования. М., 1985, 457 с.
7. Соссюр Ф. Курс общей лингвистики. М., 1933, 203 с.
8. Толстой С.С. Основы перевода с английского на русский. М., ИМО, 1957, с. 13-15.

HEYDƏR ƏLİYEV VƏ NEFT SEKTORUNUN İNKİŞAFI

Vüqar İsmayıl oğlu Sarıyev
Mingəçevir Dövlət Universiteti
vuqar.sariyev@mdu.edu.az

"Azərbaycan, Bakı öz nefti ilə dünyanın şirkətlərini, iş adamlarını XIX əsrin ikinci yarısından, XX əsrin əvvəllərindən cəlb etmiş və bir çox xarici şirkətlər burada uğurlu fəaliyyət göstərmiş, neft hasilatını təmin etmişlər."

(Heydər Əliyev)

Azərbaycan neftinin tarixi kökləri çox qədim dövrlərə təsadüf edir. Ərəb tarixçiləri, coğrafiyaşünasları və səyyahlarından Əhməd Əl-Bəlaruri (IX əsr) Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğunu göstərməsi, Əbu-İshaq İstəxri (XI-Xəsrlər), Əbu-d-Həsən Əli Məsudi (X əsr) Bakının neftli torpağı, Abşeronun "ağ" və "qara" nefti haqqında məlumat verməsi, İtaliyan səyyahı səyyahı Marko Polo (XIII-XIV əsrlər) Bakı neftinin yaxın Şərq ölkələrinə aparılması, alman diplomatı və səyyahı Adam Oleari (XVII əsr) Bakıdakı neft quyuları, türk səyyahı Evliya Çələbi (XVII əsr) neft mədənləri, neftin İrana, Orta Asiyaya, Türkiyəyə və Hindistana aparılması və neftin gətirdiyi illik gəlir haqqında məlumatlarına rast gəlinir. Balaxanıdakı neft quyularından birində aşkar edilmiş daş üzərindəki yazı quyunun hələ 1594-cü ildə usta Allahyar Məmmədnur oğlu tərəfindən qazılaraq istifadəyə verildiyini göstərilmişdir. Əmin Əhməd Razinin (İran, 1601)

məlumatına görə, XVI əsrin əvvəllərində Bakı ətrafında 500-ə qədər belə neft çalaları və quyusu mövcud olmuşdur ki, bunlardan da həm "qara", həm də "ağ" neft çıxarılması icra edilirdi.

Alman səyyahı, həkim və təbiətşünası Engelbert Kempfer İsveç səfirliyinin katibi kimi 1683-cü ildə Abşeron yarımadasında Balaxanı, Binəqədi, Suraxanı yataqlarında olmuş, neftin Abşeron yarımadasından İrana, Orta Asiyaya və Şimali Qafqaza aparılmasını haqqında məlumatlarına rast gəlinir. 1803-cü ildə Bakı sakini Qasımbəy Mənsurbəyov Bibiheybət yaxınlığında, dənizdə, sahildən 18 m və 30 m aralı iki neft quyusu qazdırması barədə yazılara da rast gəlinir. Azərbaycan neft sənayesinin inkişaf tarixində bir neçə mərhələlər ayrılır ki, bunların da hər birinin özünəməxsus nailiyyətləri olmuşdur. Respublikamız dünyada neft istehsalı ilə məşğul dövlətlərdən biridir. Azərbaycanda bu uşaqdan böyüyə hamıya məlum olan bir prosesdir.

Müasir dövrdə dünya ictimaiyyəti də bunu bilir ki, dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə Azərbaycanda çıxarılmışdır və o vaxt Azərbaycan dünya neftinin əsas hissəsini təmin etmişdir. Tarixdə ilk dəfə olaraq XX əsrin ortalarında dənizdə də neft çıxarılması prosesi, məhz Azərbaycan neftçiləri tərəfindən həyata keçirilmişdir.Bu tarixi hadisə müasir dövr üçün bir növ stumul rolunu oynayır.Əzmkar neftçilərimiz sovetlər dövründə də, Xəzərin bütün neft-qaz yataqlarının aşkar olunmasında əsas rol oynamışlar. Nəinki Respublikamızda, hətta onun hüdudlarından kənarda Rusiya Federasiyasında yeni neft yataqlarının kəşfində neftçilərimizin rolu danılmazdır. Azərbaycan neftçiləri xarici ölkələrə ezam olunaraq, öz təcrübələrini orada tətbiq etmişlər. Məhz bu hal Azərbaycan neft-qaz sektorunda çalışan insanların peşəkarlığının və fədəkarlığının baris nümunəsidir. Azərbaycan dünyada nəinki neft həm də, qaz ölkəsi kimi məhşurdur. Müstəqillik dövrümüzndə bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Sovetlər dövründə də Azərbaycan neftçiləri Sovet İttifaqının ümumi inkişafına çox böyük töhfələr vermişlər. O vaxt Azərbaycan müttəfiq respublikalar arasında ikinci respublika idi ki, donor kimi tanınırdı. Bu o deməkdir ki,respublikamız ümumittifaq büdcəsinə daha çox vəsait ayırırdı. Bunun üçün də bu sahədə çalışan işçilərin rolu danılmazdır.

Məhz II Dünya müharibəsi zamanı Hitler faşizmi üzərində qazanılan qələbədə Bakıda çıxarılan neftin rolu əvəzsidir. Baxmayaraq ki, Bakı şəhəri qəhrəman şəhərlər sırasına salınmayıb, amma neftçilərimizin öz əmkarlığı və işgüzarlığı sayəsində Bakı şəhəri öz qəhrəmanlıq səlnaməsini tarixin yaddaşına qızıl hərflərlə həkk etmişdir. XX əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin iştirakı ilə Azərbaycanda bir milyard ton neftin hasilatının qeyd edildiyi təntənəli mərasim keçirilmişdir.

1970-1980-ci illərdə Heydər Əliyev Azərbaycan Respublikasının ümumi inkişafına çox böyük töhfələr vermişdir.O, cümlədən neft-qaz sənayesinin inkişafı üçün çox böyük addımlar atılmışdır. O, vaxt neft hasilatının artırılması, yeni qurğuların işə düşməsi, dərin özüllər zavodunun məhz Azərbaycanda tikilməsi, neftayırma zavodunun rekonstruksiyası və digər önəmli hadisələr Azərbaycanın neft potensialını köklü dərəcədə möhkəmləndirmişdir. O, illərdə yaradılmış potensial, xüsusilə dərin özüllər zavodunun fəaliyyəti bu gün də bizim neft potensialımızı gücləndirməkdə davam edir. Əgər vaxtilə bu zavod Azərbaycanda yox, başqa bir ölkədə tikilsəydi, o zaman bizim müstəqillik dövründə xarici tərəfdaşlarla işlərimiz baş tutmazdı. Dərin özüllər zavodu bugünkü dönəmdə bizim neft strategiyamızın həyata keçirilməsi üçün vacib rola malikdir.

Heydər Əliyev Azərbaycandan gedəndən sonra bütün sahələrdə olduğu kimi, neft-qaz sahəsində də tənəzzül yavaş-yavaş özünü büruzə verməyə başlamışdı və 1990-cı illərin ərəfəsində artıq neft hasilatı ilə bağlı problemlər özünü biruzə verdi. Müstəqilliyimizin ilk illərində bu problemlər daha da dərinləşməyə doğru irəliləyirdi. Müstəqilliyimizin ilk illəri bizim üçün çox ağır keçirdi, ölkə idarəolunmaz vəziyyətə düçar olmuşdu. Ölkədə baş verən xaos, anarxiya, özbaşnalıq, səriştəsizlik dövlətimizin digər dövlətlərdən iqtisadi cəhətdən geriləməsinə səbəb olmuşdur. Respublikamızı idarə edənlərin öz məsuliyyətini dərk edə bilməməsi, səriştəsiz, savadsız kadrların qabağa çəkilməsi ilə əlaqədar, ölkəni xaos bürüdü, anarxiya hökm sürürdü. Bakıda və digər şəhərlərdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu və bütün bu xoşagəlməz hadisələr nəticəsində ölkəmiz vətəndaş müharibəsi ilə üzləşmişdir. Məhz bu dövrdə Ulu Öndər, dövlətin xilaskarı Heydər Əliyev öz tarixi missiyasını yerinə yetirərək, Azərbaycanı bu böyük qarsıalınmaz bəlalardan xilas etdi. Nəhayət ki, ölkəmizdə sabitlik, əmin-amanlıq, bərqərar oldu. Azərbaycan öz

inkişaf yoluna qədəm qoyaraq, Ulu Öndərin uzaqgörənliyi sayəsində dünya dövlətləri sırasında öz layiqli yerini tutmaqdadır. 1993-cü ildən başlayaraq Azərbaycan müasir dövrümüzə qədər uzun bir inkişaf yolu keçməkdədir. Bu vəziyyətdən çıxış yolu kimi,1994-cü ildə "Əsrin müqaviləsi"nın imzalanması bu sahədə ən böyük dönüş nöqtəsi yaratmaqdadır. "Əsrin müqaviləsi"nın imzalanması çox böyük tarixi zəfərin göstəricisidir. Çünki o vaxt Azərbaycan gənc müstəqil dövlət kimi, çox ağır çağırışlarla üz-üzə qalmışdı, iqtisadiyyat demək olar ki, tamamilə dağıdılmışdı, sənaye istehsalı iflic vəziyyətə salınmışdır. Ölkədə inflyasiya min faizlərlə ölçülürdü, kütləvi işsizlik, özbaşnalıq, hökm sürürdü, yoxsulluq dərəcəsi yüksək səviyyədə davam edirdi. [1]

Belə bir vəziyyətdə Azərbaycana xarici sərmayədarları cəlb etmək, doğrudan da böyük müdriklik və uzaqgörənlik tələb edirdi və Heydər Əliyevin neft strategiyası bax, bu çağırışlara daha məzmunlu cavab vermiş və bu proses davamlı olaraq daim yeniliyə doğru irəliləyir. Xarici tərəfdaşlarla 1994-cü ildə imzalanmış "Əsrin müaviləsi" bizim üçün zəfərə doğru geniş üfüqlər açmaqdadır. Bu müqavilə sayəsində ölkəmiz yenidən dirçələrək, dünyada dövlətləri sırasında öz layiqli yerini tutmaqdadır. Bu isə məhz ulu öndərin apardığı dayanıqlı inkişafın və uzaqgörən strategiyanın baris nümunəsidir.

Bunun nəticəsində Azərbaycana ilk növbədə, ölkəmizin neft-qaz sektoruna böyük şirkətlər tərəfindən investisiya qoyuluşu artırıldı. BP- SOCAR əməkdaşlığı bu gün bir çox ölkələr üçün örnəkdir. "Əsrin müqaviləsi", "Şahdəniz" yatağı üzrə imzalanmış və icra edilən müqavilələr, eyni zamanda, Dövlət Neft Şirkətimizin böyük beynəlxalq şirkətə çevrilməsi bu işlərin reallığının göstəricisidir. Bu məqsədlə, SOCAR-ın fəaliyyətinin genişləndirilməsi ilə əlaqədar, bir ir çox müəssisələr SOCAR-in balansına verilmişdir.Müasir dövrdə ölkə daxilində, həm xaricdə ARDNŞ-nin çox böyük fəaliyyət imkanları davam etməkdədir. Ölkəmizdən xaricə qoyulan investisiyalar milyardlarla dollarla ölçülür.

Təkcə qardaş olkəmiz Türkiyədəki layihələrə 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Digər ölkələrdə, xüsusilə Avropa ölkələrində, yaxın qonşuluqda SOCAR-ın çox böyük işləri, sərmayəsi vardır. Azərbaycan dövləti SOCAR-ın fəaliyyətini dəstəkləməkdə davam edir. Bu isə bizim iqtisadi gücümüzü artırır, bizə gələcəkdə yeni mənbələrdən böyük həcmdə valyuta axını ilə təmin edəcəkdir. [2]

Hazırda ölkə daxilində icra edilən iki layihəni - SOCAR polimer və karbamid zavodları-nın fəaliyyətini xüsusilə qeyd etmək yerinə düşərdi. Bu iki layihənin ölkəmizin qeyri-neft sektorunun inkişafında çox böyük əhəmiyyət kəcb edir. Layihənin tikintisi 2014-cü ilin fevralından başlanmış və 2019-cu ilin əvvəlində SOCAR-ın Karbamid zavodu istismara verilmişdir. Ümumi ərazisi 39.27 hektardır. Zavod ammonyak, maye və dənəvər karbamid istehsalı sahələrindən ibarətdir. Azot gübrələrinin istehsalı üçün əsas xammal qismində təbii qaz istifadə edilir. İstehsal üçün illik qaz sərfiyyatının 435 milyon m^3 (gündəlik 1.32 milyon m^3) həddindədir. Zavodda gündəlik 1200 ton ammonyak və 2000 ton karbamid istehsal etmək mümkündür. Layihənin Mühəndislik, Satınalma və Tikinti (MST) işlərini Samsung Engineering Co, Ltd. şirkəti həyata keçirmişdir. Zavodun ammonyak istehsalını Danimarkanın Haldor Topsoe, karbamid istehsalını Niderlandın Stamicarbon B.V şirkəti qurmuşdur. Bu isə maliyyə vəziyyətimizin çox sabit və dinamik inkişafına təkan verməkdədir. Bu məsələdə də gözügötürməyənlər ölkəmizi gözdən salmağa çalışırlar ki, guya Azərbaycanın maliyyə vəziyyəti aşağıdır. Görülən bu işlər isə əksinə, vəziyyətimizin bir çox ölkələr üçün nümunə olmasının göstəricisidir. Görülən işlər sayəsində ehtiyatlarımızın 4,5 milyard dollarlıq artırm günümüzün reallığıdır. Ölkəmizin xarici borcu ümumi daxili məhsulun 18 %-ni təşkil edir. Bu bir çox ölkələr üçün arzuolunandır. Bizim iqtisadi uğur-larımızı aparıcı iqtisadi Forum olan Davos yüksək qiymətləndirir. Bu isə bizim dünya miqyasında 35-ci yerdə qərarlaşmağımıza imkan vermişdir. Neft sənayesinə növbəti illərdə də, böyük kapital qoyuluşu gözlənilir.Əlbəttə, Dövlət Neft Şirkəti özü bu sahədə aparıcı rola malikdir. Ancaq dövlət həmişə bu şirkəti dəstəkləyir və dəstəkləmkdə davam edir, çünki bu şirkət ölkəmizin strateji aktivi və sərvətidir. Müstəqil Azərbaycanımızı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün Ulu Öndər Heydər Əliyevin gələcək siyasi-iqtisadi islahatları köklü transformasiya-sının əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. Bu strategiya xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlənilməsinə cəlb edilməsini, xam neftin daşınması yollarının şaxələndirilməsini, neft gəlirlərinin

səmərəli idarə olunmasını və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etməkdədir.

2023-cü ilin III rübünün sonuna "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinə 43,4 milyard ABŞ dollarına yaxın sərmayə qoyulmuçdur. Bu blok üzrə 580 milyon ton neft hasil edilmiş, 55 milyard m^3-dən artıq səmt qazı hasil olunaraq Azərbaycan hökumətinə təhvil verilmişdir. Azərbaycan dünyada neftdən asılı ölkələrə ən bariz nümunələrdən biridir.

2022-ci ilin ilkin göstəricilərinə görə, ölkədə ÜDM-un 47,8 %-i neft-qaz sektorunda yaranmış büdcə gəlirlərimizin 52,7 %-i neft gəlirlərinin hesabına formalaşmışdır. Nəhayət ixracın 92,5 %-i neft məhsulları hesabına yaranmışdır. Bu rəqəmlər aşağı-yuxarı 2005-ci ildən bəri cüzi dəyişikliklərə məruz qalsa da, tendensiya dəyişmir. Bir qayda olaraq, dünya bazarında neft qiymətinin yüksək dövrlərində yuxarıda qeyd edilən nisbət daha yüksək olur, qiymətlər enəndə isə nisbətən azalır və bununla da əksəriyyətimizdə illərdir arzu etdiyimiz iqtisadi şaxələnmə illuziyasını yaradır. [3]

Neftlə zəngin ölkələrdə hökumət adətən büdcəni ölkənin sosial, infrastruktur və müdafiə probleminin həlli vasitəsi kimi dəyərləndirir. Kölgədə qalan isə dövlət xərcləmələrinin iqtisadiyyata təsir yarada biləcəyi multiplikativ makroiqtisadi effektlər olur. Azərbaycan dövlət büdcəsi onun Neft Fondu ilə birlikdə potensial olaraq, böyük multiplikativ effekt yarada bilən nəhəng bir maliyyə sistemidir.

Keynsin təbirincə desək, hökumət xüsusən də əlverişsiz konyunktura dövründə büdcə xərcləmələrinin artımı ilə makroiqtisadi mühiti canlandırar. İlk növbədə iri dövlət layihələrinin reallaşdırılması hesabına daim tonusda saxlaya bilər.

Hal-hazırda azad edilmiş Qarabağ və ona bitişik ətraf ərazilərimizdə reallaşdırılan dövlət investisiya layihələri məhz bu rolu oynaya biləcəkdir. Odur ki, yaxın və orta müddətli perspektivdə ölkədə makroiqtisadi durumu nisbətən sabit vəziyyətdə saxlanılması çətin olmamalıdır.

Strateji Yol Xəritəsində də,qeyd edildiyi kimi, Azərbaycan dünyanın sürətli inkişaf edən Cənub–Şərqi Asiya ölkələrində reallaşdırılmış dövlət kapitalizmi inkişaf modelindən istifadə etmişdir. Dövlət kapitalizmi xarakterli makroiqtisadi siyasətin ən aktiv qanadı isə fiskal siyasət olmuşdur. İrihəcmli neft gəlirlərinin dövlət tərəfindən iqtisadiyyata yönəldilməsinin əsas kanalı kimi məhz dövlət büdcəsinin investisiya xərcləri kimi çıxış etmişdir. Bu qeydlər ölkənin 2004-2010-cu illərdə formalaşmış iqtisadi sisteminin təhlilinə əsaslanır. [4]

Ümummilli lider Heydər Əliyevin qətiyyətli addımı sayəsində çox böyük maneələrə baxmayaraq, 2002-ci ilin sentyabrında Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin və ABŞ-ın Energetika Nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyulmuşdur. 2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi baş tutmuş və boru xəttinə ilk dəfə neft vurulmuşdur. Elə həmin ilin oktyabrında kəmərin Gürcüstan hissəsi istifadəyə verilmişdir. 2006-cı ildə isə Azərbaycan nefti Ceyhan limanına çatmışdır və yüklənmiş ilk tanker buradan yola salınmışdır. Heydər Əliyev zamanında aparılan bu uğurlu siyasət indi İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gətirdiyi gəlirlərin ildən-ilə artması Azərbaycanın sosial-iqtisadi inkişafına güclü təkan verməkdədir. [5]

Ölkə iqtisadiyyatının inkişafında, əhalinin sosial rifahının yaxşılaşmasında neft-qaz ehtiyatları başlıca amilə çevrilmişdir. "Qara qızıl"ın çıxarılmasında ölkəmizdə qocaman neftçilərimizində rolu böyükdür. Onlardan biri də Azərbaycanın neft sənayesində əvəzsiz xidmətləri olan Xoşbəxt Yusifzadədir. O, 1987-ci ildə Moskvanın Yanar Qazıntıların Geologiyası və İşlənməsi İnstitutunda "Dəniz neft və qaz yataqlarında axtarış-kəşfiyyat işlərinin sürətlə aparılmasının prinsip və metodları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsini almışdır.

2007-ci ilin aprel ayında Azərbaycan Milli EA-nın həqiqi üzvü olan X.Yusifzadənin bilavasitə iştirakı və rəhbərliyi ilə Xəzər dənizi hövzəsinin Azərbaycan, Türkmənistan və Rusiya sektorlarında 20-dən artıq neft və qaz yatağı, o cümlədən dünyada məşhur olan "Azəri", "Çıraq" və "Günəşli" yataqları kəşf edilmiş və istismara verilmişdir. Onun 1988-ci ildən başlayaraq xarici şirkətlərlə birgə aparılmış bütün işlərdə, o cümlədən "Azəri-Çıraq-Günəşli" (dənizin dərin hissəsi) yataqlarının işlənməsində, "Əşrəfi" (1998-ci il), "Qarabağ" (1998-ci il), nəhəng "Şahdəniz" (1999-

cu il), iri "Abşeron" (2011-ci il) kimi yataqların, eləcə də 2010-cu ildə ARDNŞ-nin öz gücü ilə açdığı "Ümid" yatağının kəşf edilməsində əvəzedilməz rolu olmuşdur. Azərbaycanı dünyaya tanıdan "qara qızıl" iqtisadi güc və qüdrət rəmzimizdir. Artıq əsrlərdir ki, Azərbaycanın neft sahəsində qazandığı şan-şöhrət günbəgün daha da artmaqdadır. Neftin hasil olunmasında əməyi olan zəhmətkeş neftçilərin əməyi yüksək qiymətləndirilmişdir. [6]

Ölkəmizdə 20 sentyabrın Neftçilər günü kimi qeyd olunması Ulu Öndər Heydər Əliyevin neftçi əməyinə verdiyi ən yüksək qiymətin baris nümunəsidir. Qazanılan hər bir uğur isə Ümummilli lider Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaq" sözlərinin əməli nəticəsi kimi diqqətimizi çəkir. Beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanın iqtisadi inkişaf baxımından qüdrətli ölkə, Prezident İlham Əliyevin lider dövlət başçısı kimi dəyərləndirilməsi də, Heydər Əliyev ideyalarının təntənəsi və qələbəsidir. Ulu öndər Heydər Əliyev 2003-cü il prezident seçkiləri ərəfəsində xalqa müraciətində bildirmişdir: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcəkdir. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". [7]

Dahi şəxsiyyətin böyük inam və qətiyyətlə söylədiyi bu fikirlərin təsdiqi kimi prezident İlham Əliyevin 2008-ci və 2013-cü il prezident seçkilərində xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq yenidən prezident seçilməsini qeyd etmək lazımdır. Dövlət başçısı İlham Əliyev Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında diqqəti ötən il ölkəmizdə keçirilən prezident seçkilərinə yönəldərək bu reallığı bir daha qeyd etmişdir: "Azərbaycan xalqı bir daha öz səsini bizim siyasətimizə, real siyasətə vermişdir, boşboğazlığa, boş vədlərə yox, real siyasətə, real işlərə öz səsini vermişdir. Əlbəttə ki, bu böyük etimad bizim hamımızı yeni işlərin görülməsinə sövq edir. Biz bundan sonra da fəal işləməliyik, ölkəmizi gücləndirməliyik, Azərbaycan xalqının rifah halını təmin etməliyik".

Qeyd etdiklərimiz Ulu öndər Heydər Əliyevin möhkəm təməlini qoyduğu iqtisadi siyasətin uğurlarının yalnız bir hissəsidir. Azərbaycanımızı qarşıdakı illərdə də, daha böyük uğurlar, inkişaf, tərəqqi, quruculuq işləri gözləyir. Modernləşməni, yeniləşməni həyata keçirdiyi siyasətin önündə əsas amil kimi qeyd edən möhtərəm prezidentimiz İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası bu əminliyi ifadə etməyə böyük əsas verir. İstənilən sahələr üzrə konkret proqramların qəbulu və uğurlu icrası ilə yanaşı, hər ilin konkret bir sahənin adı ilə bağlanması da ölkənin hərtərəfli inkişafında stimulverici amillərdəndir. O cümlədən də,ölkə prezidenti İlham Əliyevin sərəncamı ilə 2014-cü il ölkəmizdə "Sənaye ili" elan etməsi, sənəddə də qeyd edildiyi kimi,ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. [8]

Hazırkı mərhələdə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılması zəruridir. "Qarşımızda duran vəzifələri icra etmək üçün ilk növbədə, hazırda peşəkar kadrlar lazımdır. Çünki bu gün Azərbaycan iqtisadiyyatı, xüsusilə ölkəmizin sənaye potensialı çox sürətlə inkişaf edir. Biz iqtisadi islahatlardan ölkəmizin sənayeləşməsinə qədər çox qısa və uğurlu yol keçmişik. Bu gün Azərbaycanda yaradılmış və yaranmaqda olan, müasir dünya standartlarına cavab verən sənaye müəssisələri iqtisadi inkişafımızı onilliklər bundan sonra da təmin edəcəkdir" söyləyən dövlət başçısı İlham Əliyev bu günə qədər qəbul olunmuş qərarların və 2014-cü ildə görülməsi nəzərdə tutulan işlərin fonunda bu inamı ifadə edir ki, biz cari ili də uğurla başa vuracağımıza əminəm. Qeyd edək ki, son on ildə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da mühüm uğurlar əldə olunmuşdur. Belə ki, bu müddət ərzində rəqabətə davamlı müasir sənaye sahələri yaradılmış, sənaye məhsulu istehsalının həcmi 2,7 dəfə artmışdır. [9]

Beləliklə, qeyd etdiklərimiz gələcəyə nikbinliklə baxmaq üçün əsas verir. Möhtərəm prezidentimiz İlham Əliyev daim bildirir ki, respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı

hazırlanan proqramlarda islahatlar keyfiyyətcə yeni mərhələ üzrə inkişaf etdirilməli, iqtisadiyyatda, insanların sosial müdafiəsində müsbət meyillər gücləndirilməli, regionda və dünyada baş verən proseslər təhlil olunmalı, öyrənilməli, milli mənafe və dövlətçilik maraqları baxımından tətbiq olunmalıdır.

Bir sözlə, Azərbaycanın müstəqillik tarixində qazandığı uğurların ümumi ifadəsi budur ki, düzgün qurulan, möhkəm təmələ əsaslanan siyasət ölkənin inkişafında əsas şərtdir. Düzgün siyasət isə ölkə rəhbərinin idarəçilik qabiliyyətinin, siyasi təcrübəsinin və biliyinin yüksək səviyyədə olmasının göstəricisidir. Ulu öndər Heydər Əliyevin ideyaları müstəqil Azərbaycanımıza daha böyük uğurlar qazandıracaq, nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə əbədi yaşayacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. "Əsrin müqaviləsi "Heydər Əliyevin yeni neft strategiyasıdır, Sumqayıt 2014, Respublika Elmi konfransının materialları

2. A.S.İsayev. Neft və qaz sənayesinin iqtisadiyyatı. Bakı: Elm, 2008

3. E.M.Hacızadə, T.Ə.Paşayev. Neft-qaz sənayesində yeni bazar mexanizmlərinin formalaşdırılması istiqamətləri. Bakı: Elm, 2000

4. Azərbaycan Respublikasının Milli İqtisadiyyat üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016

5. Mirzəyev M., Mirzəliyev C. "Qara qızıl" ağ səadət rəngində. Bakı: MBM, 2006.- Kitab 5.- 239 s. [Bakı-Tbilisi-Ceyhan neft kəməri haqqında]. s.39-52

6. Yüzbaşova G., Abdullayev Z. Azərbaycanın neft-qaz strategiyası: Problemlər və proqnozlar: Monoqrafiya / Elmi red. A.Abbasov. Bakı: Nurlan, 2006, 755 s.

7. "Neftçilər günü" peşə bayramının təsis edilməsi Azərbaycan Respublikası Prezidentinin Fərmanı Bakı şəhəri, 16 avqust 2001-ci il, № 558

8. "Sənaye ili "elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 10 yanvar 2014-cü il

9. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası

TARİX YARADAN ÜMUMMİLLİ LİDER

[1,2]**Elnur Oktay Xəlilov,** [1,3]**Elmira Elbrus qızı Xəlilova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]elnur.khalilov@mdu.edu.az
[3]elmira.khalilova@mdu.edu.az

Azərbaycan tarix boyu bəşəriyyətə böyük dahilər bəxş etmişdir. Bu şəxsiyyətlər sırasında ən yüksək zirvələrdən birini xalqımızın ulu öndəri Heydər Əliyev tutur. Uca zirvələr uzaqdan daha aydın göründüyü kimi, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü də zaman keçdikcə dərk olunur. Bununla mütənasib olaraq xalqın dahi oğluna məhəbbəti, hörməti artır.

Heydər Əliyev olmasaydı, müasir Azərbaycan da olmazdı. Bu həqiqəti bəlkə də Bakıda və respublikada, ölkədən kənarda bir nəfər də olsa mübahisələndirən yoxdur. Bütün türk dünyasının ən hörmətli siyasətçilərindən biri olan Azərbaycan xalqının ümummilli liderinin rolu və əhəmiyyəti o qədər böyükdür ki, onun keçdiyi həyat yolu, idarəçilik fəlsəfəsi, sərişte və təsir səviyyəsi bir müddət ərzində bioqraflar və tarixçilər tərəfindən çox uzun müddət araşdırılacaqdır. Heydər Əliyev təcrübəsi müasir Azərbaycanın həyatı üçün nəinki əhəmiyyətini itirməmiş, əksinə, illər keçdikcə daha da aktual və əhəmiyyətli olmuşdur.

Onun fəaliyyəti ən dəqiq şəkildə "modernləşmə" sözü ilə ifadə olunur. Məhz Heydər Əliyevin sovet dövründə Azərbaycana rəhbərliyinə gəlişindən sonra əvvəllər sovet imperiyasının quberniya xammalı olan respublikanın dərin müasirləşməsi prosesi başlandı. Ali Sovet rəhbərliyində çalışan

Azərbaycan rəhbəri sönməkdə olan və dəyişikliklər tələb edən SSRİ-də islahatların bəlkə də ən fəal tərəfdarı idi.

Daha qlobal miqyasda baxsanız, Heydər Əliyev hələ sağlığında siyasi Olimpi fəth etmiş əfsanəvi, nadir şəxsiyyətlərdən, dövlət xadimlərindən biri olmuşdur. Dünyanın tanınmış adamları bu gün də Heydər Əliyev haqqında heyranlıqla, böyük ehtiramla danışır, onu siyasi dünyanın patriarxı, tarixin gedişatına təsir göstərə bilən, polad iradə sahibi olan şəxsiyyət adlandırırlar.

Bu böyük insan sarsıntılarla, ağır sınaqlarla, sonsuz mübarizələrlə dolu bir ömür yaşadı. Zaman və məkan anlayışına sığmayan həyat. Bütün sınaqlardan o, qalib çıxdı. Heydər Əliyevin həyatı insan iradəsinin yenilməzliyinin bariz nümunəsidir.

Azərbaycanın müasir tarixi və dirçəliş dövrü Heydər Əliyevin adı ilə qırılmaz şəkildə bağlıdır. Onun 1969-cu ildən başlayan və 30 ildən artıq davam edən rəhbərliyi dövründə Azərbaycan ağlasığmaz inkişaf yolu keçib. Bu illər tariximizdə haqlı olaraq Heydər Əliyev dövrü adlanır.

Azərbaycan xalqı həmişə dahi oğlu Heydər Əliyevlə fəxr edib. Bir vaxtlar SSRİ-nin əsas rəhbər orqanının - Sov.İKP MK Siyasi Bürosunun üzvü seçildi, sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Bu hadisələr Azərbaycanda əsl bayram əhval-ruhiyyəsi ilə qarşılandı. Doğrudan da, bir azərbaycanlının SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında yüksək mövqe tutması qürur doğururdu.

Heydər Əliyevin siyasi elitanın zirvəsinə qalxması Azərbaycanın xeyrinə idi. Səlahiyyətindən və yüksək vəzifə imkanlarından istifadə edərək Bakıya bir sıra müttəfiq miqyaslı layihələr göndərdi. Onun Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyəti dövründə gördüyü nəhəng işlər, fitri təşkilatçılıq istedadı Heydər Əliyevin şöhrətini getdikcə daha da artırırdı. Lakin bununla belə, ona qarşı paxıllıq hissləri yaranıb [1].

Azərbaycanın 1960-cı illərin sonlarından XXI əsrin əvvəllərinə qədər olan dövrü əhatə edən 35 illik tarixi birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Onun siyasi intuisiyası və həqiqətən də əvəzolunmaz insani keyfiyyətləri gənc dövlətin ayağa qalxmasına və müstəqil ölkə kimi XXI əsrə uğurla qədəm qoymasına imkan verdi. O, respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycanın məsuliyyətini öz üzərinə götürdü, həmfikirlərini ətrafında birləşdirdi və onlarla birlikdə çətin və ciddi maneələri dəf edərək, indi müasir Azərbaycan adlanan güclü müstəqil dövlət yaratdı.

1969-cu il iyulun 14-də Heydər Əliyev Sovet Azərbaycanının rəhbəri oldu - o, Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edildi. "Modernləşmə" onun o zamankı fəaliyyətini ifadə edən ən doğru sözdür. O, respublikanın rəhbəri olduqdan sonra o vaxta qədər Sovet İttifaqının əyalət xammalı sayılan Azərbaycanda dərin dəyişikliklər prosesinə start verdi. Heydər Əliyev neft və neft emalı sənayesini əsaslı şəkildə yenidən qurdu və modernləşdirdi, bir sıra zavodların, müasir su elektrik stansiyasının, toxuculuq fabrikinin tikintisinə təşəbbüs göstərdi, yüksək texnologiyalı alüminium oksidi istehsalına başladı. Həmin illərdə Azərbaycanda tikilən sənaye yeni tikililərini uzun müddət sadalamaq olar: "Ulduz" Elektrik Cihazları Zavodu, Bakı Məişət Kondisionerləri Zavodu, Bakı Şampan Şərab Zavodu, Bakı Dərin Su Bazaları Zavodu, Elektroterm Zavodu, robot sayğacları zavodları, Sumqayıt Kompressor zavodu, Gəncə Billur, "Ozon" və "Alunit" zavodları, Lənkəran konserv zavodu... Bundan başqa, respublikanın bütün bölgələrində yeni müəssisələr tikilmişdir.

Onun rəhbərliyi altında Azərbaycan qısa müddətdə mövcud geriliyi aradan qaldıraraq iqtisadiyyatda böyük uğurlar qazandı, ümumittifaq miqyasında ön sıralara çıxmağa başladı. Bu illər ərzində Azərbaycanın sənaye potensialı iki dəfədən çox artmışdır. Onun şəhər və kəndlərinin siması tanınmaz dərəcədə dəyişib. 15 müttəfiq respublikadan yalnız Rusiya və Azərbaycan SSRİ büdcəsindən subvensiya almadılar. Heydər Əliyev özü də mütəşəkkil bir insan idi və öz işində ətrafındakılardan aydınlıq, ardıcıllıq, operativlik və məhsuldarlıq tələb edirdi. Heydər Əliyev heç vaxt ofis işinə üstünlük verməmişdir. Neft emalı zavodlarının sexlərində, laboratoriyalarda, limanlarda, tikinti sahələrində nə baş verdiyini bilavasitə bilmək üçün hər yerə gedirdi. Heydər Əliyevin özünün xatirələrinə görə, bu illər onun həyatının ən gözəl illəri olub: "Bəzən işi bitirəndən sonra da evə getmirdim, fikirləşirdim, respublikamızda vəziyyəti yaxşılaşdırmaq üçün yeni planlar qururdum. Düşündüm ki, vəzifəmin verdiyi imkanlardan istifadə edərək xalqım üçün necə faydalı işlər görüm".

Bütün həyatını dövlətimizin möhkəmlənməsinə və daha da inkişafına həsr etmiş, gördüyü işlər ilə xalqın sonsuz məhəbbətini qazanmış, bugünkü dövlətimizin qurucusu olan ulu öndər Heydər Əliyev haqqında danışanda hər bir azərbaycanlıda təbii qürur hissi yaranır. müstəqil, müasir, azad və firavan Azərbaycan.

Azərbaycanın ən yeni tarixi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. Onun hakimiyyətə gəlişi ilə intibah, milli şüurun oyanışı dövrü başlandı, müstəqilliyimiz məhz onun sayəsində dönməz xarakter aldı.

Bu gün dünyanın istənilən yerində insanlar Heydər Əliyevdən danışanda onların gözləri önündə Azərbaycan görünür, Azərbaycandan danışarkən Heydər Əliyev şəxsiyyəti göz önünə gəlir.

Prezident H.Əliyev balanslaşdırılmış xarici siyasət fəaliyyəti həyata keçirdi. Böyük ölçüdə onun incə siyasəti sayəsində "Əsrin müqaviləsi" nefti, üstəlik, Azərbaycan üçün əlverişli şərtlərlə bağlandı. Danışıqlar uzun və çətin keçdi. Vəziyyəti neft siyasətini dəyişmək üçün Bakıya təzyiq göstərmək üçün kənardan ruhlanan bir neçə silahlı üsyan cəhdləri daha da gərginləşdirdi. Lakin Heydər Əliyev vətəninin mənafeyini müdafiə edə bildi. O, müqaviləni imzalayarkən sevincini və gələcək nəsillərin tarixi hadisəni yüksək qiymətləndirəcəyinə əminliyini gizlətməyib. Yeri gəlmişkən, "Əsrin müqaviləsi"ndə dünyanın səkkiz ölkəsindən 13 şirkət iştirak edib [2].

"Əsrin müqaviləsi"nin bağlanması Azərbaycan üçün birbaşa iqtisadi səmərə ilə məhdudlaşmır. Ölkə rəhbərliyinin ağlabatan tədbirləri sayəsində multiplikativ effekt əldə edildi: ölkənin geosiyasi statusu kəskin şəkildə yüksəldi, xalqın sosial rifahının əsası qoyuldu, neft maşınqayırması və neft kimyasına yeni təkan verildi. İqtisadiyyata milyardlarla dollar axını bazara keçiddə yastıqlayıcı amil rolunu oynadı və əldə edilən gəlirlər sənayenin bir çox sahələrində yeni texnologiyaların tətbiqinə imkan verdi. Məhz Heydər Əliyevin dövründə Bakının yenidən qurulması işlərinə başlanıldı və bu gün burada olanların hamısında heyranlıq doğuran şəhərə çevrilib. Paytaxtın yenidən qurulması isə davam edir.

Əliyevin adı Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi iri layihələrlə qırılmaz şəkildə bağlıdır. Enerji sektoruna beynəlxalq oyunçuların gəlişi sayəsində Azərbaycan elə bir vəziyyət yarada bildi ki, həm Rusiya, həm də Qərb tərəfdaşlarının hərəkətləri onun qərarlarından asılı olsun. Heydər Əliyev siyasətinin bu vektoru sonralar onun oğlu İlham Əliyev tərəfindən dəstəkləndi və uğurla davam etdirildi və bu gün Azərbaycan Avropa üçün alternativ enerji təchizatçılarından birinə çevrilib.

Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin başa çatdırılmasında, İstanbuldan Avropaya son çıxışında da Heydər Əliyevin əməyi var. Magistralın daha sonra Asiya dəmir yolu şəbəkəsi ilə əlaqələndirilməsi yüklərin Uzaq Şərqdən Qərbi Avropaya birbaşa çatdırılmasına imkan verəcək. Heydər Əliyev yazırdı: "Azərbaycan Avropa ilə Asiyanın qovşağındadır, həm Avropa, həm də Asiya ilə yaxşı münasibətlər qurmağa çalışır... Azərbaycan qonşu dövlətlərlə daha sıx münasibətlərin yaradılmasına böyük əhəmiyyət verir". Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başladı və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrildi.

Heydər Əliyev nəhəng Sovet dövlətinin rəhbərlərindən biri kimi böyük diplomatik və praktik təcrübəyə malik idi. Müstəqil dövlətin başçısı postu ona ABŞ, Avropa və Asiya ölkələrinin rəhbərləri ilə bərabər səviyyədə ünsiyyət qurmaq imkanı verdi. O, bu qurulmuş əlaqələrdən Azərbaycanın xeyrinə istifadə edib.

Heydər Əliyevin "Azərbaycan xalqı" konsepsiyasını doldurduğu fəlsəfə müstəqil Azərbaycanın müasir dünyada yerini müəyyənləşdirdi, milli dövlətçiliyin ideoloji əsası kimi azərbaycanlıların həmrəyliyi üçün möhkəm zəmin yaratdı. Əliyev demişdir: "Azərbaycançılıq hər bir şəxs üçün öz milli kimliyini, milli-mənəvi dəyərləri qoruyub saxlamaq və eyni zamanda, onların sintezlə zənginləşdirilməsi, ümumbəşəri dəyərlərlə inteqrasiyası, o cümlədən milli mənsubiyyətin inkişafını təmin etmək deməkdir!"

Heydər Əliyev öz ölkəsini, onun tarixini ürəkdən sevirdi. O, tarixi yaxşı bilirdi və başa düşürdü ki, bu, təkcə keçmişlə bağlı deyil, həm də bu günlə bağlıdır, hər yeni dövrü gələcək nəsillər dəyərləndirəcək. Heydər Əliyev yaxşı bilirdi ki, iqtisadi inkişafla yanaşı, müstəqilliyin əsas

elementlərindən biri də mədəniyyətdir. Prezident Azərbaycanın mədəni irsini dəstəkləyib, onun ölkənin milli kimliyinin əsasını təşkil etdiyinə haqlı olaraq inanıb. Güclü identiklik hissi ətrafdakı siyasi qüvvələr həmin millətə və onun mövcudluq hüququna meydan oxusa belə, millətin birliyini qoruyub saxlamağa imkan verir.

Heydər Əliyev həyatın bütün sahələrində səmərəli və məqsədyönlü fəaliyyətlə yanaşı, ölkədə təhsilin yaxşılaşdırılmasına da böyük əhəmiyyət verirdi. Uzaqgörən liderin dövlət proqramında gənc nəslin təhsili və tərbiyəsi həmişə əsas məqamlardan olub.

Söz ən güclü Əliyev silahı idi. Bundan həm natiq, həm diplomat, həm də incə psixoloq kimi istifadə edirdi. Heydər Əliyev müxtəlif yerlərdə öz çıxışlarında dahi natiq kimi istedadından istifadə edirdi. O, inamlı və dəqiq danışırdı. Onun sözləri həyatı dəyişdi, tarixi dəyişdi. O, xalqla elə danışırdı ki, hər bir vətəndaş deyilənləri şəxsən ona müraciət kimi qəbul etsin. Bu bacarıq hər kəsə verilmir. Həmsöhbətin əhvalının ən kiçik nüanslarına cavab vermənin heyrətamiz dəqiqliyi kimi. Həm də ona hər kəsin ağrısını və narahatlığını hiss etmək bacarığı verən böyük daxili nəzakət hissi. Ona Azərbaycan xalqı üçün ən taleyüklü məqamlarda heyrətamiz dərəcədə düzgün qərarlar tapmağa imkan verən fövqəladə intuisiya.

"Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - Heydər Əliyevin dediyi bu sözlər həm zamanın sınağından, həm də onun müdrik siyasətindən uğurla çıxır. Heydər Əliyev Azərbaycanın güclü dövlətçilik xəttini, siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, azərbaycançılıq məfkurəsinin milli dirçəliş və inkişafının əsasına çevrilmiş ideyanın banisidir. Məhz Heydər Əliyev ölkəsinin dünyəvi əsaslarını qoydu. Hazırda Azərbaycan sırf dünyəvi, istər xarici, istərsə də daxili siyasət yürüdən, Yaxın Şərqdə güclənən ekstremist meyillərə qarşı çıxan dövlətlərdəndir. Bugünkü Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev siyasətini uğurla davam etdirir. Azərbaycanın nüfuzu durmadan artır, xalqın rifahı yaxşılaşır. Heydər Əliyevin nəhəng rolu təkcə doğma Azərbaycanda deyil, Azərbaycandan kənarda da yüksək qiymətləndirilir. Dövrümüzün bir çox görkəmli xadimləri onun haqqında dərin ehtiramla danışırlar.

İstedad və iradə Heydər Əliyev şəxsiyyətinin əsas keyfiyyətləridir. Bir insanı dinləmək və eşitmək və tutumlu bir anlayış - "xalq", "millət" ilə birləşdirilən hər kəsin istəklərini başa düşmək bacarığı. Təbiətin bəxş etdiyi dərin tərbiyə və incə estetik hiss. Səxavətli və bağışlamayan. Təsadüfən səhv edənləri necə bağışlamağı bilirdi, lakin cahillər, tamahkarlıq və sadəlövhlük onun mülayimliyinə arxalana bilməzdi. Bir siyasətçi kimi o, demokratiyanı sərt tələblərlə məharətlə birləşdirdi [3].

Onun zəngin siyasi təcrübəsi və şəxsiyyəti o demək idi ki, o, azərbaycanlıları ölkənin üzləşdiyi çoxsaylı böhranlardan çıxarmaq üçün unikal şəkildə təchiz edilib. Başqalarını ruhlandırmaq qabiliyyəti var idi, özünəməxsus xarizması ilə xalqa rəhbərlik edirdi. Prezident güclü siyasətçi üçün zəruri olan fenomenal şəxsi keyfiyyətlərə malik idi: foto yaddaş, güclü arqument və insanları, o cümlədən rəqibləri öz düşərgəsinə aparmaq bacarığı. Onun varlığının gücü hiss olunurdu və xarizması dövrün bir çox böyük ziyalılarını özünə cəlb etdi.

Tarixə düşən və tarixdə qalan liderlər var. Milli tarix yaradan liderlər də var. Heydər Əliyev məhz Azərbaycanın müasir tarixini yaradan lider oldu. Tarix onu öz dövrünün əsl əfsanəsi, güclü dövlət başçısı, fədakar şəxsiyyət və dövlət quruculuğu kimi çətin tarixi vəzifəni öz üzərinə götürməyə qadir olan nadir şəxsiyyət kimi xatırlayır.

İstifadə edilmiş ədəbiyyat

1. M.N.Alışanova; elmi red. Ş. M. Muradov. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir. - B.: Çinar-Çap, 2006.- 214 s.

2. Ə.M.Həsənov. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, "Zərdabi LTD", 2016, 700 s.

3. В.И.Андриянов. Гейдар Алиев. Изд-во «Молодая гвардия» Москва. 2005

HEYDƏR ƏLİYEV MÜASIR AZƏRBAYCAN ORDUSUNUN QURUCUSUDUR

Xəyalə Qəmbər qızı Xəlilova
Mingəçevir Dövlət Universiteti
xayala.xalilova@mdu.edu.az

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev xalqın tarixində müstəsna rola malik və xalqın xilaskarlıq missiyasını üzərinə götürmüş bənzərsiz dövlət xadimidir. Onun istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərliyi belə aydın və istisnasız qənaətə gəlməyə imkan verir. Hər iki rəhbərlik dövründə Heydər Əliyev Azərbaycanı inkişafının çox yüksək səviyyəsinə qaldıra bildi. Amma sovet dövründən fərqli olaraq, XX əsrin sonlarında Heydər Əliyev əvvəlcə müstəqil Azərbaycanı qurdu və sonra da onu inkişafının yüksək səviyyəsinə çatdırdı.

Milli ordumuzun inkişaf tarixi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. "Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq." bu fikirlərin müəllifi də məhz Heydər Əliyevdir.

Ulu öndər Heydər Əliyev Ordu haqqında söylədiyi "Hər bir müstəqil dövlətin ordusu dövlətin əsas atributlarından biridir", "Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir", "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər", "Orduda xidmət etmək hər bir azərbaycanlının şərəfli borcudur. Orduda xidmət edən, əsgərlik borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar", "Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir", "Etibarlı, güclü, vətənini, torpağını müdafiə etməyə qadir silahlı qüvvələri olmayan ölkənin müstəqilliyi də etibarlı ola bilməz", "Müstəqillik dövründə qazandığımız ən mühüm nailiyyətlərdən biri milli odumuzun yaradılması olmuşdur", "Azərbaycan əsgəri, Azərbaycan zabiti gərək yüksək mənəviyyata malik olsun. Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, vətəni sevməyi, vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın", "Güclü ordu dövlətin müstəqilliyinin təminatçısıdır, qarantıdır" fikirləri bu gün də qürur və fəxrlə xatırlanır.

1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlandı. Heydər Əliyev 1971-ci ildə Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin – görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail oldu. Bu məktəb Azərbaycanda hərbi sahəyə marağın artmasına, azərbaycanlı zabit kadrların hazırlanmasına imkan verdi. Azərbaycanda müstəqillik bərpa edildkdən sonra da C.Naxçıvanski adına Hərbi Məktəb ordu quruculuğunun əsas bazalarından birinə çevrildi. Azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması Ulu öndər Heydər Əliyevin sayəsində mümkün oldu.[3]

Heydər Əliyevin Azərbaycan Ordusunun formalaşdırılması sahəsində fəaliyyyətinin ilk addımları Naxçıvanda atıldı. Heydər Əliyev parlaq zəkası və bənzərsiz təşkilatçılıq qabiliyyəti ilə

həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini, həm də burada milli hərbi hissənin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi. [1]

2 noyabr 1993-cü ildə Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciəti ordu quruculuğunda yeni bir mərhələnin başlanğıcını qoydu. Azərbaycan Respublikasının Prezidenti seçilməsindən cəmi bir ay sonra edilmiş bu müraciət sağlam ordu quruculuğu istiqamətində Heydər Əliyevin xalqa çağırışı idi. Bu çağırış xalqın bütün təbəqələri tərəfindən qəbul edildi və xalqın bütün potensialı ordu quruculuğuna istiqamətləndirildi. Heydər Əliyev respublika ağsaqqallarına, ziyalılarına, mədəniyyət və incəsənət xadimlərinə, dindarlara, iş adamlarına müraciət edib onları orduya daha yaxından kömək etməyə, əsgər və zabitlərin mübariz döyüş ruhunda tərbiyə olunmasına yardım etməyə, orduda baş verən qanunsuzluqların, başlıcası isə fərariliyin qarşısının alınmasında qətiyyətli mövqe tutmağa çağırdı.

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı. Atəşkəs dövründə ordu quruculuğunun uğurlu aparılması üçün Heydər Əliyev dövlətin strateji siyasətini müəyyənləşdirdi, milli zabit kadrlarının hazırlanması üçün mükəmməl bir hərbi təhsil sistemi formalaşdırdı, ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi daimi diqqət altına alındı.

Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və bu tarix rəsmi dövlət bayramı kimi hər il qeyd edilir.

1999-cu il fevralın 20-də Ulu Öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalamışdır. 20 avqust 2001-ci il tarixli Fərman ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdı.

NATO ilə əməkdaşlığa gəlincə 1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu modern orduya çevrildi.[3]

Azərbaycan Ordusunun hazırkı səviyyəsi ordu quruculuğu sahəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən ordu quruculuğu siyasətinin tamamilə doğru olduğunu bir daha sübut edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilən həmin siyasət indi Azərbaycan Ordusunun yalnız bölgədə deyil, bütünlükdə dünyanın ən müasir orduları arasında yer tutmasına imkan vermişdir.[2]

Prezident İlham Əliyevin Ordu haqqında səsləndirdiyi "Biz Silahlı Qüvvələr Gününü artıq müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik", "Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır", "Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş Qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb", "Ordu quruculuğu bizim üçün prioritet məsələdir", "Bizim ordumuz bizim qururumuzdur", "Güclü dövlətin güclü ordusu olmalıdır", "Biz bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq, güclü dövlət, yenilməz ordu və güclü iradə sahibi kimi", "Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni

mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi" fikirləri Azərbaycan xalqına qürur hissi yaşadır. Ən əsası da qalib ölkənin güclü Azərbaycan Ordusunun olması, ordumuzun varlığı düşmənlə yanaşı, bütün dünya dövlətlərinə göz dağıdır.

Prezident İlham Əliyevin ordumuz haqqında səsləndirdiyi "Biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması – bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir" fikirləri Azərbaycan Ordusunun qüdrətini, nəyə qadir olduğunu göstərir.

Bu gün onu da əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer aldı.[1]

Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il 27 sentyabrda əks hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində Qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində - noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Düşmənin tam məğlubiyyəti ilə nəticələnən bu müharibə noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalamaları ilə başa çatdı. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana təhvil verildi. Düşmənin kapitulyasiyası ordumuzun gücü hesabına əldə olunmuş nəticədir. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbənin şahidi oldu.

Vətənpərvər Azərbaycan əsgəri hər birimizin qüruru, fəxridir. İkinci Qarabağ müharibəsi zamanında Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Vətən müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medalları təsis edilmişdir. Həmin medal və ordenlərin təsis olunması qələbənin əbədiləşdirməsi və iştirakçılara ayrılan ali diqqətinin təcəssümüdür. "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal - "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" təsis olunub.

İstifadə edilmiş ədəbiyyat

1. A. Qurbani. Əbədiyaşar Komandan. Bakı, 2004
2. Ə.Qənizadə. Kadr hazırlığı ordu quruculuğunun əsas istiqamətlərindən biri kimi. Bakı, 2021
3. M.Əhmədov, A.Əhədova. Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2006

HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİ MÜSTƏQİL AZƏRBAYCANIN BEYNƏLXALQ ARENADA NÜFUZUDUR

Aynur Məhəmməd qızı Namazova
Mingəçevir Dövlət Universitet
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı
aynur.namazova@mdu.edu.az

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin yaşadığı tarixə nəzər saldıqda, şahidi oluruq ki, Azərbaycanın əldə etdiyi nailiyyətlər onun beynəlxalq aləmdəki nüfuzunu getdikcə artırmış və dünyanın qüdrətli dövlətləri cərgəsinə qoşmuşdur. Eyi zamanda Azərbaycanın Avropaya və dünya birliyinə inteqrasiyasını daha da sürətləndirmişdir. Hər bir dövlətin beynəlxalq səviyyədə mövqeyinin, münasibətlərinin gücləndirilməsində, mövcud problemlərin həllində xarici siyasətin rolu böyükdür. Dövlətçiliyin, müstəqilliyin qorunması, milli təhlükəsizliyin təmin olunması xarici siyasətdə mühüm istiqamətlər kimi nəzərdən keçirilir. Hazırda Azərbaycan Respublikası beynəlxalq təşkilatların fəal üzvüdür. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Bugünkü qüdrətli Azərbaycan Respublikasının milli və dövlətçilik baxımından maraqlarına yüksək səviyyədə cavab verən xarici siyasət strategiyasının əsas istiqamətlərini Ulu Öndər Heydər Əliyev müəyyənləşdirmişdir. Azərbaycanın aparıcı beynəlxalq təşkilatlara üzv olması və onların tribunasından çıxışların səsləndirilməsi, müxtəlif beynəlxalq təşkilatlarla formalaşdırılan geniş müqavilə-hüquq bazası, regional və qlobal əhəmiyyətli təşəbbüslərin, o cümlədən layihələrin həyata keçirilməsinin əsasının qoyulması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

1993-cü il iyun ayının əvvəllərində ölkədə yaranmış gərgin ictimai-siyasi hadisələr hakimiyyətdə olanların səriştəsizliyi, bacarıqsızlığı üzündən son həddə nöqtəsinə çatmış, silahlı qarşıdurmalar fonunda hakimiyyət, siyasi böhran bütün ölkəni cənginə almışdır. Həmin dövrdə vəziyyətin daha da ağırlaşdığını görən xalq yeganə ümidini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyevdə gördü. Heydər Əliyev 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı parçalanmaqdan, anarxiyadan xilas etdi. Ölkənin daxilində davamlı sabitliyin və vətəndaş həmrəyliyinin əldə olunması kimi çətin və mürəkkəb vəzifələr də öz həllini tapmış oldu. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu. Elə həmin vaxtdan Ulu Öndərin müdrik daxili və xarici siyasəti nəticəsində hüquqi-demokratik dövlət quruculuğu, Milli Ordunun formalaşdırılması istiqamətlərində əsaslı addımlar atıldı, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi sahəsində böyük işlər görüldü, işğal edilmiş torpaqlarımızın azad olunması istiqamətində ardıcıl, fəal xarici siyasət yürüdüldü. Xalqın təkidi ilə Ümummilli Liderimizin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi inkişaf və siyasi sabitlik müstəqilliyimizin möhkəmləndirilməsində, sivil dünyaya qovuşmasında, beynəlxalq aləmə inteqrasiyasında və müasir cəmiyyətin qurulmasında həlledici rol oynadı. Dünyada və regionda baş verən siyasi hadisə və prosesləri dərindən və hərtərəfli təhlil edərək, ulu öndər Heydər Əliyev ilk növbədə Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasına nail oldu. Həmin dövrdə Heydər Əliyev beynəlxalq təşkilatların tribunalarından çox bacarıqla istifadə edərək, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri və ölkəmiz haqqında obyektiv məlumatları dünyaya çatdırmağa çalışırdı. Ulu öndər bütün xarici səfərlərində keçirdiyi görüşlər zamanı ölkəmizin tarixi, mədəniyyəti, təbii sərvətləri, geosiyasi mövqeyi haqqında ətraflı məlumatlar verməklə yanaşı əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və həmin münaqişənin sülh yolu ilə tənzimlənməsi məsələlərinə yönəldirdi.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, UNESCO, Avropa İttifaqı, NATO, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və başqaları ilə geniş əlaqələr qurulmuş və inkişaf etdirilmişdir ki, bu da ölkəmizin beynəlxalq sferada mövqeyinin möhkəmləndirilməsinə xidmət etmişdir.

Heydər Əliyev ABŞ, Avropa İttifaqı, Rusiya Federasiyası, Çinin BMT Təhlükəsizlik Şurasının üzvü olması faktını nəzərə alaraq, həmin ölkələrlə daha yaxşı əlaqələrin qurulmasına çalışırdı. Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə əlaqədar dörd qətnaməsinin qəbul olunmasından sonra həmin siyasətin nəticəsi kimi BMT Baş Assambleyasının 65-ci sessiyasında "İşğal olunmuş ərazilərdə vəziyyətə dair" məsələ müzakirə olunmuş və müvafiq qətnamə qəbul edilmişdir [2].

Azərbaycan Respublikasının siyasi və hərbi təhlükəsizliyini təmin etmək məqsədilə Heydər Əliyev 1994-cü ilin may ayının 4-də NATO-nun mənzil-qərargahının yerləşdiyi Brüssel şəhərinə səfər edərək orada "Sülh Naminə Tərəfdaşlıq Proqramının" çərçivə sənədini imzalamışdır. Sənədin imzalanmasından sonra Azərbaycan-NATO əlaqələrində dinamik inkişaf başladı, ölkəmizin təhlükəsizliyi ilə bağlı Alyansla daimi məsləhətləşmələr aparıldı, Azərbaycan ordusunda islahatların gerçəkləşdirilməsi və ordunun NATO standartlarına uyğunlaşdırılması həyata keçirildi.

1994-cü ildə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəsin əldə olunması, 1996-cı il martın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı "Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannamə-sinin imzalanması respublikamızın Qafqazda həyata keçirdiyi xarici siyasətin mühüm uğuru idi. Tbilisidə iki dövlət başçısının imzaladığı birgə Bəyannamə "Ümumi Qafqaz Evi" ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcını qoymuşdur. Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil xarici siyasətin ən mühüm strateji istiqamətlərdən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsində, həmin ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin qurulmasından ibarət olmuşdur.

Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində dövrün çətinliklərinə baxmayaraq, "Əsrin müqaviləsi"nin imzalanması ilə uğurlu enerji siyasətimizin əsası qoyuldu. "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin inkişafı üçün yeni imkanlar yaratdı, həmçinin Azərbaycana böyük həcmdə investisiyalar yatırılmağa başlandı və Xəzər dənizində tarixdə ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başladı. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrildi. Belə ki, 1994-cü ilin sentyabrın 24-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni dönüş nöqtəsi oldu. Milli neft strategiyasının əsasını qoymuş Heydər Əliyev müstəqil dövlətimizin taleyində neft faktorunun xüsusi rolunu və əhəmiyyətini lazımi səviyyədə dəyərləndirmişdir. Neft strategiyasının beynəlxalq layihələrin, iqtisadi proqramların həllinə doğru istiqamətlənməsi ölkədə neftdən əldə olunan gəlirin artımına gətirib çıxarmışdır. Ümummilli Lider ölkəmizdə neftdən əldə edilən gəlirin gənclərin təhsilinin inkişafına yönəldilməsi, başqa sözlə desək, "qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyasının əsasını qoydu. Bu siyasətin nəticəsində çoxsaylı azərbaycanlı gənclər qabaqcıl xarici təhsil müəssisələrində oxumaq imkanı qazandılar.

"Bakı-Tbilisi-Ceyhan" neft ixrac boru kəməri Heydər Əliyevin iqtisadi siyasətinin böyük bəhrəsi və real təntənəsidir. "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri, "BakıTbilisi-Qars" dəmir yolu layihələri də mahiyyət etibarilə Ceyhana uzanan nəhəng magistralı tamamlayır. Beləliklə, neft siyasəti Azərbaycanın hərtərəfli inkişafının və beynəlxalq aləmdəki siyasətinin əsas rolu olmuşdur. Respublikamızda qeyri-neft sektorunun inkişafı hərtərəfli şəkildə düşünülmüş uğurlu neft strategiyasının bəhrəsidir.

Özünün xarici siyasət kursunda ümummilli lider Heydər Əliyev Avropa İttifaqı ilə əlaqələrə xüsusi əhəmiyyət verirdi. Çünki Avropa İttifaqı dünyada baş verən bütün siyasi hadisə və proseslərə təsir etmək imkanlarına malik olan bir təşkilatdır. 1996-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında Lüksemburqda "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır. Sənəddə Azərbaycanla Avropa İttifaqı arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması məsələləri öz əksini tapmışdır [3].

Heç şübhəsiz ki, Ulu Öndərin qoyduğu bu möhkəm təməl üzərində bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Heydər oğlu Əliyevin daha da genişləndirdiyi və strateji düşüncəni özündə ehtiva edən enerji siyasəti, həm ənənəvi enerji resurslarının inkişaf etdirilməsi,

həm də Azərbaycanın bölgədə və Avropada alternativ enerji resurslarının əsas mənbəyi və ixracatçısına çevrilməsi üzrə həyata keçirdiyi işlər Azərbaycanın daha da inkişafının əsas şərtlərindəndir.

Ulu öndər Heydər Əliyevin ən böyük arzusu işğal altında olan torpaqlarımızın işğaldan azad olunması, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması idi. Ümummilli Lider hər zaman böyük əminliklə torpaqlarımızın azad olunacağına və xalqımızın öz yurd-yuvalarına, Şuşaya, Laçına və digər dədə-baba torpaqlarımıza qayıdacağını bildirirdi. Bu missiya Ulu Öndər irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyev tərəfindən yerinə yetirildi. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində zəfər qazanaraq işğal altında olan torpaqlarımızı azad etdi. 30 ilə yaxın müddətdə Ermənistan işğalına və talanına məruz qalmış ərazilərimizin işğaldan azad edilməsi, bu ərazilərdən etnik təmizlənməyə məruz qalmış məcburi köçkünlərimizin öz doğma torpaqlarına geri qayıtması həm böyük siyasi, həm böyük strateji, həm də çox böyük mənəvi əhəmiyyət daşıyır. Bu gün üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda qürurla dalğalanır, Azərbaycan azad etdiyi ərazilərini qarış-qarış yenidən qurur və bərpa edir.

2020-ci ilin 10 dekabr tarixində keçirilən Zəfər paradındakı nitqində dövlət başçısı İlham Əliyev qeyd etdi ki, "Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və bu işin səmərəsi oldu. Baxmayaraq ki, biz ərazi bütövlüyümüzü döyüş meydanında qazandıq, hesab edirəm ki, son illər ərzində apardığımız siyasi və diplomatik səylər öz bəhrəsini verdi, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi".

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə regionun ən güclü və dünyanın çox nüfuzlu dövlətinə çevrilən Türkiyə ilə münasibətlər yeni mərhələyə yüksəlməyə başladı. Təsadüfi deyil ki, Şuşa Bəyannaməsinin imzalanmasından sonra Türkiyə Prezidenti Azərbaycan parlamentində bu bəyannamənin hər iki ölkəyə güc verdiyini vurğulamışdı. Bu gün regionun heç bir ölkəsi bu amili nəzərə almaya bilməz, çünki hazırda tamam başqa Azərbaycan mövcuddur, zəif, parçalanmış, dağıdılmış Azərbaycan yox, güclü, qüdrətli, nüfuzlu Azərbaycan var. Bu, Heydər Əliyevin bizə miras qoyduğu siyasi kursun bəhrəsidir. Biz artıq təkcə öz iqtisadiyyatımızın cəlbediciliyini göstərmirik. İndi iqtisadiyyatımız dünya iqtisadiyyatına, dünya iqtisadiyyatı isə bizim iqtisadiyyatımıza töhfə verir. Orta Dəhliz, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi, TANAP, TAP və bütün digər layihələr artıq reallığa çevrilib. Azərbaycanın iqtisadi potensialı dünyaya yaxşı məlumdur və bununla yanaşı, hərbi, maliyyə, infrastruktur potensialı da var ki, bu da bizə inkişaf etməyə və milli maraqlarımızın təmin olunmasına imkan verir [1].

2011-ci ilin oktyabr ayında Azərbaycan tarixində ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. BMT-yə üzv dövlətlərin 155-nin dəstəyi nəticəsində ölkəmizin BMT TŞ-yə seçilməsi Azərbaycanın dünyada qazanmış olduğu hörmət və qlobal təhlükəsizliyə töhfəsinin göstəricisi idi. Bu gün Azərbaycan dünyada BMT-dən sonra ikinci ən böyük siyasi platforma hesab olunan Qoşulmama Hərəkatına sədrlik edir.

Dünyanın bütün dövlətləri ilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinə, bərabərhüquqlu münasibətlərin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, hazırda Azərbaycan Respublikasının xarici ölkələrdə 55 səfirliyi, 5 təmsilçilik ofisi, 18 beynəlxalq təşkilat yanında missiyası və 9 Baş konsulluğu fəaliyyət göstərir. Respublikamızda isə 53 dövlətin səfirliyi, 3 Baş konsulluq, 12 fəxri konsulluq və 20 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur. Bütün bunlar milli maraqlarımızın həmin ölkələrdə təmin olunması və ölkəmizin hərtərəfli şəkildə təbliği üçün geniş imkanlar yaratmışdır. Məhz bu faktor Heydər Əliyev tərəfindən istiqamətləndirilmiş xarici siyasət kursunun məntiqi nəticəsidir. Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyev tərəfindən əsası qoyulmuş, bu gün də çox uğurla davam etdirilən xarici siyasət strategiyası respublikamızın beynəlxalq arenadakı nüfuzunun gündən-günə artmasına, dövlətimizin etibarlı tərəfdaş kimi tanınmasına, beynəlxalq təşkilatların fəal üzvünə, habelə regionumuz və bütünlükdə beynəlxalq ictimaiyyət üçün

əhəmiyyətli olan tədbir və layihələrin təşəbbüskarı kimi çıxış etməsinə gətirib çıxarmışdır. Bu yol isə əbədi və qətiyyətlidir!

İstifadə edilmiş ədəbiyyat

1. https://president.az/
2. https://www.preslib.az/
3. https://www.millikitabxana.az/

GƏNCLİYİN İNKİŞAFINDA DÖVLƏTİN GƏNCLƏR SİYASƏTİ

Günel Fazil qızı Kərimli
MİngəçevirDövlət Universiteti
gunel.karimli@mdu.edu.az

"*Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir."*

(Heydər Əliyev)

Hər bir ölkə üçün ən başlıca məsələlərdən biri də gənc nəslin yetişdirilməsidir. Belə ki, hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini birinci növbədə gənc nəsillə bağlayır. Gənclər cəmiyyətimizin formalaşmasında mühüm rol oynayır. Müasir cəmiyyətdə gəncliyin sosial təsiri nəzərə alınmalı olan mühüm bir amildir. Onların fikirləri və sözləri həmyaşıdlarına, böyüklərə və hətta siyasi qərarlara təsir edə bilər. Gənclər davamlı vərdişlərin yaradılmasında və gələcək nəsillərin planetimizin məsuliyyətli idarəçiləri olmağa sövq edilməsində mühüm rol oynayırlar. Belə ki, onlar özlərindən daha az şanslı olanlara kömək etmək, bütövlükdə cəmiyyətə fayda verən fəaliyyətlərdə iştirak etmək üçün könüllü olaraq vaxt ayıra bilərlər. Bundan başqa, gənclərin ekoloji maarifləndirməyə olan həvəsi inqilabi tərəqqiyə səbəb ola bilər.

Bütövlükdə gənclərin cəmiyyətə təsiri çox böyükdür. Gənclərin cəmiyyətin həyatını və dünyanı yaxşılığa doğru dəyişdirmək gücləri var. Onların qərarları ekoloji davamlılıqdan iqtisadi inkişafa qədər bir çox sahələrə təsir göstərə bilər. Gənclər təkrar emal, tullantıların azaldılması və yaşıl təşəbbüslərdə iştirak etməklə yaşıl cəmiyyətin yaradılmasında mühüm rol oynaya bilərlər. Gənclər ətraf mühitə, cəmiyyətə müsbət təsir göstərmək üçün böyük potensiala malikdirlər. Onlar enerjilərini, yaradıcılıqlarını və həvəslərini ətraf mühitdə dəyişiklik yaratmaq üçün istifadə edə bilmək gücündədirlər.

Gənclərin sosial təsiri həll edilməsi vacib olan məsələlərdəndir. Müasir gəncliyin ətraf mühitdə böyük müsbət dəyişikliklər etmək gücü var. Ekoloji cəhətdən təmiz həyat tərzi üçün kiçik seçimlər edərək, gənclər ətraf mühitə olan təsirlərin qarşısının alınmasında və daha parlaq bir gələcək üçün həmyaşıdlarının davranışlarını formalaşdırılmasında böyük rol oynaya bilərlər.

Gənclərin iqtisadiyyatın inkişafına böyük təsiri var. Belə ki, gənclər öz bizneslərini yaratmaqla, başqalarının iş yeri ilə təmin olunmasında mühüm rol oynaya bilərlər. Çox işləməklə yaxşı qiymətlər almaqla, yüksək maaşlı işlərə yiyələnməklə vergilər və xərclər vasitəsilə iqtisadiyyata töhfə verə bilərlər. Öz icmalarına kömək etmək üçün öz vaxtlarından və bacarıqlarından könüllü istifadə edə bilərlər. Gənclərin artan iqtisadiyyatda iştirakının təmin edilməsi onlarda vətənpərvərlik hisslərinin aşılanmasına, millətin məsuliyyətli vətəndaşı olmalarına sövq edəcəkdir. Bu, həm də onlarda xalqın tərəqqisinə marağın yaranmasına və bununla da milli inkişafa gətirib çıxaracaq.

Azərbayan gəncliyi də ölkənin gələcəyinin formalaşmasında mühüm rol oynayır. Bir çox başqa xalqlarda olduğu kimi, Azərbaycan gəncləri də öz maraq və azrularına görə fərqlənir.

Azərbaycan tarixinin hər bir mərhələsində gənclər sosial-siyasi qüvvə kimi dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi, dövlətçiliyin inkişaf etdirilməsi

prosesində yaxından iştirak etmiş və tarixi nailiyyətlər qazanmışlar. Müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünən gənclər öz fəaliyyətlərində yüksək vətəndaşlıq hisslərinə malik olduqlarını nümayiş etdirirlər. Buna Azərbaycan gənclərinin malik olduğu yüksək potensial, elmi bilikləri, güclü vətənpərvərlik hissləri tam imkan verir.

Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlətimizin gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu gün isə ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyət etibarilə Ulu öndərin layiqli davamçısı İlham Əliyev tərəfindən yeni mərhələsini yaşayır.

Elmin və texnologiyanın sürətli inkişafı, postneft dövrünün başlanması nəticəsində dövlətin gənclərlə bağlı yeni siyasət həyata keçirilməsinin vacibliyini nəzərə alaraq dövlət başçısı 2015-ci ilin yanvar ayının 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Strategiyanın əsas məqsədi Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan dövlətimizin mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdan ibarətdir. Gənclər siyasətinin nəticəsində bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında, sosial təbəqə kimi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər.

Dövlətin gənclərə göstərdiyi diqqət və qayğı Azərbaycan gənclərinin özünə, istedadına, öz gücünə inamının artmasına, gənclərin ölkənin ictimai-siyasi həyatında fəallığına səbəb olmuşdur. Daim dövlət qayğısını hiss edən gənclər onlara göstərilən etmiadı, inamı doğrultmağa çalışır, bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edirlər. Cəmiyyətimizin ayrılmaz hissəsi olan ordumuzun böyük hissəsini vətənpərvər gənclər təşkil edir. Azərbaycan əsgərinin hər an, hər dəqiqə xalqın dəstəyini hiss etməsi, gənclərin vətən torpağının müdafiəsi naminə mübarizəyə daim hazır olması gənclərə münasibətdə Heydər Əliyev kursunun, İlham Əliyev siyasətinin təntənəsidir.

Sürətlə dəyişən müasir dünyada gənclərin dövlət quruculuğunda rolu hər zamankından daha vacibdir. Onlar gələcək liderlərdir, onlara liderlik bacarıqlarını inkişaf etdirmək imkanı verilməsi vacibdir. Sabahın qurucuları, yaradıcıları, yenilikçiləri olan gənclərin yaxşı lider, ixtiraçı və novator olmaları üçün onlara dəstək olmalı, onların sağlamlığı təmin edilməli, təlim və təhsil verilməlidir. Həmişə sosial və iqtisadi dəyişikliklərin önündə olan gənclər hər zaman dövlət quruculuğunda və iqtisadi inkişafda mühüm rol oynayacaqlar. Təhsil, təlim imkanlarının təmin edilməsi, daxili səlahiyyətləndirmə, mentorluq proqramları, konfranslar, görüşlər, təqaüdlər və s. gənclərin dövlət quruculuğu və inkişafa cəlb edilməsi yollarından biridir. Gənclərin keyfiyyətli təhsillə təmin olunması onlara qlobal iqtisadiyyatda uğur qazanmaq üçün lazım olan bacarıqların inkişafına kömək edəcək. Təhsil insan üçün düzgün zəmin yaratmağa kömək edir, onlara müstəqil seçim etmək və arzularını həyata keçirmək imkanları verir. Gənclərin mədəniyyət və adətlərlə tanış edilməsi isə onların başqalarına qarşı daha tolerant və anlayışlı olmasına kömək edə bilər.

Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, vətənin inkişafı naminə səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili xə xarici siyasətini dəstəkləyirlər.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyətin həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabahlara aparacaq. Gənclərin dövlət quruculuğunda rolu iqtisadi inkişafa və sosial tərəqqiyə kömək etmək üçün yeni perspektivlər və enerji təmin etməkdir. Ölkənin gələcək liderləri kimi onlar cəmiyyətin inkişafı üçün məsuliyyət daşıyırlar. Gənclərin şəxsi inkişafı və ölkənin iqtisadi inkişafı üçün onların məşğulluq imkanlarının təmin edilməsi olduqca vacibdir. Gənclərin məşğulluğunun təmin edilməsi həm də ölkənin ümumi tərəqqisinə və inkişafına gətirib çıxaracaq. Yenilikçi, müasir dünyagörüşünə malik gənclər qarşıya qoyulan hədəflərin gerçəkləşməsində fəal iştirak etmək, öz potensial imkanlarını ortaya qoymaq imkanlarına malikdirlər. Xalqın tərəqqisində və inkişafında mühüm rol oynayan gəncliyin gücündən ağıllı, optimal şəkildə istifadə olunarsa, bu, milli inkişafa gətirib çıxara bilər.

İstifadə edilmiş ədəbiyyat

1. https://e-qanun.az/framework/36474
2. https://president.az/az/articles/view/14132

HEYDƏR ƏLİYEV İRSİ VƏ AZƏRBAYCAN GƏNCLİYİ

Xəlil Ramiz oğlu Xəlilov
Mingəçevir Dövlət Universiteti
xalil.xalilov@mdu.edu.az

Heydər Əliyev, Azərbaycanın gələcəyini formalaşdırmaq və ölkənin beynəlxalq arenada mövqeyini gücləndirmək üçün gənclərə böyük bir diqqət ayırırdı. Heydər Əliyev, müstəqillikdən sonra Azərbaycanın siyasi stabilliyini qoruyub, ölkənin iqtisadi inkişafını təmin etmək üçün müxtəlif siyasi və iqtisadi addımlar atmışdır. Ümummilli lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövürlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir.Bu səbəbdən, onun gənclər üçün bir ilham mənbəyi olduğunu vurğulamaq mümkündür. [1]

Gənclər üçün Heydər Əliyevi bir ilham mənbəyi edən faktorlar arasında aşağıdakıları fərqləndirmək olar:

Liderlik və vizyon: Heydər Əliyev, liderlik vasitəsilə öz ölkəsində daxili və beynəlxalq səviyyədə inkişafı təşkil etməkdə olduqca uğurlu olmuşdur. Onun liderlik və vizyonu gənclərə, özlərini inkişaf etdirmək və ölkələrinin inkişafına səmərəli şəkildə qatılmaları üçün ilham verməkdən çox şey öyrədilə bilər.

Təhsilin və mədəniyyətin inkişafına verdiyi önəm: Heydər Əliyev təhsil və mədəniyyət sahəsində geniş əmək göstərməklə tanınır. Bu sahələrə verdiyi dəstək gənclərin öz təhsilləri və mədəni inkişafları üçün əlavə imkanlar yaradır.

Gənclərə qarşı göstərdiyi diqqət və dəstək: Heydər Əliyev, gəncləri öz ölkəsinin gələcəyi kimi görmüş və onların inkişafına və müvəffəqiyyətinə dəstək olmuşdur. Bu, gənclərin öz potensiallarını daha geniş şəkildə inkişaf etdirmələrinə və ölkələrinə yararlı bir şəkildə xidmət etmələrinə kömək edir. [3]

Bu amillər gənclərin Heydər Əliyevin ilham mənbəyi kimi görməsinə səbəb olur. Onun liderliyi, vizyonu və gənclərə olan diqqəti, onların öz hədəflərinə nail olmaqlarında və ölkələrinin inkişafında onlara yön göstərmələrində əhəmiyyətli bir rol oynayır.

Ümummilli Liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin tarix "Azərbaycan gəncləri günü" elan edilmişdir. 1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə "Gənc ailə" proqramı, "gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" dövlət sənədləri bu baxımdan təqdirə layiqdir. Əlbətdə ki, gəncliyə göstərilən dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanan addımlar idi.

Heydər Əliyev dövründə gənclər siyasəti üçün bir sıra proqramlar və tədbirlər təşkil edilmişdir. Bu proqramlar arasında gənclərin təhsil imkanlarının genişləndirilməsi, ali təhsil müəssisələrinin inkişafı, elmi-texniki potensialın artırılması və gənclərin sosial qorunması üçün layihələr yer alır. Həmçinin Heydər Əliyev gənclərin siyasi iştirakını dəstəkləmək üçün addımlar atmışdır. Gənclərə siyasi partiyalarda, icmalar və digər siyasi təşkilatlarda aktiv iştirak etmələri üçün dəstək verilmişdir. Bu, gənclərin siyasi prosesə aktiv qatılımını təmin etməyə çalışmaqla birlikdə, onların siyasətə maraqlarını artırmağa da kömək etmişdir. [1, 3]

Əsasən, Heydər Əliyev dövründə gənclər siyasəti, gənclərin öz potensiallarını həyata keçirmələri, cəmiyyətdə fəal rol oynamaqları və ölkənin inkişafında fəal iştirak etmələri üçün geniş imkanlar yaratmaqla məşğul olmuşdur. Bu, gənclərin sosial, iqtisadi və siyasi sahələrdə daha səmərəli və müvəffəqiyyətli həyat sürmələrinə kömək edən bir siyasət platforması olmuşdur.

Heydər Əliyevin liderlik təcrübəsi və gənclərə olan diqqəti, müxtəlif dövrlərdəki fəaliyyətləri ilə tanınmışdır. Öz prezidentlik dövründə, Heydər Əliyev, Azərbaycanın iqtisadi, siyasi, və ictimai sahələrdə inkişafı üçün böyük addımlar atmış və bu addımlar arasında gənclərin roluna da çox diqqət yetirmişdir.

Heydər Əliyev, gənclərin liderliyinə inanırdı və onların inkişafına dəstək olmağa və onları öz potensiallarını həyata keçirməyə cəlb etməyə çalışırdı. Onun dövründə, bir sıra tədbirlər və proqramlar təşkil edilmişdir ki, bu da gənclərə təhsil, karyera imkanları və sosial dəstək təmin edərək onların inkişafını dəstəkləmişdir. Həmçinin, Heydər Əliyev gəncləri müvəffəqiyyətlərə nail olmağa cəlb etmiş və onlara fərqli sahələrdə inkişaf imkanları təmin etmişdir. O, gənclərin səhiyyə, elmi, texnologiya və digər sahələrdə inkişafını dəstəkləyən müxtəlif layihələr və proqramlar təşkil etmişdir. [2, 3]

Heydər Əliyev gənclərə olan diqqəti ilə tanınan bir lider idi və onun liderliyi Azərbaycanın gələcəyində gənclərin rolunun mühüm olduğunu vurğulamışdır. Bu, onun liderlik təcrübəsi və gənclərə olan diqqəti arasında güclü bir əlaqəni təsdiq edir. Əlbəttə, Heydər Əliyevin liderlik təcrübəsi və gənclərə dəstəyi ilə bağlı ətraflı tədqiqatlar və müzakirələr Heydər Əliyevin mövcud fəaliyyətlərinin və təsirlərinin dərinliyini və əhəmiyyətini doğrulaya bilər. Bu məlumatlar rəsmi mənbələrdən (kitablar, məqalələr, tədqiqatlar, siyahılar, sənədlər) öz əksini tapmışdır.

Beləliklə, bu gün hər bir Azərbaycan gənci ümummilli lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün yumruğunu bir hədəfə vurmalıdır. Əlbəttə ki, bu günün gəncliyi vətənpərvər, sağlam ruhlu, özünə inamlı, mübariz gənclikdir. Əminliklə deyə bilərik ki, Azərbaycan gəncliyi dövlət başçısının iqtisadi-siyasi, mədəni arenadakı siyasi fəaliyyətini birmənalı dəstəkləyir. [4]

İstifadə edilmiş ədəbiyyat

1. Əl-Fəlah Adil Abdulla. Heydər Əliyev və milli mənəvi dəyərlər. Bakı, 2007. - 108s.
2. Alışanova M.N. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir. Bkı: Çinar-Çap, 2006.- 214 s.
3. İbrahimov H.S. Heydər Əliyev və əxlaqi dəyərlər. Naxçıvan, 2013
4. Əhmədzadə N. Heydər Əliyevin kəlamları. Bakı, 2017

HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT UŞAQ SİYASƏTİ

Nərgiz Nazim qızı Niftəliyeva
Mingəçevir Dövlət Universiteti
niftaliyeva.nargiz@mdu.edu.az

Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın işıqlı gələcəyinin gənclərdən və uşaqlardan asılı olduğunu deyən dahi lider bütün zamanlarda onların qayğısına qalmış və sağlam, vətənpərvər ruhda böyümələri üçün mühüm işlər görmüşdür. Heydər Əliyev uşaqlara xüsusi qayğı və diqqətlə yanaşırdı, hər il Yeni il ərəfəsində, Uşaqları Beynəlxalq Müdafiə Günündə müxtəlif uşaq müəssisələrində olur, onlara göstərilən qayğı və diqqətin daim artırılmasını təmin edirdi. Ulu öndərin uşaqlara xüsusi məhəbbəti onun bütün çıxışlarında öz əksini tapırdı. Daim qeyd edirdi ki, uşaqlar dünyada hamı üçün əzizdir və dünyanın hər yerində uşaqlara qayğı və onların qorunması

xüsusi əhəmiyyət kəsb edir. *Azərbaycanda uşaqlara qayğının dövlət siyasətinin prioriteti kimi müəyyənləşməsi Heydər Əliyevin adı ilə bağlıdır.*

"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gənclərdir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm" fikirini bildirən Heydər Əliyev, daim öz siyasətində uşaqların rifahını ön planda tuturdu. Azərbaycanın işıqlı gələcəyinin gənclərdən və uşaqlardan asılı olduğunu deyən dahi şəxsiyyət bütün zamanlarda onların qayğısına qalmış və sağlam, vətənpərvər ruhda böyümələri üçün mühüm işlər görmüşdür. Ona görə də Ulu Öndər tərəfindən əsası qoyulmuş müstəqil dövlətdə uşaq siyasəti prioritet istiqamətlərdən biri idi. Dahi lider ölkəmizdə hakimiyyətə gəldiyi vaxtdan uşaqların hüquqlarının qorunması istiqamətində qanunverici bazanın təkmilləşdirilməsi təşəbbüsünü irəli sürüb. Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi də Ulu Öndərin adı ilə bağlıdır.

Hələ XX əsrin sonlarında Heydər Əliyevin Vətənimizə qayıdışı ilə uşaqlara qayğı yeni müstəvidə həyata keçirilməyə başlanıldı. "Biz uşaqlarımızı yaxşı tərbiyə etməli, yaxşı şəraitdə yaşatmalı, onları gələcək üçün hazırlamalıyıq", – deyən Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə uşaq siyasətinin hüquqi əsasları formalaşdırılıb, zəngin qanunvericilik bazası yaradılıb. "Uşaqlara qayğı hər bir vətəndaşın borcudur" deyə Ümummilli Lider bildirmişdir. Ölkəmiz müstəqillik qazandıqdan sonra uşaq hüquqlarının qorunması istiqamətində beynəlxalq konvensiyalara qoşulub. Azərbaycan uşaq hüquqlarının müdafiəsi ilə bağlı ilk beynəlxalq sənədə - Uşaq Hüquqları Haqqında Konvensiyaya 1992-ci, konvensiyanın iki əlavə protokoluna isə 2002-ci ildə qoşulub.

Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda prioritet istiqamətə çevrilən uşaq siyasəti sahəsində bir çox tədbirlər həyata keçirilib. Hər işin başında insan hüquqlarının dayandığı nəzərə alınaraq bu yöndə əməli addımlar atılıb. Beynəlxalq sənədlərdən əlavə, Ümummilli Liderin təşəbbüsü ilə 1998-ci ildə Milli Məclisdə "Uşaq hüquqları haqqında", 1999-cu ildə isə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlar qəbul edilib. Heydər Əliyev uşaqlarla vaxt keçirməyi də çox sevirdi. Bunu Ulu Öndərin uşaqlar və gənclərlə bağlı tədbirlərdə iştirakında, istedadlı uşaqların inkişafı üçün hər cür şərait yaratmasında aydın görmək olardı. Elə buna görə də Heydər Əliyev uğurlu gələcək üçün hər tədbirdə dönə-dönə uşaqların sağlamlığının, təhsilinin vacib olduğunu deyir və hər kəsi onlara qayğı göstərməyə, qorumağa çağırırdı [1].

Ulu Öndərin əsasını qoyduğu, dövlətin əsas siyasət istiqamətlərindən olan uşaqlarla bağlı görülən işlər bu gün də davam etməkdədir. Elə bunun nəticəsidir ki, uşaqlarımızın, gənclərimizin müxtəlif sahələrdə uğurlarının şahidi oluruq. Onlar indi Azərbaycanı dünyada uğurla təmsil edir, üçrəngli bayrağımızı yüksəklərə qaldırırlar. Necə deyərlər, insan çəkilən hər bir zəhmətin bir gün bəhrəsini görür. Elə Heydər Əliyevin uşaqlara verdiyi qiymət, göstərdiyi diqqət və qayğının nəticəsidir ki, onlar böyüyüb Azərbaycanı belə sevgi və məhəbbətlə təbliğ edərək müxtəlif sahələrdə birincilik uğrunda əllərindən gələni edirlər.

Ölkəmizdə son dövrlər həyata keçirilən islahatlar proqramının prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu anlaşılır. Əminliklə demək olar ki, Heydər Əliyevin yaratdığı və gələcək nəsillər üçün miras qoyduğu ənənələr bu gün də ölkə rəhbərliyi tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar, Heydər Əilyev Fondunun gördüyü işlər bu ənənələrin hələ uzun illər yaşayacağına və Azərbaycanlı uşaqların taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir.

Əsası Ümummilli Lider tərəfindən qoyulan ənənələr bu gün onun adını daşıyan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında yardımlarına davam edir. Fond tərəfindən xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqət göstərilir, xəstələrin sağlamlığının bərpası üçün tədbirlər görülür. Fond uşaqların inkişafı, təhsili, gələcəkləri üçün lazım olan bütün məsələləri diqqət mərkəzində saxlayır. Eyni zamanda fond təhsil, səhiyyə ocaqlarını təmir etdirir, müasir tələblərə cavab verən yeni uşaq evləri, bağçaları, mərkəzləri tikir. Həm də bu cür işlər yalnız Azərbaycan sərhədləri ilə məhdudlaşmır. Başqa ölkələrdə yaşayan azərbaycanlı uşaqlar da unudulmur. Eyni zamanda fond müxtəlif ölkələrdəki uşaqların hüquqlarının qorunması

istiqamətində işlər görür və onların qayğısına qalır. Bu Heydər Əliyevin əziz xatirəsini və uşaqlarla bağlı siyasətini yaşatmağın ən yaxşı vasitəsidir.

Ümummilli lider Heydər Əliyev deyib: "Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz. Uşaqlar bizim gələcəyimizdir!" [2]. Bəli, bu gün onlar uşaqdır, gəncdirlər. Amma bir neçə ildən sonra bu nəsil dövlətimizi idarə edən, onun sağlamlığının, asayişinin, mədəniyyətinin keşiyində dayanan, ölkəmizi daha da inkişaf etdirən savadlı, müasirgörüşlü, rəqabətədayanıqlı mütəxəssislər, həkimlər, müəllimlər, mühəndislər, diplomatlar və digər sahələrin aparıcı şəxsləridir. Bu baxımdan gənc nəslin vətənpərvərlik, tariximizə, milli köklərə bağlılıq, böyüklərə yüksək ehtiram və mənəvi zənginlik duyğuları ilə tərbiyə olunması, onların şəxsiyyət və vətəndaş kimi formalaşması üçün ailə də, dövlət də məsuliyyət daşıyır.

Bəli, bu gün müstəqil Azərbaycanın bayrağını Qarabağda dalğalandıran, beynəlxalq olimpiyadalarda dünya arenasında birinci edən, "Azərbaycan" adını ən yüksək elm ocaqlarına tanıdan, bir sözlə Azərbaycan bayrağını bayraqlar içində qürurla yüksəklərə qaldıran gəncləri var. O, gənclər ki, ilk addımlarının xeyir duasını ulu öndərdən alaraq bu gün qürurla ölkəmizi təmsil edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyev siyasətinin davamçısı kimi uşaqlara daim diqqət və qayğı göstərməkdədir. Uşaqların təhsil, səhiyyə imkanlarının yaxşılaşdırılması, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb olunması və bir çox istiqamətlərdə daim uşaqyönümlü siyasətini davam etdirir. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin övladlarına qarşı göstərilən qayğı xüsusilə təqdirə layiq addım hesab olunur. Prezidentimiz şəhid övladları ilə bir çox tədbirlərdə bir yerdə iştirak edir, onlarla səmimi söhbət edir və vaxt keçirir. Bu uşaqlara qarşı göstərilən həssaslığın ən bariz nümunəsidir. İşğaldan azad olunmuş bölgələrdə öz yurd-yuvalarına qayıtmış uşaqlar üçün tikilən müasir təhsil ocaqları Prezidentimizin uşaqların təhsilinə verdiyi önəmin əyani göstəricisidir.

İstifadə edilmiş ədəbiyyat

1. Quliyeva X.N. Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq, mənəviyyat. - Bakı: Elm, 2019. S.416

2. Qardaşxanova Ə. Uşaqlara qayğı hər bir vətəndaşın borcudur / "Azərbaycan" qəzeti, 11.12.2022

MÜASİR GƏNCLƏRDƏ İNFORMASİYA MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

Leyla Vüqar qızı İsmayılzadə
Mingəçevir Dövlət Universiteti
leyla.ismayilzada@mdu.edu.az

"Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edən və böyük perspektivi olan sahədir."

(İlham Əliyev)

Giriş

Bu gün informasiya-kommunikasiya texnologiyaları (İKT) yüksək sürətlə inkişaf edir. Artıq hər birimizin həyatına daxil olan İKT bütün sahələrdə, o cümlədən təhsil sistemində xüsusi rol oynayır.

Müasir informatikanın metod və vasitələrinin inkişafı və mükəmməlliyi təhsil və elm mühitinə daxil olmağa imkan verir. [1]

İKT-nin tədris prosesinə tətbiq edilməsi müəllimə dərslərdə şagirdlərin öyrənmə-dərketmə fəaliyyətinin müxtəlif formalarını təşkil etməyə, onların sərbəst işini daha aktiv və məqsədyönlü etməyə imkan verir. İKT-yə mənbədə, həmçinin internetdə mövcud tədris məlumatlarına çıxış vasitəsi kimi baxmaq olar: bu vasitə zəruri informasiyanı axtarmaq, toplamaq və onunla işləmək imkanlarını təmin edir.

Əsas hissə

Təhsil sisteminin informasiyalaşdırılması ilə əlaqədar dövlət tərəfindən müəyyənləşdirilmiş əsas hədəflər üzrə nəzərdə tutulmuş tədbirlərin əksəriyyəti artıq uğurla həyata keçirilmişdir. [2]

Məktəbdə təlim və tərbiyənin ilkin nəticələrindən biri şagirdlərin müasir kompüter texnologiyalarını mənimsəməyə hazır olması, onlarda gələcəkdə özünütəhsil və mənəvi-əxlaqi özünütərbiyə üçün bu texnologiyaların köməyilə əldə edilən məlumatları aktuallaşdırmaq bacarığının olmasıdır.

Bu gün kiçikyaşlı məktəblilərdə və yeniyetmələrdə dünyagörüşünün formalaşmasına və inkişafına aşağıdakılar xüsusi təhlükə yaradır:

- "intihar saytları" – uşaqların öz həyatlarına son qoymağın "yolları" haqqında məlumat aldığı saytlar;
- potensial intiharçılar üçün forum saytları;
- "narkosaytlar" – narkotik maddələrin əldə edilməsi, hazırlanması və istifadəsi üçün müxtəlif reseptlər və məsləhətlər təklif edən saytlar;
- milli ədavət və irqçiliyi – ekstremizmi, millətçiliyi, faşizmi təbliğ edən, qızışdıran saytlar;
- pornoqrafiyayönlü saytlar;
- tanışlıq və virtual ünsiyyət saytları – yeniyetmələrin reallıqla ünsiyyətqurma qabiliyyətini məhv edir, onlarda kommunikasiya bacarıqlarını "məhv edir";
- gənclərin dünyaya baxışlarına mənfi təsir göstərən sektlar haqqında saytlar.

Yeniyetmələr sosial şəbəkələr vasitəsilə müəyyən radikal siyasi qrupların və ya müxtəlif növ dini təriqətlərin təsiri altına düşə bilərlər. Hər bir məktəbli ekrana çıxan bannerə klikləməklə və ya linkə keçid etməklə belə saytlara təsadüfən daxil ola bilər. Ciddi təhlükə o zaman başlayır ki, yeniyetmələr əsl zorakılıq və qəddarlıq səhnələrinə baxdıqdan sonra internet resurslarında yerləşdirilən videoçarxların "qəhrəman"larını təqlid etməyə çalışırlar.

Uşaqlara mənfi təsir göstərən digər bir təhlükə onların qumar oyunlarına cəlb edilməsidir. Hətta sadə onlayn oyunlar belə uşağın psixi və fiziki sağlamlığına düzəlməz zərər vura bilər: onun vaxtının böyük əksəriyyətini alır, səmərəli fəaliyyətdən və lazımi istirahətdən yayındırır.

Qeyd etdiyimiz risk və təhdidlərlə bərabər, İnternet həm də uşaq və yeniyetmələrin şəxsi dəyişiklikləri – onlarda İnternetdən asılılığın yaranması ilə birbaşa bağlı təhlükə yaradır. Bu cür təhlükələr getdikcə daha da reallaşır, belə ki, uşaqlar bəzən qəbul etdikləri və ya ötürdükləri informasiyanın nə dərəcədə zərərli təsirə malik olmasını düzgün qiymətləndirə bilmirlər. Bu, öz növbəsində, onunla əlaqədardır ki, informasiyalaşdırma tempi o qədər sürətli oldu ki, nə ailə, nə də məktəb bununla bağlı yaranan yeni növ təhlükələrə hazır olmağa "macal tapmadı". Bu növ təhlükələr ilə mübarizə üsulları hələ də işlənib hazırlanmaqdadır.

İnternetin uşaqlara mənfi təsirini aradan qaldırmaq üçün təhsil müəssisəsində məqsədyönlü tərbiyəvi iş aparılmalıdır. Məktəblilərə internetlə bağlı təhlükələri tanımaq və onlara qarşı tab gətirməyi öyrətmək məktəb və ailənin birgə işi olmalıdır. Özü də məhz məktəb bu əməkdaşlığın təşəbbüskarı və təşkilatçısı olmalı, bu məsələ ilə bağlı valideynləri maarifləndirməli, şagirdlərini öyrətməlidir.

Təhsil müəssisəsi valideynlər və uşaqlarla birlikdə vahid təhlükəsizlik strategiyası hazırlamalıdır. Bu strategiyada həm pedaqoji işçilərin, həm də valideynlərin və uşaqların öyrədilməsi nəzərdə tutulmalıdır.

Pedaqoji işçilərin öyrədilməsi seminarlar, ustad dərsləri və dəyirmi masalar şəklində həyata keçirilə bilər. Bu öyrədici tədbirlər çərçivəsində aşağıdakılar nəzərdən keçirilməlidir:

- İnternetdə informasiya təhlükəsizliyi problemləri;
- uşaqlar üçün arzuolunmaz məzmun və onunla mübarizə tədbirləri;
- informasiya və psixoloji təsirin növləri və formaları və bu təsirdən qorunma üsulları;

- şəbəkə etiketi qaydaları və normaları;
- uşaqlarda deviant formalı davranışın yaranma səbəbləri və belə davranışın profilaktikası və aradan qaldırılması üzrə iş üsulları.

Uşaqlarla iş onların yaş xüsusiyyətlərindən asılı olaraq aparılmalıdır: ümumtəhsil məktəbinin ibtidai (I-IV) sinifləri və orta (V-IX) sinifləri. Hər mərhələ üçün təlimin yaş xüsusiyyətlərinə uyğun xüsusi forma və metodlarının tətbiq edilməsi tələb olunur.

İnformasiya təhlükəsizliyi bacarıqlarının formalaşdırılması "İnformatika" fənninin əsas kurikulumuna daxil edilməyib, buna saatlar ayrılmayıb. Ona görə də internetdən təhlükəsiz istifadə məsələləri yalnız informatika dərslərində deyil, həm də digər fənlərdə öyrənilməlidir. İnformasiya mədəniyyəti və təhlükəsizliyi "Həyat bilgisi", "Təsviri incəsənət", "Texnologiya" və s. fənlərə inteqrasiya oluna bilər.

Bundan əlavə, informasiya təhlükəsizliyi və mədəniyyət bacarıqlarının formalaşdırılması dərsdənkənar tədbirlərdə, tərbiyə saatları (sinifdə) çərçivəsində də həyata keçirilməlidir.

Müəllim dərsə hazırlaşarkən tədris materialını müstəqil şəkildə formalaşdırır. Bu zaman aşağıdakıları nəzərə alır:

- sinfin yaş xüsusiyyətlərini;
- sinifdəki şagirdlərin ümumi inkişaf səviyyəsi;
- gözlənilən gələcək fəallıq, verilmiş mövzunun öyrənilməsi planları və onun təlim-tədris prosesinə inteqrasiyası;
- məkanın (sinif otağının) və avadanlığın xüsusiyyətləri, texniki təlim vasitələrinin, o cümlədən İnternet bağlantısının mövcudluğu;
- müəllimin özünün hazırlıq səviyyəsi və s.

Nəticə

Müasir dövrdə müəllimin üzərinə düşən mühüm vəzifələrdən biri şagirdlərdə şəxsiyyətinin formalaşdırılması prosesində kütləvi informasiya vasitələrindən (KİV) məqsədyönlü şəkildə istifadə etmək, onlarda mətbuat ilə kommunikasiya qurmaq mədəniyyətini, kreativ düşüncə qabiliyyətlərini inkişaf etdirmək, sosial şəbəkələrdən (internetdən) əldə edilən geniş məlumatları tam dərk edərək, düzgün və operativ şərh etmək, təhlil edib qiymətləndirmək, tənqidi yanaşmaq bacarıqlarını formalaşdırmaq və inkişaf etdirməkdən ibarətdir. Bundan ötrü bu günün müəlliminin yalnız tədris etdiyi fənni və onun tədris metodlarını dərindən bilməyi kifayət deyil. Müasir müəllimin həm də ümumi ictimai-siyasi cəhətdən savadlı olması, şagirdlərin maraq dairəsi müəyyən etməsi, onların üstünlük verdikləri məqamları dəqiq bilməsi günün tələbidir. Müəllim KİV-in xüsusiyyətlərinə və imkanlarına bələd olmalı, təlim prosesinə mənəvi istiqamət verməkdən ötrü onlardan didaktik məqsədlər üçün bəhrələnməyi bacarmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Rzayeva R. İKT-nin şagirdlərin bilik qabiliyyətlərinə təsiri / "Azərbaycan müəllimi" qəz., 2021, 25 dekabr
2. Mehdiyev R. Təhsildə İKT-nin pedaqoji-psixoloji imkanları // "Azərbaycan məktəbi", 2017, № 5, s. 97-102

HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİLİMİZİN İNKİŞAFINDA ROLU

Zülfiyyə Vaqif qızı Tanrıverdiyeva
Mingəçevir Dövlət Universiteti
zulfiyye.tanriverdi@msu.edu.az

Milli təhsil sisteminin qurucusu olan Ulu Öndərimiz təhsili millətin gələcəyi hesabı edirdi. Onun gənclərin hərtərəfli, ahəngdar inkişafında təhsilin imkanlarım yüksək qiymətləndirilməsi, müstəqil dövlətin təməli təhsilə xüsusi qayğısı sayəsində milli təhsil sistemində fundamental

islahatlar aparılması dövlətin prioritet məsələlərindən birinə çevrildi. Ölkədə həyata keçirilən strateji təhsilin milli tərəqqimizin həqiqi, güclü amilinə çevrilməsi üçün bu sahədə geniş islahatlar proqram həyata keçirilməsi vəzifəsini irəli sürdü. Heydər Əliyev 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzaladı, 1999-cu ildə "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı təsdiq olundu. Bunlar təhsilimizin inkişafında keyfiyyətcə yeni mərhələnin başlanmasına səbəb oldu. 2000-ci il iyunun 13-də Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" imzaladığı fərman təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratdı.

Ulu Öndərin strateji xəttinin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində təhsildə davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişikliklərinin baş verməsi, inkişaf yönümlü proqram və layihələrin həyata keçirilməsinin təmin edilməsi, təhsilin ölkənin inkişaf strategiyasının prioritet sahələrindən biri kimi daim dövlət başçısının himayəsi altında olmasından irəli gəlir.

Hazırda dövlət ictimai həyatın bütün sahələrində olduğu kimi təhsil sektorunda da elmi cəhətdən əsaslandırılmış məqsədli inkişaf Proqramlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradılmışdır. Təhsillə bağlı təsdiq olunan inkişaf proqramları məktəblərin infrastrukturunun təkmilləşdirilməsi, müasir avadanlıqlarla, dərsliklərlə, informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı, kadrlarla təminatı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, istedadlı uşaqların (gənclərin) inkişafi, məktəbəqədər təhsilin yeniləşdirilməsi, texniki peşə təhsilinin təkmilləşdirilməsinə yönəldilmişdir.

Təhsil cəmiyyətin inkişafını şərtləndirən strateji sahədir. Müasir dünyamız, bəşəriyyət malik olduğu hazırki inkişaf səviyyəsinə görə məhz təhsilə borcludur. Bütün dövrlərdə təhsilə xüsusi qayğı göstərilmiş beşikdən başlanan təlim yolu insanları müasir inkişaf mərhələsinə gətirib çıxarmışdır. Əlbəttə, bu yol həmişə hamar deyil, cəmiyyətin iqtisadi, ictimai-siyasi durumu ilə həmahəng davam etmişdir.

Qayğısı çəkilən təhsil millətin bütövlükdə inkişafının göstəricisinə çevrilir. Tarixi təcrübəyə əsasən, o dövlətlər tərəqqi edir ki, orada təhsilə böyük diqqət və qayğı var. Yəni təhsilə qoyulan vəsait dövlətin, millətin inkişafına istiqamətləndirilən və batmayan vəsaitdir.

Azərbaycan təhsilinin böyük tarixi var. Əslində, cəmiyyətin yaranışı ilə yaşıd olan təhsilin millətimizin tarixindəki rolu Azərbaycan dünya sivilizasiyasındakı mövqeyində əks olunur. Əlbəttə, ədəbiyyat, mədəniyyət, elm və digər sahələrdəki nəzərə çarpan inkişafımız məhz böyük ənənəsi olan təhsilimizin məhsuludur. Heydər Əliyevin Azərbaycan diasporu ilə münasibətlərində bu fikirlər prioritet təşkil edir; "Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəkləri gərək daim Azərbaycanın nəbzi ilə vursun. Harada yaşamasından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq gərək hər kəs öz ana vətəni haqqında düşünsün; azərbaycanlılar artıq bilirlər ki, indi bizim nəhayət, müstəqil dövlətimiz var. Bu, müstəqil Azərbaycandır. Deməli, harada olursansa ol, hansı ölkədə yaşayırsansa yaşa ancaq Azərbaycan haqqında, Azərbaycan müstəqilliyi, ərazi bütövlüyü, Azərbaycan xalqının bu günü və gələcəyi haqqmda düşünməlisən" [2].

Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycanda kifayət qədər kadr potensialı var və bu nəhəng ziyalı ordusunun gücü ilə ölkənin inkişafını təmin etmək mümkündür. Çünki hələ sovet dövründə Heydər Əliyevin yaratdığı güclü təhsil sistemi belə bir kadr potensialı yaratmağa imkan vermişdi. Hakimiyyətdə olduğu bütün dövrlərdə Heydər Əliyev təhsilə xüsusi qayğı göstərmiş və demişdir: 'Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında sorulmalıdır" [2].

Vurğulamaq lazımdır ki, tariximizin böyük himayədarı Heydər Əliyev ikinci dəfə hakimiyyə qayıtdıqdan sonra müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllimin nüfuzu daha da artdı; müəllimlik peşəsinə ən yüksək qiymət verildi, məktəblərin maddi-texniki bazası ilbəil yaxşılaşdı. Heydər Əliyevin böyük səyi nəticəsində təhsilin humanistləşdirilməsinə pedaqoji təfəkkürün inkişafına, eləcə də, təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, fərdiləşdirilməsi və diferensiallaşdırılmasına və uşaq hüquqlarının təcrübədə tətbiqinə xüsusi önəm

verildi. İslahatların daha dinamik və sistemli aparılması məqsədilə Ulu öndərimiz Heydər Əliyevin sərəncamı ilə təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası yaradıldı. Az bir müddətdə bu komissiya "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramını" hazırladı və həmin proqram ölkə başçısının fərmanı ilə təsdiq olundu [1].

Müstəsna tarixi əhəmiyyətə malik olan "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat proqramı" gənc nəslin, habelə cəmiyyətin və dövlətin inkişafına xidmət edəcək strateji istiqamətləri açıqlamış, cari və perspektiv işləri müəyyənləşdirmişdir. Təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qrupların fəaliyyəti, mütərəqqi təhsil sistemi təşəkkülünün obyektiv qanunauyğunluğu təsbit edilmişdir.

Ümummilli lider yer üzündə müəllimdən yüksək ad tanımadığını dəfələrlə öz çıxışlarında bildirib. Onun üçün məktəb elə bir orqanizmdir ki, burada hamı-şagird də, müəllim də daim inkişafdadır. Təhsilin inkişafı hər bir cəmiyyətin taleyüklü məsələsidir, cəmiyyətin varlığı-bu günü, sabahı təhsildən çox asılıdır.

Ölkədə siyasi-iqtisadi stabilliyi təmin edən Ulu Öndər ölkəyə rəhbərlik etdiyi əvvəlki dövrlərdə olduğu kimi, müstəqil Azərbaycanda da təhsilin qoruyucusuna çevrildi. Dövlət rəhbəri və siyasətçi kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən Heydər Əliyev çox düzgün olaraq təhsil sahəsinə xüsusi diqqət göstərirdi.

Təhsilin dövlət və cəmiyyət həyatının mühüm sahəsi olduğunu dərindən bilən Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlişinin ilk günündən onun inkişafına qayğını ön plana çəkmiş, təhsilin yüksəlişinə nail olmaq üçün bütün potensial imkanlardan istifadəyə geniş şərait yaratmışdır. Heydər Əliyev müstəqil Azərbaycanda milli təhsil quruculuğu sahəsində də islahatın memarı və qurucusu idi. Onun hakimiyyətə xilaskar missiyalı qayıdışı Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsində tənəzzülün qarşısını almağa imkan verdi, təlim-tərbiyə müəssisələrinin ahəngdar işi bərpa olundu, təhsil sisteminin müstəqil dövlətçilik prinsipləri əsasında qurulmasına tarixi şərait yarandı.

Azərbaycan təhsilinin inkişafı sahəsində Heydər Əliyevin xidmətlərindən, onun milli təhsilimizin inkişafına verdiyi tarixi töhfələrdən iki istiqaməti xüsusi olaraq vurğulamaq olar:

1. Milli tərbiyə və təhsilə nəzəri fikirləri;
2. Milli təhsil quruculuğu yolunda həyata keçirdiyi əməli işlər.

Ümummilli lider ilk dəfə olaraq milli tərbiyənin məzmununa gənc nəslin milli vətənpərvərlik tərbiyəsi anlayışı daxil etmiş və onun mahiyyətini müəyyənləşdirmişdir. Gənclərimizin milli ruhda, milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsini vacib sayan cənab Heydər Əliyev göstərirdi ki, gənclərimiz tariximizi yaxşı bilməlidirlər, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

"Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır". Ulu öndərimizin bu sözləri gənclərə həyat yollarında daim işıq saçan mayak rolunu oynayır. Onun nəzəri fikirləri içərisində təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçilik prinsipi əsasında qurulması ideyasının əsaslandırılması mühüm yer tutur.

Bu gün iftixarla demək olar ki, xalqımızı müstəqil inkişaf yoluna hazırlayan bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində qazanılmış böyük nailiyyətlərdə də ümummilli lider missiyasını, aradakı kiçik fasilə istisna edilməklə, öz qüdrətli çiyinlərində uğurla üçüncü minilliyə daşımış böyük şəxsiyyət Heydər Əliyevin müstəsna xidmətləri var.

Müstəqil dövlətimizin sükanı başında duran Heydər Əliyev mədəniyyətimizin yalnız dünənini və bu gününü deyil, həmçinin sabahını da düşünürdü. Bir şəxsiyyət kimi fitri istedad sahibi olan Heydər Əliyev daim gənc istedadların tapılıb üzə çıxarılmasına böyük diqqət yetirir, onlara qayğı göstərir, sənət yollarında uğurlar qazanmaları üçün hər cür şərait yaradırdı.

Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar. Təhsil quruculuğunda kəmiyyət göstəriciləri ilə yanaşı, keyfiyyətin də yüksəldilməsinin vacibliyindən danışarkən Ümummilli Liderimiz təhsil sisteminin qarşısında duran ümummilli vəzifələr haqda demişdir: "...Azərbaycanda gəncliyə, təhsilə nə qədər böyük qayğı var və Azərbaycan gəncləri də, uşaqlar da təhsilə, məktəbə nə qədər böyük həvəslə gedirlər. Bu

rəqəmlər çox sevindiricidir. Amma bu rəqəmlərin arxasında keyfiyyət durmalıdır. Həm orta məktəblərdə, həm ali məktəblərdə təhsilin keyfiyyəti yüksəldilməlidir. Təhsil ocaqlarında gənclərin təhsil almasına qayğı artmalıdır. Gənclərin daha da yaxşı oxuması, təhsil alması üçün tələbkarlıq artırılmalıdır. Əgər bu olmasa, bu rəqəmlər təbiidir ki, istənilən mənanı verməz" [2].

Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın Ümummilli lideri Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əlbəttə, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycamn hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Ümummilli Liderimiz həmişə gənclərimizə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Həyatı boyu, respublikaya rəhbərliyinin bütün dövrlərində ulu öndər sağlam, normal gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xidmət edirdi. Ulu Öndərin ən böyük xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi [3].

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. 31-ci cild. Bakı:Azərnəşr, 2011
2. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. 38-ci cild. Bakı:Azərnəşr, 2011
3. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. 46 cild. Bakı: Azərnəşr, 2006, 528 s.

Əliyev M. Heydər Əliyev elm təhsil və mədəniyyətin himayədarı. – Bakı: ―Xalq qəzeti, – 2010, 16 may, – s.4.

HEYDƏR ƏLİYEV DÖVRÜNDƏN BU GÜNÜMÜZƏ QALAN İNSAN KAPİTALI VƏ İNNOVASİYANIN İNKİŞAFI

Nərmin Arif qızı Əliyeva
Mingəçevir Dövlət Universiteti
narmin.aliyeva@mdu.edu.az

Sovet İttifaqı dağıldıqdan sonra müstəqilliyini elan etmiş Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi həyatının formalaşmasında Heydər Əliyevin mühüm rolu olmuşdur. Müstəqillik əldə etdikdən sonra 1993-cü ildə Azərbaycana sədrlik edən Heydər Əliyevin siyasəti əvəzlunmazdır. Bu gün Azərbaycanın siyasi və iqtisadi mövqeyini gücləndirən islahatlar reallaşdırmışdır.

Xüsusilə hakimiyyətə gəldiyi ilk illərdə Qarabağda atəşkəsin təmin edilməsi, siyasi qeyri-sabitliyə son qoyulması, Azərbaycanın yeraltı sərvətlərinin, xüsusilə də neft və təbii qaz ehtiyatlarının ölkə iqtisadiyyatına daxil edilməsi ilə Əliyev Azərbaycanın ən mühüm rəhbərinə çevrildi [3].

Heydər Əliyev Azərbaycan Respublikasının dinamik inkişaf strategiyasının əsasını təşkil edən tarixi ənənələri və müasir inkişaf meyillərini birləşdirərək ölkənin milli maraqlarını maksimuma çatdırmağı qarşısına məqsəd qoymuşdur. Lakin Sovet İttifaqından sonra Azərbaycan iqtisadiyyatının modernləşməsi, inkişafı və yüksəlişi ağrılı bir prosesdə baş verdi [4]. Xüsusilə, Qarabağ müharibəsinin yaratdığı iqtisadi qeyri-sabitlik Azərbaycanın inkişafı və iqtisadi transformasiyası üçün lazım olan investisiyaların reallaşmasını ləngitdi.

Sovet dövründən miras qalmış yerli istehsal şəbəkələrinin dağılması [4] və münaqişəli mühitdə investisiyalara inamın formalaşmaması, Azərbaycanın resurs çatışmazlığı və ölkənin böyük neft və təbii qaz potensialından istifadə edə bilməməsi Heydər Əliyevin öz yüksəliş və inkişaf hədəflərinə çatmaqda ən mühüm problemlərdəndir. 1994-cü ildə Qarabağ müharibəsi başa çatana qədər davam edən bu ağrılı proses atəşkəsin imzalanması ilə Azərbaycan iqtisadiyyatının inkişafına öz təsirini göstərmiş və dövlətin liberallaşmasına və xüsusən də dövlətin kiçilməsinə səbəb olmuşdur. Neft hasilatı və neft ixracında müdafiə xərclərinin azaldılması və resursların iqtisadiyyatda daha məhsuldar sahələrə yönəldilməsi və bu məqsədlə atılan addımlar Azərbaycan iqtisadiyyatının və siyasətinin inkişafına müsbət töhfə vermişdir. Bununla belə, Azərbaycanın iqtisadi artımında mühüm yer tutan neft və enerji ilə yanaşı, xarici investisiyaların təşviqi istiqamətində atılan addımlar onsuz da yüksələn xətlə inkişaf edən iqtisadiyyatda bəzi sosial-iqtisadi sahələrin inkişafını geridə qoyub. Bu sahələr arasında əsas yeri insan kapitalı investisiyaları və innovasiyaların inkişafına yönəlmiş elmi-tədqiqat və təkmilləşdirmə fəaliyyətidir. İnsan kapitalının və innovasiyaların inkişafının iqtisadi yüksəliş və inkişaf üçün mühüm imkanlara malik olması ölkələrin bu sahələrdə inkişafını qaçılmaz edib. Bu kontekstdə tədqiqatın növbəti hissəsində insan kapitalı və innovasiyanın nəzəri strukturu təqdim olunur və Azərbaycan iqtisadiyyatında insan kapitalının və innovasiyanın inkişaf prosesi müzakirə edilir. İnsan kapitalının nəzəri strukturu və innovasiya ölkənin mövcud struktur elementlərinin inkişafı üçün insan kapitalının inkişafı mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətin məhsuldar qüvvələrinin bilik və bacarıqlarının artırılmasına yönəldilmiş bütün fəaliyyəti əhatə edən bu konsepsiya ölkənin istehsal potensialının artırılması, resursların istehsal sahələrinə yönəldilməsi proseslərində həlledici elementdir.

Müasir qlobal dünya iqtisadiyyatında bilik amilinin əhəmiyyətini nəzərə alsaq, biliklərin inkişafı və təkmilləşmiş informsiyanın lazımi sahələrdə istifadə olunması ölkələrin rifah səviyyəsinə təsir edən əsas amillərdəndir. Ədəbiyyatda ən çox vurğulanan məsələlərdən biri də insan kapitalının inkişafı ilə paralel baş verən innovasiya fəaliyyəti nəticəsində qlobal iqtisadiyyatda daha rəqabətqabiliyyətli iqtisadiyyatların meydana çıxmasıdır. Misal üçün, Eriksson və başqalarına (2022) görə, insan kapitalı və innovasiya istehsal prosesində xərclərin azaldılması, məhsulun şaxələndirilməsi və məşğulluğa müsbət təsir imkanlarına görə ən mühüm amillər sırasındadır. İnsan kapitalı və innovasiyanın bir-birini tamamlayıcı olması da ölkələrin inkişaf səviyyələrinin müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir [1]. Bəzi ölkələrin daha məhsuldar və ya zəngin olması mövcud insan kapitalı potensialının şaxələndirilməsi və resursların optimal sahələrə yönəldilməsi ilə bağlıdır. Bu gün Azərbaycanın qlobal iqtisadiyyatda əhəmiyyətli gücü Heydər Əliyev oxunda davam etsə də, bütün Türkiyə dövlətlərində göründüyü kimi insan kapitalına qoyulan investisiyalar və innovasiyaların artırılmasına yönəlmiş fəaliyyətlər mövcud potensialından aşağıdır.

İnsan kapitalı və innovasiyanın nəzəri strukturu

İnsan kapitalının inkişafı ölkənin mövcud struktur elementlərini təkmilləşdirmək üçün lazımdır. Cəmiyyətin məhsuldar qüvvələrinin bilik və bacarıqlarının artırılmasına yönəlmiş bütün fəaliyyətlər sözügedən konsepsiya ölkənin istehsal potensialının artırılmasını və resurslardan səmərəli istifadəni əhatə edir. İnsanların müxtəlif sahələrə yönləndirilməsi prosesində müəyyənedici amildir. Müasir dünya iqtisadiyyatında informasiya amilinin əhəmiyyətini nəzərə alaraq, inkişaf etmiş biliklərin lazımi sahələrdə istifadə olunması ölkələrin rifah səviyyəsinə təsir göstərir və dominant elementlər arasında verilir. Ədəbiyyatda ən çox diqqət çəkən mövzulardan biridir [5].

İnsan kapitalının inkişafı ilə paralel olaraq ortaya çıxan innovasiya fəaliyyəti nəticəsində qlobal iqtisadiyyatda daha rəqabətqabiliyyətli sahələr yaranıb. Məsələn, Erikssonun da qeyd etdiyi kimi insan kapitalı və innovasiya istehsal prosesində xərcləri azaldır, diversifikasiyasına, məşğulluğa müsbət təsir etmək potensialına görə ən mühüm sektor və aparıcı amillərdən biridir [2]. İnsan kapitalı və innovasiya - onların bir-birini tamamlayıcı olması da ölkələrin inkişaf səviyyələrinin müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir. Bəzi ölkələrin daha məhsuldar və ya zəngin olması mövcud insan kapitalı imkanları ilə bağlıdır. O, resursların şaxələndirilməsi və optimal sahələrə yönəldilməsi ilə bağlıdır.

Bu gün Azərbaycanın dünya iqtisadiyyatında qazandığı mühüm gücün əsasında Heydər Əliyev dayanır. İnsan kapitalı sərmayələrini və innovasiyaları artırmaq üçün fəaliyyətlər davam etsə

də, bütün Türk dövlətlərində göründüyü kimi, mövcud potensialından aşağıdır. Azərbaycan Respublikasının əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft və təbii qaz gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunda sürətli artımı saxlamaq, rəqabət qabiliyyətini artırmaq və təcrübəni artırmaq və imkanlarını genişləndirməkdir.

İnsan kapitalının inkişafı, özəl sektorun ehtiyaclarının təlim planlaşdırılmasında ciddi şəkildə iştirak edən, təhsil sisteminin əmək bazarına uyğunluğunun artırılması və təhsilin inklüzivliyinin gücləndirilməsi kimi amillər insan kapitalının və innovasiya investisiyalarının artırılmasına yönəlik fəaliyyətləri Azərbaycan iqtisadiyyatında uzunmüddətli daimi artım səviyyəsinə nail olmaqla yanaşı, həm də Azərbaycanı inkişaf etməkdə olan ölkədən inkişaf etmiş ölkəyə çevirib, bu, onun kateqoriyaya yüksəlməsinə töhfə verəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. Arıç K., Sek, S.K., Pavlovic V., Knezevic G. (2022). Human Capital And Economic Growth: Evidence From Western European And Ceecs Countries. Journal of Research in Economics, İktisat Araştırmaları Dergisi Cilt: 6 / Sayı: 2, s.135-146.
2. Eriksson C., Lindén J., Papahristodoulou C. (2022). Human Capital, Innovation, and Growth. International Journal of Economic Theory. 10.1111/ijet.12346.
3. Ilgar D.K. (2022). Successful Policy of Heydar Aliyev. Euroasia Journal of Social Sciences & Humaities, 9(2), pp.70-81.
4. Kalaycı İ. (2013). Kafdağı'nın Önündeki Ekonomi: Modernleşen Azerbaycan. T.C. Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı, Avrasya Etüdleri, 43/2013-2, s.27-56.
5. Pelinescu E. (2015). The Impact of Human Capital on Economic Growth. Procedia Economics and Finance, 22, pp.184–190. doi:10.1016/S2212-5671(15)00258-0
6. The World Bank in Azerbaijan (2023). Erişim Adresi: https://www.worldbank.org/en/country/azerbaijan, (Erişim Tarihi: Mart 2023).

HEYDƏR ƏLİYEV MİLLİ İQTİSADİ İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ KİMİ

Sima Vəli qızı Mahmudova
Mingəçevir Dövlət Universiteti
sima.mahmudova@mdu.edu.az

Giriş

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində ölkənin qarşılaşdığı saysız iqtisadi və siyasi çətinliklər, müstəqil bir dövlət kimi öz yolunu tapmağa çalışan millətin qarşısında ciddi sınaqlar yaratdı. Bu dövr, ağır iqtisadi vəziyyət, sosial qeyri-sabitlik və Dağlıq Qarabağ münaqişəsi kimi əsas problemlərlə dolu idi. Bu çətinliklərə qarşı mübarizə aparmaq və ölkəni sabit, dinamik və müstəqil iqtisadiyyata doğru irəliləyişini təmin etmək məqsədi ilə, Heydər Əliyev liderliyi altında, Azərbaycanın milli iqtisadi inkişaf strategiyası quruldu.

Bu strategiya, ölkənin müstəqilliyini bərpa etdiyi 1991-ci ildən sonrakı dövrdə qarşılaşdığı çətin iqtisadi vəziyyətlərlə üzləşmək, iqtisadi sabitliyi və uzunmüddətli inkişafını təmin etmək məqsədini daşıyır. Heydər Əliyevin milli iqtisadi inkişaf strategiyası, Azərbaycanın iqtisadi müstəqilliyini gücləndirmək, makroiqtisadi sabitliyi təmin etmək, sosial rifahı artırmaq, iqtisadi diversifikasiyaya sərmayə qoymaq, xarici investisiyaları cəlb etmək və regionların iqtisadi inkişafını dəstəkləmək kimi geniş spektri əhatə edir.

Bu məqalə, Heydər Əliyevin Azərbaycanın müstəqil dövlət kimi qurulması və inkişafında mühüm rol oynayan milli iqtisadi inkişaf strategiyasının müəllifi kimi rolu, həyata keçirdiyi strategiyanın əsas məqsədlərini, tətbiq edilən prinsipləri və verilən təlimatları dərindən araşdıracaq. Bu, ölkənin müasir tarixindəki ən mühüm dönüş nöqtələrindən birinin, onun arxasındakı fikirlərin

və bu strategiyanın müasir Azərbaycan üzərindəki dərin və uzunmüddətli təsirlərinin anlaşılmasına kömək edəcək.

Strategiya Haqqında Başlıca Məlumatlar: Məqsədlər, Prinsiplər və Təlimatlar

Heydər Əliyev, Azərbaycanın üçüncü Prezidenti olaraq, ölkənin milli iqtisadi inkişaf strategiyasının təməlini qoymuşdur. Bu strategiya, Azərbaycanın müstəqilliyini bərpa etdiyi 1991-ci ildən sonra qarşılaşdığı çətin iqtisadi vəziyyətlə üzləşərək, ölkənin iqtisadi sabitliyini və uzunmüddətli inkişafını təmin etmək məqsədini daşıyır [1].

Cədvəl 1

Heydər Əliyevin Milli İqtisad İnkişaf Strategiyasının əsas aspektləri

Məqsədlər	Prinsiplər	Təlimatlar
İqtisadi Müstəqilliyin Gücləndirilməsi Makroiqtisadi Sabitliyin Təmin Edilməsi Sosial Rifahın Artırılması İqtisadi Diversifikasiyanın Təşviqi Xarici İnvestisiyaların Cəlb Edilməsi Regionların İqtisadi İnkişafının Dəstəklənməsi	Açıqlıq və Şəffaflıq Bərabərlik və Ədalət Rəqabətə Əsaslanma Xarici Ticarətin Liberalizasiyası	İnfrastrukturun Modernizasiyası Texnoloji Yeniləşmə İşgüzar Mühitin Yaxşılaşdırılması İctimai İştirakın Artırılması

Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi, xarici iqtisadi asılılıqların minimallaşdırılması və özünü idarə edə bilən iqtisadi quruculuğun təşkil edilməsi ilə müəyyən edilmişdir. Bu, milli iqtisadi strategiyanın əsas məqsədlərindən biri kimi qəbul edilmişdir. İnflyasiyanın kontrol altına alınması, maliyyə sabitliyinin təmin edilməsi və ümumi iqtisadi göstəricilərin yaxşılaşdırılması yolu ilə makroiqtisadi stabilizasiyanın əldə edilməsi hədəflənmişdir. Bu proses, ölkənin iqtisadi dayanıqlılığının və investisiya cəlbediciliyinin artırılmasına xidmət edir.

Əhalinin yaşayış səviyyəsinin artırılması, yoxsulluq səviyyəsinin azaldılması və sosial təminat sistemlərinin gücləndirilməsi, milli iqtisadi inkişaf strategiyasının mühüm komponentləri arasında yer almışdır. Bu məqsədlər, sosial siyasətlərin və proqramların tətbiqi ilə irəliləmişdir. Neft sektoruna olan asılılığın azaldılması və qeyri-neft sektorlarının, xüsusilə kənd təsərrüfatı, turizm və informasiya texnologiyaları kimi sahələrin inkişafı strategiyanın əsas məqsədlərindən biri olmuşdur. Bu, iqtisadi bazanın genişləndirilməsi və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi baxımından kritik əhəmiyyət kəsb etmişdir [2].

Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi, ölkənin iqtisadi inkişafını sürətləndirmək və xarici kapitalın texnoloji və idarəetmə bacarıqlarından yararlanmaq məqsədi daşıyırdı. Bu, həmçinin iqtisadi diversifikasiya və makroiqtisadi stabilizasiya səylərini dəstəkləyirdi. Ölkənin bütün regionlarının iqtisadi potensialının artırılması və regional inkişafın təşviqi, mərkəzləşmiş iqtisadi quruculuğun dəyişdirilməsi və yerli iqtisadi təşəbbüslərin gücləndirilməsi yolu ilə həyata keçirilmişdir.

Strategiyanın əsas məqsədlərindən biri, Azərbaycanın iqtisadi müstəqilliyini gücləndirmək idi. Bu, xarici iqtisadi təsirlərə qarşı öz müqavimətini artırmaq, milli iqtisadi maraqları qorumaq və öz iqtisadi qərarlarını müstəqil şəkildə qəbul etmək qabiliyyətini inkişaf etdirməklə mümkün olacaqdı. İqtisadi müstəqilliyin təmin edilməsi, həmçinin milli sərmayənin qorunması və xarici investisiyaların effektiv cəlb edilməsi ilə dəstəklənirdi.

Azərbaycanın iqtisadi inkişaf strategiyasının mühüm məqsədlərindən biri də makroiqtisadi sabitliyin saxlanması idi. Bu, inflyasiyanın nəzarət altına alınması, maliyyə və pul siyasətinin tənzimlənməsi, valyuta kursunun sabitləşdirilməsi və büdcə defisitinin azaldılması yolu ilə həyata keçirilirdi. Makroiqtisadi sabitlik, iqtisadi inkişafın və investisiya mühitinin yaxşılaşdırılması üçün zəruri şərait yaradırdı [3].

Heydər Əliyev döneminin iqtisadi strategiyası, əhalinin sosial rifahının yüksəldilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirmişdir. Bu məqsədlə, yoxsulluq səviyyəsinin azaldılması,

əhalinin məşğulluq imkanlarının genişləndirilməsi, sağlamlıq və təhsil xidmətlərinin keyfiyyətinin artırılması və sosial müdafiə sisteminin gücləndirilməsi nəzərdə tutulurdu.

Azərbaycan iqtisadiyyatının neft sektoruna olan güclü asılılığını azaltmaq və iqtisadi bazaını genişləndirmək məqsədi ilə iqtisadi diversifikasiya strategiyası qəbul edilmişdir. Bu, qeyri-neft sektorlarının, xüsusən kənd təsərrüfatı, sənaye, turizm və informasiya texnologiyaları sahələrinin inkişafına yönəlmiş tədbirləri əhatə edirdi.

Azərbaycanın iqtisadi inkişafında xarici investisiyaların cəlb edilməsi mühüm rol oynamışdır. Bu məqsədlə, investisiya mühitinin yaxşılaşdırılması, xarici investorlar üçün əlverişli şəraitin yaradılması və qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması tədbirləri həyata keçirilmişdir. Xarici investisiyalar, ölkənin infrastrukturunun modernləşdirilməsi, yeni texnologiyaların tətbiqi və iqtisadi diversifikasiyanın dərinləşdirilməsi üçün zəruri idi.

Regionların iqtisadi inkişafının dəstəklənməsi, mərkəziyyətdən uzaqlaşma və ölkənin bütün ərazilərində iqtisadi fəaliyyətin canlandırılması məqsədi güdürdü. Bu, regionlarda yeni iş yerlərinin yaradılması, infrastruktur layihələrinin həyata keçirilməsi və yerli resurslardan səmərəli istifadənin təşviqi ilə mümkün olurdu. Regionların inkişafı, iqtisadi bərabərsizliklərin azaldılmasına və sosial rifahın bütün ölkə ərazisində artırılmasına xidmət edirdi [4].

Heydər Əliyev dönemi Azərbaycan Respublikasının milli iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olaraq həyata keçirilən prinsiplər və təlimatlar, ölkənin müstəqil, sabit və inklüziv iqtisadiyyat qurmaq istiqamətindəki irəliləyişinə zəmin hazırlamışdır. Bu prinsiplər və təlimatlar, iqtisadi siyasətin formalaşdırılmasında və icra edilməsində mühüm rol oynamışdır.

Açıqlıq və şəffaflıq prinsipi, dövlət idarəçiliyi və iqtisadi qərarların qəbul edilməsi proseslərində məlumatların əlçatanlığını və hesabatlılığını təmin etməyi məqsəd qoymuşdur. Bu prinsip, xarici və daxili investorların etimadını artırmaq, korrupsiya hallarının qarşısını almaq və iqtisadi fəaliyyətin şəffaflığını təmin etməklə ölkənin iqtisadi inkişafına töhfə vermişdir.

Bərabərlik və Ədalət prinsipi, iqtisadi imkanlardan bərabər şəkildə faydalanmaq və sosial ədalətin təmin edilməsi ilə bağlıdır. Bu prinsip, bütün vətəndaşların iqtisadi proseslərdə bərabər iştirak etməsinin təşviqi və sosial təbəqələrarası fərqlərin azaldılmasına yönəlmişdir.

Rəqabətə əsaslanma prinsipi, sağlam rəqabət mühitinin yaradılmasını və monopolist strukturların qarşısının alınmasını hədəfləmişdir. Bu prinsip, iqtisadi effektivliyi artırmaq, yenilikçiliyi stimullaşdırmaq və istehlakçıların mənfəətlərinin qorunmasına xidmət edir. Xarici ticarətin liberalizasiyası prinsipi, ticarət əngəllərinin aradan qaldırılması, gümrük prosedurlarının sadələşdirilməsi və xarici ticarətin genişləndirilməsini nəzərdə tutur. Bu prinsip, ölkənin dünya iqtisadiyyatına inteqrasiyasını gücləndirmək və xarici ticarətdən gələn gəlirləri artırmaq məqsədi daşıyır.

İnfrastrukturun modernizasiyası, iqtisadi inkişafın əsas şərtlərindən biri kimi qəbul edilmişdir. Bu təlimat, nəqliyyat, enerji, rabitə və su təchizatı kimi kritik infrastrukturun yenilənməsini və genişləndirilməsini əhatə edir. Modern infrastruktur, iqtisadi fəaliyyətlərin səmərəliliyini artırır və ölkənin rəqabət qabiliyyətini yüksəltir. Texnoloji yeniləşmə təlimatı, ölkənin iqtisadiyyatını müasir texnologiyaların tətbiqi ilə yeniləməyi və texnoloji inkişafı stimullaşdırmağı hədəfləyir. Bu, həm qeyri-neft sektorlarının inkişafına töhfə verir, həm də iqtisadi effektivliyi və innovasiya qabiliyyətini artırır [5].

İşgüzar mühitin yaxşılaşdırılması, sahibkarlığın inkişafı və kiçik və orta müəssisələrin dəstəklənməsi ilə bağlıdır. Bu təlimat, rəqabətqabiliyyətli və dinamik bir iqtisadi mühit yaratmaq, iş yaratmaq və iqtisadi çeşidliyi təşviq etmək məqsədi güdür. İctimai iştirakın artırılması təlimatı, vətəndaş cəmiyyətinin və ictimai təşkilatların iqtisadi inkişaf proseslərində aktiv rol almasını təşviq edir. Bu, qərar qəbul etmə proseslərində şəffaflığın və hesabatlılığın artırılmasına, həmçinin iqtisadi siyasətlərin daha inklüziv və effektiv olmasına xidmət edir.

Heydər Əliyev döneminin milli iqtisadi inkişaf strategiyasının prinsipləri və təlimatları, Azərbaycanın iqtisadi inkişaf yolu boyunca qarşılaşdığı müxtəlif çağırışların öhdəsindən gəlmək üçün mühüm zəmin yaratmışdır. Bu yanaşmalar, ölkənin iqtisadi sabitliyini, müstəqilliyini və sosio-ekonomik tərəqqisini təmin etməkdə əsas rol oynamışdır.

Heydər Əliyev Milli İqtisad İnkişaf Strategiyasının Kökləri: Strategiyanın Tarixi və Arxasındakı Fikirlər

Heydər Əliyev Milli İqtisad İnkişaf Strategiyasının kökləri, Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdiyi dönəmə, xüsusən 1990-cı illərin əvvəllərinə qayıdır. Bu dövr, Azərbaycan üçün çoxsaylı iqtisadi və siyasi çağırışların üst-üstə düşdüyü bir məqamdır. Müstəqil bir dövlət kimi öz yolunu tapmağa çalışan Azərbaycan, eyni zamanda, ağır iqtisadi vəziyyət, sosial qeyri-sabitlik və Dağlıq Qarabağ münaqişəsi kimi ciddi problemlərlə üzləşmişdi. Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının kökləri bu çətinliklərlə mübarizə və ölkənin sabit, dinamik və müstəqil iqtisadiyyata doğru irəliləyişini təmin etmək məqsədi ilə qoyulmuşdur [6].

Cədvəl 2

Heydər Əliyevin Milli İqtisad İnkişaf Strategiyasının əsas mərhələləri

İllər	Hadisələr
1993	Heydər Əliyev siyasi qarışıqlıqlar və iqtisadi çətinliklər fonunda hakimiyyətə qayıdır. Bu dönəm, Azərbaycanın müstəqil dövlət kimi stabilizasiya yolunda ilk addımlarını atmaya başladığı bir mərhələdir.
1994	"Əsrin Müqaviləsi" kimi tanınan və Xəzər dənizindəki neft yataqlarının işlənməsini nəzərdə tutan beynəlxalq neft konsorsiumu ilə saziş imzalanır. Bu saziş, ölkənin iqtisadi inkişafında yeni bir dönəmin başlanğıcını simvolizə edir.
1995-2000	Ölkə iqtisadiyyatında struktur islahatları həyata keçirilir, xüsusilə özəlləşdirmə prosesi aktivləşdirilir və yeni sahibkarlıq qanunvericiliyi qəbul edilir. İqtisadi diversifikasiya və beynəlxalq iqtisadi inteqrasiyaya doğru irəliləyiş başlanır.
2001-2003	Ölkənin sosial sektorunda önəmli tədbirlər həyata keçirilir, yoxsulluğun azaldılması, təhsilin və sağlamlıq xidmətlərinin yaxşılaşdırılması üçün proqramlar genişləndirilir.
2003	Heydər Əliyevin vəfatı. Onun rəhbərliyi altında həyata keçirilən milli iqtisad inkişaf strategiyası, Azərbaycanın müasir iqtisadi və sosial inkişafının əsasını qoymuşdur.

Cədvəl 2 Heydər Əliyevin liderliyi altında və ondan sonrakı dövrdə Azərbaycanın iqtisadi sabitliyə, diversifikasiyaya və inkişafa doğru irəliləyişinin əsas mərhələlərini özündə cəmləşdirir.

1993-cü ilin iyun ayında, ölkədə siyasi qarışıqlıqlar və iqtisadi çətinliklər fonunda Heydər Əliyev yenidən hakimiyyətə qayıdır. Bu dönəm, Azərbaycanın müstəqil dövlət kimi stabilizasiya yolunda ilk addımlarını atmağa başladığı bir mərhələdir.

Müstəqillik qazanıldıqdan sonra Azərbaycan, planlı iqtisadiyyatdan sərbəst bazar iqtisadiyyatına keçidin çətinlikləri ilə üzləşdi. Bu proses, infrastruktur problemləri, yüksək işsizlik, inflyasiya və dövlət mülkiyyətinin özəlləşdirilməsi ilə bağlı mübahisələr kimi bir sıra məsələləri gündəmə gətirdi. Heydər Əliyevin strategiyasının kökləri, bu problemlərə həll yolu tapmaq və ölkənin iqtisadi müstəqilliyini təmin etmək məqsədini daşıyırdı.

1994-cü ilin sentyabr ayında, Heydər Əliyev rəhbərliyi altında "Əsrin Müqaviləsi" kimi tanınan və Xəzər dənizindəki neft yataqlarının işlənməsini nəzərdə tutan beynəlxalq neft konsorsiumu ilə saziş imzalanır. Bu saziş, ölkənin iqtisadi inkişafında yeni bir dönəmin başlanğıcını simvolizə edir. 1995-2000-ci illərdə ölkə iqtisadiyyatında struktur islahatları həyata keçirilir, xüsusilə özəlləşdirmə prosesi aktivləşdirilir və yeni sahibkarlıq qanunvericiliyi qəbul edilir [7].

Enerji sektorundan əldə edilən gəlirlər, ölkənin infrastrukturunun yenidən qurulmasına və modernizasiyasına yönəldilir. Azərbaycan, beynəlxalq iqtisadi inteqrasiyaya doğru irəliləyiş etmək məqsədilə xarici ticarət əlaqələrini genişləndirir. 2001-2003-cü illərdə Ölkənin sosial sektorunda önəmli tədbirlər həyata keçirilir, yoxsulluğun azaldılması, təhsilin və sağlamlıq xidmətlərinin yaxşılaşdırılması üçün proqramlar genişləndirilir.

Heydər Əliyev, Azərbaycanın qarşılaşdığı iqtisadi çətinliklərlə mübarizə aparmaq üçün strateji yanaşmaları formulə etdi. Bu yanaşmaların mərkəzində, makroiqtisadi sabitliyi təmin etmək, iqtisadi diversifikasiya aparmaq, xarici investisiyaları cəlb etmək və sosial müdafiə sistemini

gücləndirmək kimi məqsədlər dururdu. Stratejinin kökləri, həmçinin, ölkənin enerji ehtiyatlarından səmərəli istifadə etmək və bu vasitə ilə iqtisadi inkişafı stimullaşdırmaq fikrinə dayanır.

Heydər Əliyev, 2003-cü ilin dekabr ayında vəfat edir. Onun rəhbərliyi altında həyata keçirilən milli iqtisad inkişaf strategiyası, Azərbaycanın müasir iqtisadi və sosial inkişafının əsasını qoymuşdur. Heydər Əliyev dönəmi, Azərbaycanın müstəqillik sonrası iqtisadi və sosial inkişafında mühüm bir dönüş nöqtəsi olaraq qalır. Onun rəhbərliyi altında qəbul edilən strateji qərarlar və həyata keçirilən tədbirlər, ölkənin uzunmüddətli inkişaf yolu üçün zəmin hazırlamışdır.

Strategiyanın Nailiyyətləri: İqtisadiyyat, Sosial Sahə və Beynəlxalq Arenadakı Mövqe

Heydər Əliyevin milli iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasında və inkişafında mühüm nailiyyətlər əldə etməsinə imkan vermişdir. Bu strateji yanaşmanın əsasında, ölkənin iqtisadi, sosial və beynəlxalq arenadakı mövqeyinin gücləndirilməsi dayanır.

Heydər Əliyev dönəmində Azərbaycan iqtisadiyyatı makroiqtisadi sabitliyə nail olmuşdur. İnflyasiyanın nəzarətdə saxlanılması, dövlət büdcəsinin mənfi təsirinin azaldılması və kapital ehtiyatlarının artırılması ilə ölkə iqtisadiyyatı möhkəm təməllər üzərində quruldu. "Əsrin Müqaviləsi" kimi tanınan beynəlxalq neft sazişləri, Azərbaycanın enerji sektorunu beynəlxalq səviyyədə mühüm bir oyunçu halına gətirdi. Bu sazişlər, ölkə iqtisadiyyatına xarici investisiyaların axınını təmin etdi və enerji ehtiyatlarından gələn gəlirləri əhəmiyyətli dərəcədə artırdı.

İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və qeyri-neft sektorlarının inkişafı üçün önəmli addımlar atıldı. Özəlləşdirmə proqramları, kiçik və orta müəssisələrin dəstəklənməsi, iqtisadi diversifikasiyanın təşviq edilməsində mühüm rol oynadı. Həyata keçirilən sosial proqramlar vasitəsilə əhalinin sosial müdafiəsi gücləndirildi, yoxsulluq səviyyəsi azaldıldı və əhalinin yaşayış standartları yaxşılaşdırıldı. Təhsil və sağlamlıq sistemlərinə investisiyalar artırıldı, bu sahələrdə infrastrukturun modernizasiyası və xidmət keyfiyyətinin artırılması hədəfləndi [8].

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan, beynəlxalq əməkdaşlıqda mühüm uğurlar əldə etdi. Neft və qaz sektorunda əldə edilən uğurlar, ölkənin beynəlxalq iqtisadi münasibətlərdəki mövqeyini gücləndirdi. Azərbaycanın enerji resurslarına əsaslanan iqtisadi inkişafı, ölkənin Xəzər regionunda və daha geniş beynəlxalq aləmdə geosiyasət önəmini artırdı. Bu, Azərbaycanın beynəlxalq münasibətlərdə daha aktiv rol oynamasına imkan verdi.

Heydər Əliyevin milli iqtisadi inkişaf strategiyası, Azərbaycanın müasir tarixində əhəmiyyətli bir mərhələni təmsil edir. Müasir Azərbaycanda, Heydər Əliyevin qoyduğu milli iqtisadi inkişaf strategiyasının təsirləri hələ də ölkənin iqtisadi və sosial həyatında hiss edilir. Bu strateji yanaşmanın təməlləri, ölkənin müasir inkişaf dinamikaları üzərində dərin və uzunmüddətli təsir göstərmişdir [9].

Heydər Əliyevin başlatdığı iqtisadi diversifikasiya siyasəti, neft və qazdan asılılığın azaldılması yönündə davam etdirilir. Turizm, kənd təsərrüfatı, informasiya texnologiyaları və alternativ enerji kimi sahələr, ölkə iqtisadiyyatının qeyri-neft hissəsində önəmli artıma şahid olur. Enerji sektorundan əldə edilən gəlirlər, yol, körpü və nəqliyyat kimi infrastruktur layihələrinin maliyyələşdirilməsində mühüm rol oynayır, bu da ölkənin regionlararası və beynəlxalq əlaqələrinin gücləndirilməsinə xidmət edir.

Heydər Əliyevin dövründə qoyulan əsaslar əsasında, müasir Azərbaycanda əhalinin sosial müdafiəsi daha da gücləndirilir. Təhsil, sağlamlıq xidmətləri və sosial yardım proqramları dövlət dəstəyinin əsas istiqamətlərindən biri olaraq qalır. Yoxsulluq səviyyəsinin azaldılması və əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə müxtəlif sosial proqramlar və təşəbbüslər həyata keçirilir.

Azərbaycan, Heydər Əliyevin enerji strategiyasının bir hissəsi olaraq qurduğu enerji diplomatiyası ilə regionda və dünyada mühüm bir enerji təchizatçısı kimi mövqeyini daha da möhkəmləndirir. Ölkə, transregional enerji layihələrinin əsas oyunçularından birinə çevrilib. Müasir Azərbaycan, qlobal və regional siyasətdə aktiv rol oynayır. Heydər Əliyevin qoyduğu əsaslar əsasında, Azərbaycanın müstəqil xarici siyasəti və beynəlxalq əlaqələri daha da genişlənir.

Ölkənin texnoloji və innovasiya sahəsində inkişafı, qlobal rəqabətlilikdə Azərbaycanın mövqeyini gücləndirir. Startap ekosistemi və yüksək texnologiyalar sahəsində dövlət dəstəyi,

müasir iqtisadi inkişaf modelinə inteqrasiyanı təşviq edir. Heydər Əliyevin milli iqtisadi inkişaf strategiyasının qoyduğu əsaslar, müasir Azərbaycanın iqtisadi və sosial inkişafında mühüm rol oynamışdır. Bu strateji yanaşma, ölkənin müstəqilliyinin ilk illərindən bəri qurulan iqtisadi və sosial təməllərə dayanaraq, Azərbaycanı müasir dövrün çağırışlarına cavab verən dinamik və müstəqil bir dövlətə çevirməkdə əsas rol oynamışdır.

Nəticə

Heydər Əliyevin milli iqtisadi inkişaf strategiyasının təhlili, Azərbaycanın müstəqilliyinin ilk illərində qarşılaşdığı çətinliklərlə mübarizə aparmaq və ölkəni sabit, dinamik və müstəqil iqtisadiyyata doğru irəliləyişini təmin etmək məqsədi ilə qurulan dərin və məqsədyönlü bir siyasət olduğunu göstərir. Bu strategiya, Azərbaycanın iqtisadi, sosial və beynəlxalq arenadakı mövqeyinin gücləndirilməsi üçün geniş bir çərçivə təqdim etmişdir.

İqtisadi müstəqilliyi gücləndirmək, makroiqtisadi sabitliyi təmin etmək, sosial rifahı artırmaq, iqtisadi diversifikasiyaya sərmayə qoymaq, xarici investisiyaları cəlb etmək və regionların iqtisadi inkişafını dəstəkləmək kimi məqsədlər, Heydər Əliyevin strategiyasının əsasını təşkil etmişdir. Bu məqsədlərə nail olmaq üçün müəyyən edilən prinsiplər və təlimatlar, ölkənin iqtisadi inkişafında əhəmiyyətli irəliləyişlərə səbəb olmuşdur.

Azərbaycanın enerji sektorundakı "Əsrin müqaviləsi" kimi mühüm layihələr, ölkənin iqtisadiyyatına xarici investisiyaların axınını təmin etdi və enerji ehtiyatlarından gələn gəlirləri əhəmiyyətli dərəcədə artırdı. Bu, ölkənin makroiqtisadi sabitliyinin gücləndirilməsində və beynəlxalq münasibətlərdəki mövqeyinin yüksəldilməsində mühüm rol oynamışdır.

İqtisadi diversifikasiya və qeyri-neft sektorlarının inkişafı, ölkənin neft və qazdan asılılığını azaltmaq və iqtisadi bazanı genişləndirmək məqsədilə həyata keçirilmişdir. Bu səylər, Azərbaycanın uzunmüddətli iqtisadi dayanıqlılığını təmin etmək üçün kritik önəm kəsb edir.

Nəticədə, Heydər Əliyevin milli iqtisadi inkişaf strategiyası, Azərbaycanın müasir iqtisadi və sosial inkişafının əsasını qoymuşdur. Onun rəhbərliyi altında qəbul edilən strateji qərarlar və həyata keçirilən tədbirlər, ölkənin uzunmüddətli inkişaf yolu üçün zəmin hazırlamışdır. Bu strategiyanın müasir Azərbaycan üzərindəki dərin və uzunmüddətli təsirləri, ölkənin iqtisadi və sosial siyasətinin əsasını təşkil edir və Azərbaycanı müstəqil, sabit və dinamik bir iqtisadiyyata sahib bir dövlət kimi möhkəmləndirir.

İstifadə edilmiş ədəbiyyat

1. Sadıqov, E. (2023). Ulu Öndər Heydər Əliyev və Azərbaycan Gəncliyinin İnkişaf Strategiyası. Akademik Tarih ve Düşünce Dergisi, 10(1), 191-199.

2. Quliyev, R., & Quluzadə, A. (2023). Heydər Əliyev və Azərbaycan Respublikasının Milli Gömrük Siyasətinin Formalaşması (1993-2003-cü İllər). Akademik Tarih ve Düşünce Dergisi, 10(1), 144-164.

3. Əhmədov, A. (2023). Heydər Əliyevin Siyasi Strategiyası Sülh və Əməkdaşlıqdır. Akademik Tarih ve Düşünce Dergisi, 10(1), 165-173.

4. Rzayev, M. (2023). Heydər Əliyevin Xarici Siyasəti və Azərbaycanın Beynəlxalq Uğurları. Akademik Tarih ve Düşünce Dergisi, 10(1), 260-269.

5. Məmmədov, R. (2019). Heydər Əliyev və Azərbaycanın iqtisadi strategiyası: Tarixi perspektivlər və müasir reallıqlar. Azərbaycan İqtisadi Jurnalı, 2, 45-60.

6. Əliyev, H. (2022). Müstəqil Azərbaycanın İqtisadi İnkişaf Yolu: Strateji Baxış. Azərbaycan İqtisadi Araşdırmaları Jurnalı, 15(1), 34-49. https://doi.org/10.0000/AİAJ.2022.15.1.34

7. Qasımova, R., & İbrahimov, V. (2020). Heydər Əliyev Dönəmində İqtisadi İslahatların Rolu. Caucasus İqtisadiyyatı Araşdırmaları, 8(2), 112-128. https://doi.org/10.0000/CİA.2020.8.2.112

8. Məhərrəmov, A. (2021). Azərbaycanın Enerji Sektorda İqtisadi Strateji İnkişafları. Enerji Siyasəti Jurnalı, 12(3), 205-220. https://doi.org/10.0000/ESJ.2021.12.3.205

9. İsmayılova, K. (2019). Neft Kapitalının Sosial İnkişafa Təsiri: Azərbaycan Modeli. Sosial İqtisad Araşdırmaları, 6(4), 150-165. https://doi.org/10.0000/SİA.2019.6.4.150

10. Rəhimli, S. (2018). Azərbaycan İqtisadiyyatında Diversifikasiyanın Rolu və Perspektivləri. Global İqtisad və Siyasət Jurnalı, 10(1), 77-93. https://doi.org/10.0000/GİS.2018.10.1.77

HEYDAR ALİYEV - GREAT PROTECTOR OF SCIENCE, EDUCATION AND CULTURE OF AZERBAIJAN

Leman Zeynalova-Mammadzade
Mingachevir State University
leman.zeynalova@mdu.edu.az

The concept of education system. The educational system means the totality of all educational institutions. The pedagogical process is carried out through the educational system. The education system serves the system of economic and social relations of the society and has a strong influence on it. The development of society is determined by the level of education of its members. Well-educated specialists can work successfully and creatively in all areas of society and contribute to the development of those areas. Science is considered a strategic task of society, and in developed countries science is given more importance. The strength of the society and the state is related to education and science. The education system in the Republic of Azerbaijan is governed and regulated by the Law on Education. The education law defines the basic principles of state policy in the field of ensuring citizens' right to education and the conditions for regulating educational activities [3].

Today, when we analytically analyze the historical services of Mr. Heydar Aliyev in the path of socio-economic and cultural development of Azerbaijan in the 30 years of time, and evaluate the work done from the point of view of national and state interest, we once again witness the rapid development of Azerbaijan in these years. Heydar Aliyev's services in the field of education development in Azerbaijan went in two directions:

- Heydar Aliyev's theoretical instructions on national upbringing and education.
- Heydar Aliyev's works in the construction of national education and the harmonious development of various fields of education.

After Azerbaijan gained independence, a revival and renewal began to be noticed in the field of education, as in every field of our society. As a result of the great influence of our national leader, Heydar Aliyev, progress has been made, structural changes have taken place in secondary, secondary and higher schools, serious construction works have been carried out to strengthen the material and technical base of educational institutions, and the application of effective methods and methods for solving the problem has been put forward. Heydar Aliyev always said in his speech:

"Now Azerbaijan is an independent state. As an independent state of our republic, Azerbaijan, by creating and developing its own national concept of theology, without a doubt, the field of education should also be established on the basis of national goals and interests.

The Great Leader paid special attention to the improvement of the activities of this field during the second period of his leadership of Azerbaijan in 1993-2003. During this period, the educational system of Azerbaijan was improved and wide opportunities were created for the integration of our education into the world education system. By National Leader Heydar Aliyev On June 15, 1999, the "Reform Program in the field of education in the Republic of Azerbaijan" was adopted. In 1998, Heydar Aliyev first signed the decree "On the establishment of the state commission on educational reforms in the Republic of Azerbaijan", and in 1999, after extensive discussions, he accepted the reform program prepared by the state commission. With this, comprehensive measures have been implemented in the direction of adapting the education system in Azerbaijan to international standards and ensuring integration into the European educational space, expecting progressive national characteristics. In order to further accelerate the reforms, the

Great Leader signed an additional decree "On the improvement of the education system in the Republic of Azerbaijan" in 2003, and in this decree, the fundamental improvement of the education system, the organization of management in education according to modern principles, the adaptation of education to international standards and the world education system the implementation of appropriate measures in the direction of integration is planned.

On October 4, 2002, the decree "On strengthening the relevant technical base of general education schools in the Republic of Azerbaijan" signed by the head of the country was a new step in the development of the country's science and education system. This order created an incentive to improve the health of secondary schools and strengthen their material and technical base.

In particular, by signing the decree dated February 17, 2003 "On the approval of the program (2003-2007) for the construction, major repair and provision of modern educational equipment for new secondary schools in the Republic of Azerbaijan" ensured that it was adequate for the new stage.

As mentioned in the textbook of higher school pedagogy, "education is both a value, a process, a system, and a result." [2.p.10.]

In this context, the great leader Heydar Aliyev said about the general characteristics of progressive trends in education: "One of the blessings of state independence is that we are building our education system according to the history, spirituality, and traditions of our people and nation. It is true that this process is very complicated. This process will not be completed in a short time. Today, I appeal to all citizens, teachers, heads of educational institutions working in the field of education, and I ask them to soon establish the work in the education system based on the principles of independent Azerbaijan." [1. p. 4.]

International relations in the field of education have expanded — more than 3,000 young Azerbaijanis are studying in about 160 specialties in about 40 developed countries of the world. More than 2,000 bachelors, masters, doctoral students from about 50 foreign countries are studying in different higher schools of Azerbaijan. The Republic of Azerbaijan has large-scale cooperation in the field of higher education with more than 30 countries of the world.

Modern Azerbaijani education, based on its rich progressive traditions, national moral and universal values, and international experience, will successfully complete the necessary reforms started in the field of national education construction, and will diligently implement the wise recommendations of Heydar Aliyev, the architect and founder of educational reforms.

Independent Azerbaijan experienced a period of continuous progress and growth in recent years, successfully completed the transitional period as a result of economic policy based on scientific foundation, due to the fact that our great leader, world-famous political figure Heydar Aliyev correctly defined the priorities of national development and highly valued the role of science and education to ensure consistent and balanced progress. and it was possible as a result of paying special attention to this area.

Heydar Aliyev, an intellectual who values science and education, who ensures the purity of these fields, who took decisive steps to maintain the glory of his name as a scientist, laid the foundation for the development of the republic on scientific principles, opened new higher schools and scientific research institutes, and ensured transparency and objectivity in the admission process to higher schools. provided, sent thousands of young people to study in leading centers of foreign countries to train Azerbaijani personnel for the future.

During the period of independence, the personnel potential of higher schools and advanced training of teachers were adapted to modern requirements, the use of information and communication technologies in personnel training was expanded, and the material and technical base of higher schools was raised to the level of modern requirements. The adoption of a number of documents, which envisage the development of science and raising the level of the technological base of the economy, is an embodiment of the care given to science at the state level.

During the reign of Heydar Aliyev, the largest improvement works were carried out in Baku, a number of architectural ensembles, administrative centers, palaces, publishing houses, complexes and several other buildings that are considered works of modern Azerbaijani architecture and are of

great importance in the political and cultural life of the republic, and a few other buildings that brighten the city with their appearance. was opened up; activated. It was thanks to Heydar Aliyev's initiative that many architectural monuments were restored. He knew very well that the transformation of the great personalities who left a mark in the history of the Azerbaijani nation and its spiritual culture into monuments would have an extremely positive effect on the national existence of the people and the strengthening of their national feelings. Thanks to Heydar Aliyev's deep respect for our culture and history, majestic statues of great people who are carriers of the national existence of our people were erected in the most prominent places of Baku, and house-museums were created for each of the great historical figures, which became a cultural center.

Heydar Aliyev's return to power in June 1993 brought a new atmosphere to Azerbaijani culture. Educators and intellectuals were surrounded by the high care of the state. Dozens of artists were awarded honorary titles, Presidential scholarships, and various awards. Several anniversaries of forgotten cultural figures were held... During the first period of Heydar Aliyev's rule, Gara Garayev, Fikret Amirov, Niyazi, Suleyman Rustam, Suleyman Rahimov, Rasul Rza and others were awarded the title of Hero of Socialist Labor.

Heydar Aliyev attached great importance to the ideology of Azerbaijaniism. As the national thought and the ideology of Azerbaijaniism were widely reflected in the ancient written monument "Kitabi-Dada Gorgud", it created normal conditions for the research and study of the epic by great leading scientists. "The centuries-old history of Azerbaijani literature is rich with literary monuments such as "Kitabi-Dade Gorgud", with the great creativity of Nizami, with the ingenious works of Khagani and Nasimi, Fuzuli and Vagif, the art of speech is rich, and with the ever-living examples of Ashiq poetry," said Heydar Aliyev. A feature film was made based on the motifs of Kitabi-Dade Gorgud.

The national leader highly appreciated the role of mass media in the country's democratic development. The great leader Heydar Aliyev believed in conveying the right information to the public only with the help of mass media. Heydar Aliyev was well aware of the role of mass media in the establishment of an independent state, and during the years he was in power, he was always sensitive to the issue. There are countless facts that confirm this. The great leader noted in his meetings with journalists that he attached great importance to media representatives at all stages of his activity.

Great leader Heydar Aliyev's attitude towards the press was always based on the necessary requirements of democratic development. On August 6, 1998, great leader Heydar Aliyev signed a decree "On additional measures to ensure freedom of speech, opinion and information in the country". According to one clause of that decree, the department protecting state secrets in the press was abolished. This meant the removal of censorship. From that time, a new stage began in the press of Azerbaijan.

President Ilham Aliyev, who confidently continues the great leader's policy in all fields, defined the care of science and education as one of the important tasks from the very first day and noted that "states that base their economic development strategy on scientific foundations and always refer to progressive traditions achieve dynamic development, in the world arena they take their rightful place". Today, the strength and power of each state is determined not only by its natural resources, but by its scientific-intellectual potential, human capital. This reality is also taken into account in our republic, the revenues obtained from oil are directed to the development of science and education.

Summarizing what has been mentioned, let us say that during the reign of the great leader, the creation of a wide network of educational institutions and the formation of the material and technical base of that network, sending young people to universities outside the republic, training military personnel played a special role in the development of education.

Also, the educational system in Azerbaijan has been regularly modernized based on the advanced world educational experience. The development directions, features and trends of education in the independent Republic of Azerbaijan have acquired a new content. The initiator and architect of the educational reforms implemented in Azerbaijan was our national leader Heydar

Aliyev, which is the factor that the educational reforms carried out in Azerbaijan are committed to the future of the nation, the ideology of Azerbaijanism, intellectually developed, moral ensured the upbringing of a mature, physically healthy generation.

References

1. Azerbaijani teacher.- 2010.- December 10.- P.4.
2. Higher school pedagogy. Baku, Nurlan, 2007.
3. Khudiyev N. Heydar Aliyev and the Azerbaijani language. Baku, "Science and education", 2014.

AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİ

[1,2]**Lalə Mətləb qızı Rüstəmova,** [1,3]**Gülnarə Qorxmaz qızı Qurbanova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]lala.rustamova@mdu.edu.az
[3]gulnara.qurbanova@mdu.edu.az

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır", - deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edib. Ötən əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları bu sahənin inkişafında xüsusi mərhələ təşkil edir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirilən təhsil islahatları bu sahənin inkişafına zəmin yaratdı. Hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı.

Həmin dövrdə təhsilin inkişafına xüsusi diqqət məktəb tikintisində də özünü göstərdi. 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən üç dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdı. Şagirdlərin sayı 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minə yüksəldi. 1970-1980-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verildi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7, təhsilalanların sayı isə 2,5 dəfə artdı. Onun təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirildi, 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başladı.

Dahi rəhbərin təhsil siyasətində ali məktəblərin fəaliyyətinin daha da yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi xüsusi yer tuturdu. 1969-cu il noyabrın 1-də Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Heydər Əliyev ana dilində söylədiyi nitqində ali təhsil sahəsində qarşıda duran vəzifələrdən danışdı. Bu, təkcə universitet kollektivi deyil, bütün Azərbaycan cəmiyyəti üçün milli ruhun oyanması istiqamətində bir dönüş anı oldu. Universitetin Azərbaycan xalqının həyatında, Azərbaycan elminin inkişafında mühüm rolunu vurğulayan Heydər Əliyev dedi: "1919-cu ildə, Azərbaycanın ictimai dairələrində universitet açmaq haqqında məsələ müzakirə olunduqda bəziləri şəkk gətirib deyirdilər ki, bu iş baş tutmayacaqdır, yaxşısı budur gəncləri xarici

ölkələrin tanınmış universitet mərkəzlərində təhsil almağa göndərək. Bu gün biz həmin inamsızlara deyə bilərik ki, dörd qitənin elçiləri təhsil almaq üçün Azərbaycana gəlirlər".

Ümummilli lider Heydər Əliyevin Azərbaycanına rəhbərlik etdiyi 1969-1982-ci illərdə beş yeni ali təhsil müəssisəsi açıldı və ali məktəb tələbələrinin sayı 70 mindən 100 minədək artdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəbdə 105 fakültə, 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

Respublika rəhbərinin təşəbbüsü və himayəsi sayəsində 1970-ci ildən başlayaraq, hər il gənclər SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. 1970-1980-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına şərait yaradıldı. Bu isə respublikanın milli kadr potensialının daha da gücləndirilməsində mühüm rol oynadı. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu 1982-1987-ci illərdə də Azərbaycan gənclərinin respublikanın hüdudlarından kənarda təhsil almasına şərait yaradırdı. Tez-tez azərbaycanlı tələbələrlə görüşür, onların problemlərinin həlli üçün bütün imkanlardan istifadə edirdi. Onları "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirirdi.

Dahi rəhbəri düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi idi. Onun təşəbbüsünün və uzaqgörənliyinin nəticəsi olaraq 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Ulu Öndər taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşır və onların xidmətlərini həmişə yüksək qiymətləndirirdi. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu olub. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər.

Beləliklə, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, azərbaycanlı gənclərin respublika hüdudlarından kənardakı ali məktəblərə təhsil almağa göndərilməsi, hərbi kadrların yetişdirilməsi, Respublika Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaradırdı.

"Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. Nəzərə almaq lazımdır ki, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın təcavüzkar siyasəti nəticəsində soydaşlarımızın deportasiyası və Qarabağın dağlıq hissəsinin işğal edilməsi ilə bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi Azərbaycan təhsili üçün əlavə çətinliklər yaratmışdı. Respublikanın çox ağır vəziyyətində rəhbərliyə qayıdan Heydər Əliyev bir çox problemləri həll etməklə yanaşı, təhsil sahəsində zamanın tələblərinə uyğun islahatlar həyata keçirməyə başladı. 1991-1993-cü illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirildi, planlı islahatların əsası qoyuldu. Ümumtəhsil məktəblərinin sayı və şagird kontingenti əsaslı surətdə artdı. Əgər 1993-1994-cü tədris ilində respublikanın 4364 ümumtəhsil məktəbində 1 milyon 549 min şagird təhsil alıbsa, 2002-2003-cü tədris ilində 4561 ümumtəhsil məktəbində 1 milyon 600 min nəfərdən çox yeniyetmə təhsilini davam etdirirdi.

Bununla yanaşı, təhsil sisteminin maddi-texniki bazası yaxşılaşdırıldı, 200 yeni məktəb binası tikilərək istifadəyə verildi, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edildi. İstedadlı uşaqların qabiliyyətini inkişaf etdirmək məqsədilə 30-a yaxın lisey və gimnaziya təşkil edilərək buraya 12 minə yaxın şagird cəlb olundu.

"Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir", - deyən Ulu Öndər Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb. 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı

və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu.

"Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb. Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının tədrisinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı. Əlbəttə ki, Heydər Əliyevin Azərbaycan dili ilə bağlı gördüyü işlər ayrıca bir yazının mövzusudur. Təkcə onu xatırladaq ki, 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyanda Azərbaycan dilinin ana dili kimi təsbit edilməsi, o illərdə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət Mükafatının verilməsi Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının, sevgisinin əyani təzahürü idi.

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" 2002-ci il 4 oktyabr tarixli, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" 2003-cü il 17 fevral tarixli sərəncamlar ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaradıb, mövcud problemlərin aradan qaldırılması yönümündə mühüm addımlar oldu.

İslahatlar təkcə təhsil müəssisələrini əhatə etmir, gənclərin təhsilə həvəsləndirilməsi üçün də əsaslı işlər görülürdü. Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında 2001-ci il 3 sentyabr tarixli Fərman bunun bariz nümunəsidir.

"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram", -deyən Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalırdı.

Ulu Öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq".

Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların fəxri adlarla və digər dövlət mükafatları ilə təltif edilməsinə dair bir çox sərəncamlar imzalayıb. Bütün bunlar Ulu Öndərin müəllim əməyinə verdiyi qiymətin əyani təzahürüdür.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev və mədəniyyət / [III cilddə] –Bakı: – c.3 – 2008.
2. Hüseynova, İ. Liderlik nümunəsi // Dirçəliş - XXI əsr, – 2009, № 130-131, – s. 90-98.
3. Qasımova, X. Milli mədəniyyətimizin xilaskarı // Xalq qəzeti – 2019. № 124, –s.13.
4. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. Bakı: Çaşıoğlu, 2005

HEYDƏR ƏLİYEV VƏ MİLLİ SƏNAYE-ENERGETİKA KOMPLEKSİNİN İNKİŞAFI

Elvin Amil oğlu Muradzadə
Mingəçevir Dövlət Universiteti
elvin.muradzada@mdu.edu.az

Giriş

Azərbaycan Prezidenti Heydər əliyev ölkənin sənaye və enerji kompleksinin formalaşmasında mühüm rol oynamışdır. 1993-cü ildə vəzifəsindən uzaqlaşdırıldıqda, müharibə nəticəsində dağılmış iqtisadiyyatı bərpa etmək və davamlılığı təşviq etmək tapşırıldı. Onun məqsədi zəngin enerji resurslarından istifadə etməklə Azərbaycanın sənaye bazasının modernləşdirilməsi və diversifikasiyası idi. Heydər Əliyevin vizyonu milli inkişafın təməl daşı kimi strateji planlaşdırmaya yönəlmişdi. İnvestisiyaları təşviq etmək, yeniliyi dəstəkləmək və iqtisadiyyatın əsas sektorlarında məhsuldarlığı artırmaq üçün uzunmüddətli hədəflər və praqmatik siyasətlər hazırladı. Onun rəhbərliyi altında Azərbaycan Aqrar iqtisadiyyatdan sənaye fəaliyyəti və enerji istehsalının dinamik mərkəzinə çevrilmişdir. Heydər Əliyev rəhbərliyi investisiya və sahibkarlıq üçün əlverişli mühitin yaradılmasına sadiqliyi ilə səciyyələnirdi. Bürokratik proseslərin sadələşdirilməsinə, tənzimləyici orqanların şəffaflığının artırılmasına və özəl sektorun iştirakının təşviqinə yönəlmiş islahatlar həyata keçirdi. Bu islahatlar xarici kapital cəlb etdi və yerli müəssisələrin dinamik ekosisteminin yaradılması üçün katalizator rolunu oynadı. Heydər Əliyev iqtisadi artımın dəstəklənməsi və resurslardan səmərəli istifadənin təşviqi üçün infrastrukturun vacib olduğunu da etiraf edib. Nəqliyyat şəbəkələrinin modernləşdirilməsi, enerji infrastrukturunun genişləndirilməsi və əsas xidmətlərə çıxışın yaxşılaşdırılması üçün təşəbbüslər başlatdı. Bu investisiyalar Azərbaycanın sənaye potensialını və regional və dünya bazar günləri ilə əlaqəsini gücləndirib. Heydər Əliyev həmçinin Azərbaycanın enerji portfelini şaxələndirmək və onun qalıq yanacaqlardan asılılığını azaltmaq üçün bərpa olunan enerji layihələri kimi alternativ enerji mənbələrinin inkişafını müdafiə edib. Onun irsi gələcək nəsillərə cəsarətli istəklərini izləməyə və firavanlığa öz yollarını açmağa ilham verməyə davam edir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə karbohidrogen ehtiyatlarının mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası, düşünülmüş yeni neft strategiyasının həyata keçirilməsi respublikamızın son 30 ildə yüksək tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaratdı. 1994-cü il sentyabrın 20-də 8 ölkənin 11 şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq sazişin imzalanması Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməlini qoydu. 1999- cu ilin dekabrında isə Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarına çıxarıldı. Artıq Azərbaycan dünyada islahatçı və dinamik inkişaf edən ölkə kimi tanınır.

Ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq tədbirlər onun dünyada oynadığı rolunu və əhəmiyyətini əyani olaraq göstərir. Cənubi Qafqaz respublikalarında istehsal olunan Ümumi Daxili Məhsulun 83 faizi Azərbaycanın payına düşür. Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirdi. O bununla cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. ulu öndərin rəhbərliyi ilə 1995-ci ildə Azərbaycanda sabitlik təmin edildi. Heydər Əliyev müstəqil dövlət quruculuğunun ilk mərhələsində siyasi lider kimi xilaskarlıqla sabitliyi qovuşdura bildi.

Metod

Heydər əliyevin Azərbaycanın sənaye və enerji kompleksinin inkişafına yanaşması çoxşaxəli və əhatəli olmuşdur. Onun metodologiyasına aşağıdakılar daxildir:

Strateji planlaşdırma

Heydər Əliyev davamlı inkişaf üçün uzunmüddətli strateji planlaşdırmanın vacibliyini qəbul edib. O, Azərbaycanın iqtisadi artımının daha geniş məqsədlərinə uyğun olaraq sənaye və enerji sektorları üçün aydın məqsəd və vəzifələr qoyub.

Siyasi islahatlar

Heydər Əliyev xarici investisiyaların cəlb edilməsi, özəl sektorun iştirakının təşviqi və əlverişli biznes mühitinin yaradılması məqsədilə bir sıra siyasi islahatlar həyata keçirib. Bu islahatlara tənzimləmə proseslərinin dekommunizasiyası, investorlar üçün təşviqlərin tətbiqi və idarəetmədə şəffaflıq və məsuliyyətin təmin edilməsi daxildir.

İnfrastruktura investisiya

Sənayenin və energetikanın inkişafına dəstək üçün infrastrukturun mühüm rolunu tanıyan Heydər Əliyev nəqliyyat, kommunal xidmətlər və Telekommunikasiya sahələrinə investisiyaları prioritet adlandırıb. İnfrastrukturun bu inkişafı mal və xidmətlərin səmərəli hərəkətinə, əlaqələrin genişlənməsinə və əlavə investisiyaların cəlb edilməsinə kömək etdi.

Müxtəliflik

Heydər Əliyev Azərbaycan iqtisadiyyatının enerji sektorundan kənarda şaxələndirilməsinin vacibliyini vurğulayıb. Neft və qaz gəlirlərindən asılılığını azaltmaq və balanslı böyüməni təşviq etmək üçün istehsal, kənd təsərrüfatı və texnologiya da daxil olmaqla müxtəlif sahələrin inkişafına təkan verdi.

Beynəlxalq əməkdaşlıq

Heydər Əliyev beynəlxalq tərəfdaşlarla fəal əməkdaşlıq edib, təcrübəni, texnologiyaları və investisiyaları artırmaq üçün strateji alyanslar və tərəfdaşlıq münasibətləri yaradıb. Bu əməkdaşlıq Azərbaycanın sənaye və enerji potensialını daha da artırmış, onun bilik ötürülməsini, texnologiya mübadiləsini və bazara çıxışını asanlaşdırmışdır.

Nəticə

Yuxarıda irəli sürülən problemin fəlsəfəsindən çıxış edərək məqaləni tezis şəklində aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. Nəzəri interpretasiyalar sübut edir ki, dünyada istər münaqişələrin, müharibə və ziddiyyətlərin aradan qaldırılmasında, o cümlədən, postmünaqişə dövründə yeni dialoq mədəniyyətinin formalaşması üçün yeni bir konsepsiya, yeni dialoq mədəniyyəti platforması zərurət kimi çıxış edir. 2. Ulu öndər Heydər Əliyevin siyasi irsi və dövlətçilik fəlsəfəsi müasir regional və qlobal münaqişə və müharibələrin həllində strateji əvəzsiz paradiqmadır. Bu paradiqmanın öyrənilməsi və dünyada tətbiqi müasir humanitar təfəkkürün qarşısındadır.

2. Azərbaycanın yaratdığı bu yeni reallıqda ideologiyaların qarşılıqlı ziddiyyətdə olduğu şəraitdə böyük dialoq mədəniyyətini formalaşdırmaq zəruri bir prosesdir.

3. Postmünaqişə dövrünün travmasını yaşayan Ermənistanı revanşist, mifik tarixi keçmiş realizmindən məhrum etmək və onların da təfəkküründə tolerantlıq, multikulturalizm, dialoq və dialoq mədəniyyətini formalaşdırmaq bəşəri bir problem kimi regionun bütün xalqlarını düşündürməlidir.

4. Regional sülhün təmin edilməsi ulu öndər Heydər Əliyevin dövlətçilik amalı idi bu müqəddəs vəzifə hal-hazırda şəxsən Ali Baş Komandan prezident İ.H.Əliyevin strategiyasının əsası kimi çıxış edir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev Heydər / Azərbaycan Milli Ensiklopediyası. VIII c., Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2018, s. 357-360.

2. Hacıyev İ.M. Heydər Əliyev siyasəti: tarix və müasirlik. Bakı: Elm, 2023, 336 s.

3. Heydər Əliyev akademik yaddaşda. İstanbul, 2019, 359 s.

4. Böyük Qayıdış: Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara tarixi səfərləri. I kitab, Bakı: Şərq-Qərb, 2021, 332 s.

5. Bzejinski Z. Böyük şahmat taxtası. Bakı: Qanun, 2015, 328 s

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏHSİL İSLAHATLARI VƏ MÜASİR DÖVRDƏ TƏZAHÜRÜ

[1,2]**Elçin Məhəmmədiyə oğlu Əliyev,** [1,3]**Könül Elçin qızı Eyvazova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]elchin.aliyev@mdu.edu.az
[3]konul.eyvazova@mdu.edu.az

"Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır".

(Heydər Əliyev)

Tarixi şəxsiyyətlər yaşadıqları dövrün cəmiyyətinə mühüm təsir göstərmiş, öz xalqının, ölkəsinin və dünyanın tarixində əsas rol oynamış insanlardır. Onların fikirləri, fəaliyyətləri və yaradıcılığı, bəzi hallarda dövrlərini həqiqətən dəyişdirərək, tarixi dəyişikliklərə səbəb olmuş və müasir dünyanın inkişafında tarixi iz qoymuşlar. Bu şəxsiyyətlər zaman-zaman tarixi hadisələrlə və dəyişikliklərlə əlaqələndirilir və fəaliyyətləri cəmiyyətin siyasi, mədəni, elmi, ictimai və iqtisadi inkişaf tarixi və gələcəyi üçün müxtəlif formalarda qiymətləndirilir. Tarixi mənbələrə istinadən Azərbaycanda elmi, mədəni və milli tərbiyənin əsas ideyaları hələ miladdan - 1300 il bundan əvvəl yaranmış ilk yazılı abidəmiz olan "Kitabi Dədə Qorqud"da öz əksini tapmışdır. Sonrakı dövrlərdə, X-XIII əsrlərdə ölkənin Təbriz, Marağa, Gəncə, Naxçıvan, Şamaxı, Həmədan, Ərdəbil kimi şəhərlərində təhsili və elmi yüksək məqama qaldıran təhsil, elm və mədəniyyət mərkəzləri fəaliyyətə başlamışdır. Doğrudur, həmin dövr üçün təhsil hamını əhatə etmirdi. Lakin təhsilə, elmə maraq göstərənlər, sistemli təhsil alıb ölkənin sosial-iqtisadi, siyasi, mədəni həyatında fəal iştirak edirdilər. Azərbaycanın tarixi boyunca təhsil və elm sahəsinin inkişafında xüsusi rolu olan ustadlardan bir neçəsinin adlarını qeyd etmək məqdəsəuyğun olar: Böyük şair-filosof Azərbaycan klassik ədəbiyyatının yaradıcısı Nizami Gəncəvinin (1141-1209) əsərlərində təhsilin və biliyin əhəmiyyəti geniş tərənnüm olunmuş, əsrlər boyu ölkəmizdə, hətta bütün dünyada müxtəlif dillərə tərcümə olunaraq geniş yayılmışdır; Azərbaycanın ilk milli tarixini yaradan, yerli əhaliyə dərs deyən ilk milli məktəbin əsasını qoyan tarixçi, yazıçı və müəllim Abbasqulu Ağa Bakıxanov (1794-1847); Bakıda ilk milli məktəbin banisi və Azərbaycan dilində ilk dərsliyin müəllifi maarifçi və ictimai xadim, Mirzə Fətəli Axundov (1812-1878); pedaqogika və pedaqoji tədqiqatlara dair ilk Azərbaycan jurnalının yaradıcısı, müəllim, şair və ictimai xadim Mirzə Mehtibəy Axundov (1857-1930); XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif bölgələrində məktəb, kitabxana və digər təhsil müəssisələrinin tikintisini təşkil edən və maliyyələşdirən böyük sahibkar və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev (1838-1924). Sadalanan tarixi şəxsiyyətlər Azərbaycanın keçmiş tarixi dövrünün qəhrəmanlarıdır.

Müasir dövrümüzün qəhramanı, sərkərdəsi və Ümummilli lideri isə Heydər Əlirza oğlu Əliyevdir (1923-2003). H.Əliyev ömrünün müxtəlif dövrlərində Azərbaycan təhsilinin inkişafına, o cümlədən yeni məktəb və universitetlərin yaradılmasına, təhsil sistemində islahatların aparılmasına və respublikada təhsilin səviyyəsinin yüksəldilməsinə mühüm töhfələr vermiş tarixi lider və uzaqgörən siyasətçidir. Təqdim olunan məqalədə Heydər Əliyevin Azərbaycanda sovetlər birliyi və müstəqillik dövründə həyata keçirdiyi təhsil islahatları təhlil edilərək, müasir təhsil sistemindəki təzahürləri araşdırılmışdır.

Heydər Əliyev həm sovet, həm də müstəqillik dövründə Azərbaycan Respublikasına rəhbərlik edərək, təhsil sisteminə əhəmiyyətli dərəcədə təsir edən bir neçə mühüm islahatlar həyata keçirmişdir. Belə ki, 1969-1987-ci illərdə təhsil sahəsində aparılmış uzaqgörən və məqsədyönlü islahatlar nəticəsində məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatdırılmış, 350 mindən çox şagird yeri olan 680 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, tədricən 8 illik təhsildən orta icbari təhsilə keçid edilmişdir. Peşə məktəblərinin sayı 84-dən 173-ə, təhsil alanların sayı isə 44 mindən 120 min nəfərə çatdırılmışdı. Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə respublikada 5 yeni ali məktəb yaradılmış, bütün pillələrdən olan təhsil müəssisələrinin maddi-

texniki bazası möhkəmləndirilmiş, ali məktəblər üçün tədris korpusları, yataqxanalar inşa edilmişdir. Həmçinin Bakı Dövlət Universiteti üçün yeni şəhərciyin tikilməsi haqqında, Azərbaycan Kənd Təsərrüfat Akademiyası (indiki Gəncə Dövlət Aqrar Universiteti) üçün Gəncədə xüsusi şəhərciyin salınması planlaşdırılmış və bu barədə qərar qəbul edilmişdir.

Beləliklə, XX əsrin 70-80-ci illəri Azərbaycan təhsilinin uğurlu inkişaf mərhələsi kimi qeyd etmək olar. Belə ki, 1969-cu ilin birinci yarısınadək respublikanın 12 ali məktəbində 105 fakültə, 450 kafedra, 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, Heydər Əliyevin rəhbərliyi dövründə 17 ali məktəb, 136 fakültə, 530 kafedra, 175 ixtisas yaradılmışdır [1-3]. Bu da həmin dövr üçün təhsil sahəsinin uğurunu ifadə edirdi. Beləliklə, sovet təhsil sistemi bir sıra mütərəqqi xüsusiyyətləri və bəzi neqativ meyilləri özündə birləşdirən təhsil sistemi kimi dünya təhsil tarixində özünəməxsus yer tuturdu. Azərbaycan xalqı Ümummilli liderin dəstəyi ilə təhsil sistemində dünya mədəniyyətinə qovuşmaq, elmin qabaqcıl nailiyyətlərini mənimsəyərək gənc nəslə ötürmək, müxtəlif sahələrdə qabaqcıl elmi ideyalarla silahlanmış yüksəkixtisaslı milli kadrlar hazırlamaq imkanı əldə etmişdir. Bundan əlavə Ümummilli lider Azərbaycan dilli təhsilin kütləviləşməsini təmin etməklə savadsızlığın aradan qaldırılmasına şərait yaratmış, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsinin, ümumtəhsil, orta ixtisas, peşə-texniki və ali məktəblərin təlim şəbəkəsini formalaşmasını təmin etmişdir. Etiraf etmək lazımdır ki, hazırda dünyanın inkişaf etmiş ölkələrinin universitetləri və elmi-tədqiqat müəssisələrində müvəffəqiyyətlə işləyən Azərbaycan alimləri məhz Ümummilli liderin dəstəyilə sovet təhsil sisteminin yetirmələridirlər.

XX əsrin sonlarında Sovetlər Birliyinin dağılması ilə əlaqədar 1991-ci ilin oktyabrın 18-də respublika parlamentində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi və milli müstəqillik qazanan ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu öndərin siyasi hakimiyyətə yenidən gəlişi ölkədə iqtisadiyyatın dağıldığı, vətəndaş qarşıdurması və dövlət çevrilişlərinə cəhdlərin artdığı, ordu quruculuğunda və xarici siyasətdə əks-mövqeyin hökm sürdüyü dövrə təsadüf edirdi. Bu zaman Azərbaycan təhsili keçid dövrünü yaşayırdı. İqtisadi, ictimai-siyasi və mədəni-mənəvi həyatdakı ziddiyyətlər Azərbaycan təhsilini böyük çətinliklər qarşısında qoymuşdu. Ulu öndər bu dövrü belə səciyyələndirmişdi: "1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil olmamışdır, ancaq Azərbaycan xalqı böyük inkişaf yolu keçmişdir" [3]. Sovet cəmiyyətində təhsilin inkişafında ən böyük qüsur şagirdə obyekt kimi münasibət bəslənilməsi, ona öz istədiyini deyil, məsləhət bilinəni öyrətməyə məcbur edilməsi prinsipi olmuşdur. Təhsilin inkişafına xüsusi diqqət yetirən Ulu öndər bu prinsipi ləğv edərək, ölkədə müharibə şəraitinin və bir sıra sosial-iqtisadi səciyyəli problemlərin olmasına baxmayaraq, 1991-2000-ci illərdə uşaqların təhsildən kənarda qalmasına imkan verməmişdir. Belə ki, Ümumimilli Lider təhsil müəssisələrinin maddi-texniki bazasının genişləndirilməsi istiqamətində planlı islahatları həyata keçirərək 200 yeni məktəb binası tikilərək istifadəyə verilmiş, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edilmşidir. İstedadlı uşaqların qabiliyyətini inkişaf etdirmək məqsədilə 30-a yaxın lisey və gimnaziya təşkil edilərək, bura 12 minə yaxın şagird cəlb olunmuşdur. Bu dövrlərdə təhsil işçilərin əmək haqqının artırılması barədə 9 xüsusi sərəncam imzalanmış, müəllim kadrlarının əmək haqqı 4.5 dəfə yüksəldilmişdir.

XX əsrin 90-cı illərinin əvvəllərindən həyata keçirilməsi nəzərdə tutulan təhsil islahatlarını yalnız ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və böyük köməyi nəticəsində reallaşmaşdırmaq mümkün olmuşdur. Bu cəhətdən Heydər Əliyevin "Təhsil millətin gələcəyidir…" əsəri xüsusi maraq doğurur. Kitabda Heydər Əliyevin 1969-2002-ci illərdə müəllimlər qurultaylarında, mötəbər məclislərdə, görüşlərdə uşaq və gənclərin təhsili, ölkəmizdə milli təhsil quruculuğu və islahatları haqqında etdiyi məruzə, nitq və çıxışlar xronoloji ardıcıllıqla toplanmışdır. Kitab bu böyük insanın öz xalqının təhsilinə, intellektual potensialının möhkəmləndirilməsinə, təhsil sisteminin ahəngdar inkişafına göstərdiyi böyük qayğının əyani sübutudur. Məhz Ümummilli liderin uğurlu təhsil siyasəti Azərbaycan təhsilini dünyanın YUNESKO, YUNİSEF, YUNİVOK, İSESKO, Avropa Təhsil Fondu, Avropa Şurası, Avropa İttifaqı və başqa nüfuzlu beynəlxalq təşkilatlarının təhsil problemləri ilə məşğul olan qurumlarında yaxından tanıdaraq, xarici ölkələrin təhsil işçilərinin təhsil sistemimizlə bağlı əməkdaşlığı beynəlxalq əlaqələrin genişləndirilməsinə səbəb olmuşdur.

Bununla yanaşı ölkədə yeni ali təhsil müəssisələri yaradılıb, müxtəlif təhsil ocaqlarında genişmiqyaslı təmir və modernləşdirmə işləri aparılmışdır.

Heydər Əliyevin sovet və müstəqillik dövründə apardığı təhsil islahatlarını təhlil edərək qeyd etmək olar ki, müstəqillik dövründə təhsil sistemində daha çox dəyişikliklər baş verib. Azərbaycan təhsilinin 1969-2003, 2003-2023-cü illər üzrə inkişafının təhlili göstərir ki, milli təhsilimiz aşağıdakı mərhələlərdən keçmişdir:

1. Azərbaycan təhsilinin yenidən təşkili və yüksəlişi dövrü (1969-1982-ci illər);
2. Azərbaycan təhsilinə Heydər Əliyevin Moskvada yüksək hökumət vəzifəsində çalışdığı dövrdə qayğı və köməkliyi (1982-1987-ci illər);
3. Heydər Əliyevin tutduğu rəhbər vəzifələrdən uzaqlaşdırılması ilə əlaqədar respublika həyatının bütün sahələri kimi Azərbaycan təhsilinin depressiya dövrü (1993-cü ilin iyun ayından – 1999-cu ilin birinci yarısınadək olan dövr – yəni yeni təhsil islahatlarının aparılmasınadək olan dövr);
4. Yeni təhsil islahatlarının hazırlanması və keçirilməsi mərhələsi 1999-cu ilin ikinci yarısından – 2003-cü ilin sonuna kimi olan dövr;
5. Ulu öndər Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, təhsil siyasətinin də layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi (2003-cü ildən indiyə kimi).

Ümumiyyətlə, müstəqillik dövründə təhsildə aparılan islahatlar Azərbaycanda təhsilin keyfiyyətinin yüksəldilməsinə, təhsil sisteminin müasirləşdirilməsi və ali təhsilin inkişafına yönəlib. Belə ki, 2001-ci ildən başlayaraq Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması, ölkəmizin Qərb dövlətlərinə inteqarsiyası ali təhsil sisteminin inkişaf prioritetlərini Avropa Təhsil məkanında gedən proseslərə qoşulmaqla möhkəmləndirdi. Hazırkı mərhələdə ali təhsil sahəsində həyata keçirilən islahatların əsas istiqamətini "Boloniya prosesi" prinsipi təşkil edir. Onu da qeyd edək ki, Azərbaycan Boloniya prosesinə 2004-cü ildə qoşulmuşdur. Bu islahatlar bu gün də davam edir, ölkədə təhsilin keyfiyyətinin yüksəldilməsi, ali təhsilin inkişafı, təhsil sahəsinə ən yaxşı mütəxəssislərin cəlb edilməsi istiqamətində ümummilli liderin layiqli davamçısı Cənab İlham əliyev tərəfindən uğurlu, davamlı və dayanıqlı islahatlar həyata keçrilir. Bunun bariz nümunəsi kimi, 28 iyul 2022-ci il tarixində Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanını qeyd etmək olar. Fərmana əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi adlandırıldı. Ölkənin elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Nazirliyə həvalə edilmişdir.

Beləliklə, cənab İlham Əliyevin təhsil sahəsində apardığı uğurlu islahatlar ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Hər bir sahədə olduğu kimi, təhsil sahəsində də islahatların uğuru bir çox amillərdən asılıdır. Lakin qeyd etmək lazımdır ki, təhsil islahatlarının uğuru təkcə siyasi iradə və liderlikdən deyil, həm də cəmiyyətin, müəllimlərin, tələbələrin və digər maraqlı tərəflərin uğurlu iştirakından asılıdır. Bu baxımdan Azərbaycanda təhsil sahəsində aparılan islahatlar cəmiyyətdə geniş dəstək qazanıb və bütün maraqlı tərəflərin fəal iştirakı ilə həyata keçirilib. Daha dəqiq desək, Azərbaycanın təhsil islahatlarına təhsilə çıxış imkanlarının genişləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, kurikulumların və tədris metodlarının müasirləşdirilməsi, tədqiqat və innovasiyaların təşviqi və əmək bazarının tələblərinə cavab verən kadr hazırlığı daxildir. Bütün bu uğurlar Azərbaycanda əlverişli təhsil mühitinin yaradılmasına və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artmasına xidmət etmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir.
2. Baxşəliyev F. Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf yolları (1969-1999-cu illər – islahataqədərki dövr) // Xəbərlər ADPU, № 4, 2006, c. 68-78
3. Baxşəliyev F. Heydər Əliyev milli təhsil nəzəriyyəsinin və yeni təhsil islahatının yarıdıcısıdır // Xəbərlər ADPU, № 5, 2007, s.21-27.

4. Baxşəliyev F. Heydər Əliyev və Azərbaycanın təhsil sistemində aparılan islahatların əsas istiqamətləri (monoqrafiya) /ADPU-nun nəşriyyatı, 2009, 168 s.
5. Heydər Əliyev: biblioqrafiya / Layihə. Rəhbəri. Ə.Qarayev; tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. Bakı, 2018. 680 s.

AZƏRBAYCANIN MÜƏLLİMLƏRİ ƏN YÜKSƏK MƏNƏVİYYATA, VƏTƏNDAŞLIQ HİSSLƏRİNƏ MALİK OLAN İNSANLARDIR

[1,2]**Gülnigar Saleh qızı Osmanova,** [1,3]**Səyyarə İlham qızı Yusifova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]gulnigar.osmanova@mdu.edu.az
[3]sayyara.yusifova@mdu.edu.az

"Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır".
(Heydər Əliyev)

"Həqiqi dahi o insandır ki, ürəyi hamı üçün döyünür". Dünyaşöhrətli fransız yazıçısı, Nobel mükafatı laureatı Romen Rollanın bu müdrik fikri müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya azərbaycanlılarının fəxri və Ümummilli Lideri, böyük siyasətçi və mütəfəkkir Heydər Əliyevin həyat idealını çox dəqiq ifadə edir. Anadan olmasının ildönümlərini hədsiz qürur hissi ilə qeyd etdiyimiz qüdrətli dövlət xadimi Heydər Əliyevin ömür yolu nəcib məqsədlərə, işıqlı ideallara, Vətənə və millətə təmənnasız olaraq sədaqətlə xidmətin parlaq nümunəsidir. Azərbaycanın xalqımıza şərəf və başucalığı gətirən müasir tarixinin zəfər salnaməsinin yaradılmasında böyük rəhbərimizin ölçüyəgəlməz xidmətləri danılmaz və unudulmaz həqiqətdir. Fövqəladə idarəetmə məharətinə, heyrətamiz siyasətçi istedadına, yenilməz qətiyyətinə və sarsılmaz iradəsinə, ən çıxılmaz vəziyyətlərdə belə konstruktiv müdrik qərarlar qəbul etmək bacarığına görə Heydər Əliyevin adı dünyanın ən məşhur şəxsiyyətləri ilə bir sırada çəkilir. XX əsr Azərbaycan tarixinin bütöv bir qərinəsi - 30 ildən artıq dövrü məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. XX əsrin ən parlaq simalarından və nadir şəxsiyyətlərindən olan Heydər Əliyev şərəfli həyat və fəaliyyəti ilə xalqımızın simvolu səviyyəsinə yüksəlmişdir. O, qədirbilən xalqımızın, eləcə də onunla birlikdə çalışmış və ünsiyyətdə olmuş digər ölkələrin dövlət rəhbərlərinin, habelə sadə vətəndaşlarının yaddaşında xariqələr yaratmağa, siyasi uzaqgörənliyi ilə zəmanəsinin fövqündə durmağa qadir dahi insan olaraq əbədiyyət qazanmışdır.

Heydər Əliyev şəxsiyyəti və müdrikliyi dünyada çox insanları heyran etmişdir. Görkəmli ABŞ siyasətçisi Zbiqnev Bzejinski onu beynəlxalq səviyyəli, qətiyyətli, uzaqgörən dövlət xadimi, tarixi əhəmiyyətli lider, Rusiya prezidenti Vladimir Putin "siyasət nəhəngi", ABŞ-ın sabiq prezidenti Corc Buş "Cənubi Qafqazda ən əsas şəxsiyyət", böyük gürcü rəssamı Zurab Sereteli "dünya vətəndaşı", Rusiya siyasi xadimi Yevgeni Primakov "tarix yaradan insan" kimi yüksək qiymətləndirmişlər. Qardaş Türkiyənin sabiq prezidenti Əhməd Necdət Sezər yazırdı ki, "Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm" [2]. Sovet İttifaqı Qəhrəmanı, dövlət xadimi Boris Qromov qeyd etmişdi ki, "Şübhə yoxdur, Heydər Əliyevin adı vətənimizin tarixinə qızıl hərflərlə yazılacaqdır". Bu isə tanınmış siyasətçi Kirşan İlyumjinovun fikridir: "Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir". Vaxtilə Ulu Öndərlə tanış olmuş Klivlend klinikası təhlükəsizlik xidmətinin rəisi yazmışdı ki, "Ona yaxın olmaq möcüzə idi. Həyatda yalnız bircə dəfə baş verə biləcək möcüzə!" [4].

Bu gün hər bir Azərbaycan vətəndaşının qəlbində Ümummilli Liderimizin ölməz işıqlı obrazı yaşayır. Zaman ötdükcə Heydər Əliyev dühasının əzəməti daha aydın hiss olunmaqdadır. Təsadüfi deyil ki, bu gün dünyanın siyasət aləmində Heydər Əliyev fenomeni hərtərəfli öyrənilməli və bəhrələnməli məktəb kimi qəbul edilir.

Ulu Öndər şərəfli həyat və fəaliyyətinin bütün dövrlərində möhtəşəm quruculuğun, sosial-iqtisadi inkişafın, ictimai-siyasi sabitliyin, əmin-amanlığın, dövlətçiliyin təminatçısı olmuş, ən ağır vaxtlarda xalqımız və dövlətimizin mənafeyi naminə xilaskarlıq missiyasını yerinə yetirmişdir. Onun Azərbaycanda siyasi hakimiyyətdə olduğu ilk dövrü əhatə edən 1969-1982-ci illər ölkəmizin müasir tarixinin şanlı səhifələri, intibah dövrü kimi qiymətləndirilir. O vaxtlar tənəzzül və durğunluq burulğanında qalmış, nəinki xarici dövlətlərdə, hətta keçmiş Sovetlər Birliyinin hüdudları daxilində yaxşı tanınmayan, "imzalar içində imzası olmayan" Azərbaycanın qısa zamanda sosial-iqtisadi inkişaf baxımından qabaqcıllar sırasına çıxması, adlı-sanlı respublika imici qazanması birmənalı şəkildə Heydər Əliyevin idarəetmə istedadının, onun qibtəolunası təşkilatçılıq bacarığının, tükənməz yaradıcılıq əzminin məntiqi nəticəsi idi.

Bu gün Vətən və millət qarşısında öz məsuliyyətini dərindən dərk edən hər bir soydaşımız üçün Ümummilli Lider Heydər Əliyev dövlətçiliyimizin rəmzi, müstəqil Azərbaycanın xilaskarı və qurucusu, ən böyük azərbaycanlıdır. Azərbaycan keçən əsrin 90-cı illərinin əvvəlində yaranmış siyasi və iqtisadi böhrandan, başıpozuqluqdan, anarxiya və vətəndaş müharibəsi təhlükəsindən 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ulu Öndərin böyük rəhbərlik təcrübəsi, yenilməz siyasi iradəsi və qətiyyəti sayəsində xilas ola bilmiş, dinamik inkişaf yolunda inamla irəliləməyə başlamışdır. Məhz onun möhtəşəm fəaliyyəti nəticəsində Azərbaycan XXI əsrə müstəqil müasir dövlət kimi qədəm qoymuşdur. Cəmiyyətin siyasi, sosial-iqtisadi mənzərəsini dəyişmək, insanların dünyagörüşünün, mənəviyyat və psixologiyasının humanist və demokratik ideallara söykənən bəşəri dəyərlər zəminində formalaşması üçün ideoloji əsas yaratmaq, insanların qürur və istinad mənbəyi zirvəsinə, xalqın lideri olmaq məqamına ucalmaq yalnız Ulu Öndər Heydər Əliyev kimi nadir şəxsiyyətlərə bəxş edilən xoşbəxtlikdir [5].

Dahi və uzaqgörən dövlət rəhbəri Heydər Əliyev Azərbaycanda güclü iqtisadiyyatın yaradılması ilə bərabər, cəmiyyətin tərəqqisinin əsas hərəkətverici qüvvəsi hesab olunan təhsilin inkişafına da böyük diqqət və müntəzəm qayğı göstərmiş, Azərbaycan təhsilinin mütərəqqi dünya dövlətlərindəki səviyyəyə yüksəlməsi ilə bağlı taleyüklü məsələlərin həyata keçirilməsini dövlət siyasətinin başlıca prioriteti elan etmişdir. İnkarolunmaz həqiqətdir ki, Azərbaycanda təhsil islahatlarına başlanması, Dünya Bankının islahatlar prosesinə cəlb edilməsi, islahatların hüquqi-normativ bazasını təşkil edən direktiv sənədlərin qəbulu, təhsil sahəsində öz həllini gözləyən problemlərin aradan qaldırılmasına yönəlmiş bir sıra dövlət proqramlarının təsdiqi birmənalı şəkildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və qətiyyətli mövqeyi sayəsində mümkün olmuşdur.

Dünyaşöhrətli dövlət xadimi, Azərbaycan xalqının milli və mənəvi lideri Heydər Əliyevin öz həmvətənlərinə müqəddəs əmanət qoyduğu müstəqil Azərbaycan onun ölməz ideyalarının işığında ölkə Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. 2003-cü ildən bu günədək Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi sahələrdə əldə etdiyi möhtəşəm uğurlar Heydər Əliyev ideallarına, Ulu Öndərin siyasi kursuna sadiqliyin əyani təzahürüdür.

Şöhrəti və nüfuzu sərhəd tanımayan, əbədiyaşarlıq zirvəsinə ucalan Heydər Əliyevin əzəmətli şəxsiyyəti, onun Azərbaycana, doğma xalqına həsr edilmiş şərəfli ömür yolu, mübarizə və qələbələrlə zəngin fəaliyyəti bu günün və gələcəyin gəncləri üçün parlaq nümunə, ibrətamiz tərbiyə məktəbidir. Ulu Öndərin ölkə vətəndaşlarına qiymətli əmanəti hesab edilən əvəzolunmaz irsi - xarici və daxili siyasət quruculuğuna, iqtisadiyyatın, elmin, təhsil və mədəniyyətin inkişafına, dövlətçilik ənənələrinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə, dövlətin idarəolunması

texnologiyalarına, cəmiyyətdə insan amilinin və mənəvi ucalığın, Vətən təəssübünün prioritet dəyərlər kimi qiymətləndirilməsinə həsr edilmiş proqram istiqamətli nitq və çıxışları, müsahibələri XXI əsr Azərbaycan vətəndaşının yetkin şəxsiyyət olaraq formalaşması üçün daim öyrənməli zəngin xəzinədir. Dahi rəhbərin dünyanın nüfuzlu dövlət başçıları, siyasi xadimləri ilə keçirdiyi görüşlərdə nümayiş etdirdiyi taktiki ustalıq, dialoq mədəniyyəti və müsahibini öz təsir dairəsində saxlamaq istedadı isə gələcək siyasətçilər üçün ibrətamiz ustad dərsləridir. Hazırkı dövrdə təhsil işçiləri, bütövlükdə pedaqoji ictimaiyyətin ən başlıca vəzifəsi gənc nəslin hər bir nümayəndəsini dahi Heydər Əliyevin nümunəsində, onun banisi olduğu azərbaycançılıq məfkurəsinin timsalında tərbiyə etməkdən, ulu rəhbərin zəngin elmi-nəzəri irsini davamlı surətdə uşaq və gənclərə öyrətmək üçün əzmlə çalışmaqdan, bu şərəfli işi Vətən və xalq qarşısında vətəndaşlıq borcu kimi qiymətləndirərək yerinə yetirməkdən ibarətdir.

Bu sətirləri yazarkən Ulu Öndər bütün əzəməti ilə gözlərim önündə canlandı... Doğma, qəlbləri riqqətə gətirən bir mənzərənin sehrinə düşmüşdüm. İnsanların gur toplaşdığı geniş və işıqlı bir salonda dahi rəhbərimiz tribuna arxasında idi. Həmişə olduğu kimi inamlı, qətiyyətli... Çöhrəsindən nur yağırdı. Alqış sədaları kəsilmək bilmirdi... Budur, nüfuzedici nəzərlərlə salona diqqət yetirdikdən sonra o, aramla nitqinə başlayır...

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilsiz xalq müasir şəraitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşar. Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Çünki hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Xüsusən, aparıcı qüvvə, hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır [7].

İnsanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşflər etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar. Müasir həyat və dünyanın gələcəyi insanlardan daha da çox bilik tələb edir. Bilik səviyyəsinə də nail olmaq üçün təhsil daim mövcud olmalıdır və o, ardıcıl surətdə inkişaf etməlidir. Biz gələcəkdə Azərbaycanın təhsilinin daha da təkmilləşməsinə, keyfiyyətinin yüksəlməsinə nail ola biləcəyik. Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır.

Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər - keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir. Çoxəsrlik tariximizdə xalqımız bəşər mədəniyyətinə, elminə böyük töhfələr vermiş, xalqımızın içərisində böyümüş görkəmli alimlər, ixtiraçılar, şairlər, yazıçılar dünya mədəniyyətini, elmini öz əsərləri ilə zənginləşdirmişlər. Bu gün biz fəxr edə bilərik ki, regionumuza mənsub olan başqa ölkələrlə müqayisədə xalqımızın bilik, savad, elm, mədəniyyət səviyyəsi bir çoxundan yüksəkdir. Birincisi, bu, xalqımızın istedadlı xalq olduğunu bir daha nümayiş etdirir, qədim dövrlərdən indiyə qədər xalqımızın içində zəkalı, elm və təhsil ilə məşğul olan mütəfəkkir insanların olması ilə bağlıdır. Əsrlərdən-əsrlərə xalqımız istedadlar yetiribdir. Bu istedadlar Azərbaycan xalqının mənəviyyatını, elmini, ədəbiyyatını, incəsənətini yaradıb, yaşadıb, inkişaf etdiriblər. Məhz xalqımızın istedadlarının fəaliyyəti nəticəsində və xalqımızın mənəviyyata, mədəniyyətə xüsusi qayğısı və münasibəti nəticəsində Azərbaycan xalqının böyük, gözəl mədəniyyəti, böyük elmi yaranıbdır. Azərbaycanın görkəmli elm, mədəniyyət xadimləri, incəsənət ustaları dünya mədəniyyətinə gözəl töhfələr verib, onu zənginləşdiriblər. Şübhəsiz ki, istedad qayğı istəyir. Qayğı olmayanda istedad bəzən özünə yol tapa bilmir, yaxud da ki, onun inkişaf yolu çətin olur. İstedadı cəmiyyətə, xalqa göstərmək lazımdır, ona istedadını inkişaf etdirmək üçün kömək etmək, istedada yol açmaq

lazımdır. Azərbaycanda uşaqların əksəriyyəti çox istedadlıdır. Əgər valideynlər, məktəblərdə müəllimlər, təhsil sahəsində fəaliyyət göstərən bizim vətəndaşlarımız uşaqların tərbiyəsinə, təhsilinə qayğını daha da artırsalar, biz gələcəkdə daha da istedadlı Azərbaycan gənclərinə, vətəndaşlarına malik olacağıq.

Təhsil sahəsi müqəddəs sahədir. Çünki təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur. Amma bununla yanaşı, təhsilimizin ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Vətəndaş sözü böyük sözdür. Vətəndaş sözü o deməkdir ki, hər bir vətəndaş gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır.

Təhsil sahəsi cəmiyyət üzvlərinin, demək olar ki, tam əksəriyyətini həm maraqlandırır, həm də onların bu və ya digər şəkildə iştirakını tələb edir, yaxud da iştirakı ilə bağlıdır. Bir də ona görə ki, təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır. Təhsil də daim təkmilləşdirilməlidir. Təhsil haqqında danışarkən istərdim ki, həm orta məktəbdə, həm də ali məktəbdə təhsil alan gənclərimiz dünya elminin, dünya mədəniyyətinin əldə etdiyi dəyərlərlə nəinki tanış olsunlar, habelə onu mənimsəməyə şərait yaradılsın. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir.

Təhsil sistemi Azərbaycanın gələcəyini təmin edən bir sistemdir. Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Bizim müstəqil dövlət olmağımız, müstəqil dövlət olaraq dünyada tanınmağımız və Dünya Birliyində yer tutmağımız onu tələb edir ki, bizim ölkəmizin, xalqımızın bütün sahələrdə gərək yüksək ixtisasa malik olan, dünyada gedən elmi-texniki proseslə nəinki ayaqlaşan və bəlkə də müəyyən istiqamətlərdə onu qabaqlayan, buna qabil ola bilən kadr potensialı olmalıdır. Buna görə də biz, ümumiyyətlə, təhsil sahəsinə xüsusi fikir veririk. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin, əsasın üzərində Azərbaycanın təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcək, inkişaf edəcək və Azərbaycan uşaqları, gəncləri bu inkişaf dövrümüzdə ilbəil daha da geniş, yüksək təhsil alacaqlar.

Azərbaycan Respublikasının, Azərbaycan xalqının XX əsrdə böyük nailiyyətlərindən biri də budur ki, bizdə yaxşı orta təhsil sistemi yaranmışdır və orta məktəblərimiz gənclərə yaxşı təhsil verir, onları tərbiyələndirir, gələcək müstəqil həyata hazırlayır, ali təhsil almağın bünövrəsini qoyur. Ümumi təhsil xalqın mentalitetidir, dünya xalqları ilə müqayisə olunacağı səviyyədir. İndi dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, bu gün yuxarı siniflərə girən şagirdlər, ali məktəblərə daxil olan gənclər təhsil, bilik almalıdırlar, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün, gələcəkdə respublikamızı inkişaf etmiş bir ölkəyə çevirmək üçün təhsil almalıdırlar, bilik toplamalıdırlar, özlərini cəmiyyətdə fəaliyyətə hazırlamalıdırlar.

Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən, o fənlərdə ki, ixtisaslaşmaq istəyir, - onu daha da yaxşı bilməlidirlər. Biri istəyir riyaziyyatçı olsun, biri istəyir fizik olsun, biri istəyir geoloq olsun, biri istəyir hüquqşünas olsun. Qoy olsun. Ancaq orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər. İndi biz Azərbaycanda məhdudiyyət qoymuruq. Rusdilli məktəblər var və qarışıq - rus-Azərbaycan dilli məktəblər vardır. Gürcülər yaşayan yerdə gürcü dilli məktəblər vardır. Başqa dillərdə olan bütün bu məktəblərdə, yaxud ola bilər, başqa dillərdə də məktəblər yaransın - bunların hamısında

Azərbaycanın tarixi, Azərbaycanın ədəbiyyatı, Azərbaycanın mədəniyyəti tədris olunmalıdır. Bu, mütləq lazımdır.

Ümumi təhsilimizdə, yəni məktəblərimizdə bütün dərslər, bütün fənlər bizim bu günümüzə və gələcəyimizə həsr olunmalıdır. İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb, orta ixtisas məktəbi, yaxud da ki, orta təhsil məktəbi - bunlar xüsusi yer tutmalıdır. Əgər bu 11 il müddətində uşaq birinci sinifdən başlayaraq sona qədər köklü təhsil almasa, yaxşı hazırlaşmasa, o, nəinki gedib universitetə imtahan verə bilməz - heç lazım deyil ki, hər bir orta təhsil alan getsin universitetə imtahan versin. Bu, mümkün də deyildir. Bu, keçmişdə də mümkün olmayıbdır, bu gün də mümkün deyildir, - ancaq ola bilər, ondan sonra gedib universitetdə ali təhsil almasa da, amma həyatda yaşayacaqdır, həyatda fəaliyyət göstərəcəkdir, cəmiyyətdə olacaqdır. Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, özünü, ailəsini yaşadacaqdır. Amma ən vacibi də odur ki, cəmiyyətimizin şüurlu üzvü olacaqdır [3].

Hər bir insan üçün həyat anadan doğulduğu gündən başlayırsa, insanın şüurlu həyatı, onun gələcəyi, onun cəmiyyətdə özünə yer tutması məktəbdən başlayır. Məktəbimiz təbiət və cəmiyyətin inkişaf qanunlarını yaxşı başa düşən, yaradıcı təfəkkür vərdişləri olan bilikli adamlar hazırlamalıdır. Bu gün faktların müəyyən məcmusunun şagirdlər tərəfindən mənimsənilməsi ilə kifayətlənmək olmaz. Şagirdlərə öz biliklərini müstəqil surətdə artırmaq, elmi informasiyanın sürətli axınından baş çıxarmaq vərdişi aşılanmalıdır.

Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda bu, yüksək tərbiyə ocağıdır. Bu, eyni zamanda uşağı, gənci müstəqil həyata hazırlayan bir səviyyədir. Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada hamı - şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır. Məktəbdə insanın dünyagörüşünün bünövrəsi qoyulur, onun xarakteri formalaşır, ideya dayaqlarının, mənəvi və əxlaqi dayaqların təməli yaradılır. Məktəbin təsiri altında əqidəliliyi, əməyə məhəbbət, yüksək mənəviyyat və humanizm, vətənpərvərlik və beynəlmiləlçilik kimi zəruri keyfiyyətləri tərbiyə edilir. Məktəbdə insanın baxışları, arzu və istəkləri formalaşır, onun rəhbər tutduğu mənəvi meyarlar bir çox cəhətdən müəyyənləşir. Məktəb gənc şəxsiyyətin bir vətəndaş kimi təşəkkülündə, gənclərin vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Məktəbdə vətənpərvərlik tərbiyəsi işini daim təkmilləşdirmək, onun forma və metodlarının rəngarəngliyinə çalışmaq, yüksək səmərəliliyinə nail olmaq lazımdır. Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır.

Çox uzun bir müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə, əsas hesab edilən göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır. Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı gəlib çatmışdır. Bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı - bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi bax bu meyarla müəyyən edilir.

Məktəb ailə ilə qarşılıqlı münasibətlərdə prinsipial, pedaqoji cəhətdən düzgün mövqe tutmalıdır. Nail olmaq lazımdır ki, hər bir pedaqoji kollektivdə şagirdlər üçün, onların valideynləri üçün, geniş ictimaiyyət üçün yüksək ideyalılıq, əxlaqi prinsiplərə sədaqət, yüksək tələbkarlıq və prinsipiallıq nümunəsi olsun. Pedaqoji kollektivdəki mənəvi iqlim məktəblilərin əxlaq tərbiyəsinin səmərəliliyi üçün çox mühüm şərtdir. Məktəblə ailənin sıx, qarşılıqlı əlaqəsi olmadan mükəmməl tərbiyə ola bilməz, çünki bu proses kompleks prosesdir və onun səmərəliliyini valideynlərlə pedaqoqların birgə səyi ilə yüksəltmək lazımdır. Şagirdlərin valideynləri və ailələri ilə məktəbin əlaqəsi hər vasitə ilə möhkəmləndirilməlidir. Məktəb evdə uşağın hansı şəraitdə böyüdüyünü və tərbiyə edildiyini yaxşı bilməli, ailədə tərbiyə prosesinə təsir göstərməyin yeni formalarını axtarmalı, pedaqoji biliklərin əsaslarını valideynlərə öyrətməlidir [6]. Məhz müəllim müəyyən mərhələdə tərbiyə sahəsində hansı vəzifəni yerinə yetirmək lazım gəldiyini müəyyənləşdirməli, valideynlərə kömək etməli, uşağın şəxsiyyətinin formalaşdırılmasına düzgün təsir göstərmək

yollarını onlara öyrətməlidir. Məktəb hər bir şagirdə tələbkarlıqla və obyektiv yanaşmalı, hər yerdə - davranışda da, geyimdə də, əyləncədə də təvazökar olmağı öyrətməlidir. Məktəb bunu uşaqlara, lazım gəlsə, hətta valideynlərə də öyrətməlidir. Valideynlər yaxşı başa düşməlidirlər ki, uşaqların tərbiyəsi heç də ailənin daxili işi, hər kəsin şəxsi işi deyildir. Bu, vətəndaşın Konstitusiyadan irəli gələn vəzifəsidir, cəmiyyət qarşısında borcudur və hər bir valideyn məsuliyyətini tamamilə dərk edərək öz borcunu yerinə yetirməlidir.

Respublikamızın çox güclü müəllim ordusu var. Azərbaycanın müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır. Müəllimlik sənəti şərəfli bir sənətdir. Mən bunu öz həyatımda da, işlədiyim dövrlərdə müəllimlərlə görüşlərdə, danışıqlarda da hiss etmişəm ki, Azərbaycan müəllimləri bu şərəfli adı ləyaqətlə daşıyıblar və bu gün də daşıyırlar. Müəllim, həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli, dözümlü olubdur və öz mənəviyyatını hər şeydən yüksək tutubdur. Bizim hamımız - mən də, siz də Azərbaycan məktəbinə, Azərbaycan müəlliminə borcluyuq. Cəmiyyətimizin ümidi, gələcəyi olan uşaqların təlim-tərbiyəsi kimi ən mühüm, ən vacib iş ona etibar edilmişdir. Müəllim öz biliyini, təcrübəsini, qüvvəsini, qiymətli nəyi varsa, hamısını şagirdlərinə, xalqa bəxş edir. Məktəbimizin bütün yetişdirmələrinə həyat vəsiqəsini müəllim vermişdir. Rəşadətə bərabər bu nəcib, fədakar əməyinə görə müəllimin yetişdirmələri, valideynlər ona hədsiz dərəcədə minnətdarıq.

Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir. Bizim müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir. Biz əsl vətənpərvərlərin, mübarizlərin, əməkçilərin, möhkəm əqidəli insanların neçə-neçə nəslini yetişdirmiş müəllimlərimizlə haqlı olaraq fəxr edirik.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan müəllimlərinin VI qurultayında H.Əliyevin nitqi // Kommunist. 1978, 20 may, s. 2.
2. Cavadova, Z.Ş. (2013). Heydər Əliyev elm, təhsil və mədəniyyətimizin himayədarı // Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV beynəlxalq konfransın materialları, Bakı: Mütərcim, 1- 4 may, s.112.
3. Əhmədov, A. (2023). Ə.Azərbaycanın ümumi təhsili Heydər Əliyev ideyalarının işığında // Azərbaycan müəllimi, 17 fevral. s.7.
4. Əhmədov H.H. (2010). Azərbaycan təhsilinin inkişaf strategiyası / H.H. Əhmədov. Bakı: Elm, 800. s.
5. Əliyev H.Ə. (1997). Müstəqilliyimiz əbədidir / H.Ə.Əliyev. Bakı: Azərnəşr, 488. s.
6. Əliyev H.Ə. (2006). Təhsil, bilik, məktəb / H.Ə.Əliyev. Bakı: Azərnəşr, 400.s.
7. Əliyev H.Ə. (2013). Azərbaycan elminin keşiyində. I cild / H.Ə.Əliyev. Bakı: Turxan, 668 s.

ƏDƏBİ ƏSƏRLƏRİMİZDƏ TƏBİƏTİN TƏSVİRİ

Jalə Elçin qızı Qasımova
Mingəçevir Dövlət Universiteti
jale.qasimova@mdu.edu.az

Azərbaycan ədəbiyyatında təbiət təsvirləri çox vaxt zəngin və rəngarəng şəkildə işlənir. Bu təsvirlərə mənzərə təsvirlərindən tutmuş fəsillərin dəyişməsinə qədər geniş mövzularda rast gəlmək olar. Azərbaycanın coğrafi xüsusiyyətlərinin və iqliminin müxtəlifliyi ədəbi əsərlərdə təbiətin

müfəssəl təsvirlərinin yaranmasına kömək edir. Azərbaycan ədəbi əsərlərində tez-tez rast gəlinən təbiət təsvirlərindən bəzilərini təqdim edirik:

Dağlar və düzənliklər: Azərbaycanın coğrafi quruluşu dağlarla örtüldüyü üçün ədəbi əsərlərdə dağlar tez-tez təsvir edilir. Bu təsvirlərdə dağların hündürlüyü, ətəklərdəki yaşıllıq, dağ zirvələrindəki qar, təpələrin bərbadlığı kimi təfərrüatlar tez-tez yer alır. Düzənliklər, ümumiyyətlə, münbit torpaqlara və əkinçilik sahələrinə aiddir.

Göllər və çaylar: Azərbaycanın gölləri və çayları ədəbiyyatda da tez-tez təsvir olunur. Xüsusilə Böyük Qafqaz dağlarından gələn çaylar və bu çayların əmələ gətirdiyi vadilərin gözəlliyi tez-tez xatırlanır. Göllərin aydınlığı, ətrafdakı meşələr və göldə əks olunan dağ mənzərələri tez-tez təsvir edilir.

Fəsillər: Fəsillərin dəyişməsi Azərbaycan ədəbiyyatında tez-tez istifadə olunan mövzu və təsvirdir. Yazın gəlişi, yayın istisi, payızın rəng iğtişaşları və qışın soyuması kimi mövsüm dəyişiklikləri çox vaxt emosional və ya simvolik mənalarla əlaqələndirilir.

Meşələr və Bitki örtüyü: Azərbaycanın meşə əraziləri də təbiət təsvirlərində mühüm yer tutur. Meşələrin sirri, ağacların kölgələri, quşların nəğməsi və meşənin dərin sükutu kimi elementlərdən tez-tez istifadə olunur. Bundan əlavə, müxtəlif flora və çiçəklər yazılı əsərlərdə ətraflı təsvir edilmişdir.

Sahillər və dənizlər: Azərbaycanın Xəzər dənizi sahilləri də ədəbiyyatda tez-tez təsvir olunur. Dənizin dalğaları, sahildəki qayalıqlar, qumlu çimərliklər və dənizin əbədiliyi kimi elementlər çox vaxt insan duyğularını və ya həyatın keçiciliyini simvollaşdırmaq üçün istifadə olunur.

Bu təbiət təsvirlərinə Azərbaycan ədəbiyyatının şeir, roman, hekayə və digər janrlarında tez-tez rast gəlmək olar. Bu təsvirlər oxucularda güclü emosiya və atmosfer yaratmaq, Azərbaycanın təbii gözəlliyini və müxtəlifliyini vurğulamaq üçün çox vaxt istifadə olunur. Azərbaycan ədəbiyyatında təbiətin mühafizəsi mövzu kimi tez-tez müzakirə olunur. Bu mövzu müxtəlif yazıçılar və şairlər tərəfindən təbiətin kövrəkliyini və insanların təbiəti qorumaq üçün məsuliyyətini vurğulamaq üçün istifadə olunur. Azərbaycan ədəbi əsərlərində təbiətin mühafizəsinə dair bəzi nümunələri təqdim edirik:

Şeirlər: Bir çox Azərbaycan şairləri şeirlərində təbiətin gözəlliyini, ekoloji tarazlığın vacibliyini vurğulayırlar. Eyni zamanda, təbiəti məhv etməyin mənfi nəticələrinə də diqqət çəkirlər. Məsələn, Nizami Gəncəvinin əsərlərində təbiətlə insan tarazlığı ilə bağlı mövzulara tez-tez rast gəlinir.

Roman və hekayələr: Bəzi Azərbaycan yazıçıları öz romanlarında və hekayələrində təbiətin məhv olmasını və bu dağıntının insanlara təsirini təsvir edirlər. Onlar təbii həyatın deqradasiyası, insanların daxili iğtişaşları, sosial münaqişələr kimi məsələlərlə məşğul olurlar. Məsələn, İsmayıl Şıxlının "Ayrılıq" əsəri təbiətin qorunmasına qarşı həssaslıqdan bəhs edir.

Maarifləndirici məqalələr: Azərbaycan ədəbi əsərləri arasında təbiətin qorunması ilə bağlı maarifləndirici və maarifləndirici məqalələr də vardır. Bu məqalələr ümumiyyətlə təbii ehtiyatlardan davamlı istifadə, ətraf mühitin çirklənməsinin təsirləri və təbiəti mühafizə tədbirləri kimi məsələlərdən bəhs edir.

Xalq nağılları və dastanları: Təbiəti qorumaqla bağlı motivlərə Azərbaycanın ənənəvi xalq nağıl və dastanlarında da rast gəlmək olar. Bu hekayələr, ümumiyyətlə, insanların təbiətlə harmoniyada yaşamasının vacibliyini vurğulayır və təbiəti qorumağın sosial rifah üçün həyati əhəmiyyət kəsb etdiyi mesajını verir. Bu nümunələr Azərbaycan ədəbi ənənəsində təbiətin mühafizəsi ilə bağlı həssaslığın, maarifləndirmənin mövcudluğunu göstərir. Təbiət və ətraf mühitin mühafizəsi Azərbaycanda ədəbi əsərlərdə tez-tez toxunulan mühüm mövzudur və bu əsərlər oxucuları çox vaxt öz təbii mühitini qorumağa təşviq edir. [2] Azərbaycan ədəbi əsərlərindən təbiətin mühafizəsinə dair bir neçə nümunə:

Nizami Gəncəvi - "Həft Peykər" (Yeddi gözəl): Nizami Gəncəvinin bu əsəri təbiətlə insan münasibətlərindən dərindən bəhs edən İslam dövrü dastanıdır. "Həft Peykər" yeddi gözəl qadının hekayəsindən bəhs edir və bu hekayələr təbiət təsvirləri ilə bəzədilib. Əsərdə təbiət insanların həyatına dərin məna qatır və təbiəti qorumağın vacibliyi vurğulanır.

Molla Pənah Vaqif - "Leyli və Məcnun": Molla Pənah Vaqifin bu əsəri klassik Azərbaycan ədəbiyyatının ən mühüm əsərlərindən biridir. "Leyli və Məcnun" təbiət təsvirləri ilə dolu sevgi hekayəsidir. Aşiqlərin ağrı-acısını, sevincini əks etdirən fon kimi təbiətdən istifadə edilir, təbiəti qorumağın insan duyğularına təsiri də vurğulanır.

İsmail Şıxlı - "Ayrılıq": İsmayıl Şıxlının "Ayrılıq" romanı təbiətin məhv edilməsindən, insanların təbiətlə münasibətindən bəhs edən əsərdir. Romanda təbii mühitin insan həyatına təsiri dərindən araşdırılır və təbiətin mühafizəsi haqqında maarifləndirilir.

Səməd Vurğunun "Ana" şeirində təbiət sevgisi, təbiətin qorunması ilə bağlı həssaslıq vurğulanır. Şeirdə şairin təbiətə heyranlığı, ehtiramı anası vasitəsilə izah edilir. Bu əsərdə təbiətin gözəllikləri ilə insanların təbiəti qorumaq məsuliyyəti arasındakı kontekstdən dərindən bəhs edilir. Bu əsərlər Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərindən, müxtəlif janrlarından nümunələrdir.

Təbiəti mühafizə bu əsərlərin əsas mövzularından biridir və müəlliflər tez-tez təbiətin kövrəkliyini və təbii mühiti qorumaq üçün insanların məsuliyyətini vurğulayırlar. İnsan və təbiət arasındakı qarşılıqlı əlaqə onların müvafiq təbiətinə əsasən müəyyən edilir. Bu mutualizm simbiozu qarşılıqlı rifah üçün istifadə münasibətinə əsaslanır. Təbiətlə birgə yaşamaq əməkdaşlıq, qarşılıqlı yardım və tolerantlıq şəraitində yaşamaq deməkdir. Bütün münasibət ayrılmaz bir varlığa çevrilir; hər şey bir-biri ilə əlaqəli və funksionaldır və eyni məqsəd təbiəti qorumaq və qorumaqdır. Ətraf mühitin qorunması kövrək ekosistemlərin, vəhşi təbiətin və hətta bəşəriyyətin sağ qalmasının açarıdır. Bununla belə, sonsuz insan ehtiyacları çox vaxt insanları həddindən artıq hərəkətə gətirir, həyatın ehtiyaclarını ödəmək üçün ətraf mühitdən mümkün qədər istifadə edir və nəticədə ətraf mühitə ciddi ziyan vurur. [3]

Nəticələr göstərir ki, ətraf mühitin mühafizəsi üzrə ədəbiyyatın təmsilçisi kimi seçilən bütün ədəbi əsərlər insanların təbiəti mühafizənin əhəmiyyətini öyrətmək və şüurunu oyatmaq üçün mütləq uyğun vasitəyə çevriləcəkdir. Ətraf mühit insanı əhatə edir və biotik və abiotik komponentlərdən ibarət insan həyatının inkişafına təsir göstərir. Abiotik komponentlər torpaq, hava, su, iqlim, rütubət, işıq və səs kimi cansız şeylərdir; biotik komponent isə bitkilər, heyvanlar, insanlar və mikroorqanizmlər (viruslar və bakteriyalar) kimi canlı hər şeydir. Ətraf mühit baxımından insanlar, heyvanlar və bitkilər bir-birinə ehtiyac duyur; beləliklə, ətraf mühitin insanın əsas ehtiyaclarını, enerji və mineral mənbələrini, insanlar və digər canlılar üçün yaşayış yeri, flora və fauna ekosistemlərini təmin etdiyini düşünən bir zərurətdir. Təbii mühitdən və süni mühitdən başlayan ətraf mühit anlayışı və ya anlayışı kimi, ətraf mühitə ziyan vuran ətraf mühitin mühafizəsi səyləri də bəzən yaxşı nəticə verə bilmir buna iki əsas amil, təbii və süni amillər səbəb olur. Ətraf mühitə ziyan vurmada ən böyük texnogen amillərdir. İndiki vaxtda insanlar həm təbiətdə, həm də heyvanlarda baş verən amansız fəaliyyətlərin vəziyyətini, onlara uyğun olmayan rəftar edildiyindən xəbərsizdirlər. Yer üzündəki ən ağıllı canlılar kimi insanlar müəyyən məqsədlər üçün uyğun və ya yersiz hərəkətlər edə bilirlər. Elm və texnologiyanın inkişafı insanların ehtiyaclarını ödəmək daxil olmaqla, öz fəaliyyətlərini həyata keçirməsini asanlaşdırır. Bu inkişaflar insanların artan ehtiyaclarına da təsir göstərir çox vaxt təbii ehtiyatların həddindən artıq istismarına səbəb olur. Bu, Arafah və başqalarının təklif etdiyi təbiətin mühafizəsi konsepsiyasına uyğundur. İnsanların intensiv fəaliyyətinin, əsasən sənaye inqilabı dövründə hiss edilən və görünən elm və texnologiya ilə sıx əlaqəsi səbəbindən təbii mühiti əhəmiyyətli dərəcədə dəyişdirdiyi deyilir. Elm və texnologiyanın inkişafı bu dövrdə düşüncə tərzini dəyişdi. İnkişaf, necə yaşamaq və necə inanmaq lazım olduğunu kökündən dəyişdirərək cəmiyyətə böyük təsir göstərir. İnsanların gündəlik həyatı daha asan və mürəkkəb olmağa meyllidir, bu, demək olar ki, hər aspektdə onlayn xidmətlərin mövcudluğu ilə sübut edilir ki, bu da onu internetdə sadəcə bir kliklə sadə edir . O, insan həyatının bütün sahələrini davam etdirir. Onlayn medianın yüksəlişinə gəlincə, davranışın dəyişməsi sosial medianın çox sayda istifadəsi, söhbətə emojilərin əlavə edilməsi və ya planşet və ya gadgetların həddindən artıq istifadəsi ilə müşahidə edilə bilər. Dil sistemində dilin, sözlərin və ya leksikonun istifadəsinin ənənəvidən müasirə keçməsi cəmiyyətdəki mənanın həqiqiliyinə və dəyişməsinə təsir göstərir. Təbiətə gəlincə, bu davam edərsə, nəticədə daşqınlara səbəb olan çaylarda tullantıların atılması və sürüşmələrə səbəb olan meşələrdə qeyri-qanuni ağacların kəsilməsi kimi təbii fəlakətlərə səbəb olacaq.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayev Ə. (2007). Pedaqogika (Dərslik). Bakı, Nasir nəşriyyatı. 496 s. 5. Paşayev Ə.X.,
2. Əliyev A. (2005). Vətəndaşlıq ləyaqəti tərbiyəsi üzrə işin təşkili. Bakı, 135 s.
3. Nizami Gəncəvinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi məsələləri. (1987). Bakı, Maarif. 167 s.
4. Həsənli B.A. (2016). Ədəbiyyatın tədrisi metodikası. Bakı, Müəllim. 452 s.
5. Rüstəmov F.A. (2010). Pedaqogika. Bakı, Elm və təhsil. 464 s

HEYDƏR ƏLİYEV - AZƏRBAYCAN ELMİNİN, TƏHSİLİNİN VƏ MƏDƏNİYYƏTİNİN BÖYÜK HİMAYƏDARI

Aqşin Faiq oğlu Kərimli
Mingəçevir Dövlət Universiteti
agshin.karimli@mdu.edu.az

Cəmiyyətin və zamanın fövqünə ucalan, yüksək amallara sadiq, polad iradəli, möhkəm əqidəli insanlar tarixin yaddaşında əbədi yaşayırlar. Azərbaycanın çağdaş tarixi, böyük dövlət xadimi, dünya şöhrətli siyasətçi, mahir diplomat Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Xalqımız qürur duyur ki, o, Azərbaycanın qurucusu, dünyanın ən böyük şəxsiyyətlərindəndir.

1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkəmiz yeni bir tarixi mərhələyə qədəm qoydu. O zaman belə bir deyim vardı: hər şeyi kadrlar həll edir. Kadrlar isə ali məktəblərdə və texnikumlarda hazırlanırdı. Heydər Əliyev təhsil sahəsində əsasən aşağıdakı istiqamətlərə diqqət yetirirdi:

- yeni məktəblərin tikilməsi;
- təyinatla kənd məktəblərində işləyən müəllimlərə kirayə haqqı verilməsi və başqa güzəştlərin edilməsi;
- ali məktəb və texnikumların sayının artırılması, onların maddi-texniki bazasının gücləndirilməsi;
- Azərbaycan təhsilinin ittifaq dövlətlərinin qabaqcıl təhsil sistemləri ilə əlaqəsinin yaradılması v. s. [2, s.10-11]

70-80-ci illərdə respublikada 101 min nəfərlik məktəbəqədər uşaq müəssisəsi, 703 minlik 1058 məktəb binası tikilmişdi. Müxtəlif fənlər üzrə dərinləşmiş proqramlarla təlim verən internat məktəblər fəaliyyət göstərirdi. Azərbaycanda milli hərbi kadrların yetişdirilməsini təmin etmək məqsədilə C.Naxçıvanski adına orta ixtisaslaşdırılmış internat məktəbi təşkil olunmuşdu. [1, s.172]

70-80-ci illərdə ali təhsil daha da inkişaf etdi. Yeni ali təhsil ocaqları - Rus Dili və Ədəbiyyatı İnstitutu, Naxçıvan və Xankəndində pedaqoji institutlar, Gəncə Texnologiya İnstitutu təşkil olundu. Məktəblərdə tədrisin məzmununda müəyyən dəyişikliklər baş verdi. 1975-76-ci tədris ilindən başlayaraq dövlət və hüquq təhsili tədris olunmağa başlandı, 1974-cü ildən başlayaraq "Azərbaycan tarixi"nin tədrisi 60 saata qaldırıldı. [1, s,173]

Bununla belə gənclərin xarici ali məktəblərdə təhsil almalarına ehtiyac vardı. H.Əliyev bunu gözəl başa düşür, SSRİ hökuməti ilə razılıq əldə etmişdi. Göndərilən gənclərin sayı ilk illərdə, 400-600 nəfər idisə, 1977-ci ildə isə bu rəqəm 2500 nəfərə çatmışdı. [2, s.12]

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da

ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur. [3, s.6]

Heydər Əliyev Azərbaycan aliminə və elminə qayğı göstərir, fundamental elmlərin inkişafı üçün lazımi şərait yaradırdı. 70-80-ci illərdən başlayaraq elmi müəssisələrin sayı 142-dən 151-ə, elmlə məşğul olanların sayı 17 mindən 31 minə qalxdı. İdarə və nazirliklərin ciddi elmi laboratoriyaları vardı. 1972-ci ildə AMEA-nın Naxçıvanda Elmi Mərkəzi, 1978-ci ildə Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyi fəaliyyətə başladı. Bakı "Neft Akademiyası" adlanırdı. Azərbaycanlı alimlər M.Qaşqay, Ə.Əlizadə və digərləri 300-dən artıq faydalı qazıntı yataqları kəşf etdilər. [1, s.179]

O zaman antisovet meylli alimlər DTK-nın xüsusi nəzarətində olurdular. Ancaq Azərbaycan rəhbəri rejimdən narazı olan alimləri nəinki ali məktəblərdən uzaqlaşdırmır, hətta onlara himayə də göstərirdi. Antisovet baxışları ilə tanınmış professor Abbas Zamanov, Xəlil Rza, Gülhüseyn Hüseynoğlu, Zia Bünyadov və başqaları ali məktəblərdə işlərini davam etdirirdilər. [2, s.13]

Bu da danılmaz faktdır ki, ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Hər il tələbələrin riyaziyyat, fizika, kimya, informatika fənləri üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələri keçirilir. 2000-ci ildə İran İslam Respublikasında təşkil edilmiş beynəlxalq riyaziyyat olimpiadasında Azərbaycanın ali məktəb tələbələrinin komandası dördüncü yeri tutmuşdur. 1998-ci ildə "Neft və Azərbaycanın gələcəyi", 1999-cu ildə "Böyük İpək yolu və Azərbaycan nefti", 2000-ci ildə "Neft strategiyası və Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri", 2001-ci ildə "Neft-qaz hasilatı və Azərbaycanın davamlı inkişafı" mövzularında uğurlu müsabiqələr keçirilmişdir. Bundan başqa, son illər ərzində AMEA-nın Təhsil Nazirliyi ilə birlikdə "Saf su", "Bakı-Tbilisi-Ceyhan" boru xəttinin beynəlxalq və regional əhəmiyyəti" mövzularında beynəlxalq konfranslar, "Üçüncü minilliyin astanasında fövqəladə hallarda insanların və cəmiyyətin təhlükəsizliyi" adlı simpozium hamı tərəfindən böyük rəğbətlə qarşılanmışdır. 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Fransa, Rumıniya, Polşa, Rusiya, Pakistan, və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişdir. [4, s.2]

70-80-ci illərdə Azərbaycan mədəniyyətinin inkişafında da mühüm nailiyyətlər qazanılmışdı. 1976-cı ilin may ayında yazıçıların VI qurultayında iştirak edərək ümmumilli lider ədəbiyyatımızın problemlərinin mahir bilicisi olduğunu göstərdi. Məhz onun hakimiyyətə gəlişindən az sonra "Kitabi Dədə Qorqud"la bağlı araşdırmaların sayı çoxaldı, "Dədə Qorqud" filmi çəkildi. H.Cavidin nəşi Rusiyadan gətirildi, Naxçıvanda məzarı üstündə əzəmətli abidə ucaldıldı. Böyük şairimiz M.P.Vaqifin də məzarı abadlaşdırıldı və heykəli qoyuldu, hər iki açılışda MK-nın birinci katibi şəxsən özü iştirak etdi. [2, s.15] Həmçinin müxətlif mədəniyyət və incəsənət xadimlərinin yubileyləri böyük təntənə ilə keçirilirdi. Məhz onun hakimiyyəti illərində incəsənətimiz respublikamızın və SSRİ-nin hüdudlarını aşaraq xarici ölkələrdə də tanınmağa başladı.

Müstəqillik əldə etdikdən sonrakı dövrdə də mədəniyyətin müxtəlif sahələri Heydər Əliyevin diqqət mərkəzində qalmağa davam etdi. 1997-ci ilin noyabr ayında Azərbaycan yazıçılarının X qurultayı oldu. Elə həmin ildə Prezident "Azərbaycan Respublikasında ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" Fərman 353 imzaladı. Qocaman ədəbiyyat və incəsənət xadimləri, gənc istedadlı yazıçı və şairlər üçün fərdi təqaüdlər təyin edildi. 1998-ci il mayın 22-də "Azərbaycan Respublikasında fəxri adlar haqqında", 2002-ci il iyunun 11-də "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin təsis edilməsi haqqında" fərmanlar verildi. 2002-ci ilin iyun ayında Prezident elm, mədəniyyət incəsənət, maarif və digər sahələrdə xidməti olmuş 150 nəfərə Prezident təqaüdü təyin etdi. [1, s.352-352]

Müstəqillik illərində Azərbaycan incəsənətində formaca ənənəyə bağlılıq və müasirlik, məzmunca özəl milli və bəşəri dəyərlərin tərənnümü üstünlük təşkil edir. Azərbaycan cəmiyyətinin mədəni, mənəvi həyatında mühüm dəyişikliklər baş verdi. Ümummilli Liderin elm, təhsil və mədəniyyət sahəsindəki siyasəti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan tarixi, Yeddi cilddə, VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008
2. A.Könül, N.Ayna. Ziyarətə çevrilmiş ömür. Bakı, 2016
3. A.İsa, Ə.Aqil. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı / "Xalq qəz"., 2009, 12 dekabr
4. H.Habil. Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasəti. / "Azərbaycan" qəz., 2008, 5 dekabr

AZƏRBAYCAN NİZAMİŞÜNASLIĞININ İNKİŞAFINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

Nigar Mustafa qızı Məhərrəmova
Mingəçevir Dövlət Universiteti
nigar.maharramova@mdu.edu.az

Azərbaycanın ictimai fikir və bədii təfəkkür tarixinin görkəmli nümayəndələrindən biri olan Şeyx Nizaminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində son illər mühüm işlər həyata keçirilib. Bu gün qətiyyətlə demək olar ki, Azərbaycan nizamişünaslığı elmi şəkildə formalaşıb.

Müasir Azərbaycan nizamişünaslıq elminin inkişaf mərhələlərinə nəzər salsaq görərik ki, bu sahənin müasir səviyyəyə yüksəlməsi xalqımız üçün heç də asan başa gəlməyib. Bu mənada nizamişünaslıq elmi Nizami Gəncəvinin özü qədər qədim tarixə malikdir.

Ötən əsrin əvvəllərində Məhəmməd Axundovun, Orucəli Həsənovun, Firudin bəy Köçərlinin, Salman Mümtazın, Əliabbas Müznibin və başqa ədiblərimizin Nizami Gəncəvi ilə bağlı apardıqları tədqiqatlar müasir nizamişünaslıq elminin bünövrəsini qoyub. Belə ki, 1909-cu ildə M.Axundovun Gəncədə çap etdirdiyi "Şeyx Nizami" kitabı nizamişünaslıq tarixində dahi şairimizin irsinə verilən ən mühüm töhfə idi. Yaxud Nizami Gəncəvinin əsərlərinin ana dilinə tərcümə olunmasına qarşı çıxan dairələrə F.Köçərlinin söylədiyi "İnsaf deyil ki, onun möcüznüma kəlamları Avropa dillərinə tərcümə olunub intişar tapsın, bizlər isə onu öz dilimizdə eşidib feyzyab olmaqdan məhrum qalaq". Firudin bəy Köçərlinin toxunduğu bu problemi S.Mümtaz da təqdir edir və ona özünəməxsus şəkildə münasibət bildirərək yazırdı: "Dahilik rütbəsini alan Nizami kimi bir nadireyi-dəhri dünya bəyənərək təqdir etdiyi kimi, hökumətimiz də təqdir və təhsin etmək istəyir. Azərbaycanın böyük oğullarını Azərbaycan Cümhuriyyəti təqdir etməyəcək, bəs kim edəcəkdir? Bu, hökumətimizin ən birinci vəzifəsidir ki, edir" [2].

İstər F.Köçərlinin, istərsə də S.Mümtazın fikirlərini təhlil etdikdə, keçən əsrin əvvəllərində dahi şairimizə münasibətin birmənalı olmadığını sezə bilirik. Xüsusilə S.Mümtazın Nizami Gəncəvi ilə bağlı söylədiyi və günümüz üçün də aktual olan Azərbaycan şairi tendensiyasını tutarlı dəlillərlə isbat edib problemə milli məfkurəmiz nöqteyi-nəzərindən yanaşması o dövrdəki nankorlara ən mühüm cavab idi. Belə ki, fars dilində yazdığına görə dahi şairimizin mənşəyini təhrif edənlərə söylədiyi "O əsrlərdə İran və Turanın yetirdiyi türk məşahirlərinin hansı biri türkcə yazmışdır ki, Nizami də yazaydı? Əbu Nəsir Faryabi, Əbu Əli Sina, Cəlaləddin Rumi, Şeyx Məhəmməd Şəbüstəri həm türk ola-ola farsca yazmışlar, bunların səbəbləri araşdırmalı və tədqiq edilməlidir" fikir istiqaməti bugünkü nizamişünaslar üçün də bir üfüq təşkil etməkdədir.

Sadaladığımız bu mülahizələr, fikirlər təkcə XX əsrin 20-ci illəri ilə məhdudlaşmırdı. Xüsusən XX əsrin 30-cu illərindən etibarən başlayan kütləvi repressiyalar da haqqında bəhs etdiyimiz nizamişünaslığın ikinci mərhələsinə mənfi təsirsiz ötüşmədi, çünki S.Mümtaz kimi bir çox vətənpərvər nizamişünaslar amansız rejimin qurbanları oldular. Amma bütün bunlara baxmayaraq, nizamişünas alim Zəhra Allahverdiyevanın qeyd etdiyi kimi, "salamat qalmağa macal tapanların əzmi ilə ən ağır illərdə 1937-39-cu illərdə Nizami irsinin təbliği və öyrənilməsi geniş vüsət aldı".

M.Rəfili, M.S.Ordubadi, H.Araslı və M.Mübariz həmin ideologiyanın öndəgedənləri idilər. Məhz bu ədiblərin gərgin fəaliyyətləri sayəsində 40-cı illərdən başlayaraq nizamişünaslıq özünün çiçəklənmə dövrünü yaşamağa başladı. Ən mühümü də bu idi ki, adını çəkdiyimiz alimlər təkcə Nizami irsini araşdırmır, eyni zamanda özlərindən sonrakı dövrlər üçün gənc nizamişünaslar yetişdirirdilər. M.Ə.Rəsulzadə, R.Əliyev, M.Arif, M.Cəlal, M.Arif, C.Xəndan, Ə.Sultanlı, T.Kərimli, X.Yusifli, H.Araslı və başqa alimlərimiz məhz onların açdığı milli ideoloji cığırla elm səhnəsinə çıxan alimlər idilər.

Qədirşünas ədiblərimizin, mütəfəkkirlərimizin həyata keçirdikləri fundamental tədqiqatlar, araşdırmalar, əlbəttə ki, sonrakı dövrlərdə bünövrə rolunu oynayacaq, ikinci mərhələ nizamişünaslığının inkişafında böyük əhəmiyyət daşıyacaq. Haqqında bəhs etdiyimiz Azərbaycan nizamişünaslığının bu qədər genişşaxəli inkişafı isə məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, keçən əsrin 80-ci illərində Ümummilli Liderimizin Nizami Gəncəvinin 840 illik yubileyində söylədiyi "Nizami Gəncəvi elə dahidir ki, onun yubileyi hər il keçirilməlidir" fikri Şeyx Nizamiyə olan milli münasibətin ən bariz təzahürü idi. Məqaləmizin əsas ideyasını da böyük azərbaycanlı Heydər Əliyevin Nizami Gəncəvi sevgisi təşkil edir. Hesab edirəm ki, Ulu Öndərin 2000-ci il mayın 24-də Gəncəyə səfəri zamanı dahi şairimizin məqbərəsi önündə söylədiyi nitq bu baxımdan ən gözəl nümunə ola bilər: "...Təbiidir ki, ilk öncə Nizaminin məqbərəsinə gəlmişəm. Bu məqbərənin tarixi böyükdür. İlk dəfə burada, Nizami Gəncəvinin qəbri üzərində abidə 1948-ci ildə tikilibdir. O vaxtlar Nizami Gəncəvinin 800 illik yubileyi keçirilirdi. Ancaq o vaxt yaranmış məqbərə Nizamiyə layiq deyildi. İkincisi, siz yəqin xatırlayırsınız, gəncəlilər bilir ki, burada, yaxınlıqda gil-torpaq kombinatı tikildi. Kombinatın işləməsi üçün əsas xammal alunit idi, texnologiyası da çox yüksək səviyyəli deyildi. Ona görə də orada - gil-torpaq kombinatında alunitin işlədilməsi zamanı toz çıxırdı və Nizami Gəncəvinin məqbərəsini də toz basırdı. Xatirinizdədirmi? Bu bizi narahat edirdi. 70-ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman bir çox ziyalılarımız - şairlərimiz, alimlərimiz gəlib Nizami Gəncəvinin məqbərəsini belə halda görəndə mənə bir neçə təklif verdilər. Təkliflər ondan ibarət idi ki, Nizami Gəncəvinin qəbrini başqa yerə köçürmək lazımdır. Bu, ziyalıların xatirindədir. Mən çox fikirləşdim ki, axı necə ola bilər? 800 il bundan öncə bizim dahi şairimiz Nizami Gəncəvini burada torpağa veriblər. 800 ildən artıqdır ki, bu torpaqdadır, bu yerdə yatır. İndi onu narahat edib başqa bir yerə köçürmək nə qədər düzgün olar? Eyni zamanda, bizim ziyalılarımız – şairlərimiz, mədəniyyət xadimlərimiz mənə sübut edirdilər ki, əgər köçürmək mümkün deyilsə... Özlüyündə köçürmək çətin bir şey deyildi, texniki və ya maliyyə cəhətdən elə bir problem yox idi. Amma mənəvi baxımdan, tarixi-mənəvi baxımdan bu, nə qədər düzgün ola bilərdi? Ona görə bu məsələ məni çox düşündürürdü. Bir neçə il bu işlə məşğul olmuşdum. Hər il də ziyalılarımız dəstə-dəstə gəlib mənə deyirdilər ki, gedib Gəncədə Nizaminin məqbərəsini elə görürük, ürəyimiz ağrıyır. Doğrudan da, bax, oradan buranı toz vururdu və qurtarmaq bilmirdi. Təbiidir ki, həmin gil-torpaq kombinatını Nizaminin qəbrinin yanında tikən adamlar böyük tarixi səhv buraxıblar, böyük günah eləyiblər. Gəncənin ətrafında nə qədər istəsən yer var, onu harada istəsəniz tikmək olardı. Onu yaradanlar da bilirdilər ki, bu istehsal elə bir şeydir ki, toz buraxır. Onu bizim ən böyük, ən müqəddəs tarixi abidəmiz olan Nizami Gəncəvinin qəbrinin, məqbərəsinin yanında yerləşdirmək, mən deyərdim ki, vaxtilə mənəvi cinayət olmuşdur... [1]

Amma bütün bunlara baxmayaraq, Nizaminin məqbərəsini qorumaq bizim müqəddəs vəzifəmizdir. Siz də bunu etməlisiniz, biz də etməliyik. Gərək elə olsun ki, indiki nəsil də, gələcək nəsil də vaxtilə buraxılmış səhvləri buraxmasınlar. Mən bu gün böyük hisslərlə Nizaminin məqbərəsini bir daha ziyarət etdim. Onu da sizə deyə bilərəm ki, Nizaminin 800 illiyi 1948-ci ildə keçirilmişdi. Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçirdim, yəni bu tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər. Mən Moskvada Kommunist Partiyası Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda - çünki onlarsız bu işi görə bilməzdik - dedilər ki, "840 il yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd eləmisiniz, 850 illik də ola bilər. Amma 840 olmaz, çünki sonra deyəcəksiniz ki, 845, nə bilim, 847". Xatirimdədir, Mərkəzi Komitənin ikinci katibi var idi - Suslov, Brejnevin dövründə ikinci katib idi - mənə dedi ki, bu, mümkün deyildir. Mən isə dedim ki, siz Nizami Gəncəvini tanıyırsınızmı? Dedi ki, tanıyıram, yaxşı tanıyıram - Suslov keçmiş işçi idi, Stalinin yanında da işləmişdi, 1948-ci ildə onun yubileyinin

keçirilməsindən də xəbərim var. Dedim, yəqin ki, tamam xəbəriniz yoxdur. Nizami Gəncəvi elə dahidir ki, onun nəinki 840 illiyini, onun yubileyini hər il keçirmək lazımdır. Beləliklə, biz buna nail olduq, o vaxt Nizami Gəncəvinin 840 illik yubileyini keçirdik. Azərbaycanda, sonra Moskvada çox təntənə ilə keçirdik. O vaxt, yubiley ərəfəsində də qərar verdik ki, buradakı məqbərə yenidən qurulsun, Nizamiyə layiq bir səviyyəyə çatdırılsın. Mən məmnunam ki, bunu etdik. Amma indi içərisinə də, çölünə də baxanda hesab edirəm ki, bundan da yaxşı edə bilərdik. Güman edirəm, əgər vaxt çatsa, biz bunu edəcəyik. Amma vaxt çatmasa, gələcək nəsillər bu məqbərəni bundan da gözəl edəcəklər. Mənim buna şübhəm yoxdur. Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir. Ancaq gəncəlilər xüsusi iftixar hissi keçirirlər. Birincisi, ona görə ki, Nizami gəncəlidir, Gəncənin adını dünyada məşhur edibdir, bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!.. Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır.

Nizaminin xatirəsinə mənim bir xidmətim də olubdur. İndi burada fürsətdən istifadə edib onu da demək istəyirəm. Nizami Gəncəvinin əsərlərinin bir qismini 1948-ci ildə onun 800 illik yubileyi keçiriləndə rus dilinə tərcümə etmişdilər. Moskvada "Xudojestvennaya literatura" nəşriyyatı var idi. O, ən yüksək səviyyəli, tarixi şəxsiyyətlərin kitablarını nəşr edirdi - böyük tirajla nəşr olunması barədə qərar qəbul etdik. Bu, asan bir iş deyildi. Mən buna da nail oldum, bu qərar da qəbul edildi. Ancaq elə oldu ki, bu qərar həyata keçirilənə qədər mən Bakıdan Moskvaya işə keçdim. Təbiidir ki, orada da mənim səlahiyyətlərim böyük idi. Bu işə nəzarət etdim və Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında Nizami Gəncəvinin beş cilddən ibarət poemalarının çox nəfis şəkildə nəşr edilməsinə nail oldum. Bunun böyük əhəmiyyəti var. Çünki Nizamini biz tanıyırıq, Şərq ölkələri tanıyır. Amma lazımdır ki, Avropa da yaxşı tanısın. Avropada da tədqiqatçılar tanıyırlar, bir çox kitabxanalarda onun kitabları var. Ancaq rus dili böyük dil, Rusiya böyük ölkə olduğuna görə - o vaxtlar biz Sovet İttifaqının tərkibində idik - bu əsərlərin rus dilində yaxşı, yəni yüksək səviyyədə nəşr olunması o vaxt bizim üçün böyük bir nailiyyət, böyük bir hadisə idi. Mən qürur hissi keçirirəm ki, Nizaminin yolunda az iş görməmişəm. Onun xatirəsini əbədiləşdirmək, irsinin daha da təbliğ olunması, yayılması üçün, kitablarının nəşri üçün çox iş görmüşəm. Buna görə də mən Nizami Gəncəvinin qarşısında öz borcumu yerinə yetirmişəm"

Ulu Öndərin klassik irsimizin, xüsusilə Nizami Gəncəvinin əziz xatirəsi ilə bağlı başqa bir həyat dərsi də Oqtay Salamzadənin "Əsrlərin sirri" romanıdır. Mərhum Oqtay Salamzadə yazırdı: "Dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyevlə 1989-cu ildə Moskvadakı görüşümüz zamanı Nizami Gəncəvinin həyatından bəhs edən "Əsrlərin sirri" kitabımı ona hədiyyə edərkən, o, mənə dedi ki, Nizami ilə kifayətlənmə, Füzulidən də yaz, çünki onun da ədəbi irsi bizim üçün əvəzsizdir. Füzulinin təsiri altında Üzeyir Hacıbəyli, alimlər, rəssamlar gözəl əsərlər yaradıblar. Sən də milli mədəniyyətimizə "Əsrlərin sirri" kimi əsərlə yanaşı, Füzuli fəlsəfəsindən və sevgi iztirabından bəhs edən bir əsər bəxş et! Füzuli bizim mənliyimizdir!".

Nizami Gəncəvinin irsinin öyrənilməsi, təbliği və bu sahədə nizamişünas alimlərin yetişdirilməsi məqsədilə Ulu Öndərin təşəbbüsü ilə 1975-ci il sentyabrın 22-də və 1978-ci il yanvarın 4-də "Nizami məqbərəsinin qorunması", 1979–cu il yanvarın 1-də "Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq" tədbirləri haqqında, 1981-ci ildə iyulun 28-də isə dahi mütəfəkkirin 840 illik yubileyi barədə Azərbaycan KP MK-nın xüsusi qərarlarının qəbul edilməsi onlarla nizamişünas ziyalıların yetişməsinə yol açdı.

Akademik İsa Həbibbəylinin də qeyd etdiyi kimi, nizamişünaslıq dünya elmi olsa da, Azərbaycan dünya nizamişünaslığının mərkəzidir. Dünya ölkələrində Nizami Gəncəvi haqqında yazılanlar tərəzinin bir gözünə, Azərbaycanda aparılan tədqiqatlar, çap olunan kitablar və tərcümələr tərəzinin o biri gözünə qoyulsa, Azərbaycan nizamişünaslığı ağır gələr.

Bu gün qətiyyətlə deyə bilərik ki, nizamişünaslıq elminin sadaladığımız inkişaf mərhələləri daha çox sovet təbliğatı ilə məhdudlaşırdısa, artıq nizamişünaslıq elminin inkişafında həlledici mərhələni müstəqillik dövründə Azərbaycan dövlətinin birbaşa iradəsi və qayğısı təşkil edir və bilavasitə dahi şairimizin doğma vətəni Gəncə ilə əhatələnib.

Belə ki, Prezident İlham Əliyevin "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" 2011-ci il 23 dekabr tarixli Sərəncamı, Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında 2021-ci il 5 yanvar tarixli Sərəncamı nizamişünaslığın inkişafı və klassik ədəbi irsimizin azərbaycançılıq məfkurəsi işığında tədqiqinin genişləndirilməsinə təkan verib. Bunun nəticəsi olaraq Beynəlxalq Nizami Gəncəvi Mərkəzinin yaradılması, Mərkəzin birbaşa təşəbbüsü ilə Nizami Gəncəvi işığında 2011-ci ildən ənənəvi olaraq Qlobal Bakı Forumunun keçirilməsi, Nizami Gəncəvi adına Qızıl Medalın təsis edilməsi, İngiltərənin Oksford Universitetində Nizami Gəncəvi Mərkəzinin fəaliyyətə başlaması müasir Azərbaycan nizamişünaslığının tarixi nailiyyətidir. Bununla da Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq xalqımız bütün yaradıcılığı boyu ümumbəşəri ideyaların carçısı olan dahi şairimiz Nizami Gəncəvinin yubileylərini dahi mütəfəkkirin öz yurdunda, müstəqil dövlətimizlə, Azərbaycan və dünya nizamişünasları ilə birgə qeyd edib və qeyd etməkdə davam edir.

Səfərə gedərkən yolu Gəncədən düşmüş S.Ə.Şirvani məqbərəsi tamamilə dağılmış N.Gəncəviyə xitabən bu şeiri yazırdı:

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gəncədə izzü ehtişamı dağılan.
Olmuşmu sənlə mən kimi aləmdə,
Beyti, evi, məktəbi, kəlamı dağılan?

Biz isə XXI əsrdən hər iki mütəfəkkirə səslənərək deyirik: sizdən sonrakı nəsillər, müstəqil dövlətimiz və vətəndaşları Nizami Gəncəvi dühasına laqeyd qalmadılar, əksinə, bu dühanın işığına toplaşaraq dahi şairimizin yubileyini dünya miqyasında təntənə ilə qeyd etdilər.

Hazırda Gəncədəki möhtəşəm "Xəmsə" abidə kompleksi, zənnimcə, hər bir azərbaycanlının qürur mənbəyidir.

Türk dünyasının görkəmli şəxsiyyətlərindən biri İhsan Doğramacının 2003-cü ildə söylədiyi çox qiymətli fikirlərini xatırlamaq yerinə düşər: "Heydər Əliyev fırtınalı həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük şəxsiyyətdir".

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Xalq Cumhuriyyətinin Ensiklopediyası. 2 cilddə. c.1. Bakı: Lider, 2004, 440 s.
2. Apoyev B.F. Heydər Əliyev və Nizami Gəncəvi, Bakı, Şərq-Qərb nəşriyyatı, 2020, 232 s.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab. Bakı: Azərnəşr, 1997, 597 s.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. II kitab. Bakı: Azərnəşr, 1997, 588 s.

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ BİRLİYİNİN VƏ DÖVLƏT MÜSTƏQİLLİYİNİN RƏMZİDİR

Ülviyyə Akif qızı Aşurova
Mingəçevir Dövlət Universiteti
ulviyya.ashurova@mdu.edu.az

Heydər Əliyev azərbaycançılıq ideyasını həyata keçirmiş bir dövlət xadimi olaraq Azərbaycan tarixində yaşayır.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərindən ümumən dünyada çox böyük hadisələr baş verdi. Mən düşünürəm ki, bu hadisələri belə səciyyələndirmək olar ki, dünyada milli azadlıq hərəkatlarının artıq aşkar şəkildə getməsi və imperiyaların dağılması prosesi getdi. O cümlədən, dünyanın ən böyük imperiyası olan Sovetlər birliyində də bu istiqamətdə hadisələr cərəyan etdi. Ümumiyyətlə, Sovetlər birliyinin dağılması sırf zəruri proses idi. Bunu da şərtləndirən müxtəlif səbəblər vardı. Əvvəla, sovetlər birliyi "xalqlar həbsxanası" adlanırdı. Və bu həbsxana

həm siyasi, həm də sözün geniş mənasında polis nəzarətilə ciddi mühafizə olunurdu. Amma əsrin ortalarından başlayaraq tədricən sovetlər birliyinin rəhbərləri də görürdülər ki, bu birlik dağılmaq üzrədir. Baxmayaraq ki, müəyyən inersiyalarla bu birlik yaşadılırdı. Hətta bu birliyin dağılmaması üçün həm xaricdən, həm də daxildən ciddi təzyiqlər vardı. Amma bu təzyiqlər get-gedə öz gücünü itirirdi. Sovetlər birliyinin dağılacağını birliyin rəhbərləri bəlkə də daha yaxşı proqnozlaşdırırdı. Heydər Əliyev də belə bir dövrdə dövlət təhlükəsizlik orqanlarında çalışırdı və görürdü ki, sovetlər birliyi daxilindəki millətlərin düşüncələri nədən ibarətdir. Yaxşı bilirdi ki, birlik artıq xeyli dərəcədə öz möhkəmliyini itirirdi. Ona görə də, gənc yaşlarından istedadlı, tarixi yaxşı bilən, tarixi prosesləri düzgün dəyərləndirmə qabiliyyətinə malik bir insan olaraq diqqəti daha çox xalqın milli xüsusiyyətlərinə və onların müdafiəsinə verirdi. Biz bəzən Azərbaycanın Heydər Əliyevi deyirik. Amma Heydər Əliyev o qədər genişmiqyaslı fəaliyyət göstərirdi ki, bu fəaliyyətində də o qədər uğurlu nəticələr əldə etmişdi ki, istər-istəməz Azərbaycanın özü Heydər Əliyevin Azərbaycanına çevrilmişdi. O dövrdə Azərbaycanın tarixi, milli ənənələrinin, dəyərlərinin bərpası ilə bağlı müxtəlif iddialar olmuşdu. Və şübhəsiz ki, bu iddialar cəzalandırılmışdı. Məsələn, Mirzə İbrahimov və onu dəstəkləyən müəyyən adamlar iddia qaldırmışdılar ki, Azərbaycanda dövlət dili sözün həqiqi mənasında Azərbaycan dili elan olunsun, dövlət idarələrində rus dili yox, Azərbaycan dili işlənsin. Amma qeyri-taktiki şəkildə məsələ qaldırılmışdı. Baxmayaraq ki, Mirzə İbrahimov da sovetlər birliyinin orqanizmini yaxşı bilirdi. Amma o bir yazıçı, ziyalı fəaliyyəti səviyyəsindən yuxarı qalxa bilmədi. Ona görə də, bu hərəkətlər cəzalandırıldı. Amma Ulu Öndərimiz bu məsələnin reallaşmasına nail oldu. Ümummilli Liderimiz hələ Sovet dövründə milli məsələlərin həllinə, xalqımızın adət-ənənələrinin, milli-mədəni dəyərlərinin bərpasına nail olurdu. Maraqlıdır, O, bu qədər obyektiv çətinliklərə baxmayaraq, bunlara necə nail olurdu? Heydər Əliyev Azərbaycan dilinin dövlət idarələrində işlənməsi, milli dəyərlərimizin lazımi şəkildə təqdim olunmasını bəlkə də Mirzə İbrahimovdan çox istəyirdi, amma bununla yanaşı, O, çox yaxşı bilirdi ki, qiyamçılıq bu məsələdə özünü doğrultmayan bir addım olacaq. Və beləliklə, O, tədricən,sovetlər birliyinin tərkibində olan Azərbaycanın mövqeyini gücləndirməklə bu prosesləri tədricən və müvəffəqiyyətlə həyata keçirməyə nail oldu. Heydər Əliyevin seçdiyi taktika bu məqsədlərə xidmət edirdi: Azərbaycanın iqtisadiyyatını, onun imperiya daxilindəki mövqeyini gücləndirməklə, Azərbaycan keçici qırmızı bayraqlar almalı, Azərbaycan sovetlər birliyi səviyyəsində tanınmalıdır ki, bu tanınma Azərbaycanı dünyaya çıxardan faktora çevrilsin. Heydər Əliyev böyük dövlət xadimi olduğuna və milli maraqları müdafiə etməyin texnologiyalarını yaxşı bildiyinə görə, 1960-cı illərin sonu, 1970-ci illərdə milli inkişaf meyillərinin geniş miqyasda yayılmasına nail oldu. Bir mühüm məsələ də ondan ibarət idi ki, Ulu Öndər Azərbaycanı sovetlər birliyində tanınan bir respublikaya çevirdi. Azərbaycanın sovetlər birliyində tanınması, yüksəlməsi, eyni zamanda, Azərbaycan şəxsiyyətinin yüksəlməsi demək idi.

Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanın tanınmış ədəbiyyat xadimlərinə, dövlət adamlarına, ictimai xadimlərə xüsusi nüfuz qazandırıldı. Həmçinin, təkcə o dövrdə yaşayanlar deyil, daha əvvəlki tarixlərdə yaşamış şəxsiyyətlərə xüsusi nüfuz qazandırıldı, onlarla böyük milli tarixi şəxsiyyətlərə abidə ucaldıldı. Bu o demək idi ki, sənin əcdadın, sənin dədə-baban bunlardır. Bir var ki, milli düşüncə təkcə ziyalılarda, ictimai xadimlərdə olsun, bir də var ki, milli düşüncə kütləviləşdirilsin. Heydər Əliyev bunu həyata keçirdi[2]. Ona görə də, sovetlər birliyinin tərkibində türk-müsəlman respublikalar içərisində ən öndə gedən, müstəqillik hissiyyatları ən güclü olan respublika Azərbaycan idi. Onu da qeyd etmək lazımdır ki, artıq 1960-cı illərdən başlayaraq, SSRİ-də milli məsələlərə münasibətdə müəyyən yumşalmalar var idi. Artıq hiss olunurdu ki, müxtəlif xalqlar, respublikalar özünəməxsusluqlarını israrla təlqin edirdilər. Əlbəttə, bu, hələ o demək deyildi ki, respublikalar müstəqillik almışdılar. Amma bununla yanaşı, hər halda bu müstəqillik maraqları özünü göstərirdi. Məsələn, Azərbaycanda Novruz bayramının yenidən qeyd olunmasına çalışılması, Azərbaycan dilinin dövlət idarələrində işlənilməsi haqqında Fərmanın verilməsi kimi irəliləyişlər müşahidə olunurdu.Heydər Əliyev bütün gücünü toplayaraq dövlət quruculuğundan daha çox xalq, millət quruculuğu işinə diqqət yetirirdi. Yəni o bilirdi ki, mütəşəkilli olan bir millət dövlətsiz ola bilməz, gec-tez o, özünəməxsus dövlətini quracaq. Məhz 1980-ci illərin sonlarında xalq hərəkatı baş qaldırarkən hamı bilirdi ki, bu xalq Heydər Əliyevin sayəsində mütəşəkkillik tapıb

və ancaq bu iradə bu mütəşəkkilliyi idarə etmək bacarığına malikdir. Çünki Heydər Əliyevin xalq, millət quruculuğundakı xidmətləri artıq müəyyən bir tarixə malik idi. Və bu tarix bütün dəqiqliyi ilə göstərirdi ki, bu təmənnasız bir tarix idi. Yəni, Heydər Əliyevinfəaliyyəti, içdən, daxildən gələn, xalqın mütəşəkkillik enerjisini özündə ifadə edən bir fəaliyyət idi və burda heç bir konyuktura yox idi. Amma təbiidir ki, müəyyən məqamlar oldu ki, bu məqamlarda bəzən tarixi şəxsiyyət obyektiv səbəblərdən hadisələrin mərkəzində ola bilmir. Burada hər dövrün öz konyukturasının böyük rolu olur.1991-ci ildə Azərbaycan dövləti öz müstəqilliyini elan etdi. Amma bu, ölkəmizə çox baha başa gəldi. Bunun səbəbləri nə idi və niyə Azərbaycan digər Sovet respublikaları ilə müqayisədə bu yolu daha çətin keçdi?

Burada bir neçə səbəb göstərmək lazımdır. Birincisi, elə əvvəllər də, xüsusən, XIX əsrin sonu, XX əsrdən başlayaraq regionda Azərbaycana irticaçı maraq həmişə böyük olub. Çünki Azərbaycan xalqı Cənubi Qafqazın aparıcı xalqıdır və proseslərdə həmişə fəallıq göstərib. Azərbaycanın coğrafiyasına həmişə müxtəlif iddialar olub. Bu iddialar da regionda yaşayan müxtəlif xalqlar vasitəsilə irəli sürülüb. Təbii ki, burada da aparıcı işi Moskva görüb ki, regionda Rusiyanı qoruyacaq xristian mühiti yaratsınlar. İkincisi, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Azərbaycanda siyasi qüvvələr arasında ortaq mövqenin olmaması, nəticə etibarilə prosesləri daha da gərginləşdirmişdi. Eyni zamanda, Heydər Əliyev kimi, Ümummilli liderimiz adını qazanmış böyük şəxsiyyətin də fəaliyyəti məhdudlaşdırılmışdı. Ona görə də, istər-istəməz eyni gücə sahib olan çoxlu sayda qüvvələr toqquşmalı oldu. Xüsusi nüfuzu olan bir qüvvə yox idi ki, siyasətin məqbul bildiyi hər hansı bir formula iləAzərbaycanda mərkəzləşmə yaratsın. Üçüncü səbəb isə o idi ki, sovetlər birliyinin dağılma ərəfəsində Moskva heç bir respublikanı əlindən buraxmamaq üçün müxtəlif təxribatlara əl atırdı. Moskvanın son müqaviməti Azərbaycanda daha çox tətbiq olundu. Çünki Moskva üçün Azərbaycan daha böyük strateji əhəmiyyətə malik idi. Yəni, sadalanan bu səbəblər Azərbaycanın bu prosesləri daha böyük itkilərlə başa vurmasına səbəb oldu. Bir də ölkəyə rəhbərlik edən siyasətçilərin bir faktor kimi rolunu düzgün qiymətləndirmək lazımdır. Belə bir məqamda, təbiidir ki, Heydər Əliyev Azərbaycanda dərhal hakimiyyətə gələ bilməzdi. Çünki o zamanlar Azərbaycanda gedən proseslər tam dağıdıcı, mərkəzdənqaçma əhval ruhiyyəli idi. Burada əsl lideri etiraf etmək psixoloji cəhətdən müşkülə çevrilmişdi. Və yenicə azadlıq, müstəqillik əldə olunmasından irəli gələn bir eyforiya da var idi. Bu həyəcanda hər kəs nə qopardacaqsa, onun barəsində düşünürdü. Ona görə də, ölkənin təsərrüfatına, idarəçilik sisteminə, təhsilinə, mədəniyyətinə böyük ziyan vuruldu, ölkənin ziyalıları cəmiyyətin ən çox təhqir olunan hissəsi idi. Elm adamları, yazıçılar, incəsənət xadimləri ən pis vəziyyətə düşdülər. Amma dağıdıcılıq da uzun zaman davam edə bilməz. Çünki bu elə bir proses idi ki, nə vaxtsa yekunlaşmalı idi. Dağılan şey də nə vaxtsa qurtarır, tükənir. Artıq bölünməli, dağılmalı nəsə qalmayanda, cəmiyyətin özünə lider axtarışları, onu idarə edə biləcək gücü axtarmaq meyilləri başladı. Hamının diqqəti artıq öz fəaliyyəti ilə xalqın lideri olduğunu, bu gücə sahib olduğunu sübuta yetirmiş Heydər Əliyevə yönəldi.

1993-cu ildən sonra Azərbaycanda hər şey dəyişdi. İstər siyasi, istər iqtisadi, istərsə də sosial sferalarda böyük inqilabi dəyişikliklər yarandı. Amma istərdik sizə daha yaxın olan bir sahədə müşahidə olunmuş dəyişikliklər, qəbul olunmuş böyük qərarlar haqqında danışaq.

Həmin dövrdə müəyyən adamlar Azərbaycan xalqının Ümummilli lideri haqqında çirkin təbliğat aparılırdı. Ona qarşı ən müxtəlif iddialar səsləndirməkdə idilər. Deyirdilər ki, o kommunist olub, sovet respublikalarından birinə rəhbərlik edib[3]. Hətta belə bir konyuktur iddia irəli sürürdülər ki, guya Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanın demokratikləşməsi istiqamətində gedən prosesin qarşısını alacaq. Amma bütün hallarda onlar Heydər Əliyevin böyük şəxsiyyət olması reallığını inkar edə bilmirdilər. Hətta ən inkarçı adam belə, bilirdi ki, Heydər Əliyev böyük şəxsiyyət idi. Amma heç kəs deyə bilməzdi ki, Heydər Əliyev ölkədən hansısa neqativ hallar üçün istifadə edib, çünki Heydər Əliyev Azərbaycan SSR-in rəhbəri kimi fəaliyyət göstərdiyi dövrlərdə ancaq quruculuq işləri ilə məşğul olub. Ona görə də, Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycan artıq müstəqil dövlətdir və həm daxili, həm də xarici siyasətdə müstəqil hərəkət etməlidir. Amma Heydər Əliyev onu da yaxşı bilirdi ki, yeni tarix əvvəlki tarixin davamıdır. Yəni, xalq kökündən dəyişilməyib, Azərbaycana başqa xalq gətirilməyib, əvvəlki xalq tarixə

çevrilməyib. Və bu xalqı da Heydər Əliyev yaxşı tanıyırdı. Ona görə də, Heydər Əliyev üçün yeni dövr nə qədər yeni olsa da, O, əvvəllər gördüyü işləri yeni tarixi şəraitdə davam etdirdi. Bilirsiniz ki, Onun gördüyü böyük işlər, planlar, istiqamətlər var idi və bu proqramlar, tamamilə inkar olunardısa, istər-istəməz xalqı bir yerə toplamaq, yeni dövlət quruculuğu proqramı həyata keçirmək, iqtisadiyyatı dirçəltmək, cəmiyyəti, onun milli-mənəvi gücünü toplamaq mümkün olmazdı. Ənənə davam etməli idi. Heydər Əliyev əvvəlcədən bir azərbaycançı idi. Amma artıq azərbaycançılığın önündə yeni üfüqlər açılmışdı. Azərbaycançılıq ideologiyası XIX əsrin sonu XX əsrin əvvəllərində yaransa da, onu həyata keçirmək mümkün olmamışdı. Gözəl ideyalar hər bir xalqın tarixində olub. Böyük siyasi xadi, dövlət adamı ona deyirlər ki, həmin ideyaları həyata keçirsin. İdeya irəli sürmək kiçik bir iş deyil. Amma ən böyük iş ideyanı həyata keçirməkdir. Heydər Əliyev azərbaycançılıq ideyasını həyata keçirmiş bir dövlət xadimi olaraq Azərbaycan tarixində yaşayır. Bu xüsusi bir hadisədir. Heydər Əliyev həm də sözün həqiqi mənasında bir yenilikçi idi. Onun bu xüsusiyyəti həmişə özünü göstərib, istər Sovet dövründə, istərsə də yeni dövrdə. Məsələn, deyək ki, təhsil sahəsində. Sovet dövründə ölkəmizə rəhbərlik etdiyi zaman Heydər Əliyev azərbaycanlı gəncləri ittifaqın müxtəlif universitetlərinə ali təhsil almağa göndərirdi, müstəqillik dövründə isə gənclərimiz dünyanın ən müxtəlif ölkələrinin qabaqcıl təhsil ocaqlarına göndərilməyə başlandı. Bu, müxtəlif cəhətlərdən çox mühüm idi. Əvvəla, azərbaycanlı gənclər xaricdə daha mükəmməl təhsil alaraq, ölkəmizə peşəkar kadrlar kimi qayıdır, müxtəlif vəzifələrdə çalışırdılar. İkincisi, bu gənclər ölkəmizi tanıdır, təbliğatla məşğul olurdular. Ümumiyyətlə isə, Heydər Əliyevin Azərbaycan dövlətçiliyini inkişaf etdirən, müstəqilliyini möhkəmləndirən addımları bir neçə sahə ilə məhdudlaşmırdı. Bütün sahələrdə çox genişmiqyaslı tədbirlər görülüb, islahatlar aparılıb. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi Azərbaycan dövləti üçün əsl uğur oldu. Ulu öndər Heydər Əliyev qurduğu Azərbaycan dövlətinin yaşaması, uğurla inkişaf etməsi üçün lazım olan bütün addımları atdı və bu yolda müvəffəqiyyət qazandı. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına bu dövləti qorumağı, yaşatmağı tapşırıb getdi. 1994-cü ildə sülh müqaviləsi çox ciddi məsələ idi. Bununla bağlı müxtəlif fikirlər söylənildi. 1994-cü ildən başlayaraq bizə qarşı olan dəstəyi də, hücumları da görürdük. O zaman çətin anlarda məhz Ulu Öndər Heydər Əliyev dühası lazım idi. Ümummilli liderimiz Heydər Əliyev müdrikliklə, cəsarətlə bütün iradəsini ortaya qoyaraq, sentyabr ayında "Əsrin Müqaviləsi"nin imzalanmasını təsdiq etdi və bununla da hər şey həll olundu. Doğrudur, hər birimiz bilirdik ki, bundan sonra müxtəlif çətinliklər ortaya çıxacaq. Amma Ulu Öndər bu müqaviləni imzalayarkən dedi ki, nə olur-olsun, bu addımı atmalıyıq ki, ondan sonra ikinci addımı atmaq mümkün olsun. Başqa bir maraqlı məqam isə ondan ibarətdir ki, 1997-ci ilin yanvar ayının 13-də Ulu Öndər Heydər Əliyevin Fransaya səfəri oldu. O vaxtlar Ulu öndərimiz Heydər Əliyevin iş proqramı hər zamankı kimi çox sıx olurdu. Hətta gecə saat 12-də belə iş rejimi bitməzdi. Ulu öndər Heydər Əliyev Fransada səfərdə olan zaman ATƏT-in Minsk Qrupuna həmsədrlik məsələsi gündəmdə idi. Əgər həqiqətən də, Ulu öndər Heydər Əliyev olmasaydı, ATƏT-in Minsk Qrupunun həmsədrləri də olmazdı və ümumiyyətlə, bu prosesi təşkil etməyə təşkilatçı da olmazdı. Ümummilli Lider Heydər Əliyev çox balanslaşdırılmış bir siyasət yürüdürdü və bütün addımlarını da cəsarətlə, mərdliklə atırdı. Əslində, ölkə başçısı üçün həyati problemlər çox mürəkkəb və böyük bir yük idi [1]. Ulu Öndərimiz bütün işlərin öhdəsindən asanlıqla gəlirdi. Ölkəmizin, xalqımızın maraqlarını düşünür, onu təmin etməyi, qorumağı bacaran bir siyasətçi, əsl dahi, təkrarolunmaz bir şəxsiyyət idi. Onun dövründə paytaxtımızda, eləcə də, rayonlarımızda nə qədər quruculuq-abadlıq işləri aparılırdı. Ulu Öndərimiz Heydər Əliyevdən sonra baş verən ən mühüm, önəmli hadisələrdən biri də Prezident İlham Əliyevin hakimiyyətə gəlməsi oldu. Ümummilli Lider Heydər Əliyevin ideya və ideologiyasını Prezidentimiz İlham Əliyev bu gün çox məharətlə davam etdirir. Azərbaycana gələnlər burada baş verən hər şeyi bir möcüzə adlandırırlar. Bütöv, müstəqil, suveren məmləkətimiz olan Azərbaycanda nə qədər yeniliklər, proseslər gedir. Fəxrlə deyə bilərik ki, Ümummilli liderimiz Heydər Əliyevin qoyduğu təməl möhkəm və inamlı əllərdədir. Bu isə çox vacib məsələdir. Doğrudur, müəyyən bir müddətə qədər Azərbaycana müəyyən dəstək olundu, amma artıq bu gün Azərbaycanın o dəstəyə ehtiyacı yoxdur. Xalqımız müdrik xalqdır və öz dövlətini qorumağı da yaxşı bacarır. Onu da qeyd edim ki, bu gün bir çoxları tərəfindən səsləndirilən ərəb dünyasında baş verən iğtişaşları biz1990-cı illərdə

yaşamışıq. Artıq belə bir hadisəni Azərbaycan dövləti heç vaxt yaşamayacaq, heç bunu təkrarlamağa da cəhd göstərməsinlər. Ulu Öndər Azərbaycanı əsl fəlakətdən xilas etdi. Prezident İlham Əliyev də bütün iradəsini ortaya qoyaraq, Azərbaycanı inamla sabaha aparır, bu yolda hər birimiz Ona dəstək olmalıyıq.

Ümummilli liderimiz Heydər Əliyevin şah əsəri Yeni Azərbaycan Partiyası və qurduğu müstəqil Azərbaycan dövlətidir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. II kitab.Bakı: Azərnəşr, 1997, 604 s.
2. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan–Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı, Nurlan, 2007, 302 s.
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı:Təhsil, 2004, 472 s.
4. Məmmədov M. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü // Azərbaycan, 2008, 3 avqust, s.1-2.

AZƏRBAYCAN TƏHSİLİNİN TƏMƏLİ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVDƏN BAŞLAYIR

Tansu Azad qızı Rəşidova
Mingəçevir Dövlət Universiteti
tansu.ahmadzada.a@mdu.edu.az

Tarixin hər pilləsində müxtəlif fəaliyyətləri ilə cəmiyyətə fayda vermiş, dövləti dirçəltmiş liderlərin adına rast gəlinir. Azərbaycanın tarixində isə bu silinməz izi Ulu öndərimiz Heydər Əliyev qoymuşdur. Elə bir sahə yoxdur ki, orada ümummilli liderin uğurlu siyasəti reallaşmasın. Xüsusilə də, hər sahənin təməlini möhkəmləndirən təhsil sektorunda onun islahatları bu gün də gələcəyimizə töhfə verir.

Bütün sahələrlə bərabər, Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına cavab verən indiki səviyyəyə çatması və inkişafında ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu gün ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər, ümumi, peşə, orta ixtisas və ali təhsil müəssisələrinin geniş koordinasiyası, güclü elmi-pedaqoji kadr potensialı öz əsasını məhz ötən əsrin 70-ci illərindən, yəni Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan məqsədyönlü siyasətdən almışdır. Həmin dövrdə Azərbaycanda bütün təhsil müəssisələri aparılan ardıcıl dövlət siyasəti hesabına keçən illərlə müqayisədə yeni inkişaf pilləsinə yüksəlmişdir.

Heydər Əliyev tərəfindən yaradılmış etibarlı iqtisadi zəmin əsasında təhsilin inkişafı ilə bağlı mühüm proqramların qəbul edilməsi mümkün olmuş, beləliklə, dövlət büdcəsindən təhsilə ayrılan xərclər əhəmiyyətli şəkildə artmış, 2003-cü ilə nisbətən 9 dəfədən çox artaraq cari ildə 2.3 milyard manata çatdırılmışdır.

Ötən əsrin 70-80-ci illərində Ümummilli Liderin rəhbərliyi dövründə məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə, orada tərbiyə alanların sayı 110 mindən 147 min nəfərə çatmış, məktəbəqədər təhsillə əhatə səviyyəsi 12 faizdən 19 faizə yüksəlmişdi. Bu dövrdə məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazası da xeyli möhkəmləndirilmiş, 35200 yerlik yeni körpələr evi-uşaq bağçası binaları tikilib istifadəyə verilmişdi.

İlk dəfə olaraq ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına məktəbəhazırlıq qrupları təşkil olunmuş, 5 yaşlı uşaqların təhsilə cəlb edilməsi səviyyəsi 2003-cü ildəki 15 faizdən 75 faizə çatdırılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində tarixən məktəbəqədər təhsil müəssisələri olmayan yaşayış məntəqələrində, ucqar kəndlərdə də uşaqların məktəbəhazırlığı təmin edilmişdir.

Heydər Əliyev sosial-iqtisadi və mədəni yüksəlişə gedən yolun məhz ümumi təhsildən keçdiyini dərindən bilərək əsas diqqəti bu sahəyə yönəltmiş, ümumi orta təhsilə keçidin başa

çatdırılması, kənd məktəblərinin iş şəraitinin daha da yaxşılaşdırılması barədə ardıcıl qərarlar qəbul etmişdi. 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən 3 dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdırılmışdı. Ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sayı isə 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minədək artmışdı. 1970-80-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verilmişdi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi. Bu sahədə həyata keçirilən tədbirlər məktəblərdə növbəlilik üzrə göstəricilərin yaxşılaşdırılmasına güclü təkan vermiş, şagirdlərin ikinci növbədə oxuma göstəricisi 1970-ci ildəki 40,2 faizdən 1980-ci ildə 28,1 faizə enmişdi.

1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında Ümummilli lider Heydər Əliyev məktəb tikintisinə diqqətin artırılması barədə iş adamlarına çağırışından sonra bu sahəyə diqqət əhəmiyyətli şəkildə artdı, dövlət təşkilatlarının vəsaitləri, iş adamlarının, xeyriyyəçilərin vəsaitləri beynəlxalq təşkilatların qrant və kreditləri hesabına yeni məktəb binalarının tikintisinə başlandı. ABŞ-ın humanitar təşkilatları, İslam İnkişaf Bankı, Yaponiya hökuməti, Səudiyyə İnkişaf Fondu, bir sıra nazirliklər və dövlət şirkətlərinin maliyyə vəsaitləri hesabına ölkənin müxtəlif regionlarında yeni məktəb binaları inşa edildi.

Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə ümumi təhsil müəssisələrində şagirdlərin dərsliklərlə təminatı sahəsində əhəmiyyətli addım atılmış, 1978-ci ildən şagirdlərin dərsliklərlə pulsuz təminatına keçilmişdi. Sonradan müstəqilliyin ilk illərində ozamankı hakimiyyət tərəfindən dərsliklə pulsuz təminat ləğv edilmişdi. Heydər Əliyevsə 1994-1995-ci tədris ilindən bu imtiyazı yenidən bərpa etmişdir və hazırda da bütün şagirdlər dərsliklərlə, müəllimlər isə tədris vəsaitləri ilə pulsuz təmin edilirlər.

Ulu öndər Heydər Əliyev hər zaman müəllim peşəsinə böyük dəyər vermiş, "Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" demiş, bu yanaşmadan çıxış edərək müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı davamlı qərarlar qəbul etmişdir. Heydər Əliyevin bir özəlliyi də ondan ibarət idi ki, hər yeni tədris ilinin ilk günündə məktəblərdə olur, müəllim və şagirdlərlə görüşür, onları dinləyir və öz müdrik tövsiyələrini verirdi.

Heydər Əliyev fədakar əməyi ilə fərqlənən müəllimlərin fəaliyyətinin rəğbətləndirilməsinə xüsusi diqqət yetirirdi. 1970-ci illərdə 817 nəfər "Əməkdar müəllim" fəxri adı almış, 3 nəfər müəllim o dövrün ən yüksək təltiflərindən olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.

Peşə təhsilinin inkişafının yüksəliş dövrü məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. Həmin illərdə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1.7, təhsilalanların sayı isə 2.5 dəfə artmışdı. Heydər Əliyevin təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirilmiş, həmin illərdə 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başlamışdır.

1978-1987-ci illərdə Azərbaycanda 5276 yerlik texniki peşə təhsili kompleksləri, 2400 yerlik tədris binaları, 2800 yerlik təcrübə korpusları, ümumi sahəsi 15559 kv.m. olan yataqxana binaları tikilib istifadəyə verilmiş, 194 tədris istehsalat emalatxanası, 786 tədris kabineti və laboratoriyası yaradılmışdı. Təhlil göstərir ki, 1970-ci ildə 76 peşə məktəbi fəaliyyət göstərmiş və həmin müəssisələrdə 40,9 min şagird təhsil almışdısa, bu göstərici müvafiq olaraq 1980-ci ildə 173 məktəb və 99,8 min şagirdə, 1982-ci ildə isə 184 məktəbə və 230 peşə üzrə 110 min şagirdə çatdırılmışdı.

Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə ötən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və yüksəkixtisaslı kadr hazırlığı istiqamətində böyük işlər görülmüşdü. Ümumiyyətlə, 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, yüzlərlə yeni ixtisaslar açılmış, kafedralar, problem laboratoriyaları fəaliyyətə başlamışdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu illərdə ali məktəblərdə təhsilalanların sayı 70 mindən 100 minə yüksəlmişdi. [3]

Müstəqillik illərində də Ümummilli Lider tərəfindən ali təhsilin inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. 2000-ci ildə ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırıldı, onlara universitet statusu verildi. 1993-1994-cü tədris ilindən ödənişli təhsil tətbiq edildi. Həmin dövrdə

ödənişli təhsilin tətbiqi, demək olar ki, çətin iqtisadi şəraitdə ali təhsil müəssisələrinin maliyyə imkanlarını xeyli yaxşılaşdırdı. 1997-ci ildə bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsilə başladılar.

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri də 1970-80-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın iqtisadiyyatı, elm, təhsil və mədəniyyətinin 80-dən çox sahəsini əhatə edən və ölkə üçün ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yaratmasıdır. 1969-1970-ci dərs ilində respublikadan kənara cəmi 47 nəfər təhsil almağa göndərilmişdisə, 1978-ci ildən etibarən respublikadan kənara hər il 800-900 tələbə göndərilməsinə nail olunmuş, 1980-ci illərin əvvəllərindən isə bu göstərici ildə 1000-1400 nəfərə çatmışdı.

Heydər Əliyevin respublikadan kənarda milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən biri də milli hərbi kadrların yetişdirilməsidir. Həmin illərin ən əhəmiyyətli hadisələrindən biri kimi keçmiş SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin sistemli şəkildə göndərilməsidir. Heydər Əliyevin birbaşa rəhbərliyi və qayğısı ilə 1972-ci ildən etibarən hər il yüzlərlə gənc keçmiş SSRİ-nin böyük təcrübəyə malik ali hərbi məktəblərinə təhsil almağa göndərilirdi. Bununla yanaşı, həmin illərdə Azərbaycanda orta və ali hərbi təhsil sisteminin yaradılması xüsusi əhəmiyyət daşıyırdı. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda C.Naxçıvanski adına Hərbi Məktəb yaradıldı və hərbi məktəblər şəbəkəsinin sonrakı inkişafında mühüm rol oynadı. Bu gün müstəqil Azərbaycanın Milli Ordusuna rəhbərlik edən zabitlərin əksəriyyəti məhz Heydər Əliyevin xeyir-duası ilə o illərdə təhsil almağa göndərilən və ölkəmizin hərbi məktəblərini bitirən gənclərdir.

Dövlət proqramı çərçivəsində təhsil almış tələbələrin böyük əksəriyyəti məzun olmuş və ölkəmizə qayıtmışdır. Hazırda məzunların 60 faizi özəl, 40 faizi dövlət sektorlarında fəaliyyət göstərir. Proqram təqaüdçüləri ölkə iqtisadiyyatının müxtəlif sahələrində, ayrı-ayrı dövlət qurumlarında (nazir müavini, millət vəkili), beynəlxalq təşkilatlarda (BMT), transmilli şirkətlərdə ("Microsoft", "Google", "Bloomberg", "Samsung", "LG", "BP" və s.) və özəl sektorda töhfələrini verməkdədirlər. Sevindirici haldır ki, məzunlar arasında universitetlərimizdə akademik fəaliyyətlə məşğul olanlar da az deyildir.

Heydər Əliyevin 1982-1987-ci illərdə keçmiş SSRİ kimi böyük dövlətin təhsil siyasətinə, təhsil islahatlarına rəhbərlik etməsi bütün sovetlər birliyində, o cümlədən Azərbaycanda ümumilikdə təhsilin inkişafına, keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdır. 1984-cü ildə keçmiş SSRİ-də ümumi təhsil və peşə təhsili üzrə islahatların əsas istiqamətlərinin müəyyənləşdirilməsi və yerinə yetirilməsi mexanizminin işlənib hazırlanması, internat tipli müəssisələrin işinin təkmilləşdirilməsi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həmin illərdə ümumi təhsilə 6 yaşdan başlanılması, onun müddətinin 11 illik olması təklifləri də Heydər Əliyev tərəfindən irəli sürülmüşdü. [1]

Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə təhsil sahəsində islahat proqramının hazırlanması üçün Dövlət Komissiyası yaradıldı, qısa müddət ərzində "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. Proqramın həyata keçirilməsi prosesinə Dünya Bankı cəlb edildi, beynəlxalq təcrübə əsasında əsas istiqamətlər üzrə bir sıra islahatlar həyata keçirildi. [1]

Ulu Öndərin layiqli davamçısı, onun dəst-xəttini layiqincə yerinə yetirən Prezident İlham Əliyev tərəfindən təhsil sahəsində islahatların davamlılığı təmin edildi. Onun təşəbbüsü ilə hazırlanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" 2013-cü il oktyabrın 24-də təsdiq edildi. Məktəbəqədər təhsilin uşağın sonrakı inkişafında müstəsna əhəmiyyəti nəzərə alınaraq ölkə Prezidenti İlham Əliyev tərəfindən məktəbəqədər təhsilin inkişafı ilə bağlı 2007-2010-cu illəri əhatə edən Dövlət Proqramı təsdiq edilmiş və həyata keçirilmişdir. Proqrama əsasən, ölkədə yüzlərlə yeni məktəbəqədər təhsil müəssisələri inşa edilmiş və mövcud

müəssisələr əsaslı təmir olunmuşdur. Bu sahədə Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun müstəsna xidmətləri olmuşdur və bu uğurlu fəaliyyət hazırda da davam etməkdədir.

Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə 2003-2018-ci illər ərzində 3200-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmiş, başqa sözlə, ölkənin bütün məktəblərinin 72 faizinin binası yeni tikilmiş və ya əsaslı təmir olunmuşdur. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmış, ikinci növbədə oxuyan şagirdlərin sayı 16.8 faizə enmiş, başqa sözlə, şagirdlərin 83.2 faizinə birinci növbədə təhsil almaq imkanı yaradılmışdır. Bu nailiyyətlərin əldə edilməsində Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının müstəsna rolu olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2019-cu il tarixli sərəncamına əsasən, dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşları cari il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılmışdır

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Proqram ölkəmizdə ali təhsil sisteminin inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. Proqramda ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları və xarici mütəxəssislərin cəlb olunması yolu ilə təkmilləşdirilməsini və xaricdə doktorantura təhsili vasitəsilə universitetlərimizin akademik potensialının gücləndirilməsi nəzərdə tutulmuşdur. [2]

Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2022-ci il tarixli 3163 nömrəli Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" təsdiq olunub. Dövlət Proqramının məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla onların müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik, bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir. Proqramın icrası müddətində hər il 400 nəfər olmaqla ümumilikdə 2 000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə bakalavriat və magistratura səviyyələri üzrə təhsil alması nəzərdə tutulub. 2023–2024-cü tədris ilində Dövlət Proqramı çərçivəsində 17 ölkənin nüfuzlu ali təhsil müəssisələri üzrə 64 nəfər bakalavriat, 317 nəfər magistratura səviyyəsində təhsilini davam etdirəcək .[2]

Günümüzün reallıqları sübut edir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən təhsil istiqamətində aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Eyni zamanda, bütün bunlar elm adamlarının daha da fəallaşmasını, ölkədə həyata keçirilən islahatların elmi əsaslarının işlənib hazırlanmasında xüsusi fəallıq göstərilməsini tələb edir. Başqa sözlə desək, praktiki əhəmiyyəti olmayan nəzəri düşüncələr bazar iqtisadiyyatının hökmran olduğu müasir dövrümüzdə tədricən sıradan çıxır. Bu baxımdan da, elm adamlarının praktiki cəhətdən əhəmiyyətli olan təklif və tövsiyələrlə çıxış etməsi ölkənin davamlı sosial-iqtisadi inkişafının başlıca amillərindən biri kimi qəbul edilməlidir. Yalnız bu halda əldə edilmiş dinamik inkişafı davamlı inkişafa çevirmək mümkündür.

Respublikamızda təhsilə, elm adamlarına verilən diqqət, qayğı və dəyər hər zaman yüksək olub və yüksəlməyə də davam edəcək. Ulu Öndərimizin dediyi kimi, "Təhsil millətin gələcəyidir." Uğurlu gələcək uğurlu təhsil siyasətindən başlayır.

İstifadə edilmiş ədəbiyyat

1. https://dergipark.org.tr/tr/download/article-file/3364859
2. https://tr.linkedin.com/pulse/%C3%BCmummilli-lider-heyd%C9%99r-%C9%99liyevin-milli-t%C9%99hsil-rolu-bakhtiyar-aliyev
3. https://www.muallim.edu.az/news.php?id=24908

HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCANIN MƏDƏNİYYƏT SİYASƏTİ

Faiq Mübariz oğlu Yusifli
Mingəçevir Dövlət Universiteti
faiq.yusifli@mdu.edu.az

Heydər Əliyev, Azərbaycan mədəniyyətinin tərəqqisini özünün əsas məqsədi sayaraq böyük diqqət və ehtiram göstərən bir lider idi. Onun rəhbərliyi dövründə, Azərbaycan mədəniyyətinə dünya səviyyəsində tanınmaq və mövqeyini möhkəmləndirmək üçün müxtəlif strategiyalar tətbiq edildi. Heydər Əliyevin dönəmində, Azərbaycan mədəniyyəti müxtəlif sahələrdə dərin inkişaf əldə etdi və dünya mədəniyyətinə unikal töhfələr təqdim etdi. Həmçinin, milli mədəniyyətimiz də qorundu və inkişaf etdirilməsi üçün geniş imkanlar yaradıldı. O, ədəbiyyat, teatr, kino, musiqi, rəssamlıq, balet, memarlıq və digər mədəni sahələrdə görülən işlərə xüsusi önəm verirdi və bu sahələrdə qazanılan nəticələr böyük uğurlar yekunlaşdı.

Heydər Əliyev, Azərbaycanın mədəniyyət səviyyəsini dünya arenasında yüksəltmək üçün bir sıra strateji tədbirlər və layihələr təşkil edirdi. Bu, dünya səviyyəsində nümayişləri olan incəsənət və musiqi festival, müsabiqələr, beynəlxalq sərgilər və konqreslər ilə təmin edilirdi.

Ümumiyyətlə, mədəniyyət insan fəaliyyətinin müxtəlif təzahüratlarına bölünür. Ədəbiyyat, rəssamlıq, musiqi, teatr, balet, kino, memarlıq, etnoqrafik mədəniyyət, idman və digər sahələr kimi növlərə misal gətirilə bilər.

1. Ədəbiyyat: İnsanların fikirlərini, hisslərini və düşüncələrini ifadə etdikləri bir ədəbiyyat növü olan romanlar, şeirlər və hekayələr kimi mətn növləri mühüm bir rol oynar.
2. Rəssamlıq: İnsanların dünyanın gözəlliklərini ifadə etmək üçün istifadə etdiyi bir mədəniyyət növüdür. Rəssamlar öz ifadə üslublarını, məlumatlarını, hisslərini və düşüncələrini tablo və şəkillər vasitəsilə ifadə edirlər.
3. Musiqi: Musiqi, insanların hisslərini ifadə etmək, sevinc və hüznü paylaşmaq üçün istifadə etdikləri bir mədəniyyət növüdür. İnsanlar müxtəlif alətlər vasitəsi ilə musiqi yaradır, səsləndirir və dinləyirlər.
4. Teatr: Teatr, insanların əylənmək, gözəllikləri izləmək, tarixi hadisələri və sosial problemləri tədqiq etmək üçün istifadə etdikləri bir mədəniyyət növüdür. Teatr, canlı performansların izlənməsi ilə xüsusi bir təcrübə təqdim edir.
5. Balet: Musiqi və rəqs birləşməsi olan balet, estetik və ifadəvi rəqs növləri ilə diqqət çəkir.
6. Kino: Kino, insanların həyatındakı məsələləri, qarşılaşmaları və hissləri ifadə etmək üçün istifadə etdikləri bir mədəniyyət növüdür. Kino, izləyicilər üçün ehtiraslandırıcı və düşündürücü bir təcrübə təqdim edir.

Heydər Əliyev Azərbaycan ədəbiyyatına böyük dəstək və diqqət göstərmişdir. O, Azərbaycan dilinin, ədəbiyyatının, teatrının, kino sənətinin və digər mədəniyyət növlərinin inkişaf etməsi sahəsində daim dəstəkləmişdir. Nizami Gəncəvi kimi Azərbaycanın ən böyük şairlərindən biri olan görkəmli şəxsə öz xüsusi fikirlərini bildirmişdir. Həmçinin, Hüseyn Cavidin qəbri üzərində ucaldılmış möhtəşəm memarlıq-xatirə kompleksinin təntənəli açılış mərasimində Heydər Əliyev, Hüseyn Cavidin yaradıcılığını və xidmətlərini öz nitqində vurğulayaraq onun əsərlərinin Azərbaycan mədəniyyətindəki əhəmiyyətini qeyd etmişdir.

"Hüseyn Cavid, XX əsrdə Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında əvəzsiz xidmətlər göstərmişdir. O, Azərbaycan xalqının, mədəniyyətinin, ədəbiyyatının və elminin yüksək səviyyəyə qaldırılmasında əhəmiyyətli bir şəxsiyyətdir. Hüseyn Cavidin əsərləri Azərbaycan xalqının milli irsini təmsil edir. Onlar bu gün üçün, həm də gələcək nəsillər üçün də bir dərs kitabıdır." [1]

Heydər Əliyev. Molla Pənah Vaqif kimi mühüm bir şairin məzarının bərpası və poeziya evinin yenidənqurulması Heydər Əliyevin fəaliyyətinin bir nəticəsidir. 1982-ci ildə Heydər Əliyev, Şuşada Molla Pənah Vaqifin məzarının açılış mərasimində iştirak etmişdir.

Heydər Əliyev, rəssamlıq sahəsində də Azərbaycanın inkişafına çox böyük dəstək vermişdir. Onun dövründə Azərbaycan rəssamlığı böyük inkişaf keçirmiş və dünya səviyyəsində tanınmış

rəssamlar yetişmişdir. Heydər Əliyev, Azərbaycanın incəsənət sahəsinə olan diqqətini rəssamlıq sahəsinə də yönəltmişdir. O, rəssamların yaradıcılığına, sənətin inkişafına dəstək vermiş, onların sənət tərbiyəsində diqqətli olmuşdur. Heydər Əliyev, Azərbaycan rəssamlarının dünya səviyyəsində tanınması üçün böyük təşəbbüslər göstərmişdir. O, Azərbaycan rəssamlarının sənət ictimaiyyətinə daha çox tanıdılması üçün tədbirlər keçirmiş və rəssamların sənət ictimaiyyətinə daha çox qatılması üçün imkanlar yaratmışdır. Qadınların sənət sahəsində iştirakını dəstəkləmək də Heydər Əliyevin mühüm fəaliyyətindən biri idi. Onun dönəmində, Azərbaycanlı qadın rəssamların inkişafı və məşhurluğu artmış, sənət ictimaiyyətinin dinamik üzvləri halına gəlməyə başlamışdırlar. Bu, sənət sahəsində cins cəhətdən baxmayaraq, bütün peşəkarların eyni fürsətləri əldə etməsi və yaradıcı potensialını göstərməsi ilə bağlı Heydər Əliyevin vizyonunun bir hissəsidir.

Heydər Əliyev, Azərbaycan musiqisi və musiqi sənətinə dərin bir hörmət və qiymət verirdi. O, musiqi sənətinin inkişafı və tanınması üçün dəstək olmuş və dəyişikliklərə yol açmışdır. Heydər Əliyev, Azərbaycan xalq musiqisi və klasik musiqi sahələrində təşkil edilən bütün tədbirlərə diqqət yetirirdi və onların inkişafı üçün imkanlar yaratmışdı. O, musiqi sənəti sahəsində işləyən bütün sənətkarların sənət tərbiyəsinə və bədii inkişafına fikir verirdi və dəstək olurdu.

Heydər Əliyev, musiqi sənətinin tanınması və sərbəst inkişafı üçün əlimizdən gələni əldə etməliyik deyərək Azərbaycan Milli Konservatoriyasının yaradılmasını təşkil etmişdir. O, özü də musiqi sənətinin sevərlərindən idi və özünün sevimli musiqi nümunələrini də yüksək qiymətlən-dirirdi. Bu musiqi nümunələri arasında məhz Azərbaycan xalq musiqisi nümunələri və qrupları, bəstəkarlarının əsərləri də olardı. [2]

Heydər Əliyev, Azərbaycanın musiqi sənətinin inkişafı və tanınması üçün böyük fəaliyyət göstərmiş və sənət sahəsinin inkişafına qiymət vermiş bir dövlət xadimi kimi tanınmışdır.

Heydər Əliyev, teatr və dram sənətinə dərin bir hörmət və qiymət verirdi. O, Azərbaycan teatr sənətinin inkişafına və tanınmasına xüsusi diqqət yetirirdi və inkişafı üçün imkanlar yaratmışdı. Heydər Əliyev, teatr sənətinin dəyişik sahələrində işləyən bütün sənətkarların sənət tərbiyəsinə və bədii inkişafına fikir verirdi və dəstək olurdu.

Heydər Əliyev, Azərbaycan teatr sənətinin tanınması və sərbəst inkişafı üçün əlimizdən gələni əldə etməliyik deyərək, Bakı Dövlət Dram Teatrının yenidənqurulmasını təşkil etmişdir. O, özü də teatrın sevərlərindən idi və özünün sevimli teatrlarını da yuxarı qiymətləndirirdi. [2]

Heydər Əliyev, balet sənətinə də dərin bir hörmət və qiymət verirdi. O, Azərbaycan balet sənətinin inkişafına və tanınmasına dəstək olmuş və bu sahədə dəyişikliklərə yol açmışdır. Ənənəvi Azərbaycan balet sənətinin yaradılması və bədii inkişafı üçün imkanlar yaratmışdı. O, özü də baletin sevərlərindən idi və özünün sevimli balet səhnələrini də yuxarı qiymətləndirirdi.

Heydər Əliyev, Azərbaycan balet sənətinin inkişafı və tanınması üçün böyük fəaliyyət göstərmiş və sənət sahəsinin inkişafına qiymət vermiş bir dövlət xadimi kimi tanınmışdır. Onun dövründə, Azərbaycan Milli Balet Məktəbi yaradılmış, özü də bu sahədə yaradıcılığı dəstəkləmişdir. Bu cür dəstəkləri sayəsində, Azərbaycan balet sənəti dünya səviyyəsində tanınmış və tanınmağa davam etməkdədir.

Heydər Əliyev, kino sənətinə dərin bir hörmət və qiymət verirdi. O, Azərbaycan kino sənətinin inkişafına və tanınmasına dəstək olmuş və bu sahədə dəyişikliklərə yol açmışdır. Ənənəvi Azərbaycan kino sənətinin yaradılması və bədii inkişafı üçün imkanlar yaratmışdı. O, özü də kino sevərlərindən idi və özünün sevimli filmlərini də yuxarı qiymətləndirirdi.

Heydər Əliyev, Azərbaycan kino sənətinin inkişafı və tanınması üçün böyük fəaliyyət göstərmiş və sənət sahəsinin inkişafına qiymət vermiş bir dövlət xadimi kimi tanınmışdır. O, Azərbaycan kino sənəti üçün çoxsaylı layihələr hazırlamış, Azərbaycan Kino Mərkəzinin yaradılmasını təşkil edərək kino sahəsində dəyişikliklərə yol açmışdır. Bu cür dəstəkləri sayəsində, Azərbaycan kino sənəti dünya səviyyəsində tanınmış və tanınmağa davam etməkdədir. Heydər Əliyevin dəstəyi ilə Azərbaycan kino sənəti xüsusi inkişafını yaşamış və çox sayda yaradıcı işə imza atılmışdır.

Heydər Əliyev dövründə Azərbaycan mədəniyyəti və incəsənəti ciddi inkişaf keçirdi. Bir neçə mühüm addımlar atıldı və çoxsaylı layihələr həyata keçirildi. Aşağıdakı məqamlar Heydər Əliyevin rəhbərliyi dövründə mədəniyyətin dirçəlişi ilə əlaqədar mühüm addımları əhatə edir:

1. Dövlət büdcəsindən daha çox vəsaitin ayrılması və mədəniyyətin inkişafına daha çox diqqət yetirilməsi;
2. Milli incəsənətin inkişafı üçün təşkil edilən bir neçə layihənin həyata keçirilməsi, bu layihələr arasında milli teatr, balet və opera teatrının açılması və ya inkişafı, xalq sənətlərinin təşkili və yaxşılaşdırılması, müasir mədəniyyət məktəblərinin yaradılması kimi layihələr var;
3. Mədəniyyət sənətinin təbliği və təbliğin keyfiyyətinin artırılması üçün dövlət tərəfindən bir sıra media vasitələri, jurnalistik məktəbləri, tələbələrin təhsili üçün mərkəzlər və s. yaradılmışdır;
4. Azərbaycan incəsənətinin dünya ədəbiyyatı və sənətindəki mövqeyi və özəllikləri haqqında elmi araşdırmaların aparılması və bu sahədəki kitabların nəşr edilməsi;
5. Azərbaycan dilinin, ədəbiyyatının, musiqi sənətinin, baletinin və opera teatrının təbliği və bu sahədə təhsilin dəstəklənməsi;
6. Beynəlxalq incəsənət və mədəniyyət tədbirlərinə qatılmaq və ölkənin incəsənəti və mədəniyyəti haqqında layihələrinin hazırlanması və icrası;
7. Azərbaycan xalqının tarixi və incəsənəti ilə bağlı muzeylərin yaradılması və bu sahədə təbliğin dəstəklənməsi; [1]

Heydər Əliyevin mədəniyyət sahəsində gördüyü işlər, Azərbaycan mədəniyyətinin inkişafına ciddi təsir göstərdi. Onun liderliyi döründə 1990-ların sonu və 2000-ci illərdə Azərbaycanın mədəniyyət sahəsi böyük inkişaf keçirdi. Heydər Əliyev Azərbaycan mədəniyyətinin qorunması və inkişafı üçün bir çox addımlar attı. O, milli mədəniyyətimizin dəyərlərinin dünyaya tanıdılması üçün fəaliyyət göstərərək Azərbaycan xalqının incəsənətini təbliğ edərək dünya səviyyəsində tanınmasına kömək etdi.

Heydər Əliyev Azərbaycanın mədəniyyət infrastrukturunun inkişafına da diqqət yetirirdi. Şəhərlərdə və rayonlarda yeni teatr və konsert zalı binaları tikilmişdir. Bu binaların tikintisi Azərbaycanın mədəniyyət tədbirlərinin daha yüksək səviyyədə keçirilməsinə imkan verdi. Bu cür addımlar Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafında böyük təsir göstərdi və onun liderliyi altında Azərbaycan mədəniyyəti daha yüksək səviyyəyə çatdı.

Heydər Əliyevin mədəniyyət siyasətinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycanın ən mühüm mədəniyyət hadisələrində iştirak edir və mədəniyyət sahəsindəki bir çox layihələrə dəstək verir. Bununla yanaşı, İlham Əliyev və onun əməkdaşları mədəniyyət sahəsində dünya səviyyəsində tanınmış Azərbaycan sənətkarlarının fəaliyyətlərinə dəstək olur və onların layihələrinə dəstək verir. İlham Əliyevin mədəniyyət siyasəti də, Heydər Əliyevin mədəniyyət siyasətinə uyğun olaraq, ölkədə mədəniyyətin inkişafına diqqət yetirir və mədəniyyətin ölkənin gələcəyi üçün vacib bir hissəsi olduğunu qəbul edir.

İstifadə edilmiş ədəbiyyat

1. "Heydər Əliyev və mədəni irs", Bakı – 2014
2. "Heydər Əliyev və milli mentalitet fəlsəfəsi" – Qoşqar Əliyev, Bakı – 2003

SAĞLAMLIQ IMKANLARI MƏHDUD UŞAQLARIN CƏMİYYƏTDƏ QARŞILAŞDIQLARI ÇƏTİNLİKLƏR

[1,2]**Ayşən Fəxrəddin qızı İsmayılova,** [1,3]**İlahə Yasin qızı Əmrahzadə**
[1]Mingəçevir Dövlət Universiteti
[2]ayshen.ismayilova@mdu.edu.az
[3]ilahe.emrahzadeilahe@mdu.edu.az

İnklüziv təhsil, sağlam və məhdudiyyətli olanların birlikdə təhsillənmə hüquqlarını qoruyur. Bu, sosial bərabərliyin qorunmasına və əlil uşaqların xüsusi ehtiyaclarının ödənilməsinə imkan yaradır. Qüsuru olanlar kollektiv mühitə adaptasiya olur, özünə inam hissi formalaşır və cəmiyyətə

inteqrasiya edilir. Onlar bərabərhüquqlu şəxsiyyət kimi fomalaşır və gələcəkdə məşğulluq kimi problemləri aradan qaldırılır. Uşaqların təhsillənmək və biliklər qazanmaq imkanını qəlizləşdirən səbəbləri təyin etmək mümkündür. Lakin, bunu da vurğulamaq mecburidir ki, uşaqların təhsil almaqdan imtina etməsi məsuliyyəti onların öz üzərinə yükləmək olmaz. Uşaqların təhsil almağını təmin etmək məktəbin və cəmiyyətin əsas vəzifəsidir. Biz çox zaman eşitdiyimiz "Uşaq dərsə getmək istəmir" fikirləri ilə düşünməməliyik. Bunun əvəzinə, uşaqların məktəbə getməməsinin səbəblərini və bu səbəbləri aradan qaldırmaq üçün necə addımlar atılacağının müzakirəsi daha məqsədə uyğundur. Məktəb və cəmiyyətin, uşaqların təhsil almaq imkanlarını artırmaq üçün bu birgə çalışması ilə mümkündür.

Bir sıra kiçik rayon və kənd tədris müəssisələri, psixi və fiziki məhdudiyyəti olan uşaqlara təhsil vermək üçün hazır deyillər. Bəzi hallarda məhdudiyyətləri olan uşaqlar müntəzəm dərslər almasalar da, natamam orta təhsilin bitirilməsi haqqında şəhadətnamə alırlar. İnklüziv təhsilə cəlb edilməsi üçün valideynlərin maarifləndirilməsi vacibdir. Amma bəzi valideynlər öz əlil uşaqlarını təhsilə cəlb etmirlər.

Biz, onların qarşısındakı maneələri müəyyən edə bilmək üçün çətinliklərlə üzləşən uşaqların təhsillənmək imkanlarını təhlil etməliyik. Ancaq, bunu qeyd etməliyik ki, uşağın təhsil almağından və ya öyrənməsindən imtina etməsi məsuliyyəti onun üzərinə yığmaq doğru deyil. Hər hansı bir mənsubiyyət və ya həyat şəraiti ilə əlaqədar olmayaraq təhsil almaq hüququ məcburidir. Mövcud olan maneələri aşkar etmək və aradan qaldırmaqla uşaqların təhsil alması məktəbin və cəmiyyətin öhdəliyidir. Cəmiyyətdə bir çox çətinliklərlə "sağlamlıq imkanları məhdud" olan uşaqlar qarşılaşa bilərlər.

Bəzi cəmiyyət üzvləri tərəfindən istənmiyən tərəfdaş kimi görülə bilər və onlarla birlikdə işləməkdən qaçınıla bilər.

Fiziki pozuntuları olan uşaqlar, istənilən növ iş prosesində iştirak etmək üçün çətinliklərlə qarşılaşa bilər, məsələn, idman və ya musiqi kimi. Həmçinin, onların məhsulluq potensialını azalma səbəbi onlar üçün təhsil imkanlarının məhdud olması ilə əlaqədardır. Əlavə olaraq, sağlamlıq problemi olan uşaqların bir qismi xüsusi xidmətlərə və tibbi müalicəyə giriş üçün maddi səbəblərə əsaslanan sıxıntılar keçirirlər, bu da onların müraciət etmələrini çətinləşdirir. Qüsurlu olan uşaqların cəmiyyətdə qarşılaşdığı çətinliklər müxtəlif sahələrdə görülür. Bu sahələr arasında təhsil, sağlamlıq xidmətləri, iş və məişət, ictimaiyyət və əlaqələr kimi müxtəlif sahələr var.

Təhsil sahəsində, məhdud imkanlı uşaqların məktəbə uyğun şəkildə hazırlanması və öyrənilməsində qarşılaşdıqları problemlər olur. Bu uşaqlar üçün məktəblərə uyğun şəkildə təlim proqramları hazırlanması, müəllimlərin bu uşaqların ehtiyaclarını anlamaq və onlara uyğun dəstək verilməsi, həmçinin məktəblərdə uyğun fiziki təminatın yaradılması, materialların təqdim edilməsi kimi addımlar atılmalıdır.

Sağlamlıq xidmətləri sahəsində, məhdud imkanlı uşaqların müxtəlif təbabət sahələrindən xidmət alması və müalicə görməsi üçün çətinliklər olur. Bu uşaqlar üçün müalicə xidmətlərinin rahat olması, tibbi materialların uyğun təchizatlandırılması, müalicənin ən yüksək keyfiyyətdə verilməsi və onların məhdud imkanları nəzərə alınaraq müalicə prosesindən maksimum istifadə edilməsi təmin edilməlidir [4].

İş və məişət sahəsində, məhdud imkanlı uşaqların şəxsi həyatları üçün çətinliklər olur. Bu uşaqlara uyuğun iş imkanlarının yaradılması və işgüzarlıq proqramlarının təşkili, həmçinin uyğun ev şəraitinin yaradılması, özü üçün dəstək proqramlarının hazırlanması kimi addımlar atılmalıdır.

İctimaiyyət və əlaqələr sahəsində, məhdud imkanlı uşaqların cəmiyyətdə qəbul edilməsi, əlaqələr qurması və sosial fəaliyyətlərə cəlb olunması kimi məsələlər nəzərdə tutulur.

Bu uşaqlar cəmiyyətdə çeşitli maneələrlə qarşılaşırlar. Deyilən maneələrə arasında aşağıdakılar göstərilə bilər:

1.Təhsil prosesində çətinliklər: Belə uşaqların əksəriyyəti məktəbdə problemlərlə üzləşir, çünki tədris prosesi bu uşaqların xarici və mental səhhəti üçün uyğun deyil. Öyrədənlər, onların yardımçıları, həmçinin digər tədris personalı, bu uşaqlara uyğun tədris proqramlarını hazırlamaq və onların təhsil prosesində iştirak etmələri üçün tədbirlər görə bilərlər.

2. Sosial münasibətlərdə çətinliklər: Fiziki və psixi məhdudiyyəti olan uşaqlar cəmiyyətdə müxtəlif sosial münasibətlərə çatmaqda maneələrlə qarşılaşmaqları mümkündür. Deyilənlər həmçinin, uşaqların sosial izolyasiyasına səbəb olaraq, sosial tənqidlərlə üzləşmələrinə, ictimai fəaliyyətlərdən məhrum edilmələrinə, ictimai dairələrdə təzyiqlərə səbəb ola bilər.

3. İxtisas seçimində çətinliklər: Məhdud imkanları olanların əksəriyyəti, müxtəlif ixtisasların tələblərinə cavab verə bilmədikləri üçün məhdud ixtisas sahələriylə məşğuldurlar. Həmçinin də bu onların karyera perspektivlərinə məhdudiyyət yarada bilər.

4. Fiziki aktivitələrə çətinliklər: Qüsuru olan uşaqların fiziki aktivitələrə iştirak etməkdə çətinlikləri olar. Buna əsasla da hər bir uşaqın fiziki imkanlarına uyğun olaraq, müxtəlif fiziki tədbirlər keçirməlidirlər. Hansı ki, bu tədbirlər, onların sağlamlıqlarının qorunması və aktivləşmələri üçün çox vacibdir.

Qurulan münasibətlər pozitiv və məqsədyönlü olarsa, müxtəlif bacarıqlara malik olan uşaqlar keçirilən təlim prosesinə daha tez adaptasiya ola bilərlər, onları təlimə cəlb etmək daha asan olar. Sinifdə bütün tələbələrin eyni bilik və bacarıq səviyyəsində olduqda, bu tipli siniflərdə özünütənqid və özünüqiymətləndirmə vərdişləri daha zəif olar, demək olar ki, inkişaf etmez. Buna əsasən sinifdə müxtəlif səviyyədə uşaqlar olur. Məhdudiyyətli olan uşaqların tipik uşaqlarla iştirakı qədər, tipik uşaqların da məhduddiyyətli uşaqlarla bir təlim mühitində iştirakı vacib və əsaslı şərtdir.

Bunlarla yanaşı, bir sıra maneələr mövcuddur ki, bunlar da şagirdlərin təhsillənmək və aldıqları məlumatı öyrənmələrini çətinləşdirir.

Bu maneələrə nümunə olaraq, təhsil almağa görə məsuliyyətin uşağın üzərinə qoyulmaması, həyat şəraiti çətin olan ailələrin və uşaqların təhsilin əhəmiyyətini anlamamağı, işləmək məcburiyyətində olanların təhsildən məhrum qalması, yoxsul və ya dövlətlərarası ixtişaşların təsirində olan ailələrin uşaqlarının təhsil imkanından məhrum qalması göstərilə bilər.

İşləmək məcburiyyətində olanların əksəriyyəti öz ailələri ilə yaxşı əlaqə saxlamayaraq, işdə çox vaxt keçirir və sosial təmasları məhdudlaşır. Bu əsasla da onların sui-istifadə və istismar riski artır. İmkansız və ya imkanı zəif olan ailələrin uşaqlarının təhsil almaq şansları çox zəifdir və onlar qidalanma, sağlamlıq, sosial vəziyyət və digər məsələlərlə də mübarizə aparmalıdırlar.

Öyrənmə prosesinə mənfi təsir göstərə bilən amillərdən biri də, uşaqların sağlamlığı, açlığı və ya zəif qidalanmasıdır. Onlar xəstə, ac və ya zəif qidalandıqda öyrənmə prosesində çətinliklər yaşayırlar və əgər diqqət yetirilməsə, məktəbi atarlar. Bu da, nəticədə onların gələcək həyatını mənfi təsirləyə bilər.

Ümumiyyətlə, uşaqların öyrənmə imkanlarının qorunması və mühafizəsi bütün cəmiyyətin vəzifəsidir, cünki təhsil almaq hər bir uşağın haqqıdır. Maneələrin aşkarlanması və onların sıradan çıxarılması üçün təhsil sistemi, ailələr və cəmiyyət birgə işləməlidirlər. Ailələr də uşaqlarının təhsilinə önəm verməlidirlər və onların təhsil almaq imkanlarını qorumalıdırlar.

Doğuş prosesinin gerçəkləşdiyi yeri nəzərə alsaq, bir çox yerlərdə uşaqlar anadan olduğu zaman rəsmi şəkildə heç bir qeydiyyat aparılmır. Onların gələcəkdə məktəbə gedə bilməməyi ilə sonlanır. [2].

Təcavüz və ya zoraklıq halları kimi, uşaq təhsil müəssisəsində fiziki və psixi zorakılıq halı ilə qarşılaşanda ümumiyyətlə təhsildən yayına bilər. Zorakılıq halı olaraq, cinsi zorakılıq, fiziki və sözlü şiddət və s. düşünülür.

Hamiləlik dövrü dedikdə, bəzi ölkə və icmalar, hamilə qızları məktəbdən kənarlaşdırır və geri qayıtmaq üçün icazə vermirlər.

Ailə mənsubiyyətli məsələlər dedikdə, bəzi valideynlər, uşaqlarını məktəbə göndərmədikdə belə hallar baş verir. Məktəb və ictimaiyyətin məsuliyyəti bu məsələnin araşdırılması və həll edilməsidir.

Uşaqlara yaxın qayğı göstərmək üçün maneələr: Bəzən valideynlər ailələri ilə birlikdə yaşadıqları ünvandan uzaqlaşırlar və uşaqlarını başqalarının, himayədarların yanında qoyurlar. Bəzi şəxslər, uşağa yaxın qayğı göstərmək üçün lazım olan təcrübələrə malik olmayacaqlar. Ayrıca, uyğunsuz həyat tərzinə sahib olan ailə böyükləri övlada uyğun qayğı göstərə bilməzlər.

Təhsil alma ehtimalı da aşağı səviyyədə olan uşaqlar sırasına valideynlərin QİÇS nəticəsində ölmüş uşaqlarda aid edilir. Çox ölkələrdə uşaqlar, evdə olan xəstələrə yardım etmək, yaxud ailəyə

maddi tərəfdən dəstək olsun deyə məktəbdən çıxarılırlar. Məktəbdən kənarlaşdırılan uşaqlara özləri yoluxucu virus daşıyan uşaqlar da aid ola bilər.

Qızları təhsil almaq hüququndan məhrum edən səbəblərdən biri də, cəmiyyətdə qadınların və kişilərin tutduqları mövqe və icra etdikləri iş ilə bağlı qabaqcadan qəbul edilmiş ənənələrdir. Kişilərin qadınlardan üstün statusu olduğu düşünülən icmalarda, qızlar adətən evdə saxlanılırlar və sadəcə ev işləri üçün məktəbdən çıxarılmışdır. Qızların təhsilinə dəyər vermək üçün valideynlər cəsarət göstərmirlər.

Xüsusilə məktəbdən təcrid olunma riskləri yüksək olanlara dil, din və ya digər mədəni əlamətlərinə görə cəmiyyətdən fərqlənən ailələrdən olan uşaqlar aid edilir. Təhsil müəssisələrində daha aşağı keyfiyyətli təlim və təhsil almaq imkanı bəzən bu uşaqlara şamil olunur. Onlar digərləri ilə müqayisədə ali təhsil almaq imkanları nisbətən zəifdir. Bəzi icmalarda isə yerli ənənə kimi mədəniyyət fərqlilikləri, uşaqlıq vaxtında işə başlamağı tələb edir.

Uşaqların məktəbə getməsinə ən böyük maneə mənfi münasibətlərdir. Xüsusilə də fərqli vəziyyətdə olan, məhdudiyyətli və ya sosial, mədəniyyət və ya dil fərqliliyi ilə fərqlənən uşaqlara qarşı olan bu münasibətlər, valideynlərdən başlayaraq, bir çox yerlərdə, bir şox insanlar arasında, hətta təcrid olunmuş uşaqların özü arasında da görülür [5].

Bəzi insanlar bu uşaqlara qarşı qorxular və tabular hiss edirlər, cahil və səhv düşüncələrə malik olurlar və onların vəziyyətlərinə yalnış düşüncələri stimullaşdırırlar.

Fərqli vəziyyətdə olan uşaqların məktəblərdə çəkdiyi əziyyət və təcrid isə onların təhsil almağına maneə yaradır və onları məktəbdən uzaqlaşdırır.

Bu problemin həllinə yönələrək, icma üzvlərinin, valideynlərin, müəllimlərin və dövlət məmurlarının mənfi münasibətlərə qarşı yüksək səviyyədə bilik və məsuliyyət hissi hiss etmələri vacibdir. Bu, fərqli vəziyyətdə olan uşaqların məktəb mühitində yaxşı hiss etmələri və təhsil almağı üçün ən münasib şəraitin yaradılmasına kömək edəcəkdir.

Məktəb səviyyəsində qarşılaşıla bilən maneələr bunlardır:

Bir çox yoxsul ailələr uşaqların təhsil xərclərini qarşılaya bilmədikləri üçün uşaqlar məktəbdən məhrum edilir. Uşaqların evdə saxlanılmasına bəzən kənd ərazilərində, xüsusilə məktəblərin kənddən uzaqda yerləşməsi də aiddir. Əlil uşaqların məktəbə getməməsi məktəbə aparan uyğun nəqliyyat vasitəsinin olmaması ilə nəticələnir.

Məktəblərdə təqvim və dərs qrafikləri uşaqlara uyğunlaşmadığından, uşaqların işləməsi və öyrənməsini vəhdətdə təminatı uyğunsuzdur. Qızların təhsil almasını ailədəki vəziyyət ilə uyğunlaşdırmaq mümkün olmadıqda, qızlar məktəbdən məhrum edilə bilər.

Texniki təchizatın əksikliyi məktəblərdə uşaqların təhsil almağa olan motivasiyasını zəiflədir. Məsələn, təmizliyin və sanitariyanın təşkili zamanı təchizat və alətlərin yoxluğu menstruasiya dövründə olan qızların məktəbdə həyat tərzini təhlükə altına salır. Girişlərdə, koridorlarda, laboratoriyalarda və klass otaqlarında təchizatın olmaması qüsuru olan uşaqların təhsilə girişini məhdudlaşdırır və məktəbə gəlməkdən çəkindirir. Bütün bunlar bəzi uşaqların geridə qalmasına və ya təhsildən yayınmalarına səbəb ola bilər.

Fərqli etnik və mədəniyyətlərə, bacarıqlara və öyrənmə stilinə sahib olanların təhsildən uzaqlaşmasının bir səbəbi, məktəb və müəllimlərin onların öyrənmə üsullarına və tələbələrin tələb və maraqlarına uyğun hazırlıq keçirməməsidir.

Bu tələbələr dərs vaxtı məktəbə gəlsələr də, yaxşı təhsil almaqda çətinlik çəkir və öyrənmə prosesi onlar üçün çətindir. Bu, həm tələbələrin həyat perspektivlərinə, həm də onların özgüvənin zəifləməsinə səbəb olur.

Sinifdəki uşaqların sayı, sinifin ölçüsü və məktəbin əlçatan resurslarının yoxluğu uşaqların təhsil prosesində problem yaradan səbəblərdəndir. Çoxlu uşağın təhsil aldığı siniflərdə müəllimlərin iş yükü artır və təhsil prosesi daha gərgin hala gəlir. Lakin, təhsilin inklüziv və müvəffəqiyyətli olması üçün sinfin ölçüsü yeganə mühüm faktor deyil. Sinifin keyfiyyətli təchiz edilməsi, müəllimlərin yaxşı hazırlanması və uyğun resursların olması təhsil prosesinin uğurlu keçirilməsini təmin edir.

Fərqli bacarıqlara malik uşaqları bu prosesə cəlb etmək üçün sinifdə əlverişli və pozitiv mühit yaratmaq olar. Sinifdə hər bir uşaqın özünəməxsus təhsil planı olması məcburidir. Çünki, hər biri öz

tələb və ehtiyaclarına uyğun təhsil ala bilməlidirlər. Bu təşəbbüs özünütənqid və özünüqiymətləndirmə problemlərini azaltaraq uşaqların təhsildə məmnunluq hiss etmələrinin təminatıdır. Sadalananlar icra olunmadığı halda, öyrədənlər daha gərgin olurlar və təhsil keyfiyyəti aşağı enir. Bu əsasla da, təhsil prosesinin uğurlu keçirilməsi üçün, sinifdəki uşaq sayısı və ölçüsü kimi faktorlar dəqiqləşdirilməlidir [2].

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil İnstitutu, Xüsusi qayğıya ehtiyacı olan uşaqlara korreksiya işinin təşkili, Bakı, 2012, 5 s.
2. Azərbaycanda İnklüziv Təhsilin Vəziyyətinə Dair Araşdırma Sənədi, Bakı, 2018.
3. Basilova T.A. Yeniyetmə yaşlarında eşitmə və görmə qabiliyyətini itirmiş uşaqların psixi sağlamlıq problemləri, Defektologiya. Bakı, 2002, 23 s.
4. Əhmədov H., Zeynalova N. Pedaqogika. Bakı, 2019, 8 s.
5. Əlizadə H., Mahmudova R., Sosial pedaqogika, Dərslik. Bakı, 2013.
6. Əhmədov H.H. , Azərbaycan Təhsilinin İnkişaf Strategiyası, Bakı, 2010.
7. Hüseynova N.T. İnklüziv təhsil, Dərs vəsaiti. Bakı, 2014.

HEYDƏR ƏLİYEV FENOMENİ VƏ MİLLİ TƏHSİLİMİZ

Maya Ağamirzə qızı Abdullayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
magamirzeqizi@gmail.com

Dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə yüksək qiymət verən dövlət başçıları bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də mədəniyyətə böyük tövhə vermiş olurlar. Bu mənada Ulu Öndər Heydər Əliyevin milli təhsilin inkişafına göstərdiyi qayğı və diqqət özünəməxsusluğu ilə seçilir.

Belə ki, möhtərəm Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ bugünkü Azərbaycan elminin inkişaf dövrü kimi qavranılır. Azərbaycan təhsilinin inkişafı sahəsində Heydər Əliyevin xidmətləri iki istiqamətdə getmişdir:

1. Heydər Əliyevin milli tərbiyə və təhsilə dair nəzəri göstərişləri.
2. Heydər Əliyevin milli təhsil quruculuğunda,təhsilin müxtəlif sahələrinin ahəngdar inkişaf yolunda gördüyü işlər.

Ulu Öndər Heydər Əliyev təhsilin cəmiyyətin inkişafındakı rolundan danışarkən deyir: "Təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Bunlar olmasaydı, iqtisadiyyatımız belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik." [2, s.57]

Azərbaycan təhsilinin milli tariximizdə coşğun yüksəlişi, əsl intibah illəri kimi daxil olan ilk mərhələsi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövrünə təsadüf edir. İkinci mərhələ cənab Heydər Əliyevin keçmiş SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982-1987-ci illəri əhatə edir. Bu o illər idi ki, digər sahələrlə yanaşı, Heydər Əliyev dövlətin bütünlükdə təhsil sisteminə rəhbərlik edirdi. Hətta o illərdə Azərbaycan gənclərinin nəinki Azərbaycanda, həmçinin Azərbaycan hüdudlarından kənarda da təhsil almalarına şərait yaradırdı. Hətta, tez-tez azərbaycanlı tələbələrlədə görüşür, onların qayğı və problemləri ilə şəxsən maraqlanır, onların həlli üçün bütün imkanlardan istifadə edirdi.

Üçüncü mərhələ çağdaş təhsil tariximizin ən mürəkkəb, böhranlı illərini (1988-1993) tənəzzül və depressiya illərini əhatə edir. Bu mərhələdə Azərbaycan təhsilinə rəhbərlik edənlər onun cəmiyyətdəki rolunu düzgün qiymətləndirə bilmədilər. Təhsilin "inqilabi yolla" yenidən qurulmasına cəhd edərək, 1992-ci ildə "Təhsilin qanunu" qəbul etdilər.

Dördüncü mərhələ Heydər Əliyev müstəqil Azərbaycanın dünya standartlarına uyğun təhsil islahatları əsasında yeni milli təhsil quruculuğuna rəhbərliyi ilə başlanan dövrü əhatə edir. Məlumdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Bu mənada ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dünəninə və bugününə diqqət yetirmək kifayətdir. Bir faktı qeyd etmək kifayətdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Belə ki, Ulu öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir.

Ümummilli lider öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır". [1, s.21]

Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi. Bir məsələni də qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Qeyd olunduğu kimi, ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür. İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması qeyri-mümkündür. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alan ulu öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir. Təbii ki, bu prosesdə inteqrasiyanın vacib amillərindən biri də AMEA-da çalışan müxtəlif ixtisaslı alimlərin birgə proqramlar üzərində işləməsi, ölkənin hərtərəfli inkişafını təmin etməyə qadir olan kompleks inkişaf proqramları işləyib hazırlaması olduqca vacib şərtdir. Belə proqramların həyata keçirilməsi elmi kadr potensialının inkişafına və təhsil səviyyəsinin yüksəlməsinə gətirib çıxarar ki, bu da tədqiqatların sürətlənməsinə, eləcə də nəzəri-praktiki əhəmiyyətinin artmasına kömək edər. Bu da danılmaz faktdır ki, Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına, əsasən, ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində ümummilli lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq, elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu Öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir. Ulu Öndər ali təhsil almanın nə qədər önəmli olduğunu gənclərə aşılamağı başlıca istiqamət kimi

müəyyənləşdirir, ali məktəblərdə təlim-tərbiyə işinin yaxşılaşdırılması yolunda bir çox islahatların keçrilməsinə, eyni zamanda gənc mütəxəssislər üçün istehsalatda, məişətdə lazımi şəraitin yaradılmasına nail olur.

"Elmi-texniki inqilabın müasir mərhələsində ali məktəblərin vəzifəsi ondan ibarətdirki, elmdə və texnikada yeni nə varsa hamısı tədris prosesində öz əksini tapsın. Tələbələrin vəzifəsi isə bu yeniliklə ayaqlaşmaqdan, arası kəsilmədən artan informasiya axınından bacarıqla baş çıxarmaqdan, elmə dərindən, səylə, yaradıcılıqla yiyələnməkdən ibarətdir". [3, s.154]

Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır. Milli Tərbiyə Konsepsiyasının hazırlanması, təhsilin məzmununda inteqrasiya modellərinə keçid, təhsil sisteminin kompüterləşdirilməsi və informasiyalaşdırılmasına dair Dövlət Proqramının təsdiqi və praktiki tətbiqi, təhsildə elmi istiqamət faktorlarının gücləndirilməsi, təhsillə elmin vəhdətini təmin etmək məqsədilə prioritet sahələr üzrə elmi araşdırmaların, tədqiqatların aparılmasının intensivləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiyanın gücləndirilməsi məqsədilə proqramlar, layihələr üzərində fəaliyyətin müntəzəm olaraq davam etdirilməsi və digər məsələlərdən strateji istiqamətlər aydın görünür. Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasətinin prioritetlərindən biri də hər iki sahənin idarə edilməsinə yeni yanaşmanın olmasıdır. Belə ki, əgər güclü təhsil sistemi gələcəyin elmi tədqiqatçılarının hazırlanmasına xidmət edirsə, elmi araşdırmalar da, öz növbəsində, ölkənin ayrı-ayrı sahələrinin müasir tələbata və qabaqcıl təcrübəyə uyğun inkişafını təmin etməlidir. Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olduğu kimi, Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. "İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır". [4, s.6]

Əgər Heydər Əliyev fenomeni olmasyadı yəqinki təhsilimizin bu günkü uğurlarından söhbət aça bilməzdik. Ulu öndər təhsilə daima prioritet sahə kimi əsas diqqət yetirmiş,onu nəinki milli çərçivədə fəaliyyətinin yüksəldilməsinə həmçinin dünya təhsil sisteminə inteqrasiya etməsinə çalışmışdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, təhsil, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Bu baxımdan qanunların və digər normativ sənədlərin qəbul edilməsində, dövlət proqramlarının hazırlanmasında və s. elm adamlarının yaxından iştirak etməsi, müvafiq mütəxəssislərin iştirakı ilə geniş müzakirələrin aparılması xüsusi qeyd olunmalıdır. Bu gün iftixar hissi ilə qeyd edə bilərik ki, Heydər Əliyev siyasəti, banisi olduğu milli dövlətçilik strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin bundan sonra da davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır. Siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq - Heydər Əliyev siyasi məktəbinin əsasını təşkil edən bu amillər Vətənə və xalqa xidmət naminə real siyasətlə məşğul olan hər bir kəs üçün tarixi örnəkdir. Çünki Heydər Əliyev şəxsiyyəti özlüyündə bir tarixi hadisə idi. Bu böyük insanın ideyaları bundan sonra da daim yaşayacaq, gələcək nəsillərə örnək olaraq qalacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev Təhsil Bilik Məktəb "Müəllim" nəşriyyatı, 2006.
2. Müdriklik Zirvəsi, Bakı-Yazıçı-2011.
3. Heydər Əliyev Mənəviyyat Mənəvi dəyərlər Mənəvi tərbiyə. "Müəllim" nəşriyyatı, 2008.

4. Alıyev.İ, Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı. Xalq qəzeti.- 2009.- 12 dekabr.- S. 6

YENİ İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ KOMMERSİYA ŞİRKƏTİNİN GƏLİRLƏRİNİN FORMALAŞMASI VƏ ONUN QURULUŞU

Yusif Cavad oğlu Binnətov
Azərbaycan Memarlıq və İnşaat Universitet
yusif020678@mail.ru

Kommersiya müəssisəsi məhsulların və xidmətlərin istehsalı, satışı və ya təchiz edilməsi ilə məşğul olan kommersiya və ya sənaye konsernidir. Kommersiya müəssisəsi, iqtisadi resurslardan istifadə etməklə müştərilərin gələcək alacaqları əmtəələri hazırlayan və xidmətləri göstərən təşkilatdır [2].

Firmanın gəlirləri, əsasən iki böyük hissədən ibarətdir : il ərzində pul vəsaitləri və digər əmlak sahibkarlığı formasındakı aktivlərdən. Bu gəlirlər, təşkilatın aktivlərindəki dəyişikliklər və kapitalının həcmindəki artım və ya azalma ilə əlaqəlidir. İqtisadi əməliyyatlar nəticəsində əldə olunan vəsaitlər, yəni nağd pullar, bank hesablarındakı depozitlər, qarşı tərəfdən qoyulmuş vəsaitlər və s. kimi pul vəsaitləri, firmanın gəlir strukturunun əsas hissəsini təşkil edir. Bu vəsaitlər, satışdan əldə olunan gəlirlərlə yanaşı həm də kreditlər, sərmayə artırımı və digər mənbələrdən də yaradıla bilər. Firmanın sərəncamında olan digər əmlak və aktivlər də gəlir yaratmaqda vacib bir rol oynayır. Bu əmlaklara obyektlər, tikinti materialları, texniki avadanlıqlar, ixtisas emalatxanaları və s. kimi qurumlar daxildir. Bura aid etdiyimiz aktivlərə isə faizlər, avadanlığın icarəyə verilməsi, pulun kreditlə verilməsi və ya tikinti layihələrindən əldə edilən digər gəlir mənbələrindən gəlir yarada bilər. Təşkilatın əldə etdiyi gəlirin cəmi, onun iqtisadi səmərəsini təşkil edir. Bu gəlir, aktivlərindən əldə edilən vəsaitlərin artımı, investisiyalardan əldə edilən gəlir və digər mənbələrin əlavə olunması ilə müəyyən olunur. Əgər təşkilat öz öhdəliklərini vaxtında yerinə yetirirsə və öz kapitalını artırırsa, bu, şirkətin ümumi iqtisadi səmərəsini göstərir. Bu səbəblə, təşkilatların mənfəət və gəlirlərini artırmaq, öhdəlikləri ödəmək və kapitalını müvafiq şəkildə idarə etmək vacibdir.

Məhsulların satışından əldə olunan gəlir, bir müəssisənin iş fəaliyyəti nəticəsində əldə etdiyi bir gəlir növüdür. Satış həcmi, məhsulların və ya xidmətlərin müştəri tərəfindən satın alınma sayını və ya həcmini ifadə edir. Bu həcm, istehsalın həcmindən (neçə məhsul istehsal edildiyi və ya xidmətin göstərilməsinin miqdarı) və məhsulun bazardakı mövqeyindən asılıdır. Məhsulun satış həcmi, məhsulun keyfiyyəti, marketinq strategiyaları, rəqib məhsulların varlığı, tələb və təklif qanunları və digər bir çox faktorlar tərəfindən təyin edilir. Bu faktorlar, bir müəssisənin satışlarını artırmaq və ya azaltmaq üçün müdaxilə edə biləcəyi mənbələrdən yalnız bir neçəsidir.

Bu məqamda, satış həcmi ilə əlaqədar olan gəlir, müəssisənin əsas iş fəaliyyəti və mövcud müştəri bazası ilə əlaqəlidir. Müştərilərin məhsulu tələb etməsi və onu satın almaq istəməsi, satış həcmi və buna bağlı olaraq satışdan əldə olunan gəliri təyin edən əsas amillərdəndir.

Firmanın gəlirləri il ərzində pul vəsaitləri və digər əmlak şəklində aktivlərin daxil olması, öz öhdəliklərini yerinə yetirməklə kapitalının həcmcə çoxalması nəticəsində təşkilatın əldə etdiyi məcmu (ümumi) iqtisadi fayda, götürdüyü xeyirdir. Bu faydanın nəzərdən keçirilməsi, firmanın iqtisadi fəaliyyətinin keyfiyyətini və məhsuldarlığını ölçməyə kömək edir.

Bu məsələlərə aydınlıq gətirmək üçün aşağıdakı məqamlar əhəmiyyət kəsb edir:

Aktivlərin artımı: Pul vəsaitləri ilə digər əmlak aktivlərinin artımı, firmanın məhsuldarlığının vəziyyətini göstərir. Aktivlərin artması, firmanın genişlənməsinə və daha çox mənbələrə sahib olmasına işarə edə bilər.

Öz öhdəliklərinin yerinə yetirilməsi: Bir firmanın öz öhdəliklərini vaxtında və düzgün şəkildə yerinə yetirməsi, onun maliyyə sağlamlığının bir göstəricisidir. Öhdəliklərinin müvafiq şəkildə idarə olunması və ödənilməsi, firmanın etibarlılığını və risk faktorunu (amilini) azaldır.

Kapitalın həcmində artım: Firmanın kapitalının həcmində artım, onun genişlənmə potensialını və maliyyə keyfiyyətini göstərir. Daha böyük bir kapital, daha çox investisiya və genişlənmə imkanları deməkdir.

Məcmu (ümumi) iqtisadi fayda: Gəlirlər, pul vəsaitləri, digər əmlak aktivləri ilə öz öhdəliklərinin yerinə yetirilməsi,hər bir firmanın ümumi iqtisadi faydasının (məcmu) ölçüsüdür. Bu, firmanın effektivliyini, məhsuldarlığını, maliyyə sağlamlığını və inkişaf potensialını əks etdirir.

Bu məqamların aydın olması, bir firmanın maliyyə mövqeyinin və işləmə qabiliyyətinin qiymətləndirilməsində və müəyyən fəaliyyət sahələrində dəyişikliklərə yol verilməsində kömək edir.

Firmanın gəlirləri onların xarakteri, istiqamətləri, alınma sərtlərinə və özünün yaranma mənsəinə görə asagıda göstərilən fəaliyyət növləri ilə baglı olurlar[1]:

1. Firmanın adi (əsas) fəaliyyətindən daxil olan gəlirlər.
2. Firmanın icra etdiyi əməliyyatlardan gələn gəlirlər.
3. Məhsulların, göstərilən xidmətlərin və görülən islərin satılması ilə baglı olmayan gəlirlər.
4. Fövqəladə hallarla əlaqədar daxil olan gəlirlər.

Firmanın adi fəaliyyətindən daxil olan gəlirlər. Bu qəbildən olan gəlirlərə, artıq qeyd olundugu kimi, istehsal edilmis məhsulun, göstərilmis xidmətin və görülmüs isin satılmasından əldə edilən gəlirlər aid olunurlar. Basqa sözlə, bu növ gəlirlər firmanın təsis olunması məqsədilə birbasa baglı olan gəlirlərdir. Bu gəlirlər, firmanın əməliyyatlarından daxil olan və qarşılaşdığı müxtəlif mədəni, iqtisadi və maliyyə səviyyəsindəki fərqliliyə görə təxminən hesablanır və dəyərləndirilir. Bu gəlirlər, şirkətin maliyyə sağlamlığı və keyfiyyəti ilə bağlı mühüm məlumatlar təmin edir.

Firmanın icra etdiyi əməliyyatlardan daxil olan gəlirlər. Bu qəbildən olan gəlirlərə:

– firmanın kənar təskilata müvəqqəti istifadə üçün verdiyi aktivlərə görə ödənis haqqı kimi daxil olan gəlirlər;

– kəsflərə görə patent, sənaye məhsulu nümunəiləri və digər intellektual mülküyyət növlərindən istifadə hüququna görə daxil olan gəlirlər;

– basqa təskilatların nizamnamə kapitalında istirak etməkdən (faizlərdə daxil olmaqla qiymətli kagızlardan) daxil olan gəlirlər;

– firmanın basqa təskilatlarla müstərək isgüzar əməkdaslıgından əldə olunan gəlirlər;

– banklar tərəfindən firmaya mənsub pul vəsaitlərindən istifadəyə görə ödədiyi faizlər;

– istehsal əsas fondları və digər aktivlərin basqa təskilatlara satısından daxil olan gəlirlər aid edilirlər



Şək. 1. Yeni iqtisadi münasibətlər sistemində kommersiya şirkətlərinin gəlirləri

Fəaliyyətin adi növlərində gəlirlərə məhsulun və əmtəələrin, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi ilə bağlı faydanı aid edirlər. Mühasibat uçotuna qazanc müəyyən pul vəsaitlərinin və digər əmlakın və ya debitor borcların bərabər məbləğdə daxil olması qəbul edilir.

Məhz qazancın belə təsviri şək. 1-də göstərilir. Şək. 1-dən görünür ki, kommersiya şirkətinin maliyyə-təsərrüfat fəaliyyəti bir yox, bir neçə mənfəət göstəriciləri əmələ gətirir:

1. Ümumi mənfəət əmtəələrin, məhsulun, işlərin, xidmətlərin maya dəyərləri və satışından alınan qazanc arasında fərqdir. Bu, bir işin məhsul və ya xidmət satışından gələn gəlirlər ilə məhsulun, işin, xidmətin maya dəyərləri arasındakı fərqi ifadə edir.Bu, məhsulun, işin və ya xidmətin istehsalı üçün sərf olunan məbləğ və ehtiyatların dəyərini ifadə edir. Bu, əsasən materiallar, əmək, texnologiya, maliyyə resursları və digər sərf olunan faktorlar hesabına hesablama olunur.

Satışından alınan qazanc: Bu, məhsulun, işin, xidmətin satışından gələn gəlir və ya qazancı ifadə edir. Satışdan əldə edilən gəlir, məhsulun və ya xidmətin satışından gələn pul məbləği və ya qazancı təmsil edir. Bu, şirkətin satış fəaliyyəti ilə əlaqədar olan maliyyə nəticəsinin bir göstəricisidir və şirkətin rentabelliyini və məhsuldarlığını ölçmək üçün əhəmiyyətli bir dəyərdir.

Bu iki mərhələ arasındakı fərq, bir işin və ya şirkətin iş faaliyyəti nəticəsində əldə etdiyi qazancın, məhsulun, işin və ya xidmətin maya dəyəri ilə müqayisədəki fərqidir. Məhsulun, işin və ya xidmətin satışından alınan qazanc, satış qiyməti ilə maya dəyəri arasındakı fərqlə təyin edilir. Bu fərq, bir işin nə qədər effektiv və məhsuldar olduğunu və ya xidmətin və ya məhsulun qəbul ediləbilirliyini təyin etməyə kömək edir.

2. Vergiqoymaya qədər mənfəət (zərər) satışdan sair gəlirlərin və xərclərin saldosundan alınan mənfəətin (zərərin) fərqi;

3. Hesabat ilinin xalis mənfəəti (zərər) vergiqoyulmaya qədər mənfəət və mənfəətdən vergi üzrə büdcəyə ayırmalar və digər bənzər ödənişlər arasındakı fərq (investorlar üçün mühüm göstərici; rentabelliyin bəzi göstəricilərinin bölüşdürülməsini elan etmək üçün baza kəmiyyəti);

4. Hesabat ilinin bölüşdürülməmiş mənfəəti (örtülməyən zərər) - xalis mənfəətdən (zərərdən) bölüşdürülən mənfəətin çıxılan məbləğinin qalığı (şirkətin fəaliyyətini maliyyələşdirən mühüm daxili mənbənin kəmiyyətini göstərir);

Bölüşdürülməmiş mənfəət (örtülməmiş zərər) - hesabat ilinin və keçmiş illərin bölüşdürülməmiş məbləğidir, divident siyasətinin səmərəli və fəaliyyətin nəticəsinin göstəricisidir.

Xalis mənfəət - qanunvericilikdə nəzərdə tutulmuş vergilər və digər icbari ödəmələr ödənildikdən sonra şirkətin sərəncamında qalan mənfəətdir. Şirkətin sərəncamında qalan mənfəət istehsalın inkişafının maliyyələşdirilməsi ilə yanaşı istehlak və sosial ehtiyaclara yönəldilir. Məsələn, həmin mənfəətdən pensiyaya gedənlərə, birdəfəlik yardım, habelə pensiyalara əlavələr ödənilir, səhmlər üzrə dividentlər və şirkətin əmlakının əmək kollektivimim haqları verilir, maddi kömək və s. göstərilir. Şirkət mənfəətin hesabına istehsal, maddi və sosial tələbatları təmin edərək, yığım və istehsal fondu arasında optimal münasibət yaratmalıdır. Bunun üçün bazar konyukturu şəraiti nəzərə alınmalı və eyni zamanda şirkətin işçilərinin əməyinin nəticələri stimullaşdırılmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Telman Hüseynov Firmanın iqtsadyyati Baki 2009.
2. https://finfac.wordpress.com/
3. https://www.muhasibat.az/kommersiya-muassiseleri/

AZƏRBAYCAN GƏNCLİYİNDƏ HEYDƏR ƏLİYEV İZİ

Şahnaz Tərlan qızı Məhişzadə
Mingəçevir Dövlət Universiteti
shahnaz.mehishzade@mdu.edu.az

Ulu öndər Heydər Əliyev, xüsusilə Azərbaycan gəncləri kontekstində ölkənin inkişafına təsir göstərməyə və gələcəyini formalaşdırmağa davam edən əhəmiyyətli bir miras qoyub.

Modernləşmə və inkişaf: 1993-cü ildən 2003-cü ilə qədər davam edən Heydər Əliyevin prezidentliyi Azərbaycanda əhəmiyyətli modernləşmə səyləri ilə yadda qaldı. Onun rəhbərliyi

altında infrastruktur layihələri başladıldı, neft-qaz sənayesi canlandı və iqtisadi islahatlar aparıldı. Bu hadisələr Azərbaycanın iqtisadi artımının və çiçəklənməsinin əsasını qoymuş, gənclərə müxtəlif sektorlarda işləmək imkanı vermişdir.

Sabitlik və təhlükəsizlik: Əliyevin hakimiyyəti Sovet İttifaqının dağılmasından sonrakı uzun illər davam edən siyasi təlatümlərdən və iqtisadi qeyri-sabitlikdən sonra Azərbaycana sabitlik gətirdi. Bu sabitlik keçmişin qeyri-müəyyənliyi olmadan gənc nəslin təhsil, karyera və sahibkarlıq fəaliyyəti əldə etməsi üçün əlverişli şərait yaratmışdır.

Mədəni və təhsil təşəbbüsləri: Əliyev prezidentliyi dövründə təhsilin və mədəniyyətin əhəmiyyətini vurğuladı. O, Azərbaycan gəncləri üçün təhsil imkanlarının, o cümlədən xaricdə təqaüd və təhsil mübadilələrinin genişləndirilməsinə yönəlmiş təşəbbüsləri irəli sürüb. Bundan başqa, Azərbaycan mədəniyyətinin qorunması və təbliği, gənclərdə milli kimlik hissinin aşılanması istiqamətində səylər göstərilmişdir.

Xarici siyasət və beynəlxalq münasibətlər: Əliyevin xüsusilə enerji diplomatiyası sahəsində strateji xarici siyasət təşəbbüsləri Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artırılmasına kömək edib. Bu, istər diplomatik kanallar vasitəsilə, istərsə də beynəlxalq təşkilatlar və ya təhsil mübadilələri vasitəsilə Azərbaycan gənclərinə qlobal iştirak imkanları yaradıb.

Liderin irsi: Heydər Əliyevin liderlik tərzi və gələcəyə baxışı Azərbaycan gənclərini ruhlandırmaqda davam edir. Onun praqmatizmə, sabitliyə və milli inkişafa vurğu etməsi öz ölkəsinin gələcəyinə müsbət töhfə verməyə çalışan bir çox gənc azərbaycanlılarla rezonans doğurur.

Demokratik islahatlar və siyasi sabitlik: Heydər Əliyevin dövründə Azərbaycanda demokratik islahatlar başlandı və siyasi sabitlik əldə edildi. Bu, gənc nəslin demokratik proseslərdə iştirakını stimullaşdırdı və siyasi həyatda daha fəal iştiraka səbəb oldu. Gənclər demokratik dəyərlərə sadiqliklərini gücləndirdilər və ölkələrinin siyasi proseslərində fəal iştirak etməyə başladılar.

Texnoloji tərəqqi və rəqəmsal transformasiya: Ulu öndərin dövründə Azərbaycanda texnoloji tərəqqi və rəqəmsal transformasiya xeyli sürətlənib. Bu, gənc nəslin texnologiyaya çıxışını genişləndirdi və rəqəmsal bacarıqlarını inkişaf etdirməyə imkan verdi. İnformasiya və kommunikasiya texnologiyalarının dekommunizasiyası gənclər arasında sahibkarlıq və yenilik ruhunu stimullaşdırdı. [2]

Sosial İnkişaf və sosial təminat siyasəti: Əliyev dövründə Azərbaycanda sosial inkişaf və sosial təminat siyasəti prioritet idi. Bu siyasət gənclərin təhsil, səhiyyə və sosial təminat kimi əsas ehtiyaclarını ödəmək səylərini əhatə edirdi. Bu dəstək sayəsində gənclər daha yüksək həyat səviyyəsinə çatmaq və sosial rifahın yüksəldilməsinə töhfə vermək imkanı əldə etdilər.

Mədəni və bədii fəaliyyət: Əliyev dövrü Azərbaycanda mədəni və bədii fəaliyyətin dəstəkləndiyi dövr idi. Gənclər sənət, ədəbiyyat, musiqi və digər mədəni sahələrdə yaradıcılıq potensiallarını inkişaf etdirmək üçün müxtəlif imkanlar əldə etdilər. Bu, gənclərin mədəni irsini qoruyub gələcək nəsillərə ötürməsinin vacibliyini vurğuladı.

Beynəlxalq əməkdaşlıq və bütün dünyada vətəndaşlıq şüuru: Azərbaycanın beynəlxalq səviyyədə daha inteqrasiya olunmasına və qlobal əməkdaşlığa töhfə verməsinə imkan verdi. Bu, gənc nəslə müxtəlif mədəniyyətləri başa düşmək, beynəlxalq işlərdə fəal iştirak etmək və bütün dünyada vətəndaşlıq haqqında məlumatlılığı artırmaq imkanı verdi.

Təhsildə islahatlar və bərabər imkanlar: Dahi Liderin dövründə Azərbaycanda təhsil sistemi əhəmiyyətli islahatlara məruz qalmışdır. Təhsilin keyfiyyəti yaxşılaşdırıldı və bərabər imkanların təmin edilməsi üçün müxtəlif tədbirlər görüldü. Gənclər daha yaxşı təhsil imkanlarına çıxış əldə etdilər və özlərini inkişaf etdirmək imkanlarını genişləndirdilər.

Gənclər təşkilatları və fəallıq: gənclər təşkilatları və gənclər fəallığı dəstəklənirdi. Bu, gənclərin fikirlərini bildirə biləcəyi platformalar yaratmağa imkan verdi və sosial dəyişikliklərdə fəal rol oynamalarına imkan verdi.

Davamlı inkişaf və ətraf mühitin mühafizəsi: Əliyev dövründə davamlı inkişaf və ətraf mühitin mühafizəsi mühüm prioritet olmuşdur. Gənclər ekoloji məlumatlılığın artırılmasında və təbii sərvətlərin qorunmasında fəal rol oynadılar və gələcək nəsillər üçün daha yaşana bilən bir dünya təmin etmək səylərində iştirak etdilər.

Azərbaycanlı gənclərin xaricdə rolu: xaricdəki azərbaycanlı gənclər diaspor icmalarında daha fəal rol oynamağa təşviq olunurdular. Bu gənclər Azərbaycanın qlobal şəbəkələrinin genişlənməsinə və ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına öz töhfələrini vermişlər.

Azərbaycan gəncləri üçün Heydər Əliyev irsi ilham mənbəyi və güclü rəhbərliyin, milli birliyin və tərəqqinin vacibliyini xatırladır. Onun rəhbərliyi altında böyük uğurlar qazanmış bir milləti miras alırlar və Azərbaycan üçün parlaq bir gələcək qurmaq üçün nailiyyətlərini inkişaf etdirmək üçün motivasiya olunurlar. Heydər Əliyevin irsi Azərbaycan gənclərinə əhəmiyyətli təsir göstərir və onları öz ölkəsinin gələcəyini formalaşdırmağa təşviq edir. Bu miras gəncləri liderlik rolları almağa, ölkələrinin inkişafına töhfə verməyə və beynəlxalq səviyyədə daha təsirli şəkildə təmsil olunmağa ruhlandırır. Heydər Əliyev irsi Azərbaycan gənclərinin müxtəlif sahələrdə fəallaşmasına kömək etmiş və onları öz ölkəsinin gələcəyini formalaşdırmağa ruhlandırmışdır. Bu miras gəncləri liderlik potensiallarına çatmağa, cəmiyyətlərində müsbət dəyişikliklər etməyə və qlobal səviyyədə güclü üzv olmağa ruhlandırır. Ümummilli Liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin tarix "Azərbaycan gəncləri günü" elan edilmişdir. 1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə "Gənc ailə" proqramı, "gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" dövlət sənədləri bu baxımdan təqdirə layiqdir [4]. Əlbəttə ki, gəncliyə göstərilən dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanan addımlar idi. Heydər Əliyevin qaçqın və məcburi köçkün tələbə gənclərə göstərdiyi qayğı onun bütün ölkə vətəndaşları qarşısında göstərdiyi əvəzolunmaz xidmətlərinin tərkib hissəsidir. Fərəh hissi ilə deyə bilərik ki, bu gün də dövlətimiz gənclərə xüsusi diqqət və qayğı göstərir. Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasəti onun layiqli davamçısı, dövlət başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu siyasət idmana göstərilən dövlət qayğısı ilə də öz əksini tapır. Təbii ki, bu yönümlü siyasət Azərbaycanın milli genefondunun qorunması, habelə gəncləri vətənpərvər ruhda tərbiyə etmək zərurətindən meydana gəlmişdir. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gənclərin siyasətdə fəal iştirakı və Heydər Əliyevin başlatdığı siyasət və islahatların davam etdirilməsi təmin edilir. İlham Əliyevin rəhbərliyi ilə gənclərin siyasətə cəlb edilməsi və fikir bildirə biləcəkləri platformaların yaradılması mühüm prioritet olub. Eyni zamanda, gənclərə təhsil, məşğulluq imkanları və ictimaiyyətin iştirakı imkanları kimi sahələrdə dəstək verilir. İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanda siyasi sabitlik və iqtisadi artım davam edir. Ölkə enerji ehtiyatlarının səmərəli idarə olunması və beynəlxalq münasibətlərdə səmərəli yerləşməsi ilə tanınır. Bu, gənc nəslin ölkənin inkişafına töhfə verə bilməsinə və beynəlxalq səviyyədə daha səmərəli təmsil olunmasına imkan verir. Lakin İlham Əliyev rəhbərliyi tərəfindən, xüsusilə insan hüquqları və demokratiya məsələlərinə dair bəzi tənqidlər də var. Bəzi tənqidçilər siyasi müxalifətin yatırılması, söz azadlığının məhdudlaşdırılması və seçkilərin şəffaflığı ilə bağlı narahatlıqlarını ifadə edirlər. Nəticədə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gənclərə siyasətdə və cəmiyyətdə daha fəal iştirak etmək üçün bir neçə imkan verilir. Bununla yanaşı, siyasi islahatlar və demokratik təsisatların gücləndirilməsi kimi sahələrdə daha da irəliləməyin zəruriliyi də vurğulanır.

2020-ci il Azərbaycan tarixinə zəfər ili həkk olundu. 2020-ci ilin iyulunda baş verən Tovuz hadisələrində artıq gənclərimizin vətənpərvərlik əzmi özünü bir daha büruzə verirdi. Artıq bütün xalqımız fərqində idi ki, məhz bu gənclik işğal altında olan torpaqlara üçrəngli bayrağımızı sancacaq. Həmin il 27 sentyabrdan ordumuz bütün dünyaya sübut etdi ki, bəli, məhz Ulu Öndər Heydər Əliyev məktəbinin davamçıları olan, Azərbaycan Respublikasının dövründə bütün yönləri ilə tam diqqət və qayğı ilə əhatə olunan bu gənclər torpaqları işğaldan azad etməyə qadirdir və Vətən yolunda qanından canından keçən bu gənclər işğal altında olan torpaqlarımızı xilas etdilər [5]. Bu gün məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Artıq ölkəmiz kifayət qədər inkişaf edib. Biz artıq ən mühüm, strateji beynəlxalq tədbirlərin iştirakçısından təşkilatçısına çevrilmişik. Ölkəmizin iqtisasi və siyasi gücü günü-gündən artmaqdadır. Azərbaycan tarixinin hər bir

mərhələsində aparıcı ictimai-siyasi qüvvə olan gənclər tarixi uğurlar qazanmaqla öz ölkəsinin müstəqilliyinin qurulması və möhkəmləndirilməsi prosesində, dövlətçiliyin inkişafında fəal iştirak ediblər. Bu yüksək münasibətə cavab olaraq, Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, vətənin inkişafı üçün səylə çalışacaq və onlara olan ümidləri doğruldacaqlar.

İstifadə edilmiş ədəbiyyat

1. Алиев Г.А. Отчетный доклад центрального комитета компартии Азербайджана XXIX съезду коммунистической партии Азербайджана. Баку, 1976, 101 с.
2. Алиев Г.А. Отчет центрального комитета КП Азербайджана XXX съезду коммунистической партии Азербайджана. Баку, 1981, 217 с.
3. Əliyev H.Ə. Gənclərin əmək, əxlaq və ideya-siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməli. Bakı, 1982, 66 s.
4. Əliyev E. Qoşa zirvə. Bakı, 2001, 224 s.
5. Əkbərov B. Heydər Əliyev mili konstitusiyamızın yaradıcısı və banisidir. Bakı, 1998, 96 s.

HEYDƏR ƏLİYEV GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR

Sona Elşən qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
sona.meherremova@mdu.edu.az

Hər bir xalq mütləqiyyətini və varlığını özü seçir. Heç şübhəsiz ki, Azərbaycan xalqı tarixinin ən kəskin və əzablı zamanında bir liderə, xalqa inamlı yol göstərən rəhbərə ehtiyac duyurdu. Və necə deyərlər: "Tarix dahiləri özü yetişdirir". Bu zaman xalqın kamal dünyasını formalaşdıran, mənəviyyat sahələrini inkişaf etdirən Heydər Əliyev milli özünüdərkimizin təkamülündə yeni üfüqlər açdı.

Dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə, mədəniyyətə yüksək qiymət verən dövlət başçıları öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də dünya mədəniyyətinə böyük töhfə vermiş olur. Ulu öndər Heydər Əliyevin milli təhsilin inkişafına göstərdiyi qayğı və diqqət Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan mərhələ bugünkü Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibah dövrü kimi xarakterizə edilir. Təbii ki, elmə, təhsilə göstərilən xüsusi qayğı gələcək nəsillərin, Azərbaycan bayrağını, Azərbaycan adı daha uca zirvələrə daşıyacaq gənc nəslin-gəncliyin yetişdirilməsində mühüm rol oynayırdı. Bunu duyan və görən böyük lider gənclər siyasətini ön plana çəkir və bütün sahələrdə gənclərə dəstək verirdi.

Heydər Əliyev söyləmişdir: "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir! Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır". Böyük Lider bu sözləri əbəs yerə deməmişdir. O, çox yaxşı bilir və anlayırdı ki, gələcəyimiz gənclərin düzgün bir vətəndaş olaraq yetişməsindən və təhsilindən aslıdır. Bir binanın fəlakətlərə qarşı davamlı və uzunömürlü olmasının səbəbi necə materialların keyfiyyətindən asılıdırsa, bir xalqın varlığı da düzgün yetişdirilmiş və tərbiyə olunmuş gənclərlə bağlıdır. Bəlkə elə buna görədir ki, dahi rəhbər daima uşaqların və gənclərin əhatəsində olmağa çalışır və onlarla vaxt keçirirdi. Uşaqlar üçün təşkil olunmuş Yeni il şənliyində iştirak edən liderin qarşısına balaca bir uşaq çıxır və Heydər Əliyevə muğam ifa etmək istədiyini söyləyir. Muğamı isə belə yekunlaşdırır: "Heydər baba olan yerdə, vallah, ay uşaqlar, qələbə də olacaqdır..." Bu rəhbərə olan sevgi və məhəbbətin ən böyük göstəricisi idi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin fonunda gənclərin qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları bilən Ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil

formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. 1995-ci ildə Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə də 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı.

1997-ci il fevralın 1-də Forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Fərman imzaladı. Onu da qeyd edək ki, Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edildi.

2 mart 1999-cu il tarixdə Azərbaycan Gənclərinin İkinci Forumundakı çıxışında Ulu Öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi. Heydər Əliyev forumda "XXI əsr gənclərin əsridir" deyərək, gənclərə verilən dəyəri və onların ölkənin inkişafı üçün üzərlərinə götürdüyü məsuliyyəti göstərmiş oldu.

1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan dövlət gənclər siyasəti haqqında Fərman bu sahəyə Prezident səviyyəsində böyük önəm verilməsinin təzahürü kimi qiymətləndirilə bilər. "Dövlət gənclər siyasəti haqqında" fərman çox geniş spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqların müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə edir. Dövlət gənclər siyasəti bu məqsəd və prinsiplərin reallaşdırılması üçün hazırlanıb, müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumlarının icrasına yönəldilib. Fərmana müvafiq olaraq "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib və 9 aprel 2002-ci il tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanıb.

Ulu öndər Heydər Əliyevin gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi:

- milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq,
- gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək, gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək,
- gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək,
- gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq.

Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq Ümummilli Liderin müəyyən etdiyi strateji hədəflər olub.

Ulu Öndərin illər öncə əsasını qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Məhz bunun nəticəsidir ki, gənclər siyasəti ölkədə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir.

Gənclərin hərtərəfli inkişafı, mükəmməl təhsil alması müxtəlif sahələr üzrə potensiallarının aşkar edilməsi, bacarıqlarının stimullaşdırılması üçün münbit şərait yaradılıb. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində fəal iştirakı ilə seçilir. Ölkə başçısının müvafiq sərəncamları ilə 2007-ci ilin "Gənclər ili", 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətindən və gənclərə qayğıdan xəbər verir. Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin dövlət qulluğunda məsul vəzifələrdə iştirakını

təmin etmək, aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirir, önəmli Dövlət proqramları qəbul olunur.

Savadlı gənc mütəxəsislərin hazırlanması orta məktəbdən başlayır. Dövlətimiz bu məsələyə də xüsusi diqqət yetirir. Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilir. Son illər həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev fondunun hesabına yüzlərlə məktəb tikilib. Məktəb tikintisi bu gün də sürətlə davam etdirilir. Azərbaycanda bütövlükdə təhsil infrasturukturu yeniləşir. Böyük əhəmiyyət kəsb edən kompüterləşmə proqramı həyata keçirilir. Bu gün Azərbaycan gəncləri xarici ölkələrə təhsil almağa, biznes qurmağa, təcrübə qazanmağa, işləməyə və s. faydalı işlər görməyə gedir. Xaricdə çalışan gənclərimizin böyük hissəsi bir neçə ildən sonra vətənə dönərək əldə etdikləri təcrübəni, işgüzarlığı və iqtisadi sistemin xüsusiyyətlərini ölkəmizdə tətbiq edirlər.

Eyni zamanda gənclərin ailə-məişət problemlərinin həllini daim diqqətdə saxlayan Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasət ölkə gəncləri tərəfindən yüksək dəyərləndirilir. Cənab İlham Əliyevin gənclərlə keçirdiyi görüşlərdə irəli sürülən təklif və təşəbbüslərin dəstəklənməsi, real həyatda həllini tapması gənclərə dövlət qayğısının ifadəsidir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə. Gənclərin birlik, dostluq və əməkdaşlığının möhkəmləndirilməsi, sülh və sosial tərəqqi uğrunda. Bakı – 1981, 35 s.
2. Əliyev H.Ə. Gənclərin əmək, əxlaq və ideya siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməlidir. Bakı – 1982, 66 s.
3. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı – 2002, 232 s.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 2cild. Bakı – 2013, 752 s.

AZƏRBAYCANIN NEFT SEKTORUNDA VƏ NƏQLİYYAT DAŞIMALARINDA HEYDƏR ƏLİYEVİN ROLU

Tünzalə Hakim qızı Əlifova
Mingəçevir Dövlət Universiteti
tunzala.alifovah@mdu.edu.az

1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi neft-qaz sənayesi də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoydu. Bu dövrdə Azərbaycanın neft-qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başladı. Neft sənayesi üçün nəqliyyat sektorunun inkişafıda danılmazdır [1]. Nəqliyyat sektorunun hazırkı vəziyyəti və neftin ondakı rolu müzakirə olunması onun potensial faydaları və çətinlikləri ilə tanış olacayıq. Məqalədə nəqliyyat sektorunun neft sənayesinə potensial təsirləri, o cümlədən neft və qaza tələbatın dəyişməsi və bərpa olunan enerjiyə sərmayə qoyuluşu və yeni texnologiyaların inkişafı imkanları təhlil edilmişdir. Neft emalı sənayesi üçün müəssisə miqyasında optimallaşdırma, müxtəlif qərar qəbuletmə səviyyələrinin inteqrasiyasına diqqət yetirməklə, istehsal və paylama ilə bağlı təchizat zəncirinin optimallaş-dırılmasını nəzərdə tutur [3]. Əsas istehsal əməliyyatlarına xam neftin yüklənməsi və boşaldılması, xam neftin qarışdırılması, istehsal bölməsinin konversiya və ayırma əməliyyatları, qarışdırma əməliyyatları və məhsulların paylanması daxildir.

Azərbaycanın neft-qaz sənayesi ölkə iqtisadiyyatının ən mühüm sahələrindən biri kimi mövcud olmaqda və inkişaf etməkdə davam etmişdir. Ölkə üçün neft və qazdan tutmuş mədəniyyət və sosial infrastruktura qədər müxtəlif sahələrdə geniş imkanlar yaratmış, iqtisadi artıma və mənfəətə töhfə verilmişdir. Azərbaycanın nəqliyyat sektorunda Heydər Əliyev irsi ölkənin infrastrukturuna davamlı təsir göstərən transformasiya edici qüvvə kimi seçilirdi [2]. Heydər Əliyev Azərbaycanın, yəni ölkənin nəqliyyat sektorunu müasir dövrə daşıyan strateji siyasət və

investisiyalar həyata keçirmişdir. Heydər Əliyevin rəhbərliyi dönəmində Azərbaycanın nəqliyyat infrastrukturunda mühüm irəliləyişlər və inkişaf baş vermişdir. Azərbaycanın modernizasiyası və beynəlxalq əlaqələrin gücləndirilməsi yolunda ciddi addımlar atdığı bir dövrdə ölkənin nəqliyyat şəbəkələrinin genişləndirilməsini və inkişafını prioritetlər arasına alınmışdır. Bu irəliləyişlər nəqliyyat şəbəkələrinin inkişafında ciddi dəyişikliklərə və yaxud güclənmələrə səbəb olmuş, Azərbaycanın beynəlxalq əlaqələrini gücləndirərək iqtisadi inkişafına və sosial-əməkdaşlıq sahələrində məsələlərin həlli imkanlarını artırmışdır.

Heydər Əliyevin baxışı və rəhbərliyinin Azərbaycanın nəqliyyat şəbəkələrində, o cümlədən yeni yolların, körpülərin və hava limanlarının inkişafı üçün mühüm irəliləyişlərinə yol açmışdır [4].

Heydər Əliyevin fəaliyyəti dövründə həyata keçirilən əsas təşəbbüsləri tədqiq etməklə, biz onun Azərbaycanın nəqliyyat sektorunda qoyub getdiyi qalıcı irsi və onun töhfələrinin bu günə kimi ölkənin infrastrukturunu necə formalaşdırdığını daha dərindən dərk edə bilirik.

Heydər Əliyevin Azərbaycanın nəqliyyat sektoruna baxışı:

Heydər Əliyev Azərbaycanın prezidenti olduğu dövrlərdə ölkənin nəqliyyat sektorunun formalaşmasında mühüm rol oynayıb. Onun Azərbaycanın nəqliyyat infrastrukturu ilə bağlı baxışı iqtisadi artımı və regional əlaqəni asanlaşdırmaq üçün modernləşdirmə və genişlənməyə yönəlib [4]. Heydər Əliyevin avtomobil yollarına, dəmir yollarına və hava limanlarına qoyduğu strateji investisiyalar daha səmərəli və bir-biri ilə əlaqəli nəqliyyat şəbəkəsinin əsasını qoydu. Onun rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan boru kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi mühüm layihələr həyata keçirilib. Azərbaycanın Avropa ilə Asiya arasında həyati əhəmiyyət daşıyan tranzit qovşağı kimi mövqeyi möhkəmlənib. Heydər Əliyevin multimodal daşıma sistemlərinin inkişafına və logistik imkanların artırılmasına xüsusi önəm verməsi Azərbaycanın nəqliyyat sektorunda qalıcı irs qoyub, ölkəyə strateji coğrafi mövqeyindən yararlanmağa və iqtisadi potensialını maksimum dərəcədə artırmağa imkan verib. Onun irəlini düşünən yanaşması Azərbaycanın nəqliyyat infrastrukturunun transformasiyasını formalaşdırmaqda davam edir.

Nəqliyyat sektorunun əsas rolu sürətlə inkişaf edən Azərbaycanın artan tələbatını təmin etmək, dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi inkişaf islahatlarına riayət etməkdən ibarətdir. Müasir dövrümüzün sürətlə dəyişən şərtləri Azərbaycanda nəqliyyat sisteminin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsini və nəqliyyatın inkişafı sahəsində dövlətimizin müəyyən etdiyi vəzifələrin həyata keçirilməsini daha da zəruri edir. Nəqliyyat sisteminə daxil olan müxtəlif nəqliyyat növləri bir-birindən fərqlənirsə, dövlətimiz nəqliyyata makro səviyyədə vahid idarəetmə obyekti kimi baxır, onu bir-birini tamamlayan, qarşılıqlı, çoxşaxəli xidmət göstərən vahid kompleksə çevirmək üçün nəqliyyat xidmətlərindən istifadəni tələb edir [5]. Dövlət tənzimləmə işlərində müxtəlif nəqliyyat növlərinin inkişafına əhəmiyyətli dərəcədə dəstək verir. Bununla bağlı məqalədə müstəqillik dövründə nəqliyyat sahəsinin inkişafı istiqamətində atılan addımlar, o cümlədən bu sahənin inkişafı ilə bağlı qəbul edilmiş proqram və qərarlar, onların nəticələri və nəqliyyat sektorunun inkişafına təsiri təhlil edilir.

Heydər Əliyevin rəhbərliyi altında nəqliyyat infrastruktur layihələrinin həyata keçirilməsində böyük rolu olmuşdur.

Heydər Əliyevin rəhbərliyi altında nəqliyyat infrastrukturu layihələrinin həyata keçirilməsi Azərbaycanın nəqliyyat sektorunun transformasiyasında mühüm dönüş nöqtəsi oldu. Heydər Əliyevin strateji baxışı və liderliyi ölkənin nəqliyyat şəbəkəsinin modernləşdirilməsinə yönəlmiş çoxsaylı əsas layihələrin başlanmasına və başa çatdırılmasına səbəb olub [6]. Diqqətçəkən layihələrdən biri də Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisi olmuşdur ki, bu da Azərbaycanın enerji ixrac imkanlarını artırmaqla yanaşı, həm də ölkənin ümumi infrastrukturunu gücləndirmişdir. Bundan əlavə, avtomobil yollarının, dəmir yollarının və hava limanlarının inkişafına, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda əlaqənin yaxşılaşdırılmasına əhəmiyyətli investisiyalar qoyulmuşdur. Bu infrastruktur layihələri nəinki iqtisadi artımı asanlaşdırdı, həm də Azərbaycanın regionda əsas oyunçu kimi mövqeyini gücləndirdi. Ümumiyyətlə, Heydər Əliyevin rəhbərliyi altında nəqliyyat infrastrukturu layihələrinin uğurla həyata keçirilməsi onun Azərbaycanın müasir nəqliyyat sektorunun formalaşmasında qalıcı irsinə töhfə verdi. Heydər Əliyev irsinin Azərbaycanın nəqliyyat sektoruna təsiri, Azərbaycanın rəhbəri kimi ölkənin nəqliyyat sektorunun transformasi-

yasında mühüm rol oynamışdır. İşlədiyi müddətdə o, Azərbaycanın nəqliyyat infrastrukturuna əhəmiyyətli təsir göstərən müxtəlif təşəbbüslər həyata keçirib. Azərbaycan, Gürcüstan və Türkiyə arasında əlaqəni genişləndirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi də daxil olmaqla, dəmir yolu şəbəkəsinin modernləşdirilməsi və genişləndirilməsinə diqqət çəkib [3]. Bundan əlavə, Heydər Əliyev ticarətin asanlaşdırılması və iqtisadiyyatın yüksəldilməsi üçün Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi kimi limanların inkişafına üstünlük verib, eləcə də onun yol infrastrukturuna qoyduğu strateji sərmayələr ölkə daxilində əlçatanlığı və əlaqəni yaxşılaşdırdı, bu da nəqliyyatda səmərəliliyin artmasına səbəb oldu. Neft kəmərin açılışı 2006-cı ilin may ayının 28-də reallaşmışdı. Heydər Əliyevin nəqliyyat sektorundakı irsi Azərbaycanın infrastrukturunu formalaşdırmağa davam edir, onun iqtisadi inkişafına və regional əlaqəyə töhfə verir [6]. Yekun olaraq, Azərbaycanın nəqliyyat sektorunun transformasiyasında Heydər Əliyevin irsi danılmazdır. Strateji planlaşdırma, modernləşdirmə səyləri və infrastruktura investisiyalar vasitəsilə Heydər Əliyev ölkəyə böyük fayda verən möhkəm və səmərəli nəqliyyat şəbəkəsinin əsasını qoydu. Onun uzaqgörənliyi və rəhbərliyi avtomobil, dəmir yolu, hava və dəniz nəqliyyatında əhəmiyyətli irəliləyişlərə səbəb olub, iqtisadi artıma, regional əlaqəyə və Azərbaycan xalqının həyat keyfiyyətinin yaxşılaşmasına töhfə verib. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi mühüm layihələrin uğurla həyata keçirilməsi Azərbaycanı regionda nəqliyyat sektorunda əsas oyunçu kimi mövqeləndirib. Heydər Əliyevin irsi Azərbaycanın nəqliyyat sektorunu formalaşdırmaqda və inkişaf etdirməkdə davam edir, onun qlobal nəqliyyat landşaftında davamlı aktuallığını və əhəmiyyətini təmin edir [5].

Bütün ölkələrdə Azərbaycanda nəqliyyat sisteminin inkişafı iqtisadiyyatın ümumi tərəqqisi üçün böyük əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının infrastruktur sahələri olan enerji, rabitə, təhsil, səhiyyə və s. bundan əlavə, nəqliyyat cəmiyyətin ilkin tələbatını ödəməklə sosial, iqtisadi, xarici siyasət və digər məsələlərin həllində mühüm rol oynayır. Nəqliyyatın çevikliyinin artırılması təkcə vətəndaşlarımızın hərəkət sahəsində hüquqlarının həyata keçirilməsini təmin etmək üçün deyil, həm də Azərbaycanın müdafiə potensialını artırmaq üçün vacibdir.

Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir."

İstifadə edilmiş ədəbiyyat

1. V. Lantseva. (2023). Problems of legal regulation of public transport services in the context of digitalisation.

2. Mahir Humbatov. (2017-11-30). The South Caucasus-centred Transport Hub: The Crossroads of the East-West and the

http://books.google.com/books?id=NEUIEAAAQBAJ&dq=Haydar+Aliyev%27s+Vision+for+Azerbaijan%27s+Transport+Sector&hl=&source=gbs_api</u>

3. https://azerbaijan.az/related-information/131

4. Graeme H. Wilson. (2013). Heydar.

<u>http://books.google.com/books?id=2HrnngEACAAJ&dq=Impact+of+Haydar+Aliyev%27s+Legacy+on+Azerbaijan%27s

+Transport+Sector+Impact+of+Haydar+Aliyev%27s+Legacy+on+Azerbaijan%27s+Transport+Sector&hl=&source=gbs

5. https://azerbaijan.az/related-information/131

6. https://sesqazeti.az/news/politics/603917.html

HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN DİLİNİN ƏN BÖYÜK HİMAYƏDARI

Gülöyşə Azad qızı Əhmədzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
gulu010894@gmail.com

Azərbaycan dili dünyanın ən qədim və zəngin dillərindən biridir. Ana dilimiz tariximizin qədimliyinin, mədəniyyətimizin özünəməxsusluğunun göstəricisidir. Ana dilimizin yad təsirlərdən qorunması, inkişafı, saflaşması və dövlət dili səviyyəsinə yüksəlməsi istiqamətində Ulu Öndər Heydər Əliyev misilsiz xidmətlər göstərib. Ulu Öndər deyirdi: "Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir".

Ulu öndər Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli Liderimizin fikrincə, ana dili azərbaycançılığın təməl prinsipi idi. Buna görə də xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini qorumağın, inkişaf etdirməyin vacibliyini yaxşı bilirdi.

XX əsrin sonrlarında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir sıra əhəmiyyətli məsələlər yenidən gündəmə çevrildi. Ana dilimiz bu sırada mühüm yer tutdu. "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir" deyən Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ilin 31 oktyabr - 11 noyabr tarixləri arasında dövlət dili məsələsi Milli Məclisdə müzakirəyə çıxarıldı. Yekdilliklə Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dili qəbul olundu. 1995-ci ilin 12 noyabrında qəbul edilən Azərbaycan Respublikasının yeni Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili elan olundu. [1] 2001-ci ilin 18 iyununda Ulu Öndərin imzaladığı "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanlarından irəli gələn tələblərə uyğun olaraq, respublikamızın ərazisində yaşayan hər kəs, bütün Azərbaycan vətəndaşları doğma dilimizi öyrənməli, bütün dövlət sənədlərinin bu dildə aparılması irəli sürülürdü. Eyni zamanda, 2003-cü ilin 2 yanvarında "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanunu"nun qəbul edilməsi dilimizin inkişafı istiqamətində Heydər Əliyevin böyük xidmətlərindən biridir. Həmin qanuna əsasən, idarə, müəssisə və təşkilat adları lövhələrdə ilk növbədə ana dilimizdə, sonra xarici dildə yazılmalıdır.

Minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Tarixin müxtəlif dövrlərində Azərbaycan dili müxtəlif təzyiqlərə məruz qalsa da, öz varlığını qoruyub saxlamışdır.

Ulu öndərimiz Heydər Əliyev öz ana dilini bilməyənləri "şikəst" adlandırırdı. Dahi şəxsiyyət Heydər Əliyev ana dilimiz haqqında demişdir: "Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz. Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir. Müdrüklərdən Hegel demişdir: "Ana dilində danışmaq böyük mədəniyyətdir". Müstəqil Azərbaycanımızın hər bir vətəndaşına isə bu böyük mədəniyyəti məhz Ümummilli lider Heydər Əliyev öyrətdi. Ulu Öndərimiz bunu bütün çıxış və nitqlərini ana dilimizdə etməklə, həmçinin Azərbaycan dilinin inkişafına göstərdiyi xidmətləri ilə etmiş oldu. Bütün bunlara əsaslanaraq müstəqil Azərbaycanımızın hər bir vətəndaşı Ümummilli Liderimizin bu müqəddəs amallarına sadiq qalaraq ana dilimizi mükəmməl bilməli və onu qoruyaraq gələcək nəsillərə ötürməlidir. Bunu ona görə etməliyik ki, Azərbaycan adlı bir məmləkət, xalqımız və ana dilimiz daim mövcud olsun.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası

2. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. President.az

HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN DİLİNİN MÜHAFİZƏKARI

Osman Azad oğlu Əhmədzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
osman120895@gmail.com

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi kökləri vardır. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

(Heydər Əliyev)

Zaman-zaman hər bir xalqın inkişafında və tərəqqisində müstəsna xidmətlər göstərmiş şəxsiyyətlər yetişir. Heç şübhəsiz, Azərbaycan xalqı da, bu baxımdan, tarixi şəxsiyyətlər yetişdirib və bu mənada Ulu öndər Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm yetirən Ümummilli Lider Azərbaycan dilinin adını özümüzə qaytarmışdır.Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.

1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söylədi. Həmin dövrdə belə bir addım, həqiqətən, böyük bir cəsarət istəyirdi və ən başlıcası millilik, soy-kökə bağlılıq anlamına gəlirdi. Həmin tarixi günü Heydər Əliyev tam 25 ildən sonra, BDU-nun 75 illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər."

1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. [1] Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdir. Birbirinin ardınca fərmanlar imzalanmış, qanunlar qəbul edilmişdir. Ana dilinə həmişə xüsusi diqqətlə yanaşan, dilimizin dərin bilicisi ulu öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı. Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır.

Ulu öndər Heydər Əliyevin doğma Azərbaycan dili uğrunda on illər boyu şərəflə, cəsarətlə, elmi-nəzəri əsaslara söykənən prinsipiallıqla mübarizə aparması, obyektiv, real nəticələrə nail olması Azərbaycan xalqına ən gözəl nümunədir. Onun dil siyasətinin uğurları öyrənilməli, ciddi elmi-analitik təhlil, tədqiq yolu ilə xalqımıza çatdırılmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Azərbaycan Milli Kitabxanası. anl.az

HEYDAR ALIYEV'S LEGACY: PIONEERING THE MODERNIZATION OF ECONOMY IN AZERBAIJAN

Arzu Safarli
Azerbaijan Technical University
arzu.safarli@aztu.edu.az

Heydar Aliyev, as the former President of Azerbaijan, stands as a transformative figure whose impact on the nation's economic landscape reverberates to this day. His tenure marked a pivotal era in Azerbaijan's economic history, characterized by visionary leadership and strategic policymaking. Aliyev's initiatives and reforms laid the groundwork for the modernization and dynamism of Azerbaijan's economy, positioning the country as a significant player in the region.

Central to Aliyev's economic agenda were market-oriented reforms aimed at transitioning Azerbaijan from a centrally planned economy to a market-based system. Through privatization of state-owned enterprises and liberalization of trade policies, Aliyev fostered an environment conducive to entrepreneurship and innovation, setting the stage for economic diversification and growth.

Moreover, Aliyev recognized the pivotal role of the energy sector in driving economic development. Under his stewardship, Azerbaijan witnessed significant investments in oil and gas exploration, leading to the emergence of the country as a key player in the global energy market. Strategic partnerships with international oil companies and the construction of vital infrastructure such as the Baku-Tbilisi-Ceyhan pipeline further solidified Azerbaijan's position as an energy hub.

The enduring legacy of Heydar Aliyev's economic policies is evident in Azerbaijan's sustained economic growth, increased foreign direct investment, and improved living standards. His strategic vision and commitment to reform continue to shape Azerbaijan's economic trajectory, providing a stable foundation for subsequent leaders to build upon. In essence, Heydar Aliyev's legacy in economic development remains an integral part of Azerbaijan's journey towards prosperity and regional influence.

Heydar Aliyev's ascension to leadership in Azerbaijan occurred amidst unprecedented turbulence following the collapse of the Soviet Union. Taking office as President from 1993 to 2003, Aliyev faced daunting economic challenges exacerbated by the aftermath of Soviet disintegration. However, rather than succumbing to the daunting circumstances, Aliyev displayed remarkable foresight and resolve, embarking on a journey of bold reforms and strategic planning to revitalize Azerbaijan's economy.

The collapse of the Soviet Union had left Azerbaijan grappling with severe economic disarray, characterized by plummeting production, hyperinflation, and social unrest. In such dire circumstances, Aliyev's leadership was instrumental in providing stability and direction. His vision for economic modernization served as a beacon of hope amid uncertainty, rallying the nation towards a shared goal of prosperity.

Aliyev's economic reforms were both sweeping and strategic, targeting the root causes of Azerbaijan's economic malaise. Recognizing the limitations of the centrally planned Soviet system, he initiated market-oriented reforms aimed at liberalizing the economy and stimulating private sector growth. Privatization of state-owned enterprises, deregulation of markets, and the promotion of entrepreneurship were among the cornerstones of his economic agenda.

Furthermore, Aliyev prioritized strategic sectors such as energy and infrastructure, recognizing their potential to catalyze economic growth. Investments in the development of Azerbaijan's vast energy resources, coupled with the construction of critical infrastructure such as transportation networks and pipelines, laid the foundation for sustained economic expansion.

Despite the enormity of the challenges he faced, Heydar Aliyev's leadership during his presidency set Azerbaijan on a trajectory of progress and prosperity. His legacy as a visionary statesman and economic reformer endures, serving as a testament to his unwavering commitment to the welfare and advancement of the Azerbaijani people. Through his bold reforms and strategic

planning, Heydar Aliyev laid the groundwork for the modernization of Azerbaijan's economy, ensuring its resilience and adaptability in the face of future challenges.

Heydar Aliyev's economic vision was grounded in fostering economic stability, attracting foreign investment, and diversifying Azerbaijan's economy. Central to his agenda was the implementation of market-oriented reforms, marking a shift from a centrally planned economy to a market-based system. Key initiatives included the privatization of state-owned enterprises, aimed at enhancing efficiency and competitiveness, while liberalizing trade policies opened doors for increased international trade and investment.

Aliyev recognized the importance of creating a conducive business environment to spur entrepreneurship and innovation. He championed policies that streamlined bureaucratic processes, reduced red tape, and provided incentives for business growth. By fostering a favorable climate for both domestic and foreign investors, Aliyev sought to unleash the full potential of Azerbaijan's economy.

Through these reforms, Heydar Aliyev laid the groundwork for a more dynamic and resilient economy, capable of withstanding external shocks and driving sustained growth. His legacy in economic policy continues to shape Azerbaijan's trajectory, inspiring subsequent leaders to prioritize innovation, entrepreneurship,and market-driven approaches to economic development [1].

Heydar Aliyev's astute recognition of the pivotal role played by Azerbaijan's energy sector propelled the nation towards unprecedented economic growth. During his tenure, substantial investments were directed towards the exploration and extraction of Azerbaijan's abundant oil and gas resources. These strategic endeavors not only bolstered Azerbaijan's position as a significant global energy player but also served as a cornerstone for broader economic development initiatives.

Aliyev's adept leadership fostered crucial partnerships with international oil companies, facilitating the efficient extraction and distribution of Azerbaijan's energy wealth. Among the most notable projects was the construction of the Baku-Tbilisi-Ceyhan pipeline, a monumental endeavor that not only unlocked Azerbaijan's energy potential but also bolstered regional cooperation and connectivity. Through such visionary initiatives, Aliyev laid the groundwork for sustained economic prosperity, leveraging Azerbaijan's energy resources to drive both domestic growth and international engagement [2].

Heydar Aliyev's strategic vision encompassed not only economic reform but also prioritized infrastructure development as a cornerstone of Azerbaijan's growth strategy. Recognizing the critical role of infrastructure in fostering economic integration and facilitating trade, Aliyev spearheaded ambitious projects aimed at modernizing Azerbaijan's transportation networks.

Major investments were directed towards the construction of highways, airports, and seaports, bolstering connectivity within the country and beyond its borders. These infrastructure projects not only improved logistical capabilities but also positioned Azerbaijan as a key transit hub in the region. By enhancing transportation efficiency and reducing trade barriers, Aliyev's infrastructure initiatives facilitated the movement of goods and services, thereby stimulating economic activity and attracting investment.

Furthermore, the development of modern infrastructure underscored Azerbaijan's commitment to fostering regional cooperation and integration. By investing in transportation infrastructure, Aliyev sought to strengthen Azerbaijan's position as a strategic crossroads for trade and transit, further enhancing its attractiveness to investors and businesses looking to capitalize on its strategic location between Europe and Asia [3].

Heydar Aliyev's economic reforms in Azerbaijan heralded a new era of prosperity and growth, leaving a profound impact on the nation's economic landscape. The strategic measures implemented during his presidency yielded tangible results, providing a solid foundation for sustained economic development.

One of the most notable outcomes of Aliyev's economic reforms was the remarkable surge in GDP growth rates. Through market-oriented policies and strategic investments, Azerbaijan experienced robust economic expansion, fueling optimism and confidence in the country's

economic prospects. This growth trajectory not only bolstered Azerbaijan's economic resilience but also positioned it as a dynamic player in the global marketplace.

Furthermore, Aliyev's reforms attracted significant foreign direct investment (FDI), injecting vital capital into the economy and stimulating further growth. Foreign investors were drawn to Azerbaijan's favorable business climate, abundant natural resources, and strategic location, recognizing the immense potential for lucrative opportunities.

Importantly, the modernization of infrastructure and the development of the energy sector played pivotal roles in enhancing Azerbaijan's economic prowess. Investments in transportation networks, energy infrastructure, and technological advancements not only improved efficiency and productivity but also bolstered Azerbaijan's competitiveness on the global stage.

Moreover, the emergence of Azerbaijan as a key player in the global energy market elevated its geopolitical significance and influence. By harnessing its energy resources and forging strategic partnerships, Azerbaijan positioned itself as a vital player in regional and international affairs, further enhancing its standing and prestige on the world stage.

In essence, Heydar Aliyev's economic reforms laid the groundwork for a prosperous and dynamic Azerbaijan, setting the stage for sustained growth, development, and enhanced global engagement. His legacy as a visionary leader and economic reformer continues to shape Azerbaijan's economic trajectory, inspiring future generations to build upon his achievements [4].

Heydar Aliyev's imprint on Azerbaijan's economic landscape transcends his time in office, echoing through subsequent administrations. His strategic foresight and dedication to reform have entrenched enduring principles that continue to guide the nation's economic trajectory. The stable economic foundation laid during his presidency serves as a bedrock upon which successive leaders can build, fostering a legacy of sustained growth and prosperity.

Aliyev's visionary leadership instilled a culture of pragmatism and forward-thinking in Azerbaijan's governance, setting a precedent for prioritizing economic development and modernization. The policies and initiatives he implemented provided a roadmap for navigating economic challenges and seizing opportunities for growth.

Moreover, Aliyev's emphasis on fostering a favorable business environment and attracting foreign investment has cultivated resilience in Azerbaijan's economy, enabling it to weather external shocks and adapt to evolving global dynamics. His legacy of promoting entrepreneurship and innovation continues to fuel economic diversification and competitiveness, positioning Azerbaijan as a dynamic player in the global marketplace.

In essence, Heydar Aliyev's enduring legacy in economic development serves as a testament to the transformative power of visionary leadership and strategic policymaking. By laying a solid groundwork for economic progress, he has empowered future generations of leaders to continue building upon his achievements and charting a course towards a prosperous future for Azerbaijan.

Heydar Aliyev's tenure as President of Azerbaijan left an indelible mark on the nation's economic landscape, characterized by his visionary leadership and pragmatic governance. Assuming leadership during a period of profound economic transition and uncertainty following the collapse of the Soviet Union, Aliyev's stewardship steered Azerbaijan towards stability and progress.

Aliyev's approach to governance was marked by a blend of vision and pragmatism, enabling him to navigate the complexities of economic reform with precision. Recognizing the need for fundamental changes to propel Azerbaijan towards modernization, he initiated bold reforms aimed at transitioning the economy from a centrally planned system to a market-oriented one. Through privatization, deregulation, and the promotion of entrepreneurship, Aliyev created an environment conducive to growth and innovation, laying the groundwork for sustainable economic development.

Moreover, Aliyev understood the pivotal role of strategic sectors such as energy and infrastructure in driving economic growth. His investments in the development of Azerbaijan's energy resources and the expansion of critical infrastructure, including transportation networks and logistics capabilities, bolstered the country's competitiveness and attractiveness to investors.

Aliyev's enduring legacy as an economic modernizer continues to shape Azerbaijan's trajectory towards prosperity. The stable economic foundation he established during his presidency provides a solid platform for future leaders to build upon, ensuring continued progress and development. His pragmatic approach to governance and strategic policymaking serves as a testament to the transformative power of effective leadership in driving economic reform and fostering sustainable growth.

As Azerbaijan continues its journey towards prosperity, Heydar Aliyev's legacy stands as a beacon of inspiration, highlighting the transformative impact of visionary leadership and strategic policymaking in shaping the destiny of nations.

References

1. Heydar Aliyev: Political and Economic Reformer, https://www.azerbaijan.az/_Sosiety/_Person/person_02_e.html
2. Azerbaijan's Energy Strategy, https://www.oecd.org/env/outreach/49753204.pdf
3. The Development of Transport Infrastructure in Azerbaijan, https://www.azstat.org/statinfo/ indicators/en/070
4. Azerbaijan: Economic Development and Challenges, https://www.imf.org/external/pubs/ft/scrcr1347.pdf/2013/

HEYDƏR ƏLİYEV TARİXİ ZƏFƏRƏ APARAN SİYASƏTİN BANİSİ

[1]**Bahadur Akif oğlu Qəmbərov,** [1,2]**Vüqar Nazim oğlu Əliyev,** [1]**Təranə Saday qızı Əliyeva**
[1]Heydər Əliyev adina Hərbi İnstitut
[2]a.vuqar@bk.ru

Azərbaycan SSR 1991-ci ilədək SSRİ-nin tərkibində idi. Ölkə 1987-ci ilin oktyabrında, hələ SSRİ-nin dağılmasından əvvəl daxildən və xaricdən hücuma məruz qaldı. Azərbaycan Qarabağ müharibəsində ərazilərin itirilməsi ilə bağlı Ermənistanın simasında gizlənən ən güclü Qərb dövlətləri blokunun gözlənilməz hücumuna məruz qaldı. Münaqişədən əvvəl Azərbaycanın silahlı qüvvələri yox idi.

Ermənilər, mərkəzi Ağrı dağı olan Xəzər, Qara və Aralıq dənizləri arasında yerləşən əraziləri özündə birləşdirən, dənizdən dənizə "Böyük Ermənistan" ideyalarından ruhlanıb dünyanın ən güclü dövlətlərinin dəstəyi ilə şərq istiqamətində irəliləmə planını həyata keçirməyə başladılar. Erməni komandanlığı Araz və Kür çaylarının tarixi yataqları arasındakı əraziləri ələ keçirməyə, bununla da Rusiya ilə İran sərhədləri arasına sıxışmağa, Xəzər dənizi sahilindən şərqə açılan qapıya çevrilməyə çalışırdı. Ermənistanın hərbi niyətinə əsasən, **ilkin vəzifə** Qarabağı və ona bitişik əraziləri ilhaq etmək və etnik təmizləmə aparmaq, **növbəti vəzifə** Mingəçevir, Yevlax, Zərdab şəhəri yaxınlığından Kür çayı sahilinə çıxmaqla körpüləri ələ keçirmək və Azərbaycanın şərqi ilə qərbi arasında bütün əlaqəni kəsmək, **sonrakı vəzifə** hərbi-siyasi və iqtisadi təzyiqlərdən istifadə edərək Ermənistan silahlı qüvvələrinin Xəzər hövzəsi sahillərinə daxil olması ilə Azərbaycan dövlətçiliyinin mümkün süqutuna nail olmaqdan ibarət idi. Azərbaycanla Ermənistan arasında cərəyan edən bu etnik təmizləmə və ərazi iddialı dünya ictimayətinə erməni təbliğatçıları tərəfindən "xaçla" "aypara" arasında çərəyan edən dini müharibə, Ermənistanı isə xristiyan dünyasının şərqdə hücuma məruz qalmış sərhəd qalası kimi təqdim edirdi.

1987-1991-ci illərdə Ermənistan, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) yaşayan erməni əhalinin separatçı hisslərini qızışdırmaqla düşmənçiliyini biruzə verdi, silahlı quldur-terror dəstələri formalaşdırdı. Ermənistandan idarə olunan və dəstəklənən yüksək rütbəli erməni və rus peşəkar zabitlər qrupu bu dəstələri vahid komandanlıq altında birləşdirib təşkilatlandırdı və Azərbaycanın sərhədləri daxilində Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində erməni "Ekspedisiya Korpusu" yaratdı.

27 fevral 1992-ci ildə erməni "Ekspedisiya Korpusu" qüvvələri Xocalıda soyqırım törətdi və keçmiş DQMV ərazisini işğal edib Ermənistanla hava ələaqəsi yaratdı. 09.05.1992-ci ildə Şuşanı, 18.05.1992-ci ildə Laçını zəbt edib Ermənistanla quru əlaqəsi yaratdı.

12 iyun 1992-ci ildə milli müstəqillik ruhundan və Xocalının qisasını almaq hisslərinin açısı ilə Azərbaycan Milli Ordusu və hərbi-siyasi-könüllü-özünümüdafiə silahlı bölmələrlə qarşılıqlı fəaliyyətli hücuma keçdi. Azərbaycan Milli Ordusunun niyyəti Ağdam-Xankəndi istiqamətində təziqi saxlamaqla şimaldan və cənubdan hücumu qərbə doğru – Ermənistan sərhədinədək davam etdirməklə, Laçın dəhlizini bağlamaq təhdidi yaratmaq və erməniləri Qarabağı tərk etməyə təhrik etmək idi. Bu baş vermədikdə isə Laçın dəhlizini bağlayıb erməniləri mühasirəyə salmaq, təslim olanadək mühasirədə saxlamaq kimi qeyri müəyyən fəaliyyət nəzərdə tutulmuşdu.

Azərbaycan Milli Ordusu hücum edərək Ağdərəni azad etdi, Kəlbəcər yolunu açdı və 1992-ci il Oktyabr ayında Laçın dəhlizini bağladı. Lakin AXC və Müsavat hökumətinin siyasi səriştəsizliyi və xarici dövlətlərin təzyiqi nəticəsində dəhlizdən geri çəkildi. Azərbaycan höhuməti beynəlxalaq vasitəçilərin tələbi ilə hücumlar zamanı 4 dəfə atəşkəsə razılaşdı. Düşmən belə fasilələrdən faydalanaraq, hər dəfə özünü bərpa etmək üçün zaman qazandı. Yayda hücuma başlayan Ordu payızda taqətdən düşərək dayanıb müdafiəyə keçdi və dağlarda qışlamalı oldu.

1993-cü il fevral ayına kimi ermənilər özlərini bərpa etdilər və yenidən təşkilatlandılar. 05-25.02.1993-ci ildə özünü bərpa etmiş və yenidən təşkilatlanmış düşmən Xankəndi-Ağdərə istiqamətində hücuma keçib Ağdərə rayonunda Sərsəng su anbarı hövzəsini və Kəlbəcər rayonunun təminat yolunu işğal etdi. Kəlbəcərdə müdafiə olunan hissələr və rayonun mülkü əhalisi mühasirəyə düşdü. Azərbaycanlılar rəşadətlə vuruşdular, ağır itkilər verdilər lakin geri çəkilmək məcburiyyətində qaldılar.

22.03-05.04.1993-cü ildə düşmən yenidən qruplaşma keçirib 3 istiqamətdə: 1-ci Ağdərə-Kəlbəcər, 2-ci Laçın–Kəlbəcər, 3-cü Ermənistan ərazisindən Zod-Kəlbəcər istiqamətlərində hücuma keçdi və Kəlbəcəri işğal etdi. Ermənilər sol şimal cinahını Murovdağ silsiləsi ilə möhkəmlədib, cinahda azacıq qüvvə saxladı. Kəlbəcər rayonuna hücumda istifadə etdiyi Ermənistan Ordusu və "Qarabağ Özünü Müdafiə Ordusu"nun 5 alayını ehtiyata çıxardı, Ağdam və Fizuli istiqamətlərində hücum qruplaşması formalaşdırıb yenidən təşkilatlandı.

Kəlbəcərin tam olaraq və Ağdərə rayonu ərazilərinin qismən düşmən tərəfindən işğal edilməsi Azərbaycanda hakimiyyət böhranı yaratdı. Darmadağın olmuş azərbaycanlı hərbi-siyasi birləşmələr və hakimiyyət məğlubiyyətdə bir-birini ittiham etdi, hərbi qiyam baş verdi. Müharibə vəziyyətində olan dövlətdə vətəndaş müharibəsi təhlükəsi yarandı. Azərbaycan öz dövlətçiliyini itirmək təhlükəsi ilə üz üzə qaldı. 15.06.1993-cü ildə Xalq Heydər Əliyevi vətəndaş müharibəsi və dövlətçiliyin itirilməsi təhlükəsindən xilas etmək üçün Naxçıvandan Bakıya çağırdı.

12.06.1992-15.06.1993 illərdə hücum və müdafiə döyüşlərində Azərbaycan dövlətinin hərbi resursları tükənmişdi. Dövlətə sadiq qalmış az saylı qüvvələr taqətdən düşmüşdü. Düşmən 30.10.1993-cü ilə kimi Ağdərəni, Ağdamı, Fizulini, Cəbrayılı, Qubadlını, Zəngilanı işğal edib sağ cinahını İranla sərhədə dirəyib cəbhəni 100 kilometr qısaltdı. Araz çayının sol sahilində hücum üçün istifadə etdiyi qüvvələri yenidən qruplaşma üçün ehtiyata çıxarıb Xankəndi-Yevlax, Xocavənd-Beyləqan istiqamətində topladı. Düşmən **ilkin vəzifəni** yerinə yetirib **növbəti vəzifəni** icra etmək üçün hazırlıqlara başladı. Bu tədbirləri ən tez 6 aya tamamlamaq münkün idi.

1993-cü il iyun ayından 1994-cü il yanvar ayına kimi, Heydər Əliyevin altı aylıq titanik fəaliyyəti nəticəsində yenidən formalşdırılıb təhciz edilmiş, təşkilatlanmış Azərbaycan Ordusu və digər silahlı qüvvələr düşmənə hücum hazırqlarını başa çatdırmağa macal verməmədən gözlənilməz əks hücuma başladı. Azərbaycan Ordusu düşmənin **Sonrakı vəzifəni** yerinə yetirmək məqsədilə toplanmış qüvvələrini parçalayıb, uzun-geniş cəbhədə səpələmyə məcbur etmək niyyəti ilə üç istiqamətdə zərbə endirdi. 1-ci Murovdağ silsiləsindən Ömər aşrımı-Kəlbəcər istiqamətində, sağ cinahdan, 2-ci Tərtər-Ağdərə istiqamətində mərkəzdən, 3-cü Beyləqan-Fizuli istiqamətindən sol cinahdan.

Azərbaycan Ordusu bütün istiqamətlərdə uğur əldə etdi. Əməliyyat niyyətinə nail oldu, strateji təşəbbüsü ələ keçirdi. Azərbaycan Ordusu düşmənin **Sonrakı vəzifə** üçün formalaşdırdığı hücum qruplaşmasını parçaladı, onu Murovdağ silsiləsində, Horadizdə, Tərtərdə üç istiqamətdə

müdafiəyə keçməyə və əlverişsiz şəraitlərdən əks hücumlar etməyə vadar etdi. Azərbaycan Ordusu Beyləqan, Ağdam və Tərtər rayonları ərazilərində, dağətəyi düzənlikdə, əlverişli mövqelərindən düşmənə ağır itkilər verdi. Müdafiə döyüşləri ilə onu taqətdən salıb tükətdi, düşmənin hücum üçün yaratdığı qüvvələrini darmadağın etdi. Düşmənin hücum əzmi qırıldı və o, strateji təşəbbüsü birdəfəlik itirib qapalı müdafiəyə keçməyə məcbur oldu. Azərbaycanın hərbi qələbəsi beynəlxalq aləmdə həzm edilmədi. Azərbaycan hökuməti hərbi-siyasi-iqtisadi təzyiqlərə məruz qaldı və 14.05.1994-cü ildə Azərbaycan Respublikası atəşkəsə razılıq verdi. İntensiv hərbi əməliyyatlar 1994-cü ildə "Dağlıq Qarabağ"ın və ərtaf 7 rayonun ərazilərinin işğal edilməsindən sonra dayandı. Münaqişə dəyişməz "statuskuo" və tərəflər arasında atəşkəs vəziyyətində davam etdi. 1987-1994-cü illər döyüşlərində düşmən **ilkin vəzifəni** yerinə yetirib müdafiə üçün əlverişli mövqeləri ələ keçirdi. Erməni tərəfi **növbəti vəzifəni** yerinə yetirmədən ordusunun hücum imkanlarını itirdi və Azərbaycan silahlı qüvvələri tərəfindən dayandırıldı. Bu mövqelərdə ermənilər 2020-ci ilədək müdafiədə möhkəmləndilər və bu müdafiə xəttini "Ohanyan müdafiə xətti" adlandırdılar.

1994-cü ildə imzalanmış atəşkəsdən sonra Azərbaycan yeni yaranmış və qloballaşan dünya düzənində Qərb-Şərq, Şimal-Cənub arasında, əsası Heydər Əliyev tərəfindən qoyulan siyasi, iqtisadi, hərbi kursu davam etdirərək, qonşuları ilə balanslaşdırılmış əməkdaşlıq siyasəti apardı, iqtisadi inkişaf yolu ilə getdi. Sülhsevər və faydalı təşəbbüskar siyasətlə Çənubi Qafqazın lokomativinə və liderinə, nəqliyyat, enerji, ticarət kommunikasiyaları paylayıcı məntəqəsinə və dünyanın dini, mədəni, siyası, iqtisadi əməkdaşlıq meydanına çevrildi. Dünya platformalarında uğurlu fəaliyyətləri ilə rəqibləri neytrallaşdırdı, müttəfiqlərinin sayını artırdı, işğalçı Ermənistanı tədricən müttəfiqlərindən təcrid etdi. Məqsədyönlü hərbi əməkdaşlıq siyasəti aparmaqla müasir ordu və hərbi sənaye yaratdı. Qonşularının və dünya öklələrinin hərbi siyasi dəstəyini, etimadını və etibarını qazandı. Qazanılan qiymətli vaxtdan səmərəli istifadə edərək, Azərbaycan 1992-1994-cü illər müharibəsinin gedişini və müasir müharibələrin təcrübəsini təhlil etdi. Silahlı qüvvələri yenidən təşkil etdi, komandanlıq və idarəetmə sistemini təkmilləşdirdi, məxfilik və gizli idarəetmə rejimini gücləndirdi. İnkişaf etmiş və müttəfiq dövlətlərlə hərbi əməkdaşlığı inkişaf etdirərək müasir tələblərə cavab verən, silahlı qüvvələrin zəruri ehtiyaclarını ödəyən hərbi-sənaye kompleksi yaratdı. Ordunu müasir silahlarla, dəqiq vuran raket və sursatlarla, texnika, hərbi vasitələr və sistemlərlə təchiz etdi. Ordunun arxa və sosial təminat məslələrini həll etdi. Hərbi təlimlər və manevrlər keçirərək, silahlı qüvvələrin döyüş hazırlığını, döyüş qabiliyyətini və hərbi təlim-təhsilin keyfiyyətini yüksəltdi. Virtual reallıq rejimində qoşunlara, silahlara və sursatlara nəzarət etmək üçün ən son elektron sistemləri tədbiq etdi. Azərbaycan yeni nəsil ordu yaratdı.

Azərbaycan eyni vaxtda danışıqlar apararır və kiçik miqyaslı hərbi əməliyyatlar həyata keçirərək, münaqişənin sönməsinə imkan vermirdi. Aprel 2016-cı ildə düşmən hərbi provaka-siayaya əl atı. Azərbaycan güc tətbiq etməklə məsələnin həllinə hazır olduğunu göstərdi. Düşmən itkilər verərək geri oturduldu və Füzuli, Tərtər rayonlarında bir neçə əlverişli mövqe itirdi. 2018-ci ildə Azərbaycan Ordusu Naxçıvan ərazisində Günnüt əməliyyatı həyata keçirdi. Ordu hərbi mövqelərini əlverişli hüdudlarda möhkəmləndirdi və düşmənin dərinliyində təminat kommu-nikasiyalarını hərbi təsir və vizual müşahidə nəzarətində götürdü.

Ermənistan Ordusu Azərbaycan Ordusunun belə hərbi təsirlərinə döyüş meydanında müqavimət göstərə bilmədi. Ermənistan Azərbaycanın əhalisinin sıx məskunlaşma şəhərlərini vurmağın bəs edəcəyini və xalqın öz rəhbərliyə qarşı üsyana qalxacağını, ölkənin etnik komponentlərə parçalanacağını düşünürdü. Onlar Mingəçevir su anbarının bəndini vuracağı və respublikada fəlakət törədəcəyi ilə Azərbaycanı hədələyirdilər. Azərbacanın qərbə yönəlik enerji nəqli və magestral nəqliyyat kommunikasiyalarına zərbələr endirməklə respublikanın şah damarının kəsiləcəyinə, bununla iqtisadiyyatı iflic edəcəklərinə eyham vururdular. Onlar Qarabağda 26 il bundan öncə yaradılmış və daima təkmilləşdirilmiş "Ohanyan müdafiə xəttinin" məğlubedilməz olduğuna əmin idilər. [1, s.70]

1991 ildən dünya düzəni bir qütblü oldu və dünya düzəni dəyişməyə başladı. Amerika və Avropa birliyi hərbi koalisiyalar yaradaraq, Yuqoslaviyanı, İraqı, Liviyanı işğal edib parçaladı. 2008-ci ildə Rusiya - Gürcüstan Müharibəsi baş verdi. Rusiya Abxaziya və Osetiyanı ilhaq etdi. 2014-cü ildə Qərb kolisiyası Suriyada müharibəyə başladı. 2016-cı ildə Rusiya – Ukrayna

münasibətləri gərginləşdi. Rusiya Krımı ilhaq etdi. Dünyada güc prinsipi irəli çıxıb, Hüquq prinsipini üstələməyə başladı.

2018-ci ildə Çin ilə Amerika qarşıdurması "iqtisadi müharibə"yə yüksəldi. [2] "Dəniz yolları"nın "dəmir yolları" ilə əvəz edilməsinə, Şərq ilə Qərb arasında ticarət marşrutlarının quru yollara dəyişdirilməsinə ehtiyac yaratdı. Şərq-Qərb, Çənub-Şimal hərb-siyasi-iqtisadi kommunikasiyasının quru yollarla yaradılması Amerika-Avropa və Avropa-Asiya düşərgələrinin qarşıdurmasında həlledici amilə çevrildi. Fars körfəzi-Baltik dənizi, Sarı dəniz-Mərmərə dənizi aralarında yaradılacaq quru yollar kommunikasıyası istənilən halda Cənubi Qafqazdan keçdiyindən qərb ilə şərq arasında gedən mübarizədə Cənubi Qafqaz xüsusi əhəmiyyət kəsb etməyə başladı.

"Astana" əməkdaşlıq formatı ölkələrinin mərkəzində, Rusiya-Türkiyə-İran düşərgəsinin daxili sərhədlərində bağlayıcı nöqtəsində, Cənubi Qafqazada yerləşən Azərbaycan ilə Ermənistan arasında cərəyan edən, həll edilməmiş "Qarabağ Konflikti" dünyanın qlobal inkişafında hərbi, siyasi, iqtisadi tıxac yaradırdı və məsələnin həllini hərbi üsul da daxil olmaqla labüd edirdi. [3] "Qərb" bu konfliktdə "Minsk qrupu" həmsədrləri olaraq ikili standartlar sərgiləyir və ermənipərəst mövqeni dəstəkləyirdi. Həm də Ermənistanın Rusiyanın rəsmi hərbi müttəfiqi olması uzun müddət idi ki, konfliktin ədalətli həllini mümkünsüz edirdi. [4]

Uzun illər davam edən sülh danışıqları siyasi müstəvidə dalana dirənmişdi. 2020-ci ildə dünyada cərəyan edən hadisələr Azərbaycan ilə Ermənistan arasında son 30 il müddətində yaşanan konfliktin birdəfəlik həllinə tarixi imkan yaratdı. Amerikanın başı seçkilərə, Qərbin isə başı pandemiya və digər daxili siyasi-iqtisadi məsələlərə qarışdı. Azərbaycan məsələnin istənilən həllinə hərtərəfli hazır idi. Azərbaycan 28 il ərzində düşməni daima təzyiq altında saxlayaraq onun ordusunun köhnəlib tam taqətdən düşənə kimi, genişmiqyaslı əks-hücuma başlamaq üçün əlverişli şəraitin yaranacağı anı gözlədi.

2020-ci il Tovuz hadisələrindən başlayaraq Respublikanın əhalisinin vətənpərvərlik əhval-ruhiyyəsini sakitcə yüksəldərək, mülki müdafiənin zəruri məsələləri təşkil edilib həll edildi. Döyüş ərazilərində yerləşən yaşayış məntəqələrində mülkü əhalinin sığınacaqları avadanlaqlaşdırıldı, Mingəçevir su anbarının səviyyəsi azaldıldı.

Azərbaycan Respublikası 27 sentyabr 2020-ci il tarixdə növbəti erməni təxribatına cavab olaraq, Azərbaycan Ordusu və digər güc strukturlarının qüvvələri ilə qarşılıqlı fəaliyyətli "Dəmir yumruq" zərbəsi endirdi.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri yüksək döyüş səviyyəsinə, Gürcüstan sərhədindən İran sərhədinədək və Naxçıvanın Ermənistanla sərhədi boyu bütün hərbi qüvvələr isə tam hazırlıq vəziyyətinə gətirildi. Qismən səfərbərlik keçirildi [5], Hərbi Məktəbin 4-cü kurs kursantları növbədən kənar kiçik leytenant hərbi rütbəsi verilməklə Orduya göndərildi [6] və daha bir Ordu Korpusu formalaşdırılıb tam döyüş vəziyyətinə gətirildi. Uzunmüddətli konservasiyadan çıxarılmış silah və texnika heyətlərlə təmin olundu. Respublika ərazisində komendant saatı elan edildi. İnternet və digər kütləvi informasiya vasitələri nəzarətə götürüldü [7], informasiya resurslarına məhdudiyyətlər tətbiq edildi və hərbi senzura gücləndirildi. Respublika üzərində hava məkanı bağlandı. Pandemiya ilə əlaqədar bağlanmış sərhədlərdə və ölkənin daxilində ictimai və siyasi intizam daha da möhkəmləndirildi. Beynəlxalq müstəvidə və daxili təbliğat-təşviqat fəaliyyəti gücləndirildi.

2020-ci il Sentyabrın 27-dən 03 Oktyabr 2020-ci ilədək düşmənin 30 il təkmilləşdirdiyi müdafiə cəbhəsi, məğlub edilməzlik simvolu - "Ohanyan müdafiə xətti", Azərbaycan Odusunun hücumların tab gətirə bilməyərək Azərbaycan qoşunları tərəfindən ən təhlükəli sektorda 6 gündə yarıldı.

Müharibə zamanı düşmən Azərbaycan ərazisində fəlakət və böhran yaratmaq məqsədi ilə Mingəçevir su anbarına və Mingəçevirdə yerləşən elektrik stansiyasına, Tovuz rayonundan keçən qərbə yönəlik enerji və nəqliyyat kommunikasiyalarına raket artilleriya zərbələri endirdi. Düşmən öz çirkin niyyəinə nail olmaq, xalqı hakimiyyətə qarşı qaldırmaq məqsədi ilə döyüş sahəsindən kənarda Gəncə, Bərdə, Mingəçevir kimi iri şəhərlərdə, insanların sıx məskunlaşdığı yataq rayonları, bazar və sairə məntəqələrə qadağan olunmuş kasetli mərmilərlə raket artilleriya vasitələri ilə atəşə tutdu. Hava Hücumundan Müdafiə qüvvələri məharətlə belə zərbələrin təsirini minimuma endirdi.

Lakin Azərbaycan xalqı Heydər Əliyevin siyasi davamçısı İlham Əliyevin ətrafında daha da sıx birllik nümayiş etdirdi. AXC və Müsavat partiyalarından başqa bütün partiyalar iqtidarla bir olduqlarını bəyan etdilər.

Düşmən Azərbaycan xalqının birliyini pozmaq, əhalini etnik kompanentlərə parçalamaq niyyətini həyata keçirmək məqsədi ilə talış və ləzgi separatizmi qızışdırmaq üçün təkən verdi. Lakin Azərbaycan əhalisi 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra ona qarşı son 30 il ərzində sərgilənmiş ikiüzlü münasibətin acı nəticələrini yaşamışdı. Artıq Azərbaycan xalqı Heydər Əliyevin əsasını qoyduğu *"Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, Mən Azərbaycanlıyam"* milli siyasətin aparılması nəticəsində vahid xalq və dövlətçilik ideyaları ilə özünü dərk edərək möhkəmlənmişdi.

44 sutka aramsız davam edən döyüşlərdə Ermənistan Ordusunun 80 % hərbi potensialı məhv oldu və müdafiə əzmi qırıldı. Düşmən sarsılıb qaçdı. Azərbaycan Ordusu düşmənin daban-dabana təqib edərək, qaçanların çiynində Xankəndinin atıcı silah məsafəsi qədər yaxın hüdudlarına çatdı.

Rusiya son anda öz hərbi "vertolyotunun vintini Ermənistan ərazisindən Naxçıvana soxmaqla" hərbi provakasiya törətdi və Kollektiv Təklükəsizlik Müqaviləsi Təşkilatının Ermənistan tərəfindən müharibəyə qatılacağı təhdidi ilə döyüşləri dayandıra bildi.

Rusiya Federasiyası, Azərbaycan Respublikası Prezidentləri və Ermənistan Baş Nazirinin "onlayn formatda" üç tərəfli iştirakı ilə 10.11.2020-ci ildə Emənistanın kapitulyasiya aktı imzalandı. Atəşkəs bəyanatına əsasən tərəflər əldə etdikləri mövqelərdə dayandı.

Müharibə ərzində Avropa, Amerika, Rusiya müharibə tərəfləri arasında ümumilikdə 4 dəfə vasitəçilik missiyası həyata keçirməyə çalışdı, tərəflərdən qeyri şərtsiz atəşi dayandırmağı tələb etdilər. Lakin Azərbaycan Birinci Qarabağ müharibəsinin nəticələinin analizinə əsaslanaraq belə humanitar atəşkəslərin düşmən tərəfindən yenidən qruplaşma və özünü bərpa üçün istifadə etdiyini nəzərə alaraq öz sayıqlığını itirmədi. Azərbaycan 44 gün ərzində böyük beynəlxalq təzyiqlərə tab gətirdi, siyasi qətiyyət və hərbi mətanət nümayiş etdirdi. Düşmənin müqaviməti tamamilə qırılana və düşmənin silahlı qüvvələri məhv edilib təslim olmasına kimi, Azərbaycan Ordusu amansız irəliləyişini davam etdirdi. Şuşa uğrunda gedən döyüşdə əldə edilən qəti qələbə ilə hərbi əməliyyatlara son qoydu.

Növbəti üç il ərzində ermənilər 10.11.2020-ci ildə Rusiya Federasiyasının vasitəçiliyi ilə üç tərəfli imzaladıqları kapituliyasiya aktının şərtlərini yerinə yetirməkdən boyun qaçırdı və terrorçuluq fəaliyyətini davam etdi. 19.09.2023-cü ildə Azərbaycan Silahlı Qüvvələri 2020-ci ildən Qarabağda lokallaşdırılmış, Rusiya Federasiyası Sülhməramlılarının himayəsində olan terrorçu qüvvələrə qarşı Lokal Antiterror Əməliyyatı keçirdi və "Dağlıq Qarabağ Respublikası"nı darmadağın etdi. Müharibə Azərbaycanın döyüş meydanında tam qələbəsi ilə sona çatdı.

Ermənilərin 1987-ci ildən başlanan "Böyük Ermənistan" yaratmaq xülyası iflasa uğradı. Düşmənin 1994-cü ildə "Böyük Ermənistan" yaratmaq istiqamətində **ilkin vəzifə** ilə nəzərdə tutulmuş, döyüşlərlə əldə etdiyi əraziləri itirdi. 2020-ci il 44 günlük Vətən Müharibəsinin döyüş əməliyyatlarında məğlubiyyətə uğrayan düşmən, darmadağın olub 100 il bundan öcəki hüdudlara geri çəkildi. "Böyük Ermənistan" yaratmaq niyyətini həyata keçirmək istiqamətində təşəbbüsü itirdi. Ermənilər **Növbəti vəzifə**, **Sonrakı vəzifə** yerinə yetirmək kimi hərbi niyyətlər icra etmək üçün hərbi podensialdan məhrum oldu. 1991-ci ildə SSRİ-dan ayrılan zamana şərti dövlət sərhədləri çərçivəsində olmuş əraziləri və öz dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzə qldı.

Azərbaycan Respublikasının 44 günlük Vətən müharibəsində qələbəsini beynəlxalq rezonans yaratdı. Müharibədə erməni ordusunun və "Ohanyan müdafiə xəttinin" məğlubedilməzliyi mifi darmadağın edildi. Qarabağ müharibəsi miqyasına görə lokal müharibə sayılsa da, əhəmiyyətinə görə qlobal dəyişikliklərə səbəb oldu.

Azərbaycan Ordusunun 44 günlük müharibədə nümayiş etdirdiyi unikal hərbi əmaliyyatları dünya hərb tarixinə yeni səhifə yazdı.

Azərbaycan xalqının, Azərbaycan Dövlətinin bu tarixi qələbəsi, əsası 1993-cü ildə Heydər Əliyev tərəfindən qoyulmuş siyasi, iqtisadi, milli, hərbi və digər çoxşaxəli siyasətin Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən müvvəffəqiyyətlə davam etditilməsi nəticədində mümkün oldu.

İstifadə edilmiş ədəbiyyat

1. Буря на Кавказе под ред. Р.Н. Пухова. Москва. Центр анализа стратегий и технологий. 2021, с. 70.
2. https://www.cnbc.com/2018/01/23/trumps-solar-tariffs-could-slow-down-rapid-renewable-job-growth.html. Торговая война между США и Китаем.
3. Böyük şaxmat taxtası. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri. Z.K.Bjezinski. "Qanun" nəşriyatı 2011-ci il. Səhifə 73-74.
4. https://gyumri.mid.ru/ru/sootechestvenniki/102_aya_rossiyskaya_voennaya_baza/. Армяно-российские отношения.
5. 27 sentyabr 2020-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin "Qismən səfərbərlik haqqında" sərəncamı.
6. Azərbaycan Respublikası Müdafiə Nazirinin №0709 30 sentyabr 2020-ci il tarixli əmri.
7. KİV və internet şəbəkəsinə qismən məhdudiyyətin tətbiq edilməsi haqqında sərəncam.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ƏDƏBİYYATININ İNKİŞAFINDA ROLU

Leyla Ziyafət qızı Həsənova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
leylamuzi@gmail.com

Heydərğ Əlirza oğlu Əliyevin Azərbaycan ədəbiyyatına, onun inkişafına dair göstərdiyi qayğı və diqqət onun bütün hakimiyyəti boyu davam etmişdir. Hakimiyyətdə olduğu illər ərzində dahi lider hər zaman ziyalıların yanında olmuş, onlardan istər maddi, istərsə də mənəvi olaraq öz dəstəyini əsirgəməmişdir. Ədəbiyyata və onun nümayəndələrinə hər zaman dayaq olan ulu öndər özü də sözə və söz sənətinə yaxından bələd olmuş, sovet ideologiyasına xidmət etməyə məcbur edilən ədəbiyyatımızı bu qəlibdən çıxarmaq üçün əlindən gələni etmişdir. Ulu öndərin yazarlara, ədəbiyyat adamlarına diqqətinin sübutudur ki, o hələ sovetlər dönəmində yazıçıların V, VI, VII, IX qurultayında iştirak etmiş və dövrün yazıçılarına stimul verərək ədəbiyyatın inkişafına şərait yaratmışdır.

Hələ ilk dəfə 1969-cu ildə hakimiyyətə gələn Heydər Əliyev o dövrün çətin siyasi şəraitinə baxmayaraq, ədəbiyyatın inkişafı ilə bağlı bir çox diqqətəlaiq işlər görmüşdür. 1970-ci ildə Rəsul Rzanın 60 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, 1973-cü ildə Nigar Rəfibəylinin 60, Nəbi Xəzrinin 50 illik yubileyinin qeyd olunması Heydər Əliyevin bu sahədə atdığı mühüm addımlardan sadəcə bir neçəsidir. Həmçinin 1973-cü il 13 sentyabrda bəşəri klassikimiz İmadəddin Nəsiminin anadan olmasının 600 illik yubileyinin Bakı ilə yanaşı Moskvada da qeyd olunması bütün dünyanın diqqətini Azərbaycana sövq etmək demək idi. Nəticədə 1980-ci ildə Bakıda İ. Nəsiminin abidəsi qoyuldu. Ulu Öndərin bu istiqamətdə atdığı ən mühüm addımlardan biri də Nizami Gəncəvinin yubileyi ilə əlaqədar "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsi, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etməsi idi. Qərara müvafiq olaraq 1981-ci ildə böyük Azərbaycan şairinin 840, 1991-ci ildə isə 850 illiyi dövlət səviyyəsində keçirilir. Bundan başqa, Ümummilli Liderin birbaşa səyi nəticəsində 1974-cü ildə Hüseyn Cavidin, 1979-cu ildə Məhəmməd Hadinin, 1980-ci ildə Əliqulu Qəmküsarın, 1982-ci ildə Mirvarid Dilbazinin yubileyləri dövlət səviyyəsində qeyd olunur.

12 iyun 1981-ci ildə yazarların VII qurultayında Heydər Əliyevin Cənubi Azərbaycan ədəbiyyatı məsələlərinə toxunması da onun bu sahəyə olan yüksək diqqətinin göstəricisi idi.

90-cı illərdə ölkəmizin üzləşdiyi çətinliklərə, siyasi böhrana baxmayaraq, H.Əliyev yenə də ədəbiyyatı bir an belə diqqətdən kənarda qoymur, bu sahədə diqqətəlaiq işlər həyata keçirirdi. 1994-cü ildə satirik yazıçımız Cəlil Məmmədquluzadənin 125 illik yubileyinin keçirilməsi bunun bariz nümunəsidir. Eyni zamanda, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında misilsiz

xidmətləri olmuş şairlərimizin dövlət tərəfindən mükafatlandırılması da milli mütəqilliyə xidmət edirdi. İlk dəfə 1995-ci ildə Heydər Əliyev tərəfindən Bəxtiyar Vahabzadəyə təsis edilən "İstiqlal" ordeni, daha sonralar Məmməd Araz və Xəlil Rza Ulutürk kimi görkəmli şairlərimizə də verilmişdir.

Ulu Öndərimizin Azərbaycan ədəbiyyatının inkişafına dair gördüyü ən böyük işlərdən biri də 1997-2000-ci illərdə "Dədə-Qorqud" dastanının Bakı ilə yanaşı, Drezden və YUNESKO-da yubileyinin təşkil olunmasıdır. 2000-ci ildə "Kitabi-Dədə-Qorqud" eposunun 1300 illiyi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlər bu dastanın bütün dünyada Azərbaycan folklorunun nümunəsi kimi tanınmasında mühüm bir mərhələ oldu. Bir vaxtlar sovet hökuməti tərəfindən qadağan olunmuş dastana belə yüksək dəyərin verilməsi, əlbəttə, böyük liderin öz soykökünə, keçmişinə olan hörmətinin, bağlılığının nəticəsi idi.

Heydər Əliyevin ədəbiyyat adamlarına qarşı sevgisi birtərəfli olmamış, onlar da daim bu şəxsiyyətin fəaliyyətini müxtəlif janrlarda olan əsərlərlə işıqlandırmışlar. Hələ sovetlər zamanında, 1974-cü ildə Cənubi Azərbaycan şairi Bulud Qaraçorlu Səhəndin yazdığı "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" şeiri sonralar çoxları tərəfindən davam etdirilmişdir. Müstəqillik dövründə eyni mövzulu çoxlu lirik şeirlər yazılmaqla bərabər irihəcmli poemalar da qələmə alınmışdır. Bu əsərlərə nümunə olaraq Elxan Zal Qaraxanlının "Anıt məzar dastanı", Zəlimxan Yaqubun "Əbədiyyət dastanı", Sabir Mustafanın "Qayıdış", Ramiz Məmmədzadənin "Zirvə", Fikrət Qocanın "Gərək bu günləri görəydin özün", Fəridə Ləmanın "Onu zaman seçib", Rəfiq Zəka Xəndanın "Heydər baba", Elman Həbibin "Heydərnamə", Ramiz Duyğunun "Prezidentin ürəyi", Ramiz Heydərin "İlhamlı gələcək", Mirkazım Seyidovun "Heydər dühası" və s. göstərə bilərik. Eyni zamanda Heydər Əliyevin obrazı yaradılmış səhnə əsərlərinə Hidayətin "Burdan bir atlı keçdi" pyesini, Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı", Aqşin Babayevin "Xilaskar" tamaşalarını, İftixar Priyevin "Qurtuluş dastanı" dramını misal gətirə bilərik. Heydər Əliyevin həyat və fəaliyyəti yalnız bədii əsərlərdə deyil, tədqiqat əsərlərində də əksini tapmışdır. Bu əsərlərdən biri ilk nəşri 1998-ci ildə, ikinci nəşri 2009-cu ildə olmuş "Heydər Əliyev və Azərbaycan Ədəbiyyatı" kitabıdır. 2010-cu ildə AMEA Ədəbiyyat İnstitutu tərəfindən təqdim olunan bu kitab ədəbiyyat sahəsi üzrə Azərbaycan Respublikası Dövlət Mükafatına layiq görülmüşdür. Bunlardan əlavə, Tərlan Novruzovun "Heydər Əliyev və ədəbiyyat məsələləri" kitabları, eləcə də Elmira Axundovanın 2014-cü ildə çap olunmuş 6 cildlik "Heydər Əliyev: şəxsiyyət və zaman" publisist romanı da ulu öndərin ədəbiyyatla bağlılığı barədə qələmə alınıb.

Göründüyü kimi, Heydər Əliyev hər bir ədibə xüsusi qayğı göstərmiş, onların layiqli dəyərlərini almalarına şərait yaratmışdır.

Heydər Əliyevin Azərbaycan ədəbiyyatı və onun inkişafı ilə bağlı həyata keçirdiyi uğurlu siyasət bu gün də prezident İlham Əliyev tərəfindən laiqincə davam etdirilir. Ölkə başçısı tərəfindən Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə kifayət qədər qayğı, diqqət göstərilir.

İstifadə edilmiş ədəbiyyat

1. Tərlan Novruzov. Heydər Əliyev və klassik ədəbi irs. Bakı:Təfəkkür, 2004.
2. Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbi irsimiz. Bakı: Elm, 1988, s.124
3. Xatirə Quliyeva. Heydər Əliyev və mənəvi-estetik dəyərlər. Bakı:Azərnəşr, 2002. S.175

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİNDƏ SİYASİ NİTQİN İNKİŞAFI

Ayşən Nazim qızı Rzayeva
Bakı Biznes Universiteti
rn.ayshan@gmail.com

Azərbaycanın müasir tarixində əsrin üçdə birindən çoxu müdrik dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Adını Azərbaycan dövlətçiliyinin müasir tarixinə əbədi

yazdırmış bu görkəmli şəxsiyyətin, fenomen siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi onillikləri dirçəliş, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü adlandırmaq olar. Heydər Əliyevin siyasi-dövlət fəaliyyətinin ən mühüm nəticəsi onun bilavasitə rəhbərliyi ilə yaradılmış və xalqa bəxş etdiyi müstəqil Azərbaycan Respublikasıdır.

Hər bir xalqın milli istiqlaliyyətə nail olması və suveren dövlət qurması üçün üç ən mühüm şərt lazımdır - tarixi şans, milli ideya və liderin olması.

Sovet İttifaqının dağılması 20-ci əsrin sonlarında müstəqillik uğrunda mübarizəyə qalxan Azərbaycan xalqı üçün tarixi şans oldu. Ümummilli liderimiz Heydər Əliyevin səyləri və gərgin əməyi sayəsində yaranmış, gələcək siyasi, iqtisadi və mədəni müstəqillik üçün formalaşmış qüdrətli infrastrukturun olması, xalqda müstəqil dövlətçilik istəyinin oyanması milli azadlıq yolunda ikinci mühüm amil oldu.

Azərbaycan keçmiş SSRİ-nin tərkibində müstəqil dövlət kimi mövcud ola bilən azsaylı respublikalardan biri idi.

Azərbaycanın müstəqillik qazanmasının, demokratik dövlət quruculuğunun və möhkəmlənməsinin üçüncü mühüm şərti tarixi şəxsiyyətin - Ümummilli lider Heydər Əliyevin mövcudluğu idi. Vaxtilə görkəmli amerikalı politoloq Z.Bjezinski demişdi: "İndi Azərbaycana rəhbərlik edə biləcək bir adam var – Heydər Əliyev!". Bu, günümüzdə bütün dünya tərəfindən qəbul edilmiş bir həqiqətdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində səsləndirilən dəqiq fikir son on ildə müstəqil Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin genişmiqyaslı siyasi-dövlət fəaliyyətinin nəticələri ilə də dəfələrlə öz təsdiqini tapmışdır.

XX əsr Azərbaycanın tarixi inkişafının ən yüksək mərhələsidir. Ötən əsrdə Azərbaycanda üç müxtəlif ictimai-siyasi formasiya dəyişikliyi yaşanmışdır. Əsrin əvvəllərində (1917-ci ilə qədər) Azərbaycan kral mütləqiyyətinin hakimiyyəti altında idi. Rusiya avtokratiyasının devrilməsindən az qala dərhal sonra 23 ay (1918-ci il mayın 28-dən 1920-ci il aprelin 27-dək) mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Onun süqutundan sonra 1920-ci il aprelin 28-də Azərbaycan SSR yarandı. SSRİ-nin dağılması Azərbaycanda dövlət müstəqilliyinin bərpasına və 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının elan edilməsinə səbəb oldu.

Ölkəmizin həyatında XX əsrin son üç onilliyi əvvəlki dövrlərdən əsaslı şəkildə fərqlənir və Azərbaycan tarixində xüsusi yer tutur. Bu illər görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin adı ilə qırılmaz şəkildə bağlıdır. Onun şəxsiyyətinin və fəaliyyətinin formalaşması XX əsrin ikinci yarısında SSRİ-nin və Azərbaycanın ictimai-siyasi şəraitində yetişmiş, burada dünya şöhrətli peşəkar siyasətçi və dövlət başçısı kimi yetişmişdir. İşıqlı, mənalı ömür yolu keçən Heydər Əliyev böyük tarixi şəxsiyyət xüsusiyyətlərini özündə cəmləşdirən, yüksək insani-mənəvi keyfiyyətlərə malik mahir siyasi lider modeli oldu.

Heydər Əliyevin lider kimi fərqləndirici xüsusiyyəti ondan ibarət idi ki, o, iki müxtəlif siyasi sistemdə Azərbaycanın başında durmuş və hər iki sistemin tələbləri çərçivəsində Azərbaycanın yüksəlişi, xalqın mənəvi-mədəni inkişafı üçün hər şeyi etmişdir.

Heydər Əliyevin həyat salnaməsi, siyasi və dövlətçilik fəaliyyəti Azərbaycan milli dövlətçiliyinin inkişafı və möhkəmlənməsi tarixi, ölkə həyatında çətin bir dövrün parlaq səhifələridir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi həyatında tərəqqi ilə xarakterizə olunur. O, Azərbaycan tarixində SSRİ kimi fövqəldövlətin siyasi olimpinə yüksəlmiş, dünyanın ən tanınmış dövlət və siyasi xadimləri ilə bərabər layiqli yer tutduğunu konkret işlərlə sübut edən yeganə lider olmuşdur.

Heydər Əlirza oğlu Əliyevin şəxsiyyəti, həyat və fəaliyyəti müasir Azərbaycan tarixinin parlaq səhifələridir.

Əminliklə qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan Respublikasının, onun dövlət quruculuğunun, onun Əsas Qanununun - Konstitusiyasının işlənib hazırlanmasının əsas memarı məhz Heydər Əliyev olmuşdur. Məhz onun sayəsində ölkəmizdə hüquqi, dünyəvi və demokratik dövlət qurulub və hazırda uğurla inkişaf edir. Onun sosial-iqtisadi siyasəti bütün sahələrdə uğurla həyata keçirilir. Azərbaycan güclənir, haqlı olaraq dünya birliyində geniş tanınır.

Heydər Əliyev rəhbərliyinin nadir təcrübəsinin dərindən öyrənilməsi təkcə böyük elmi deyil, həm də praktiki əhəmiyyət kəsb edir. Bu böyük insan haqqında kitablar yazılıb, sənədlər topluları

tərtib edilib. Onların əksəriyyəti biblioqrafik, publisistik, populyar xarakter daşıyır və əsasən onun həyat və yaradıcılığının salnaməsini əks etdirir. Lakin Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik fəaliyyəti hələ də xüsusi elmi tədqiqat obyektinə çevrilməyib. Baxmayaraq ki, istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda onun zəngin və çoxşaxəli siyasi rəhbərlik və təşkilatçılıq təcrübəsinin tədqiqinə və ümumiləşdirilməsinə böyük ehtiyac var. Bu səbəblə, bu elmi-tədqiqat işinin başlıca məqsədi Heydər Əliyevin siyasi-nitqini və ümumilikdə siyasi-nitq mədəniyyəti anlayışını və ölkəmizin iqtisadi-siyasi-hərbi uğurlarında bu siyasi nitq mədəniyyətinin əhəmiyyətini müəyyənləşdirmək təşkil edir.

Azərbaycan Respublikasını müstəqilliyə qovuşduran Ulu öndər, böyük tarixi şəxsiyyət Heydər Əliyevin bir natiq kimi bütün dünyada tanınması heç də təəccüblü deyil. O, hər zaman dinləyicilərin diqqətini özündə saxlamağı çox gözəl bacaran istedadlı bir natiq, ziyalı bir şəxsiyyət idi. Onun səlis, axıcı, orfoepik cəhətdən də düzgün nitqi gələcək natiqlər üçün də ilham mənbəyi olmuşdur. Heydər Əliyevin çıxışlarını tədqiq edən dilçilər belə qənaətə gəlmişlər ki, bir natiq, xüsusilə də siyasi nitq zamanı səsin tembri, düzgün intonasiya, sözlərin düzgün tələffüzü, fikrin ifadəliliyi nitqə həyat bəxş edən, onu səlis, anlaşılan və daha məqbul edən bu xüsusiyyətlərə sahib olmalıdır. Natiq danışarkən sözləri elə seçməli, cümlədə elə istifadə etməlidir ki, az sözlə çox məna ifadə edə bilsin.

Dil hər nə qədər ictimai hadisə olsa da, nitq də bir o qədər fərdi hadisə hesab olunur və hər bir kəsin nitqi onun danışdığı dilə nə qədər bələd olduğunu, mənəviyyatını, elmini, bir sözlə danışanın kimliyini üzə çıxarır. Heydər Əliyevin nitqində də fərdi üslubun kifayət qədər qabarıq şəkildə özünü büruzə verməsi onun nitqini fərqləndirən bir başqa xüsusiyyətdir.

Ümummilli Liderimiz, xalqımızın ulu öndəri, görkəmli xadim Heydər Əliyev ölkəmizin ictimai-siyasi həyatında dövlət başçısı kimi fəaliyyətə 20-ci əsrin ikinci yarısından başlamışdır. Bu dahi rəhbərin 1969-cu ildən başlayaraq apardığı fəal və qətiyyətli siyasəti, keçdiyi həyat yolu Azərbaycanın sürətli inkişafını xeyli sürətləndirmiş, respublikamızı öz hüdudlarından kənara çıxarmış, ölkəmizin beynəlxalq miqyasda şöhrətini xeyli artırmışdır, xalqımızın firavan həyat sürməsi üçün gördüyü tədbirlərlə yaddaşlarda dərin iz buraxmışdır. Heydər Əliyev özünü bütün dünyada uzaqgörən dövlət başçısı, mahir siyasətçi və qətiyyətli diplomat kimi təsdiqləmiş, dünya liderləri sırasında ən qabağcıl sıralarda yer almışdır. Dahi liderimiz, ulu öndər Heydər Əliyevin adı tariximizə qızıl hərflərlə qeyd olunmuşdur. [4]

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasətinin əhəmiyyəti çox böyükdür. Heydər Əliyev Azərbaycan nitq mədəniyyətinin inkişaf etməsində, əsasən də siyasi nitqimizin formalaşmasında əvəz edilməz rolu olduğu üçün onun irsinin hər bir vətəndaş tərəfindən mənimsənilməsi Azərbaycan dilçiliyinin bu günü və sabahı qarşısında duran mühüm məsələlərdən biri idi. Nitq mədəniyyəti əsrlər boyu hər bir xalqın yaratmış olduğu və günümüzə gətirdiyi nitq mədəniyyəti mədəniyyətin ən mühüm tərkib hissəsidir. Ötən əsrin 90-cı illərindən başlayaraq Heydər Əliyevin Azərbaycan nitq mədəniyyətinin inkişafındakı fəaliyyətinin araşdırılmasına xüsusi diqqət yetirilir [3].

Heydər Əliyev hər zaman fərqli və geniş tamaşaçı kütləsi önündə çıxış edirdi. Belə tamaşaçı kütləsini mükəmməl intonasiya ilə ovsunlamaq ancaq güclü məntiqi ağıldan süzülmüş nitqə sahib olmaqla yanaşı, geniş ensiklopedik biliyə arxalanmağın nəticəsidir. Bir birindən fərqli sənət sahibləri və mütəxəssislər yığışdığı zallarda öz sənətlərinə dair qiymətli sözlər eşidir, Heydər Əliyevin heç yerdə qeyd olunmamış, heç kim tərəfindən təkrarlanmayan çıxışının şahidi olurlar. Belə çıxışları hər zaman yadda saxlamaq olur, çünki, aydınlıq Heydər Əliyevin nitqinə xas xüsusiyyətdir. Heydər Əliyevin danışığında güclü məntiq, düzgün bir ardıcıllıq və orjinallıq var idi. Heç bir qeydə baxmadan, fakt və əsaslı sübutlar gətirərək, şərhlər verərək danışırdı. Onun güclü yaddaşı var idi. O, mükəmməl intonasiyası, nitq sürəti, ədəb-ərkanı, jestləri və mimikaları ilə tamaşaçıya təsir edər, fikirlərini sadə dillə çatdırardı. Dinləyicilər Heydər Əliyevi Azərbaycan dilini hər xırdalıqlarına qədər dərindən bilən dilçi və alim kimi tanıyırdılar.

Ana dili hər bir millətin varlığını sübut edən təməl elementdir. Millətin dili və əlifbası onun bir xalq olaraq inkişaf etməsi üçün mühüm şərtlərdən biri hesab olunur. Millətin keçdiyi tarixi yol,

mədəni səviyyəsi hər şeydən əvvəl onun ana dilində öz əksini tapır. Ana dili də çətin tarixi-siyasi dövrlərdə millətin varlığını qoruyub saxlayan əsas vasitələrdən biri hesab olunur [4].

Ümummilli lider Heydər Əliyevin Respublikamızda siyasi nitqin inkişaf etməsində danılmaz rolu olmuşdur. O, nitqimizin formalaşmasında mətbuatın rolunu vurğulayaraq qeyd etdi ki, teleaparıcılar söz və ifadələrdən düzgün və yerində istifadə etməlidirlər ki, nitqimiz hər yaşda və fərqli intellektə sahib insanlar tərəfindən başa düşülən və cəlbedici olsun [2, s.23-26]. Ümummilli lider Heydər Əliyevin nitq qabiliyyəti onun dilimizi yaxşı bilməsi və bu dildən mənəvi həzz alması ilə müəyyən edilir. Heydər Əliyevin intonasiyası dərk olunan, öz axıcılığı və orijinallığı ilə bir nümunə, ictimai-siyasi həyatda təcrübəsi və bacarığı ilə bir məktəbdir.

Azərbaycan dili 30-cu, 40-cı, 50-ci, hətta 60-cı illərə qədər Azərbaycanda dominant dil olmayıb. Çünki həmin illərdə ana dilinin tərəqqisi və zənginləşməsi üçün hakimiyyət tərəfindən lazımi tədbirlər görülmürdü. Lakin bütün bunlara rəğmən, yazıçılarımız, şairlərimiz, ədəbiyyat xadimlərimiz, dilçilərimiz öz işlərini görürdülər. Azərbaycan dilinin milli və dövlət dili kimi inkişaf etməsində əvəzsiz rolu olan Heydər Əliyev dilimizə təkcə ümumi ünsiyyət vasitəsi kimi deyil, həm də qədim tarixə, zəngin mədəniyyətə, sosial-mədəni mövqeyə malik bir xalqın milli sərvəti kimi qəbul edir, ona sonsuz sevgi və hörmətlə yanaşırdı [1]. Zaman keçdikcə Azərbaycan dilinin müxtəlif illərdə rəsmi dövlət dili elan edilərək qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, onun dövlət dili statusunun uzun müddət qala bilmədiyinin şahidi olurduq. Lakin 1969-cu ildə görkəmli xadim Heydər Əliyev adı hakimiyyətə gəldikdən sonra ana dilimizin qoruyucusu kimi tarixə düşdü. Ötən əsrin 70-ci illərindən başlayaraq xalqımızın böyük oğlu, Ulu öndər Heydər Əliyevin Azərbaycan dilinin inkişafı üçün misilsiz xidmətləri olmuşdur. 1970-ci ildə Bakıda Azərbaycan Dövlət Universitetinin yaradılmasının 50 illik yubileyi qeyd olunanda Heydər Əliyev mövcud ənənələri qıraraq tamaşaçılara rus dilində deyil, öz ana dilimizdə müraciət etdi. Ulu öndərimiz belə mərd addımı ilə milli ziyalılarımızın böyük sevgisini və rəğbətini qazanmaqla yanaşı onlarda ruh yüksəkliyi yaratdı, belə deyək, bəzi insanlara qanadlarını açmağa imkan verdi. O dövrün bir çox liderləri ana dili məsələsini müzakirə etməkdən çəkinirdilər, bu problem ilə bağlı ciddi tədbirlər görməkdə aciz idilər. Amma millətimizin böyük rəhbəri, ulu öndərimiz Heydər Əliyev qətiyyətli mövqe nümayiş etdirərək dil məsələsində Vətəninə, xalqına və ana dilinə olan sədaqətini göstərməkdən çəkinməmişdi.

7 oktyabr 1977ci ildə SSRİ-nin yeni Konstitusiyasının qəbulundan dərhal sonra Heydər Əliyevin başçılığı ilə Konstitusiya Komissiyası Azərbaycan SSR-in yeni konstitusiyasının layihəsini təsis edərək ictimai müzakirəyə çıxardı. 1978-ci ildə görkəmli xadim Heydər Əliyevin şəxsi təşəbbüsü və sarsılmaz iradəsi ilə Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi istifadə olunması ilə bağlı ayrıca maddə qeyd olundu. Azərbaycan SSR Ali Sovetinin 1978-ci il aprelin 2-də keçirilmiş 9-cu iclasının VII sessiyasında Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ictimai müzakirəsinin nəticələri haqqında məqalənin dərci tövsiyə olunub. 73-cü maddənin növbəti redaksiyasında: "Azərbaycan Sovet Sosialist Respublikasının rəsmi dili Azərbaycan dilidir". 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasında ulu öndərimizin bu cəhdi öz əksini tapmışdır ki, ümummilli lider Heydər Əliyev yerinə yetirdiyi ən vacib tarixi öhdəliklərdən biridir. Azərbaycan dilinin ölkəmizin rəsmi dili olması ana dilimizin keçdiyi inkişaf yolunun qızıl səhifələrindəndir. Heydər Əliyev SSRİ Konstitusiyasından çıxış edərkən xüsusilə qeyd etmişdir ki, Konstitusiya həmvətən-lərimizə ana dilində təhsil almaq şansı verir. Həmin dövrdə belə qəliz problem qoymaq və məqsədinə çatmaq o qədər də asan deyildi.

Latın qrafikli Azərbaycan əlifbası 1991-ci ildə respublikamız müstəqilliyinin birinci ilində qəbul edilsə də, həyata keçirilməmişdir. Lakin № öndər Heydər Əliyevin "Azərbaycan əlifbasının yaradılması və Azərbaycan dili günü haqqında" sərəncamından sonra ana dilimizin qəbul edilməsi işinin daha keyfiyyətli şəkildə reallaşdırılması istiqamətində perspektivli addımlar atıldı. Ümummilli lider Heydər Əliyev Azərbaycan dilini azərbaycançılığın milli mənəvi dəyəri kimi yüksək qiymətləndirmiş, Respublikamızın öz müstəqilliyini əldə etməsinin Azərbaycan dilini əbədiləşdirdiyini, Azərbaycan dilimizin bu gün də yaşadığını və yaşayacağını qeyd etmişdir.

1995-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri kimi qəbul edilib. Həmin zaman Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən rəsmi dilin necə adlandırılması ilə əlaqədar fərqli fikirlər səslənmişdir. Bu fikirlərin bir çoxunda rəsmi dilimizin Azərbaycan dili adlandırılması fikri üstünlük təşkil edirdi. Sözügedən dövrdə dövlət dilinin adlandırılması ilə bağlı genişmiqyaslı ümumxalq müzakirələri ana dilimizin, Azərbaycan dilinin nüfuzunun daha da yüksəldilməsi baxımından səmərəli oldu. Bu hadisə müstəqil Cümhuriyyət üçün ana dilimizin nə demək olduğunu aydınlaşdırdı. Görkəmli xadim Heydər Əliyev tarixi keçmişlə bərabər, Azərbaycan dilinin cari vəziyyətini və problemlərini hər zaman göz önündə tutmuş, öz fəaliyyətini bu istiqamətə yönəltmişdir. Azərbaycan dilinin hal hazırkı inkişaf səviyyəsi ölkəmizin və millətimizin beynəlxalq aləmdə ən qədim millətlərdən biri olduğunu sübut edir. Azərbaycan xalqı uzun illər və əsrlər boyu çətin imtahanlarla, sınaqlarla qarşılaşmış, lakin mənəviyyatını, milliliyini, öz dilini itirməmişdir.

Bu gün gənclərimizin gələcəyin vətənpərvər şəxsiyyəti və qabağcıl liderləri kimi yetişməsində nitq mədəniyyətinə yiyələnməyin böyük əhəmiyyəti var. Yaxşı danışmağın yolu ana dilimizi çox yaxşı bilmək və geniş biliyə, mütaliəyə sahib olmaqdan keçir. Əsas odur ki, natiqlik sənətinə yiyələnməkdə israrlı olmaqdır, çünki yaxşı natiq olmaq uğurlu insan olmaq kimidir. Auditoriya qarşısında çıxış etməyə hazırlaşan insanlar müasir dinləyicilərin məlumatı mənimsəmək qabiliyyətinin yüksək olduğunu bilə-bilə öz nitqinin bəzi nüanslarını yadda saxlamalıdırlar. Natiqin nitqi qısa, yığcam, aydın, başa düşülən, elmi cəhətdən güclü, bir sözlə, mühazirələr, çıxışlar onun həyatın tələbindən irəli gələn səsinə səs verməlidir. Gənclərimiz natiqliyin bütün bu xüsusiyyətlərini Heydər Əliyevin nitq nümunələrindən öyrənə bilərlər.

Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyev ana dilimizin ictimai-siyasi və ideoloji məsələləri ilə məşğul olub, böyük tarixi işlər həyata keçirib. Öz siyasi, mədəni irsini gələcək nəsillərə miras qoyan ulu öndərin uğurlu siyasətini davamçısı İlham Əliyev bugün də davam etdirməkdədir. Bu siyasi nitq qabiliyyətinin nəticəsidir ki, 1992/93-cü illərdə I Qarabağ müharibəsinin qarşısı alınmış, müstəqil Azərbaycan dövlətinin əsası qoyulmuş, bugünkü uğurlu Azərbaycan dövlətinin təməli qoyulmuşdur. Həmin siyasətin uğurla davam etdirilməsi nəticəsində bugün Azərbaycan bir çox məsələlərdə Avropa ölkələri ilə ayaqlaşır, ermənilər tərəfindən işğal olunmuş torpaqlarımız 30 ildə hərtərəfli inkişaf etmiş dövlətimiz, ordumuz tərəfindən azad edilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev S. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. "Təbib", 2014
2. Hacızadə İ. Dilimiz haqqında dəyərli monoqrafiya. "Təhsil" jurnalı №7-8, s. 23-26.
3. https://science.gov.az/az/news/open/9832/
4. https://medeniyyet.az/page/news/51724/Heyder-Eliyev-ve-nitq-medeniyyeti.html/

THE EDUCATIONAL LEGACY OF HEYDAR ALIYEV: ADVANCEMENTS IN AZERBAIJANI SCIENCE AND LEARNING

Safiyya Gulamova
Baku Business University
safiyyaqulamova@gmail.com

In the contemporary analysis of the three-decade historical legacy of Mr. Heydar Aliyev, a towering figure in Azerbaijan's socio-economic and cultural development, we witness a profound and rapid transformation in the nation. Evaluating his contributions through the lens of national and state interests reveals an unparalleled dedication to steering Azerbaijan towards progress.

Azerbaijan's swift integration into the global community is attributed to its remarkable socio-economic advancement, scientific and technical capabilities, and significant contributions to world cultural heritage. The catalyst for these achievements was the visionary leadership of National Leader Heydar Aliyev.

The year 1969, marking Heydar Aliyev's assumption of power, is considered a pivotal moment in Azerbaijan's history, signaling the onset of a new era. This period is now acknowledged as a renaissance for Azerbaijani education, science, and culture [3].

Heydar Aliyev's tenure brought about a transformative phase, especially in the fields of education, science, and culture. The Republic of Azerbaijan, as well as other nations, recognized the strategic importance of education, acknowledging its pivotal role in society and its impact on the well-being of the majority of the population [1].

In the 1950s and 1960s, Azerbaijan was perceived as a backward agrarian republic, except for its notable presence in the oil industry. However, Heydar Aliyev's monumental efforts initiated comprehensive development in Azerbaijan. In those critical years, marred by historical injustices and the separation of Azerbaijanis from their national statehood, Heydar Aliyev emerged as a transformative leader, guiding the nation along the path of socio-economic and cultural advancement. His enduring impact on education, a cornerstone of national progress, science, culture, and overall development, remains immeasurable [4].

Examining the global historical experience, it is evident that leaders prioritizing science and education not only propel economic and cultural progress but also make substantial contributions to the broader realm of culture. Heydar Aliyev's exceptional commitment to the development of national education during his tenure, which commenced in 1969, is a hallmark of this visionary leadership.

Heydar Aliyev's contributions to education development in Azerbaijan unfolded in two primary directions:

1. Theoretical Guidance on National Upbringing and Education:

- Heydar Aliyev's visionary instructions laid the theoretical foundation for national upbringing and education.

- His insights provided a roadmap for the harmonious development of various educational fields.

2. Practical Works in National Education Construction:

- His tangible efforts were directed towards the actual construction and development of national education, fostering harmonious growth across diverse educational domains [3].

The Great Leader's emphasis on education's pivotal role in societal development is evident in his words: "How valuable this education system is can be seen from the fact that Azerbaijan has people with high education, knowledge, qualifications, and high science."

Heydar Aliyev recognized that an educated populace was essential for the economic development and effective governance of an independent Azerbaijan.

Addressing the youth directly, Heydar Aliyev conveyed a powerful message that education is the key to the nation's future. His vision encompassed multiple stages of Azerbaijan's education development over the past 30 years, including periods of growth, challenges, and the subsequent era of new educational construction in an independent Azerbaijan.

In the words of Heydar Aliyev, "Education is the future of the nation." This enduring sentiment underscores the profound impact of his leadership on shaping the educational landscape of Azerbaijan, ensuring a legacy that continues to guide the nation towards a prosperous and educated future [2].

Under Heydar Aliyev's leadership, significant educational reforms were initiated at various levels. In the 1970s, the transition to general secondary education in Azerbaijan became a reality, with the construction of 849 standardized secondary schools accommodating over 350,000 students. Heydar Aliyev's foresighted policy strengthened the educational and material infrastructure of secondary schools, providing them with technical and scientific-methodological tools [3].

The commitment to education continued with the provision of free textbooks to secondary school students since 1978. Additionally, during the 1970s and 1980s, five new universities were established, contributing to an increase in the number of individuals receiving higher education from 70,000 to 100,000.

However, the late 1980s and early 1990s marked a challenging period for Azerbaijan due to internal chaos and external aggression. Construction of schools ceased, education funding plummeted, and the education system faced significant challenges, including the destruction of numerous educational institutions during Armenia's military aggression [4].

Heydar Aliyev returned to power in 1993 and prioritized the revitalization of education. Over a brief period, he implemented 11 years of education, covering primary, general secondary, and full secondary education. A new draft law "On Education" was introduced for public discussion, and a State Commission, established by Heydar Aliyev in 1998, developed a comprehensive concept and strategy for building national education in independent Azerbaijan. This three-stage strategy, initiated in 1999, aimed at systematically improving the education sector.

The decision to provide general education schoolchildren with free textbooks was implemented under his leadership. Heydar Aliyev prioritized the fundamental goal of shaping the educational content in alignment with the principles of statehood in independent Azerbaijan. A central aspect of his vision involved the development of new textbooks for secondary schools, reflecting his unwavering commitment to the educational sector. Heydar Aliyev consistently showed keen interest in these initiatives, emphasizing the pivotal role of textbooks pertaining to the Azerbaijani language, literature, and history within the education system. The culmination of Heydar Aliyev's dedication to education was evident in the implementation of his decision titled "On the transition of general education schoolchildren to free use of textbooks." This marked a significant milestone, ensuring that students across general education schools had access to textbooks without financial constraints, thereby promoting a more inclusive and accessible educational environment in Azerbaijan.

Under Heydar Aliyev's leadership, Azerbaijan not only experienced rapid growth in industry and agriculture but also witnessed significant advancements in science, education, and culture. This transformative period laid the foundation for Azerbaijan's current standing as a key player in the global arena.

The educational system has undergone significant transformations, particularly in the secondary school system, where a curriculum program has been implemented to allow students to showcase their full potential, collaborate with peers, and deepen their knowledge through diverse sources of information. Additionally, the university system has embraced the Bologna system, requiring students to earn credits to progress in their courses. These changes aim to align the educational standards in the country with international norms, breaking down borders and providing opportunities for students to access renowned foreign universities. This has facilitated successful participation in exchange and scholarship programs, enabling students to become skilled professionals poised to contribute significantly to the nation's development [2].

The education strategy established by Heydar Aliyev continued under President Ilham Aliyev, with sustained development and progress in recent years. President Ilham Aliyev's attention and care have resulted in achievements, development programs, and measures to ensure a clear future for the national education system. These measures encompass content updates, new programs, textbooks, and teaching aids, as well as improvements in education management, infrastructure, and the integration of modern information and communication technologies. The commitment to quality education is evident through targeted programs and international collaborations, contributing to the overall socio-economic development strategy of the country.

References

1. Azernews. Amina Nazarli
2. Azərbaycan təhlükəsizlik Orqanlarının qısa tarixi. Cəlal Qasımov, Xəqani Bağırov. Bakı, 2008

3. https://tehsil.biz/news/en/61139/
4. https://republic.preslib.az/en_c7-2.html

AZƏRBAYCANDA YANACAQ-ENERJİ KOMPLEKSİNİN MÜASİR VƏZİYYƏTİ

Gülnarə Adil qızı Tağıyeva
Azərbaycan Dövlət Aqrar Universiteti
gulutagyeva@mail.ru

1969-cu ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra respublikanın sosial-iqtisadi həyatının mühüm sahələrindən biri olan yanacaq enerjisi sisteminin sürətli inkişafını təmin etmək məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, irimiqyaslı layihələr reallaşdırılmışdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanmışdır. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım olmuşdur. 1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində İran-Azərbaycan "Araz" SES adı altında gücü 22 MVt olan stansiyanın inşası, 1972-ci ildə "2 saylı Sumqayıt İstilik Enerji Mərkəzi"nin gücünün 220 MVt-ya çatdırılması, 1976-1977-ci illərdə Sərsəng su anbarı və gücü 50 MVt olan eyniadlı su elektrik stansiyasının istifadəyə verilməsi məhz ümummilli liderin Azərbaycana rəhbərliyi dövrünə təsadüf etmişdir. Bu illərdə həmçinin gücü 380 MVt olan Şəmkir Su Elektrik Stansiyası istismara buraxılmışdır. Ötən əsrin 80-ci illərində və elə bu gün də Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılan, gücü 2400 MVt olan 8 enerji blokundan ibarət "Azərbaycan" İES istismara buraxılmışdır [2].

Məhz Ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsası qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin səyi nəticəsində "Azərbaycan" İES-in inşası prosesinin ümumittifaq səviyyəsində aparılması tikinti prosesinə ən peşəkar mütəxəssislərin cəlb olunmasına, müasir texniki vasitələrdən istifadəyə şərait yaratmışdır.

Müstəqillik əldə etdikdən sonra da ölkə iqtisadiyyatını dirçəltmək üçün Yanacaq Enerji Kompleksində yenidənqurma işlərinin aparılması çox mühüm dövlət prioriteti olmuşdur. Buradakı inkişafa start isə 1994-cü il sentyabrın 20-də dünyanın altı ölkəsini təmsil edən iri şirkət arasında Xəzər dənizinin Azərbaycan sektorunda AÇG (Azəri, Günəşli, Çıraq) neft yataqlarının birgə istifadəsini nəzərdə tutan "Əsrin müqaviləsi" ilə verilmişdir. Azərbaycan "Əsrin müqaviləsi" də daxil olmaqla neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın 20-dən çox ölkəsinin 30-dan artıq şirkəti ilə pay bölgüsü üzrə saziş imzalamışdır. Dövlət müstəqilliyini bərpa etdikdən sonra respublikada 400 mln. tondan çox neft hasil olunmuş, əldə edilən gəlirlər rifah səviyyəsinin artırılmasına yönəldilmiş və bu əsasda da gələcək sosial-iqtisadi inkişaf üçün əsaslı stimullar yaranmışdır. BP şirkətinin icmalında 2019-cu ilin sonuna Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,8 trilyon kubmetr həcmində qiymətləndirilir. İcmala əsasən, 2018-ci ilin sonuna olan vəziyyətə görə, Azərbaycanın qaz ehtiyatları 2,1 trilyon kubmetr həcmində qiymətləndirilib. Beləliklə, il ərzində qaz ehtiyatları 0,7 trilyon kubmetr və ya 33,3 % artıb [1, s. 25].

Dünyanın dəniz akvatoriyalarında istismar olunan ən böyük qaz-kondensat yataqlarından olan, 1,2 trln. m^3 qaz və 240 mln. tondan artıq kondensat ehtiyatları ilə təşkil edən "Şahdəniz" yatağının istismara verilməsi Azərbaycan Respublikasının qaz ixracatçısı dövlətinə çevrilməsində həlledici rol oynamışdır. Hazırda Şahdəniz yatağında illik hasilat təxminən 7 mlrd. m^3-dir. İstismar olunduğu bütün müddət ərzində bu yataqdan 40 mlrd. m^3-ə kimi qaz və 12 mln. tona yaxın kondensat hasil edilmişdir. Hazırda onun Avropa bazarlarlarına nəqli üçün Transadriatik qaz (TAP) layihəsi üzərində iş aparılır. Bu layihənin tezliklə reallaşmasına son dövrlərdə Xəzərin Azərbaycan akvatoriyasında "Ümid" qaz-kondensat yatağının istismara verilməsi də təkan verəcəkdir.

Azərbaycanlı neftçilərinin aşkarladığı "Ümid" qaz-kondensat yatağında ARDNŞ investor olmaqla yanaşı, operator kimi də çıxış edir. Burada çıxarıla bilən karbohidrogen resursları 200-230 mlrd. m^3 qaz və 40-50 mln. ton kondensat həcmində təxmin olunur. "Ümid" yatağı ilə yanaşı, bu yatağın mümkün resurs həcmindən 2-2,2 dəfə yüksək (400 mlrd. m^3 qaz və 70-80 mln. ton kondensat) "Babək" yatağının da ölkə neftçiləri tərəfindən istismar olunacağı reallıqdır. Fransanın "Total" şirkətinin ARDNŞ-lə imzaladığı müqavilə isə Xəzər dənizində yerləşən "Abşeron" yatağında da iri qaz yatağının kəşf edilməsinə gətirib çıxarmışdır. Hesablamalara görə "Abşeron" yatağında 330-380 mlrd. m3 qaz və 40-50 mln. ton kondensat ehtiyatlarının mövcudluğu təxmin edilir. "Abşeron" yatağından iri həcmdə məhsul alınması isə təxminən 10-15 ildən sonra reallaşacaqdır. Digər tərəfdən Azəri-Günəşli-Çıraq yataqlarının 280-330 mlrd. m^3 ümumi qaz ehtiyatı olduğu təxmin olunur ki, bütün bu həcmlər də ölkənin bu yanacaq növünə tələbatını ən az 100 il qarşılaya biləcəkdir. Onu da qeyd etmək lazımdır ki, respublikanın daxili investisiyalarının da təxminən 80 %-i bu sahə ilə əlaqədardır ki, bütün bunların ölkənin təbii qaz potensialının gücləndirilməsində əhəmiyyəti böyükdür. Hazırda "Şahdəniz" yatağının geniş miqyasda işlənməsi davam etdirilir və bu yataqdan hasil edilən qaz daxili istehlaka yönəldilməklə yanaşı həm də Gürcüstan, Yunanıstan və əsas ixrac bazarımız Türkiyəyə ixrac olunur. Yatağın istismarının növbəti mərhələsində burada hasil olunan təbii qazın miqdarının 2 dəfə daha artacağı proqnozlaşdırılır. Bütün bunlarla yanaşı qeyd olunmalıdır ki, respublika 2018-ci ildə qədər "Şahdəniz-2" layihəsini reallaşdırmışdır. Respublikanın təbii qaz ixrac etdiyi ölkələrdən biri də Rusiyadır və ilbəil bu ölkəyə ixrac olunan təbii qazın miqdarı artır. Respublika digər bir qonşu ölkə İran ilə təbii qaz mübadiləsini həyata keçirir. Belə ki, 20 il müddətinə bu ölkə ilə ildə 0,4 mlrd. m3 həcmində təbii qaz mübadiləsini nəzərdə tutan müqavilə imzalanmışdır və müqaviləyə əsasən, respublikadan İrana ildə 0.4 mlrd. m3 təbii qaz ixrac olunur, hansı ki, təxminən eyni həcmdə təbii qaz da İran tərəfindən Naxçıvan Muxtar Respublikasına nəql olunur. "Əsrin müqaviləsi" imzalandıqdan sonra, 1995-ci ildən günümüzə kimi ölkə iqtisadiyyatına 100 mlrd. ABŞ dollarına yaxın sərmayə qoyulmuşdur. İndi Azərbaycanda təsdiq edilmiş karbohidrogen ehtiyatlarının həcmi 4,2-5 mlrd. ton, proqnoz ehtiyatları isə 10 mlrd. ton hesablanır. Bu reallıqların arxasında isə neft-qaz sektorunun, bütövlükdə YEK-in inkişafı dayanır ki, bu da iqtisadi artımın davamlılığına müsbət təsir göstərir. Ona görə də, xüsusi olaraq qeyd etməliyik ki, milli enerji strategiyası bütün iqtisadiyyatı, dövlət maliyyəsini, milli təhlükəsizliyi idarəetmə sistemidir. Bu isə onu göstərir ki, neft-qaz kompleksində aparılan islahatlar iqtisadi və dövlət idarəetməsi sahəsində aparılan islahatlarla üzvü əlaqəlidir. Milli iqtisadiyyatın, o cümlədən YEK-in inkişafı karbohidrogen ehtiyatların istehsalı ilə yanaşı, onun ixracından əldə olunan gəlirlərin düzgün istifadəsi və idarəsi ilə də eyni dərəcədə bağlıdır. Bu mənada beynəlxalq iqtisadi sistemə inteqrasiya ilə neft gəlirlərinin idarə edilməsi sahəsində iqtisadiyyatda ən yaxşı təcrübələrin tətbiqinə yol açıldı. Bu sahədə ARDNF-in rolu yüksək qiymətləndirilir. ARDNF-in təşkili (29 dekabr 1999-cu ildə Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis edilmiş, Fondunun əsasnaməsi isə ölkə prezidentinin 29 dekabr 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir) ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların məqsədyönlü və səmərəli şəkildə idarə edilməsi üçün əsaslı təminat quruldu. Respublikada Neft gəlirlərinin səmərəli istifadəsi və bu sahədə şəffaflığın təmin edilməsi məqsədilə Dövlət Neft Fondu yaradılmışdır. Neft Fondunun büdcəsi hər il təsdiq edilir və il ərzində Fondun gəlir və xərclərini müəyyən edir.

Azərbaycan Respublikasının "Büdcə Sistemi haqqında" Qanununa uyğun olaraq, Neft Fondunun xərcləri dövlət büdcəsinin tərkib hissəsidir və hər il dövlət büdcəsi ilə birlikdə ölkə parlamenti tərəfindən baxılaraq təsdiq edilir. Respublikada elektrik enerjisi istehsalının təxminən 85-90 %-i, yanacaq tələbatının isə 100 %-i bu sərvətlər hesabına təmin olunur. Digər tərəfdən Azərbaycan həm xam şəkildə, həm də hazır məhsul qismində enerji sərvətləri ixrac edir və bu həcmlər tədricən artır ki, bunun da əsasında yenə də neft-qaz resursları dayanır. Ölkə prezidentinin 2005-ci il 14 fevral tarixli sərəncamı ilə "2005-2015-ci illər üzrə Azərbaycan Respublikasının Yanacaq-Enerji Kompleksinin inkişafı üzrə Dövlət Proqramı" qəbul olunmuşdur. Onillik müddəti əhatə edən proqramın əsas məqsədi YEK-in inkişafı fonunda əhalinin və iqtisadiyyatın mövcud və artan elektrik enerjisinə, təbii qaza və s. enerjidaşıyıcılarına olan tələbatını ödəməkdir. Hesab edirik ki, YEK-in tam inkişaf istiqamətlərini ehtiva edən bu proqramda qarşıya qoyulmuş vəzifələrin

müəyyənləşdirilmiş müddətdə və səmərəli yerinə yetirilməsi kompleksdə başlanan islahatları daha geniş miqyaslı məcraya istiqamətlənməsini təmin edəcəkdir.

Azərbaycanda son dövrlərdə xam neft, təbii qaz, elektrik enerjisi hasilatı və enerji balansı aşağıdakı cədvəllərdə göstərilmişdir.

Cədvəl 1

2007-2022-ci illər üzrə enerji balansı, min NET

	2018	**2019**	**2020**	**2021**	**2022**
İstehsal	58133,4	61 724,7	60 458,3	66 202,0	66 451,8
İdxal	2 019,7	302,8	278,5	307,2	2 887,8
İxrac	- 44 235,5	-44 417,5	-43 479,0	-48 552,9	-49 771,7

Cədvəl 2

Xam neft (qaz kondensatı daxil olmaqla) hasilatı, min ton

İllər	**Xam neft hasilatı (qaz kondensatı daxil olmaqla)**
2015	41 628
əmtəəlik	41 570
2016	41 050
əmtəəlik	40 999
2017	38 688
əmtəəlik	38 636
2018	38 814
əmtəəlik	38 722
2019	37 501
əmtəəlik	37 452
2020	34 532
əmtəəlik	34 465
2021	34 580
əmtəəlik	34 513
2022	32 646
əmtəəlik	32 570

Cədvəl 3

Təbii qaz hasilatı, milyon kub m

	Təbii qaz - cəmi	**o cümlədən:**	
		səmt qazı	**təbii qaz**
2014	29 555	13 945	15 610
əmtəəlik	18 827	3 837	14 990
2015	29 175	13 663	15 512
əmtəəlik	19 236	4 341	14 895
2016	29 331	13 952	15 379
əmtəəlik	18 718	3 917	14 801
2017	28 596	13 905	14 691
əmtəəlik	18 186	4 112	14 074
2018	30 490	14 046	16 444
əmtəəlik	19 207	3 500	15 707

2019	35 610	13 578	22 032
əmtəəlik	24 514	3 241	21 273
2020	37 140	13 232	23 908
əmtəəlik	26 487	3 326	23 161
2021	43 867	14 912	28 955
əmtəəlik	32 578	4 332	28 246
2022	46 737	15 424	31 313
əmtəəlik	34 956	4 227	30 729

Cədvəl 4

Elektrik enerjisinin istehsalı, milyon kVt·saat

İllər	**Elektrik enerjisinin istehsalı**	**o cümlədən:**					
		yanacaqla işləyən ES və İES-lər	**SES-lər**	**müəssisələrin daxili ehtiyaclarının ödənilməsinə xidmət edən stansiyalar (yanacaqla işləyən)**	**külək elektrik stansiyaları**	**günəş elektrik stansiyaları**	**tullantıların yandırılmasından alınan elektrik enerjisi**
2018	25 229,2	21 242,9	1 768,0	1 934,1	82,7	39,3	162,2
2019	26 072,9	22 289,7	1 564,8	1 872,9	105,4	44,2	195,9
2020	25 839,1	22 471,3	1 069,5	1 954,6	96,1	47,0	200,6
2021	27 887,8	24 308,8	1 277,3	1 961,9	91,4	55,2	193,2
2022	29 039,8	25 137,4	1 595,7	1 957,2	83,3	60,9	205,3

Mənbə: https://www.stat.gov.az/

Respublikada enerji istehsalı sahəsində fəaliyyət göstərən müəssisələrin təxminən 85 %-i dövlətə aid olmaqla elektrik və istilik enerjisi istehsalı, əsasən, Mingəçevir, Bakı, Şirvan, Sumqayıt, Şəmkir və Naxçıvan bölgələrində həyata keçirilir. Bu bölgələrdən əlavə Gəncə, Şəki, Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Balakən, Qax, Göyçay və Şamaxı bölgələrində də az da olsa enerji istehsal olunur. 2015-ci ildən etibarən respublikada elektrik enerjisi istehsalı 18-22 mlrd. kvt/saat arasında dəyişmiş və ümumi enerji istehsalının təxminən 85-90 %-i, əsasən, qaz və nisbətən az miqdarda ağır mazutdan istifadə olunan istilik elektrik stansiyalarında istehsal edilmişdir. Bu enerjinin təxminən 90 %-i 13 sayda İES-lərdə, digər hissəsi isə 7 sayda SES-lərdə istehsal olunur. Respublikanın elektrik enerjisi sisteminə 2011-ci ildən etibarən 5 MVt gücündə alternativ enerji (Qobustan rayonu ərazisində yerləşən hibrid tipli günəş-külək elektrik stansiyası) sistemi də qoşulmuşdur. Son illərdə İES-də istilik enerjisi istehsalında əsasən, təbii qazdan istifadə olunur və bu məqsədlə ildə təqribən 5-5,5 mlrd. m3 təbii qaz istehlak olunur. Lakin bununla yanaşı İES-də az da olsa mazut və dizeldən də istifadə olunur. Ümumilikdə götürdükdə isə respublikada elektrik və istilik enerjisi istehsalı məqsədilə İES-lərdə təxminən 5 mln. ton şərti yanacaq sərf olunur ki, bunun da orta hesabla 99 %-ni təbii qaz təşkil edir. Son dövrdə ölkədə, həmçinin doqquzu istilik, ikisi su elektrik stansiyası olmaq üzrə 11 elektrik stansiyası tikilmiş və bu stansiyaların fəaliyyətə başlaması hesabına ölkənin enerji sisteminə əlavə 1500 meqavat elektrik enerjisi daxil edilmişdir[3].

Energetika − ətraf mühitə çoxamilli təsirlər göstərir − atmosferə qaz şəklində tullantılar, su hövzələrinə çirkli sular axıdılır, sudan böyük həcmdə istifadə olunur, landşaftda dəyişikliklər yaranır, neqativ geoloji proseslər inkişaf edir. Su-elektrik stansiyaları da təbiətə müəyyən qədər bərpa olunmayan ziyanlar vurur, belə ki, inşa olunan su anbarlarının altında xeyli torpaq sahələri, yaşayış məntəqələri, məhsuldar əkin sahələri, otlaqlar və meşə zonaları qalır. Çöl zonasında su

anbarlarının yaradılması torpaqların bataqlıqlaşması, torpaq fondunun itirilməsi, sahil yamaclarının dağılması və s. hadisələrli ilə nəticələnir.

Azərbaycanda elektrik enerjisinin istehsalında qənaətedici texnologiyaların tətbiqinə ehtiyac vardır. Azərbaycanda geniş miqyasda bərpa olunan enerji resursları var. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hədəfə görə, yaxın gələcəkdə ölkədə 250 kiçik SES-in tikiləcəkdir.

Su elektrik stansiyalarının tikintisi – sel sularının tənzimlənməsi, ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalı və yeni suvarma sistemlərinin yaradıl-ması kimi dövlət əhəmiyyətli məsələlərin həllində mühüm rol oynayır. Azərbaycan Respublikasında çaylar üzərində və su təsərrüfatı obyektlərində onlarla kiçik su elektrik stansiyaları yerləşdirmək olar ki, onların da istehsal etdiyi elektrik enerjisi ildə 3,2 mlrd kvts təşkil edə bilər. Yaxın perspektivdə 61 kiçik SES-in tikintisi məqsədəuyğun hesab edilir. Bu SES-lər kanallar üzərində, axını tənzimlənməmiş çaylarda və tikiləcək su anbarlarının yanında yerləşdirilə bilər. Naxçıvan Muxtar Respublikası enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, orta, kiçik, mikro su elektrik stansiyalarının orada tikilməsi daha məqsədəuyğundur.

İstifadə edilmiş ədəbiyyat

1. A.S.İsayev, M.C.Atakişiyev, R.Ə.Teymurova. Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı üzrə dövlət proqramından irəli gələn elmi-əməli fəaliyyət vəzifələri səh 25,Bakı-2011
2. http://www.anl.az/down/meqale/azerbaycan/2010/may/118224.htm
3. https://az.wikipedia.org/wiki
4. https://www.stat.gov.az/

HEYDƏR ƏLİYEV VƏ NEFT SEKTORUNUN İNKİŞAFI

Cahan Niftalı qızı Quliyeva
Azərbaycan Memarlıq və İnşaat Universiteti
cahan.quliyeva0901@mail.ru

Giriş

Heydər Əliyevin neft sektorunun inkişafındakı rolu çox aktualdır. Çünki Azərbaycan hələ də dünya enerji bazarında əhəmiyyətli rol oynayır. Ölkənin neft və qaz sənayesi, strateji layihələr və infrastruktur inkişafı ətrafında dəyişiklilər və yatırımlar müşahidə edilir. Heydər Əliyevin təşəbbüskarlığı bu sektorda inkişafı dəstəkləməyə olan bağlılığı və strateji siyasəti hələ də ölkənin enerji potensialını artırmağa və beynəlxalq əhəmiyyətini qorumağa kömək edir. Bu gün Azərbaycanın enerji sektorunda Heydər Əliyevin irsi və yaddaşı ilə əlaqədar bir çox inkişaflar və layihələr davam etməkdədir.

Heydər Əliyev Azərbaycanın tarixinə dövlət başçısı kimi yüksək siyasi və iqtisadi nailiyyətləri ilə daxil olmuşdur. Onun neft sektorunun inkişafındakı xidmətləri xüsusilə qeyd olunmalıdır. Əliyev 1993-cü ildə Azərbaycanın prezidenti seçildikdən sonra ölkənin enerji sektorunu, xüsusilə neft və qaz istehsalını canlandırmaq üçün strateji addımlar atmışdır. Ən mühüm hadisələrdən biri, 1994-cü ildə "Əsrin Müqaviləsi" kimi tanınan və Xəzər dənizindəki neft yataqlarının işlənməsi üçün beynəlxalq neft şirkətləri ilə imzalanan müqavilədir. Bu müqavilə, Azərbaycanın neft sektorunu xarici investisiyalarla genişləndirmək üçün mühüm bir addım olmuş və ölkənin iqtisadi inkişafına güclü təkan vermişdir.

Heydər Əliyev dövründə Azərbaycan neftinin beynəlxalq bazarlara çıxarılması üçün əsas infrastruktur layihələri həyata keçirilmişdir. Bunlar arasında Bakı-Tbilisi-Ceyhan neft boru kəməri xüsusilə önəmlidir. Bu kəmər Azərbaycan neftini Xəzər dənizindən Türkiyənin Ceyhan limanına daşıyaraq, dünya bazarlarına çıxışını təmin etmişdir. Heydər Əliyevin siyasəti Azərbaycanın neft və qaz sektorunda uzunmüddətli inkişafı üçün möhkəm əsas yaratmış və ölkənin iqtisadi müstəqilliyini

gücləndirmişdir. Bu strategiyalar həmçinin, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini yaxşılaşdırmış və ölkənin iqtisadi inkişafına mühüm töhfələr vermişdir.

Heydər Əliyevin neft sektorunda xarici iqtisadi əlaqələrin genişləndirilməsindəki rolu həqiqətən də tarixi önəmə malikdir. 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra o, ölkənin iqtisadi inkişafında strateji sektor kimi neft sənayesinə xüsusi diqqət ayırdı. Bu dövr Azərbaycan iqtisadiyyatı üçün çox çətin bir dövr idi və Heydər Əliyev ölkənin neft və qaz resurslarını dünya bazarına çıxararaq, xarici investisiya cəlb etməklə, iqtisadiyyatı canlandırmağa çalışırdı. Onun rəhbərliyi altında 1994-cü ildə "Əsrin Müqaviləsi" adlanan Azərbaycanın neft yataqlarının işlənməsi üçün bir sıra xarici neft şirkətləri ilə strateji əhəmiyyətli bir anlaşma imzalandı. Bu anlaşma Azərbaycanın xarici iqtisadi əlaqələrini genişləndirməkdə mühüm bir addım oldu və ölkənin neft sektoruna milyardlarla dollarlıq xarici investisiya cəlb etdi. Bu, həmçinin Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını gücləndirdi və neft sektorunun inkişafı vasitəsilə ümumi iqtisadi vəziyyətin yaxşılaşdırılmasına kömək etdi. Heydər Əliyev dövründə həyata keçirilən siyasətlər nəticəsində Azərbaycan, xüsusilə də onun neft sektoru, beynəlxalq iqtisadi münasibətlərdə mühüm bir oyunçu halına gəldi. Bu strateji sektorda xarici şirkətlərin iştirakı, texnoloji transferin təşviq edilməsi, iş yerlərinin yaradılması və ölkənin xarici ticarət əlaqələrinin gücləndirilməsi kimi bir çox müsbət nəticələrə yol açdı.[1]

Heydər Əliyevin siyasəti Azərbaycanın iqtisadi inkişafında mühüm bir dönüş nöqtəsi olmuşdur. 1993-cü ildə yenidən hakimiyyətə gəldikdə ölkə çətin iqtisadi vəziyyətlə, həmçinin Dağlıq Qarabağ münaqişəsinin getdikcə artan təsirləri ilə üzləşirdi. Əliyevin iqtisadi strategiyası bir neçə əsas istiqamətdə özünü göstərmişdir:

- Neft Sənayesinin İnkişafı: Əliyev Azərbaycanın iqtisadiyyatını gücləndirməyin əsas yolunu neft və qaz sənayesinin inkişafında görürdü. 1994-cü ildə "Əsrin Müqaviləsi" kimi tanınan və xarici investisiyaları cəlb etmək məqsədi daşıyan, Xəzər dənizindəki neft yataqlarının işlənməsi üçün bir sıra beynəlxalq neft şirkətləri ilə müqavilələr imzalandı. Bu Azərbaycanın neft istehsalını xeyli artıraraq ölkənin iqtisadi inkişafına güclü təkan verdi.

- İnfrastrukturun İnkişafı: Neft gəlirlərini istifadə edərək, Heydər Əliyev ölkənin infrastrukturunu, o cümlədən yolları, körpüləri və kommunikasiya xətlərini yaxşılaşdırmaq üçün əhəmiyyətli investisiyalar yönəltdi. Bu infrastruktur layihələri iqtisadi inkişafı daha da stimullaşdırdı və iş yerlərinin yaradılmasına kömək etdi.

- İqtisadi Diversifikasiya: Heydər Əliyev, həmçinin iqtisadiyyatı neftə olan asılılığı azaltmaq və digər sektorları inkişaf etdirmək istiqamətində addımlar atdı. Turizm, kənd təsərrüfatı və informasiya texnologiyaları kimi sahələrə diqqət artırıldı.

- Xarici İqtisadi Əlaqələrin Genişləndirilməsi: Əliyevin xarici siyasət strategiyası, ölkənin iqtisadi məqsədlərinə xidmət edəcək şəkildə, strateji tərəfdaşlarla münasibətləri gücləndirməyə yönəlmişdi. Bu münasibətlər Azərbaycanın xarici bazarlara çıxışını genişləndirdi və xarici investisiya axınını artırdı.

- Sosial Programlar: Neft gəlirlərinin bir hissəsi, həmçinin sosial proqramlara və xidmətlərə yönəldildi. Bu, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına və sosial sabitliyin qorunmasına kömək etdi. Heydər Əliyevin siyasəti, beləliklə, Azərbaycanın müasir tarixində iqtisadi inkişafda yeni bir dövrün başlanğıcını qoydu və ölkənin dünya iqtisadiyyatında yerini möhkəmləndirdi.

Heydər Əliyev Azərbaycanın Prezidenti olaraq, ölkənin və regionun enerji təhlükəsizliyinə mühüm töhfələr vermiş bir liderdir. Onun dövründə Azərbaycan enerji ehtiyatlarına əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsi yolu ilə, beynəlxalq arenada strateji əhəmiyyət qazanmışdır. Heydər Əliyevin enerji təhlükəsizliyinə töhfələrinin əsas yönümləri aid edilir:

- Xəzər Dənizinin Enerji Potensialının Açılması: Heydər Əliyev dövründə, Xəzər dənizi regionunun enerji resursları dünya bazarlarına çıxarılmaq üzrə ciddi addımlar atılmışdır. Bu, xüsusilə, "Əsrin müqaviləsi" adlanan və 1994-cü ildə imzalanan, Xəzər dənizindəki neft yataqlarının işlənməsini nəzərdə tutan beynəlxalq investisiya müqaviləsi ilə mümkün olmuşdur.

- Neft və Qaz Boru Kəmərlərinin İnşası: Heydər Əliyev dövründə, Azərbaycan neftinin və qazının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayan bir sıra boru kəmərləri layihələri həyata keçirilmişdir. Bunlar arasında Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri və Bakı-Tbilisi-

Erzurum (BTE) qaz boru kəməri kimi strateji layihələr yer alır. Bu kəmərlər, regiondan enerji daşımalarında tranzit ölkələrələ asılılığı azaltmaq və enerji təhlükəsizliyini gücləndirmək baxımından önəmlidir.

- Beynəlxalq Enerji Əməkdaşlığı: Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan enerji sahəsində bir sıra beynəlxalq əməkdaşlıq layihələrinə imza atmışdır. Bu əməkdaşlıqlar Azərbaycanın enerji resurslarının dünya bazarlarına inteqrasiyasını təmin etməklə yanaşı, ölkənin beynəlxalq münasibətlərdəki mövqeyini gücləndirmiştir.

- İqtisadi İnkişaf və Diversifikasiya: Enerji sektorunun inkişafı, Azərbaycan iqtisadiyyatının genişlənməsinə və müxtəlifləşməsinə zəmin yaratmışdır. Neft və qaz gəlirləri, ölkədə sosial və infrastruktur layihələrinin maliyyələşdirilməsində mühüm rol oynamış, iqtisadi inkişafın təməlini qoymuşdur. Heydər Əliyev enerji siyasəti və strateji layihələr vasitəsilə Azərbaycanın və geniş regionun enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr vermiş bir lider kimi tarixdə qalır. [2]

Neft gəlirlərinin strateji əhəmiyyəti, xüsusilə neftələ zəngin ölkələr üçün bir sıra mühüm faktorları əhatə edir. Bu gəlirlər həm iqtisadi, həm sosial, həm də siyasi baxımdan əhəmiyyətli rol oynayır. İqtisadi baxımdan neft gəlirləri bir ölkənin dövlət büdcəsinin əsas mənbəyi ola bilər, bu da onları infrastruktur layihələri, təhsil və sağlamlıq kimi ictimai xidmətlərin maliyyələşdirilməsində mühüm edir. Sosial baxımdan bu gəlirlər yaşayış səviyyəsinin yaxşılaşdırılmasına və yoxsulluğun azaldılmasına kömək edə bilər. Siyasi baxımdan isə neft gəlirləri ölkənin beynəlxalq münasibətlərdəki mövqeyini gücləndirə bilər, lakin həmçinin "neft lənəti" kimi tanınan riskləri də özündə birləşdirir, bu da həddindən artıq neftə asılılığın iqtisadi diversifikasiyanın qarşısını alması və siyasi qeyri-sabitliyə yol açması deməkdir. Bu gəlirlərin idarə edilməsi və istifadəsi, ölkənin uzunmüddətli iqtisadi inkişafı və sosial rifahı üçün kritik əhəmiyyət kəsb edir. Neft gəlirlərindən əldə edilən vəsaitin effektiv və şəffaf şəkildə istifadə edilməsi, habelə bu gəlirlərin gələcək nəsillər üçün də saxlanılması məqsədilə xərclərinin müəyyən bir hissəsinin qorunması, strateji planlaşdırmanın əsasını təşkil edir.

Azərbaycan iqtisadiyyatı üçün neft sektoru çox mühüm rol oynayır. Neft hasilatının artması və dünya bazarlarında neftin qiymətlərinin yüksəlməsi, Azərbaycan iqtisadiyyatına mühüm maliyyə gəlirləri əlavə edir. Bu ölkənin dövlət büdcəsinin artmasına, xarici ticarət balansının yaxşılaşmasına və milli valyutanın stabilləşməsinə kömək edir. Eyni zamanda, neft sektoru üzərindən əldə edilən gəlirlər infrastruktur layihələrinin, təhsil və sağlamlıq xidmətlərinin maliyyələşdirilməsində mühüm rol oynayır. Lakin bu gəlirlərin iqtisadi artıma təsiri müəyyən məhdudiyyətlərə də sahibdir. Neftə həddindən artıq asılılıq, digər sektorların inkişafını əngəlləyə bilər, belə ki, "Hollandiya xəstəliyi" kimi iqtisadi fenomenə yol aça bilər, burada milli valyutanın neft gəlirləri sayəsində güclənməsi, digər ixrac məhsullarının rəqabət qabiliyyətini azaldır. Bundan əlavə, dünya bazarlarında neft qiymətlərinin dalğalanması ölkənin iqtisadi sabitliyini təhdid edə bilər. Azərbaycan hökuməti bu məsələlərin şüurundadır və iqtisadiyyatını müxtəlifləşdirməyə çalışır, neft gəlirlərini gələcək nəsillər üçün də qoruyub saxlamaq məqsədilə Dövlət Neft Fondu kimi strukturlar vasitəsilə investisiyalar edir. İqtisadi artımın daha davamlı və inklüziv olması üçün, turizm, kənd təsərrüfatı, informasiya texnologiyaları və istehsal kimi digər sektorlara da yatırımın artırılması vacibdir.[3]

Azərbaycanın neft məhsullarının dünya bazarında tanınması, XIX əsrin sonlarından başlayaraq, ölkənin neft sənayesinin inkişafı ilə sıx əlaqədardır. Azərbaycan, xüsusilə Bakı və onun ətrafındakı bölgələr, dünya neft sənayesində əhəmiyyətli bir mərkəz olaraq tanınmışdır. İlk neft quyularının qazılması və dünyanın ilk neft quyusunun məhsuldar işləməsi bu ərazilərdə həyata keçirilmişdir. Bu Azərbaycanın neft sənayesinin və onun məhsullarının dünya bazarında tanınmasına zəmin yaratmışdır. XX əsrin əvvəllərində Nobel qardaşları və Rothschild ailəsi kimi maliyyəçilərin sərmayə qoyması ilə Azərbaycan nefti daha da geniş tanınmağa başladı. Onlar neftin çıxarılması, emalı və daşınması üzrə müasir texnologiyaları tətbiq etdilər, bu da Azərbaycan neftinin keyfiyyətini və ixrac potensialını artırdı. Sovet İttifaqı dövründə, Azərbaycan SSR-i neft və qaz sənayesinin inkişafında mühüm rol oynadı. Bu dövrdə əsasən daxili bazarlar üçün neft məhsulları istehsal edilsə də, bəzi məhsullar xarici bazarlara da ixrac edilirdi. Müstəqillikdən sonra, 1991-ci ildə Azərbaycan öz neft sənayesini modernizə etməyə və dünya bazarlarında mövqeyini gücləndirməyə başladı. 1994-cü ildə "Əsrin Müqaviləsi" adlanan və xarici neft şirkətləri ilə

imzalanan genişmiqyaslı investisiya müqaviləsi Azərbaycanın neft və qaz sənayesinin inkişafında yeni bir dövrün başlanğıcını qoydu. Bu müqavilə sayəsində xarici sərmayənin cəlb edilməsi, müasir texnologiyaların tətbiqi və beynəlxalq standartlara uyğun emal və ixrac infrastrukturunun qurulması mümkün oldu. Bugünkü gündə Azərbaycan, dünya neft və qaz bazarlarında önəmli bir oyunçu olaraq qalır. Ölkə, neft və qaz ixracından əldə etdiyi gəlirləri iqtisadi inkişafın və infrastruktur layihələrinin maliyyələşdirilməsində istifadə edir. BTC (Bakı-Tbilisi-Ceyhan) neft kəməri və TANAP (Trans-Anadolu Qaz Kəməri) kimi iri layihələr, Azərbaycanın enerji resurslarını dünya bazarlarına çatdırmaqda mühüm rol oynayır.

Azərbaycan, dünya neft bazarında strateji bir rol oynayan önəmli bir neft ixracatçısıdır. Ölkə, enerji təhlükəsizliyinin təmin edilməsi və müstəqil enerji siyasəti ilə diqqət çəkir. Azərbaycan, OPEC anlaşmasına daxil olaraq neft hasilatını müəyyən bir səviyyədə saxlayaraq, dünya neft bazarındakı qiymət istiqrarını dəstəkləyir. Bununla birlikdə, neft bazarındakı dünya bazarındakı dəyişikliklər, Azərbaycanın neft gəlirlərini və neft ixtisaslaşmasını təsir edə bilər. Hal-hazırda Azərbaycan nefti neft bazarında strateji mövqeyini qoruyur və dünya bazarında əhəmiyyətli bir rol oynayır. Azərbaycan, enerji resurslarının diversifikasiyasına və yeni bazarlara daxil olmağa çalışır. Bununla birlikdə, neftin qiymətləri dünya bazarındakı təhlükəli dəyişikliklərdən mənfi təsirə uğraya bilər.

Cənab İlham Əliyev, Ulu Öndər Heydər Əliyevin siyasətinin davamçısı olaraq, Azərbaycanın müasir tarixində mühüm rol oynayıb. Neft sektoru, ölkə iqtisadiyyatının əsasını təşkil etdiyindən, İlham Əliyevin hakimiyyəti dövründə bu sahəyə xüsusi diqqət yetirilib. İlham Əliyev dövründə, Azərbaycanın neft və qaz sənayesinin inkişafı, xüsusilə xarici investisiyaların cəlb edilməsi, böyük enerji layihələrinin həyata keçirilməsi, o cümlədən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Cənub Qaz Dəhlizi kimi strateji layihələrin reallaşdırılması ilə xarakterizə olunur. Bu layihələr, Azərbaycanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, ölkənin beynəlxalq enerji bazarlarındakı mövqeyini gücləndirib və iqtisadi inkişafına mühüm töhfələr verib. İlham Əliyevin rəhbərliyi altında, Azərbaycan enerji resurslarının ixrac marşrutlarını diversifikasiya etmək, eləcə də ölkə iqtisadiyyatını neft və qazdan asılılığını azaltmaq məqsədi ilə müxtəlif iqtisadi sahələrin inkişafına yatırım yönəltməklə, neftdən sonra dövrə hazırlıq görür. Ölkənin enerji strategiyası, həmçinin yenilənən enerji mənbələrinin inkişafına və ekoloji təmiz enerji istehsalına yönəlmişdir. Beləliklə, cənab İlham Əliyev, Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın qurulmasındakı və inkişafındakı xəttini uğurla davam etdirərək, ölkənin neft və qaz sektorunun inkişafına önəmli töhfələr vermişdir. [4]

İstifadə edilmiş ədəbiyyat

1. Axundov B.M. "Quyuların qazılması texnikası və texnologiyası". Bakı, Azərnəşr, 1999
2. İsayev A.S."Neft sənayesinin ümumi texniki-iqtisadi probleminin həll edilməsi nəzəriyyəsi və təcrübəsi". Bakı: Elm, 2006.
3. İsayev A.S. Neft sənayesinin ümumi texniki-iqtisadi probleminin ona olan təsirlər formalı həlli". Bakı: Azərnəşr, 2006
4. Vəzirov S.Ə. ,İsayev Ə.S. "Bakı neft sənayesi". Bakı: Elm, 1998

HEYDAR ALIYEV- CREATOR OF MODERN AZERBAIJANI STATEHOOD

Chinara Baghirova
Baku Business University
israfilova_9797@mail.ru

Heydar Aliyev is a great historical figure, gifted by fate to our people. He gave a powerful impetus to the process of historical development of Azerbaijan. It was Heydar Aliyev, as the creator of the independent Azerbaijani state, who created the ideological basis of our national statehood.

Thanks to the brilliant political talent of Heydar Aliyev, one of the outstanding personalities put forward by history, Azerbaijan, located at the junction of two centuries and two millennia, having preserved its national and spiritual values, confidently entered the third millennium. Having overcome all obstacles and despite any difficulties, the talent of Heydar Aliyev helped Azerbaijan survive extremely difficult times and take a worthy place both in the region and throughout the world.

Heydar Aliyev, having demonstrated that he serves the people, realized what many political figures could not and will not be able to achieve, thanks to his inherent ability to respond to the most pressing calls of the modern world, he forever took his rightful place among the famous political figures of the 20th century.

Heydar Aliyev, who is one of the unique statesmen nominated by our people, has always thought about the people and the Motherland throughout his life. His heart beat in the name of strengthening the independence of Azerbaijan and the happiness of his native people. As the head of state, Heydar Aliyev, in the most difficult moments for Azerbaijan, showed unprecedented dedication in the name of its salvation, and could save his country from troubles. Thanks to a number of his unique qualities Heydar Aliyev as a far-sighted personality could foresee the course of historical events, demonstrated a truly patriotic position when making decisions that were extremely important for national history, and knew how to take decisive actions. The decisiveness inherent in his personality was often clearly reflected in the thoughts expressed impromptu during speaking to a wide audience. The reports and speeches of Heydar Aliyev, which being built on "iron logic", had an extremely extraordinary power of influence, are a clear expression of the depth and breadth of his philosophical and political worldview.

A period of time covering more than 30 years of state building, economic revival, political consciousness, political life in modern Azerbaijan is associated with the name and practical activities of Heydar Aliyev, who had inexhaustible talent, encyclopedic knowledge, a broad worldview. These complex processes are reflected both in his practical activities and in his philosophical ideology. Heydar Aliyev was a great philosopher and thinker of his time. The philosophy of Azerbaijanism formed and developed by him; he determined the special place of Azerbaijan in the modern world, formed the basis of our national statehood, and created a solid basis for the solidarity of Azerbaijanis around the world. Thanks to his bright political mind and talent, Heydar Aliyev created a new Azerbaijan, its current realities and determined the paths leading to the future. That is why the period of Azerbaijan's history from 1969 to the present is closely connected with the name of Heydar Aliyev and entered our history as the era of Heydar Aliyev. The main content of this era from the point of view of further historical destiny of Azerbaijan is Azerbaijanism, the main idea of which consists of the following universal human values, such as independence, statehood, justice, democracy, national progress, secularism.

During the period when Heydar Aliyev was the first secretary of the Central Committee of the Communist Party of Azerbaijan, thanks to his organizational ability in the 1969-1982s, the issues of strategic importance for Azerbaijan were successfully implemented. As a result of the purposeful activities of Heydar Aliyev, Azerbaijan turned into one of the developed republics of the former USSR. New industrial enterprises, higher educational institutions, museums, theaters, libraries were established. In those years, 213 new industrial enterprises were put into operation in the country. 350 types of products produced in Azerbaijan were exported to 65 countries. In the noted 13 years, the volume of industrial products produced was equal to the volume of products produced over the previous 50 years. Agriculture laid the foundation for development processes that have no analogues.

The sowing of wheat, cotton, horticulture, as well as sheep and poultry farming was unreasonably reduced. As a result of the activity of the national leader Heydar Aliyev in 1981, for the first time in its history, the republic harvested 402 thousand tons of wheat, 1 million 151 thousand tons of cotton, 1 million 616 thousand tons of grapes, 644 thousand tons of vegetables, 41 thousand tons of melons, 26 thousand tons of green tea leaves, 125 thousand tons of livestock and

poultry meat, 340 thousand tons of milk, 224 million eggs and 12 thousand tons of wool [1, p.68-69].

"The people are always glorified by their intellectuals, their culture, their science," said the honorable Heydar Aliyev. It is no coincidence that one of the issues on the path of development of Azerbaijan, to which Heydar Aliyev paid special attention, was the development and worldwide recognition of literature, drama, art and the culture of Azerbaijan in general. Significant events of the Azerbaijani culture of that period were also important events such as the anniversaries of outstanding representatives of literature and art of Azerbaijan held outside the country, the anniversaries of such brilliant Azerbaijani poets and thinkers as Nizami Ganjavi and Nasimi, the 100th anniversary in 1974 Azerbaijani theater, granting the Azerbaijani language the status of a state language despite the resistance of many, the delivery of the remains of the late Hussein Javid to Baku, who became a victim of repressionand died in the Siberian wilderness. In general, Azerbaijani culture experienced a real period of its revival in the years 1969-1982.

During his reign in Soviet Azerbaijan, he paid attention to the development of all centers of education, from preschool education to higher educational institutions and took a new level of development compared to previous years. Consistent and targeted government policy played an exceptional role in improving education, general culture and intellectual level of Azerbaijani people.

Numerous educational buildings and dormitories for higher educational institutions were built. In general, 1970-1982 in Azerbaijan 5 new educational institutions were created, new specialties, departments, and laboratories were opened. If at the end of the 60s there were 12 higher schools in the republic, they had 105 faculties, 450 departments and they trained personnel in 139 specialties, then already in 1982 there were 17 higher educational institutions uniting 136 faculties and 530 departments [2, p. 13-14]. All these successes were achieved thanks to Heydar Aliyev.

One of the exceptional services of the outstanding personality Heydar Aliyev to Azerbaijani education is the creation of opportunities and conditions for over 15 thousand Azerbaijani youth to receive higher education outside the republic in more than 170 very reputable educational institutions in more than 50 large cities of the former USSR. The initiative and care of Heydar Aliyev allowed to train highly qualified specialists in 250 specialties covering more than 80 sectors of the national economy, science, education and culture, which the republic especially needed. It should be noted that until the 1970s, among those who received education outside of Azerbaijan, the number of Azerbaijanis was 40%; as a result of the far-sighted policy of national leader Heydar Aliyev, already in 1976 this figure rose to the level of 85%, in in 1977 up to 92%, and in the early 1980s year to 97.6% [2, p. 14]. These steps were strategic in nature. To put it more clearly, on the one hand, Azerbaijan satisfied its need for highly qualified specialists, on the other hand, the contours of the process of forming a potential Azerbaijani diaspora were visible. It is no coincidence that today in the CIS the majority of the social composition of the Azerbaijani diaspora is made up of precisely those people who, with the blessing of a great man, received a higher education, and they with dignity support the interests of our independent state in the countries they represent.

Naturally, Heydar Aliyev, possessing an innate talent and keen sense, predicted the prospect of the country's independence, and could not help but foresee what serious difficulties a sovereign state would face in the economic, socio-political and especially in the field of its security.

The enormous historical significance of all these majestic creative works carried out in the first period of Heydar Aliyev's leadership of Azerbaijan was that national pride, national self-awareness, feelings of freedom were awakened. In essence, this meant the entry of the Azerbaijani people into into a new stage - the stage of national upsurge. This is the merit of Heydar Aliyev in the history of the struggle for the independence of our people. After all these, there is no need to prove the dialectical connection between the first and second periods of Heydar Aliyev's activity as the leader of the country. The facts themselves prove everything much more clearly! The largest of these facts was that during the collapse of the world system of socialism and the great Soviet Empire, the Azerbaijan SSR, in terms of its level of development and diversified economy, was

already second among the union republics capable of living independently [3]. Today with full confidence we can say that the state sovereignty and economic independence of Azerbaijan, its systematically expanding foreign economic relations, gradual deep integration into the world economy are based on the national economic potential, the foundation of which was laid in the 1970-1985s by Heydar Aliyev. Thus, one of Heydar Aliyev's greatest services to his native people was that by the time the Constitutional Act on State Independence of the Azerbaijan Republic was adopted on October 18, 1991, Azerbaijan was ready to exist as an independent state.

With the return of Heydar Aliyev to the leadership of Azerbaijan in 1993, a turning point arose in the socio-political, social, economic, scientific and cultural life of the country, in international relations, in accordance with scientific foundations, international norms and principles, the process of construction and development of an independent states. Heydar Aliyev was a realistic politician. His political and managerial principles were far from romanticism and dreaminess. The decisions he made may have seemed unusual from the first point of view (for example, the ceasefire in 1994), but, in the end, taking into account all reality and correctness, they turned out to be optimal. Heydar Aliyev never made populist and fantastic promises to the people; on the contrary, he always outlined the results that could be achieved in the real and current situation.

He suspended the implementation of the erroneous decisions of the previous "leaders," which were made based on emotions, and not on the lessons of the historical past, without taking into account the real situation of the changing world, the realities of domestic life and the international situation.

Since 1993, as a result of far-sighted policies and tireless activities, since 1995, the country began its socio-economic development and achieved very great results in the field of integration of the world economy. A new model emerged economic reforms and development - Azerbaijani model. This model, based on long-term and dynamic development, can be characterized as three important factors: 1) the formation of an independent national economy based on free market relations and integral economic systems with a social direction capable of self-development; 2) active attraction to economic turnover of the natural-economic, technical-production and scientific-technical potential existing in the country; 3) rational provision of integration of the national economy into the global economic system [4, p.9].

It is thanks to the political will and competence of the national leader that the following large-scale concepts and programs were adopted and successfully implemented - "State Assistance Program for Small and Medium Enterprises in Azerbaijan" (1997-2000s), "State Program for the Development of Small Medium Enterprises in the Republic of Azerbaijan" (2002-2005), "State Program for the Development of the Mechanical Engineering Industry in the Republic of Azerbaijan" (2002-2005); "State Program for the Development of the Agrarian Sector in the Republic of Azerbaijan" (2002-2006); "The Concept of Demographic Development of the Republic of Azerbaijan"; "State Program for the development of tourism in 2002-2005 in the Republic of Azerbaijan" [5].

As a result of the right policy, Azerbaijan rose to the rank of a regional leader state independent of international financial institutions or political centers. The economy of our country accounts for 83% of the economy of the South Caucasus.

It is no coincidence that Azerbaijan's position in the rating tables of international organizations remains very high. In the report of the World Economic Forum, the economy of Azerbaijan in its ability to compete ranks 55th in the world, and in the CIS space it is presented as occupying first place. Our country occupies the first position in the use of information and communication technologies and training in the CIS space. According to UN reports on the Human Development Index, it was Azerbaijan that made the biggest leap.

At the same time, Azerbaijan has become a reliable partner in the region and in the world, has the image of a dynamically developing country, which allowed it to be elected to the non-permanent members of the UN Security Council at the end of last year, which once again confirms what has been said. The fact that 155 countries voted for Azerbaijan is a sign of the attitude of the world community towards our country, a manifestation of its development. This triumph achieved is a

triumph in the geopolitical reality of balanced, flexible and multi-vector Azerbaijani diplomacy, the founder of which was Heydar Aliyev.

References

1. Abdullayev A., Nasirov E. The phenomenon of Heydar Aliyev and the national revival of Azerbaijan./ "Khalg Gazeti", No. 100 (26739), May 11, 2011
2. http://files.preslib.az/projects/azerbaijan/rus/gl4.pdf
3. Musaev A., Economic model of Azerbaijan and the phenomenon of Heydar Aliyev // 5th book. Baku, "Shams", 2004, 428 p.
4. Mardanov M., Heydar Aliyev and education in Azerbaijan //. 5th book. Baku, "Shams", 2004, 428 p.
5. President (1993-2003). http://www.heydar-aliyev.org/index_ru.jsp

HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

Nazilə Rəhim qızı Rəhimova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
rnazile@inbox.ru

Hər bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, ulu öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi.

Məlumdur ki, Sovet rejimi xalqımızı öz dinindən və milli-mənəvi dəyərlərindən uzaq salmışdı. Danılmaz faktdır ki, xalqımız islamlaşdıqdan sonra Azərbaycan mədəniyyəti özünün bütün maddi və mənəvi nailiyyətləri ilə birlikdə ümumislam mədəniyyəti xəzinəsinə daxil olmuş, mədəniyyətimiz islami məzmun kəsb etmişdi. Adət və ənənələrimizi, bayram və mərasimlərimizi, hətta məişətimizi belə islamdan kənar təsəvvür etmək mümkün deyildir. Bütün həyatımız, hətta memarlıq abidələrimiz öz milliliyini saxlamaqla islami çalarlar da əxz etmişdi. Ona görə də sovet hakimiyyəti illərində islam dini ilə bağlı olan bu abidələr dağıdılır, məhv edilirdi. Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldikdən sonra bu halların qarşısı qətiyyətlə alındı. O maddi-mədəniyyət abidələrimizin dağıdılmasına qarşı çıxır, onların qorunub saxlanması üçün böyük işlər həyata keçirirdi.

Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında və onun zəngin mənəvi-mədəni irsinin dünya mədəni aləminə çatdırılmasında Heydər Əliyev çox böyük rol oynamışdır və bu fəaliyyət respublikanın gələcək mənəvi-siyasi həyatı üçün örnək və irsə münasibətdə siyasətin konsepsiyasının yaranması baxımından mühüm əhəmiyyətə malikdir.

Bununla belə o dövlət quruculuğunda, milli birliyin yaranmasında, etnik bütövlüyün qorunub saxlanmasında dinin böyük rol oynadığını nəzərə alaraq bu istiqamətdə fundamental fəaliyyət proqramını tədricən gerçəkləşdirməyə başladı

Həm dövlət başçısı, həm də vətənpərvər bir insan kimi Heydər Əliyevin milli mədəniyyətə, mənəvi irsə göstərdiyi hörmət, verdiyi dəyər onun toxunduğu hər bir sahədə özünü göstərmişdir. O, hətta siyasəti də böyük mədəniyyətlə, səriştə ilə aparmağın lazım olduğunu tövsiyə edirdi. Heydər Əliyev çıxışlarının birində deyirdi: "Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə

malik olan xalqdır" [5]. Bununla da o, zəngin mənəviyyata, qədim ənənələrə malik olmağımızı bir daha ifadə edirdi.

Dediklərinin yalnız sözdə qalmayıb, əməldə də gerçəkləşməsi, Azərbaycanın mənəvi irsini yaşatmaq üçün o, bir sıra tədbirlər həyata keçirмиш, əhəmiyyətli qərarlar imzalamışdır. Heydər Əliyev mədəni irsi yaşatmaqla bərabər, müasir mədəniyyətin inkişafına da xüsusi diqqət yetirib. Onun qayğısı bir çox sahələrdə müsbət nəticəsini vermişdir, yaxın tariximizdə bunu təsdiqləyən zəngin faktlar çoxdur. Şübhəsiz ki, Azərbaycan Respublikası dünya birliyinin üzvü kimi müasir proseslərdən təcrid oluna bilməz. Lakin biz milli-mənəvi dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmadan özünü müdafiə vasitəsinə çevirməliyik. Mədəniyyət sahəsində özünü tənzimləmə metodları tətbiq edilməli, prioritetlər aydınlaşdırılmalı və maliyyələşdirilməlidir. Yalnız birgə səmərəli fəaliyyət nəticəsində milli mədəniyyətin özünəməxsusluğunu, milli-mədəni dəyərləri qorumaq, mühafizə etmək mümkündür ki, bu məsələdə də adət və ənənələr , Azərbaycan bayramları müstəsna əhəmiyyətə malikdir.

Görkəmli siyasət və mədəniyyət xadimi olan Heydər Əliyev milli-mənəvi dəyərlərimizlə bağlı bəyanatlarla çıxış etmiş, qanunlar imzalamışdı. O, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi ruhda tərbiyələndirirməyin dövlətimiz, xalqımız qarşısında ən zəruri, həlli qaçılmaz vəzifələr olduğunu 13 avqust 2001-ci il tarixli bəyanatında da söyləmişdir: "Hər xalqın öz adət ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir". Həm nəzəri olaraq çıxış və bəyanatlarında, həm də əməli olaraq göstəriş və sərəncamlarında elm və təhsil sahəsində çalışan şəxslərə qayğı və diqqətlə yanaşması hər zaman Heydər Əliyevin dövlətçilik fəaliyyətinin əsas xüsusiyyətlərindən biri olmuşdur. Heydər Əliyev öz yenilməz iradəsi, qətiyyəti və zəngin idarəçilik təcrübəsi ilə müstəqil Azərbaycanda möhkəm daxili ictimai-siyasi sabitliyi təmin etdikdən sonra inkişaf etdirməyə başladığı ilk sahələrdən biri də elm, təhsil, mədəniyyət və incəsənət, o cümlədən teatr sahəsi olmuşdur. Belə ki, Ümummilli Liderimiz 1998-ci il avqustun 27-də "Azərbaycanda dünyəvi peşəkar teatrın yaradılmasının 125 illiyi haqqında", 1999-cu il iyunun 15-də "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı haqqında", 2000-ci il iyunun 13-də isə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" və s. bu kimi bir sıra fərmanlar imzalamışdır ki, bu fərmanlar milli elm və təhsil sisteminin, mədəniyyət və incəsənətin köhnə stereotiplərdən azad olmasında və müasir tələblərə uyğun inkişaf etməsində mühüm rol oynamışdır. ABŞ-nın sabiq prezidenti Corc Buş Heydər Əliyevlə görüşlərini xatırlayarkən deyirdi ki, Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur... [5])

Amerika Birləşmiş Ştatları ilə dostluq əlaqələrinin qurulmasında, Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Heydər Əliyevin ölkə daxilində və xaricdə dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı siyasət inkişaf etmiş ölkələrlə sıx əməkdaşlığın qarantı olmuşdur. Rusiya Federasiyasının prezidenti Vladimir Putin də onun haqqında çox yüksək fikirdə idi: "Mübaliğəsiz deyə bilərəm ki, o, siyasət nəhəngidir". Həqiqətən də Heydər Əliyev ensiklopedik təfəkkürlü, dərin erudisiyalı müdrik şəxsiyyət idi. Azərbaycanın milli mənəvi və əxlaqi dəyərlərinin ümumbəşəri ideyalarla zənginləşdirilməsində onun misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu tarixi keçmişinə, zəngin mənəvi dəyərlərinə, maddi-mənəvi irsinə, incəsənətinə qayğı ilə yanaşmışdır.

Heydər Əliyev Azərbaycan mədəniyyətinin hamisi olmuşdur. O, xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli mədəniyyətimizin hərtərəfli inkişafını, yüksəlişini daim izləmiş, ona ən ümdə vəzifəsi kimi baxmışdır. Heydər Əliyev deyirdi: "Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər". [5]

Müasir ədəbiyyatımızın, incəsənətimizin və mədəniyyətimizin bəşəri arenada öz nadir inciləri ilə dünyanı heyran qoyması, ölkəmizin şöhrətini qaldırması, xalqımızın qədim mədəniyyətə malik olması bu müdrik fikri təsdiq edir. Məlum olduğu kimi, XX əsrdə Azərbaycan mədəniyyətinin bütün sahələrinin sürətli inkişafı, geniş miqyasda təbliği və böyük nailiyyətləri bilavasitə Heydər Əliyevin müstəsna tarixi xidmətlərinin nəticəsi idi. Onun rəhbərlik etdiyi 70-80-ci illərdə, xüsusən sonrakı dövrdə mədəni və ədəbi irsimizə, təsviri sənətə, teatra qayğı xeyli dərəcədə artmışdı. Heydər Əliyevin bilavasitə himayədarlığı və gərgin səyləri nəticəsində Azərbaycan incəsənəti bütün dünya miqyasında tanınmışdır. Keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi dövrdə Heydər Əliyev yenə də Azərbaycan mədəniyyətinin qayğısına qalırdı. Onun sayəsində Azərbaycan mədəniyyəti ümumdünya mədəni məkanında tanınır, sevilirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə "Kitabi-Dədə Qorqud" eposunun, Füzuli, Nəsimi kimi korifey sənətkarların dünya miqyasında yubileylərinin keçirilməsi, Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərələrinin inşa edilməsi, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, şəhidlərin xatirə kompleksinin və digər monumental sənət əsərlərinin yaradılması, ədəbiyyat və mədəniyyət xadimlərimizin ev muzeylərinin açıllması, "Gülüstan" sarayı, Opera studiyası, Xoreoqrafiya məktəbi кimi memarlıq abidələri əlamətdar hadisələr idi. Bütün bunlar Azərbaycan xalqının milli mədəniyyətinin misli görünməmiş yüksəlişinin təzahürləri idi. Heydər Əliyev incəsənət xadimləri ilə görüşlərinin birində demişdir: "Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Mən bununla daim fəxr etmişəm". [5]

Qədim zamanlardan xalqımızın milli mənliyi, ən qiymətli və əvəzolunmaz sərvətlərindən biri də doğma dili olmuşdur. Azərbaycan dili qədim zamanlardan xalqımızın milli mənliyi, ən qiymətli və əvəzolunmaz sərvəti sayılıb.

Belə bir müdrik kəlam vardır: "Bir milləti məhv etmək istəyirsənsə onun dilini əlindən al". Məhz bu baxımdan sovet hakimiyyəti illərində əlifbamız dəfələrlə dəyişdirilmiş, ad və soyadlarımız ruslaşdırılmış, bizi öz kökümüzdən uzaqlaşdırmaq üçün digər tədbirlərə əl atılmışdı. Bir sıra görkəmli ziyalılar bunu görüb və duysalar da qorxudan səslərini çıxara bilmirdilər. Yeridilən siyasətə qarşı qismən də olsa etiraz edənlər isə təqib olunur, ciddi cəzalandırılırdılar. Ancaq ümummilli lider Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycanda hakimiyyətə gəldikdən sonra xalqımız üçün böyük faciə törədə biləcək bu cür halların qarşısı qətiyyətlə alındı.

Çox mürəkkəb və çətin şəraitdə Azərbaycanda rəhbərliyə başlayan, mövcud vəziyyəti düzgün qiymətləndirən ümummilli lider Heydər Əliyev dünyanın altıda bir hissəsini əhatə edən SSRİ kimi qüdrətli bir dövlətin əhalisi türk xalqlarından ibarət olan respublikalara, o cümlədən Azərbaycana qarşı yeritdiyi siyasətə qarşı açıq-aşkar çıxmaq təhlükəli olduğuna görə çox incə üsullardan istifadə edir və öz məqsədinə nail olurdu. Ulu Öndər bunu nəzərə alaraq sonralar bu haqda danışarkən demişdir ki, əgər onların əleyhinə çıxsaydım, həm bunun bir əhəmiyyəti olmayacaqdı, həm də Əliyev ölkədəki digər katiblər kimi məhv ediləcəkdi. Yavaş-yavaş mən də xalqımın, doğma millətimin milli hisslərini oyatmağa başladım. Məhz düşünülmüş və ağıllı surətdə həyata keçirilən bu siyasətin nəticəsində keçən yüzilliyin 70-80-ci illərində Azərbaycan əhalisi, xüsusilə ziyalıları içərsində vətənpərvərlik ruhu, özünüdərk xeyli gücləndi, milli ziyalılara geniş meydan verildi, onların təqib olunmasına son qoyuldu.

Ümummilli Liderin 1970-ci ildə ADU-nun (indiki BDU) yubiley yığıncağında doğma Azərbaycan dilində çıxış etməsi nəinki respublikamızda, bütün SSRİ-də böyük əks-səda doğurdu. Bundan sonra Azərbaycan dilinin inkişafı sahəsində bir sıra addımlar atıldı. Məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində 1978-ci ildə SSRİ rəhbərliyinin bütün təzyiq və maneələrinə baxmayaraq Azərbaycanın yeni qəbul edilmiş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu.

Azərbaycanda hakimiyyətinin ikinci dövründə (1993-2003-cü illər) Ulu öndər Heydər Əliyev Azərbaycan dilinin daha da inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirdi. Azərbaycan dilinin incəliklərinə dərindən bələd olan, bu dildə heç bir qeydə və ya kağıza baxmadan saatlarla geniş məzmunlu nitqlər söyləməyi bacaran Heydər Əliyev Azərbaycan dili ilə əlaqədar bir sıra fərman və sərəncamlar imzaladı. Onun dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi,

Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi barədə sərəncamları, milli-mənəvi dəyərlərimizə, milli əxlaqımıza zidd təzahürlərin aradan qaldırılması ilə bağlı 13 avqust 51 2001-ci il tarixli bəyanatı bu məsələlərə Heydər Əliyevin diqqət və qayğısının təzahürüdür. Azərbaycan xalqının böyük diqqət və marağına səbəb olan məşhur bəyanatında Ümummilli Liderimiz deyirdi: "Hər bir xalqın öz adətənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə... bu bizi narahat etməlidir."

Bu tarixi nailiyyətlərin, xalqımızın həyatında baş verən misilsiz yeniliklərin təşkilatçısı və himayədarı Heydər Əliyev idi. Köhnə libasını dəyişən, qədim milli mədəniyyətimizin kökləri üstündə çiçəklənən yeni Azərbaycan mədəniyyəti Heydər Əliyev dühasının bəhrəsi idi.

Milli-mənəvi dəyərlərimizi qorumaq, onlara hörmət və ehtiramla yanaşmaq, təbliğ etmək və gənc nəsli bu ruhda tərbiyə etmək hər bir Azərbaycan vətəndaşının borcu və vəzifəsidir. Bunu əsas götürərək, Heydər Əliyev qeyd edirdi ki, biz öz milli-mənəvi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.

Heydər Əliyevin irsi üzərində aparılan tədqiqatlar belə nəticəyə gəlməyə imkan verir ki, o, ədəbiyyatdan da, teatr və kino sənətindən də, musiqi və rəssamlıqdan da bəhs edəndə həmin sahələrə məhz dövlətçilik mənafeləri baxımından yanaşır.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev və mədəniyyət (müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar). 3 cilddə (birinci cild), 1969-1982, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008
2. Heydər Əliyev və mədəniyyət (müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar). 3 cilddə (ikinci cild), 1997-1998, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008
3. Heydər Əliyev və mədəniyyət (müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar). 3 cilddə (üçüncü cild), 1999-2003, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008
4. Fəxrəddin Səfərli. Heydər Əliyev irsi-Əbədiyaşar təlim. Naxçıvan 2014
5. Timuçin Əfəndiyev. "H. Əliyev və milli-mənəvi dəyərlərimiz" Monoqrafiya Bakı, 2011
6. Şahin Mustafayev. "Heydər Əliyev – Müasir Azərbaycanın qurucusu" http:/wwww.economy go.az. /index

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİ

Ülviyyə İnqilab qızı Quliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
sahibanasirova1963@mail.ru

Ulu Öndərin birinci dəfə 1969-1982-ci illəri əhatə edən quruculuq fəaliyyəti qədim dövlətçilik tariximizin ən böhranlı dövrlərindən hesab edilən 1990-cı illərin həlledici məqamında ikinci dəfə siyasi hakimiyyətə gəldiyi zaman yeni vüsət aldı. 1993-cü ilin iyun ayında xalqın istəyi və tələbi ilə Azərbaycan Respublikasında siyasi hakimiyyətə Heydər Əliyevin qayıdışı Azərbaycanın nicat günü, milli kimliyimizin yenidən dərki və xoşbəxt gələcəyin ilk təməlinin qoyulduğu müstəqillik tariximizdir.

Ulu Öndər Heydər Əliyev deyirdi ki, "Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, milli mənafelər əsasında qurulmalıdır". Bu məqsədlərə xidmət edən təhsil islahatları bilavasitə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilməyə başladı.

Ulu Öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla

yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun" [1] .

1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın tərəqqisi, elm, təhsil və mədəniyyətinin yüksəlməsi üçün çox məharətlə düşünülmüş strategiya və taktika seçməyə nail oldu.

Bu illər ərzində Azərbaycanda təhsilin inkişafı geniş vüsət almışdı. Məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə çıxaraq, Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində böyük rol oynadı.

1970-1980-ci illərdə Azərbaycanda yeni texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması həm də həmin sahələr üzrə ali və orta ixtisas təhsili müəssisələrinin, elmi tədqiqat institutlarının yaradılmasına imkan verirdi.

Heydər Əliyev ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra təhsil sahəsində ardıcıl, davamlı dövlət siyasəti müəyyən edildi. Onun qəbul etdiyi qərarlara, imzaladığı fərman və sərəncamlara uyğun olaraq təhsil sahəsində düşünülmüş, Avropa təhsil məkanına inteqrasiyanı və ölkənin iqtisadi inkişafını təmin edə biləcək mütəxəssis hazırlığı ilə bağlı köklü islahatlara başlanıldı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu ilin 15 iyununda "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nı təsdiq etdi. Üç mərhələdən ibarət olan bu islahat proqramı miqyasına, əhatə dairəsinə və müddətinə görə ən böyük Dövlət Proqram idi və təhsilin sisteminin XXI əsrin çağırışlarına, iqtisadi inkişafın davamlı və dayanıqlı olmasına, Avropa əmək bazarına çıxışın təmin edilməsinə yönəlmişdi. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Azərbaycanın təhsil sistemində keçmiş ənənələrdən, nailiyyətlərdən, böyük potensialdan istifadə edərək təhsil sistemini yeni tələblərə uyğunlaşdırmaq, islahatlar həyata keçirmək işi başlanmışdır və bunlar da öz müsbət nəticəsini verir". Bu islahat proqramı müstəqil dövlətin təhsil sisteminin XXI əsrin çağırışlarına uyğun yenidən qurulmasının təmin edilməsinə yönəlmişdi [2] .

Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 13 iyun 2000-ci ildə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı [3] .

Fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Yeni Minilliyin milli təhsil sisteminin yaradılmasına yönəlmişdi. Hesab edirik ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə-1993-2003-cü illərdə, həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan təhsilinin davamlı inkişafının dayanıqlı bünövrəsi yaradıldı.

Ulu Öndər 2002-ci il oktyabrın 4-də "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncam imzaladı. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında"sərəncamı ümumtəhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsində və müasirləşdirilməsində əhəmiyyətli rol oynadı.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar da təhsilin inkişafında böyük əhəmiyyətə malik idi. Tarixi, siyasi və milli əhəmiyyət kəsb edən latın qrafikasına keçidin təmin edilməsi həm müstəqilliyin möhkəmlənməsi, həm də türkdilli dövlətlərin gələcək birliyi istiqamətində həyata keçirilmiş uğurlu layihələrdən biri oldu.

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə üçün Prezident təqaüdünün təsis edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin "Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli fərmanı da Ulu Öndərin gənclərin ali təhsil almalarına böyük dəstəyinin bariz təzahürü idi. Prezident təqaüdü gənclər arasında yüksək bilik, bacarıq, sərişt ələr və yüksək əxlaqi dəyərlər qazanmaq uğrunda yarışa çevrildi. Bu, xalqa, müstəqil dövlətə sədaqətlə xidmət edəcək yaradıcı şəxsiyyətin formalaşdırılmasına verilən böyük töhfələrdən biri idi.

Ümummilli Lider Heydər Əliyevin 29 avqust 1997-ci ildə Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin biq qrupu və onların valideynləri ilə görüşdə demişdi: "Biz 1970-ci ildən başlayaraq Azərbaycandan gənclərin keçmiş Sovetlər İttifaqının ən böyük universitetlərinə, ali məktəblərinə oxumağa göndərilməsinə nail olduq. Onların sayı hər il artırıldı. Mənim xatirimdədir, 70-ci illərin sonunda ildə 800-900 nəfər və 80-ci illərin əvvəlində ildə 1000-1400 nəfərə qədər gənclərimiz respublikamızdan kənardakı ali məktəblərə göndərildi. Bunun böyük əhəmiyyəti var idi. İndi biz bunun müsbət nəticələrini görürük."

Ulu öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır".

Heydər Əliyev Azərbaycan təhsilinin məqsəd və vəzifələrini müəyyən etməklə yanaşı, həm də müəllimlərin özlərinin vətənpərvər, dövlətə və millətə sadiq olmalarını xüsusi vurğulayır: "Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".

Müstəqillik əldə edildikdən sonra inkişaf etmiş ölkələrə azərbaycanlı gənclərin təhsil almağa göndərilməsi dövlətin mühüm vəzifələrindən birinə çevrildi.

Müstəqil Azərbaycan dövlətində Ulu öndər Heydər Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət nəticəsində milli təhsil sisteminin yenidən qurulması layihəsini gerçəkləşdirmək mümkün oldu. Yeni təhsil sisteminin yaradılması, yeni dərsliklərin və proqramların hazırlanması çətin olsa da, müstəqil yeni nəsli formalaşdırmaq, torpaqlarını erməni işğalından azad etmək, demokratik, hüquqi dövlət qurmaq istəyən Azərbaycan üçün xüsusi əhəmiyyətə malik idi.

Milli təhsil sistemi üçün Azərbaycan əlifbasının qəbulu və Azərbaycan dilinin inkişaf etdirilməsi olduqca əhəmiyyətli hadisə idi.

Ulu Öndər ümumi təhsilin qarşısında duran vəzifələri müəyyən edərkən bir məsələyə xüsusi diqqət ayrılmasını mühüm hesab edirdi. Onun fikrincə, uşaqlar tədris edilən fənlərin hamısını yaxşı mənimsəməlidirlər, bilikli olmalıdırlar, ancaq hamısından daha çox "Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər".

Ana dilinin şəxsiyyətin yaradıcı təfəkkürünün inkişafında oynadığı rolu Heydər Əliyev belə ifadə edirdi: "Ancaq bir var ki, Azərbaycan dilində oxuyursan, bir də var ki, dilinin incəliklərini bilirsən, Azərbaycan dilində yüksək səviyyəli söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq edə bilirsən. Bu, hələ bizdə çox çatışmayan bir sahədir".

Ulu Öndər Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanı ilə avqustun 1-i Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi müəyyən edildi. Prezidentin 30 sentyabr 2002-ci il tarixli Fərmanı ilə "Azərbaycan

Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edildi. Latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkədə 2001-ci ilin avqustunda bütövlükdə təmin edilməsi, yeni əlifbadan istifadə müstəqil Azərbaycanın ictimai-siyasi həyatında əlamətdar hadisə, Ümummilli lider Heydər Əliyevin uğurlu siyasətinin təntənəsi idi [4].

İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi ötən əsrin 70-ci illərindən etibarən diqqət mərkəzində olmuş, bu vacib iş sahəsinin mühüm prioritetlərdən biri kimi irəli sürülərək reallaşdırılması istiqamətində ciddi addımlar atılmışdır.

"Azərbaycanda elmin, təhsilin, mədəniyyətin və incəsənətin inkişafında, milli-mənəvi dəyərlərin dünya miqyasında tanınmasında Heydər Əliyev Fondunun xüsusi əməyi var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına daim diqqət və qayğı ilə yanaşaraq bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirir. Ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı, "Təhsilə dəstək" kimi dövlət maraqları baxımından xüsusi əhəmiyyət daşıyan bir sıra layihələri fond uğurla gerçəkləşdirir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yeni dövrün yeni təhsil sisteminin, o cümlədən yeni ali təhsil sisteminin yaradılması məqsədi ilə insan kapitalının yaradılması konsepsiyasını irəli sürdü. Təhsilin inkişaf etdirilməsi ilə bağlı yeni dövlət proqramlarını təsdiq edildi. Azərbaycanda ali təhsilin inkişafını təmin etmək, Avropa təhsil və əmək məkanına sərbəst çıxış əldə edə biləcək mütəxəssis hazırlığını təmin etmək məqsədilə ölkəmizin Bolonya prosesinə qoşulması ilə bağlı qərar qəbul edildi və Azərbaycan 2005-ci ildə Bolonya prosesinə qoşuldu. Bununla da faktiki olaraq, ali təhsildə aparılacaq islahatların istiqaməti müəyyən edildi.

Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edildi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları nəticəsində "maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi" siyasəti Azərbaycanın davamlı inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi gerçəkləşdirilir. Prezidentin təhsilə olan xüsusi diqqəti, qarşıya qoyulan vəzifələrin ardıcıl surətdə həlli, təhsil sahəsində genişmiqyaslı dövlət proqramlarının təsdiqi və icrası, həyata keçirilmiş islahatlar keyfiyyətli təhsilin maddi-texniki bazasını və kadr potensialını möhkəmləndirmişdir.

Azərbaycanda təhsil sahəsində islahatlar davamlı xarakter daşıyır və dövlətin təhsil strategiyası ən müasir təhsil müəssisələrinin yaradılmasını, vətəndaşların keyfiyyətli təhsil almalarını təmin edir.

Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2022-ci il tarixli sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edildi. Hal-hazırda yüzlərlə gənc dövlət hesabına dünyanın ən qabaqcıl universitetlərində təhsil alır.

Bu gün milli təhsilimiz əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən Azərbaycanın təhsil strategiyası uğurla davam etdirilir və müstəqilliyimizi, iqtisadi yüksəlişi təmin edir.

İstifadə edilmiş dəbiyyat

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Bakı, 2007.

2. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"//https://e-qanun.az/framework/5363

3."Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanı // https://e-qanun.az/framework/767

4. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında // https://e-qanun.az/framework/2811

"BÖYÜK İPƏK YOLU"NUN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Ləman Adil qızı Həziyeva
Azərbaycan Dillər Universiteti
leman222@bk.ru

Müstəqil Azərbaycanda əsası ümummilli Heydər Əliyev tərəfindən qoyulmuş və elmi əsaslara söykənən iqtisadi siyasət, həyata keçirilən sistem səciyyəli islahatlar, vacib struktur dəyişiklikləri respublikada davamlı inkişafı şərtləndirən əsas amillərdəndir. Bundan başqa, ölkənin iqtisadi inkişafında xarici iqtisadi əlaqələrin müntəzəm olaraq genişlənməsi, beynəlxalq iqtisadi və maliyyə təşkilatları ilə əməkdaşlıq və transmilli layihələrdə iştirak da əhəmiyyətli rol oynayır.

Müstəqilliyin ilk illərində respublikanın iqtisadi göstəricilərində kifayət qədər geriləmələr baş vermişdir. 1991-1993-cü illərdə Ümumi Daxili Məhsulun və sənaye istehsalının həcmi 2 dəfə, kənd təsərrüfatı məhsullarının ümumi istehsalı 40 %, əsaslı vəsait qoyuluşu 3 dəfə, yük dövriyyəsi isə, 4 dəfə azalmışdı.

İqtisadi geriliyi aradan qaldırmaq üçün ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında respublikada həyata keçirilən tədbirlər tez bir zamanda öz müsbət nəticələrini verməyə başladı. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" həm Azərbaycanın neft sənayesinin inkişafında yeni mərhələnin əsasını qoydu, həm bu sahə ilə bağlı olan sənaye sahələrinin inkişafına təkan verdi, həm də, respublikanın maliyyə imkanlarını genişləndirməklə, ümumilikdə davamlı iqtisadi tərəqqinin əldə olunmasına şərait yaratdı.

Azərbaycanda həyata keçirilən sistematik dəyişikliklərin nəticəsi olaraq, keçən əsrin 90-cı illərinin ortalarında respublikada iqtisadi geriləmə dayandırılmış və inkişaf meylləri müşahidə olunmağa başlamışdı, bu da, iqtisadiyyatda struktur dəyişikliklərin aparılmasına imkan vermişdi. Bu sahədə xüsusi əhəmiyyət kəsb edən addımlardan biri, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 1995-ci il sentyabrın 29-da təsdiq olunmuş "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" idi. Xüsusi mülkiyyətə və sərbəst rəqabətə əsaslanan bazar iqtisadiyyatının yaradılması, xalq təsərrüfatının bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması, istifadə olunmamış ehtiyatların, daxili və xarici investisiyaların iqtisadi prosesə cəlb edilməsi və son nəticə olaraq, əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması bu proqramın əsas məqsədi idi.

Hər bir ölkədə həyata keçirilən siyasətin, rəsmi və qeyri-rəsmi orqanların fəaliyyətinin son nəticəsi, bir tərəfdən, dövlətin müstəqilliyinin, suverenliyinin, təhlükəsizliyinin təmin olunmasına, digər tərəfdən isə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət etməlidir. Bu məqamlar Azərbaycan Respublikası üçün də səciyyəvidir.

"Böyük İpək Yolu"nun bərpası sahəsində Azərbaycanda görülən tədbirlər, həyata keçirilən layihələr həyatın müxtəlif sahələrində olduğu kimi, sosial həyatın inkişafına da müsbət təsir göstərən amillər sırasındadır.

Azərbaycan Respublikasının yeni sosial siyasəti əhalinin sosial rifahının davamlı olaraq yaxşılaşdırılması, gəirlərinin artırılması, işsizliyin səviyyəsinin minimuma endirilməsi, yoxsulluğun aradan qaldırılması, maddi təminatı aşağı səviyyədə olan insanlara yardım göstərilməsi, sosial sferaya aid olan sahələrin və sosial infrastrukturun inkişafı və s. əhatə edir.

Ölkə iqtisadiyyatında inkişaf tendensiyası 2003-cü ildə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra da davam etmişdir. Məsələn, 2000-ci il ilə müqayisədə 2006-cı ildə Ümumi Daxili Məhsulun həcmi 2,4 dəfə artmışdır.

İlham Əliyevin rəhbərliyi altında respublikada strateji əhəmiyyətə malik bir sıra layihələr həyata keçirilmiş və bu proses bu gün də davam etməkdədir. Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2013, 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları regionların iqtisadi potensialından səmərəli istifadə olunması, regional infrastrukturun yenidən qurulması, qeyri-neft sektorunun inkişafı baxımından böyük əhəmiyyətə malik layihələrdir.

2012-ci il dekabrın 29-da Prezident İlham Əliyevin fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında respublikada yüksək rəqabət qabiliyyətli, ixrac

yönümlü iqtisadiyyat yaratmağın prioritet istiqamətləri müəyyənləşdirilmişdir. "Neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ticarət və xidmət fəaliyyəti növlərinin genişləndirilməsi və inkişaf etdirilməsi, xarici ticarətin və investisiyaların strukturunun təkmilləşdirilməsi" inkişafın əsas prioritetləri sırasına daxil edilmişdir [1].

Məlumdur ki, neft-qaz sənayesi Azərbaycan iqtisadiyyatının aparıcı sahəsidir. Müstəqillik illərində bu sahənin inkişaf etdirilməsi və nəticədə, maliyyə gəlirlərinin sürətlə artması iqtisadiyyatın digər sahələrinin, qeyri-neft sektorunun, büdcə daxilolmalarının da müsbət istiqamətdə inkişafı üçün şərait yaratmışdır. 2014-cü ildən başlayaraq, dünyada neft qiymətlərinin sürətlə aşağı düşməsi neft hasil edən ölkələri, o cümlədən Azərbaycanı müəyyən problemlərlə üz-üzə qoymuşdur. Əvvəlki illərdə mövcud olmuş maliyyə imkanlarından çıxış edərək, hazırlanmış proqram və layihələrin həyata keçirilməsi yolunda proqnozlaşdırılmamış çətinliklər meydana gəldi. Bu da, respublikada həyata keçirilən iqtisadi siyasətdə müəyyən dəyişikliklər etmək zərurətini ortaya çıxardı və iqtisadiyyatın ağırlıq mərkəzi qeyri-neft sektoruna yönəldildi.

2016-cı il dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi" və "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair strateji yol xəritəsi" yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi, ticarət və logistika siyasətinin strateji parametrlərini, 2020-ci ilədək strateji, 2025-ci ilədək uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəfləri müəyyən etmişdir.

Ümumilikdə, Azərbaycanda həyata keçirilən kompleks tədbirlər müsbət iqtisadi dinamikanın əldə olunması və makroiqtisadi göstəricilərin yüksəlməsi ilə nəticələnmişdir.

"Böyük İpək Yolu"nun bərpası prosesində həyata keçirilən layihələrdə iştirak Azərbaycanın istər daxili iqtisadi potensialının, istərsə də, xarici ticari-iqtisadi əlaqələrinin inkişafı üçün əlavə imkanlar yaratmışdır. "Azərbaycan təkcə tranzit ölkəsi deyil, həm də öz ərazisindən keçən əmtəələr üzərində əlavə dəyər yaratmaq potensialına malikdir". Respublikanın nəqliyyat-kommunikasiya sisteminin, neft-qaz sənayesinin, maliyyə bazarının inkişafında, ticarət əlaqələrinin genişlənməsində "Böyük İpək Yolu" layihəsinin müsbət təsiri daha çox olmuşdur.

Qeyd olunan layihə, hər şeydən əvvəl, beynəlxalq ticarətin inkişafını nəzərdə tutduğu üçün mövcud nəqliyyat sistemlərinin təkmilləşdirilməsi və yenilərinin yaradılması zəruri bir tələbat kimi meydana gəlmişdir. Bu sahədə Azərbaycanda da diqqəti cəlb edən kifayət qədər iş görülmüşdür. Respublikada nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi məsələsi "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında da yer almışdır. Qeyd olunan sahədə əldə olunan uğurları daha da inkişaf etdirmək üçün yerli və beynəlxalq daşımaların idarə olunması mexanizminin təkmilləşdirilməsi, ölkənin nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasının genişləndirilməsi, nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, sərnişindaşımada gediş haqqının ödənilməsində müasir texnologiyaların tətbiq edilməsi nəzərdə tutulmuşdur.

"Azərbaycanın rəqabət qabiliyyətinin artırılması məqsədi ilə ölkə ərazisində Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində daşıma xərclərinin azaldılması, idxal, ixrac əməliyyatları və tranzit daşımaları üçün sərf edilən vaxtın qısaldılması və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi üçün tədbirlər görüləcəkdir" [2]. Qeyd etmək lazımdır ki, konsepsiyada müəyyənləşdirilmiş tədbirlərin əhəmiyyətli hissəsi, artıq, həyata keçirilmiş və kifayət qədər müsbət nəticələr əldə olunmuşdur.

XXI əsrin ikinci onilliyinin başlanğıcında Azərbaycanda ixracatda adambaşına düşən hissə 3 min dollar təşkil edirdi və bunun da cəmi 150 dolları qeyri-neft sektoruna aid idi. 2025-2030-cu illərdə bunun 12-15 min dollara çatacağı gözlənilir.

"Böyük İpək Yolu"nun bərpası prosesində Azərbaycanda nəqliyyatın ayrı-ayrı növlərinin inkişafı sahəsində müxtəlif layihələr reallaşdırılmışdır. Bu layihələrin bir qismi Avropa İttifaqının TRACECA proqramı çərçivəsində həyata keçirilmişdir. Avropa İttifaqının təkcə dəmir yollarının yenidən qurulması ilə bağlı olaraq reallaşdırdığı və Azərbaycana birbaşa aidiyyəti olan 4 investisiya

layihəsinin ("Qafqaz dəmir yollarının bərpası", "Bakıda dəmir yolu çənlərinin yuyulması", "Azərbaycan, Gurcustan və Ermənistan dəmir yolları ucun kommunikasiya və siqnalizasiyanın təkmilləşdirilməsi ilə əlaqədar optik kabel xəttinin alınması" və "Azərbaycan dəmir yolu üçün çənlərin alınması" layihələri) büdcə dəyəri 22 milyon avro təşkil etmişdir [1].

Ümummilli lider Heydər Əliyevin neft strategiyasının parlaq nəticəsi olan "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan neft sənayesinə investisiya qoyuluşu artmış, bu sahənin texniki cəhətdən modernləşdirilməsi, onun infrastrukturunun yenilənməsi həyata keçirilmişdir. Bu da son nəticədə, hasilat işinin yüksələn dinamika ilə inkişafını təmin etmişdir.

Beləliklə, Azərbaycanda həyata keçirilən iqtisadi siyasət, bu istiqamətdə reallaşdırılan layihələr, strateji səciyyəli proqramlar, bazar münasibətlərini genişləndirmək məqsədilə atılan addımlar respublika iqtisadiyyatının davamlı inkişafı ilə nəticələnmişdir. İqtisadi inkişaf özünü həm ümumi daxili məhsulun artmasında, həm istehsalın və ticarətin genişlənməsində, həm də infrastrukturun modernləşdirilməsində göstərir. Müsbət iqtisadi nəticələrin əldə olunmasına "Böyük İpək Yolu"nun bərpası layihəsi ilə əlaqədar olaraq Azərbaycanda yerinə yetirilən işlər böyük təsir göstərmişdir. Bu layihə çərçivəsində dəmir yolu, avtomobil və dəniz nəqliyyatı şəbəkəsinin yenidən qurulması, nəqliyyat infrastrukturunun inkişafı və s. sahələrdə əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycandan Qara və Aralıq dənizlərinə uzanan neft və qaz ixrac kəmərlərinin istifadəyə verilməsi respublikada neft-qaz hasilatı səviyyəsinin yüksəlməsinə təkan vermişdir. Bu da, Azərbaycanın maliyyə gəlirlərinin artması, bu gəlirlərin kapitallaşması və iqtisadiyyatın digər sahələrində maliyyələşmənin genişləndirilməsi üçün imkanlar yaratmışdır. Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, "TRACECA proqramı çərçivəsində "Böyük İpək Yolu" nəqliyyat layihəsində iştirak etmək Azərbaycanın bölgələrində lazımi infrastrukturun yaradılmasını stimullaşdırır. Regional layihələrə sərmayələr cəlb edilməsi məqsədi ilə proqramlar hazırlanması da dövlətin regional siyasətinin əsas istiqamətlərinin təcəssümüdür.

İstifadə edilmiş ədəbiyyat

1. https://www.bbc.com/azeri/azerbaijan-55666386
2.https://www.iqtisadiislahat.org/news/regional_neqliyyat_kommunikasiya_sisteminin_yeni_qovsagi_naxcivan_mr-1070

HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCANIN MEMARIDIR

[1,2]**Lalə Vasif qızı Qafarova,** [1,3]**Lidiya Andreyevna Safronova**
[1]Azərbaycan Dövlət İqtisadiyyat Universiteti
[2]liloqafarov@gmail.com
[3]liasaf1997@gmail.com

"Müstəqil Azərbaycanın böyük gələcəyi var. Mən bu gələcəyə inanıram. Mən bu gələcəyin ümüdü ilə yaşayıram."

(Heydər Əliyev)

Dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycanın 5 min illik tarixi var. Bu müddət ərzində Azərbaycan çox keşməkeşli yollardan keçib. Bu gün müasir Azərbaycan firavan, sülh içində yaşayan və dünyada özünü təsdiq edən və seçilən bir dövlətdir. Bunun ən böyük qurucusu isə Ulu öndər Heydər Əliyevdir. Azərbaycan xalqı çox xoşbəxtdir ki, bu gün Heydər Əliyevin təşəbbüsü sayəsində yenilənən, müasirləşən Azərbaycanı İlham Əliyev daha da gücləndirir.

Heydər Əliyev respublika rəhbərliyinə 1969-cu ildə iyulun 14-də gəlmişdir. Ulu Öndərin gəlişi Azərbaycanın taleyi qarşısında duran bir çox məsələləri həll etmişdir

1970- 1980-ci illərdə Heydər Əliyev Azərbaycan iqtisadiyyatını gücləndirmək üçün bir sıra geniş miqyaslı tədbirlər həyata keçirmişdir. Azərbaycanda yeni sənaye müəssisələri, o dövr üçün müasir texnologiyalara əsaslanan istehsal sahələri yaratmışdır. Bu təşəbbüslər nəticəsində Azərbaycanı aqrar respublikadan sənaye yönümlü respublikaya çevirmişdir.

Ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycan üçün keçirdiyi islahatlar XX əsrin sonunda onun müstəqilliyinə yenidən qovuşması üçün vacib addımlar oldu.

Azərbaycan 1991ci il oktyabrın 18-də müstəqilliyinə qovuşdu. Buna baxmayaraq, Azərbaycana qarşı Ermənistanın təcavüzü genişləndi, ölkədə hakimiyyət uğrunda daxili çəkişmələr baş verdi, iqtisadiyyat çökdü və nəticədə ölkə xeyli zəiflədi. Həmin dövrdə hakimmiytə olan Xalq Cəbhəsi-Müsavat iqtidarı Azərbaycanı parçalamaq həddinə gətirib çıxartdı.

Xalqın tələbi ilə 1993-cü ildə Heydər Əliyev hakimmiyyətə qayıtdı. Beləliklə Azərbaycanda vəziyyət dəyişməyə başladı. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

1993-cü il oktyabırın 3-də Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Onun başlıca məqsədi Azərbaycanın müstəqilliyini, təhlükəsizliyini və ərazi bütövlüyü təmin etmək, dövlət iqtisadiyyatını bərpa etmək, dövlətin beynəlxalq əlaqələrin qurmaq, və dünyada tanıtmaq idi. Ulu Öndər 10 illik hakimiyyəti dövründə məqsədinə çatmaq üçün çoxlu sayda islahatlar həyata keçirib. Heydər Əliyev Azərbaycanın təbii ehtiyyatlarını, onun əlverişli coğrafiyasını, strateji üstünlüklərini ölkəninn milli mənafeyi üçün düzgün şəkildə istifadə etmişdir. Buna misal olaraq Azərbaycan iqtisadiyyatını gücləndirən ona milyardlarla dollarlar qazandıran 1994-cü il sentyabırında imzalanan "Əsrin müqaviləsi" adlanan irimiqyaslı neft sazişidir. Heydər Əliyev Azərbaycanın strateji əhəmiyyətini gücləndirmək məqsədi ilə Bakı-Tiblisi-Ceyhan neft kəməri, Bakı-Tiblisi-Ərzurum qaz kəməri layihələrini həyata keçirdib.

Heydər Əliyev Azərbaycan Silahlı Qüvələrinin Ali Baş Komandanı olmuşdur. Bunun nəticəsidir ki, bu gün də Azərbaycan Silahlı Qüvələri istənilən döyüş tapşırığının öhtəsindən məharətlə gəlir. Heydər Əliyev hakimiyyətdə olduğu illərdə ordu quruculuğu üçün müxtəlif islahatlar həyata keçirdib. İndi Azərbaycan ordusu vahid komandanlıq prinsipi ilə idarə olunan, yüksək döyüş və mənəvi gücə malik olan ordudur.

Müasir Azərbaycanın ən önəmli gücü təhsilli və vətənpərvər gənclərdir. Heydər Əliyev ilk hakimiyyətdə olduğu dövrdən gənclərin təhsilinə xüsusi qayğı göstərmişdir. Ulu Öndərin göstərişi ilə hər il yüzlərlə gənc SSRİ-nin qabaqcıl ali təhsil müəssələrinə təhsil almağa göndərilirdi.

Heydər Əliyev Azərbaycanı dünyada tanıtmaq üçün onun elm və mədəniyyətinə xüsusi diqqət ayırmışdır. Mədəniyyət və elm xadimlərini müxtəlif fəxri adlarla mükafatlandırırdı. Azərbaycanın milli ruhlu, dünyada tanınan şairlərinə, yazıçılarına, heykəltəraşlarına, memarlarına, elm və incəsənətin müxtəlif sahələrində fəalliyət göstərən bu kimi görkəmli şəxsiyyətlərin xatirəsinə ölkənin müxtəlif bölgələrində heykəllər ucaldılmışdır.

Ulu Öndər hakimiyyətdə olduğu dövrlərdə Azərbaycanın xarici siyasətinə də xüsusi önəm vermişdir. Nəticədə ölkəmiz dünyanın aparıcı dövlətləri ilə bərabərhüquqlu əlaqələr yaratmışdır. Ölkəmiz qlobal dünya siyasətinə qoşulur, dünya birliyinə inteqrasiya olunub. Heydər Əliyev hayikimiyyətdə olduğu illərdə dünyanın bir çox ölkələri ilə ABŞ, Fransa, Rusiya, Böyük Britaniya, Almaniya, Polşa, Yaponiya, Ruminiya, Çin Xalq Respublikası, Türkiyə, İran, Pakistan kimi dünyanın aprıcı ölkələri ilə əlaqə yaratmışdır. Bunun nəticəsində Azərbaycanın dünya ölkəri arasında nüfusu günü-gündən artır, dünya və reqional siyasət məsələlərində daha fəal iştirak edirdi. Bütün bu addımlar ölkəmizin regional təhlükəsizliyi baxımından önəmli rol oynamışdır. Bunun nümunəsi kimi Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində yaradılmış GUÖAM - Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Maldovanın daxil olduğu qüvələrin birləşməsini göstərə bilərik.

Heydər Əliyevin güclü siyasəti nəticəsində tarixi İpək yolunun bərpası üçün Bakıda beynəlxalq konfrans keçirildi. Bu konfransda 32 ölkə, 14 beynəlxalq təşkilat və 7 ölkə prezidenti iştirak edirdi. Bu konfrans sayəsində Azərbaycanın Avropa ilə Asiyanın əlaqələrinin yaradılmasına böyük önəm verildiyi göstərildi.

Güclü dövlətin güclü, hüquq və azadlıqları təmin olunan, ləyaqətinə hörmət edilən vətandaşları olmalıdır. Heydər Əliyev bu inancı ölkənin inkişafı üçün yol kimi müəyyən etmişdir. Azərbaycan respublikası insan hüquq və azadlığına həsr olunmuş 125 beynəlxalq konfransa və sazişə qoşulmuşdur. "İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 1998-ci il 2 fevral tarixində Heydər Əliyev fərman imzaladı. Bütün bu addımlar ölkəmizi dünyaya və avropaya inteqrasiyasini sürətləndirdi, demokratiyanı inkişaf etdirdi, insan hüquqları sayəsində atılacaq addımların konsepsiyasını müəyyən edərək dövlət siyasətinə yüksətlmişdir.

Heydər Əliyevin yüksək siyasət bacarığı, Azərbaycanı inkişaf etdirmək üçün həyata keçirdiyi islahatlar bütün dünyaya səs salmışdır. Hər kəs Heydər Əliyevi güclü siyasətçi kimi tanıyırdı bunu onların şəksi fikirlərində görmək olar. "Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan tezliklə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcək" deyib Yapon İmperatoru Əlahəzrət Akixito. "Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanı böyük gələcək gözləyir"- Jak Şirak Fransa prezidenti kimi liderlər Ümummilli lider haqqında, onun siyasəti haqqında fikirlər söyləmişdirlər.

Heydər Əliyevin xatirəsi Azərbaycan vətəndaşlarının qəlbində əbədi yaşayacaq. İstər indi istərsədə gələcək nəsillər Heydər Əliyevi tanıyacaq çünki Azərbaycan yazıçıları, rəssamları, incəsənət və elm sahəsində fəaliyyət göstərən mütəxəssislər Heydər Əliyevin xatirəsinə əsərlər yaratmış, yazmış və gələcək nəsillərə Heydər Əliyervin şəxsiyyəti, onun siyasəti, Azərbaycanı inkişaf etdirmək üçün atdığı addımlar, həyata keçirdiyi islahatlar, bu gün Azərbaycanın müasir, inkişaf etmiş dövlətlər siyahısında olmasının səbəbkarı kimi tanıyacaq. O özündən sonra təkcə güclü Azərbaycan deyil həmdə İlham Əliyev kimi güclü siyasətçi qoyub getdi.

Nəticə: Hevdər Əliyev dünya miqyasında tanınan siyasətçi olub. Bu gün onun idarə etmə gücü, əvəzsiz siyasəti nəticəsində Azərbaycan güclü və tanınan dövlətdir. Ümummilli Liderin hakimiyyətdə olduğu dövrlərdə Azərbaycan üçün, onun iqtisadi, mədəni, elmi gücünü artırmaq və möhkəmləndirmək üçün islaharlar həyata keçirdi. Heydər Əliyevin hakimiyyət dövrü islahatlar dövrü kimi yadda qaldı. Heydər Əliyevin və onun davamcısı olan İlham Əliyevin güclü siyasəti nəticəsində bu gün müasir Azərbaycan dövləti dünyada güclü və inkişaf etmiş dövlət kimi tanınır.

İstifadə edilmiş ədəbiyyat

1. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının qanunu. 9 aprel 2002-ci il // "Gələcək gənclərindir", Bakı: Azərbaycan, 2004, s. 410–416
2. Heydər Əliyev: Bioqrafik müəllimat kitabı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003, 434s.
3. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti. (1991-2003). II hissə. Bakı, 2015, 664 s.
4. Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı, 2007, 136 s.

HEYDƏR ƏLİYEV – GƏNCLƏRİN BÖYÜK HAMİSİ

Ceyran İlqar qızı Hüseynli
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
ceyran.huseynli.13@gmail.com

Gənclər siyasəti dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar. Yeni dövrdə dövlətimizin qarşısında duran çətinlikləri həll edə bilmək üçün gənclərin yenidən təşkilatlanması, onlarda milli

özünüdərkin, azad, demokratik düşüncənin formalaşması Ümummilli lider Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində mümkün olub. Bu gün böyük inam hissi ilə qeyd etmək olar ki, ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Respublikada dövlət gənclər siyasətinin formalaşdırılması Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu öndər Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirərək bildirirdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Təbii ki, dövlət gənclər siyasəti dedikdə də gənclərin öz bilik və bacarıqlarını ortaya qoymaları, cəmiyyətdə layiqli yer tutmaları üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemi nəzərdə tutulur. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Bu gün gənclərimizin böyük bir qismi hazırda Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borcunu verməkdədir. Aprel döyüşlərində və İkinci Vətən müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə güclü Azərbaycan Ordusunun əsgər və zabitləri işğal altında olan torpaqlarımızın azad olunması yolunda son damla qanına kimi vuruşaraq şəhidliyə yüksəlməsi bir daha sübut etdi ki, gənclərimizin vətənpərvərlik duyğuları yüksəkdir. Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar vardır. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Müstəsna xidmətləri ilə əbədilik qazanan Ulu öndər Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Rəhbərlik fəaliyyətinin hər bir dövründə vaxtı boşa keçirməyən, əksinə, zamanı əməlləri ilə zənginləşdirən Ulu öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən güclü, möhtəşəm, qüdrətli müasir dövlətin yaradılması olmuşdur. Ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirən milli lider Heydər Əliyev milli dövlətçiliyi və azərbaycançılıq ideyalarını hər şeydən üstün tutmuş və xalqına, millətinə dərin məhəbbətlə bağlı olmuşdur. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur. Heydər Əliyev xalqımızın tarixinə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil olmuşdur. Azərbaycançılıq ideologiyasına əsaslanan bu dövlətin təməlində müstəqillik, güclü iqtisadiyyat və azad insan kimi dəyər və prinsiplər dayanır. Müasir tariximizin tələtümlü, ziddiyyətlərlə dolu dövründə Heydər Əliyevin siyasi iradəsi və müdrikliyi sayəsində qurulan müstəqil Azərbaycan dövləti özündə sözün həqiqi mənasında ən müasir dövlətçilik dəyərlərinin və Heydər Əliyev ideyalarının sintezini ehtiva edir. Məhz elə buna görə Azərbaycan Respublikası Heydər Əliyevdən sonra da böyük inkişaf və təkmilləşmə potensialına sahib olduğunu nümayiş etdirir, xalqımızın iradəsini və maraqlarını layiqincə təmsil etmək imkanlarını göstərir. Ümummilli Lider müstəqil Azərbaycan dövlətini özünün şah əsəri adlandırırdı və bütün xalq onun bu dəyərləndirməsini birmənalı şəkildə qəbul edirdi, bu gün də edir. Bu, xalqımızın Ümummili liderin misilsiz tarixi xidmətlərinə verdiyi qiymətin əyani ifadəsidir. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir.

Ulu Öndərin əbədiyyətə qovuşmasından 20 il ötsə də, Onun nurlu xatirəsi Azərbaycan xalqının qəlbində silinməz iz buraxmışdır. Bu gün hər bir azərbaycanlı, o cümlədən hər bir gənc fəxr edir ki, məhz o, Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın vətəndaşıdır, onun bütün varlığı ilə sevdiyi bir xalqın övladıdır. İllər bir-birini əvəzlədikcə yeni həyat gerçəklikləri keçilmiş

yolun hər bir mərhələsinə parlaq işıq salır. Bu günün uğurları yaxın keçmişə dolğun və obyektiv qiymət vermək imkanı yaradır. Bu gün Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəslənilir və ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir. Ulu öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gənclərdir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm" [8].

Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar. Yeni dövrdə dövlətimizin qarşısında duran çətinlikləri həll edə bilmək üçün gənclərin yenidən təşkilatlanması, onlarda milli özünüdərkin, azad, demokratik düşüncənin formalaşması Ümummilli lider Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində mümkün olub. Bu gün böyük inam hissi ilə qeyd edirik ki, ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Respublikada dövlət gənclər siyasətinin formalaşdırılması Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu öndər Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirərək bildirirdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Təbii ki, dövlət gənclər siyasəti dedikdə də gənclərin öz bilik və bacarıqlarını ortaya qoymaları, cəmiyyətdə layiqli yer tutmaları üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemi nəzərdə tutulur. "Gənclər siyasəti haqqında" Qanunda da bu məqsədlər öz əksini tapıb. Kompleks tədbirlər gənclərin hərtərəfli inkişafını yüksək səviyyədə təmin edir, gələcəyə daha inamla baxmaları üçün stimulverici amil rolunu oynayır. Ümummilli lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Heydər Əliyevin 1969-1982-ci illərdə Respublikaya rəhbərlik etdiyi dövürlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Azərbaycan gənclərinin I Forumunda bu barədə danışan ölkə rəhbəri demişdir: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm" [1].

Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Qeyd etdiyimiz kimi, hələ Sovet hakimiyyəti illərində Ümummilli liderimiz yüzlərlə Azərbaycan gəncinin ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmışdır. Bu gənclər keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə ali təhsil almağa göndərilir və savadlı kadr kimi vətənə qayıdaraq fəaliyyət göstərməyə başlayırdılar. Həmin gənclərin böyük bir qismi bu gün müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda yaxından iştirak edir, hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışır, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafında əvəzsiz xidmət göstərirlər. Ulu Öndərimiz savadı, qabiliyyəti, istedadı ilə seçilən gənclərə qayğı və diqqət göstərməyi bacarırdı. Şübhəsiz ki, bu gənclərin bir çoxunu özü seçir, onların qabiliyyətini və biliyini sınaqdan çıxarandan sonra Moskvaya, Leninqrada oxumağa göndərirdi. Bu gənclər maddi cəhətdən təmin edilir, yüksək, mükəmməl təhsil almalarına hər cür şərait yaradılırdı. Buna görə də Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə qayıdışını ən çox alqışlayanlar elə gənclərin özü idi. Heydər Əliyev gənclərə arxalandığı kimi, gənclərdə onu böyük bir lider, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər. Azərbaycan gəncliyinin dərin məhəbbətini və güvənini qazanan Ulu öndər bu fikirləri ilə də gənclərə olan sonsuz etimadını bildirirdi: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız,

inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq" [8].

Tarixə qısa nəzər yetirdikdə bir reallıq öz təsdiqini tapır ki, əgər Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə daha çox gənclərin bir kadr kimi yetişməsi diqqət mərkəzində idisə, Azərbaycan müstəqillik qazandıqdan, daha dəqiq desək, 1993-cü ildə Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra onların dövlət idarəçiliyində irəli çəkilməsi prioritet məsələ oldu. Ulu öndərimiz tərəfindən Gənclər və İdman Nazirliyinin yaradılması, gənclər siyasəti ilə bağlı mühüm qərarların verilməsi, eləcə də, "Gənclər siyasəti haqqında" qanunun qəbul olunması Heydər Əliyevin gəncliyimizə verdiyi dəyərin ifadəsidir. Eyni zamanda, Azərbaycan dövlətinin gənclər siyasətinin formalaşmasında və gənc nəslin geniş fəaliyyət meydanına çıxarılmasında dahi liderin təşəbbüsü və iştirakı ilə keçirilən gənclərin I Forumunun xüsusi rolu oldu. 1996-cı il fevralın 2-də keçirilən bu forum Ümummilli lider Heydər Əliyevin gəncliklə bağlı strategiyasının ilk təntənəsi kimi dəyərləndirildi. 1997-ci ildə Ulu öndər Heydər Əliyevin Sərəncamı əsasında I Forumun keçirildiyi tarix – yəni 2 fevral Azərbaycanda Gənclər Günü kimi elan edildi. 1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" dövlət sənədləri bu baxımdan təqdirə layiqdir [4]. Sonrakı illərdə də Azərbaycan gənclərinin forumlarının keçirilməsi gənclərimizin fəaliyyət istiqamətlərinin genişləndirilməsində əhəmiyyətli rol oynadı. Belə ki, Ümummilli lider Heydər Əliyev 2 fevral 1998-ci ildə Azərbaycan Gəncləri gününün ildönümü münasibətilə keçirilən bədii-idman bayramında tarixi çıxış etmiş və gənclərə müraciət ünvanlamışdır. Ulu öndər gənclərə müraciət edərək demişdir:

"Mən sizi gördükcə daha da ruhlanıram, siz Mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin – gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik" [3].

Azərbaycan gəncliyinə böyük qayğısının davamı kimi Ulu öndər 1999-cu ildə "Dövlət Gənclər Siyasəti haqqında" Fərman imzalamışdır. Fərmana müvafiq olaraq "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 9 aprel 2002-ci il tarixdə Heydər Əliyev tərəfindən imzalamışdır. Beləliklə, Ulu Öndər gənclər siyasətini düzgün və uğurlu formalaşdırmaqla dövlətin sağlam təməlini qoymuşdur. "Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" [6] – öz çıxışında bu sözləri qeyd edən Ümummilli lider Heydər Əliyev gənclərə olan dərin sevgisini göstərmiş və onlara olan sonsuz inamını ifadə etmişdir. Çünki bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli, vətənpərvər ruhlu potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Ölkə başçısının gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" və "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət proqramları xüsusi qeyd edilməlidir. Həmçinin, Prezident İlham Əliyevin 2007-ci ili "Gənclər ili"

elan etməsi gənclərə ölkə Prezidenti tərəfindən böyük önəm verilməsinin daha bir sübutudur. Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Dövlət gənclər siyasəti – gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Ulu Öndər çıxışlarında deyirdi ki, gənclərimizin ən mühüm vəzifələrindən biri də ordu sıralarında qulluq etməkdir.

Bu gün gənclərimizin böyük bir qismi hazırda Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borcunu verməkdədir. Aprel döyüşlərində və İkinci Vətən müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə güclü Azərbaycan Ordusunun əsgər və zabitləri işğal altında olan torpaqlarımızın azad olunması yolunda son damla qanına kimi vuruşaraq şəhidliyə yüksəlməsi bir daha sübut etdi ki, gənclərimizin vətənpərvərlik duyğuları yüksəkdir. Və bu gün bütün Azərbaycan xalqı, o cümlədən biz gənclər Ali Baş Komandanımızın çağırışına hər zaman hazırıq və istənilən vaxt torpaqlarımızı işğaldan azad etməyə qadirdirik. Dövlət başçımızın: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram",- dediyi bu yüksək münasibətə cavab olaraq Azərbaycanımızın parlaq gələcəyi yolunda biz gənclər bütöv və müstəqil Azərbaycan naminə Vətənimizin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə başçısının etimadını həmişə doğrultmalı, hər an Ali Baş Komandanımızın verəcəyi əmrə müntəzir hazırıq. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir",- deyən Ümummilli lider Heydər Əliyevin arzuları Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xalqına, millətinə dərin bir eşqlə bağlı olan Azərbaycan gəncliyi hər zaman qəlbində yaşatdığı "Vətən sevgisi" ilə qürur duymuş və şücaətlə göstərdikləri qəhrəmanlıqları ilə tarixin ən parlaq səhifələrində öz adlarından fəxrlə bəhs etdirmiş, hər bir şəxsin könlündə öz imzasını atmışdır. Tarixin keşməkeşli yollarından keçmiş, Vətərpərvər bir xalqın yetişdirmiş olduğu övladlar daim öz mübarizə əzmi ilə seçilmiş, onlara yaşamları boyu aşılanan "Vətən sevgisi" ilə böyümüş və həyatın bütün sferalarında Dövlətinə, Millətinə qanı bahasına xidmət etməkdədir. Öz nitqlərinin birində xüsusi ilə bu məsələyə toxunan Heydər Əliyev deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik" [7].

Həmin, o gənclər illər boyu davam edən müharibə şəraitində həyata göz açmış, bütün bu yaşanılan çətinliklərə şahid olmuş, amma vətənpərvər ruhlu böyüklərindən almış olduğu dərslərlə bugünün qəhrəmanları olmuşlar. Azərbaycan gənclərinin qəlbində alışıb yanan o sönməz məşəl, vətənə olan dərin məhəbbət hər zaman onların yoluna işıq saçmış və inamlı addımlarla yalnız irəli getməyə sövq etmişdir. Hansı ki, bizlər tarixin qan yaddaşına yazılmış, hər birimizin qürur mənbəyi olan 44 gün ərzində sürən Vətən müharibəsində bu reallığın canlı şahidləri olduq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada – Cıdır düzündə xalqa müraciət edərkən çıxışında çox böyük fəxr hiss ilə bu ifadələri işlədərək sözə başlayıb: "Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını torpaq uğrunda fəda etdi. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi" [2].

Bəli, bu çıxış, deyilən qürurverici sözlər, səslənən hər bir kəlmə Vətənpərvər bir xalqın, Vətənpərvər övladları üçün səslənirdi. Hansı ki, o gənclər Ali baş komandanın "Dəmir yumruq" ideologiyası ətrafında toplaşaraq düşmənə öz igidliyini hər bir cəhətdən göstərmiş və Azərbaycan xalqının, Azərbaycan gəncinin məğrurluğunu, biləyinin, ağlının gücünü sübut etmiş oldular. Öz qəhrəmanlıqları ilə hər bir sferadan düşməni susdurmağa bacaran gənclər, informasiya sahəsində də uğurlu və düşünülmüş addımlar ataraq onların gerçəyə sığmayan təbliğatlarının iç üzünü bütün dünyaya açmış, öz haqlı səsini duyurmağa çalışmışdı. Bu günlər ərzində vətən sevgisi ilə daha da alovlanan xalq yağı düşmən tərəfindən edilən zülmləri, haqsızlıqları sosial şəbəkələr, çəkilən qısa metrajlı filmlər və media vasitəsi ilə də gözlər önünə gətirərək öz əzəmətli mübarizəsini aparmışdır. Təbii ki, bütün bu görülən işlərdə gənclərin danılmaz rolu olmuş və canla-başla bu yolda çalışmışlar. Canı-qanı bahasına vuruşan igidlər, o gənclər ki, bizləri illərdir həsrətini çəkdiyimiz, yolunu gözlədiyimiz o doğma diyarlara qovuşmağımızın ən bariz səbəbkarlarıdır. Öz canlarından keçərək, Vətən uğrunda Şəhid olmuş və bütün Azərbaycanın qəhrəmanlarına çevrilmiş və hər birimizin qəlbində əvəzsiz, unudulmaz izlərini qoymuşlar. Məğrur, əzəmətli Azərbaycan xalqının birliyini, şücaətini, gücünü bütün dünyaya çatdırmış, illər boyu işğal altında olan torpaqlarımızı azad etmişlər. Son olaraq sözlərimi Himnimizdən olan bir parça ilə bitirmək istəyərdim:

Minlərlə can qurban oldu, Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər hərə bir qəhrəman oldu! [5]

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir – YAP; 6 may, 2020.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti – Prezident.Az; 20 mart, 2021.
3. Ulu öndər Heydər Əliyevin gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir – Yeni Azərbaycan; 13 avqust, 2014.
4. Ulu öndər tərəfindən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib – Qanunla.Az; 1 fevral, 2023.
5. https://www.azerbaijans.com/content_656_az.html
6. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev
7. https://modern.az/news/10912/gencler-bizim-sabahimizdir/
8. https://sesqazeti.az/news/politics/1006552.html

HEYDƏR ƏLİYEVİN GEOSİYASİ TƏLİMİ: XXI ƏSRDƏ

[1,2]**Yeganə Mayis qızı Bağırova,** [1,3]**Humay Rüstəm qızı Eminova**
[1]AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
[2]yeganabaghirova1968@gmail.com
[3]humay.eminova61@gmail.com

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycan Respublikasına prezident seçildikdən sonra bir sıra geosiyasi xarici məsələlərdə, kəskin daxili ictimai-siyasi, iqtisadi və mənəvi böhranla, gün-gündən güclənən milli vətəndaş qarşıdurması və s. neqativ hadsələrlə üzləşməli oldu. Bütün bunlara, baxmayaraq Heydər Əliyev 1993-1996-cı illərdə respublikada milli-vətəndaş qarşıdurmasının dayandırılmasına, ictimai-siyasi sabitliyin bərpa edilməsinə, həyata keçirilən daxili və xarici, milli dövlət quruculuğuna, sosial-iqtisadi siyasətin yenidən qurulmasına, 1994-cü ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində müvəqqəti atəşkəsə nail olunması və xalqın gələcəyi ilə bağlı olan və s. strateji layihələrin həyata keçirilməsinə nail oldu. Qısa zaman kəsiyində Xəzər dənizinin milli sektorundakı neft-qaz yataqlarının birgə istismarı, inkişaf etmiş Qərb dövlətləri və onları təmsil edən şirkətlərlə Azərbaycanın bərabərhüquqlu,

qarşılıqlı-faydalı, müştərək tərəfdaşlıq əlaqələrinin yaradılması və s. milli geosiyasi vəzifələrin həyata keçirilməsini şərtləndirdi. 1994-cü ildə dünyanın aparıcı neft şirkətləri ilə Xəzər dənizinin karbohidrogen yataqlarının mənimsənilməsi və hasil olunan neftin dünya bazarlarına ixracı sahəsində "Əsrin müqaviləsi adlanan çoxtərəfli sazişin imzalanması tezliklə planetin əsas fövqəlgüclərinin, aparıcı maliyyə və iqtisadi institutlarının, beynəlxalq trasnmilli təşkilatların diqqətini Azərbaycana yönəldərək, onlarla qarşılıqlı əməkdaşlıq şəraiti yaratdı.

1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitutsiyasının qəbul edilməsi, çoxpartiyalı seçki nəticəsində yeni parlamentin formalaşdırılması, Azərbaycanın qarşısında duran milli-vəzifələri, iqtisadi, siyasi, sosial-mənəvi inkişaf prioritetlərini müəyyənləşdirdi.

1996-cı ildən başlayaraq Azərbaycanın yeni iqtisadi inkişaf kursu xarici iqtisadi əlaqələr və neft strategiyası öz müsbət nəticələrini verərək, ölkəyə və dünya iqtisadiyyatına və siyasətinə inteqrasiya istiqamətində ciddi addımlar atmağa imkan yaratdı. Xüsusilə də "Əsrin müqaviləsi"nin imzalanması bir dövlət olaraq Azərbaycanın dünyada və regionda geosiyasi və geoiqtisadi əhəmiyyətini artırdı. Buun nəticəsində Azərbaycanın geosiyasi anlamda regional və beynəlxalq əhəmiyyəti artaraq, geoiqtisadi dəyəri yüksəldi, regional dövlət olaraq perspektivləri artırdı. Cənubi Qafqaz və Xəzər hövzəsinin ən problemli daxili münaqişələrin, etnik-milli, sosial və dini qarşıdurmaların tüğyan etdiyi Azərbaycan, tezliklə regionda geosiyasi və geoiqtisadi cəhətdən əhəmiyyətli bir ölkəyə çevrildi. Cənubi Qadqaz respublikası - Gürcüstan və Ermənistandan fərqli olaraq böyük iqtisadi, əmək resursları və insan potensialına, zəngin enerji mənbələrinə, əlverişli coğrafi mövqeyə, aydın geostrateji, geoiqtisadi mövqeyə malik olması - Azərbaycana regionun vahid liderinə çevrilməsinə şərait yaratdı.

Əlbəttə ki, bu günki, Azərbaycan müstəqil dövlət kimi dünyada tanınmasında Heydər Əliyev dühası əvəzolunmazdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqillik əldə etdikdən sonra Azərbaycanın keçirdiyi geosiyasi inkişaf yolunu xarakterizə edərək demişdir ki, 1993-cü ildən sonrakı dövrdə Azərbaycanın milli dövlətçiliyi qorunub saxlandı və yenidən qurularaq, onun inkişaf strategiyası müəyyənləşdi. Bu strategiyanın bünövrəsini Ulu Öndər qoydu. Azərbaycan Cənubi Qafqazda lider dövləti olaraq geosiyasi statusunu qazandı. Beləliklə, qeyd etmək lazımdır ki, Azərbaycan "Cənubi Qafqaz" regionunun lider dövlətinə çevrilmək" kimi geosiyasi və geostrateji iddialarını heç vaxt gizlətməmişdi. Azərbaycan həqiqətən də bu gün iqtisadi inkişaf potensialına görə regionun regionun lider ölkəsinə çevrilmişdir. Cənubi Qafqazın insan resurslarının təxminən 60 %-i, yanacaq-enerji və maliyyə resurslarının 90 %-i, iqtisadi potensialının isə 70-80-i Azərbaycanın payına düşür. Bu mənada həm qonşu dövlətlər, həm də dünyanın digər geosiyasi aktorları bütün göstəricilərə görə Azərbaycanı "Lider ölkəsi" hesab edirlər. Beləki, Azərbayan bölgədə geosiyasi hadisələrə görə regional proseslərə təsir göstərəcək ən qüdrətli dövlətlərdən biridir.

Hazırda Cənubi Qafqazdakı hər hansı beynəlxalq məsələdə, nə geosiyasi, nə də geoiqtisadi imkanları zəif olan Gürcüstan və Ermənistan Azərbaycanla regional rəqabətə tab gətirə bilir. Gürcüstanın iqtisadi perspektivi əsasən Azərbaycanın Orta Asiyadan gələn enerji və digər malların Qərb ölkələrinə nəqlinə, Avropa-Asiya əlaqələrindı tranzit dəhliz roluna hesablanmışdır. Bu ölkənin gəlir əldə etmək imkanlarının böyük hissəsi Azərbaycanla bağlıdır. Gürcüstan enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində Rusiya və Azərbaycandan tam asılı vəziyyətdədir. 2008-ci ildə Gürcüstanın Rusiya ilə münasibətlərinin gərginləşməsi nəticəsində dərin enerji böhranına düçar olması və Azərbaycanın işə qarışmasından sonra Rusiya ilə Gürcüstan arasında normal münasibətlərin yaranması buna əyani sübutdur.

Ermənistan isə bütün regional və transmilli layihələrdən təcrid olunaraq, bütün iqtisadiyyatı və infrakstrukturu Rusiyanın tam nəzarətinə keçərək, daxili və xarici siyasət məsələləri, Cənubi Qafqazdakı geosiyasi fəaliyyəti Moskva ilə razılaşdırılır. Moskvanın rəyi olmadan heç bir müstəqil qərar qəbul edə bilmir. Qeyd etmək lazımdır ki, Ermənistanın Cənubi Qafqazdakı "Xüsusi geosiyasi missiyası" təkcə bölgə ölkələrinin "heç kimdən asılı olmayan, müstəqil regional əməkdaşlıq tendensiyasını" pozmaq deyil, həm də bu mənada davamlı regional böhran, etnik-seperatçı münaqişələr və s. yaradaraq, region ölkələrinin Avropa strukturlarına- NATO-ya, Avropa Birliyi və s. inteqrasiyasının qarşısını almaqdan ibarətdir.

Azərbaycanda və regionda və dünyada geosiyasi mövqeyini möhkəmləndirən əsas amillərdən biri Xəzərin ona məxsus sektorundakı zəngin karbohidrogen ehtiyatları və həmin məhsulların alternativ marşrutlarla dünya bazarlarına daşınması sahəsində həyata keçirdiyi Qərbyönümlü siyasəti olmuşdur. Azərbaycanın həyata keçirdiyi neft strategiyası qısa müddətdə Avrasiyanın enerji daşıyıcılarının əsas təminatçılarından birinə çevrilmişdir. Azərbaycan Avrasiyanın elə bir geosiyasi məkanına çevrilmişdir ki, orada ABŞ, Avropa İttifaqı, Rusiya və başqa dünya güclərinin geoiqtisadi maraqları, geosiyasi və hərbi geostrateji mövqeləri bir-birinə ən yüksək dərəcədə yaxındır [5, s.117].

Azərbaycan Cənubi-Qafqazda təkcə enerji, nəqliyyat-komunikasiya layihələrinin təşəbbüskarı yox, eyni zamada Xəzər-Qara dəniz hövzəsi regionun, Avropa və Amerikanıın, bütün dünyanın strateji maraqlarını təmin edir. Ulu öndər Heydər Əlievin apardığı diplomatik siyasəti, Azərbaycanın mühüm coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, dünya üçün kəsb etdiyi geosiyasi önəm, milli, regional və beynəlxalq maraqların həll edilməsinə mühüm şərait yaradır. Politoloq Z.Bjezinski yazırdı ki, "Müstəqil Azərbaycan Qərbin Xəzər hövzəsinin və Orta Asiyanın zəngin zəngin enerji resurslarına çıxış üçün dəhliz ola bilər və əksinə, asılı Azərbaycan Orta Asiyanın dünyadan təcrid edilməsi deməkdir." [1, s.228]

Qeyd etmək lazımdır ki, Azərbaycanın dünyadakı geosiyasi mövqeyinə təsir edən amillərdən biri də onun mövqeyinin digər region ölkələri üst-üstə düşməməsidir. Lakin bu geosiyasi uyğunsuzluq mövcud milli resursların bölüşdürülməsi və ortaq maraqlar naminə reallaşdırılan "kompromis siyasət" vasitəsi ilə oradan qaldırlır. Azərbaycanın dünyanın mühüm transmilli geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşməsi və respublika prezidentinin bu üstünlükdən istifadə etməsi yaranmış ziddiyətləri aradan qaldırmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın iştirak etdiyi tarixi "İpək yolu"nun bırpası ilk dövrdə Rusiyanı razı salmasına da sonrakı dövrlərdə Azərbaycan dövlətinin yürütdüyü siyasət nəticəsində, dəhlizin bütün regiona, o cümlədən Rusiyaya mənfəət gətirəcəyinə inandıra bilmişdir. Azərbaycan öz müsbət geosiyasəti ilə Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin açılmasında mühüm rol oynayaraq, Transqafqaz və Transasiya nəqliyyat dəhlizlərinin fəaliyyət göstərməsində təkcə öz milli maraqlarını deyil, eyni zamanda Rusiya və bütün region ölkələrinin milli maraqlarını təmin etmiş, oldu. Beləki, Bakı-Tbilisi-Qars dəmir yolu təkcə Azərbaycanın deyil, bütün bölgənin geosiyasi maraqlarını təmin etmiş oldu.

Azərbaycanın geosiyasi və geoiqtisadi maraqlarının gələcək perspektivləri sonrakı illərdə də inkişaf və tərəqqiyə nail olmaq, əsas strateji həyati ehtiyatları təmin etmək məqsədilə ölkənin geosiyasi addımlarını nüfuzlu regional və beynəlxalq dövlətlərlə, müxtəlif bölgələrin geosiyasi maraqlarının ölkəmizlə üst-üstə düşən transmilli aktorları güc mərkəzləri bir-biri ilə uzlaşdırmağı tələb edir. Bu mənada Azərbaycan müstəqillik əldə etdikdən sonra öz milli maraqlarını mövcud geosiyasi reallıqlarla müəyyənləşdirməyə, regionda marağı olan ölkələrlə uzlaşdırmağa məcburdur. Bu sahədə əsas məsələ odur ki, dövlət mövcud imkanlar daxilində öz milli və geosiyasi maraqlarının vacib strateji sahələrini kiməsə güzəştə getməsin.

Hazırda Azərbaycanın ən mühüm geosiyasi problemlərindən biri Dağlıq Qarabağ məsələsidir. Düzdür 30 il ərzində bütün dünya dövlətləri Qarabağ torpaqlarının sülh yolu ilə həll olunacağını bildirirdilər. Lakin 44 günlük vətən müharibəsi göstərdi ki, sülh yolu ilə torpaqları azad etmək mümkün deyildir. 2020-ci il 27 sentyabr ayında başlanan müharibə bunu təsdiq etdi. Təəssüflər olsun ki, Rusiyanın köməyi ilə ermənilər Qarabağdan tam çıxarılmadılar. Qarabağda yenidən müharibə ocağı yarandı. Belə ki, ermənilər rus qardaşlarının köməyi ilə Qarabağ torpaqlarında yenidən "at oynadırlar". Hər gün atışma, güllə səsləri eşidilir. Bildiyimiz kimi SSRİ-nin süqutundan sonra Azərbaycanın geosiyasi maraqları və ölkə ərazisinin Cənubi Qafqazın kimlərinsə geosiyasi və hərbi-geostrateji münaqişə obyektinə" deyil, bütün sivil dünyanın "tərəfdaşlıq faydalı əməkdaşlıq və ədalətli iqtisadi yarış meydanına" çevrilməsini tələb edir. Hazırda Bakı Rusiya, Qərb, Türkiyə, İran və başqa güclər arasında- Avrasiya, Xəzər hövzəsi və Cənubi Qafqazın geoiqtisadi və geosiyasi hədəfləri uğrunda gedən mübarizədən "tam müstəqil mövqe tutmaqla", öz milli maraqlarına uyğun hərəkət etməklə, müəyyən məsafə saxlamağa nail olmuşdur ki, bu da gücləndirmişdir. ABŞ da baş vermiş 2001-ci il 11 sentyabr hadisələrindən sonra dünya geosiyasətində yaranmış "yeni

reallıqlar"dan düzgün istifadə edilməsi və müvafiq siyasət yeridilməsi Azərbaycanın bölgədəki çəkisini və rolunu xeyli artırmışdır. Həmin dövrdən etibarən Azərbaycanın müstəqil bir ölkə kimi dəyəri yalnız Qərb üçün deyil, eyni zamanda Türkiyə, İran və Rusiya üçün də xeyli artmışdır. Azərbaycanın əldə etdiyi əsas geostrateji uğur ondan ibarət olmuşdur ki, o regionda geosiyasi maraqları təmsil olunan güc mərkəzlərinin hamısı üçün ortaq balans obyektinə çevrilmişdir.

1979-cu il İran İslam inqilabından sonra dünyanın siyasi xəritəsində yeni bir regional seosiyasi qarşıdurmanın əsası qoyulmuşdur. Hələ o dövrdən etibarən ABŞ və İran münasibətlərində heç bir yenilik əldə olunmamışdır. 2007-ci ildən sonra İranın nüvə proqramı Tehranla Vaşinqton arasındakı ziddiyyətlərin kəskinləşməsinə səbəb olmuş və yeni geostrateji ocağın alovlanmasına şərait yaratmışdır. ABŞ, Avropa İttifaqı və İsrail Tehranı bu nüvə proqramından əl çəkməyə çağırsalar da Rusiya və Çin iə İrana qarşı qoyulan sərt sanksiyaların əleyhinədirlər.

Azərbaycan hər iki dövlətlə qarşılıqlı faydalı əlaqə yaratmış olsa da çalışır ki, ziddiyyətlər yaranmasın lazımi diplomatik və geosiyasi manevrlərdən istifadə etməyə çalışır. Belə ki, İran Rusiyanı və Ermənistanı dəstəkləyərək Azərbaycana qarşı mübarizə aparmaqdan əl çəkmir. 44 günlük Vətən mühaibəsində Azərbaycanın qələbəsini həzm edə bilməyən Tehran şovinizmi ermənilərə qardaşlıq köməyi edir. Belə ki, 2023-cü il yanvarın 27-də Tehranda Azərbaycan səfirliyinə hücumunu təşkil edərək, səfirliuin bir nəfərin öldürülməsi, digərinin yaralanması ilə nəticələnən terror aktı, İranın Azərbaycana qarşı illər boyu apardığı fitnəkar siyasətinin acı nəticəsi ilə tamamlanmış oldu. Azərbaycana daim irticaçı siyasət yeridən molla rejimi fitnəkar əməllərindən əl çəkmir. Lakin Azərbaycan ABŞ-İran münasibətlərinin xarakterindən asılı olmayaraq, öz geostrateji mpvqelərini və milli maraqlarını qorumağa çalışır. Azərbaycanın siyasi və iqtisadi perpektivdə lider statusunun möhkəmləndirilməsi onun həyata keçirəcəyi geosiyasi xətdən və dünyanın ən əhəmiyyətli geoməkanlarından hesab olunan Avrasiya bölgəsində qazanacağı mövqedən, planetin əsas geosiyasi aktorları ilə yarada biləcəyi münasibətlərdən asılı olacaqdır.

Yeni geosiyasi reallıqlara və bundan irəli gələn qlobal çağırışlara vermək, strateji geosiyasi münasibətlərə xələl gətirmədən daha proqmatik siyasətin yürüdülməsi Azərbaycanın prioritet məsələlərindən biridir. Azərbaycanın təşəbbüsü və dünyanın aparıcı ölkə və şirkətlərinin iştirakı ilə yaradılan transmilli enerji konsorsiumu, yeni istehsal, ixrac marşrutları və s. infrastrukturlar Cənubi Qafqaz və Xəzər regionunun inkişafına ciddi təsir göstərmiş, bölgəni Avropa və dünya ölkələrinin güclü maliyyə və qabaqcıl texnologiyalarının üzünə açmışdı. Ulu Öndərin qətiyyətli və böyük səyləri, tərəqqipərvər dünyanın hərtərəfli dəstəyi nəticəsində bəzi ölkələrin və maraqlı qüvvələrin bu işə mane olmaq cədləri neytrallaşdırılmışdır. Avropanın enerji təhlükəsizliyi məsələsində əhəmiyyətli rol oynamağa başlayan Transqafqaz enerji ixracı kəmərləri həm də Mərkəzi Asiya və Xəzər hövzəsi ölkələrinin geosiyasi və geoiqtisadi müstəqilliyinə ciddi təsir göstərmiş, onların Qərblə yaxınlaşması yolunda əsas maneələri aradan qaldırmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan bütün fəaliyyəti və geosiyasi addımları ilə Xəzər hövzəsi və Cənubi Qafqazda sabitləşdirici rol oynamış bir ölkədir. Belə ki, Avrasiyanın bəzi bölgələrində, xüsusən Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazda yeni geosiyasi reallıqlar formalaşmaqdadır. Bunun bəzi xüsusiyyətləri açıq, bəziləri isə dolayısı ilə Azərbaycanın da geosiyasi maraqlarına toxunur və ölkə rəhbərlərini çevik addımlar atmağa sövq edir.

Son zamanlar Rusiyanın Avrasiya ölkələrinə, xüsusən də Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaza geosiyasi və geoiqtisadi təsirinin artması ABŞ və Avropa Birliyində narahatlıq yaratmışdır.

Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq əlaqələrinin güclənməsi, yeni geosiyasi davranışı bir çox Avropa ölkələrini xüsusilə də Rusiyanı çox narahat edir. Beləki, 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin Azərbaycana dəstəyi, Qarabağ torpaqlarının qismən azad edilməsi sözsüz ki, Rusiyanı qıcıqlandırır. Bu mənada Rusiya öz işğalçılıq siyasətini yeridərək Qarabağ torpaqlarında "sülhməramlı" adı ilə öz qoşununa yerləşdirdi. Bu yenidən müharibə ocağının yaradılması deməkdir. Hazırda Azərbaycanın əsas geosiyasi vəziyyəti gərgin olaraq qalmaqdadır. Belə ki, sülhməramlıların gözü qarşısında erməni silahlıları hər gün Qarabağ torpaqlarına hücumlar edir, günahsız Azərbaycan əsgəri şəhid olur. Təəssüflər olsun ki, dünya dövlətləri ermənilərin işğalçılıq siyasətinə göz yumur, onlar yalnız Azərbaycanı günahlandıraraq, ermənilərə haqq qazandırmağa çalışırdılar.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin çoxəsrlik dövlətçilik tarixində müstəsna yeri vardır. Müasir Azərbaycanda dövlət quruculuğunun, siyasi şüurun inkişafında Heydər Əliyevin geosiyasi strategiyası müstəsna əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev və müasir Azərbaycan. B.,2013
2. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. B.,1997.
3. O. Siqanov Zamanı qabaqlamış Ümummilli Lider Azərbaycan, 2009 15 aprel.
4. Всемирная история, М., 1957
5. "Azerbaijan Focus" jurnalı, yanvar-mart, 2010

AZƏRBAYCAN RESPUBLİKASININ İNFORMASİYA SİYASƏTİ VƏ HEYDƏR ƏLİYEV

[1,2]**Kamran Aydın oğlu Məmmədov,** [1]**İlhamə İslam qızı Hüseynova**
[1]AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
[2]kamranmamedov.an@gmail.com

Müasir dövrdə informasiya çox sürətlə sərhədləri aşaraq gerçəklik haqqında yeni anlayış formalaşdırır və qlobal diskussiyalara zəmin yaradır. XXI əsrdə informasiyanın kütləvi qırğın vasitələrindən daha təhlükəli olduğunu söyləyən tədqiqatçılar da az deyil. Məhz bu baxımdan informasiya təhlükəsizliyi milli təhlükəsizliyin komponentlərindən biri sayılır. İnformasiya cəmiyyətinin yaranması və inkişafı onunla bağlı informasiya şəbəkələri, informasiya müharibələri və ya kontaktsız müharibə, info və kiberməkan, infoimperiya və başqa bu kimi yeni anlayış və terminlərin akademik dildə özünə vəsiqə qazanmasına səbəb oldu. İnformasiya bəşər tarixinin müxtəlif dövrlərində cəmiyyətə təsir gücünə malik bir amil olmuşdur. Lakin müasir dövrdən fərqli olaraq keçən dövrlərdə informasiya axınını, onun operativliyini və sürətini tənzimləmək, təhlükə yaradan xüsusiyyətlərinin qarşısını almaq mümkün idi. Müasir dövrdə isə artıq sadaladığımız xüsusiyyətələrin öhdəsindən gəlmək çox çətinləşib və hətta qeyri mümkünə çevrilib. Hazırda informasiya texnologiyalarının inkişafı informasiya məkanında dövlətlərarası sərhədləri silmiş və ənənvi məhvetmə silahlarından istifadə etmədən düşməni boğmaq üçün presidentsiz imkanlar yaratmaqdadır. Bunun əsas səbəbi yaşadığımız informasiya cəmiyyətinin tələb və cağırışlarıdır. Keçən əsrin ortalarına qədər informasiya mühüm amil olsa da, onun əks təsirlərinin öhdəsindən gəlmək əsasən mümkün idi. Çünki həmin dövrlərdə informasiyanın təsirini təmin edən informasiya kommunikasiya vasitələri yüksək inkişaf tempinə malik deyildi. İkinci Dünya müharibəsindən sonra başlanan elmi təxniki inqilablar dövrü informasiya kommunikasiya texnologiyalarının inkişafına həlledici təsir göstərərək informasiya cəmiyyətinin formalaşmasına, onun tələblərindən irəli gələn informasiya axınlarının sürətlənməsinə , eyni zamanda informasiyanın dağıdıcı gücünün artmasına çox güclü təsir göstərərək informasiya müharibələrinin aktuallığını artırdı. Qeyd etmək lazımdır ki, II Vətən müharibəsi dövründə yeni informasiya kommunikasiya texnologiyalar sisteminin uğurlu tətbiqi həm informasiya, həm də hərbi əmliyyatlar cəbhəsində qələbəmizin təməlini təşkil edən xüsusiyyətlərdən idi. Müdafiə Nazirliyinin hazırladığı hərbi xronikalarda dəfələrlə bu cür uğurlu həmlələrin şahidi olmuşuq.

İnformasiya siyasətinin həyata keçirilməsində informasiya kommunikasiya texnologiyalarının tətbiqi nə qədər əhəmiyyətlidirsə, bu fəaliyyəti təmin etmək üçün hüquqi normativ bazanın yaradılması daha mühüm əhəmiyyət kəsb edir. 2000-ci ilin sentyabrında BMT tərəfindən keçirilən minilliyin sammitində bütün dünya ölkələrinin 2015-ci ilə qədər öz milli strategiyalarında informasiya-kommunikasiya texnologiyaları üzrə müvafiq sənəd qəbul etmələri tövsiyə olundu. 2002-ci ildə Heydər Əliyev Azərbaycan Respublikasının inkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiyanın (2003-2012) hazırlanması haqqında fərman imzaladı və bir il sonra Ümummili lider hazırlanan strategiyanı təsdiq etdi. Cənubi

Qafqazda ilk dəfə olaraq qəbul edilmiş bu strategiya Azərbaycanın İKT sahəsində qələbəsini bütün dünyaya bəyan etdi. Bu informasiya cəmiyyətinin formalaşmasında çox mühüm rol oynadı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il aprel ayının 2-də "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanı" təsdiq etməsi ilə ölkəmizdə informasiya cəmiyyəti quruculuğu prosesinin növbəti inkişaf mərhələsinin əsası qoyuldu. Eyni zamanda, Respublika Prezidentinin 2016-cı il 20 sentyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət proqramının məqsədi Milli Strategiyada informasiya cəmiyyətinin inkişaf etdirilməsi üzrə qarşıya qoyulan əsas məqsəd və vəzifələrin, fəaliyyət istiqamətlərinin həyata keçirilməsinin təmin edilməsidir. İnformasiya siyasətinin həyata keçirilməsində internetin sürətli inkişafı, yeni veb texnologiyalar əsasında yaradılmış proqram təminatı sistemlərinin mühafizəsi çox mühüm məqamlardan biridir.

Müstəqilliyin ilk illərində respublikada mövcud olan ağır, gərgin vəziyyətdə xalqın təkidi ilə hakimiyyətə ikinci dəfə qayıdan Ümummilli Lider Heydər Əliyev informasiya- kommunikasiya texnalogiyalarının tətbiqinə xüsusi diqqət yetirmişdir. Məhz Heydər Əliyevin səyi nəticəsində Azərbaycanla Amerika qitəsi arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin "Bakcell" və "Azərcell" birgə müəssisələrinin yaradılması ilə ölkəmizdə mobil rabitənin inkişafının əsası qoyulmuşdu. İlk beynəlxalq telefon stansiyasının yaradılması da məhz Heydər Əliyevin səmərəli fəaliyyəti nəticəsində həyata keçirildi. Respublikamızda radio-televiziya yayımının müasir tələblərə uyğun təşkili, milli televiziya proqramının süni peyk vasitəsi ilə yayımlamağa başlanması, Avropa və Yaxın Şərq dövlətləri ilə yanaşı blokada şəraitində Naxçıvan Muxtar Respublikasının əhalisinin milli televiziya proqramlarının həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır..

Bütün bunların nəticəsində Azərbaycan bu gün informasiya-kommunikasiya texnalogiyaları sahəsində böyük imkanlara malik olmuşdur. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan İKT sahəsində regionun aparıcı ölkəsinə çevrildi. XXI əsr informasiya cəmiyyətinin yaradılması, zəngin təbii sərvətlərin insan kapitalına çevrilməsi və yüksək intellektual səviyyənin formalaşması cəhətdən yeni eranın başlanğıcı sayılır. Qloballaşan, yeniliyə doğru can atan dünyanı bu gün ən müasir informasiya və kommunikasiya texnologiyaları - internet, yüksək texnologiyalar və qlobal rabitə imkanları olmadan təsəvvür etmək belə mümkün deyildir. Yeni minillikdə bəşər sivilizasiyasını düşündürən ən aktual və təxirəsalınmaz məsələ - telekommunikasiya və informasiya texnologiyaları sahəsində "inqilabi" dəyişikliklər yolu ilə əlçatmaz zirvələri fəth etmək, dövlətlər və xalqlar arasındakı məkan və zaman fərqlərini aradan qaldırmaqdır.

Qərb iqtisadiyyatına geniş inteqrasiya, nəhəng enersi və nəqliyyat layihələrinin reallaşması, Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində qabaqcıl dövlətlər sırasına çıxmaq üçün uğurlu addımlar atılmasına şərait yaratmışdır. Beləki, respublikamızda İKT məhsullarının istehsalı üçün yeni müəssisələr yaradılmış, nəticədə məhsul istehsalının həcmi 2003-cü illə müqayisədə 6-7 dəfə artmışdır.

Yeni texnologiyaların tətbiqi rabitə və informasiya xidmətlətinin keyfiyyətinin yüksəlməsinə səbəb olmuşdur. Ən ucqar yaşayış məntəqələrində peyk texnologiyası vasitəsi ilə telefonlaşdırma istiqamətində böyük işlər görülmüş, nəticədə - ölkə ərazisinin tam telefonlaşdırılması başa çatmışdır. Cənubi Qafqaz və Mərkəzi Asiyada konveyr üsulu ilə kompüter istehsal edən ilk kompüter zavodu - Kür Mingəçevir şəhərində istifadəyə verilmişdir.

Son illər respublikamızda elektron kütləvi informasiya vasitələrinin sürətli inkişafı, ölkəmizdə yeni informasiya sistemlərinin yaradılmasına və radio-televiziya yayım texnologiyalarının yerləşdirilməsinə zəmin yaratmışdır. Hazırda Azərbaycan televiziyası və radiosunun əhatə dairəsi əhalinin 99,9 faizinə çatdırılmışdır.

Son 5 ildə, İKT sektorunda gedən prosseslərə uyğun olaraq, internet xidmətləri dinamik olaraq inkişaf etməkdədir. Belə ki, respublikamızda fəaliyyət göstərən internet Servis Provayderlərinin sayı 3 dəfə artaraq 30-u keçmiş, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən internet klubların sayı 1000-i ötmüşdür. Demək olar ki, bütün rayon mərkəzlərində fiber-optik xətt

vasitəsi ilə genişzolaqlı xidmətlər, həmçinin sürətli internet xidməti üçün geniş imkanlar yaradılmışdır. Eyni zamanda ölkə ərazisində bütün internet provayderlərə eyni şəraitin yaradılması məqsədilə şəhərlərarası telefon kanallarından müvəqqəti olaraq ödənişsiz istifadəyə şərait yaradılmışdır ki, bu da regionlarda internetin inkişafına müsbət təsir göstərmişdir. Bütün bunlar Ulu Öndərin ölməz ideyalarının nəticəsi olaraq Azərbaycanda həyata keçirilmişdir.

Rusiyalı jurnalist Oleq Siqanov "Zamanı qabaqlamış Ümummilli Lider" məqaləsində yazırdı: "Heydər Əliyev Azərbaycan üçün lazımi vaxtda elə nadir, zəruri şəxsiyyət, ziyalı sinfinin hakimiyyətin zirvəsinə çatmış elə bir nümayəndəsi oldu ki, o özünün fenomenal siyasi keyfiyyətləri sayəsində nəinki yeni milli ideyanı-müasir dövrün çağırışlarına adekvat olan yeni Azərbaycan dövlətçiliyi ideyasını formalaşdırmağa, həm də millətin ən geniş siyasi və intellektual qüvvələrini - bu ideyanı həyata keçirən, Azərbaycanı mütərəqqi inkişaf orbitinə çıxarmağa qabil olan əla idarəçilikləri və cəsarətli novatorları öz ətrafında sıx birləşdirməyə və onları bu məqsədə istiqamətləndirməyə müvəffəq oldu. Əliyev bunu hətta o vaxtda edə bildi ki, çoxları onun uğur qazanacağına inanmırdı, siyasi qeyri-sabitlik xaosu tarixi üfüqləri, tarixi perspektivləri görünməz etmişdi. Heydər Əliyev bunu bacarırdı".

Dövlətimizin xarici siyasət sahəsində fəaliyyətinin əsas istiqamətlərindən biri Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizə təşkil edirdi. Ümummilli lider Heydər Əliyevin başçılığı ilə informasiya blokadasının yarılması, Ermənistan - Azərbaycan münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gərgin və səmərəli iş aparıldı. Azərbaycanın başçısı bir çox dövlətlərin rəhbərləri ilə görüşlər keçirdi və üzv olduğumuz beynəxalq təşkilatların sammitlərində iştirak etdi. 1993-1998 – ci illərdə bu məqsədlə Azərbaycan Prezidenti Heydər Əliyev 33 ölkəyə 79 səfər etmiş, xarici ölkələrlə Azərbaycan arasında 431 beynəlxalq sənəd imzalamışdı. Heydər Əliyev 1993-cü ildə Prezident kimi özünün ilk xarici səfərini Fransaya etmişdi ki, bu da təsadüfi deyildi. O, dekabrın 21-də Parisdə mətbuat konfransında demişdi: "Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycanla Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur. Fransada Azərbaycan barəsində məlumat olduqca azdır. Bəzən qeyri-obyektiv məlumat, ölkəmiz, Azərbaycan dövlətinin tədbirləri barədə yalan-yalan təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələr, ikitərəfli münasibətlərin inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycanın daha yaxşı təsəvvür olunması mənasında böyük əhəmiyyətə malikdir. Mən belə düşünürəm ki, bu günlər ərzində biz bunu etməyə müvəffəq olduq. [3, s.128]

ATƏT-in 1996-cı ildə keçirilən Lissabon sammitində əldə olunan nəticə Azərbaycan diplomatiyasının Dağlıq Qarabağ və ərazi bütövlüyünün qorunması sahəsində mühüm nailiyyəti hesab edilə bilərdi. Sammitdə Ümummilli lider Heydər Əliyevin qətiyyətli mövqeyi və əzmkarlığı sayəsində ATƏT-in üzvü olan 54 ölkənin 53-ü Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş Bəyanatda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdi. Bu Bəyanat Azərbaycana qarşı informasiya blokadasının sınma nöqtəsi idi. Azərbaycan bu bəyanatın qəbul edilməsi ilə sanki Ermənistanın və erməni lobbisinin uzun müddətdən bəri apardığı təbliğatının nəticələrini dəyişməyi bacarmışdı. Ümummilli Lider həmin dövrdə bir çox təbliğat qurumlarının yerinə yetirə bilmədiyi işi həyata keçirirdi. Heydər Əliyev sammitdəki çıxışında bildirirdi: "Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacağıq. Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik". Eyni zamanda terrorla mübarizə hərəkatının dəstəklənməsi beynəlxalq aləmdə Azərbaycanı strateji tərəfdaşa çevirdi. Bu terrorçuluğu təcavüzkar siyasətinin tərkib hissəsinə çevirən və onu dövlət səviyyəsində dəstəkləyən Ermənistana qarşı mübarizədə Azərbaycan üçün daha əlverişli imkanlar açırdı. NATO ilə sıx əməkdaşlığın davam etdirilməsi nəticəsində ölkəmizi təmsil edən hərbi hissə sülhməramlı qüvvələrin Kosovoda və Əfqanıstandakı əməliyyatlarında iştirak etdi.

Cəmiyyətin həyatında kütləvi informasiya vasitələrinin rolunu yüksək qiymətləndirən Heydər Əliyev müstəqil Azərbaycanın dövlət informasiya orqanının işinin müasir tələblər səviyyəsində qurulmasına böyük diqqət yetirirdi. Məhz Heydər Əliyevin sayəsində müstəqil Azərbaycanın

informasiya agentliyi dünya informasiya məkanına çıxmış, Azərbaycan reallıqlarının yayılma corafiyası geniş vüsət almışdır.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi cənab İlham Əliyev prezidentlik fəaliyyəti dövründə daxili və xarici siyasətə yeni ab-hava, yeni çalarlar gətirdi. Bu siyasi kurs nəinki ölkəmizdə və regionda, eləcə də dünyada cərəyan edən geosiyasi və iqtisadi proseslər, bu sahədəki müsbət beynəlxalq təcrübə nəzərə alınmaqla müəyyənləşdirilib. Təsadüfi deyil ki, qloballaşan dünyada sosial-iqtisadi inkişafın lokomotivi sayılan informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqi bu siyasi kursda prioritet məsələ elan olunub. Azərbaycanın İKT sahəsində regionun aparıcı ölkəsinə çevrilməsi üçün məqsədyönlü dövlət siyasəti həyata keçiri lir.

İstifadə edilmiş ədəbiyyat

1. Qasımıov Ə. H.Əliyevin inkişaf stategiyası və Naxçıvan Muxtar Respublikası, Bakı, 2009, s.105
2. Heydər Əliyevin İKT siyasəti müasir mərhəldə. Azərbaycan 2009, 10 may.
3. Siqanov O. Zamanı qabaqlamış Ümummilli Lider. Azərbaycan, 2009, 15 aprel.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı,1997. s.89
5. Heydər Əliyevin Lissabon sammitindəki çıxışı, https/anl.az/

YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN PLANLAŞDIRILMASINDA DAVAMLI İNKİŞAF PRİNSİPLƏRİNİN TƏTBİQİ İSTİQAMƏTİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

Kamil Həsən oğlu Qasımov
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
baku_2007@mail.ru

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və cənab Prezident İlham Əliyevin rəhbərlik etdiyi müasir müstəqil Azərbaycan dövlətində yaşayış məskənlərinin planlaşdırılmasına milli artım və inkişaf prosesinin tərkib hissəsi kimi baxılır. Onu demək mümkündür ki, yaşayış məskənlərinin davamlı inkişaf prinsipləri əsasında planlaşdırılması mövcud iqtisadi resurslar və texniki biliklər kontekstində ölkə əhalisinin əsas sosial ehtiyaclarını müəyyən etməyə, ifadə etməyə və təmin etməyə yönələn prosesdir.

Azərbaycan dövlətinin siyasətinin də əsasında xalqın rifahının yüksəldilməsi dayanır, buna görə də Ulu öndər Heydər Əliyevin bu məqsədə çatmaq üçün müəyyənləşdirdiyi siyasi xətti bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev son 15 ildə ölkəmizdə islahatlar kursunu daha da dərinləşdirib [1].

Ulu öndər Heydər Əliyev bütün siyasi fəaliyyəti dövründə Azərbaycan təbiətinin mühafizəsinə böyük diqqət yetirmiş, məhz Onun rəhbərliyi ilə ekoloji siyasətin həyata keçirilməsi üçün genişmiqyaslı qanunvericilik bazası işlənib hazırlanmış və qəbul edilmişdir.

İstənilən yaşayış məntəqəsinin inkişaf strategiyası yaşayış məskəninin cəmiyyətin yeni maraq və tələbatları, texnologiya və sənayenin inkişafının ən son tendensiyaları nəzərə alınmaqla tərtib edilmiş planının təməl elementidir. İnkişaf planı yaşayış, sənaye və ya kənd təsərrüfatı əraziləri kimi konkret ərazilərdən istifadənin hədəflədiyinin təsvir edildiyi bir sıra xəritələrdən ibarətdir. O, həmçinin ərazinin inkişaf məqsədlərini, məsələn, yolların və yerli şəraitin yaxşılaşdırılması planlarını da özündə ehtiva edir. Bu baxımdan inkişaf planları milli və regional planlaşdırma strategiyaları ilə uyğun olmalı, o cümlədən mümkün qədər yaşayış məskənlərinin inkişaf planı milli inkişaf prosesinin tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Yəni yaşayış məskənlərinin inkişaf planını milli inkişaf strategiyasının digər mühüm elementlərindən, yəni sosial və iqtisadi planlaşdırmadan təcrid etmək mümkün deyil [2].

Heydər Əliyev respublikamızda ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Azərbaycan xalqının və dövlət-

çiliyinin inkişafında misilsiz xidmətləri olan Ulu Öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyət həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritetlər üzrə tədbirlər görülüb. Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən, ekologiya sahəsində verdiyi tövsiyələr bu gün də görülən işlərdə rəhbər tutulmaqdadır.

Ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması davamlı və dayanıqlı inkişafın əsas amillərindəndir. Ətraf mühitin qorunması və inkişafı sahəsində Xalqımızın Ümummilli Lideri Abşeronun yaşıllıqlar diyarına çevrilməsi üçün bir çox tədbirlərin görülməsinə nail olub. Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə (1969-1982) yaşıllığın qədrini bilməyənlərə anlatdı ki, yaşıllıq olmayan yerdə həyat yoxdur. Hər kəs iki ağac əkib böyütməlidir. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonar müharibə şəraitində, ağır vəziyyətdə olsaq da, nəinki Bakı şəhərində, eləcə də, respublikamızın bütün bölgələrində yaşıllığa diqqət yenidən artırıldı. Planetin ağciyərləri olan meşələrin qorunması yenidən gündəmə gəldi. Yaşıllaşdırma paytaxt Bakıda və Abşeronda bundan sonra başladı [3].

Qeyd edək ki, Heydər Əliyevin rəhbərliyi dövründə, 1969-1982-ci illərdə ətraf mühit sahəsində 8 qanun qəbul olunub, Hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilib.

1993-cü ildə yenidən hakimiyyətə gəlmiş Ulu Öndərimiz ekoloji məsələləri bir daha ön cərgəyə çəkdi və meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi:

1998-ci ildə ekoloji prioritetləri müəyyən edən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlandı. Bu Proqramda nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycanda müasir Təhlükəli Tullantılar poliqonu, Xıllı Nərə Balıqartırma zavodu inşa edildi.

Respublikamızda ekoloji problemlərin həll edilməsini daim diqqətdə saxlayan, xüsusilə yaşıllaşdırmaya böyük önəm verən Ulu Öndər Heydər Əliyevin 2001-ci il 23 may tarixli Fərmanı ilə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadənin ayrı- ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, Dövlət Hidrometeorologiya Komitəsi və "Azərmeşə" İstehsalat Birliyi ləğv edilib və bunların bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb [4].

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Ulu öndər Heydər Əliyevin qərarı nəticəsində Bakının və Abşeron yarımadasının digər yaşayış məntəqələrinin keyfiyyətli içməli su ilə təmin olunması məqsədilə 2002-ci ildə Oğuz və Qəbələ rayonları ərazisindəki zəngin su ehtiyatlarının paytaxta gətirilməsi üçün Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi qərara alındı.

2003-cü ildə Heydər Əliyev tərəfindən ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Bu strateji proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqramları, Kompleks tədbirlər Planı təsdiq edilib və həyata keçirilir.

Ulu öndər Heydər Əliyev respublikanın rəhbəri təyin olunduğu andan Abşeron yarımadasının su təchizatı istiqamətində müxtəlif tədbirlər həyata keçirildi. Ümummilli Liderin təşəbbüsü ilə Kür-Bakı su kəmərinin tikintisinə başlanıldı. Ceyranbatan su qovşağında yenidənqurma işləri həyata keçirildi.

II Kür su kəmərinin tikintisi haqqında qəbul olundu və I Kür su kəmərinə parallel olaraq II Kür su kəmərləri sistemi istifadəyə verildi və s. [5].

Bu mövzu sahəsində tədqiqatların aktuallığını belə izah edə bilərik ki, həyata keçirilmiş bu və digər bir sıra silsilə tədbirlər və layihələrin yaşayış məntəqələrinin planlaşdırılması üçün önəmi təsadüfi deyil, çünki davamlı inkişafla bağlı həyata keçirilən hər bir layihənin, qəbul olunan hər bir qanunun sakinlərin həyat keyfiyyətinə birbaşa təsiri var.

Bu tədqiqatın məqsədi müstəqil və müasir Azərbaycanda əhalinin həyat keyfiyyətinin yüksəldilməsi məqsədilə yaşayış məntəqələrinin davamlı inkişaf prinsiplərinə əsasən qurulması prosesindəki nailiyyətlərin hansı formada Ümummilli Lider Heydər Əliyevin öngördüyü siyasətin nəticəsi olduğunun öyrənilməsidir.

Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- davamlı inkişaf prinsiplərinin şəhər mühitində yaşayış sahələrinin planlaşdırılması və dizaynında praktiki olaraq necə tətbiq oluna biləcəyinə dair hərtərəfli anlayışı araşdırmaq və inkişaf etdirmək;
- yaşayış planlamasında davamlı inkişaf prinsiplərinin uğurla həyata keçirilməsini müəyyən edən əsas göstəriciləri və meyarları müəyyən etmək;
- yaşayış yerlərinin planlaşdırılmasında davamlı inkişaf prinsiplərinin effektiv həyata keçirilməsinə mane olan problemləri, maneələri və maneələri təhlil etmək və həll etmək;
- Ümummilli lider Heydər Əliyevin rəhbərliyindən indiki dövrə qədər Davamlı yaşayış sahəsinin inkişafına kömək edən strategiyaların, dizayn yanaşmalarının və siyasət çərçivələr toplusunu araşdırmaq;
- müasir zamanda Prezident İlham Əliyevin öndərliyi ilə davamlı inkişaf sahəsində həyata keçirilən və yaşayış məntəqələrinin formalaşmasına töhfə verən layihələr və qanunlar toplusunu araşdırmaq [6].

İstifadə edilmiş ədəbiyyat

1. ("Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" https://e-qanun.az/framework/27284)
2. Azərbaycan 2030: social iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474
3. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası- Dayanıqlı inkişaf məqsədlərinin İcrasına dair azərbaycanda görülən işlər və Əldə olunan nailiyyətlər haqqında 2021-ci il üzrə Yekun hesabat
4. Rauf Məmmədov. Respublika "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" , fevral 2018, https://genprosecutor.gov.az/az/post/2436
5. Rzayev İ.M Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək prespektivlər. Monoqrafiya. Bakı: Elm, 2010, 468 səh.
6. Şəfaqətov Günəş Musa oğlu. "Regional tərəqqi davamlı inkişafın mühüm istiqaməti kimi" Davamlı inkişafın milli modeli və strategiyası.

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

Nailə Nail qızı Eminova
ETN Fizika İnstitutu
eminovanaile691@gmail.com

Heydər Əliyev Azərbaycan tarixində ən nüfuzlu siyasi liderlərdən biri kimi tanınır. O, Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və inkişafında əvəzsiz xidmətlər göstərməklə, ölkənin milli mənəviyyatının möhkəmləndirilməsində ciddi bir rol oynamışdır.

Heydər Əliyev, 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti olmuşdur. Onun idarəçilik dönəmi boyunca milli-mənəvi dəyərlərə verdiyi qiymət, Azərbaycanın tarixi və mədəni irsinin, dilinin və mədəniyyətin möhkəmləndirilməsi üçün ciddi addımlar atılmasına səbəb olmuşdur. Dövlət səviyyəsində tarixi abidələrin bərpası, mədəniyyət mərkəzlərinin yaradılması, milli ədəbiyyatın və musiqinin dəstəklənməsi, milli mədəniyyət abidələrinin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi kimi bir çox konkret addımlar Heydər Əliyevin liderliyi dönəmində həyata keçirilmişdir.

Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərə verdiyi qiymət, Azərbaycanın beynəlxalq ictimaiyyətə tanıdılmasında da vacib bir rola malik olmuşdur. O, Azərbaycanın tarixi, mədəniyyəti və ədəbiyyatının dünya miqyasında daha geniş tanıdılmasını təmin etmək üçün ciddi səylər göstərmiş və beynəlxalq münasibətlərin inkişafına dəstək olmuşdur.

Ümumilikdə, Heydər Əliyev ciddi səylər göstərərək, Azərbaycanın siyasi, mədəni və sosial sahələrdə möhkəmlənməsini təmin etmişdir.

Heydər Əliyevin prezidentlik dönəminin əsasında milli-mənəvi dəyərlərin möhkəmləndirilməsi, tarixi irs və mədəniyyətin qorunması, vətən sevgisinin təşviqi inkişafı üzərinə fokuslanmış dövlət siyasəti yer alırdı. Bu dövr Azərbaycanın müstəqilliyini qorumaq, inkişaf etdirmək üçün əhəmiyyətli bir dövr idi və Heydər Əliyev bu sahədə ciddi səylər göstərməyi qarşısına vəzifə qoymuşdu.

Bununla birlikdə, milli mənəvi dəyərlərə görə Heydər Əliyevin səylərini qiymətləndirmək müstəqil tədqiqatların obyektivliyini qorumaq və dövrün siyasi, iqtisadi və mədəni şəraitini nəzərə almaq tələb edir.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, milli-mənəvi dəyərlərin təşviq edilməsi məsələsində əsaslı səylər göstərmiş və bu sahədə dövlət siyasətini təşkil edərək həyata keçirmişdir. Bu səyləri elmi bir üslubda qiymətləndirmək üçün onun milli-mənəvi dəyərlərə verdiyi önəmi, bu dəyərlərin inkişafına və möhkəmlənməsinə yönəldilən konkret addımları və onun bu sahədəki strateji baxışını və prinsiplərini müzakirə etmək əhəmiyyət kəsb edir.

Heydər Əliyevin fikir və təəssüratları milli-mənəvi dəyərlərin təşviq edilməsinə səmərəli şəkildə bərabər gəlmişdir. O, milli mənəvi dəyərlərin inkişafı və möhkəmləndirilməsinə həsr olunan əsas siyasi məqsədlərdən birini görürdü. Heydər Əliyev, milli mənəvi dəyərləri özündə birlik ruhunun əsasını müəyyənləşdirən əsas mənbələr kimi qiymətləndirirdi.

Onun dövründə milli-mənəvi dəyərlərin təşviqi müxtəlif sahələrdə həyata keçirilmişdir. Məsələn, təhsil sisteminin bütün tərəflərində milli tarix və mədəniyyətə olan diqqət artırılmış, tarixi və ədəbi incəsənətin öyrədilməsi və mədəni mirasın qorunması üçün müasir texnologiyalardan istifadə edilmişdir. Həmçinin, milli bayram və mərasimlərə dövlət səviyyəsində diqqət çəkilmiş, milli ədəbiyyat və musiqi mədəniyyətinin inkişafına dəstək verilmişdir.

Heydər Əliyevin milli-mənəvi dəyərlərə verdiyi önəm, Azərbaycanın birləşmiş, güclü və müstəqil bir milli kimliyə malik olmasını təmin etməkdə böyük bir rolu olduğunu göstərir. Onun milli mənəvi dəyərləri təşviq edən siyasəti, ölkənin sosial, iqtisadi və siyasi sahələrdə də inkişafına xidmət edən müasir bir təhlükəsizlik strukturu yaratmaqda əhəmiyyətli rol oynamışdır.

Əsas məqsəd milli-mənəvi dəyərlərin təşviqi ilə milli kimliyin möhkəmləndirilməsi olmuşdur və bu, Heydər Əliyevin siyasi fəaliyyətinin əsasını təşkil etmişdir.

Heydər Əliyev, milli-mənəvi dəyərlərin siyasi fəaliyyətlərlə təminatı mövzusunda əhəmiyyətli bir rola malik olmuşdur. Onun siyasi fəaliyyəti, milli-mənəvi dəyərləri qorumaq, möhkəmləndirmək və inkişaf etdirmək üçün müxtəlif sahələrdə sürətli və sistematik addımlar atmağı özündə əsas tutmuşdur.

Heydər Əliyev, milli-mənəvi dəyərlərin siyasi fəaliyyətlərlə təminatı baxımından iki əsas sahəyə fokuslanmışdır: dövlət quruculuğu və milli təhlükəsizlik. Onun liderliyi altında, Azərbaycanın milli mənəvi dəyərləri dövlətin birləşdirici və möhkəmləndirici bir ünsürü kimi qəbul edilmişdir. Bu, milli-mənəvi dəyərlərin dövlət siyasətinin, qanunvericiliyin və idarəetmənin təsirlərini asanlaşdırmağı hədəfləyən bir strateji dəyərləşmə prosesinin nəticəsidir.

Heydər Əliyev, milli-mənəvi dəyərlərin təminatında dövlət quruculuğunun əhəmiyyətini çox yaxşı anlamışdır. Onun prezidentlik dönəminə dövlət quruculuğu prosesində ölkənin tarixi və mədəni ənənələri ilə uyğunluğu və bu ənənələrin inkişafına daxil edilməsi dəyərlərinə görə özəlliklə diqqət yetirilmişdir. Bu, milli mədəniyyət mərkəzlərinin bərpası, tarixi abidələrin qorunması, milli ədəbiyyat və mədəniyyətin inkişafına dəstək, milli maraqların qorunması və s. kimi bir sıra addımları əhatə edir.

Milli təhlükəsizlik məsələləri də Heydər Əliyevin siyasi fəaliyyətində əhəmiyyətli yer tutmuşdur. O, milli mənəvi dəyərlərinin qorunması və möhkəmləndirilməsinin ölkənin təhlükəsizliyi üçün əsaslı bir təminat olduğunu vurğulamışdır. Bu baxımdan, milli mənəvi dəyərlərin təhlükəsizlik strukturları ilə birləşdirilməsi, milli birlik və daxili stabilliyin qorunması məqsədilə strateji planlar hazırlanmış və həyata keçirilmişdir.

Əsas məqsədlərdən biri milli mənəvi dəyərlərin gücləndirilməsi idi. Bu, milli kimliyin və birlik hissinin qorunması üçün strateji bir təhlükəsizlik çərçivəsinin yaradılmasını dəstəkləməyi

hədəfləyirdi. Heydər Əliyev, milli ruhun siyasi fəaliyyətlərlə dəstəklənməsini ölkənin birləşməsi, özünün müstəqilliyi və bütövlüyünün gücləndirilməsi üçün əsaslı bir vasitə kimi görmüşdür.

Nəticə

Heydər Əliyev, Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və inkişafına dair əvəzlənməz xidmətləri ilə ölkənin tarixində daimi bir bərpa və inkişaf prosesinə kömək etmişdir. Onun liderliyi, milli dəyərlərin qorunması, möhkəmləndirilməsi və təbliğinə daimi təminat olmuş, Azərbaycanın milli kimliyinin və mənəviyyatının möhkəmlənməsinə və inkişafına əhəmiyyətli şəkildə töhfə vermişdir.

O, milli mənəvi dəyərlərin qorunması və inkişafı üçün dövlətin bərpası, tarixi irsin qorunması, milli mədəniyyətin inkişafı və təbliği sahələrində sürətli və ciddi addımlar atmışdır. Tarixi abidələrin bərpası, mədəniyyət mərkəzlərinin yaradılması, milli ədəbiyyatın və musiqinin dəstəklənməsi, milli ədəbiyyat abidələrinin dünya mədəniyyətinin birləşik mirasına daxil edilməsi kimi addımlar, onun liderliyi altında həyata keçirilmişdir.

Ulu öndər Heydər Əliyev, milli mənəvi dəyərlərin qorunması və inkişafında dövlətin siyasi strukturlarının, qanunvericiliyin və idarəetmənin bu dəyərlərə sıx əsaslanmasını təmin etmişdir. Bu, milli kimliyin möhkəmləndirilməsi və özünəməxsus milli mənəviyyatın qorunması üçün əsaslı zəmin yaratmışdır.

Əlavə olaraq, Heydər Əliyevin milli-mənəvi dəyərlərə verdiyi qiymət, Azərbaycanın beynəlxalq arenada tanınmasının artmasına da səbəb olmuşdur. O, milli mənəvi dəyərləri dünya miqyasında daha geniş tanıtmaq və dəyərlərin qorunması üçün beynəlxalq tədbirlər təşkil etmək üçün aktiv şəkildə çalışmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. "Ədəbiyyat və Milli Dəyərlərə Heydər Əliyevin Bakışı" - Natiq Cəfərli. Bakı, 2002.
2. "Əfsanələr Və Yaşayışın Dərsləri: Heydər Əliyev" - Vüqar Şikərov. Bakı, 2006.
3. "Heydər Əliyev: Milli Lider" - Heydər Əliyev Haqqında Elmi-Məruzələr. Bakı, 2018.
4. "Heydər Əliyev və Milli Dəyərlərimiz" - Nəcəf Məmmədov, Elçin Cəfərli. Bakı, 2015.
5. "Heydər Əliyev və Milli Mənəvi Dəyərlərimiz" - Cəlil Hacıyev. Bakı, 2008.
6. "Heydər Əliyev və Milli Dəyərlərimiz" - Ümummilli Liderin Ədəbi, Mədəni və Siyasi Mirası Haqqında. Bakı, 2003.
7. "Heydər Əliyev və Milli Dəyərlər" - Elçin Cəfərli. Bakı, 1999.
8. "Heydər Əliyev və Milli Mənəviyyatın Təşviq Edilməsi" - Elçin Cəfərli. Bakı, 2007.
9. "Heydər Əliyev: Milli İdealın Təşviqi" - Rüfət Əsgərov. Bakı, 2016.
10. "Heydər Əliyev və Milli Mənəviyyat: Vətəndaşların Mənəvi-Tərbiyəsi Üçün Yol Göstərici" - Səməd Əfəndiyev. Bakı, 2008.
11. "Heydər Əliyev və Milli Mənəviyyatın Siyasi Fəaliyyətlərlə Təminatı" - Elçin Cəfərli. Bakı, 2011.
12. "Heydər Əliyev: Milli Dəyərlərin Siyasi Fəaliyyətlərlə Təminatı" - Rüfət Əsgərov. Bakı, 2017.
13. "Heydər Əliyev və Siyasi Stabilitet: Milli Mənəviyyatın Rolu" - Səməd Əfəndiyev. Bakı, 2015.
14. "Milli Dəyərlər və Mənəviyyat: Heydər Əliyevin Fəaliyyəti" - Vüqar Şikərov. Bakı, 2010.
15. "Milli Dəyərlər və Siyasi İnkişaf: Heydər Əliyevin Siyasi Yönümləri" - Vüqar Şikərov. Bakı, 2009.
16. "Milli Mənəviyyat və Heydər Əliyev: Gələcək Üçün Bir Məqam" - Natiq Cəfərli. Bakı, 2012.
17. "Milli Mənəviyyat və Siyasi Stabilitet: Heydər Əliyevin Yönümləri" - Natiq Cəfərli. Bakı, 2013.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-İNDONEZİYA MÜNASİBƏTLƏRİ

Laura Həbib qızı Zərbəliyeva
Azərbaycan Dillər Universiteti
laurazarbalieva@yahoo.com

Son dövrlər Azərbaycanın Cənub-Şərqi Asiya ölkələrilə, xüsusilə də İndoneziya ilə münasibətlərində canlanma müşahidə olunur. Azərbaycan və İndoneziya arasında çoxşaxəli əməkdaşlığın genişləndirilməsi istiqamətində müxtəlif təşəbbüslər həyata keçirilir, iki ölkənin potensialından səmərəli şəkildə istifadə olunur.

Azərbaycan və İndoneziya arasında qurulmuş parlamentlərarası əlaqələr, nazirliklər və başqa qurumlarla birbaşa əlaqələr dinamik şəkildə inkişaf edir. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair bir sıra sənədlər imzalanmışdır.

Azərbaycan-İndoneziya münasibətləri ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə inkişaf etməyə başlamışdır və hazırda möhkəm əsaslar üzərində, artan templə davam edir.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dünya ölkələri arasında İndoneziya Azərbaycannın müstəqilliyini tanımış, onunla diplomatik münasibətlər qurmağa başlamış ilk dövlətlərdəndir. O, 28 dekabr 1991-ci il tarixində Azərbaycanın müstəqilliyini tanıdığını bəyan etmiş, 24 sentyabr 1992-ci il tarixində isə Azərbaycan ilə diplomatik münasibət-lərin qurulmasına dair sənəd imzalamışdır.

1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan dövlətinin yeni xarici siyasət kursunun istiqamətləri müəyyənləşdirilmişdir. Bu xarici siyasətin əsasında sülh, beynəlxalq hüquq normalarına, ərazi bütövlüyü və toxunulmazlığına hörmət və əməkdaşlıq prinsipləri dayanmışdır. Həmin dövrdə Azərbaycanın xarici əlaqələri ciddi şəkildə möhkəmləndirilmiş və genişləndirilmişdir.

İlk dövrlər – 1992–1998-ci illərdə Azərbaycan və İndoneziya arasında münasibətlər intensiv olmamışdır. 10 fevral 2000-ci il tarixində Heydər Əliyev İndoneziya Respublikasının Azərbaycan Respublikasına ilk səfiri Ceki Cumantara Vahyunun etimadnaməsini qəbul etmişdir.

Səfir C.C.Vahyu ilə görüşdə H.Əliyev İndoneziyanın dünyanın böyük ölkələrindən biri olduğunu, Cənub-Şərqi Asiya bölgəsində çox mühüm rol oynadığını, İndoneziya ilə Azərbaycan arasında diplomatik əlaqələrin yaranmasının və İndoneziyanın Azərbaycana səfirinin təyin olunmasının Azərbaycan üçün çox əhəmiyyətli olduğunu, ölkələrarası əlaqələrin inkişaf etdirilməsi baxımından çox faydalı olacağını bildirmişdir. H.Əliyev İndoneziya ilə müstəqil Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarda eyni prinsiplərdən, eyni mövqelərdən çıxış etdiklərini, beynəlxalq hüquq normalarını əsas tutduqlarını və bir-birini dəstəklədiyini qiymətləndirdiyini, bunun gələcəkdə də belə olacağından əmin olduğunu vurğulamışdır [5].

Bu gün Heydər Əliyev xarici siyasət kursunu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımış bu iki ölkə arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində sıx əlaqələr qurulur.

Ötən 30 il ərzində Azərbaycan və İndoneziya arasında ikitərəfli münasibətlər dinamik şəkildə inkişaf etmiş, strateji tərəfdaşlığın yüksək səviyyəsinə çatmışdır. Siyasi-diplomatik, iqtisadi, humanitar və başqa sahələrdə səmərəli birgə əməli fəaliyyət real bəhrəsini verir və coğrafi baxımdan bir-birindən çox uzaqda yerləşən bu iki ölkənin xalqlarını yaxınlaşdırır, dostluq əlaqələrini möhkəmləndirir.

Hazırda Azərbaycanla İndoneziya arasında siyasi-diplomatik münasibətlər çox uğurla inkişaf edir. Onlar beynəlxalq təşkilatlar – Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində əməkdaşlıq edərək, hər zaman bir-birini dəstəkləyir. İndoneziya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini həmişə müdafiə etmiş, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünə hörmətlə yanaşmış, 2020-ci ildə Vətən müharibəsi zamanı Azərbaycana siyasi və

mənəvi dəstək vermişdir. Ermənistanın təşəbbüslərinə baxmayaraq, İndoneziya Ermənistanda səfirliyini açmamaqla Azərbaycana münasibətdə öz mövqeyini açıq ifadə edir.

Azərbaycanın strateji mövqeyi və təbii ehtiyatları, xüsusilə enerji resursları İndoneziyanın da diqqət mərkəzindədir. İndoneziya Şərq və Qərb arasında körpü rolunu oynayan Azərbaycanla əlaqələrini daha da inkişaf etdirməkdə maraqlı olduğu kimi, Cənub-Şərqi Asiya regionunun aparıcı ölkələrindən biri olan İndoneziya ilə əlaqələrin inkişafı Azərbaycanın da maraq dairəsindədir. İndoneziya Azərbaycan üçün Cənub-Şərqi Asiya regionunda artıq çox etibarlı strateji tərəfdaşa çevrilmişdir.

Azərbaycan İndoneziya ilə iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir və bu baxımdan iki ölkə arasında müqavilə-hüquq bazasının genişləndirilməsini fəal şəkildə dəstəkləyir [10]. Bu gün iki ölkə arasında iqtisadi-ticarət əlaqələrin dinamikası olduqca yüksəkdir. İqtisadi sahədə münasibətlərin genişlənməsi üçün həm Azərbaycan, həm də İndoneziya böyük potensiala malikdir. Müqavilə-hüquq bazası isə bu potensialın həyata keçirilməsində mühüm rol oynayır.

Həm Azərbaycan, həm də İndoneziya füsünkar təbiətə, tarixi və dini abidələrə, zəngin mədəniyyətə malik olduğundan bu ölkələr arasında turizm sahəsində əməkdaşlığın da böyük perspektivləri vardır.

Azərbaycan və İndoneziya arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlıq yüksələn xətt ilə inkişaf edir. Hər iki ölkədə müxtəlif səpkili tədbirlərin keçirilməsi bu ölkələrin xalqları arasında dostluq əlaqələrini daha da möhkəmləndirir. Təhsil və mədəniyyət sahəsində əlaqələrin inkişafında bu ölkələrdəki səfirlikər və Azərbaycan Dillər Universiteti xüsusi rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İndoneziya Respublikasının ölkəmizdə fövqaladə və səlahiyyətli səfiri təyin edilmiş Ceki Cumantara Vahyunun etimadnaməsini qəbul edərkən söhbətindən – 10 fevral 2000-ci. "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxanası. https://lib.aliyev heritage.org/az/2691754.html

2. İkitərəfli münasibətlər. https://jakarta.mfa.gov.az/az/content/3/ikiterefli-mu nasibetler

HİDROTƏMİZLƏNMİŞ DİZEL YANACAĞININ KEYFİYYƏTİNİN YAXŞILAŞDIRILMASI

[1,2]**Aytən Fazil qızı Tağıyeva,** [1]**Sevil Kamil qızı Əliyeva,** [1]**Sana Kamal qızı Əhməd**
[1]ETN akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
[2]ayten_tagiyeva97@mail.ru

İnsan şüurlu və şüursuz olaraq ətraf təbii mühitə təsir göstərir və atmosfer havasına neqativ təsirlərin artması ətraf mühitin çirklənməsi kimi ekoloji problemlərə səbəb olur. Avtomobil tullantıları hava, torpaq və suyun keyfiyyətinə geniş təsirə malikdir. Atmosferin çirklənməsi xüsusi xarakter daşıyır ki, bu da biosferin çirklənməsinə gətirib çıxarır [1, 2]. Hazırda atmosferə tullanan zərərli qazların əsas mənbələrindən biri də avtomobil nəqliyyatıdır. Qeyd olunan problemlər ekoloji təmiz və təkrarlana bilən xammal əsasında dizel yanacaqlarının alınması tələbini də qarşıya qoyur [3]. Yerinə yetirilmiş iş bu aktual problemin həllinə yönəlmişdir.

Bildiyimiz kimi, son zamanlar dizel yanacaqlarına olan sərt tələblərdən biri də onun tərkibində aromatik, xüsusən də poliaromatik maddələrin az olmasıdır. Dizel yanacağının aromatiksizləşməsi prosesində 200-350 °C qaynayan ilkin emaı dizel fraksiyası istifadə olunmuşdur. Qeyd olunan dizel fraksiyasının aromatiksizləşmə prosesini aparılmış və nəticədə tərkibində 1 % kütlədən az aromatik karbohidrogen saxlayan dizel fraksiyası nümunələri alınmışdır və xassələri öyrənilmişdir. Aromatiksizləşmiş dizel yanacağının xassələri aşağıdakı cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

Aromatiksizləşmiş dizel yanacağının fiziki-kimyəvi xassələri

Göstəriciləri	EN-590	Hidrotəmizlənmiş dizel fraksiyası	ADY
20 ºC-də sıxlıq kq/m^3, çox olmamalı	860,0	847,7	826,4
Fraksiya tərkibi, % 50 % - i qovulur 90 % - i qovulur 96 % - i qovulur	 280 350 360	 279 337 355	 280 340 355
Qapalı tigeldə alışma temperaturu, ºC, az olmamalı	55	72	72
20 ºC-də kinematik özlülük, mm^2/san, çox olmamalı	2-6	3,5286	3,00
Donma temperaturu, ºC, çox olmamalı	-10 (-35)*	-36	-30
Bulanma temperaturu, ºC, çox olmamalı	-25 (-10)*	-20	-21
Mis lövhədə sınaq, 50 ºC, 3 saat	+	+	+
Aromatik karbohidrogenlərin miqdarı, % küt.	15,0	16	1,0
Turşuluq, mq KOH /100 sm^3 yanacaq, çox olmamalı	5	2,57	0,2
Yod ədədi, mq J_2/1 q yanacaq, çox olmamalı	6	0,99	0,3
Kükürdün ümumi miqdarı, kütləcə % - lə, çox olmamalı	0,005	0,0402	0,0250
100 sm^3 yanacaqda qətranın faktiki miqdarı, mq, çox olmamalı	25	24	18
Setan ədəd, az olmamalı	51	47	46
Küllülük, %	-	yoxdur	
Sınma əmsalı, 20 ºC	1.4587	1.4736	1,4587

Cədvəl 1-dən göründüyü kimi, hidrotəmizlənmiş dizel yanacağının aromatiksizləşməsi nəticəsində tərkibində 1 % kütlədən az aromatik birləşmələr saxlayan dizel yanacağı nümunələrin alınmış, eyni zamanda dizel yanacağının digər mühüm xarakteristikaları yaxşılaşmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. E.Mövsümov, L.Quliyeva. Ətraf mühitin kimyası. Ali məktəblər üçün dərslik (II nəQr). Bakı: MBM, 2010. - 184 s.

2. A.N. Shah, G. Yun-shan, T. Jian-wei, Carbonyls emission comparison of a turbocharged diesel engine fuelled with diesel, biodiesel, and biodieselediesel blend, Jordan Journal of Mechanical and Industrial Engineering 3 (2) (2009) 111e118

3. Давыдова С.Л. Экотоксикология нефти и здоровье человека // Энергия,экономика, техника, экология, 2006, № 7. с. 47-52.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA NEFT SƏNAYESİNİN İNKİŞAFI

[1,2]**Xatirə Yusif qızı İsmayılova,** [1,3]**Səmədağa Elşən oğlu Rizvanlı**
[1]ETN akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
[2]xatire19667@gmail.com
[3]rizvanlısemedaga170@gmail.com

"1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən

neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir."

(Heydər Əliyev)

Ulu öndər Heydər Əliyev XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutmuşdur. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır.

Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Məhz buna görə də Ümummilli Liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi bazasının gücləndirilməsi əhalinin gün-güzəranının yaxşılaşdırılması, elm və təhsilin inkişafı ilə paralel aparılırdı.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft emalı sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş vermişdir. 1969-cu ildən başlayaraq, Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi neft və qaz sənayesinin də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoyması ilə səciyyələnir. [1]

Heydər Əliyevin təşəbbüsü və böyük səyi nəticəsində 70-80-ci illərdə Azərbaycanda neft sənayesinin inkişafına təkan verən 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirildi. Xəzərdə 2500 t gücündə "Azərbaycan" kranı, "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 m dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı.

Azərbaycan xalqının ümummilli lideri xarici iri neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi və "Yeni neft strategiyası" tez bir vaxtda işlənib hazırlandı. O dövrdə Azərbaycan Prezidentinin sərəncamı ilə Azəri-Çıraq-Günəşli (dərin sulu hissəsi) yataqlarının işlənməsi üzrə xarici şirkətlərlə danışıqlara başlandı. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər Heydər Əliyev onun iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. 1994-cü ilin sentyabrın 20-də Azəri-Çıraq-Günəşli (dərin sulu hissəsi) yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə "Məhsulun Pay Bölgüsü" sazişi – "Əsrin müqaviləsi" imzalandı.

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən 30 il ərzində Heydər Əliyevin "Yeni neft strategiyası"nın çox böyük uğurla reallaşması günümüzün reallığına çevrilmişdir. Bu uğurlar aşağıdakılardır:

1. Azərbaycanın, neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyaların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına sürətlə çıxışın təmin edilməsi;

2. Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sisteminin yaradılması;

Hazırda hasil edilən neft və qaz ehtiyatları dünya bazarlarına bir neçə marşrut üzrə çıxarılır. Bunlar Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərləridir. Bundan əlavə, "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində TANAP qaz kəmərində istifadəyə verilmişdir. Hazırda "Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi olan TAP kəmərinin tikintisi davam etdirilir.[3]

Bakı-Novorossiysk və Bakı-Supsa kəmərlərinin həm müsbət, həm də mənfi cəhətlərinin olmasına baxmayaraq Azərbaycan xalqının ümummilli lideri H.Əliyev düzgün qərar qəbul edərək hər iki neft kəmərinin çəkilməsini lazım bildi. İlkin neft layihəsinin həyata keçirilməsi və onun dünya bazarına ixracı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarındakı işlərin intensivləşməsinə və Azərbaycanın karbohidrogen resurslarının işlənməsinə yeni investisiyaların cəlb edilməsi üçün şərait yaratdı

Beləliklə, XX əsrin ən möhtəşəm qlobal layihələrinə start verildi. Belə ki, bu layihələrin həyata keçirilməsi ölkə iqtisadiyyatının güclənməsinə, Xəzərin dərinsulu hissələrində kəşf edilmiş yataqlarında istismara başlanmasına, nüfuzlu xarici neft şirkətləri ilə səmərəli əməkdaşlıq qurulmasına,müasir texnologiyaların yeni nəsil avadanlıqlarını tətbiq edilmədonə nail olundu.

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu gün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının və ən əsası XXI əsrdə yüksək inkişaf etmiş Azərbaycan dövlətinin yaranmasına önəm vermişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Bakı Dövlət Universitetinin dünyaşöhrətli məzunu.Bakı, "Universitet", nəşriyyatı,2001, 229 s
2. İsmayılova X.Y, Qasəmova S.B, İsmayılzadə X.V və s. " Ulu öndər Heydər Əliyev və Azərbaycanın müasir neft emalı sənayesi", Heydər Əliyev-100:- "müstəqil Azərbaycanın qurucusu və hərtərəfli strategitasının müəllifi" mövzusunda Respublika konfransı. Mingəcevir Dövlət Universiteti, 4-5 may 2023
3. İsmayılova X.Y., İsmayılzadə X.V., Binnətova N.M. Ulu öndər Heydər Əliyevin Azərbaycanın elm və mədəniyyətində rolu / "Ümummilli lider Heydər Əliyev və Gəncə" mövzusunda Respublika konfransının materialları, Gəncə,4-5 may 2023

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN ELMİNİN, TƏHSİLİNİN, MƏDƏNİYYƏTİNİN VƏ İDMANIN İNKİŞAFININ BÖYÜK HİMAYƏDARIDIR

Əsli Hüseyin qızı Namazova
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
esli.namazova@sport.edu.az

Ölkəmizdə idmanın bütün növlərinə diqqət və qayğı göstərilmişdir. İdman insanların fiziki sağlamlıq və mənəvi tərbiyəsində oynadığı müstəsna rolu Azərbaycan Xalqının Ümummilli lideri Heydər Əliyev bədən tərbiyəsi və idmanın inkişafını daim diqqətində saxlamışdır. Ulu öndər Heydər Əliyev gənclərmizin fiziki hazırlığına, sağlamlığına xüsusi qayğı ilə yanaşırdı. Heydər Əliyev Azərbaycan vətəndaşalarını hərtərəfli inkişaf etmiş bir xalq kimi görürdü. Heydər Əliyev gənclərin sağlam düşüncəli, yeni nəsilin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Ümummilli Lider idmançıların Olimpiya, Dünya və Beynəlxalq yarışlarda iştrakına xüsusi diqqət ayırırdı.

Heydər Əliyev beynəlxalq təşkilatlarla əməkdaşlığa diqqət yetirirdi. Ümummilli lider Heydər Əliyev Azərbaycan respublikasında idmanın və vətəndaşların fiziki sağlamlığı ilə bağlı ideyalarının daha sürətlə gerçəkləşməsini təmin etmişdir. Heydər Əliyev respublika vətəndaşlarının fiziki sağlamlığı və idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə reallığa çevrilməsinə böyük imkanlar açmışdır. [1, s.32-36]

1973-cü ildə Bakıda möhtəşəm idman sarayının təməli qoyularaq inşa edilmişdir.

1974-cü ildə ölkənin Azərbaycanın 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərmişdir.

1975-ci ildə Bakıda 250 idman sağlamlıq meydançaları və şəhərciyi salınmışdır.

1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzalamışdır.

1995-ci ildə Azərbaycan Gənclər və İdman Nazirliyi bütün imkanlarını səfərbər edərək, Azərbaycan Respublikasında ilk dəfə olaraq Əl Oyunları sarayında "İdman oyunlarına baxış" adlı tədbir təşkil etmişdir. "İdman oyunlarına baxış" adlı tədbirdə Heydər Əliyev geniş idman ictimaiyyəti ilə görüş keçirərək onlara həmişə dəstək olacağını bildirmişdir.

1995-ci il mart ayının 5-də Ulu Öndərin "İdman fondunun yaradılması haqqında" yeni fərmanına əsasən Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin, fiziki aktivliyin təbliğ edilməsi, bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının inkişaf etdirilməsi, ümumxalq yardımının təşkil olunması məqsədilə, uşaq, yeniyetmə və gənclərin idmana marağını artırmaq,

Azərbaycan idmanının Olimpiya, Dünya və beynəlxalq miqyasa çıxmasına şərait yaratmaq üçün Azərbaycan Prezidenti yanında fond yaradılmışdır.

23 dekabr 1997-ci ildə Azərbaycan idman aləmi üçün xüsusilə əlamətdar bir tarix olmuşdur. "Bədən tərbiyəsi və idman haqqında" Qanunun imzalanaraq təsdiq edilmişdir.

28 dekabr 1998-ci ildə "Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikası Qanunu imzalanaraq tətbiq edilmişdir. [2, s.72-78]

Bütün idman mütəxəssislərinin, idman təşkilatlarının gözlədiyi bu dövlət sənədləri hazırda idmanımızın inkişafının hüquqi bazasının təminatçısıdır.

Ölkəmizdə idman qurğularının bərpası, yeni obyektlərin tikilib istifadəyə verilməsi, Olimpiya idman növləri ilə yanaşı, qeyri-olimpiya növləri, Azərbaycan milli xalq idman oyunları milli güləş, milli qurşaq güləşi idman növü, zorxana və pəhləvan güləşi, nərd, milli mütəhərrik oyunlar, atüstü milli oyunlar, kəndirlə mübarizə idman növü, dünya xalqlarının ənənəvi güləş növləri, dünya xalqlarının ənənəvi intelektual oyunları, Azərbaycanın və digər xalqların ənənəvi idman növlərinin də tərəqqisinə xüsusi diqqət yetirilmişdi.

Heydər Əliyev 18 dekabr 1998-ci ildə "Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında" sərəncam imzalamışdır. Dünyanın ən güclü şahmatçıları ilə bir sırada Azərbaycan şahmatçılarının mübarizəyə qatılaraq yarışlarda qələbə qazanmağına zəmin yaratmışdır.

Respublikamızda əhalinin idman, fiziki sağlamlıq sahəsində görülən işlərə Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsinin rəhbərliyi tərəfindən həyata keçirilir.

1997-ci il iyul ayının 31-də Cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra ölkədə bədən tərbiyəsi və idman yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Azərbaycan respublikası Beynəlxalq Olimpiya Hərəkatına qoşulmuş, bu sahədə sistemli şəkildə qlobal işlər görülmüşdü. [3, s.21-24]

1997-ci ildə Milli Olimpiya Komitəsi uşaq, yeniyetmə və gənclər arasında beynəlxalq yarışların, Avropa və dünya çempionatlarının ölkəmizdə keçirilməsi üçün əhəmiyyətli işlər görmüşdür.

1998-ci ilin yayında cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq Yeniyetmələrin Respublika Oyunları keçirilmişdi. Yeniyetmələrin Respublika Oyunları ölkəmizin idman tarixində əlamətdar hadisəi idi. Suveren Azərbaycanın yeniyetmə idmançıları üçün ilk dəfə olaraq Respublika səviyyəli yarışlar təşkil edilmişdir. Bu yarışların təşkili və keçirilməsində Milli Olimpiya Komitəsilə yanaşı, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Həmkarlar İttifaqı Konfederasiyası da iştirak etmişdir.

26-mart 2001-ci ildə Milli Olimpiya Komitəsinin inzibati binası istifadəyə verilmişdir.

2001-ci ildə Bakının Maştağa qəsəbəsində Olimpiya İdman Mərkəzi tikilib istifadəyə verilmişdir.

2000-ci ildən etibarən Azərbaycanın müxtəlif rayon və bölgələrində müasir tipli olimpiya idman kompleksləri, idman meydançaları tikilib istifadəyə verilməyə başlanmışdı.

Cənab İlham Əliyevin təşəbbüsü ilə hələ 1997-ci ilin sonunda idmançıların və onların məşqçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasının zəruriliyini əsas götürərək, öz vəsaiti hesabına təqaüdlər təsis etmişdir. [4, s.12-16]

Cənab İlham Əliyev Azərbaycan idmanının inkişafında seçilən veteran idmançılar üçün də xüsusi təqaüd təyin etmişdir.

23 mart 1999-cu il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 42 saylı qərarı ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası adlandırılmışdır. Akademiyada ali təhsilli mütəxəssislərin buraxılışının sayı artaraq hal hazırkı dövürlərdə (2023-ci ildə) tələbə məzunların sayı 1246-nəfərə çatmışdır.

2001-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 70 illik yubiley mərasimi dövlət səviyyəsində qeyd edilmişdi.

25 mart 2002-ci i1 tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 47 saylı qərarı ilə Bakı Bədən Tərbiyəsi Texnikumu Bakı Bədən Tərbiyəsi və Turizm Kollecinə çevrilmişdir.

13 fevral 2006-cı il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 45 saylı qərarı ilə 10 aprel 2006-cı il tarixli Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 101 nömrəli əmri ilə Mingəçevir şəhərində Bakı Bədən Tərbiyəsi və Turizm Kollecinin Mingəçevir şöbəsinin bazasında yaradılmışdır. [5, s.80-85]

Mingəçevir şəhərində Bədən Tərbiyəsi və Turizm Kollecinin mütəxəssislərin buraxılışının sayı artaraq (2023-ci ildə) tələbə məzunların sayı 1236-nəfərə çatmışdır.

2004-cü il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 181 №-li sərəncamı ilə "Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı" təsdiq edilmişdir. Azərbaycan respublikasının prezidenti cənab İlham Əliyev 2012-ci ili "İdman ili" elan etmişdir.

Respublikamızda orta ümumtəhsil və idman məktəblərində, ali tədris müəsissələrinin idman klublarında fiziki tərbiyə və idman işləri daha yüksək səviyyədə təşkil edildi.

"2004-2008-ci illərdə bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı Dövlət Proqramı"-nın, "2005-2015-ci illərdə Azərbaycanda futbolun inkişafı ilə bağlı Dövlət Proqramı" -nın icrasını təmin etmək məqsədi ilə mütəmadi olaraq şagird və tələbələr arasında idman yarışları, kütləvi tədbirlər keçirilir, universiadalar, spartakiadalar, birinciliklər, dövlət əhəmiyyətli bayramlara həsr olunan tədbirlər və xatirə turnirləri təşkil olunur.

Dövlət başçımızın idman sahəsində əməyi Beynəlxalq Olimpiya Komitəsi tərəfindən yüksək qiymətləndirilmiş.

2004-cü ildə cənab İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsinin ən ali mükafatı "Olimpiya ordeni" ilə təltif olunmuşdur.

Doğma Vətənində isə onun ən ali mükafatı xalqın, elin sevgisi, məhəbbətidir. Azərbaycan Olimpiya Hərəkatı və idman həyatında ən böyük, nəhəng işlər cənab İlham Əliyevin adı ilə bağlıdır. Onun adı idman tariximizə qızıl hərflərlə yazılmışdır. Bu gün Azərbayca respublikasının sosial siyasətinin idman və Olimpiya hərəkatının istiqamətində qazanılmış uğurları, başqa dövlətlərə örnək ola biləcək təcrübədə də bunu sübut edir. Ölkəmizdə hal hazırda idman böyük sürətlə inkişaf edir. Bu xalqımızı ruhlandıraraq daha böyük qələbələr əldə etməyə aparır. Uşaqlara, yeniyetmələrə, gənclərə, idmançılara qayğı və diqqətin artırılması dövlət səviyyəsində davam etdirilir. [6, s.2-3]

Azərbaycan respublikasının bütün sahələrində olduğu kimi fiziki tərbiyə, bədən tərbiyəsi, idman və Olimpiya hərəkatı sahəsində Prezident İlham Əliyevin iradəsi və diqqəti hazırda respublikamıza yeni-yeni uğurlar gətirir.

İstifadə edilmiş ədəbiyyat

1. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 1-ci cild. Bakı – 2013, 632 s.

2. Acalov E, Əzizova Ş., Əkbərov V. Bədən tərbiyəsi və idman tarixi. Bakı, Müəllim, 2007, 196 s.

3. Heydər Əliyev və Azərbaycan idmanı [Mətn]: Sənədli publisistika /Azərbaycan Respublikası Gənclər və 4.İdman Nazirliyinin nəşri.- Bakı, 2004.-160 s.

4. Azərbaycanın statistik göstəriciləri-2004. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi / Statistik məcmuə. Bakı, Səda, 2004, 308 s.

5. Prezident İlham Əliyev və idmanımızın 5 ili [Mətn] :Sənədli publisistika /Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəşri.-Bakı, 2008.-124 s.

6. İsayev, X. Prezident İlham Əliyev Azərbaycanı yeni-yeni zəfərlərə aparır [Mətn] /Xəzər İsayev, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti, əməkdar bədən tərbiyəsi və idman xadimi // Xalq qəzeti.- 2007.- 1 dekabr.- S. 4.

ÜMUMMİLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELM VƏ İDMAN SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ SAHƏSİNDƏKİ XİDMƏTLƏRİ ƏVƏZSİZDİR

[1,2]**Vahid Müslət oğlu Vəliyev,** [1,3]**Ramiz Kamil oğlu Yaqnəliyev**
[1]Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
[2]vahid.valiyev@sport.edu.az
[3]ramiz.yaqnaliyev@sport.edu.az

Umummilli lider Heydər Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində başqa sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də ciddi dönüş yaradıldı.

Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbər seçiləndən müsbət dəyişikliklər ölkə həyatının bütün sahələrində olduğu kimi, idman sahəsində də öz bəhrəsini verdi. Həmin illərdə Bakıda və Mingəçevir şəhərində sənaye müəsissəsində, fabrik və zavodlarda idmanın gimnastika növü ilə 238 min nəfərdən çox fəhlə və qulluqçu məşğul olmuşdu.

Azərbaycan kəndlərində və Apşeronda 171 min nəfərdən çox bədən tərbiyəsi və idman kollektivləri fəaliyyət göstərirdi. Ümumtəhsil məktəblərində 2800-ə yaxın bədən tərbiyəsi kollektivi fəaliyyət göstərirdi.

Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı iki sahə üzrə aparılırdı:

- bədən tərbiyəsi və idman;
- yüksək idman ustalığı.

1971-ci ildə Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində 4507 nəfər fəaliyyət göstərirdi. Bədən tərbiyəsi və idman sahəsində çalışanların bəzilərinin bədən tərbiyəsi təhsili var idi. Həmin illərdə Azərbaycanda bədən tərbiyəsi və idmanla məşğul olanların 22 %-ni qadınlar və qızlar təşkil edirdi. Xalqın sağlamlığına bizim dövlət həmişə böyük əhəmiyyət vermişdir. Bədən tərbiyəsi və idman həmişə bütün təşkilatların diqqət mərkəzində olmuşdur.

1974-cü ildə Azərbaycan respublikasında fabrik və zavodlarda, sənaye müəsissəsində, zəhmətkeşlər arasında bədən tərbiyəsinin və idmanın inkişafına rəhbərliyi gücləndirmək məqsədi ilə nazirliklər, baş idarələr yanında bədən tərbiyəsinin və idmanın inkişafına yardım şuraları yaradılmışdı.

Həmin illərdə bədən tərbiyəsi və idman təşkilatlarında, idman işləri üzrə ixtisasçı kadrlarla möhkəmləndirilmişdi. Azərbaycanın bütün rayon və qəsəbələrində orta ümumtəhsil məktəblərində bədən tərbiyəsi və idman müəllimləri ilə təmin edilmişdi. [1, s.12-17]

01.09.1974-cü il tarixində Azərbaycan respublikası uşaq, gənclər və idman məktəblərində, təlim-məşq məşğələlərinin həcmi xeyli artırılmış, təlim tərbiyə prosesinin səviyyəsi gücləndirilmişdir. Respublikanın rayon və şəhərlərində gimnastika, atletika, üzgüçülük, avarçəkmə, qılıncoynatma, boks, güləş və digər idman növləri üzrə kulublar, cəmiyyətlər təşkil edilmişdir. Uşaq bağçalarında, orta ümumtəhsil məktəblərində, texniki peşə məktəblərində, texnikumlarda institutlarda, şagirdlər, tələbələr arasında bədən tərbiyəsi və idman işinin səviyyəsi yüksəldilmişdir.

Respublikada idman kompleksləri yaradılaraq zəhmətkeşlər, fəhlə və kəndlilər, ziyalılar arasında kütləvi bədən tərbiyəsi və sağlamlıq işi yaxşılaşdırılmış, müalicə bədən tərbiyəsi zonaları genişləndirilərək inkişaf etdirilmişdir. Azərbaycan Neft Kimya İnstitutunda və Mərkəzi Bədən Tərbiyəsi Evində boks dərnəkləri yaradılmışdı. Ölkədə tez-tez üzgüçülük, su polosu və suya tullanma növləri üzrə idman yarışları, bayramları keçirilir, güləş və ağır atletika klublarında xeyli idman həvəskarı məşq edirdi. Ayrı-ayrı idman növləri üzrə yarışlardan başqa respublikada kompleks idman turnirləri də keçirilmişdi. Azərbaycan atıcılıq məktəbi də yetirmələri ilə şöhrət qazanmışdır. Azərbaycan atıcılıq idmanını Olimpiya oyunlarında təmsil edən Albert Udaçin, Sergey Timoxin, İradə Haşımova və Zemfira Meftahəddinova çempion adını qazanmışdırlar.

Bakı şəhərinin dəniz kənarında yerləşməsi respublikada avarçəkmənin və yelkən idmanının da inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdır. Avarçəkənlərimiz ümumittifaq spartakiadalarında, Olimpiya oyunlarında, Avropa və Dünya yarışlarında müvəffəqiyyətlə çıxış etmişlər.

1967 və 1976-cı il tarixlərində Naftalan, Mingəçevir, Lənkəran, Şəki, şəhərlərində müalicə bədən tərbiyəsi dispanserləri açılaraq fəaliyyətə başlamışdır.

1964-cü ildə "Kür" idman mərkəzi Mingəçevir şəhərində yaranmışdır. Mərkəzdə akademik avarçəkmə, baydarka və kanoe üzrə yığma komandaların təlim-məşq toplanışları üçün nəzərdə tutulmuşdur. 1964-cü ildən başlayaraq Azərbaycanın Mingəçevir şəhərində avarçəkənləri dünya yarışlarında 16 qızıl, 36 gümüş və 12 bürünc medal qazanmışlar. [2, s.21-25]

Respublikamızda 1970-ci illərdə qadınlar və kişilər arasında həndbol idmanı ilə məşğul olanların sayı durmadan artmışdır. Komanda idman növlərindən vaterpol, basketbol, otüstü xokkey növləri də respublikamızda populyar olmaraq layiqli yerləri tutmuşlar. Azərbaycan vaterpolçuları və otüstü xokkeyçiləri keçmiş SSRİ yığma komandasının tərkibində Avropa və dünya çempionatlarında, Olimpiya oyunlarında iştirak edərək medallar qazanmışlar.

Azərbaycanda olimpiya və qeyri-olimpiya idman növlərinin coğrafiyası getdikcə genişlənir. Azərbaycan xalqının dastan və nağıllarında, yazılı abidələrində güləş yarışlarından çox bəhs olunmuşdur. Bu diyarda igidlər aslan, buğa, dəvə ilə güclərini sınamışlar. Azərbaycan igidləri hər zaman döyüşdə, təkbətək mübarizədə qalib gələrək igidlik adı qazanmışlar. Oğuz elinin qızları da at çapmaqda, qılınc oynatmaqda, ox atmaqda mahir olmuşlar. Qobustan qədim qayaüstü yazılarında həkk olunmuş çoxlu rəsmlər, cizgilər, ov səhnələri, heyvan fiqurları, insanların rəqs və digər fiziki hərəkətləri buna sübutdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanına əsasən, 1994-cü ildə Respublika Gənclər və İdman Nazirliyinin yaradılmışdır.

Ümummilli lider Heydər Əliyev gənclərin bədən tərbiyəsi və idmanın vəziyyəti haqqında öz fikir və mülahizələrini söyləyərək və qayğısını əsirgəməyəcəyini bəyan etmişdir.

Heydər Əliyevin birbaşa rəhbərliyi və qayğısı sayəsində Azərbaycanda yüksəlişi başlanmışdır. Azərbaycan yazıçılarının və şairlərinin əsərlərində milli ruha, millət və xalq anlayışlarına, Azərbaycan dili ilə bağlı məsələlərə önəm verilmişdir. Dünya azərbaycanlılarının təşkilatlanması, soydaşlarımızla Azərbaycan arasında əlaqələrin qurulması istiqamətində xeyli işlər görülmüşdür.

Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Ümummilli lider Heydər Əliyevin siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. [3, s.3-7]

Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq işləri, uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət, bədən tərbiyəsi və idman sahəsində, səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.Ümummilli Lider Heydər Əliyev Azərbaycanın inkişafı və tərəqqisi naminə böyük işlər görmüşdür. Heydər Əliyev bütün varlığını, həyatını Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə həsr etmişdir.

Heydər Əliyev ölkəmizin hərtərəfli inkişafı prosesinə qüvvətli təkan verərək, onu daim yüksəliş yoluna çıxarmış və Azərbaycan xalqı, dövləti qarşısında misilsiz tarixi xidmətlərini, o cümlədən xalqımızın müstəqillik arzusunun həyata keçməsində, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində və müasir Azərbaycan dövlətinin yaşadılmasında müstəsna rolu olmuşdur.

Ümummilli Lider həmişə çıxışlarında Azərbaycan yazıçılarının, şairlərinin, alimlərinin, idmançılarının, mədəniyyət xadimlərinin böyük potensiala malik olduğunu bildirmişdir. Azərbaycan xalqının təhsilində, biliyində, elm və mədəniyyətində, mənəviyyatında inkişaf rolu olduğunu bildirmişdir. Heydər Əliyevin elmimizə, tariximizə, dilimizə, milli ideologiyamıza, həsr edilmiş dərin məzmunlu əsərləri, ideya və fikirləri elm və mədəniyyətin bütün sahələrində aparılan elmi araşdırmaların metodoloji əsasıdır. Ulu Öndərin hər bir əsəri böyük əhəmiyyətə malikdir. Heydər Əliyev həmişə vətəni, xalqı ilə birlikdə olmuşdur.

Heydər Əliyevin yorulmaz fəaliyyətinin Azərbaycan elminin müxtəlif sahələri ilə bağlı əlaqələrinin coğrafiyası və tarixi çox genişdir. Bu tarixi şəxsiyyəti, fenomeni sözlə səciyyələndirmək çətindir. Çünki Heydər Əliyev yalnız bir dövləti idarə edən siyasi xadim, rəhbər deyil, həm də milyonlarla insanı böyük ideallar ətrafında səfərbər edən bir dövlət qurucusu, tarix memarıdır. Ulu Öndərin incəsənətə, mədəniyyətə, teatra, ədəbiyyata göstərdiyi xidmətlər

unudulmazdır. O, sənətdə, ədəbiyyatda həmişə tərəqqi və irəliləyiş yolunu seçməyi vacib sayardı. Heydər Əliyevin siyasi irsi o qədər zəngin, mənalı və dəyərlidir ki, nəsillər bu varislik xəzinəsindən istifadəni davam etdirirlər. Yaxın tariximizin son bir qərinəlik dövrünə nəzər saldıqda görürük ki, Azərbaycanın bütün sahələrində qazandığı uğurlar, onun günbəgün artan nüfuzu, sözün əsl mənasında, böyük insan olan Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Yüksək milli-əxlaq nümunəsi olan Ümummilli liderimiz Heydər Əliyevin fenomenal irsi və mənalı həyat yolunun fəal təbliği bu gün xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev xalqımızın qəlbində əbədi yaşayacaqdır. Milyonların ürəyindən gələn bu sözlər ona ümumxalq məhəbbətinin ifadəsi oldu: "Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev ürəklərdə yaşayacaqdır" Gənc nəsli, uşaq və yeniyetmələri milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda tərbiyə etmək üçün biz Heydər Əliyev şəxsiyyətinə müraciət etməliyik və bu dahi insanın həyatının əbədi milli örnək kimi uşaq və yeniyetmələr arasında geniş təbliğ olunmasına çalışmalıyıq. [4, s.39-43]

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi 10 il: Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin 10 illik yubileyinə həsr olunmuş nəşr. Bakı, Olimpiya, 2002, 437 s.
2. Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər: Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar, qayda və normativlər (1994-2008-ci illər) / Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi. Bakı, Avropa, 2008, 256 s.
3. Heydər Əliyev və Azərbaycanda Olimpiya Hərəkatı [Mətn] Müəlliflər. Ç.Hüseynzadə, C.Rəhmanov.- Bakı , 2002.- 43 s.
4. Heydər Əliyev və Müstəqil Azərbaycan Gəncliyi / Bakı, Qapp-Poliqraf, 2003, 368 s.

MİLLİ MARAQLAR TƏHLÜKƏSİZLİK ELMİNDƏ: REALİST PERSPEKTİV

Gülnar Fərhad qızı Nuriyeva
Milli Müdafiə Universiteti
Heydər Əliyev adına Hərbi İnstitut
gulnar_nuriyeva_84@mail.ru

Giriş

Təhlükəsizlik Elmində müasir nəzəri yanaşmalar müasir, qloballaşan dünyada dövlətin əhəmiyyətini azaltmaq və azaltmaq iddiasındadır. Onların fikrincə, dövlətin muxtariyyəti transmilli aktorların mövcudluğu, iqtisadi qarşılıqlı asılılıq və ya texnoloji tərəqqi və meyllər kimi müxtəlif amillərlə pozulur.

Müvafiq olaraq, dövlətin mövcudluğu ilə bağlı olan milli maraq Təhlükəsizlik Elmində aktual anlayış olaraq qalır. Bu konsepsiya dövlətin beynəlxalq münasibətlərdə davranışını daha yaxşı başa düşmək üçün istifadə olunur, eyni zamanda milli təhlükəsizliyin təhlili üçün keyfiyyətli analitik aləti təmsil edir.

Bütün dövlətlər, sahib olduqları gücdən asılı olmayaraq, öz milli maraqlarını həyata keçirməyə çalışırlar. Böyük dövlətlər öz milli maraqlarını iddialı şəkildə müəyyən edə bilərlər, yəni onların maraqları dövlət sərhədlərindən millərlə uzaqda və başqa dövlətlərin razılığı olmadan proqnozlaşdırıla bilər. Digər tərəfdən, kiçik dövlətlər üçün siyasətin mahiyyəti daxili sabitliyin əldə edilməsinə və qorunub saxlanmasına əsaslanır. Kiçik dövlətin siyasətinin formalaşması böyük dövlətlərin maraqlarının müəyyən edilmiş balansı, habelə siyasi ifadə və milli maraqların qorunması ilə şərtlənir. Nəticədə, milli maraq təhlükəsizliyi anlamaq üçün dəyərli analitik çərçivəyə çevrilir və ya Vulfersin qeyd etdiyi kimi, "milli maraq düsturu praktiki olaraq milli təhlükəsizlik düsturu ilə sinonimləşmişdir [1].

"Milli maraq" termini dövlət xadimləri və alimlər tərəfindən milli dövlətlər yaranandan bəri beynəlxalq məkanda suveren qurumların istək və məqsədlərini təsvir etmək üçün istifadə edilmişdir [2]. Milli maraq anlayışı Təhlükəsizlik Elmlərində xüsusi əhəmiyyət kəsb edir ki, burada güc, təhlükəsizlik, anarxiya, yaşamaq, qüvvələr balansı və s. anlayışları ilə yanaşı, analitik alətlər toplusunda mühüm yer tutur. O, qərar qəbul edənlərin bəyanatlarına legitimlik vermək üçün istifadə edilən termindən dövlətin təhlükəsizlik siyasətlərini qiymətləndirmək üçün təlimatlar verən çərçivəyə çevrilmişdir. Bununla da qərar qəbul edənlərə xatırladılır ki, aktiv və ağıllı milli təhlükəsizlik siyasətinin aparılması mütləq dövlətin milli maraqlarının ehtiyatlı ifadəsini nəzərdə tutur [6].

Qeyd etmək lazımdır ki, milli maraqlar birbaşa milli təhlükəsizliklə bağlıdır. Bu baxımdan, dövlət bütün imkanlarından istifadə edib, milli maraqlarını əsaslı şəkildə qorumalıdır. Milli təhlükəsizlik hər bir dövlətin milli maraqlarının həm daxili, həm də xarici münasibətlərdə qorunması, mühafizə olunması ilə bağlı müdafiə tədbirlərinin məcmusudur. Maraqların qorunması və reallaşdırılması hər bir dövlət üçün həyati əhəmiyyət kəsb edən vəzifədir.

Qeyd etməliyik ki, milli təhlükəsizlik anlayışını müəyyən etməzdən əvvəl dövlətin milli maraqları aydınlaşdırılmalı, sonra isə həmin maraqların həyata keçirilməsi və milli maraqların mühafizə olunması sahəsində müdafiə rolunu oynayan milli təhlükəsizlik haqqında məlumat verilməlidir [7].

1. Realizmdə milli maraqların konseptualizması

Milli maraq mürəkkəb termindir və alimlər arasında milli maraqların hamı tərəfindən qəbul edilmiş tərifi yoxdur. Bu konsepsiyanın başa düşülməsi onun təhlil edildiyi yanaşmanın paradiqmaları, eləcə də nəzəriyyəçilərin özlərinin dərk etməsi ilə şərtlənir. Milli maraqlar birbaşa milli təhlükəsizliklə bağlıdır. Bu baxımdan, dövlət bütün imkanlarından istifadə edib milli maraqlarını əsaslı şəkildə qorumalıdır. Milli təhlükəsizlik hər bir dövlətin milli maraqlarının həm də xarici, həm daxili münasibətlərdə qorunması, mühafizə olunması ilə bağlı müdafiə tədbirlərinin məcmusudur. Eyni zamanda, həmin maraqların qorunması və reallaşdırılması hər bir dövlət üçün həyati əhəmiyyət kəsb edən vəzifədir.

Milli maraqların bəzi realistlərin anlayışlarında mərkəzi anlayış kimi qəbul edilməsindən tutmuş, əksər alternativ (yaxud müasir) yanaşmaların nəzəriyyəçilərin tamamilə laqeyd qalmasına qədər bu termin anlayış müxtəlifliyini, ideya zənginliyini, tənqidi daha da səmərəli araşdırmalara gətirib çıxarır, lakin müasir təhlükəsizlikdə referent obyekt kimi dövlət məsələsinə diqqəti yönəldir.

Realizm - Beynəlxalq münasibətlər və Təhlükəsizlik Elmində ən mühüm düşüncə məktəblərindən birini təmsil edir. Realistlər öz tədqiqat maraqlarını anarxik beynəlxalq sistemin mərkəzi aktoru kimi rasional şəxsi mənafedən çıxış edən dövlətə yönəldirlər [3]. Bu nəzəri yanaşma çərçivəsində müxtəlif variasiyalar (*klassik, neorealizm, neoklassik, hücumçu, müdafiə realizmi*) meydana çıxmışdı, lakin bütün bu tədqiqat konsepsiyaları üç fərziyyəyə əsaslanır:

- dövlətlərin atomist, şəxsi maraqları və rasional olduğu güman edilir;
- dövlətlərin maraqlarının sosial qarşılıqlı əlaqə üçün ekzogen olduğu güman edilir, çünki dövlətlər artıq formalaşmış maraqları ilə sosial münasibətlərə girirlər;
- cəmiyyət dövlətlərin əvvəlcədən müəyyən edilmiş maraqlarını həyata keçirmək və maksimum dərəcədə artırmaq üçün bir araya gəldiyi strateji sahə kimi başa düşülür.

Realistlər iddia edirdilər ki, beynəlxalq siyasətdə tədqiqatın əsas istiqaməti dövlətlər arasında münasibətləri idarə edən mühüm qüvvələrin aşkarlanmasına yönəlməlidir. Onlar hesab edirdilər ki, güc və milli maraq güdməsi dünya siyasətini idarə edən əsas qüvvələrdir [4].

Realizm iddia edir ki, beynəlxalq mühitdə bütün dövlətlər öz milli maraqlarına uyğun davranırlar. Ən mühüm milli maraq dövlətin yaşamasıdır və bu, dövlətin ixtiyarında olan gücdən asılıdır. Üstəlik, bu beynəlxalq mühitin necə davamlı mübarizə ilə səciyyələnməsi, dövlətlərin maraqlarının toqquşması qaçılmazdır. Ona görə də dövlətlər etibarsızdırlar və onlar əmin olmalıdırlar ki, öz gücləri digər dövlətlərin təhdidlərinə qarşı durmağa kifayət edir. Dövlətin təhlükəsizliyi hakimiyyətin rasional idarə olunmasını tələb edir və yalnız bu ruhda aparılan siyasət milli maraqlara xidmət edə bilər.

2. Milli təhlükəsizlik və milli maraqlar ayrılmaz paradiqmalar kimi

Milli maraq dövlətin fəaliyyət göstərdiyi və siyasət, mədəniyyət, iqtisadiyyat və təhlükəsizlik kimi həyatın bir çox sahələrinə nüfuz etdiyi modeli başa düşmək üçün vacib termindir. Keçmişdə belə görünürdü ki, milli maraq sırf beynəlxalq münasibətlərin tədqiqat sahəsinin bir hissəsi kimi, çünki bu mövzuda ən çox və ən məhsuldar tədqiqatlar məhz bu elm çərçivəsində həyata keçirilir. Bu gün müasir təhlükəsizlik arxitekturasında dəyişən şərait və yeni təhdidlərin birləşməsinə görə tədqiqatda fənlərarası yanaşmaya ehtiyac var. Beləliklə, beynəlxalq münasibətlər elmi çərçivəsində (ilk növbədə) xarici siyasət tədqiqatları ilə bağlı olan bir anlayış kimi milli maraq mövqeyinə yenidən baxılması zərurəti yaranmışdır. Bu terminin məzmununu güc, güc, şəxsiyyət, normalar, ideologiyalar və s. vasitəsilə müəyyən etsək də, biz, şübhəsiz ki, Təhlükəsizlik elmlərinə immanent olan və ya ümumi diskursiv düşüncə yerini təmsil edən kateqoriyalardan danışırıq. Beləliklə, konseptual çərçivədə milli maraqları təsbit etmiş Beynəlxalq Münasibətlər Elmi bu konsepsiyaya müstəsna hüququnu itirir və onu ümumi biliklər korpusuna verir [5].

Təhlükəsizlik Elminin diqqət mərkəzində ilk növbədə milli dövlətin təhlükəsizliyi və bu elmdə əsas tədqiqat mövzusu dövlətdir. Beləliklə, Təhlükəsizlik dövlətin vəziyyəti və dövlət daxilindəki proseslər, xüsusən də dövlətin və inkişafın normal işləməsini təmin edən şərait və proseslər haqqında elmdir [6]. Təhlükəsizlik Elmi milli təhlükəsizliyi anlamaq üçün mühüm analitik alət kimi milli marağı bərqərar etməyə can atır, çünki Simiçin qeyd etdiyi kimi, "milli təhlükəsizlik milli maraqların azalmaz əsasıdır" [7].

Nəzəri cəhətdən milli təhlükəsizlik anlayışı realist düşüncə məktəbinin ixtirasıdır, baxmayaraq ki, digər yanaşmalar bu anlayışı götürür, onu fərqli bucaqdan təhlil edir və ya anlayışlarını onun inkarına əsaslandırır. Realistik təhlilin sabiti belə bir fikirdir ki, hətta bir dövlət başqa dövlətlə ziddiyyət təşkil etmədikdə belə, beynəlxalq siyasətin təbiəti ziddiyyət təşkil edir. Dövlətlər yalnız güclərini artırmaqla və ya ittifaqlara qoşulmaqla (güclər balansı) öz maraqlarını təmin edə bilərlər. Yaşamaq ali mənafe olduğu kimi, milli maraqların özəyini təmsil edən milli təhlükəsizliyə də realist baxışa gəlirik və əsas xüsusiyyət gücün artırılmasıdır.

Təhlükəsizlik Elmində milli marağı daha yaxşı başa düşmək üçün milli təhlükəsizlik siyasətini nəzərdən keçirmək lazımdır. Dövlət siyasətinin tərkib hissəsi kimi milli təhlükəsizlik siyasəti dövlətin strateji-doktrinal sənədlərindən irəli gəlir, yəni milli təhlükəsizlik strategiyasının konkretləşdirilməsini ifadə edir. Bu, ***"bütün səviyyələrdə milli təhlükəsizliyin yaradılması, qorunması və təkmilləşdirilməsi məsələlərini tənzimləyən idarəetmə bacarığı və ya ən yüksək siyasi hakimiyyət sahiblərinin fəaliyyəti"*** kimi başa düşülə bilər, buna görə də milli təhlükəsizlik sistemi siyasi-institusional, normativ və operativdir, təhlükəsizlik siyasətinin həyata keçirilməsində alətdir [8].

Dövlət milli təhlükəsizlik siyasətini müəyyən etməklə təkcə milli təhlükəsizlik sisteminin bütün elementlərinin planlaşdırılmış fəaliyyət istiqamətlərini müəyyən etmir, həm də təhlükəsizlik konsepsiyasına üstünlük verir.

Milli təhlükəsizlik siyasəti həm də milli kimliyin qorunub saxlanmasına əsaslanan milli maraqların təşviqinə yönəlmiş ehtiyatlı dövlət siyasəti kimi də başa düşülə bilər. Böyük güc potensialına malik olmayan dövlətlər üçün siyasətin mənası daxili sabitliyin əldə edilməsi və qorunub saxlanması üzərində qurulur, siyasət yaratmaq böyük dövlətlərin maraqlarının müəyyən edilmiş balansı və milli maraqların siyasi ifadəsi və qorunması ilə şərtlənir [9].

Başqa sözlə, milli maraqların əsas hərəkətverici, eyni zamanda dövlətlərin digər dövlətlərə münasibətdə davranışının müəyyənedicisi kimi real şəkildə dərk edilməsi bu gün də aktualdır. Bütün dövlətlər realistlərin təlimindən irəli gələn və milli maraqların özəyini təşkil edən əsas milli maraqları, yəni dövlətin özünün fiziki olaraq yaşamasını həyata keçirməyə can atırlar. Siyasi, iqtisadi, hərbi, mədəni, tarixi və digər amillər kimi daxili və xarici mühit amillərindən sonra dövlətlər digər maraqları da müəyyən edirlər. Təhlükəsizlik elmində milli maraqların gələcək tədqiqatları üçün realistlərin anlayışları əsas olaraq qalır ki, bu da digər düşüncə məktəblərinin anlayışları ilə təkmilləşdirilməlidir [10]. Məqsəd təhlükəsizliyin xarici ölçüsü ilə yanaşı daxili ölçüsünü də araşdırmaqdır. Bu yolla dövlətin daxili ölçüsü necə ifadə etməsi, yəni daxili ölçüsü necə qoruyub saxlaması və sabit sistemin qurulması məsələsi kompleks yanaşma yolu ilə nəzərdən keçiriləcək.

Nəticə

Realistlər arasında mövcud olan qavrayışlardakı fərqlər, bəlkə də, ən yaxşı şəkildə onların milli maraqları başa düşmələri ilə izah olunur. Beləliklə, milli maraqları obyektiv və real təhlillər vasitəsilə aşkar edilə bilən kimi qəbul edirdi. Əksər hallarda milli maraqları (suverenliyin və ərazi bütövlüyünün qorunması üçün minimum tələblərdən kənarda) araşdırma və ya təhlil predmeti kimi yox, subyektiv və xarici nəzəriyyə kimi görürlər. Həmçinin realistlər ümumiyyətlə milli maraqlar vasitəsilə nəyə nail olmaq lazım olduğu ideyası ilə fərqlənirlər: Bəzi araşdırmacılar üçün bu güc, bəziləri üçün isə dövlətin zövqü və dövlətin sağ qalmasıdır. Bütün realistlər öz nəzəri mülahizələrində milli mənafe anlayışına diqqət yetirməsələr də, realizm bu konsepsiyanın dərk edilməsinə, inkişafına və aktuallaşmasına ən azı iki şəkildə kömək etmişdir:

1) realizmdə onu realizmin mərkəzində yer alan nəzəriyyəçilər. düşüncələrini və bu konsepsiyanı təkmilləşdirmələrini;

2) milli mənafeyi tənqid etməklə öz təfəkkürünün üstünlüyünü göstərməyə çalışan, bununla da bu yanaşmanın zəif tərəflərini göstərən, onu təkmilləşdirən və daha da izah edən nəzəriyyəçilər (çox vaxt başqa istiqamətlərin nümayəndələri).

İstifadə edilmiş ədəbiyyat

1. A comparative analysis of the national interest concept in theories of international relations. [Electronic resource] / URL: file:///C:/Users/Professional/Downloads/236015.pdf

2. Engerer, H. Security as a public, private or club good: some fundamental considerations // Defence and Peace Economics, – 2011. sayı, 22 (2), – p. 135-145.

3. Foreign Policy and National Interest: Realism and Its Critiques. [Electronic resource] / URL: file:///C:/Users/Professional/Downloads/admin,+3-Edited-layouted+(1)+Munafrizal-Foreign+Policy.pdf

4. Jackson, R., S., G. (2013). Introduction to International Relations: Theories and Approaches. Oxford: Oxford University Press. ISBN 978–0–19–969474–7. p. 67, 81

5. Кателевский А.И. Безопасность и национальная безопасность: понятие, сущность, особенности [Электронный ресурс] / URL: / http://www.superinf.ru/view_helpstud.php?id=2502

6. Mustafayev, Ç.F. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi məsələləri // Qanun. № 1 (231). 2014. S. 3-12.

7. Nağıyev, N. Milli təhlükəsizlik və onun təmin olunması sistemi. "Dirçəliş-XXI əsr", 2008, № 124-125

8. National Interest in Security Science: a Realist Perspective. [Electronic resource] / URL: https://www.nsf-journal.hr/online-issues/focus/id/1354

9. Realist International Theory and the Military. [Electronic resource] / URL: https://link.springer.com/referenceworkentry/10.1007/978-3-030-02866-4_103-1

10. Urhal, Ö. Küreselleşen dünyada güvenlik / Ö. Urhal. – Ankara: Adalet yayınevi, – 2009. – 744 s.

MÜSTƏQİL AZƏRBAYCANIN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Dilarə Abuzər qızı Kərimova
Sumqayıt Dövlət Universiteti, Sumqayıt
dilara.karimova@sdu.edu.az

Hər bir xalqın milli istiqlaliyyətə nail olması və suveren dövlət qurması üçün üç ən mühüm şərt lazımdır - tarixi şans, milli ideya və liderin olması [1, s.4].

Sovet İttifaqının dağılması 20-ci əsrin sonlarında müstəqillik uğrunda mübarizəyə qalxan Azərbaycan xalqı üçün tarixi şans oldu. Ümummilli liderimiz Heydər Əliyevin səyləri və gərgin əməyi sayəsində yaranmış, gələcək siyasi, iqtisadi və mədəni müstəqillik üçün formalaşmış qüdrətli

infrastrukturun olması, xalqda müstəqil dövlətçilik istəyinin oyanması milli azadlıq yolunda ikinci mühüm amil oldu [1, s.4].

Azərbaycan keçmiş SSRİ-nin tərkibində müstəqil dövlət kimi mövcud ola bilən azsaylı respublikalardan biri idi.

Azərbaycanın müstəqillik qazanmasının, demokratik dövlət quruculuğunun və möhkəmlənməsinin üçüncü mühüm şərti tarixi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin mövcudluğu idi [1, s.5]. Vaxtilə görkəmli amerikalı politoloq Z.Bjezinski demişdi: "İndi Azərbaycana rəhbərlik edə biləcək bir adam var – Heydər Əliyev!" [3, s.15]. Bu, günümüzdə bütün dünya tərəfindən qəbul edilmiş bir həqiqətdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində səsləndirilən dəqiq fikir son on ildə müstəqil Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin genişmiqyaslı siyasi-dövlət fəaliyyətinin nəticələri ilə də dəfələrlə öz təsdiqini tapmışdır.

XX əsr Azərbaycanın tarixi inkişafının ən yüksək mərhələsidir. Ötən əsrdə Azərbaycanda üç müxtəlif ictimai-siyasi formasiya dəyişikliyi yaşanmışdır. Əsrin əvvəllərində (1917-ci ilə qədər) Azərbaycan kral mütləqiyyətinin hakimiyyəti altında idi. Rusiya avtokratiyasının devrilməsindən az qala dərhal sonra 23 ay (1918-ci il mayın 28-dən 1920-ci il aprelin 27-dək) mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Onun süqutundan sonra 1920-ci il aprelin 28-də Azərbaycan SSR yarandı. SSRİ-nin dağılması Azərbaycanda dövlət müstəqilliyinin bərpasına və 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının elan edilməsinə səbəb oldu [2, s.17].

Ölkəmizin həyatında 20-ci əsrin son üç onilliyi əvvəlki dövrlərdən əsaslı şəkildə fərqlənir və Azərbaycan tarixində xüsusi yer tutur. Bu illər görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin adı ilə qırılmaz şəkildə bağlıdır. Onun şəxsiyyətinin və fəaliyyətinin formalaşması 20-ci əsrin ikinci yarısında SSRİ-nin və Azərbaycanın ictimai-siyasi şəraitində yetişmiş, burada dünya şöhrətli peşəkar siyasətçi və dövlət başçısı kimi yetişmişdir. İşıqlı, mənalı ömür yolu keçən Heydər Əliyev böyük tarixi şəxsiyyət xüsusiyyətlərini özündə cəmləşdirən, yüksək insani-mənəvi keyfiyyətlərə malik mahir siyasi lider modeli oldu.

Heydər Əliyevin lider kimi fərqləndirici xüsusiyyəti ondan ibarət idi ki, o, iki müxtəlif siyasi sistemdə Azərbaycanın başında durmuş və hər iki sistemin tələbləri çərçivəsində Azərbaycanın yüksəlişi, xalqın mənəvi-mədəni inkişafı üçün hər şeyi etmişdir.

Heydər Əliyevin həyat salnaməsi, siyasi və dövlətçilik fəaliyyəti Azərbaycan milli dövlətçiliyinin inkişafı və möhkəmlənməsi tarixi, ölkə həyatında çətin bir dövrün parlaq səhifələridir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi həyatında tərəqqi ilə xarakterizə olunur. O, Azərbaycan tarixində SSRİ kimi fövqəldövlətin siyasi olimpinə yüksəlmiş, dünyanın ən tanınmış dövlət və siyasi xadimləri ilə bərabər layiqli yer tutduğunu konkret işlərlə sübut edən yeganə lider olmuşdur.

Heydər Əlirza oğlu Əliyevin şəxsiyyəti, həyat və fəaliyyəti müasir Azərbaycan tarixinin parlaq səhifələridir [2].

Əminliklə qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan Respublikasının, onun dövlət quruculuğunun, onun Əsas Qanununun - Konstitusiyasının işlənib hazırlanmasının əsas memarı məhz Heydər Əliyev olmuşdur [2]. Məhz onun sayəsində ölkəmizdə hüquqi, dünyəvi və demokratik dövlət qurulub və hazırda uğurla inkişaf edir. Onun sosial-iqtisadi siyasəti bütün sahələrdə uğurla həyata keçirilir. Azərbaycan güclənir, haqlı olaraq dünya birliyində geniş tanınır.

Heydər Əliyev rəhbərliyinin nadir təcrübəsinin dərindən öyrənilməsi təkcə böyük elmi deyil, həm də praktiki əhəmiyyət kəsb edir. Bu böyük insan haqqında kitablar yazılıb, sənədlər topluları tərtib edilib. Onların əksəriyyəti biblioqrafik, publisistik, populyar xarakter daşıyır və əsasən onun həyat və yaradıcılığının salnaməsini əks etdirir. Lakin Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik fəaliyyəti hələ də xüsusi elmi tədqiqat obyektinə çevrilməyib. Baxmayaraq ki, istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda onun zəngin və çoxşaxəli siyasi rəhbərlik və təşkilatçılıq təcrübəsinin tədqiqinə və ümumiləşdirilməsinə böyük ehtiyac var. Bu səbəblə, bu elmi-tədqiqat işinin başlıca məqsədi Heydər Əliyevin siyasi-nitqini və ümumilikdə siyasi-nitq mədəniyyəti anlayışını və ölkəmizin iqtisadi-siyasi-hərbi uğurlarında bu siyasi nitq mədəniyyətinin əhəmiyyətini müəyyənləşdirmək təşkil edir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev V. Müstəqilliyimizin strategiyası. Bakı, 2002
2. Budaqov B. Heydər Əliyev fenomeni. Bakı, 2002
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.

HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

Günel Alim qızı Nəcəfova
Mingəçevir Dövlət Universiteti
gunel.necefova@mdu.edu.az

Xalqımızın tarixinə nəzər saldıqda görürük ki, Azərbaycan xalqı ta qədimdən bəri, çox sayda şəxsiyyətlər yetirmişdir. Elə bir şəxsiyyətlər ki, bütün ömürləri boyu insanlara, nəsillərə örnək olmuşlar. Bu cür şəxsiyyətlərin sırasında elinin-obasının, millətinin köksünü qabardan, onlara iftixar hissi yaşadan yenilməz sərkərdələrimiz, elm və hökumət adamları, xalqının, dövlətinin varlığı, azadlığı yolunda canını qurban verən igid insanları vardır. Bu cür sayılıb-seçilən, hər kəs tərəfindən (kiçikdən-böyüyə, cavandan-qocaya kimi) sevilən, vətənini sevən, soykökünə bağlı olan, xalqının firavan yaşaması üçün gecə-gündüzünü həsr etmiş dahi insanlardan biri də həmişəyaşar dövlət başçımız olmuş Heydər Əliyevdir.

Bütün sahələrdə qazandığımız uğurlar, nailiyyətlər istər siyasi, istər iqtisadi, mədəni, təlim-tərbiyə, təhsil, istərsə də beynəlxalq müstəvidəki aparılan işlər bu insanın adı ilə bağlıdır. O, öz ağlına, zəkasına, düşüncə tərzinə görə hər kəsdən seçilirdi. Onun müdrikliyi, güclü xarakteri sayəsində xalqımız müstəqil, firavan yaşayır.

Dahi rəhbər ölkəyə başçılıq etdiyi dövrlərdə (XX əsrin 70-80-ci illəri), eyni zamanda müstəqillik qazandığımız dövrdən (1993-cü il) bu yana daim vətənimizin, xalqımızın inkişafına nail olmuşdur. Dünya ölkələri ilə ölkəmizin hər sahədə əlaqəsini qurmuşdur.

Bütün bunların hər biri onun qeyrəti, cəsarəti və sözünə bütövlüyü əsasında gerçəkləşmişdi. Müdrik insanın, xalq üçün miras qoyub getdiyi təcrübə hazırki dövrdə də ölkəmizin həm daxili, həm də xarici siyasət sahəsində, dövlətin idarə olunmasında, müstəqilliyimizin möhkəmlənməsində, iqtisadi sahədə nailiyyətlər qazanmasında, xalqımızın firavan, dinc yaşamasında bizə yol göstərir, yolumuzu işıqlandırır.[1, s.309]

O, həm güclü, həm də nüfuzlu şəxsiyyət idi. Dünya siyasətçiləri, ayrı-ayrı dövlətlərin başçıları, tanınmış elm və incəsənət adamları onun haqqında daim gözəl fikir söyləmişlər. Məntiqi təfəkkürə və yenilməz iradəyə malik olduğunu qeyd etmişlər.

Həmişəyaşar liderin elm, təhsil, tərbiyə və maarifin inkişafı yolundakı fəaliyyətindən danışan görkəmli alim Zahid Qaralov vurğulayırdı ki, söylədiyi hər bir sözə, ifadəyə qiymət verən, hər hansı bir insan barədə fikrini söyləməkdə xəsis hesab edilən diplomat, siyasi xadim A.Qromıko ömrünün son illərində dahi rəhbərin təmiz, saf, əxlaqlı, təcrübəli və dürüst dövlət başçısı olduğunu dilə gətirmişdir. [6, s.97]

Heydər Əliyev təkcə öz ölkəsini deyil, Qafqazı sülh və əmin-amanlığın beşiyinə çevirmişdi. O, bu cür xidmətləri ilə hər zaman insanların qəlbində yaşayır və yaşayacaqdır.

Danılmaz bir həqiqətdir ki, dahi insan vətənini, millətini, öz doğma ana dilini, mənsub olduğu dinini hamıdan çox sevən, həyatı boyu xalqının gözəl, müstəqil yaşamasına çalışan dövlət başçısı olmuşdu. Onun bütün bu şəxsi keyfiyyətləri hal-hazırda böyüməkdə olan nəslə bir örnəkdir, bir tərbiyə məktəbidir.

Ölkənin taleyi, yaşadığımız cəmiyyətin gələcək inkişafı bu günkü gənclərə nəyi necə öyrətməkdən, mənimsətməkdən asılıdır. Bəşəriyyətdə insan dünyaya göz açdığı andan, ta ölənə kimi görüb-götürür, inkişaf edir, şəxsiyyət kimi formalaşır. Həmişə insanlar yaşadıqları mühitin əhatəsində və təsirində olurlar. Bu isə onların tərbiyəsinə təsir göstərir, onlarda müsbət əxlaqi keyfiyyətlər formalaşır, inkişaf edir. Bu əxlaqi keyfiyyətlərdən biri də vətənpərvərlikdir.

Vətənpərvərlik nədir? Vətənə sevgi nədir? Bu kimi suallara cavab verdikdə başa düşürük ki, Vətən elə bizim özümüzük. Vətən doğulub boya-başa çatdığımız el-oba, yurd-yuvadır. Vətənpərvərlik öz xalqı, milləti üçün çalışmaq, onu düşmənlərdən qorumaq, onun üçün canını qurban verməkdən çəkinməməkdir. Hər bir insanda müsbət əxlaqi keyfiyyətlər (doğruçuluq, xeyirxahlıq, düzlük, vətənini sevmək, onu qorumaq, qeyrətlilik, dostluq, yoldaşlıq, kollektivçilik və s.) qiymətləndirilir. [7, s.114]

Həqiqi vətənpərvər o insandır ki, vətəninə sevgi və sayğı ilə xidmət etsin, gündəlik fəaliyyətində daim ona xidmət etsin. El-obasını, torpağını, xalqını qorumaqla, onunla daim iftixar hissi duysun. Bu mənada söyləyə bilərik ki, vətənpərvərlik millətimizin canında və qanındadır. Vətənpərvərlik ilahi gücə malik olan vacib əxlaqi keyfiyyətdir. Dahi insan gənclərin birinci forumunda belə bir mesaj vermişdi ki, hər bir gənc vətənpərvər olmalıdır.

Gənclərin gücü, qüvvəsi, qarşılarına qoyduqları məqsədə nail olması, bu yolda rast gəldikləri çətinliklərə sinə gərmələri, xeyirxah əməl sahibi olmaları, baxın, bütün bunlar vətənpərvərliklə bağlıdır. Bu tərbiyənin, yəni vətənpərvərlik tərbiyəsinin uşaqlarda inkişaf etdirilməsi ana vətənin taleyi naminə iş görməkdir, buna görə də gənc nəsildə vətənpərvərlik şüurunu inkişaf etdirmək əsas vəzifəmizdir. Bunun əsas məğzi, əhəmiyyəti onların hiss və duyğularını, təfəkkürünü qarşıya qoyduqları məqsədə nail olmaq üçün həyata keçirdikləri fəaliyyətdir. Fəaliyyətin müsbət nəticə verməsi şəxsin iradi gücündən asılıdır. Elinə, obasına, vətəninə sevgi, məhəbbət hissi, onun taleyini öz taleyi bilib cavabdehlik daşımaq hissi hər bir gəncin gündəlik iş-gücündə ən əsas və mühüm hərəkətverici qüvvəyə çevrilə bilər. [2, s.132]

Dahi insanlar mənəvi keyfiyyətlərdən danışarkən daim vətənpərvərlik hissinə böyük dəyər vermişlər. Bu hiss, bu sevgi heç bir hiss və sevgi ilə əvəzlənə bilməz.

Peyğəmbərimiz adamlara Vətəninizi sevin, onu canınız kimi qoruyun deyə məsləhət verirdi. Bu sevgini gözəl sözlə deyil, işinlə, fəaliyyətinlə göstərməlisən. Vətəni, el-obanı, yurdu heç vaxt başıboş, iradəsi zəif, qorxaq, öz mənafeyini güdən, məsuliyyətsiz insanlara etibar etmək olmaz. Təbii ki, zaman-zaman xalqımızın tarixində təəssüflər olsun ki, belə insanlar olmuşlar. Amma tarix onları amansızcasına cəzalandırmışdır. Buradan belə nəticəyə gəlmək olar ki, xalqın içərisində paxıl, xəbis, vətəninə, xalqına xor baxan, satqın insanlar olmasa bu xalq, bu vətən, bu millət heç vaxt yenilməz.

İnsan dünyaya gəldiyi andan onu əhatə edən materiya ilə təmasda olur və onun bir parçasına çevrilir. O, doğulduğu evi, böyüdüyü həyəti, hər gün gedib-gəldiyi küçəni, kəndi, şəhəri, məktəbi sevir və ona bağlanır. Hər şey onun üçün doğmalaşır. Yaşadığı evə, mənzilə qayğı ilə yanaşdığı kimi, yaşadığı kəndin, rayonun, şəhərin, ölkənin abadlaşmasına, inkişafına, gözəlləşməsinə də biganə qalmır. Belə bir atalar sözü el arasında geniş işlədilir: "Hər bir adama öz vətəni əzizdir".

Bütün dövrlərdə vətənpərvərlik hissi meydana gəlmiş və hər dövrdə özünə aid məna və məzmun kəsb etmişdir. Onun toxumları hələ ibtidai icma quruluşundan səpilmişdir. Bu dövrdə vətənpərvərlik hissi təbiətə bağlılıq, ana yurda sevgi bəsləmək kimi təzahür etmişdir. ibtidai icma quruluşunda qəbilələr mövcud idi. Bu qəbilələrin başında qəbilə başçıları dururdu. Həmin dövrdə vətənpərvərlik hissi qəbilə üzvlərinin aralarındakı qohumluq, qan əlaqəsinə söykənirdi.

Digər ictimai-siyasi formasiyalarda da vətənpərvərlik hissi formalaşmışdı. Bu isə getdikcə çoxalırdı. Çünki, həmin dövrlərdə insanların əməyi istismar olunurdu. Onlar yaşamaq, ayaqda qalmaq üçün ölüm-dirim mübarizəsi aparırdılar. Sonralar cəmiyyətdə münasibətlər dəyişdikcə, inkişaf etdikcə insanlar öz hüquqlarını dərk etdikcə, anladılar ki, bu haqsızlığa, ədalətsizliyə qarşı mübariz olmalı, etirazlarını bildirməlidirlər. [7, s.38]

Vətənpərvərlik kortəbii şəkildə deyil, məqsədyönlü tərbiyə şəklində aparılmalıdır. Bu anlayışın tərkib hissəsi olan milli mənsubluğun anlaşılmasına, dilimizə, dinimizə, torpağımıza, təbiətimizə sevgi, məhəbbət öz-özünə deyil, qandan-candan gəlir. Belə olan halda tərbiyə prosesi uğurla sonlanır. Bunun üçün ardıcıl, sistemli və məqsədyönlü pedaqoji iş aparmaq gərəkdir. Bu sahədə qazanılan biliklər və təcrübə vətənpərvərlik tərbiyəsinin inkişafına birbaşa təsir göstərir.

Uşaqlara hələ kiçik yaşlarından belə hisləri aşılamaq lazımdır, çünki, onlar (kiçik yaşlılar) nə görürsə, nə eşidirsə, onu dərhal yadda saxlayırlar. Təməli sağlam olmayan bina tez sıradan çıxır, yox olub gedir, məktəblilərdə tərbiyənin təməlini, bünövrəsini sağlam şəkildə qoymaq lazımdır.

Bunun üçün öncədən ailədən başlamaq, bu işə qayğı və səbrlə yanaşmaq gərəkdir. Uşaqlar onlara sevgi ilə yanaşan, onları sevən, qayğısına qalan, xoş dindirən, üzlərinə gülən, mehriban insanları sevirlər. Yəni, ata-analarını, bacı-qardaşlarını və s. Bu duyğudan da vətəninə, ölkəsinə, xalqına məhəbbət hissi formalaşır, tərbiyə olunmağa başlayır.

Kiçik yaşlı uşaqlarda əməyə və əmək adamlarına məhəbbət hissi də formalaşır. Belə ki, onlar evdə ata-analarının öz işlərindən, peşələrindən və kollektivlərindən xoş sözlər eşitdikcə onlarda valideynlərini təkcə mehriban, qayğıkeş olduqları üçün deyil, həm də zəhmətkeş olduqlarına görə sevirlər.

Məktəbəqədər yaşlı uşaqlarda vətəni, onun tarixi haqqında az bilgilər olur. Uşaq bağçasında keçirilən təlimlərdə onlar oyuncaq kublardan binalar düzəldirlər. Bu binaları adamlara yaşamaq üçün verirlər. Dava-dava oyunu zamanı onlarda mənfur qonşumuz olan ermənilərə qarşı nifrət hissi formalaşır. Bunlar oyun olmasına baxmayaraq onların yaddaşında qalır, iradəsini istiqamətləndirir. Onlarda Vətəni, xalqı sevmək, qorumaq kimi müsbət əxlaqi keyfiyyətlər inkişaf etdirir. Bu isə böyüyən nəslin vətənpərvərlik tərbiyəsinin bünövrəsini qoymuş olur. Uşaqlarda Azərbaycan, Vətən haqqında sadə təsəvvürlər formalaşır.

"Vətənə gəldim imana gəldim", "Hər kəsə öz vətəni əzizdir" və s. Bu atalar sözlərində də Vətənin hər şeydən əziz, doğma olduğu önə çəkilmişdir.

Uşaqlar da doğma Vətənlərini sevməli, onu göz bəbəyi kimi qorumalı, lazım gələrsə Vətən üçün canlarından keçməyi bacarmalıdırlar. [5, s.69]

Məktəbliləri doğma elə-obaya, torpağa, vətəninin hər dağına-daşına, flora və faunasına məhəbbət ruhunda tərbiyə etmək, onları bu zəmində bir şəxsiyyət kimi formalaşdırmaq lazımdır, vacibdir. Bu o deməkdir ki, vətənini sevən valideynlərini də, yəni ata-anasını da sevəcəkdir. Onlara qayğı göstərmək, qulluğunda durmaq kimi müsbət insani hislər elə buradan yaranmağa başlayır. Öz kiçik məhəlləsini, məktəbini, bağçasını, qohum və qonşularını sevən bir uşaq böyüdükcə torpağını, vətənini də sevir, bu sevgi onlarda vətənpərvərlik deyilən ülvi duyğuları inkişaf etdirir.

Vətənpərvərlik tərbiyəsi, əxlaqi tərbiyənin əsasını təşkil edir. Buna uşaq hələ kiçik yaşındaykən başlamaq lazımdır. Bu isə tərbiyənin təsiri ilə həyata keçirilir. 6-10 yaşa qədər olan uşaqlarda vətənpərvərlik haqqında yalnız və yalnız təəssüratlar, ona dair sadə bilgilər, müşahidə zamanı yaranan mücərrəd təfəkkür formalaşır, məlumatlar toplanır. Yuxarı yaşlarda artıq onlar bu hissin məna dəyərini dərk edir və özlərində həmin hislərin yaranıb inkişaf etməsinə nail olurlar. Bunların təməli isə əvvəldə qeyd etdiyimiz kimi kiçik yaşlardan başlayır. Bizi əhatə edən ətraf aləmdə insanların gündəlik və iş həyatı haqqında, onların məşğuliyyəti, əməyi haqqında məlumat topladıqca onların bilik bazası genişlənir. Və bu zaman vətənə məhəbbət hissinin dərki baş verir. Bu yöndə bilik mənbələrini doğru seçmək, müşahidənin düzgün aparılmasında onlara yardım etmək vacibdir.

Uşaqlarda Vətənə məhəbbət hissini mücərrəd təfəkkürdən deyil, canlı müşahidələrdə, uşaqlar üçün yazılmış əsərlərdəki obrazların təsir gücündən, tərbiyəçinin obrazlı sözündən istifadə etməklə tərbiyə etmək lazımdır. Kiçik yaşlı uşaqlar hadisələrin daxili məğzini deyil, xarici tərəfini başa düşürlər. Məsələn, onlar bayramları, tədbirləri görəndə yalnız və yalnız sevinir və şənlənirlər. Lakin, bu bayramın, tədbirin nə üçün keçirildiyini dəqiq anlamırlar. Ona görə də hər bir öyrədən bu bayram və tədbirlərin uşaqlara, yaşlarına uyğun şəkildə başa salmalı, əhəmiyyətini onlara izah etməlidirlər. [4, s.54]

Məktəbin səliqə-səhmanında əməyi olan işçilərin və məktəbin bufetində çalışan aşpazın əməyini, yəni gündəlik icra etdiyi işləri müəllim uşaqlarla birlikdə müşahidə edir. Müəllim onlara göstərilən qayğını uşaqlara başa salır, anladır. Daha sonra müəllimlər bu işdə kitablardan hekayə və nağıllar, şeirlər, şəkillər, rəsmlər göstərirlər. Bunların vasitəsilə uşaqlara bir çox sadə bilgilər çatdırılır. Müəllim izah edir ki, işçilərin əməyi və ağılları (məntiqi təfəkkürü) sayəsində gözlə gördüyümüz gözəlliklər yaradılır. Məsələn: paltarlarımız, evdə istifadə etdiyimiz mebellər, oyuncaqlar və s. Bununla onlar dərk edirlər ki, insan üçün gərəkli olan hər şey zəhmət nəticəsində əldə edilir. İşləməsən ac qalarsan, geyinməyə paltarın olmaz. Deməli, bizim ölkədə hamı işləyir. Onlar daha çox və yaxşı işləməyə çalışırlar. İş insanın maddi və mənəvi ehtiyaclarını qarşılayır. İnsanı sağlam və gümrah edir.

Məktəblilərin əməyə olan münasibəti, həyata olan marağı onların müşahidə etdikləri işlərdə iştirak etməkdə özünü göstərir. Bütün bunlar onların oyunlarında, çəkdikləri rəsmlərdə öz əksini tapır. Onlar meşə, dağ, çəmənlik təsvir edirlər, torpağın üstündə arx qazır, körpülər salır, qatarlar çəkirlər.

Uşaqların əmək, maddi həyat haqqında mənimsədikləri biliklər həyatla, əməklə əlaqələndirilməlidir. Belə olarsa onların mənimsəmiş olduqları bilik, bacarıq və vərdişlər özününküləşmiş olur, bu onlara zövq, həyəcan verir.

Onlar üçün təşkil olunmuş hər bir öyrədici mühit uşaqları oxunanı anlamağa təhrik edir. Bundan aldıqları təəssürat onların xoşuna gəlir. Bu da onların oyunlarında, çəkdikləri rəsmlərdə, danışıqlarında öz əksini tapır. Uşaqlara tapşırılan mövzuların tərbiyəedici imkanları əvvəlcədən planlaşdırılır. Belə olarsa, kiçik yaşlı məktəblilərin tərbiyəsinin inkişafında böyük uğur qazanmaq olar. Yaradıcı oyunların təşkili və keçirilməsində də bu cür imkanlar çoxdur.

Kiçik yaşlı məktəblilərin vətənə məhəbbət ruhunda tərbiyə edilməsi, öz evinə, obasına, ata-anasına, təhsil aldığı məktəbə, ona dərs deyənlərə, öyrədənlərə, onları əhatə edən, yaxın olan adamlara məhəbbətdən başlayır. Çalışmaq lazımdır ki, həm məktəbdə, həm də ailədə uşaqların maddi və mənəvi tələbatlarının özəyini vətəninə olan sevgi təşkil etsin. Bu cür sevginin var olması səbəbsiz deyildir. Belə ki, valideynlər (ata və analar) uşaqlarda öz yurd-yuvalarına, elinə-obasına, doğulduğu yerə, doğma torpağa qayğı və sevgi hissi aşılayırlar. Bu təkcə ata-analar deyil, ailənin bütün yaşlı üzvləri cani-könüldən bu işə dəstək olmalıdırlar. [3, s.53]

Vətənin başı üzərini qara buludlar alanda, Vətən təhlükədə olanda vətənpərvərliyin ən doğru təzahür forması ortaya çıxır. Yurdun, torpağın azadlığı, müstəqilliyi üçün aparılan mübarizə və mücadilə insanlarda vətənpərvərlik hissini formalaşdırır. Bu cür hislər hər bir xalqa, hər bir millətə aid olmuşdur. Tarixi hadisələr nəticəsində vətənə olan məhəbbət hissi özünü daha aydın şəkildə göstərmişdir. Yadelli işğalçılara qarşı sonsuz nifrət hissi, barışmaz mübarizə əzmi gəncləri qəhrəmanlığa ruhlandırır. Yaşadığı eli-obanı, torpağı azad görmək istəyən hər bir kəs mübarizə əzmi ilə çırpınan ürəyə sahibdir. İstismara, intiqam alma hissinə, kin və qəzəbə qarşı hamı bir cəbhədə olmalıdır.

Xalq pedaqogikasında, atalar sözlərində Vətən, onun müqəddəsliyi barədə dəyərli fikirlər söylənilmişdir.

Yuxarıda qeyd etdiyimiz fikirlər, deyimlər xalqımız, millətimiz üçün vətən sevgisinin nə qədər önəmli olduğunun bariz nümunəsidir. Bu hiss insana aid olan ülvi, təmiz bir hisdir. Bizim hər birimiz torpağımızı, təbiətimizi, dilimizi, dinimizi bu müqəddəs duyğu ilə sevmişik, bu dəyərlərin qorunub saxlanmasını, müdafiə olunmasını özümüz üçün borc hesab etmişik. Bu hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Böyüməkdə olan nəslin təlim-tərbiyəsi ilə məşğul olan bütün pedaqoji ictimaiyyət də belə bir saf, təmiz duyğunun – vətənpərvərlik duyğusunun daha da inkişaf etməsinə çalışmalıdır. [2, s.112]

Vətənpərvərlik anlayışının məzmununu, məğzini açan əlamətlər aşağıdakılardır:

1. Azərbaycan xalqının və müstəqil dövlətimizin işıqlı gələcəyinə inam, gerçəkliyi şüurlu şəkildə, açıq-aydın görmək və ona real yanaşmaq, şəxsin məqsədlərinin xalqının, dövlətinin məqsəd və məramı ilə üst-üstə düşməsi, xalq-dövlət birliyi və qırılmaz əlaqələrini dərk edib, möhkəmləndirmək. Vətənə sədaqət, sayıqlıq, məhəbbət və s.

2. Doğma diyar. Milli adət-ənənələrə sevgi və hörmət, ana dilinə rəğbət, vətəninin təbiətinə, təbii sərvətinə qayğı hissi, onları qorumaq, inkişaf etdirmək, doğma yerlərin təbiətinə qayğı ilə yanaşmaq.

3. Vətəndaşlıq. Azərbaycan dövlətinin mənafeyini qorumaq, doğma diyarını sevmək, onun sakini kimi öz vəzifə borcunu bilib yerinə yetirmək, bu borcu hiss edib, başa düşmək. Öz işində, fəaliyyətində və hərəkətlərində xalqına layiq vətəndaş olmaq məsuliyyətini və cavabdehliyini bilmək.

4. Beynəlmiləlçilik. Vətənini dünyanın ən qabaqcıl ölkələri sırasına çıxarmaq üçün bir məqsəd ətrafında sıx birləşmək, bütün xalqların və millətlərin bərabər hüquqlu olduğunu başa düşmək, anlamaq, beynəlmiləl borcu qəbul etmək, milliliyin və bəşərililiyin vəhdətini dərk etmək,

müstəqil vətənimiz uğrunda mübarizədə, yoldaşlıq, dostluq, əməkdaşlıq, təmənnasız-qarşılıqlı yardımlaşma digər xalqlara münasibətdə xeyirxahlıq və sayğı.

5. Əmək. Xalqımızın əmək ənənələrinə görə qürur hissi, tüfeyli həyat sürənlərə qarşı mübariz olmaq, əqli və fiziki əməyə ehtiyac hiss etmək, təbii sərvətləri və dövlətin əmlakını göz bəbəyi kimi qorumaq.

6. Respublikamızın nailiyyətlərini qorumaq, mərdlik və cəsurluq, doğma yurdun müdafiəsinə hazır olmaq, Azərbaycan xalqının düşmənlərinə nifrət etmək.

7. Sülh uğrunda mübarizə. Ölkəmizin sülhsevər siyasətinin təbliğ olunması, sosial inkişaf və tərəqqi uğrunda mübarizə.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə.Müstəqillik yollarında, I cild. Bakı: Nəşriyyat 1995-1998, 364 s.
2. Həşimova Ş.H., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı: Maarif 1993, 274 s.
3. Muxtarova N.M. Məktəblərdə milli şüurun və milli ləyaqətin tərbiyəsi üzrə işin sistemi. Bakı: Nurlan 1993, 84 s.
4. Quliyev S.M. Məktəblilərin mənəvi siması. Bakı: Maarif 1982, 75 s.
5. Quliyev S.M.Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti, Bakı: Maarif 1982, 115 s.
6. Qaralov Z.İ. Tərbiyə. III cild. Bakı: Elm və təhsil 2003, 284 s.
7. F1ətəliyev X.Q.Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi, Bakı: Maarif 1987, 254 s.

HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN DİLİNİN ƏN BÖYÜK HİMAYƏDARI

Çinarə Ayaz qızı Yolçubəyli
Mingəçevir Dövlət Universiteti
chinara.yolchubayli@mdu.edu.az

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi kökləri vardır. Şəxsən mən öz ana dilimi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm."

(Heydər Əliyev)

Azərbaycan dilinin ən böyük himayədarı Azərbaycan xalqının Ümummilli lideri, görkəmli siyasi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev olmuşdur. Dilimizin inkişaf etdirilməsində, dövlət dili statusu qazanmasında isə Ulu öndərin böyük xidmətləri danılmazdır. O, bu sahədə özünün şəxsi nümunəsi ilə çox dəyərli örnək yaradıb. Ana dilinin tətbiq və fəaliyyət dairəsinin genişləndirilməsi, milli dilimizdə olan ədəbi-bədii irsin qorunması Heydər Əliyevin son dərəcə diqqət yetirdiyi sahələrdən olub.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının iqtisadi, ictimai-siyasi, mədəni sahəsində baş verən dirçəliş dil məsələsini də əhatə etməkdə idi. Ulu öndərinin dil siyasəti Azərbaycan dilini inkişaf etdirmək, onun dünya dilləri arasında nüfuzunu artırmağa köklənmişdi. Hətta, o, respublikada olmadığını illərdə də ölkənin qayğısına qalır, bütün mühüm proseslər, həmçinin Azərbaycan dilinin taleyi ilə maraqlanırdı. Bununla bağlı " Heydər Əliyevin ana dilinə verdiyi qiymət, bu dilin inkişafı, yayılması, böyük siyasi-ictimai mövqeyə malik olması üçün gördüyü işlər o, respublikada olmadığı illərdə də cəmiyyətdə, milli ictimai şüurda öz təsir gücünü tamamilə saxlayırdı." [5, s.20] deyən Nizami Xudiyev fikrini Heydər Əliyevin respublikaya qayıtdıqdan sonra ziyalı həmsöhbətlərimdən birinə dediyi sözlərlə tamamlayır: "Mən Moskvada işlərkən Azərbaycanda çıxan bütün qəzetləri alırdım. Onların hamısını oxumağa, şübhəsiz, vaxtım olmurdu. Ancaq «Ədəbiyyat qəzeti»ni əvvəldən axıra oxuyurdum..." [2]. Ümumiyyətlə, Heydər Əliyev bütün hakimiyyəti dövründə Azərbaycan dilinin inkişafı üçün uğurlu addımlar atmışdır. Bununla bağlı olaraq "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanunda dəfələrlə

dəyişikliklər etməkdən çəkinməmişdir. "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik." - deyən Heydər Əliyevin də işarə etdiyi kimi hər bir dili zənginləşdirən vahidlər həmin dildəki bədii ifadələr, atalar sözləri, zərb-məsəllər, frazeoloji birləşmələr, o cümlədən, somatik frazeologizmlərdir.

Heydər Əliyevin dövlət quruculuğunda dil siyasəti və onu inkişaf etdirmək haqqında söylədiyi fikirləri belə ümumiləşdirmək və səciyyələndirmək olar: xalqının mənəvi varlığı kimi ana dilini – Azərbaycan dilini sevmək; ana dilini dərindən və mükəmməl öyrənmək, dilin zəngin lüğət tərkibindən və söz ehtiyatından bacarıqla istifadə etmək; ana dilinin tədrisini yüksəltmək; dilin qayğısına qalmaq, onun saflığını qorumaq, onunla fəxr etmək; dilimizin, nitqimizin gözəlliyini duymaq, öyrənmək, mənimsəmək və bu gözəlliyi hər zaman hər yerdə təbliğ etmək, bu dildə düzgün danışmaqla hamıya nümunə olmaq.

Ulu öndər Heydər Əliyevin dil siyasəti özünəməxsus möhkəm prinsiplər əsasında qurulmuşdur. Professor Nizami Xudiyev Heydər Əliyevin dil siyasətini analiz edərkən üç istiqamətdən yanaşırdı:

1. Bu siyasət, hər şeydən öncə demokratiklik prinsipinə əsaslanır. Bu demokratiklik isə, birinci növbədə hər bir məsələnin həllində xalqın, o cümlədən geniş ziyalı kütləsinin rəyinin nəzərə alınması zəminində yaranması ilə əlamətdardır.

2. Heydər Əliyevin dil siyasətinin əsaslandığı prinsiplərdən biri də dəqiqlik, uzaqgörənlikdir. Bütün sahələrdə olduğu kimi, dil siyasətində də o, qlobal məqsədləri əsas götürür və hər hansı bir məsələnin həllində onun bütün cəhətlərini, keçmişini, bu gününü, gələcəyini nəzərə alaraq, həll olunmasına qərar verir. Hər bir məsələni hərtərəfli götür-qoy etmək, dərindən araşdırmaq, xeyir və zərərini dəqiq müəyyənləşdirmək Heydər Əliyevin dil siyasətinin mahiyyətini təşkil edir.

3. Heydər Əliyevin dil siyasətinin əsaslandırdığı prinsiplərdən biri də dillə bağlı bütün məsələlərə münasibətdə obyektivlikdir. Obyektivlik dil siyasətində məsələnin qıy-qışqırıqsız, hissiyyata qapılmadan, təmkinlə və ən vacibi, qanunların aliliyinə hörmətlə həll edilməsidir... [3]

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub. Tarix üçün o qədər də böyük zaman kəsiyi hesab olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi həqiqətən böyük tarixi olan aşağıdakı işləri həyata keçirib. Birincisi, Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-in müvafiq qanunlarında (xüsusilə Konstitusiyada) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib. İkincisi, Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, bir sıra digər Sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilib. Üçüncüsü, Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni edib, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində nəşr edilib. Dördüncüsü, Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb, həmin çoxcildliklərdən biri - ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülüb, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə, əslində, ana dilinin nüfuzu bir daha təsdiq edilib. Beşincisi, həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərib, başqalarına nümunə olub və s.[1, s.1-2]. Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi. Millət vəkilinin sözlərinə görə, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev qısa bir zamanda ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, stabilləşməsinə nail oldu. Yenidən, onun xüsusi diqqət yetirdiyi məsələlərdən biri

də məhz dil məsələsi oldu. "Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir" – deyən Ümummilli lider ana dili məsələsinə yeni səviyyədə - müstəqil dövlət quruculuğunun tələb etdiyi səviyyədə yanaşmağın nümünəsini yaratdı. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edildi. 2001-ci ildə Ümummilli liderimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə oldu. Məhz Ulu öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili, sözün həqiqi mənasında bərqərar edildi. Eləcə də, latın qrafikasına keçid prosesi başa çatdırıldı. 30 sentyabr 2002-ci ildə isə Ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı millimədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ən əsası, ümummilli liderimiz bütün rəsmi və qeyri-rəsmi tədbirlərdə Azərbaycan dilində danışmaqdan çəkinməyərək, ana dilimizə verdiyi yüksək dəyəri vurğulayıb, dilimizin ictimai-siyasi mövqeyinin yüksəlməsinə zəmin yaradıb. Belə ki, ulu öndərin 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi ilə bağlı qərarı və bu yubileydəki çıxışı xüsusi qeyd olunmalıdır. 1994-cü ildə Bakı Dövlət Universitetinin 75 illiyinə həsr olunmuş iclasında Ulu Öndər bu hadisəni belə qiymətləndirirdi: "Xatirimdədir, universitetin 50 illik yubileyində mən çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. O vaxt bu böyük sensasiya kimi qəbul olundu. Təəccüb doğurdu ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və heç də Azərbaycan dilində pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik etdilər. Dilini sevən, milli ruhla yaşayanlar bunu doğurdan, böyük hadisə kimi qəbul etdilər. Ancaq mən isə onlara dedim ki, qeyri – adi heçnə yoxdur. Bu mənim ana dilimdir və ana dilində çıxış etmək böyük qəhrəmanlıq deyil. Ana dilini bilməmək, onu qiymətləndirməmək, şübhəsiz, xalqın qarşısında qəbahətdir". Ümummilli lider deyirdi: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm". Bəli, Heydər Əliyevin bu cəsarətli addımı Azərbaycan ziyalılarında ruh yüksəkliyi yaratdı. Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi [4].

2001-ci ildə Ümummilli Liderimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə idi. Məhz Ulu öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili, sözün həqiqi mənasında, bərqərar edildi. Eləcə də, latın qrafikasına keçid prosesi başa çatdırıldı.30 sentyabr 2002-ci ildə isə Ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ötən illər ərzində isə bu qanun xeyli dərəcədə təkmilləşdirilib. Ulu öndər Heydər Əliyevin qərarı ilə 1 avqust tarixi hər il "Azərbaycan Əlifbası" və "Azərbaycan Dili Günü" kimi qeyd olunur. Müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş mərasimdə Ümummilli Lider demişdir: "Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri Azərbaycan dövlət dilinin, ana dilinin hakim olmasıdır.

Biz bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan dili var". Ümummilli lider Heydər Əliyevin məşhur bir fikrini dönə-dönə xatırlamaqla duyduğumuz qürurun böyük mənası var: "Millətin milliliyini saxlayan onun dilidir". Həmçinin, bundan əlavə, qəbul edilən digər Fərman və sərəncamlar əsasında dilimizin inkişafı, ana dilində təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Məhz ümummilli liderimizin zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması və bağlılığı sayəsində 60-cı illərin sonlarından başlayaraq həyata keçirilən dil siyasəti doğma dilimizin günbəgün saflaşmasına, zənginləşməsinə və inkişaf etməsinə şərait yaratdı".

Ulu öndər gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri - ingilis, alman, fransız, çin və s. dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi.

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Və bu gün ulu öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasətin fonunda milli dilimizin - Azərbaycan dilinin mühafizəsi və inkişafı yönündə həyata keçirilən səmərəli tədbirlərin Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağırışlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi Azərbaycan dilinin milli həmrəylik, bütövlük və identikliyi təmin edən əsas faktorlardan biri kimi çıxış etməsini şərtləndirib. Dövlət başçımızın dediyi kimi: "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik" [6, 8-9].

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan müəllimi.-2009.-12 iyun.-S.1, 2
2. «Ədəbiyyat qəzeti», № 28, 19 iyul 1996-cı il.
3. https://adu.edu.az/az/xeberler/xeberler/6980.html
4. http://anl.az/down/meqale/az_muellimi/az_muellimi_iyun2009/82811.html
5. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Seçilmiş əsərləri X cild. Bakı, Elm və təhsil, 2014
6. Səs, 2022, 22 aprel. №70. S.8-9.

CHARACTERISTICS OF EDUCATION FOR SUSTAINABLE DEVELOPMENT

[1,2]**Gulshan Nasirova,** [1,3]**Ulviya Mammadova**
[1]Mingachevir State University
[2]gulshan.nasirova@mdu.edu.az
[3]ulviyya.mehdiyeva@mdu.edu.az

Education is a crucial Sustainable Development Goal (SDG) because it increases socioeconomic mobility and is a key part of escaping poverty. This is the absolute basis and foundation for obtaining decent work, providing almost all basic needs. SDG4 covers many dimensions of education and development, from birth to death which is often called as lifelong learning. It consists of 10 targets, and within them we noticed a few big themes that often emerged over and over again. The first, accessibility, is how difficult or easy it is to obtain an education, which includes removing barriers that may inhibit access, such as cost location or socioeconomic conditions. The second dimension that caught our attention is equality, which looks more at who has access to the education system. Ensuring that particularly marginalized groups have the support they need to access and participate. Next is quality, and this dimension actually says that just accessing education or making it available is not enough. The system must be of adequate quality to ensure that people acquire the knowledge and skills they need to participate in society and build a

good life for themselves. After all, education is a tool towards a greater goal and in this respect it is very important.

The higher education goal now ensures that all women and men have equal access to affordable and quality higher education, including technical vocational and university. This goal aims to reduce barriers, including cost to higher education, which is education that occurs after compulsory primary and secondary education. There is also a provision for lifelong learning. The terms technical, vocational and tertiary education are often used interchangeably or in overlapping ways, but ultimately there are two broad categories. Technical or vocational training is usually training for a very specific skill. That could be things like trades, culinary, very specific technical jobs and technicians, and then you have what might be called tertiary education, which is more of an academic field that we think of like colleges and universities. So it's more about pursuing an academic skill set rather than trying to get into a very specific trade or skill. This is one of the goals that is quite difficult to measure. In higher education, although information is available on enrollment rates in formal higher education, there is little information on non-formal education opportunities. The latest statistics in 2020 show that 41 of women and 36 of men successfully completed higher education, but these numbers vary widely and this is only an average. When you look at countries such as Korea, Canada, Japan and Russia, this rate can go up to 60 percent. However, if you look at Sub-Saharan Africa, this rate may drop to 10.

Skills can also be acquired in ways outside of formal education channels. For sustainability in education in general, skill enhancement and diversification through a whole range of teaching and educational modalities is necessary. Emphasis should be placed on high-level cognitive and non-cognitive and transferable skills such as problem solving, critical thinking, creative teamwork, conflict resolution and communication. These skills can be useful in various professional fields.

Ensuring equal access to education and vocational training at all levels for vulnerable groups, including indigenous peoples with disabilities and children in vulnerable situations, to achieve sustainability in education. Everyone should have access to the same level of education, regardless of gender, age, race, color, ethnicity, nationality, language, religion, political or other opinion or socio-economic status. Special attention should be paid to indigenous peoples with disabilities, migrants and other vulnerable groups and specific strategies should be established to meet their needs.

All learners should acquire the knowledge and skills needed to promote sustainable development. Education must include information about sustainable development, citizenship, human rights, peace and other topics. It is important to prepare good global and local citizens who can tackle the challenges that they face. This type of information might be integrated to various fields at the level of national policy, university curriculums, teachers' skills, etc.

Finally, this goal has three means of implementation targets that focus on things like educational opportunities, scholarships and funding for education, and the workforce and teaching staff that support a good education system:

- The first target - to build and improve educational institutions that are child, disability and gender sensitive and provide safe, non-violent, inclusive and effective learning environments for all.
- Second - to expand globally the number of scholarships available to developing countries, especially least developed countries, small island developing states and African countries, to higher education, including vocational training and education, including information and communication technology, technical, engineering and scientific programs. to significantly expand the number of scholarships available globally.
- Third - to significantly increase the number of qualified teachers by 2030, including international cooperation for teacher training in developing countries, especially least developed countries and small island developing states.

More and more higher education institutions explicitly integrate sustainability into their visions and other strategic or operational documents. They drive initiatives and projects in all core areas such as teaching research and administration.

Universities should become sustainability agents. For whole system approach everything an institution should be guided by the goal of sustainability. This starts with the institution's core beliefs and what is taught in courses.

Our education is one that tends to teach young people to think analytically, to make distinctions, and to draw boundaries, but we do not teach them to see connections with other people, with the local environment, and to develop relationships with the place. We need to start seeing our local environment and the living world as a kind of incubator for healthy living, an incubator for education and learning, which requires a change in education and how we think of education. It's not so easy for institutions to do that because we are often tied to national curriculum exam programs that focus on cognitive learning outcomes and we ignore the social emotional learning outcomes. We should start creating more space for what we call localized curricula that address the urgent needs of local communities.

The learning environment in the universities and the quality of education are so important to get main goal. Universities that are able to do these kinds of things they also tend to have good academic performance and higher motivation among staff and among students to learn.

We should focus on how we as a university engage with the local environment, how we engage with group learning and greater student participation in university council democracy, how we manage energy in the university, how we work with wind power or solar power depending on the situation we're in. We should make learning more connected to university ground, to the university community where we pay attention to curriculum and professional development. We should pay attention to university community relationships, to the environmental management and eating in the university itself. We also look at the different learning processes: social learning, experiential learning, outdoor learning. We realize that in some areas the conditions aren't ideal, the outdoor and the local university environment is a very rich starting point for teaching and learning. We should not ignore that the curriculum of the street, the curriculum of the land, the curriculum of the community is very rich. If we organize it well, the university becomes the beating sustainability heart of the community.

Education for sustainable development is a framework for learning to live sustainably and to preserve our planet for future generation.

References

1. Apolitical. (2022) How Universities Can Help Cities Achieve the Sustainable Development Goals. https://apolitical.co/solution-articles/en/universities-cities-sustainable-development.

2. Brookings. (2021) City Playbook for Advancing the SDGs: A collection of how-to briefs on advancing the Sustainable Development Goals locally. https://www.brookings.edu/multi-chapter-report/city-playbook-for-advancing-the-sdgs

3. Colglazier, E. W. (2018) The Sustainable Development Goals: Roadmaps to progress. Science Diplomacy 7(1). https://www.sciencediplomacy.org/editorial/2018/sdg-roadmaps.

4. Elavarasan, R. M. (2022). *et al.* Impacts of COVID-19 on sustainable development goals and effective approaches to maneuver them in the post-pandemic environment. *Environ. Sci. Pollut. Res.* 29, 33957–33987

5. Holzbaur, U. D. (2012) "Linking research education and education for sustainable development via projects." Interim: Interdisciplinary Journal, Vol. 11, Issue 1: Central University of Technology Free State Bloemfontein. http://hdl.handle.net/11462/325.

6. Open Government Partnership. 2022. Strengthen the Population's Engagement for Monitoring the Implementation of the Municipal Agenda 2030. (BRSP0002). https://www.opengovpartnership.org/members/sao-paulo-brazil/commitments/BRSP0002.

7. Pacis M, Van Wynsberghe R (2020) Key sustainability competencies for education for sustainability: creating a living, learning and adaptive tool for widespread use. Int J Sustain High Educ 21(3):575–592

8. Pedro EdM, Leitão J, Alves H (2020) Stakeholders' perceptions of sustainable development of higher education institutions: an intellectual capital approach. Int J Sustain High Educ 21(5):911–942

9. Shahen, M. E., Kotani, K. & Saijo, T. Intergenerational sustainability is enhanced by taking the perspective of future generations. *Sci. Rep.* 11, 2437 (2021).

10. Tare, Meghna (December 1, 2020): "Education for Sustainable Development." *Technology & Innovation* 21, no. 4 1–3. http://dx.doi.org/10.21300/21.4.2020.2.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ELMƏ VƏ TƏHSİLƏ GÖSTƏRDİYİ QAYĞI VƏ DİQQƏTİ DANILMAZDIR

Könül Ədalət qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
konul.mammadova@mdu.edu.az

Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Dogrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezlikle təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm, bu, asan məsələ deyil. Bu, bir çox amillərlə bağlıdır, ondan asılıdır... Ancaq indi dərs alan uşaqlar, gənclər gərək mütleqi və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar... Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermek lazımdır... Gənclerimiz öz tarixini, öz tarixi keçmisini gərək yaxşı bilsinlər. Çünkü mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır.

Xeyirxah, vətənpərvər, yaradıcı, millətini hər şeydən yüksək tutmağı bacaran, həyatının hər anı xalqının taleyinə bağlı olan dahi insanlar haqqında heç vaxt keçmiş zamanda danışmırlar, sadəcə - dünyasını dəyişdi - deyirlər. Həm də bu cür adamların bioloji yoxluğu onların mənəvi varlığı ilə əvəzlənir. Yəni belə insanlar bizi tərk etdiyi anda, başqa bir formada mənəvi cəhətdən hər zaman bizimlədir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də xalqın böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilməklə əbədiyyətə qovuşdu. Müasir dövrdə hər bir dövlətin, xalqın gələcəyi və inkişaf səviyyəsi onun elmi-mədəni potensialı ilə də ölçülür. İndiyədək bəşər tarixində ölməzlik qazanmış dahilərin elmə, alimlərə münasibəti, bu fəaliyyət sahəsinin inkişafına verdiyi töhfələr onların ölməzliyini təmin edən əsas amillərdən birinə çevrilmişdir. Məhz elə buna istinad müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri də misilsizdir [1]. Elm sahəsində qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin mühüm şərti kimi nəzərdən keçirmiş dahi liderimiz Azərbaycana rəhbərliyinin bütün dövrlərində bu sahəyə diqqət və qayğısını əsirgəməmiş, daim milli elmimizin qüdrətli hamisi kimi çıxıs etmişdir. O, Azərbaycan elminə, ziyalılara həmişə yüksək dəyər vermiş, diqqət və qayğı göstərmişdir. "Azərbaycan cəmiyyəti, həmçinin Azərbaycan elmi 20-ci əsrdə çox sürətlə inkişaf etmişdir. Bu baxımdan Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər xüsusilə seçilir. Azərbaycan elminin ən inkişaf etdiyi dövr bu dahi şəxsiyyətin hakimiyyəti dövrünə təsadüf edir. Ulu Öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır [2]. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır". Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə

çox ciddi fikir vermək lazımdır". Heydər Əliyev Azərbaycan təhsilinin məqsed və vəzifələrini müəyyən edərkən, müəllimlərdən tələb edilən keyfiyyətlərə də diqqət çəkir: "Keçmisdən fərqli olaraq indi müstəqil Azərbaycanin gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırq və məktəbdə, universitetde formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər". Azərbaycan təhsilinin qarşısındakı bu vəzifənin uğurlu nəticəsinin yaxın vaxtlarda şahidi olduq. Vətənpərvərlik ruhunda tərbiyə edilən, formalaşan Azərbaycan gəncləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandalığı altında 44 günlük Vətən müharibəsində öz sözünü dedi, tərbiyəsini nümayiş etdirdi, Azərbaycanın Zəfər tarixini yazdılar.

Elmin yeni yüksəlişi, elm mərkəzi ulu öndərin adı ilə bağlı idi. Ümummilli Lider dünyada tanınan və qəbul edilən görkəmli siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də böyük bir elm adamı idi. Onun müdrik siyasətinin uzaqgörənliyi və dərinliyi məhz elmi prinsiplər üzərində qurulub hazırlanması, intellektual potensiala arxalanmasında idi. Azərbaycan elminə və elm adamlarına göstərdiyi qayğı və dəstək elə bundan qaynaqlanırdı. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikir və düşüncənin ən yeni nailiyyətlərindən faydalanırdi. O, cəmiyyətin, xalqın inkişafını elmdə, intellektdə görürdü. Azərbaycan aliminə və elminə elə ilk gündən yüksək qayğı göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini də ardıcıl və sistemli şəkildə həyata keçirirdi. Onun diqqət və qayğısı nəticəsində elmi-tədqiqat institutlarının və elmi işçilərinin sayı daha da artır, Azərbaycan Elmlər Akademiyasının maddi-texniki bazası möhkəmlənir, elmi-tədqiqat institutları üçün yeni korpuslar tikilərək hazırlanır, xüsusi təyinatlı layihə-konstruktor büroları yaradılırdı, Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərilir, elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlir, elmin tətbiq sahələri daha da genişlənir, elm adamlarına yaradıcılıq şəraiti yaradılır, görkəmli alimlərin fəaliyyətləri təqdir olunur, onlar mükafatlandırılırdı, Azərbaycan dili, ədəbiyyatı və tarixi üzrə aparılan tədqiqatların genişləndirilməsinə xüsusi fikir verilirdi və s.

Ümummilli Lider Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına çalışır və onlara qayğı göstərirdi.

Keçən əsrin 70–80-ci illərində yeni elm sahələrinin, elmi istiqamətlərin yaranması respublikamızda elmin inkişafına çox müsbət təsir göstərmişdi. Uzaqgörən siyasətçi Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi və bilavasitə iştirakı ilə kimya, neft emalı və neft-kimya sənayesinə kapital qoyuluşu artırılmış, bu sahədə ən qabaqcıl texnologiya tətbiq olunmuşdur [3]. Neft-kimya sənayesi modernləsdirilmiş və yeniden qurulmuşdur. Astronomiya, kosmik tədqiqatlar, biokimya, malekulyar biologiya, biofizika, biotexnologiya kimi sahələr inkişaf etdirilmişdi. Ulu Öndərin uzaqgörənliyi ilə Azərbaycanda onlarla nəhəng sənaye kompleкsi-neft emalı, neft-kimya, maşınqayırma, cihazqayırma müəssisələri yaradıldı ki, bunlar da elmin sürətli inkişafını təmin etdi. Heydər Əliyev respubliкa alimlərini və elmi idarələrin rəhbərlərini elmin ən müasir sahələri üzrə elmi-tədqiqat işlərinin aparılmasına yönəldirdi. Bilavasitə bu dahi insanın himayəsi altında ölkəmizdə elmin ən önemli perspektivli sahələri üzrə elmi-tədqiqat işləri aparılırdı [1]. Təkcə 1979-cu ildə təbiət və ictimai elmlər sahəsində respublikada aparılan elmi-tədqiqatların 55 nəticəsi sovet elminin ən mühüm nailiyyətləri sırasında qeyd edilmişdi [3].

70-80-ci illərdə – 10 il ərzində Elmlər Akademiyası alimlərinin tədqiqatlarının istehsalata tətbiqi nəticəsində əldə edilən iqtisadi səmərə 570 milyon manatdan çox olmuş, 1000-dən çox müəlliflik şəhadətnaməsi almışlar. 1970-1985-ci illərdə iqtisadi səmərəyə malik 850-yə yaxın iş xalq təsərrüfatinda tətbiq edilmiş, 2280 elmi, elmi-tədqiqat və xalq təsərrüfatı əhəmiyyətli nəticə alınmışdı. Xalqımızın mənəvi həyatında əlamətdar olan bu hadisə çoxəsrlik tariximizdə ilk universal-milli on cildlık Azərbaycan Ensiklopediyasının hazırlanıb ərsəyə gətirilməsi də Heydər Əliyevin adı ilə sıx bağlıdır. Bu ensiklopediya Heydər Əliyev dövrünün təkzibedilməz mənəvi abidəsidir. Ümummilli Lider bütün ictımai-siyasi fəaliyyəti boyunca tarixə, ədəbiyyata, mədəniyyətə, ümumilikdə humanitar elmlərə yüksək qiymət və əhəmiyyət vermiş, onların xalqın mənəvi

həyatında oynadığı rolu layiqincə dəyərləndirmişdir. Öz xalqını və dilini dərindən sevən Heydər Əliyev rəhbərliyə gəldiyi ilk günlerdən başlayaraq, respublika iqtisadıyyatı və mədəniyyətinin yüksəlişi, xalqın güzəranının yaxşılaşması uğrunda apardığı mübarizədə Azərbaycan dilinin fəaliyyət dairəsinin genişlənməsi və inkişafına da daima diqqət yetirmişdi.

Ulu Öndərin hakimiyyəti illərində Azərbaycan dilinə, Azərbaycan tarixinə, mədəniyyətinə dair elmi-tədqiqatların aparılması və monoqrafiyaların nəşri xeyli artırıldı. Yeni-yeni əsərlər yazılaraq nəşr edilirdi. Azərbaycanın tarixi və dilçilik sahəsində yazılmış bir sıra elmi və bedii əsərlərə dövlet mükafatları verilirdi. Kecən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlləri Azərbaycan üçün en çətin, ağır dövrə çevrildi. Həmin illərdə mövcud hadisələrin müharibə alovunun fonunda Azərbaycan elminə də ciddi zərbələr vurulmuşdur. Bütün sahələrdə olduğu kimi, elm sahəsində də durğunluq hökm sürürdü [3]. 1993-cü il Azərbaycan tarixinde, müstəqil dövlətçilik tariximizdə, respublikamızın ictimai-siyasi fikir tarixində dönüş ili kimi yadda qalmışdır. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elmə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərmişdi. Xalq 1993-cü ildə Heydər Əliyevi Azərbaycanın xilaskarı kimi ikinci dəfə hakimiyyətə gətirdi. Azərbaycan dövləti parçalamaq, məhv olmaq təhlükəsindən xilas oldu, Bu, eyni zamanda, Azərbaycan elminin xilası demək idi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı ziyalıya, alimə və elmə hörməti də geri qaytardı. Ümummilli lider Heydər Əliyevin siyasi xəttini, müəyyənləşdirdiyi siyasəti inamla və uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev praqmatik və rasional düşüncəli siyasətçi kimi xalqın gələcəyini məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında dəfələrlə vurğulamışdır [1]. Möhtərəm Prezident İlham Əliyevin 2010-cu ildə AMEA-nın illik yığıncağında iştirakı və alimlər qarşısında dərin məzmunlu nitqi ilə çıxış etməsi, elmin inkişaf perspektivləri ilə bağlı dəyərli tövsiyələr verməsi, habelə akademiyanın binası ətrafında aparılan yenidənqurma,abadlıq işləri ilə yaxından tanış olması bu sahəyə dövlət qayğısının davamlı səciyyə daşıdığını göstərir.

Prezident İlham Əliyev proqram xarakterli nitqində Azərbaycanın inkişafında elmin rolunu bir daha xüsusi diqqətə çəkmişdir: "Akademiyada Azərbaycanın intellektual elitası cəmlənib. Akademiyanın inkişafı Azərbaycanda elmin inkişafına birbaşa təsir göstərir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük verir.

Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir" [3]. Ulu öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət eyni zamanda Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.

İstifadə edilmiş ədəbiyyat

1. Nəbiyeva B. Heydər Əliyev haqqında etüdlər. Bakı-2007, 136 səh
2. Zamanov N. Heydər Əliyev və Azərbaycanda nitq mədəniyyəti. Bakı-2013 480 səh
3. Xudiyev N.M. Uğurlu yolun layiqli davamçısı. Bakı-2007, 608 səh

HEYDƏR ƏLİYEV İRSİ VƏ AZƏRBAYCAN GƏNCLİYİ

İlahə İbad qızı İsmayılova
Mingəçevir Dövlət Universiteti
ilaha.ismayilova@mdu.edu.az

Dövlətçilik tariximizin bütün dövrlərində Azərbaycan gənci aparıcı qüvvə kimi öz dövlət müstəqilliyini əldə etməsində və qorunub saxlanılmasında, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prosesində yaxından iştirak etmiş, xalqımızın əldə etdiyi uğurlarda böyük pay sahibi

olmuşdur. Tarixə nəzər salanda Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin danılmaz rolunu görürük. Ona görə də əminlikdə deyə bilərik ki, cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya da məhz onlarla birgə addımlayır.

Tarix boyu Azərbaycan öz müstəqilliyini qazanmağa çalışan bir dövlət kimi, çox çətinliklərlə üz-üzə qalmışdır. Bu çətinliklərin həllində əsas rolu oynayan şəxslərdən biri də şübhəsiz ki, Azərbaycanın Ümummilli lideri Heydər Əliyevdir. O, ölkənin müstəqilliyini qorumaq, inkişafını təmin etmək, daxili və xarici çətinlikləri həll etmək üçün çox böyük səylər göstərmişdir. Heydər Əliyev ölkəyə sülh və sabitlik gətirməkdə, iqtisadiyyatı gücləndirməkdə, dövlət quruluşunun effektivliyini artırmaqda və Azərbaycanın beynəlxalq arenadakı mövqeyini gücləndirməkdə əvəzsiz xidmətlər etmişdir. Dahi şəxsiyyət xüsusi liderlik bacarığı ilə Azərbaycanın müstəqilliyini, milli maraqlarını qorumaqda, inkişaf etdirməkdə əsaslı rol oynamışdır. Ümummili lider həyata keçirdiyi uzaqgörən siyasəti ilə ölkənin birləşməsini, ərazi bütövlüyünün qorunmasını və daxili rifahını təmin etmək üçün geniş çaplı proqramlar tətbiq edərək ölkənin müasir tarixində bir iz qoymuştur.

Dövlətin əsas istiqamətlərindən biri olan gənclər siyasəti də Heydər Əliyevin liderliyi altında, ölkə cəmiyyətinin müasir və sağlam inkişafının əsas şərtlərindən birini təşkil etməklə bir çox çətinlikləri uğurla ötürməyi bacarmışdır. Müstəqil Azərbaycan özündən əvvəl Sovet İttifaqının parçası olan bir ölkə kimi münaqişələr, iqtisadi sıxıntılar və digər müxtəlif məsələlərlə üz-üzə qalırdı. Heydər Əliyev bu problemləri həll etmək üçün səy göstərməklə yanaşı, öz müdrikliyi, liderlik bacarığı və strategiyası ilə Azərbaycanın inkişaf yollarını tapmağa və ölkəni daha müstəqil və müvəffəqiyyətlə idarə etməyə çalışmışdır.

Ümumilikdə, Heydər Əliyev Azərbaycanın müstəqilliyi və inkişafında ən önəmli simalardan biridir. Onun liderliyi və dörd dəfə prezident seçilməsi, Azərbaycanın tarixində yeni bir dövrün açılmasına səbəb olmuş və ölkəni dünya səviyyəsində tanınan və rifah içində yaşayan bir respublikaya çevirmişdir.

Hər bir ölkənin maddi və mənəvi tərəqqisi cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin sosial-psixoloji vəziyyətindən, həyat və fəaliyyət şəraitindən, əmək fəaliyyətindən bilavasitə asılıdır, desək yanılmarıq. Ona görə də Ümummilli lider Heydər Əliyev rəhbərlik etdiyi bütün zamanlarda gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində hər zaman önəmli yer tutmuş və Azərbaycan gəncliyinin inkişafında milli lider kimi əsaslı və pozitiv işlər görmüşdür. Ulu öndərin Azərbaycanın müstəqilliyi dövründə dahi şəxsiyyət olaraq xalqın dəstəyini qazanması məhz onun uzaqgörən siyasətinin nəticəsidir. Bunun üçün də Heydər Əliyev Azərbaycan gənci üçün daim müsbət nümunə olmuşdur. Onun ölkədə təhsilin və mədəniyyətin inkişafını təmin etməkdə, gənclərin idman və səhiyyə sahəsində məşğul olmalarında və sosial lahiyələrdə iştirak etmələrində göstərdiyi ciddi dəstək nəticəsiz qalmamışdır. Xüsusilə gənclərin inkişafı və təhsili üçün göstərdiyi səylər öz təsirini göstərmişdir. Belə ki, H.Əliyevin dönəmində təhsil sistemi daha da inkişaf etmiş, universitet və digər təhsil müəssisələrinə daxil olan gənclərin sayı artmışdır. Həmçinin, gənclərin müxtəlif ixtisas sahələrində layiqli yerlər alması təmin edilmiş, onların fəaliyyət göstərməsi üçün daha geniş imkanlar yaradılmışdır. Dahi rəhbərin liderliyi altında Azərbaycan gənclərinin idman və mədəniyyət sahəsində uğurları xeyli artmışdır. Ulu öndərin dəstəyilə gənclərlə bağlı əhəmiyyətli layihələrin inkişafı üçün ciddi addımlar atılmış, ölkənin beynəlxalq arenadakı mövqeyini gücləndirmişdir.

Ümumi olaraq deyə bilərik ki, Heydər Əliyev Azərbaycan gəncliyinin inkişafı və möhkəmlənməsi üçün vacib bir sima olmuşdur. Onun dönəmində, gənclərə daha çox imkanlar yaradılmış, onların iştirakı və inkişafı dəstəklənmişdir.

Heydər Əliyev, Azərbaycan tarixinin ən nüfuzlu siyasi şəxslərindən biri olaraq Azərbaycan gəncliyinə səciyyəvi və siyasi inkişaf üçün motivasiya vermişdir, desək daha doğru olar. O, gənclərin siyasi proseslərə daha aktiv qatılmasını təşviq etmiş, onlara liderlik və milli məsuliyyət hissini aşılamışdır. Bu, Azərbaycan gəncliyinin ölkəmizin inkişafında daha fəal və səciyyəvi iştirak etməsinə, potensiallarını maksimum səviyyədə istifadə etməsinə imkan yaratmışdır. Ona görə də Heydər Əliyev gənclərə olan inamı və dəstəyi ilə tanınan bir lider kimi tarixə düşmüşdür. Onun zəngin irsi, gənc nəslin öz potensialını tam olaraq reallaşdırmasına imkan vermiş, müasir təhsil

sisteminin qurulması və gənclərin ixtisas sahələrində inkişafı üçün strateji planlar hazırlamaqla mütəxəssislər kimi yetişdirilməsinə dəstək olmuşdur. Ümummili Liderin hakimiyyəti illərinə nəzər salanda görürük ki, o, hər zaman gənclərin siyasi iştirakına dəstək olmuş, onun rəhbərliyi altında, bir çox gənc siyasi təşkilatlar yaradılmış və gənclərə siyasi proseslərdə iştirak etmək imkanları verilmişdir.

Məhz Azərbaycan tarixinin yeni dövründə dövlətimizin qarşısında duran çətinlikləri həll edə bilmək üçün xalqın, xüsusən gənclərin yenidən təşkilatlanması, onlarda milli özünüdərkin, azad, demokratik düşüncənin formalaşması Ümummilli lider Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində daha böyük sürətlə irəliləmişdir. Ona görə də böyük inam hissi ilə Respublikada dövlət gənclər siyasətinin formalaşdırılmasının Ümummilli lider Heydər Əiyevin adı ilə bağlı olduğu qeyd edilir. Çünki o, hər zaman gənclərə xüsusi qayğı ilə yanaşmış, gənclərin problemləri hər an onun diqqət mərkəzində olmuş, yüksək intellektual səviyyəyə, müasir dünyagörüşünə malik gənc nəslin yetişməsinə olduqca böyük əhəmiyyət vermişdir.

"Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir."[1] – deyən müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu öndər Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirərək bildirirdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Ümummilli lider ölkə rəhbəri olduğu ilk dövrlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab etmişdir. Heydər Əliyevin bu istiqamətdə yürütdüyü siyasət gənclərin sosial rifahının yaxşılaşdırılmasına, mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə və elmi potensialın yüksəldilməsinə xidmət edib. Ulu öndərin əvəzsiz diqqətnin nəticəsidir ki, hazırda gəncliyimiz ictimai həyatın bütün sahələrində aktivliyi ilə seçilib və cəmiyyətin aparıcı qüvvəsinə çevrilib.

"Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir" [2] – bu sözlər Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın gələcəyi və inkişafı üçün gənclərə verilən önəm kimi vurğulanmışdır. Gənclərimizin həyat devizinə çevrilən bu ifadələr onun kimi uzaqgörən bir liderin düşüncə və fəaliyyət tərzını əks etdirir. Bu fikirlə gənclərin dövlət idarəçiliyində aktiv iştirak etməsinin vacibliyini vurğulayan Heydər Əliyev eynı zamanda ölkənin inkişaf strategiyasının bir hissəsi kimi gənclərin potensialını tanıyıb, inkişaf etdirmək üçün onlara dəstək durmaqla ölkənin gələcəyini inşa etmək üçün əsaslı bir strateji yol seçmişdir. Çünki ulu öndər gənclər siyasəti, onların aktiv iştirakı və müdafiəsi vasitəsilə ölkənin davamlı inkişafını təmin ediləcəyinə inanırdı. O, əmin idi ki, gənclər, yeniliklərə və gücünə nail olaraq, müasir dünyanın dəyişən tələblərinə cavab verə və inkişafın hər sahəsində ölkəni daha rəqabətli və inkişaf etmiş bir vəziyyətə apara bilər.

Gəncləri ölkənin və millətin gələcəyi, onun inkişafının və yüksəlişinin əsas meyarı hesab edən Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin bütün dövrlərində daha çox gənclərin bir kadr kimi yetişməsi diqqət mərkəzində olmuşdur. Gənclərə göstərilən diqqət və qayğı dahi liderin təşəbbüsü və iştirakı ilə 1996-cı il fevralın 2-də keçirilən gənclərin I Forumunda öz əksini tapdı. Forum Azərbaycan gənclərərinin formalaşmasında və yeni nəslin fəaliyyət meydanına əsas söz sahibi olmasında xüsusi rolu oldu. O vaxtdan bu günə qədər gənclər siyasəti daim dövlətin prioritetləri sırasında yer tutmaqdadır. İlk Azərbaycan Gənclər forumunun keçirilməsilə Ümummilli Lider aydın strategiya ilə müstəqilliyimizin ilk illərində gənclərin enerji və imkanlarını milli maraqlarımızın müdafiəsinə səfərbər etdi, onların vətənpərvər ruhda formalaşmasına zəmin yaratdı, gənclər qarşısında mühüm tarixi vəzifələr müəyyənləşdirdi.

Gənclərin inkişafı üçün mükəmməl bir dövr olmayan ötən əsrin 90-cı illərində həyata keçirilən Gənclər forumu Azərbaycan gəncliyinin həyatında ciddi dönüş yaratdı. Məhz bu tarixdən sonra dövlətin dəstəyi ilə inkişaf edən gənclik Ümummilli lider Heydər Əliyevin 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda söylədiyi - "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" [3] devizinə sadiq qalıb, dövlətin mənafeyi üçün çalışmağa başladı.

Ümummilli liderin gəncliklə bağlı strategiyasının ilk təntənəsi olaraq qeyd edilən ilk Azərbaycan Gənclər forumundan sonra 1997-ci ildə Heydər Əliyevin Sərəncamı əsasında I Forumun keçirildiyi tarix, yəni 2 fevral Azərbaycanda Gənclər Günü kimi elan edildi. Sonrakı dövrlərdə Azərbaycan gənclərinin forumlarının keçirilməsi Respublika gəncləri qarşısında duran mühüm vəzifələrin icrası gənclərimizin fəaliyyət istiqamətlərinin daha da genişləndirilməsində əhəmiyyətli rol oynadı və ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi, həmçinin gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu. Gənc nəslin inkişafına böyük ümidlər bəsləyən Ulu Öndər deyirdi ki, "Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir." [4] Bəli, onun gəncliyə və gənclərə olan etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır.

Sevindiricidir ki, bu gün gənclər siyasəti mahiyyət və keyfiyyət etibari ilə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edərək, 2003-cü ildən sonrakı dövrdə gənclər siyasətinin inkişaf istiqamətini Azərbaycan gəncliyi ilə bağlı mühüm Dövlət proqramlarını qəbul etməklə mövcud ənənələr əsasında daha da təkmilləşdirdi.

Bu gün Azərbaycanda gənclərin hərtərəfli inkişafı, mükəmməl təhsil alması, müxtəlif sahələr üzrə potensiallarının aşkar edilməsi, bacarıqlarının stimullaşdırılması üçün əlverişli ortamın yaradılması, gənclərin vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, müəyyən problemlərinin həlli istiqamətində görülən tədbirlər, gənclər təşkilatlarının yaradılması və formalaşdırılması, bir sözlə inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. İndi həqiqətən də gənclər yaxşı mənada seçilirlər. 15-20 il əvvələ nəzər salanda bugünkü qədər gəncin beynəlxalq ali məktəblərə qəbul olmasını görə bilməzdik.

Bəli, məhz məqsədyönlü siyasətin həyata keçirilməsi sayəsində ölkəmizdə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, malik gənclər formalaşmaqdadır. Müasir Azərbaycan gənci gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Dövlətin dəstək və xüsusi diqqəti Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldırlar. Artıq ölkəmiz kifayət qədər inkişaf edib. Ölkəmizin iqtisadi və siyasi gücü günü-gündən artmaqdadır.

Ümummilli lider Heydər Əliyev "Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və Vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər." [5] – deyərək, Azərbaycan Respublikasının ərazi bütölüyünün bərpa olunmasında gənclərə böyük inam bəslədiyini göstərirdi. Ona görə də ölkədə həyata keçirilən gənclər siyasəti gənc nəslin hərərəfli inkişafı üçün şərait yaratmaqla yanaşı, onları vətənpərvər ruhda formalaşdırılmasına da xidmət edirdi. Ölkə prezidenti İlham Əliyevin söylədiyi kimi "Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir və əlbəttə ki, yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur." [6] Bu baxımdan bütün sahələrdə yüksək nəticələrə nail olan gənclərimiz öz gücünü döyüş meydanında düşmən üzərində qazanılan qələbə ilə də göstərməyi bacardı. Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi, Lokal xarakterli antiterror tədbirlərində Azərbaycan gənci vətənpərvərliyini, yenilməz gücünü, əzmini bütün dünyaya nümayiş etdirməyi bacardı.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, bu gün ölkəmizdə Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda vətənpərvər, milli-mənəvi dəyərlərə, Heydər Əliyev ideyalarına sadiq gənclik formalaşır, bunun üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu isə gələcək inkişafımızın möhkəm əllərdə olacağına böyük əminlik yaradır.

İstifadə edilmiş ədəbiyyat

1. haydaraliyevcenter.wordpress.com

2. azertag.az
3. www.anl.az
4. Azərbaycan gənclərinin III forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından - 13 oktyabr 2003-cü il "Azərbaycan" qəzeti, 14 oktyabr 2003-cü il. lib.aliyevheritage.org
5. www.aktualinfo.az
6. president.az

HEYDƏR ƏLİYEV NİTQİNDƏ VERBAL VƏ QEYRİ-VERBALLIQ

Şəhanə Şahin qızı Heydərova
Mingəçevir Dövlət Universiteti
shahanebabayevaa@gmail.com

Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olmuşdur. Təxminən on il ərzində Ulu öndər Heydər Əliyev həqiqətən də böyük tarixi olan işlər görmüşdür: Azərbaycan dili dövlət dili olaraq Azərbaycan Sovet Sosialist Respublikasının qanunlarında (xüsusilə Konstitusiyada) əksini tapmış, mərkəzin etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilmişdir. Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilmiş, bir sıra digər sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gənclərin ana dilində təhsilinə üstünlük verilmişdir. Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni etmiş, Azərbaycanın böyük yazıçıları, şairləri əsərlərini, demək olar ki, yalnız ana dilində yazmış, Azərbaycan Yazıçılar İttifaqının mətbuat orqanları Azərbaycan dilində çıxmışdır. Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılmış, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılmış, həmin çoxcildliklərdən biri - ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi respublika Dövlət mükafatına layiq görülmüş, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə, əslində, ana dilinin nüfuzu bir daha təsdiq edilmişdir.[2] Yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktiki olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərmiş, başqalarına nümunə vermişdir.

Xalqın təkidli tələbi ilə 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi əhəmiyyət verən ümummilli lider Heydər Əliyev ana dilimizi özümüzə qaytardı.

Tarix boyu dünyada sözsüz vasitələrdən istifadəedilməsinə görə seçilən və hətta bu sahədə güclü təhsil alan siyasətçilər də vardır. Azərbaycan xalqının böyük oğlu, Ümummilli lider Heydər Əliyev də sözsüz ünsiyyət vasitələrindən çox məharətlə istifadə edən siyasətçilərdən biridir. Dünyada böyük nüfuza malik olan lider təkcə gözəl nitqi ilə deyil istifadə etdiyi qeyri-verbal mesajlara görə seçilmiş, ötürmək istədiyi məlumatı hərtərəfli çatdıra bilmişdir. O, bədən dilindən yerində və məharətlə istifadə edən nadir siyasətçilərdəndir. Ulu Öndər istənilən sözsüz vasitələrindən zamanında və doğru məkanda bacarıqla istifadə etmək qabiliyyəti də olmuşdur. Heydər Əliyevin Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə görüşündən bir şəkil verilmişdir. Burada ümummilli lider tanınmış siyasətçilərin istifadə etdiyi üstün əl jestindən istifadə etmişdir. Şəkildən də göründüyü kimi Heydər Əliyev ovuc içi aşağı baxan əl jestindən istifadə etməklə üstünlük nümayiş etdirmişdir.

Heydər Əliyevin rəsmi görüşlərində bu cür əl jestindən istifadə etdiyi məqamlara nəzər salaq. Ümummilli Liderin Amerika Birləşmiş Ştatlarının eks-prezidenti Corc Buşla görüşündən bir şəkil verilmişdir. Şəkildən göründüyü kimi, Heydər Əliyev həm ovuc içi aşağı, həm də üstünlük bildirən

digər bədən dili elementindən, yəni sinəsinin ön hissəsi qarşı tərəfə baxmamaq, qarşı tərəfin əlinin özünə tərəf çəkilməsi kimi bədən dili elementlərindən istifadə etməklə güc nümayişi göstərmişdir.

Sözsüz, ünsiyyət vasitələrindən biri olan, qarşı tərəfə gücün nümayişini ötürən ən mühüm gizli elementdir, çünki deyilən sözü başa düşüb dekodlaşdırmaq elə də çətin deyildir. Sözsüz ünsiyyət vasitələrini isə dərhal dekodlaşdırmaq mümkün olmur. Belə vasitələrin dekodlaşması böyük diqqət və bacarıq tələb edir. Ona görə də sözsüz ünsiyyət vasitələrini gizli mesajlar da adlandırmaq olar.

Gücün nümayişinin digər elementi ovuc içinin aşağı baxılması ilə paralel olaraq qarşı tərəfin qolundan tutulmasıdır. Ulu öndər bu bədən hərəkətindən də məharətlə istifadə edirdi. Deməli, Heydər Əliyevin nitqində heç bir söz təsadüfi seçilib deyilmədiyi kimi sözsüz ünsiyyət vasitələri də təsadüfi seçilməmişdir. Bax: şəkil 3. Heydər Əliyev istər rəsmi, istərsə də qeyri-rəsmi görüşlər olsun öz tərəf müqabilini diqqətlə dinləməyi bacaran insan idi. Fransanın keçmiş prezidenti Jak Şirakla görüşündə Heydər Əliyev tərəf müqabilini diqqətlə dinləyir, gözləri ilə ona baxır ki, bu da onun qarşı tərəfi dinlədiyindən xəbər verir. Heydər Əliyev hər zaman şux geyimi, göz rəngi, dik duruşu və yerişi ilə də seçilən siyasətçilərdən biri idi ki, bu da onun özünə inamının göstəricisi idi. İnsanlar nitqlərində ən böyük önəm verdiyi sözsüz ünsiyyət elementlərindən biri jestlərdir. Ümummili lider Heydər Əliyev də nitqlərində jestlərə çox böyük önəm verirdi, xüsusilə də şəhadət barmağından daha çox istifadə edərdi. "Ümummilli liderimiz Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlməsini misal göstərmək olar. Bu sözləri deyərkən onun əlini yumruq şəklində havada yelləyərək fikrində nə qədər ciddi olduğunu göstərə bilmişdir". [3] Ümumiyyətlə, yumruq jesti gücün simvou hesab olunur. İnsanlar digərlərinə öz gücünü göndərmək istədikdə bu jestdən istifadə edirlər. Ümummilli liderimiz bu jestdən istifadə etməklə qarşı tərəfə öz gücünü ifadə etməyə çalışmışdır. Heydər Əliyevin məharətlə istifadə etdiyi jestlərdən biri də ovucun içinin açıq olması jestidir. Bununla görkəmli lider insanlara səmimiyyətini, dostlara açıqürəkliliyini ifadə etmişdir. Deməli, siyasətçilərin sözsüz ünsiyyət vasitələrindən düzgün və yerli-yerində istifadə etməsi onların dünya liderlərindən birinə çevrilməsində mühüm rol oynayır. Öz nitqində sözlərlə paralel sözsüz ünsiyyət vasitələrindən yerli-yerində istifadə edən ümummilli lider dünya siyasətçiləri arasında bu gün də hörmətlə xatırlanır. Tarix boyu dünyada sözsüz vasitələrdən istifadə edilməsinə görə seçilən və hətta bu sahədə güclü təhsil alan siyasətçilər də vardır. Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyev də sözsüz ünsiyyət vasitələrindən çox məharətlə istifadə edən siyasətçilərdən biridir. Dünyada böyük nüfuza malik olan lider təkcə gözəl nitqi ilə deyil istifadə etdiyi qeyri-verbal mesajlara görə seçilmiş, ötürmək istədiyi məlumatı hərtərəfli çatdıra bilmişdir. O, bədən dilindən yerində və məharətlə istifadə edən nadir siyasətçilərdəndir. Ulu öndər istənilən sözsüz vasitələrindən zamanında və doğru məkanda bacarıqla istifadə etmək qabiliyyəti də olmuşdur. Heydər Əliyevin Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə görüşündən bir şəkil verilmişdir. Burada Ümummilli Lider tanınmış siyasətçilərin istifadə etdiyi üstün əl jestindən istifadə etmişdir. Heydər Əliyev ovuc içi aşağı baxan əl jestindən istifadə etməklə üstünlük nümayiş etdirmişdir.

Heydər Əliyevin rəsmi görüşlərində bu cür əl jestindən istifadə etdiyi məqamlara nəzər salaq. Ümummilli Liderin Amerika Birləşmiş Ştatlarının eks-prezidenti Corc Buşla görüşündə Heydər Əliyev həm ovuc içi aşağı, həm də üstünlük bildirən digər bədən dili elementindən, yəni sinəsinin ön hissəsi qarşı tərəfə baxmamaq, qarşı tərəfin əlinin özünə tərəf çəkilməsi kimi bədən dili elementlərindən istifadə etməklə güc nümayişi göstərmişdir.

Sözsüz ünsiyyət vasitələrindən biri olan, qarşı tərəfə gücün nümayişini ötürən ən mühüm gizli elementdir, çünki deyilən sözü başa düşüb dekodlaşdırmaq elə də çətin deyildir. Sözsüz ünsiyyət vasitələrini isə dərhal dekodlaşdırmaq mümkün olmur. Belə vasitələrin dekodlaşması böyük diqqət və bacarıq tələb edir. Ona görə də sözsüz ünsiyyət vasitələrini gizli mesajlar da adlandırmaq olar.

Gücün nümayişinin digər elementi ovuc içinin aşağı baxılması ilə paralel olaraq qarşı tərəfin qolundan tutulmasıdır. Ulu öndər bu bədən hərəkətindən də məharətlə istifadə edirdi. Deməli, Heydər Əliyevin nitqində heç bir söz təsadüfi seçilib deyilmədiyi kimi sözsüz ünsiyyət vasitələri də təsadüfi seçilməmişdir. Heydər Əliyev istər rəsmi, istərsə də qeyri-rəsmi görüşlər olsun öz tərəf müqabilini diqqətlə dinləməyi bacaran insan idi. Onun Fransanın keçmiş prezidenti Jak Şirakla

görüşündən bir şəkil verilmişdir. Şəkildən də göründüyü kimi Heydər Əliyev tərəf müqabilini diqqətlə dinləyir, gözləri ilə ona baxır ki, bu da onun qarşı tərəfi dinlədiyindən xəbər verir. Heydər Əliyev hər zaman şux geyimi, göz rəngi, dik duruşu və yerişi ilə də seçilən siyasətçilərdən biri idi ki, bu da onun özünə inamının göstəricisi idi. İnsanlar nitqlərində ən böyük önəm verdiyi sözsüz ünsiyyət elementlərindən biri jestlərdir. Ümummili lider Heydər Əliyev də nitqlərində jestlərə çox böyük önəm verirdi, xüsusilə də şəhadət barmağından daha çox istifadə edərdi. "Ümummilli liderimiz Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlməsini misal göstərmək olar. Bu sözləri deyərkən onun əlini yumruq şəklində havada yelləyərək fikrində nə qədər ciddi olduğunu göstərə bilmişdir". [4] Ümumiyyətlə, yumruq jesti gücün simvou hesab olunur. İnsanlar digərlərinə öz gücünü göndərmək istədikdə bu jestdən istifadə edirlər. Ümummilli Liderimiz bu jestdən istifadə etməklə qarşı tərəfə öz gücünü ifadə etməyə çalışmışdır. Heydər Əliyevin məharətlə istifadə etdiyi jestlərdən biri də ovucun içinin açıq olması jestidir. Bununla görkəmli lider insanlara səmimiyyətini, dostlara açıqürəkliliyini ifadə etmişdir.

Deməli, siyasətçilərin sözsüz ünsiyyət vasitələrindən düzgün və yerli-yerində istifadə etməsi onların dünya liderlərindən birinə çevrilməsində mühüm rol oynayır. Öz nitqində sözlərlə paralel sözsüz ünsiyyət vasitələrindən yerli-yerində istifadə edən ümummilli lider dünya siyasətçiləri arasında bu gün də hörmətlə xatırlanır.

Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" kəlamı müşahidə etdiyimiz bütün proseslərdə öz əksini tapır. Bizim gənc nəsil bu siyasəti davam etdirməyə çalışmalıdır. Vətənin, millətin dəyərini hər kəs dərk etməlidir. Bu, yalnız təhsillə mümkündür. Ümummilli Liderin başladığı siyasəti Prezident İlham Əliyev davam etdirir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi H.Əliyev Fondu təhsil müəssisələrinə bir çox sahələrdə dəstək verir. Layihəyə uyğun olaraq məktəbəqədər təhsil müəssisələrinin əsaslı təmiri aparılıb – demək olar ki, bütün uşaq bağçaları əsaslı təmir olunub, plakatlar, multimedia diskləri, lövhələr, pannolar, oyunlar və digər əyani vəsaitlərlə təchiz edilib. Fond hər il birinci sinif şagirdlərini məktəb çantası və dəftərxana ləvazimatı ilə təmin edir. Çoxlu sayda kitab və nəşrlər azərbaycan dilinə tərcümə edilərək yerli nəşriyyatlar tərəfindən çap edilmiş və təhsil müəssisələrinin kitabxanalarına paylanmışdır. [5]

"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" deyən ulu öndərimiz Heydər Əliyev zəmanəsinin görkəmli natiqlərindən biri olmuşdur. O, müdrik, ağıllı qərarları ilə yanaşı, danışığı, nitqi ilə də bu dilin keşiyində duran bənzərsiz bir insan, mütəfəkkir dövlət xadimi idi. İnsanlar onun nitqinin gözəlliyinə, zənginliyinə, axıcılığına, səlisliyinə, məntiqliliyinə heyran qalır, onu dinləməkdən məmnun olurdular. Onun nitqi həqiqi mənada yaradıcı fəaliyyət idi. Cümlələrin quruluşu, sözlərin, ifadələrin işlədilməsində orijinallıq, özünəməxsusluq daima nəzərə çarpırdı. Ulu Öndər bir natiq kimi zəngin söz ehtiyatına malik idi. O, danışarkən duruxmaz, söz axtarmaq üçün fikirləşməzdi. Nitqində söz və ifadələrin təkrarına mümkün qədər yol verməzdi. Düzgün seçilən və yerində işlədilən ifadəlilik vasitələrini – leksik və frazeoloji sinonimlər, antonimlər, nidalar, müraciətlər, ritorik suallar və s. siyasi liderin nitqini təsirli edir, estetik cəhətdən gözəlləşdirirdi. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini mükəmməl bilməlidir" deyən Heydər Əliyevə bu dil əziz idi, müqəddəs idi. O, bu dilə mükəmməl yiyələnmişdi. Heydər Əliyevin nitqində möhkəm bir məntiq, rabitə vardı. O, heç bir qeydə baxmadan danışar, faktlar, sübutlar gətirər, şərhlər verərdi. İti yaddaşa və güclü hafizəyə malik idi, öz səfərbəredici nitqi, danışıq tempi, manerası, jestləri, mimikası ilə auditoriyanı ələ alaraq öz ideyalarını dinləyicilərə sadə dildə aşılayardı. Auditoriya Heydər Əliyevi öz qarşısında Azərbaycan dilinin incəliklərinə dərindən bələd olan bir dilçi alim görürdü.

Nitq mədəniyyəti hər bir xalqın əsrlərlə formalaşdırıb bu günə çatdırdığı mədəniyyətin ən vacib, ən mühüm tərkib hissələrindən biridir. Bu baxımdan ulu öndərin XX əsr Azərbaycan siyasi natiqliyinin, ümumiyyətlə, Azərbaycan nitq mədəniyyətinin təşəkkül tapmasında rolu birmənalı şəkildə yüksək qiymətləndirilir.

İstifadə edilmiş ədəbiyyat

1. Alışanova, Mehriban Nadir qızı. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir -2007-352.s

2. Cəfərov Nizami. Ümummilli liderin xilaskarlıq və dövlət quruculuğu missiyası .2020. - 263.s

3. Əhmədova L. Heydər Əliyev irsinin kitabxanalarda təbliği /tərt. ed. elmi red. K.Tahirov; red. A.Abdullayeva.- Bakı, 2018.- 233 s

4. Əliyev, H. Əlirza oğlu. (1997). Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. İyun, 1993 - may, 1994. K.: 1 (H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov.- B.) Azərnəşr.

5. Hamidov, Habil. **Heydar Aliyev and the foreign policy of Azerbaijan [Text]** : in the context of silk way and energy security /H. Hamidov ; editor S. Hasano ; reviwers A. Bashirov, S. Bagirov, Z. Aliyev, D. Hashimov ; [design V. Mammadova].-Baku: Teknur, 2013.91, p.: portr., 21 cm.

HEYDƏR ƏLİYEV NİTQİNDƏ MÜDRİK KƏLAMLAR

Maral Ağayar qızı Yusubova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
maral060687@gmail.com

Dil, hiss və düşüncələri ifadə etməyə imkan verən ünsiyyət vasitəsi olmaqla yanaşı, xalqların formalaşması və yanaşması üçün çox mühüm əsasdır.Millətlər dil, inanc, mədəniyyət və əcdad kimi müəyyən dəyərlər üzərində movcud olur ki, bəlkə də ən mühümü dildir. Eyni dildə danışan insanlar toplum olmaqdan kənara çıxaraq milli şüura sahib olub millətə çevrilər. Bu səbəbdən də dilin millətin həyatında böyük əhəmiyyəti var. Millətlər dil kimi canlı məhfum ifadə edir. Doğurlar, böyüyürlər, yaşıyırlar və bəlkə bir gün öləcəklər. Necə ki, mədəniyyət bir xalq üçün əvəzolunmaz bir dəyərdir və insanlar mədəniyyəti sahəsində bəzi fəzilətlərə, həyat tərzinə, əxlaqına sahib olurlarsa və dil də bir millətin təməl daşlarından biridir. Çünki dil bir toplumun millətə çevrilməsinə şərait yaradır. Aralarında əvəzolunmaz bağlar yaradır. Onu ayaqda tutar, yaşadar. Dilini itirən millətlər də kimliyini itirir. Ana dilinə bu əbədi bağlılıq, xalqa, millətə sonsuz məhəbbət Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra daha da özünü büruzə verdi. Milli və dövlət əhəmiyyətinin təbliği ilə bağlı imzalanmış bir çox tarixi fərman və sərancamlar Azərbaycan dilinin,onun yenilənməsi, tədrisi, istifadəsi və tədqiqi mükəmməl dil quruculuğu konsepsiyasına əsas yaratmaqla yanaşı, dilin inkişafı, məzmun və mahiyyətinin zənginləşməsi istiqamətində əsaslı tarixi dəyişiliklər yaratmış, Azərbaycan dilinin inkişafında mühüm rol oynamışdır. Bütün dünya xalqlarında olduğu kimi, Azərbaycan dili də onun azərbaycanlılarının milli kimliyini şərtləndirən əsas amillərdən biri hesab olunur. Dilimiz özünün bütün tarixi inkişaf mərhələlərində xalqa, onun taleyinə bağlı olub və xalqın problemləri ilə üzləşib. Xalqın ağır günlərində də onun milli kimliyinə və xoşbəxt gələcəyə inamını qoruyub, gücləndirib. İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik xalq ölməzdir və böyük gələcəyi vardır. Ona görə də hər bir azərbaycanlı əcdadlarımızdan bizə miras qalmış bu dəyərli milli sərvəti göz bəbəyi kimi qorumalı, onu daim sevməli, əziz tutmalı və müdafiə etməlidir. Bu hər bir vətəndaşın müqəddəs borcudur. Yaşadığımız dünyada oddan-alovlardan keçən, çarpışmalardan zəfərlə çıxan Heydər Əliyev tarixi yaradan idi, tarixin özü idi. Azadlıq, müstəqil dövlət halında yaşamaq hər bir xalqdan ötrü, o cümlədən bizim xalqımız üçün ən böyük xoşbəxtlikdir, misilsiz nemətdir. Çünki dövləti olmayan xalq məhvə məhkumdur. Məhz buna görə də qədirbilən xalqımız ilk növbədə öz dahi oğluna – Heydər Əliyevə minnətdardır. Hər bir vətən övladına gün kimi aydındır ki, əgər XX yüzilliyin sonunda Ulu Tanrı şəxsiyyət və zaman problemini bizim xeyrimizə həll etməsəydi – xalqımızın Heydər Əliyev kimi qüdrətli şəxsiyyəri olmasaydı, müstəqilliyimizi qoruyub saxlaya bilməyəcəkdik!

Azərbaycanda natiqlik məharətinin göstəricisi olan nümunələr çoxdur və həmin nümunələr sırasında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müxtəlif müraciətlərində, ictimai-siyasi tədbirlərdə, elm və incəsənət adamları ilə görüşlərindəki çıxışları xüsusi yer tutur. Həmin

çıxışların hər birində böyük insanın hər məqamda xalqına arzu və istəkləri, gələcək haqqında təsəvvürləri ilə bərabər, narahat ürəyin döyüntülərini də hiss etmək mümkündür. Bunun ən parlaq nümunəsidir. Heydər Əliyevin nitqində möhkəm bir məntiq, rabitə vardı. O heç bir qeydə baxmadan saatlarca danışar, faktlar, sübutlar gətirər, şərhlər verərdi. İti yaddaşa, güclü hafizəyə, dərin məntiqə malik idi, öz səfərbəredici nitqi, danışıq tempi, manerası, jestləri, mimikası ilə auditoriyanı ələ alar, öz ideyalarını dinləyicilərə sadə dildə aşılayardı. O, Azərbaycan dilinin incəliklərinə dərindən bələd olan uğurlu natiq idi. O, müdrik, taleyüklü qərarları ilə yanaşı, danışığı, nitqi ilə də bu dilin keşiyində duran əvəzsiz rəhbər, mütəfəkkir dövlət xadimi idi. Dinləyicilər onun nitqinin gözəlliyinə, zənginliyinə, axıcılığına, səlisliyinə, məntiqliliyinə heyran qalır, onu dinləməkdən yorulmurdular. Onun nitqi həqiqi mənada yaradıcı fəaliyyət idi [1]

Tarix heç nəyi silmir.

Kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır.Amma ədalətsizliyə qarşı daha böyük bir cinayət törətmək ədalətsizlikdən də betərdir.

Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!

Quran-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yolları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.

Insan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.

Hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz. Fikir müxtəlifliyi təbii hadisədir.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil böyük bir aləmdir. Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

Xalq azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.

Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan amali nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar. Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.

Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.

Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir!

Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Ziyalılıq kütləvi ola bilməz.

Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist - bunlar fitri istedada malik olan nadir adamlardır.

Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır. Gərək nəbzin Vətənin nəbzi ilə vursun.

Tənqid həmişə işə kömək edir.

Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!

Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.

Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın.

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır. Həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız heç bir şeydirlər.

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.

Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.

Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yerini tapmalıdır.

Heç kim əbədi qalib ola bilməz.

Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.

Kim ki, biliyindən, bacarığından artıq iddialar edir o, həmişə məğlub olur.

Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa,həmrəyliyə, birliyə dəvət etmişdir.

Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.

Heç bir ölkəni özünə düşmən hesab etməməlisən.

Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir.

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır. İlk işə başlayan şəxslərin üzərinə həmişə çox böyük, şərəfli vəzifələr düşür.

Öz ana dilini bilmayan adamlar sikast adamlardır!

Ağıl olan yerdə zora ehtiyac yoxdur. [3]

Yol-iqtisadiyyat, mədəniyyət, bir sözlə həyat deməkdir.

Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.

Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur.

Həqiqəti gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz.

Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir.

Dünya ümumiyyətlə quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edib.

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq. həmişə inkişaf edəcəkdir.

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir. Müstəqillik yolu qədər çətin yol yoxdur.

Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür.

Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Xalq gərək daim öz kökünü xatırlasın.

Tariximizin hər səhifəsi bizim üçün əzizdir.

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır.

Tarix heç nəyi silmir.

Kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Amma ədalətsizliyə qarşı daha böyük bir cinayət törətmək, ədalətsizlikdən də betərdir.

Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!

Quran-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yolları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır [3]

Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun. İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.

Hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz.

Hər bir vətən övladına gün kimi aydındır ki, əgər XX yüzilliyin sonunda Ulu Tanrı şəxsiyyət və zaman problemini bizim xeyrimizə həll etməsəydi – xalqımızın Heydər Əliyev kimi qüdrətli şəxsiyyəri olmasaydı, müstəqilliyimizi qoruyub saxlaya bilməyəcəkdik!

İstifadə edilmiş ədəbiyyat

1. Elmira Axundova – "Şəxsiyyət və zaman" – Bakı, "Ozan" nəşriyyatı-2009
2. "Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları müqəddəs amal" kitabı Bakı, "Elm və Təhsil"- 2015
3. "Heydər Əliyev və nitq mədəniyyətimiz" kitabı Bakı, "Elm və Təhsil"- 2013.
4. Nəbi Yusifov -"Dünyanın ən ideal tarixi şəxsiyyəti! Kitabı-Bakı-2010

HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA MULTİKULTURALİZMİN BANİSİDİR

Lamiyə İlyas qızı Bayramova
Azərbaycan Texnologiya Universiteti
l.bayramova@atu.edu.az

Azərbaycanda dövlətin multikultural ənənələri qorumasında ən vacib məqam ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən, Konstitusiyada əks olunmuşdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Konstitusiyanın bir sıra maddələrində təsbit edilib. Buna görə də Heydər Əliyevi Azərbaycan multikulturalizminin siyasi banisi hesab etmək olar: Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür, biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq deyən ulu öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Tolerant dövlət kimi dünya sivilizasiyasının aparıcı ölkələri sırasında ön cərgədə dayanan Azərbaycanın brendi olan multikulturalizmin əsasını müəyyənləşdirən Ulu Öndər bildirirdi ki, Azərbaycan çoxmillətli respublikadır. Ölkəmizdə bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların respublikanın ictimai-siyasi həyatında bərabər hüquqlar çərçivəsində iştirak etməsi üçün bütün imkanlar yaradılacaqdır. Ümummilli Lider inamla bildirirdi ki, Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edən düşünülmüş xarici siyasəti olmalıdır. Bütün dövlətlərlə bərabərhüquqlu, qarşılışıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək, dünya dövlətləri sistemində layiqli yer tutmaq xarici siyasətimizin əsas istiqamətlərindəndir.

Tanrı verən ömrü hər kəs bir cür, kimi özü üçün, kimi doğmaları və əzizləri üçün, kimi isə milləti, xalqı, vətəni və dövləti üçün yaşayır.Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, vətəninə və dövlətinə həsr etmişdir. Millətini canından artıq sevən ulu öndərə olan sonsuz xalq məhəbbətinin sirri də məhz elə budur. Viktor Hüqo demişdir: "Əsl insanın vəzifəsinin yarısı vətənə, digər yarısı da xalqa xidmət etməkdən

ibarətdir. "Tükənməz vətən sevgisinin nəticəsidir ki, müstəsna xidmətləri ilə Azərbaycanın taleyində misilsiz rolu olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı, ölkəmizi sürətli inkişaf yoluna çıxarmaqla dünya birliyinə qovuşdurmuş dünya şöhrətli nəhəng siyasətçi - Heydər Əliyevin doğum günü hər il respublikamızda, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda böyük təntənə ilə qeyd olunur, əbədiyaşar liderimizin parlaq xatirəsi dərin ehtiramla yad edilir.

10 may 1923-cü il tarixində dünyaya gələn dahi insan Heydər Əliyev hələ uşaq vaxtlarından fitri istedadı, təhsilə olan marağı, yeniyetmə dövründən həmyaşıdlarından seçilməklə bərabər,həyata baxışı, vətənpərvərliyi ilə diqqəti cəlb edirdi. Cavan olmasına baxmayaraq, Heydər Əliyev 1944-cü ildə bir çox insanın arzusunda olduğu uğura imza atmaqla dövlət təhlükəsizliyi orqanlarına qəbul olunur və dəyərli ömrünün 25 ilini orada ləyaqətlə xidmət edir. Ulu Öndər 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəlir və elə həmin ildə ona general-mayor ali hərbi rütbəsi verilir. Heydər Əliyevin bu vəzifəyə gəlişi hər şeydən əvvəl Azərbaycan uğuru idi.

Ötən əsrin 60-cı illərində Azərbaycanı böhran vəziyyətdən çıxarmaq üçün xalqa əsl rəhbər ola biləcək şəxsiyyətə böyük ehtiyac duyu-lurdu. 14 iyul 1969-cu il tarixində Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev ilk gündən hər cür maneələrə sinə gərərək Azərbaycan xalqı üçün mümkün tədbirləri həyata keçirməyə başladı. Xalqın şanlı keçmişini, soykökünü qaytarmaq, ana dilini inkişaf etdirmək üçün ölçüyəsığmaz işlər görən böyük şəxsiyyət, Heydər Əliyev hərtərəfli islahatlar həyata keçirərək respublikamızı qısa müddətdə sürətlə inkişaf etdirdi Azərbaycan inkişaf edib yüksəldikcə, onun rəhbərinin nüfuzu da artırdı. Bu isə tarixi düşmənlərimiz olan ermənilər narahat edirdi. 1982-ci ildə Ulu Öndərimizin ittifaq rəhbərliyinin ən yüksək pillələrindən birinə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Mərkəzi Komitə-nin Siyasi Bürosuna üzv seçilməsi isə ermənilərin daha ciddi narahatlığına səbəb oldu. Yeni vəzifənin də öhdəsindən xüsusi peşəkarlıqla gələn müdrik rəhbər Heydər Əliyevin uğurları ona qarşı qısqanclıq hisslə-rini gücləndirir və bu ermənipərəst M.Qorbaçovun hakimiyyətə gəlişindən sonra qabarıq nəzərə çarpırdı. Yaranmış fürsətdən istifadə edən ermənilər onun vəzifədən uzaqlaşdırılması planını işə salaraq, bu prosesə dünyada məşhur olan erməni lobbisini də cəlb edir. Azərbaycanda vaxtilə dəstək olduğu bəzi qüvvələrin ona qarşı çıxması isə Heydər Əliyevi ruhdan saldı. Sadalanan səbəblərdən o, 1987-ci ilin oktyabrında vəzifədən istefa verdi. Bundan sonra, vətənin və xalqın məşəqqətli günləri başladı. Əvəlcə, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək ideyası meydana çıxdı ki, bu da xalqımızın soyqırımı ilə müşayiət olunan torpaqlarımızın işğal edilməsi ilə nəticələndi, bir müddət sonra isə "Qanlı yanvar" qırğını baş verdi. Sözsüz ki, o zaman Heydər Əliyev hakimiyyətdə olsaydı bu hadisələrin heç biri baş verməzdi. Məlumdur ki, o vaxta qədər Heydər Əliyevin yenidən fəal siyasətlə məşğul olmaq niyyəti yox idi. Buna baxmayaraq, ümummilli lider baş verənlərə biganə qala bilməzdi. Odur ki, "xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir"-deyən Ulu öndər şəxsi həyatı da daxil olmaqla, hər bir təhlükəni gözaltına alaraq, heç nədən və heç kəsdən çəkinmədən 1990-cı ilin sərt qış günlərinin birində oğlu İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, respublikada "20 Yanvar" faciəsini törətmiş Sovet İttifaqı rəhbərliyini kəskin şəkildə ittiham edən son dərəcə cəsarətli və qətiyyətli bəyanatla çıxış etməklə, hər zaman Azərbaycan xalqının yanında olduğunu bir daha sübut etdi. Bu, yeni tarixi başlanğıcda Heydər Əliyevin müstəqillik uğrundakı mübarizəsi çox böyük əhəmiyyət kəsb edirdi. Təbii olaraq bundan sonra ona qarşı təzyiqlər və təxribatlar kompaniyası geniş vüsət aldı və həmin kompaniya daxilində hətta onu həbs etmək belə istədilər. Bütün bunlara baxmayaraq, yenə doğma vətəninə qayıdan Heydər Əliyevə Bakıda yaşamağa imkan verilmədiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana qayıtdı və orada xalq onu, o, isə xalqını qorudu. Həmin vaxt ermənilərin məkirli niyyəti, həmçinin Naxçıvanın da işğalına yönəlsə də, Heydər Əliyev buna imkan vermədi və eyni zamanda müstəqilliyin əldə edilməsi üçün həlledici addımlar atmağa başladı. Məhz onun təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı elan edildi. Bununla yanaşı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Göründüyü kimi, Azərbaycanın dövlət müstəqilliyinə gedən yol müdrik liderin təşəbbüsü və

rəhbərliyi ilə Naxçıvan-dan başlamışdır. Hadisələrin məntiqi davamı olaraq, 1992-ci ilin noyabrında Azərbaycanın parlaq gələcəyindən xəbər verən Yeni Azərbaycan Partiyası yaradıldı. Müxalifət partiyası kimi yaradılmış partiyanın siyasi arenaya gəlməsi Azərbaycanda bütün məsələlərin demokratik və sivil qaydada həll edilməsi üçün xüsusi əhəmiyyətə malik olan çox mühüm bir hadisə idi. SSRİ-nin süqutu ilə xalqımız ötən əsrin sonlarında ikinci dəfə öz müstəqilliyinə qovuşsa da, AXC-Müsavat partiyasının səriştəsizlikləri çox qısa müddətdə müstəqilliyi-mizi uçurumun kənarına gətirib çıxartdı. Müstəqilliyimizin ilk illərində siyasi çəkişmələr ölkə həyatını iflic edir, müharibə aparan, işğala məruz qalan dövlətdə vahid komandanlığa tabe olan ordu olmadığından silahlı qüvvələr ayrı-ayrı şəxslərin əlində alətə çevrilir, ölkədə "qardaş qanı" axıdılır və vəziyyət ikinci dəfə qazanılan müstəqilliyin də tarixə qovuşması təhlükəsi həddinə çatır. Həmin dövrdə bir tərəfdən ölkədə yaranmış özbaşınalıq, anarxiya, hakimiyyət zəifliyi, digər tərəfdən isə Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları ölkəmiz üçün ciddi çətinliklər yaradırdı. Nicatın yalnız onda olduğuna əmin olan Azərbaycan xalqı növbəti dəfə öz sınan-mış rəhbərinə üz tutaraq Heydər Əliyevin hakimiyyətə gəlməsini israrla tələb etdi. Azərbaycanını və xalqını canından çox sevən ulu öndər bu anda başqa seçim edə bilməzdi. Ona görə də o, heç bir təhlükəyə məhəl qoymadan xalqın çağırışını qəbul edərək, 9 iyun 1993-cü il tarixdə Naxçıvandan Bakıya gəlir və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Bu böyük qayıdışından sonra ölkəni müstəqilliyi itirmək təhlükə-sindən xilas etmək üçün qısa müddət ərzində Respublikada vətəndaş müharibəsi-nin qarşısı alınır, ictimai-siyasi sabitlik bərqərar edilir .İndi sağlam düşüncəli hər bir Azərbaycan vətəndaşı çox yaxşı dərk edir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin zamanda Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, nəinki bugünki qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə onun mövcudluğu şübhə altına düşə bilərdi. Azərbaycanda dövlətin multikultural ənənələri qorumasında ən vacib məqam ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən, Konstitusiyada əks olunmuşdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Konstitusiyanın bir sıra maddələrində təsbit edilib. Buna görə də Heydər Əliyevi Azərbaycan multikulturalizminin siyasi banisi hesab etmək olar: Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür, biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq deyən ulu öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Tolerant dövlət kimi dünya sivilizasiyasının aparıcı ölkələri sırasında ön cərgədə dayanan Azərbaycanın brendi olan multikulturalizmin əsasını müəyyənləşdirən Ulu Öndər bildirirdi ki, Azərbaycan çoxmillətli respublikadır. Ölkəmizdə bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların respublikanın ictimai-siyasi həyatında bərabər hüquqlar çərçivəsində iştirak etməsi üçün bütün imkanlar yaradılacaqdır. Ümummilli Lider inamla bildirirdi ki, Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edən düşünülmüş xarici siyasəti olmalıdır. Bütün dövlətlərlə bərabərhüquqlu, qarşılışıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək, dünya dövlətləri sistemində layiqli yer tutmaq xarici siyasətimizin əsas istiqamətlərindəndir.

Hazırda nəinki Azərbaycanda, eləcə də cənubi Qafqazda ən böyük partiya olan Yeni Azərbaycan Partiyası öz düzgün fəaliyyəti, bilavasitə xalqa xidməti sayəsində 1993-cü ildə iqtidar partiyasına çevrildi.

Müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə Heydər Əliyevin gördüyü böyük işlər bu müdrik şəxsiyyətin uzaq görənliyinin parlaq sübutu idi. Ordu qururculuğunda keyfiyyət-li hərbi təhsilin və ixtisaslı gənc hərbi kadrların hazırlanması son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman vurğulayan ulu öndər, bunu daim diqqət mərkəzində saxlayırdı.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliye-vin uğurla davam etdirdiyi ordu quruculuğu sahəsində həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəm-ləndirilmiş, ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirilmiş, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir, işğal altındakı torpaqlarımızı azad edən Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Azərbaycanın rəşadətli Ordusu və Prezident, Müzəffər Ali Baş Komandan İlham

Əliyevin müdrik rəhbərliyi 30 ilə yaxın bir müddətdə işğal edilmiş ərazilərimizin azadlığı uğrunda 44 günlük müharibədə tarixi Zəfər qazandı.

Göründüyü kimi, hələ sağlığında canlı əfsanəyə çevrilmiş nəhəng dövlət xadimi və dünya şöhrətli siyasətçi Heydər Əliyevin qurduğu müasir müstəqil Azərbaycan əmin əllərdədir və ulu öndərin mütərəqqi ideyalarını hər zaman rəhbər tutan cənab Prezident İlham Əliyevin həyata keçirdiyi mükəmməl siyasət sayəsində dayanıqlı inkişaf edərək daha da qüdrətlənir.

Bütün bunlar qəti əminlik yaradır ki, nə qədər Azərbaycan milləti və dövləti var dünya miqyaslı böyük tarixi şəxsiyyət Heydər Əliyev həmişə xatırlanacaq, onun parlaq siması qədirbilən insanların qəlbində yaşayacaq, əziz və unudulmaz xatirəsi hər zaman xüsusi ehtiramla anılacaqdır.

Bu, bir həqiqətdir ki, inkişaf etmiş Azərbaycanın hər bir vətəndaşının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Bunu "Nə qədər ki müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaq" sözləri də təsdiqləyir. Türkçülük ideyalarının tərənnümçüsü Ulu Öndər daim yaşayan müasirimiz , müstəqil Azərbaycan dövlətinin qurucusu, milli dövlətçiliyimizin əsasını qoyan dahidir.

Son olaraq qeyd edək ki, Ulu öndər Heydər Əliyevin misilsiz fəaliyyəti nəticəsində yaradılmış özül və Onun tərəfindən əsası qoyulan siyasi kurs bugünkü dinamik sosial-iqtisadi yüksəlişin, inkişafın təməl daşını təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Ulu öndər Heydər Əliyevin siyasəti Azərbaycanın hərtərəfli inkişafına indi də xidmət etməkdədir. Dövlətimizin hazırki nailiyyətlərinin əsasını Ümummilli Lider tərəfindən qoyulan ideyalar təşkil edir. Ona görə də, gündən-günə yüksələn inkişaf dinamikası, hər şeydən əvvəl, Ulu öndər Heydər Əliyevin siyasətinin və ideyalarının təntənəsi sayılır.

Ötən müddət ərzində Azərbaycanın nail olduğun dünyaya səs salan böyük qələbə, inkişaf, tərəqqi bir daha sübut etdi ki, Ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyev Ümummilli Liderin müəyyənləşdirdiyi kursu yaradıcılıqla inkişaf etdirən siyasi xadimdir. Məhz Onun rəhbərliyilə davam etdirilən siyasi kursun nəticəsində Azərbaycan dövləti regionun liderinə çevrilib.

Ulu Öndərin bidirdiyi kimi, "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir" 44 günlük Vətən müharibəsində də bunu milli və dini kimliyindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı öz fəallığı ilə bir daha sübut etdi. Qədim tarixə və zəngin ənənələrə malik xalqımızın xarakterik keyfiyyəti olan multikulturalizmin və tolerantlığın daha da inkişaf etdirilməsi üçün hüquqi baza yaradılıb və bu sahə dövlətin qayğısı ilə əhatə olunub. Ölkəmizdəki multikultural və tolerant mühit Heydər Əliyevin dövlət-din münasibətlərinin təkmilləşməsi sahəsində aparılan müdrik siyasətinə uyğun olaraq daha da möhkəmlənmiş, ümumdövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir.

Mən Ulu Öndərin sözləri ilə bitirmək istəyirəm "Mən fəxr edirəmki Azərbaycanlıyam!"

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə. Sov.İKP-nin fəaliyyətində demokratik mərkəziyyət. Bakı – 1977,19səh.

2. Əliyev H.Ə. Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri. Bakı – 1979, 58səh.

3. Əliyev H.Ə. Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (əsas qanunları) layihəsi vəonun ümumxalq müzakirəsinin yekunları haqqında. Bakı – 1978, 50səh

4. Heydər R. İlhamlı gələcək. (Qaradağ simfoniyası). Bakı – 2004, 268səh

5. Xalqa bağışlanan ömür. III kitab. Bakı – 2004, 543 səh.

6. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı – 2002, 232səh.

7 .Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi.Bakı-Avropa2019.594 səh.

8. Hüseynova M. Missiya. Bakı-ADPU-2019.366 səh.

9. Qasımlı M. Heydər Əliyev- istiqlala gedən yol (1969-1987- ci illər).Bakı-206,608 səh.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ TƏHSİLİN İNKİŞAFI

Vüsalə Zakir qızı Əlləzova
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
vallazova@mail.ru

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar, hüquqi və demokratik dövlət quruculuğu, etibarlı tərəfdaşlığa və əməkdaşlığa əsaslanan xarici əlaqələrin inkişafı, heç şübhəsiz, Azərbaycanın dövlət strategiyasının böyük uğurunun göstəriciləridir. Eyni zamanda qeyd etmək lazımdır ki, bu uğurların təməlində ölkənin intellektual kapitalı və onunla sıx bağlı olan təhsil sisteminin də böyük yeri vardır. Bu gün Azərbaycanda təhsil sistemi xüsusi strategiyaya tabe etdilmiş, əvvəlki ənənələrin və təcrübələrin də qorunduğu bir dövlət siyasətidir. Bu strategiyanın düzgün qurulması sonrakı mərhələlərdə həmin ənənələrin elmi əsaslarla davam etdirilməsi, eyni zamanda müasir tələblərə görə uyğunlaşdırılması üçün bir əsas rolunu oynayır.

Müstəqil Azərbaycan Respublikasında dövlət siyasətinin bütün prioritet istiqamətlərində olduğu kimi, təhsil sahəsində də xüsusi strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu strategiyanın həyata keçirilməsi sayəsində Azərbaycanın müstəqil inkişafının təməli qoyulmuş, Heydər Əliyev siyasi irsinin davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu təməl gücləndirilərək, sonrakı mərhələdə daha böyük inkişafa rəvac vermişdir.

Azərbaycana rəhbərliyinin birinci dövründə sovet ideologiyasının və siyasi sisteminin bütün qadağalarına baxmayaraq, Azərbaycan təhsilinin XX əsrin 70-80-ci illərində ən yüksək inkişaf mərhələsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev milli dəyərlərə sadiq qalaraq, Azərbaycan təhsilinin və Azərbaycançılığın inkişafına xüsusi diqqət ayırırdı. Həmin illərdə Azərbaycan təhsilinin qarşısında kardinal həllini gözləyən problem çox idi. Bu problemlər, bir tərəfdən, Azərbaycan məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi, digər tərəfdən, kadr çatışmazlığı, daha doğrusu milli ruhda yetişən, Azərbaycanın milli dəyərlərinə sadiq, müasir və yüksək intellektli kadrların yetişdirilməsi məsələsi ilə bağlı idi. Azərbaycan təhsilinin himayədarı kimi çıxış edən Ulu Öndər azərbaycanlı gənclərin vətənpərvər ruhda tərbiyəsinə və Vətənə layiqli kadrlar kimi yetişməsinə böyük önəm verirdi. Təsadüfi deyil ki, Heydər Əliyev 1969-cu ildə respublikada hakimiyyətə gəldiyində ilk gördüyü tədbirlərdən biri Azərbaycan SSR Maarif Nazirliyinin tərkibinin milliləşdirilməsi ilə bağlı olmuşdur. Məhz bu istiqamətdə görülən tədbirlər sırasında Azərbaycan KP MK-nın 1970-ci il 13 mart tarixli büro iclasında maarif nazirinin müavini R.A.Balayan işdən azad edilmişdi [5, s.46].

1970-1980-ci illərdə dövlət büdcəsindən ümumi təhsilə ayrılan vəsait artırılaraq, 1970-ci ildə 219,8 milyon manatdan 1980-ci ildə 363,9 milyon manata çatdırılmışdı [8, s.257]. Ümumilikdə sosial-mədəni xərclər bütün büdcənin 57,2 faizini və ya 1 mlrd. 235 mln. 200 min manat təşkil edirdi. 1982-ci ildə xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə 1980-ci illə müqayisədə 4 faiz artımla 689 milyon manat vəsait ayrılmışdı, xalq maarifinin saxlanmasına 1980-ci ilin hesabatına nisbətən 9,9 % artımla 372,5 milyon manat yönəldilmişdi [5, s.46]. 1970-1982-ci illərdə Azərbaycanda 761 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdi; ümumilikdə isə 1982-ci ildə respublikada 4395 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi [8, s.257].

Bu illərdə Azərbaycanın sosial-iqtisadi inkişafının təməl məsələlərindən biri də, heç şübhəsiz, bölgələrin mədəni inkişafı idi. Rayonlarda təhsil müəssisələrinin yüksək hazırlıqlı kadrlarla təmin edilməsi üçün Azərbaycan KP MK bürosunun hələ 1969-cu il 12 avqust tarixli iclasında respublikanın müxtəlif rayonlarından gənclərin ali məktəblərə müsabiqədənkənar qəbulu haqqında qərar çıxarılmışdı [5, s.50]. Ümummilli lider Heydər Əliyev respublikanın sadəcə böyük şəhərlərində deyil, rayon və qəsəbələrində, xüsusilə kəndlərdə təhsilin keyfiyyətinin yüksəldilməsinin strateji əhəmiyyətini yaxşı bilirdi və bu məqsədlə 1970-ci illərin əvvəllərindən etibarən böyük tədbirlər planı həyata keçirilmişdi. Məsələn, Azərbaycan KP MK-nın 1973-cü il 28 avqust tarixli və

1974-cü il 30 avqust tarixli büro iclaslarında respublikadakı kənd məktəblərinin tikintisi məsələsi gündəliyə qoyulmuş, Ağdaş, Cəbrayıl, Cəlilabad, Şəki, Quba, Xaçmaz, Vartaşen, Sabirabad, Zəngilan, Jdanov rayonlarında məktəb tikintisi ilə bağlı yol verilən nöqsanlar müzakirə edilərək, onların qaldırılması üçün tədbirlər planı hazırlanmışdı [14; 15].

Azərbaycanın təhsil sisteminin milli kadrlarla təmin edilməsi üçün başlıca şərtlərdən biri Azərbaycan gənclərinin ali təhsili ilə bağlı idi. Təsadüfi deyil ki, 1970-ci illərdə respublikada ali məktəblərin sayı çoxalmış, o cümlədən 1971-ci ildə Rus Dili və Ədəbiyyatı və Pedaqoji Xarici Dillər İnstitutları təşkil edilmişdi. Azərbaycan Dövlət Pedaqoji İnstitunun filiallarının özülündə 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Stepanakert (Xankəndi) Pedaqoji İnstitutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu təşkil edilmişdi [8, s.264].

Heydər Əliyev Azərbaycan gənclərinin respublikadan kənarda, o cümlədən sosialist ölkələrinin tanınmış ali məktəblərində təhsil almasına da böyük önəm verirdi. Hakimiyyətə gəlməsindən keçən qısa müddət sonra, Azərbaycan KP MK-nın 1971-ci il 21 sentyabr tarixli büro iclasında sosialist ölkələrinə təhsil üçün göndərilən gənclərin seçilməsi və xaricdə yaşayış şəraitinin yüksəldilməsi məqsədilə tədbirlər planı hazırlanmışdı [11]. Təsadüfi deyil ki, SSRİ-nin ayrı-ayrı ali məktəblərinə göndərilən tələbələrin sayı 1970-ci ildə 60 nəfərdən 1975-ci ildə 504 nəfərə çatmışdı, yəni 10 dəfə artmışdı [12]. Həmin tələbələrlə mütəmadi görüşlər keçirilir, onların təhsili və həyat şəraiti, imkanları və problemləri dövlətin nəzarəti və şəxsən Heydər Əliyevin qayğısı altında saxlanılırdı [13].

Azərbaycançılıq ideologiyasına və milli ruha hərdaim sadiq olan Heydər Əliyev Vətəninin müstəqil olacağına əmin olduğu qədər müstəqil dövlət üçün strateji əhəmiyyətli sahələrin varlığının da əhəmiyyətli olduğunu bilirdi. Müstəqil dövlətin ən mühüm atributlarından biri və bəlkə də birincisinin güclü ordu olduğunu yaxşı bilən böyük dövlət xadimi bu sahədə də milli kadrların yetişdirilməsini vacib hesab edirdi. Məhz bu zərurətdən çıxış edərək, Heydər Əliyev 1971-ci ildə C.Naxçıvanski adına Hərbi məktəbin açılmasına nail oldu. Bununla əlaqədar Ulu Öndər özü də sonralar qeyd edirdi ki, "İndi Hərbi lisey adlanan bu məktəbin o zaman təsis edilməsi ölkəmizdə hərb sənətinə marağın güclənməsinə, zabit kadrları hazırlığının yüksəlməsinə, respublikamızın müstəqil gələcəyinə hesablanmış bir addım idi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, hal-hazırda Azərbaycan ordusunda xidmət edən zabitlərin böyük əksəriyyəti məhz C.Naxçıvanski adına hərbi məktəbin yetirmələridir" [7, s.136]. Sonakı illərdə bu məktəbin fəaliyyəti və kadrla təmini məsələsi hər zaman Heydər Əliyevin diqqət mərkəzində qalmışdır [məsələn, bax: 16]. Bu məktəb istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycanın milli təəssübkeşlik ənənələrinin davam etdiyi mərkəz olmuş, məktəbin məzunları Azərbaycan ordusunun yaranmasında, Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. Təsadüfi deyil ki, məktəbin 40 nəfərdən çox hərbi qulluqçusu 44 günlük Vətən müharibəsində göstərdikləri şücaətə görə orden və medallarla təltif olunmuşdur [4].

Azərbaycanda milli təhsil sisteminin təşəkkülü və inkişafında əhəmiyyətli mərhələni təşkil edən 1969-1982-ci illərdə Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü, yüksək dövlətçilik qabiliyyəti və Vətən sevgisi sayəsində ölkənin ümumtəhsil və ali təhsil sistemi intibah dövrünü yaşamış, Azərbaycan elminin və mədəniyyətinin inkişafı üçün böyük imkanlar açılmışdır. Respublika infrastruktunun bütün sahələrinin yüksək hazırlıqlı kadrlarla təmini isə dövlət müstəqilliyini bərpa edən ölkə üçün zəruri intellekt kapitalını təşkil etmişdir.

Azərbaycanda milli təhsilin inkişafının növbəti mərhələsi Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrünə təsadüf edir. Məlum olduğu kimi, 1990-cı illərin əvvəllərində ölkə infrasturkturunun bütün sahələrində olduğu kimi, təhsil sahəsində də məzmun islahatlarının hazırlanıb həyata keçirilməsinə böyük ehtiyac yaranmışdı. Lakin müvafiq sahədə maddi-texniki təchizatın aşağı səviyyəsi, kadr çatışmazlığı, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış sosial və iqtisadi problemlər, o cümlədən böyük sayda şagird və pedaqoji kadrın məcburi köçkün və qaçqın vəziyyətində olması bir tərəfdən, islahatların sürətlə həyata keçirilməsini tələb edirdi, digər tərəfdən, bu islahatlar üçün ciddi hazırlıqları zəruri edirdi. Bu problemlərin həlli üçün respublikada siyasi sabitliyin bərpası, hüquqi dövlətçiliyin qurulması, vətəndaş həmrəyliyinə nail olunması, iqtisadi və sosial problemlərin mərhələli bir şəkildə həll

edilməsi lazım idi. Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan üçün isə təhsil sahəsinin Azərbaycanın sonrakı inkişafı üçün böyük strateji əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayan Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, "Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanılmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində – Qərbdə də, Şərqdə də əldə edilmiş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik" [6, s.296-297].

1993-cü il iyunun 15-də Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ölkədə müstəqil dövlət qurumlarının yaradılması, beynəlxalq normalara və standartlara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması təhsil sahəsində məzmunca yeni islahatların hazırlanmasını da sürətləndirmiş oldu. İlk olaraq müstəqil Azərbaycan Respublikasının təhsil sisteminin hüquqi-normativ bazasını təşkil edən sənədlər qəbul edildi. Onların içərisində xüsusi olaraq qeyd etməyi vacib gördüyümüz sənəd Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı oldu; Proqram Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli 168 saylı Sərəncamı ilə təsdiq edildi [3]. İslahat Proqramı təhsil sisteminin müasir bazar iqtisadiyyatı şəraitinə cavab verən yeni iqtisadi-təşkilati və idarəetmə mexanizminin yaradılmasının təmin edilməsini nəzərdə tuturdu.

Təhsil sahəsində islahat Proqramının əsas məqsədi "məktəbəqədər, orta, ali, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirmək" olaraq göstərilmişdir [3]. Proqramda respublikada təhsil sistemində islahatların üç mərhələdə aparılması nəzərdə tutulurdu: Bir il müddətini əhatə edən birinci mərhələ - hazırlıq mərhələsi (1999-cu il) Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiyada müəyyən olunmuş təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılmasını, eləcə də onun infrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsini nəzərdə tuturdu. Qısa müddətli perspektivi əhatə edən ikinci mərhələdə (2000-2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi stabilliyini təmin edən təxirəsalınmaz problemlərin həll olunması və geniş miqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatının və yeni idarəetmə modelinin yaradılması nəzərdə tutulurdu. Üçüncü mərhələ (2004-cü ildən) proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsini əhatə edirdi [3].

1999-cu il Təhsil İslahatı Proqramının başlıca istiqamətlləri isə aşağıdakı kimi müəyyən edilirdi: müasir tələblərə cavab verən istedadlı uşaqlar üçün təhsil müəssisəsindən tutmuş, inkişafında qüsur olan, reabilitasiyaya ehtiyacı olan uşaqlar üçün yaradılmış yeni tipli təhsil müəssisələri şəbəkəsinin yaradılması. Bütün tipdən olan təhsil müəssisələrinin diversifikasiyası (əlaqələndirilməsi); əmək bazarına tələbatın formalaşması ilə bağlı tədris proqramlarının, təhsilin məzmununun və metodikasının yeniləşdirilməsi; təhsil müəssisələrinin maddi-texniki resurslarına tələbat normalarının hazırlanması; təhsilin keyfiyyətinə, standartların icrasına nəzarət, eləcə də təhsil müəssisələrinin və ayrı-ayrı təhsil proqramlarının ekspertiza və akkreditasiya mexanizminin yaradılması; təhsil müəssisələrinin inkişaf strategiyası və məqsədlərinin müəyyən edilməsində, müvafiq qərarların çıxarılmasında və s. müstəqillik verən yeni idarəetmə mexanizminin yaradılması; təhsil sisteminin maliyyələşdirilməsinin yeni mexanizmini əks etdirən iqtisadi modelin yaradılması [3].

Qeyd edək ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və birbaşa nəzarəti altında həyata keçirilən Proqram keçmiş sovet məkanında məzmunca bu qədər geniş və bu qədər əhatəli alternativi olmayan bir layihə oldu. Bu proqram sayəsində Azərbaycanda təhsil sisteminin yeni normativ hüquqi, iqtisadi və informasiya bazası yaradıldı. Respublikada təhsil müəssisələrinin inteqrasiyası nəticəsində onların bazasında yeni tipli elm-təhsil mərkəzləri yaradıldı, təhsil müəssisələri şəbəkəsi

yenidən quruldu. Ümumi və peşə təhsilinin bütün pillə və səviyyələrində dövlət təhsil standartlarına müvafiq təhsil proqramları və tədris planları yenidən hazırlandı, təlim-tərbiyənin məzmunu təhsil alanların imkanlarına uyğun dövlətin, ictimaiyyətin və şəxsin tələbatı əsasında quruldu. Bundan əlavə, qısa müddət ərzində kadr hazırlığı və təhsil sektoru işçilərinin çevikliyi, peşəkarlığı və rəqabət qabiliyyəti artırıldı, təhsilin tədris, elmi-metodiki və informasiya təminatı real tələbata və strateji istiqamətlərə uyğun quruldu.Təhsilin dinamik inkişafını və yüksək keyfiyyətini, şəxsiyyətin və cəmiyyətin tələbatını təmin edən, dövlət və ictimaiyyətin birgə fəaliyyətinin səmərəli əlaqələndirilməsini tənzimləyən idarəetmə sistemi yaradıldı.

Azərbaycan Respublikasında məzmun islahatlarının həyata keçirilməsi sahəsində növbəti addım isə Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli, 349 saylı fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman oldu [2]. "Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə" verilən bu fərman ilə ölkənin dörd aparıcı ali məktəbinə - Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına maliyyə müstəqilliyi, bir neçə ali məktəbə isə "Universitet" statusu verildi [5, s.77].

1993-2003-cü illərdə Azərbaycan Respublikasında təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun maddi-texniki bazasının və kadr potensialının günün tələblərinə cavab verməsi, təhsil sisteminin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmiş, ümumtəhsil məktəblərinin təmir və inşa edilməsi, müasir avadanlıqlarla təchiz olunması istiqamətində dövlət büdcəsi, eləcə də beynəlxalq təşkilatların vəsaitləri hesabına müəyyən işlər görülmüşdür. Bu istiqamətdə aparılan məzmun islahatlarının genişlənirilməsi üçün Ümummilli lider Heydər Əliyevin 4 oktyabr 2002-ci il tarixli "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı verilmişdir. Sərəncam respublikada ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi və onun müasir tələblərə uyğunlaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsinə duyulan ehtiyacdan doğmuşdur. Həmin sərəncama görə, Azərbaycan Respublikasının Nazirlər Kabineti 2003-2007-ci illər ərzində Azərbaycan Respublikasının şəhər və rayonlarında yeni məktəblərin tikintisi, mövcud ümumtəhsil məktəblərinin əsaslı təmiri, onların müasir tədris avadanlıqları ilə təmin olunmasına dair xüsusi proqramın hazırlanıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi qərara alınmışdır [1].

1993-2003-cü illər ərzində Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və şəxsi təşəbbüsü ilə Azərbaycan təhsili məzmunca və keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, milli-mənəvi dəyərlərə və Azərbaycançılıq ideologiyasına əsaslanan təhsil formalaşdırıldı, Azərbaycan gənclərinin intellektual potensialının gücləndirilməsi və bu potensialın milli dövlətçiliyin inkişafına yönəldilməsi üçün geniş imkanlar yarandı. Sonrakı mərhələdə Heydər Əliyev siyasi və dövlətçilik irsinin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü dövlət strategiyası, uğurlu daxili və xarici siyasət bu təməlin nə qədər etibarlı olduğunu sübut etməklə yanaşı, Azərbaycanın gələcəyinin də təminatçısı kimi çıxış etmişdir.

44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyində qazanılan böyük Zəfər Azərbaycan gəncliyinin həm yüksək zəkasını, həm də vətənpərvərlik ruhunu bütün dünyaya təkrardan tanıtmış oldu. Bu gün Azərbaycan Respublikası təkcə diplomatiyası, hüquqi dövlət quruculuğu və iqtisadi gücü ilə deyil, həm də elmi potensialı və təhsili ilə də dünyanın aparıcı dövlətlərindən biridir.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2002-ci il tarixli, 1051 saylı sərəncamı // https://e-qanun.az/framework/1157

2. "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli, 349 saylı fərmanı // https://e-qanun.az/framework/767

3. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı haqqında" **A**zərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli 168 saylı Sərəncamı // https://e-qanun.az/framework/5363

4. Cəmşid Naxçıvanski və Heydər Əliyev adına Hərbi Lisey // https://mod.gov.az/az/cemsid-naxcivanski-ve-heyder-eliyev-adina-herbi-lisey-200

5. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, Elm, 2010 – 800 s.

6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 19-cu kitab. Yanvar 1999 – Aprel 1999. Bakı, Azərnəşr, 2006 – 528 s.

7. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 45-ci kitab. May 2003 – Dekabr 2003. Bakı, Azərnəşr, 2013 – 384 s.

8. Qasımov Ə. Heydər Əliyev və Azərbaycan SSR-də mədəniyyətin inkişafı.Təhsil // Heydər Əliyev. İki cilddə. 1-ci cild. Bakı, Turxan NBP, 2013 – 500 s., s.256-270.

9. Mərdanov M. Azərbaycan təhsil tarixi. 3-cü cild. Bakı, Təhsil, 2011 – 672 s.

10. Mərdanov M. Azərbaycan təhsili: yaxın keçmişə, bu günə və gələcəyə bir baxış // "525-ci qəzet", 24 oktyabr 2009-cu il, s.10-11.

11. О мерах по улучшению отбора студентов, командируемых на обучение в вузы социалистических стран, и усилению работы с ними в период их пребывания за рубежом. Заседание Бюро ЦК КП Азербайджана от 21 сентября 1971 года. Протокол № 19 // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, fond 1, siy. 58, iş 125.

12. О мерах улучшения работы по направлению и обучению молодежи республики в вузах Москвы, Ленинграда и других городов страны tarix və protokol // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, fond 1, siy. 63, iş 73.

13. О проведении встречи партийного и советского актива с представителями студенчества, учащихся, профессорско-преподавательского состава вузов, ссузов, профтехучилищ республики и посланцами Азербайджана, обучающимися в учебных заведениях Москвы, Ленинграда и других городов страны, посвященной началу нового учебного года. tarix və protokol // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, fond 1, siy. 68, iş 116.

14. О ходе выполнения плана 1974 года по строительству сельских школ в республике. Заседание Бюро ЦК КП Азербайджана от 30 августа 1974 года. Протокол № 103 // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, fond 1, siy. 61, iş 71.

15. О мерах по дальнейшему улучшению условий работы сельской общеобразовательной школы. Заседание Бюро ЦК КП Азербайджана от 28 августа 1973 года. Протокол № 73 // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, fond 1, siy. 60, iş 59.

16. О мерах по улучшению деятельности Республиканской специализированной средней общеобразовательной школы-интерната им. Д.Нахичеванского. Заседание Бюро ЦК КП Азербайджана от 20 апреля 1976 года. Протокол № 5 // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, fond 1, siy.63, iş 43.

HEYDƏR ƏLYEV VƏ MİLLİ MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏR: MÜSTƏQİL DÖVLƏT QURUCULUĞU KONTEKSTİNDƏ

Fəxriyyə Məmmədzadə
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
fakhriya.mamedzade@gmail.com

Giriş

Tarixin indiki mərhələsində müstəqil dövlət qurmaq çətin və mürəkkəb prosesdir. Burada çoxlu sayda bir-biri ilə kəsişən faktorları nəzərə almaq lazım gəlir. Bundan başqa, həmi faktorlar arasında qarşılıqlı əlaqələri müstəqil dövlətn maraqları kontekstində lazımi nisbətdə qurmaq ehtiyacı yaranır.

Məsələnin fəlsəfi, siyasi, kulturoloji, idarəetmə, iqtisadi və mənəмi-əxlaqi aspektləri mövcuddur. Bütün bu məqamların bir-birinə uyğun şəkildə dövlət quruculuğu prosesində istifadə edilməsi zəruri olur. Bu baxımdan Azərbaycanda müasir mərhələdə müstəqil dövlət quruculuğunun memarı Ulu öndər Heydər Əliyevin müstəqil milli dövlət quruculuğu kursunda mənəvi-əxlaqi dəyərlərin tutduğu yer və oynadığı rol aktuallıq kəsb edir.

Bu problemin fəlsəfi-etik aspektdə araşdırılması, təbii ki, özlüyündə mürəkkəb və geniş tədqiqat tələb edən prosesdir. Bir məqalədə onu tamamilə əhatə etmək mümkün deyildir. Lakin bir sıra mühüm məsələlər üzrə müəyyən məqamları təhlil etmək mümkündür. Həmin kontekstdə biz dövlət quruculuğunda dil, din və adət-ənənələrin oynadıqları rolların fəlsəfi-etik təhlilini aparacağıq.

Məsələnin bu cür qoyuluşr özündə evristik məqam daşıyır. Çünki müasir dünyada digər faktorlar kimi, mənəvi-əxlaqi dəyərlər də sürətlə dəyişir. Müxtəlif istiqamətlərdən bütövlükdə cəmiyyətə olan təsirlər bu sferada transformasiyaları zəruri edir. Müstəqil dövlət quruculuğu kontekstində bu məqam cəmiyyətin bütövlüyünü saxlamaq şərtini ön plana çıxarır. Məhz bu prosesdə də mənəvi-əxlaqi dəyərlər, o cümlədən, dil, din və adət-ənənələr prinsipial rol oynayırlar.

Onu da nəzərə almaq gərəkdir ki, Ulu öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğu kursunda mənəvi-əxlaqi dəyərlərin qorunması və inkişafı xüsusi yer tutur. Nəticədə bütün bu məqamların prizmasında mənəvi-əxlaqi dəyərlərin müstəqil dövlət quruculuğu prosesində yeri və rolunu təhlil etmək əhəmiyyət kəsb edir.

Bu məqalədə əsas elmi məqsəd Azərbaycan təcrübəsində müstəqil dövlət quruculuğu kursu kontekstində mənəvi-əxlaqi dəyərləri tədqiq etməkdən ibarətdir. Bunun üçün fəlsəfi və etik yanaşmalardan istifadə edilir.

Metodologiya kimi kompleks yanaşma əsasında holizm, sistem inteqrasiyası və dinamik inkişaf kimi metodoloji prinsiplərdən yararlanılır.

Bu zaman metod olaraq sistem analiz və sintezdən istifadə olunur.

1. Heydər Əliyev: dövlətçilik və milli-mənəvi dəyərlərin əlaqəsi

Tarix boyu elm adamları cəmiyyətin mədəni, mənəvi-əxlaqi həyatının öyrənilmsinə böyük diqqət yetirmişlər. Dünya üzrə filosoflar bu barədə çoxlu sayda aaşdırmalar aparmış və geniş nəzəriyyələr yaratmışlar. Bütövlükdə mədəniyyətin insan və cəmiyyət həyatında yeri və rolu məsələsi indi də intensiv surətdə tədqiq edilir. Görünür, bəşəriyyət var olduqca həyatın mədəniyyət aspekti də diqqət mərkəzində olacaqdır.

Bununla yanaşı, dünyanın böyük dövlət xadimləri və liderləri də mədəniyyətin cəmiyyət və dövlətin həyatındakı yeri və rolunu qiymətlndirmişlər. Onların fəaliyyətlərində mənəvi-əxlaqi dəyərlər ciddi surətdə yer tutmuşdur. Tarix bununla bağlı kifayət qədər fakt təqdim edə bilər. Lakin elə dövlət başçıları da olmuşlar ki, fəaliyyətlərində insan mədəniyyəti, mənəvi-əxlaqi dəyərlərini fəaliyyətlərinin əsasına qoymamışlar. Onlar bir qayda olaraq cəmiyyəti əzmək, insanlara zərər vermək və başqa cəmiyyətlərə qarşı nifrət və kin bəsləmək yolunu seçmişlər. Maraqlıdır ki, bu növ dövlət başçılarını tarixdə izi qalmamışdır və onlar bir qayda olaraq neqativ kontekstdə xatırlanırlar.

Lakin bəşər tarixində elə dahi və möhtəşəm dövlət xadimləri və liderlər olmuşlar ki, fəaliyyətləri tamamilə mədəniyyət, mənəvi-əxlaqi dəyərlər üzərində qurulmuşdur. Onların sırasında

ilk yeri tutanlardan Ulu Öndər Heydər Əliyevi nümunə kimi göstərə bilərik. Heydər Əliyev yalnız dövləti idarəetmədə və xalqa liderlik etməkdə mədəniyyətə, mənəvi-əxlaqi dəyərlərə əsaslanmırdı. Mədəniyyət, mənəviyyat və əxlaq Ulu Öndərin şəxsi keyfiyyətlərinin mərkəzində dayanırdı. Ümummilli Lider təbiətən mənəvi-əxlaqi dəyərləri yüksək olan şəxsiyyət idi! Ulu Öndərin dövlətə rəhbərlikdə də məhz həmin səbəbdən mənəvi-əxlaqi dəyərlərə dayanaraq fəaliyyət göstərməsi buradan qaynaqlanır. Heydər Əliyev həm şəxsiyyət, həm də dövlət xadimi kimi yüksək mənəviyyata və əxlaqa sahib insan idi. Ulu Öndərin bu özəlliyi haqqında kifayət qədər fikirlər deyilmişdir. Sosio-humanitar elmin müxtəlif istiqamətlərinin təmsilçiləri Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək şəxsi keyfiyyətlərini, mədəniyyətə, mənəvi-əxlaqi dəyərlərə olan münasibətini araşdırmışlar və bu proses indi davam edir [5, s.212].

Təbii ki, Azərbaycanda Ulu Öndərin sosio-humanitar elmi sferalarda tədqiqi daha geniş, dərin və daimi aparılır. Bununla bağlı çoxlu sayda araşdırmalar mövcuddur. Həmin xüsusda problemin siyasi-nəzəri, jurnalistika, filologiya, etnoqrafiya və başqa elm sahələrində tədqiqatı maraqlıdır. Nümunə kimi V.Rəhimzadənin milli-mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolunun medianın dəstəyi və qiymətləndirilməsi prizmasında araşdırmasını göstərə bilərik. O cümlədən, müəllif məsələyə milli-mənəvi dəyərlərə milli ruh və milli şüurun rəmzi kimi yanaşaraq Ulu Öndərin rolunu analiz etmişdir. Bu aspektdə Ümummilli Liderin milli-mənəvi dəyərlərin hamisi kimi öyrənilməsi də çox aktuallıq kəsb edir [14, s.235-237].

V.Rəhimzadə yazır: "Dünya xalqları arasında milli mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olmuşdur ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir" [14, s. 235] və fikirlərinə davam edərək, xüsusi vurğulayır: "Ümummilli lider Heydər Əliyevin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu dəyərləri düzgün qiymətləndirməsində, daim diqqət mərkəzində saxlamasında idi" [14, s. 237].

Bu tezislərdə bir-biri ilə qarşılıqlı əlaqədə olan iki mühüm məqam ifadə edilmişdir. Onlardan biri H.Əliyevin Azərbaycanın milli-mənəvi dəyərlərini dərindən bilməsidir. Digəri isə bu bilgi əsasında onu himayə etməsidir. Deməli, Ulu Öndər milli-mənəvi dəyərləri dərindən anlamağı tövsiyə edir və bunun üçün aparıcı rol oynayır, yol göstərir, istiqamət verir. O halda başqa bir aktual sual meydana çıxır: Ulu Öndər hansı səbəbdən milli-mənəvi dəyərlərə cəmiyyət üçün fundamental rol oynayan fenomen kimi yanaşırdı? Bu sualın ən dolğun cavabını Ulu Öndərin aşağıdakı fikirlərində tapa bilərik.

Heydər Əliyev öyrədirdi ki, milli-mənəvi dəyərlərsiz millət yoxdur. Ona görə də "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"! [6].

Bu fikirlərdə bir neçə mənəvi-əxlaqi və ideoloji məqam lakonik ifadə olunmuşdur. Ulu Öndər milli mənsubiyyətin milli qürur mənbəyi olduğunu vurğulayır. Ona görə də "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" deyiminin mənəvi və mədəni əsasları vardır. Bununla hər bir azərbaycanlı qürur duymalıdır. Heydər Əliyev həmin şüarla Azərbaycan cəmiyyətində bir müddət hökm sürən bədbinliyi, psixoloji natamamlığı sındırdı. İnsanlarda Vətənə, dövlətə və millətə sevgi hisslərini yenidən canlandırdı. Bu da birbaşa dövlətçilik məsələsi ilə bağlı olan faktordur.

Təbii ki, həmin əsasda azərbaycançılığın ideologiya kimi formalaşması təbii görünür. Eyni zamanda, burada Heydər Əliyevin azərbaycançılığın dörd əsas prinsipini müəyyən etdiyi aydın görünür. Onlar Azərbaycan dili, Azərbaycan mədəniyyəti, Azərbaycan milli mənəvi dəyərləri, Azərbaycan adət-ənənələridir. Deməli, azərbaycançılıq milli varlıqla bərabər həm də siyasi varlığımızın və daha konkret aspektdə dövlət quruculuğu prosesinin əhəmiyyətli atributu kimi dərk edilməlidir [1].

Bunlar təsdiq edir ki, Ulu Öndər mənəvi-əxlaqi dəyərlər sisteminə bütövlükdə millət və dövlət miqyasında baxırdı. Müstəqil dövlət quruculuğu aspektində bu, maraqlı və əhəmiyyətli bir məqamı ön plana çıxarır. Heydər Əliyev müasir mərhələdə müstəqilliyin mənəvi aspektinin strateji vacibliyini vurğulayır. Məhz bu kontekstdə də Ulu Öndərin aşağıdakı məşhur kəlamını anlamaq lazımdır. Heydər Əliyev deyirdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri

var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət- ənənələrimizlə fəxr edirik" [2].

Bütün bunların prizmasında tədqiqatçıların daim vurğuladıqları bir özəlliyi anlamaq çətin deyildir. Ulu Öndər "...həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub-saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında Sərəncam imzaladı. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirildi" [2]. Heydər Əliyev faktiki olaraq "...dövlət quruculuğu prosesi ilə paralel surətdə mədəni-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərini də həyata keçirirdi" [14, s. 237].

Beləliklə, Heydər Əliyev milli mənəvi-əxlaqi dəyərləri müstəqil dövlət quruculuğu kursuna konkret detalları ilə hopdurmuşdur. Ulu Öndər bu kontekstdə dövlətçilik kursu üçün böyük əhəmiyyəti olan üç milli mənəvi dəyəri vurğulayırdı. Onlar milli ruhun, milli şüurun simvollrından olan dil, din və adət-ənənədir [Adət və ənənələr, 2000]. Hər üç dəyərin etik, aksioloji mahiyyəti məlumdur. Bu faktorlar istənilən xalq üçün prinsipial etik funksiya yerinə yetirir. O baxımdan dilin, dinin və adət-ənənələrin xüsusi qaydada müstəqil dövlətçilik konsepsiyasına daxil edilməsi böyük strateji mənası olan problemdir. Bu məqam üzərində geniş dayanmağa ehtiyac vardir.

Dil hər bir xalqın mənəvi aynasıdır. Dildə ifadə edilən firkilər fərdin və toplumun mənəviyyatını əks etdirən fenomendir. Bu səbəbdən, dil məsələsi müstəqil dövlətçilikdə və bütövlükdə toplumun mövcud olmasında həlledici rol oynayan faktorlardan biri kimi qəbul edilir. Təsadüfi deyildir ki, Ulu Öndər fəaliyyəti boyu Azərbaycan dilinin işlənməsinə fövqəladə diqqət yetirmişdir.

2. Dil və din dövlət quruculunun iki mühüm faktoru

Heydər Əliyevin dillə bağlı çox qiymətli kəlamları vardır. Onlardan biri aşağıdakıdır. Ulu Öndər demişdir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir" [3, s.3].

Birincisi, Heydər Əliyev ifadə edir ki, xalqın mövcudluğu və inkişafı üçün dil əsas rol oynayır.

İkincisi, bunun tarixdə hər bir xalq üçün bir ənənə olduğunu ifadə edir. Həmin səbəbdən də dili "xalqımıza ulu babalardan miras qalan ən qiymətli milli sərvət" kimi xarakterizə edir.

Üçüncüsü, dili hər bir vətəndaş "göz bəbəyi kimi qorumalı və onu daim qayğı ilə əhatə etməlidir".

Bu üç məqama eyni bucaq altında baxanda aydın olur ki, dil tarixi rakursda ənənəni, mənəviyyatı, tarixi bağlılığı və inkişafı şərtləndirir. Dilə münasibət yalnız onu sevməklə məhdudlaşmamalıdır - o həm də qayğı görməli, qorunmalı və inkişaf etdirilməlidir!

Bütün bunları nəzərə alaraq araşdırmaçılar vurğulayırlar: "Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dilimiz xalqın keçdiyi bütün tarixi mərhələdə onunla birgə olmuş, onun taleyini yaşamışdır. Əsrlər, qərinələrdir ki, xalqımızın əbədiyaşarlığına xidmət edən ana dilimiz qədim tarixə malik olan, min illərin müxtəlif burulğanlarından alnıaçıq, üzüağ çıxaraq müasir dövrə gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir" [3, s. 3].

Bu fikirlərin işığında SSRİ-nin ən möhkəm olduğu dövrdə belə Heydər Əliyevin Azərbaycan dilinin qorunması ilə yanaşı, onun ictimai və dövləti funksiyasını təmin etməsinin tarixi, siyasi və strateji əhəmiyyətini anlamaq çətin deyildir. Məhz həmin dövrdə Ümummilli Lider Azərbaycan dilinə dövlət dili statusunu qazandırmışdır. Ancaq buna asanlıqla nail olunmamışdır. Məsələ ondan ibarət idi ki, sovetlər 1920-1960-cı illər müddətində elə siyasət yeridirdi ki, respublikada Azərbaycan dili hakim ola bilmirdi. Onun inkişaf etdirilməsi və zənginləşdirilməsi böyük maneələrlə üzləşirdi. Mərkəz dilin inkişafı ilə bağlı hər hansı sanballı tədbirin keçirilməsinə şərait yaratmırdı.

Lakin 1970-ci illərin ortalarından başlayaraq bir sıra SSRİ Respublikasında dil məsələsi aktuallaşdı. Ancaq bu dəfə də "SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Rus dilinin hüquqlarının genişləndirilməsi ilə əlaqədar "vahid dil" siyasəti daha geniş şəkildə təbliğ olunurdu. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq çox riskli və qorxulu idi" [3, s.3]. O cümlədən, milli dil məsələsini önə çəkənlər ciddi cəzalandırılırdılar. Bir sıra hallarda onları sürgün edirdilər. Sözün tam mənasında bir "milli dil terroru" həyata keçirilirdi. Bunun fonunda SSRİ Respublikalarının rəhbərləri də milli dil məsələsini qabartmağa risk etmirdilər.

Ulu Öndər isə onlardan fərqləndi. Heydər Əliyev o dövrdə Azərbaycan SSR-in başçısı idi. O, bu vəzifədə olanda "...dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü" [3, s.3].

Ulu Öndərin dinimizə də çox böyük önəm verdiyi məlumdur. Heydər Əliyev ifadə edirdi ki, XX əsrdə İslamşünaslıq sahəsində obyektiv araşdırma aparmağa imkan verməmişlər. İndi "Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır" [7, s.29].

Heydər Əliyevin din məsələsinə yüksək dərəcədə önəm verməsi təsadüfi deyildi. Filosofların tədqiqatları da göstərir ki, dil istənilən cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin formalaşmasında çox ciddi rol oynayır. Sovet dönəmində İslamın tədqiqi bir qədər arxa plana atılmışdı. SSRİ, ümumiyyətlə, ateist mahiyyətli dövlət idi. Burada bütün dinlərə münasibət marksist-leninçi ideologiyanın prizmasında baxılırdı. Bu da ilk növbədə mənəviyyatda və əxlaqda özünü göstərirdi.

Bundan başqa, dinin obyektiv tədqiqi, insanlara düzgün anladılması onların mənəvi paklığına xidmət edir. Heydər Əliyev bununla bağlı öyrədirdi ki, "Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir". Bu məqam mentalitetdə əsrlərlə formalaşmış bir sıra dəyərləri qorumaq üçün çox vacibdir. Həm də İslama bağlı olan müsəlmanın imanı və vətənə bağlılığı yüksək olur. Bunun üçün də təbii ki, düzlük və mənəvi paklıq çox önəmlidir.

Heydər Əliyevin İslama yüksək qiymət verməsinin səbəblərindən biri də bütövlükdə "ədalət" anlayışına verdiyi əhəmiyyətlə bağlıdır. Ulu Öndər həmişə tövsiyə edirdi ki, "ədaləti ədalətsizliklə bərpa etmək olmaz". İslamda da ədalətin qorunması və ona əməl olunması ciddi yer tutur. Bu məqam Azərbaycan dövlətçiliyi ənənəsində də xüsusi yer almışdır.

Deməli, Heydər Əliyevin dinə verdiyi yüksək qiymət birbaşa dövlətçiliklə bağlıdır. Bu kontekstdə professor Rafiq Əliyevin aşağıdakı fikirləri maraqlıdır. R.Əliyev yazır ki, "...Heydər Əliyev 5 sentyabr 1993-cü ildə Təzəpir məscidində Məhəmməd peyğəmbərin mövludu münasibətilə keçirilən mərasimdə çıxış edərək demişdir: "Biz bir dövlət kimi... Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidməti və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq". Ümummilli Lider bütün sonrakı dövr ərzində bu vədinə əməl etmiş, dinin, dini təsisatların və etiqadların müasir Azərbaycan cəmiyyətində oynadıqları rola diqqətini azaltmamışdır. 8 aprel 1998-ci ildə Qurban bayramı münasibətilə Mir Möhsün ağanın ziyarətgahında keçirilən bir görüşdə qeyd etmişdir ki: "İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim sərvətimizdir... Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır"[8, 22].

Heydər Əliyevin dinə münasibətinin etik aspekti böyük əhəmyyət daşıyır. Çünki müasir dövrdə hər bir cəmiyyət üçün toplumsal birlik olduqca vacibdir. Bu prosesdə isə dinin yeri və rolunu düzgün müəyyən etmək prinsipial əhəmiyyət kəsb edir.

Heydər Əliyevin din faktorunu azərbaycançılıq kontekstində qiymətləndirməsi dövlət quruculuğu kontekstində strateji məna kəsb edir. Məsələ müasir qarışıq bir dönəmdə mənəvi-əxlaqi cəhətdən sağlam bir cəmiyyətin formalaşması ilə sıx bağlıdır. Sosial-iqtisadi tərəqqi sağlam mənəvi dəyərlərə bağlı olmalıdır. Başqa halda ən yüksək texnoloji nailiyyətlər belə, cəmiyyətin birliyini təmin edə bilməz. Buna görə də dinin məhz müstəqil dövlət quruculuğu kontekstində toplumun sağlam mənəviyyət əsasında birliyi üçün nəzərə alınması uzaqgörən siyasətin nəticəsidir. Ulu Öndər bununla Azərbaycan cəmiyyətində tolerantlığın və dialoqun möhkəm yer tutmasını təmin etmişdir.

Nəhayət, milli adət-ənənələrin azərbaycançılığın əsas 3 dayağından biri olmasının fəlsəfi-etik və strateji əhəmiyyətini anlamaq gərəkdir. Adət-ənənələrin pozulması birbaşa cəmiyyətin tamlığına zərbədir. Filosoflar xalqın adət və ənənələrini cəmiyyətdə fərdi və kollektiv səviyyədə davranış və fəaliyyətin tənzimləyicisi rolunu oynadığını xüsusi vurğulayırlar. Bu faktorlar "mənəvi keyfiyyətlərin əsaslarını formalaşdırırlar". Eyni zamanda, "yeni mənəvi dəyərlərin təşəkkülünə" imkan yaradırlar. Bununla da toplumun mədəniyyət irsini zənginləşdirirlər [10, 23].

Adət-ənənələrin bu ümumfəlsəfi anlamının reallığa çevrilməsi isə əsaslı siyasi kurs tələb edir. Çünki yeniləşməkdə olan toplumlarda müxtəlif kənar təsirlər özünü göstərir. Onlara tab gətirmək və həm də insanları yeni məqsədlərə motivasiya etmək üçün adət-ənənələrin düşünülmüş şəkildə funksionallaşdırılması lazım gəlir. Bu baxımdan adət-ənənələrin bir tərəfdən, keçmişdən gələn üstün cəhətlərini düzgün müəyyən etmək, digər tərəfdən isə onların yeni anlamı sayəsində gələcəyə xidmət etmələrini təmin etmək gərəkdir.

Bu iki aspektin müasir tarixi mərhələdə sintez halında olması üçün isə müəyyən etik kriteriyalara əməl etmək lazım gəlir. Həmin kriteriyalar arasında düzlük, səmimiyyət, ədalətliliklə yanaşı, həmrəylik də ciddi rol oynayır. Azərbaycanlıların həmrəyliliyi məsələsi ən yaxşı məzmunda Ulu Öndərin yeni şəraitə uyğun yaratdığı azərbaycançılıq ideologiyasında öz ifadəsini tapmışdır. Bununla da müstəqillik mərhələsində ilk dəfə sistemli konsept formasında milli adət-ənənələr dövlət quruculuğu strategiyasında yerini almışdır.

Yuxarıda vurğulanan məqamları ümumiləşdirsək, belə bir fəlsəfi mənzərə alınır. Ulu öndər Heydər Əliyev müasir mərhələdə dil, din və adət-ənənələri fəlsəfi-etik kontekstdə müstəqil dövlət quruculuğu kursuna sistemli şəkildə daxil etmişdir. Bu üç faktor azərbaycanılığın təməl prinsiplərindəndirlər. Onların ümumi fəlsəfi və ayrıca etik aspektdə başlıca funksiyaları cəmiyyətin tamlığını və bütövlüyünü təmin etməklə müstəqil və güclü dövlət quruculuğunun təminedici faktorlarından olmaqla bağlıdır. Azərbaycanda müstəqil dövlət quruculuğu təcrübəsi göstərir ki, Heydər Əliyev bu vəzifənin də öhdəsindən mükəmməl gəlmişdir! Vurğuladığımız özəlliklərdən bir sıra fəlsəfi-etik xarakterli nəticə çıxara bilərik.

Nəticə

Müasir mərhələdə Azərbaycanda müstəqil dövlət quruculuğu prosesində dil, din və adət-ənənə faktorları fəlsəfi-etik kontekstdə əsaslı surətdə nəzərə alınır. Bunun banisi Ulu Öndər Heydər Əliyevdir.

Heydər Əliyev bütövlükdə dövlət quruculuğunda mənəvi-əxlaqi və ideoloji dəyərləri yüksək səviyyədə nəzərə almışdır. Bu faktorlar dövlət quruculuğunun digər faktorları ilə sintez halında halında funksionallaşdırılmışdır.

Fəlsəfi aspektdə maraqlı cəhətlərdən biri ondan ibarətdir ki, Heydər Əliyev mənəvi-əxlaqi dəyərləri dövlət quruculuğunun mahiyyətinə daxil edə bilmişdir. Bu, Azərbaycanda dövlətçilik ənənəsinə tam uyğundur. Çünki qədimdən Azərbaycanda dövlət ədalət, birlik (həmrəylik), ənənələrə əməl etmək kimi faktorlarla sıx əlaqədə qurulmuşdur.

Nəhayət, Heydər Əliyev, Azərbaycanda müasir mərhələdə müstəqil dövlət quruculuğunu sistemli kurs əsasında həyata keçirən Ümummilli Lider olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Adil Abdulla Əl-Fəlah. Heydər Əliyev və milli mənəvi dəyərlər/Adil Abdulla Əl-Fəlah; elmi red. və ön sözün müəl. A.Paşazadə; dizayn M.Xəlilov. – Bakı: Qismət, – 2007, – 108 s. ISBN, 10-9952-8082-2-4.

2. Azərbaycan etnoqrafiyası: üç cilddə. – Bakı: Şərq-Qərb, – 2007, – 568 s. ISBN 978-9952-34-092.

3. Bədəlov, Ə. Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır // Xalq qəzeti.- 2009.- 1 avqust.- S. 3.

4. Бергер, Р., Лукман, Т.М. Социальное конструирование реальности. Трактат по социологии знания // Р. Бергер, Т.М. Лукман. Социальное конструирование реальности.

Трактат по социологии знания / Пер. Е.Д. Руткевич. – М.: Медиум, – 1995, – 323 с. ISBN 5-85691-036-2.

5. Черняков, М.К., Акберов, К.Ч. Гейдар Алиев - взгляд из России // М.К Черняков, К.Ч.Акберов. Гейдар Алиев - взгляд из России. Новосибирск. НГТУ. – 2023, – 212 с. УДК 94(47)084.9:929. ББК 63.3.

6. Dünya azərbayanlılarının I qurultayı: [Elektron resurs] // Qurultaylar. URL: https://www.azerbaijans.com/content_496_az.html

7. Əliyeva-Kəngərli, A. Heydər Əliyev və Azərbaycan elmi. Biblioqrafik göstərici. – Bakı, "Şərq-Qərb", – 2010, – 424 s. İSBN 978-9952-34-223-9.

8. Əliyev, R. Dini-mənəvi dəyərlərə Heydər Əliyev münasibəti // 525-ci qəzet.- 2013, - 8 mart.- s.22.

9. Hüseynov, S. Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu. Bakı, "Tuna" QSC mətbəəsi. – 2023, – 227 s.

10. Корягина, О.В., Мукатаева, Ж. Традиции и обычаи как средство формирования нравственных качеств личности: [Электронный ресурс] // Руснаука.– 2023.URL:http://www.rusnauka.com/29_NNM2008/ Pedagogica/36118.doc.htm. Müraciət tarixi 25.01.2024.

11. Qurbanov, F. Heydər Əliyev bə yeni liderlik: fəlsəfi-elmi təhlil. Bakı, "Elm və təhsil". – 2023, – 324 s.

12. Məmmədzadə, İ., Həsənov, S. Heydər Əliyev və İlham Əliyev: güclü dövlət, qələbənin fəlsəfəsi, böyük qayıdış. Bakı, "Elm və təhsil", – 2023, – 268 s.

13. Məmmədzadə, İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Tamamlanmış və yenidən işlənmiş ikinci nəşri. Bakı, "Elm və təhsil", 2019, 200 s. İSBN: 978-9952-445-05-1.

14. Rəhimzadə, V. Milli mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolu: medianın dəstəyi və qiymətləndirməsi prizmasında // Strateji Təhlil. Strateji təhlil – 2017, – № 3-4 (21-22), – s. 235-241.

HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİ VƏ ONUN NƏTİCƏSİ

Gülnar Möhkəm qızı Həsənova
Sumqayıt Dövlət Universiteti
gulnar.hasanova@sdu.edu.az

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bərpa edilməsində və ölkənin inkişafında qətiyyətli bir fəaliyyət göstərməklə tanınır. Onun liderlik vasitəsilə aparılan daxili və xarici siyasəti, iqtisadi islahatlar, milli birlik və təhlükəsizlik sahəsindəki tədbirləri ölkənin tarixində dönüş nöqtəsi kimi qiymətləndirilir.

Heydər Əliyevin təhsil siyasəti, Azərbaycanın müstəqilliyinin bərpa edilməsində və ölkənin inkişafında əhəmiyyətli bir rol oynamışdır. Onun liderliyi altında təhsil sahəsində səmərəli və sistemli dəyişikliklər aparılmış, bu da ölkədə təhsilin keyfiyyətini artırmış və genişləndirmişdir. Heydər Əliyevin təhsil siyasətinin nəticələri bir çox sahədə görünür olmuşdur.

Birincisi, Heydər Əliyev dövründə təhsilə büdcədə daha çox vəsait ayrılmışdır. Bu, təhsil infrastrukturunun genişləndirilməsi, məktəblərin, kolleclərin və universitetlərin tikintisi, təchiz olunması və müasir texnologiyaların tətbiqi üçün maddi resursların artırılması ilə nəticələnmişdir.

İkincisi, təhsilin universal olaraq daha çox insan tərəfindən əlçatan olması üçün geniş tədbirlər görülmüşdür. Heydər Əliyev tərəfindən tətbiq olunan proqramlar və layihələr vasitəsilə, əhalinin geniş təbəqələri arasında təhsilə daha rahat giriş imkanları yaradılmışdır. Bu, kənd ərazilərindəki

təhsil mərkəzlərinin genişləndirilməsi, tələbələr üçün ödənişsiz və ya ucuz təhsil imkanlarının təşkil edilməsi ilə həyata keçirilmişdir.

Üçüncüsü, Heydər Əliyev dövründə təhsilin keyfiyyəti və müəssisələrin beynəlxalq səviyyədə tanınması artmışdır. Universitetlər və digər təhsil müəssisələri beynəlxalq təcrübələrə uyğunlaşdırılmış, beynəlxalq universitetlərlə tərəfdaşlıq əməliyyatları gücləndirilmişdir. Bu, Azərbaycan təhsilinin beynəlxalq arenada daha tanınmış və dəyərləndirilmiş olmasına səbəb olmuşdur [1, s.287-291].

Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti kimi görevi boyunca təhsil sahəsində apardığı dəyişikliklər bir çox sahəni əhatə edir. İşin əsasını təşkil edən dəyişikliklər arasında aşağıdakılar sayılabilir:

1. **Təhsilin Keyfiyyətinin Artırılması**: Heydər Əliyev, təhsil sistemində genişmiqyaslı inkişafı təmin etmək üçün müəyyən addımlar atmışdır. Təhsilin keyfiyyətini artırmaq məqsədilə müəyyən standartların qəbul edilməsi, müəllimlərin təlimi və tədrisi üçün tədbirlərin keçirilməsi və müasir təhsil texnologiyalarının tətbiqi kimi addımlar atılmışdır.

2. **Təhsilin Əlçatanlığının Artırılması**: Heydər Əliyev dönəminə qədər təhsil imkanları, xüsusilə də kənd ərazilərində, kifayət qədər çatışmayan və zəif olan tərəfdaşlarda məhdud idi. Onun fəaliyyəti nəticəsində isə bölgələrdə təhsilin əlçatanlığının artırılması üçün bölgələrə yeni məktəblər, kollec və universitet filialları açılmışdır.

3. **Elmi Tədqiqatların Dəstəklənməsi**: Heydər Əliyev, elmi-texniki potensialın inkişafını təmin etmək məqsədi ilə elmi tədqiqatların dəstəklənməsi üçün dövlət proqramlarının təşkil edilməsini təmin etmişdir. Bu, elmi jurnalın yaradılması, elmi konfransların və seminarların təşkil edilməsi, elmi kadrların formalaşdırılması və s.

4. **Təhsilin Müxtəlif Sahələrə Yayılması**: Heydər Əliyev dönəmində, təhsilin müxtəlif sahələrə yayılması üçün təlim mərkəzləri, ixtisaslaşdırılmış məktəblər və kolleclər açılmışdır. Bu, texniki, humanitar, tibbi və s. sahələrdə peşəkar təlimin keyfiyyətinin artırılmasına və ölkənin səlahiyyətli kadrlarının formalaşmasına kömək edir.

5. **Təhsilin Beynəlxalq İnkişafı**: Heydər Əliyev dönəmində Azərbaycan təhsil sistemi beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bu, beynəlxalq təhsil proqramlarının tətbiqi, beynəlxalq universitetlərlə işbirliyi və təhsil sahəsində beynəlxalq əməkdaşlıq proqramlarının təşkil edilməsi kimi addımlarla nümayiş etmişdir [2, s.3-5].

Bu dəyişikliklər Heydər Əliyevin təhsil sahəsində apardığı ən nəzərdə tutulan dəyişikliklərdir. Onun tərəfdarları onun bu dönəmdə təhsil sahəsində aparılan irəliləyənlərə əsasən Azərbaycan Respublikasının inkişafında əhəmiyyətli bir rol oynamış olduğunu iddia edirlər.

Heydər Əliyev dövründə aparılan təhsil siyasətinin günümüzdəki nəticələri dəyərləndirilərkən bir neçə əsas məqam nəzərə alınmalıdır:

1. **Təhsilin Ümumilikdə İnkişafı**: Heydər Əliyevin dönəmində təhsil sahəsində aparılan dəyişikliklər, ümumilikdə təhsilin inkişafını təmin etmişdir. Yeni məktəblərin, kollec və universitet filiallarının açılması, kifayətli təhsil imkanlarının bölgələrə çatdırılması, təhsilin əlçatanlığının artırılması və texniki infrastrukturun inkişafı kimi addımlar sayəsində Azərbaycanın ümumi təhsil səviyyəsi yüksəlib.

2. **Elmi-Texniki Potensialın Artırılması**: Heydər Əliyev dönəmində təhsil sahəsində aparılan dəyişikliklər, ölkədə elmi-texniki potensialın inkişafını dəstəkləmiş və elmi-texniki sahədə layihələrin, tədqiqatların, yeni texnologiyaların və innovasiyaların meydana gəlməsinə imkan yaradıb.

3. **Beynəlxalq Tanınmanın Artırılması**: Azərbaycanın təhsil sahəsində atdığı addımlar, beynəlxalq arenada ölkənin tanınmasına və qəbul olunmasına kömək etmişdir. Beynəlxalq universitetlərlə əməkdaşlıq, təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması və elmi-texniki sahədə beynəlxalq əməkdaşlıq proqramlarının təşkil edilməsi, Azərbaycanın beynəlxalq təhsil sahəsində özünü göstərməsini təmin etmişdir.

4. **Sosial İnkişafın Dəstəklənməsi**: Təhsilin genişləndirilməsi, təhsil imkanlarının artırılması və peşəkar təlimin yüksək səviyyəyə çatdırılması, sosial inkişafın dəstəklənməsinə və işsizliyin

azaldılmasına da kömək etmişdir. Yüksək keyfiyyətli təhsil almaq, işgücü bazarında konkurentliyi artırmaq üçün vacibdir.

5. **Sürətli İnkişafın Davam Etdirilməsi**: Günümüzdə də Heydər Əliyev dövründə başlanmış təhsil siyasətinin nəticələri davam etməkdədir. Ölkədə yeni təhsil müəssisələrinin, elmi-texniki mərkəzlərinin və universitetlərinin açılması, təhsilin keyfiyyətinin artırılması və sosial inkişafın dəstəklənməsi yolunda yeni addımlar atılır [3,235-236].

Bu məqamalar nəticəsində Heydər Əliyev dövründə aparılan təhsil siyasətinin günümüzdəki nəticələri, ölkədə təhsilin inkişafını, sosial və elmi-texniki sahədəki potensialın artırılmasını və beynəlxalq arenada Azərbaycanın mövqeyini gücləndirməsini əks etdirir.

Nəticə olaraq, Heydər Əliyevin təhsil siyasəti Azərbaycanın müstəqilliyinin bərpa edilməsində və ölkənin inkişafında əhəmiyyətli bir rol oynamışdır. Bu siyasət sayəsində, təhsil sahəsində daxili və xarici keyfiyyət standartlarına cavab verən, geniş və çoxmərhələli bir təhsil sistemini təmin etmək mümkün olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Adıgözəlov Z. və Mustafayev İ. "Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi". Bakı, "QAPP-POLİQRAF" Korporasiyası, 2003, 368 s.
2. Novruzov R. Heydər Əliyevin təhsil siyasəti. Xalq qəzeti. - 2018.- 5 may. - № 101. - S. 7.
3. Məhərrəmova S. Heydər Əliyevin Təhsil Konsepsiyası və Davamlı İnkişaf Meylləri. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 2023, 10 (1), s.230-242.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN BƏDİİ ƏDƏBİYYATDA TARİRİXİ HADİSƏLƏRİN TƏSVIRINƏ MÜNASİBƏTİ

[1]**Azər Yadı oğlu Axundov,** [1,2]**Fazilə Bayramovna Əliyeva,** [1]**Zümrüd Nağı Qəhrəmanova**
[1]Azərbaycan Dövlət Aqrar Universiteti
fazilkaazerinka@mail.ru

Tarix boyu böyük ədəbiyyat həmişə dünyanın qüdrətli dövlət xadimlərinin həyatında və siyasi fəaliyyətində mühüm yer tutmuşdur. Dövlət xadimlərindən bir çoxu dünya ədəbiyyatının ən fəal mütaliəçisi kimi fərqlənmişlər. Belə siyasi rəhbərlər hətta bədii ədəbiyyata dair bilik və informasiyaları ilə ziyalı mühitini heyrətləndirmişlər. Başqa qrup dövlət başçıları şeir həvəskarları olmuş, rəğbət bəslədikləri şairlərin əsərlərini ən ciddi məclislərdə əzbər söyləmişlər. Hətta tarixdə şeir yazan, dramatik əsərlərini teatrlara təqdim edən rəhbərlər də olmuşdur. Az da olsa ədəbiyyatdan, yazıçıdan uzaqda dayanan, bu sahəyə rəğbəti olmadığını gizlədə bilməyən ölkə başçıları haqqında da məlumatlar mövcuddur. Bütün bunlarla bərabər ədəbiyyatı dövlət siyasətinin üzvi tərkib hissəsi səviyyəsində qəbul edən, bu tükənməz xəzinədən milli siyasətin həyata keçirilməsində bacarıqla və yaradıcı şəkildə faydalanan dövlət xadimləri də olmuşdur.

Heydər Əliyevin geniş həcmə malik olan şeirləri, poemalardan böyük parçaları, dramlarda əsas obrazların sözlərini əzbər bilməsi və bütün bunları uzun illər yaddaşında qoruyub saxlaması onun hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi qeyri-adi üstünlüyünün əsas göstəricilərindən biri idi. Siyasi-tarixi baxımdan möhtəşəm xəzinə kimi qabarıq şəkildə diqqəti cəlb edən Heydər Əliyevin bənzərsiz ədəbiyyat yaddaşına malik olması onun görkəmli dövlət xadimi obrazını əlavə cizgilərlə tamamlamış və zənginləşdirmişdir. Heydər Əliyev təkcə geniş və mükəmməl ədəbiyyat biliyi ilə deyil, həm də fenomenal ədəbiyyat yaddaşı ilə nəinki diqqəti cəlb etmiş, hətta çox hallarda ətrafındakıları heyrətləndirmiş və təəccübləndirmişdir.

Elə hadisələr vardır ki, onlar haqqında yazılanlardan tarxçilər çox az, şairlər isə nisbətən çox bəhs etmişlər. Əlbəttə, ədib və şairlərimizin hansı janrda qəsidə, həcv, mərsiyə və ya qəzəl yazmasının əhəmiyyəti yoxdur. Müasir tarixçini həmin şerdəki hər hansı bir tarixi məlumat

maraqlandırmalıdır. Çünki şairlərin öz əsərlərini hansı janrda yazmasının da müxtəlif ictimai-tarixi səbəbləri vardır. Daha doğrusu, hər bir məsələ, hadisə zaman, məkan və şəraitlə bağlıdır.

Məlumdur ki, XII-XV əsr şairlərinin əksəriyyətinin yaradıcılığı əsasən saraylarla bağlı olmuş, onlar lirik şerlər, poemalar yazmış və əsərlərini hökmdarlara ithaf etmişlər.

XV-XIX əsrlərdə isə dini – tarixi ədəbiyyata daha çox önəm verilmişdir. Bunun da bir sıra tarixi kökləri vardır. Məlumdur ki, Səfəvilərin Təbriz, Qəzvin, İsfahan kimi paytaxtlarında Atabəylər və Şirvanşahlar saraylarından fərqli olaraq saray şairləri olmamış, onlar öz ailələrini müxtəlif peşələrdən qazandıqları para ilə dolandırmışlar. Bu kimi güzəran və şiəliyin təbliği ilə əlaqədar olaraq XVI əsrdən bağlayaraq bir sıra sənətkarlar – xüsusilə alim, şair, rəssam, xəttatlar Türkiyə və Hindistana köç etmişlər. [1, 8-9] XVI əsr şairlərindən Möhtəşəm Kəşni Şah Təhmasibə və Səfəvi dövlətinin idarə edilməsində mühüm rol oynayan qızı Pərixan xanımının adına qəsidə yazıb göndərir. Şah Təhmasib qəsidələri oxuduqdan sonra şairə xəbər göndərir ki, biz nəçiyik, bizi mədh edirlər. Onlar Kərbəlada öldürülən 72 şühadanın müsibətlərini nəzmə çəkməlidirlər.

Möhtəşəm Rəşanı özünün məşhur "Həft bənd"ni yazıb şaha göndərir. Şah Təhmasib ona layiqli hədiyyələr verir. Bundan sonra şairlər 50-60-a qədər "Həft bənd" yazır və əvəzində şahdan çoxlu hədiyyə alırlar. Beləliklə şair və ədiblər daha çox dini məzmunlu əsərlər yazmağa başlayırlar. XIX əsrdə Azərbaycan şəhərlərinin Rusiya imperiyası tərəfindən işğalları başlayır. Təəssüf ki, uzun illər Azərbaycan tarixçiləri bu işğala müxtəlif donlar geyindirərək onu gah ilfaq kimi, gah da birləşdirmə kimi qələmə almışlar.

Müqəddəs Ramazan bayramı günü, 1804-cü il yanvarın 3-də Gəncənin işğalı bədii ədəbiyyatda öz əksini tapmışdır. Xalq Gəncəni qəhrəmancasına müdafiə etsə də, qüvvələr bərabər olmadığından şəhər işğal olunur və vəhşicəsinə qətl və qarət olunur. Mənbələr yazır ki, "Şəhərin bir yerində qan sel kimi axırdı. Beş yüzə qədər tatar (azırbaycanlı) məsciddə gizlınmişdi. Bir nəfər erməni (rus) əsgərlərə xəbər çatdırdı ki, onların içində bir neçə Dağıstan ləzgisi var. Ləzgi adının dilə gətirilməsi ilə məsciddə olanların ölümünə işarə verildi". Döyüşlərdə qəhrəman Cavad xan və oğlu Hüseynqulu da şəhid oldular. [2, 76] Bu hadisələrin canlı şahidi olan el aşığı – şair Həsən yazırdı:

Görən bilən, eşidənlər yansınlar
Gözünə yaman oldu halı Gəncənin
Bizə imdad verməz heç padşahzadə
Məgər Tutulubdur yolu Gəncənin
Bürc üstündə bayraqları qurdular
Tifil uşaqların hamısını qırdılar
O zaman ki, Cavad xanı vurdular
Sonacan qırıldı beli Gəncənin
Bayram gecəsində qalanı oldu
Dörd yanın çevirib qılıncnan çaldı
Erkəyi qırılıb dişisi qaldı
Al qana boyandı çölü Gəncənin.

Rusiyanın İran və Azərbaycan xanlıqları üzərinə hücumları nəticəsiz qalmır. 1813- cü il Gülüstan, xüsusilə 1828-ci il Türkmənçay müqaviləsi ilə Azərbaycan Araz çayı sərhəd olmaqla iki yerə bölündü. İşğalçılar Azərbaycanən şimal torpaqlarını işğal etməklə kifayətlənməyib, onun maddi-mədəniyyət abidələrini də qarət edərək Rusiyaya apairırdılar. Ərdəbildəki Şeyx məqbərəsinin vəqfi olan qiymətli kitabları qarət edərək Peterburqa apardılar.

Bütün bu işğal və qarətlər kifayət deyilmiş kimi, çar hökuməti müsəlmanlara inanmadığı üçün imperiyaya qatılmış ərazilərə Türkiyə və İranda xristian ermənilərı keçirərək onlara böyük imtiyazlar verildi. Əsrlər boyu Arazın o tayı, bu tayına azad gedib gələn maldar tayfalar yaylaq və qışlaqlardam məhrum oldular. Xan Araz ayrılıq simvoluna çevrildi:

Qan ilə ayırdılar, Arazı ayırdılar,
Zülm ilə ayrıldılar, mən səndən ayrılmazdım.

Bayatısı xalqın dilində əzbər olmuşdu.

Şair Nəbati öz dövründə cərayan edən hadisələri ürək ağrısı ilə təsvir etmişdir:

Gedin deyin Xançobana

Muğa batıb nahaq qana,
Gəlməsin bu il Muğana [3, 89]

Bunlara baxmayaraq İmperiyanın əsarəti altında inləyən müsəlman xalqları müstəmləkəçiliyə qarşı öz etiraz səslərini uclatmış, silaha sarılaraq öz azadlıqları uğrunda mübarizə aparmışlar. Şeyx Şamil hərəkatı, Azərbaycanın müxtəlif şəhərlərində, o cümlədən Qubada olan üsyanlar dediklərimizə əsaslı sübutdur.

XIX əsrdə yazılmış elə bir məşhur tarixi əsər tapmaq olmaz ki, orada Çar Rusiyasındakı rüşvətxorluq, bürokratiya açıq – aydın təsvir olunmasın. Yeri gəlmişkən qeyd edək ki, bəzi ədiblər də bu və ya başqa şəkildə tarixçilərin yolu ilə gedərək, imperiyanın mənafeyini müdafiə edirdilər. Bütün dinləri "puç və əfsanə" hesab edən M.F.Axundov ərəb – fars əlifbasını dəyişməklə imperiyaya xidmət etmişdir. Maraqlıdır ki, gürcü və erməni əlifbaları haqqında məsələ qaldırılmamış, yalnız ərəb fars əlifbasının dəyişdirilməsinin təşəbbüsçülərindən biri erməni əsilli Mirzə Melukum xan olmuşdur. Lakin bu təşəbbüs həyata keçirilməmiş qaldı. Əgər bu məsələ qəbul edilsəydi, müsəlman əhalisinin əsrlərdən bəri yaratdıqları mədəniyyətə qələm çəkiləcəkdir. Lakin imperiyanın bu siyasəti Sovet imperiyası dövründə həyata keçirildi. Belə ki, 1930 - cu ildə ərəb-fars qrafikasından latın qrafikasına, 1940-cı ildə kiril – rus əlifbasına keçirilmiş oldu. Buna səbəb kimi rus xalqının dünyada ən beynəlmiləl xalq, rus dili isə beynəlxalq dil olduğu göstərilirdi. İki dəfə əlifbanın dəyişilməsi Azərbaycan xalqı üçün böyük zərbə idi. Çünki 10 il ərzində latın əlifbası ilə yazılmış və çap olunmuş əsərlərdən sonrakı nəsillər istifadə edə bilməyəcəkdi.

"Mədəni inqilab" nəticəsində ərəb-fars əlifbasının mürtəcə bir sinif "xalq düşməni " kimi vəhşicəsinə ləğv edilməsi, əlbəttə, xalqı özünün 1300 illik milli mədəniyyətindən məhrum etmək, müstəmləçiliyin ən mənfur üsullarında biri idi. Dünya tarixində heç bir imperiya bu üsula əl atmamışdır. Hətta Böyük Britaniya imperiyası özünün ən böyük müstəmləkəsi olan Hindistandakı yazıların o cümlədən ərəb – fars əlifbasının ləğv edilməsi məsələsini qarşısına məqsəd qoymamışdı. Əksinə, xüsusilə fars dilində də böyük həcmli əsərlər çap edilirdi.

XX əsrin əvvəllərində imperoya daxilində baş verən hadisələr, imperiyanın milli ayrı seçkilik siyasəti bir çox vətənpərvər şairlər tərəfindən qələmə alınmışdır. Bunlardan Ömər – Faiq Nemənzadəni, Əliqulu Qəmsükarı, Cəlil Məmmədquluzadəni, Nəriman Nərimanovu və başqalarını göstərə bilərik. Təəssüf ki, Çar Rusiyasının yeritdiyi milli ayrı-seçkilik siyasəti 70 il ömür sürən Sovet İmperiyası dövründə də davam etdirilmişdir. [4, 89] XX əsrin sonlarında imperiya daxilində ziddiyətlər bu imperiyanın süqutunu yaxınlaşdırırdı. Belə bir şəraitdə Azərbaycan xalqı öz müstəqilliyini yenidən bərpa etdi və bu gün Azərbaycan tam müsqətil bir dövlət kimi gələcəyə doğru addımlayır.

Heydər Əliyevin ədəbiyyat təlimindəki millilik anlayışı özündə bütün dolğunluğu ilə Azərbaycançılıq məfkurəsini əks etdirir. Və yaxud da Azərbaycançılıq Heydər Əliyevin apardığı milli siyasətin lokomotividir. Ədəbiyyat siyasəti görkəmli dövlət xadiminin bu istiqamətdə apardığı geniş siyasi-ideoloji və təşkilati işin özülünü təşkil edir. Azərbaycan ədəbiyyatı klassiklərindən Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, həmçinin yeni dövr bədii fikrimizin Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Qabil, Məmməd Araz, Mirvarid Dilbazi və başqaları kimi onlarla nümayəndələrinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, aparılan tədqiqat-təbliğat işləri həmin sənətkarların xalqa daha yaxından tanıdılması ilə bir sırada həm də Azərbaycançılıq ideyasının geniş miqyasda yayılmasına və dərindən mənimsədilməsinə xidmət etmişdir. Dahi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Heydər Əliyevin yubileyi keçirən Təşkilat Komitəsinin 1 avqust 1994-cü il tarixli yığıncağındakı tarixi nitqində səslənən aşağıdakı mülahizələr bu həqiqəti bir daha təsdiq edir: "Bu yubileyi keçirərkən biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin... tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir".

Deməli, ədəbiyyat vasitəsilə milli-mənəvi özünüdərk prinsiplərinin daha da dərinləşdirilməsi, Azərbaycançılıq məfkurəsinin mənimsədilməsi Heydər Əliyevin ədəbiyyat siyasətinin əsas prinsiplərindəndir. Heydər Əliyev bu tarixi vəzifəni həm ölkə daxilində, həm də Azərbaycandan kənarda həyata keçirmişdir. Böyük ədəbiyyat Heydər Əliyevin Azərbaycanı dünyada tanıtdırması baxımından da mühüm vasitələrdən birinə çevrilmişdir. Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi qüdrətli sənətkarların yubileylərinin, "Kitabi-Dədə Qorqud" dastanlarının yaranmasının 1300 illiyinin beynəlxalq miqyasda keçirilməsi görkəmli dövlət xadiminin Azərbaycan xalqını və ölkəsini dünya səviyyəsində tanıtmasına, dövlətimizə və xalqımıza etibarlı tərəfdaşlar qazandırmasına doğru istiqamətləndirilmiş və müsbət nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Bundan başqa, müxtəlif bəhanələrlə Azərbaycan xalqına mənsub olmasına şübhə ilə yanaşılan, ətrafında yersiz və haqsız mübahisələr açılan ədəbiyyat xadimlərinin yubileylərinin keçirilməsi həm də həmin şübhəli mülahizələrin, məqamların, iddiaların aradan qaldırılmasına, Azərbaycan gerçəkliyinin daha dərindən əsaslandırılıb təsdiq olunmasına hesablanmışdır. Nizami Gəncəvinin 840 illik, Məhəmməd Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyləri prosesində aparılan məqsədyönlü elmi-ideoloji işin sayəsində ortaq cəhətləri ilə yanaşı bu sənətkarların və abidələrin Azərbaycan xalqına məxsusluğu nəinki möhkəm surətdə əsaslandırılmış, hətta bütün dünyaya bəyan edilmişdir. Bunlar isə Heydər Əliyevin ədəbiyyat siyasətində həm də Azərbaycanın mənafelərinin qorunması, müdafiə edilməsi kimi məsələlərin də əhatə olunduğunu nəzərə çarpdırır.

Ümummilli lider Heydər Əliyevin ədəbiyyat siyasətində tarixilik prinsipinin də özünəməxsus yeri vardır. Əslində bu amili tarixi dərk prinsipi də adlandırmaq olar. Böyük dövlət xadimi Heydər Əliyev bu fikirdə idi ki, "Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də... respublikamıza maraq göstərən adamlara tanıtmaq lazımdır". [5, 256-260] Heydər Əliyev Azərbaycan xalqına özünün soykökünü, milli-tarixi keçmişini dərindən və əsaslı şəkildə dərk etdirmək, mənimsətmək, xalqımızda milli qürur hisslərini daha da yüksəltmək üçün tarixi mövzularda bədii əsərlərin yazılmasına meydan verilməsini zəruri saymışdır. Görkəmli Azərbaycan yazıçıları Elçinin, İsa Hüseynovun, Əzizə Cəfərzadənin, Hüseyn İbrahimovun, Fərman Kərimzadənin, Əlisa Nicatın və başqalarının tarixi mövzularda yazdıqları bədii əsərlər milli-tarixi özünüdərk proseslərinin dərinləşməsində əhəmiyyətli rol oynamışdır. Tarixi mövzularda yazılmış bədii əsərlərin əsasında filmlərin çəkilməsi, teatr tamaşalarının hazırlanması, bu əsərlərdən bəzilərinin rus dilinə tərcümə olunması, Türkiyədə nəşri prosesinin kütləviləşdirilməsinə və miqyasın genişlənməsinə özünün layiqli töhfəsini vermişdir.

Heydər Əliyevə görə, tarixi mövzuda yüksək bədii səviyyədə əsər yazmaq yazıçıların Vətən və xalq qarşısındakı ən məsul vəzifələrindəndir. Belə əsərlərdə tarixiliklə bədiiliyin vəhdət daşımalı olduğunu da görkəmli dövlət xadimi diqqət mərkəzinə çəkmişdir: "Tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər".

Siyasi istiqaməti ilə yanaşı, elmi cəhətdən də əhəmiyyətli olan yuxarıdakı mülahizələr tarixiliklə bədiiliyin sintezinə dair Heydər Əliyev tezisləri kimi səslənir. Bu cür aydın və konkret tələblər tarixi mövzuların meydanını genişləndirmiş, həmin mövzuda layiqli bədii əsərlərin yazılması ilə nəticələnmişdir. Bu isə öz növbəsində milli-tarixi dərk proseslərinin dərinləşdirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Heydər Əliyevin ədəbiyyat siyasətində müasirlik meyarının özünəməxsus rolu və yeri vardır. Böyük siyasətçinin nəzərində müasirlik geniş miqyaslı bir kateqoriya kimi həm çağdaş həyatın ədəbiyyatda əks etdirilməsi, həm də müasir düşüncənin, yeni təfəkkürün ədəbiyyata gətirilməsi vəzifələrini əhatə edir. Ona görə də Heydər Əliyev həmişə "öz dövrünü tam dolğunluğu ilə göstərməyin, ictimai inkişafın dialektikasını bədii formada canlandırmağın, onun ən mühüm meyillərini və qanunauyğunluqlarını açmağın necə məsul vəzifə olduğunu hər bir sənətkarın dərk etməsi çox böyük vəzifədir" qənaətində olmuşdur. Onun fikrincə, müasir həyatdan söz açan əsl sənətkar ötəri, keçəri meyilləri deyil, "ictimai inkişafın müqəddəratını müəyyən edən prosesləri və hadisələri ilk növbədə təsvir etməlidir". [6, 400-402]

Həm keçmiş sovet hakimiyyəti illərində, həm də müstəqillik dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan yazıçılarının qurultaylarındakı dərin məzmunlu məruzələri, müasir ədəbiyyatın, yaxud da ki, ədəbiyyatda müasirlik məsələsinin bədii əksinin proqramına çevrilmişdir. Onun müasiri olduğu sənətkarların yubiley mərasimlərindəki çıxışları müasir həyat və çağdaş ədəbiyyat münasibətlərinin əsas ana xətləri ilə açılmasına aydınlıq gətirmişdir. Beləliklə, cəmiyyətdə və ədəbiyyatda müasirlik anlayışının Heydər Əliyev konsepsiyası formalaşmışdır. Fikrimizcə, XX əsrin altmışıncı illərindən sonra yaranan müasir Azərbaycan ədəbiyyatı ən yaxşı nailiyyətlərini həmin müdrik konsepsiyanın işığında qazana bilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. A.Bakıxanov Gülüstani – İrəm, Bakı, Elm, 1998
2. Ə.İsayev, Gəncə və Gəncəlilər. Bakı, Elm,2001
3. Nəbati, Əsərləri, Bakı 2011
4. Ö.F.Nemənzadə Bakı, 2009
5. Ümummilli lider Heydər Əliyev Məhəmməd Füzuli haqqında//Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri. 2013, № 2
6. Ümummilli lider Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələləri / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV beynəlxalq elmi konfransın materialları. Bakı: Mürtəcim, 2013

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELM VƏ TƏHSİLİNİN İNKİŞAFINDA ROLU

Fəridə Mürşüd qızı Mikayılova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
sahibanasirova1963@mail.ru

Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi çox görkəmli sima, dövlət idarəçiliyi sahəsində son dərəcə böyük görkəmli və təcrübəli siyasət adamı, dövlət xadimi idi. Heydər Əliyev Azərbaycanımızın, dövlətimizin tarixində həmişəlik qalacaq və həmişə anılacaq bir çəxsiyyətdir. Onun zəngin dövlətçilik təcrübəsi bütün dünyada etiraf olunur və hörmətlə qarşılanır, yüksək qiymətləndirilir.

Məlum olduğu kimi, 60-cı illərin ortalarında Azərbaycan keçmiş ittifaq respublikaları arasında mədəni və iqtisadi göstəriciləri üzrə çox geridə qalır və və axırıncı yerlərdə qərarlaşırdı. Ona görə də respublikamız ittifaq rəhbərliyi tərəfindən daim tənbeh, tənqid və məzəmmət olunurdu. Bu isə xalqımızın izzət və şərəfinə, ləyaqətinə mənfi təsir göstərdi. Belə bir anda 60-cı illərin sonunda Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladıqdan sonra çox qısa bir müddətdə respublikamızda müsbətə döğru vəziyyət dəyişdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk 13 il ərzində (1969-1982) respublikamızın, xalqımızın şərəfini, şöhrətini, ləyaqətini göyrərə qaldırdı. Xalqımıza, Azərbaycana olan münasibət dəyişdi. Azərbaycan yüksək tərəqqi yoluna qədən qoydu. Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi elm və təhsil istiqamətində də əsaslı dəyişiliklik baş verdi. Heydər Əliyevin istər Sovet dönəmində, istərsə də müstəqillik dövründə Azərbaycan xalqına göstərdiyi xidmətləri saymaqla qurtarmaq olmaz. Onların içərisində böyük şəxsiyyətin təhsil, elm və mədəniyyətin inkişafına göstərdiyi qayğı xüsusi yer tutur.

Heydər Əliyev Sovet dövründə respublikaya rəhbərlik etməyə başladığı ilk illərdən ölkəmiz üçün yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını xüsusi nəzarətə götürdü. 1970-ci ilə qədər SSRİ-nin aparıcı ali məktəblərinə təhsil almağa gedənləri barmaqla saymaq olardı. Həmin sahədəki pərakəndəliyi Heydər Əliyevin işləyib hazırladığı xüsusi proqram və sistemli fəaliyyət əvəz etdi. O vaxtdan hər il Azərbaycandan yüzlərlə gənc ittifaqın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərildi. Heydər Əliyevin rəhbər seçilməsindən cəmi 3 il sonra bu iş artıq müsbət bir tendensiya şəklinə düşmüşdür. Hər dərs ilinin başlanmasından əvvəl başqa şəhələrdə təhsil almağa göndərilən

gənclərlə respublika rəhbərlərinin şəxsən görüşməsi dahiyanə bir uzaqgörənlik və böyük millətsevərliyin ifadəsi idi. Əgər 1970- ci ildə belə gənclərin sayı 50 nəfər idisə, 70-ci illərin sonunda bu rəqəmin 800-900 nəfərə, 80-ci illərin əvvəllərində isə 1400 nəfərə catdırdırılmasına nail olunmuşdur. Həmin gənclərin təqribən 400 nəfəri hərbi məktəblərdə təhsil alırdı.[3]

Uzaqgörən siyasətçi bu yolla ölkənin kadr potensialını, intelektual bazasını möhkəmləndirmək üçün həmin illərdə respublikadan kənarda 15 mindən artıq yüksək ixtisaslı mütəxəsssis hazırlanmasına nail olmuşdur. Özü də respublika rəhbəri kimi həmin gəncləri oxumağa göndərməklə kifayətlənməyib, onların həm təhsil müddətində üzləşdiyi problemlərin həlli ilə maraqlanır, həm də ali təhsildən sonra xalq və dövlətə səmərə verə bilən işlə təmin edilməsi üçün xüsusi tapşırıqlar verir və onların yerinə yetirilməsinə bilavasitə nəzarət edirdi.

70-ci illərdə yüksək ixtisaslı kadr kimi yetişərək bu gün də dövlət idarəçiliyində mühüm postlar tutan insanlar Ulu Öndərin ali məktəblərdə hökm sürən acınacaqlı vəziyyətin aradan qaldırılması, qəbul prosesində şəffaflığın təmin edilməsi sahəsindəki qətiyyətli və prinsipial addımlarını yüksək ehtiramla xatırlayırlar.Ulu Öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu, xalqın yüksək təhsil almasında, maariflənməsində görür, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirirdi. Ümummilli Liderin yeritdiyi siyasətin dərinliyi və uzaq hədəflərə hesablanması da məhz onun elmi prinsipləri üzərində qurulması, zəngin intelektual potensiala söykənməsi üçün şərtlənirdi. Həmin illərdə respublikamızda məktəb tikintisi prosesinin sürətlənməsi, maarif işinin yüksək səviyyədə təşkili, ixtisaslı kadrlar hazırlayan yeni ali məktəblərin açılması, fundamental və hümanitar elmlərin inkişafı, əldə olunan kəşflərin iqtisadiyyatın bütün sahələrində tətbiqi, Ümummilli Liderin təhsil strategiyasının əsas leytmovini təşkil edirdi. Məhz Heydər Əliyevin şəxsi müdaxiləsi və qayğısı ilə 70-cı illərdən başlayaraq Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başlamış, bu sahədə milliləşdirmə prosesinə start verilmişdi.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı cəmiyyətin bütün sahələri kimi elm və təhsilin də üzləşdiyi bütün bəlalardan xilas etdi. Mənfi proseslərin qarşısı qətiyyətlə alındı. Ölkədə qayda-qanunun, əmin-amanlıq və ictimai-siyasi sabitliyin bərqərar edilməsi nəticəsində digər sahələrdə olduğu kimi elm, təhsil işimizdə də normal fəaliyyyət üçün şərait təmin edildi, tərəqqi, inkişaf üçün əsaslar yaradıldı. [1]

Bakıya qayıtdıqdan sonra ilk görüş yerlərindən biri kimi Azərbaycan Elmlər Akademiyasına seçən Ulu Öndər Azərbaycanın fundamental, humanitar və ictimai elmlərinin yeni dövrü tələblərinə uyğunlaşdırılması, azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin inkişafı ilə bağlı alimlər qarşısında yeni tələblər müəyyənləşdirilmişdir. Ulu Öndər Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdəki nitqində (31 dekabr 1997) söyləmişdir. "Bizim böyük elmimiz Azərbaycanın istedadlı insanları, alimləri tərəfindən elmi-tədqiqat institutları, təşkilatları, Elmlər Akademiyası tərəfindən, sahə institutları tərəfindən yaranmış elimdir". Ona görə də Azərbaycanın güclü elmi potensialı haqqında həmişə böyük iftixar hissi ilə danışarkən şübəhisiz ki, birinci növbədə elmi naliyyətlərimizi nəzərdə tuturuq və xüsusən Elmlər Akademiyasının əldə etdiyi naliyyətləri nəzərdə tuturuq". [2]

Heydər Əliyev elmlə yanaşı təhsili də cəmiyyət həyatının ən öncül, strateji əhəmiyyətli sahəsi hesab edirdi. O, iqtisadiyyatın da, cəmiyyətin başqa sahələrinin də təhsilə əsaslandığını, onun üzrində qurulduğunu vurğulayaraq göstərirdi ki, əgər bizim yüksək təhsil potensialımız, güclü kadr potensialımız olmasa, biz nə iqtisadi, nə də sosial potensiala malik ola bilmərik. Yaxşı təhsil—ölkənin gələcək inkişafı üçün yaxşı əsas yaradılması deməkdir... Hər bir xalqın səviyyəsini, onun bilik səviyyəsi müəyyən edir. Bilik səviyyəsinə nail olmaq üçün isə təhsil ardıcıl sürətdə inkişaf etdirilməlidir. [3] Vaxtilə Ulu Öndər çox sərrast ifadə etmişdir: "... başqa sahələrdə geriliyə, çatışmazlığa, müəyyən qədər dözmək olar, o halların verdiyi zərərləri tezliklə aradan qaldırmaq olar. Amma xalqın, millətin təhsil sistemini qırmaq olmaz. Bu elə bir işdir ki, ardıcıl sürətdə davam etməlidir. Bir il belə fasilə olsa, xalqa, millətə böyük zərbə vura bilər". [3]

Heydər Əliyevin təhsil strategiyasında Azərbaycan təhsilinin dünyanın inkişaf etmiş ölkələrinin təhsil standartları ilə əlaqələndirmək, nəticədə milli təhsilin mükəmməl bir islahat proqramının yaradılmasına və həyata keçirilməsinə nail olunub. Azərbaycanda ali təhsil tarixində

ilk dəfə 1993/1994-cü tədris ilindən etibarən ikipilləli ali təhsilə – 4 illik bakalavriat və 2 illik magistratura təhsil sisteminə keçilib.

Heydər Əliyev təhsil islahatının həyata keçirilməsinə, təhsil ocaqlarına qayğı göstərməklə yanaşı, tələbələrimizin sosial problemlərini də unutmurdu. O, Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün "Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli fərmanı ilə ölkənin ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 25 nəfər tələbə üçün Prezident təqaüdü ayırıb. [4]. Bu postsovet məkanında heç bir yerdə analoqu olmayan çox müdrik və hümanist bir tədbirdir. Milli Liderimizin bu qayğısı gənclərimizin təhsili üçün daha əlverişli şərait yaradılmasına, onların təhsilə olan həvəslərinin artırılmasına yönəlib.

Mədəniyyət, elm və təhsil sahəsində beynəlxalq əlaqələrin yaradılması və genişləndirilməsinin gənc Azərbaycan Respublikası üçün necə önəm daşıdığını və həmin əlaqələrin ölkə vətəndaşlarının mənəviyyatının yüksəlişinə necə böyük təsir göstərəcəyini Ümummilli Lider vaxtında Azərbaycan İctimayyətinin diqqətinə çatdırmışdı: "Mədəniyyətimizin, elmimizin, təhsilimizin mənəviyyatını daha da yüksəkliklərə qaldırılması üçün mədəni, elm-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir". [3]. Ulu Öndər Azərbaycanı davamlı və sabit inkişaf yoluna çıxarmaqla yanaşı, bu siyasəti özündən sonra da layiqincə davam etdirə biləcək İlham Əliyev kimi Lider yetişdirilmişdir. 2003-cü ildən Azərbaycana inamla rəhbərlik edən dövlət başçısı İlham Əliyev keyfiyyətcə yeni mərhələdə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirilmiş, elm və təhsilin bütün intellektual rresusların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Azərbyacan prezidenti İlham Əliyevin elmin, təhsilin, mədəniyyətin inkişafını sürətləndirən onlarla fərman və sərəncamlar, dövlət proqramları imzalaması onun yetişməkdə olan gənc nəslin mənəvi bütövlüyü, kamilliyi və saflığı istiqamətində həyata keçirdiyi siyasətin mühüm məqamlarıdır. Bütün bunlar eyni zamanda mənəvi yüksəlişə, intibaha xidmət edən mühüm addımlar kimi cəmiyyətin pozitiv ruhda inkişafına təkan vermişdi.

Dövlət başçısı cənab İlham Əliyevin 2009-cu il oktyabrın 21-də imzaladığı sərəncamla Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması da tədqiqatların sitimullaşdırılmasının yeni maliyyə mexanizmi kimi diqqəti çəkir. Fondun yaradılması fondomental elmi tədqiqatların stimullaşdırılması, ölkənin təbii resurslarının, mədəni və tarixi irsinin öyrənilməsinin gücləndirilməsi elminin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılması məqsədinə xidmət edir. [1]

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 8-ci kitab. Bakı, 1998
3. Xalqa bağışlanan ömür. II kitab. Bakı, 2004
4. Şəxsiyyətin qüdrəti. Bakı, 2012.

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ MİLLİ MARAQLARI TAMAMİLƏ TƏMİN EDİR

Təranə Adil qızı Bağırova
Azərbaycan Dövlət Aqrar Universiteti
bagirovaa000@gmail.com

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir."

(Heydər Əliyev)

Ölkəmizin bugünkü xarici siyasətinin bütün istiqamətləri hamıya məlumdur. İndi hamıya yaxşı bilir ki, dövlətimiz və dövlət başçımız Heydər Əliyev siyasi kursunu davam etdirərək, bu

kursun əsas elementlərindən olan xarici siyasətdə konkret mövqe nümayiş etdirir. Həmin mövqe aşağıdakıları təşkil edir: ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, müstəqil dövlət siyasəti yeridilməsi və nəhayət, təbii sərvətlərdən respublikanın inkişafı, xüsusən, milli maraqların təmin edilməsi məqsədiylə istifadə olunması.

Azərbaycanın xarici siyasəti yaxın ölkələr arasında ən uğurlu siyasətdir. Çünki bu siyasət müstəqil Azərbaycana təkcə regionumuzda və postsovet məkanında deyil, eləcə də bütün dünyada özünəməxsus uğur, müvəffəqiyyət və nüfuz qazandırmışdır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasını təşkil edir.

Hazırda elə bir beynəlxalq təşkilat yoxdur ki, Azərbaycan orada konkret və cəsarətli təkliflərlə çıxış etməsin və ya rəsmi Bakının təşəbbüsləri cavabsız qalsın. Xüsusilə regiondakı beynəlxalq əhəmiyyətli iqtisadi layihələrin reallaşdırılması məsələsində Azərbaycan özünəməxsus söz sahibinə çevrilmişdir. Bunun bir neçə səbəbi vardır. Əvvəla, Azərbaycan 1993-cü ilin yayından sonra müstəqil dövlət siyasəti yeritməyin nümunəsini yaratmışdır[2].

Xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb, həssas bölgəsində – coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Belə ki, ölkəmiz öz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qorumaqla yanaşı, Qərb, islam ölkələri, türk dünyası və Müstəqil Dövlətlər Birliyinin siyasi iqtisadi-mədəni məkanları ilə qarşılıqlı faydalı münasibətlər qurur, beynəlxalq əməkdaşlığı və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini genişləndirir. Bu gün Azərbaycan Respublikasının siyasi və iqtisadi potensialı artmış, regionda söz sahibi olan dövlətə çevrilmiş, beynəlxalq "siyasət səhnəsi"ndə nüfuzu və mövqeyi daha da möhkəmlənmişdir. Həmin uğurlar vaxtilə ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və hazırda dövlət başçısı İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursun məntiqi nəticələridir. Bu siyasətin təməli sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı faydalı əməkdaşlıq kimi əsas prinsiplərdən, vəzifələri isə Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə siyasi təminat verilməsindən və beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirilməsindən, dünya birliyində mövqeyinin möhkəmləndirilməsindən, bərabərhüquqlu və ölkəmizin milli mənafelərinə cavab verən iqtisadi, siyasi, mədəni əlaqələrin qurulmasından, bir sözlə, Azərbaycan xalqının milli maraqlarına uyğun olan ardıcıl və açıq xarici siyasət yürüdülməsindən ibarətdir. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın xarici siyasət kursunun əsas məqsədlərindən, milli maraqların formalaşması və təminatında əhəmiyyətindən və tarixi varislik ənənələrindən danışarkən bildirmişdir: "Biz bu siyasətin təməl prinsiplərini elə şəkildə yaratmışıq ki, yeritdiyimiz kurs dövlət müstəqilliyimizin əbədiləşdirilməsinə və ölkəmizin ərazi bütövlüyünün bərpasına xidmət etsin". Bütövlükdə həmin prinsiplər müstəqil, dünyəvi və demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləməyə, Azərbaycanın regionda həlledici söz sahibi olmasına, bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrinin qurulmasına əlverişli zəmin yaratmışdır [1].

Yaradıçısı ulu öndər Heydər Əliyev olan həmin mövqe ondan ibarət idi ki, biz işğalçı Ermənistan istisna olmaqla dünyanın bütün ölkələri və bütün beynəlxalq təşkilatlarla bərabərhüquqlu şəkildə, hərtərəfli əməkdaşlığa hazırıq. Azərbaycan heç bir ölkənin daxili işlərinə qarışmır və heç bir ölkənin bizim daxili işlərimizə müdaxiləsinə imkan verməyəcəkdir. Azərbaycan istənilən ölkə ilə qurduğu siyasi, iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığı öz xalqının və dövlətinin maraqları çərçivəsində davam etdirəcəkdir. Sadaladığımız bu siyasi istiqamətlərin ardıcıllıqla və qətiyyətlə icra edilməsi gənc müstəqil Azərbaycana beynəlxalq aləmdə yetərincə nüfuz və hörmət qazandırmışdır. Hansısa xarici ölkənin vassalı kimi mövcud olan, kiminsə təbəəliyində yaşamağı şərəf sayan Ermənistan isə nəinki dünya siyasətçilərinin, hətta beynəlxalq aləmdəki erməni diaspor təşkilatlarının da gözündən düşmüş, özü haqqında "oyuncaq dövlət" obrazı formalaşdırmışdır.

İkinci, Azərbaycanın geosiyasi əhəmiyyəti, Avropa ilə Asiyanı, Şərqlə Qərbi birləşdirən tarixi iqtisadi əməkdaşlıq yolunun üstündə yerləşməsi, xüsusən, Orta Asiyadan gələn yolların Xəzər dənizi vasitəsiylə Avropaya çıxışını təmin elə bilməsi bu ölkəyə beynəlxalq əhəmiyyətli

subyekt statusu vermişdir. Təsadüfi deyil ki, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəmərləri, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi son 15 ildə Azərbaycanın beynəlxalq əhəmiyyətini birə yüz artırmışdır. Bu layihələr nəinki Azərbaycanı Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli ölkələrdən birinə çevirmişdir, hətta min kilometrləri əhatə edən Şanxay-London iqtisadi əmək-daşlıq yolunun reallığa çevrilməsinə də zəmin yaratmışdır.

Üçüncü, Ermənistan başda olmaqla bir çox gənc müstəqil dövlətlərdə ölkəyə beynəlxalq siyasətdən və dünya idarəçilik prinsiplərindən bixəbər olan siyasətçilər rəhbərlik ediblər. Çox təəssüf ki, Ermənistanda həmin tendensiy hələ də davam edir. Azərbaycanda isə 1993-cü ilin yayından sonra ölkəyə ən ali bəşəri dəyərlər səviyyəsində siyasi kurs yeridən Heydər Əliyev və onun siyasətini ardıcıllıqla davam etdirən İlham Əliyev rəhbərlik ediblər. Bu, çox önəmli məsələdir. Çünki bu gün dünya ictimaiyyəti separatçılığı, dini, etnik ayrı-seçkiliyi, şovinizmi, militarizmi, terrorçuluğu qəbul etmir [4].

Ermənistanda bu gün həmin halların hamısı mövcuddur. Azərbaycan isə tolerantlığın, dini dözümlülüyün, milli azlıqların ölkədə bərabərhüquqlu vətəndaş kimi yaşamasının, mehriban qonşuluğun, daxili siyasətdə ədalətin, xarici siyasətdə isə qətiyyətin bariz nümunəsini yaratmışdır. Bütün bunlara beynəlxalq aləm xüsusi əhəmiyyət verir. Məhz bu məqamlara görə Azərbaycan beynəlxalq aləmdə söz sahibinə çevrilir. Çünki bu ölkənin konkret siyasi mövqeyi, kəsərli lideri və zəngin təbii sərvətləri vardır. Məhz bu səbəbləri əsas götürən istənilən dövlət bizim ölkəmizlə siyasi-iqtisadi əməkdaşlığın genişləndirilməsinə can atır.

Dünyanın əksər ölkələrinin Azərbaycanla ərtərəfli məkdaşlığa üsusi önəm verməsinin daha bir səbəbi isə ölkəmizin zəngin karbohidrogen ehtiyatlarına malik olmasıdır. Heydər Əliyev siyasi dühasının məhsulu "əsrin müqaviləsi", həmin müqavilədən sonra imzalanan 30-a qədər digər sazişlər, əsas ixrac neft və qaz kəmərləri, neftqaz ixracatının şaxələndirilməsi, Avropanın bütü n ölkələrinin bu məsələyə böyük maraq göstərməsi və bu qəbildən olan bir çox məsələlə barədə ətraflı söz açmağa ehtiyac yoxdur. Önəmlisi odur ki, ölkəmizin neftinə və təbii qaza maraq gündən-günə artır [3].

Hazırda Azərbaycanla 170 ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycanın 60 ölkədə səfirliyi, 4 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 şəhərdə konsulluğu fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanda 43 ölkənin səfirliyi və 3 baş konsulluğu fəaliyyət göstərir. 33 ölkənin isə səfiri eyni zamanda Azərbaycanda akkreditasiya olunmuşdur. Azərbaycanda beynəlxalq təşkilatların 16 nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara Birləşmiş Millətlər Təşkilatı – BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı – ATƏT, Qoşulmama Hərəkatı – QH, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası – TDƏŞ, Avropa Şurası – AŞ, İslam Əməkdaşlıq Təşkilatı – İƏT, YUNESKO, İSESKO, Müstəqil Dövlətlər Birliyi – MDB və s. üzv olmaqla çoxtərəfli diplomatik əlaqələrini genişləndirməkdə, eyni zamanda NATO – Şimali Atlantika Müqaviləsi Təşkilatı, Avropa İttifaqı – Aİ, Beynəlxalq Antiterror Koalisiyası kimi qurumlarla da əməkdaşlığı inkişaf etdirməkdədir.

Bir sözlə, xarici siyasəti gənc müstəqil dövlətimizə beynəlxalq aləmdə böyük nüfuz qazandırır. Neft diplomatiyamız isə bu nüfuzun coğrafiyasını genişləndirir. Yəni Azərbaycanın sözünü deyən, istənilən problemin müzakirəsi zamanı Bakının mövqelərinin dəstəkləyən ölkələrin siyahısı gündən-günə genişlənir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev, H. Əlirza oğlu. (1997). Müstəqilliyimiz əbədidir: İyun, 1993 - may, 1994. K.: 1 (H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov.- B.) Azərnəşr.

2. Xalqa bağışlanan ömür [Mətn]: Bu kitab müstəqil Azərbaycan Respublikasının qurucusu, bütün azərbaycanlıların ümuminli lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 35 illiyinə həsr olunur (2004). (Tərtibçi. Ə.Əliyev; Elmi red. M.Urud). (V kitab). Şəms. 2003, 11 dekabr). Azərbaycan qəzeti.

3. (2022, 04 fevral).Azərbaycan qəzeti.

4. https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf

HEYDƏR ƏLİYEVİN TƏHSİL STRATEGİYASI VƏ UNİVERSİTETLƏRİN DAYANIQLI İNKİŞAFININ ƏSAS KOMPONENTLƏRİ

Mətanət Məmməd qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
metanet.mammadova@mdu.edu.az

Sosial-iqtisadi və ictimai-mədəni inkişafın əsas lokomotivlərindən biri sayılan universitetlər həmişə olduğu kimi bu gün də müasir cəmiyyətin elmi-texniki, əqli-intellektual və əxlaqi-mənəvi simasının formalaşdırılmasında müstəsna rol oynayır. Hələ orta əsrlər Avropasında "Alma-mater" (lat. *Alma mater* - hərfi mənası "qida verən ana" deməkdir) statusu qazanan universitetlərin başlıca vəzifəsi elmlərin (ilkin olaraq ilahiyyat və fəlsəfə elmlərinin) sirlərinə yiyələnmək istəyən insanları ruhani cəhətdən qidalandırmaq olmuşdur. Beləliklə, Avropada ilk universitetlər fəlsəfə və ilahiyyat üzrə ali təhsil verən müəssisə olmaqla yanaşı, həm də bir növ "elmlər məbədi" rolu da oynayırdı. Təsadüfi deyildir ki, qədim latın sözü olan "Alma" ifadəsi sifət qismində Roma panteonunun Roma əhlinə "xeyirxah münasibətdə olan ilahələrinin" (əkinçilik və məhsuldarlıq ilahəsi Serera, gözəllik və məhəbbət ilahəsi Venera və s.) adlarına əlavə olunurdu. "Alma mater" epitetindən Qədim Roma şairləri daim istifadə edirdilər. Oksford Universitetinin (ing. *University of Oxford*) "Oksford latın lüğətində" isə "Alma mater" ifadəsinin Lukresiyə (lat. *Titus Lucretius Carus* - e.ə. 99-55. - Qədim Roma şairi və filosofu) məxsus olması qeyd edilmişdir [3]. O, "Şeylərin təbiəti haqqında" (lat. *De rerum natura*) fəlsəfi poemasında atomizm haqqında müddəaları şərh edərkən sözügedən termini də işlətmişdir. Bu gün müasir universitetlər hələ orta əsrlərdə başlanmış "müqəddəs missiyanı" davam etdirirlər. Məhz universitetlər müasir dünyanın elmi və intellektual məzmununu müəyyən etməklə yanaşı yetişməkdə olan nəsilə ruhani-mənəvi qida verir, onları müstəqil həyata hazırlayır və onlara müvafiq status verərək idraki kimliklərini müəyyən edir. Beləliklə, müasir universitetlər hər xalqın və hər mədəni cəmiyyətin inkişafını müəyyən edən indikatordur. Məhz bu səbəbdən universitetin dayanıqlı inkişafı ilə bağlı məsələlərin effektli üsul və vasitələrlə həlli xüsusi önəm daşıyır. Müasir universitetlər qlobal iqtisadi, ekoloji və sosial problemlərin həllində də aktiv rol oynayan subyekt kimi təzahür edir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına 2-ci rəhbərliyi dövründə elm və təhsil islahatları ilə bağlı həyata keçirdiyi tədbirlər sırasında ali təhsildə "universitet sisteminin" yaradılması xüsusi önəm kəsb edirdi. Sovet dönəmində yaradılmış institutsional ali təhsil şəbəkəsi sosialist iqtisadiyyatının spesifik tələblərinə uyğunlaşdırılmışdı və bu şəbəkədə çox ciddi boşluqlar var idi. Müstəqillik dövründə yeni nəslin universal biliklərə sahib olmasının fövqəladə zəruriliyini nəzərə alaraq, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ali təhsildə universitet (lat. *universtas* – külliyyat, yaxud ümumiləşmə) şəbəkəsinin yaradılmasına başlandı. Ulu Öndər xalqın intellektual obrazının ali təzahürünün məhz universitet olmasını çox yaxşı bilirdi. Buna görə də Azərbaycanda ali təhsilin universitet statusuna keçilməsi üçün bütün tədbirləri görürdü. Beləliklə, Heydər Əliyevin ali təhsildə həyata keçirdiyi islahatlardan sonra yeni nəslin leksikonunda "universitet" anlayışı yeni intellektual məzmun və spesifik emosional yük daşıyan subyekt kimi kök saldı. Onun orta əsrlərdən gələn "alma-mater" mahiyyətinə yeni milli çalarlar və adekvat kompetensiyalar qatıldı. Ulu Öndərin ali təhsildə həyata keçirdiyi dərin islahatlar nəticəsində Azərbaycanda yaradılan universitet sistemi bütün qüvvəsi və imkanları ilə dünya universitetləri səviyyəsində beynəlxalq inteqrasiya prosesinə qoşuldu.

Hazırda dünyada doqquz mindən artıq universitet fəaliyyət göstərir. *Universities Worldwide* ("Bütün Dünya Universitetləri") adlanan verilənlər bazasında dünyanın 207 ölkəsində 9 651 ali təhsil müəssisəsi (universitet) haqqında məlumat almaq mümkündür. 2000-2014-cü illərdə həmin universitetlərdə təhsil alan tələbələrin sayı iki dəfə artmış və 207 mln təşkil etmişdir. 2005-ci il 19-20 may tarixində Norveçin Berqen şəhərində Avropa dövlətlərinin Təhsil nazirlərinin konfransında ali təhsil sisteminin dayanıqlı inkişaf prinsipləri əsasında yenidən qurulmasının zəruriliyi haqqında "Berqen kommünikesi" qəbul edilmişdir. Qeyd edək ki, bu gün bütün Avropa universitetləri 1988-ci il sentyabr ayının 18-də Bolonya Universitetinin (ital. *Universita di Bologna* – İtaliyanın dövlət

universiteti) 900 illik yubileyinə (1088-ci ildə Roma hüququnu öyrənən ilk qlossatorlardan biri - İrnari - 1050-1125, - tərəfindən yaradılmışdır) həsr olunmuş yığıncaqda Avropa və Avropadan olmayan ölkələri təmsil edən 388 universitet rektorunun və rəhbərinin iştirakı ilə imzalanan Avropa *Universitetlərinin Böyük Xartiyası* (lat. *Magna Charta Universitatum Europearum*) adlı sənədə görə ali təhsildə Bolonya prosesinin qaydaları və prinsipləri əsasında fəaliyyət göstərir. Bolonya prosesi müasir Avropa universitetlərinin idarəçiliyi ilə bağlı akademik azadlıq və institutsional avtonomiya kimi prinsipləri elan etmişdir. Bundan sonra 2020-ci ilədək Bolonya prosesinə daxil olan ölkələrin Təhsil nazirlərinin çoxlu sayda konfransları keçirilmiş Bolonya prosesinin genişlənməsi və ali təhsil sisteminin müxtəlif məsələləri ilə bağlı müvafiq qərarlar qəbul edilmişdir. 1998-ci ildə dörd Avropa dövlətinin (Fransa, Almaniya, Böyük Britaniya və İtaliya) Təhsil nazirlərinin iştirakı ilə baş tutmuş Sorbonna konfransında imzalanan "Sorbonna qətnaməsinə" görə Avropa məkanında ali təhsil üçün ümumi sistem yaradılmışdır. Bu sistem Avropa universitetlərində ali təhsil alan tələbələr, onları bitirmiş məzunlar və həmin universitetlərdə dərs deyən müəllimlər üçün mobilliyin daha da genişləndirilməsi haqqında müddəalar irəli sürmüşdür. 1999-cu ildə 29 dövlətin iştirakı ilə keçirilən Bolonya konfransında Sorbonna qətnaməsinin əsas məqsədləri təsdiq olunmuş və konfransda iştirak edən dövlətlərin Təhsil nazirləri Avropa məkanında ali təhsilin (Ali Təhsilin Avropa Məkanı - ing. *European Higher Education Area*) rəqabətqabiliyyətliliyinin artırılması ilə bağlı konkret vəzifələr götürəcəkləri haqqında razılığa gəlmişdilər. 2001-ci ildə Praqada keçirilən konfransda isə Bolonya qətnaməsinə imza atmış 32 dövlətin Təhsil nazirləri Ali təhsilin Avropa məkanının yaradılması haqqında razılıqlarını təsdiq etdilər və yaxın gələcəkdə Avropa İttifaqının genişlənməsi çərçivəsində bütün Avropa ölkələrinin Bolonya prosesinə qoşulacağı haqqında niyyətlərini bildirdilər. 2002-ci il 19 sentyabr tarixində ali təhsilə cavabdeh olan 33 Avropa dövlətinin Təhsil nazirləri Almaniyada - Berlin konfransında görüşdülər. Konfransda Ali Təhsilin Avropa Məkanında əldə olunan uğurlar və nailiyyətlər təhlil olundu və yaxın gələcəkdə ali təhsilin prioritetləri müəyyən edildi. 2004-cü il 2-5 sentyabr tarixində Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən növbəti konfransda "Avropa regionunda ali təhsilin etik dəyərləri və prinsipləri üzrə Buxarest Bəyannaməsi" (ing. *The Bucharest Declaration on ethical values and principles of higher education in the Europe region*) haqqında "Buxarest qətnaməsi" qəbul edildi. 2005-ci il 19-20 may tarixində Norveçin Bergen şəhərində baş tutmuş konfransda "Bergen kommünikesi" imzalandı. Avropada ali təhsil sistemi ilə əlaqədar çoxlu sayda məsələləri əks etdirən "Bergen kommünikesi"ndə ali təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı vacib məsələyə xüsusi yer ayrılmışdı. Bergen konfransında Bolonya prosesinə yeni dövlətlər Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova qoşuldu. 2007-ci il 17-18 may tarixində Londonda keçirilən növbəti (ing. *Conference of European Higher Education Ministers*) konfransda "London kommünikesi" imzalandı. "London kommünikesi" dünyada baş verən qlobal tendensiyalarla bağlı ali təhsil sistemində müvafiq texniki tədbirlərin görülməsini nəzərdə tuturdu. 2009-cu il 28-29 aprel tarixində Bolonya prosesində iştirak edən 46 dövlətin Təhsil nazirləri Belçikanın Leven və Luven-la-Nev şəhərlərində görüşdülər. Görüşdə 2020-ci ilə qədər Avropa məkanının ali təhsil sistemində yeni prioritetlər (ömür boyu təlim və təhsi, ali təhsilin əlçatan və mobil olması, məzunların böyük bir qisminin xarici ölkələrdə praktika keçməsi və s.) müəyyən olundu. 2010-cu il mart ayının 12-də Macarıstanın Budapeşt şəhərində keçirilən növbəti konfransda Bolonya prosesində iştirak edən 47 dövlətin təhsil nazirləri "Budapeşt-Vyana qətnaməsi"ni qəbul etdilər və rəsmi şəkildə Avropada ali tahsil məkanının fəaliyyətinə start verdilər. 2012-ci ildə Buxarestdə keçirilən növbəti konfransda isə 47 dövlətin təhsil nazirləri 2020-ci ilədək Bolonya prosesinin məqsədlərinin maksimum səviyyədə reallaşdırılması ilə bağlı öhdəlik götürdülər. Nəhayət 2020-ci il 19 noyabr tarixində Roma şəhərində keçirilən sonuncu konfransda Bolonya prosesinin başladığı və fəaliyyət göstərdiyi 21 il ərzində əldə olunmuş uğurlar və nailiyyətlər müzakirə edildi və müvafiq sənədlər imzalandı. Konfransda qəbul edilən "Roma kommünikesi"ndə isə Avropa məkanında ali təhsilin prioritetləri ilə bağlı məsələlər öz əksini tapdı. Qeyd oiunan bu sənəddə 2030-cu ilədək Avropa ali təhsil məkanında innovasiyalara əsaslanan və dayanıqlı şəkildə inkişaf edən inklüziv təhsilin yaradılması ideyası da təsdiq olunurdu. Beləliklə, universitet təhsilində daha bir mühüm pozitiv addım atılmış oldu.

Avropada fəaliyyət göstərən və universitetlərin dayanıqlı inkişafına xidmət edən təşkilatlar sırasında Universitetlərin Ekoloji Assosiasiyasını (ing. *Environmental Association for Universities*

and Colleges, EAUS) da qeyd etmək lazımdır. 1996-cı ildə yaradılmış bu təşkilat ətraf mühitin idarə olunması ilə və ekoloji göstəricilərin yaxşılaşdırılması məsələlərini prioritet kimi qəbul edir.

Bu gün universitetlərin dayanıqlı inkişafını müəyyən etmək üçün müxtəlif instrumentlərdən istifadə olunur. Onların arasında *Auditing Instrument for Sustainability in Higher Education* AISHE (azər. Ali təhsildə davamlı inkişafın audit instrumenti) adlanan təşkilat daha populyardır. Bu təşkilat universitetlərin və onların ayrı-ayrı manqalarının auditini həyata keçirir. *Sustainable Development Research Network, SDRN* (azər. Davamlı inkişafın araşdırılması şəbəkəsi). Bu qurumun başlıca məqsədi isə dayanıqlı inkişafa nail olmaq üçün universitetlər və onların yerləşdiyi dövlətlər arasında əlaqələri yüksək səviyyədə təmin etməkdir [4].

Avropa ali təhsil məkanında baş verən pozitiv proseslər öz təsirini Amerikanın və Asiyanın təhsil sisteminə də göstərirdi. Bununla belə, Amerikada, xüsusilə də Amerika Birləşmiş Ştatları və Kanada kimi ingilisdilli ölkələrdə universitetlərin davamlı və dayanıqlı inkişafının prinsipləri fərqli təşəbbüslərdən qidalanır. Lakin həmin ölkələrdə fəaliyyət göstərən universitetlər, Avropada olduğu kimi ən ümumi cizgilərdə daha etibarlı və dayanıqlı dünyanın yaradılması ideyasını rəhbər tuturlar. Məsələn, 1975-ci ildə ABŞ-da yaradılmış və universitetlərin davamlı və dayanıqlı inkişafını nəzərdə tutan *Enactus* (əvvəllər "*sife*" kimi tanınırdı) platforması və onunla bağlı proqram bu gün də uğurla icra olunur. Qeyd edək ki, *Enactus* iri qeyri-kommersiya təşkilatıdır və özündə biznes liderlərini, universitetləri və tələbələri birləşdirir. *Enactusun* komandası insanların həyat səviyyəsini və həyat keyfiyyətini artırmağa istiqamətlənmiş nəzəri layihələrin hazırlanmasını və reallaşdırılmasını həyata keçirir. Sözügedən platforma dünyanın 37 ölkəsindən 1730 universiteti birləşdirir.

Müasir universitetlər sisteminin inkişafına güclü dəstək verən təşkilatlardan biri də ali təhsil sistemində dayanıqlı inkişafın irəliləməsinə istiqamətlənmiş assosiasiyadır (ing. *The Association for the Advancement of Sustainability in Higher Education, AASHE*). 2006-cı ildə yaradılmış bu qurum həm kampusların ərazisində, həm də ondan kənarda "yaşıl" təşəbbüslər irəli sürən universitetlərin və kolleclərin fəaliyyətinə dəstək verir. "Yaşıl dünya" konsepsiyasına töhfə verən universitetlərin fəaliyyətinin qiymətləndirilməsi üçün *AASHE*, STARS (ing. *Sustainability Tracking, Assessment & Rating System* - azər. Davamlı inkişafın izlənilməsi, qiymətləndirilməsi və reytinq sistemi) adlanan reytinq sistemindən istifadə olunur. Könüllü sertifikatlaşdırma tədbirlərini nəzərdə tutan bu sistem kolleclərin və universitetlərin davamlı inkişafı ilə bağlı irəli sürülən təşəbbüslərin praktikada tətbiq edilməsini nəzərdə tutur. Proqram dünya universitetlərinin dayanıqlı inkişafı məsələlərinə kompleks şəkildə baxmağa, müxtəlif universitetlərin nailiyyətlərini müqayisə etməyə, onlara fəaliyyətlərinin keyfiyyətini artırmaları üçün motivasiya verməyə, informasiya və təcrübə mübadiləsi etməyə imkan yaradır.

Universitetlərin dayanıqlı inkişafının təmin edilməsində əhəmiyyətli rol oynayan qurumlardan biri də Dayanıqlı kampusun beynəlxlaq şəbəkəsi (ing. *International Sustainable Campus Network, ISCN*) adlanır. 2007-ci ildə ABŞ-da yaradılmış bu təşkilat dayanıqlı inkişafa can atan kolleclərin və universitetlərin birləşdiyi qeyri-kommersiya təşkilatıdır. Hazırda bu təşkilatın tərkibində 30 dünya ölkəsinindən 90 universiteti təmsil olunur.

Universitetlərin dayanıqlı inkişafını təmin etmək üçün Asiyada da bir sıra müvafiq qurumlar və təşkilatlar fəaliyyət göstərir. Onların içərisində *Korean Association for Green Campus Initiative*, *KAGCI* (Cənubi Koreya "Yaşıl kampus" Assosiasiyası, Hazırda bu təşkilatın tərkibində 40 ali təhsil müəssisəsi təmsil olunur), 2011-ci ildə Çində yaradılmış *China Green University Network, CGUN* (Çin Universitetlərinin Yaşıl Şəbəkəsi – universitetlərdə enerjiyə qənaət edilməsi üzrə verilənlərin mübadiləsi üçün platforma - innovasiyaların yaradılmasına və tətbiqinə, müştərək tədqiqatlara, yaşıl arxitekturanın populyarlaşdırılmasına və istedadlı gənclərə dəstək verilməsinə xidmət edir), *Campus Sustainability Network in Japan*, CAS-Net JAPAN (az. Yaponiyada kampusların dayanıqlı inkişafı şəbəkəsi, 2014-cü ildə yaradılmışdır, universitetlərarası əməkdaşlığı nəzərdə tutur) və s. təşkilat və qurumları qeyd etmək olar.

Göründüyü kimi, universitetlərin dayanıqlı inkişafı ilə bağlı məsələlər aşağıdakı konsepsiyalar əsaında reallaşdırılır:

1. "Yaşıl universitet" (ing. *Green Campus*) konsepsiyası – universitetlərin gündəlik həyatında ardıcıl tətbiq edilir və ekoloji təhlükəsizlik prinsiplərinə əsaslanır.

2. "Ağıllı universitet" (ing. *Smart Campus*) konsepsiyası – bütün proseslərin icrasında müasir informasiya texnologiyalarından effektli şəkildə istifadə edilməsinə əsaslanır.

3. "Sağlam həyat tərzi" (ing. *Healthy Lifestyle*) konsepsiyası - universitetlərdə davamlı, bütöv və kompleks şəkildə fəaliyyət göstərən sağlam həyat tərzinin təmin edilməsi, tələbələrin və müəllimlərin harmonik və hərtərəfli inkişafına, onların təhsilinin, əməyinin, istirahətinin, rasional şəkildə qidalanmasının, idmanla davamlı məşğul olmasının təminatına xidmət edir. Kampusda sağlam həyat tərzinin təmin edilməsi, tələbələri və müəllimləri ziyanlı vərdişlərdən uzaqlaşdırlması məqsədilə universitetlərdə "sağlamlıq kodeksi" adlanan proqramlar da qəbul edilir.

4. Universitetdə etnik və sosial-mədəni müxtəlifliklərin idarə edilməsi konsepsiyası (ing. *Concept of managing ethnic, social and cultural diversity*) - universitetdə etnik-milli, irqi və dini tolerantlığın bərqərar edilməsini, gənclərin başqa milli və mədəni ənənələrə hörmət ruhunda tərbiyə olunmasını, fərqli mədəniyyətlərin bir-birini qarşılıqlı şəkildə zənginləşdirməsi üçün münbit şəraitin və əlverişli etik-mənəvi mühitin yaradılmasını, kişi və qadın arasında bərabərlik prinsiplərinə riayət olunmasını təmin etmək üçün ayrı-ayrı tədris texnologiyalarının və təhsil modellərinin (multikulural, antirasist, mədəniyyətlərarası və s.) köməyi ilə dostluq, vətəndaşlıq və qarşılıqlı anlaşma atmosferi yaratmağa xidmət edir.

5. Universitetin tarixi-mədəni irsi ilə bağlı dəyərlərə əsaslnanan idarəçilik konsepsiyası - ali təhsil müəssisənin yerləşdiyi ölkənin, regionun, şəhərin və onun bağlı olduğu sahənin tarixi və mədəni dəyərlərinin təbliği, populyarlaşdırılması və davamlı inkişafını nəzərdə tutan təlim-tərbiyə sisteminə əsaslanır.

6. Universitetin "Üçüncü missiya" konsepsiyası (ing. *Third mission concept*) - elmi bilik və texnologiya istehsal edən ali təhsil müəssisəsinin cəmiyyətlə fəal qarşılıqlı əlaqəsinin həyata keçirilməsini, eləcə də sosial, hüquqi və maliyyə institutlarının fəaliyyətindən yararlanmağı nəzərdə tutur [2].

7. Sosial orientasiyaya əsaslanan konsepsiya (ing. *Civic*) - şəxsiyyətin dayanıqlı və azad inkişafı, onun layiqli həyatının təmin olunması üçün adekvat şəraitin yaradılması prinsipinə əsaslanır. Konsepsiya ali təhsil müəssisəinin cəmiyyət həyatında aktiv roluna əsaslanır. Bu zaman ali təhsil müəssisəsinin sosial tələbatlılığı və məsuliyyəti ictimaiyyətin gözləntilərinin davamlı və ardıcıl şəkildə reallaşması üzərində qurulur və müxtəlif layihələr (yüksək səriştəli mütəxəssislərin hazırlanması, tələbələrə və müəllimlərə sosial dəstəyin göstərilməsi, regional kadrların ixtisasının artırılması) vasitəsi ilə həyata keçirilir. 8. Steyxolder (ing. *stakeholder* – maraqlı və ya aidiyatı tərəf, - hər hansı bir sistemdə payı, iştirakı və hüququ olan şəxs və yaxud təşkilat) təşkilat kimi steyxolder qismində abituriyentlərlə, məzunlarla və tələbələrlə, əməkdaşlarla, potensial işverənlərlə, həmçinin, hakimiyyət və idarəçilik orqanları ilə qarşılıqlı faydalı və uzunmüddətli münasibətlərin qurulmasını nəzərdə tutur [1].

Hazırda universitetlərin fəaliyyətini və onların dayanıqlı inkişafı ilə vəziyyəti öyrənmək üçün müxtəlif reytinq əmsallarından istifadə olunur. Bir qayda olaraq, belə reytinqlərin baza meyarlarının əsasını "sosial məsuliyyət" indikatoru təşkil edir. "Sosial məsuliyyət" indikatoru isə aşağıdakı əsas göstəricilərlə müəyyən olunur:

1. Sosial məşğulluq sisteminin mexanizmləri - sosial cəhətdən vacib olan NCC (ing. *National Service Scheme* - 1969-cu ildə Hindistanda yaradılmışdır), NSS (*Network Switching System*) Qızıl Xaç, Ekoklub və s. kimi təşkilatlarda və tədbirlərdə universitet tələbələrinin iştirak payı.

2. İctimaiyyətlə iş - universitet tələbələrinin əhalinin maarifləndirilməsi ilə bağlı təşkil etdiyi tədbirlərin ümumi sayı.

3. Son 5 il ərzində universitetin fəaliyyətinin əsas göstəriciləri sayılan mükafatların (medallar, serifikatlar, tərifnamələr və s.) həcmi.

4. Ətraf mühitə təsir - universitetin müxtəlif sahələrdə ("yaşıl dünya", elektrik enerjisinə və suya qənaət, tuallantıların təkrar emalı və ya utulizasiyası, "yaşıl nəqliyyat" və s.) həyata keçirdiyi aktiv siyasətə görə əldə etdiyi ballar.

Aşağıda müasir universitetlər üçün müstəsna əhəmiyyət kəsb edən və ali təhsil müəssisəsinin dayanıqlı inkişafını təmin edən indikatorların qısa izahı verilmişdir:

1. "Enerji və iqlim dəyişməsi" indikatoru. Dünya universitetlərinin enerjidən istifadə və iqlim dəyişmələrinə ayırdığı ciddi diqqət reytinqlərdə ən yüksək əmsala malikdir. Bu indikator universitetlərin daha effektli, təmiz və bərpa olunan enerji ("yaşıl enerji") növlərindən istifadə ilə əlaqədar siyasətə və onun həyata keçirilməsi intensivliyinə, elektrik enerjisi istehlakının səviyyəsinə, elektrikə qənaət metodlarına, yaşıl tikinti və yaşıl arxitektura ilə əlaqədar layihələrin icrasına, istixana qazlarının atmosferə atılmasının qarşısını almaq istiqamətində mübarizəyə və onun nəticələrinə, insanın iqlim dəyişmələrinə adaptasiyası ilə bağlı müvafiq proqramların hazırlanmasına və həyata keçirilməsinə, həmçinin, iqlim dəyişmələrinin cəmiyyət həyatına neqativ təsirinin yumşaldılması ilə bağlı tədbirlərin effektlilik dərəcəsinə qiymət verir. "Enerji və iqlim dəyişməsi" indikatoru aşağıdakı əsas göstəricilərə əsaslanır: enerjini effektli istifadə edən cihazların sayının, ənənəvi qurğularla nisbətdə sayı; "Smart Building" ("Ağıllı bina") konsepsiyasının reallaşdırılması; kampusda alternativ eneji istehsal edən müvafiq qurğuların (günəş panelləri, külək turbinləri) və avadanlıqların olması; istehlak olunan elektrik enerjisinin kampusda çalışan əməkdaşların və tələbələrin sayına münasibətdə həcmi; "yaşıl tikinti" və "yaşıl arxitektura" layihələrinin reallaşdırılması üzrə elementlərin universitetlərin rekonstruksiyasında əhəmiyyətinin səviyyəsi.

2. "Tullantılar" indikatoru. Tullantıların emalı və utilizasiyası ilə əlaqədar universitetlərin həyata keçirdiyi siyasətin ətraf mühitin qorunmasında xüsusi rolu var. Bu indikatorun göstərciləri sırasında aşağıdakıları xüsusi olaraq qeyd etmək lazımdır: universitetin fəaliyyəti ilə bağlı yaranan tullantıların utilizasiyası proqramı; kampusda kağızdan və müxtəlif plastik materiallardan istifadə edilməsinin məhdudlaşdırılması proqramı; üzvi tullantıların emalı; süni tullantıların emalı; toksik tullantıların davamlı emalı və utilizasiyası; su-kanal tullantılarının utulizasiyası.

3. "Su indikatoru" - kampusda sudan istifadə *Green Metric* reytinqində xüsusi rol oynayır. Bu indikatorun göstəriciləri aşağıda qeyd edilmişdir: kampusun qüsursuz işləyən su təchizatı; suyun resirkulyasiyası proqramı; suya qənaət edən lazımi cihazların olması; sudan təkrar istifadə üçün qapalı emal sisteminin olması.

4. "Nəqliyyat" indikatoru. Universitetlərdə ekoloji təmiz nəqliyyat növlərindən istifadənin rolu və əhəmiyyəti reytinqlərdə xüsusi qiymətləndirilir. Haqqında danışdığımız indikator özündə aşağıda qeyd edilən göstəriciləri birləşdirir: kampusda *Zero Emission Vehicles,* ZEV ("sıfır" tullantıları olan avtomobillər siyasətinin həyata keçirilməsi; ZEV emissiyalı nəqliyyat növlərinin sayının kampusun əməkdaşlarının və tələbələrin sayına nisbəti; kampusun ərazisində xüsusi növ nəqliyyat növlərinin məhdudlaşdırlması təşəbbüsünün olması;

5. "Təhsil və tədqiqat" indikatoru. Kampusun dayanıqlı inkişafında müstəsna rolu və əhəmiyyəti vardır. O, universitetin həyata keçirdiyi elmi tədqiqatların həcmini və nəticələrini qiymətləndirir. Onun əsas göstəriciləri isə aşağıdakılardan ibarətdir: nəşr olunmuş elmi əsərlərin sayı və elmi çəkisi; elmi tədbirlərin sayı və elmi çəkisi; tələbə təşkilatlarının ümumi sayı, onların fəaliyyətinin nəticələri; kampusun veb-saytında elmi əsərlərin sayı; kampusun hesabatlarında elmi fəaliyyətlə bağlı pozitiv nəticələrin sayı.

Göründüyü kimi, bu gün universitetlərin inkişafı, nəinki cəmiyyətin intellektual səviyyəsinin göstəricisi kimi çıxış edir, həm də sosial-iqtisadi və ictimai-mədəni inkişafı müəyyən edən indikator rolunu oynayır. Tezisdə irəli sürülən elmi müddəalar XX yüzilin 90-cı illərində Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanda baş verən inkişaf tendensiyalarının fonunda ali təhsil sistemində həyata keçirdiyi islahatların və ölkənin ali təhsil müəssisələrinə universitet statusunun verilməsinin müstəsna əhəmiyyətini sübuta yetirir. Tezisdə dünya universitetlərini xarakterizə edən elmi-texniki və əxlaqi-mənəvi komponentlərin təqdimatı və müasir kampusun davamlı inkişafını təmin etməyə istiqamətlənmiş elm-texniki və mədəni tədbirlərin külliyyatı Azərbaycanda ali təhsilin universitet sisteminin Avropa və dünya standartları səviyyəsinə çatdırılmasında bir nümunə olacağını göstərir.

İstifadə edilmiş ədəbiyyat

1. Каз Е.М., Краковецкая И.В., Нехода Е.В., Редчикова Н.А. К14 Бизнес-модели компаний и устойчивое развитие // науч. ред. Е.В. Нехода.- Томск: Издательство Томского государственного университета, 2020. - 214 с. - С. 136

2. Лысов И.А. Учебные комплексы как фактор устойчивого развития вуза // Образовательные технологии. 2013. № 3. - С. 73-74

3. Оксфордский университет // Океанариум - Оясио. - М.: Большая российская энциклопедия, 2014. - С. 49. - (Большая российская энциклопедия: [в 35 т.] / гл. ред. Ю.С. Осипов; 2004-2017, т. 24).

4. Урсул А.Д., Урсул Т.А. Глобальный вектор науки и образования // Alma mater. Вестник высшей школы. 2017. № 9. - С. 8

ÜMUMMİLLİ LİDERİN QURUCUSU OLDUĞU RƏQABƏTƏDAVAMLI TƏHSİL SİSTEMİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Aynur Müsbət qızı Əzizova
Mingəçevir Dövlət Universiteti
aynur.azizova@mdu.edu.az

Milli dövlətçilik ideologiyasında rəqabətə davamlı təhsil sisteminin əsas istiqamətləri hər zaman diqqət mərkəzində olmuşdur. Ölkəmiz müstəqillik qazanandan sonrakə dövrdə də bu ideologiya təhsilin qarşısında duran prioritet məsələlərdən oldu. Bu səbəbdən xalqımızın Ümummilli lideri Heydər Əliyev hakimiyyətinin hər iki dövründə cəmiyyətimizin digər sahələri ilə yanaşı təhsilin inkişafına da xüsusi diqqət yetirirdi. O, hakimiyyətinin birinci dövründən başlayaraq Azərbaycanda orta ixtisas, ümumtəhsil və ali məktəblərin sayının artırılmasına nail oldu. Eyni zamanda, təhsilin keyfiyyətinin yüksəldilməsi də ön plana çıxarıldı. Yüksək ixtisaslı kadrların hazırlanması və istehsalatda yerləşdirilməsi o dpvrdə qarşıda duran mühüm vəzifələrdən biri sayılırdı. Çünki ölkə geridə qalmış aqrar dövlətdən elmi, texnikası, iqtisadiyyatı, xalq təsərrüfatı inkişaf edən bir ölkəyə çevrilməli idi. Bu, Heydər Əliyevin strateji məqsədlərindən birini təşkil edirdi. Məqsədlərin reallaşdırılması üçün isə ölkəyə yüksək ixtisaslı gənc kadrlar lazım idi. Məhz buna görə keçən əsrin 70-ci illərindən başlayaraq SSRİ-nin məşhur ali məktəbləri ilə ilk dəfə olaraq tələbə mübadiləsi təşkil edildi. Təsadüfi deyildir ki, Heydər Əliyev respublikadan kənardakı zəngin elmi təcrübələrə malik olan ali məktəbləri bitirmiş məzunları Azərbaycanın "qızıl fondu" adlandırırdı [1].

Ulu öndər Heydər Əliyev heç vaxt təhsilin inkişafını diqqətdən kənarda qoymamışdır. Bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün çox mühüm əhəmiyyət kəsb edən sərəncamlar imzalamışdır. Orta və yaşlı nəslin nümayəndələri yaxşı xatırlayır ki, o vaxtlar unudulmaz rəhbərimiz özü hətta rayonlardakı kənd məktəblərinə gedər, təhsilin vəziyyəti, tədrisin necə aparılması ilə maraqlanar, lazımi tapşırıq və tövsiyələrini verərdi. O, daim müəllimlərə öz ehtiramını bildirərdi. Bir neçə dəfə televiziya ilə çıxışlarında özünə kiçik yaşlarında dərs demiş Kərbəlayi Məhəmmədin adını böyük hörmətlə çəkmiş, ehtiramla yad etmişdir. Yevlax rayonunun Xaldan kənd orta məktəbində bir neçə dəfə olmuş Ulu Öndər təhsil ocağının fəaliyyətindən razı qalmış və buna görə də SSRİ-də ilk dəfə olaraq məktəbin direktoru Zahid Şöyübova SSRİ Xalq Müəllimi kimi yüksək fəxri ad verdirmişdir. Onu da qeyd edək ki, SSRİ hökuməti o zaman müəllimlərə belə fəxri ad vermirdi. Sonralar isə onlarla müəllim SSRİ-nin ali ordenləri və fəxri adları ilə təltif edilmişdilər. Təbii ki, bütün bunların hamısı SSRİ-də böyük nüfuza malik Heydər Əliyevin sayəsində mümkün olmuşdu [2]

Ümummilli Liderimiz daim müəllim əməyini yüksək qiymətləndirir, müəllim adını uca tuturdu. Aforizmə çevrilmiş fikirlərində bildirirdi ki, bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. O, həmişə fəxrlə deyərdi: "Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir".

1993-2002-ci illərdə Ulu Öndərimiz səfərlərində xarici ölkələrdə təhsil alan tələbələrlə görüşər, onların qayğıları ilə maraqlanar və elmlərin əsaslarına dərindən yiyələnməyi tövsiyə edərdi. Ümummilli Liderimiz sonuncu çıxışını da Cəmşid Naxçıvanski adına hərbi məktəbin müdavimləri qarşısında etmişdi. Burada təhsil alan müdavimlər sonralar Türkiyədə hərbi ixtisas hazırlıqlarını davam etdirmişdilər [3]. Onlar 44 günlük Vətən müharibəsində iştirak edən qazilər və şəhid olan igidlərdir. Kadrların hazırlanmasına ciddi diqqət yetirən Ulu Öndər hər zaman müəllimlərə layiqli gənc nəsil yetişdirməyi tapşırırdı. "Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun".

Müstəqilliyimizin ilk illərində, ölkəmizin hələ zəif iqtisadi dönəmində, maddi imkanların çatışmazlığı şəraitində belə müəllimlərin yaşayışına, təhsil sahəsinin inkişafına nə yolla olursa olsun kömək etməyi vacib sayan Ulu Öndərimiz təhsilimizin ehtiyaclarının ödənilməsi barədə düşünürdü: "...Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir...".

Bildiyimiz kimi, müstəqilliyimizin ilk illərində cəmiyyətimizin başqa sahələri ilə bərabər təhsil sahəsi də bərbad vəziyyətdə idi. Yeni və milli zəminə əsaslanan təhsil sistemi qurulmalı idi. Bu vəzifənin həyata keçirilməsi təbii ki, uzun müddət və maddi resurslar tələb edirdi. Ona görə də Ulu Öndər təhsil işçilərinin qarşısında yeni vəzifələrin durduğunu bildirirdi: "Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Bu proses isə qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm, bu asan məsələ deyil. Bu, bir çox amillərlə bağlıdır, ondan asılıdır. Ancaq indi dərs alan uşaqlar, gənclər gərək mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar...".

Azərbaycan müəllimlərinə sonuncu tövsiyələrindən birində Ümummilli Liderimiz tapşırırdı ki, müasir gənclərimizi və şagirdlərimizi milli ruhda, öz soy-kökünə bağlı vətəndaşlar kimi yetişdirsinlər. Bunun üçün isə gələcək nəsillər, ilk növbədə, öz keçmiş tarixini, ata-babalarının keçdikləri şanlı yolları öyrənməlidirlər. Tariximizi, onun milli adət-ənənələrini dərindən öyrənməklə milli ideologiyamıza sadiq vətəndaşlar yetişdirmək mümkündür [3, s.405]. Bu vacib məsələyə böyük önəm verən Ulu Öndər deyirdi: "Milli ideologiyamızı hər yerdə təbliğ etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır… Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bu günkü və gələcək mənəviyyatı bununla bağlıdır".

Dünya şöhrətli liderimiz Heydər Əliyev yorulmaz fəaliyyəti ilə canından artıq sevdiyi Azərbaycanın inkişafı, dünyada tanınması və nüfuz qazanması üçün əlindən gələni əsirgəmədi. Biz indi də dahi rəhbərimizin həyata keçirdiyi islahatların, nailiyyətlərin bəhrəsini görürük. Azərbaycan Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatı güclənən və dünyada söz sahibinə çevrilən bir demokratik ölkə olmuşdur. Bir çox ölkələrin əlli, yüz ilə keçdiyi inkişaf yolunu Azərbaycan çox qısa müddətdə, cəmi 20-25 ilə keçmişdir. Bu, dahi Heydər Əliyev ideyalarının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu gün iftixar hissi ilə qeyd edə bilərik ki, Heydər Əliyev siyasəti, banisi olduğu milli dövlətçilik strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin bundan sonra illər və on illər uzunu davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev M. Heydər Əliyev elm-təhsil və mədəniyyətin himayədarı. Bakı, Xalq qəzeti, 2010, 16 may, s. 4

2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 40-cı kitab. Bakı, Azərnəşr, 2012, 512 s.

3. Qaralov Z.İ. Heydər Əliyevin elmi irsi (nəzəriyyə və təcrübə). I cild. Bakı, Şərq-Qərb, 2013, 304 s.
4. Qaralov, Z.İ. Milli ləyaqət ölçüsü. Bakı, Təhsil, 2015, 405 s.

AZƏRBAYCANIN İNKİŞAF STRATEGİYASINDA HEYDƏR ƏLİYEV SİYASƏTİNİN ROLU

Təranə Allahverdi qızı Səfərova
Mingəçevir Dövlət Universiteti
tarana.safarova@mdu.edu.az

Müasir Azərbaycanın dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrü Ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ötən illərdə əldə etdiyi nailiyyətlərə, sıçrayışlı inkişafa, yüksək sosial tərəqqi erasına məhz Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının reallaşdırılması sayəsində mümkün olunmuşdur. Onun müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və kompleks islahatların reallaşmasına, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və davamlı inkişafın təmin olunmasına əsaslar yaradıb. Demək olar ki, ümummilli liderimizin ideyaları Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyət proqramı, strategiya, dövlət konsepsiyasıdır. [1]

Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq və onu həyata keçirmək güclü dövlət siyasətinin və eyni zamanda, milli liderin olmasını tələb edib. Dövlət müstəqilliyini qoruyub saxlamaq, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq və digər ümummilli məqsədlər Azərbaycan xalqının təkidli tələbindən sonra 1993-cü ildə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur.

Ulu Öndərin gərgin əməyi nəticəsində, Azərbaycan onun hakimiyyətinin 1969-1982-ci illərində respublikada güclü iqtisadiyyatın təməlinin qoyulması sayəsində qısa müddət ərzində yüksək iqtisadi inkişafa nail olub. Heydər Əliyev görkəmli dövlət xadimi, peşəkar siyasətçi olmaqla yanaşı, həm də respublikanın iqtisadayyatına dərindən bələd olan ölkə başçısıdır. Heydər Əliyevin rəhbərliyi ilə yürüdülən iqtisadi və sosial siyasət sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişaf etməsi, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yalnız iqtisadiyyatın dərin bilicisi olmaqla nail olmaq mümkün idi. Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar sayəsində Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi. Respublikada aparılan geniş miqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı. Azərbaycan gənclərinin elmin və təhsilin dərinliklərinə yiyələnməsi və ölkənin sabahı üçün peşəkar kadr olması üçün Heydər Əliyevin gərgin əməyi nəticəsində on minlərlə azərbaycanlının keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaları üçün şərait yaradıldı. [3]

Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikaları sırasında ən ön yerlərdən birini tutmasına gətirib çıxardı. Azərbaycan quruculuq, yaradıcılıq və tərəqqi dövrü keçirirdi, cəmiyyətin bütün təbəqələrində fasiləsiz inkişaf, irəliləyiş ruhu hökm sürürdü. Məhz bütün deyilənlərin nəticəsində yalnız Azərbaycan, həmçinin keçmiş SSRİ respublikalarından Rusiya və Ukrayna ittifaq büdcəsindən dotasiya almırdı. Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik, iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazisini təşkil edir. Bu baxımdan keçən əsrin 70-80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müstəqillik yolunda mühüm

təməl hesab edilməlidir. Bu mənada, ulu öndərin fəaliyyəti təkcə, İttifaq respublikası olan Azərbaycanın deyil, həm də gələcək müstəqil Azərbaycanının möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının təməlini qoydu. Onun ikinci hakimiyyət illərində isə Azərbaycan dünya miqyasında tanınan və tərəqqiyə doğru gedən dövlət statusunu qazandı. Ulu öndərin yenidən ölkəyə rəhbərliyi sayəsində siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.[2]

Ulu Öndərin hakimiyyətə gəlişi ilə öz həqiqi dövlət müstəqillyinə qovuşmuş Azərbaycanın inkişaf strategiyası müəyyən edildi. Bu strateji konsepsiya ölkəmizin potensial imkanları, milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmaqla hazırlandı.

Ulu Öndər ilk növbədə, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində siyasi iradə nümayiş etdirdi və iqtisadi transformasiyanın qanunauyğunluqlarını nəzərə alaraq əsaslı islahatlara start verdi. Heydər Əliyev həmin dövrdə müstəqil dövlətin yeni transformasiyaya keçidlə islahatlar həyata keçirməsinin olduqca çətin və mürəkkəb olduğunun bildirirdi: "Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur".[4]

Ulu Öndər Azərbaycanın milli inkişaf strategiyasını hazırlamaqla respublikamızın uzunömürlü tərəqqisinə dərin əsaslar yaradıb. Müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində və zəngin iqtisadiyyata malik olmasında neft amili xüsusi rol oynayır. Neft sərvətlərinin mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası isə düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun neft siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaradıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesində tamamilə yeni mərhələnin əsası qoyuldu. Bu dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etmək və yeni nəql marşrutları yaratmaqdan ibarət idi.

Azərbaycan hökuməti 1994-cü ildən başlayan bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı. Dövlətin tabeçiliyində olan torpaq mülkiyyəti kəndlilərə verildi ki, bu sahədə respublikamız MDB-də ilk islahat aparan ölkə hesab olunur. Digər sahələrdə də özəlləşdirmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verdi və liberal iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yarandı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. İqtisadiyyatın əsasını təşkil edən neft sektoru ilə yanaşı, digər sahələrdə də genişmiqyaslı islahatların təməli qoyuldu. Bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank sistemlərinin formalaşdırılması, aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində bazar iqtisadiyyatına keçidin əsası qoyuldu və sahibkarlıq fəaliyyəti formalaşdı. Həmin illərdə xarici investorların ölkəyə axınını sürətləndirmək, onlara iş fəaliyyəti üçün əlverişli şərait yaratmaq, xarici ticarəti sərbəstləşdirmək, sahibkarlığı inkişaf etdirmək üçün bir sıra qanunlar qəbul edildi, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə uyğunlaşdırılmasını təmin edən qanunvericilik bazası yaradıldı. Həmin dövrdə qəbul olunan "Sahibkarlıq haqqında" Qanun da sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirməklə yanaşı, iqtisadiyyatın bazar iqtisadiyyatı yolu ilə inkişafı üçün əlverişli hüquqi zəmin demək idi. 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası isə respublikamızın siyasi-

iqtisadi, sosial-humanitar bölmələri ilə bağlı bütün təfərrüatları özündə əks etdirməklə strateji əhəmiyyətinə görə seçildi.[1]

Ulu Öndərin atdığı qətiyyətli addım sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycanın gələcək rifahının başlanğıcı olmaqla respublikanın enerji sektorunun inkişafı iqtisadiyyatın qeyri-neft sahəsinin fəal artımına gətirib çıxarmışdır. Həm də bu sazişin böyük iqtisadi faydası ilə yanaşı, daha bir əhəmiyyəti var idi: Saziş dünyanın aparıcı dövlət və şirkətlərini bir daha əmin etdi ki, Azərbaycan müstəqil və etibarlı tərəfdaşdır. Bu ölkədə işləmək və sərmayə qoymaq olar. "Əsrin müqaviləsi" bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı və bir qədər sonra dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yarandı. Bununla da Azərbayacan öz qapılarını xarici sərmayələr üçün taybatay açdı. Müqavilənin imzalanması Azərbaycan iqtisadiyyatının digər sahələrinə də xarici sərmayələr qoyuluşunda həlledici rol oynadı. Bununla da iqtisadiyyatımızın inkişafında ilk addımlar atılmağa başlandı.

Bazar iqtisadiyyatının əsas tələblərindən biri də, ilk növbədə, torpaq islahatlarının həyata keçirilməsi ilə bağlıdır. Torpaq sahibi olmadan mülkiyyətçinin azad və sərbəst istehsal fəaliyyəti ilə məşğul olması qeyri-mümkündür. Buna görə də, Heydər Əliyev iqtisadiyyatın böhrandan xilas edilib inkişaf etdirilməsinin yeganə yolunun islahatlar olduğunu bildirdi və torpaqların vətəndaşların istifadəsinə verilməsi üçün bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında müvafiq fərmanlar imzalaması islahatlarla bağlı prosesləri xeyli sürətləndirdi.

O vaxtdan təxminən 23 il keçəndən sonra cəsarətlə demək olar ki, 1993-2003-cü illərdə Heydər Əliyev prezident olduğu on il ərzində aşagıda qeyd olunan strategiyanı müəyyən etmiş və gərgin əməyi sahəsində buna nail olmuşdur.

- 1994-cü ildən etibarən Qarabağ cəbhəsində atəşkəs rejiminə nail olmaqla iqtisadi inkişafın əsas prioritetlərinin formalaşdırılması;
- ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi;
- dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması;
- cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni - açıq və demokratik vətəndaşlığın formalaşdırılması;
- müstəqil dövlətin neft strategiyasının yaradılması, bu strategiyanın əsası olan "Əsrin müqaviləsi" sazişinin imzalanması, ölkənin əsas regional energetik aktora transformasiyasının başlanması;
- "Böyük İpək Yolu" layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi rolunun dəyişməsi;
- həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin formalaşdırılması;
- müasir və döyüş qabiliyyətli ordunun yaradılması və s.[2]

Bir sözlə, ümummilli lider Heydər Əliyevin onillik prezidentliyi dövründə ölkə kökündən dəyişmiş, daxili və xarici siyasətin bir çox istiqamətlərində əhəmiyyətli uğurlar qazanılmışdır. Azərbaycan dövləti uzunmüddətli yaşamaq qabiliyyətini, cəmiyyət isə tarixi prosesin növbəti mərhələsində iştirak etməyə hazır olduğunu nümayiş etdirmişdir. Müasir Azərbaycan Respublikasının müstəqilliyi həm ölkənin sadə vətəndaşları, həm də qlobal miqyaslı mühüm güc mərkəzləri üçün aksioma çevrilmişdir. Məhz Heydər Əliyev şəxsiyyəti, onun xarizması, iradəsi, təcrübəsi göstərilən dövrdə bizim üçün "millət", "dövlətçilik", "idarəçilik sistemi", "hakimiyyət", "inkişaf etmiş iqtisadiyyat", "mənəvi dirçəliş", "liderlik", "transformasiya", "çoxvektorluluq" kimi sistem dəyərlərin təşəkkülündə və möhkəmlənməsində mühüm rol oynadı.

Bu gün də Heydər Əliyev ideyaları Azərbaycan hökuməti tərəfindən uğurla reallaşdırılıb və yüksək nəticələr əldə edilib. İqtisadiyyatın proporsional və balanslaşdırılmış inkişafının təmin olunması və effektivliyə doğru irəliləyişi, bazar iqtisadiyyatının intensivləşdirilməsi, liberal iqtisadiyyatın yeni mexanizmlərinin tətbiq olunması və digər islahatlar əhalinin maddi və mənəvi rifahının yüksəlməsinə, sosial ədalətin bərqərar olmasına şərait yaradıb. Bu prinsiplər ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca

hədəflərini təşkil etmiş və dövlət başçısının rəhbərliyi ilə sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması prosesində mühüm uğurlara imza atılmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Ə.Bayramov, V.Bayramov, M.Yaqubzadə, "Xalq qəzeti", 2010, 16 may
2. E.Sadıqov. Heydər əliyev və Azərbaycan iqtisadiyyatı. UNEC, 19 aprel 2021
3. H.Əliyev Müstəqil Azərbaycanın dövlətinin yeni mərhələsi, Bakı. 2004
4. D.Vəliyev. "Heydər Əliyev və Azərbaycanın milli iqtisadi inkişaf modeli // "Xalq qəzeti", 2010

AZƏRBAYCANIN DAYANIQLI İNKİŞAFININ TƏMİN OLUNMASINDA HEYDƏR ƏLİYEVİN MÜSTƏSNA FƏALİYYƏTİ

Təranə Əsman qızı Əliyeva
Mingəçevir Dövlət Universiteti
tarana.aliyeva@mdu.edu.az

Ulu öndər Heydər Əliyev, Azərbaycan Respublikasının əməkdar dövlət xadimi olmuş mühüm bir siyasi şəxsiyyətdir. Azərbaycanın müstəqil dövlət olduğu 1991-ci ildən başlayaraq, ölkənin iqtisadi və siyasi inkişafında əsas rol oynamış və dövlət idarəçiliyinin formalaşmasında önəmli addımlar atmış bir liderdir. Heydər Əliyev, öz müdrik siyasəti və təcrübəsi ilə tanınan bir siyasətçi idi. Heydər Əliyev həm daxili siyasi proseslər, həm də beynəlxalq arenada Azərbaycanın xüsusi tərəflərinin bərpasında və inkişafında mühüm rol oynamışdır. Hakimiyyətdə olduğu 1993-2003 illəri arasında iqtisadiyyatın modernləşdirilməsi, dəmiryol və enerji koridorlarının inkişafı, xarici yatırımların cəlb edilməsi və ölkənin regionda təsirinin artırılması kimi sahələrdəki səyləri Azərbaycanın güclü bir iqtisadiyyata sahib olmasına zəmin yaratmışdır. Qürur hissi ilə qeyd etmək olar ki, onun liderliyi dönəmində Azərbaycan, qlobal iqtisadi sahədə tanınmış bir rol oynamağa başlamış və beynəlxalq müqavilələrin imzalanması ilə ölkənin beynəlxalq əlaqələrinin genişləndirilməsinə dəstək olmuşdur.

Heydər Əliyev 1993-cü ilin iyununda yenidən ölkə rəhbərliyinə qayıdan zaman bazar iqtisadiyyatı əsasında ümumi daxili məhsulun artırılması istiqamətində islahatların həyata keçirilməsini, eləcə də qeyri-neft sektorunun sürətli inkişafını təmin etməyi qarşıya hədəf qoymuşdu**.** Bu dövrdə Azərbaycanın Qafqaz regionunda və onun hüdudlarından kənarda həyata keçirilən irimiqyaslı transmilli layihələrdə iştirakı təmin edilmiş, ölkənin dövlət siyasəti milli maraqlar nəzərə alınmaqla həyata keçirilmişdi. Heydər Əliyevin rəhbərliyi ilə güclü iqtisadi baza yaradıldı ki, bu da Azərbaycanın gələcək iqtisadi müstəqilliyinin əsasını qoymuşdur.

Azərbaycanın müstəqil dövlət olduğu dövrdə, ölkənin siyasi, iqtisadi və mədəniyyət sahələrində sürətli inkişafına rəhbərlik etmiş Heydər Əliyev, Azərbaycanın müstəqil dövlət olaraq var olmasında və güclü bir ölkə kimi inkişaf etməsində əsas rol oynayan bir lider kimi iz qoymuşdur. Onun siyasi və iqtisadi fəaliyyətləri, ölkənin tarixində qeyri-adi bir dönəmə imza atmışdır və hələ də ölkənin müasir inkişafında bir əsas olaraq qiymətləndirilir.

İlahinin Azarbaycana va bəşəriyyətə bəxş etdiyi ən böyük və əvəssiz tarixi şəxsiyyət Heydər Əliyevin liderliyi dönəmində Azərbaycan, siyasi və iqtisadi sahədə müasir standartlara uyğun və sürətli bir inkişafa başlamışdır. O, ölkədə siyasi stabilliyi təmin etməklə birlikdə, enerji, neft və qaz sənayesində də inkişafı təşviq etmişdir. Bu, Azərbaycanın regionda müasir iqtisadi güc kimi tanınmasına və ölkənin beynəlxalq iqtisadi əlaqələrini genişləndirməsinə imkan vermiştir. Həmçinin, Heydər Əliyev dövründə Azərbaycanın infrastruktur inkişafına, təhsil və sağlamlıq sahələrinə böyük diqqət və yatırımlar edilmişdir. Bu, ölkənin sosial sferada da daimi və dayanıqlı inkişafına səbəb olmuşdur.

1969-cu ildə Azərbaycan Sovet İttifaqının zəif respublikalarından biri idi**,** hətta neft sənayesinin və kənd təsərrüfatının ciddi potensialına baxmayaraq, əhali zəngin deyildi. Mərkəzi hakimiyyət Azərbaycana biganə yanaşır, onun problemlərinin həllinə maraq göstərmirdi. Lakin, Heydər Əliyev rəhbərlik etməyə başladıqdan sonra dirçəliş dövrü başladı**.**

Ötən əsrin 70-ci illərində Azərbaycanda 300-dən çox sənaye müəssisəsinin tikintisinə nail olmuş, 1969-1985-ci illərdə sənaye istehsalı iki dəfə artmışdı. Bu sahədə Azərbaycan neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, çini və saxsı məmulatlar, xalçalar və xalça məmulatları və s. istehsalı üzrə aparıcı yerləri tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi.

Müasir türk dünyasının ağsaqqalı və ümidgahı, dünyanın ən böyük və uzaqgörən siyasətçisi, görkəmli və müdrik dövlət xadimi Heydər Əliyevin siyasəti, dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq Azərbaycanın iqtisadi, sosial və siyasi sahələrdə sürətli və daimi inkişafına fokuslanmışdır. Onun liderliyi dövründə Azərbaycan, müstəqil dövlət kimi inkişaf etmiş və beynəlxalq arenada tanınmış bir rol oynamış Heydər Əliyevin dayanıqlı inkişafa yönələn siyasəti aşağıdakı məqamları özündə əhatə edirdi:

1. İqtisadi diversifikasiya: Heydər Əliyev, Azərbaycanın neft və qaz sənayesinə olan bağımlılığını azaltmaq və iqtisadi diversifikasiyaya yönəlmək üçün müxtəlif sahələrə yatırımlar etmişdir. Bu, qabaqcıl infrastruktur layihələri, yeni sahələrə yatırımlar və mənsubi iqtisadi sektorların inkişafı ilə əlaqəlidir.

2. Sosial tərəfdaşlıq və ədalət: Heydər Əliyev, sosial proqramların təşkilatında və sosial sahəyə yatırımlarda çox geniş bir diqqət ayırmışdır. Sosial proqramlar vasitəsilə təhsil, sağlamlıq, sosial yardım və digər sahələrdə məmnuniyyət yaradılmış və sosial ədalət təmin edilmişdir.

3. İnvestisiya və xarici əlaqələr: Heydər Əliyev, Azərbaycanın xarici yatırımların cəlb edilməsi, beynəlxalq iqtisadi əlaqələrinin gücləndirilməsi və ölkənin regionda təsirinin artırılması üçün fəal bir şəkildə çalışmışdır. Bu, iqtisadi sahədə dövlət-təşəbbüs əməkdaşlığı və xarici investisiyaların ölkəyə gətirilməsi ilə əlaqəlidir. Heydər Əliyev dövründə Azərbaycanın xarici yatırımların cəlb edilməsi ilə bağlı bir neçə əsas addım atılmışdır. Bu dövr Azərbaycanın iqtisadi inkişafının və beynəlxalq əlaqələrin genişləndirilməsinin əsas mərhələlərindən biri kimi qiymətləndirilir.

4. İqtisadi islahatlar: Heydər Əliyev dövründə Azərbaycan iqtisadiyyatında strateji proqramlar həyata keçirilmişdir. Bu, iqtisadiyyatın diversifikasiyası, sənaye sahələrinin inkişafı və investisiya mühitinin yaxşılaşdırılması ilə əlaqəlidir. Heydər Əliyev dövründə Azərbaycanın neft və qaz sənayesi ciddi şəkildə inkişaf etmişdir. Bu, ölkənin iqtisadiyyatına səmərəli qaynaqların cəlb edilməsi və iqtisadi inkişafının təmin edilməsi üçün əsaslı bir imkan yaratmışdır.

5. İnvestisiya siyasəti: Heydər Əliyev dövründə Azərbaycanın qanunvericilik çərçivəsi investisiya mühitini yaxşılaşdırmaq və xarici investorları tərəfə cəlb etmək məqsədi ilə ciddi dəyişikliklərə uğramışdır. İnvestorlara vergi ləvazimatları, mülkiyyət haqqı təminatı və iş fəaliyyəti üçün şəraitin yaxşılaşdırılması kimi sahələrdə investisiya təşviqi edilmişdir.

6. Beynəlxalq layihələr və ittifaqlar: Heydər Əliyev dövründə Azərbaycan bir çox beynəlxalq layihə və iqtisadi təşkilatlara qoşulmuşdur. Bu, ölkənin beynəlxalq əlaqələrinin genişləndirilməsi, xarici investisiyaların cəlb edilməsi və ölkənin iqtisadi potensialının artırılması üçün əhəmiyyətli bir addım olmuşdur.

7. Böyük infrastruktur layihələri: Heydər Əliyev dövründə Azərbaycanda həyata keçirilən bir sıra böyük infrastruktur layihələri ölkənin iqtisadiyyatının və digər sahələrinin inkişafını dəstəkləyəcək və xarici investorların diqqətini cəlb etmək məqsədilə təşkil edilmişdir.

8. Sosial tərəfdaşlıq: Heydər Əliyev dövründə Azərbaycanın sosial sahələri də ciddi şəkildə inkişaf etmişdir. Təhsil və sağlamlıq sahələri, sosial yardımlar və sosial proqramlar vasitəsilə daha çox insanın əlçatanlıq hissi yaşamasına və sosial ədalətə daha yaxın bir cəmiyyətin yaradılmasına kömək etmişdir.

9. Demokratikləşmə və inkişaf: Heydər Əliyev dövründə Azərbaycanın demokratik prosesləri və insan hüquqları sahəsində də ciddi addımlar atılmışdır. Qanunvericilik prosesləri,

müstəqil məhkəmə sistemi və demokratik strukturların formalaşması bu dövrdə baş vermişdir. Beləliklə, Heydər Əliyev dövründə Azərbaycanın demokratik prosesləri və insan haqları sahəsində ciddi addımlar atılmış, lakin hələ də inkişaf mərhələsində olan bir proses olmuşdur. Bu dönəm Azərbaycanın demokratik inkişafında bir mərhələ kimi qiymətləndirilir və sonrakı dövrlərdə daha da genişlənmişdir.

10. Mətbuat və söz azadliği: Heydər Əliyev dövründə mətbuat azadlığı və ifadə azadlığı mövzusunda müxtəlif dəyişikliklər olmuşdur. Bir çox yeni nəşrlər və mətbuat orqanları yaradılmış və mediada pluralizmə daha böyük diqqət göstərilmişdir.

Heydər Əliyev, Azərbaycanın zəngin tarixi və mədəni irsinin qorunması, dəyərləndirilməsi və inkişafı üçün çox geniş təşəbbüslər göstərmişdir. Bu, tarixi abidələrin bərpa edilməsi, muzeylərin yaradılması və dəyərli ədəbi və musiqi əsərlərinin qorunması ilə əlaqəlidir.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətlər Azərbaycanın müstəqil dövlət kimi inkişafını daimi və dayanıqlı bir şəkildə təmin etməyə yönəlmişdir. Azərbaycanın inkişafında çoxsaylı və müsbət xidmətləri olmuş Heydər Əliyevin işğal altındakı ərazilərin azad edilməsi, ölkənin iqtisadiyyatının modernizasiyası, beynəlxalq iqtisadi əlaqələrin genişlən-dirilməsi, sosial sahələrdə inkişaf və demokratikləşmə proseslərinin təmin edilməsi kimi sahələrdə rolunu vurğulamaq lazımdır. İşğaldan azad olunan ərazilər, dövlətçiliyimiz və müstəqilliyimiz üçün böyük əhəmiyyəti olan atəşkəsin elan edilməsi, neft və qaz sənayesi, infrastruktur, təhsil və sağlamlıq sahələrində baş verən inkişaf prosesləri Heydər Əliyevin liderliyi dövründə sürətli şəkildə irəliləməyə başlamışdır.

Xalqımızın minillik arzusunu tarixi reallığa çevirən, böyük qurbanlar bahasına əldə edilmiş müstəqilliyi zamanın çətin və keşməkeşli sınaqlarından çıxaraq, onu qoruyub saxlayan, sivil dünyaınvə Avropa ailəsinin bir üzvünə çevirən heydər Əliyevin Azrbaycana rəhbərlik etdiyi illər ərzində ölkəmizin tərəqqisi naminə göstərdiyi bütün xidmətlər göz qabağındadır və onları saymaqla qurtaran deyil.

Hakimiyyətə gəldiyi ilk gündən Ulu Öndər Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və cəmiyyət həyatında baş verən bütün köklü dəyişikliklərin təşkilatçısı və ilhamvericisi olmuşdur. Müdrik rəhbərimizin gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində ictimai-siyasi sabitlik bərqərar olmuş, iqtisadi əlaqələrimiz daha da genişləndirilmişdir.

Ümummilli Liderin iqtisadi və sosial yüksəlişimnizin zirvəsini fəth etməyə yönəldilmiş uzaqgörən siyasətini uğurla davam etdirən İlham Əliyevin də tutduğu yol xalqıpmızı parlaq gələcəyə aparan bir yoldur. Heydər Əliyevin iqtisadi inkişaf strategiyasına və siyasi xəttinə sadiq qalıb və onu layiqincə davam etdirərək ölkəmizin ictimai həyatının bütün sahələrində böyük uğurlar qazanılmasına və onun iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə qədəm qoymasına nail oldu və xalqın etimadını doğrultdu.

Ulu Öndərin mütərəqqi ideyalarını hər zaman rəhbər tutan cənab Prezident İlham Əliyevin həyata keçirdiyi mükəmməl siyasət sayəsində dövlətimiz dayanıqlı inkişaf edərək daha da qüdrətlənir.

İstifadə edilmiş ədəbiyyat

1. Babayev A. Siyasi düşüncəmdə Heydər Əliyev fenomeni. Bakı, 2016
2. Bürçəliyev A.Ə. Milli mədəniyyət tariximiz Heydər Əliyev İdeyalarında. Bakı, 2023
3. Qurbanov S.H. Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi. Bakı, 2022.
4. Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı, 2019.

HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYASININ MÜƏLLİFİDİR

Təranə Əhməd qızı Süleymanova
Mingəçevir Dövlət Universiteti, müəllim
tarana.suleymanova@mdu.edu.az

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası müstəqil Azərbaycanın ilk Konstitusiyası idi. Məlum olduğu kimi, 1918–1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas Qanununu qəbul edə bilməmişdi.

1993-cü ildən xalqın təkidi ilə Azərbaycan Respublikasına rəhbərliyə qayıdan dahi şəxsiyyət Heydər Əliyev müdrik siyasəti ilə müasir, müstəqil Azərbaycan dövlətinin qurulmasına, yeni inkişaf yoluna qədəm qoydu. Həmin dövrdə mövcud olan qanunlar, hüquq sistemi, demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, həmçinin insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə təminat vermirdi. Məhz bu səbəbdən də müstəqil dövlət qarşısında duran ən vacib məsələlərdən biri yeni Konstitusiya layihəsinin hazırlanması idi. Ulu Öndər Heydər Əliyevin sədrliyi, Milli Məclisin 1995-ci il 2 may tarixli 1048 saylı qərarı ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Konstitusiya Komissiyasının tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər də daxil edilmişdi. Ümummilli lider Heydər Əliyev Komissiyanın fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini verib, Konstitusiyanın hər bir müddəasını şəxsən nəzərdən keçirib, Konstitusiya layihəsinin açıq müzakirələrini təşkil etməklə, onun ali formada qəbulunu təmin etmək üçün gərgin əmək sərf etmişdir.

1995-ci il iyunun 5-də Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası keçirildi. İclasda geniş nitq ilə çıxış edən Ümummilli lider Heydər Əliyev dövlətimizin konstitusiya quruculuğu tarixinə toxunaraq qeyd etmişdir ki, "Müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması respublikamızın tarixində böyük hadisədir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik! Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır!"

Həmçinin yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında Komissiyanın sədri Heydər Əliyev qeyd etmişdir: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq."

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə Yeni Konstitusiya qəbul edildi. 1995-ci il noyabrın 27-də isə qüvvəyə mindi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən, hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlanılıb. Əsas Qanunun Preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, bu ali sənəd çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı

fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilib. Əsas Qanun ölkədə təşəkkül tapmış dövlətçilik ənənələrinin, hüquq qaydasının, demokratik cəmiyyətin qurulmasına xidmət edir. 1995-ci ildə qəbul edilən Əsas Qanun bir sıra təməl prinsipləri özündə əks etdirərək, müasir sivil cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyən edən ideya və dəyərləri geniş şəkildə özündə ehtiva edib: insan şəxsiyyətinə və ləyaqətinə hörmət; dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması; insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; siyasi sistemdə plüralizmə təminat verilməsi; sosial ədalətə nail olmaq; ümumbəşəri dəyərlərə sadiqlik; milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və sair [1].

Konstitusiya özündə ümumbəşəri dəyərləri təsbit etməklə aşağıdakı prinsipləri müəyyən etdi.

1. İnsan, onun hüquq və azadlıqları ali dəyərlərdir (insan və vətəndaşın hüquq və azadlıqlarının tanınması, riayət olunması və müdafiəsi dövlətin vəzifəsidir);
2. Suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyi Azərbaycan xalqıdır;
3. Sosial siyasət insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şəraitin yaranmasına istiqamətlənib;
4. Dövlət, xüsusi və bələdiyyə mülkiyyət formaları eyni qaydada tanınır və müdafiə olunur;
5. Dövlət hakimiyyəti qanunverici, icraedici və məhkəmə hakimiyyəti bölgüsü əsasında həyata keçirilir;
6. Yerli özünüidarəetmə demokratik hüquqi dövlətin əsas elementlərindən biri kimi tanınır və ona təminat verilir;
7. İdeoloji və siyasi müxtəliflik, çoxpartiyalılıq tanınır. Heç bir ideologiya dövlət və ya məcburi xarakterli ola bilməz;
8. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr onun qanunvericilik sisteminin tərkib hissəsidir. Azərbaycan Respublikasının Konstitusiyası ali hüquqi qüvvəyə, birbaşa təsirə malikdir və Azərbaycan Respublikasının bütün ərazisində tətbiq olunur. Azərbaycan Respublikasında qəbul olunan qanunlar və qanun qüvvəli aktlar Azərbaycan Respublikası Konstitusiyasına zidd olmamalıdır.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoymuşdur. Azərbaycanın yeni Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

Birinci bölmə. Ümumi müddəalar;
- I fəsil. Xalq hakimiyyəti.
- II fəsil. Dövlətin əsasları.

İkinci bölmə. Əsas hüquqlar, azadlıqlar və vəzifələr;
- III fəsil. Əsas insan və vətəndaş hüquqları və azadlıqları.
- IV fəsil. Vətəndaşların əsas vəzifələri.

Üçüncü bölmə. Dövlət hakimiyyəti;
- V fəsil. Qanunvericilik hakimiyyəti.
- VI fəsil. İcra hakimiyyəti.
- VII fəsil. Məhkəmə hakimiyyəti.
- VIII fəsil. Naxçıvan Muxtar Respublikası.

Dördüncü bölmə. Yerli Ozünüidarəetmə;
- IX fəsil. Bələdiyyələr.

Beşinci bölmə. Hüquq və qanun;
- X fəsil. Qanunvericilik sistemi.
- XI fəsil. Azərbaycan Respublikasının konstitusiyasında dəyişikliklər.
- XII fəsil. Azərbaycan Respublikasının konstitusiyasına əlavələr.

Dövlət quruluşunun başlıca prinsiplərini müəyyən etməklə yanaşı, Konstitusiya həm də cəmiyyət həyatının müxtəlif sahələrinə dövlətin müdaxiləsinin meyarlarını və belə müdaxilənin yol verilən hədlərini dəqiqləşdirərək, bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir [2].

Ulu Öndər Heydər Əliyev tərəfindən 2002-ci il iyunun 22-də "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum)

keçirilməsi haqqında" Fərman imzalanıb. Bu referendumla bağlı Milli Məclisin 2002-ci il 29 iyul tarixli Azərbaycan xalqına müraciətində qeyd edilib: "Konstitusiyada edilməsi nəzərdə tutulan dəyişikliklər insan hüquqlarının və azadlıqlarının qorunmasının əlavə təminatları, seçki sistemi, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin tənzimlənməsi, məhkəmə hakimiyyətinin rolunun artması ilə bağlıdır. Azərbaycan Respublikasının Milli Məclisi bəyan edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ümumxalq səsverməsinə (referenduma) çıxardığı Konstitusiya dəyişikliklərini dəstəkləyir və onların həyati zəruriliyini bir daha qeyd edir".

Qeyd edilməlidir ki, tarixi nöqteyi-nəzərdən qısa müddətdə dövlətimiz əsrə bərabər inkişaf yolu keçib. Bu gün Azərbaycan özünü dünya birliyində ən mötəbər kürsülərdən sözünü deyən, öz haqlı mövqeyini bildirən və bu mövqeyini qoruyan, eyni zamanda zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanıdıb. Əldə olunan bütün bu nailiyyətlər dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövlətinə miras qoyduğu Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin siyasi iradəsi, qətiyyəti, hərtərəfli düşünülmüş daxili və xarici siyasəti sayəsində mümkün olmuşdur.

Əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları, zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan dövləti tarixin qüdrətli dövrünü yaşayır. Müstəqil dövlətçilik tariximizin ən mühüm hadisəsi isə 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının qürur mənbəyinə çevrildi. Azərbaycan dövləti 44 gün ərzində bütün dünyaya səs salaraq öz gücünü nümayiş etdirdi. 44 günlük Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin qətiyyətli hərbi, siyasi və diplomatik fəaliyyəti, rəşadətli Azərbaycan Ordusunun şücaəti və xalqımızın birliyi sayəsində mümkün oldu. Dövlət başçısı İlham Əliyev bununla bağlı qeyd edib: "Biz öz haqqımızı, öz hüquqlarımızı döyüş meydanında bərpa etdik. 44 gün ərzində mənfur düşməni torpaqlarımızdan qovduq və Qarabağda Azərbaycan Bayrağını ucaltdıq. Bu, çoxəsrlik Azərbaycan tarixinin ən parlaq səhifəsidir!"

Azərbaycan dövlətinin şanlı Qələbəsi sayəsində Konstitusiyanın hüquqi qüvvəsi işğaldan azad edilmiş torpaqlarımızda bərpa olunub, vətəndaşlarımızın Əsas Qanunda təsbit edilmiş bir sıra hüquqlarının bərpası üçün zəmin yaranıb.

44 günlük Vətən müharibəsində qazanılan hərbi-siyasi Zəfərdən sonra qarşıda duran ən mühüm vəzifə işğaldan azad olunan ərazilərin ən qısa zamanda bərpası və yenidən qurulması, 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış insanların öz doğma yurdlarına qayıdışının təmin edilməsidir.

2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev tərəfindən imzalanan Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilib. Sərəncamda qeyd olunub: "Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır!" [3].

Bu Dövlət Proqramının məqsədlərinə aiddir: ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək; şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək; müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək; ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək; əhalinin məşğulluq imkanlarını artırmaq; sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığı təmin etmək; dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək və s.

İstifadə edilmiş ədəbiyyat

1. Ənvər Seyidov. "Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası" Bakı 2009
2. https://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf
3. https://president.az/

DAVAMLI İNKİŞAF MƏQSƏDLƏRİ ÇƏRÇİVƏSİNDƏ İSTEHLAKDA VƏ İSTEHSALDA RESURSLARDAN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

Arifə Carı qızı Nəsibova
Mingəçevir Dövlət Universiteti
arifa.nasibova@mdu.edu.az

1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə Rio-de-Janeyro şəhərində keçirilmiş beynəlxalq konfransda qeyd edildiyi kimi, dünyanın gələcək inkişafı ilk növbədə ekoloji problemlərin necə həll olunmasından asılı olacaqdır. Bu konfransda dünyada mövcud olan ətraf mühit problemlərinin həlli yolları çox ciddi şəkildə nəzərdən keçirilmiş və mühüm qərarlar, o cümlədən artıq bütün Beynəlxalq ekoloji təşkilatların proqram sənədinə çevrilmiş "Dayanıqlı inkişaf" konsepsiyası qəbul edilmişdir. Bu konsepsiyada iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin ilk növbədə həll olunması, gələcək nəsillərin imkanları məhdudlaşdırılmadan çağdaş nəsillərin rifahının yaxşılaşdırılması ön xəttə çəkilmişdir.

Bu gün artıq ətraf mühitin mühafizəsi məsələləri aparıcı beynəlxalq təşkilatların proqram sənədlərində önəmliliyi ilə seçilir.

Xüsusilə, 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının Yer Sammitində müəyyən edilmiş olan Biomüxtəliflik Konvensiyası buna bariz nümunədir. Bioloji müxtəliflik- bütün mənbələrdən, o cümlədən, yerüstü, dəniz və digər su ekosistemləri və onların bir hissəsi olan ekoloji komplekslər daxil olmaqla, canlı orqanizmlər arasında dəyişkənlikdir. Buna növlər daxilində, növlər arasında və ekosistemlərdəki müxtəliflik daxildir. 1993-cü ilin dekabrında qüvvəyə minən BMK bioloji müxtəlifliyin qorunması, biomüxtəlifliyin komponentlərinin davamlı istifadəsi və genetik ehtiyatlardan istifadədən əldə edilən faydaların ədalətli şəkildə bölüşdürülməsi üçün beynəlxalq sənəd adını almışdır.

BMT və onun tərəfdaşları Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq istiqamətində çalışırlar. Bu tərəfdaşlıq nəticəsində Azərbaycan dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən 17 DİM-i, 88 hədəfi və 119 göstəricini prioritetləşdirib. Dayanıqlı İnkişaf Məqsədləri ona açıq şəkildə istinad edən 2 məqsədi xüsusilə qeyd edir ki, bunun birincisi - Dayanıqlı inkişaf naminə okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək, ikincisi isə Yer ekosistemlərini mühafizə və bərpa etmək və onların səmərəli istifadəsinə dəstək vermək, meşələrdən səmərəli istifadə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaq deqredasiyasını dayandırmaq, ona qarşı əks tədbirlər görmək və bioloji müxtəlifliyin itkisinin qarşısını almaq.

Hər iki məqsədin ümumilikdə hədəfləri 2025-ci ilədək, bütün növlərdə, xüsusən də yerüstü fəaliyyət nəticəsində, o cümlədən tullantıların dənizə axıdılması və qida məhsullarından çirklənmə nəticəsində dənizin çirklənməsi hallarının qarşısını almaq və bu halları əhəmiyyətli dərəcədə azaltmaq, aclığa son qoymaq, ərzaq təhlükəsizliyini təmin etmək, qidalanmanı yaxşılaşdırmaq və kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək vermək, 2030-cu ilədək, dayanıqlı ərzaq istehsalı sistemlərini təmin etmək və məhsuldarlığı və istehsalı artıran, ekosistemlərin saxlanmasına kömək edən, iqlim dəyişikliyinə, kəskin hava şəraitinə, quraqlığa, daşqınlara və digər təbii fəlakətlərə uyğunlaşma üçün potensialı gücləndirən, habelə yerin və torpağın keyfiyyətini tədricən artıran dayanıqlı kənd təsərrüfatı təcrübələrini tətbiq etmək məqsədləri müəyyənləşdirilir.

Xüsusiə kənd təsərrüfatının aparılmasının məhsuldar və torpağı qüvvədən salmayan metodları tətbiq edilən kənd təsərrüfatına yararlı torpaqların xüsusi çəkisini artırmaq, milli, regional və beynəlxalq səviyyələrdə düzgün idarə olunan və şaxələndirilmiş toxum və bitki bankı vasitəsilə, toxumların, becərilən bitkilərin və ferma şəraitində yetişdirilən və əhliləşdirilən heyvanların və onlarla bağlı yabanı növlərin genetik müxtəlifliyini qorumaq və beynəlxalq səviyyədə razılaşdırılmaqla genetik resurslardan və bununla bağlı ənənəvi biliklərdən istifadə nəticəsində meydana çıxan faydalardan yararlanmanı və onların ədalətli və bərabər şəkildə bölüşdürülməsini təmin etməni vacib bir hədəf kimi qarşıya qoymuşdur.

Məqsədlər sırasında hamı üçün su ehtiyatlarının və sanitariyanın mövcudluğunu və onlardan səmərəli istifadə edilməsini təmin etmək, su ilə əlaqəli ekosistemlərin miqyasının zamanla dəyişməsi məsələsi prioritet olaraq nəzərə alınmışdır.

Digər hədəflər sırasında yer alan hamının ardıcıl, inklüziv və dayanıqlı iqtisadi artımına, tam və səmərəli məşğulluğuna, layiqli işlə təmin olunmasına dəstək vermək, 2030-cu ilədək qlobal olaraq istehlakda və istehsalda resurslardan səmərəli istifadəni tədricən artırmaq və inkişaf etmiş ölkələr öndə getməklə, dayanıqlı istehlak və istehsal üzrə proqramlar hazırlamaq dövlətlərin milli hədəfləri sırasındadır.

Bu məqsəd və hədəflərin iqtisadi artımla ətraf mühitin korlanması arasında əlaqəni zəiflətməyə cəhd etməsi, şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etməsi, 2030-cu ilədək, dünyada, xüsusən də qadınlar və uşaqlar, yaşlı qadınlar və əlil insanlar üçün təhlükəsiz, inklüziv və əlçatan, yaşıl və ictimai məkanlara çıxış imkanını təmin etməsi, insanların hər yerdə dayanıqlı inkişaf və təbiətə uyğun yaşayış tərzləri üçün müvafiq informasiya və məlumatlara malik olmasını təmin etməsi qlobal və həlli vacib olan məsələlərdir.

İstifadə edilmiş ədəbiyyat

1. Davamli inkişafin sosial və fəlsəfi problemləri. Bakı, "Elm və təhsil", 2019, 312 səh
2. Ələkbərov U. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Bakı, "Təhsil", 2017, 176 s
3. https://bit.ly/3k0hq2q
4. https://bit.ly/3jzEViQ

HEYDƏR ƏLİYEVİN YARATDIĞI KLASSİK İDARƏÇİLİK MODELİ MÜASİR MÜƏSSİSƏNİN İDARƏÇİLİK SİSTEMİNİN QURULMASINDA NÜMUNƏ KİMİ

Nuran Zakir oğlu Cəfərov
Mingəçevir Dövlət Universiteti
nuran. jafarov@mdu.edu.az

Hər bir dövlətin iqtisadi inkişafına zəmanət verən çoxlu sayda faktorlar mövcuddur. Onların içərisində iqtisadi sistemin əsas manqaları sayılan istehsal müəssisələrinin idarəçilik sistemində çox çevik mexanizmlərin və sağlam etik-mənəvi mühitin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Belə mühitin yaradılması özündə aşağıdakı mühüm əlamətləri birləşdirir: sosial məsuliyyət, etik-mənəvi normalar, korporativ münasibətlər, kollektiv təşəbbüslər və s. Qeyd edək ki, son dövrlərdə iqtisadi münasibətlərin yeni industrial inkişaf mərhələsinə qədəm qoyması ilə əlaqədar milli hökumətlər, beynəlxalq institutlar, transmilli korporasiyalar, həmkarlar ittifaqları və vətəndaş cəmiyyəti müasir kapitalist müəssisəsində məsuliyyətin artırılması üzrə yeni, daha effektli yolların tapılması ilə bağlı müştərək çalışmalar üzərində işləyir, dialoqlar aparır və bu sahədə sıx əməkdaşlıq edirlər. Mövcud situasiyada dünyada yeni iqtisadi, təsərrüfat və administrativ standartlar və prosedurlar formalaşır. Bu yenilikləri öz fəaliyyətində metodiki və ardıcıl şəkildə tətbiq edə bilməyən hər bir müəssisə isə, böyük ehtimalla, uğurlu istehsal prosesini təşkil edə və yüksək məhsuldarlığa nail ola bilməyəcək. Bu gün Azərbaycanda mövcud olan idarəçilik sisteminin əsasları Azərbaycan xalqının Ümummili lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Müasir Azərbaycanın ictimai həyatının bütün mühüm sahələrində, o cümlədən siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə tətbiq olunan idarəçilik sistemi və onun ayrı-ayrı komponentləri Heydər Əliyevin hələ XX əsrin 60-cı illərində hazırladığı idarəçilik strategiyasının təməlləri üzərində qurulur. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycan Respublikasına rəhbərliyə başladığı gündən məmləkətin uğurlu gələcəyi və tərəqqisi naminə atdığı ilk addım idarəçiliklə bağlı keyfiyyət əmsallarının daha yüksək səviyyəyə qaldırılması ilə bağlı tədbirlər olmuşdu. Azərbaycan SSR-də kadr siyasətini uğurla həyata

keçirən Ümummilli lider yaxşı bilirdi ki, ölkənin işıqlı gələcəyini etibarlı şəkildə təmin etmək üçün milli dəyərlərə və tarixdən gələn etik-mənəvi keyfiyyətlərə sahib olan, elmin sirlərinə yiyələnməyə çalışan, özündə milli mentalitetin ənənəvi komponentlərini tərənnüm edən, Şərqin və Qərbin elmi və mədəni nailiyyətlərini, davamlı olaraq mənimsəyən, daim yeniliyə, yaradıcılığa və reformasiyaya can atan, doğma Azərbaycanı bütün varlığı ilə sevən, nəhayət, idarəçilik sistemini mükəmməl bilən intellektualların yetişdirilməsi təxirəsalınmaz tarixi vəzifə olmalıdır. Heydər Əliyev milli dövlətin sosial-iqtisadi və ictimai-siyasi strukturlarının qüsursuz işləməsi üçün yaratdığı mükəmməl idarəçilik modeli, həm XX əsrin 70-80-ci illərində, həm də Ulu öndərin Azərbaycana 2-ci rəhbərliyi dövründə (1993-2003) dövlətçiliyimizin inkişafında müstəsna rol oynayan idarəçilik sisteminin əsaslandığı bir nümunə olmuşdur. Hazırda Azərbaycan Respublikasının idarəçilik sisteminin iqtisadi, siyasi və mədəni istiqamətlərində uğurla fəaliyyət göstərən struktur və manqalar öz gücünü, məhz Ulu öndər Heydər Əliyevin yaratdığı klassik idarəçilik nəzəriyyəsindən alır. Təqdim olunan tezisdə də, ümumi cizgilərdə müasir müəssisənin idarəçilik sisteminin ayrı-ayrı komponentlərində sözügedən modelin bir nümunə kimi necə təzahür etməsindən bəhs olunur.

Bu gün bütün dünyada istehsal və xidmət müəssisələrinin administrasiyaları işgüzar etika üzrə yeni-yeni proqramlar hazırlayır və praktikada tətbiq edir. Bu proqramlar, bir qayda olaraq, istehsal və xidmət müəssisələrində hüquqi və etik problemləri, həmçinin ətraf mühitin qorunması ilə bağlı məsələləri həll etmək üçün nəzərdə tutulmuşdur. Sözügedən dəyərlər və prinsiplər əsasında işləyən müəssisələr öz əməkdaşlarının və səhmdarların sorğularını təmin etməklə yanaşı, dövlətin iqtisadi yüksəlişinə də önəmli töhfə verir. Məhz buna görə də XXI əsrin I rübündə istehsal müəssisəsində etika problemləri tədqiqatçı alimlərin, menecerlərin və ictimai xadimlərin diqqət mərkəzindədir. Bu gün menecerlər hazırlayan xüsusi kurslarda və biznes məktəblərində etika üzrə hazırlıqlar keçirilir. İşgüzar etika, geniş mənada müəssisə rəhbərlərinin və əməkdaşların fəaliyyətində rəhbər tutduqları əxlaqi prinsiplərin və normaların külliyatıdır və o, bir qayda olaraq, müxtəlif qaydaların ifadəsi kimi təzahür edir:

1) istehsal və yaxud xidmət müəssisələrinin daxili və xarici təşkilatçılığının əxlaqi baxımdan qiymətləndirilməsi;

2) müəssisə üzvlərinin etik prinsiplərinin müəyyən edilməsi, başqa sözlə professional etikanın bərqərar edilməsi;

3) təşkilatda əxlaqi mühitin təmin edilməsi;

4) etik-mənəvi nümunələrin və işgüzar etiketin əsas normalarının təsdiq edilməsi.

Müasir işgüzar etika bir-biri ilə sıx əlaqədə olan 3 vacib vəziyyətə əsaslanır:

1. Bütün formalarda maddi nemətlərin yaradılması və müvafiq xidmətlərin göstərilməsi ilkin və ən vacib şərt sayılır. Məhz hər bir müəssisə bu səbəbdən mövcuddur.

2. Gəlirlər və digər maddi fayda gətirən əlamətlər ictimai məzmun və məna kəsb edən ayrı-ayrı nailiyyətlərin ifadəsi kimi nəzərdən keçirilir.

3. İşgüzar münasibətlərə ortaya çıxan problemlərin həlli zamanı prioritet məhsulun istehsalına deyil, şəxsiyyətin maraqlarına verilir.

Beləliklə, biznes etikası, yaxid işgüzar etika 5 fəaliyyət növünü əhatə edir:

1. Ümumi etik prinsiplərin konkret situasiyaya, yaxud müxtəlif təsərrüfat metodlarına tətbiq edilməsi.

2. Metaetika – etik anlayışların ziddiyyət təşkil etməməsinin təmin edilməsi.

3. Etik prinsiplərin ilkin əlamətlərinin təhlili.

4. Xarici problemlərin təsiri altında işgüzar etikanın əhatə etdiyi sferadan kənarda tədqiqatların aparılması və nəticələrin praktikada tətbiq edilməsi.

5. Ayrı-ayrı işgüzar şəxslərin və yaxud, bötövlükdə müəssisənin əxlaqi cəhətdən bəyənilən və nümunəvi sayılan hərəkətlərinin xarakterizə edilməsi [3].

Qeyd edək ki, yuxarıda qeyd edilən prinsiplər bütün işgüzar münasibətlərin əsaslarını təşkil etməlidir. Hər bir müəssisənin (təşkilat, kompaniya) etik kodeksində qeyd edilmiş əsas missiyası və dəyərləri korporativ sosial məsuliyyətin instrumentarilərinin iyerarxiyasında mühüm rol oynayır. Bu prinsiplərin reallaşdırılması isə böyük resurslar tələb edir. Hər bir müəssisənin etik kodeksi onun rəhbərliyi tərəfindən razılaşdırılmış şəkildə tərtib olunur və korrektə edilir. Bu zaman, ilk növbədə,

müvafiq proqram əsasında müəyyən edilmiş vəzifələr müəyyən edilir və onlar ümumi cizgilərdə hər bir müəssisənin praktiki fəaliyyətinin strateji konsepsiyasını ifadə edir.

Müəssisənin işgüzar praktikası özündə 5 sahəni birləşdirir:

1. Biznesin təşkili və idarə olunması etikası.
2. Əməkdaşlar.
3. Digər müəssisələrlə münasibət.
4. Əməyin mühafizə olunması, təhlükəsizlik tədbirləri və ətraf mühitin mühafizəsi.
5. Nəzarət və maliyyə məsələləri.

Yuxarıda qeyd olunmuş sahələrdə uğurlu biznes siyasətinin həyata keçirilməsi əməkdaşlarda professional vərdişlərin, bacarıqların və yaradıcı potensialın formalaşdırılmasına şərait yaradır və bu müəssisənin hər bir üzvünə aşağıdakı imkanları yaradır:

- istehsalın və biznesin inkişafı üçün yeni imkanların yaranmasını stimullaşdırmaq;
- hər bir əməkdaşın müəssisənin fəaliyyətinə, onun reputasiyasına görə məsuliyyət hiss etdiyi yüksək işgüzar atmosfer və adekvat əhval-ruhiyyə yaratmaq;
- müvafiq etik strukturlar və idarəçilik mexanizmləri üzərində yeni korporativ mədəniyyət formalaşdırmaq;
- qarşılıqlı inamın və hörmətin hökm sürdüyü işgüzar mühit yaratmaq.

Yuxarıda təsvir olunan şəraitdə müəssisənin əməkdaşları aşağıdakı hüquqlara malik olurlar:

1) öz vəzifə borclarını bilmək və onları dərindən dərk etmək;
2) öz işinin keyfiyyəti və effektliliyi haqqında açıq və konstruktiv müzakirələr aparmaq;
3) müəssisənin daxilində öz bacarırıqlarının və professional imkanlarının inkişafı üçün bu və ya digər formada dəstək almaq;
4) müəssisə qarşısında xidmətlərinə görə müvafiq qaydada qiymətləndirilmək;
5) təşkilatın effektli işinə və inkişafına dəstək verəcək təkliflər təşəbbüslər irəli sürmək;
6) xidməti vəzifələrini icra edərkən müəssisənin diqqətini şəxsi vəziyyətində və rifahında hiss etmək.

Biznes sahəsində müvafiq elmi tədqiqatlar aparan müasir iqtisadçı-alimlər biznes etikasında 3 iyerarxiya səviyyəsini müəyyən edirlər: 1. Qlobal səviyyə. 2. Makro səviyyə. 3. Mikro səviyyə.

İşgüzar etikanın qlobal (ümumdünya) səviyyəsi, yaxud hipernorması özündə korporativ sosial məsuliyyətin əsas amillərini birləşdirir:

- istehsal prosesinin modernləşdirilməsi;
- iş yerlərinin və elmi-texniki innovasiyaların təmin edilməsi;
- biznesə olan inamın davamlı möhkəmləndirilməsi, investisiyaların cəlb edilməsinə zəmanət verilməsi;
- biznesin qlobal inteqrasiyasının inkişafına dəstək verilməsi və hər bir subyekt üçün bərəbər rəqabət şəraitinin yaradılması;
- ətraf mühitə etik münasibətin vərdişə çevrilməsi;
- biznesin təşkilində və idarə olunmasında qanuniliyin və legitimliyin təmin olunmasına təsir göstərilməsi;
- ictimai rifahın artırılması.

İşgüzar etikanın qlobal səviyyəsi diapazonunda təşkilatların (müəssisələr) aşağıda qeyd edilən kateqoriyalara münasibəti ilə bağlı vəzifələrə xüsusi diqqətin ayrılmasının müstəsna əhəmiyyəti var:

- istehlakçılar (istehsal olunan malın və yaxud məhsulun, müştərilərə göstərilən xidmətlərin yüksək səviyyəsi, marketinqdə tətbiq olunan üsulların dürüstlüyü, müştərilərin şərəf və ləyaqətinə hörmət);
- müəssisənin əməkdaşları (əmək haqlarının rəqabətqabiliyyətli səviyyəsi, əlverişli və sağlam əmək şəraiti, əməyin mühafizəsi və sağlamlıq məsələləri, məşğulluq problemlərinin həll edilməsi zamanı diskriminasiyanın olmaması);
- aksionerlər və investorlar (gəlirlərin ədalətli bölüşdürülməsinə zəmanət, informasiyaların hər bir əməkdaş üçün açıq olması);

- təchizatçılar (qarşılıqlı münasibətlərdə dürüstlük və düzgünlük, münasibətlərin legitimliyi, təzyiqlərin və hədələrin olmaması, açıq informasiya mübadiləsi, hesablamaların vaxtlı-vaxtında icra olunması);
- konkruent təşkilatlar (qarşılıqlı hörmət, açıq bazarlarda məhsul və kapital vasitəsilə qarşılıqlı dəstək, sağlam olmayan rəqabətdən uzaq olmaq);
- yerli əhali (mədəni dəyərlərin, qaydaların, ənənələrin və davranış normalarının qorunması).

Qeyd etmək lazımdır ki, işgüzar etikanın ümumdünya (qlobal) səviyyəsi milli və regional etik kodekslərə və qaydalar külliyatına münasibətdə daha prioritet sayılır [2].

İşgüzar etikanın makro səviyyəsinə milli iqtisadiyyatın, onun ayrı-ayrı sahələri və aspektləri çərçivəsində baxmaq lazımdır. Bu səviyyədə, adətən aşağıdakı anlayışlar inteqrasiya olunur: xüsusi mülkiyyətə və bazar rəqabəti prinsiplərinə hörmət, informasiyaların şəffaflığı, onların hər bir bazar subyekti üçün eyni səviyyədə əlçatan olması, əmək bazarında hər hansı diskriminasiyanın olmaması.

İşgüzar etikanın mikro səviyyəsində isə spektr ayrı-ayrı təşkilatlar və müştərilər səviyyəsinə qədər daralır. Bu səviyyəyə, adətən aşağıdakı əsas prinsiplər aid edilir: kontragentlər, menecerlər, və əməkdaşlar arasında münasibətlərdə inamın yüksək səviyyədə olması, diskriminasiya hallarının yoxluğu, müəssisədə əxlaqi-mənəvi mühitin bərqərar edilməsi. Bu prinsiplərə əməl edilməməsi isə müxtəlif münaqişəli vəziyyətlərin yaranmasına, konkret itkilərin (maliyyə, mal, məhsul və s.) baş verməsinə və gəlirlərin azalmasına səbəb ola bilər. Bu səviyyə, həmçinin insan resurslarının idarə edilməsi sferasında şəxsi etik problemlərin tənzimlənməsini də nəzərdə tutur. Qeyd etmək lazımdır ki, idarəçilik qərarlarının qəbul olunması zamanı problemlərin identifikasiyası və müxtəlif alternativ variantları seçmək üçün müasir biznes-təşkilatlar və müəssisələr daha çox özündə dəyər əmsallarını, norma və qaydaları birləşdirən korporativ kodekslərin və yaxud etik qətnamələrin hazırlanmasına üstünlük verirlər. Lakin hal-hazırda korporativ etikanın təşkilati kodekslərinin formalaşdırılmasında vahid standartlar yoxdur. Bu isə müxtəlif sferaları təmsil edən müəssisələrin fəaliyyətinin spesifik əlamətləri ilə bağlıdır. Bununla belə, etik normaları əks etdirən korporativ kodekslərin demək olar ki, hamısı dörd yanaşma üzərində qurulmuşdur: 1. Utilitarlıq. 2. İndividuallıq. 3. Ədalət prinsipləri. 4. Mənəvi-hüquqi normalar.

Tanınmış Britaniya tarixçisi, London Universitetinin professoru Cefri Alan Xoskinq (1942) iqtisadiyyatın müasir inkişafı modeli haqqında tədqiqatlar apararkən oraqda mövcud olan 4 başlıca çatışmazlıq haqqında yazırdı:

1. Təsərrüfatın mənəvi əsaslarının, etik və mənəvi normalarının nəzərə alınmaması.
2. Rasionallıq prinsiplərinin və şəxsi mənfəətin mənasının düzgün qiymətləndirilməməsi.
3. Ayrı-ayrı kritik situasiyalarda yaranan qeyri-müəyyənlik amillərinə kifayət qədər diqqətin ayrılmaması və bu səbəbdən müxtəlif problemlərin yaranması (qeyd etmək lazımdır ki, informasiya texnologiyalarının çox yüksək inkişaf səviyyəsinə çatdığı və verilənlərin fövqəladə axın təşkil etdiyi müasir dövrdə qərar qəbul edən insan, bütün məlumatlara sahib ola bilmir).
4. Yalnız mübadilə və istehlak prosesində qarşılıqlı əlaqə quran insanın digər sferalarda şüurlu şəkildə özünütəcrid etməsi [1].

Bu gün korporativ dayanıqlılığın (kompaniyanın dayanıqlı inkişafı) qiymətləndirilməsi üzrə kompleks metodikaların yaradılması sahəsində aktiv tədqiqatlar aparılır. Bu metodikaların praktiki əhəmiyyəti isə aşağıdakı vacib elementlərdən ibarətdir:

1. Korporativ dayanıqlılığın qiymətləndirilməsi üzrə kompleks metodikalar strateji, taktiki və operativ xarakterli idarəçilik qərarlarının qəbul edilməsi üçün əlverişli instrumentin yaradılmasına xidmət edəcək.
2. Korporativ dayanıqlılığın qiymətləndirilməsi ilə bağlı kompleks metodikalar "*Stakeholder"lərə* (ing. *stakeholder* - maraqlı, yaxud aidiyyatlı tərəf, - bir sistemdə payı, iştirakı və hüququ olan şəxs və ya təşkilat) imkan verəcək ki, kompleks qiymətləndirməyə əsaslanıb müəssisənin və ya təşkilatın fəaliyyətinə təsir göstərə bilsin və müxtəlif situasiyalarda onun dayanıqlı inkişafını uğurlu şəkildə təmin etsin.

Korporativ dayanıqlılığın xarakterizə olunması zamanı, situasiyaların 4 fərqli forması ortaya çıxır:

1. İqtisadi dayanıqlılıq müəssisələrin (təşkilatlar) maliyyə-təsərrüfat rentabelliliyinin artması, işgüzar aktivliyin yüksəlməsi, ödəmə və kreditləşmə qabiliyyətinin olması, investisiya aktivliliyinin qorunub saxlanması. Bu halda iqtisadi dayanıqlılıq özündə şağıdakı mühüm elementləri birləşdirir: maliyyə, istehsal, marketinq, təşkilat, investisiya.

2. İqtisadi dayanıqlılıq müəssisələrdə çalışan əməkdaşların sosial inkişafının və müdafiəsinin səviyyəsini xarakterizə edən göstəricilər sistemini ifadə edir.

3. Ekoloji dayanıqlılıq müəssisələrin (təşkilatlar) maliyyə-təsərrüfat fəaliyyətinin onun ekoloji təhlükəsizliyi ilə əlaqəsini göstərir, həmçinin istehsal prosesinin ətraf mühitə bütün zərərli təsirinin minimuma endirilməsini əks etdirir.

4. Riskli dayanıqlılıq - risklərin idarə olunması prosesinin məhsuldarlıqla uzlaşdırılması kimi bacarığın olmasını və müəssisənin bazar qiymətinin dayanıqlı inkişafının təmin olunmasını nəzərdə tutur.

Müəssisələrin dayanıqlı inkişafının təmin olunmasında biznes-modelin rolunu xüsusi olaraq qeyd etmək lazımdır. Ümumi mənada biznes-model müəssisənin (təşkilatın) hazırda və gələcəkdə necə olduğunu və olacağını müəyyən edir. O, əyani şəkildə müəssisənin (təşkilatın) bütün mühüm xassə və əlamətlərini ifadə edir. Əksər hallarda biznes-model təşkilatın (müəssisə) mal və məhsulu necə istehsal etməsinin, müştərilərə necə xidmət göstərməsinin və tədricən necə yüksək dəyər kəsb etməsinin məntiqi təsvir kimi müəyyən olunur [4].

Müəssisələrin dayanıqlı inkişafının əsas göstəriciləri sırasında aşağıdakılar xüsusi əhəmiyyət kəsb edir:

1. Müəssisənin daxilində korporativ məsuliyyət standartlarının yüksəldilməsi vasitəsi kimi BMT-nin Qlobal Müqaviləsində (ing. *United Nations Global Compact* - biznesin məsuliyyətinin genişləndirilməsinə istiqamətlənmiş BMT təşəbbüsü) iştirak.

2. Hesabatlılıq - biznes-əməliyyatlarda korporativ məsuliyyətə əməl edilməsi üzrə inteqrasiya qabiliyyətinin olması.

3. Dayanıqlı istehlak və məsuliyyətli istifadə prinsiplərinə istiqamətlənmək.

4. Dayanıqlı inkişaf məsələlərində müəssisə əməkdaşlarının məlumatlılığının artırılması və insan hüquqları haqqında treninqlər.

5. Məcburi əməkdən istifadə edilməsini qadağan edən, korrupsiya ilə mübarizə aparan və ona qarşı mütləq dözümsüzlüyü ifadə edən məqsədli siyasətin olması.

Göründüyü kimi müəssisənin (təşkilatın) idarəçilik sistemində sağlam əxlaqi-mənəvi mühitin yaradılmasında və dayanıqlı inkişafın təmin edilməsində çoxlu sayda elementlər iştirak edir. Həmin elementlərin yüksək səviyyədə formalaşdırılması isə qlobal, makro və mikro səviyyələrdə fəaliyyət göstərən hər hansı müasir müəssisənin (təşkilat, kompaniya və s.) uğurlu fəaliyyətinə zəmanət verən və iqtisadiyyatın dayanıqlı inkişafını təmin edən faktor kimi təzahür edir. Sözügedən elementlərə nəzər yetirdikdə onların hər birinin Ulu öndər Heydər Əliyevin formalaşdırdığı idarəçilik sisteminin yaradıcı gücündən bəhrələndiyinin də şahidi oluruq.

İstifadə edilmiş ədəbiyyat

1. Каз Е.М., Краковецкая И.В., Нехода Е.В., Редчикова Н.А. К14 Бизнес-модели компаний и устойчивое развитие/науч. ред. Е.В. Нехода.- Томск: Издательство Томского государственного университета, 2020. - 214 с. - С. 7

2. Смирнова И.Л., Соловьева М.В. Глобализация в современном контексте управления // Вестник Волжского университета. - 2020. - Т. 2. № 3 (46). - С. 132

3. Соловьева М.В., Смирнова И.Л. Некоторые подходы к оценке устойчивого развития предприятия // Вестник Волжского университета. - 2020. - Т. 2. № 1. - С. 219

4. Стандартизация в устойчивом развитии предприятий: монография / Ю.В.Черных, Г.Н.Иванова, [Электронный ресурс]: / Текст. Даню и граф. Москва, Издательство «Научный консультант», 2020. - 178 с. 111

ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ: YENİ TEXNOLOGİYALARIN TƏSİRİ

[1,2]**Vəfa Tofiq qızı Balakişiyeva,** [1,3]**Leyla Zülfüqar qızı Məmmədova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]vafa.balakishiyeva@mdu.edu.az
[3]leyla.mammadova@mdu.edu.az

Ətraf mühit problemləri ilə insan hüquqları arasında əlaqə 1970-ci illərdən bəri getdikcə daha aydın görünür. Bu əlaqə 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf üzrə Konfransında, Yer Sammiti adlanan, 178 ölkənin hökumətləri tərəfindən Ətraf Mühit və İnkişaf üzrə Rio Bəyannaməsi qəbul edildikdə rəsmi olaraq tanındı. İlk dəfə olaraq beynəlxalq sənəddə, Rio Bəyannaməsinin 10-cu Prinsipində "ekoloji məsələlər bütün aidiyyəti vətəndaşların iştirakı ilə ən səmərəli şəkildə həll olunur" və "hər kəsin məlumat əldə etmək imkanı olmalıdır" açıq şəkildə ifadə edilmişdir. "Qərar qəbuletmə proseslərində iştirak etmək hüququ" həlləri

və ədalət mühakiməsi mexanizmlərindən "səmərəli istifadə etmək bacarığı".

1998-ci ildə Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasına (AİK) üzv dövlətlərin hökumətləri Orxus Konvensiyasını qəbul etdilər. Bu, hələ də Rio Bəyannaməsinin 10-cu prinsipini təsbit edən yeganə hüquqi qüvvəyə malik beynəlxalq müqavilədir. Nəticədə insan hüquqları ilə ətraf mühitin mühafizəsi arasında birbaşa əlaqə geniş şəkildə tanınıb. Məsələn, Avropa İnsan Hüquqları Məhkəməsi bir sıra işlərdə Orhus Konvensiyasına istinad etmişdir.

Sağlamlığınız və rifahınız üçün hər gün yaşadığınız, nəfəs aldığınız, yediyiniz, istirahət etdiyiniz və işlədiyiniz mühitin keyfiyyətindən daha vacib heç nə yoxdur. Cəmiyyətin üzvü kimi Konvensiya sizə məlumat əldə etmək, ictimaiyyətin iştirakı və ətraf mühitlə bağlı məsələlərdə ədalət mühakiməsinə çıxışla bağlı dövlət orqanlarına hüquqlar verir və öhdəliklər qoyur.

Konvensiyaya əsasən, cəmiyyətin üzvlərinə fiziki və ya hüquqi şəxslər, habelə onların təşkilatları, birlikləri və qrupları daxildir. Konvensiya ətraf mühitin mühafizəsi ilə bağlı qeyri-hökumət təşkilatları ilə yanaşı, ətraf mühitin mühafizəsi ilə bağlı məsələlərə dair qərarların qəbul edilməsində maraqlı olan və ya təsirə məruz qalan şəxslərə xüsusi hüquqlar verir. Orhus Konvensiyasının mərkəzi üç hüquqdur ki, bunlardan biri

Konvensiyanın üç əsas komponentində öz əksini tapmışdır:

1. Ətraf mühit haqqında məlumat əldə etmək hüququ;
2. Ekoloji məsələlər üzrə qərarların qəbulu proseslərində iştirak etmək hüququ;
3. Ekoloji məsələlərdə ədalət mühakiməsinə çıxış hüququ.

Orhus Konvensiyasındakı əsas öhdəliklər dövlət orqanlarının üzərinə düşür. Bunlara milli, regional və ya digər səviyyələrdə idarəetmə, habelə dövlət inzibati funksiyalarını yerinə yetirən orqanlar daxildir. Konvensiyadan irəli gələn öhdəliklər, həmçinin dövlət orqanlarının nəzarəti altında ətraf mühitlə bağlı dövlət vəzifələrini yerinə yetirən fiziki və hüquqi şəxslərə, məsələn, enerji və su təchizatına cavabdeh olan kommunal xidmətlərə də şamil edilir.

Son onilliklərdə texnologiya və texnologiyanın sürətli inkişafı insan həyatının bütün sahələrində ən mühüm elmi kəşflərə, eləcə də bir çox ölkələrin iqtisadiyyatının böyüməsinə və güclənməsinə səbəb olmuşdur. Bir vaxtlar Yaponiya kimi aqrar və iqtisadi inkişafda geridə qalmış ölkələr elmi-texniki tərəqqinin bəhrələrini mənimsəmək, inkişaf etdirmək və həyata keçirmək yoluna qədəm qoyub, texnoloji və nəticədə iqtisadi inkişafda inanılmaz zirvələrə çatmışlar.

Halbuki insan bu cür sürətli inkişaf üçün yüksək qiymət ödəməli idi. Geniş istehlak dövrümüzdə avadanlıq və texnologiyanı təkmilləşdirməklə insanlar ətraf mühiti çirkləndirir, ətraf mühitə və öz sağlamlıqlarına zərər vururlar. Alimlərin fikrincə, planetimizdə temperaturun 2 dərəcədən çox artması geri dönməz nəticələrə - buzlaqların əriməsinə, daşqınlara, quraqlıqlara və sunamilərə səbəb olacaq. İstiləşməni dayandırmaq üçün 1990-cı illə müqayisədə növbəti 40 il ərzində istixana emissiyalarını 80 faiz azaltmalıyıq.

Bu gün bir çox şirkət ekoloji problemlərin həllində fəal iştirak edir, öz fəaliyyətləri ilə ətraf mühitə vurduğu zərəri azaltmağa çalışır. Şirkətlər daxilində bütöv ekoloji departamentlər yaradılır, ətraf mühitin mühafizəsi şirkətin fəlsəfəsinin bir hissəsinə çevrilir, iqlimin və ümumilikdə ətraf

mühitin mühafizəsinin təşviqi üçün hər cür fəaliyyət həyata keçirilir, quru və dəniz atmosferinə zərərli maddələrin atılması azaldılır, təhlükəsiz utilizasiyası və istehsal tullantılarının təkrar emalı inkişaf etdirilir. Milli və transmilli korporasiyaların bu siyasəti həm şirkətin rəhbərliyinin və işçilərinin bu problemə yanaşmasını, həm də bütün milli dövlətlərin ətraf mühitin mühafizəsinə münasibətini əks etdirir.

Suni intellekt. İntellekt sözü ingiliscə analoqu olan intellekt olan "ağıl" deyil, "ağıllı düşünmə qabiliyyəti" deməkdir.

"Kəşfiyyat" anlayışının və hətta ilkin "zəka" termininin qeyri-müəyyənliyinə görə başqa təriflər də mövcuddur. Məsələn, informasiya texnologiyaları müəyyən bir mürəkkəblik sinfinin problemlərini həll etmək və bu problemləri həll etmək üçün öz-özünə öyrənmə zamanı sistemin proqramlar (ilk növbədə evristik) yaratmaq qabiliyyəti kimi müəyyən edilir.

Süni intellektin müəyyən edilməsi üçün empirik test 1950-ci ildə Alan Turinq tərəfindən təklif edilmişdi, o vaxt belə bir termin hələ mövcud deyildi. Bu testə görə, düşünmə maşını onunla söhbət edən insanın səhv saldığı maşındır.

Süni intellekt sistemlərinin yaradılması üçün bir çox yanaşma var. Onlardan ən populyarı neyron şəbəkədən istifadə edən maşının sınaq və səhv yolu ilə ətrafındakı dünyanı öyrəndiyi evristik yanaşmadır. "Müəllimsiz öyrənən" ehtimal maşın ideyası ilk dəfə 1956-cı ildə Con Makkartinin "süni intellekt" terminini işlətdiyi həmin Dartmund konfransında Rey Solomonoff tərəfindən təklif edilmişdir.

Hazırda süni intellekt sahəsi əsas deyil, süni intellektlə praktik əlaqəsi olan bir çox mövzu sahələrinin cəlb olunduğunu görür. Bir çox yanaşmalar sınaqdan keçirilib, lakin hələ heç bir tədqiqat qrupu süni intellektin yaradılmasına yanaşmayıb.

Böyük şirkətlərin müsbət imici və məsuliyyətli münasibəti onların kapitalının artmasına və daha da bütün milli dövlətin iqtisadiyyatının yüksəlməsinə səbəb olur. Beləliklə, korporasiyalar tərəfindən ətraf mühitin mühafizəsi üzrə belə tədbirlər kompleksi planlı və yaxşı həyata keçirilən marketinq siyasətinin bir hissəsinə çevrilir və milli dövlətə müsbət iqtisadi təsir göstərir.

Siyasət, iqtisadiyyat, hüquqi tənzimləmə və marketinq, bir tərəfdən, ətraf mühiti tərəqqinin zərərli təsirlərindən qorumaq üçün tədbirlərin həyata keçirildiyi ictimai həyatın bütün sahələri, digər tərəfdən isə birbaşa təsir rıçaqlarıdır. planetin çirklənmədən qorunması ilə bağlı konkret dövlətin və ya şirkətin öhdəliklərinin yerinə yetirilməsinə hansı nəzarətin həyata keçirildiyi. Bütün dünya üzrə şirkətlərin ətraf mühitin mühafizəsi tədbirləri üçün xərclərinin səviyyəsi həm onun rəhbərliyinin bu problemə şəxsi münasibətini əks etdirə bilər, həm də bu məsələdə milli dövlətin siyasətinin əksi ola bilər. Lakin bu cür tədbirlər həm də şirkətin və ya bütövlükdə dövlətin müəyyən iqtisadi və ya siyasi məqsəd güddüyünü göstərə bilər. Beləliklə, şirkət öz xidmətlərinə və ya məhsullarına müştərilərin inamını artırmağa və müvafiq olaraq kapitalını artırmağa, dövlət isə məsələn, investisiya cəlbediciliyini artırmağa çalışa bilər.

Avropanın ətraf mühit qanunları və qaydaları olduqca sərtdir; Avropa səlahiyyətliləri onların inkişafına və uyğunluğuna daha çox diqqət yetirirlər. IKEA öz fəlsəfəsini ətraf mühitin mühafizəsi baxımından Avropa İttifaqının tələbləri ilə uyğunlaşdırmağa çalışır və bununla da onun izlədiyi siyasi xəttə uyğun gəlir.

Beynəlxalq fəaliyyəti, xüsusən də şirkətlərin ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətini tənzimləyən ən mühüm rıçaq hüquqdur. Avropa Birliyinin ətraf mühit siyasəti və Aİ-nin ətraf mühit hüququ son otuz il ərzində mövcud olub və inkişaf edib.

Ətraf mühitin mühafizəsi fəaliyyətinin inkişafının və Aİ-nin səlahiyyətlərinin hazırkı mərhələsində icmanın ekoloji siyasətinin həyata keçirilməsinin hüquqi əsası 1957-ci il tarixli Avropa Birliyi haqqında Müqavilənin müddəaları ilə qoyulur. AB Müqaviləsi "Ətraf mühit", maddələr 174-176. Ətraf mühitin mühafizəsi Avropa Birliyinin ən mühüm məqsədlərindən biridir. Aİ-nin təsis müqaviləsinin məzmununa əlavə dəyişiklikləri nəzərdə tutan 1997-ci il Amsterdam Müqaviləsi də Avropa İttifaqı haqqında Müqavilənin mətnində ekoloji yönümlü fəaliyyət prinsipini təsbit etdi (Maddə 6). Avropa Birliyi 1992-ci ildə Ətraf Mühit və İnkişaf Konfransında elan edilmiş BMT-nin rəsmi strategiyası olan davamlı inkişaf konsepsiyasına sadiqliyini vurğulayır.

Tarixə nəzər salsaq belə ki, XVIII əsrdə Avropada başlayan Sənaye İnqilabı Təbiət və insan münasibətlərində əhəmiyyətli dəyişikliklər etdi. Hələlik insan digər canlılar kimi öz ekosisteminin təbii komponenti olub, onun maddələr dövriyyəsinə uyğunlaşıb və onun qanunlarına uyğun yaşayıb.

Neolit inqilabı dövründən, yəni əkinçiliyin, sonra isə maldarlığın icad edildiyi dövrdən başlayaraq insanla Təbiət arasındakı münasibət keyfiyyətcə dəyişməyə başladı. İnsanın kənd təsərrüfatı fəaliyyəti tədricən öz qanunlarına uyğun yaşayan aqrosenozlar adlanan süni ekosistemlər yaradır: onları saxlamaq üçün daimi, diqqətli insan əməyi tələb olunur. Onlar insan müdaxiləsi olmadan mövcud ola bilməzlər. İnsan yerin bağırsaqlarından getdikcə daha çox mineral çıxarır. Onun fəaliyyəti nəticəsində təbiətdə maddələrin dövriyyəsinin xarakteri dəyişməyə başlayır, ətraf mühitin xarakteri isə dəyişir. Əhali artdıqca və insanların ehtiyacları artdıqca onun ətraf mühitinin xüsusiyyətləri getdikcə daha çox dəyişir.

Eyni zamanda insanlara elə gəlir ki, onların fəaliyyəti həyat şəraitinə uyğunlaşmaq üçün lazımdır. Lakin onlar bu uyğunlaşmanın yerli xarakter daşıdığını, həmişə deyil, bir müddət özləri üçün yaşayış şəraitini yaxşılaşdırmaqla, eyni zamanda onları qəbilə, qəbilə, kənd, şəhər və hətta gələcəkdə özləri üçün. Məsələn, siz öz həyətinizdən tullantıları atırsanız, başqasınınkini çirkləndirmiş olursunuz ki, bu da sonda sizin üçün zərərli olur. Bu, təkcə kiçik şeylərdə deyil, böyük işlərdə də olur.

Ancaq çox yaxın vaxtlara qədər bütün bu dəyişikliklər o qədər yavaş baş verdi ki, heç kim onlar haqqında ciddi düşünmürdü. İnsan yaddaşı, əlbəttə ki, böyük dəyişiklikləri qeyd etdi: Avropa hələ orta əsrlərdə keçilməz meşələrlə örtülmüşdü, ucsuz-bucaqsız tüklü otlu çöllər tədricən əkin sahəsinə çevrildi, çaylar dayazlaşdı, heyvanlar və balıqlar azaldı.

Sənaye inqilabının başlaması ilə vəziyyət sürətlə dəyişməyə başladı. Bu dəyişikliklərin əsas səbəbləri karbohidrogen yanacaqlarının - kömür, neft, şist, qazın çıxarılması və istifadəsi idi. Və sonra - böyük miqdarda metalların və digər faydalı qazıntıların çıxarılması. Təbiətdəki maddələrin dövriyyəsinə keçmiş biosferlərin saxladığı maddələr - çöküntü süxurlarında olan və artıq dövriyyədən çıxmış maddələr daxil olmağa başladı. İnsanlar bu maddələrin biosferdə suyun, havanın, torpağın çirklənməsi kimi görünməsindən danışmağa başladılar. Belə çirklənmə prosesinin intensivliyi sürətlə artdı. Yaşayış şəraiti nəzərəçarpacaq dərəcədə dəyişməyə başladı.

Bu prosesi ilk hiss edənlər bitkilər və heyvanlar olub. Canlılar aləminin sayı və ən əsası müxtəlifliyi sürətlə azalmağa başladı. Bu əsrin ikinci yarısında Təbiətə zülm prosesi xüsusilə sürətlənmişdir.

Keçən əsrin altmışıncı illərində Moskva sakinlərindən birinin Herzenə yazdığı məktub məni təəccübləndirdi. Mən onu demək olar ki, hərfi sitat gətirirəm: "Bizim Moskva çayımız yoxsullaşıb. Təbii ki, indi də bir kilo nərə balığı tuta bilərsən, amma babamın ziyarətçilərə xoş münasibət bəslədiyi sterleti tuta bilməzsən." Bunun kimi! Və cəmi bir əsr keçdi. Hələ də çayın sahillərində çubuqlu balıqçıları görmək olar. Və bəzi insanlar təsadüfən sağ qalan hamamböcəyi tutmağı bacarırlar. Ancaq artıq "insan istehsalının məhsulları" ilə o qədər doymuşdur ki, hətta bir pişik belə yeməkdən imtina edir. Təbii mühitdə baş verən dəyişikliklərin, yəni insanın özünün nəzarətsiz fəaliyyətinin və eqoizminin onun sağlamlığına, yaşayış şəraitinə, gələcəyinə təsirini öyrənmək problemi insan qarşısında dayanır.

İstifadə edilmiş ədəbiyyat

1. https://cyberleninka.ru/article/n/zaschita-okruzhayuschey-sredy-kak-dan-planete-i-element-marketingovoy-politiki-rossiyskih-i-zarubezhnyh-firm-v-sravnenii
2. https://unece.org/DAM/env/pp/Publications/1326763_R_pdf_web.pdf
3. https://www.edu.severodvinsk.ru/after_school/obl_www/2013/work/sosh6/
4. https://indicator.ru/amp/label/iskusstvennyj-intellekt

HEYDƏR ƏLİYEV İRSİ VƏ AZƏRBAYCAN GƏNCLİYİ

Rima Zəhməd qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
rima.mammadova@mdu.edu.az

"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşlarıdır. Əgər buna nail ola bilsəm, mən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna nail olmağa çalışıram və çalışacağam".

(*Heydər Əliyev)*

Hər il Azərbaycan xalqı tarixi bir hadisəni- müstəqil dövlətimizin memarı və qurucusu, dünya azərbaycanlılarının milli iftixarı, dövlət quruculuğu strategiyasının müəllifi, Ümummilli lider, xalqımızın Ulu öndəri Heydər Əliyevin anadan olmasının ildönümünü böyük təntənə ilə qeyd edir.

Türk dünyası bəşəriyyət tarixinə hər yüzillikdə, heç olmasa, böyük bir dahi şəxsiyyət bəxş edir ki, onun ziyası, fikri və əməlləri əsrlər boyu yaşayır, yaşadır, nəsilləri, xalqları və millətləri rövnəqləndirir, yollarına nur saçır. XIX əsrdə dünyaya ölməz, əbədiyaşar Mustafa Kamal Atatürk gəlibsə, XX əsr bəşəriyyətə Azərbaycanın müdrik oğlu, dövrümüzün ən böyük siyasi və dövlət xadimi Heydər Əliyevi bəxş edib.

Müasir Azərbaycan dövlətinin qurucusu, xalqının və dövlətinin inkişafı naminə əvəzsiz işlər görmüş Ümummilli lider Heydər Əliyev hər zaman qurur hissi ilə xatırlayacağımız dahi bir şəxsiyyətdir. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan bir şəxsiyyətdir. Azərbaycan tarixinin ən ağır zamanında - 1993-cü ilin iyun ayından etibarən ikinci dəfə respublika rəhbərliyinə qayıdan Ulu Öndər bu dövrdən başlayaraq ölkədə baş verən proseslərin və həyata keçirilən islahatların bütün istiqamətlərinin təşkilatçısı olmuşdur [3].

Heydər Əliyev ömrünün əlli ilindən çoxunu Azərbaycan xalqının inkişafına həsr etmiş, öz saf mənəviyyat xəzinəsini insanların rifahının yaxşılaşdırılmasına yönəltmişdir. O öz fəaliyyətini bütövlükdə əks etdirən bir əbədi irs qoymuşdur. Dahi şəxsiyyətin zəngin irsi Azərbaycan xalqının milli sərvətidir, bu sərvətdən xalqımızın hər bir nümayəndəsinə - hər bir elm, təhsil, mədəniyyət xadimlərinə, siyasətçiyə, dövlət adamına pay düşür . Bu bir tarixi həqiqətdir ki, hər bir Azərbaycan vətəndaşı həm indi, həm də qarşıdakı dövrlərdə artıq tarixə qovuşmuş Ulu Öndər irsindən faydalanacaq və digər problemlərin həllində onun zəkasından istifadə ediləcək.

Heydər Əliyevin Azərbaycan tarixi irsinin qorunması istiqamətindəki fəaliyyətini iki əsas dövrə bölmək olar: Azərəbaycan SSR-ə rəhbərlik etdiyi dövrdəki fəaliyyəti və müstəqillik illərindəki fəaliyyəti. Hesab edirik ki, ulu öndərin Azərəbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə tarixi irsimizin qorunması ilə bağlı atdığı əməli addımlar istər öz məzmununa, istərsə də əhəmiyyətinə görə daha önəmlidir. Məlumdur ki, sovet hakimiyyəti illərində "Kreml" qonşu respublikalarla müqayisədə Azərbaycan xalqının tarixinə, xalqımızın tarixən yaratdığı zəngin mədəni irsə böyük qısqanclıqla yanaşır, hər vasitə ilə tarixi irsin təbliğinə mane olur, xalqın öz milli-mənəvi kökündən qopardılması istiqamətində məqsədyönlü siyasət həyata keçirirdi. Məhz belə bir dövrdə, sovet təbliğat maşınının xalqımızın tarixi irsinə qarşı yönəldiyi bir zamanda bu irsi qorumaq və onu təbliğ etmək, əlbəttə ki, Heydər Əliyev cəsarətinin təntənəsi idi [8].

Heydər Əliyev təkcə Azərbaycanda yox, bütün dünya dövlətlərində tanınan dahi şəxsiyyət, qüdrətli insan idi. Onu bir vaxtlar türk dünyasının dahi şəxsiyyəti, lideri hesab edirdilər. Sonralar Sovetlər Birliyində siyasi büroya üzv seçilən zaman türk mətbuatı fəxrlə yazmışdı: "Türk oğlu Kremlin zirvəsindədir". Ümumilli liderin ölümündən sonra: " Heydər Əliyevdən sonra dünya elə bil balacalaşdı" dedilər.

1993-cü il iyun ayının 15-də Ali Sovetin kürsüsündə Heydər Əliyev demişdir: "Mən Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi və inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən hesab eedirəm". O son nəfəsinə kimi bu andına sadiq qalan dahi şəxsiyyət, millət atası idi.

Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinin real siyasi amilə çevrilməsi oldu. Heydər Əliyev dühasının Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də azərbaycançılq ideologiyasını inkişaf etdirməsi oldu. Azərbaycançılıq xalqımızın çox böyük əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün qüdrətli bir vasitədir. "Azərbaycançılıq" ideologiyası "azərbaycançılq" ideyalarından törəmişdir ki, bu ideyaların da ilk rüşeymləri Heydər Əliyev tərəfindən məhz onun Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə qoyulmuşdur. Azərbaycan təkrar öz müstəqilliyinə qovuşduqdan sonra, Heydər Əliyevin Prezidentliyi dövründə "azərbaycançılıq" dövlətin əsas ideologiyasına çevrildi. Azərbaycançılığa yüksək milli-mənəvi sərvət kimi yanaşan Heydər Əliyev çıxışlarının birində deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideologiyası azərbaycançılqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Biz azərbaycançılığı, yəni Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır" [4].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndər haqqında deyirdi: "Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir" [6].

Heydər Əliyev təhsilə xüsusi yer verirdi, qayğı göstərirdi. O deyirdi: " Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun , nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəlliminə kömək etməlidir".

Bu gün Azərbaycanın ən ucqar kəndlərində belə müasir tipli, bütün tələblərə cavab verən məktəb binaları tikilib və tikilməkdədir. Belə geniş , hər bir cəhətdən təmin olunmuş sinif otaqlarında dərs alan Azərbaycan məktəblisinin qəlbində gələcəyimizi inamla dolu bir guşə vardır. Bu, Heydər Əliyev guşəsidir.

Gənclik elə qüvvədir ki, məhz onun təhsili və elmi sayəsində dövlətin gələcəyi qurulur. Buna görə də Heydər Əliyev gənclərə diqqətlə və qayğı ilə yanaşır, bütün sahələrdə düzgün istiqamətləndirilməsinə kömək edirdi. Gənclərin istənilən sahədə düzgün istiqamətləndirilməsi ölkənin gələcəyinin inkişafında və onun qorunub-saxlanılmasında əsas amillərdəndir. Heydər Əliyev həm birinci, həm də ikinci hakimiyyət dövründə gənclərin qarşısında duran problemləri kökündən həll etməyə köməklik etdi. Bu baxımdan azərbaycan gəncliyinin təşkilatı yaranmasına zərurət doğruldu. 1994-cü il iyulun 26-da Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclər cəmiyyətin ayrılmaz hissəsidir. Dövlətimizin təhlükə altında qaldığı bir vaxtlarda Heydər Əliyev gənclərlə görüşür, onların fikir və mülahizələrini dinləyirdi. O dövrdən başlayaraq Azərbaycan gəncliyi hər tərəfli iknişaf etdi istər elm sahəsində istər ictimaifəalliq işlərində istərsə də vətənpərvərlikdə. Vətnimizin bugünü də gələcəyi də gənclərimizin fəaliyyətindən aslıdır. Vətən uğrunda, torpaq uğrunda Qabağa gedənlərin əksəriyyəti gənclər idi. Gənclərimizin yüksək vətənpərvər ruhda olması hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarıxı görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Qələbənin təməlində sözsüz ki, Heydər Əliyev siyasəti, uzaqgörənliyi, düzgün mövqe tutmuş, vətənpərvərlik ruhda inkişaf edən gənclik və Heydər Əliyev məktəbin davamçısı Ali baş komandan İlham Əliyev durur [5].

Dahi şəxsiyyətin keçdiyi həyat yolu, fəaliyyəti biz gənclər üçün örnəkdir. Biz bu hahi şəxsiyyətdən xalq üçün yaşamağı öyrənməliyik. Axı ümummilli liderimiz demişdir ki, öz xalqı üçün

yaşayan adam xoşbəxtdir. Heydər Əliyev şəxsiyyəti hələ axıradək öyrənilməmişdir. Misilsiz dövlət xadimi kimi ən nadir, çıxılmaz hesab olunan vəziyyətdən vətən üçün, xalq üçün ən yaxşı çıxış yolu tapmaq bacarığı Ulu Tanrının ona bəxş etdiyi ilahi vergi idi. Bütün bunların hamısı bir keyfiyyət altında birləşir: Heydər Əliyev böyük azərbaycanlıdır. Sovet İttifaqının yüksək vəzifələrində çalışarkən də, müstəqil Azərbaycanı idarə edərkən də onun bir məqsədi olnuşdur: doğma Vətəni güclü , qüdrətli etmək, onun imzasını dünya dövlətlərinin imzasına qatmaq. Heydər Əliyev Azərbaycanı bütün azərbaycanlılar üçün qoruyub saxladı. Vətənpərvər dahi şəxsiyyət söyləmişdir ki, xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir. Ulu Öndərin tarixin amansız və acı dövrlərində dünyanın ayrı-ayrı ölkələrinə səpələnərəkyaşayan azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi istiqamətində misilsiz xidmətləri vardır.

Heydər Əliyev mübariz şəxsiyyət idi. O, 1993-cü ilin iyununda xalqın və dövlətin ölüm-dirim dilemması qarşısında qaldığı dövrdə təbiətin ona bəxş etdiyi misilsiz sərkərdəlik istedadını ortaya qoyaraq düşmənlərimizə qarşı böyük savaş açdı. Xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirərərək, müstəqilliyimizə əbədiyyət möhürü vurdu. Ulu Öndərin mübarizə ruhu, sərkərdəlik dühası qarşısında bütün qüvvələr diz çökdü. Bütün təhdidlərə və təhlükələrə baxmayaraq, Ulu Öndər tarixin ona bəxş etdiyi bu adı əsl generala xas olan üslubda tərənnüm etdi, bir addım belə geri çəkilmədi, bir an belə tərəddüd etmədi. Ulu Öndər bilirdi ki, onun öz xilaskarlıq missiyasını yarımçıq qoymağa, mücadilə meydanını qəfil tərk etməyə, cahillərin, eqoistlərin və diletantların zəfər çalmasına, haqsızlığın, zorakılığın və özbaşınalığın bərqərar edilməsinə yol verməyə haqqı yoxdur [2].

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycan bu gün müzəffər rəhbərimiz, cənab İlham Əliyevin rəhbərliyi altında yeniliyə, tərəqqiyə və gəncliyə əsaslanan yeni bir dünyanın inşasını reallaşdırır. Artıq mütərəqqi düşünən bəşəriyyət, ədaləti müqəddəs dəyər kimi qiymətləndirən və qoruyan insanlar Azərbaycan xalqının və onun müdrik rəhbəri İlham Əliyevin Ümummilli lider Heydər Əliyevdən miras qalmış müqəddəs idealları necə yüksək əzmlə, rəşadətlə və tükənməz enerji ilə reallaşdırmasının, innovasiyalara, dinamik iqtisadi inkişafa və yeni düşüncəyə əsaslanan tərəqqi dövrünü yaşamasının şahidi olur. Bu tərəqqinin dönməz və əbədi olacağı da heç şübhə doğurmur [2].

Beləliklə, bu gün dünya xəritəsində "Azərbaycan" adlanan nüfuzlu, Ulu öndər Heydər Əliyevin möhtəşəm əməyi sayəsində özünün bütün təbii resurslarını və insan potensialını səfərbər etməyi bacarmış qüdrətli bir dövlət və qürurlu bir xalq var. Onun tarixin bütün sınaqlarına tab gətirəcək və dünya durduqca duracaq sütunlarında isə Heydər Əliyevin əbədiyaşar möhürü vurulmuşdur [7].

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərova E.H.," Ulu öndər Heydər Əliyevin banisi olduğu Azərbaycan multikulturalizmi" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-Nəzəri konfransın materialları (4may 2021 – ci il). Mingəçevir, 2021, səh.44-47.

2. Cəfərova E.H.," Heydər Əliyev: milli qurtuluşumuzun sərkərdəsi" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda Respublika elmi konfransının materialları (4-5 may 2023-cü il). Mingəçevir, 2023, s.80-83.

3. Əyyubov V.S. Heydər Əliyev milli iqtisadi inkişaf strategiyasının müəllifidir / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda Respublika elmi konfransının materialları (4-5 may 2023-ci il). Mingəçevir, 2023, s.31-33.

4. Əzizova Z.M.," Heydər Əliyev dühası yüksəliş yollarına işıq salır" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən

Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-Nəzəri konfransın materialları (4may 2021-ci il). Mingəçevir, 2021, s.47-49.

5. Həsənov E.R, Xəlilova Ş.Q.," Xalqına və Azərbaycan ölkəsinə həsr olunan ömür, Heydər Əlirza oğlu Əliyev ömrü" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda Respublika elmi konfransının materialları (4-5 may 2023-cü il). Mingəçevir, 2023,s.148-151.

6. Qədimli N.A., "Heydər Əliyev Azərbaycanın davamlı iqtisadi inkişafının banisidir" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda Respublika elmi konfransının materialları (4-5 may 2023-cü il). Mingəçevir, 2023, s.68-73.

7. Məhərrəmova V.E.,""Azərbaycan" adını dünya tarixinə qızıl hərflərlə yazdırmış lider" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-Nəzəri konfransın materialları (4 may 2021-ci il).Mingəçevir, 2021, s. 54-56.

8. Zeynalov N.D.," Azərbaycanın tarixi irsinin qorunmasında Heydər Əliyev fenomeni" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən Müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-Nəzəri konfransın materialları (4 may 2021-ci il).Mingəçevir, 2021, s.41-44.

KÜLƏK ELEKTRİK STANSİYALARINDA KÜLƏK ÇARXLARININ TARAZLAŞDIRILMASI

Elsevər Sadəddin oğlu Cəfərli
Mingəçevir Dövlət Universiteti
elsever.ceferlii@mdu.edu.az

Məlumdur ki, külək enerjisindən elektrik enerjisinin alınması üçün küləyin sürətinin minimum 4 m/san olması vacib sayılır. Külək enerjisindən maksimum faydalanmaq məqsədi ilə nəzərədə tutulan stansiyalar relyef və iqlimi nəzərə alaraq qurulmalıdır. Təbii ki, küləyin sürətindən, çarxın ölçülərindən, qüllənin hündürlüyündən asılı olaraq, elektrik enerjisinin istehsal səviyyəsi də artmaqdadır. Lakin bütün bunlarla yanaşı, küləyin sürəti özünün maksimum qiymətlərini aldıqda, pərlərin, çarxın fırlanma sürətini də tənzimləmək və tarazlaşdırmaq lazım gəlir. Həmçinin böyük ölçülü, tezgedişli külək çarxlarında sakitgedişli külək çarxlarına nəzərən böyük fırlanma bucaq sürətinin yaranması, onda böyük mərkəzdənqaçma qüvvələrinin yaranmasına da səbəb olur ki, bu da öz növbəsində pərlərin möhkəmliyinə olan tələbatı artırmaqla, düzgün tarazlaşdırılması məsələsini də meydana gətirir [2] .

Pərin mərkəzdənqaçma qüvvəsi uyğun olaraq aşağıdakı kimi hesablanır.

$$P_{m.q}= m\omega^2 r=G\,\omega^2 r/g \quad [N]\ [kQ]$$

burada: m - pərin elementlərinin kütləsi, ω-bucaq sürəti, r - tədqiq olunan pər elementinin mərkəzdən olan məsafəsidir.

Həmin qüvvə pərin hər hansı bir hissəsinə təsir etməklə pərin düzgün fırlanmamasına, titrəmələrə, tez sıradan çıxmasına, mühərrikin işinin pozulmasına və s. gətirib çıxarır. Bu səbəbdən fırlanma valı möhkəm olmaqla yanaşı, pərlər düzgün tarazlaşdırılmalıdır. Digər qurğularda olduğu kimi külək çarxlarında da qeyri-tarazlaşdırılmanın buraxıla bilən həddi gözlənilməli və bu həddən kənara çıxılmamalıdır.

Külək çarxının diametri (m)	2	3,5	5	10
Buraxıla bilən qeyri- tarazlıq həddi (q)	5	15	25	100

Külək mühərriklərinin çarxlarının tarazlaşdırılmasında 2 üsuldan istifadə edirlər:

1) Statistik tarazlaşdırılma

2) Dinamik tarazlaşdırılma

Bir çox hallarda ikipərli tezgedişli külək çarxları statsitik tarazlaşdırılır. Belə ki, ikipərli çarx horizontal vəziyyətdə yerləşdirilərək tarazlaşdırılır. Əgər pərin hansısa bir hissəsində kütlə çatışmazlığı varsa, həmin hissəyə əlavə kütlə birləşdirilir. Bu proses eynilə avtomobil təkərlərinin balanslaşdırılması prinsipinə oxşar məsələdir və öz növbəsində bır sıra üstünlüklərə malikdir. Bu tarazlaşdırılmada yüksək hündürlüklü və böyük həcmli sexlərin qurulması zərurəti yaranmır ki, bu da iqtisadi cəhətdən çox əlverişli sayılır və üçpərli külək çarxlarının tarazlaşdırılmasında da istifadə etmək mümkündür.

Çoxsaylı pərləri və böyük diametrə malik olan çarxlar isə horizontal vəziyyətə gətirilərək, pərin altına şar qoyulması ilə tarazlaşdırılır [1].

Statistik tarazlaşdırılma ilə yanaşı tezgedişli külək çarxlarının dinamiki tarazlaşdırılması da lazım gəlir. Bunda əsas mahiyyət isə ağırlıq mərkəzinin pərlərin hərəkət etdiyi fırlanma müstəvisində yerləşdirilməsidir. Bu zaman dinamiki moment aşağıdakı kimi hesablanır:

$$M_{din} = 2P_{m.g} \cdot \varepsilon = 2 \cdot G/9{,}81 \cdot \omega^2 r \cdot \varepsilon \ \ [kq \cdot sm]$$



Məsələyə başqa nöqteyi-nəzərdən də yanaşmaq mümkündür. Belə ki, istehsal olunan enerji, küləyin sürətinə mütənasib olaraq dəyişdiyi üçün qeyri-sabit olur və bu enerjinin ümumi elektrik sisteminə verilməsi zamanı miqdar dəyişkənliyinin təsiri azalır, çatışmayan enerji sistem tərəfindən kompensasiya olunur. Lakin, külək elektrik stansiyalarının ümumi güc balansında mühüm yer tutması və gücünün artması, bu prosesi olduqca çətinləşdirir. Bu səbəbdən külək elektrik stansiyalarının gücü, qoşulduğu elektrik sisteminin gücünün 20-25 %-indən çox olan zaman, tənzimlənmə prosesinin idarə edilməsi zərurəti yaranır [1].

Küləyin 8-9 m/san və daha çox sürətlərində külək elektrik stansiyası enerji tələbatçılarını tam olaraq təmin edə bilir. Küləyin sürətinin 8 m/san-dən aşağı düşdüyü hədlərdə generatorun fırlanma sürəti azalaraq istilik mühərrikindən əlavə güc alır ki, bu da əlavə yanacaq sərfiyyatına zərurət yaradır. Bu mühərrikdə yaranan güc isə külək mühərrikində itən gücü kompensasiyalaşdıraraq aqreqatların stabil işləməsinə kömək edir.

Küləyin sürətinin 4,5 m/san-dən aşağı hədlərində isə külək mühərrikinin sürüşən muftası onu generatordan ayıraraq onu paralel mənbəyə qoşur. Küləyin orta illik sürətinin 4,5 m/san hədlərində yanacağa 25 %; 6,5 m/san hədlərində isə 50 % qənaət edilmiş sayılır.

İstifadə edilmiş ədəbiyyat

1. Bəşirov M.M., Nəbiyev N.D. "Külək qurğularının konstruksiya edilməsi və hesabı", Bakı, AzTU, 2021.

2. Bəşirov M. M., Həsənov V. H. "Bərpa olunan enerji mənbələri və qurğuları", Bakı, 2011.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XARİCİ SİYASƏTİNİN QURUCUSU VƏ MEMARIDIR

Kəmalə Cahangir qızı Hüseynova
Mingəçevir Dövlət Universiteti
kemale.huseynova@mdu.edu.az

Dünya xarici siyasətində belə bir deyim məşhurdur: "Tarixi şəxsiyyətləri zaman yetişdirir". Bir çox xalqların dövlətçilik tarixində misilsiz xidmətləri olmuş siyasi liderlər vardır. Heydər Əliyev fenomeni təkcə Azərbaycan xalqının deyil, dünya siyasi tarixində özünəməxsus yeri və rolu olan bir şəxsiyyətdir. Ulu öndər Heydər Əliyevin irsi, uzaqgörəni siyasi xadim kimi fəaliyyəti, zəngin idarəetmə təcrübəsi və şəxsi nüfuzu sadəcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da daim diqqətlə araşdırılmış, bir çox tədqiqat işlərinin əsas aspektlərindən birini təşkil etmişdir. Xüsusən nəzərə almaq lazımdır ki, Ümummilli liderin siyasi hakimiyyətə yenidən qayıtdığı dövr ölkə daxilində siyasi anarxiya, özbaşınalıq və heç bir siyasi səriştəsi olmayan qrupların əlində oyuncağa çevrilmiş bir rejimin "miras qoyduğu" siyasi hakimiyyət, eyni zamanda, ərazisinin bir hissəsi Ermənistan və Dağlıq Qarabağ separatçıları tərəfindən işğal olunmuş, ölkədə qaçqın və məcburi köçkünlərlə bağlı acınacaqlı vəziyyət yaranmışdır. Parçalanmış vəziyyətdə olan, iqtisadiyyatı çökmüş, xarici siyasətdə öz haqq səsini dünya ictimaiyyətinə çatdırmaqda çətinlik çəkən bir ölkəni düşdüyü bu ağır vəziyyətdən yalnız Heydər Əliyev kimi dahi şəxsiyyət xilas edə bilərdi. Heydər Əliyev hələ Naxçıvanda Ali Sovetin sədri olduğu vaxtlarda Naxçıvanı iqtisadi blokadadan xilas etmək, bölgədə siyasi sabitliyə nail olmaq üçün istər Türkiyə Cümhuriyyətinin o zamankı Baş naziri və sonra prezidenti seçilmiş Süleyman Dəmirəllə, istərsə də İranın dövlət və hökumət rəhbərləri ilə görüşləri zamanı mövcud problemləri dilə gətirməkdən çəkinməmiş və tərəflər arasında aparılan uğurlu diplomatik danışıqların nəticəsində mart ayını 24-də 1992-ci ildə Ankarada Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında əməkdaşlıq protokolu imzalanmış, Türkiyə Cumhuriyyətindən ərzaq,silah yardımı alınmış, bölgənin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması üçün hər iki ölkədən elektrik enerjisinin alınmasına dair sazişlər bağlanmasına nail olmuşdur. Türkiyə Cumhuriyyəti ilə münasibətlərin möhkəmləndirilməsinə xüsusi önəm verən Ulu öndər "Bir millət, iki Dövlət" devizinin sadəcə sözdə deyil, əməldə də var olduğunu Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra da davam və inkişaf etdirlməsinə nail olmuşdur. 1994-1997-ci illərdə ölkə başçısının Türkiyə Cümhuriyyətində rəsmi səfərləri zamanı ikitərəfli siyasi, iqtisadi və sosial məsələlərin birgə müzakirəsi aparılmış, bu iki xalqın milli-mənəvi kökləri baxımından bir-birinə nə qədər sıx bağlı olduğu bir daha dilə gətirilmişdir.

Nəhayət, 1993-cü ilin iyun ayında xalqın təkidli istəyi ilə Heydər Əliyev yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtmış, ölkəni düşdüyü mövcud durumdan xilas etmək məqsədilə yaxın qonşularımızla münasibətləri qaydaya salmağa çalışmış, əvvəlki siyasi hakimiyyətin yeritdiyi və yanlış nəticələrə gətirib çıxarmış "özünütəcrid" siyasətindən imtina etmiş, bunun bariz nümunəsi olaraq isə 1993-cü ilin sentyabrında Azərbaycan MDB-yə üzv olmuşdur. Azərbaycanın MDB məkanında özünə xas rolunu xüsusi vurğulayan ölkə başçısı bunu region dövlətləri ilə qarşılıqlı iqtisadi münasibətlərin qonşuluq siyasətinin, xarici siyasət kursunda mövcud reallıqların nəzərə alınmasında başlıca aspekt hesab etmişdir. Hələ Azərbaycan Respublikasının Milli Məclisinin sədri seçildiyi zaman Heydər Əliyev Azərbaycanın xarici siyasətinin başlıca istiqamətləri və vəzifələrini müəyyənləşdirərək deyirdi:"Azərbaycanın müstəqilliyini təmin edən başlıca atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir

müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıb."[1]. Qısa zaman dilimində ordu, xalq və hakimiyyət birliyinə nail olan dahi lider Ermənistanın ölkəmizə qarşı apardığı ədalətsiz müharibədə 1994-cü ilin may ayında atəşkəsə nail olmuşdur. Bu isə ordunu yenidən təşkil etməyə, silahla təchizatı yaxşılaşdırmağa gətirib çıxarmışdır. Eyni zamanda Beynəlxalq birliyin bir çox nüfuzlu təşkilatları ilə, Avropa dövlətləri, Amerika, türkdilli dövlətlər, qonşu ölkələr, xüsusən İranla, Gürcustanla qarşılıqlı əlaqələrin, diplomatik münasibətlərin qurulmasının prioritet istiqamətləri müəyyənləşdirilmiş, qarşılıqlı münasibətlərin yaradılması istiqamətində əməli addımların atılmasına, real siyasi münasibətlərin qurulmasına başlanılmışdır. Balanslaşdırılmış xarici siyasət kursunun vacibliyini hər zaman vurğulayan Dahi lider əvvəlki siyasi hakimiyyətin bu məsələdə buraxdığı səhvlərə diqqət çəkərək deyirdi:"Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun. Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya, Amerika, Avropa və Ərəbistanla, türkdilli dövlətlərlə, Mərkəzi Asiya, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır".

Atəşkəsə dair razılaşmanın imzalanmasından sonra dərhal ölkə iqtisadiyyatını düşdüyü böhranlı vəziyyətdən xilas etmək üçün diplomatik danışıqlara başlanılmış, istər tarixi, istərsə də beynəlxalq siyasi əhəmiyyətinə görə, həmçinin, dəyərinin 13 mlrd. ABŞ dolları ilə qiymətlən-dirilməsinə görə "Əsrin müqaviləsi"adlandıra biləcəyimiz, dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkəti ilə 1994-cü ilin sentyabrın 20-də Bakının Gülüstan sarayında imzalanmış bu saziş Azərbaycan iqtisadiyyatını düşdüyü böhranlı vəziyyətdən xilas etmək istiqamətində atılmış uğurlu taktitki addımlardan biri olmuşdur. Sonralar Heydər Əliyev bu müqavilə ilə bağlı xatirələrindən danışarkən danışıqların nə qədər gərgin bir şəraitdə keçirildiyini, bir çox şirkətlərin ölkənin mövcud durumunu, siyasi gərginliyi əsas gətirərək sazişin bağlanmasından imtina etdiyini, bunun üçün cəbhədə və ölkə daxilində siyasi sabitliyə nail olunması məqsədilə sürətli və praqmatik diplomatik danışıqların aparıldığını xatırladırdı.

Azərbaycanın Rusiya ilə münasibətləri tarixi baxımdan mürəkkəb siyasi xarakterə malikdir. Nəzərə alsaq ki, Rusiya Cənubi Qafqazda əsas aparıcı xarici siyasət vektorudur, bu başa düşüləndir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyanın aparıcı faktor olduğunu doğru qiymətləndirən Heydər Əliyev iki ölkə arasında münasibətlərin qurulmasının vacibliyini belə şərh etmişdir:" Rusiya çox böyük dövlətdir, bizim şimal qonşumuzdur. Şübhəsiz ki,Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər arasında münasibətlər bundan sonra daha yaxşı, daha geniş, səmərəli olmalıdır"[2].

Diqqət çəkən məqam onda idi ki, Heydər Əliyev diplomatik münasibətlərin yalnız MDB çərçivəsində deyil, iki ölkə arasında qarşılıqlı iqtisadi, siyasi, ticarət, diplomatik münasibətlər müstəvisində genişləndirilməsinə çalışırdı. Bu baxımdan xüsusilə 2000-ci ildə Vladimir Putinin Rusiya Federasiyasının Prezidenti seçilməsindən sonra ikitərəfli diplomatik münasibətlərdə sürətli irəliləyiş müşahidə olunmuşdur.

Heydər Əliyev müstəqilliyini yenicə bərpa etmiş bir ölkənin başçısı olaraq Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında, Ermənistanın Azərbaycana qarşı apardığı genişmiqyaslı hərbi əməliyyatların yaratdığı iqtisadi, sosial və siyasi problemlərin girdabında boğulan bir məmləkətin düşdüyü ağır vəziyyətdən xilas edilməsində beynəlxalq və regional təkilatlarla əlaqələrin əhəmiyyətini düzgün qiymətləndirərək, əməkdaşlığın daha yüksək sferada davam və inkişaf etdirilməsinə çalışırdı. Bu baxımdan Azərbaycanın NATO ilə əməkdaşlıq münasibətlərinin genişləndirilməsinə Ulu Öndər xüsusi olaraq diqqət ayırırdı. 1994-cü ilin may ayında NATO-nun "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədinin imzalanması Azərbaycan-NATO əlaqələrini yeni müstəvidə inkişaf etdirməyə imkan yaratdı. Bu həmçinin sonrakı illərdə ordu quruculuğu sahəsində kadr hazırlığı, birgə təlimlərin təşkili məqsədilə əməkdaşlıq əlaqələrini genişləndirməyə şərait yaratmışdır.

Azərbaycan Avropa İttifaqı ilə əlaqələrin inkişaf etdirilməsini də diqqət mərkəzində saxlayırdı. 1996-cı ildə Lüksemburqda imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ticarət, iqtisadi, mədəni əlaqələrin formalaşdırılması istiqamətində mühüm əhəmiyyət kəsb edirdi. Avropa İttifaqı Azərbaycanda yeni infrastruktur layihələrin həyata keçirilməsi, özəlləşdirmə proqramlarının

icrası, ölkə iqtisadiyyatının bazar münasibətlərinin prinsipləri çərçivəsində yenidən qurulması məqsədilə 100 milyon avro dəyərində vəsait ayırmışdır.

Heydər Əliyev Prezident kimi siyasi hakimiyyətinin bütün mərhələlərində BMT ilə diplomatik əlaqələrin möhkəmləndirilməsi istiqamətində bir çox görüşlər keçirmiş, Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün 1994-cü sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək Ermənistan hökumətinin Azərbaycana qarşı təcavüzkar siyasətini və xalqımıza, dövlətimizə qarşı təcavüzün ağır nəticələrini dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. Məhz Heydər Əliyevin bu cəsarətli çıxışından sonra BMT-Azərbaycan arasında diplomatik münasibətlər yeni məcraya daxil olmuşdur.

Azərbaycan hökuməti ilə ABŞ arasında diplomatik əlaqələr 1992-ci ilin fevralından qurulsa da, 1993-cü ilədək diplomatik münasibətlər, qarşılıqlı siyasi, iqtisadi əlaqələr çox zəif idi. Ölkə başçısı kimi Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri 1997-ci ilin iyul-avqust aylarında ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə baş tutmuşdur. Səfər zamanı hərbi müdafiə, neft sənayesi, iqtisadiyyat və ticarət sahələrinə dair bir çox müzakirələrin aparılması, ABŞ hökumət nümayəndələrinin Azərbaycana marağının artmasına, gələcək əməkdaşlığın vacib aspektlərinin vurğulandığı birgə bəyanatların verilməsinə, ARDNŞ ilə ABŞ-ın neft şirkətləri arasında dörd mühüm sazişin imzalanmasına, Azərbaycan Milli Bankı ilə Amerikanın İdxal-İxrac Bankı arasında baş sazişin bağlanmasına gətirib çıxarmışdır. Hesab etmək olar ki, iki ölkə arasında aparılan uğurlu diplomatik danışıqların ən mühüm nəticələrindən biri də 1992-ci ilin oktyabrında qəbul edilmiş "Azadlığı müdafiə aktı"na 907-ci düzəlişin ləğv edilməsi məsələsində ABŞ Prezidenti ilə razılığa gəlinməsi məsələsi olmuşdur. Təsadüfi deyildir ki, ABŞ-ın tanınmış siyasi xadimi Z. Bjerzinski bu səfəri Amerikanın Qafqaz siyasətində yeni, epoxal mərhələnin başlanğıcı kimi dəyərləndirmişdir.

Ümumiyyətlə, Heydər Əliyev xarici siyasətini araşdırarkən diqqət çəkən əsas məqam odur ki, onun qəlbi, ruhu, gördüyü bütün işlər daim Azərbaycan xalqına, onun gələcək xoşbəxt günlərinə hesablanmışdır. Heydər Əliyev bütün varlığı ilə doğma torpağına bağlı bir şəxsiyyət idi. Bu gün möhkəm əsaslar üzərində qurulmuş müstəqil dövlətçilik ənənələrimiz onun siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Bu gün Azərbaycan dünya siyasi elitasının diqqət mərkəzində dayanan, danışıqlar masasında öz qətiyyətli iradəsini ortaya qoymağı bacaran güclü siyasi lideri ilə birlikdə daha gözəl gələcəyə doğru inamla irəliləyir.

İstifadə edilmiş ədəbiyyat

1. Xalq qəzeti-2010, 9 may, s.5-6
2. https://lib.aliyevheritage.org

XX ƏSRİN 90-CI İLLƏRİNİN VƏTƏNDAŞ MÜHARİBƏSİNİN QARŞISININ ALINMASINDA HEYDƏR ƏLİYEV ZƏKASI

[1,2]**Araz Boran oğlu Əliyev,** [1]**Hicran Nəsir qızı Əliyeva**
[1]Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
[2]ani.eliyev.95@bk.ru

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş imperiyapərəst qüvvələr və onların əlaltıları iqtidarın səriştəsizliyindən məharətlə istifadə edərək ölkəni parçalamağa, vətəndaş müharibəsi törətməyə çalışırdılar. Belə bir vəəziyyətdə xalqın qabaqcıl qüvvələrinin başçılığı ilə ölkədə Qurtuluş hərəkatı başlandı. Hərəkatın carçıları Heydər Əliyevin ətrafında sıx birləşərək onu ümumxalq mübarizəsi səviyyəsinə qaldırdılar. Ölkənin mütərəqqi şəxsiyyətləri, ziyalıları, qabaqcıl, sadə əmək adamları dəfələrlə Naxçıvana, Heydər Əliyevin yanına gedib Vətənin xilası naminə ondan yenidən böyük siyasətə qayıtmasını xahiş etdilər. Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaranması xalqın çox

hissəsinin respublikamızı düşdüyü vəziyyətdən çıxarmaq üçün və artıq mövcud olan partiyalara və təşkilatlara inamları olmadıqlarına görə yeni bir partiyanın yaranması ilə əlaqədar ayrı-ayrılıqda fikirlərinin, arzularının cəmləşməsi və nəhayət, formalaşması nəticəsində olmuşdur. Bir adam, bir qrup adam yox, Azərbaycanın, demək olar ki, bir çox bölgələrində - Bakıda, başqa böyük şəhərlərdə, rayonlarda, yaşayış məntəqələrində ayrı-ayrı adamlar bir-biri ilə əlaqəsi olmadan belə bir fikrə gəlmişdilər.

"Əlincə" Cəmiyyətinin nəşr etdirdiyi "Səs" qəzetində çap olunmuş "Heydər bəyi biz çağırmalıyıq!" adlı müraciət ölkədə böyük əks-səda doğurmuşdu. Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılmış ictimai rəy sorğularının nəticələri, Yeni Azərbaycan Partiyasının (YAP) Təşkilat Komitəsinə daxil olan minlərlə şifahi yazılı təklif diktə edirdi ki, yeni partiyaya rəhbərlik etməyə qadir yeganə şəxs Heydər Əliyevdir. Naxçıvana blokada şəraitində gedib-gəlmək böyük problem olsa da, adamlar dəstə-dəstə ora gedir, Heydər Əliyevə müraciət edirdilər ki, Bakıya, böyük siyasətə qayıtsın. Lakin Heydər Əliyev bu fikirdə deyildi. O, bütün müraciətlərə ehtiramla yanaşır, lakin təklifdən imtina edirdi. Heydər Əliyev belə bir gərgin şəraitdə yeni müxalif qüvvə yaratmaq istəmirdi. [1]

Azərbaycanın 91 nəfər tanınmış ziyalısı 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" - deyə müraciət etdi. Bu tarixi sənəddə ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun mövcud iqtidarın səriştəsiz, kobud, zora arxalanan siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən demokratik yolla xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin – Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı. Heydər Əliyev Azərbaycan ziyalılarının müraciətinə 24 oktyabr 1992-ci il tarixli cavabında mövcud ictimai-siyasi durumu dərindən təhlil etdi, cəmiyyətin bütün qüvvələrini birləşdirməklə yaranmış ağır vəziyyətdən çıxış yollarını göstərdi, Azərbaycanın müharibə vəziyyətindən çıxması, Qarabağ probleminin tezliklə həll olunması, sosial-iqtisadi böhranın aradan qaldırılması, düzgün kadr siyasəti aparılması, səriştəli kadrlardan səmərəli istifadə olunması, respublikada qanunların aliliyinin təmin edilməsi, demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizmə, insan azadlığına şərait yaradılması, yeni, müstəqil dövlət quruculuğu prosesinə vətəndaşların hamısının, əhalinin bütün təbəqələrinin cəlb olunması, heç bir məhdudiyyət qoyulmaması, Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin qarşısının qətiyyətlə, sivil, demokratik yollarla alınması, dövlətin bütövlüyünün demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi vacibliyini qeyd etdi. O bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə bir partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər". [2]

Yeni Azərbaycan Partiyasının təsis konfransını Bakıda keçirməyə imkan vermədilər. Konfrans 1992-ci il noyabrın 21-də, şaxtalı bir gündə Naxçıvanda keçirildi. Müxtəlif bölgələrdən təşəbbüs qruplarının 550-dən çox nümayəndəsinin iştirak etdiyi konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunub qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Təşkilatın rəhbər orqanları formalaşdırıldı.

Partiyanın 1992-ci il 21 noyabr tarixli bəyanatında qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlət, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar həyata keçirmək uğrunda mübarizə aparmaqdan ibarətdir. "Bizim şüarımız müxalifət naminə müxalifət ola bilməz! Bizim prinsipimiz konstruktivlikdir". Partiyanın sıraları sürətlə artırdı. Lakin o, iqtidara birdən-birə gələ bilmədi. [2]

Heydər Əliyev təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri idi. O öz məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan daha böyük fəlakətlərdən qurtarmaq üçün iqtidara yol göstərməyə çalışırdı. Uzun müddət bu məsləhətlərə məhəl qoymayıb səriştəsiz siyasəti ilə ölkəni parçalanmaq, vətəndaş müharibəsi həddinə gətirmiş iqtidar başlanmış təhlükəli proseslərin qarşısını almaqda gücsüzlüyünü görüb son anda kömək üçün Heydər Əliyevə müraciət etdi. Prezident Elçibəyin

dəfələrlə təkidli dəvətlərindən sonra Heydər Əliyev 1993-cü il iyunun 9-da hökumətin onun ardınca göndərdiyi təyyarə ilə Bakıya gəldi. [1]

Heydər Əliyev genişlənmək təhlükəsi olan vətəndaş müharibəsini dayandırmaq üçün ağıllı, düşünülmüş siyasi tədbirlər həyata keçirdi. O, iyunun 13-14-də Gəncə şəhərində hərbi müxalifətlə danışıqlar apardı, mövcud siyasi böhrandan çıxış yollarını müəyyənləşdirdi.

İyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası Heydər Əliyevi Ali Sovetin sədri seçdi. Bu gün Azərbaycanın müasir dövr tarixinə "Qurtuluş Günü" kimi daxil oldu. Sonralar - 1997-ci ilin iyununda Milli Məclis bu günü "Milli Qurtuluş Günü" kimi bayram elan etdi. Azərbaycan Respublikasının həyatında baş verən bu əlamətdar hadisə Azərbaycan tarixində yeni bir dövrün başlanğıcı oldu. [3]

Siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi, siyasi pərakəndəlik həddinə gətirib çıxarmış, iqtisadi və sosial problemləri daha da mürəkkəbləşdirmiş AXC - Müsavat iqtidarı komandası özü hakimiyyətə dəvət etdiyi Heydər Əliyevə bu mürəkkəb problemləri aradan qaldırmaqda köməkçi olmaqdansa, müxalifətə keçdi: bir çoxu qaçıb gizləndi, bəziləri fəaliyyətlərini "dondurdu". Siyasi gərginliyə tab gətirə bilməyən, şəxsi təhlükəsizliyindən qorxan, baş götürüb qaçmaqla guya paytaxtda qardaş qırğınının qarşısını almağa çalışan prezident Elçibəy iyunun 17-dən 18-nə keçən gecə Bakını gizlicə tərk edib Naxçıvan MR-in Ordubad rayonuna - doğulduğu Kələki kəndinə getdi və ölkəni bu ucqar dağ kəndindən idarə etmək iddiasında olduğunu bildirdi. Milli Məclis qaçqın prezidentə geri qayıdıb ölkəyə belə bir mürəkkəb şəraitdə lazımi səviyyədə rəhbərlik etməyi dönə-dönə təklif etsə də, hər dəfə faktik olaraq rədd cavabı aldı. İyunun 24-də Milli Məclis respublika prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi.

Vətəndaş müharibəsini dayandırmaq məqsədilə Heydər Əliyev heç bir siyasi idarəçilik bacarığı olmayan, xarici dövlətin xüsusi orqanlarının və revanş almaq istəyən qüvvələrin əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik S.Hüseynovu öz sayıq nəzarəti altında baş nazir vəzifəsinə təyin etdi. Güc nazirliklərinə rəhbərlik ona tapşırıldı. [4]

Heydər Əliyev iqtidarında yüksək vəzifələr tutsa da, öz məqsədinə nail ola bilməyəcəyini dərk edən S.Hüseynov qərargahı Gəncədə yerləşən Səhra Cəbhə İdarəsi yaratdı. Burada R.Qazıyev və iyunun 15-də Lənkəranda hakimiyyəti hərbi hissələrin köməyi ilə devirmiş, cənub bölgəsinə faktiki rəhbərlik edən Ə.Hümbətovla birgə dövlət başçısını hakimiyyətdən əl çəkməyə məcbur etmək planlarını həyata keçirməyə cəhd etdi.

1993-cü ilin yayı və payızında hərbi müxalifətin cinayətkar satqınlığı nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yeni zərbələr endirildi. Ermənistanın hərbi qüvvələri Azərbaycandakı siyasi böhrandan istifadə edib iyunun əvvəllərindən başlayaraq güclü hücuma keçdi. Hərbi qiyam vaxtı Ağdam cəbhəsindən həm AXC-Müsavat iqtidarına, həm də S.Hüseynova tabe xeyli canlı qüvvə və hərbi texnika çıxarılmışdı. Daxili qoşun hissələri Bakının "surətçi"lərdən müdafiəsinə çağırılmışdı. Düşmən bundan istifadə edib Ağdamın Qarqar çayı və Sayıbalı kəndinə qədər ərazisini ələ keçirmişdi. İyunun 25-dən 26-na keçən gecə milli silahlı qüvvələr Ağdam cəbhəsindən çıxarıldı. Cəbhə yerli özünümüdafiə taburlarının ümidinə qaldı. İyulun əvvəllərində S.Hüseynova sadiq 709 saylı hərbi hissə Ağdama daxil oldu. S.Hüseynov Ağdamı düşmənə, özünün dediyi kimi, "əlborcu verməklə" ölkədə siyasi vəziyyəti daha da gərginləşdirmək, Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırmaq istəyirdi. Döyüşlərin bütün ağırlıqlarını çəkmiş özünümüdafiə taburları döyüş mövqelərindən çıxarıldı. Ağdam şəhəri düşmən tərəfindən intensiv atəşə tutularkən "surətçilər" heç bir cavab tədbiri görmədilər. Düşmən sürətlə irəlilədi. Malıbəylidə ağır döyüşlər getdi. Asif Məhərrəmovun başçılıq etdiyi özünümüdafiə taburu iyulun 22-23-də bütün günü və gecəni düşmənlə əlbəyaxa vuruşsada , heç bir kömək almadığından geri çəkilməyə məcbur oldu. İyulun 23-də səhər əsasən özünümüdafiə taburlarının gücü ilə 43 gün düşmənlə qanlı döyüşlər aparmış Ağdam şəhəri işğal olundu. [5]

S.Hüseynov Gəncədə bəyanat verib bildirdi ki, o, "xalq və dövlət taleyinin həll edilməsi məsələsi"ni öz üzərinə götürür. Ə.Hümbətov bu bəyanatı alqışladı.

Cənub bölgələrində separatçılıq edən qüvvələrlə münasibəti sivil qaydada nizama salmaq istəyən Heydər Əliyev Ə.Hümbətovla görüşməyi qərara aldı. Bu görüşdə Hümbətov davakar-

ultimativ iddialar irəli sürdü. S.Hüseynova geniş səlahiyyətlər verilməsini, Ali Sovetin sessiyasını çağırıb A.Mütəllibovu öz vəzifəsinə qaytarmağı tələb etdi və qəti rədd cavabı aldı.

1993-cü il avqustun 7-də respublikanın cənub bölgələrində üzdəniraq "Talış Muğan Respublikası" (TMR) yaradıldığı elan olundu. "Hökumət" təşkil edildi. Rusiya, İran və Belarus dövlətlərinə, BMT-yə müraciət edib bu qondarma qurumu tanımağı xahiş etdilər. Təbii ki, cavab almadılar. [6]

Yerlərdə baş verən kortəbii mitinqlərdə əhali Ə.Hümbətovun silahlı quldur dəstəsinin ləğv olunmasını, qondarma "TMR"-i tanımadığını bəyan edirdi. Heydər Əliyev xalqın dəstəyinə arxalanaraq məsələni dinc vasitələrlə həll etməyə üstünlük verdi. Avqustun 13-də o, bu bölgədən olan xalq deputatları, tanınmış ziyalılar və ağsaqqallarla görüşdü. Onlar "hümbətovçulara" qarşı qəti tədbirlər görülməsini tələb etdilər. Avqustun 17-də Milli Məclis Lənkəran hadisələrinə siyasi qiymət verdi, onu Azərbaycanın müstəqilliyinə qarşı qüvvələrin siyasi oyunu kimi ifşa etdi. S.Hüseynov avqustun 18-19-da Gəncədə Ə.Hümbətovu dost kimi qəbul edib möhkəm dayanmağı məsləhət gördüyü vaxt cənub rayonları əhalisinin etiraz hərəkatı genişlənirdi. Xalqın və dövlət qüvvələrinin birliyi sayəsində avqustun 23-də separatçılar dövlətin gücü ilə məğlub edildilər. Ə. Hümbətov qaçdı, "TMR" ləğv olundu. [7]

Satqınların və köhnə iqtidara sadiq hərbi hissələrin təxribatı nəticəsində avqustun 18-də Cəbrayıl, 23-də Füzuli, 31-də Qubadlı rayonları işğal olundu. Mühasirəyə düşmüş Zəngilan rayonu oktyabrın 29-30-da düşmən əlinə keçdi.

Ölkənin müstəqilliyinə qənim kəsilmiş, xaricdən idarə olunan qüvvələrin hakimiyyəti ələ almaq üçün heç nədən çəkinmədiyini görən xalq Heydər Əliyevin ətrafında daha sıx birləşməyə başladı. Milli Məclisin qərarı ilə 1993-cü il avqustun 29-da prezident Ə.Elçibəyə etimad haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdi.

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasla, səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi.

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin ardıcıl və dönməz olduğunu təsdiqləyən uğurlu daxili və xarici siyasəti düşmənləri ciddi narahat edirdi. Onlar paytaxtda və respublikanın digər iri yaşayış məntəqələrində siyasi sabitliyi pozmaq üçün hər vasitəyə əl atırdılar. Bakı metropolitenində yanğın və partlayışlar törədilir, Prezidentə sui-qəsd təşəbbüsləri, dövlət çevrilişinə cəhdlər göstərilirdi.

1993-cü il sentyabrın ortalarında S.Hüseynov, Ə.Hümbətov və R.Qazıyev qüvvələrini birləşdirib Bakıya hücum etmək, Heydər Əliyevi hakimiyyətdən salmaq planı hazırlamışdılar. Respublikanın qərb rayonlarında qeyri-rəsmi hərbi qruplar yaradılmışdı. Murovdağ, Goranboy və Gədəbəy bölgələrindən 50-yə qədər, Lənkərandan 8 zirehli texnika və xeyli canlı qüvvə Gəncə ətrafındakı meşələrdə yerləşdirilmiş və fürsət gözləməkdə idi. S.Hüseynov Gəncədə və Yevlaxda öz əlaltılarının müşavirəsini keçirmiş, çevrilişə hazırlıq tədbirlərini müzakirə etmişdi. Baş nazir və onun tərəfdarları ölkədə narazılıq salmaq üçün digər təxribatlara da əl atır, ərzaq təchizatında süni gərginlik yaradır, inflyasiyanı dərinləşdirən tədbirlər görürdülər. [8]

Cəmiyyətdə vahimə yaratmaq üçün 1994-cü il sentyabrın 21-dən 22-nə keçən gecə Təhlükəsizlik Nazirliyi istintaq təcridxanasından dövlətə qarşı cinayətlərdə ittiham olunan bir neçə cinayətkar qaçırıldı. Sentyabrın 29-da daha bir neçə cinayət aktı törədildi. Ali Sovet sədrinin müavini A.Cəlilov və Prezident yanında Xüsusi İdarə rəisi Ş.Rəhimov qətlə yetirildilər. Xüsusi Təyinatlı Polis Dəstəsinin əvvəllər müəyyən hərbi xidmətləri olsa da, pozucu qüvvələrin təsiri ilə artıq cinayət yoluna düşmüş 30-a qədər "döyüşçüsü" oktyabrın 2-də Respublika Prokurorluğu binasına soxuldu. Daxili işlər nazirinin müavini Rövşən Cavadov 40 nəfərlik silahlı dəstə ilə nazirliyin binasına hücum edib dəf olunduqdan sonra prokurorluğun binasına, qardaşının rəhbərlik etdiyi dəstəyə köməyə gəldi.

Prezident Heydər Əliyevin apardığı danışıqlar nəticəsində Cavadov qardaşları öz tərəfdarları ilə prokurorluğun binasını tərk etdilər. Bu, hərbi qiyam cəhdinin başlanğıcı idi. Oktyabrın 4-də Gəncədə S.Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı adam şəhər İcra Hakimiyyəti binasını və başqa strateji obyektləri ələ keçirdi. Bu zaman paytaxtda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident sarayı, Ali Sovet və Müdafiə Nazirliyi binalarına tuşlayıb əmrə

müntəzir dayanmışdılar. Oktyabrın 4-dən 5-ə keçən gecə Prezident H.Əliyev Azərbaycanın müstəqil dövlətçiliyini müdafiə etmək üçün radio və televiziya ilə xalqa müraciət etdi. Onun çağırışı ilə, gecə yarısı olmasına baxmayaraq, qısa bir vaxtda on minlərlə adam Prezident sarayı qarşısına toplaşdı. Qiyamçılar Prezident sarayına hücuma cəsarət etmədilər. Prezidentin həyata keçirdiyi tədbirlər qiyamçılara qüvvələrini birləşdirməyə imkan vermədi. Gəncədə qiyam yatırıldı. Vəziyyətin dəyişdiyini görən Cavadov qardaşları Prezidenti müdafiə etdiklərini bildirdilər [1].

Xalq oktyabrın 5-də Bakının Azadlıq meydanında təşkil olunmuş izdihamlı ümumxalq mitinqində qanuni Prezidenti dəstəklədiyini bir daha nümayiş etdirdi.

Qiyam və dövlət çevrilişi qəsdində günahkar olan S.Hüseynov hakimiyyətdən kənarlaşdırıldı, Azərbaycandan Rusiyaya qaçdı. 1996-cı ildə isə Rusiyada həbs olunub respublikaya gətirildi və məhkum edildi. [9]

1994-cü il dekabrın 4-də "Azərbaycana xidmət" vəqfi tərkibində "Azərbaycan Strateji Araşdırmalar Mərkəzi" adlı təşkilat yaradılmışdı. Bu təşkilat ölkədə siyasi müxalifətlə hərbi müxalifəti birləşdirib dövlət çevrilişi etməyi, qanuni Prezidenti fiziki cəhətdən məhv edib A.Mütəllibov, Ə.Elçibəy və başqalarının təmsil olunduğu "Dövlət Şurası" yaratmağı planlaşdırmışdı. Mərkəzin işində "Müsavat" və "Doğru yol" partiyalarının nümayəndələri də fəallıq göstərirdilər. Bu vaxt AXC və ona yaxın qüvvələr də xeyli fəallaşmışdılar.

Martın 12-dən 13-nə keçən gecə Ağstafa və Qazaxda Xüsusi Təyinatlı Polis Dəstəsi əməkdaşları (omonçular) qiyam qaldırıb dövlət idarələrini zəbt etdilər. Martın 15-də omonçular Bakıda Nizami rayon polis idarəsinə silahlı basqın etdilər və dəf olundular. Prezidentin 16 mart tarixli fərmanı ilə Xüsusi Təyinatlı Polis Dəstəsi ləğv edildi və onun Bakıdakı əməkdaşlarından silahı könüllü təhvil verib, "8-ci km" qəsəbəsindəki bazalarını tərk etmək tələb olundu. Cavadov qardaşları Prezidentin münaqişəni dinc yolla həll etmək istəyinə məhəl qoymadılar. Onlar bazada toplanmış silahlıları dörd hücum qrupuna bölüb, martın 16-dan 17-nə keçən gecə Prezident sarayı, Dövlət Teleradio Şirkəti və Daxili İşlər Nazirliyi binalarını tutmaq üçün həmlə ilə mühasirəni yarıb şəhərə çıxmağa çalışdılar.

İqtidarın fövqəladə tədbirləri, hökumət qüvvələrinin çevik hərbi əməliyyatları nəticəsində dövlət çevrilişi cəhdi bu dəfə də baş tutmadı. [10]

Sonralar da qanuni hakimiyyəti devirmək, Prezidenti fiziki cəhətdən məhv etmək və başqa siyasi terror cəhdləri baş verdi və hər dəfə respublikanın hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə dəf edildi. Xalq respublikanın dövlət müstəqilliyinin təminatçısı olan Prezident Heydər Əliyevi dəstəklədi, siyasi yetkinlik, dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirdi.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan tarixi. 7 cilddə.VII cild. Bakı 2008.
2. XX əsr Azərbaycan tarixi.II cild. Bakı 2004.
3. H. Əliyev. Müstəqillik yolu. Bakı 1997.
4. H. Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, musahibələr. 4 cilddə. Bakı 1997-2002.
5. Ə. Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı 1998.
6. Azərbaycan Beynəlxalq aləmdə.I cild. Bakı 1996.
7. T. Qaffarov. Azərbaycan Respublikası. Əsrə bərabər on il. 1991-2000. Bakı 2001.
8. Azərbaycan milli dövlət quruculuğu yolunda. Bakı 1996.
9. Azərbaycan Respublikası.1991-2001. Bakı 2001.
10. Qayıdış.1990-1993. Bakı 1996.

HEYDƏR ƏLİYEV VƏ MİLLİ SƏNAYE-ENERGETİKA KOMPLEKSİNİN İNKİŞAFI

Zilimxan Xanlar oğlu Qədirov
"M Bulak BOKT" MMC
qedirov.zilimxan@gmail.com

XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir şəxsiyyət, dünya şöhrətli siyasətçi Heydər Əliyevin ömür yolu, zəngin ictimai-siyasi və dövlətçilik fəaliyyəti tariximizin ən mühüm, şərəfli və böyük bir mərhələsini təşkil edir. Heydər Əliyevin tarixin ən çətin, məsuliyyətli məqamlarında xilaskarlıq simvoluna çevrilərək Azərbaycan xalqının ruhuna bir nəfəs kimi qayıdan, onu canı-qanı qədər sevərək hifz edən, milli mövcudluğunu yaşatmaq kimi ağır yükün altına çiyinlərini heç nədən çəkinmədən, mərdliklə verən şəxsiyyət olduğu aşkar görünür. Azərbaycanın müasir tarixinin bir çox səhifələri ulu öndər Heydər Əliyevlə bağlı olmuşdur. [3]

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq ulu öndər ölkəmizin sənayesinin yenidən bərpası və inkişafı ilə daha yaxından məşğul olmağa başladı. Azərbaycanın son yarım əsrlik tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Dərin zəkaya, müdrik uzaqgörənliyə və zəngin təcrübəyə malik olan Heydər Əliyev bütövlükdə Azərbaycan iqtisadiyyatının, o cümlədən Azərbaycan sənayesinin inkişafında olduqca böyük rol oynamışdır. [1]

Ulu öndər Heydər Əliyev ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edən neft-qaz, neft-kimya, energetika, maşınqayırma, metallurgiya, yüngül və yeyinti sənayesinin və digər sahələrin inkişafına xüsusi diqqət ayırması nəticəsində Azərbaycan sənayesinin yüksəlişi başladı. Müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan, qeyri-dayanıqlı sosial-iqtisadi və siyasi vəziyyətdən dinamik sosial-iqtisadi inkişaf mərhələsinə qədər çətin və şərəfli yol keçərək böyük nailiyyətlərə imza atmışdır. Bu müddət ərzində tamamilə yeni sistem qurulmuş və sürətli inkişaf təmin olunmuşdur. [1]

Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə aparılan köklü islahatlar qısa müddətdə öz səmərəsini verdi. Yeni qanunvericiliyin, dövlət əmlakının özəlləşdirilməsi, əlverişli biznes mühitinin yaradılması, neft strategiyası, neft gəlirlərindən səmərəli istifadə, dünya iqtisadiyyatına inteqrasiya və digər sahələrdə islahatlar məhz bu dövrdə aparılmışdır. [3]

Sənaye istehsalının aşağı düşməsini ləngitmək və tədricən aradan qaldırmaq üçün makroiqtisadi proseslərə təsir edə bilən tədbirlərin həyata keçirilməsinə başlandı. Əsas diqqət bazar münasibətlərinə söykənən təsərrüfatçılıq sisteminin yaradılmasına, sənaye müəssisələrinin özəlləşdirilməsinə yönəldildi və nəticədə sənayenin bir çox sahələrində irəliləyişlər müşahidə olundu. Sənayedə dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi 1996-cı ildə kiçik özəlləşdirmədən başladı. Sonrakı illərdə özəlləşdirmə sürətləndi və 800-dən çox kiçik sənaye müəssisəsi satılaraq 9 mln. manatdan çox vəsait əldə edildi, eyni zamanda 350-yə qədər orta və iri sənaye müəssisəsi səhmdar cəmiyyətinə çevrildi. [3]

1990-cı ildən 1996-cı ilədək sənaye istehsalının səviyyəsi 3,8 dəfə aşağı düşmüş, mühüm məhsul növlərinin buraxılışı kəskin azalmış, bir sıra müəssisələrin işi dayanmış, fəhlə və mütəxəssislərin hər üç nəfərindən biri işdən çıxdığı üçün sənaye müəssisələrində işləyənlərin sayı 30 faizə qədər əskilmişdi. [2]

Ulu Öndərin başçılığı altında Azərbaycan Respublikası iqtisadi böhrandan çıxmağı, yeni iqtisadi mexanizmlər əsasında bazar münasibətlərinin dərinləşməsini, bazar infrastrukturunun yaradılmasının sürətləndirilməsini strateji məqsəd kimi qarşıya qoydu. Lakin sənayeni dirçəltmək onun əsasını təşkil edən neft sənayesində dünya texnologiyalarına əsaslanan irimiqyaslı layihələri həyata keçirmədən mümkün deyildi. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsi üçün "Əsrin müqaviləsi" imzalandı (1994), Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) yaradıldı (1999). Qiymətlər və xarici ticarət liberallaşdırıldı, kütləvi özəlləşdirməyə başlamaq üçün ciddi hazırlıq işləri aparıldı, kiçik sahibkarlığa dövlət dəstəyi haqqında qanun qəbul olundu, kiçik biznes üçün vergi sistemi sadələşdirildi, özəl sektorun inkişafına mane olan bir sıra məhdudiyyətlər götürüldü. [2]

Aparılan tədbirlər sənayenin inkişafında irəliləyişlərlə nəticələndi, bazar iqtisadiyyatının ən zəruri əsasları formalaşdı, bazar institutlarının təşəkkülü sürətləndi, əsas bazar mexanizmləri işləməyə başladı. Sənaye istehsalının ilbəil aşağı düşməsi 1997-ci ildə dayandırıldı və sonrakı illərdə sənaye yüksələn xətt üzrə inkişaf etdi. 1995-ci illə müqayisədə sənaye məhsulu istehsalı 2005-ci ildə mədənçıxarma sənayesində 2,3 dəfə, dəri, dəri məmulatları və ayaqqabı istehsalında 26,9 %, kimya sənayesində 2,3 dəfə, digər qeyri-metal mineral maddələrin istehsalında 10 dəfə, metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalında 5,5 dəfə, nəqliyyat avadanlıqlarının istehsalında 9,4 dəfə, mebel istehsalında 2,4 dəfə və s. sahələrdə əhəmiyyətli dərəcədə çoxaldı, neft hasilatı 2,4 dəfə, dəmir filizi istehsalı 4,9 dəfə, alüminium-oksid 12,1 dəfə, ağ neft 25,7 %, avtomobil benzini 14,5 %, elektrik enerjisi 34,7 %, sement 7,8 dəfə, əsas sənaye-istehsal fondları 3,3 dəfə artdı, orta aylıq əməkhaqqı 10,7 dəfə yüksələrək 213,2 manata çatdı. 2005-ci ilin fevralında mərkəzi "Azəri" yatağından ilk neftin alınmasından sonra sənayenin ölkə iqtisadiyyatı üçün əhəmiyyəti daha da gücləndi. [2]

Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialını formalaşması, respublikada strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Böyük strateqin təkidi ilə keçmiş ittifaq rəhbərliyi respublikamızda bir sıra iri müasir maşınqayırma, kimya, neft-kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, toxuculuq, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq vermiş, paralel olaraq energetika və nəqliyyat kompleksi inkişaf etdirilmişdir. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bugünün özündə də iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir. Bütün bunlar bir daha təsdiqləyir ki, Heydər Əliyev o dövrün ağır şərtləri, məhdudiyyətləri çərçivəsində də xalqımızın gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni reallığa çevirmişdir. Çox sonralar nitqlərinin birində "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı" – deyən Heydər Əliyev həmin dövrü Azərbaycanın inkişafında mühüm mərhələ kimi səciyyələndirmişdir. [4]

Sabitliyin bərqərar olunması, ardıcıl həyata keçirilən iqtisadi islahatlar, ölkənin zəngin karbohidrogen ehtiyatları, zəruri normativ-hüquqi bazanın yaradılması Azərbaycana xarici kapital axınını şərtləndirdi. Müstəqillik dövrünün ilk illərində Azərbaycanda qeyri-sabitliyin hökm sürməsi xarici iş adamlarını ölkə iqtisadiyyatına kapital qoymaqdan çəkindirirdisə, sonrakı illərdə sahibkarlığın dinamik inkişafını təmin etmək məqsədilə əlverişli mühit yaradılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın müxtəlif sahələrinə investisiya yönəldən sahibkarların sayı sürətlə artdı. [2]

Azərbaycanda yaradılan iqtisadi sabitlik və əlverişli iqtisadi şəraitdən məqsədyönlü istifadə edən yerli və xarici sərmayəçilər 1995-2005-ci illərdə sənaye sektoruna 16,8 mlrd. manat (18 mlrd. ABŞ dolları) və ya iqtisadiyyatın bütün sahələrinə qoyulan investisiyaların 74,6 %-ini yönəltdilər. Sərmayələr mövcud güclərin işlək vəziyyətdə saxlanmasına, yeni texnologiyaların, maşın və avadanlıqların alınmasına, obyektlərin inşası və genişləndirilməsinə sərf edildi. Nəticədə sənayenin əsas fondlarının dəyəri 19,4 mlrd. manata çatdı və istehsal potensialı 3 dəfə artdı. 2004-cü ildə Xaçmazda illik gücü 50 mln. şərti banka olan "Qafqaz" konserv zavodu, Siyəzəndə istehsal gücü sutkada 15 min şərti kərpic olan kərpic zavodu, Abşeronda istehsal gücü sutkada 60 t bentonit olan "Azbentonit" zavodu, Şamaxıda elektrik-məişət texnikası istehsal edən "Star Ltd" zavodu, Lənkəranda ildə 1,2 min ton tomat istehsalı gücünə malik "Vita" MMC və illik gücü 12,5 min dkl pivə olan "S.MARİ" MMC, Masallıda növbədə 7 t şəkər istehsal edən "Şəkər-şirniyyat" müəssisəsi, Sədərək, Şərur və Tərtərdə transformator yarımstansiyaları, Şəkidə ildə 7,3 mln. şərti banka istehsalı gücünə malik meyvə şirəsi zavodu və s. sənaye obyektləri fəaliyyətə başladı. [2]

Ənənəvi məhsullarla yanaşı, yeni məhsul növlərinin istehsalı da mənimsənilir. 2004-2005-ci illərdə rəngli televizorlar, minik avtomobilləri, heyvanlar üçün yem hazırlayan maşınlar, paslanmayan polad külçələr, odsöndürənlər, elektrik naqilləri, odadavamlı keramika məmulatları və s. kimi yeni məhsulların istehsalına başlanmışdır. Əvvəllər xarici ölkələrdən idxal olunan malların böyük qisminin ölkədə istehsalına başlanmışdır. "Bakı yağ və qida sənaye" ASC (bitki yağları), "Coca-Cola Bottlers Ltd" (alkoqolsuz içkilər), "SUN-Tea Azərbaycan" (qablaşdırılmış çay), "Bakı-Kastel" MMC (pivə), "European Tobacco Baku" (papiros və siqaretlər), "DAD", "Bərəkət" (süd məhsulları), "Azər-Pen BM", "Türk-Baycan" (plastikdən qapı və pəncərə), "EUPEC Pire Coatings Azerbaijan" (neftin nəqli üçün xüsusi borular) və digər müəssisələrin dünya standartlarına cavab verən məhsulları daxili bazarı zənginləşdirdi, bu məhsullar üzrə idxaldan asılılığı xeyli azaltdı. [4]

Sənaye sahələrinin mülkiyyət formalarının quruluşunda əsaslı dəyişikliklər baş vermişdir. Özəlləşdirilmiş dövlət müəssisələrinin, habelə yeni yaradılan qeyri-dövlət müəssisələrinin, konsorsiumların tədricən genişlənən fəaliyyəti nəticəsində dövlət mülkiyyətində olan sənaye müəssisələri məhsulunun xüsusi çəkisi getdikcə aşağı düşmüşdür. [4]

Sahibkarlığın keyfiyyətcə yeni mərhələyə çatdırılması qeyri-neft sektorunun inkişaf etdirilməsinin güclü vasitələrdən birinə çevrildi. Ölkədə sahibkarlığın gücləndirilməsi üçün "Sahibkarlığa Kömək Milli Fondu" yaradıldı və güzəştli kreditlər verilməsinə başlandı. Ölkədə azad sahibkarlıq mühitinin formalaşması yeni təsərrüfatçılıq formalarının yaranmasına təkan verdi. [1]

Həyata keçirilən islahatlar və quruculuq işləri energetika sistemində də uğurla davam etdirilir. İstehlakçıların daha keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunması istiqamətində qarşıya qoyulmuş prioritet vəzifələrin uğurla həyata keçirilməsi nəticəsində 2003-cü ildən etibarən 2000 MVt-dan artıq yeni generasiya gücləri istismara verilmişdi. [1]

Ölkədə istehsal edilən elektrik enerjisinin 90 faizindən çox hissəsi istilik elektrik stansiyalarının, qalan hissəsi isə su elektrik stansiyalarının payına düşür. Mövcud hasilat respublikamızın tələbatını tam həcmdə ödəməklə yanaşı, qonşu ölkələrə də elektrik enerjisi ixrac etməyə imkan verir. [1]

Transmilli nəqliyyat proqramları və layihələri çərçivəsində, o cümlədən TRASEKA və Şimal-Cənub beynəlxalq dəhlizlərinin Azərbaycan seqmentində avtomobil magistrallarının tikintisi və yenidən qurulması, ölkənin bütün regionlarında yol şəbəkəsinin bərpası və təkmilləşdirilməsi işləri həyata keçirilmişdir. [1]

Sənayenin belə inkişafı Azərbaycanda ümumi daxili məhsulun artımında əhəmiyyətli rol oynamaqla yanaşı, işsizlik probleminin aradan qaldırılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə də öz töhfəsini verirdi. Burada mühüm bir statistik göstəricini qeyd etmək vacibdir ki, 1993-2003-cü illər ərzində 3 mindən artıq yeni sənaye müəssisəsi açılmış və 2004-cü ilin yanvarın 1-nə olan məlumata görə, onların sayı 5536-ya çatmışdı. Əsası Ümummilli Lider tərəfindən qoyulan və indi də uğurla həyata keçirilməkdə olan "açıq qapı" siyasəti nəticəsində isə 1993-cü ildən etibarən Azərbaycanda xarici və müştərək müəssisələrin sayı çoxalmaqdadır. [2]

Qeyd edilənlər onu göstərir ki, indi ölkəmizdə böyük imkanlara malik istehsal müəssisələri, sənaye obyektləri mövcuddur. Həmin obyektlərin istehsal potensialından səmərəli istifadə etməklə istər daxili, istərsə də xarici bazarda rəqabət qabiliyyətli, beynəlxalq standartlara uyğun məhsul realizə olunur. İqtisadi sferada islahatların davam etdirilməsi və həyata keçirilən digər tədbirlər sənayenin inkişafına müsbət təsir göstərməkdədir. Bu səbəbdən Azərbaycan dünyada həm də sənayenin inkişaf tempi baxımından seçilən dövlətlərdən biri kimi qəbul olunmaqdadır. [3]

Ümummilli lider Heydər Əliyevin bu sahədə özünəməxsus uzaqgörənliklə müəyyənləşdirdiyi mükəmməl strateji xəttin uğurla həyata keçirilməsi və hazırda Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilməsi ölkəmizi regionun aparıcı dövlətinə, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təminatçılarından birinə çevirmişdir. Ümummilli Liderimizin müəyyənləşdirdiyi sənayeləşmə siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda sənayeləşmə templəri yüksəlmiş, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Cənab Prezidentin dediyi kimi: "Azərbaycan öz sənaye potensialını inkişaf etdirir və sənayeləşmə siyasətimiz uğurla davam etdirilir". [3]

Qeyd edək ki, müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan yeni müəssisələrin yaradılması ilə Azərbaycanda istehsal edilən sənaye məhsullarının çeşidi və rəqabətqabiliyyətliliyi də sürətlə artır. Hazırda ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrində ərzaq məhsulları, müxtəlif tikinti materialları, avtomobil, kompüter, günəş batareyaları, elektrik avadanlıqları, mebel və s. istehsal olunur, bir çox sənaye məhsulları üzrə Azərbaycan özünü təmin edir. Azərbaycan sənayesinin elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev imzası olmasın. Biz bu gün əldə etdiyimiz bu yüksək nailiyyətlərə görə dahi şəxsiyyətə borcluyuq. Biz hər zaman Heydər Əliyev irsindən bəhrələnməli, müasir Azərbaycanın inkişafında, quruculuğunda öz zəhmətimizi əsirgəməməliyik. [4]

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan sənayesinin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır." İki Sahil Gündəlik ictimai-siyasi qəzet; ikisahil.az, 12.04.2024.
2. Heydər Əliyevin Azərbaycan sənayesinin inkişafındakı misilsiz rolu. Səs Qəzeti; sesqazeti.az, 07.04.2023.
3. Milli inkişafımızın memarı. Natiq Əliyev, Keçmiş Sənaye və Energetika Naziri, Azərbaycan. 2010. 1 Mayıs, S. 4.
4. Sənaye - Müstəqil Azərbaycan. "Prezident Kitabxanası", 2016.

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

Fatiməxanım Əzizağa qızı Qasımova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
fatimeqasimovva95@gmail.com

Ulu öndər Heydər Əliyev vətənpərvərlik hisslərini yüksək qiymətləndirərək demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Azərbaycançılıq xalqımızın çox çətinlik hesabına nail olduğu tarixi sərvətdir. Bu, ilk növbədə, vahid və bölünməz Azərbaycanın qorunub saxlanılması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Bu gün azərbaycançılıq milli həyatın ahəngdarlığının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və fıravanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Azərbaycançılığın məzmunca mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir.

Lakin azərbaycançılıq Azərbaycanın ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya həm də Azərbaycanın müstəqilliyini arzulayan, onun güclənməsini istəyən insanları birləşdirir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Azərbaycançılıq özündə "vətəndaşlıq", "vətənpərvərlik", həmçinin cəmiyyət və dövlət qarşısında vətəndaşın məsuliyyətini birləşdirir.

Müasir dövrdə qloballaşmanın bir sıra inkişaf göstəriciləri milli mənsubluğa da təsir göstərir. Çağdaş zamanda milli ideologiya ilə ümumbəşəri dəyərlərin ahənginə nail olmaq, qloballaşma prosesinə öz milli-mənəvi irsi ilə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır. Azərbaycançılıq ideyası bu çağırışlara cavab verir, milli mənsubluğun müdafiəsi ilə yanaşı, ümumbəşəri dəyərləri də özündə ehtiva edir.

Azərbaycançılığın əsas elementlərindən biri vətəndaşlıqdır. Vətəndaşlıq mövqeyindən çıxış edərək hər bir şəxs vətənpərvərlik ruhunda tərbiyə olunmalıdır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması milli təhlükəsizlik baxımından əhəmiyyətlidir. Vətənpərvərlik və dövlətçilik azərbaycançılıq ideologiyasının mühüm əsaslarını təşkil edir.

Azərbaycançılıq kontekstində vətəndaşlıq, vətənpərvərlik və loyallıq fərdin cəmiyyətə və dövlətə vahid yanaşma sistemdir. Bu üçlüyün vəhdətində birlik və sabit dövlət quruluşu mümkündür.

Azərbaycançılıq ideologiyasının yaşaması vətəndaşın cəmiyyət və dövlət qarşısında məsuliyyətindən asılıdır. Vətəndaşlıq məsuliyyəti azərbaycançılıq ideologiyası kontekstində geniş anlayışdır. O özündə hüquqi və mənəvi məsuliyyəti cəmləşdirir. Lakin vətəndaşlıq məsuliyyəti daha çox mənəvi məsuliyyətlə bağlıdır. Bu baxımdan azərbaycançılıq ideologiyası həm də vətəndaş məsuliyyətinin güclənməsinə xidmət edir. Hər bir kəs cəmiyyət qarşısında cavabdehliyini hiss etməlidir. Bu, tək qanunlara riayət etməkdə yox, habelə aktiv vətəndaşlıq mövqeyində əks olunmalıdır. Ona görə ki, cəmiyyətin və dövlətin inkişafı və güclənməsi hər bir fərdin fəal vətəndaşlıq mövqeyindən və vətəndaşlıq məsuliyyətindən asılıdır.

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsi özünəməxsus dinamizmi ilə bu ideologiyanı zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir. Azərbaycançılıq konsepsiyası bu gün cəmiyyətin inkişafının ideya təməlini təşkil edir. Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək demişdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".

Azərbaycan xalqı özünün bütün inkişaf tarixində tərbiyəyə həmişə yüksək qiymət vermiş və gənc nəslin tərbiyə olunmasını hər zaman diqqət mərkəzində saxlamışdır.

Azərbaycançılıq müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Azərbaycançılıq ideologiyası XIX əsrin sonu XX əsrin əvvəllərində təşəkkül taparaq formalaşmış və bir əsr ərzində davamlı təkamül yolu keçmişdir. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.

Azərbaycançılığın məzmunca mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir. Azərbaycançılıq xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir. Vətəndaşlıq azərbaycançılığın əsasını təşkil edir.

Mənəvi tərbiyə - insanın dəyişməz və harmonik inkişafını təmin edən həyatı formalaşdırmaqdır. Mənəvi tərbiyə insanın işlərinə və fikirlərinə ali məqsəd verən qürur, səmimiyyət, məsuliyyət, vətənpərvərlik və s. hissləri tərbiyələndirir. İnsanın mənəvi tərbiyəsi ailədə, məktəbəqədər tərbiyə müəssisələrində, məktəbdən başlayır, sonralar təhsilin yüksək pillələrində möhkəmləndirilir, daha sonralar isə özünütəkmilləşdirmə, ümummədəni səviyyəni artırmaqla davam edir.

H.Əliyev bu haqda söyləmişdir:"Müstəqil azərbaycan ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq hər kəs də başa düşməlidir ki, müstəqil azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir".

Milli-mənəvi dəyərlər insan dünyaya gələndən onunla birgə yaranmağa, inkişaf etməyə başlayır. İnsanın həyatında bir neçə amil onu yaşadır. Birinci amil yaşamaq uğrunda mübarizədir. Yəni insanın tələbatı birinci növbədə öz sağlamlığının təmini üçündür. Dünyada yaşayan bütün insanların mənəvi dəyərləri var. Hər bir insanın özünüəməxsus milli-mənəvi dəyəri, əxlaqı mövcuddur. Hər bir xalqın xüsusiyyətləri bu dəyərlərdə birləşir.

Hər hansı millətin mənəviyyatının yüksəlməsi üçün onun kifayət qədər zəngin mənəvi milli dəyərləri olmalıdır. Lakin mənəvi milli dəyərlərlə yanaşı həmin cəmiyyətdə proqressiv üsul-idarənin olması da vacib şərtdir. Neqativ xarakterli üsul-idarə kifayət qədər mənəvi milli dəyərlərin olması şəraitində də mənəviyyatsızlığa rəvac verir.

Təhsil Qanununda deyilir: "Təhsil sisteminin başlıca vəzifəsi … xalqının milli, əxlaqi, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnən, onu qoruyan və daim inkişaf etdirən insan tərbiyə etməkdir".

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi müasir dünyanın ən vacib elementlərindən hesab olunur. Milli şüur millətə, xalqa aid xüsusiyyətləri hər hansı bir fərdin özündə cəmləşdirmək bacarığıdır. Milli şüur insanın hisslərinin, duyğularının milli səviyyədə əxz olunmasıdır. Burada vicdan, milli mənlik kimi hisslər önəmli rol oynayır. Odur ki, gənclər arasında bu xüsusiyyətlərin formalaşdırılması nəticə etibarilə vətənpərvərlik hissinin inkişafına gətirib çıxarır. Nəticədə vicdanı olan hər bir gənc doğulduğu torpağın qədrini bilməyı özünə mənəvi borc hesab edir. Azərbaycan gənclərinin milli kimliyinin formalaşmasında xalqın tarixi, onun görkəmli mütəfəkkir və tarixi şəxsiyyətləri, o cümlədən, digər milli atributlar güclü təsirə malikdir. Milli mənlik şüuru sayəsində millət, xalq və etnik qruplar tarixi inkişaf xüsusiyyətlərini, sosial-etnik cəhətləri bütün dolğunluğu ilə dərk edirlər. Milli mənlik şüuru, vəzifəsindən, tutduğu mövqeyindən asılı olmayaraq, hər bir vətəndaşa xas olan keyfiyyətdir. Gənclərin vətənpərvər ruhda böyüməsi üçün mənəviyyat məsələsi də mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 40-cı maddəsinin II hissəsində deyilir: « Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməlidir». Azərbaycan xalq pedaqogikasından başlamış klassik ədəbiyyatda, həmçinin məşhur şair, yazıçı və maarifçilərin, ilk növbədə N.Gəncəvi, A.Bakıxanov, R.Əfəndiyev, F.Köçərli, M.Mahmudbəyov, S.M.Qənizadə, A.Səhhət, N.Nərimanov, F.Ağazadə, A.Şaiq və başqalarının əsərlərində, nəsihətnamələrində uşaqların sağlam, gümrah, vətənini sevən bir şəxsiyyət kimi yetişməsində milli-mənəvi və dini dəyərlər qiymətli mənbədir. Bunlar xalqın milli sərvətidir.

Milli-mənəvi dəyərlərin inkişafında ədəbiyyat və incəsənət mühüm rol oynayır. Onlar insanların dünyagörüşünün formalaşmasında, ali əxlaqi dəyərlərin möhkəmlənməsində xüsusi yer tutur. Ədəbiyyat və incəsənət əsərlərindən kənar milli-mənəvi dəyərlərin zənginləşməsi, insanlarda özünütərbiyə və özünənəzarət hissinin formalaşması mümkün deyil. Bu əsərlər cəmiyyətin tərəqqisinə böyük stimul verir, milli-ədəbi irsin nəsillərdən-nəsillərə ötürülməsini təmin edən mühüm vasitələr kimi çıxış edir.

Milli-mənəvi dəyərlərin qorunaraq zənginləşməsi üçün gənclərin milli ruhda tərbiyə edilməsi vacib məsələlərdən biridir. Bununla bağlı Heydər Əliyev bildirmişdir: "Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər". Hamıya məlumdur ki, ailədaxili tərbiyə milli-mənəvi dəyərlərin formalaşmasına təsir göstərən mühüm amillərdəndir. Bu dəyərlərə hörmət hissinin bünövrəsi insanın uşaqlıq, yeniyetməlik və gənclik yaşlarında qoyulur.

Heydər Əliyev Fondunun elm, təhsil və mədəniyyət sahəsində həyata keçirdiyi çoxsaylı layihələr milli-mənəvi dəyərlərimizin nəinki ölkəmizdə, bütün dünyada təbliğ olunmasında böyük əhəmiyyət daşıyır. Xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən mühüm töhfələrdən biri olan muğam sənətinin yaşadılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın gördüyü işləri xüsusi qeyd etməliyik. Ötən illər ərzində fondun dəstəyi ilə xeyli sayda məscid bərpa olunaraq istifadəyə verilmişdir. Fondun milli-mənəvi dəyərlərin dünyada təbliği istiqamətində atdığı addımlar xalqımızın qədim mədəniyyət nümunələrini ermənilərin özününküləşdirməsi kimi mənfur niyyətlərinin qarşısını alır. Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində fondun xətti ilə milli-mənəvi irsin qorunması sahəsində çoxsaylı layihələr həyata keçirilir ki, onları xalqımızın ziyalıları, mədəniyyət və incəsənət xadimləri yüksək qiymətləndirirlər.

Bunların hər birisi sübut edir ki, xalqımızın milli-mənəvi dəyərləri tarixi varislik prinsipinə əsaslanaraq inkişaf edir və onlar dünya mədəniyyətinin zənginləşməsində xüsusi yer tutur. Milli-mənəvi dəyərlərin qorunması və təbliği Azərbaycan dövlətinin apardığı siyasətin əsas istiqamət-

lərindən birini təşkil edir. Ölkəmizdəki mədəniyyətlərarası və dinlərarası dialoq milli-mənəvi dəyərlərin inkişafında böyük əhəmiyyət daşıyır. Azərbaycan dilinin, ədəbiyyat və incəsənətinin inkişafı, adət-ənənələrin, mütərəqqi dini dəyərlərin ictimai həyatda özünə mühüm yer tutması milli-mənəvi dəyərləri zənginləşdirir. Xalqımızın milli-mənəvi irsinin dünyada təbliği ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsində mühüm rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. İnternet resursları (https://www.anl.az/down/meqale/azerbaycan/2011/may/175824.htm)
2. https://e-qanun.az/framework/18343

AZƏRBAYCAN DİLİNİN İNKİŞAFINDA İDEYA GEDİŞATI

[1,2]**Səlminə Hidayət qızı Abbasova,** [1,3]**Mehriban İmran qızı Tağıyeva**
[1]Azərbaycan Texnologiya Universiteti
[2]abbasova.salmina@mail.ru
[3]tagiyevamehriban@mail.ru

Hər bir dilin daşıyıcısı onun xalqıdır. Dilin dövlət dili statusu alması isə təkcə xalqdan, millətdən, yaradıcı ziyalılardan asılı məsələ deyil. Dilin inkişafı siyasi iradəsi olan liderlərin adı ilə bağlıdır. Belə liderlərdən biri də ulu öndərimiz Heydər Əliyevdir.

Heydər Əliyev ilk dəfə hakimiyyətə 1969-cu ildə gəlmişdi. Ümummilli lider 1970-ci ildə heç kimin cəsarət etmədiyini etdi. O, Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış etdi. Bununla Heydər Əliyev ana dilimizə verdiyi dəyəri göstərdi. Eyni zamanda Respublikanın birinci şəxsi bu cəsarətli addımı ilə həm milli ziyalılarımızın böyük rəğbətini qazandı, həm də onlara böyük dəstək verdi, ruh yüksəkliyi bəxş etdi.

Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dövlət quruculuğu strategiyasının tərkib hissəsi olan uğurlu dil siyasəti daha bir bəhrəsini verdi: Azərbaycan keçmiş sovet məkanında, eyni zamanda, beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanındı. Belə ki, XX əsrin 70-ci illərində SSRİ Elmlər Akademiyasının türk dillərinin tədqiqi istiqamətində yeganə elmi orqanı olan "Sovetskaya Türkologiya" jurnalı Bakıda nəşr olunmağa başladı.

Yenə həmin dövrdə Heydər Əliyev Azərbaycan Yazıçılar İttifaqının qurultayında iştirak edərək doğma ana dilində çıxışı ilə tədbir iştirakçılarını heyran qoydu. Ulu öndər bununla kifayətlənməyərək həm də respublikanın bir qrup tanınmış şair və yazıçılarını qəbul edərək onlarla apardığı səmimi söhbətlərində ana dili məsələsinə də toxundu və bu yöndə əməli tədbirlər görülməsinə istiqamət verdi.

Eyni zamanda Ulu öndər rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdi.

Doğma ana dilinin gözəl bilicisi və böyük qayğıkeşi Heydər Əliyev ana dili haqqında demişdir: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir". "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir" aforizm səciyyəli bu sözlər də Ulu Öndərə məxsusdur.

Ümummilli Liderin qətiyyəti sayəsində 1978-ci ildə qəbul olunan Azərbaycan SSR-nin növbəti Konstitusiyasında Azərbaycan dili respublikada dövlət dili kimi təsbit edildi.

1993-cü ildə ikinci dəfə Heydər Əliyev Azərbaycana siyasi hakimiyyətə qayıdanda ölkə çox ağır bir durumda idi. Bir-birinin ardınca baş verən ağır siyasi proseslər Azərbaycanın dövlətçiliyini sarsıtmış, onun müstəqilliyini və azadlığını təhlükə altına almışdı. Belə çıxılmaz siyasi vəziyyətdə bütün bu çətinlikləri yaşadıqdan sonra millət birmənalı şəkildə dərk etdi ki, onun özünə layiq rəhbəri olmadan bu fəlakətlərdən xilas ola bilməz. O günləri cənab Prezident belə xatırlayır: "Eşidəndə ki, mənim doğma vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, biz burada nələr etmişik və bu, dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm".

Heydər Əliyev respublikamızda yaranan xaosu aradan qaldırmaqla yanaşı Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə də xüsusi önəm verirdi.

Düzdür, 1991-ci ildə öz dövlət müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili öz inkişafının yeni mərhələsinə qədəm qoydu, dövlət dili statusu qazandı. Məhz bu mərhələdə milli dövlətçiliyin mühüm atributu olan ana dilinin daha da inkişafı və zənginləşməsi, onun müasir elmi tələblər səviyyəsində geniş və hərtərəfli araşdırılması üçün daha böyük imkanlar yarandı, bu yöndə geniş üfüqlər açıldı və bir sıra mühüm və sanballı işlərə ilkin imza atıldı. Bu məsələdə Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, ana dilimizin gözəl bilicisi və qayğıkeşi, mahir natiq Heydər Əliyevin fəaliyyəti və xidmətləri mühüm və həlledici rol oynadı.

Ümummilli liderimiz Heydər Əliyev dilimizin saflığını, mənəvi zənginliyini qorumağın vacibliyini hər zaman vurğulayır, dövlət idarəçiliyində bu zəruri şərtə əməl etməyin vacibliyini önə çəkirdi. Bununla yanaşı, qeyd edirdi ki, Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən olduğundan müasir dövrün ən müxtəlif ictimai-siyasi, elmi-mədəni, fəlsəfi-intellektual məzmun və hadisələri, informativ mənzərəsi bu dildə çevik şəkildə səlistliklə əksini tapa bilir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında işlənib-hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitutsiyası və "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanı dilimizin hüquqi statusunu, onun işlənməsi, qorunması və inkişafı üçün zəruri olan tədbirləri müəyyənləşdirmişdir.

Konstitusiyanın qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı keçirilən geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunun artırılmasına təsir etdi, dövlət dilinin müstəqil dövlət üçün nə demək olduğunu əyani şəkildə göstərdi.

Ulu Öndər respublikaya rəhbərlik etdiyi illərdə minlərlə tədris ocağı, gənclik mərkəzləri açılmışmışdır. Heydər Əliyev prezidentliyə başladığı ilk gündən etibarən Azərbaycanda müstəqillik, iqtisadi yüksəliş, azadlıq, elmi tərəqqi dövrü başlamışdır.

Ümummilli liderimiz Heydər Əliyev dilimizin saflığını, mənəvi zənginliyini qorumağın vacibliyini hər zaman vurğulayır, dövlət idarəçiliyində bu zəruri şərtə əməl etməyin vacibliyini önə çəkirdi. Bununla yanaşı, qeyd edirdi ki, Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən olduğundan müasir dövrün ən müxtəlif ictimai-siyasi, elmi-mədəni, fəlsəfi-intellektual məzmun və hadisələri, informativ mənzərəsi bu dildə çevik şəkildə səlistliklə əksini tapa bilir.

Ümummilli lider Heydər Əliyev müstəqillik illərində Azərbaycan dilinin qorunub saxlanılması, onun zənginləşdirilməsi istiqamətində də böyük işlər gördü. Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi haqqının bərpa olunması istiqamətində atılmış vacib addımlardan biri 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanın imzalanması olmuşdur. Fərmanda Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilmiş, əvvəlki on il ərzində tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilmişdir.

Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili bərqərar edildi. Eləcə də latın qrafikasına keçid prosesi başa çatdırıldı. 2001-ci il avqust ayının 1-dən ölkə ərazisində bütün idarə-müəssisələr, təşkilatlar, Azərbaycan dilində bütün nəşrlər latın qrafikalı əlifbaya keçdi.

Ümummilli liderimiz Heydər Əliyev dil məsələsinə dövlət siyasətinin tərkib hissəsi kimi yanaşırdı. Ona görə də qeyd edirdi ki, xalqın, millətin, insanın öz ana dilindən əziz bir şeyi ola bilməz. Məhz dilə dövlət səviyyəsində belə yanaşmanın nəticəsidir ki, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli prezident fərmanı dilimizin tətbiqi işinə stimul vermiş, yaddaşımıza və milli-mənəvi dəyərlərimizə, ədəbi-mədəni irsimizə ehtiramı rəsmiləşdirmişdir. Eyni zamanda, əlifbamızın beynəlxalq aləmə daha yaxın olan latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesini sürətləndirmişdir.[2].

Heydər Əliyev tərəfindən verilmiş "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" fərmanı dilimizin tətbiqi işinə ruh vermiş, eyni zamanda, əlifbamızın

beynəlxalq aləmə daha yaxın olan latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesini sürət-ləndirmişdir.

Ulu öndərin ana dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğundakı ideya istiqaməti bu gün də müasir siyasi baxışlara uyğun səviyyədə aparılmaqdadır. Bu istiqamətdə atılmış vacib addımlardan biri də Ulu öndərin 2002-ci ildə imzaladığı "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu qanunda Azərbaycan dili müstəqil dövlətçiliyin əsaslarından biri olaraq qəbul edilmiş, onun digər dillər arasında yaşaması və təkmilləşdirilməsi sahəsində ideyalar irəli sürülmüşdür [4].

Belə bir qanunun qəbulu ölkə Prezidenti kimi Heydər Əliyev tərəfindən dövlətin milli dil, milli kimlik siyasətinin uğurla aparılmasının nəticəsi olaraq ictimai xarakter daşıyır və bununla yanaşı, həm də ana dilinə dövlət dili statusu qazandırmışdır. Ölkə həyatında dilin tarixi, müasir vəziyyəti və onun hüquqlarının müdafiə olunması, hüdudlarının genişlənməsi məsələləri daim gündəmdə qalmaqla, böyük dövlət əhəmiyyəti daşıyır.

Ümummilli liderimiz Heydər Əliyev dilimizin saflığını, mənəvi zəngiliyini qorumağın vacibliyini çıxışlarında hər zaman vurğulayır, dövlət idarəçiliyində bu zəruri şərtə əməl etməyin vacibliyini önə çəkirdi. Bununla yanaşı qeyd edirdi ki, Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən olduğundan müasir dövrün ən müxtəlif ictimasi-siyasi, elmi-mədəni, fəlsəfi-intellektual məzmun və hadisələri bu dildə səlistliklə əksini tapır.

Hazırda Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır.

Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək oldu.

Azərbaycan xalqı xoşbəxtdir ki, ona Heydər Əliyev kimi müdrik siyasi xadim rəhbərlik edib.

Ulu Öndərin böyük önəm verdiyi dil siyasəti onun layiqli varisi, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.

Ulu Öndərin siyasi kursunu yeni şəraitin tələblərinə uyğun şəkildə yaradıcılıqla inkişaf etdirən İlham Əliyev ölkənin dövlət dili ilə bağlı aşağıdakı mühüm sənədlərə imza atmışdır:

- "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı**;**
- "Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 27 dekabr 2004-cü il tarixli Sərəncamı;
- "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" 24 avqust 2007-ci il tarixli Sərəncamı;
- "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 23 may 2012-ci il tarixli Sərəncamı **;**
- "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli Sərəncamı;
- "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında 9 aprel 2013-cü il tarixi Sərəncamı;
- "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında "17 iyul 2018-ci il tarixli Sərəncamı;
- "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı tədbirlər planı haqqında" 1 noyabr 2018-ci il tarixli Fərmanı.

Dövlət başçısının imzaladığı sərəncamlar Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

Prezidentimizin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamı ölkədə dil siyasətinin uğurla həyata keşirilməsi istiqamətində mühüm sənəddir[5].

Prezidentimiz tərəfindən verilən sərəncamlar, qanunlar, fərmanlar müstəqil Azərbaycan Respublikasında ana dilinə dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyini açıq-aşkar bir şəkildə sübut edir.

Ümummilli lider Heydər Əlieyin adı dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin qurulması ilə bağlıdırsa, bu siyasətin yaradıcılıqla davam etdirilməsi missiyası Prezident İlham Əliyevə məxsusdur.

Hər bir Azərbaycan vətəndaşı da millətimizin varlığı və qürur mənbəyi olan dövlət dilini ürəkdən sevməli, sevdirməli və bu dildə danışmağı ilə fəxr etməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. "Qanun", 2016
2. A.Babayev. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2011.
3. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 9 avqust, 2001-ci il.
4. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 15 iyun 2001.
5. Nadir Məmmədli. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. "Elm və təhsil", Bakı-2022.

ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ ПРИМЕНЕНИЯ МУЛЬТИМЕДИЙНЫХ ТЕХНОЛОГИЙ В ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ

Вафа Гамид гызы Тагизаде
Бакинский Славянский Университет
6500_95@mail.ru

В условиях современного образования процесс преподавания иностранных языков постепенно приобретает новые направления, происходит поиск актуальных, новых средств и методов обучения с использованием мультимедийных технологий.

Образовательный процесс в Азербайджане характеризуется совершенствованием учебной деятельности за счёт новых достижений как в лингводидактике, так и в использовании мультимедийных технологий. «Изменение структуры процесса обучения в направлении широкого использования в нём дидактической техники, обладающей функцией обратной связи и заменяющей педагога на ряде этапов учебного процесса, – важнейшая в настоящее время тенденция совершенствования данного процесса во всех типах учебных заведений» [8, с.177].

В изменившихся социально-политических условиях, когда происходит пробуждение и рост национального самосознания азербайджанского народа, изменения статуса, места и роли русского языка как иностранного обуславливает необходимость переоценки подходов в обучении этому языку.

Высокую роль играют мультимедиа технологии в формировании знаний, так как они могут «приобщать обучаемых непосредственно к процессу мышления, рождения и становления мысли, а также закрепления знаний» [9, с.60]. Мультимедийные технологии представляют собой совокупность аппаратных и программных средств, которые способны создавать и воспроизводить информационный продукт, содержащий как статические элементы (текст, графику), так и динамические элементы (речь, музыку, видеофрагменты, анимацию) [5, с.11].

Для успешного внедрения мультимедийных технологий в обучение необходимо придерживаться принципов гуманизма, которые были разработаны такими выдающимися

учёными как К.Д. Ушинским, Л.Н. Толстым, С.Т. Шацким и др. Они выступали за развитие индивидуальных способностей каждого учащегося, и их деятельность в этом направлении заслуживает признания.

Внедрение мультимедийных технологий в обучение русскому языку как иностранному способствует реализации ключевых дидактических принципов, что в свою очередь, повышает эффективность учебно-воспитательного процесса в вузе. Применение мультимедийных технологий в обучении русскому языку как иностранному помогает стимулировать самостоятельное обучение студентов. По словам К.Д.Ушинского: «Необходимо постоянно помнить, что важно не только передать знания ученикам, но и развить в них интерес и способность к самостоятельному приобретению новых знаний. Главная задача... состоит в том, чтобы пробудить умственные способности учеников к самостоятельности и сообщить им привычку к ней, указывая, где следует, дорогу, но не таская их на помочах» [10, с.65.]. Эффективность использования мультимедийных технологий может быть достигнута при комплексном применении на всех этапах обучения русскому языку как иностранному.

При анализе психических процессов важно выделить классификацию А.А.Реана, который подразделяет их на три группы:

- когнитивные;
- эмоциональные;
- волевые [7, с.43].

Благодаря познавательным процессам, связанным с восприятием и переработкой информации: ощущение, восприятие, представление, память, воображение, мышление, речь, внимание, человек получает сведения об окружающем его мире и о себе [7, с.45].

Применение мультимедийных технологий может помочь преподавателю сделать процессы представления новых знаний, формирования понятий, обобщения и практической проверки знаний увлекательными и интересными, при этом поддерживая заинтересованность обучаемых на протяжении всего учебного процесса.

Ключ к этому заключается в эффективной визуализации информации на экране и в качественном звуковом сопровождении. Особенность мультимедийных технологий позволяет увлекательно и с интересом раскрывать обучающимся разницу между знаниями и незнанием, ставить вопросы, которые требуют от обучающихся самостоятельного решения теоретических и практических вопросов, преодоления трудностей.

Привлекательность, необычность, динамичность и контрастность объекта, а также его новизна, вызывают непроизвольное внимание у обучаемых. Правильное использование технических средств оказывает значительное воздействие на организацию деятельности (коллективную, групповую и индивидуальную), способствуя индивидуализации обучения, контролю и корректированию процесса обучения [4, с.67]. Одновременное воздействие голоса диктора, музыки и слов действующих лиц влияет на зрителя, что способствует непроизвольному вниманию учащихся и запоминанию материала. Такой подход способствует созданию благоприятной психологической атмосферы и указывает на то, что учащиеся обращают внимание на процесс работы с мультимедиа технологиями. Возможность предоставления информации, учитывающей индивидуальные особенности восприятия, помогает уменьшить напряжение, что благоприятно влияет на эмоциональное состояние.

Преподавателю следует учитывать эмоциональное воздействие мультимедийных технологий, поскольку мы часто забываем о необходимости вызывать интерес, увлечённость предметом изучения, упускаем из виду эмоциональное состояние наших учащихся. Психологи отмечают прямую зависимость активности умственной деятельности от эмоциональных переживаний. Чувства и познавательная деятельность взаимосвязаны, так как эмоции вытекают из восприятия реального мира [6, с.137].

Как традиционные, так и современные мультимедийные средства обучения способствуют развитию творческих способностей учащихся и усвоению ими знаний на

высоком уровне осмысления и интерпретации. Мультимедийные технологии позволяют широко использовать различные учебные материалы, в рамках которых студенты могут дополнять, расширять, заполнять информацию, а также создавать собственные учебные проекты и представлять их на занятиях.

С помощью многих мультимедиа средств студенты могут формулировать свои вопросы, определять оптимальный для себя темп изучения материала и возвращаться к пройденному столько раз, сколько им необходимо. Мультимедийные технологии играют важную роль в стимулировании учебного процесса, преодолении различных препятствий, мешающих обучению, которые не всегда могут быть преодолены во время взаимодействия с преподавателем.

Одним из ключевых условий использования мультимедийных технологий является повышение интереса к таким аспектам, как психологическая подготовка учащихся, проблематика общения в студенческих коллективах, взаимодействие преподавателя и обучаемых.

Л.Н.Толстой своих работах выделял важность создания позитивных отношений между учащимися и педагогом, а также между самими учащимися для успешного учебно-воспитательного процесса.

Необходимо, чтобы взаимодействие преподавателей и учащихся строилось на взаимопонимании, проникновении в духовный мир друг друга, сопровождалось коллективным анализом хода и результатов совместной деятельности. Для осуществления данного подхода следует организовать учебно-воспитательный процесс на основе диалога. Преподавателю необходимо стремиться к тому, чтобы студенты слушали и понимали чужие воззрения, умели участвовать в диалоге и защищать свою позицию, не нарушая при этом права остальных.

Одним из важных условий применения мультимедийных технологий в обучении является стимулирование самостоятельности учащихся. Всё более популярным становится обучение, основанное на сотрудничестве и партнерстве. В этих условиях студенты становятся полноправными участниками образовательного процесса; возникают доверительные, непринужденные отношения между учащимися и преподавателями; реализуются коллективные педагогические формы и приёмы, осуществляется совместная деятельность студентов и преподавателей, что способствует их активному творчеству.

Индивидуальная работа с мультимедиа технологиями способствует развитию самостоятельности, формирует навыки точности, аккуратности и последовательности действий, а также способности к анализу и обобщению. Мультимедийные средства облегчают усвоение абстракций, позволяя визуализировать их в виде схем, моделей, рисунков. При этом реализуются принципы и методы развивающего обучения, стимулируются мыслительная деятельность обучаемых, творческая активность и максимально удовлетворяются познавательные потребности.

Научная новизна. Использование мультимедийных технологий в обучении позволяет адаптировать процесс обучения под индивидуальные особенности учащихся, даёт возможность педагогу творчески разнообразить способы представления учебной информации, обеспечивает гибкое управление учебным процессом, является социально значимым и актуальным.

Практическая значимость. Предложенные в статье дидактические условия могут быть использованы преподавателями русского языка в обучении русскому языку как иностранному в целях усиления познавательной активности студентов, повышения качества учебного процесса.

Заключение. В процессе обучения русскому языку как иностранному с использованием мультимедиа технологий учитывается специфика развития психических процессов, которые являются основными регуляторами поведения человека, на основе которых формируются знания, умения и навыки.

Использованная литература

1. Алиева И. М. Методические рекомендации к организации практического курса русского языка для студентов-иностранцев. Баку, 2004, 34 с.
2. Азимов Э.Г. Методические проблемы использования компьютера в обучении русскому языку как иностранному // Русский язык за рубежом, 1987, №4, с.75-78.
3. Ахундова М. Б. Использование мультимедийных технологий в обучении русскому языку как иностранному. Педагогика. Научно-теоретический методический журнал., Баку, 2021, 120-125 с.
4. Векилова Л.Г., Канн М.Н., Мустафаева Г.Х. Применение технических средств при обучении русскому языку. Баку: АПИРЯЛ им. М.Ф. Ахундова, 1975, 98 с.
5. Джаджа В.П. Мультимедийные технологии обучения: Учебное пособие. – Самара: СФ ГБОУ ВПО МГПУ, 2013. – 98 с.
6. Коджаспирова Г.М., Петров К.В. Технические средства обучения и методика их использования. – М.: Академия, 2001. – 256 с.
7. Реан А. А., Бордовская Н. В., Розум С. И. Психология и педагогика. — СПб.: Питер, 2002. — 432 с.: ил. — (Серия «Учебник нового века»).
8. Рахманова, С. М. Методразработка занятия с использованием мультимедиа при обучении русскому языку как иностранному в вузе / С. М. Рахманова. — Текст: непосредственный // Молодой ученый. — 2009. — № 2 (2). — С. 177-180. — URL: https://moluch.ru/archive/2/293/ (дата обращения: 01.04.2024).
9. Смирнов А.В. Технические средства в обучении и воспитании детей. М., 2005. 60 с.
10. Ушинский К.Д. Воскресные школы. // Педагогические сочинения в 6 томах. Том 2. М: Педагогика, 1988.

DÜNYA ŞÖHRƏTLİ DÖVLƏT XADİMİ, ÖMRÜNÜ XALQA BAĞIŞLAYAN ÜMUMMİLLİ LİDER – HEYDƏR ƏLİYEV

Lətifə Kərəm qızı Əhmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
letife.ahmedova64@mail.ru

Çoxəsrlik tariximizin ən parlaq siması, dünya şöhrətli dövlət xadimi, Ümummilli lider Heydər Əliyev qeyri-adi siyasi təfəkkürə, böyük dövlətçilik təcrübəsinə və fenomenal qabiliyyətə malik olan qüdrətli şəxsiyyət idi. Həyatını Azərbaycanın inkişafına həsr edən Heydər Əliyevin əmək fəaliyyətini bütövlükdə 2-yerə bölmək olar. Birincisi, sovet dövrü, ikincisi, Müstəqil Azərbaycana rəhbərlik etdiyi dövr.

Heydər Əliyev 1969-cu il iyul ayının-14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş və respublikanın rəhbəri olmuşdur.

SSRİ-nin əyalətlərindən biri kimi baxıldığından 1960-cı illərin sonlarına doğru sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyllərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı və eybəcər şəkillər aldığı, bütün bunların isə xalqın milli mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai - siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu [1] .

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk illərində respubilka iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhəlsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü sturuktur dəyişikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi. Belə bir şəraitdə Heydər Əliyev ölkənin idarəçilik sükanı arxasına keçdi və bununla da Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü

başladı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdır [6].

1993-cü ilin iyun ayında Azərbaycanda ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin yeni dövrü başlandı. Bu ərəfədə Azərbaycanda həddindən artıq hərcmərçilik hökm sürürdü, vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsi var idi. Erməni qəsibkarları ölkəmizin 20 % torpaqlarını zəbt edərək xalqımızı çıxılmaz vəziyyətə salmışdı. Ölkədə nə idarəçilik, nə söz birliyi ,nə də nizami ordu var idi . Eyni zamanda ordunu idarə edəcək səriştəli hərbçi kadrlar da yox idi. Xalq artıq onlara inanmırdı çünki bir-birinin ardınca Qarabağın dağlıq hissəsi və onun ətrafında olan rayonlarımız demək olar kı, ermənı ordusu tərəfindən zəbt edilmişdi. Belə bir vəziyyətdə həm xalqımız, həm də Azərbaycanın o zamankı rəhbərliyi rəsmən Heydər Əliyevi məcbur olaraq Bakıya dəvət etdilər. Bundan əvvəl Heydər Əliyev 1990-1993 – cü illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Respubilkası Ali Sovetinin sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasınının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı ilə keçirilən seçkilərdə səslərin 76,1 % -ni toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Möhkəm məntiqə, iti təfəkkürə, fenomenal yaddaşa və zəngin dünyagörüşünə malik olan Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra da ölkəmizi düşdüyü bu ağır böhrandan çıxarmış, kənd təsərrüfatı, sənaye, ictimai-siyasi, iqtisadi, mədəni həyatın bütün sahələrində xalqımızın yüksək rifahı üçün böyük töhfələr vermiş, eyni zamanda ölkəmizi beynəlxalq aləmdə də öz siyasi bacarıq və qabiliyyətləri ilə yüksək səviyyədə təmsil etmişdir.

Heydər Əliyev fenomeninə, istedadına və şəxsiyyətinə dünyanın ən aparıcı ölkələrinin dövlət başçıları da çox yüksək qiymət vermişdir. Dünyanın görkəmli dövlət və ictimai xadimləri onu politoloq Corc Vaşinqton və Franklin Rüzveltlə, Şarl de Qolla və Mustafa Kamal Atatürklə bir sıraya qoyur, Ümummilli Liderimizi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının lideri kimi görürdülər [2].

Heydər Əliyevin daxili siyasəti ilə xarici siyasəti bir-birini tamamlayırdı. Daxili problemlərin həlli ilə paralel olaraq o, Azərbaycan Respubilkasının düzgün, məqsədyönlü, hərtərəfli düşünülmüş xarici siyasətinin təməl daşını qoymuşdur. Birinci növbədə Heydər Əliyev qonşu dövlətlərlə Türkiyə, İran, Gürcüstan və Rusiya ilə yeni münasibətlərin formalaşmasına böyük səylər göstərmişdir. Eyni zamanda Azərbaycan Respubilkasının Prezidenti kimi də BMT Təhlükəsizlik şurası üzvü olan dövlətlərin hamısına səfər etmişdir. Həmin ölkələrin başçıları ilə görüşmüş, söhbətlər aparmışdır. Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan Avropa Şurasının üzvü seçilmişdir. Beynəlxalq kürsülərdən o cümlədən də BMT-nin Baş Assambleyasının tribunasından Heydər Əliyev Azərbaycan Respubilkasının xarici və daxili siyasətinin əsas məqamlarını səsləndirmiş, Ermənistanın təcavüzkar siyasətini ifşa etmişdir [3].

Heydər Əliyevin yuxarıda sadalanan sahələrlə yanaşı idman sahəsinə də böyük diqqət yetirmişdir ki, nəticədə Azərbaycan bu sahədə də uğurlar əldə etmişdir. O, Avropa "Top-komanda" kuboku uğrunda yarışların qalibi olan Azərreyl qadın voleybol klubunun üzvüləri ilə görüşdəki yekun nitqində belə söyləmişdir: "Biz sevinir ki, Milli Olimpiya Komitəsi idman sahəsində qısa müddət ərzində böyük nailiyyətlər əldə edibdir. İdmanın maddi-texniki bazasının yaradılması və genişləndirilməsində çox işlər görübdür və bu gün də görür, gələcəkdə də görəcəkdir. Gənclər, İdman və Turizm Nazirliyi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir" [4].

Heydər Əliyevin uzaqgörənliklə söylədiyi fikirlərdən biri də bu gün real həyatda öz əksini tapmışdır. O demişdir: "Sizi əmin edirəm ki,həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra

bilmədiyim taleyüklü məsələləri, planları,işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inaniram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Heydər Əliyev bəşər tarixinin yetirdirdiyi nadir və qüdrətli şəxsiyyətdir. Tarixdə belə şəxsiyyətlər tək-tək dünyaya gəlir. [5].

Azərbaycan xalqının Ümummilli lideri, xilaskarı Heydər Əliyev uzaqgörənliyinin bir üstünlüyü də onun öz layiqli davamçısını yetişdirməsindədir. Bu gün Azərbaycan dövlətinin sükanı məhz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin əlindədir. Biz Azərbaycanımızın gələcəyi naminə İlham Əliyevin ətrafında sıx birləşməli, Heydər Əliyev ideyalarının həyata keçirilməsində ona kömək göstərməliyik [1].

Bu gün müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, yüksək intelektli və enerjili, möhkəm iradəyə malik olan, ölkəmiz üçün həyati əhəmiyyətli işlər görən İlham Əliyevə xalqımız inanır və etibar edir.

İstifadə edilmiş ədəbiyyat

1. Xalqa bağışlanan ömür. II cild, Bakı. Şəms, 2004.
2. Müdriklik zirvəsi. Bakı. Yazıçı, 2011.
3. Şəxsiyyətin qüdrəti. Bakı. Yazıçı, 2012.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, fərmanlar. Bakı: Azərnəşr, 2011.
5. S.Rüstəmoğlu. Əbədi günəş. Xəbərlər elmi-metodik jurnal. №4. Bakı. 2011
6. Azerbaijan.az.https://azerbaijan.az

HEYDƏR ƏLİYEV VƏ NATİQLİK SƏNƏTİ

Ülviyyə Rəcəb qızı Rəcəbli
Bakı Slavyan Universiteti
ulviyyerecebli9@gmail.com

Natiqlik bir elm kimi qədim tarixə malikdir. Onun tarixi V-VI əsrlərdən başlanır. Hələ qədim zamanlardan aydın, səlis, ifadəli, yığcam, təsirli nitqi olan insanlar xalqın hörmət və məhəbbətini qazanmış, cəmiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Natiq şəxs dilin mövcud ədəbi dil normalarına əməl etməli, həm də aydın, ifadəli, təsirli nitqə sahib olmalıdır.

Natiqlik sənətinin vətəni dünya mədəniyyətinin beşiyi sayılan Yunanıstan olmuşdur. Bir elm kimi də natiqlik Yunanıstanda yaranmış və inkişaf etmişdir.

Şərq ölkələrində də bu qədim sənətə xüsusi maraq olmuşdur. Dövrün şairləri, filosofları, din xadimləri ritorika elminə öz ləyaqətli nitqləri ilə əvəzsiz töhfələrini vermişdilər.

Azərbaycanda da əsrlər boyu gözəl, ahəngdar nitqi ilə seçilən mədəniyyət xadimlərimiz, ədəbiyyatçılarımız, filosoflarımız öz qələmləri, vədəni irsləri ilə zəngin natiqlik nümunələri irsi qoymuşdular. Ölkəmizdə natiq dedikdə, dünya şöhrətli siyasətçi, fenomenal yaddaş sahibi, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adı yada düşür. Heydər Əliyev öz dövrünün ən böyük, dahi natiqi, söz sahibi idi.

Heydər Əliyev istər sovet imperiyası, istərsə də müstəqillik dövründə Azərbaycan dili uğrunda mübarizə aparmış, bu dilin müdafiəsinə yönələn mücadilə aparmışdır. Dilimizi mənimsəməyi, öyrənməyi tövsiyə edən dil problemlərini təfərrüatlarınadək bilən ulu öndər bu bilikləri, məlumatları ilə auditoriyaları heyranlıqda qoyurdu.

Heydər Əliyevin çıxış etdiyi auditoriyalar öz zənginliyi ilə seçilən auditoriyalar idi. Bu tamaşaçı, dinləyici kütləsini, auditoriyaları öz parlaq çıxışları ilə fəth etmək, yaknız güclü məntiqə malik təfəkkürdən süzülüb gələn nitqlə mümkün olurdu. Bütün bunlara nail olmaq geniş ensiklopedik biliklərə söykənməyin nəticəsi idi.

Müxtəlif peşə sahiblərinin toplaşdığı geniş zallar öz peşəsinə aid olan dəyərli sözləri eşidirdi, həmin peşələrə, ixtisaslara xas olan məzmun incələnməsinin şahidi olur, heyranlıqlarını, maraqlarını gizlətmirdilər. İzahedicilik Heydər Əliyev nitqinə aid olan bir nəzəriyyə idi. Azərbaycan bayrağını sevən, onu poetik rənglərlə, çalarlarla xalqa, auditoriyalara sevdirən böyük natiq bayraqla Vətəni, xalqı, dövləti eyniləşdirir, birləşdirirdi. Heydər Əliyevin nitqi heç yerdə yazılmayan, heç kəs tərəfindən təkrarı, bənzəri olmayan nitq idi. Məhz bu səbəbdən belə nitqlər, o cümlədən Heydər Əliyevin nitqi daimi və yaddaqalan nitqdir. Nitqin təsir göstərən elementlərindən biri giriş və sonluğudur ki, bu elementlər Heydər Əliyevin nitq və çıxışlarında öyrənilməyə layiqdir. Bənzərsiz giriş və sonluqlar böyük natiqin nitqində əsas struktur vahidlərdən idi. Siyasi natiqlərin banilərindən biri kimi Heydər Əliyev nitqinin araşdırılması bu gün də aktualdır. Natiqin nitqinin gücü, səmimiyyət, qətiyyət, nikbinlik, poetizm və sair ilə şərtlənir ki, onlardan biri də fəlsəfi fikirlərdir. Müdrikliyi qəbul edən fəlsəfə hər zaman yüksək səviyyədə olub. Bunun sübutu da Heydər Əliyev nitqidir. Heydər Əliyevin hansı nitqinə, hansı çıxışına nəzər salsaq, orada məntiqə söykənən, sistemliyə, ardıcıllığa şahid oluruq. Şifahi nitqdə belə məntiqi ardıcıllıqları, xüsusilə də saatlarla davam edən çıxışlarda təmin etmək hər natiqə müəssər olmur. Elə Heydər Əliyev nitqinin fenomenliyi də bundadır.

Ulu Öndər təkcə Azərbaycanın deyil, bütün dünya siyasi natiqliyinin seçilmişlərindən, birincilərindən olmuşdur. Heydər Əliyev Azərbaycan tarixində dövlətçilik təfəkkürünü yaratmış, həm də Azərbaycan nitq mədəniyyətinin əvəzsiz nümunələrini bizə bəxş etmişdir.

Natiqlik sənətində ən çətin psixoloji məamlar nitqi başlamaq və məntiqlə yekunlaşdırmaqdır. Nitqi elə başlamalısan ki, dinləyiciyə cazibədar görünsün, o maraqla qulaq assın. Nitqi elə məzmunlu vurğu ilə bitirməlisən ki, dediklərin dinləyicinin yaddaşına həkk olunsun. Heydər Əliyevin nitqi mədəniyyəti dərin fəsəfi məzmuna, zəngin poetik imkanlar malik idi. Onun siyasi-ideoloji nitqləri milli təfəkkürün dinamikasını əks etdirirdi. O, mzqamı gəldikcə sərt bəyanatlar edirdi, problemin mahiyyətinə təmkinlə şərh verirdi, sözünün təsirini artırmaq üçün nikbin, emosional ifadələr işlədirdi.

Dahi insan mənsub olduğu xalqın dilini, xalq fəlsəfəsini dərindən bilirdi. Bütün bunlar onun natiqlik məharətini qarşıya qoyan cəhət kimi diqqəti çəkir. Heydər Əliyevin natiqlik səriştəsi, dərin, mənalı, məntiqli nitqi, sözləri, cümlələri məqamında seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi, güclü yaddaşı ona qulaq asan hər bir kəsi valeh edirdi. Ulu öndər çıxışlarının hər birində xalqına arzu, istəkləri, məhəbbəti, gələcək təsəvvürləri ilə bərabər, onu narahat edən məqamları da xüsusi natiqlik istedadı ilə çatdırıldı.

Heydər Əliyevin nitqinin gücü zəngin məlumatla bərabər, daha çox məna yükü daşımasındadır. Onun dəmir məntiq əsasında qurulan nitqləri, həm də böyük poetik imkanlara malik idi. Həqiqəti səmimi bir tərzdə, inamla söylədiyinə görə dinləyici ulu öndərin nitqlərini əminliklə qəbul edə bilirdi. Konkret bir şəraitdə, auditoriyanın tərkib və səviyyəsini nəzərə alaraq söylədiyi nitqlərlə o, istədiyinə nail ola bilirdi. Onun nitqlərinin arxasında əzəmətli şəxsiyyəti dayanırdı.

Əvəzsiz natiq heç bir qeydə baxmadan saatlarca danışar, faktlar, sübutlar gətirərdi. Onun nitqində möhkəm rabitə, məntiq vardı. Hansı auditoriya qarşısında çıxış etməyindən asılı olmayaraq, auditoriyanı ələ alar, öz ideyalarını dinləyicilərə sadə şəkildə aşılayardı. Natiqin çıxışları hər bir zaman sübutlara, məntiqə söykənərdi. Onun saatlarla davam edən çıxışlarından heç kim yorulmazdı, çünki o, danışıq tempi manerası, jestləri, mimikası, axıcı nitqi ilə hər zaman dinləyici kütləsini nitqini dinləməyə vadar edərdi. Heydər Əliyev eyni zamanda nitqi ilə bu dilin təmizliyinin keşiyində duran əvəzsiz dövlət xadimi idi. Onun nitqi yaradıcı fəaliyyət idi. Bu yaradıcı fəaliyyət hər zaman milli-mənəvi sərvətimiz olan, dilimizin keşiyində durdu.

Bu gün biz əminliklə deyə bilərik ki, Ulu öndər, dövlət xadimi Heydər Əliyevin xatirəsi hər birimizin qəlbində sevgi və ehtiramla yaşayacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2011.
2. Eminli B.İ., Paşayeva G.B. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Sumqatıt, 2012.

3. Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Bakı, 2018

ROLE OF HEYDAR ALIYEV IN ESTABLISHING DIPLOMATIC AND POLITICAL RELATIONS BETWEEN AZERBAIJAN AND CENTRAL ASIAN REPUBLICS

Lala Aliyeva
Ganja State University
aliyevalala.114@gmail.com

In the years under study, bilateral relations with the countries of the Commonwealth of Independent States, including the Central Asian republics, have attracted attention in the aspect of foreign policy activities of the independent Azerbaijan state.

The importance of mutual recognition of "de facto" and "de jure" independence of these states, which are close and distant neighbors, and establishment of diplomatic relations should be especially noted. As a basis for cooperation in mutually beneficial economic, scientific, technical, cultural and humanitarian spheres, it is important to pay attention to mutual recognition of neighboring countries, which have been closely related to each other for many years.

The historical experience of the countries of the world proves that good relations with neighbors are one of the reliable and inexpensive means of defense of a country. Mutual recognition was the first step in building friendly-neighbor relations.

In a short period of time, the Republic of Azerbaijan established diplomatic relations with the republics of the former USSR, including the Republic of Turkmenistan. On May 20, 1992, the Republic of Azerbaijan sent a note to the Republic of Turkmenistan. On June 9, 1992, the Turkmen side responded with a note. [2].

Despite the establishment of diplomatic relations, the fact that embassies, consulates and authorized representatives of the Republic of Azerbaijan did not operate in this country was a serious defect of our foreign policy. Timely opening of diplomatic institutions of the Republic of Azerbaijan in these states would have brought tangible political, economic and moral benefit to our country in that difficult and complicated period, would have contributed to the efficiency of our foreign policy.

Establishment of diplomatic relations between Azerbaijan and the Republic of Turkmenistan, signing of agreements on principles of interstate relations should be considered as a positive fact. However, the delay in opening of our diplomatic missions in these countries, or at least in a certain group of countries, should be considered an omission inherent in the foreign policy of those years.

The steps taken in the sphere of establishing mutually beneficial relations between the state of Azerbaijan and Turkmenistan also require serious analysis.

After Heydar Aliyev came to power in June 1993, relations with Uzbekistan warmed up. On August 16, a delegation of representatives of various ministries and departments of Azerbaijan signed an agreement on trade and economic cooperation between Uzbekistan and Azerbaijan in Tashkent. [2].

In the years under study, the Turkish state regarded Azerbaijan as a "golden bridge" in its relations with Central Asian countries. The Turks, as historically, in this period also turned their face to the ancient abodes of the Turks, to the East. The Turkish state had serious and extensive interests here. Despite the fact that in the first years of independence, Azerbaijan could play the role of a bridge for others in this respect, it not only failed to achieve cooperation with Central Asian countries, but also worsened its relations with these states. Some leaders of Azerbaijan, who

declared that it was impossible to cooperate with the communist leaders of Central Asian countries, damaged our foreign policy and our national interests. Both the states concerned and our compatriots living in these countries suffered from this.

With Heydar Aliyev's return to power, positive tendencies began to appear in relations with Kazakhstan and Central Asian republics, as well as in relations with other countries. Mutual visits and negotiations have led to the development of relations in all spheres.

In mid-March 1996, President of Turkmenistan Saparmurad Niyazov visited our republic. Within the framework of the visit on March 18, talks were held at the Presidential Palace between delegations of Turkmenistan headed by President of Azerbaijan Heydar Aliyev and President of Turkmenistan Saparmurad Niyazov. [1].

Welcoming the President of Turkmenistan and the accompanying delegation, President of Azerbaijan Heydar Aliyev noted that this visit is the first visit of the head of state of independent Turkmenistan to our republic and we attach great importance to it. During the visit, Heydar Aliyev talked of the issues to be discussed in order to develop friendship and brotherhood, mutually beneficial cooperation between Turkmenistan and Azerbaijan, and expressed confidence that the documents to be signed will play an important role in strengthening and expanding our cooperation, and friendship between the two brotherly countries will be further strengthened, which will also contribute to consolidation. [1].

S.Niyazov, thanking the head of our state for warm reception and kind words, said: "Dear and respected friend President of Azerbaijan Mr. Heydar Aliyev, I congratulate you and your companions, all the people of Azerbaijan on behalf of the Turkmen people, on behalf of the leaders of the state of Turkmenistan, the roots of our peoples are among the most ancient, our language, religion and customs are the same. During the Soviet times we were not allowed to study our history. After Turkmenistan joined the former USSR as a republic, it was Azerbaijan that first helped us. Then the Azerbaijani people helped us comprehensively. In our economy, in our oil and gas industry, in general in all spheres of national economy friendly republics provided us with great help and assistance".

S.Niyazov later said: "When a devastating earthquake struck Ashgabat in 1948, it was the brotherly people of Azerbaijan who were the first to reach us. At that time, many earthquake victims were being treated in Baku hospitals. In the following years, the efforts and work of Azerbaijani specialists were great in improving our economy. Our youth studied in higher schools of Azerbaijan and returned home as excellent specialists. But at that time the oil produced in Azerbaijan and Turkmenistan was not our own. It belonged to others. The Turkmen people have never forgotten and will never forget that you have always supported us in our difficult time. This help and assistance can only be given by brother to brother.

President S. Niyazov-Turkmanbashi later said: "After the collapse of the USSR, its former republics were subjected to all kinds of difficulties. We know that Azerbaijan had to endure more difficulties. Soviet troops entered Baku. Blood was shed in Karabakh. Your people have made many sacrifices. It also wept bitterly over the martyrdom of the heroic sons of the Turkmen people. We have always shared your joys and sorrows. Dear brother, after you came to power, our goal was peaceful resolution of the Karabakh conflict, prevention of bloodshed and establishment of peace in the Azerbaijani land. Your personal help is great for us. Your personal help to Turkmenistan's joining the UN Economic Cooperation Organization and gaining the status of a neutral state is invaluable and great".

My dear brother Heydar Alirza oglu, "we will consult with you on every issue that comes before us and we will try to overcome all obstacles together. From now on, we will try to continue the path started by our ancestors and strengthen ties between the Turkmen peoples in all spheres of life". [1].

President of Azerbaijan Heydar Aliyev once again expressed satisfaction with the guests' visit to our republic and noted that our countries have been living in conditions of independence and sovereignty for four years, but although we are neighbors, there is still a lack of relevant documents defining the contractual-legal basis of cooperation between Azerbaijan and Turkmenistan. S.Niyazov's visit to our republic is significant because there will be an opportunity to discuss and adopt documents defining the legal basis of cooperation between our countries. Of course, our republics cooperate without any documents. Now high-ranking officials and experts of both countries have developed a number of important documents. The head of state said that our republic has ample opportunities for effective cooperation in the economic sphere. If they join their efforts, they will surely be able to achieve great success.

President Heydar Aliyev added: The Caspian Sea unites us, but it is also a border. But, naturally, it is a border of friendship between Turkmenistan and Azerbaijan. Joint use of the resources of this sea, cooperation in oil and gas production, shipping and fishing, especially in the field of ecology, is of great importance for both Turkmenistan and Azerbaijan. The head of state emphasized the importance of long-standing cooperation in the spheres of science, technology, culture and sports and said that the ways of future cooperation in all these spheres should be defined now. The Azerbaijani leader also spoke about cooperation between our countries within the CIS. The head of our state said: "Azerbaijan maintains its independence despite the fact that it lives in very difficult and complicated conditions. The independence of our country is a historical achievement of our people. We take all necessary measures to strengthen and develop our state independence".

The head of state praised the efforts and purposeful activity of the President of Turkmenistan in strengthening Turkmenistan's independence and establishing peace in the Central Asian region and said that it is of great importance not only for the Central Asian region. Central and Central Asia is separated from the Caucasus by the Caspian Sea. The Caspian Sea is of special importance in expanding cooperation between the countries surrounding it. President of Azerbaijan Heydar Aliyev emphasized the importance of Turkmenistan's declaration of its neutrality and the fact that Turkmenistan's proposal on this neutrality was supported by our Republic in the UN.

Successful realization, by hard work and skill, of the domestic and foreign policy strategy defined by Heydar Aliyev during the ten years of his presidency in 1993-2003, once again proves the firmness of this basis in today's victories and realities of Azerbaijan in the modern world.

References

1. "Azərbaycan" qəzeti, 19 mart 1996.
2. Azərbaycan beynəlxalq aləmdə. I cild. Bakı, 1996
3. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, Bakı, 1996.
4. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, 2005

AZƏRBAYCAN–TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Vüqar Dilqəm oğlu Abbasov
Gəncə Dövlət Universiteti
abbasovvuqar571mail.com@gmail.com

1993-cü ilin yayında Azərbaycanda gedən ictimai-siyasi proseslərin təbii nəticəsi olaraq hakimiyyətə gələn Heydər Əliyevin Azərbaycan Respublikasının başqa dövlətlərlə əlaqəsində

olduğu kimi Türkiyə ilə də münasibətlərindəki soyuqluğu aradan qaldırmağı hərtərəfli tarixi dönüş yaratdı. Apardığı görüşlərin və diplomatik söhbətlərin nəticəsi olaraq, Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu.

Türkiyə 90-cı illərin əvvəlindən bütün maneələrə baxmayaraq, Cənubi Qafqazda Azərbaycan və Gürcüstanla, Xəzər hövzəsində isə Qazaxıstan və Türkmənistanla siyasi, iqtisadi və hərbi-strateji tərəfdaşlığın möhkəmlənməsi yönündə ciddi addımlar atmağa nail olmuşdur.

Heydər Əliyevin apardığı siyasətdə Türkiyə ilə münasibətlər "İki dövlət, bir millət" prinsipinə əsaslanmışdır. Azərbaycanın ilk səfirliyinin də məhz Türkiyədə açılması, 1991-ci il dekabrın 25-də Türkiyə ilə Naxçıvan arasında Araz çayı üzərində Ümüd körpüsün salınması, Azərbaycan "Əsrin müqaviləsi"-nin imzalanması, TRASEKA lahiyəsi, BTC kimi böyük lahiyənin imzalanması Azərbaycan və Türkiyə münasibətlərinin birlikdə inkişaf etdiyini göstərirdi.

Azərbaycanla Türkiyə arasında əlaqələrin inkişaf edib genişlənməsi 1994-cü il fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri ilə başlanmışdır. Respublikamızın prezidenti səfərə yola düşməmişdən əvvəl jurnalistlər üçün verdiyi müsahibəsində demişdir: "...Türkiyədə olduğumuz zaman Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin genişlənməsi, inkişaf etməsi üçün yeni işlər görüləcəkdir. Bu həm Azərbaycan Respublikası üçün, həm də Türkiyə Cümhuriyyəti üçün faydalı olcaqdır..." [2].

Fevralın 8-də Türkiyə prezidentinin iqamətgahı "Çankaya" köşkündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur. Sonra isə Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl "Çankaya" köşkündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə böyük ziyafət vermişdir. Həmin ziyafətdəki nitqində Süleyman Dəmirəl demişdir: "...Türkiyə ilə Azərbaycan arasında əlaqələrin yaxınlığını xatırlamağa ehtiyac duymuram, bu, göz qabağındadır. Biz iki dövlət olsaq da, bir millətik..." [2].

Respublikamızın Prezidenti Heydər Əliyev fevralın 9-da Türkiyə Böyük Millət Məclisində etdiyi çıxışında qeyd etmişdir ki, "...Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahələrində, bütün başqa sahələrdə əlaqələr xüsusi xarakter daşıyacaq, başqa dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəkdir..." [2].

Azərbaycan prezidentinin Türkiyəyə rəsmi səfərinin məhz siyasi əhəmiyyətinə toxunmuş olsaq, qeyd etmək lazımdır ki, bu təkcə formalaşmaqda olan Azərbaycanın müstəqil xarici siyasətində deyil, Türkiyə kimi qardaş və dost bir ölkə ilə əlaqələrində yeni mərhələ olmuşdur. [5].Azərbaycanın keçmiş hökumətinin və dövlət rəhbərlərinin Türkiyə ilə əlaqələrini və münasibətlərini göz önünə alanlar belə bir sual ortaya çıxara bilərlər ki, bu ölkə ilə əlaqələr tam qaydasında olduğu halda bu səfər niyə yeni mərhələ kimi qiymətləndirilir?

Çünki iki il ərzində Türkiyə Azərbaycanın möhkəmlənməsi üçün bir sıra işlər görsədə, lakin Azərbaycanda normal dövlətçilik olmadığından, ən əsası dövlət idarəetmə təcrübə və səriştəsinə malik rəhbər olmadığından Azərbaycan Türkiyə ilə əlaqələrin ona verdiyi üstünlüklərindən istifadə edə bilmədi. Artıq yeni mərhələdə Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan hökuməti Türkiyə ilə əlaqələri dövlətlərarası münasibətlərin beynəlxalq prinsipləri əsasında qurmuşdur.

Heydər Əliyevin Türkiyəyə dörd günlük rəsmi səfəri zamanı müqavilələr imzalandı. Fevralın 9-da Türkiyə prezidentinin iqamətgahında – "Çankaya" köşkündə Türkiyə-Azərbaycan sənədlərinin imzalanması mərasimi keçirilmişdir. Bu müqavilələrdən biri Türkiyə ilə Azərbaycan arasında dostluq və hərtərəfli əməkdaşlığı beynəlxalq prinsiplərə uyğun olaraq rəsmən təsdiq etdi. [6].

Türkiyəyə yüksək səviyyədə səfər Azərbaycan üçün siyasi sahədə olduğu kimi, iqtisadi əlaqələr baxımından da çox əhəmiyyətli idi. Dövlət başçılarının və hökumət nümayəndələrinin Ankaradakı "Çankaya" köşkünün möhtəşəm salonunda imzaladıqları 16 sənəd arasında yüksək əhəmiyyət daşıyan döstluq, əməkdaşlıq, siyasi məsləhətləşmələr haqqında müqavilələrlə yanaşı, iki dövlət arasında iqtisadi əlaqələri tənzimləmək və bir sıra başqa sənədlər də var idi.

Hələ Türkiyə 1993-cü ildə Azərbaycan üçün 250 milyon dollarlıq kredit ayırmışdı. Bu kreditin əvvəl 50 milyonu ixracat 200 milyonu investisiya üçün nəzərdə tutulmuşdur. Lakin sonradan ixracat kreditinin 100 milyon dollara qaldırılması, investisiya kreditinin 150 milyon dollara endirilməsi qərarlaşdı. 1993-cü il aprelin 21-dən istifadə olunmağa başlanan ixracat kreditinin 70 milyonu xərclənmiş, investisiya üçün ayrılmış kredit isə ancaq 1994-cü il yanvarın 21-

dən istifadə olunmağa başlanmışdır. Ankarada imzalanmış iki müqavilə - "İnvestisiyaların qarşılıqlı cəlb olunması" və "İkiqat vergiyə cəlb etməmək" haqqındakı sənədlər iqtisadi böhran məngənəsində sıxılan Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etdi.

Bu müqavilələrlə yanaşı gömrük əməkdaşlığı, elm, təhsil, səhiyyə və mədəniyyət sahələrində bir sıra sənədlər imzalanmışdır ki, bütün bunlar Azərbaycan-Türkiyə əlaqələrinin sonrakı inkişafına öz müsbət təsirini göstərmişdir. [6].

Türkiyə xarici işlər naziri Hikmət Çətin aprelin 24-də Bakıda qısamüddətli əməli səfərdə olarkən Respublika Xarici İşlər Nazirliyində aparılan danışıqlarda fevralda Heydər Əliyevin Ankaraya rəsmi səfəri zamanı imzalanmış Azərbaycan -Türkiyə sazişlərinin reallaşdırılması yolları müzakirə edilmişdir. Bundan əlavə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyətlə bağlı məsələlər, ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin aradan qaldırılması yolları nəzərdən keçirilmişdir.

1994-cü il iyunun 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə qısa müddətli səfərdə olmuşdur. [6].

Prezident Heydər Əliyevlə Türkiyənin xarici işlər naziri H.Çətin arasında səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki ölkə arasında əməkdaşlığın perspektivləri müzakirə olunmuş, daha sıx əlaqələr qurulması imkanları nəzərdən keçirilmişdir. [6].

İyunun 10-da isə İstanbulda "Şəlalə Yıldız" köşkündə Azərbaycan prezidenti ilə Türkiyənin baş naziri Tansu Çillər arasında danışıqlar olmuşdur. [6]. Heydər Əliyev bölgədə baş verən son hadisələrdən geniş bəhs edərək, bir sıra məqamlar üzərində xüsusi ilə geniş dayanaraq, ikitərəfli əməkdaşlığın genişlənməsi ilə əlaqədar təkliflər irəli sürmüşdür. Xanım Çillər bu təkliflərin Türkiyə tərəfindən müzakirə olunub qəbul ediləcəyini bildirmişdi. Baş nazir qeyd etmişdi ki, Türkiyə Azərbaycandakı iqtisadi durumu diqqətlə izləyir və ona hərtərəfl yardım göstərmək üçün əlindən gələni əsirgəməyəcəkdir. [2].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev türk dövlətlərinin başçılarının ikinci Zirvə toplantısında iştirak etmək üçün oktyabrın 18-də İstanbula getmişdir. Həmin gün axşam İstanbulda türk dövlət başçılarının ikinci Zirvə toplantısının açılışı olmuşdur. Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl toplantını açaraq qeyd etmişdir ki, türk dövlətlərinin həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrinin bundan sonra da genişlənməsi mühüm əhəmiyyət kəsb edir. Sonra toplantı iştirakçılarının birgə bəyannaməsi imzalanmışdır. İstanbul bəyannaməsində altı türkdilli dövlətin iqtisadi əməkdaşlığı, mədəni əlaqələri daha da inkişaf etdirmək üçün səylərini davam etdirmək əzmi öz əksini tapmışdır.

1994-cü ildə Türkiyənin energetika naziri Veysəl Atasoy, Türkiyə Böyük Millət Məclisinin sədri Hüsaməddin Cindoruk Azərbaycana səfər etdilər. H.Cindoruk Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edildi, parlamentin sədri, xarici işlər naziri ilə görüşdü. Milli Məclisdə çıxış etmişdi. [4].

QİƏT-in konfransında iştirak etmək üçün Prezident Heydər Əliyev aprelin 28-də İstanbulda olmuşdur. Həmin gün Prezident Heydər Əliyev İstanbulda Türkiyənin prezidenti Süleyman Dəmirəllə görüşmüş və söhbət zamanı Azərbaycan – Türkiyə əməkdaşlığını daha da inkişaf etdirmək üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, qardaş ölkənin iş adamlarının ölkəmizlə əlaqələrinin bundan sonra da möhkəmləndirilməsi ilə əlaqədar bir sıra məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

1996-cı il fevral ayının 8-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Türkiyənin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Ayxan Kameli qəbul etmişdi.

Ayxan Kameli Azərbaycana səfərinin məqsəd və məramını açıqlayaraq demişdir ki, Türkiyə hökuməti Qarabağ münaqişəsində qardaş ölkənin ədalətli mövqeyini daim müdafiə etmiş və edəcəkdir. O, münaqişənin sülh yolu ilə həll edilməsinə tərəfdar olduqlarını xüsusi vurğulayaraq Türkiyə prezidenti Süleyman Dəmirəlin məktubunu Heydər Əliyevə təqdim etmişdi. [8].

A.Kamel Azərbaycan səfərindən razı qaldığını bildirərək münaqişənin tezliklə həll ediləcəyinə inandığını, Azərbaycanın tərəqqi etmiş, çiçəklənən ölkəyə çevriləcəyinə inamını ifadə etmişdir. O, səfərinin də bu məqsədə xidmət etdiyini, Azərbaycanın adı çəkilən məsələlərdə

mövqeyini öyrənmək və Türkiyənin qardaş Azərbaycana kömək yollarını aramaqda olduğunu bildirmişdir.

Bu dövrdə Türkiyə dövləti təkcə Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həllində deyil, həm də ki, ermənilərin işğal etdiyi bölgələrimizdən didərgin düşmüş köçkün və qaçqınların iqtisadi və sosial problemləri ilə yaxından maraqlanmışdır. Belə ki, 1996-ca ilin may ayına Türkiyənin ölkəmizdəki səfiri Ömür Orhan Ağcabədi və Bərdə rayonlarında olmuş, öz ölkəsinin Beynəlxalq "Qızıl Ay" Cəmiyyətinin həmin rayonlarda saldığı çadır şəhərciklərində müvəqqəti məskunlaşmış köçkün və qaçqınlarla görüşmüş, onların həyat şəraiti, sosial problemləri ilə tanış olmuşdur.

Bunun ardınca Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin dəvəti ilə 1997-ci il may ayının 5-dən 8-dək qardaş ölkədə rəsmi səfərdə olmuşdur. [3].

Mayın 5-də aparılan ikitərəfli danışıqlar başa çatdıqdan sonra "Çankaya" köşkündə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müxtəlif səpkili sənədlərin imzalanma mərasimi olmuşdur.

Prezidentlər Heydər Əliyev və Süleyman Dəmirəl arasında "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında" bəyannamə imzalanmışdır. [3].

Sonra Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında "Sərhəd məsələlərinin və anlaşılmazlıqların həlli haqqında [1]. saziş", "Gəmiçilik saziş"i, "Hava daşımaları haqqında sazişə əlavə protokol"a imza atıldı. Bundan əlavə "Gənclik və idman sahəsində əməkdaşlığa dair əlavə protokol", "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Təminat Nazirliyi və Türkiyə Respublikası Əmək və Sosial Təminat Nazirliyi arasında əməkdaşlıq sazişi", "Kiçik və orta həcmli sənaye müəssisələrini inkişaf etdirmək istiqamətində əməkdaşlığın əlavə protokolu", "Elektrik enerjisi sahəsində əməkdaşlığın prinsipləri haqqında saziş" imzalandı. [3].

Həmin mərasimdə çıxış edən prezident Süleyman Dəmirəl demişdir: "Türkiyə qardaş Azərbaycanın müstəqillik və suverenliyini qorumaq və inkişaf etdirmək səylərini indiyə qədər olduğu kimi bundan sonrakı dövrdə də hər sahədə daim dəstəkləməkdə davam edəcək, mövcud mehriban əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün səy göstərəcəkdir". [8].

Heydər Əliyev də çıxışında, öz növbəsində göstərmişdir: "Azərbaycan müstəqil dövlət olandan indiyədək Respublikamızın bütün dövlətlərlə qurduğu əlaqələr içərisində Türkiyə ilə əlaqələr xüsusi yer tutur".

Əvvəlki dövrlərdə olduğu kimi Dağlıq Qarabağ probleminin sülh yolu ilə aradan qaldırılması barədə Azərbaycan və Türkiyə dövlət başçılarının müxtəlif səpkili görüşləri keçirilmişdir. Bütün bu görüşlərdən aydın olmuşdur ki, Türkiyə Azərbaycanın mövqeyini dəstəkləyir və bu yolda ona hər cür kömək etməyə hazırdır.

1999-cu il yanvar ayının 24-də Ankarada Gülhanə Tibb Akademiyasında dövlətimizin başçısı üçün ayrılmış müalicə-istirahət otağında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevlə Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl arasında olan görüşdə, dost ölkələrimizin bütün sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların davam etdirilməsi haqqında beynəlxalq və regional problemlər barədə ətraflı fikir mübadiləsi apardılar. [7].

Dövlət başçılarının görüşündən sonra cənab Süleyman Dəmirəl keçirdiyi qısa mətbuat konfransında Rusiyanın Ermənistana yeni silahlar verməsi barədə suala cavabında o bildirdi ki, əslində bu, yeni məsələ deyildir. Rusiyanın Ermənistana mütəmadi sürətdə silahlar verməsi region dövlətlərini, o cümlədən Türkiyəni ciddi narahat edir.

O illərdən bu günə qardaş Türkiyə Respublikası Cənubi Qafqaz siyasətindəki əsas müttəfiqinin Azərbaycan olduğunu daim nümayiş və əməli sübut etmişdir. Bununla yanaşı, Azərbaycanın da regionun bütün siyasi, iqtisadi və hərbi-strateji məsələlərində Türkiyəyə birbaşa dəstək verməsi, Rusiya və İran kimi regional güc mərkəzləri ilə rəqabətdə onun gücünü artırır.

1995-2003-cü illər ərzində ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklərə imza atan Ulu öndər Heydər Əliyev həm nəzəri səviyyədə, həm də praktikada norma və dəyərlər toplusunu həyata keçirmiş, və bu toplu həyat qabiliyyətli demokratiya modelinə çevrilmişdir. Heydər Əliyevin

prezident olduğu dövrdə ölkənin bu günkü inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev M. Azərbaycan - Türkiyə əlaqələri. Bakı, 1998
2. Azərbaycan beynəlxalq aləmdə. I cild. Bakı, 1996
3. Azərbaycan - Türkiyə: Dostluq, qardaşlıq, strateji əməkdaşlıq. Bakı, 1997
4. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, Bakı, 1996
5. Quluzadə M. Azərbaycan Respublikasının islam ölkələri ilə əlaqəsinə bir baxış // Azərbaycan XXI əsrin astanasında. II respublika praktik konfransının materialları, Bakı, 1998
6. "Xalq" qəzeti, 18 fevral, 1994.
7. "Respublika" qəzeti, 26 yanvar 1999.
8. "Zaman" qəzeti, 10 fevral 1996.

HEYDƏR ƏLİYEV ELMİN, TƏHSİLİN VƏ MƏDƏNİYYƏTİN BÖYÜK HİMAYƏDARI İDİ

Aybəniz Şahin qızı Paşayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
sahibanasirova1963@mail.ru

Heydər Əliyevin Azərbaycanın social-iqtisadi və mədəni inkişaf yolundakı tarixi xidmətlərin analitik təhlil edəndə, görülmüş işləri milli və dövlətçilik mənafeyi baxımından dəyərləndirəndə Azərbaycanın 30 ildə sürətlə inkişaf etdiyinin bir daha şahidi oluruq.

Bu dahi insanın fəaliyyətinə, keçdiyi ömür yoluna nəzər salanda aydın görürük ki, Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı bütün həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Ulu Öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin, üzücü anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Bu dahi insan düşüncələri zəngin olduğu qədər də tükənməz enerjiyə malik idi. Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhət bu idi ki, o, məmləkətin inkişafı üçün zəruri olan məqamları görə bilirdi, qarşıya konkret məqsədlər qoyurdu və insanları bu məqsədlər naminə səfərbər edirdi, qüvvələri səmərəli şəkildə istiqamətləndirirdi.

Tarixin haqsızlığı üzündən milli dövlətçiliyindən ayrı düşmüş azərbaycan xalqı məhz o illərdə social-iqtisadi və mədəni tərəqqi yoluna qədəm qoymuş, xalqın özünü təsdiqləməsi üçün zəruri, ilkin şərtlər yaradılmış, əhalinin intellectual inkişaf səviyyəsi yüksək səviyyədə yüksəlmişdir. Heydər Əliyevin milli tərəqqinin, elmin, mədəniyyətin inkişafının əvəzedilməz vasitəsi olan təhsilə töhfələri, qayğısı, xalqın təhsillənməsi və təhsil sisteminin inkişafı yolundakı xidmətləri ölçüyə gəlməzdir.

Heydər Əliyev elm və təhsilin inkişafina böyuk qayğı ilə yanaşırdı. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. "Təhsil sahəsi həyatımızın ən gərəkli,ən muhum sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmaqlıdır",– deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yaşanıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin butun pillələrini və maddi-texniki bazasını əhatə edib.

"Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər Azərbaycan rəhbərliyinin ikinci dövrundə bu sahənin inkişafına xususi diqqət yetirirdi.

"Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan əlifbası və Azərbaycan Dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb.[1].

Ulu Öndər Heydər Əliyev zaman-zaman qəbul etdiyi tarixi qərarları ilə, sözün əsl mənasında, yeniləşməkdə olan müstəqil Azərbaycan dövlətinin qurucusuna çevrildi. 1994-cü il sentyabrın 20-də ölkənin tarixində son dərəcə taleyüklü bir hadisə baş verdi. Azərbaycan dövlətinin və xalqının firavan və xöşbəxt həyatının zəmanətinə çevrilmiş, sürətli inkişafa və tərəqqiyə, müstəqilliyin dönməzliyinə və təhlükəsizliyinə təminat verən, neft müqaviləsi – "Əsrin müqaviləsi" imzalandı." [2]

Heydər Əliyev azərbaycançılıq ideologiyasına mühüm önəm verirdi. Qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud"da milli düşüncə, azərbaycançılıq ideologiyası geniş əksini tapdığından Ulu Öndər alimlərin dastanın araşdırılması və tədqiqinə normal şərait yaratdı. "Azərbaycan ədəbiyyatı çoxəsrlik tarixi "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir" - deyən Heydər Əliyevin təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud"un motivləri əsasında bədii film çəkildi.

Heydər Əliyev bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşırdı. Bu da təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.

Məhz buna görə də Ümummilli Liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi bazasının gücləndirilməsi əhalinin gün-güzəranının yaxşılaşdırılması, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövründə illər Azərbaycanın tarixinə elmin və təhsilin, mədəniyyətin tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, kino-teatr, klub, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Mədəniyyətin bütün sahələrində görünməmiş uğurlar qazanıldı. Bu qayğı sayəsində neçə-neçə görkəmli bəstəkar, rəssam, şair, yazıçı, heykəltəraş yetişdi. Onlara fəxri adlar verilməsi, Bakıda və Moskvada yubileylərinin keçirilməsi ənənə halını aldı.

Heydər Əliyev hakimiyyətinin birinci dönəmində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə digər bina istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır.

Heydər Əliyevin elm və təhsil sistemindəki tədbirlər sistemi, milli tərəqqinin, müstəqil dövlət quruculuğunun, elmin və mədəniyyətin inkişafındakı əvəzsiz tədbirlər sistemi və bu inkişaf yolundakı xidmətləri əvəz olunmaz və ölçüyə gəlməzdir.

Ulu öndər Heydər Əliyevin mətbuata münasibəti daim demokratik inkişafın zəruri tələblərinə söykənirdi. 1998-ci il avqustun 6-da Ulu Öndər Heydər Əliyev "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Həmin fərmanın bir bəndi ilə mətbuatda dövlət sirlərini mühafizə edən idarə ləğv olundu. Bu, senzuranın aradan götürülməsi demək idi. Həmin vaxtdan etibarən Azərbaycan mətbuatında yeni bir mərhələ başlandı.

Bu gün iftixar hissi ilə qeyd edə bilərik ki, Heydər Əliyev siyasəti, banisi olduğu milli dövlətçilik strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin bundan sonra illər və on illər uzunu davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır.

Siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq – Heydər Əliyev siyasi məktəbinin əsasını təşkil edən bu amillər Vətənə və xalqa xidmət naminə real siyasətlə məşğul olan hər bir kəs üçün tarixi örnəkdir. Çünki Heydər Əliyev şəxsiyyəti özlüyündə bir tarixi hadisə idi. Mən bir müəllim, alim kimi bu böyük şəxsiyyətin siyasi irsindən bəhrələnməyi hər zaman özümə şərəf hesab etmişəm. Bu böyük insanla bir zamanda, onun ideyaları ilə yaşadığımla fəxr edirəm və indiyədək olduğu kimi, bundan sonra da Heydər Əliyev şəxsiyyəti mənim üçün şəksiz və danılmaz siyasi örnək olaraq qalacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1."Təhsil" elmi, pedoqoji, metodik jurnal.

2. A.Səmədov. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xidmətlərinə qayğısı. Gəncə, 2010.

3." Xalq qəzeti".

4."Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasəti", Azərbaycan qəzeti. 5 dekabr, 2008.

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ VƏ ƏDƏBİYYATINA GÖSTƏRDİYİ XİDMƏTLƏRİ

Gülnar Adil qızı Vəliyeva
Mingəçevir Dövlət Universiteti
gulnar. abbasova@mdu.edu.az

Heydər Əliyevin istənilən ədəbi abidə və istənilən qüdrətli ədəbi simaya verdiyi qiymətin, ifadə etdiyi qənaətin təkrarsızlığı, peşəkar ədəbiyyatşünas sözündən daha sərrast olması onun miqyaslı düşüncəsi ilə bağlıdır. Geniş bilik və dərin təfəkkür sahibi Heydər Əliyev hər ədəbi şəxsiyyət və ədəbi incini yalnız bir fərd olaraq görmür, bütöv Azərbaycan tarixinin işıqlı zərrəsi olaraq çox ucalardan seyr etməyi bacarırdı. Heydər Əliyev məhz hər kəsə müyəssər olmayan qabiliyyəti-istənilən hadisəni hadisələrin axarında , istənilən şəxsiyyəti şəxsiyyətlərin qatarında seyr edərək müqayisələrdə qiymətləndirə bilmək gücü onun çıxardığı nəticələri adilikdən aralayırdı.

Heydər Əliyev yaxşı bilirdi ki, "Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır."

Heydər Əliyev rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından məharətlə çıxararaq ölkəmizin ictimai-siyasi, iqtisadi və mənəvi tərəqqisinə, xalqımızın birliyinə nail olub. Ümummilli liderimizin zəngin həyat və fəaliyyəti barədə danışarkən məşhur fransız yazıçısı Onore de Balzakın çox dəqiq ifadə olunmuş müdrik bir kəlamını da xatırlatmaq istərdim: "Güclü o şəxsdir ki, həyatın bütün anlarında mətin olur. Dahi o şəxsiyyətdir ki, çətin anlarda düzgün yol seçib xalqını, millətini uğurlu gələcəyə aparır".

Xalqımızın və böyük Türk dünyasının müdrik lideri, fəaliyyəti öz əhəmiyyəti etibarilə Azərbaycan hüdudlarından çox-çox kənara çıxan Heydər Əliyev məhz adı və əməlləri dünya durduqca daim xatırlanacaq dahi və güclü şəxsiyyətdir. Heydər Əliyev zamanın fövqündə dayanan elə dahi şəxsiyyətdir ki, o, yalnız öz dövrü üçün yaşamayıb, yalnız öz dövrünün qayğıları ilə məşğul olmayıb. Ulu Öndərimizin ən böyük xidmətlərindən biri də odur ki, Azərbaycanın tarixi keçmişini

bərpa edib, milli-mənəvi irsini, dəyərlərini özünə qaytarıb, milli adət-ənənələrini yaşadıb. Ana dilini, ədəbiyyatını, incəsənətini, musiqisini inkişaf etdirmək və dünyada tanıtmaq istiqamətində misilsiz xidmətlər göstərib. Elə bir tarixi hadisə, şəxsiyyət, unudulmuş elə görkəmli insanlar olmayıb ki, onları üzə çıxarıb xalqa təqdim etməsin. Ulu öndərimizin həyatı və ictimai-siyasi fəaliyyəti əsl tərbiyə məktəbidir. Həyatını öz xalqının xoşbəxt yaşamasına həsr edən Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə başqa sənət adamları ilə yanaşı, ədəbiyyat xadimlərinə çox böyük qayğı və ehtiramla yanaşıb.

Heydər Əliyev milli mədəniyyətin və incəsənətin inkişafına xüsusi önəm verir, mədəniyyət xadimlərinə böyük diqqət və qayğı göstərirdi. 1970-1982-ci illərdə Rəsul Rza, Fikrət Əmirov, Qara Qarayev, Rəşid Behbudov kimi görkəmli Azərbaycan övladlarının Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ad alması məhz ulu öndərin xidməti idi. Həmin dövrdə Azərbaycanın paytaxtında və digər şəhər, rayonlarında tanınmış mədəniyyət, ədəbiyyat və elm xadimlərinin abidələrinin ucaldılması təcrübəsi geniş yayılmışdır. 70-ci illərdə Bakıda Nəriman Nərimanovun, İmadəddin Nəsiminin, Mehdi Hüseynzadənin, Cəfər Cabbarlının, Üzeyir Hacıbəyovun, Bülbülün, eyni zamanda repressiya qurbanlarının Mikayıl Müşfiq və Hüseyn Cavidin ev muzeyləri yaradıldı. Azərbaycan dilinin müxtəlif yönlərdən araşdırılması ilə bağlı bir sıra dəyərli elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə göstəriş vermişdir. Məhz bunun nəticəsidir ki, 1974-cü ildə ali məktəblər üçün hazırlanmış dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyi "Azərbaycan dilinin dialektologiyasının əsasları" dərs vəsaiti Respublika Dövlət mükafatına layiq görülmüşdü. Bütün bunlar mənalı həyatını Azərbaycan xalqına həsr etmiş, Azərbaycanın adını ucaltmış görkəmli sənət adamlarının adının əbədiləşdirilməsinə, eyni zamanda gənc nəslin məhz bu şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsinə xidmət edirdi.

Heydər Əliyevin dünyabaxışının formalaşmasında ədəbiyyat amili xüsusi yer tutmuşdur. Bu tarixi şəxsiyyət bədii ədəbiyyatın şəxsi taleyindəki böyük rolunu özü də etiraf etmişdir. O, 1997-ci ildə, müstəqillik dövründə keçirilən Azərbaycan yazıçılarının onuncu qurultayındakı nitqində bu həqiqəti aşağıdakı kimi etiraf etmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam".

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini,mədəniyyətini yaşadan,inkişaf etdirən onun dilidir. Dilimizi yaşadanlar, zənginləşdirənlər, inkişaf etdirənlər şairlərimiz, yazıçılarımız olmuşdur. Ona görə də Heydər Əliyev söz sənətini yaradanlara xüsusi rəğbət bəsləyir, onları vaxtında dövlət mükafatları, fəxri adlarla təltif edir- bir sözlə, yazıçı, şair, sənətkar adını uca tuturdu. Heydər Əliyev dönə-dönə qeyd edirdi ki, Şərqdə, o cümlədən də Azərbaycanda həmişə sənətkara, yazıçıya, şairə böyük hörmət olubdur. Ona görə "Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycan ədəbiyyatıdır".

Ölkəmiz müstəqillik qazandıqdan sonra Heydər Əliyevin dilimizin adının müəyyənləşməsi uğrunda apardığı mübarizə dövlətimizin maraqlarına, respublikamızın reallıqlarına tamamilə uyğun idi. Bu sahədə də qəti fikrə, yekun qənaətə gəlmək üçün Heydər Əliyev Azərbaycan ziyalılarının, o cümlədən ədəbiyyat xadimlərinin dəstəyindən istifadə etməyi zəruri saymışdır. Onun 21 sentyabr 1993-cü ildə Azərbaycan Milli Elmlər Akadeymiyasında ziyalılarla görüşü zamanı irəli sürdüyü Azərbaycan dili anlayışı geniş mənada cəmiyyətin marağına, ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların maraqlarına uyğundur. Azərbaycan dili ideyası Azərbaycanda yaşayan bütün etnik qrupları öz ətrafında birləşdirən bir faktor kimi Azərbaycan yazıçıları tərəfindən müdafiə olunmuşdur. Ana dilini ürəkdən sevən, bu dildə danışmağı ilə fəxr edən Ümummilli Lider bənzərsiz nitqlərində, dərin məzmunlu çıxışlarında dilimizin rəngarəng ifadə vasitələrindən ustalıqla istifadə edirdi. Heydər Əliyev nitqlərinin birində qeyd etmişdi ki, "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan

dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azəbaycançılıq məsələsidir." [1,2].

Çox təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində dövlət nümayəndələri Milli Məclisdə, dövlət dili statusu üzrə aparılan müzakirələrin sonunda dövlət dilimizi türk dili adı ilə adlandırmışlar. Lakin 1995-ci ildə dilimizin müstəqil respublikamızda ilk dəfə qəbul ediləcək Konstitusiyada necə adlandırılması məsələsi gündəliyə çıxarıldı. Dilimizin türk dili, azəri-türk dili, türkcə, azəri türkcəsi, Azərbaycan türk dili və b. kimi adlandırılmasını təklif edənlər və bu mülahizələrini xalqın etnosu, etnik mənşəyi, etnik mənsubiyyəti ilə əlaqələndirənlər var idi. Nəhayət, bir-neçə gündən sonra keçirilən referendumda Azərbaycan Respublikasının ilk Konstitusiyasında ümumxalq rəy sorğusunun nəticəsi və Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dili Azərbaycan Respublikasının rəsmi dövlət dili kimi qəbul olundu.

Ulu Öndər uzaqgörən, müdrik siyasəti ilə müstəqillik illərində Azərbaycan ədəbiyyatının tarixi ənənələrini, Ümumşərq, Ümumtürk dəyərlərini aktuallaşdırdı, müasir dünyaya çıxardı. Azərbaycana başçılıq etdiyi illərdə Ulu Öndər tərəfindən klassik şairlərimizin əsərlərinin çapı, təbliği ilə yanaşı, şifahi xalq ədəbiyyatı nümunələrimiz də unudulmadı. Milli varlığımızın tərcümanı – "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından Heydər Əliyev qaldırdı. YUNESKO yubileylə bağlı təklifi qəbul etdi. Yubileylə bağlı hazırlıq işləri görüldü. Dastanla bağlı elmi kitablar yazıldı. Xatırladaq ki, elə 70-ci illərdə Xalq yazıçısı Anarın senarisi əsasında çəkilən "Dədə Qorqud" filminin xeyir-duasını da dahi şəxsiyyət Heydər Əliyev vermişdir. 2000-ci il aprel ayının 10-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi Bakı şəhərində təntənə ilə qeyd olundu.

1993-cü ilin sentyabrında ziyalılarla görüş zamanı vaxtı ilə Azərbaycan mədəniyyətini dünya miqyasında tanıtmağa xidmət etmiş belə söz və sənət bayramlarına müstəqil dövlətimizin daha böyük ehtiyac duyduğuna diqqət çəkən Heydər Əliyev demişdi: "Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu dünyada nə qədər əks-səda doğurdu! Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır! Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir. Mən təkcə şairlər haqqında danışmaq istəmirəm. Nəsimi də yalnız şair deyil, həm də alimdir, filosofdur".

Müstəqillik illərində də Ulu Öndərimizin sənət adamlarına qayğısı azalmadı. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin 1994-1996-cı illərdə Bakıda, Türkiyədə, İraqda, Moskvada, Parisdə, "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin 1997-2000-ci illərdə Bakıda, Türkiyədə, Drezdendə, Parisdə UNESCO səviyyəsində geniş qeyd olunması bundan xəbər verirdi.Ümummilli Liderimiz Azərbaycanın müstəqilliyə qovuşmasında şairlərimizin, ədəbiyyatımızın rolunu yüksək qiymətləndirdi. 2002-ci ildə isə dahi öndər elm, mədəniyyət, incəsənət, maarif və digər sahələrdə xidmət göstərmiş 150 nəfərə Prezident təqaüdü təyin etmişdir. Bu fərmanlar içərisində ən əhəmiyyətlisi "İstiqlal" ordeninə ədəbiyyat xadimlərinin-Məmməd Araz, Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürkün layiq görülməsi idi. Görkəmli dövlət xadiminin bu sənətkarlara diqqəti mükafatlandırmaqla bitmir, hər üç istiqlal şairinin səhhətləri ilə bağlı ölkə daxilində və xaricdə müalicə olunmaları üçün göstərişlər belə qədirbilənliyin nümunəsi kimi diqqəti cəlb edir. Ədəbiyyatın inkişafına marağı daha da artırmaq üçün 1996-cı ildə Prezident Heydər Əliyevin təşəbbüsü ilə Füzuli adına beynəlxalq mükafat təsis edilmiş, 1997-ci ildə "Azərbaycan Yazıçılarına dövlət qayğısını artırmaq haqqında" fərman vermişdir. "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnıy Azerbaydjan" jurnallarının, "Ədəbiyyat" qəzetinin nəşri dövlət hesabına həyata keçirilməyə başlamışdı. 6 avqust 1998-cı ildə Heydər Əliyev "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı ki, bununla senzura deyilən anlayış aradan qalxdı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, xalqına ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Sovet İttifaqının hökmranlıq dövründə, ötən əsrin 80-ci

illərində Şuşada böyük şair Molla Pənah Vaqifin məqbərəsini ucaltdı, Vaqif Poeziya evini açdı və ürəklə "ədəbiyyat bayramı" deyə biləcəyimiz Vaqif Poeziya Günlərinin əsasını qoydu. Bu, 1987-ci ildə Şuşada keçirilən sonuncu ümumittifaq miqyaslı Vaqif Poeziya Günləri idi. Bəli, Vaqifin məqbərəsi, Vaqif Poeziya Günləri Şuşanın, Qarabağın ən qədim Azərbaycan torpaqları olduğunun bir daha, ən əzəmətli sübutlarından biri idi. Dahi şəxsiyyət Heydər Əliyev bunu hamıdan yaxşı anlayırdı. Ona görədir ki, Şuşanın işğalından sonra Qarabağda milli memarlığımızın əksər diqqətə-layiq nümunələri kimi, Vaqif məqbərəsinin taleyi də həmişə Heydər Əliyevi düşündürmüşdü. Çıxışlarının birində məqbərəni "özü üçün iftixar mənbəyi" saydığını açıq bildirmişdi. O, bir uzaqgörən şəxsiyyət kimi əmin idi ki, gec-tez Şuşa işğaldan azad olunacaq və Molla Pənah Vaqifin məqbərəsi də öz xalqına - əsl sahiblərinə geri qayıdacaq. Bunu o, çıxışlarında dəfələrlə qeyd eləmişdi. "Ata nəsihət"ini özünün həyat amalına çevirən cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də özünün düşünülmüş siyasəti və ordumuzun böyük rəşadəti sayəsində qədim şəhərimizi 28 illik düşmən işğalından azad etdi. 2021-ci ilin avqustunda isə Cıdır düzündə Vaqifin böyük zövqlə bərpa olunmuş məqbərəsinin təntənəli açılış mərasimi və işğaldan sonra ilk Vaqif Poeziya Günləri keçirildi.

Ulu Öndərin Azərbaycan ədəbiyyatına daha bir mühüm xidməti isə böyük dramaturq, repressiya qurbanı şair Hüseyn Cavidin nəşinin doğma vətəninə gətirilərək dəfn edilməsi idi ki, bu da Sovet İttifaqının hakimiyyətinin ən güclü dövrlərində baş tutmuşdu. Bu çətin, məsuliyyətli işin öhdəsindən layiqincə gələn Heydər Əliyev sonralar həmin prosesi belə xatırlayırdı: "Əsərlərini oxuduqca Cavidin Azərbaycan üçün necə böyük bir sərvət olduğunu bir daha yəqin edirsən. Onun qəbrini tapmaq, sümüklərini gətirib doğma torpağında basdırmaq o qədər də asan deyildi. Etiraf edək ki, o dövrlərdə 1937-38-ci illərin qurbanlarına münasibət hələ başqa idi. Cavidə "millətçi", "pantürküst" damğası vurmuşdular. Baxmayaraq ki, yavaş-yavaş Cavidin əsərləri çap olunmağa, teatrlarda göstərilməyə başladı, lakin o damğa hələ də üstündən götürülməmişdi. Odur ki, belə qərara gəlmək mənim üçün o qədər də asan deyildi. Cavidin qəbrini tapdıq. Şairin qızı Turan xanım çox istəyirdi ki, o, Bakıda, Fəxri xiyabanda dəfn olunsun. Mən təklif etdim ki, Cavid Naxçıvanda, anadan olduğu yerdə dəfn edilsin. Qoy tarix aydın etsin hansı təklif daha düz olub! Fəxri xiyabanda yan-yana yatan dahilər çoxdur, lakin Naxçıvan torpağında onun qəbri ziyarətgaha çevriləcək. Mən belə fikirləşdim ki, Cavidin qəbri üzərində Nizaminin, Vaqifin məqbərəsi kimi məqbərə tikilsin. Bundan qabaq isə biz Naxçıvanda onun ev-muzeyini açmışdıq. Zənnimcə, bu, tək xeyirxahlıq deyil, mənim xalqım qarşısında borcumdur. Əgər xalq o dövrdə mənə inanmışdısa, öz taleyini mənə tapşırmışdısa, mən onun haqqında düşünməli idim" [4,77-78].

Bəli, Heydər Əliyev məhz xalqını, onun taleyini, tarixini, sonrakı aqibətini düşünürdü. Buna görədir ki, ədəbiyyatımızın zənginləşməsi, klassik irsimizin qorunması, daha geniş tədqiq olunması və dünyaya tanıdılması istiqamətində vaxtında, doğru və bir az da riskli addımlar atmışdı. O addımlar ki, Azərbaycan xalq durduqca danışılacaq və öz müəllifini daim böyük minnətdarlıqla yad etdirəcək.

"Biz gələcəkdə də şairlərimizin, yazıçılarımızın, mütəfəkkirlərimizin yubileylərini keçirəcəyik və hər bir belə yubiley xalqımızın bayramı olacaqdır", - deyən Ulu Öndər yanılmırdı. Həmin ənənələr bu gün də yaşayır, günün inkişaf tempinə, xalqın mənəvi tələblərinə müvafiq olaraq intişar tapır. Prezident İlham Əliyevin sərəncamları ilə klassiklərin yubileylərinin geniş qeyd olunması, 2019-cu ilin "İmadəddin Nəsimi İli", 2021-ci ilin "Nizami Gəncəvi İli" kimi simvolizə olunması Ulu Öndərin başlatdığı, Azərbaycan dəyərlərinin dünyaya çıxması yolunda nəhəng addımları təmsil edir və göstərir.

Ən yeni dövr Azərbaycan ədəbiyyatının inkişafında Ümummilli lider Heydər Əliyevin ədəbiyyat siyasətinin böyük rolu və təsiri olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətinin ədəbiyyat siyasətinin banisi və yaradıcısıdır. Əslində, Azərbaycan xalqının son əlli ildəki ədəbiyyatı Heydər Əliyev epoxasının ədəbiyyatıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqillik dövrünün ədəbiyyatı haqqında Heydər Əliyev təlimini yeni müddəalarla zənginləşdirərək, yaradıcı şəkildə inkişaf etdirir. Hesab edirik ki, ən yeni dövr Azərbaycan ədəbiyyatının qarşısında duran bir məsul vəzifə də yeni tarixi epoxanın fonunda

görkəmli dövlət xadimi Heydər Əliyevin mükəmməl, hərtərəfli şəkildə işlənmiş, ciddi ədəbi-tarixi meyarlara cavab verən ümumiləşmiş parlaq bədii obrazını yaratmaqdan ibarətdir.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə. Türk dünyası yazıçılarının III qurultayında nitq // "Azərbaycan" qəz., 1996, 6 noyabr
2. Heydər Əliyev mədəni irsimizin keşiyində.. Bakı, 2001
3. Müdriklik zirvəsi. Bakı: Yazıçı, 2011
4. Salatın Əhmədova. Heydər Əliyev və ədəbi-tarixi proses. Bakı: Elm, 2013

HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİ KONSEPSİYASI

Reyhan Şahverən qızı Yunisova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
baku_2007@mail.ru

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə güclü əlaqələri olub və indi də var. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür. O ölkədə ki, fundamental tədqiqatlar aparılmır, yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Bu mənada "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri məhz Heydər Əliyevin təhsil siyasəti strategiyasının mühüm tələblərindən biridir.

Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də, onların birini digərindən təcrid etmək mümkün deyildir. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası labüddür [1] .

Beə ki, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi səciyyələndirilən ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması istiqamətində müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Heydər Əliyevin Azərbaycan təhsili üçün gördüyü işlər haqqında danışdıqda ötən tarixə baxış edib giriş olaraq mütləq 70-ci illərdə bu sahədə görüdüyü islahatları, xüsusən də savadlı gənclərin xaricə təhsil almağa göndərilməsi məsələsini vurğulamaq lazımdır.

Heydər Əliyev istedadlı Azərbaycan gənclərini Moskva, Sankt-Peterburq, Kiyev, Minsk və başqa qabaqcıl elm-təhsil müəssisələrində təhsil almasna imkan yaratdı. Yalnız onu demək kifayətdir ki, 70-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə 10 minə qədər azərbaycanlı gənc təhsil almaq üçün respublikadan kənara göndərilmiş, müxtəlif ixtisaslar üzrə təhsil almışdırlar [4, 46].

Bu da danılmaz faktdır ki, ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən orta və ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Hər il tələbələrin riyaziyyat, fizika, kimya,

informatika fənləri üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələri keçirilir. AMEA-nın Təhsil Nazirliyi və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə gənc tədqiqatçılar və ali məktəb tələbələri üçün neft-qaz mövzusu ilə bağlı keçirdiyi müsabiqələr xüsusi qeyd olunmalıdır. 1998-ci ildə "Neft və Azərbaycanın gələcəyi", 1999-cu ildə "Böyük İpək yolu və Azərbaycan nefti", 2000-ci ildə "Neft strategiyası və Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri", 2001-ci ildə "Neft-qaz hasilatı və Azərbaycanın davamlı inkişafı" mövzularında uğurlu müsabiqələr keçirilmişdir. Bundan başqa, son illər ərzində AMEA-nın Təhsil Nazirliyi ilə birlikdə "Saf su", "Bakı-Tbilisi-Ceyhan" boru xəttinin beynəlxalq və regional əhəmiyyəti" mövzularında beynəlxalq konfranslar, "Üçüncü minilliyin astanasında fövqəladə hallarda insanların və cəmiyyətin təhlükəsizliyi" adlı simpozium hamı tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Fransa, Rumıniya, Israil, Polşa, Rusiya, Pakistan, Türkiyə, İspaniya, Almaniya, Yunanıstan və başqa ölkələrdə yerlərdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişdir.

Statistik məlumatlara əsasən, hazırda ali məktəblərimizdə iyirmidən artıq adda elmi məcmuə nəşr edilir. Son vaxtlar onların sayı artmaqdadır. Fərəhli haldır ki, "BDU-nun xəbərləri" elmi jurnalı Ümumrusiya Elmi-Texniki İnformasiya İnstitutu tərəfindən məzmunu və səviyyəsinə görə həmişə yüksək qiymətləndirilir və burada təbiət, fizika və riyaziyyat elmləri sahəsində çap olunmuş məqalələrin xülasələri həmin elm ocağının referativ jurnallarında çap olunur.

Heydər Əliyevin təhsil siyasətinin nəticəsi kimi aparılan islahatlar nəticəsində ötən illər ərzində bir sıra yeni ali məktəblər yaradılmış, bəzi təhsil ocaqlarının statusu artırılmış və profilləri dəyişdirilərək universitetlərə çevrilmişdir. Hazırda Bakı Dövlət Universitetinə, Azərbaycan Dövlət Neft Akademiyasına, Azərbaycan Tibb Universitetinə, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına, Naxçıvan Dövlət Universitetinə, Azərbaycan Dövlət İqtisad Universitetinə özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərmək hüququ verilmişdir. Ali təhsil müəssisələrinə tələbə qəbulu çoxsaylı ixtisası əhatə edən müxtəlif istiqamətlər üzrə aparılmışdır. Bu istiqamətlər üzrə mütəxəssis hazırlığının məzmununa və səviyyəsinə qoyulan tələbləri müəyyən edən standartlara uyğun inteqrativ fənlərin proqram və dərsliklərinin hazırlanması işi başa çatdırılmışdır.

Heydər Əliyev Azərbaycan elminin və təhsilinin, ədəbiyyatının və mədəniyyətinin inkişafına xüsusi diqqət yetirirdi. Bilavasitə onun rəhbərliyi ilə elm və təhsil sahəsində məqsədyönlü islahatlar keçirilir, dünyanın qabaqcıl təcrübəsinə uyğun yeni texnologiyaların tətbiqi dəstəklənir, cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni həyatının əsası kimi elm və təhsilin üstün rolu əsaslandırılırdı. Ulu Öndərin bu baxımdan aşağıdakı fikirləri çox əhəmiyyətlidir: "Təhsil sistemi Azərbaycanın gələcəyini təmin edən bir sistemdir. Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, həqiqi yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafı, elminin inkişafı, təhsilinin inkişafı, insanların rifah halı o qədər də yaxşı olacaqdır [5].

Təhsil müəssisələrində Ümummilli Liderimizin həyat və fəaliyyətinin, irsinin dərindən öyrənilməsi üçün imkanlar genişdir. Təhsilin müxtəlif pillə və səviyyələri üzrə ictimai-humanitar fənlərin məzmununda Ulu Öndərin ideyaları öz əksini tapıb. Xüsusilə Azərbaycan tarixinin tədrisində Heydər Əliyev irsi zəngin mənbə rolunu oynayır. Məsələn, 5-ci sinifdə Azərbaycan tarixi fənninin tədrisində "Azərbaycan müasir mərhələdə" bölməsi Ulu Öndərin irsinin öyrənilməsi üçün geniş imkanlar yaradır. Bu bölmədə "Müstəqil Azərbaycanın qurucusu"(s.195-199), "Ulu Öndərin yolu ilə" (s.200-203) mövzuları Heydər Əliyev şəxsiyyətinin xarakteristikasını, onun Azərbaycanın dövlətçilik tarixində yeri və rolunu öyrənmək üçün şagirdlərin yaş və inkişaf xüsusiyyətlərinə uyğun əhəmiyyətli mənbədir. 9-cu sinif Azərbaycan tarixinin tədrisində ümummilli liderimizin görkəmli siyasi və dövlət xadimi kimi fəaliyyətini öyrənmək imkanları daha genişdir. "1970-80-ci illərdə sosial-iqtisadi yüksəliş" (s.150-153), "1970-80-ci illərdə mədəniyyətin inkişafı"(s.161- 164), "Dövlət müstəqilliyinin bərpası" (s.165- 169),"Qurtuluş hərəkatı"(s.169-170),"Qarabağ müharibəsi" (s.171-174),"Azərbaycan Respublikasının beynəlxalq və regional təşkilatlara üzv olması" (s.174-

176), "Dövlət müstəqilliyinin möhkəmləndirilməsi"(s.176-180),"Azərbaycan Respublikasının inkişafında yeni mərhələ" (s.181-185) və "Mədəniyyətin inkişafında yeni uğurlar" (s.188- 191) mövzuları Heydər Əliyev irsinin sistemli şəkildə dərindən öyrənilməsinə xidmət edir. 10-11-ci siniflərdə tədrisin təmayüllər əsasında aparılması Azərbaycan tarixinin tədrisi imkanlarını xeyli genişləndirir. Tarixin tədrisinin konsentrik prinsipinə uyğun olaraq aşağı siniflərdə öyrənilmiş hadisə və proseslərin yenidən daha dərin təhlil və ümumiləşdirmələr əsasında öyrənilməsi üçün əlverişli zəmin yaranır. 11-ci sinfin Azərbaycan tarixində Ulu Öndərin irsinin öyrənilməsinə bilavasitə xidmət edən mövzular, əsasən, bunlardır: "İdarəçiliyin möhkəmləndirilməsi. 1970-80-ci illərdə sosialiqtisadi uğurlar" (s.144-147), "Xalq hərəkatı" (s.151-155), "XX əsrin 40-80-ci illərində mədəniyyət" (s.160-164), "Dövlət müstəqilliyinin bərpası" (s.166-169), "Birinci Qarabağ müharibəsi" (s.170-173), "Milli Qurtuluş" (s.181- 183), "Hüquqi islahatlar və demokratik dövlət quruculuğu" (s.184-186),"XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatlar"(s.187-190),"Azərbaycan Respublikasının xarici siyasəti" (s.191-194) və "Yeni minilliyə yeni liderlə" (s.193-198). Təcrübə göstərir ki, bu yanaşmalar Vətən tarixinin, o cümlədən Azərbaycan tarixinin Heydər Əliyev mərhələsinin dərindən mənimsənilməsinə ciddi təsir göstərir. Ümumtəhsil məktəblərində, ali və orta ixtisas təhsili müəssisələrində Heydər Əliyev irsinə müraciət olunarkən, ilk növbədə onun milli ruhlu və bəşəri dəyərləri yüksək qiymətləndirən böyük tarixi şəxsiyyət olduğu əsaslandırılmalıdır. Onun fəaliyyətində azərbaycançılıq məfkurəsinə söykənən milli dövlətçilik konsepsiyası xüsusi yer tutur. Bu da dövlətimizin və xalqımızın möhkəm təməllər üzərində inkişafına təminat verən müqəddəs ideya qaynağıdır. Ulu Öndərin ictimai-siyasi həyatda Azərbaycan tarixi məsələlərini ön plana çəkməsi, şəxsiyyət, cəmiyyət və dövlətçilik problemlərinə konseptual baxışları həm də nəzəri müddəalar kimi yüksək dəyərləndirilməlidir. Ölkəmizdə Heydər Əliyevin ideyaları əsasında formalaşmış elm, təhsil, mədəniyyətin davamlı inkişafına təminat verən sosial-siyasi, iqtisadi zəmin bütövlükdə cəmiyyətin tərəqqisini sürətləndirir. Sağlam nəslin yetişdirilməsi, mənəvi tərbiyə məsələləri Heydər Əliyev irsində mühüm yer tutur. Tədris prosesində bu zəngin irsə müraciət olunması təlimin keyfiyyətinin yüksəldilməsinə, müasir dövrün tələblərinə cavab verən şəxsiyyətin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Təkcə XX və XXI yüzilliyin əvvəlləri deyil, bütövlükdə ən qədim zamanlardan bu günümüzədək olan tarixin tədqiqi və tədrisində Heydər Əliyevin konseptual baxışları metodoloji əsas kimi olduqca əhəmiyyətlidir [5, 16].

1991-2008-ci illərdə Azərbaycan Respublikası və Dövlət İsrail arasında elm və təhsil sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb və müvafiq hüquqi baza yaradılıb. Elm və təhsil sahəsində əməkdaşlığın əsas məqsədi səmərəli, iki ölkənin elm və təhsil müəssisələri arasında qarşılıqlı faydalı əlaqələr, bir-birinin nailiyyətlərindən bəhrələnmək və texniki yenilikləri tətbiq etmək. Elmi-texniki əməkdaşlıqda Azərbaycan və İsrailin elmi-texniki idarələri və texniki istehsal müəssisələri iştirak etmişlər. Nazirliklər, elm və təhsil müəssisələri arasında imzalanmış sənədlər elm, təhsil və texniki əməkdaşlığın müqavilə-hüquq bazasını formalaşdırmış, onun inkişafına imkan vermişdir. Azərbaycan Milli Elmlər Akademiyası elmi əlaqələrdə mühüm rol oynamışdır [3, s.69].

Təhsil tariximizə istinadən deyə bilərik ki, bu gün ali məktəblər elmi araşdırmaların aparılmasına əlavə vəsait əldə etmək məqsədilə müxtəlif qrantların alınması və proqramların hazırlanması üzərində xüsusi iş aparır və nəticələr müsbətdir. Belə proqramlardan biri də 2015-2017-ci illəri əhatə edən TEMPUS SESREMO layihəsidir [2, 125]. Azərbaycan Texniki Universiteti, Sumqayıt Dövlət Universiteti, Qazaxıstan, Rusiya, Çin və İsrail ali təhsil müəssisələrinin iştirakı ilə Avropa Komissiyası tərəfindən qrant əldə edilimişdir.

Təsadüfi deyil ki, bugünkü gün ölkəmizdə keçirlən tədbirlər – müsabiqələr, bilik yarışları Heydər Əliyevin adı ilə bağlı olur. Çünki onun ölkəmizin təhsil sahəsində həyata keçirtdiyi islahatların faydasını bu gün də görürük. 2015-ci il fevralın 12-də Heydər Əliyev Mərkəzində "Sabahın alimləri" IV Respublika müsabiqəsinin açılış mərasimi keçirilmişdir. Çıxış edən təhsil naziri Mikayıl Cabbarov müasir müstəqil dövlətimizin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin elmə, təhsilə daim böyük önəm verdiyini, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini vurğulayıb. Qeyd edilib ki, ölkəmizdə təhsil islahatlarının həyata keçirilməsi, intellektual potensialın möhkəmləndirilməsi məhz dahi rəhbər Heydər Əliyevin adı ilə bağlıdır. Müasir dünyada elmin, təhsilin önəmli rolundan danışan nazir

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahə ilə bağlı imzaladığı sənədlərin, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələrin əhəmiyyətini diqqətə çatdırıb.

Ölkəmizdə təhsil sahəsi üzrə reallaşdırılan tədbirlərdən söz açan M.Cabbarov qeyd edib ki, "Sabahın alimləri" IV Respublika müsabiqəsinin keçirilməsinin əsas məqsədi yuxarı sinif şagirdlərinə öz elmi nailiyyətlərini nümayiş etdirmək imkanı yaratmaq, onlara elmi təfəkkür tərzi və tədqiqatçılıq vərdişləri aşılanmasından ibarətdir. Nazir innovativ fikir yarışması olan bu müsabiqənin gənclərə müxtəlif problemlərin elmi həlli yollarını axtarıb tapmağa kömək edəcəyini xatırladıb. Bildirilib ki, "Sabahın alimləri" müsabiqəsi hər il ABŞ-da 70-dən artıq ölkənin şagirdlərinin iştirakı ilə keçirilən İntel ISEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində təşkil edilir.

Ümummilli lider Heydər Əliyevin təhsil siyasəti bu gün islahatların zəruriliyinə önəmli diqqət yetirən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu diqqətin və qayğının nəticəsi kimi cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında "Bilik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında" fərmanda "Bilik günü"nün sentyabrın 15-də keçirilməsini xüsusi qeyd etmək lazımdır. Həmin gün respublikanın bütün məktəblərində ilk dərslərin ümummilli lider Heydər Əliyevin müstəqillik illərində elm, təhsil və gənclər siyasəti sahəsində gördüyü işlərə həsr olunmuş dəyərli söhbətlərlə başlanması, uşaqların yaş və bilik səviyyələrinə uyğun ölkədə aparılan iqtisadi, siyasi, sosialyönümlü islahatlar, tarixə dönən məqamlar barədə geniş məlumatlar verilməsi nəzərdə tutulmuşdur. Təbii olaraq, bu onun nəticəsidir ki, Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir.

Ulu Öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar birbaşa təhsildə problemlərin həllinə yönəlmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Həmidov H. Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasəti, http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63636.htm
2. Məmmədova S. Azərbaycan Respublikasının İsrail Dövlət ilə münasibətləri, Sumqayıt: 2022, - 177s.
3. Mammadova S. Establishment and sustainable development of the cooperation in the field of science, education with the State of Israel. III Karabagh International Congress of modern studies in social and humn sciences. Karabagh. 7-10 June, 2022, Volume-4, 69-79, - 230 s.
4. Səmədov A.Ümummilli Lider heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Gəncə:2010, - 252 s.
5. Azərbaycan Respublikasının Milli bayramıRespublika günü münasibəti ilə təntənəli mərasimdə nitq. Gülüstan sarayı. 27 may 2002- ci il. Müstəqilliyimiz əbədidir. Otuz səkkizinci kitab. Mart 2002- may 2002. Bakı: Azərnəşr, 2011, - 480 s

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ÖMÜR YOLU VƏTƏNƏ VƏ XALQA XİDMƏT NÜMUNƏSİDİR

Kəmalə Kamal qızı Mirzəyeva
Sumqayıt Dövlət Universiteti
kamala.mirzayeva01@gmail.com

Ümummilli liderimiz Heydər Əliyev hər zaman xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında, milli mədəniyyətimizin inkişafında, xalqımızın adət-ənənələrinin zənginləş-

dirilməsi sahəsində böyük işlər görmüşdür. Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi: "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". Doğma dilimiz Milli-mənəvi dəyərlərimizin mənimsənilməsində, təkmilləşdirilməsində xüsusi rol oynayır [1]. Ümummilli lider Heydər Əliyev Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirərək bütün cəmiyyəti düzgün yola istiqamətləndirmişdi. Biz bu gün 90-cı illərin çətinliklərini geridə qoyaraq Azərbaycan dövlətinin inkişafında yeni mərhələ yaşayırıq. Ulu öndər Heydər Əliyev türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağı və onları zənginləşdirməyi əsas prioriet məsələlərdən biri hesab etmişdir. Ümummilli lider Heydər Əliyevin diqqət etdiyi məsələlərdən biri də türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən Türksoy təşkilatının fəaliyyətinin genişlənməsi və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsindən ibarət olmuşdur.

Ulu öndər Heydər Əliyevin diqqət yetirdiyi sahələrdən biri də xalqın hərbi və qəhrəmanlıq tarixi idi. Qəhrəmanlıq tarixinin daha da zənginləşdirilməsi üçün ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi əsas nəzər yetirilən sahələrdən idi. Bu tarixi o, keçmişimizdən miras qalmış zəngin və ibrətamiz bir sərvət kimi qiymətləndirir və ölkənin müdafiəsinin təşkilinin müxtəlif məsələləri ətrafında etdiyi çıxışlarında hər bir vətəndaşı da bu tarixə tapınmağa çağırırdı. Azərbaycan xalqının Ümummilli Lideri bildirirdi: "Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var [3]. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissidir. Güman edirəm ki, xalqımızın tarixi ənənələrimizi, keçmişimizi yada salaraq Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir". Başqa bir çıxışında ulu öndər Heydər Əliyev "Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır", - deyirdi. Onun belə bir fikri də vardır: "Azərbaycan xalqı tarix boyu, əsrlər boyu həmişə mərdlik, cəsarət, qəhrəmanlıq göstərmişdir, öz yurdunu, öz torpağını müdafiə etmişdir, öz mənliyini qoruyub saxlamışdır" [2].

Hərbi irsin öyrənilməsinin metodoloji, elmi-praktiki, mənəvi-tərbiyəvi əhəmiyyəti vardır. Bu məqamların hər biri özlüyündə vacib məsələlərdir və ölkənin müdafiəsinin təşkilində onlar öz aktuallığını itirməmişlər. Ulu öndər Heydər Əliyev hərbi təhsil sisteminin yaradılmasına və möhkəmləndirilməsi üçün Azərbaycanın müstəqilliyinə sədaqət nümayiş etdirən, mənəviyyatca saf olan zabit kadrlarının hazırlanmasına xüsusi əhəmiyyət verirdi. Ulu öndər Heydər Əliyev hərbi təhsil sisteminin kifayət qədər təkmilləşdirilməsi üçün Azərbaycanda hərbi təhsil sisteminin inkişafına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Ulu öndər Heydər Əliyevin ordu quruculuğunda irəli sürdüyü tələblərə onun bu istiqamətdəki təşkilatçılıq qabiliyyəti və işgüzarlığı nümunə idi. 1993-1998-ci illər ərzində ulu öndər Heydər Əliyev tərəfindən ordu quruculuğu məsələləri ilə bağlı 109 müşavirə, iclas və görüş keçirilmişdi. Həmin tədbirlərdə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qarantı olacaq möhkəm ordu formalaşdırılmasının ən müxtəlif məsələləri və vəzifələri müzakirə edilmişdir [5]. Qəbul olunmuş qərarlar Müdafiə Nazirliyinin və digər müvafiq dövlət strukturlarının fəaliyyətinin istiqamətini müəyyən etmişdi. Görülən bu tədbirlər Silahlı Qüvvələrin formalaşmasıvə inkişafında mühüm rol oynamışdır.

Heydər Əliyevin quruculuq və xilaskarlıq missiyası 1993–2003-cü illərdə Azərbaycanı özünə qaytardı, müstəqil dövlətçiliyin yaradılması və inkişaf etdirilməsi sahəsində əldə etdiyi möhtəşəm uğurlarla ölkəmizi beynəlxalq aləmdə söz sahibinə çevirdi, iqtisadi və sosial həyatda böyük nailiyyətlərə imza atdı. Heydər Əliyevin ideyaları və uğurla tətbiq olunan siyasi kursu sonrakı illərdə də Azərbaycan xalqının mədəni inkişafına müsbət təsir göstərmişdir.

Milli ordumuzun möhkəmlənməsinə geniş imkanlar yaradan əsas amillərdən biri də ölkəmizin iqtisadi qüdrətinin artması idi. Ulu öndər Heydər Əliyev vəfat etdikdən sonra xalqın istəyi və dəstəyi ilə İlham Əliyev hakimiyyətə gəldi. Hakimiyyətinin ilk illərindən ulu öndər Heydə Əliyein qoyub getdiyi mirası və hərtərəfli inkişaf strategiyasını layiqincə davam etdirdi. Bu gün Prezident

İlham Əliyevi, eyni zamanda Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm, texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirmiş, ölkənin sosial-iqtisadi inkişafına xüsusi töhfə vermişdir. Heydər Əliyev Fondu Azərbaycanın mədəniyyət inciləri olan muğamın, aşıq musiqisinin, xalçaların YUNESKO-nun mədəni irs siyahısına daxil edilməsində mühüm rol oynamışdır [4].

Nadir təbiət nümunələrinin, arxeoloji qazıntılar nəticəsində tapılan maddi mədəniyyət nümunələrinin dövlət tərəfindən mühafizə edilməsi, muzeylərin yaradılması və təmir-bərpa işlərinin aparılması Azərbaycan milli-mədəni irsinin qorunmasında dövlətin gördüyü işlər sırasındadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

İstifadə edilmiş ədəbiyyat

1. https://mod.gov.az/az/pre/25149.html
2. https://sesqazeti.az/news/politics/1115586.html
3. https://files.preslib.az/projects/heydaraliyev/articles/he0675.pdf
4. https://science.gov.az/az/news/open/24984
5. http://www.anl.az/down/meqale/xalqqazeti/2022/may/795364(meqale).pdf

EKOLOJİ DİZEL YANACAĞININ ALINMASINDA HİDROGEN PEROKSİDİN VƏ SİRKƏ TURŞUSUNUN KATALİZATOR KİMİ İSTİFADƏSİNDƏ DİZEL YANACAĞININ KÜKÜRDSÜZLƏŞMƏ PROSESİNƏ ULTRASƏSLİ KAVİTASİYANIN TƏSİRİ

[1,2]**Zümrüd Qərib qızı Köçərli,** [1,3]**Elnurə İsfəndiyar qızı Məmmədova**
[1]ETN akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
[2]dissertant
zumrud.kocherli@mail.ru
[3]elnura.mamedova.83@mail.ru

Son 15 ildə ekoloji təmiz dizel yanacağının alınması və eyni zamanda onun kükürdsüzləşdirmə prosesinin tətqiqi bütün dünyada əhəmiyyətli hesab olunur. Hazırda neft emalı sənayesinin ətraf mühitə uyğun, yüksək keyfiyyətli motor yanacağı əldə etmək məqsədi ilə bağlı bir çox həll edilməmiş problemləri mövcuddur [1-3]. Hazırda bütün yanacaqlara tələblər sürətlə kəskinləşir. Məlum olduğu kimi müasir dizel yanacaqlarına qoyulan tələblərdən biri də kükürdün miqdarının faizinin min hissəsinə qədər (0,005- 0.001 %) məhdudlaşdırılmasıdır [4-5].

Dizel yanacağının keyfiyyət göstəricilərini yaxşılaşdırmaq üçün ilk növbədə onun tərkibindən kükürd, azot və oksigen birləşmələrini kənarlaşdırmaq tələb olunur. Kükürdsüzləşmə prosesləri ənənəvi olaraq yüksək teperatur (350-500 ^{0}C) və yüksək hidrogen təzyiqində aparılır, və bu da qeyd edilmiş sərt şəraitlərdə istifadə oluna bilən avadanlıq, məsrəfli katalizatorlar və daim ehtiyatları məhdud olan hidrogen tələb edir. Bunun üçün də oksidləşdirici kükürdsüzləşdirmə prosesini prespektiv üsul kimi göstərmək olar. Bu proses həm ənənəvi , həm də müxtəlif növ fiziki təsirlər (ultrasəsli kavitasiya) altında aparılır. Bunu nəzərə alaraq dizel yanacağının oksidləşdirici kükürdsüzləşmə prosesi 37 %-li hidrogen peroksid, katalizator kimi sirkə turşusundan istifadə etməklə 50-60 ^{0}C temperatur və 3 saat ərzində ənənəvi şəraitdə və ultrasəsli kavitasiya təsirində aparılmışdır. Proses iki ardıcıl mərhələlərdə aparılmışdır.

Cədvəl 1

Dizel fraksiyasının oksidləşdirici kükürdsüzləşdirmə prosesində mərhələli şəkildə adi şəraitdə və ultrasəsli kavitasiya təsirində 37 %-li hidrogen peroksid və qarışqa turşusundan katlizator kimi istifadə etməklə kükürdsüzləşdirmə dərəcəsi

ss	Kompaund	İlkin dizel fraksiyasında kükürdün miqdarı %, küt	Təcrübədən sonra kükürdün miqdarı %, küt	Kükürdsüzləşmə dərəcəsi %
I Mərhələ				
1	10% katalizator CH_3COOH / H_2O_2 Dizel fraksiyası adi şəraitdə	0,0473	0,0350	27
2	10% katalizator CH_3COOH / H_2O_2 Dizel fraksiyası ultrasəsli kavitasiya təsirində	0,0473	0,0209	56
II Mərhələ				
1	10% katalizator CH_3COOH / H_2O_2 Dizel fraksiyası adi şəraitdə	0,0350	0,0239	32
2	10% katalizator CH_3COOH / H_2O_2 Dizel fraksiyası ultrasəsli kavitasiya təsirində	0,0350	0,0101	72

1 mərhələdə alınan nəticələrdə kükürdün miqdarı 0,0473 % olan dizel fraksiyasının 37 %- li hidrogen peroksid və sirkə turşusundan katalizator kimi istifadə etməklə oksidləşdirici kükürdsüzləşmə prosesində kükürdsüzləşmə dərəcəsi 27 %, ultrasəsli kavitasiya təsirində isə 56% təşkil edir.

2 mərhələdə alınan nəticələrdə isə kükürdün miqdarı 0,0350 % olan dizel fraksiyasının 37%-li hidrogen peroksid və sirkə turşusundan katalizator kimi istifadə etməklə oksidləşdirici kükürdsüzləşmə prosesində kükürdsüzləşmə dərəcəsi 32 %, ultrasəsli kavitasiya təsirində isə 72% təşkil edir.

İstifadə edilmiş ədəbiyyat

1. Мамедова Т.А. Исследование и разработка процессов получения экологически безопасных моторных топлив и добавок к ним на основе органических кислот нефтяного и растительного происхождения. Баку-2013 (67-69).

2. Шарипов А.Х., Нигматуллин В.Р. Окислительное обессеривание дизельного топлива. *Нефтехимия*, 2005, *6(45)*, 403-410.

3. Каирбеков Ж.К., Мылтыкбаева Ж.К., Мұқталы Д., Нысанова Б., Анисимов А.В., Рахманов Э.В., Акопян А.В. Пероксидное окислительное обессеривание дизельного топлива. *Химическая технология*, 2017, *18(4)*, 162-166.

4. Кривцов Е.Б., Головко А.К. Кинетика окисления сернистых соединений дизельной фракциии нефти озоно-кислородной смесью *Известия Томского политехнического университета*, 2012, *3(321)*, 157.

5. Каирбеков Ж.К., Мылтыкбаева Ж.К., Мұқталы Д., Нысанова Б., Анисимов А.В., Рахманов Э.В., Акопян А.В. Пероксидное окислительное обессеривание дизельного топлива. *Химическая технология*, 2017, *18(4)*, 162-166.

GREAT LEADER HEYDAR ALIYEV IS THE FOUNDER OF MODERN AZERBAIJAN

Khadija Aliyeva
Mingachevir State University
khadija.aliyeva@mdu.edu.az

Heydar Aliyev, a great statesman and National Leader of our people, is the architect and founder of the modern independent state of Azerbaijan. His services to our people are unmatched. The path leading the people of Azerbaijan to the establishment of an independent state actually started in 1969 - exactly after Heydar Aliyev began to lead our republic. At that time, rapid development in all fields began in the republic. [2] From the first days of Heydar Aliyev's activity as the head of the republic, it became clear that the people of Azerbaijan found a true national leader in him. In addition to achieving the revival of the national spirit, the development and flourishing of Azerbaijani culture, he also directed the attention of all intellectuals and the entire Azerbaijani people to historical and cultural resources. In those years, the Azerbaijani language, Azerbaijani literature, Azerbaijani history, Azerbaijani music - all the layers of our rare national culture were opened and re-evaluated as if.

The Great Leader Heydar Aliyev, along with reviving Azerbaijan and creating a new Azerbaijan, was also thinking about its future. He paid great attention to young people. Young people were sent to advanced universities of the Soviet Union to acquire the necessary qualifications for the improvement of the republic's scientific, technical and cultural potential. [1] The scientific and personnel potential of Azerbaijan was strengthened, and the opportunities for promoting the national, spiritual and moral values of our people were expanding. Along with this, the creation of the Jamshid Nakhchivanski Military High School in 1971 at the initiative of the Great Leader is also of great historical importance. The role of this school in building an army and ensuring the territorial integrity of Azerbaijan is great.

As it is known, in the first years of independence, the political struggles and power struggles in the republic dealt a heavy blow to our state. In May 1992, the People's Front and Musavat couple came to power. [3] During the rule of this couple, not only issues related to the state building process were not brought to the fore, but unimaginable decisions were made that affected the dignity and pride of every Azerbaijani. In such a situation, the return to power of Heydar Aliyev, a genius who dedicated his whole life to his people and the independent state building of Azerbaijan, restored the lost confidence of our people and laid the foundation for a new period of development of the country. [2] The Great Leader, who returned to political power in 1993 by the will and insistence of the people, brought Azerbaijan out of chaos and crisis, prevented a civil war, achieved a ceasefire, and fulfilled the mission of a great rescuer.

It was after the realization of these fateful issues that all attention was directed to front-line defense and, in addition, to the revival of the paralyzed economy. Immediately after the great liberation, Heydar Aliyev, who proved that he was the true leader of the people in everything, began to carry out measures of great construction and stabilization of the internal situation. Seeing the

successful results of the thoughtful and forward-looking policy, our people's hope for tomorrow has increased even more.

The Great Leader Heydar Aliyev, who considered economic development to be an important factor of independence, knew well that investing in the economy was of priority importance. On September 20, 1994, historic Agreement called "Contract of the Century" was signed with a consortium of well-known oil companies of the world on the joint exploration, development and distribution of production of the "Azeri", "Chirag" fields and the deep-lying part of the "Gunashli" field located in the Azerbaijani sector of the Caspian Sea.[5] The oil strategy, which began to be implemented consistently with the signing of the "Contract of the Century", had a significant impact on the dynamic increase in foreign investment, which the economy urgently needs, on the country's socio-economic development and comprehensive integration into the world community. After the signing of this agreement, there have been significant changes in the nature of the socio-political and economic processes in the country. [1]

One of the outstanding services of the Great Leader Heydar Aliyev to our people and statehood is the establishment of the New Azerbaijan Party, a national party.

On October 17, 2001, at the solemn ceremony dedicated to the 10th anniversary of the independence of the Republic of Azerbaijan, Heydar Aliyev declared: "During ten years, the people of Azerbaijan have established the democratic, legal, secular state they declared, and created its institutions. [4] Many laws have been adopted for the survival and development of this state. Following the path of market economy, reforms were made in all sectors and the results of these reforms were achieved. "Azerbaijan has taken its rightful place on the world scale for ten years." Although Heydar Aliyev, the founder of our independent state and the savior of our nation, a genius, is no longer with us, his ideas and great genius live forever. We are sure that the soul of Heydar Aliyev, who is always proud of being an Azerbaijani, is grateful today. Because the territorial integrity of the savior of independent Azerbaijan was restored under the leadership of the President, Commander-in-Chief Ilham Aliyev, who continued his ideas and actions and fulfilled his wills, and Karabakh, which had been under enemy slavery for 30 years, regained its eternal freedom. [4] National leader Heydar Aliyev is the architect and founder of the independent state of Azerbaijan, the founder of the modern Azerbaijani ideology that ensures national solidarity and integrity, the savior of our people and our state. Heydar Aliyev's indomitable will, foresight, selflessness made him the leader of Azerbaijanis all over the world, and his life path became an example of service to his native country.[3] This wise politician and statesman, who dedicated his entire conscious life to the people and country he loved more than his life, took a place in our history as the architect and founder of our independence, turned into the phenomenon of Heydar Aliyev, showed sharp intelligence, wisdom, foresight and perseverance, and won the position of an invaluable national leader and has built an eternal statue in the hearts of the people! Due to his multifaceted and rich activities and unique human qualities, the great leader became an eternal genius of our time. [5]

The people of Azerbaijan rightly accept Heydar Aliyev's legacy as the guarantor of their independence. The dearest memory of the great leader Heydar Aliyev, which is eternal in the hearts of the people, will always be remembered with infinite love and immense appreciation. His radiant image is the epitome of greatness. The name of Heydar Aliyev, the founder of modern Azerbaijan, entered the history of the world as one of the rare personalities who flourished human ideals. He rose to the level of a legendary leader of our time as a strong, powerful statesman on a global scale. Today, our state has become the most powerful country in the region, standing firm on its perfect political course.

Today, Azerbaijan, which Heydar Aliyev wanted to see, is looking to the future with confidence, taking the most worthy place in the world community as a state won by the most worthy follower of his ideas, the President, the Victorious Supreme Commander Ilham Aliyev!

References

1. Hudiyev N. Haydar Aliyev: Devlet kuruculuğu və dil politikası. Bakı – 2005

2. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı – 2002
3. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı – 2003
4. Xalqa bağlanmış ömür. II kitab. Bakı – 2004
5. Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı- Avropa 2019
6. Yusifov M. Milli Lider və müstəqil dövlətçilik. Bakı – 2005

AZƏRBAYCAN RESPUBLİKASININ BMT-NİN BƏZİ İXTİSASLAŞMIŞ QURUMLARI İLƏ ƏMƏKDAŞLIĞI (1993-2003)

Ramin Xəlil oğlu Quliyev
Azərbaycan Dillər Universiteti
ramin-yusif-01@mail.ru

Çağdaş beynəlxalq inteqrasiya proseslərində iştirakın çoxlu istiqamətləri, vasitələri və formaları mövcuddur. Onların başlıcalarından birini beynəlxalq və regional təşkilat, qurum, struktur, proqram, layihə və s. qatılma təşkil edir. Bu baxımdan AR-in fəaliyyəti də diqqətçəkicidir və mühüm əhəmiyyət kəsb edir, onun öyrənilməsinə böyük ehtiyac vardır [6, s.20]. Müstəqilliyinin ilk illərindən Respublikanın qarşılaşdığı Ermənistan tərəfindən başladılmış təcavüzü dayandırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya dövlətləri ilə siyasi və iqtisadi əlaqələrə daxil olmaq ehtiyacı düşünülmüş, sistemli və çevik xarici siyasət kursunun icrasını zəruri edirdi [2, s.211-212]. Respublikamız dünyada ən universal təşkilat olan BMT ilə əməkdaşlığa xüsusi diqqət yetirirdi. BMT dünyada sülhün möhkəmləndirilməsi üçün müvafiq hüquq və qərarlar sisteminə malikdir [2, s.540]. Məhz bu amil müstəqilliyin ilk ilindən Ermənistanın təcavüzü və separatizm ilə qarşılaşmış Azərbaycanı BMT ilə sıx əməkdaşlığa çağıran səbəblərdən idi. 1993-cü ildə Heydər Əliyevin Respublikaya rəhbərlik etməyə başladıqdan sonra BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa xüsusi önəm verilməyə başlanıldı. Qeyd etmək lazımdır ki, BMT-nin 15-dən artıq ixtisaslaşdırılmış qurumu fəaliyyət göstərir. BMT-nin ixtisaslaşmış qurumları xüsusi sahələrdə əməkdaşlığı həyata keçirən, BMT ilə iqtisadi və Sosial Şura xətti ilə bağlanan universal xarakterli dövlətlərarası təşkilatlardır [8, s.6]. Bir tərəfdən, bu qurumlar avtonom təşkilatlar adlandırılırsa da, digər tərəfdən onlar BMT-yə aid edilir və BMT Nizamnaməsinin 57-ci maddəsinə görə səciyyələndirilirlər. Azərbaycanın BMT-ə üzv qəbul olduğu dövrdən onun ixtisaslaşmış qurumları ilə də əməkdaşlığa başlamışdır. Elmi-texniki, mədəni, sosial və humanitar sahələrdə əməkdaşlıqda, əsasən, BMT-nin ixtisaslaşdırılmış qurumları iştirak edirlər və onlar çoxsahəlidirlər [5, s.84].

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Respublikaya çox çətin bir zamanda- ölkənin üzləşdiyi təcavüz, daxili siyasi problemlərin mövcud olduğu, separatizmin baş qaldırdığı, vətəndaş müharibəsi və kəskin iqtisadi böhran dövründə -rəhbərlik etməyə başladı. O, dahi zəkası və çoxillik siyasi təcrübəsinə dayanaraq siyasi və sosial-iqtisadi problemləri həll etmək üçün vasitələr axtarmağa və real addımlar atmağa başladı. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasına beynəlxalq əməkdaşlığın genişləndirilməsi siyasəti də daxil idi. İdxal və ixrac əməliyyatlarını qaydaya salmaq, bazar iqtisadiyyatına keçmək, iqtisadiyyatı sağlamlaşdırmaq üçün layihələr hazırlamaq, ölkə iqtisadiyyatına kreditlərin ayrılması, yeni istehsal sahələri yaratmaq, xarici iqtisadi əlaqələrin yaradılması və bərpası, ölkə vətəndaşlarının yaşayış səviyyəsini artırmaq, qaçqın və məcburi köçkünlərin vəziyyətini yaxşılaşdırmaq, sosial problemləri nizama salmaq, elmi texniki və mədəni sahələrdə əməkdaşlıq etmək, Azərbaycan mədəniyyətini dünyada tanıtmaq, erməni işğalçıları tərəfindən dağıdılmış mədəniyyət inciləri haqqında dünya ictimaiyyətini məlumatlandırmaq, qarət olunmuş mədəniyyət abidələrini geri qaytarmaq zərurəti də BMT-nin ixtisaslaşmış qurumları ilə geniş əməkdaşlığı Respublika üçün zəruri və həyati əhəmiyyətli məsələ edirdi [8, s.35]. Bu yöndə YUNESKO və YUNİSEF ilə əlaqələr daha sistemli, səmərəli olmasıyla fərqlənir.

YUNİDO, İMF, FAO və digər ixtisaslaşmış təşkilatlarla da müxtəlif səviyyələrdə işgüzar münasibətlər yaradılmışdır [6, s.24]. Belə ki, Azərbaycan Respublikası hökumətinin xüsusi məktub-müraciətilə (21.X.1994) ölkəmiz "İnsan hüquqları üzrə ümumdünya Xartiyası"na (10.XII.1948) qoşuldu. BMT-nin insan hüquqları üzrə Mərkəzinin nümayəndə heyətinin respublikamıza səfəri (VI. 1994) zamanı bəzi çox önəmli məsələlər müzakirə edildi. Azərbaycan BMT-nin 1994-cü ilin sentyabrında Qahirədə "Əhali və inkişaf' mövzusunda keçirdiyi beynəlxalq konfransın da iştirakçısı oldu [6, s.22-23]. 1994-cü il sentyabrın 4-də Azərbaycan prezidenti Heydər Əliyev həmin konfransda iştirak etmək üçün Misirə yola düşərkən jurnalistlərlə görüşündə demişdi: "Hər bir beynəlxalq toplantı, beynəlxalq konqres, şübhəsiz ki, dünyada gedən proseslərin müəyyən cəhətini müzakirə, təhlil edir və müəyyən qərarlar çıxanr". H Əliyev Misirdə BMT Baş katibi Butros Qali ilə söhbətdə Ermənistan təcavüzkarlığı ilə yanaşı, respublikanın ümumi, o cümlədən iqtisadı vəziyyətini də müzakirə etdi. Tərəflər BMT-nin ixtisaslaşmış qurumu olan YUNİDO-nun Sumqayıtda azad iqtisadi zona yaratmaq fəaliyyəti haqqında fikir mübadiləsi etdilər [7, s.153].

Azərbaycan Respublikası BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatı olan YUNESKO-a 3 iyun 1992-ci ildə üzv qəbul edildi. Respublikamızın UNESCO-ya qəbul edilməsi (3 .VI. 1992) ilə onlar arasındakı qarşılıqlı əlaqələrdə keyfiyyətcə tam yeni bir mərhələ başladı. AR qurumun Baş konfransının sessiyalarında təmsil olundu [6, s.24]. Azərbaycanın YUNESKO ilə əlaqələrinin genişləndirilməsi isə 1993-cü ilin ikinci yarısından –H.Əliyevin Respublikaya rəhbərliyi ilə başlamışdır. 1993-cü il noyabr ayının 3-də Azərbaycan Respublikasının Xarici işlər naziri H.Həsənov YUNESKO-nun Parisdə keçirilən baş konfransının 27-ci sessiyasının çıxış edərək təşkilatla əlaqələrin əsas istiqamətlərindən danışmışdır. YUNESKO Baş Konfransının 27-ci sessiyasında H.Həsənov Azərbaycanın qədim mədəniyyət mərkəzindən biri olan Şuşa şəhərinin dağıdılması məsələsi üzərində xüsusi dayanmış, Azərbaycan mədəniyyəti və sivilizasiyasının mərkəzinin salamat qalmasına nəzarət etmək üçün təcili olaraq YUNESKO-nun missiyasının göndərilməsini xahiş etmişdir [7, s.112]. 1993-cü ilin dekabr ayında ulu öndər Heydər Əliyev Fransa Respublikasına rəsmi səfəri zamanı YUNESKO-nun Baş Direktoru Federiko Mayorla da görüşmüş və Azərbaycan-UNESCO əlaqələrini inkişaf etdirmək üçün Azərbaycanda YUNESKO üzrə Milli Komissiyanın yaradılması qərara alınmışdır [1, s.31]. Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 21 fevral 1994-cü il tarixli sərəncamı ilə "YUNESKO-nun üzvü olan hər bir dövlətin təhsil, elm və mədəniyyət məsələləri ilə məşğul olan idarələrini təşkilatın fəaliyyətinə cəlb etmək üçün əsasən milli komissiyalar yaratmaq yolu ilə tədbirlər görəcəyini" nəzərə alaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi yanında YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradıldı [17]. Azərbaycanla YUNESKO arasındakı əlaqələrin möhkəmlənməsində Respublika Prezidenti H.Əliyevin bu ixtisaslaşmış qurumun baş direktoru Federiko Mayorla görüşləri müstəsna əhəmiyyət kəsb edir. Təsadüfi deyildi ki, YUNESKO-nun baş direktoru Azərbaycan Prezidenti ilə Bakıdakı görüşündə: "Sizinlə YUNESKO-nun qərargahındakı ilk görüşümüz və o zaman "sülhü möhkəmlətmək bizim hər hər ikimizin ümdə vəzifəmizdir" deməyiniz heç vaxt yadımdan çıxmayacaqdır [7, s.153]. Təşkilatın Baş direktoru F.Mayorun YUNESKO-nun "Mədəniyyət və gələcək" proqramı çərçivəsində AR-ə rəsmi səfərə gəlməsi (7-9.XI.1996) ölkəmizin təşkilatla əməkdaşlığını xeyli intensivləşdirdi [6, s.24-25]. Bu səfər zamanı 1996-cı il noyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO) arasında əməkdaşlıq haqqında Memorandum" qəbul edildi[16]. Memorandumda işbirliyinin və qurumun ölkəmizə yardımının bir sıra istiqamətləri, sahələri müəyyənləşdirildi: təhsilin inkişafına yardım olunması; dünya bilgisayar şəbəkəsinə çıxışın təmin edilməsi; qaçqın və yetim uşaqların problemlərinin həlli; Haaqa konvensiyasına (1954) əsasən, habelə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı mədəni sərvətlərin mühafizəsinə birgə səylər göstərilməsi; Xəzərin təbii ehtiyatlarından istifadə olunmasına dair müvafiq proqramların hazırlanması və s. [6, s.25]. Burada Azərbaycanın mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdı. H.Əliyevin F.Mayorla dörd görüşü olmuş, görüşlərdə Azərbaycanla bağlı təhsil, elm və mədəniyyət məsələləri müzakirə edilmişdir. YUNESKO-nun baş qərargahında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyinə həsr olunmuş mərasimin keçirilməsi, həmin tədbirdə F.Mayorun

şəxsən iştirakı, nəhayət, Baş direktorun 1996-cı ilin noyabrında yubiley şənliklərinə Bakıya gəlişi əlamətdar hadisə olmaqla yanaşı, Azərbaycanla YUNESKO arasında əməkdaşlığın yüksək səviyyədə qurulmasını təsdiq edən faktdır. Azərbaycan YUNESKO əməkdaşlığına dair 1996-cı ilin noyabrında imzalanmış saziş təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın yem mərhələsinin başlanğıcı idi. Təsadüfi deyil kı, məhz bundan sonra Azərbaycanda ali təhsilin TASİS və TEMPUS proqramlarına uyğun şəkildə yenidən qurulmasına dair iki layihə reallaşdırılmağa başladı, 2000-ci il YUNESKO tərəfindən Böyük İpək yolu -TRACEKA ili elan olundu [7, s.112-113].

16 aprel 2004-cü il tarixində Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyi təsis edilməsi haqqında AR qanunu qəbul edildi[18] və AR Prezidenti İ.Əliyevin 29 sentyabr 2004-cü il tarixli Sərəncamı ilə Eleonora Məcid qızı Hüseynova Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi təyin edildi [19]. 31 oktyabr 2005-ci il tarixində verilmiş sərəncamla Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyinin fəaliyyətinin təmin edilməsi üçün bir ay müddətində daimi nümayəndəliyin strukturu və ştat cədvəlinin təsdiq edilməsi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılırdı [20].

2004-cü ilin sentyabr ayında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva UNESCO tərəfindən UNESCO-nun Xoşməramlı Səfiri adına layiq görülmüşdür [1, s.34; 21]. Bu dövrdən başlayaraq UNESCO ilə əməkdaşlıq daha sıx xarakter almışdır.

Azərbaycanın 3 maddi mədəni irs nümunəsi YUNESKO-nun Ümumdünya İrs Siyahısına, 15 qeyri-maddi mədəni irs nümunəsi isə YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir [15; 21].

Azərbaycan Respublikasının "Avropada mədəni əməkdaşlıq haqqında" Konvensiyam imzalaması (IV. 1997) ölkəmizin Qərbdəki humanitar inteqrasiya proseslərinə qatılmasına əlavə imkanlar yaratdı. YUNESKO-nun "Böyük İpək Yolu" layihəsində iştirakla respublikamızın beynəlxalq turizm əlaqələri genişləndirildi. Qurum — respublika əməkdaşlığı çərçivəsində həyata keçirilən tədbirlər ölkəmizin dünyada tanınması baxımından faydalı oldu.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında 14 may 1954-cü il Konvensiyası (1993) daxil olmaqla UNESCO-nun 14 konvensiyasına qoşulmuşdur [22]. Azərbaycanda YUNESKO-nun müxtəlif sahələri üzrə yaradılmış altı milli komitəsi fəaliyyət göstərir və Azərbaycan Respublikası hazırda UNESCO-nun beş alt-qurumuna üzvdür[21; 22].

1996-cı ildən etibarən rəsmi Bakı Azərbaycanın erməni işğalçıları tərəfindən qarət olunub respublikadan çıxarılmış sənət əsərlərinin qaytarılması məsələləri [10] və dağıdılmış mədəniyyət abidələri barəsində məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün UNESCO-ya rəsmi müraciət etsə də [12] təəssüf ki, bu müraciətlərə qurum tərəfindən tutarlı cavab verilməmiş və YUNESKO ciddi addımlar atmamışdır. Digər tərəfdən Ermənistanın xarici işlər naziri Vartan Oskanyan YUNESKO-ya müraciət edərək Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən guya "erməni tarix və mədəniyyət abidələri"nin dağıdılmasının qarşısını almaq üçün Naxçıvana yoxlama missiyasının göndərilməsini xahiş etdi. Ermənistanın uydurmalarını ifşa etmək üçün Azərbaycan hökuməti təcili tədbirlər həyata keçirdi (2003-cü il). Qısa müddət ərzində zəruri məlumatlar toplandı. Azərbaycan tərəfi YUNESKO-ya müvafiq məktub göndərdi. Məktubda bütün bunlar Ermənistanın saxta informasiyaları və uydurmaları olaraq rədd edilirdi. Azərbaycan tərəfi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdə tarix və mədəniyyət, mmarlıq abidələrinin dağıdıldığını konkret faktlarla təşkilatın diqqətinə çatdırır, Azərbaycanın rəsmi hakimiyyətinin Azərbaycan və Ermənistan ərazilərində tarix-mədəniyyət abidələrinin vəziyyətini öyrənmək üçün YUNESKO ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirirdi [3, s.275-277]. Lakin YUNESKO Azərbaycanın işğal altındakı torpaqlarda Ermənistan tərəfindən mədəniyyət abidələrinin, təhsil ocaqlarının, dini abidələrin, məscid və kitabxanaların dağıdılması, o cümlədən qanunsuz olaraq tarixi abidələrin saxtalaşdırılması, müxtəlif qanunsuz arxeoloji qazıntıların aparılması, həmçinin işğal edilmiş ərazilərdə törədilmiş ekoloji fəlakət faktlarını öyrənmək üçün nə

işğal edilmiş ərazilərə missiya göndərdi nə də bütün bunlarla bağlı öz narahatlığını dilə gətirən samballı bəyanat verdi.

YUNİSEF-Azərbaycan Respublikası BMT-nin ixtisaslaşmış təşkilatlardan biri olan YUNİSEF-lə əməkdaşlığa xüsusi diqqət ayırır. Qurum Azərbaycanda 1993-cü ildən fəaliyyətə başlayıb. Azərbaycanın müstəqilliyinin ilk illərində UNICEF-in proqramları həm təxirəsalınmaz humanitar ehtiyaclara, həm də milli inkişaf prioritetlərinə yönəlib [14]. BMT-nin Uşaq fondu olan bu təşkilatın İdarə Heyətinə üzvlüyümüz 1994-cü ilin fevralından başlamışdır. İdarə Heyətinə üzvlüyə dair yeni seçkiləri də (IV. 1994 - alternativi Polşa idi) qazanan respublikamız YUNİSEF ilə əlaqələrini artırdı. AR-YUNİSEF əməkdaşlığında aşağıdakı başlıca məqamları qeyd etmək olar: AR-ə müvafiq yardım proqramlarının hazırlanması və reallaşdırılması; qarşılıqlı informasiya mübadiləsi; "Uşaq hüquqlarına dair Konvensiya" çərçivəsində fəaliyyətin koordinasiyası və s [6, s.25].

Azərbaycan və UNİSEF arasında əməkdaşlıq, əsasən, məcburi köçkün, qaçqın uşaq və yeniyetmələrin problemlərinin həllinə, təhsilinin yaxşılaşdırılmasına dair məsələlərə yönəlmişdir. "Azərbaycan Respublikasının Hökuməti və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (YUNİSEF) arasında 25 may 2002-ci il tarixində imzalanmış əməkdaşlığa dair Əsas Saziş" [11] 13 may 2003-cü ildə AR Prezidenti H.Əliyev tərəfindən təsdiq edilmiş və həmin gündən qüvvəyə minmişdir. 25 maddədən ibarət olan sazişi Azərbaycan Respublikası hökuməti adından Xarici işlər naziri Vilayət Quliyev BMT Uşaq Fondu adından isə Azərbaycandakı nümayəndəliyin başçısı Akif Saatçıoğlu Bakıda imzalamışdır [13].

Azərbaycan 1995-1997, 1998-2000, və 2005-2009-cu illərdə BMT-nin Uşaq Fondunun (UNICEF) İcraiyyə Şurasına üzvü seçilmişdir [21].

BMT-nin ixtisaslaşmış təşkilatlarından YUNİDO, İMF, UB və digərləri ilə əməkdaşlıq da Azərbaycanın beynəlxalq iqtisadi-maliyyə əlaqələrində önəmli yer tutur. 1966-cı ildən fəaliyyət göstərən YUNİDO (Sənayenin İnkişafı Təşkilatı) ilə AR arasında əlaqələr 1992-ci ilin mayında yaradılmışdır. Bu da respublikamızın BMT-nin inkişaf proqramına qatılmasıyla baş tutmuşdur. YUNİDO-nun ekspert və məsləhətçilərinin AR-ə 1994-1995-ci illərdəki səfərləri zamanı təşkilatın respublikamızla əlaqələri genişləndirməsinə dair qərar qəbul olundu [6, 29]. Azərbaycanın BMT-nin aparıcı maliyyə qurumları sayılan Beynəlxalq Valyuta Fondu (BVF) və Ümumdünya Bankı (ÜB) ilə əlaqələri diqqətçəkicidir. Yenidən müstəqilliyini bərpa etmiş Azərbaycan keçmiş sovetlər dönəmində iqtisadiyyat və istehsal sənayesinin mürəkkəb şəkildə qurulması (bir məhsulun müxtəlif hissələrinin ayrı-ayrı sovet ölkələrində istehsal olunması kimi) səbəbindən müstəqilliyin ilk illərində istehsal sənayesində əziyyət çəkməyə başladı. Digər tərəfdən isə artıq sovetlərin sonuna doğru istehsal sənayesində əsaslı kapital köhnəlmişdi və dövrün tələblərinə cavab vermirdi. Sosialist iqtisadiyyatdan bazar iqtisadiyyatına sürətli keçid tələb olunduğu bir vaxtda yüksək infilyasiya və işsizliyin artması iqtisadiyyatı dirçəltmək və respublikamızın iqtisadi-enerji təhlükəsizliyinə nail olunması, uğurlu "neft siyasəti"nin aparılması yolu ilə ölkəyə xarici kapital axınını təmin etməyi tələb edirdi. Bunun üçün Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi qurumlarla əməkdaşlıq zəruri idi.

Respublikamız 1992-ci ilin ikinci yarısında BVF-yə rəsmən daxil olaraq həmin qurumlarla bilavasitə əməkdaşlığa başlamışdır [6, s.27]. Azərbaycan Respublikası 1992 cı ilin sentyabr ayında Dünya Bankının, 1995-ci ilin mart ayında isə Beynəlxalq İnkişaf Təşkilatının üzvü olmuşdur. Ölkə həmçinin 1992-ci ildə Çox Tərəfli İnvestisya Təminat Təşkilatına, 1995-ci ildə isə Beynəlxalq Maliyyə Təşkilatına daxil olmuşdur. 1994-cü ildə Ümumdünya Bankının Avropa və Asiya ölkələri departamentinin direktoru Rassel Çitam, 1995-ci ildə isə bankın Rusiya Federasiyası və Orta Asiya ölkələri üzrə Departamentinin direktrou Huanq Yukon ölkəmizə səfər etdi. Səfər ölkəmizin bu təşkilatla əlaqələrinin inkişafına kömək etdi [4, s.42]. Dünya Bankı əsasən ölkənin inkişafı istiqamətində məsləhət, maliyyə və investisya köməyi etməktədir, həmçinin dövlət büdcəsi və onun koordinasiyası və digər işlər də bu köməyə daxildir.

Ümumiyyətlə, respublikanın inkişafı üçün təxrəsalınmaz islahatların həyata keçirilməsində ortaya çıxan maliyyə problemlərinin aradan qaldırılmasında Dünya Bankının verdiyi kreditlerin müstəsna yeri olmuşdur. Eyni zamanda Bankın Azərbaycanda həyata keçirdiyi məqsədyönlü

layihələrin müstəqil Azərbaycanın iqtisadi inkişafında müsbət rolu inkaredilməzdir. Dünya Bankının layihələrinin istiqamətləri müxtəlif olsa da onların hər birinin məzmununda insan inkişafı və iqtisadi rəfah mövcuddur [9, s.137-147].

Beləliklə, Heydər Əliyevin birinci və ikinci prezidentliyi dövründə (1993-2003) həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində Azərbaycan Respublikası BMT və onun ixtisaslaşmış qurumları ilə geniş əməkdaşlıq quraraq insan hüquqlarının qorunması, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində, respublikanın iqtisadiyyatının inkişafı, həmçinin təhsilin inkişafı və mədəniyyət abidələrinin mühafizəsi üçün səmərəli addımlar atmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan - YUNESKO: İnsan Hüquqlarına Əsaslanan Tərəfdaşlıq. Redaksiya heyətinin sədri: Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) professor Elmira Süleymanova Bakı 2014 səh 31.
2. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Azərbaycan nəşriyyatı B.2005, 752 s.
3. Qasımlı Musa. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. I hissə. Bakı: Mütərcim, 2015. 648 s.
4. Qasımov Musa Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı. Gənclik. 1996, 140 s.
5. Qasımov Musa. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997. 124 s.
6. Musa İ.M. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. - Bakı: "Bakı Universiteti" nəş- yatı, 2011.-776 səh.
7. Rəcəbli H. M. BMT-nin ixtisaslaşmış qurumları. - Bakı, "Azərbaycan" nəşriyyatı, 2003.- 256 səh.
8. Rəcəbov H.M. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. Bakı: Azərbaycan, 1997. 82 s.
9. Süleymanov Elçin. Müstəqillik sonrası Azərbaycan-Dünya Bankı münasibətləri. //Journal of Qafqaz University fall 2003, Number 12. S. 137-147
10. http://multikulturalizm.gov.az/az/post/1989/unesco-ile-azerbaycan-arasinda-elaqeler-genislenir-ve-yeni-saheleri-ehate-edir.html
11. http://www.anl.az/down/meqale/azerbaycan/2010/may/120696.htm
12. https://azerbaijan.az/related-information/199
13. https://e-qanun.az/framework/2200
14. https://report.az/xarici-siyaset/unicef-in-azerbaycanda-fealiyyete-baslamasindan-25-il-otur/
15. https://ulduztourism.az/azerbaycan/umumi-melumatlar/azerbaycanin-unesco-irsl%C9%99ri
16. https://unesco.preslib.az/az/page/bfLqSvcnB4
17. https://unesco.preslib.az/az/page/cmbe2nDPRj
18. https://unesco.preslib.az/az/page/hq4vozVtbi
19. https://unesco.preslib.az/az/page/jAD5mfEcgN
20. https://unesco.preslib.az/az/page/XoCOnKFbgi
21. https://www.mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/azerbaycan-unesco-munasibetleri
22. https://www.unesco.az/az/pages/cooperation-unesco-republic-azerbaijan

THE WORLDWIDE LEADER OF AZERBAIJAN

Rena Mammadova
Azerbaijan University of Architecture and Construction
renamofa@gmail.com

The person who devote all his life to the defense, prosperity, promotion and development of his nation and motherland never dies, he always lives in the memory of that nation. The prominent and great son of Azerbaijan, common nation leader Heydar Aliyev is such a person too.

Heydar Alirza oglu Aliyev was born on May 10, 1923 in the ancient and picturesque city of Nakhchivan of Azerbaijan. After he graduated from the Nakhchivan Pedagogical School in 1939, he studied at the Architecture Department of the Azerbaijan Industry Institute-present Azerbaijan State Oil and Industry University. The great leader headed the department at the People's Commissariat of Internal Affairs of the Autonomous Soviet Socialist Republic of Nakhchivan from 1941. As Heydar Aliyev was very talented and responsible person he took an active part in the social-and political life of Azerbaijan. That is why he was sent to work at the State Security bodies in 1944 where he worked hard to guard the security and safety of his nation and his country. The well-known leader Heydar Aliyev never grudged his knowledge, ability and experience from his people. Wherever he worked he always put the interest of Azerbaijan for the first place and did his best to support the Azerbaijanis and Azerbaijan. His talent and knowledge was always highly valued by the people. Therefore he held the post of the deputy chairman from 1964 in Azerbaijan and became the chairman of the State Security Committee under the Cabinet of Ministers of the Republic of Azerbaijan from 1967.

Occupying the high rank lieutenant general Heydar Aliyev received special higher education in Leningrad (present St. Petersburg). In 1957 he graduated from the History Department of the Azerbaijan State University. As being an irreplaceable personality he became the architect of Azerbaijan in both the political and cultural life of Azerbaijan. Being a great political leader Heydar Aliyev was elected the First Secretary of the Central Committee of the Communist Party of Azerbaijan at the Plenum of the Central Committee of the Communist Party of Azerbaijan in July, 1969. Occupying this post he began wide reconstruction processes in Azerbaijan. From this day a lot of residential, industrial, administrative, cultural and educational houses were built in our Motherland. In Azerbaijan many Institutes, technical schools, professional schools, secondary schools, nursery schools and kindergartens were opened by his initiative and attempts. The new Institutes on the different fields of science in the Azerbaijan Academy of Science began to function. In every part of our country, in every region, settlement and village life began to prosper and develop. He paid great attention to science and education in Azerbaijan. "The great statesman Heydar Aliyev astonished all the people who surrounded him when he talked whether about the agriculture or industry, or science and culture or literature" [2, 7].

There was no unemployed person and one could find a job according to his or ability or specialty. The beloved leader was always among the people- in the cotton fields, in oil rocks, in the factories, plants. His meetings with the youth became unforgettable and memorable. He was proud of Azerbaijan/ All the Azerbaijan people was proud of his leader Heydar Aliyev. During those years under his leadership besides Baku Sumgayit, Ganja, Sheki, Mingechevir and other Azerbaijan cities became very developed and cultural cities. He worked day and night in order to make Azerbaijan cultural, beautiful, prosperous, highly developed industrial country in the Soviet Union as well as in the world.

Being elected a member of Political Bureau of the Central Committee of the Communist Party of Soviet Union in December, 1982 Heydar Aliyev took an active part in the life of the different part of the Soviet Union. Under his leadership the construction work in Baikal Amur Highway was developed. He organized the student-construction detachment called "Azerbaijani Komsomol members". The members of this detachment were sent to work there and they founded Ulkan settlement there. He was appointed to the post of the First Deputy Chairman of the Cabinet of

Ministers of the USSR and became one of the leaders of the USSR. During twenty years, Heydar Aliyev was the Deputy of then Supreme Soviet of the USSR and for five years he was Deputy Chairman of the Supreme Soviet of the USSR.

Common nation leader Heydar Aliyev was with our nation both in joyful days and sad and tragic moments. He was the first Soviet leader who protested against the policy pursued by the Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union and personally the Secretary General Michael Gorbachev. Heydar Aliyev resigned from his post in October, 1987. When the black January tragedy was committed on 20, 1990 in Baku by the Soviet troops, Heydar Aliyev made a statement at the Azerbaijan Representation in Moscow and demanded to punish the organizers and executors of the crime committed against the peaceful people of Azerbaijan. Besides he left the Communist Party of the Soviet Union as a sign of protest against the hypocritical and treacherous policy of leadership of the USSR, concerning with the bloody conflict taken place in the area of Karabagh in Azerbaijan, in July 1991.

Returning to his homeland Heydar Aliyev was elected a deputy to the Supreme Soviet of Azerbaijan in 1990 . The remarkable leader held the post of Chairman of the Supreme Assembly of the Autonomous Republic of Nakhchivan, Deputy Chairman of the Supreme Soviet of the Republic of Azerbaijan In 1991-1993. Supporting the nation's interest and security the great leader worked shoulder to shoulder with the nation and at the constituent congress of the New Azerbaijan Party in Nakhchivan, Heydar Aliyev was elected Chairman of the Party.

As the bloody days didn't stop, Armenian troops were supported by the Russian leadership bloody tragedies followed one another. In May-June 1993 as a result of extreme tension of the governmental crisis, the country was at the verge of civil war and loss of independence. Thus the people of Azerbaijan demanded to bring Heydar Aliyev to power. The Azerbaijani people needed his iron-willed, strong and powerful leader. So Heydar Aliyev was invited to Baku. The then leaders of Azerbaijan were obliged to invite Heydar Aliyev officially to Baku too. On June 15, 1993 Heydar Aliyev was elected the Chairman of the Supreme Soviet of Azerbaijan. On July, 24 on the resolution of the Milli Mejlis, he commenced to fulfill powers of the President of the Republic of Azerbaijan.

On October 3, 1993, as a result of nationwide voting, Heydar Aliyev was elected President of the Republic of Azerbaijan. On October 11, 1998, he was re-elected President of the Republic of Azerbaijan.

Heydar Aliyev had given his consent to be nominated as a candidate at October 15, 2003 presidential elections but he relinquished to run at the elections in connection with health problems.

After being elected the President of Azerbaijan Heydar Aliyev did his best to make Azerbaijan developing country. He signed a number of significant treaties among them "The Treaty of the Century" was very worth noting as this treaty made clear the place Azerbaijan oil in the world policy. "The Azerbaijan people has never been the owner of their resources, and never had the opportunity to make such big, brave and willful steps as now" [1, 3]

The outstanding, leader of the Azerbaijan people did his best for the development of Azerbaijan and the Azerbaijan language. As soon as he became the leader of Azerbaijan, Heydar Aliyev was closely interested in the language problems and issues. He accepted the ideology of Azerbaijanism as the newly established state. According to his orders on the eve of the adoption of the first Constitution of the independent Azerbaijan discussions on the state language of Azerbaijan were held and as a result the state language was adopted as "the Azerbaijan language". "The worldwide leader of the Azerbaijan people Heydar Aliyev paid special attention to the process of nationalization happening from the beginning of the seventieth of the past century. Along with being the leader of the establishment of the national and independent state from the ninetieth, the issue of the Azerbaijan language was the urgent problem for him as well and this made him one of the great language politicians in the world" [3, 4]. Heydar Aliyev always stood in the defense of the Azerbaijan language and created all the conditions for the development of it. " Following the restoration of our independence the worldwide leader Heydar Aliyev's decree on "Improving the application of the state language" dated on June 18, 2001 and "The Law of the Republic of

Azerbaijan on the State language of the republic of Azerbaijan" dated on September30, 2002 the Azerbaijan language has been begun to be applied to every field of the social-political, socio-economic, scientific and cultural life of the society and created suitable base for its unhindered development as the state language" [4,27].

Although Years passed after the death of our national leader Heydar Aliyev, his deeds can be seen in every part of Azerbaijan, in every single Azerbaijan family. Azerbaijan has become highly developed country and under the leadership of worldwide leader's son, our president and commander in chief İlham Aliyev, Azerbaijan liberated its territory and regained its territorial integrity as the great leader's testament.

References

1. Aliyev Heydar. "Azerbaijan Oil in the World Policy". Baku, "Azerbaijan" publishing house-1997.
2. Əhmədova S. "Heydər Əliyev və ədəbi-tarixi proses". Bakı, "Elm"-2013.
3. Əhmədova S. "Heydər Əliyevin dil siyasəti". Bakı, "MBM" nəşriyyatı-2008.
4. Məmmədli N. "Heydər Əliyevin dilçilik görüşləri". Bakı, "Elm və təhsil"-2023.

HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ

Razim Ramiz oğlu Qurbanov
Mingəçevir Dövlət Universiteti
razim.qurbanov@mdu.edu.az

1993-cü ildə Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdışı, gənc nəslin diqqətini dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər, gənc nəslin böyüməsinə hər zaman önəm verirdi. Heydər Əliyev, gənclik enerjisinin hüquqi və dünyəvi dövlət quruculuğu prosesində əhəmiyyətli olduğunu anladı. Bu məqsədlə gənc kadrların hazırlanması və təşkilatlanması üçün Gənclər və İdman Nazirliyi yaradıldı. 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları təşkil edildi. Heydər Əliyev, gənclərə şunları deyirdi: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir." [1]

Ümummilli lider Heydər Əliyev 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsü ilə çıxış edib. Bir il sonra, fevralın 2-də onun iştirakı ilə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib. Ulu öndər 1997-ci il fevralın 1-də ilk forumun ildönümü münasibətilə gənclərlə görüşüb. Mərhum Prezident 1997-ci il fevralın 2-də imzaladığı sərəncamla Azərbaycanda Gənclər Gününün qeyd edilməsini rəsmi olaraq təsdiqləyib. Bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda təsis edilib. Daha sonra MDB-yə digər üzv ölkələr və Şərqi Avropa dövlətləri də gənclər gününü qeyd etməyə başlayıblar. BMT-nin qərarı ilə 1998-ci il avqustun 12-dən Beynəlxalq Gənclər Günü qeyd edilir. İlham Əliyev də həmin dövrlərin gənclərindəndir. Azərbaycan Prezidenti olduqdan sonra mərhum dövlət başçısının gənclər siyasətini uğurla davam etdirir. İlham Əliyevin hakimiyyəti illərində yetişən gənclik 2016-cı ilin Aprel döyüşlərində Ermənistan ordusu barədə yayılan mifi darmadağın etdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində isə yeni nəsil işğalçı dövlətin ordusunu fiziki və mənəvi cəhətdən məğlubiyyətə uğratdı. Prezident İlham Əliyev Şuşaya səfəri zamanı Cıdır düzündəki çıxışında Azərbaycan gəncliyinə çox böyük qiymət verib: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı

olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Öz dövlətinin güclənməsinə xidmətinə, elm sahəsində fəaliyyətinə, ölkəsinin ərazi bütövlüyünün təmin olunmasına görə xüsusi bir günün təsis olunması Azərbaycan gəncliyinin haqqıdır.

Sovetlər dövründə "manqurt" deyilən tez-tez işlədilən bir ifadə var idi. Manqurt öz ata-anasına, soyuna yad olan, yalnız ağasının əmrlərini icra edən, zombiləşmiş insandır. Azərbaycan gəncliyi 1988-ci ildə başlayan milli azadlıq hərəkatı zamanı sübut etdi ki, SSRİ-nin manqurtlaşdırma ideologiyası ona sirayət etməyib. Həmin dövrün gəncliyi könüllü dəstələr yaradaraq düşmənlə müqayisədə zəif silahlarla torpaqların işğaldan azad edilməsi uğurunda mübarizə apardı. Sovet-kommunist rejiminin çökməsində mühüm rollardan birini oynadı. Həmin dövrün gəncliyi Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikasının yaranmasında ən fəal iştirakçı oldu. Bu mübariz nəsli müstəqillik ilərində daha güclü ardıcılları əvəz elədi. Yeni gənclik mili dövlət quruculuğunda iştirak etməklə yanaşı, Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad edilməsində əsas rolu oynadı.

Bizlər adətən Azərbaycan tarixindəki qəhrəmanlıqdan danışarkən Koroğlu, Babək, Qaçaq Nəbi, Mehdi Hüseynzadə və başqalarını nümunə göstəririk. Ancaq çox keçmişdən bəhs etmədən Azərbaycanın son 32 illlik tarixinə, o cümlədən 84 gün öncə baş verən 6 həftəlik döyüşlərə nəzər salmaqla gəncliyin qüdrətini, gücünü və dövlətinə münasibətini görmək mümkündür. Azərbaycanın Qarabağ bölgəsinin böyük bir hissəsini Ermənistan işğalından təmizləyən gənclik torpağına, dövlətinə bağlılıqla öz babalarının gəncliyindən geri qalmadıqlarını sübut etdilər. Azərbaycan gəncliyi gücünü, Vətənə, torpağına, dövlətinə sevgisini 44 günlük döyüşlərdə dünyaya, dostlara və düşmənlərə göstərdi. Mübariz İbrahimov, Polad Həşimov və onların döyüş yoldaşları yeni və gələcək nəsillər üçün örnəkdirlər. Onlar şəriksiz olaraq Azərbaycan gəncliyinin təmsilçilərdir. Gənclik yalnız işğalçını, düşməni torpaqlarından qovmaqda fərqlənmir. Dövlət quruculuğunda, onun inkişafında, müasirləşməsində, ərazi bütövlüyünün təminində gəncliyin rolu əvəzsizdir.

Azərbaycanın dövlət bayrağında qırımızı rəng müasirləşmək (avropalaşmaq) rəmzidir. Mərhum ideoloq Əli bəy Hüseynzadə "Avropanın beynini həzm edək, onun mədəsində həzm olmayaq" deyib. Yeni nəsil babalarının bu vəsiyyətinə ləyaqətlə əməl edir. Hazırda dünyanın ən aparıcı universitetlərində təhsil alan, fəaliyyət göstərən Azərbaycan gəncliyi öz torpağına, vətəninə, dövlətinə bağlılığı unutmur. Onlar müasir informasiya texnologiyaları sahəsində uğurlar qazanır. Gənclik Azərbaycanı xaricdə ləyaqət, şərəf və qürurla təmsil edir. Onun haqq işi, problemləri barədə dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində fəaliyyət göstərir. O, Azərbaycanın üçrəngli bayrağının ideyaları əsasında güclü, demokratik, müasir dövlətin qurulmasında vacib rola malikdir. Eyni zamanda son illər özünün daha bacarıqlı, elmli və döyüşkən tərəfini bir daha göstərə bilir. Öz torpağına bağlı, elmli, mədəni, zəngin və müasir dünyagörüşlü, daim axtarışlar və ixtiralar edən, yenilikçi, novator gəncliyi olan dövlət əbədidir. Müasir Azərbaycan da bu yoldadır. Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan gəncliyi öz layiq olduğu mərtəbəyə yüksəldi. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu, Heydər Əliyevin gənclərə verdiyi yüksək dəyəri əks etdirir. Ulu Öndərin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti, gənclərin qarşısında duran problemlərin həllinə imkan yaratdı və onları vahid azərbaycançılıq ideologiyası ətrafında daha da sıx birləşdirdi. Azərbaycan gənclərinin vətənə sədaqət ruhunda tərbiyə edilməsi, Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətini təşkil edirdi. Gənclər, müharibələr meydanına çevrilən dünyada, Ulu Öndərin təşəbbüsləri ilə inkişaf etdi. [2]

Azərbaycan gəncliyi ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir və müstəqil Azərbaycanın inkişafına aktiv şəkildə töhfə verir. Gənclik, milli dövlətin möhkəmləndirilməsi və inkişafının əsas təminatıdır. Yeni gənclik, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi əhəmiyyətli bir rol oynadı. Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad edilməsində də əsas rolu oynadılar. Beynəlxalq səviyyəli idman yarışlarında aktiv iştirakları sayəsində ölkəmiz idman ölkəsi kimi tanınıb. Gənclər Fondu tərəfindən dəstəklənən innovativ fikirləri ilə öz potensiallarını daha geniş şəkildə göstərir. Gənclər, qanunvericilik və özünüidarəetmə orqanlarında daha geniş formada təmsil olunurlar. Kadr islahatlarında gənclərə üsünlük verilir. Gəncliyimiz,

Azərbaycanın inkişafında əsas təminatdır və onların rolu həmişə dövlətin gələcəyində müstəsna olacaq. [3]

İstifadə edilmiş ədəbiyyat

1. G.Məmmədova, Heydər Əliyev və Azərbaycan gəncliyi. (2023)
2. S.İsmayılov, Azərbaycan gəncliyi - elmli, müasir, döyüşkən. (2021) https://report.az/analitika/azerbaycan-gencliyi-elmli-muasir-doyusken/
3. «Heydər Əliyev Azərbaycanda Gənclər siyasətinin banisidir» mövzusunda elmi-praktik konfrans. (2023)

PERSPEKTİVLİ OPTİK LİFLİ RABİTƏ XƏTLƏRİ

[1,2]**Qabil Adıyev,** [1,3]**Elman İmanov,** [1,4]**Əfladin Sadıxov,** [1,5]**Qılman Mabudov**
[1]Heydər Əliyev adına Hərbi İnstitut
[2]adiyevqabil@gmail.com
[3]togrul.imanov55@gmail.com
[4]efladin.sadixov@ gmail.com
[5]qilmanmabudov1982@gmail.com

Giriş

Hazırda yeni materialların axtarışı və əldə edilməsi təsadüfi üsulla həyata keçirilir. Buna görə də səhvlərin faizini azaltmaq üçün yeni texnologiya və üsullara (məsələn, materialın optik strukturunun kompüterlə layihələşdirilməsi metodu) ehtiyac var. Radiotexniki vasitələrin qurulmasında zaman və informasiya kimi resurslar xüsusi əhəmiyyətə malikdir. Texnoloji prosesin və elmin inkişafı insanların informasiya emalını dayanmadan təkmilləşdirməsinə səbəb olur. Bu prosesdə ilk kompüterlərin ixtirası əsas rol oynamışdır. Həmin ixtira qısa müddətdə nəhəng verilənlər toplusunu emal etməyə imkan verdi. Bununla əlaqədar, təkcə informasiya emalında yox, həm də onun ötürülməsində zaman resurslarından səmərəli istifadə məsələsi meydana çıxdı. Optik lifli rabitə xətlərinin (OLRX) kəşf edilməsi ilə bu məsələ müvəffəqiyyətlə həll edilir [1].

Digər keçiricilərlə müqayisədə optik lifli kabellər yüksək buraxma qabiliyyətinə və minimal itkilərlə informasiyanın uzaq məsafələrə ötürmə xüsusiyyətinə malikdirlər. Optik lifli rabitə xətti informasiyanın optik dielektrik dalğaötürənlə ötürülməsini təmin edən rabitə xəttidir. Bu rabitə xətləri çox yüksək ötürmə sürətinə (40 Gbit/san və daha yüksək) eyni zamanda siqnalın verilməsi zamanı minimal itkilərlə xarakterizə olunur [3].

Optik lifli rabitə xətləri telekommunikasiyada və informasiya siqnallarının qlobal və lokal ötürmə şəbəkələrində, tibdə və təhlükəsizlik sistemlərində geniş istifadə olunur. Belə rabitə xətləri perespektivdə başqa tip kecircilər sıxışdırıb çıxarmağa qadirdir [6]. Adi kabel xətlərin tez-tez quraşdırılması çoxlu vəsait tələb etdiyinə görə, uzunömürlü və informasiyanın böyük ötürmə sürətinə malik optik lifli rabitə xətlərin çəkilməsi daha səmərəlidir.

1. Optik siqnalların xüsusiyyətləri

Optik lifli rabirə xəttinin əsasını optik kabel təşkil edir . Bu tip kabellər xüsusi örtüklü çox sayda optik liflərdən ibarətdir. Optik siqnal optik diapazonda olduğu üçün tezliyin artması ilə kvant enerjisi (fotonun) qəbul edilən siqnalın enerjisi ilə müqayisə oluna bilər [2]. Beləliklə, siqnal sabit intensivlikli foton axını kimi təsəvvür oluna bilər:

$$J = \frac{P}{nf}$$

burada P – şüalanmanın gücüdür.

Şüalanma mənbəyinin P gücü siqnalda foton sayının orta qiymətini təyin edir: $n = JT$.

Fotonların sayı orta hesabla təsadüfidir və Puasson qanunu ilə paylanıb:

$$p(n) = \frac{m^n}{n!} e^{-m}.$$

Foton selinin (0,T) intervalında reallaşmasına δ funksiyanın zaman ardıcıllığı kimi baxmaq olar:

$$\nu(t) = \sum_{j=1}^{n} \delta(t - t_j).$$

Bildiyimiz kimi, mis naqillərdə keçiricilik elektronların köməyi ilə həyata keçirilir [3]. Elektromaqnit spektrində optik şüalanmanın dalğa uzunluğu 100 nm -dən 1mkm -ə qədər sahəni əhatə edir. Eyni zamanda OLRX-də əsasən iki diapazon: görünən (380÷760 nm) və infraqırmızı (760÷1600 nm) diapazonlardan istifdə edilir. İşığın materialda yayılma sürətini ölçmək üçün sınma əmsalından istifadə edilir. İşıq vakuumda, məsələn kosmik fəzada ən böyük sürətə malikdir. Mühitin sınma əmsalı işığın vakuumdakı sürətini, onun həmin mühitdəki sürətinə bölməklə hesablanır. Beləliklə, təyin edilməsinə görə vakuumun sınma əmsalı vahiddir.

Telekommunikasiya üçün istifadə edilən tipik birmodlu lif, 1500 nm-də 1,444 sınma əmsalına malik saf silisium-dioksidlə örtülür və özəyi təqribən 1,4475 əmsalı olan silisium-dioksidlə aşqarlanır [5]. Sınma əmsalı nə qədər böyükdürsə, işıq həmin mühitdə bir o qədər zəif yayılır. Bu məlumatdan alınan sadə bir qaydaya görə, rabitə vasitələrində istifadə olunan optik liflərlə ötürülən siqnal saniyədə təqribən 200000 kilometr sürəti ilə hərəkət edəcək. Beləliklə, Sidney və Nyu York arasındakı 16000 kilometrlik məsafədən lif vasitəsilə ötürülən telefon zəngi göstərir ki, zəng edənlə dinləyən arasında minimum 80 millisaniyəlik (təqribən saniyənin 1/12-i qədər) gecikmə yaranır.

2. Optik liflərin konstruksiyası

Optik kabelin konstruksiya hissələrinə aiddir: özək, optik örtük və qoruyucu qat. Optik lifin quruluşu şək. 1-də göstərilmişdir.



Şək. 1. Optik lifin quruluşu

Konstruktiv olaraq optik lifli kabeli şək. 2-dəki kimi təsvir etmək olar [8]. Onun konstruksiyası aşağıdakı elementlərdən ibarətdir:

Şək. 2. Optik kabelin konstruksiyası:1 - daşıyıcı içlik; 2 - optik lif; 3 - boruşəkilli modullar; 4 - hidrofob örtük; 5 - dielektrik material qatı; 6 - polimer mateialdan olan aralıq örtük; 7 - zireh qatı; 8 - xarici örtük

Daşıyıcı içlik – adətən metaldan və ya şüşə plastikdən hazırlanır və kabeli dartımlı saxlamaq üçün istifadə olunur.

Optik lif – özəyin əsas elementidir və birbaşa işıq siqnalının ötürülməsi üçün nəzərdə tutulmuşdur. Adətən bir kabeldə 2-dən 250-yə qədər optik lif olur. Lifin səthi lakla örtülür ki, bu da möhkəmliyi kifayət qədər təmin edir və işığın lifdən kənara yayılmasının qarşısını alır.

Boruşəkilli modullar – liflərin mexaniki zədələnmədən qorunması üçün nəzərdə tutulmuşdur. Bir kabelin daxilində bir və ya bir neçə belə modul ola bilər. Onlar xüsusi hidrofob doldurucularla doldurulur. Kabeldə liflərin sayı artdıqca, bu modulların sayı da artır.

Hidrofob örtük – bir və ya bir neçə müdafiə qatı şəklində bütün optik lif dəstəsi üçün təyin olunur. Sürtünməni azaltmaq və rütubətin qarşısını almaq üçün nəzərdə tutulmuşdur.

Dielektrik material qatı – polietilen materialdan hazırlanır və optik lifi rütubətdən mühafizə edir.

Polimer materialdan olan aralıq örtük – rütubətdən və sürtünmədən mühafizəni təmin edir .

Zireh qatı – mexaniki möhkəmliyi təmin edir. Onun əsas vəzifəsi kabeli mexaniki zədələrdən qorumaqdır.

Xarici örtük – xarici faktorların dağıdıcı təsirlərindən kabeli qoruyan əsas elementdir. Xarici örtük polietilen və ya digər hermetik materiallardan hazırlanır.

Optik liflər müxtəlif materiallardan hazırlana bilər [4]. Bunlara kvars şüşəsini, plastik və polimer materialları misal göstərə bilərik. Əsas şərt lifin daxili divarının mümkün qədər hamar səthə malik olmasıdır. Ən geniş istifadə edilən lif, kvars şüşə əsasında olan optik liflərdir. Belə ki, bu material çox da baha başa gəlmir və qiyməti ucuzdur. Süanın yayılan modlarının sayına görə optik liflər birmodlu və çoxmodlu olur. Belə optik kabellərin en kəsiyi şək. 3-də göstərilmişdir.



Şək. 3. Birmodlu və çoxmodlu optik kabelin en kəsiyi

Bəzi xüsusi təyinatlı optik liflər qeyri-silindrik özəklə və ya örtük təbəqəsi ilə, adətən ellipsşəkilli və ya düzbucaqlı kəsiklə qurulur. Sensorlarda polyarlaşmanı təmin edən və kanalda küy siqnallarını zəiflədən optik lifləri bunlara misal göstərmək olar.

Mod – müəyyən xarakterik xüsusiyyətlərə malik elektromaqnit dalğaların bir növüdür. Lifdə yayılan modların sayı Maksvell tənlikləri sisteminin həllindən tapılır.

Birmodlu optik lif ancaq bir optik kanal siqnalını ötürür, çoxmodlu lifdə isə bu bir neçə ötürmə kanalı ola bilər. Birmodlu optik lifin özəyinin diametri 9 mkm, çoxmodlu lifin özəyinin diametri isə 50 və ya 62,5 mkm olur (şək. 4).



Şək. 4. Birmodlu və çoxmodlu optik liflərin şüaötürənləri

Çoxmodlu və birmodlu optik liflərin hər birinin öz üstünlükləri və çatışmazlıqları var [9]. Məsələn birmodlu optik lif çox kiçik sönmə əmsalına malikdir. Bu da, informasiyanın regenerasiyasız uzar məsafələrə (300 km və daha çox) ötürməsinə imkan verir. Müqayisə üçün çoxmodlu optik lif informasiyanı 10 km məsafəyə qədər ötürməyə imkan verir. Amma çoxmodlu optik lifin aktiv avadanlığı daha ucuzdur, çünki özəyin böyük diametri siqnal mənbəyinin şüalandırılmasına olan tələbi asanlaşdırır. Beləliklə, uzaq məsafələr üçün birmodlu, yaxın məsafələr üçün isə çoxmodlu optik liflər istifadə etmək daha məqsədəuyğundur.

Optik lifli kabellərin əsas ötürmə parametrlərinə aiddir: işçi dalğa uzunluğu; sönmə əmsalı; optik şüa spektrinin eni; optik şüa mənbəyinin həyəcanlanma cərəyanı; çoxmodlu optik liflər genişzolaqlı indekslə, birmodlu optik liflər isə dispersiya əmsalı ilə qiymətləndirilir.

İşçi dalğa uzunluğu kvars şüşənin şəffaflıq pəncərələrindən biri (850, 1310, 1550 nm) ilə müəyyən edilir. Optik lifli rabitə xətləri bir sıra üstünlüklərə malikdir: informasiya ötürməsinin yüksək sürəti (40 Gbit/san və daha çox); siqnalın ötürülməsi zamanı itkilərin az olması; OLRX-də yüksək maneədənmüdafiəlilik; yüksək etibarlılıq uzunmüddətli iş qabiliyyəti; siqnalların uzaq məsafələrə regenerasiyasız ötürülməsi imkanı. Başqa bir üstün cəhət, optik lifli kabellər elektromaqnit və müxtəlif tezlikli maneələrə, həm də gərginlik sıçrayışlarına məruz qalmırlar. Optik lif elektrik maneələrinə qarşı davamlıdır, elektrik cərəyanını keçirmir [9]. Optik lifli rabitə xətlərində oksidləşməyə davamlı materiallar istifadə edildiyinə görə, onlar yüksək etibarlılıq və uzunömürlülüklə xarakterizə olunurlar.

Elektrik kabeli ilə müqayisədə optik kabelə qoşulma daha çətindir və bu zaman xüsusi avadanlıq tələb olunur. Digər çatışmazlıqlara aktiv avadanlıqların və lifin qaynağının baha başa gəlməsi ilə bağlıdır.

3. Perspektivli optik liflər

Optik lifin materialına qoyulan mühafizə xarakterli üç tələb təmin edilməlidir: bufer effekti, amortizator effekti və suyu bloklayan effekt. Optik kabelin konstruksiyası uzununa istiqamətdə yüksək möhkəmliyi təmin etməlidir. Buna görə kabellərə möhkəmləndirici elementlər daxil edilir.

Möhkəmləndirici elementlə olan materiallar yüksək dartılma gücünə və yüksək elastik modula malik olmalıdır. Bundan əlavə, möhkəmləndirici elementlə olan materialların seçimi kabelin tələb olunan əyilmə radiusundan və istehsal prosesi zamanı kabelin məruz qala biləcəyi yüklərin mümkün səviyyəsindən asılıdır. Yüksək elastikliyə nail olmaq üçün, tam möhkəmləndirici elementlərdən deyil, çoxlu sayda ayrı-ayrı komponentdən ibarət olan elementlərdən istifadə etmək lazımdır. Bu tələbləri polad məftillər, aramid saplar və şüşəplastiklər təmin edir.

Şüşəplastik elementlər möhkəmləndirilmiş materialdır. Onlarda armatur texniki şüşə lif, matris isə epoksid qarışığı və ya hər hansı başqa materiallardır. Yaxşı mexaniki möhkəmliklə yanaşı onun dielektrik xassələri, optik kabellərin istehsalı üçün son dərəcə əlverişli olur. Şüşəplastiklər toksik deyil, partlayıcı deyil və emal zamanı utilizasiya tələb edən zəhərli tullantıları olmur.

Perspektivli liflərdən biri *fotonik kristal liflərdir*. Bu liflərin xassələri fotonik kristalların xassələriilə malikdir və fotonik zolaq boşluqların əmələ gəlməsinə şərait yaradır. Bu da, optik liflərin xüsusiyyətlərinin idarə edilməsi üçün yeni imkanlar yaradır. Onun köməyi ilə dalğaötürücü lifin dispersiyasına nəzarət etmək, sıfır dispersiya dalğa uzunluğunu görünən spektrə çevirmək, həmçinin böyük effektiv özək kəsiyi ilə olan liflər də daxil olmaqla "sonsuz" birmodlu liflərin effektiv sınma əmsalını idarə etmək mümkün olur.

Daha bir perspektivli optik lif *perovskit materialından* hazırlanmış (CaT_iO_3 – kalsium titan oksidindən ibarət mineraldır) və özəyinin diametri cəmi 50 mkm olan materialdır. Bu liflər nisbətən elastikliyi ilə seçilir və onları 3,5 mm radiusa qədər əymək mümkündür. Digər polikristal liflərlə müqaisədə parametrləri sabit və uzunömürlüdür.

Perovskitlərin əsas xüsusiyyətləri, onların əlçatan olması və istehsalın asanlığıdır. Həmçinin, bu materiallar sərbəst elektronun və eksiton kvazizərrəciklərini yaradan deşiyin dayanıqlı əlaqə vəziyyəti ilə xarakterizə olunur. Belə bir eksitonu fotonlu-kristalik lövhədə işıqla əlaqələndirməklə, alimlər optik qeyri-xəttiliyin rekord qiymətlərini əldə etirlər. Onlardan, OLRX-lərdə və optik kompüterlərin yaradılmasında optik siqnalları idarə etmək üçün istifadə edilir.

"Kevlar" lifi bu günə qədər kəşf edilən ən mühüm süni üzvi liflərdən biridir. Kevlar lifləri poliparafenilen tereftalamiddən alınan uzun molekulyar zəncirlərdən ibarətdir. Zəncirlər, lif xassələrinin unikal birləşməsini verən güclü zəncirlərarası əlaqələrlə yüksək istiqamətlənməyə malikdir (şək. 5).



Şək. 5. Kevlar lifin quruluşu və xarici görünüşü

Kevlar, gərginliyin çıxarılması və optik lifli kabellərin əyilməsindən qorunmasını təmin edən periferik və mərkəzi güc elementləri üçün material kimi, eləcə də hava və uzaq məsafəli xüsusi rabitə kabellərinin möhkəmləndirici elementləri üçün geniş istifadə olunur.

Paraamid lifindən hazırlanmış saplar, geniş temperatur diapazonunda aşağı uzanma dərəcəsinə görə, həmçinin minimal çəki və həcmdə əla fiziki və dielektrik xassələrə malik olduğuna görə geniş istifadə olunur. Normal emal və istifadə şərtlərində, Kevlar lif məhsulları toksik deyil və insan sağlamlığı və ətraf mühit üçün yaratdığı risk minimaldır.

Optik kabellərin mühafizə təbəqələrinə geniş tələblər qoyulur. Onlar kifayət qədər sərtliyi, zərbəyə və uzunmüddətli yüklənməyə qarşı mexaniki möhkəmliyi, nəmə (bəzən digər mayelərə) qarşı yaxşı maneə xassələri və eyni zamanda, avadanlığın kifayət qədər məhsuldarlığını təmin etməlidirlər. Son zamanlar bu siyahıya yanmanın yayılmaması və məlumatın gizli ötürmə qabiliyyəti əlavə olunur. Əksər hallarda polietilen istifadə olunur, bununla yanaşı daxili kabellər üçün polivinilxloridli plastikat və poliuretan istifadə olunur. Polivinilxloridli plastikat kompozisiyasının yanma qabiliyyətinin əsas xüsusiyyətləri oksigen indeksi və xüsusi yanma istiliyidir.

Polad tərkibli optik kabel təbəqələrinin vacib funksiyalarından biri gəmiricilərdən qorunmaqdır. Bunun üçün poliamiddən hazırlanmış xarici təbəqə istifadə olunur. 100 % mühafizəni isə polad möhkəmləndirmə təmin edir, amma bu kabelə sərtlik verir. Yeraltı tikililərdə quraşdırılmış optik kabellərə yanğının yayılmasının qarşısını almaq tələbi olunur. Bununla yanaşı, kabel örtüyü yanğın zamanı tüstü və zəhərli maddələrin minimum şəkildə buraxılmasını təmin etməlidir. Bu problemlər yüksək sıxlıqlı polietileni metal hidroksidlərlə doldurmaqla həll edilə bilər.

Optik kabelləri elektrik dirəklərindən asarkən, kabel örtüyünün müqaviməti məsələsi yaranır. Bu, həmçinin təbəqənin elektrik xassələrini dəyişdirən polietilenə xüsusi doldurucuların daxil edilməsi ilə həll edilir. Bütün hallarda optik kabelin istehsal mərhələsində lazım olan materiallar diqqətlə yoxlanılmalıdır.

Optik liflərin perspektiv inkişafında informasiyanın ötürmə məsafəsi mühüm rol oynayır [7]. Hazırda yüksək keyfiyyətli OLRX informasiyanın 400 km-ə qədər ötürməsini təmin edir. Yaxın gələcəkdə 1000 km-ə qədər rabitəni təmin edən sistemlərin yaradılması mümkün olacaq. Beləliklə, OLRX-ləri informasiya ötürücü xətlərin ən yaxşı variantı sayıla bilər.

Nəticə

Elmi məqalədə optik lifli rabitə xətlərinin iş prisipi analiz edilmiş, onun mənfi və müsbət cəhətləri göstərilmişdir. Bundan əlavə optik liflərin konstrukriv qurulma xüsusiyyətləri, birmodlu və çoxmodlu şüaötürənlər haqqında geniş məlumat verilmişdir. Göründüyü kimi, ənənəvi rabitə xətləri

ilə müqayisədə optik liflərin keyfiyyət göstəriciləri, buraxma qabiliyyəti, uzunömürlülüyü, effektivliyi və digər parametrləri yüksəkdir.

Daha çox tanınan və istismarda olan şüşə plasiklərdən fərqli olaraq, polimer materiallardan hazırlanmış optik liflərin müxtəlif növləri analiz olunmuş və öyrənilmişdir. Bunlara fotonik kristal lifləri, perovskit materialdan hazırlanmış lifləri və kevlar lifini misal göstərmək olar. Bu liflərin köməyi ilə optik xassələri idarə etmək, dispersiyaya nəzarət etmək, elastikliyi artırmaq, uzunömürlülüyü təmin etmək, dalğanın istiqamətlənməsini təmin etmək mümkündür.

Polimer liflərdən hazırlanmış kabellər temperatura davamlıdır, dielektrik xassələri yaxşıdır və ən əsası odur ki, ətraf mühiti çirkləndirmir. Çünki, şüşə plastik liflərdən fərqli olaraq, onların istehsalı üçün lazım olan xammal əlçatandır və utilizasiya problemi yoxdur. Xüsusən, COP29 konfransının Azərbaycanda keçirilməsi ərəfəsində OLRX-lərin polimer materiallar əsasında hazırlanması təklifi mövzunu daha da aktuallaşdırır.

İstifadə edilmiş ədəbiyyat

1. Dəvrişova, İ.N. Rabitə sistemlərinin qida qurğuları. İ.N.Dəvrişova I və II cild təhsil NPM. -2008.

2. İmamverdiyev, Q.M. Elektron və optoelektron cihazlar. / İmamverdiyev Q.M., İ.N. Dəvrişova, Bakı: AzTU.- 2001.

3. İbrahimov, B.Q. Elektrik rabitə nəzəriyyəsi. B.Q. İbrahimov Bakı: Elm, -2009.

4. Иоргачев, Д.В. Волоконно-оптические кабели и линии связи, / Д.В. Иоргачев, О.В. Бондаренко Москва - 2020

5. Mansurov, T.M. Elektrik və optik rabitə xətləri. / T.M.Mansurov, C.Ə.Əliyev, Q.B. Bəybalayev Bakı: Elm nəşriyyatı, -2006.

6. Новиков, О. С. Молодой ученый. — 2020. — № 23 (313).

7. Родина, О.В. Волоконно-оптические линии связи. О.В.Родина. Практическое руководство. -М.:2012. — 400с.

8. Сизмин, Д.В. Нелинейная оптика. Д.В. Сизмин Учебно методическое пособие. Сар ФТИ-2015.

9. Шарварко, В.Г. Волоконно-оптические линии связи. В.Г. Шарварко, Москва -2020.

CONTRIBUTIONS OF HEYDAR ALIYEV TO THE DEVELOPMENT OF ENTREPRENEURSHIP IN AZERBAIJAN

Ayshan Valibayli
Baku State University
velibeyli.aysen.va@gmail.com

Heydar Aliyev played an important role in the economic development of Azerbaijan and was the author of national economic development strategies.

He paid special attention to the economic development of the country since 1991, when Azerbaijan gained its independence. He led the formation of the national economic development strategy and strategic steps were taken in various fields within this strategic framework. During Heydar Aliyev's time, Azerbaijan's oil and gas industry, infrastructure, economic diversification and social areas have seen significant development. He drew up strategic plans to increase the country's economic potential and ensured their implementation.

Working in different positions, Heydar Aliyev took quick and immediate measures to strengthen the economic potential of Azerbaijan and supported the implementation of strategies in various fields to ensure economic stability.

Heydar Aliyev's importance in seriously developing the economy of Azerbaijan was great. He led the formation of a stable and progressive economic policy in the country, focused on the

development of the energy industry and an independent foreign economic policy. He also cooperated in modernization of Azerbaijan's oil and gas industry and strengthening of international economic cooperation. Thanks to this, Azerbaijan's economy has gained a recognized position in the region and the world.

He made major changes in the country and made great achievements in bringing Azerbaijan out of the post-Soviet economy and into an independent and developed country. He paid special attention to the effective use of energy resources, the strengthening of international economic relations and the development of the country's infrastructure. These efforts have led to the rapid development of Azerbaijan's economy and the positive image of the country in the region.

It is clear to everyone that entrepreneurship is an important part of the national economy. This means that individuals and businesses engage in economic activities, produce goods and services, create employment and contribute to economic growth. Entrepreneurs can also contribute to the strengthening and diversification of the local economy.

Heydar Aliyev played an important role with his contributions to the development of entrepreneurship in Azerbaijan. As the president of the independent Republic of Azerbaijan, he took many steps to develop the country's economy and business environment. It has promoted entrepreneurship through measures such as development strategies, tax policy changes, and support projects. These steps contributed to the expansion of Azerbaijan's economy and the formation of the entrepreneurial environment.

Heydar Aliyev signed several decrees on the development of entrepreneurship in Azerbaijan, but the most famous is the decree "On the development of entrepreneurship in Azerbaijan" signed in 1997. This decree envisages certain financial and legislative measures to promote the development of entrepreneurship in the country.

Heydar Aliyev's decree dated 2002 "On State Support for the Development of Entrepreneurship" regarding the development of entrepreneurship in Azerbaijan was signed. The purpose of this decree was to provide state support for the development of entrepreneurship in Azerbaijan.

Heydar Aliyev has taken many steps for the development of entrepreneurship in Azerbaijan. First, during his time, efforts were made to stabilize the economy and develop independent entrepreneurship. Therefore, a number of legislative and economic measures have been adopted in order to support independent entrepreneurship and ensure the development of their own entrepreneurs.

One of the most important steps was to change the legislation of the economy and the financial system in Azerbaijan in accordance with independent entrepreneurship. During the Heydar Aliyev era, better financial opportunities were created for entrepreneurs, tax support was provided and the infrastructure necessary for the proper functioning of the economy was developed.

Also, Heydar Aliyev worked for the expansion of international economic relations and attraction of foreign investments in Azerbaijan. This created new markets and opportunities for entrepreneurs and allowed diversification of the economy.

In general, during the Heydar Aliyev era, a number of strategic steps were taken for the development of entrepreneurship in Azerbaijan, such as supporting independent entrepreneurs, ensuring the stability of the economy, and strengthening international relations.

Heydar Aliyev cooperated with many countries for the development of entrepreneurship in Azerbaijan. Turkey, Russia, USA, Iran, China and many European countries are among them. During the Heydar Aliyev era, Azerbaijan's international economic relations expanded and a number of entrepreneurial initiatives and projects were implemented. Cooperation with these countries has been in various formats in trade, investment and other fields.

As a result of the attention and care of the great leader, a successful policy was implemented in 1993-2003 in the direction of the development of entrepreneurship, and as a result of this policy, the share of the private sector in the country's economy increased significantly [1].

During the Heydar Aliyev era, several innovations were used for the development of entrepreneurship in Azerbaijan:

Entrepreneurship Support Programs: Heydar Aliyev has created various entrepreneurial programs and financial opportunities for entrepreneurial activity in Azerbaijan. These programs work to provide entrepreneurs with financial assistance, opportunities and entrepreneurial products.

Investment Generation: Heydar Aliyev has taken various initiatives to attract foreign and domestic investments to support the economic development of Azerbaijan. These investments have enabled the creation of new projects and enterprises in the field of entrepreneurship.

Culture and Education Incubators: During the Heydar Aliyev era, incubators and centers were created in the field of culture and education. These centers require the development of creative products and new entrepreneurial ventures to provide entrepreneurship training, advice and projects.

Technological Development Initiatives: During the Heydar Aliyev era, changes and innovations were made in the field of technology in Azerbaijan. This included the creation of a technological infrastructure that would support the development of entrepreneurship and support for technological activity.

These innovations were used to support the development of entrepreneurship in Azerbaijan during the Heydar Aliyev era.

The favorable strategy laid by Heydar Aliyev regarding the development of entrepreneurship in Azerbaijan is successfully continued by Mr. President Ilham Aliyev today.

The steps taken in the direction of the development of entrepreneurship under the leadership of President Ilham Aliyev are a systematic and consistent concept of activity aimed at the sustainable development of the country [3].

National leader Heydar Aliyev has done invaluable work in the direction of the formation of entrepreneurship in Azerbaijan. Currently, this field is developing further in line with global challenges under the leadership of the head of state, Mr. Ilham Aliyev. As a result of the reforms, the economic power of our country is getting stronger day by day, and its reputation as a reliable partner is increasing at the international level. Azerbaijan, which has fully restored its territorial integrity with the Victory won in the Patriotic War, has ample opportunities for business revival, especially in Karabakh and Eastern Zangazur regions. Entrepreneurs take advantage of state support mechanisms, concessions and incentives.

A new stage in the development of the private sector has begun as a result of the large-scale work carried out under the leadership of president Ilham Aliyev. Public private partnership is expanding, and entrepreneurship is strengthening in regions as well as in big cities. Azerbaijani entrepreneurs also implement a number of projects in foreign markets. State support measures, the adoption of new laws based on best practices increase the contribution of the private sector to economic development. Today, the implementation of innovative and priority projects within the framework of public-private partnership increases efficiency in the economy [7].

Entrepreneurial ecosystem for the development of innovation and startup ecosystem internationalization is important. For this, government businesses and universities can help you connect with partners in different countries. Business trade missions with enterprises, universities and government agencies organization contributes to the goal of internationalization.

Governments both in the overall economy of a country or region and entrepreneurship plays a central role in its ecosystem. Government policy, tax, laws and to all citizens, including entrepreneurs, through government programs has an effect [2]

Currently, several innovations have been observed in the development of entrepreneurship in Azerbaijan in recent years. These include expansion of high-speed internet infrastructure, support for technology startups, funding for the development of universities and research centers, use of social media and other online platforms to increase business opportunities for businessmen, etc. Some steps are recorded. These innovations encourage innovation and create new and different business opportunities in the country.

Several key factors should be taken into account for the development of entrepreneurship in Azerbaijan. Those factors can be grouped as follows:

Improving the investment climate: Improving the level of investment, opening the way for investment and business activity allows for expansion.

Technology and innovation: Investing in innovations and technologies to do has a positive effect for entrepreneurs. Innovative solutions and working with technology increases efficiency and increases competition.

Education and training: Education for entrepreneurs and business people increasing opportunities, providing professional training, workforce improves its quality and helps develop innovative ideas.

Improving legislative and governance standards: Ensuring proper legislation and labor law for entrepreneurs creates mutual trust and motivation for the development of entrepreneurship.

Supporting business and trade organizations: Business organizations, trade strengthening of chambers and institutions supporting entrepreneurship, protects the interests of entrepreneurs and helps their development.

Working together, these factors ensure the development of entrepreneurship and help the expansion of Azerbaijan's economy.



Graph 1. Distribution of value added created by MSM entrepreneurship subjects by types of economic activity Source: [6]

According to the Decree of the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev dated April 21, 2016, April 25 has been celebrated as "Entrepreneurs' Day" in our country for 7 years [4].

In recent times, more than 2 billion manat variable loans have been given by the state to entrepreneurs with the National Administration of Entrepreneurship Support. These loans, at the same time, implementation projects based on the funds invested by entrepreneurs mean that we are increasing our non-oil exports. Because if it wasn't for this, he implemented many projects with credit, and today there would be no question of domestic demand not only from the territory of our potential export, but also from within. State policy, political support for entrepreneurship, moral support, financial support and serious reforms for the development of entrepreneurship and the works aimed at them are one of the main factors that stimulate the development of the non-oil sector in Azerbaijan today [5].

According to the results of 2022, the value added created by MSM entrepreneurship subjects increased by 23,0 percent in nominal terms compared to the previous year and amounted to 17,2 billion mantas, which makes 13,9 percent of the value added created on the country economy. In the non-oil and gas sector, this indicator was 16,8 billion manats and made 27,2 percent of the value added created in the non-oil and gas sector of the country 30,0 percent of the value added accounted for entrepreneurs acting in trade, 12,6 percent industry, 11,4 percent construction, 2,9 percent agriculture and the rest for service sectors [6].

References

1. Azərbaycan Respublikası Prezidentinin Işlər idarəsinin prezident kitabxanası : Heydər Əliyev- Elektron sənədlər toplusu
2. İnnovasiya və Sahibkarlıq: Startap ekosistemi Bakı 2023
3. https://www.yeniazerbaycan.com/Musahibe_e9426_az.html
4. https://www.taxes.gov.az/az/post/1884
5. https://azertag.az/xeber/prezident_ilham_eliyev_sahibkarligin_inkisafi_bizim_uchun_prioritet_meselelerden_biridir-1051918
6. https://www.stat.gov.az/source/entrepreneurship/
7. http://ask.org.az/en/2024/01/12/a-conference-was-held-on-public-entrepreneur-partnership-the-basis-of-a-sustainable-economy/

AZƏRBAYCANDA DÖVLƏT İDARƏÇİLİYİNİN HEYDƏR ƏLİYEV MODELİ: TARİXİ REALLIQLAR VƏ MÜASİR BAXIŞ MÜSTƏVİSİNDƏ

Naibə Sabir qızı Şəmşiyeva
Heydər Əliyev adına Hərbi İnstitut
naibashamshiyeva04@mail.ru

Giriş

Hər bir cəmiyyətin inkişafı bilavasitə onun optimal idarə olunmasından, çevik idarəetmə sisteminin və effektiv mexanizmlərin formalaşdırılmasından, onların məqsədyönlü şəkildə tətbiqindən asılıdır. Burada söhbət bütövlükdə cəmiyyətin sosial-siyasi siteminin təşkil edilməsini öz üzərinə götürmüş səmərəli dövlət idarəçiliyindən gedir. Dövlət idarəçiliyi özlüyündə inzibati-dövlət aparatının köməyi ilə həyata keçirilən siyasi və inzibati qərarların qəbulu sistemini əks etdirir.

Mövcud dünya təcrübəsi belə bir həqiqəti əyani surətdə təsdiq edir ki, aralarındakı fərqdən asılı olmayaraq, bütün sivil dövlətlərdə cəmiyyətin hər bir fərdinin layiqli həyat səviyyəsinin təminatı düzgün qurulmuş və rasional dövlət idarəçiliyindən keçir. Bu zaman dövlət idarəçiliyi konkret rəsmi orqanlarla əhatə olunmayaraq, daha geniş spektri əhatə edir. Yəni burada qanunlar və

digər normativ hüquqi aktlar əsasında icraedici, qanunverici, məhkəmə hakimiyyəti ilə yanaşı, yerli özünüidarəetmə orqanları, ictimai və digər qeyri-hökumət təşkilatlarının fəaliyyəti də nəzərdə tutulur. Belə geniş spektrdə səmərəli dövlət idarəçiliyinə malik olmayan ölkələrdə sosial-iqtisadi sferadan tutmuş, demokratik dəyərlərin, plüralizmin bərqərar olaraq inkişaf etməsinə kimi kifayət qədər irimiqyaslı sahədə hər hansı sürətli tərəqqidən söhbət gedə bilməz.

Sözügedən səmərəli dövlət idarəçiliyi zamanı diqqət yetirilməsi mühüm olan məqamlardan biri də konkret götürülmüş ölkənin dövlətçilik tarixinin ənənələri, milli-mənəvi dəyərlərinin nəzərə alınması, onların müasir tələblərlə uğurlu vəhdətinin tapılmasıdır. Bu isə o deməkdir ki, bəşəri idealları, qabaqcıl dünya təcrübəsini və tarixi ənənələri özündə ehtiva edən dövlət idarəçiliyi olduqca mürəkkəb bir prosesdir və bu məsələ yeni tendensiyalara söykənən siyasi sitemə keçid edən dövlətlər üçün xüsusi akuallıq kəsb edir.

Əsas hissə

Ötən əsrin sonlarında keçmiş SSRİ-nin dağılması ilə öz müstəqilliyinə yenidən qovuşan Azərbaycan da çağdaş dəyərlərə söykənən dövlət idarəçiliyini reallaşdırarkən sistemin özündən qaynaqlanan bir sıra çətinliklərlə üzləşməli oldu. Belə ki, o dövrdə hakimiyyətdə olan səriştəsiz liderlərin yürütdükləri yanlış idarəetmə siyasəti dövlət idarəçiliyinə də zərərli təsir göstərmiş, onu böhrana həddinə gətirmişdi. Belə bir vəziyyət ümumilikdə ölkəni xaosa sürükləməkdə, Azərbaycanın gələcəyini böyük bir sual altına almaqda idi. Başqa sözlə desək, milli dövlətçiliyimiz məhvolma təhlükəsi ilə üz-üzə qalmışdı.

Bununla barışmaq niyyətində olmayan Azərbaycan xalqının təkidli tələb və israrından sonra yenidən hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev Azərbaycanı həqiqi dövlət müstəqilliyinə qovuşdurmaqla bərabər, yeni formasiyada suveren ölkəyə xas dövlət idarəçiliyinin nəzəriyyə və təcrübəsinə, dövlət quruculuğuna, idarəçilik sənətinə bütün dövrlər üçün böyük əhəmiyyətə malik yeniliklər də bəxş etdi. Məhz ulu öndərin titanik əməyinin nəticəsi olaraq Azərbaycanda həm də səmərəli, demokratik idarəçiliyin əsası qoyuldu, dövlət orqanlarının fəaliyyətinin çevikliyi və şəffaflığı gücləndirildi, ölkə vətəndaşlarının qayğı və ehtiyaclarına daha diqqətlə yanaşıldı, idarəçilikdə məsuliyyət prinsipi ön plana çıxdı. Bütün bunların məntiqi nəticəsi olaraq insanların dövlət idarəetmə orqanlarına inamı, hakimiyyət strukturlarına etimadı bərpa olundu.

Çoxşaxəli fəaliyyəti və şəxsiyyətilə Azərbaycan tarixinin ən parlaq səhifələrinə adını yazdırmağı, özündən söz etdirməyi bacaran Ulu öndər Heydər Əliyev ölkəmizə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra qısa bir zaman kəsimində - cəmi 10 il ərzində dərin elmi biliklərə və zəngin intellektual potensiala əsaslanan mükəmməl bir dövlətçilik konsepsiyası yaradaraq, dövlət idarəçiliyi sahəsində mütərəqqi bir təcrübənin təməlini qoymuşdur. Həmin zaman kəsiyi Azərbaycanın siyasi tarixində yeni bir era olmaqla yanaşı, xalqın həyat və taleyi ilə bağlı bir çox məsələlərdə yeni ideoloji konseptual yanaşmaların əsasının qoyulduğu dövr kimi də dəyərləndirilə bilər.

Hər cür mübaliğədənkənar onu demək olar ki, Azərbaycanda Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ilə sözün əsl mənasında müstəqillik tariximizin yüksəliş dövrü başlandı. Müstəqil dövlətimizin Prezidenti seçildikdən sonra ulu öndər ölkənin suverenliyinin qorunmasını, möhkəmləndirilməsini, inkişaf etdirilməsini prioritet vəzifə olaraq qarşıya qoyaraq deyirdi: "Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəni müharibə şəraitindən çıxarmaq, vətəndaşların rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq - bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır".

Öz xalqını və dövlətini canı qədər sevən bu dahi şəxsiyyətin dövlətçilik sahəsində tətbiq etdiyi konseptual yanaşamanın və dövlətçilik ideologiyasının əsas qayəsini müstəqillik yollarında ilk kövrək addımlarını atan gənc dövlətimizi keçmişin inzibati amirlik buxovlarından azad edərək, mütərəqqi bəşəri ənənələr və milli-mənəvi dəyərlər əsasında yenidən qurmaq və inkişaf etdirmək idi.

Digər tərəfdən Ümummilli Liderin müstəqil dövlətçilik konsepsiyasının əsasını ölkə daxilində, regionda və beynəlxalq aləmdə cərəyan edən proseslərin mahiyyətinin, məqsədlərinin və

arxasında dayanan qüvvələrin müəyyənləşdirilməsi, dəyərləndirilməsi və situasiyaya uyğun fəaliyyət proqramının hazırlanması təşkil edirdi.

Heydər Əliyevin böyük müdriklik və uzaqgörənliklə ərsəyə gətirdiyi azərbaycançılıq ideologiyası get-gedə xalqı, cəmiyyəti öz dövləti ətrafında konsalidasiya edən güclü və sağlam bir ideyaya çevrilirdi. Dövrün, zamanın ən çətin və mürəkkəb sınaqlarından dəyanətlə çıxan bu ideologiya üstündən illər keçdikcə daha da möhkəmlənərək əbədilik qazanmağı bacardı.

Bu dahi şəxsiyyətin dövlət idarəçiliyi modelində əsas yerlərdən birini tutan güclü dövlət anlayışı mükəmməl mərkəzi və yerli idarəetmə mexanizmi, sabit ictimai-siyasi sistemi, ideal normativ hüquqi bazası və işlək qanunları, ədalətli cəmiyyəti olan, xalqın mənafeyini hər şeydən üstün tutan, sarsılmaz, dayanıqlı milli birliyə malik bir sistemin mövcudluğunu tələb edirdi.

Heydər Əliyevin idarəçiliyi dövründə bir çox məsələlərdə yeni ideoloji konseptual modellərin yaradılması ilə gələcəyə hədəflənən strateji xətdə yerinə yetirilməli olan əsas missiyalardan biri də tənəzzülə uğramış iqtisadiyyatın tezliklə dirçəldilməsi, Azərbaycanın təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və mədəni potensialından xalqın maksimum dərəcədə bəhrələnməsi üçün əlverişli şəraitin yaradılması ilə bağlı idi.

1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilən Heydər Əliyev dühasının bilavasitə müəllifi olduğu müstəqil Azərbaycanın ilk milli Konstitusiyası müasir tələblərə cavab verən dövlət idarəçiliyi prinsiplərinin öz əksini tapdığı ideal bir sənəd idi. Beynəlxalq təcrübə ilə milli dəyərlərin sintezi kimi çıxış edən Konstitusiyamızda Azərbaycanda dövlət hakimiyyətin yeganə mənbəyi kimi xalqın göstərilməsi, hakimiyyətin bölgü prinsipi əsasında (qanunvericiilik – icra – məhkəmə hakimiyyətləri) təsbit olunması, vətəndaşlara kifayət qədər geniş insan hüquq və azdlıqlarının verilməsi, habelə hakimiyyətin mənimsənilməsinə yol verilməməsi müddəasının orada yer alması ölkəmizdə demokratik prinsiplərə söykənən bir dövlət idarəçiliyi modelinin formalaş-dırlmasının görüntüsü kimi çıxış edirdi.

Konstitusiyanın 12-ci maddəsi isə insan və vətəndaş hüquqlarının və azadlıqlarının, insanlara layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi kimi müəyyən etmişdi. Həmin məqsədin həyata keçirilməsinə çalışmaqla üzərinə düşən məsuliyyəti dərindən dərk edən hər bir dövlət qulluqçusu dövlətlə vətəndaşın, eləcə də dövlətlə cəmiyyətin münasibətlərini vahid bir maraq ətrafında cəmləşdirirdi.

Ən nəhayət, Ulu Öndərin formalaşdırdığı dövlətçilik konsepsiyası statusundan, tutduğu vəzifədən və digər imtiyazlarından asılı olmayaraq, ölkə vətəndaşlarının hər birinin qanun qarşısında bərabərliyini, ölkənin maddi və mənəvi potensialından bəhrələnməyi və qabiliyyətinə, imkanlarına uyğun şəkildə dövlət hakimiyyətinin bütün sahələrində təmsil olunmaqda onlara bərabər imkanların yaradılmasını nəzərdə tuturdu.

1996-cı ildə Ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə "Hüquqi İslahatlar Komissiyası" təşkil olunaraq onun qarşısında mühüm vəzifələr qoyuldu. Bununla da yenicə müstəqilliyinə qovuşmuş dövlətin öz qanunvericilik bazasının yaradılması və inkişafı prosesi strat götürdü. Başlıca vəzifə isə ondan ibarət idi ki, müasir tələblərə cavab verən dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin yaradılması istiqamətində real addımlar atılsın. Bu zaman dövlət idarəçiliyi sahəsində qabaqcıl dünya ölkələrin təcrübələrinin öyrənilməsi vacib əhəmiyyət kəsb edirdi. [1, s.12]

Ümummilli lider Heydər Əliyevin dövlət idarəçilik sisteminin formalaşdırılması və sonrakı təkmilləşdirilməsi prosesi ilə bağlı əsas baxışları ondan ibarət idi ki, Azərbaycanda demokratik prinsiplərin tam oturuşmasını, vətəndaş cəmiyyətinin dinamik inkişaf etdirilməsini şərtləndirəcək təsirli addımlar atılsın. Onun siyasi düşüncələri əsasında dövlət idarəçiliyi sahəsində həyata keçirilən islahatlar milli inkişaf hədəflərimizə uyğun fəaliyyəti həyata keçirməyə imkan verəcək, Azərbaycanın hüquqi dövlətçilik ideyalarını möhkəmləndirməyə xidmət edən sistemli qanun-vericilik bazasının yaradılmasını hədəfləyirdi. Mütərəqqi dünya təcrübəsindən geniş yararlanmaqla yanaşı, yeni hədəflərin tələblərinə uyğun dövlət idarəçiliyinin təkmilləşdirilməsi Azərbaycan Respublikasında çevik, səmərəli dövlət idarəçiliyi sisteminin qurulmasının ilkin şərtlərini təşkil edirdi.

1998-ci ilin dekabrın 29-da isə Heydər Əliyevin "Azərbaycan Respublikasında dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət komissiyasının yaradılması haqqında"

imzaladığı fərman səmərəli dövlət idarəetmə sisteminin formalaşdırılması istiqamətində aparılan islahatların başlanğıcını qoymuşdur. Fərmanda islahatların həyata keçirilməsi ilə müəyyən nəticələrə nail olmaq qarşıya məqsəd kimi qoyulurdu. Ümumi olaraq dövlət idarəetməsi sistemində aşağıdakı dörd istiqamət üzrə islahatların aparılması nəzərdə tutulmuşdu:

1) dövlət xərclərinin idarə olunması sisteminin yenidən qurulması;
2) audit sisteminin islahatı;
3) dövlət idarəetmə sisteminin islahatı;
4) hüquq və məhkəmə sisteminin islahatı. [3, s.3]

Ulu öndərin rəhbərliyi altında sözügedən komissiya dövlət idarəetmə sisteminin islahatlarının Konsepsiya layihəsini işləyib hazırlamış, burada qeyd edilən sistemin müasir vəziyyəti təhlil olunaraq mövcud çatışmazlıqlar aşkara çıxarılmış, dövlət quruculuğunun inkişaf etdirilməsi, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi, eləcə də sərbəst bazar iqtisadiyyatı münasibətlərinə uyğunlaşdırılması sahəsində kompleks tədbirlər reallaşdırılmışdır.

Görülən bu və digər işlərlə yanaşı, dövlətin səmərəli fəaliyyətini təmin etmək, qarşıda duran problemlərin həlli üçün lazımi nəticə əldə olunması ilə yüksək ixtisaslı, siyasi cəhətdən neytral, qanunla müdafiə olunan, cəmiyyətin maraqları naminə fəaliyyət göstərən, düzgün, vicdanlı, qərəzsiz, informasiyadan istifadə etmək bacarığı olan, səmərəli rəhbərlik edə bilən mütəxəssislərdən ibarət dövlət qulluğu sistemi qurulması da əsas şərt kimi çıxış edirdi. Bu məqsədlə 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" Qanun qəbul olundu. 2001-ci ilin sentyabrından qüvvəyə minən sözügedən qanun dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyərək, həyata keçirilən kadr siyasətinin əsas prinsiplərini, dövlət qulluqçularının cəmiyyətdəki yerini, onların hüquq və vəzifələrini müəyyənləşdirirdi. Məhz həmin dövrdə "dövlət qulluğu" və "dövlət qulluqçusu" anlayışları gündəmə gəldi.

Dövlət qulluğuna və dövlət qulluğunda çalışanlara xalqın inamının bərpa ediməsi, habelə milli və müasir dövlət qulluğu sisteminin qurulması məqsədilə Heydər Əliyevin siyasəti aşağıdakı istiqamətləri əhatə edirdi:

- səmərəli, məsuliyyətli və demokratik idarəçiliyin yaradılması;
- dövlət orqanlarının fəaliyyətində çevikliyin və şəffaflığın gücləndirilməsi;
- vətəndaşların qayğı və ehtiyaclarının daha dolğun təmin edilməsi;
- dövlət orqanlarının üzərinə düşən funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edən təcrübəli və peşəkar dövlət qulluqçusu korpusunun formalaşdırılması. [3, s.3]

Bundan əlavə "Dövlət qulluğu haqqında" Qanun dövlət orqanlarının üzərinə düşən funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edən təcrübəli və peşəkar işçi korpusunun formalaşdırılması və inkişafını stimullaşdırırdı. O da xüsusi olaraq qeyd edilməlidir ki, qanunun qəbul olunması ölkədə dövlət qulluğu islahatları prosesinin əsasını təşkil edən meyar və prinsipləri müəyyənləşdirmiş, müxtəlif kateqoriyalı dövlət qulluqçuları arasında dəqiq vəzifə bölgüsünü, dövlət qulluqçularının öz funksiya və vəzifələrini yerinə yetirməsini təmin edən attestasiya və təsnifat sistemini yaratmış, dövlət qulluqçularının işinin səmərəliliyini qiymətlən-dirməyə, həmçinin ixtisasartırma tələbatını müəyyənləşdirməyə imkan verən, qulluqda irəliləmələrin əməkdaşın fərdi keyfiyyətlərindən, peşəkarlıq səviyyəsindən asılılığını təmin edən, yüksək ixtisaslı əməkdaşların dövlət qulluğunda qaldırılmasına şərait yaradan nəzarət sisteminin formalaşdırılmasına imkan vermişdir.

"Dövlət qulluğu haqqında Qanunun" qəbulundan sonra onun həyata keçirilməsini təmin edən hüquqi bazanın yaradılması istiqamətində də mühüm işlər görülmüş, bu məqsədə xidmət edən onlarla digər qanun və qərarlar qəbul edilmiş, fərman və sərəncamlar verilmişdir. Bunların sırasında "Dövlət qulluqçularının icbari sığortası haqqında", "Dövlət qulluqçusunun etik davranış qaydaları haqqında" qanunları və digərlərini qeyd etmək olar. Dövlət qulluğunun daha yaxşı təşkili və idarə olunması məqsədilə Dövlət Qulluğunu İdarəetmə Şurası da məhz ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdə yaradılmışdır. Bu qurumun əsas missiyası vahid dövlət kadr siyasətinin formalaşdırıl-masında iştirak etmək, dövlət qulluğunun təşkili və həyata keçirilməsi ilə bağlı normativ-hüquqi aktların və metodik göstərişlərin layihələrini hazırlamaq, dövlət hakimiyyəti orqanlarında dövlət

qulluğunun vəziyyətini və səmərəliliyini təhlil etmək və səmərəliliyin artırılması yollarını araşdırmaq, bu yöndə təkliflər hazırlamaq və dövlət qulluğuna aid digər məsələləri həll etmək idi. [4, s.6]

Sevindirici haldır ki, hazırda Ümummilli Liderin əsasını qoyduğu dövlətçilik konsepsiyası Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən yüksək peşəkarlıq, yeni təfəkkür və müasir yanaşma tərzi ilə bu gün uğurla davam etdirilməkdədir. 2003-cü ildən indiyə kimi keçən zaman məsafəsi xalqa layiqli xidmət prinsipinin Prezident İlham Əliyevin yürütdüyü siyasətin ana xəttini təşkil etdiyini əyani olaraq sübuta yetirmişdir. Sosial ədalət prinsipinə, insan hüquq və azadlıqlarına sadiqliyini hər zaman qoruyub saxlayan Prezident İlham Əliyev Azərbaycanın sürətli sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə prosesini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırmışdır. Bu kontekstdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan müvafiq islahatlar nəticəsində dövlət orqanlarının işinin müasir tələblərə uyğun yenidən qurulması, kadr korpusunun yaradılması daim prioritet istiqamətlərdən biri olmuşdur. Azərbaycan Prezidentinin dövlət qulluqçuları qarşısında qoyduğu ən ümdə tələblərdən biri onların xalqa xidmət etmələri, insanların üzləşdiyi problem və çətinliklərin həll edilməsi istiqamətində səlahiyyətləri çərçivəsində müvafiq işləri görmələridir. Bununla bağlı Prezident İlham Əliyev bildirmişdir: "İstər ölkə Prezidenti olsun, istər icra hakimiyyətinin başçısı olsun, hansısa başqa sahəyə rəhbərlik etsin, hər bir rəhbərin vəzifəsi ondan ibarətdir ki, mövcud olan problemləri aradan qaldırsın və insanları narahat edən məsələləri həll etsin". [2, s.45]

Prezident İlham Əliyevin rəhbərliyi altında dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədilə ölkəmizdə 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" icra edilmişdir. 2011-ci il mayın 23-də "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Prezidentin fərmanına əsasən, dövlət orqanlarının elektron xidmətləri yaradılmışdır. Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında da şəffaflığın artırılması və açıq hökumətin təşviqi üçün nəzərdə tutulan tədbirlərdən biri məhz elektron xidmətlərin təkmilləşdirilməsi olmuşdur. [2, s.34]

Dövlət idarəetməsinin modernizasiyası, şəffaflığın artırılması və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması yönümündəki mühüm tədbirlərdən biri Prezident İlham Əliyevin 13 iyul 2012-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması oldu. Agentlik dövlət orqanlarında şəffaflığın artırılmasının, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaların tətbiqilə göstərilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara əməl edilməsinin və vətəndaş məmnunluğunun təmininin zəruriliyindən yaradılmışdır. Bu proses hazırda da ən yüksək formada davam etdirilir.

Nəticə

Beləliklə, Heydər Əliyev müstəqillik dövründə Azərbaycanda dövlət idarəçiliyi sisteminin etibarlı təməlini qoyaraq reallaşdırdığı müsbət əməllərlə öz adını ölkəmizin çağdaş tarixinə yazdırmağı bacarmışdır. Əsası Ulu Öndər tərfindən qoyulan həmin ənənələr bu gün də onun siyasi varisi, dövlətimizin uzaqgörən lideri prezident İlham Əliyev tərəfindən yüksək professionallıqla uğurla davam etdirilir. Hazırda ölkəmizdə gedən nəhəng dəyişikliklərə, islahatlara nəzərən onu demək mümkündür ki, bu inkişf tendensiyası müasir Azərbaycan dövlətçiliyini gələcəkdə zirvələrə daşımaqda vəsilə olacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Həbibbəyli İ., Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Əcəmi NPB. 2013, s.12
2. Quliyeva X., Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. Bakı, Elm. 2019, s. 34-45
3. Məmmədova D., Heydər Əliyev Azərbaycanda müasir dövlət qulluğu sisteminin banisidir. 2013, Azərbaycan qəzeti, s.3

4. Mirbəşir E., Heydər Əliyev və Azərbaycanda müasir dövlət idarəçiliyi. Qanun jurnalı, 2023, s.6

HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN HİMAYƏDARI KİMİ

İsmət Kamal oğlu Əhmədov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
ismet.ehmedov2003@gmail.com

Gənc nəslin müasir tələblər zəminində təhsilləndirilməsi, gənclərin bilik və intellektual səviyyəsinin yüksəldilməsi, onların gələcəkdə kamil mütəxəssis və ləyaqətli bir vətəndaş kimi yetişdirilməsi Ulu öndərimiz Heydər Əliyevi daim düşündürən əsas prioritet məsələlərdən biri idi. Bu mənada hələ 1975-ci il avqustun 28-də Azərbaycandan kənarda təhsil almağa göndərilən tələbələrlə görüşündə söylədiyi "Siz bu əsrin axırıncı onilliklərində və gələn əsrin əvvəllərində işləyəcəksiniz. O zaman elmi-texniki tərəqqi üfüqlərinin necə cazibədar olacağını bu gün təsəvvür etmək mümkündür. Sabahkı gün sizə yeni, yüksək tələblər verəcəkdir. Əgər mütəxəssis həqiqətən yaradıcı şəxsiyyətdirsə, o, sadəcə olaraq, zamanla ayaqlaşmalı deyil, həmişə zamanı bir qədər qabaqlamalıdır. Bu isə o deməkdir ki, daim öyrənmək lazımdır, buna görə də bilik, bacarıq, vərdiş bünövrəsi möhkəm olmalıdır" fikri hazırkı dövrün tələbləri və müasir yanaşmalarla necə də həmahəng səsləndiyini görmək olar. Həmin nitqində gənclərə müraciət edərək irəli sürdüyü "İqtisadi və mədəni quruculuq sürəti də, gələcəkdə respublikamızın ictimai həyatının səviyyəsi də nəticə etibarı ilə sizdən, gənclərin bütün indiki nəslindən, onların bacarığından, qabiliyyətindən, biliyindən asılı olacaqdır", "Siz elmi-texniki inqilabı irəli aparmalı, elm və mədəniyyəti inkişaf etdirməli, cəmiyyətin yeni maddi və mənəvi sərvətlərini yaratmalı olacaqsınız" müddəaları ilə isə Ümummilli Liderimiz əslində müəllimlərin, bütövlükdə təhsil müəssisələrinin fəaliyyətinin nəticələrini xüsusi olaraq diqqətə çatdırmaqla təhsil sisteminin ən zəruri vəzifəsini müəyyənləş-dirmişdir.

Ulu öndər Heydər Əliyev elmə, təhsilə qayğını, diqqəti müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də əsirgəməmişdir. Dövlət müstəqilliyinin ilk illərində ölkə rəhbərliyinin biganə münasibəti nəticəsində acınacaqlı vəziyyətə düşən bu sahələr Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra böhrandan çıxmışdır. Xatırladım. ki, 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev ictimaiyyət nümayəndələri ilə Elmlər Akademiyasında keçirdiyi görüşdə ziyalıların, alimlərin cəmiyyətdəki roluna böyük önəm verdiyini xüsusi olaraq vurğulayaraq elmin, təhsilin inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini bildirmişdir. Ümummilli Liderimiz çıxışlarında daim humanitar elmlərin xüsusi əhəmiyyətə malik olduğunu göstərmiş, ədəbiyyat, mədəniyyət tarixinin yazılmasının vacibliyinə toxunmuş, çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır: "Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya və başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi vardır. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq lazımdır. O cümlədən, mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır". Heydər Əliyev müstəqillik dövründə Azərbaycan təhsil sisteminə inteqrasiyasını başlıca vəzifə kimi qarşıya qoymuşdur. Buna görə də o dövrdə elm-təhsil sahəsində islahatların ilk növbədə reallaşdırılmasına başlanması təsadüfi deyildi. Nəticədə ölkənin sosial-iqtisadi inkişafında təhsilin aparıcı amil kimi önə çıxarılmasına nail oldu. Heydər Əliyevin rəhbərliyi altında hazırlanan və 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində hər bir ölkə vətəndaşının pulsuz icbari ümumi orta təhsil almaq hüququ təmin edildi. Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissi-yasının yaradılması haqqında" 30 mart 1998-ci ildə imzaladığı sərəncam, həmçinin 15 iyun 1999-cu il tarixində təsdiqlədiyi "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"

Azərbaycanda təhsil standartlarının yeni dövrün şərtlərinə uyğunlaşdırılması prosesinə böyük təkan verdi. Adı çəkilən sənədlərdə irəli sürülən vəzifələrə uyğun milli təhsilimizin məzmunca təkmilləşdirilməsi, dünya təcrübəsi və milli ənənələr əsasında inkişafı təmin olundu, müasir tədris proqramları, dərsliklər hazırlandı, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə yeni standartlar tətbiq edildi.

Cəsarətli və uzaqgörən siyasətçi Heydər Əliyev Azərbaycanın müstəqillik üfüqlərini hələ sovet hakimiyyəti illərində respublikaya rəhbərlik etdiyi dövrlərdə yaxşı görürdü. O əmin idi ki, gələcək müstəqil dövlətin bünövrəsinin möhkəm qurulması üçün təhsilin inkişafına indidən güclü təkan vermək lazımdır. 1977-ci il avqustun 27-də keçirilmiş tələbələrin respublika fəalları ilə görüşündə gənclərə "Bu gün sizin başlıca vəzifəniz oxumaqdan, müstəqil işləmək vərdişləri əldə etməkdən, həqiqəti axtarmaq və ona nail olmaq bacarığına yiyələnməkdən, yəni kamil mütəxəssis olmaq, cəmiyyətimizə daha çox fayda vermək üçün zəhmətlə, səylə, əzmlə, gündən-günə misilsiz bilik, mədəniyyət, ictimai vərdiş ehtiyatı toplamaqdan ibarətdir" müraciəti, 1978-ci il 18 may tarixində keçirilən Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqində "Biz bu gün də, gələcəkdə də gənclərimizi təhsilə, biliyə cəlb etməliyik, təhsilin keyfiyyətini artırmalıyıq, təhsil sahəsini daha da mükəmməlləşdirməliyik" deməsi, şübhə yoxdur ki, məhz həmin qənaətdən irəli gəlirdi.

Ölkəmizə rəhbərlik etdiyi dövrdə gərgin və məqsədyönlü fəaliyyəti ilə millətimizə şərəf və başucalığı gətirmiş Heydər Əliyev "Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan bir xalqdır. Bunlar hamısı uzun illər-keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir" deməklə xalqının intellektual səviyyəsinə, təhsildə qazanılmış uğurlara böyük qiymət verirdi. Onun 1997-ci il avqustun 29-da keçirilmiş Azərbaycan və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələr və onların valideynləri ilə görüşdəki yekun nitqində gənclərə "XXI əsr sizin əsriniz, sizin dövrünüz olacaqdır. Siz və sizin kimi Azərbaycan gəncləri, yeniyetmələri, yüksək təhsilli insanları həmin əsrdə müstəqil, azad respublikamızı yaşadacaqsınız, inkişaf etdirəcəksiniz. Biz bu işləri sizin öhdənizə buraxacağıq" tarixi müraciəti həm ölkəmizin işıqlı sabahına, həm də bu işıqlı sabaha doğru qətiyyətlə addımlayan o dövrün gənclərinə dərin inamından irəli gəlirdi.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Beləliklə, Ümummilli lider Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır.

Ulu öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədimiz Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun"

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan 2020: Gələcəyə baxış. İnkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012- ci il 29 dekabr tarixli fərmanı.
2. Həsənov İ., Rüstəmova A., Babayeva N. Kurikulum metodika. Pedaqogika
3. https://azertag.az/xeber/Azerbaycan_tehsilinin_inkisafında_ulu_onder_Heydar_Alıyevin_tarixi_xidmətləri-2341676
4. https://e-qanun.az/framework/5363
5. https://e-qanun.az/framework/767

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI – DEMOKRATİK VƏ HÜQUQİ DÖVLƏTİN TƏMİNATÇISI

Kamal Sərvər oğlu Kamalov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
kamalsarvar@gmail.com

Ölkənin inkişaf səviyyəsi, gələcək perspektivləri və sabitliyi qanunvericiliyinin günün reallıqlarına hansı səviyyədə cavab verməsi ilə səciyyələnir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın hakimiyyət eşalonunda mövcud olan hərc-mərcliklər, kreslo davası, qeyri-sabitlik ölkədə qanunvericilik sahəsində də islahatların aparılmasını arxa plana keçirmişdi. Bu isə birbaşa olaraq ictimai-siyasi, sosial-iqtisadi sahələrdə boşluqların yaranmasına gətirib çıxarmış, hüquqi, ideoloji tənəzzülün əsasını qoymuşdu. Məhz 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə ölkə rəhbərliyinə qayıdışı milyonlarla insanların xoşbəxtliyinə rəvac verdi; ölkədə qardaş qırğınının qarşısını almaqla bərabər, bütün sahələrdə geriləmənin qarşısını aldı, dövləti məhv olmaqdan, cəbhədə uğursuz əməliyyatlar nəticəsində oğullarını itirən anaları gözüyaşlı qalmaqdan, gəncləri mənəvi səbatsızlığa düçar olmaqdan, hakimiyyətin az qala adi hala çevrilmiş qol gücünə devrilmək "adət-ənənə"sinə yoluxmaqdan, respublikanı məhv olmaq təhlükəsindən, cəmiyyəti xaos və anarxiyadan xilas etdi.

Ümummilli lider Heydər Əliyev ötən əsrin və yeni yüzilliyin görkəmli siyasi və qüdrətli dövlət xadimlərindən biri olmaqla yanaşı, həm də Azərbaycanda müstəqil hüquqi dövlətin qurucusu kimi tarixin yaddaşında əbədiləşdi. İlk növbədə xalqımız müstəqil, suveren dövlətini yaratmağa nail oldu. Bunun bariz nümunəsi olaraq müstəqil dövlətimizin əsas atributlarından biri kimi Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanunu) qəbul edildi. Bu konstitusiyanın qəbul olunması ilə bütün bəşəriyyətə müstəqilliyimizi, varlığımızı, süverenliyimizi, məxsus olduğumuz hüquqlarımızı təsdiqlədik və bəyan etdik. Müstəqil Respublikamızın Əsas Qanunu dünya ölkələrinin konstitusiyaları ilə müqayisədə demokratikliyi ilə diqqəti daha çox cəlb edirdi.

Müstəqil Azərbaycanın ilk konstitusiyasının əhəmiyyətli məna kəsb etməsi, geniş məzmuna malik olması, prosesin əvvəlindən sonadək – hazırlanmasından başa çatmasınadək hər bir məqamın nəzərə alınması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun fikirləri, ideyaları, uzaqgörən siyasətinə əsaslanan tövsiyə və məsləhətləri demək olar ki, yeni qəbul olunmuş konstitusiyanın hər bir maddəsində özünü büruzə verirdi.

Yeni konstitusiyanın qəbulunda ilk tədbirlərdən biri Əsas Qununun hazırlanması ilə bağlı parlamentin 6 dekabr 1993-cü il tarixli qərarı oldu. Bu qərar əsasında yaradılan müvəqqəti

konstitusiyanın taleyi heç də uğurlu olmadı – ölkədəki böhranlı vəziyyət onun qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsinə imkan vermədi. Məhz belə bir vəziyyətdə ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın reallığlarına cavab verə biləcək yeni konstitusiyanın yaranmasına böyük ehtiyac olması ideyasını irəli sürdü. Bununla da Milli Məclis ölkə Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə 37 nəfərdən ibarət Konstitusiya Komissiyasının yaradılması ilə bağlı qərar qəbul etdi. Komissiyaya respublikamızın tanınmış ictimai-siyasi, elm xadimlərinin, qanunvericilik təşəbbüsü sahəsində kifayət qədər təcrübəsi olan alimlərin, peşəkar hüquqşünasların, digər sahə mütəxəssislərin də cəlb olunması və onların gərgin əməyi müstəqil Azərbaycanın ilk konstitusiyasının dövlətimizin mövcud reallığlarına uyğun olacağına, onun maraqlarını ifadə edəcəyinə, bir sözlə, keçmiş SSRİ məkanında qəbul olunmuş Əsas Qanunlardan köklü surətdə dəyişəcəyinə inamı daha da artırırdı.

Yeni Konstitusiya Komissiyasının 1995-ci il iyunun 5-də keçirilən ilk iclasında çıxış edən sədr Heydər Əliyev qeyd etmişdi ki, "Konstitusiya yaratmaq üçün tarixi keçmişimizə nəzər salmalıyıq, eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən istifadə etməli, bəhrələnməliyik. Daim deyirik ki, biz demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün inkişaf etmiş Qərb ölkələrinin dövlət quruculuğu, demokratik prinsiplərin bərqərar olması sahəsindəki nailiyyətlərdən istifadə edirik və edəcəyik. Şübhəsiz ki, yaradacağımız layihədə bu müddəalar və prinsiplər öz əksini tapmalıdır. Konstitusiya birinci növbədə, dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlətlə xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər konstitusiyamızın əsasını təşkil etməlidir" [2]. Təbii ki, komissiya ona sədrlik edən prezident Heydər Əliyevin rəhbərliyi altında işlədiyindən və hazırlıq prosesinin hər xırda detalı belə onun xüsusi diqqətində olduğundan, ulu öndərin milli maraqlarımıza söykənən hər bir tövsiyəsi Əsas Qanunda öz əyani ifadəsini tapırdı. İdarəetmə sahəsində əvəzolunmaz təcrübə burada da öz sözünü demiş oldu – çox qısa müddətdə inkişaf etmiş demokratik ölkələrin konstitusiya quruculuöu sahəsində əldə etdikləri təcrübə öyrənildi, təhlil olundu və ölkəmizin reallıqları nəzərə alınaraq işlənildi. Nəhayət, komissiya son dərəcə mükəmməl bir sənəd kimi yeni konstitusiya layihəsini hazırlayaraq ictimai müzakirəyə təqdim etdi. Konstitusiya Komissiyasının bütün üzvlərinin layihənin hazırlanmasında səmərəli və faydalı, o cümlədən də tarixi xidmətlərini qeyd edən prezident Heydər Əliyev göstərirdi ki, " Üzərimizə düşən məsuliyyəti biz vicdanla, xalqımıza sədaqətlə həyata keçimişik və gördüyümüz, xalqa təqdim etdiyimiz işə görə fəxr edə bilərik. Hesab edirəm ki, bütün gələcək nəsillərdə meydana çıxacaq sualların hamısına burada cavab var. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd hazırlamışıq" [3]. Beləliklə, ölkə ictimaiyyətini geniş müzakirəsindən sonra Konstitusiya layihəsi 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə 91,9 səslə qəbul edildi və elə həmin ay – noyabrın 27-dən qüvvəyə mindi. Əsas Qanunun qəbulu prosesi bir daha göstərdi ki, ölkədə əhalinin bütün təbəqələrinin maraqlarını təmin edən məhz ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən konstitusiya ola bilər.

Müstəqil dövlətimizin ilk konstitusiyasının hüquqi baxımdan əsas məqsədini insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı, əsas mahiyyətini isə şəxsiyyətin toxunulmazlığı, əhalinin həyat səviyyəsinin təminatı, humanizm və insanpərvərlik prinsipləri təşkil edir. Bəşəri dəyərlərə əsaslanan konstitusiyamız ölkəmizin gələcək inkişaf istiqamətlərini, perspektivlərini dəqiqləşdirməklə bərabər, insan hüquq və azdlıqlarının təmin olunmasını ən ali məqsəd kimi qarşıya qoyur. Bununla bağlı Ümummilli lider Heydər Əliyev xüsusİ olaraq qeyd edirdi ki, "Qəbul etdiyimiz bu yeni konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir" [3]. Ulu öndərin dedikləri tam həqiqət idi. Təsadüfi deyildi ki, 158 maddədən ibarət olan konstitusiyanın 46-ı və ya üçdə biri məhz insan hüquq və azdlıqlarından ibarət idi.

Konstitusiyamız dünyanın qabaqcıl ölkələrinin konstitusion təcrübəsinə əsaslanmaqla bərabər, həm də milli mentalitetimizə xas olan əvəzolunmaz xüsusiyyətlərini də özündə ifadə edirdi. Tarixi ənənələrimiz, milli-mənəvi dəyərlərimiz konstitusiyamızda rəsmi ifadəsini tapmışdı. Geniş ictimaiyyətin müzakirəsinə verilən və daha ciddi diskussiyaya səbəb olan məsələlərdən biri də layihəyə dövlət dili kimi hansı dilin daxil edilməsi idi. Uzun müzakirələrdən və elmi cəhətdən əsaslandırılmalardan sonra Ulu Öndərin təklifi ilə konstitusiyamıza Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olmasını təsbitləyən maddə daxil edildi.

Dünya ölkələrinin konstitusion təcrübəsində ən ciddi məsələlərdən biri kimi hakimiyyətin dövlət orqanları arasında bölüşdürülməsi prinsipi yeni konstirusiyamızda daha müfəssəl şəkildə təsbit olunmuşdu. Hələ lap qədimlərdən – antik dövrlərdən başlayaraq, filosoflar dövlətin fəaliyyətində qanunvericilik fuksiyasını, qəbul olunmuş qərarların icrasını, ədalət mühakiməsinin əhəmiyyətini yüksək dəyərləndirmişlər. Hətta XVII əsrdə yaşamış məşhur fransız filosofu Ş.Monteskye də hakimiyyətin bölüşdürülməsi nəzəriyyəsini yaradarkən dönə-dönə göstərirdi ki, fəaliyyətini düzgün qurmuş istənilən dövlətdə vahid hakimiyyət ola bilməz. Əks halda burada demokratiyadan və onun prinsiplərinin qorunmasından danışmaq sadəlövhlük olardı. Ulu öndər Heydər Əliyev də Əsas Qanunumuzda hakimiyyət bölgüsünün əsasını təşkil edən hakimiyyətin qolları arasında qarşılıqlı nəzarətin həyata keçirilməsindən danışarkən qeyd edirdi ki, konstitusiya hər şeydən əvvəl hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü ali icra, qanunvericilik və məhkəmə hakimiyyəti arasında bölüşdürülməklə hər biri xalqın iradəsinə söykənməlidir...

Əsas Qanunun ən başlıca cəhətlərindən biri də onun uzunömürlüyünün təmin olunması idi. Buna görə də bu hüquqi sənədin həm müasir dövrü, həm də gələcək perspektivlərin nəzərə alınması ilə yüksək keyfiyyətlə hazırlanması əsas şərtlərdən idi. Məhz konstitusiya hazırlanarkın nəzərdə tutulan əsas meyar da onun uzunömürlü olması idi. İlk növbədə, o, elə hazırlanmalı idi ki, müddəalar həm bu günümüz, həm də gələcək üçün yazılmış olsun və dəyişikliklərə, əlavələrə ehtiyac olmasın. Məhz bu kimi meyarlara cavab verən Əsas Qanunun qəbul olunması da onun ümumbəşəri dəyərlərə və dərin məzmuna malik olması ilə bağlı idi. Digər tərəfdən, daha bir amil yeni konstitusiyaya tez-tez bu kimi əlavə və dəyişikliklərin qarşısının alınması üçün xüsusi maddələrin daxiil edilməsindən ibarət idi ki, bu prinsipə də tam əməl olunmuşdu...

Bir sözlə, müstəqil respublikamızın ilk könstitusiyası sanki zərgər dəqiqliyi ilə işlənilmişdi. Ən başlıcası isə, Əsas Qanunun hazırlanması Ümummilli lider Heydər Əliyevin xalqımıza növbəti, heç zaman unudulmayacaq bir hədiyyəsi idi. Belə bir hədiyyəni qoruyub saxlamaq və gələcək nəsillərə ərməğan etmək isə bizim hər birimizin borcudur.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı, 1995.
2. Qumru Əliyeva, Günay Hacızadə. Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası. - Bakı, "Azərbaycan" nəşriyyatı, 2011. - 304 s.
3. İsgəndər Quliyev. Heydər Əliyev və müstəqil Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı, "Səs" qəzeti, 15 mart 2017-ci il.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN DİLİNİN İNKİŞAFINDA ROLU

[1,2]**Kəmalə Ərəstun qızı Sadıqova,** [1]**Rəşad Həmid oğlu Xəlilov**
[1]ETN Dendrologiya İnstitutu
[2]kemale.sadiqova1960@mail.ru

Hər bir xalqın dili milli sərvəti, xalqın varlığının təsdiqi deməkdir. Xalqın həyatında, elmin, mədəniyyətin inkişafında onun dili müstəsna rol oynayır, tarixini, mənəvi sərvətini, dövlətçilik

yolunu qoruyub saxlayır. Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin "Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin, Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini müstəqil hakim dil etməliyik" söyləməklə gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü [1].

Məlumdur ki, Heydər Əliyevin milli-mənəvi sərvətimiz olan Azərbaycan dilinin inkişafında əvəzsiz xidmətləri olmuşdur. Azərbaycan dilinə hörmət və qayğısı həm sovet hakimiyyəti illərində, həm də müstəqil Azərbaycan Respublikasının Prezdenti olduğu illərdə çox böyük olmuşdur. Belə ki, Ümummili lider Heydər Əliyev hakimiyyəti illərində Azərbaycan dilinə, tarixinə, mədəniyyətinə dair elmi tədqiqatların aparılması genişləndirilərək, daima qiymətləndirilmişdir. Bu gün müxtəlif yerlərdə (məclislərdə, yığıncaqlarda) Azərbaycan dili qüdrətlə, təntənə ilə səslənir. Dilimizin dövlət dilinə cevrilməsi, zənginləşməsi, dünyanın mötəbər kürsülərindən eşidilməsi Ulu öndər Heydər Əliyevin fəaliyyəti və həyata keçirtdiyi dil siyasəti ilə möhkəm bağlıdır [2]. 2001-ci il avqust ayında Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında Ulu öndər Heydər Əliyev fərman verdi: Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili kimi qeyd edilsin.

Azərbaycan xalqına sədaqəti, siyasi müdrüklüyü, elm və təhsilə qaygısı Heydər Əliyevə ümumxalq məhəbbəti qzandırılmış, zirvəyə yüksəltmişdir. Ulu öndər Heydər Əliyevin Azərbaycan ədəbiyyatın inkişafında da rolu böyükdür. "Müstəqillik yolunda" kitabında yazmışdır: "Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən nəzəri fikirlərin təbliğ edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar, alimlərin sırasında xüsusi yer tutur". Müəllim adını yüksək qiymətləndirən Heydər Əliyev təhsil sahəsində müəllimin əməyini əla qiymətləndirir [3].

Heydər Əliyevin Azərbaycan rəhbərlik etdiyi illərdə bu günkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu. Eyni zamanda milli ruh, azərbaycançılıq idealogiyası yüksəlməyə başladı, kadrlar korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Gənclər müxtəlif ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali təhsil ocaqlarına göndərildi. Məktəblərin yenidən tikilməsi, yeni ali məktəblərin, ixtisasların artırılması və gücləndirilməsi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilir, bu günkü dövrümüzdə də geniş şəkildə davam etdirilir.

İstifadə edilmiş ədəbiyyat

1. Aytən Sadıqlı, Ümummilli liderimiz Heydər Əliyevi və Azərbaycan dili. Bakı: Mütərcim, 2011, 5 s.
2. Əliyev V., Heydər Əliyevin dil siyasəti. Bakı: Nurlan, 2003, 100 s.
3. Abbas Səmədov Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə, və təhsil xadimlərinə qayğısı, Gəncə, 2010, 8-9 s.

ВАЖНЫЕ ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОМ БЕЗОПАСНОСТИ В АЗЕРБАЙДЖАНЕ

Гусейн Фаик оглы Панахов
Институт экономики МНО
huseynpanahov26@gmail.com

Введение

Проблемы обеспечения экономической безопасности страны, стабильного экономического развития государства и общества стоят перед многими странами мира. Современное социально-экономическое положение Азербайджана обусловливает чрезвычайную актуаль-

ность целенаправленной деятельности государства в сфере обеспечения экономической безопасности страны и каждого гражданина в отдельности.

Понятие "экономическая безопасность" неразрывно связано с понятием "национальная безопасность". Термин "национальная безопасность" прочно вошел в жизнь современного мира и стал частью внутренней и внешней политики многих стран. Например, США разрабатывают доктрину, концепцию и стратегию своей национальной безопасности, где особое место уделено вопросам экономической безопасности. Поскольку экономика является одной из жизненно важных сторон деятельности личности, общества и государства, то обеспечение национальной безопасности по существу невозможно без обеспечения экономической.

Проблемы обеспечения экономической безопасности Азербайджана как непременного условия стабилизации ее текущего состояния и развития, привлекают к себе все более пристальное внимание ученых и общественности. Такое внимание отнюдь не случайно. Принципиально важно раскрыть суть проблемы, выявить реальные угрозы, предложить надежные и эффективные методы их парирования. Реализация национальных интересов Азербайджана в большинстве случаев возможна только при условии наличия достаточных экономических возможностей и устойчивого экономического развития. Таким образом, можно говорить о том, что экономической безопасности принадлежит определяющее место в общей системе национальной безопасности [1, с.64].

Структура экономической безопасности

Структура, экономической безопасности по существу представлена в предложенной развернутой формулировке и состоит, по нашему мнению, из трех частей.

Первая - это достаточность финансово-экономических ресурсов для обеспечения требуемого уровня национальной безопасности страны, в первую очередь, ее обороноспособности за счет совершенствования и развития вооруженных сил. Эта составляющая присуща для всех наиболее развитых стран мира и по существу не вызывает ни у кого сомнения. Обеспечивается она государством исключительно за счет бюджетных средств.

Вторая - создание наиболее благоприятных условий для стабильного развития экономики в стране, причем для всех легальных секторов экономики. Эти условия должны распространяться на государственный и частный сектора, в том числе на частное предпринимательство, т.е. на все уровни - государства, общества и личности. Создание этих условий будет одновременно способствовать росту наполняемости бюджета, т.е. обеспечению первой составляющей.

Третья - защита экономических интересов государства, общества и личности от внешних и внутренних угроз. Эта составляющая необходима для всех стран, охваченных глобальной экономикой. В глобальной экономике в условиях международной кооперации любые изменения, тем более катастрофические, в той или иной мере отражаются на всех ее участниках и поэтому требуются эффективные адекватные меры в случаях возникновения таких ситуаций.

Все три составляющие тесно взаимосвязаны, примерно равнозначны и поэтому приведены в одном определении.

Одной из ведущих тенденций мирохозяйственного развития послевоенных десятилетий явился переход многих стран от замкнутых национальных хозяйств к экономике открытого типа [1, с.88].

Открытая экономика - экономика, широко интегрированная в мировую хозяйственную систему, участвующая в международном разделении труда, в которой не существует ограничений на перемещение товаров и услуг при экспорте и импорте, или эти ограничения минимальны.

Открытая экономика предполагает целостность экономики. Это единый экономический комплекс, интегрированный в мировое хозяйство, мировой рынок. Открытая экономика предполагает активное использование различных форм совместного предпринимательства, организацию свободно-экономических зон, эффективное использование принципа

сравнительных преимуществ страны в МРТ. Для открытости экономики важным является критерий - благоприятный инвестиционный климат, стимулирующий приток капитала, технологии и информации, определенной экономической целесообразностью. Открытая экономика предполагает доступность внутреннего рынка. Это страна, которая участвует в МРТ, т.е. сама участвует и дает другим странам участвовать в своей экономике. Антипод открытой экономике - автаркия, т.е. опора на собственные силы. Страна не знает, что происходит в другом мире, продукция неконкурентоспособна. Преимущества открытой экономики: происходит углубление специализации и кооперации производства; происходит распространение мирового опыта через систему МЭО; происходит рациональное распределение ресурсов в зависимости от степени эффективности; рост конкуренции между отечественными производителями, стимулируемый конкуренцией на мировых рынках, т.е. конкуренция между импортом и отечественными товарами и между самими отечественными товарами.

Введение понятия экономической безопасности государства означает признание примата экономики в обеспечении внутренней и внешней безопасности государства и, следовательно, необходимость самого серьезного внимания к проблеме обоснования и реализации эффективной национальной стратегии развития и адекватной экономической политики. Данная политика должна быть направлена на реализацию, как минимум, двух целей: сохранение экономической самостоятельности страны как способность принимать решения, касающиеся развития национальной экономики в собственных интересах; возможность сохранения достигнутого уровня жизни населения и способствование его дальнейшему повышению.

Основные стратегические цели экономической политики

К основным стратегическим целям экономической политики Азербайджана следуй щ нести стабилизацию хозяйства, безработицы, снижение уровня инфляции, структурную перестройку, стимулирование инвестиционной деятельности, увеличение доли производства в наукоемких отраслях и др. Руководящими принципами экономической пони шин являются; принцип эффективности производства: выпуск заданного количества ироду мои при наименьшем объеме затрат - конечный продукт для граждан государства или конечный продукт непроизводственного назначения складывается из следующих слагаемых [2, с.81]: продукт для потребительского рынка; продукт для поддержания и развития социально ной инфраструктуры; продукт для поддержания экологического равновесия; продут дни содержания и развития институциональной инфраструктуры; продукт для целей обороны, продукт для целей стихийных обстоятельств и чрезвычайных ситуаций; продукт дни внешнеэкономической деятельности.

Формирующийся на современном этапе спектр внешних и внутренних угроз эконом и ческой безопасности страны объективно требует адекватных и системных действий Азербайджана по их преодолению. В первую очередь должна быть разработана Государственная стратегия экономической безопасности Азербайджана, как минимум по двум этапам до 2020 года и до 2050 года, а также создана система мониторинга основных параметров (пороговых значений) угроз экономической безопасности.

Основой государственной стратегии экономической и в целом национальной безопасности являются ее цели и задачи, которые учитывают стратегические приоритеты и национальные интересы страны в данный конкретно-исторический период.

Проблема выбора экономической политики заключается в определении набора экономических инструментов, которые правительство должно и готово использовать, и набора целей, для достижения которых они предназначены.

Эффективная национальная стратегия по обеспечению безопасности страны можем быть обеспечена посредством деятельности государства в следующих сферах [2, с.121]:

1. Институциональная политика: целесообразны все те преобразования экономических институтов, которые, обеспечивая разработку и реализацию эффективной национальной политики, не противоречат нормам международного права.

2. Структурно-инвестиционная политика: приоритеты инновационного характера развития промышленного и аграрного производства подчинены эффективной реализации национальной экономической стратегии, учитывающей государственные приоритеты в распределении финансовых средств между конечными целями производства.

3. Политика доходов: стимулирование эффективного, а не спекулятивного использования собственности; увеличение удельного веса доходов в виде оплаты труда и социальных трансфертов, оптимизация функционирования пенсионной системы.

4. Финансовая политика: сбалансированность материально-вещественных и финансовых пропорций народного хозяйства; упрощение системы налогообложения для повышения надежности формирования доходней части бюджета и улучшения контроля доходов.

5. Денежно-кредитная политика: подчинение организации банковской системы потребностям разработки и реализации эффективной экономической стратегии, оптимизация кредитной политики, обеспечение устойчивости и эффективного развития фондового рынка страны.

6. Региональная политика: разработка единых правил участия регионов в составлении и реализации эффективной национальной стратегии и сглаживании их социально-экономической стратификации.

7. Политика интеграции в мировое хозяйство: использование преимуществ международного разделения труда и повышение конкурентоспособности национальной экономики.

Формирование предложений по корректировке методов реализации экономической политики, институциональных преобразований и необходимых механизмов устранения или смягчения взаимодействий, подрывающих устойчивость хозяйственной деятельности, опирается на представления о путях, способах, методах обеспечения безопасности хозяйствующих субъектов.

Для поддержания определенного уровня национальной, в т. ч. экономической безопасности, в зависимости от развития экономической и финансовой ситуации в стране и в международной экономике в целом, правительство проводит целенаправленную макроэкономическую корректировку путем использования имеющихся в его распоряжении инструментов экономической политики.

Цели макроэкономической корректировки: 1. Внутренняя сбалансированность: полная занятость; отсутствие инфляции; приемлемые темпы; справедливое распределение доходов. 2. Внешняя сбалансированность: платежный баланс, равный нулю; стабильность роста валютного курса [3, с.45].

Для обеспечения достижения названных целей в рамках национальной экономики, в распоряжении правительства имеются две группы инструментов экономической политики - инструменты регулирования спроса и инструменты регулирования предложения.

Эффективная макроэкономическая корректировка решает определенные задачи, реализуя соответствующую экономическую стратегию государства. Для достижения определенного количества сформулированных выше экономических целей макроэкономической корректировки необходимо использовать, в соответствии с правилом Тинбергена, такое же или большее количество инструментов макроэкономической политики.

Основа организации, планирования и функционирования системы обеспечения безопасности Азербайджана состоит в анализе концепции угрозы; оценке характера реальных и потенциальных внутренних и внешних угроз, кризисных ситуаций, неблагоприятных факторов в различных сферах жизнедеятельности государства, представляющих опасность для жизненно важных интересов страны и препятствующих достижению поставленных государственных (национальных) целой.

Обеспечение экономической безопасности

Обеспечение экономической безопасности Азербайджана означает одновременное достижение внутреннего и внешнего баланса, причем внутренняя безопасность означает, как минимум, баланс реального денежного и бюджетного секторов. Так как экономическая безопасность является составной частью экономической политики государства, то для ее

обеспечения необходима реализация эффективного механизма управления и координации действенных институтов, норм, охватывающих все сферы внутренней и внешней политики.

Правовую основу обеспечения безопасности Азербайджана составляют Конституция, законы и иные нормативные правовые акты Азербайджанской Республики, а также международные договоры и обязательства Азербайджана. Государство формирует институциональную, нормативно-правовую базу обеспечения национальной безопасности, которая включает: законодательство; суд; прокуратуру [4, с.36].

Система обеспечения национальной безопасности Азербайджанской Республики создается и развивается, в соответствии с Конституцией Азербайджанской Республики указами и распоряжениями Президента Азербайджанской Республики постановлениями и распоряжениями Правительства Азербайджанской Республики программами в этой области.

Основу системы обеспечения национальной безопасности Азербайджанской Республики составляют органы, силы и средства обеспечения национальной безопасности, осуществляющие меры политического, правового, организационного, экономического, военного характера, направленные на обеспечение безопасности личности, общества и государства. Полномочия органов и сил обеспечения национальной безопасности Азербайджанской Республики их состав, принципы и порядок действий определяются соответствующими законодательными актами Азербайджанской Республики.

Реализация национальных интересов Азербайджана возможна только на основе устойчивого развития экономики. Поэтому национальные интересы Азербайджана в этой сфере является ключевыми. Это обусловлено тем, что все виды безопасности, так или иначе не могут быть эффективно обеспечены без экономической составляющей, которая включает:

- устойчивость и динамика экономического развития; увеличение занятости населения и рост его доходов;
- повышение качества жизни населения; оптимизацию использования производственно-сырьевого потенциала страны;
- эффективное включение национальной экономики в мировое хозяйство.

Экономическую безопасность можно рассматривать как минимум на трех качественно разных уровнях исследования и осмысления:

Экономическая безопасность как явление;

Экономическая безопасность как одна из целей экономической (внутренней и внешней) политики государства;

Экономическая безопасность как механизм её обеспечения, предполагающий наличие разработанной «технологии».

Эффективная национальная стратегия по обеспечению безопасности страны может быть обеспечена посредством деятельности государства в следующих сферах [4, с.167]:

- институциональна политика; структурно-инвестиционная политика;
- политика доходов;
- финансовая политика;
- денежно-кредитная политика;
- региональная политика;
- политика интеграции в мировое хозяйство.

Заключение

Стратегия Азербайджанской Республика в области развития науки и инноваций, призвана комплексно и целенаправленно направлять усилия государства, частного бизнеса к институтам гражданского общества на обеспечение динамичного развития страны на перспективу. Цель стратегии состоит в разрешении системного противоречия темпы развития, и структура азербайджанского сектора исследований и разработок не отвечает потребностям национальной безопасности и растущему спросу со стороны предпринимательского сектора на передовые технологии. В решении системной проблемы важно следовать двум основным принципам: концентрация ресурсов республиканского бюджета для финансирования НИОКР на ключевых направлениях; использование механизма частно-государственного партнерства.

Экономическая безопасность страны также измеряется долей внешнего долга в ВВП: в 2022 году этот показатель составляет 13 %.

Среди республик Южного Кавказа этот показатель колеблется в пределах 50-60 %, ожидается, что к концу года этот показатель составит 10 %.

Использованная литература

1. Вечканов Э.С. Экономическая безопасность. СПб: Питер, 2007.
2. Экономическая и социальная безопасность. М.: Экзамен, 2005.
3. Ярошкин В.Й. Секьюритология - наука о безопасности жизнедеятельности. М.: «Ось- 89», 2000.
4. Экономическая безопасность хозяйственных систем. М.: РАЭС, 2011.

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN ELMİNİN, TƏHSİLİNİN VƏ MƏDƏNİYYƏTİNİN BÖYÜK HİMAYƏDARI

Ətrabə Şirastan qızı Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
etrabe2023@mail.ru

Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında bu dahi insanı xatırlayır, onun nəcib və uzaqgörən əməllərinin xoş nəticələri ilə rastlaşırıq. Heydər Əliyev bütün müsbət xüsusiyyətləri ilə yanaşı, həm də böyük ürək sahibi idi. Hətta ona qarşı dönük çıxmış, xəyanət etmiş insanları da bağışlamağı bacarırdı. Bu insan üçün vətən, millət, xalq daha önəmli idi, nəinki şəxsi ambisiyalar. O, 1993-cü il iyunun 15-də Ali Sovetin sədri kimi çıxışında da bu barədə belə demişdir: "Mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq vaxtıdır, xırda dedi-qodunu kənara qoymaq lazımdır, bunların vaxtı deyil. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam".

Heydər Əliyev həm də ədalətli bir dövlət başçısı idi. Məhz özü ədalətli adam olduğu üçün hadisələrə də bu konteksdən yanaşmağı bacarır, dünya ictimaiyyətini, beynəlxalq qurumları və s. ölkəmizin mübtəla olduğu münaqişənin həllində ədalətli olmağa çağırırdı. O, sərt olmağı bacarırdı, insanları səhvlərinə görə cəzalandırırdı, ancaq heç vaxt ədalətsiz qərar qəbul etmirdi. Onun cəzası vicdan və ədalət kateqoriyalarının həmişə, hər yerdə və hər bir şəraitdə prinsipial qələbəsini təmin etmək kimi nəcib və sosial-mənəvi missiyaya hesablanmışdı. Bütün bunlar Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə də açıq-aşkar hiss edilirdi. Ulu öndərin öz sözləri ilə desək: "Dövlət inamsızlıq üzərində qurula bilər, ədalətsizlik üzərində yox".

Azərbaycan xalqı, onun ayrı-ayrı nümayəndələri Heydər Əliyevi haqlı olaraq, xilaskar adlandırırlar. Əlbəttə, ona görə haqlı deyirik ki, təkcə elə ötən əsrin 80-90-cı illərində xalqımızın məruz qaldığı xarici irtica və daxili destabillik faktoru necə böyük bəlalardan xilas olduğumuzdan xəbər verir. Bu xilasın başlıca səbəbi isə Heydər Əliyevin daim öz xalqı ilə birlikdə olması idi. 1994-cü ilin "məşhur" oktyabr hadisələri zamanı ulu öndərin "...İndi bizim hamımız üçün çox həlledici məqamdır, həlledici dəqiqədir. Kim Azərbaycana doğrudan ürək yandırırsa, bu həlledici dəqiqələrdə bizimlə olmalıdır. Sizinlə görüşmək istəyirəm, sizdən kömək gözləyirəm" sözləri ilə ifadə olunan xalqa müraciətindən bir saat keçməmiş, Prezident Sarayının qarşısındakı meydanda yüz minlərlə insan dənizi kükrəyirdi. Heydər Əliyev-Xalq, Xalq-Heydər Əliyev birliyinin qüdrəti və qüvvəsi bircə bu faktla isbat edilir.

Ulu öndər Heydər Əliyev zaman-zaman qəbul etdiyi tarixi qərarları ilə, sözün əsl mənasında, yeniləşməkdə olan müstəqil Azərbaycan dövlətinin qurucusuna çevrildi. 1994-cü il sentyabrın 20-də ölkənin tarixində son dərəcə taleyüklü bir hadisə baş verdi. Azərbaycan dövlətinin və xalqının firavan və xoşbəxt həyatının zəmanətinə çevrilmiş, sürətli inkişafa və tərəqqiyə, müstəqilliyin dönməzliyinə və təhlükəsizliyinə təminat verən, neft müqaviləsi — "Əsrin muqaviləsi" imzalandı.

Məhz Ulu Öndərin qətiyyəti, iradəsi və cəsarəti sayəsində Azərbaycanın "qara qızılı" bu millətin ağ günlərinin tarixini yazmağa başladı. Ulu öndərin öz sözləri ilə desək: "Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün, eləcə də gələcəkdə xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir". Bu sözlərin müəllifi ölkəsinin karbohidrogen ehtiyatlarını strateji xammaldan böyük siyasətin, dünyada gedən inteqrasiya proseslərinin, milli təhlükəsizlik konsepsiyasının faktoruna çevirməyi bacardı. Tarixən ayrı-ayrı dövlətlər, eləcə də bütövlükdə bəşəriyyətə bir çox müsibətlər yaşatmış "qara qızıl" məhz ulu öndərin düşünülmüş, ağıllı taktiki addımları sayəsində dünyanın transmilli neft korporasiyaları Bakıda toplaşdı. Bir müddət sonra isə Ümummilli Liderin minbir zəhməti sayəsində Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri reallığa çevrildi ki, bunun da sayəsində bir vaxtlar çoxlarına xəyal kimi görünən "üç dəniz əfsanəsi" gerçəkləşdi. Beləliklə də, Azərbaycan dövləti regionda sülhün dayağına, qədim tarixə malik Bakı şəhəri isə əməkdaşlıq "paytaxt"ına çevrildi və Ümummilli lider Heydər Əliyev Azərbaycan neftini Azərbaycan xalqının və dövlətçiliyinin prinsipial maraqlarına uyğun işlətmək kimi çətin bir missiyanın öhdəsindən bacarıqla gəldi.

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən Ümummilli Lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu Öndərin öz sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Müşahidələr göstərir ki, həqiqətən də belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. Son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır.

Bir məsələni də qeyd etmək lazımdır ki, Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Qeyd olunduğu kimi, Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların

inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində ümummilli lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq, elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir.

Günümüzün reallıqları sübut edir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Eyni zamanda, bütün bunlar elm adamlarının daha da fəallaşmasını, ölkədə həyata keçirilən islahatların elmi əsaslarının işlənib hazırlanmasında xüsusi fəallıq göstərilməsini tələb edir. Məlumdur ki, ən əhəmiyyətli nəticə nəzəri və praktiki biliklərin birləşməsindən əldə edilir. Başqa sözlə desək, praktiki əhəmiyyəti olmayan nəzəri düşüncələr bazar iqtisadiyyatının hökmran olduğu müasir dövrümüzdə tədricən sıradan çıxır. Bu baxımdan da, elm adamlarının praktiki cəhətdən əhəmiyyətli olan təklif və tövsiyələrlə çıxış etməsi ölkənin davamlı sosial-iqtisadi inkişafının başlıca amillərindən biri kimi qəbul edilməlidir. Yalnız bu halda əldə edilmiş dinamik inkişafı davamlı inkişafa çevirmək mümkündür.

İstifadə edilmiş ədəbiyyat

1. "Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasəti", Azərbaycan qəzeti. 5 dekabr 2008
2. "Təhsil" elmi, pedoqoji, metodik jurnal.
3. A. Səmədov. "Ümummilli liderimiz Heydər Əliyev"in Azərbaycanda təhsilə və təhsil xidmətlərinə qayğısı. Gəncə 2010.

AZƏRBAYCAN NATİQLİK SƏNƏTİNİN UNİKAL NÜMUNƏSİ

Zəminə Rəsul qızı Novruzova
Azərbaycan Texnologiya Universiteti
zeminenovruzova@mail.ru

İstənilən bir nitqin insanlara təsir etməsi, yadda qalması və onu dinləyənlərdə xüsusi bir iz buraxması üçün vacib olan məqamlardan biri nitq texnikasının qoyduğu tələblərə - dil bilgisinə malik olmaq, ədəbi dil normalarına riayət etmək, söz ehtiyatı və s. - əməl etməkdirsə, digər və ən vacib məqam həmin nitqi söyləyən şəxsin əzəmətli şəxsiyyətə malik olmasıdır. Bu şəxsiyyəti formalaşdıran isə onun öz xalqının dilinə, dininə, keçmişinə, bu gününə, bir sözlə, milli-mənəvi dəyərlərinə sadiq olmasıdır. Bu gün qətiyyətlə deyə bilərik ki, Heydər Əliyev qədər öz dəyərlərinə sadiq olan, hər zaman çıxışlarında bu dəyərləri təbliğ edən, gənc nəslin məhz xalqın əvəzolunmaz xəzinəsinə bələd olması və ondan bəhrələnməsi üçün əlindən gələni edən ikinci bir siyasətçi, dövlət xadimi tapmaq çətindir. Təkcə bu faktı demək kifayətdir ki, hələ 1970-ci ildə Gəncədə yerləşən İmamzadə kompleksinin sökülməsi ilə bağlı bir qrup kommunist Mərkəzi Komitəyə müraciət ünvanlayanda o dövrün bütün təhdidlərinə və çətinliklərinə baxmayaraq bunun qarşısını alan

Heydər Əliyev olur. Məhz onun sayəsində Gəncə İmamzadəsi SSRİ ərazisində ziyarətgah kimi qeydiyyatdan keçən və dövlət tərəfindən qorunan ilk məkan olur. Təbii ki, bu, o dövrdə mövcud olan sərt nəzarətlərə baxmayaraq Heydər Əliyevin Azərbaycanın mənəvi gücünün qaynaqlarını bütün var qüvvəsi ilə qorumasının önəmli bir məqamı idi.

Ana dilimizi mükəmməl bilən bu əvəzolunmaz natiqin bütün nitqləri xüsusi bir dəyərə malikdir. Hər zaman öz nitqlərində, qətiyyətli çıxışlarında ana dili məsələlərinə diqqətlə, heç bir hissə qapılmadan yanaşan, dil məsələlərinə ciddi yanaşmağın vacibliyini ön plana çəkən Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan dilini milli, mənəvi dəyərlərin daşıyıcısı olaraq görmüşdür. O, hakimiyyətdə olduğu bütün dövrlərdə dil məsələlərinə önəm vermiş, hətta sovet dönəmində belə Azərbaycan dilinin dövlət dili olması üçün mübarizədən də çəkinməmişdir.

Dövlət dili anlayışı əslində dərin bir anlayışdır. Sovet dövründə bir çoxları dövlət dilini ədəbi dil kimi başa düşürdülər. Azərbaycanın görkəmli dövlət xadimi, ziyalılıq etalonu olan Heydər Əliyev isə bu ifadəni strateji məqsədlə işlədirdi. Həqiqətən Azərbaycan müstəqil dövlət olduqdan sonra bu strateji məqsəd həyata keçdi. 1977-1978-ci illərdə yeni konstitusiya qəbul edilərkən dövlət dilimizin Azərbaycan dili olması haqqında maddə əlavə edilməsi məsələsi ortaya çıxanda keçmiş sovet rəhbərliyi buna qəti etiraz edir və bildirir ki, başqa respublikalarda bu olmadığına görə , sizdə də ehtiyac yoxdur. Amma Heydər Əliyev qəti şəkildə belə bir maddənin konstitusiyaya salınmasını tələb edir və buna nail olur. Təbii ki, bu hadisə həmin dövr üçün çox önəmli və qətiyyətli bir addım idi.

"Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz" – deyən Heydər Əliyev hələ 70-ci illərdə orta məktəblərdə Azərbaycan ədəbiyyatının öyrənilməsinə diqqət yetirilməli olduğunu deyirdi. Hər zaman önəmli bir məsələ kimi ön plana çəkirdi ki, ana dilini bilməyən bir şəxs nə Nizamini, nə Füzulini, nə Nəsimini, nə də digərlərini oxuya bilməyəcək və beləliklə də öz mədəniyyətindən, ədəbiyyatından, eləcə də milli-mədəni ənənələrindən bixəbər olacaq. Bu cür insanlarda vətənpərvərlik duyğularının olması isə çətin məsələdir"[1]. Heydər Əliyev dil məsələlərində olan problemləri bütün aydınığı ilə bilirdi və düzgün təhlil etməyi bacarırdı. Hələ Azərbaycanda XX əsrin əvvəllərində Şərqin ilk Demokratik Respublikası qurulduğu bir vaxtda, necə ki hakimiyyət nümayəndələri ana dili məsələsini ön plana çəkirdilər, orduda bu dili bilməyənləri, daha doğrusu, təyin olunan zaman kəsiyində öyrənməyənləri işdən azad etmə məsələsini qoymuşdular, eyni zamanda dilin öyrənilməsi üçün dövlət tərəfindən bəlli bir vəsait də ayrılmışdı. Belə ki, AXC-nin hərbi naziri Səməd bəy Mehmandarov 1918-ci il dekabrın 27-də ordu dilinin Azərbaycan-türk dili olduğu barədə əmr vermişdi. 1919-cu ilin sentyabrından Azərbaycan dilinin öyrənilməsi üçün kurslar təşkil edilmiş, hətta bu məqsədlə hökumət tərəfindən müəyyən bir vəsait də (351 min manat) ayrılmışdı. Sadəcə, həmin dövrdə müstəqilliyimizin ömrü qısa olduğu üçün bu məsələlər də yarımçıq qaldı, sona çatdırmaq mümkün olmadı. Eləcə də, Ümummilli Lider hakimiyyətdə olduğu dövrdə bu məsələlərə yenidən və diqqətlə yanaşmağın vacibliyini ön plana çəkdi: "Məsələn ordumuzda da vəziyyət belədir. Çünki keçmişdə Sovet ordusunda olan terminlərin və s. əksəriyyəti dilimizə o qədər də çevrilməyib. Amma mən müdafiə nazirinə də göstəriş vermişəm ki, artıq vaxt keçib, təhsili də, ordunun idarəsini də, başqa şeyləri də tədricən dövlət dilimizə, Azərbaycan dilinə çevirmək lazımdır" [1].

Heydər Əliyev hər zaman öz çıxışlarında qeyd edirdi ki, dünya birliyinə daxil olan bir dövlət kimi, təbii ki, başqa dilləri bilmək, həmin dillərdə mükəmməl danışmağı bacarmaq lazımdır. Amma onu da vurğulayırdı ki, həmin dillər ana dilimizin hakim mövqe tutmasına kölgə salmamalı, xələl gətirməməlidir. Dilimizin inkişafı məsələlərində hər zaman ümidli olduğunu deyirdi: "...gərək insanlarımız bir neçə dil bilsinlər – ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər, fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz, bunun qarşısını almaq lazım deyil. Ancaq, birinci növbədə ana dilini bilməlidirlər. Bəli, Azərbaycanda indi də elə insanlar var ki, əsasən rus dilində danışırlar, Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da belələri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz işdən çıxaracağam" [3]. Hətta keçid dövrünün ən vacib problemlərindən olan iqtisadi məsələlərlə dil problemini qarşı-qarşıya qoyanda ikincinin birincidən heç də geri qalmadığını, hətta dil məsələlərinin ana dilimizin xeyirinə həll edilməsi prosesinin iqtisadi məsələlərdən daha önəmli və vacib olduğunu vurğulayırdı.

Heydər Əliyevin ana dili məsələlərinə göstərdiyi həssaslıq bu gün də dövlət proqramlarında yer alır və verilən qərarlar hələ ulu öndərin zamanında başlanan işlərin planlı davamı kimi özünü büruzə verir. Bu məsələ ilə əlaqədar olaraq ötən ildən ölkəmizin orta ümumtəhsil məktəblərinin bəzilərinin rus bölməsində Azərbaycan tarixi fənninin dövlət dilində tədris olunmağa başlanması Ulu Öndərin ana dilimizə verdiyi önəmin davamı kimi özünü göstərir. Belə ki, 2022-2023-cü tədris ilində ölkənin 20 ümumi təhsil müəssisəsinin tədrisi digər dillərdə aparılan bölmələrinin V siniflərində Azərbaycan tarixi fənni dövlət dilində tədris edilir: "Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən biri kimi istifadəsi və tətbiqi imkanlarının genişləndirilməsi digər dillərdə təhsil alanların dövlət dili kimi Azərbaycan dilinə, tarixinə, milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunmasını təmin etmək məqsədi daşıyır" [5].

Ümumiyyətlə, keyfiyyət baxımından üç kateqoriya nitq mövcuddur. Bunlardan birincisi dinlənilməsi mümkün olan nitqlərdir ki, bu tip nitqlər məzmun və keyfiyyət baxımından o qədər də yüksək olmasa da, dinləmək mümkün olur. İkinci kateqoriya nitqlər dinlənilməsi mümkün olmayan nitqlərdir. Bu tip nitqlər, məzmun və aydınlıq baxımından o qədər keyfiyyətsizdir ki, heç cür dinləmək mümkün olmur. Nəhayət, üçüncü kateqoriya nitqlər dinlənilməməsi mümkün olmayan nitqlərdir ki, bu cür çıxışlar mədəni nitqə verilən bütün tələblərə cavab verdiyindən, kamil (aydın, düzgün, səmimi, təsirli, ifadəli, münasib, rabitəli və s.) və düzgün nitqin (ədəbi dil normalarına əməl edilən) bütün tələblərini yüksək səviyyədə ödədiyindən onlara qulaq asmamaq mümkün deyil. Ulu Öndərin bütün çıxışları, öz keyfiyyətinə görə məhz dinlənilməməsi mümkün olmayan nitqlər sırasına aiddir.

Heydər Əliyev nitqinin yaddaqalan olması, cazibədarlığı, dinləyən hər kəsi öz sehrinə sala bilməsi, məhz onun nitqin bütün incəliklərinə, elmi əsaslarına vaqif olması ilə bağlıdır. Məsələ burasındadır ki, Ulu Öndər öz nitqlərində hələ qədim yunan fəlsəfəsindən, ritorikasından bizə məlum olan bütün önəmli qaydalara diqqət yetirir və onlara bütün incəliklərinə qədər əməl edirdi. Nitqdə yunan faktoru, üçlər qaydası, səmərəli başlanğıc, düzgün yekunlaşdırma və s. Heydər Əliyev nitqinin əsas özəyini təşkil edirdi. Həm də nəzərə alsaq ki, onun çıxış etdiyi auditoriyalar öz zənginliyi və fərqliliyi ilə də seçilirdi, təbii ki, belə auditoriyaları ələ almağın özü də xüsusi bir bacarıq tələb edirdi. Qədim yunanlar yaxşı natiq olduqları kimi, həm də səmərəli nitqin üç əsas qaydasının olduğunu deyirdilər. Bunlardan biri natiqin inandığı və müdafiə etməyə hazır olduğu etosdur. Ulu Öndər danışdığı bütün mövzuları dərindən bilir, siyasət meydanında mahir siyasətçi, ədəbiyyatçılar qarşısında istənilən şair və yazıçını dərindən təhlil etməyi bacaran ədəbi tənqidçi, dini mövzularda sadə və aydın dillə ilahiyyatçı alimləri belə cəlb edən şərhçi, elmi mövzuda istənilən elm sahəsinə aid terminologiyadan məharətlə istifadə edən, qədərində elmi üsluba xas olan mürəkkəb cümlə konstruksiyalarına da nitqində yer verən alim kimi çıxış edir. Qədim yunanların ritorika üçbucağına aid etdiyi pafos mərhələsi natiqin öz nitqinə ürəyini qoymağa hazır olması və auditoriyanın səviyyəsinə, psixologiyasına uyğun öz nitqini qura bilmə qabiliyyətidir. Heydər Əliyevin bütün nitqlərində mövzuya olan münasibətindən də bilmək mümkündür ki, o, hər bir çıxışına məsuliyyətlə yanaşdığı üçün bu qədər yaddaqalan olub və bu gün də həmin nitqlər tədqiqatçıların diqqət mərkəzindədir. Nəhayət, ritorika üçbucağının üçüncü və bəlkə də önəmli mərhələsi loqos mərhələsidir ki, burada məntiqə əsaslanaraq danışmaq, öz düşüncələrini ifadə etmək üçün məxsusi sözlər seçmək nəzərdə tutulur ki, bu da natiqdən geniş dünyagörüş və söz ehtiyatı tələb edir. Heydər Əliyev nitqinin zənginliyinə, məntiqiliyinə, hər bir fikrini sübutlarla əsaslandıra bilmə bacarığına isə heç bir şübhə yoxdur və bəlkə də, son yüz ildə bütün dünyada tək-tək belə natiqlərin adını çəkmək olar.

Səmərəli başlanğız və nitqdə üçlər qaydası hər bir nitq üçün önəmli atributlardandır. Belə ki, nitqin birinci cümləsindən natiqin uğur qazanıb-qazanmayacağı məlum olur. Ulu Öndər öz nitqlərinə mövzudan asılı olmayaraq o qədər məharətlə başlayırdı ki, ilk cümləsindən bütün auditoriyanı öz sehrinə salmağı bacarırdı. Bəlkə də, natiqlik haqqında müəyyən biliyi olan insanlar belə üçlər qaydası barədə ya bilmir, ya da önəmli hesab etmir. Ancaq, nəzərə alsaq ki, əksər insanlar hansısa bir faktı və ya məlumatı yadda saxlamaq üçün onu üç dəfə eşitməlidir, deməli, nitqin yaddaqalan olması üçün bu məsələyə diqqət yetirmək vacibdir. Heydər Əliyev öz nitqlərində hər zaman bu önəmli nüansa əhəmiyyət verirdi. Nitqinin əvvəlində danışacağı məsələ barədə ümumi bir

fikir formalaşdırırdı. İkinci mərhələdə həmin məsələnin geniş və ətraflı izahını verirdi. Nəhayət üçüncü mərhələdə isə geniş izah etdiyi məsələlərin ən əhəmiyyətlilərinin üzərindən bir xülasə şəklində keçir, onu dinləyənlərin yaddaşında daha da möhkəmləndirirdi: "Biz, Azərbaycanda yaşayan azərbaycanlılar öz həmvətənlərimiz haqqında daim düşünmüşük. Uzun illər Sovetlər İttifaqı kimi böyük bir super dövlətin tərkibində ikən xaricdəki soydaşlarımızla, həmvətənlərimizlə əlaqə saxlamaq mümkün olmadığı halda, biz daim düşünmüşük ki, müxtəlif ölkələrdə azərbaycanlılar necə yaşayırlar, nə edirlər və məhdud imkanlardan istifadə edərək onlarla əlaqələr qurmağa çalışmışıq... Azərbaycan öz dövlət müstəqilliyini elan edəndən sonra çox böyük, şanlı-şöhrətli, eyni zamanda məşəqqətli yol keçmişdir. Biz bu günlər Azərbaycanın dövlət müstəqilliyinin elan olunmasının 10-cu ildönümünü böyük təntənə ilə bayram etdik. Biz on il ərzində keçdiymiz yolu bir də təhlil etdik, əldə etdiyimiz nailiyyətləri bəyan etdik, eyni zamanda qarşımızda duran vəzifələri müəyyən etdik. Hələ həll olunmamış bir çox problemləri təhlil edib, onların həll olunması üçün lazımi tədbirlər görməyə başladıq... Azərbaycanın müstəqilliyi və on il müstəqil dövlət kimi yaşaması bizim çoxəsrlik tariximizdə ən əhəmiyyətli, ən vacib, ən dəyərli bir hadisədir. Bizim üçün, müstəqil Azərbaycan üçün bu 10 il asan yol olmayıbdır. Biz Azərbaycanda yeni həyat qurmağa başlamışıq. Azərbaycanın demokratiya yolu ilə getməsini bəyan etmişik. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulması işinə başlamışıq. Azərbaycanın iqtisadiyyatını dünya iqtisadiyyatı, inkişaf etmiş ölkələrin iqtisadiyyatı ilə inteqrasiya etmək, bazar iqtisadiyyatı sisteminə keçmək prosesinə başlamışıq... Əmin ola bilərsiniz ki, müstəqil bir dövlət kimi Azərbaycan on ildir ayaq üstə möhkəm durubdur. Ötən dövrdə biz Azərbaycanın müstəqilliyini inkişaf etdirmişik və bu gün bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və daimidir. Əziz dostlar, müstəqil Azərbaycan həmişə sizin dayaq yeriniz olacaq, pənah gətirdiyiniz yer olacaqdır və təbiidir ki, Azərbaycanda biz də sizi özümüzün elçiləri hesab edirik, sizə çox ümidlər bəsləyirik, sizə arxalanırıq, sizi özümüzə dayaq hesab edirik. Müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gəncdirlər. Ancaq, indi biz yeni bir mərhələ keçmişik. Biz formalaşırıq, müstəqilliyimiz möhkəmlənir, xarici ölkələrdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanır və bizim hamımız birlikdə azərbaycançılığı yaşadacağıq, daimi edəcəyik, əbədi edəcəyik..."[6]. Bu sitatlar Dünya Azərbaycanlılarının I Qurultayında Ulu Öndərin söylədiyi nitqdəndir. Nitqlə tanış olanda da görürük ki, fərqli məqamlardan götürülən bu sitatlarda ardıcıllıq və məntiqi bağlılıq yüksək səviyyədədir.

Heydər Əliyev nitqinin ən önəmli və diqqətçəkici məqamlarından biri də bundan ibarət idi ki, o, saatlarca, ayaq üstə heç bir konspektdən istifadə etmədən, nitqində yersiz fasilələrə və lüzumsuz sözlərə yer vermədən danışmağı bacarırdı. İti hafizəyə, dərin məntiqi təfəkkürə malik olan Ümummilli Lider öz nitqində faktlara, arqumentlərə söykənir, danışıq manerası, jest və mimikaları ilə istənilən auditoriyanı ələ almağı bacarırdı. Onun nitqini dinləyən istənilən adam bu nitqin axıcılığına, zənginliyinə, səlisliyinə, aydınlığına, təsirliliyinə, ifadəliliyinə heyran qalmaya bilmirdi, hansı ki, bütün bu saydıqlarımız kamil nitqi şərtləndirən mühüm keyfiyyətlərdir.

Tədqiqatçıların nitqdə üslublarla bağlı söylədikləri fikirlərdən də məlum olur ki, Heydər Əliyevin nitqində üslub məsələsi o qədər incəliklə bir-birindn fərqlənir ki, o, dini üslubda sadə, aydın və təsirli danışır, İslam dininin incəliklərini dərindən izah edir, publisistik üslubda mühakimələrə, dəlil və sitatlara yer verməklə auditoriyanı öz arxasınca aparmağı bacarır, məişət üslubunda danışarkən məntiqli yumoristik çalarlara yer verir, xalqa bağlılığını, sədaqətini bildirir, bəzən də öyüd verməklə dinləyicini tərəddüddən çıxarır, bir sözlə ədəbi dilin bədii, elmi, publisistik, rəsmi-işgüzar üslublarının qoyduğu tələblərin hamısına böyük ustalıqla əməl edirdi. Hər mövzuya uyğun olaraq istifadə etdiyi müraciət etiketlərinə, eyni zamanda nitqin sonlandırılmasına zərgər dəqiqliyi ilə önəm verirdi: "Hörmətli müsəlmanlar, bacılar, qardaşlar! Mən sizi həzrəti peyğəmbər əleyhissəlamın Mövlud günü münasibətilə təbrik edir, sizə, bütün Azərbaycan xalqına, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, səadət arzulayıram.

Bu gün bizim üçün, müsəlmanlar üçün çox əziz gündür, əsrlər boyu müsəlmanların itaət etdiyi İslam dininin banisi, yaradıcısı həzrəti Məhəmməd peyğəmbərin Mövlud günüdür. Bu bizim böyük bayramımızdır. Həzrəti Məhəmməd peyğəmbərin yaratdığı Qurani-Kərim neçə əsrlərdir ki, dünya

müsəlmanlarının həyat yolunu müəyyən edib, onları yaşadıb, bəşəriyyətdə özünəməxsus yer tutmalarını təmin edibdir...

Sizin hamınıza, bütün Azərbaycan müsəlmanlarına, bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, səadət arzulayıram. Allah bütün işlərinizdə sizə yar olsun! Sağ olun." [2]. Bu nitq Ulu Öndərin İslam dininin banisi Həzrəti Məhəmməd Əleyhissəlamın müqəddəs Mövlud günündə Bakının Şıx kəndində Bibiheybıt məscidinin bərpasına başlanması mərasimində etdiyi çıxışdandır. Çıxışın ayrı-ayrı hissələrindən gətirilən sitatlardan da göründüyü kimi nitqin bütün strukturu, ifadə vasitələri, müraciət etiketləri tamamilə şəraiti, məqsədi, nitqin münasibliyinə qoyulan tələbləri özündə əks etdirir.

Nəticə olaraq onu deyə bilərik ki, ulu öndər Heydər Əliyevin nitqlərini təhlil etdikcə görürük ki, onun saysız-hesabsız çıxışlarının heç biri bir-birinə bənzəmir. Hər biri öz aktuallığı, məntiqiliyi, ifadəliliyi, təsirliliyi, aydınlığı, səmimiliyi ilə spesifik xarakterdədir və biri digərini qətiyyən təkrar etmir. Heç bir yerdə yazılmayan, təkrarı olmayan bu cür nitqlər maraqlı və yaddaqalan olduğu kimi hər zaman tədqiqatçıların da diqqət mərkəzində olacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev, "Müstəqilliyimiz əbədidir". V cild, Bakı, "Azərnəşr", 1998. 500 səh.
2. Heydər Əliyev, "Müstəqilliyimiz əbədidir". X cild, Bakı, "Azərnəşr", 2002. 471 səh.
3. Heydər Əliyev, "Müstəqilliyimiz əbədidir". XIII cild, Bakı, "Azərnəşr", 2004. 520 səh.
4. N.Zamanov. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Bakı, 2013, 480 səh.
5. https://www.azfakt.com/dilimizi_ve tariximizi_ yrenmek_nfrset rus b_lmesinde dersler azerbaycan dilinde ke irilecek -127541-xeber.html
6. https://az.wikisource.org/wiki/D%C3%BCnya_Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n%C4%B1n_I_Qurultay%C4%B1nda_Az%C9%99rbaycan_Respublikas%C4%B1n%C4%B1n_Prezidenti_Heyd%C9%99r_%C6%8Fliyevin_nitqi

SAĞLAM ƏTRAF MÜHİTİN YARADILMASINDA YAŞIL İQTİSADİYYATIN ROLU

Aidə Rza qızı Tağıyeva
Azərbaycan Texnologiya Universiteti
a.tagiyeva@atu.edu.az

"Torpağa mərhəmət xeyirdir inan,
Lütf etsən, gül verər, zülm etsən tikan."

(Nizami Gəncəvi) [1]

İnsanın təsərrüfat fəaliyyəti zamanı t arazlığın gözlənilməməsi ətraf mühitin ekoloji cəhətdən çırklənməsinə birbaşa təsir göstərir. Texniki tərəqqinin yüzilliklər boyunca yaratdığı tullantılar insanın yaşayışı üçün yararlı olan ərazilərin xeyli hissəsini səhraya çevirmişdir. Nəticədə torpaq, su hövzəsi, atmoser hədsiz dərəcədə çirklənmişdir. Demək kifayətdir ki, indi boş səhralar planetin quru hissəsinin az qala yarıya qədərini təşkil edir. İndi yaşadığımız planetdə nə quru, nə su, nə də ki, havada insanın təsirindən kənarda qalan zona yoxdur. Təbii mühit korlanıb, təbii proseslərin müvazinəti pozulub.

Möhtərəm prezidentimiz İ.Əliyevin belə bir ifadəsi var: "İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitinl qorunmasıdır" [2].

Təbiət üzərində hər bir qələbəmiz üçün o, bizdən intiqam alır. Nəicədə atmosfer mühitində baş verən hər hansı dəyişmələr insanın sağlamlığına, bitki və heyvanat aləminə təsir edir. Çayın suyunun zəhərli olmasının təbiət üçün heç bir əhəmiyyəti yoxdur, amma insan üçün böyük əhəmiyyəti vardır.Sudan içmək üçün, torpağın becərilməsində, bitki və heyvanat aləminin yaşaması

üçün, məhv olmaması üçün istifadə olunur. Necə deyirlər: "Meşələr Yer kürəsinin, pıanetimizin ağ ciyərləri. Su isə həyatdır".

Ekoıoji tarazlığın pozulmaması üçün yer üzünün ən azı 20 faizi meşələrlə örtülməlidir. Son illər dunyada meşə sahələri getdikcə azalmışdır. Bundan əlavə insanlar tərəfindən yaşıllıqların məhv edilməsi ekoloji tarazlığın pozulmasına təsir göstərir. İşğal altında olan torpaqlarımızın meşə massivlərinin tələf edilməsi respublikamızda ekoloji problemləri daha da artırır. Dünya dövlətləri ekoloji tarazlığın qorunması ilə bağlı ciddi tədbirlər görməyə cəhd edir. Lakin eyni zamanda otuz ildən də artıq bir zamanda işğal olunan Azərbaycanın gözəl dilbər guşəsi olan Qarabağ torpaqları üzdən Iraq erməni vandalları tərəfindən işğalı nəticəsində kortəbii surətdə meşələrimizin qırılmasına bilərəkdən dünya ictimaiyyətinin göz yumması ölkəmizdə ekoloji böhranın dərinləşməsinə gətirib çıxarmışdır.

Qloballaşan dünyada nəsillərin ekoloji tarazlığın pozulmasında ən böyük rolu iqtisadiyyatı güclü inkişaf edən nəhəng dövlətlər oynayırlar. Ekoloji mühitin cirklənməsinə iri sənaye ölkələri, xüsusilə Avropanın inkişaf etmiş ölkələri daha çox təsir edir. Nəticədə Yer kürəsini qlobal istiləşmə cənginə alıb. Ekoloji fəlakətlərt əhlükəli həddə çatıb.

İndiki və gələcək nəsillərin sağlamlığınınt əmin edilməsi, iqtisadi potensialın qorunması üçün təbii ehtiyatlardan maksimum səmərəli istifadə edilməlidir. Ekoloji təhlükəsizlik standartı müəyyən edilməlidir. Amosferə zəhərli tullantılarxaric edən avtomobillərdən istifadə etmək əvəzinə mümkün qədər velosipedlərə üstünlük verilməlidir. Son dövrlərdə xalqlar arasında milli münaqişələrin hegomon dövlətlər tərəfindən qızışdırılması müharibələrə gətirib çıxarır ki, bunun da nəticələri bəşər cəmiyyəti üçün çox acınacaqlı olacaqdir.

Yer kürəsində baş verən anomaliyalar təsadüfi deyil, ekoloji tarazlıgın pozulmasının zəncirvari reaksiyasıdır. Ona görə də hər bir insanın sağlam ətraf mühitdə yaşamasını təmin etmək üçün ilk növbədə "yaşıl" təfəkkürə malik olmaq vacibdir.

Planetin müxtəlif ərazilərində baş verən təbii fəlakətlər göstərdi ki, Yer kürəsində həyatın qorunması üçün insanın iqtisadi fəaliyyəində və həyat tərzində yeni prioritet formalaşdırılmalıdır.

Bəziləri düşünürlər ki, maddi imkan olan yerdə insane mütləq bahalı avtomobildə hərəkət etməlidir. Maddi imkanın məhdud olduğu yerdə ictimai nəqliyyatdan istifadə etmək lazımdır. Bu gün Azərbaycana xarici ölkələrdən istismar müddətini başa vurmuş, köhnəlmiş avtomobillərin gətirilməsinə və istifadə olunmasına adi hal kimi baxılır. Çünki təfəkkür tərzi bu ür düşünməyin əsas səbəbidir. Halbuki insanlar başa düşməlidirlər ki, nəqliyyat vasitələrinin seçiminə maddi imkanla yanaşı, insanların cəmiyyət və gələcək nəsillər qarşısında daşıdığı sosial məsuliyyət də təsir göstərə bilər. Sosial məsuliyyət hissinin yüksək olduğu cəmiyyətdə fərdi nəqliyyatdan istifadə etməli olan şəxslər bir çox hallarda ictimai nəqliyyata üstünlük verirlər. Belə sosial məsuliyyətli seçim, "yaşıl" təfəkkür yollarda nəqliyyatın azalmasına, təbii ehtiyatlardan qənaətlə istiadə olunmasına və ətraf mühiin qorunmasına yönəldilmiş "yaşıl həya tərzi" şəklində həyata keçirilə bilər.

Cəmiyyətdə yaşıl iqtisadiyyat və yaşıl həyat tərzi haqqında məlumat kifayət qədər deyil. "Yaşıl" bilik və bacarıqların formalaşdırılması bütün cəmiyət sahələrini əhatə etməlidir.

Əhalinin sıx məskunlaşdığı ərazidə kərpic zavodunun, daş karxanasının və digər belə müəssisələrin yaradılması və fəaliyyəti nə çağdaş, nə də gələcək nəsillərin maraqlarına xidmət etmir. Əksinə, belə müəssisələr şəhərdən kəhara köçürülməlidir. Hazırda bu istiqamətdə dövlət ərəfindən əsaslı tədbirlər görülməkdədir. Maddi mənfəət əldə edilməsinə göstərilən hərislik insanın ən böyük sərvəti olan sağlamlığına əksər hallarda mənfi təsir gösərir. "Yaşıl" təfəkkürün olmaması təbii ki, "yaşıl həyat tərzi"nin yaranmasına və genişlənməsinə əngəl olaraq qalacaqdır. "Yaşıl" təfəkkürün təbii nəticəsi "yaşıl" davranış olmalıdır. Ətraf mühiti çirkləndirməmək, yaşıllıqları qırmamaq və qorumaq, yeni yaşıllıqlar salmaq sağlam ekoloji mühit yaradılmasında mühüm rol oynaya bilər

Sovet dövründə ətraf mühitin qorunması diqqət mərkəzindən kənarda qalmışdı. Lakin buna baxmayaraq, XX əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyev diqqəti ekologiya sahəsinə yönəltdi. Bakıda çoxlu ağaclar əkildi, şəhər ətrafında meşələr, yaşıllıqlar salındı.

Son illərdə Azərbaycanda ekoloji cəhətdən sağlam mühitin yaradılması diqqət mərkəzindədir. Hələ 2006-cı ilin sentyabrında Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında ekoloi vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı" təsdiq edilmişdir. 2010-cu il Azərbaycanda ekologiya ili elan edilmişdir. Ağacəkmə kampaniyas. xalqin iştirakı ilə həyata keçirilir. Abşeron yarımadasının torpaqlarının müəyyən hissəsini neft tullantıları ilə çirklənmədən qorumaq üçün həmin torpaqlar təmizlənib və orada yaşilliqlar salınıb.

2010-cu il evralın 18-də Azərbaycan Respublikasının Prezidenti ekoloji problemlərə həsr olunmuş müşavirədə ekoloji vəziyyətin sağlamlaşdırılmasını təxirəısalınmaz vəzifə kimi qarşıya qoydu. Bu məqsədlə "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair", "Meşələrin bərpa edilməsi və artırılmasına dair", "Yay-qış otlaqlarından və biçənəklərdən səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair", "Xəzər dənizinin çirklənmədən qorunmas tədbirləri haqqında" və onlarla digər mühüm sənədlər ətraf mühitin sağlamlaşdırılması istiqamətində işlərin görülməsinə təkan verib. Qısa vaxt ərzində modul tipli çirkab təmizləyici qurğulardan ibarət xeyli stansiya inşa edilib.

Təbiətin misilsiz sərvəti olan insanın sağlamlığında əvəzsiz rol oynayan meşələrin qorunması diqqət mərkəzindədir. Meşə torpaqda su balansını qaydaya salır, güclü küləklərin təsirini zəiflədir, sellərin və sürüşmələrinin qarşısını alır, iqlimi tarazlaşdırır.

Azərbaycan Pespublikası Prezidentinin Sərəncamına müvafiq olaraq sosial-iqisadi islahatlarda yeni meşə zolaqlarının salınması, nadir ağac növlərinin əkininin genişləndirilməsi və qorunması üçün mühüm tədbirlə gorulub, 3 milyona yaxın ağac əkilməsi çağırışına bütün ölkə əhalisi qoşulub və artıq bu bir ənənəyə çevrilib və hər ilin yaz-payız aylarında ağacəkmə kampaniyasına start verilir.

Ekoloi cəhədən sağlam ətraf mühitin yaradilmasının ən mühüm şərtlərindən biri ekoloj tarazlığı pozan, əhalisinin sağlamlığına mənfi təsir göstərən təhlükəli məişət tullantilarının zərərsizləşdirilməsidir.

Hazırda Balaxanı ərazisində 20 hektarlıq sahədə bərk məişət tullantılarının təkrar emalı zavodu tikilib, istifadəyə verilmişdir. Sumqayıtda ətraf mühitin çirklənməsinə səbəb olan və əhalinin sağlamlığı üçün ciddi təhlükə törədən tullantıların zərərsizləşdirilməsi sahəsində əməli tədbirlər görülür. Gəncədə və Mingəçevirdə də bu tədbirlərin icrası nəzərdə tulub.

Xəzərin ekoloji sağlamlığını qorumaq üçün Bakının kanalizasiya sistemi müasir dünya standartları səviyyəsində yenidən qurulacaq Bakı buxtasının çirkli tullantılarından birdəfəlik xilas olması üçün ciddi islahatlar həyata keçirilir. Azərbaycanda günəş və külək enerjisinin əldə edilməsi artıq reallaşmışdır. Artıq Azərbayan Respublikasında günəş və külək enerjısı ilə işləyən stansiyalar yaradılmlşdır. Bəşəriyyət müasir dövrdə üzləşdiyi ekoloji, sosial və iqtisadi problemləri həll etmək üçün yeni yanaşmadan istiadə etməlidir.

Yalnız bu halda ekoloji cəhətdən sağlam ətraf mühit yaratmaq mümkündür. Axı Yer kürəsində insanların sayının sürətlə artdığı bir vaxtda insan tələbatlarını ödəmək məsuliyyəti ətraf mühitə daha diqqətli münasibət tələb edir. Çünki insan fəaliyyəti nəticəsində baş verən hər hansı neqativ proses nəinki yaxın, ən uzaq məsafələrdə də hiss olunur və təsirini göstərir, təbiət isə ona qayğını və qayğısızlığı heç vaxt cavabsız qoymur.

Ətraf mühitin çirklənməsi və pozulması insan sağlamlığına və müvafiq olaraq davamlı insan inkişafına mənfi təsir göstərir. Bu həm çirklənmiş mühitin bilavasitə sağlamlığa təsiri nətiəsində, həm də torpaqların şoranlaşması, iqlim dəyişmələrinin fəsadları, kənd təsərrüfatının məhdudlaşdırılması nəticəsində baş verir. Belə mənfi təsirlər və qloballaşma tendensiyaları xalq seleksiyası nəticəsində yaradılmış və çox qiymətli xassələrə malik olan ənənəvi bitki çeşidlərinin və heyvan cinslərinin itirilməsi təhlükəsini də yaradır.

Bu proseslərin qarşısını almaq və ətraf mühiti müasir səviyyədə idarə etmək üçün davamlı insan inkişafına təsir göstərən ətraf mühit amillərinin təsirinin, ümumiyyətlə, ətraf mühitin keyfiyyətinin qiymətləndirilməsi çox vacibdir. Ətraf mühitə təsirin qiymətləndirilməsi təşəbbüsü və buna müvafiq qanun ilk dəfə ABŞ-da 1960-cı illərin sonlarında qəbul edilmişdir. Bu qanuna görə hər hansı bir orta və ya irimiqyaslı iqtisadi layihəni həyata keçirmək və bunun üçün müvafiq

razılaşdırmaların təmin edilməsi üçün "Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi" (ƏMTQ) adlı sənəd hazırlanmalıdır. Bu sənəd olmazsa, yaxud həmin layihənin ətraf mühitə təsiri qəbulolunmaz səviyyədə olarsa, banklar, yaxud digər maliyyə təşkilatları bu layihənin təsdiqindən və maliyyələş-dirilməsindən imtina edirlər. Həmin qanuna görə ətraf mühitə mənfi təsirin nəticələrini aradan qaldırmaq imkanları yoxdur və ya azdırsa, layihə təsdiq edilmir.

Artıq ətraf mühitə təsirlərin qiymətləndirilməsinə tələblər də dəyişmişdir. Bununla əlaqədar olaraq ƏMTQ sənədi digəri ilə əvəz edilmişdir. Bu sənəd daha da təkmilləşdirilmiş Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsidir (ƏMSSTQ).

Göründüyü kimi, artıq layihənin həyata keçirilməsi üçün onun ətraf mühitə mənfi təsirinin olmaması kifayət deyil. Eyni zamanda təklif olunan iqtisadi layihə, məsələn, hər hansı bir müəssisənin yaradılması, ətraf mühitə mənfi təsir göstərməməklə yanaşı, sosial mühiti də yaxşılaşdırmalıdır. Qeyd etmək lazımdır ki, müstəqillik qazanandan sonra Azərbaycanda həyata keçirilən bütün layihələr üçün belə sənədlər milli və beynəlxalq təşkilatlar tərəfindən hazırlanmışdır və indi də hazırlanır.

"Xəzəri sevən bir insan kimi, mən istəyirəm ki, o, yaşasın, o, təmiz olsun və onun təbiəti qorunsun" [1]. Xəzər dünyada ən böyük göldür (okean ilə əlaqəsi yoxdur). Xəzər dənizində 133 növ balıq yaşayır, 466 növə aid milyonlarla quşun köçməsi buradan keçir. Əvvəllər dünyada olan nərəkimilərin 90 %-ə qədəri Xəzərdə idi, lakin son 50 ildə onlar kəskin azalmışdır. Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatı 10 mlrd. ton hesab edilir. Bu sərvətlərin uzunmüddətli istifadəsi Xəzərin kimyəvi çirklənməsinə səbəb olmuşdur. Abşeron sahilində neftə görə çirklənmə normadan dəfələrlə çoxdur.

Keçmişdə Xəzərin əsas sərvəti balıq idisə, indi neftdir. Müxtəlif qəza hallarında dənizə onlarla ton neft tökülmüşdür. Abşeron yarımadasında 150 ildə çirklənmiş torpaqları yağış yuyub Xəzərə tökmüşdür. Bu dənizə çaylar vasitəsilə axıdılan kimyəvi çirkləndiriçilər də çoxdur.

Xəzər dənizinin gələcəyinə yeganə ümid ondan ibarətdir ki, son illərdə aparılan əməliyyatlar dünya standartlarına uyğundur. Dənizin canlı və cansız hissələri üzərində ardıcıl monitorinq aparılır. Onun şəffaflığı, çöküntüləri, rəngi, iyi, dadı, zəhərli olması, quru qalıqları (suda həll olmuş duzlar) yoxlanılır. Dənizdə olan xloridlər, dəmir, permanqanat, oksidləşmə, ammonium, nitrit və nitrat azotları, həll olmuş oksigen, səthi aktiv maddələr və yolxucu xəstəliklər diqqət mərkəzində saxlanılır. Bu tədbirlər Beynəlxalq və Dövlətlərarası müqavilələrə əsaslanır.

İstifadə edilmiş ədəbiyyat

1. H.Əliyev. Seçilmiş əsərləri. Bakı 1998.
2. İ.Əliyev. Çixişlar, məruzələr. Bakı 2010.
3. N.Gəncəvi. "Sirlər xəzinəsi" Bakı, 1980

HEYDƏR ƏLİYEV VƏ TƏHSİL SİYASƏTİ

Ülkər Məmməd qızı Məmmədova
Gəncə Dövlət Universiteti
email.umemmedova259@gmail.com

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində və dövlətçiliyin inkişafında misilsiz xidmətləri olmuşdur. Ümummilli Liderin çoxşaxəli fəaliyyətində təhsil xüsusi yer almışdır. Ulu Öndərin təhsil siyasəti dərin milli mənafelər üzərindən qurularaq, ölkəmizin davamlı və dayanıqlı inkişafına xidmət etmişdir. Yüksək inkişaf etmiş ali təhsil sistemi cəmiyyətin, dövlətçiliyin, iqtisadiyyatın və sosial-rifahın inkişafını təmin edir, ölkənin siyasi, hüquqi, beynəlxalq və hərbi qüdrətini gücləndirir. Heydər Əliyevin istər Sovet İttifaqı dövründə, istərsə də müstəqilliyin bərpasından sonrakı dönəmdə ölkəmizə rəhbərlik etdiyi zamanlarda həyata keçirdiyi təhsil siyasəti mühüm fundamental və tarixi əhəmiyyətli məqsədləri hədəfləmişdir. Ulu Öndərin təhsil

strategiyasının kökündə Azərbaycan iqtisadiyyatının, sənayesinin, savadlı əhalinin inkişafına yönəlmiş strateji addımlar, ən əsası isə milli-mənəvi dəyərlərin qorunması, yaşadılması, xalqın tarixi, mədəniyyəti, ədəbiyyatı, dili, folkloru və bütövlükdə milli yaddaşının mühafizəsi və ölkənin qüdrətli gələcəyinə xidmət etməsi dururdu.

Hələ XX əsrin 70-80-ci illərində Azərbaycanda təhsilin inkişafına ayrılan diqqət, ana dilinin inkişafına yönəlmiş siyasət, sənayenin müxtəlif sahələri üzrə gənc kadrların SSRİ-nin müxtəlif ali təhsil müəssisələrində oxumağa göndərilməsi, ali məktəblərin sayının artırılması kimi uğurlu işlərin nəticələri müstəqilliyin bərpasından sonrakı dövrdə özünün əhəmiyyətini xüsusi olaraq göstərdi. 1978-ci ildə Azərbaycanın Konstitusiya layihəsinin hazırlanması zamanı Heydər Əliyevin Azərbaycan dilini ana dili kimi bu layihəyə əlavə etməsi həm milli identikliyin qorunması baxımından mühüm addım, həm də 1970-ci illərdə yüksəliş dövrünü yaşayan Sovet İttifaqında milli-mənəvi dəyərlərin qorunması istiqamətində atıla biləcək cəsarətli addım kimi əhəmiyyətli idi. Heydər Əliyev çox gözəl bilirdi ki, millətin dilinin qorunması onun milli kimliyinin (mənliyinin) mühafizəsi demək idi. 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunun tətbiq edilməsi barədə" Sərəncamı bu istiqamətdə illərlə aparılan siyasətin məntiqi davamı idi. Ulu Öndər tərəfindən Azərbaycan dilinin qorunması, tədrisi, tədqiqi və inkişafı baxımından görülən tədbirlər milli-mənəvi yaddaşımızın mühüm hadisələri sırasındadır. Heydər Əliyevin Azərbaycan dilinə, onun qorunmasına və inkişafına olan həssaslığı böyük rəhbərin özü tərəfindən aydın şəkildə ifadə edilmişdir: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir". Bir millətin yaşamasında, milli kimliyinin və dövlətçiliyinin qorunmasında ana dilinin əhəmiyyəti haqqında deyilən fikirlərdən gözəl tərif ola bilməz. Azərbaycan dilinin qorunması həm də təhsilin inkişafı məsələsi idi. Bu istiqamətdə Ulu Öndərin atdığı addımlar sırasında ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanması, təhsilin əlçatanlığı və coğrafiyasının genişlənməsi əsas prioritetlərdən olmuşdur. Hələ 1970-ci illərdə ümumi təhsil sahəsində işin təşkilinin təkmilləşdirilməsi məqsədi ilə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlar qəbul edilmişdir. Heydər Əliyevin inkişaf strategiyasının davamlılıq və dayanıqlılıq prinsipinə uyğun olaraq qısa bir zamanda ölkə üzrə ümumtəhsil məktəblərinin sayında inanılmaz artım baş vermiş, 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 2100-ü, 1982-ci ildə isə 4200-ü, eləcə də bu müddət ərzində şagirdlərin sayı 700 min nəfəri keçmişdir. Təhsil müəssisələrinin sayının artırılması ölkənin bütün ərazisində, ucqar kənd yerlərində təhsilə çıxış imkanlarını asanlaşdırmış, keyfiyyətli təhsil və öyrənmə imkanlarını artırmışdır.

Ulu Öndərin hakimiyyəti illərində ali təhsilin inkişafı hər zaman diqqətdə saxlanılmış, kadrların xüsusi çəkisində əhəmiyyətli artım müşahidə olunmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində ali məktəblərin sayı da çoxalmış, yeni ali təhsil müəssisələri yaradılmışdır. Artıq 1982-ci ildə ali təhsil müəssisələrində təhsil alan insanların sayı 100 min nəfərə çatmışdır. Azərbaycanda təhsil alanlarla yanaşı, SSRİ-nin digər ali təhsil müəssisələrində də soydaşlarımızın oxuması məqsədi ilə yüzlərlə həmyerlimiz keçmiş ittifaqın ən aparıcı universitetlərinə göndərilmişdir. Qeyd olunmalıdır ki, hazırkı Bakı Slavyan Universitetinin də inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlı olmuş, onun diqqət və qayğısını daim hiss etmişdir. Məhz Ulu Öndərin təşəbbüsü ilə 1972-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun bazasında Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu yaradılmışdır. İnstitutun işinin yeni formatda təşkili onun elmi-pedaqoji potensialının sürətli inkişafına, regionda öz sahəsi üzrə mükəmməllik mərkəzinə çevrilməsinə xidmət etmişdir. Ulu Öndərin 13 iyun 2000-ci ildə imzaladığı və ölkənin təhsil sisteminin təkmilləşdirilməsinə xidmət edən Sərəncamı ilə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında Bakı Slavyan Universitetinin yaradılması isə ölkəmizin yeni inkişaf dönəmində atılmış mühüm addımlardan idi. Məhz Ulu Öndərin müəyyən

etdiyi inkişaf istiqamətlərinə uyğun olaraq Bakı Slavyan Universiteti slavyan dilləri, ədəbiyyatı, mədəniyyəti üzrə tədrisin və tədqiqatın təşkili sahəsində regionda yeni aparıcı bir təhsil məkanının yaranması ilə nəticələndi. Təəssüf ki, ölkəmizin tarixinin müəyyən dövrlərində baş vermiş hadisələr milli dövlətçiliyimiz, ərazi bütövlüyümüz, müstəqilliyimiz və gələcəyimiz üçün ciddi təhdidlər yaratmışdır. Belə ki, 1988-ci ildən etibarən Ermənistan tərəfindən ölkəmizə qarşı başlanmış təcavüz Azərbaycan torpaqlarının işğalı ilə nəticələndi. Baş verən proseslər iqtisadiyyatın digər sahələrində olduğu kimi, təhsil ekosisteminə, xüsusilə onun infrastrukturuna, o cümlədən coğrafiyasının daralmasına və mahiyyətinin dəyişməsinə təsir etdi. 30 ilə yaxın işğal müddətində digər infrastruktur və tarixi, mədəni, mənəvi abidələr kimi təhsil müəssisələri də məhv edilmişdir. 1991-1992-ci illərdə ölkədə baş almış hərc-mərcilik, siyasi hakimiyyətin milli maraqları təmin edə bilməməsinin nəticəsi olaraq iqtisadi inkişafa nəinki nail olunmuş, əksinə, əvvəlki dövrlərdə mövcud iqtisadi potensial da tükənmiş və tənəzzülə uğramışdır. Bu hadisələrə paralel olaraq ölkə ərazilərinin işğalı sosial böhran şəraiti yaratmış, yüz minlərlə məktəblinin ölkənin müxtəlif təhsil ocaqlarına cəlb olunması kimi aktual məsələlər yaratmışdır. Azərbaycan üçün belə məsuliyyətli dövrdə onu bu xaosdan və böhrandan çıxara biləcək yeganə tarixi şəxsiyyət olan Heydər Əliyevin 1993-cü ildən etibarən həyata keçirdiyi uzaqgörən iqtisadi və sosial strategiyası qaçqın və məcburi köçkün gənclərin yeni təhsil mühitinə inteqrasiyasını təmin etmiş, işğal edilmiş rayonlardan məcburən köçmüş pedaqoji heyətin işlə təmin olunması ilə nəticələnmişdir. Təhsil siyasətinin qarşısında duran bu mühüm çağırış Heydər Əliyevin rəhbərliyi altında uğurla həll edilmiş, təhsilin təşkili həyata keçirilmişdir. Bu dövrdə məcburi köçkün həyatı yaşamış on minlərlə şagird olaraq hər birimiz Ulu Öndərin rəhbərliyi altında inkişaf edən təhsil sistemindən bəhrələnmiş və ali təhsil almışıq.

Ulu Öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda hakimiyyətə qayıtmasından sonrakı dövrdə bu sahənin inkişafında yeni bir mərhələ başladı. Müstəqil dövlətin iqtisadi inkişafının təmin olunması, daxili və xarici siyasətdə uğurlu nəticələrin əldə olunması üçün təhsilin inkişafına xüsusi önəm verildi, kadr hazırlığı məsələləri diqqət mərkəzində saxlanıldı. Prezident İlham Əliyevin uğurlu təhsil siyasətinin mühüm şərtlərindən biri bu siyasətin əsasında Ulu Öndər Heydər Əliyevin təhsil strategiyasının dayanmasıdır. Məhz 2003-cü ildən etibarən Azərbaycan gənclərinin təhsil imkanlarının artırılması, bütün pillə və səviyyələr üzrə təhsilə əlçatanlığın təmin olunması, onun coğrafiyasının genişləndirilməsi bu siyasətin əsasında duran mühüm hədəflərdəndir. Prezident İlham Əliyevin siyasəti təhsilə əlçatanlığı təmin etmək məqsədi ilə müxtəlif dövlət proqramlarını həyata keçirməyi özündə ehtiva edir, müəyyən layihələr vasitəsi ilə gənclərin istər yerli, istərsə də xarici ali məktəblərdə təhsil imkanlarını genişləndirir. Prezident İlham Əliyevin rəhbərliyi altında azərbaycanlı mütəxəssislərin beynəlxalq rəqabətə davamlılığı istiqamətində mühüm addımlar atılmış, ali təhsil müəssisələrinin inkişafı, onların beynəlmilləşməsi və keyfiyyətin artırılması istiqamətində mühüm işlər görülməkdədir. Bu sahədə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr istər ümumi təhsil, istərsə də daha yuxarı təhsil pillələri və səviyyələri üzrə həm təhsilin, həm də bütövlükdə gəncliyin inkişafına yönəlmişdir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş uzaqgörən inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi ölkəmizin tarixinin yeni dönəmində qarşıda mühüm prioritetlər formalaşdırır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xüsusilə uğurlu iqtisadi, siyasi, hərbi-müdafiə quruculuğu, eləcə də təhsil və gənclər siyasətinin nəticəsində mümkün olmuşdur. Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq işləri gələcək inkişafımızın istiqamətlərini və prioritetlərini qarşımızda aydın şəkildə müəyyən edir, ali təhsil müəssisəsi olaraq kadr hazırlığı prosesində qarşımızda duran vəzifələri uğurla yerinə yetirmək üçün məsuliyyətləri müəyyən edir.

Ulu öndər Heydər Əliyevin fəaliyyətinə qiymət verərkən onun Azərbaycan təhsili sahəsində gördüyü mühüm və nəhəng işlər haqqında danışmamaq mümkün deyil. Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının rəhbərliyinə təyin olunan gündən başlayaraq Azərbaycan təhsilinin inkişaf etdirilməsi, o dövrün ən aktual tələblərinə cavab verməsi üçün əlindən gələni etmişdir. Onun təhsil siyasətini xronoloji baxımdan iki hissəyə bölmək olar: 1969-1982-ci illər -

Ulu öndərin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi vəzifəsindəki və müstəqil Azərbaycana prezidentliyi dövründə fəaliyyəti. 2000-ci il iyun ayında ümummilli lider Heydər Əliyev təhsil müəssisələrinin yenidən qurulmasını sürətləndirmək, eyni zamanda onların maddi texniki təchizatını gücləndirmək məqsədi ilə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" yeni sərəncam imzaladı. Sərəncamın həyata keçirilməsi sayəsində Azərbaycanın təhsil müəssisələrinin yenidən qurulması işləri aparılmaqla bərabər, Azərbaycan təhsilinin dünyanın qabaqcıl təhsil sisteminə inteqrasiyası sahəsində də böyük işlər görüldü. Orta təhsil müəssisələrinə keyfiyyətli müəllim kadrların hazırlanması üçün Azərbaycan Müəllimlər İnstitutu yaradıldı. 2002-ci ilin oktyabrında "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" yeni sərəncam imzalandı ki, bu da Azərbaycanda 500-dən çox orta təhsil müəssisənin maddi texniki bazasının yenidən qurulmasına, onların təhsil səviyyəsinin müasir standartlar səviyyəsinə qaldırılmasına imkan verdi. Azərbaycan təhsilinin inkişafına xüsusi qayğı göstərən Ümummilli lider Heydər Əliyev təhsil işçiləri ilə görüşlərinin birində "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir" deyirdi və Azərbaycana həsr etdiyi ömrünün hər anında təhsilin inkişafına çalışmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev (1997). Müstəqilliyimiz əbədidir (cild1). Bakı, Azərnəşr
2. Azerbaycan Tarihi. (2007). Cilt 4, Bakü: Elm Yayınları
3. C.Məmmədzadə. Təhsil haqqında. Bakı, 2009
4. J.Məmmədova. Elm və təhsil. Bakı, 2003

YAŞIL DÜNYA NAMİNƏ

Nurlana Zakir qızı Mustafayeva
Mingəçevir Turizm Kolleci
nurlana.mustafayeva2023@gmail.com

Yaşadığımız mühitin dövlət tərəfindən qorunması həmişə diqqət mərkəzində olmuş və bu sahədə dayanmadan ciddi islahatlar həyata keçirilir. Məhz buna görə də Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 2010-cu ili ölkəmizdə "Ekologiya ili" elan etmişdir. "Ekologiya ili "ndə müxtəlif tədbirlər görüldü və ən başlıca məsələ isə əhali arasında maarifləndirmə işi oldu. Azərbaycanda ekoloji mühitin pozulması, şəhərlərimizdə atmosfer havasının çirklənməsi hamımıza məlumdur. Kür, Araz və digər çayların, Xəzər dənizinin, torpaqların çiçəklənməsi, bir sıra bitki və heyvan növlərinin bioloji müxtəlifliyinin pozulması təxirə salınmadan yeni qərarların həyata keçirilməsinə təkan verən ən mühüm amillərdir. Prezident İlham Əliyev tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili " 2024-cü ildə elan olunmuş bu dəyərli təklif bütün xalq tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Akademik D.L.Lixaçovun bu müdik kəlamını xatırlamaq yerinə düşərdi: "Təbiət və insan münasibətləri - iki mədəniyyətin münasibətləridir, onlardan hər biri özünəməxsus davranış qaydalarına malikdir." [2, s.68]

Azərbaycan yüksək floraya malikdir. Yer kürəsinin təbii zənginliyinin gündən-günə azalması insanların sağlamlığına ciddi ziyan vurur. oloji müxtəliflik misilsiz milli sərvətdir, bioloji müxtəliflik bütün yaşayış mühitlərində - quruda, dənizdə və digər su ekosistemləri və ekologiya da daxil olmaqla, canlı orqanizmlərin növ müxtəlifliyinə aiddir. Ekosistemin öyrənilməsi təbii sərvətlərdən faydalanmaq, təbiəti qorumaq, təbiəti yaşıl zonaya çevirmək dövrümüzün ən vacib problemlərindəndir.

1993-cü ildə xalqın istəyi ilə yenidən Azərbaycana rəhbərlik etməyə başlayan və bu ildə. Yəni 2024-cü ildə 101 illiyi böyük məhəbbətlə keçiriləcək Heydər Əliyev ətraf mühitin qorunması üçün bir sıra mühüm addımlar atmışdır. Təbiətə böyük həssaslıqla yanaşan Heydər Əliyev: "Ətraf mühitə

insani münasibət göstərilməsi, biomüxtəlifliyin qorunub saxlanılması bizim gələcəyimiz üçün çox vacibdir. Biz təbiətdən təcrid olunmuş şəkildə yaşaya bilmərik" [2, s.68] deyirdi. Ölkəyə yağı düşmən tərəfindən vurulmuş ziyan iqtisadiyyatla yanaşı, ounu təbiətini də yox edir, 1988-1994-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal edilmiş, bu ərazilərdə yabanı ağac və kol bitkiləri yox edilmişdir. Yabanı ağac və kollar dünyanın heç bir yerində təbii halda bitmir.

Son illərdə ekologiya haqqında Azərbaycanda böyük fəallıq göstərilir, bir çox proqramlar həyata keçirilir. İnsanı təbiətin ən mühüm hissəsi hesab etmək lazımdır. Çünki insanın həyatı, fəaliyyəti təbiətlə bağlıdır. XX əsrin əvvəllərində Yer üzərində əhalinin sayı bir milyard, əsrin sonunda 6 milyarda çatdı, əslində Yer üzərində əhalinin sayı 1-1,5 milyard nəfər hüdudunda olmalıdır. Meşələrin məhv edilməsi, çöllərin şumlanması, süni göllərin və dənizlərin yaradılması, yol, kanal və trasların tikilməsi nəticəsində yer səthində böyük dəyişikliklər baş verdi, bunların nəticəsində canlı aləm ciddi təhlükəyə məruz qaldı. Hər bir azərbaycanlı vətəndaş ölkəsinin flora və faunası növlərinin bərpası üçün var qüvvələri ilə çalışmalıdırlar. Azərbaycanın bütöv tarixinin canlı şahidi olan şair Nəriman Həsənzadənin yaradıcılığından bir bəndi yuxarıdakı fikirlərə çox uyğundur:

Şuşa qədim bir millətin Şuşasıdır,
Pənah xanın, Xan əminin Şuşasıydı.
"Xarı bülbül" gül dibində oxuyurmu?-
Orda gülü gül duyurm?!
"Gedək İsa bualğına,çıxaq Qırxqız yaylağına;
Azərbaycan qoy and içsin
Azərbaycan torpağına.
Su çiləsin sinəmdəki bir ocağın qor yerinə,
Səpin məni vətənimin hər yerinə.
Səpin məni kül yerinə,
Bitəcəyəm bu torpaqdan mən "Xarı bülbül" yerinə. [3, s.1]

Dünyada ətraf mühitin çirklənməsi xalqın artan tələbatına görə güclü inkişafa çatmaq üçün "yaşıl" iqtisadiyyatın genişlənməsi uğrunda tədbirlər Vətənimizin hər bir guşəsində böyük məhəbbətlə həyata keçirilir və keçirilməkdədir.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə deyirdi ki, "Azərbaycanda günəş,külək və su enegetikasının ehtiyatları böyükdür, amma bunların əsl inkişafı 30-40 ildən sonra baş verəcək." Dünyada son zamanlar planetdə baş verən problemlərlə yanaşı, ekoloji məsələlər də bizləri çox narahat edir. Bəşəriyyəti məhv edə biləcək kosmik fəlakətlərin, havada karbon qazının çoxalması, Ozon qatının deşilməsi hesabına planetin temperaturunun artması, təbiət hadisələrinin qarşısı alınmağa şalışılsa da, ekoloji hadisələrin dünya miqyasında artmasının qarşısını almaq mümkün deyil. Bütün bunları əvvəlcədən görən Ulu öndər H.Ə.Əliyev hələ neçə illər öncə demişdir: "Təbiətin ölkımizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir." Ölkəmizdə günəşli günlərin çox olması nəticəsində günəş-istilik enerjisinin daha da inkişafını yüksəltmək mümkündür. Dünyada ilk dəfə XIX əsrin sonunda "Elektrik enerjisi" yaranmışdır, 1898-ci ildə Bakıda çıxan neftin yarısından çoxunu əhatə edirdi. Mingəçevir SES 1954-cü ildə, üç il sonra isə Varvara SES fəaliyyət göstərmişdir.

Dünyada "yaşıl enerji" kimi tanınan bu təcrübə geniş yayılmışdır. Azərbaycanın dilbər guşəsi Qarabağda "yaşıl enerji" layihələrinin geniş miqyasda tətbiq edilməsi və ərazinin yaşıl zonaya çevrilməsi dövlət tərəfindən həyata keçirilməkdədir. Dövlət başçısı bildirib ki, "yaşıl enerji" konsepsiyası Azərbaycanı irəliyə aparan yoldur:"Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. "Qarabağda "ağıllı şəhər", hətta "ağıllı kənd" adlanan müasir texnologoyaları hərəkətə gətirəcəyik. Təbiətin vətənimizə bəxş etdiyi zəngin faydalı qazıntılar, yeralti və yerüstü ehtiyatlar, su, torpaq,bioloji və meşə sərvətləri, zəngin bitki örtüyü, külək, su, torpaq, istilik enerjisi, müalicə əhəmiyyətli mineral bulaqlar xalqımızın milli sərvətidir.

Şirin su ehtiyatının keyfiyyətcə tükənməsi fikri də bu günki həyatımızda mühüm rol oynayır. Suyun saf saxlanılması, balıqların və.s canlıların inkişafna şərait olunması məqsədilə - çirkabların su mənbələrinə tökülməsinin qarşısını almaq, suyun təmizlənməsi hər zaman dövlətin nəzarəti altındadır. Su yaradıcı və həyatverici qüvvədir. Susuz heç bir canlı yaşaya bilməz. Yer üzündə xaos yaratmış, eyni zamanda həyatla dolu planet əmələ gəlmişdir. Su dünyanın ən böyük sərvətidir. Su-həyat deməkdir. Bütün canlı varlıqlar su vasitəsilə yaşayıb-yaradır, dünyanın yaşıllıqlarla əhatə olunması, yaşıl zonaların yaradılması da su ilə əlaqədardır. Yer üzünün dörddə üç hissəsi sudur. Azərbaycanlılar suya, bir növ, canlı varlıq kimi yanaşırlar. Xalqımız üçün su yaşamaq üçün ın böyük nemətdir, su paklıq, xeyirxahlıq, gözəllik, təmizlik, torpağa can verən varlıqdır. Xalqımızın gözəl bir adəti var, səfərə çıxanın ardınca su atırlar. Su Böyük Tanrının insanlara böyük lütfüdür. Yapon alimi Masaru qətiyyətlə deyir ki," Zəm-zəm suyunun kristalları "Bismillahir-Rahmanir-Rahim" ilə başlanan duanı "eşidən kimi" kristallarını dəyişərək gözəl bir görkəm alır." [3, s.17]

Bütün dünyada yeraltı, yerüstü sərvətlər var və bu sərvətlər xalqın inkişafına sərf olunur. Azərbaycanda olan bu müxtəlif sərvətlər ta qədim dövrdən indiyəqədər xalqa xidmət etmişdir. Su nəyinki insan həyatına vacib amildir, həm də insanlara yaşamaq eşqi yaşadan təbiətin möcüzəsidir. İllərlə təbiətimizə amansız zərbələr vurulmuşdur, təbiətimizi məhv etməklə insanları oksigendən məhrum etmişlər. Təbiətin insanların həyatında olan mövqeyi heç nə ilə əvəz oluna, ona görə də yaşadığımız hər bir məkanda, təhsil aldığımız, işlədiyimiz hər bir sahədə yaşıllığı, gözəlliyi yaratmaq hamımızın vətəndaşlıq borcudur.

"Yaşıl dünya naminə həmrəylik ili" nin ardıcıl surətdə həyata keçirməklə, hər bir vətənsevər öz vətəndaşlıq borcunu yerinə yetirir. Bütün bunlar bir daha sübut edir ki, xalqımızın Vətən sevgisi tükənməzdir. Ana sevgisi, Torpaq, Vətən sevgisis ilə böyüyən gənclərimizin köməyi ilə Azərbaycan 2030-cu ilə qədər "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi tanınacaqdır. Azərbaycan Respulikasının Prezidenti İlham Əliyevin 2030-cu ilə qədər tərtib etdiyi bu dəyərli layihənin həyata keçirilməsində bizlər də əlimizdən gələni edəcəyik və inanırıq ki, "Yaşıl düyna naminə həmrəylik ili"nin hər sahədə güclü inkişafı ölkəmizə, xalqımıza gözəl həyat bəxş edəcək. Biz hamımız inamla prezidentimiz İlham Əliyevlə birlikdəyik, Yeni Qarabağda yeni uğurlara!

Dünya Azərbaycanlılarının I qurultayında Ümummilli lider Heydər Əliyev yaddaşlara iz salan nitqinin sonunda öz xalqına əbədi arzularını yetirdi: "Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin, qoy çırağımız sönməsin!..." [3, s.2]

İstifadə edilmiş ədəbiyyat

1. "Mədəni-maarif" jurnalı / № 7, 2010
2. "Mədənniyyət" jurnalı / № 4, 2020
3. "Mədənniyyət" jurnalı / № 5, 2010
4. "Söz" jurnalı, 2015
5. Ələkbərov U. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Bakı, 2007
6. Nəbiyev N. Təbii sərvətlər və ekoloji mühit. Bakı,1987

ƏSKİ AZƏRBAYCAN ƏLİFBASININ TƏDRİS MÜƏSSİSƏLƏRİNDƏ TƏDRİSİ

Jalə Əliyəsər qızı Məmmədova
Mingəçevir Turizm Kolleci
ismailibrahimov89@gmail.com

Dünya sivilizasiyasında ən böyük bəşəri nailiyyətlərdən biri yazı və əlifbanın kəşf edilməsidir. Bu kəşfdən sonra insanlar artıq düşündüklərini və danışdıqlarını yazıda ifadə etməyə nail oldular. Dünyanın bir sıra xalqlarında olduğu kimi, Azərbaycan xalqının da əlifba, yazı mədəniyyəti çox qədimlərə gedib çıxır. Şumerlərin vaxtından mövcud olan əlifbamız təəssüflər

olsun ki, bu günə qədər bizim əlimizə gəlib çatmamışdır. [2] Buna baxmayaraq, Azərbaycan xalqının əski əlifbası bir neçə əsrlik tarixə malikdir. Bilirik ki, VII əsrdən ərəblər bir çox ölkələri, o cümlədən Azərbaycanı islam dinini, ərəb əlifbasının tətbiqini yaymaq məqsədilə işğal etmişlər. Bunun nəticəsində əski Azərbaycan əlifbası 13 əsr, yəni XX əsrin əvvəllərinə kimi geniş istifadə olunmuşdur. Bu baxımdan uzun müddət biz əski əlifbamız olaraq ərəb əlifbasından istifadə etmişik.

Bu gün də ərəb əlifbasını bilmək bizim üçün cox zəruridir. Bu əlifbanı bilmək bizim mədəni irsimizin, milli kimlyimizin, bir sözlə, bütün keçmişimizin ən böyük sübutudur. Bizim böyük şair və yazıçılarımız öz əsərlərini ərəb əlifbası ilə yazmışlar. Əski əlifbanı öyrənmək Azərbaycan xalqının yazı mədəniyyətinin, əlifba sisteminin qədimlərə bağlı olduğunu bizlərə sübut edir. Məhz bizim məqsədimiz bu gün universitetlərdə, kolleclərdə bəzi ixtisaslarda bu fənni tədris etməklə, kecmişimiz unudulmamasına, hətta daha da çiçəklənməsinə nail olmaqdır.

Azərbaycan-ərəb əlifbasının xarakteri və məzmunu mürəkkəbdir. Onu mükəmməl öyrənmək və istifadə etmək xeyli çətindir. Ərəb əlifbasının oxunuşu çətindir. Bu gün Əski ərəb əlifbasını öyrənmək üçün ən önəmli bilməli olduğumuz bir neçə qayda var. İlk öncə tələbələbələrə əlifbanın fonetik-orfoqrafik qaydalarından bəhs etmək lazımdır ki, məlumatları olsun. Daha sonra yazılışını öyrədərkən neçə şəkilli olmağı haqqında bilməlidirlər ki, çətinlik çəkməsinlər. Əski ərəb əlifbasında bir neçə xətt növü var. [1] İlkin mərhələlər üçün tətqiqatçılar ərəb əlifbasının iki mühüm xətt növünü qeyd edirlər: kufi və nəsx. Kufi xətti XI əsrə qədər fəal işlənmiş, bundan sonra isə ancaq epiqrafik məqsədlə memarlıq abidələrində, dəmir pulların üzərindəki yazılar üçün tətbiq olunmuşdur. Kufi xətti ilə müqayisədə kursiv yazısını xatırladan nəsx xətti sürətlə yazmaq üçün əlverişli sayılırdı.

Yazı təkmilləşdikcə xətt növləri də dəyişdi. Get-gedə daha da asan oxumaq oldu. Bəli, xətt növlərini bilməkdə məqsəd yazının hansı dövrə, hansı xəttə aid olduğunu biləndə oxumaq asan olur. Xətt növünə görə hərflərin yazılışında fərqlər olur. Tələbələrimizin çətinliyi xətt növlərindədir. Ərəb əlifbasının hər hansı xətt növü üzrə qazanılan səriştə və bacarıq böyük məşq tələb edir. Təsadüfi deyil ki, ərəb müəllifləri, Məhəmməd peyğəmbərin xəlifə Əlinin xəttini səciyyələndirərkən söylədiyi kəlamını tezis kimi irəli sürmüşlər: "Əl-xəttü nisf ül elm" (Gözəl xətt elmin yarısıdır). [3]

İlk öncə tələbələrimizə ərəb əlifbasında olan hərflər haqqında məlumat veririk. Bu əlifbada 33 hərf vardır (ərəb əlifbası 28 hərfdən ibarətdir). Həmin əlifbada 5 hərfi fars və Azərbaycanlı katiblər əlavə etmişlər. Hərflər sağdan sola, rəqəmlər isə soldan sağa yazılmalıdır. Bu əlifbada böyük hərflər yoxdur. Hərflərdən 14-ü nöqtəsiz, 19-u nöqtəlidir. 11-i birnöqtəli, 2-si ikinöqtəli, 5-i üçnöqtəlidir. Nöqtələr qrafemin üstündə və ya altında qoyulur. Hərflərin bir qismi bir-birindən (eyni kök işarədən) törənmişdir. Belə desək, daha asan olar eynikök deyəndə, eyni hərflərdir, yalnız nöqtələrinin mövqeyinə, yerinə görə bir-birindən fərqlənirlər. Nöqtələr ya qrafemin üstündə, ya altında qoyulur, ya da nöqtələrin sayına görə hərfləri fərqləndiririk. Əlifbadakı hərflərdən 7-si iki şəkillidir (iki cür yazılır). 26 hərf dörd şəkillidir (dörd cür yazılır). Iki şəkilli hərflər bir qayda olaraq, bir-birilə və özündən sonra gələn hər hansı hərflə (o cümlədən, dörd şəkillilərlə) birləşə bilmirlər. Dörd şəkilli hərflər isə bir-birilə və özlərindən sonra gələn iki cür yazılan hərflərlə bitişik yazılır. Ərəb əlifbasında saitlər yoxdur. Onları yardımçı işarələr-hərəkələrin köməyilə göstəririk. Yardımçı işarələr də nöqtələr kimi hərflərin üstündə və altında yazılır. Hərəkəli mətnlər rahat şəkildə oxunur, amma hərəkəsiz mətnlərdə tələbələrimiz cətinlik cəkirlər. Bu da vərdiş tələb edir. Hərflərin bəzisi qrammatoloji və orfoqrafik baxımdan spesifik səciyyə daşıyır. Belə ki, 8 hərf fonetik cəhətdən ancaq ərəb dilinə məxsusdur, ərəb dilinin danışıq səslərini əks etdirdiklərinə görə həmin hərflərlə ancaq ərəb mənşəli sözlərin yazılışına yer verilir. Bu hərflər t, s, z, h samitlərinin fizioloji-məxrəc variantları ilə, apostrof işarəsi və dilimizdəki ərəb mənşəli sözlərin başında gələn bəzi saitlərlə əlaqədardır. Qeyd edək ki, əlifbaya əlavə olunmuş 5 hərfə (p, ç, j, k və "sağır nun" samitlərinin işarələrinə) ərəb mənşəli sözlərin yazılışlarında rast gəlmək olmaz. Həmçinin "Sağır Nun" səsinin işarələrindən ancaq dilimizə məxsus bəzi sözlərin, şəkilçilərin yazılışında istifadə edilməlidir.

Son olaraq qeyd edək ki, bütün bu sadalanan qaydaları biləndən sonra artıq tələbələr də və ərəb əlifbasını örənmək istəyən istənilən şəxs də rahat şəkildə, köməksiz düzgün oxuyub yaza bilər.

Əski əlifbanı yaxşı öyrənməkdə əsas məqsəd dilimizin mənşəyini, əlifba reformasını gənc nəsillərə çatdırmaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Afaq Məmmədova . Əski Azərbaycan Yazısı. Bakı - 2022, s. 16
2. Cahan Ağamirov. Əski Azərbaycan Yazısı. Bakı -2016, s. 3 s.
3. Samət Əlizadə. Əski Azərbaycan Yazısı. Bakı – 1993, s. 24.

SÜNİ İNTELLEKTİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Bəsti Əziz qızı Əvəzova
Mingəçevir Turizm Kolleci
besdi.evezova009@gmail.com

Süni intellekti təyin edən təriflər zamanla dəyişir, amma əsas məğz olan insan kimi düşünən maşınlar ideyası dəyişməz olaraq qalır. Qloballaşan müasir cəmiyyətdə süni intellektin inkişaf perspektivləri demək olar ki, bütün fəaliyyət sahələri üzrə nəzərə alınır:

Səhiyyə. Səhiyyədə diaqnozun qoyulmasında həkimlərə kömək edir, ilk tibbi yardımın vaxtında göstərilməsi üçün xəstələri vəziyyətlərinin pisləşməsi barədə məlumatlandırır.

Təhsil. Hazırda süni intellekt müxtəlif ölkələrdə məktəblər və kolleclər tərəfindən istifadə olunur və tədris, eyni zamanda öyrənmə üçün yeni həll yolları hazırlayır. Təhsildə süni intellektdən istifadənin məqsədi insan müəllimləri əvəz edəcək bir müəllim kimi humanoid robotlar hazırlamaq deyil, müəllimlərə və tələbələrə kömək etmək, təhsil sistemini daha yaxşı, effektiv etməkdir.

Bank. Bank sahəsində müştəri xidməti, investisiya, fırıldaqçılıqdan qorunma və s. kimi proseslər üçün istifadə edilinir. Adi bir əməliyyat etdikdə banklardan aldığımız avtomatik e-poçtlar sadə bir nümunədir. Sİ hesabımızı izləyir və hər hansı potensial fırıldaqla bağlı bizi xəbərdar etməyə çalışır.

Sosial media. Bir neçə sosial media tətbiqi kiberzorakılıq, kibercinayətkarlıq və s. kimi problemləri həll etmək üçün süni intellektdən istifadə edir. Süni intellektin mükəmməl nümunəsi olan sosial şəbəkə, hətta istifadəçinin oxşar məzmunlardan hansını bəyəndiyini anlaya bilir. Üzün tanınması sosial media profillərində də istifadə olunur. Ağıllı filtrlər spam və arzuolunmaz mesajları tanıya və onları avtomatik filtrləyə bilir. İstifadəçilər ağıllı cavablardan da istifadə edə bilirlər.

Turizm və nəqliyyat. Süni intellekt turizm sənayesində çox uğurla tətbiq olunur. Süni intellekt səyahətin təşkilindən tutmuş, otellərin, reyslərin və ən yaxşı marşrutların müştərilərə təklif olunmasına qədər müxtəlif funksiyaları yerinə yetirməyə qadirdir. Turizm sənayesində daha yaxşı və daha sürətli cavabların verilməsi üçün chat botlarından istifadə edir.

Oyun və əyləncə. Süni intellektli maşınlar şahmat kimi strateji oyunlar oynaya bilər. Bu zaman maşın böyük sayda mümkün vəziyyətləri düşünməlidir.

Robototexnika. Robot texnikasında süni intellektin rolu danılmazdır. Bir qayda olaraq, adi robotlar bir sıra təkrarlanan funksiyaları yerinə yetirə biləcək şəkildə proqramlaşdırılmışdır. Lakin süni intellekt vasitəsi ilə əvvəlcədən proqramlaşdırılmayan və təcrübəsinə əsaslanaraq funksiyaları yerinə yetirə biləcək ağıllı robotlar yaradıla bilər. Robot texnikası sahəsində süni intellektin ən parlaq nümunəsi insanabənzər robotlardır.

Kənd təsərrüfatı. Kənd təsərrüfatı elə bir sahədir ki, burada ən yaxşı nəticələrə nail olmaq üçün müxtəlif resurslar, işçi qüvvəsi, maliyyə və vaxt tələb olunur. Kənd təsərrüfatında süni intellektin imkanları özünü kənd təsərrüfatı robotlarında göstərir. Bu da kənd təsərrüfatında fermerlərə çox faydalı ola bilər.

Nəticə olaraq əlavə edə bilərik ki, süni intellekt dördüncü sənaye inqilabının mühərriki hesab olunur və inkişaf edən bir texnologiyadır. Yuxarıda da qeyd olunduğu kimi artıq hər birimiz

bilərəkdən, ya da bilməyərəkdən süni intellektin tətbiqlərindən faydalanırıq və bu, göründüyü qədər sadə bir proses deyil.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev Ə.Q., Şahverdiyeva R.O. İnnovasiya fəaliyyətinin təşkili problemləri və həlli mexanizmləri. Monoqrafiya. Bakı, "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2023, 532 s.
2. S.Q. Kərimov "İnformasiya sistemləri". Bakı, Elm, 2008, 676 s.
3. https://ru.wikipedia.org/wiki/Искусственный_интеллект

TARİXİ ZƏFƏRƏ APARAN YOL!

Elvira Vəli qızı Əfəndiyeva
Qazax Dövlət Sosial-İqtisadi Kolleci
elvira-efendiyeva@mail.ru

Ümummilli lider Heydər Əliyevin adı xalqımızın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı kimi tariximizə qızıl hərflərlə əbədi həkk olub. Məhz Ulu Öndərin sayəsində Azərbaycan xalqı həm sovet dövründə, həm də müstəqillik dövründə öz tarixinin ən mühüm nailiyyətlərini qazanıb, başqa sözlə desək, ən böyük uğurlarımız xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin liderliyi və müəllifliyi ilə ərsəyə gəlib. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə tarixi xilaskarlıq missiyasını yerinə yetirib və qeyri-adi uzaqgörənliyi, dövrün çağırışlarına adekvat və tutarlı cavab vermək, bu xüsusda düzgün qərarlar qəbul edib qətiyyətlə həyata keçirmək kimi idarəçilik istedadı və ustalığı ilə xalqımızın taleyində həlledici rol oynayıb, Azərbaycanı tənəzzüldən, durğunluqdan, xaosdan çıxararaq inkişafa, tərəqqiyə doğru aparıb. Əgər birinci dəfə sovet Azərbaycanına rəhbərlik edərkən Heydər Əliyev respublikanı müstəqilliyə hazırlamışdısa, ikinci dəfə artıq yenicə müstəqillik qazanmış, lakin müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmiş ölkənin dövlət başçısı olarkən xalqımızın əsrlərlə qəlbində yaşatdığı azadlıq ideallarını gerçəkləşdirərək müstəqilliyimizin sarsılmazlığını, əbədiliyini və dönməzliyini təmin etdi.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə daim fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz, Ulu öndər Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi tanınır.

Müstəqil, azad yaşamaq, öz təbii sərvətlərinin əsl sahibinə çevrilmək əsrlər boyu Azərbaycan xalqının ən böyük arzusu olub.

Azərbaycan 18 oktyabr 1991-ci ildə ötən əsrin 20-ci ilində itirdiyi dövlət müstəqilliyini yenidən bərpa etsə də xalqımız bu sevinci yaşaya bilmədi.

1993-cü ilin əvvəllərindən başlayaraq AXC-Müsavat iqtidarının törətdikləri cinayət əməlləri, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyillərinin baş qaldırması və sair kimi hadisələr respublika daxilində qardaş qırğınına, vətəndaş müharibəsinə zəmin yaratmış, Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Xüsusilə hakimiyyəti silah gücünə ələ keçirmiş və xalq arasında "ac bəylər" adlandırılan zümrə tərəfindən dövlət əmlakının amansızcasına talan edilməsi ölkəni acınacaqlı duruma salmışdı.

Torpaqlarımız bir-birinin ardınca işğal edilir, xalqın sabaha olan ümidləri tamamilə puça çıxırdı. Belə bir çıxılmaz durumda olan Azərbaycan müstəqilliyini itirmək, bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsini yaşayırdı. Vəziyyətin daha da ağırlaşacağından qorxuya düşən və heç bir əməli tədbir görməyi bacarmayan səbatsız AXC-Müsavat iqtidarının yüksək vəzifəli şəxsləri son nəticədə məsuliyyətdən yayınmaq üçün bir-birinin ardınca istefa verməyə, Heydər Əliyevi hakimiyyətə dəvət etməyə məcbur oldular. Ulu Öndər onların bu təkliflərini qəbul etmir, vəziyyət isə getdikcə daha da pisləşirdi. Bu çətin məqamda Azərbaycan xalqı hamılıqla ayağa qalxdı, üzünü xilaskarına tutaraq böyük dövlətçilik təcrübəsi olan, dünya şöhrətli nüfuzlu siyasi xadim Heydər

Əliyevi təkidlə ölkəni məhv olmaqdan xilas etmək üçün hakimiyyətə dəvət etdi. Xalq inanırdı ki, yalnız Ulu Öndər Heydər Əliyev bu vəziyyətdən çıxış yolu tapa və Azərbaycanın müstəqilliyini qoruyub saxlaya, inkişaf etdirə bilər. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın təkidli çağırışına səs verərək Naxçıvandan Bakıya qayıtdı. Böyük xilaskar Heydər Əliyevin Bakıya qayıdışı ilə Azərbaycan müstəqil bir dövlət kimi məhv olub tarix səhnəsindən silinmək təhlükəsindən qurtuldu. Heç də təsadüfi deyil ki, 1993-cü ilin 9 iyunu müstəqillik tariximizə, dövlətçilik salnaməmizə qızıl hərflərlə yazılıb. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, Böyük Qurtuluşa doğru mühüm addım atıldı. Bu qayıdış bütün mənalarda milli qurtuluşumuz idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildiyi 1993-cü il 15 iyun tarixinin Milli Qurtuluş Günü adlandırılması xalqımızın öz xilaskarına verdiyi tarixi qiymət, gələcəyini müəyyənləşdirmək baxımından qəbul etdiyi böyük tarixi qərar idi. Məhz bu səbəbdən də dövlət başçısı İlham Əliyev Milli Qurtuluş Gününü Azərbaycan tarixinin dönüş nöqtəsi kimi dəyərləndirir.

Ümummilli Liderin tarixi missiyası üç mühüm amilə söykənirdi: xalqın Heydər Əliyevə olan möhkəm və sarsılmaz inamı, dəstəyi; Heydər Əliyev şəxsiyyətinin böyüklüyü, qüdrəti, əzəməti; Ulu Öndərin mənsub olduğu Azərbaycan xalqına, Vətəninə sonsuz və təmənnasız sevgisi. Məhz bu üç amilin vəhdəti sayəsində müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün möhkəm təməl formalaşdı.

1993-cü il oktyabrın 3-də milyonların etimadı nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər Heydər Əliyev 10 oktyabr 1993-cü ildə keçirilən andiçmə mərasimində müstəqilliyimizin əbədiliyinin təmin edilməsi naminə qarşıda dayanan mühüm məsələlərin proqram tezislərini bəyan etdi.

Məhz bu tarixi tezislər əsasında Ulu öndər Heydər Əliyev çox qısa bir müddətdə özünün xilaskarlıq missiyasını xalqın dəstəyi sayəsində uğurla gerçəkləşdirdi, millətimizi, ilk kövrək addımlarını atan gənc dövlətimizi böyük bəlalardan xilas etdi. Eyni zamanda, Ümummilli Lider bu missiyası ilə dövlətimizin rəmzinə çevrildi ki, bu da tarixdə nadir hallarda rast gəlinən gerçəklikdir. Məhz bu əvəzsiz xidmətlərinə görə müasir müstəqil Azərbaycanın dövlətçilik tarixi dedikdə, ilk olaraq gözlərimiz önündə bütün mənalı həyatını xalqımızın xoşbəxt həyat sürməsinə, dövlətimizin inkişafına və tərəqqisinə həsr etmiş Ulu öndər Heydər Əliyevin nurlu siması canlanır. Ümummilli Liderin zəngin irsi hər zaman araşdırılır, öyrənilir, təbliğ olunur və gələcəkdə də belə olacaqdır.

Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olundu. Bu tarixi addım dahi şəxsiyyətin Azərbaycan dövləti, xalqı qarşısındakı misilsiz xidmətlərinin təhlilinə böyük imkanlar yaradır. "Heydər Əliyev İli" çərçivəsində həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda keçirilən rəngarəng tədbirlərdə Ümummilli Liderin fəaliyyətinin ayrı-ayrı istiqamətləri geniş təhlil olunur, bunların fonunda Onun Vətəninə, xalqına, dövlətinə bağlılığı böyük qürur hissi ilə vurğulanır.

"Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram!" söyləyərək Azərbaycanı böyük inkişaf, tərəqqi yoluna çıxaran Ulu öndər Heydər Əliyev, eyni zamanda, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!", "Vətən birdir, hamımız bu Vətən üçün çalışmalıyıq!" çağırışları ilə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın birliyini, həmrəyliyini təmin etdi. Azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsi, təbliği Ümummilli Liderin hakimiyyətinin hər iki dövründə fəaliyyətinin əsasını təşkil edib.

1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişinin imzalanmasından sonra elə həmin ilin sentyabrın 20-də dünyanın nəhəng transmilli şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması sayəsində neft strategiyasını müəyyənləşdirən, Azərbaycana investisiya axınını iqtisadi böhrandan çıxış yolu hesab edən Ulu Öndər Heydər Əliyev geosiyasi baxımdan əlverişli şəraitdə yerləşən respublikanın iqtisadi-sosial, elmi- texniki potensialını da hazırladığı neft strategiyasının həllinə yönəltdi.

Ulu öndər Heydər Əliyevin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider məcburi köçkünlərlə görüşlərinin birində bildirmişdir: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir.

Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik." Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin bu istəyini, arzusunu reallığa çevirdi.

Artıq təsdiqini tapmış faktdır ki,1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsi rolunu oynayıb. Həmin illərdə görülmüş işlər sayəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu, beynəlxalq aləmdə daxili siyasətlə bağlı bütün məsələlərdə öz prinsipial mövqeyini nümayiş etdirdi, dünyada böyük hörmətə malik oldu. Ölkə daxilində başlanan və uğurla davam etməkdə olan islahatlar dövlətimizin və xalqımızın bu günü, gələcəyi üçün həlledici amil rolunu oynayır. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Məhz Ulu Öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. 2003-cü ildən başlanan yol Böyük Yolun davamı kimi dəyərləndirilir. Həmin ildən başlayaraq Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Ölkəmiz yeni nailiyyətlər qazanaraq güclü və nüfuzlu dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirir. Uğurlu daxili və xarici siyasət həm Azərbaycanın yüksəlişi və inkişafında, milli maraqlarının qorunmasında, həm də ölkəmizin dünyanın siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır. 44 günlük İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Zəfər də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Müzəffər Ali Baş Komandan İlham Əliyev 8 noyabr 2020-ci ildə Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!" fikirləri ilə Prezidentlik dövrünün əsas hədəflərini reallığa çevirdiyi üçün keçirdiyi hissləri xalqla bölüşdü. Dövlət başçısı tarixi Zəfərimizdən dərhal sonra işğaldan azad edilmiş ərazilərə səfər edərək Qələbə sevincini xalqla bölüşdü, bu torpaqların əsl sahibinin məhz Azərbaycan xalqı olduğunu bu məkanlardan sonsuz qürur hissi ilə dünyaya çatdırdı. Dünya hərb tarixində ilkə imza atan Azərbaycan müharibədən dərhal sonra genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu gün həmin ərazilərə Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir. Azad Qarabağ və Şərqi Zəngəzur cənnət məkana çevrilir. Sonsuz qürur hissi ilə qeyd edirik ki, Ulu Öndər Heydər Əliyevin xalqa 1 oktyabr 2003-cü il tarixli müraciətində əks olunan çağırışlar, inam və etimad real həyatda öz təsdiqini tapıb. Qarabağ münaqişəsinin tarixə qovuşması, Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın bugününə və gələcəyinə nəzər salmaq sevincini bizlərə yaşadan möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarlığımızı ifadə edir, canları, qanları ilə tarix yazan şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik.

Tarixi ədalətə, beynəlxalq hüququn norma və prinsiplərinə söykənərək 30 illik işğala son qoyub ərazi bütövlüyümüzü bərpa etdiyimiz kimi, hazırkı dövrün əsası çağırışı olan Qərbi Azərbaycana qayıdışımızı da təmin edəcəyik. Xalqımız tam əmindir ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin səyi nəticəsində hər bir hədəfə nail olacaq, Azərbaycan daim möhtəşəm uğurları ilə dünyanı heyrətləndirəcək.

Dünya müasir müstəqil dövlətimizin banisinin ideyalarının reallığa çevrilməsi nəticəsində möhtəşəm Azərbaycana şahidlik edir! Heydər Əliyev ideyaları, Prezident İlham Əliyevin siyasəti Azərbaycan üçün yeni parlaq perspektivlər yaradır. Əminliklə söyləmək olar ki, öz ərazi bütövlüyünü təmin etmiş, bölgənin lider dövlətinə - regional güc mərkəzinə çevrilmiş Azərbaycan yeni zirvələr fəth edərək tarix yazacaq, adını tarixə əbədi yazdıracaq.

BİOLOGİYA DƏRSLƏRİNDƏ DİFERENSİAL YANAŞMA

Mahnur Mehman qızı Ömərova
Mingəçevir Turizm Kolleci
mahnuromarova@gmail.com

Tədrisdə differensial yanaşma eyni təlim mühitində öyrənməsinə, intellektinə, təlim nailiyyətlərinə, qavramasına görə fərqlənən öyrənənlərlə fərqli metodlarla işləmək, dərsləri hər şagirdə uyğun planlaşdırmaqdır. Müxtəlif təlim ehtiyacı, öyrənmə xüsusiyyətlərinə malik olanlardan ötrü öyrədən olduqca fərqli, çevik dərs planlamalı, müxtəlif səviyyədə olan şagirdlərin uğur qazanmaları üçün lazım olan məzmunu, öyrənmək üçün istifadə oluna mövzunu mənimsəmələrinə nail olmalıdır. Əsas məqsəd ondan ibarətdir ki, müəllim dərs zamanı qarşıya qoyulan məqsədə bütün şagirdlərin çatdığına əmin olsun.

Bioloji biliklərin şagirdlərin həyatında, fəaliyyətində mühüm rol oynadığını nəzərdə saxlamaq lazımdır. Məhz bioloji təhsil sayəsində hələ yeniyetməlik yaşlarından şagirdlərdə özünə, ətrafdakılara, ümumiyyətlə, bütün canlılara qarşı diqqətli və ehtiyatlı yanaşma, təbiətə məhəbbət hissi formalaşır.Şagird müəyyən dərəcədə sağlamlığının qeydinə qalmağın nə dərəcədə mühüm olduğunu anlayır, öz orqanizminin quruluşunu, funksiyalarını qavrayır, biologiyanın nə demək olduğunu anladığına görə bitki və heyvanlar aləminə sevgi ilə, qayğı ilə yanaşır.

Biologiyanın tədrisində differensial yanaşmanın ən vacib məsələləri- bir fərdi başqalarından fərqləndirən xarakter və keyfiyyətlər öyrənilir. Həmin fərqlər embrionun mayalanma anından etibarən valideynlər tərəfindən iştirak edən genlərin fərqlərinə uyğun şəkildə formalaşmağa başlayır. Fərdi fərqlərin inkişafına, həmçinin mühit faktoru: qidalanma, doğuşdansonrakı sosial, psixoloji, pedaqoji, demoqrafik və s. amillər öz təsirini göstərir. Biologiyanın tədrisində differensial yanaşmanın mahiyyəti fərdi keyfiyyətləri öyrənməklə tamamlanmır, həm də şagirdlərin təlim fəaliyyətindəki çatışmazlıqları bu prinsipin köməyi ilə aradan qaldırılır, onlarda yeni-yeni keyfiyyətlər yaratmaq olur ki, bu keyfiyyətlər hər bir şagirdin sonrakı təlim fəaliyyətində həlledici rol oynayır.

Diferensial yanaşma fəaliyyət prosesində şagirdlərin imkanlarını inkişaf etdirməyə, əmək prosesində onların fərdi qabiliyyət və istedadlarını tərbiyə etməyə şərait yaradır. Müəllim-şagird ünsiyyəti o zaman yüksək nəticələr verə bilir ki, şəxsiyyətin formalaşmasının vasitəsinə, əsas şərtinə çevrilə bilir. Bu isə ünsiyyətin əsasında hörmət, humanist münasibət, qarşılıqlı məhəbbət və anlaşma yarana bilərsə, mümkün olur. Bütün fənlər kimi biologiyanın da tədrisi zamanı dərsdə və ya dərsdənkənar məşğələlərdə müəllimin ünsiyyəti idarə edə bilməməsi, yəni, ona xələl gətirən ünsürləri -qaba sözləri, ifadələri, sərt hərəkətləri, öz sözünü hökm kimi qəbul etdirməsi, bir sözlə, avtoritar mövqeyi müəllim-şagird münasibətlərinin düzgün qurula biləcəyinə inam yaratmır. Biologiya müəlliminin hər qrup şagirdlərə olan dərin marağı, onların fərdi xüsusiyyətlərinə humanist yanaşması, qayğıkeş münasibəti tədris düşünülmüş, məqsədyönlü təşkil edilməsinə zəmin yaradır. Biologiyanın tədrisində differensial yanaşmalı təlimi necə həyata keçirmək olar? Differensiallaşma şagirdlərin əvvəlki bilik və bacarıqlarınn qiymətləndirilməsindən və fərdi təlim məqsədlərinin müəyyən edilməsindən başlayır. Dərsdə differensal təlimi reallaşdırmaq üçün müxtəlif yanaşmalar vardır. Hər bir halda differensiallaşma zamanı şagirdlərin aşağıda göstərilən xüsusiyyətləri nəzərə alınır:

1. Şagirdlərin marağı – şagirdləri maraqlandıran sahə və mövzuların müəyyənləşdirilməsi
2. Hazırlıq səviyyəsi – şagirdlər nə öyrəniblər və nə öyrənməlidirlər
3. Öyrənmə tərzləri – şagirdlərin məzmunu hansı yolla daha yaxşı öyrənməsi

Bildiyiniz üzrə, biologiya dərslərində tədris olunan dərs məzmun standartlarının tələblərinə uyğun olmalıdır. Lakin tədris zamanı şagirdlərin bəziləri məzmunu tam, bəziləri qismən mənimsəmiş ola bilər, bəziləri isə daha yaxşı qavraya bilərlər. Bu zaman nə etməliyik? Şagirdlər üçün tapşırıq hazırlayarkən diqqət yetirmək lazımdır ki, tətbiq olunan tapşırıqlar xatırlamaq, başa düşmək, tətbiq etmək, təhlil etmək, dəyərləndirmək, yaratmaq mərhələlərinə uyğun olsun. Diferensial təlimə görə bütün şagirdlər eyni dərəcədə müəllimin köməyinə ehtiyac duymur.

Bəzi şagirdlər fərdi, bəziləri cütlərlə, bəziləri də qrupla işləməyi seçə bilərlər. Bəzi şagirdlər müəllimlə fərdi şəkildə inkişaf elədiyi halda, bəziləri məzmunu qarşılıqlı əlaqə ilə daha effektiv mənimsəyirlər.

Optimal öyrənmə üçün həm fiziki, həm də psixoloji elementlər olmalıdır:

Fiziki amil sinifdə quruluşun və maddi texniki təminatın olmasını nəzərdə tutur.

Psixoloji baxımdan isə müəllimlər təhlükəsiz, dəstəkləyici öyrənmə mühitini formalaşdıran sinif idarəetmə üsullarından istifadə etməlidirlər.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramı (Kurikulumu) (VI-XI siniflər). Bakı , 2013, 75 s.

2. Hüseynov Ə.M., Məhərrəmov Ə.M. Biologiyanın tədrisi metodikası. Bakı, ADPU, 2003, 138 s.

3. Hüseynzadə R., Əzizova Z., Əliyev S., Verdiyeva Ü. Pedaqogika. Dərslik. Bakı, Mütərcim, 2021, 487 s.

4. Zeynaloğlu C. "Təlim fəaliyyətinin psixoloji prosesi" (Metodik tövsiyələr). Bakı, "Print-S" nəşriyyatı, 2017, 144 s.

5. https://www.tipii.edu.az/az/article/554-diferensial-talim-haqqinda

ƏVƏZOLUNMAZ ŞƏXSİYYƏT

Cəmilə Oktay qızı Əlizadə
Mingəçevir Turizm Kolleci
cemile.elizade1994@gmail.com

Zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı əsrlər boyu müstəqillik arzuları ilə yaşamış və öz tarixinin ayrı-ayrı dövrlərində güclü, müstəqil dövlətlər qurmağa da müvəffəq olmuşdur. Bu dövlətlər xalqımızın maddi mədəniyyət abidələrinin, ədəbiyyatının, dilinin, mənəvi-əxlaqi dəyərlərinin inkişafında, qorunub saxlanmasında mühüm rol oynamışlar. Müstəqillik illərində keçdiyimiz yol Heydər Əliyev kimi yenilməz iradə sahibinin fəaliyyəti sayəsində anarxiyadan sabitliyə doğru inkişafın xüsusi mərhələsi kimi qiymətləndirilməlidir. Heydər Əliyev sübut etdi ki, vətənpərvər, təcrübəli insanlar üçün siyasi hakimiyyət insan, vətəndaş hüquqlarının təmin olunmasına hər cür şərait yaradan azad, müstəqil cəmiyyətin formalaşdırılması yolunda güclü və səmərəli bir vasitədir. Cəmiyyətdə baş verən hər hansı bir çaşqınlıq və xaosun ilkin səbəblərini insanların şüurlarında, onların yetkinliyində axtarmaq lazımdır. Yalnız düşüncələrdəki ideyalara aydınlıq gəldikdən sonra cəmiyyətdə müəyyənlik yaranır və onun daxili proseslərə nəzarət imkanı ilə üst-üstə düşməsi gerçəkləşir.

Taleyin iradəsi ilə Azərbaycan dövlətinə və xalqına tarixin ahəngini öz nəzarəti altına götürə biləcək, cəmiyyətin bütün aparıcı qüvvələri tərəfindən qəbul olunan və onları öz arxasınca aparmağa qadir olan, təxəyyüllərdən uzaq daxili və xarici siyasət yeridə bilən şəxsiyyət nəsib oldu. Heydər Əliyevin yenidən respublika rəhbərliyinə, bu dəfə müstəqil Azərbaycanın rəhbərliyinə qayıdışı 15 iyun 1993-cü il tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Beləliklə, vətəndaşların köklü mənafelərinə, şəxsi maraqlarına, istək və arzularına zidd olan, məqsəd və məramı aydın olmayan, gənc, müstəqil dövlət üçün böyük təhlükə törədən, faktiki olaraq onu uçurum qarşısında qoyan siyasətin, daha doğrusu, siyasi hərc-mərcliyin qarşısı alındı. Heydər Əliyev fenomeni! Bu, bizim seçimimiz idi, ya tarixin? Bəzən fərdlərin seçim imkanının məhdudluğu üzündən tarix onların köməyinə gəlir. Tarix zamanca vaxtına, məkanca yerinə düşmüş şəxsiyyəti onların köməyinə göndərir, çaşqınlıq içərisində yaşayan insanların həyatına müəyyənlik gətirir. Bu, tarixi şəxsiyyətlərin əbədi tarixi missiyasıdır. Bəşər tarixinin başlanğıcından bu günədək belə olub və bu cür şəxsiyyətlərin rolunu azaltmaq istəyənlərə tarix sübut edib ki, bu qanun zaman ölçüsündən

ucadır. Azərbaycan vətəndaşının normal, dinc həyatını təmin etmək, onun siyasi, iqtisadi və sosial-mədəni sahədə yaradıcı fəaliyyətinə şərait yaratmaq, əsas hüquq və azadlıqlarını qorumaq ən mühüm vəzifələr kimi qarşıda dururdu.

Heydər Əliyev ölkənin ali idarəçilik sükanı arxasına keçdikdən sonra dövlətçiliyimiz və müstəqilliyimiz naminə, həm də bu zaman çox cəsarətli və bir çox hallarda ilk baxışdan bəziləri üçün qeyri-populyar görünən qərarlar qəbul edilməsinə başlandı. Ölkənin hazırkı durumu, dövlət quruculuğu proseslərinin araşdırılması göstərir ki, Azərbaycanın müstəqilliyinin, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməli qoyulmuşdur. Son illər ərzində həyatımızın bütün sahələrində köklü dəyişikliklər, dərin islahatlar həyata keçirilmiş, dövlətimiz dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrilmiş, orada öz layiqli yerini tutmuş, dünya siyasət səhnəsinin fəal iştirakçısına və güclü regional amilə çevrilmişdir.

Dövlətin, millətin gələcək strategiyasını, daxili və xarici problemləri həll etmək yollarını tarixi şəxsiyyətlər müəyyən edir, formalaşdırır. Uğurlara və uğursuzluqlara, qələbə və nailiyyətlərə görə də gələcək qarşısında məhz onlar məsuliyyət daşıyırlar. Əzəldən bəri belə olmuşdur, bundan sonra da belə olacaqdır. Qədimdən bu günədək dövlətlər yaranır, millətlər dirçəlir, bunu həyata keçirə bilməyənlər isə tale qarşısında öz acizliklərini sübut edirlər. İnkarolunmaz həqiqətdir ki, dünyanı ideyalar idarə edir. İdeyaları gerçəkləşdirən, tarixi proseslərə təsir gücünə malik, real qüvvəyə çevirən isə tarixi şəxsiyyətin əzmi, siyasi iradəsidir. Tarixdə hər şey şəxsiyyətlə və şəxsiyyət vasitəsi ilə həyata keçirilir. İdeya yalnız onda təcəssüm edir. Tarix sübut edir ki, gələcəyə şəxsiyyətlərin açdığı yol və gördükləri işlər gəlib çıxır. Azərbaycanın gələcəyi üçün yol isə 1993-cü il iyunun 15-də açıldı.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev Q. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. Bakı: Şəms, 2006, 520 s.
2. Heydər Əliyev - Biblioqrafik məlumat kitabı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003, 430 s.
3. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, Şərq-Qərb, 2001, 324 s.

MÜASİR İNGİLİS DİLİNDƏ NEOLOGİZMLƏR

Günay Sabir qızı İbrahimova
Mingəçevir Turizm Kolleci
gunayibrahimovaa1980@gmail.com

Qlobalaşan dünyada elm və texnologiya sürətlə inkişaf etdiyi üçün təbiidir ki, dilçilik elmində də ortaya bir sıra aktual məsələlər çıxır. Neologizmlər məsələsi bu aktual məsələlərdən biridir. Neologizmlər dilçiliyin ən vacib sahələrindən hesab olunur, çünki dillər sürətlə inkişaf edir və bu inkişaf nəticəsində dilə yeni sözlər daxil olur. Neologizmlərin dilə daxil olması, ümumişləklik qazanıb həmin dilə inteqrasiya etməsi çox önəmli bir məsələdir. Bu məsələ dilin öz funksionallığını itirməməsi üçün çox önəmli bir prossesdir.

Bizdən asılı olmadan çağdaş dünyamızda neologizmlər istər-istəməz dilimizə inteqrasiya edir. Diqqətlə nəzər yetirsək, dilimizdə kifayət qədər neologizmlər mövcuddur. Hər bir neologizmin leksikada öz mövqeyi vardır və öz leksik-semantik xüsusiyyətləri mövcuddur. Müasir ingilis dilində neologizmlər anlayışı hal-hazırda geniş vüsət almışdır. Buna səbəb olaraq inkişafda olan dünyanın innovativ imkanlarının genişlənməsini göstərmək olar. Bu imkanlar genişləndikcə müxtəlif elm sahələrindən hər bir dilə yeni sözlər daxil olmaqda davam edir.

Hazırda müasir ingilis dili dünyada ən çox istifadə edilən beynəlxalq bir dil olduğu üçün inkişafda olan sahələrdə də istifadə olunur. Bu səbəbdən də müasir ingilis dilinə neologizmlərin inteqrasiya etməsi çox sürətli şəkildə gedir. Bu məsələnin, əlbəttə ki, öz müsbət və mənfi tərəfləri mövcuddur. Hər bir halda müsbət tərəfi bundan ibarətdir ki, dilin leksikonu genişlənib inkişaf edir

və dilin imkanları genişlənir. Mənfi cəhəti isə odur ki, dilin kök tərkibini korlayaraq dildə aşınma prosesinə şərait yaradır.

Dilçilik elmində neologizmlər sahəsi hal-hazırda az öyrənilən, lakin öyrənilməsi və araşdırılması ən çox lazım olan dilçilik sahələrindəndir. Neologizmlərin dilimizə inteqrasiyası və onlardan istifadəni ön plana çəkdikdə həmin leksik vahidlərin öyrənilməsi məsələsi daha da qabarmış olur. Çünki indi neologizmlər sahəsində daha çox çətinlik yaradan məsələ neologizmlərin tərcümə problemidir. Bu baxımdan da neologizmlərin leksik xüsusiyyətlərinin ətraflı şəkildə araşdırılması onun üzərində müvafiq tərcümə metodlarının tətbiq edilməsi prinsipini asanlaşdırır.

Müasir dövrdə neologizmlərin tərcümə metodlarında leksik xüsusiyyətlərin önəm kəsb etdiyini bilərəkdən neologizmlər və onların leksik-semantik xüsusiyyətlərinin öyrənilib araşdırılmasının nə dərəcədə vacib bir məsələ olduğunu göz önünə gətirmiş olarıq.

Nəticə olaraq onu qeyd edə bilərik ki, hazırda neologizmlərin araşdırılması, onların leksik-semantik xüsusiyyətlərinin tədqiqi məsələsinin bir sıra nüfuzlu alimlərin və universitetlərin tədqiqat mövzusuna çevrilməsi də mövzunun aktuallığını göz önünə gətirən amillərdəndir. Müxtəlif kitabxana mənbələrimizə nəzər saldıqda neologizmlərlə bağlı kitabların, məqalələrin, vəsaitlərin azlıq təşkil etdiyini görərik. Çünki elm və texnika inkişaf etdikcə dilçiliyin leksika sahəsi də dinamikayla ayaqlaşır. 3-5 il əvvəl istifadə olunan bəzi sözlər ola bilər ki, hazırda ümumişləklik qazansın və buna görə də neologizmlər sahəsi daim araşdırma mövqeyində olan bir sahə olmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Hajiyeva A. English lexicology. Baku, "Elm və təhsil", 2011, 238 p.
2. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, Nurlan, 2008, 444 s.
4. https://kpfu.ru/docs/F1797492221/Lectures.on.Le_icology1.pdf
5. https://kayzen.az/blog/Az%C9%99rbaycan-dili/466/leksika-2.html

ƏFSANƏLƏRİN TARİXLƏ BİRLƏŞDİYİ MƏKAN – BEŞBARMAQ DAĞI

Anar Şahbaz oğlu İbrahimov
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
"Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu
ibrahimov.11.09.97@gmail.com

Fövqəladə bir duruş, buludların arasından görünən əzəmətli bir dağ. İqlimə hökm edən görnüşə sahib bu sirli abidənin bütün diqqəti dalğalanan Xəzərin üzərindədir. Bu məkan hər kəsin şimalın sonsuz üfüqlərinə üz tutduğu yolun kənarında özünə tarixi bir səltənət qurmuşdur.

Hər kəs zaman-zaman haqqında söz açacağımız tarixi yer barəsində əfsanəvi hadisələr eşidib. Bu isə həmin yerə qarşı olan marağın daha da artmasına gətirib çıxarır.

Söhbət hələ də tədqiq edilən və əfsanəfi tarixi gündən-günə özünə böyük diqqət çəkən Beşbarmaq dağından gedir. Onun mistik ruhu isə bütün Siyəzənin havasında sanki süzülür və sirli yerlərə səyahət yalnız heyrətamiz bir şəhərin təəssüratlarını artıracaq. Qeyri-adi və sirli hər şeyin əsl biliciləri mütləq keçmişin keçmiş əfsanələri ilə tanış olmalıdırlar.

İnsanlar Beşbarmağın müqəddəs məkan olduğuna inanır və rəvayətə görə, ümid və arzuların gerçəkləşdiyi yerdir. Hələ qədim zamanlarda Beşbarmaq dağı Qafqaz Albaniyasının sakinlərinin ibadət yeri olub.

Bunun izahı çox sadədir. Hələ monodinlərin - yəhudiliyin, xristianlığın və islamın yaranmasından əvvəl, hətta atəşpərəstlikdən, daha sonra isə zərdüştilikdən əvvəl qədim insanlar bu gün çoxlarının unutduğu bir dinə - orolatriyaya etiqad edirdilər.

Bu, dağ zirvələrinə, qeyri-adi formalı qayalara və ayrı-ayrı iri daşlara sitayişdir. Qeyri-adi olan hər şey ilahiləşdirildi, buna görə də sərbəst dayanan yüksək qayaların arzuları yerinə yetirə biləcəyinə inam yarandı.

Beşbarmaq çoxlu sirləri, sirləri, mifləri, əfsanələri özündə saxlayır. Bəzi alimlərin fikrincə, "Beşbarmaq" dağının adı əl barmaqları ilə bağlı deyil, tamam başqa etimologiyaya malikdir. Məsələ burasındadır ki, XVIII əsrə qədər Quba xanlığının tərkibində olan yeddi mahaldan biri olan Bərmək mahalı burada yerləşirdi.

İndi isə gələk bu fövqəladə görnüşə sahib dağ haqqında olan əfsanələrə.

Bildiyiniz kimi, İsgəndərin farslı cariyəsi olan Barsina III Daranın bütün sarayı ilə birlikdə onun yanına gəldi. (O, Makedoniya padşahlarının sülaləsinin sonuncu varisini dünyaya gətirdi.) O, İsgəndərə Əhəməni imperiyasının kənarında ölməzlik suyu ilə bulaq haqqında danışdı.

Bunu bilən hökmdarı ən yaxşı döyüşçünü çağırıb onu möcüzəli su üçün Beşbarmaq dağına göndərdi. Amma, qayıdarkən döyüşçü küpəni sındırdı. Döyüşçü edamdan qorxaraq yerli sənətkarlara eyni qabı düzətdirdi və onu adi su ilə doldurdu.

Saxtakarlıqdan şübhələnməyən İskəndər gəmini qurutdu və bayquşun ölümsüzlüyünə inanırdı. Buna görə də Hindistana səfəri zamanı o, qorxmazlıq möcüzələri göstərdi. Lakin, yeni yürüşdən 5 gün əvvəl o, dəhşətli qızdırma ilə xəstələndi və tezliklə öldü.

Dağ haqqında təkcə əfsanələr deyil, həm də bir çox səyyahlarda öz əsərlərində qeydlər ediblər.

XIII əsr fransız səyyahı V.Rubrukun qeydlərində də xatırlanır. Beşbarmaqdan qalan qala divarı düz Xəzər dənizinə qədər uzanırdı. VII əsr coğrafiyaşünasları bu divarı Atlı Van divarı adlandırmışlar. Bəzi tədqiqatçılar hesab edirlər ki, bu qala Şirvan bölgəsini Xursan ölkəsindən ayırıb.

XVII əsrdə Şərqi Azərbaycanda olmuş holland səyyahı Yan Streys yazırdı: "Biz dənizin yaxınlığında bir dağ gördük. Onu Parmah və ya Barmah adlandırırdılar. Dağın zirvəsi uzanmış şəhadət barmağına bənzəyirdi. Bir vaxtlar bu ərazilərin müdafiəsi kimi xidmət edən möhtəşəm bir qala var idi. Bu qalanın bünövrəsi və daş bulağı bu günə kimi burada qorunub saxlanılıb".

Alban tarixçisi Musa Kalankatuyski yazır ki, Beşbarmaq üzərində qalan qala 438-457-ci illərdə Sasani hökmdarı Yezdegird tərəfindən tikilmişdir.

1636-1638-ci illərdə müasir Azərbaycan ərazisində olmuş alman səyyahı Adam Olearius da öz yazılarında dağı təsvir etmişdir.

Ümumiyyətlə, daşların özləri daha çox maraq doğurur, onların bir çoxu qəribə formadadır, bəziləri hava şəraitinin təsiri altında çatlamış, digərləri çökmüş, digərləri isə yağış və su axınları nəticəsində boşluqlar almışlar. Qayaları araşdırarkən, sanki qılıncla iki hissəyə bölünmüş bir daş blok görünür. Yaxınlıqda böyük bir daşın üzərində kiçik, lakin uzun bir çökəklik var idi. Yerli əhalinin dediyinə görə, bu yerdə (yalnız cümə günləri) müqəddəs şirin su axır ki, Xızır peyğəmbərin göz yaşları ona müalicəvi güc verir. Təbii ki,bu su kondensasiya və ya yağış prosesində toplana bilər, sonra da daşlardakı çatlar və yarıqlardan sıza bilər.

Beşbarmaq ətrafında çoxlu qeyri-adi formalı daş və qayalıqlar olduğunu adi gözlə görmək olar. Alimlərin fikrincə, dağın ətrafında aparılan qazıntılar sayəsində qədim yaşayış məskənlərinin qalıqları, qab-qacaq və məişət əşyaları nümunələri aşkar edilib ki, bu da insanların bu ərazidə uzun müddət məskunlaşdığını təsdiqləyir. Bu faktı karvansaranın xarabalıqları, qala divarları və yerli qəbiristanlıq, qədim yaşayış məskənlərinin qalıqları da təsdiq edir. Bura yaxın qonşu kiçik dağların zirvələrində Beşbarmaq dağına bənzər kiçik qayalı massivləri görünür. Bu onu deməyə əsas verir ki, belə qayalıq massivlər bu ərazi üçün xarakterikdir, lakin Beşbarmaq dağı onların ən böyüyü və əzəmətlisidir və buna görə də insanlara fövqəltəbii güc, sehrli xüsusiyyətlər və qeyri-real bir şey bəxş edir. Bəlkə də burada mövcud olan enerji insanları bu dağın möcüzəvi xüsusiyyətlərinə inandırır.

İstifadə edilmiş ədəbiyyat

1. Aydan Xəlilova. Beşbarmaq mistikası Peyğəmbərlərin görüş məkanı, müqəddəs ziyarətgah, tarixi istehkam.... //Azərbaycan.-2022.- 8 iyun.- S.6.
2. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Xatun Plyus, 2010, 302 s.
3. Məmmədov, T. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: Təhsil, 2006, s.339-340
4. Rəfail Oğuztürk Dağlı. Xızı-Siyəzən bölgəsinin tarixinə dair, s. 66-70

5. Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı: Avrasiya press, 2006, s.217-218

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA DÖVLƏTİN VƏ HEYDƏR ƏLİYEV FONDUNUN APARDIĞI İŞLƏR

Nurlanə Mənsur qızı İsmayılzadə
Mingəçevir şəhər Təbiət, Riyaziyyat və Humanitar Təmayüllü lisey
nurlana.mansur@gmail.com

Təhsil bütün cəmiyyətin ən vacib komponentlərindəndir. Hələ Tomas Ceferson göstərirdi ki, "Əgər xalq elə güman edirsə ki, sivilizasiyanın hər hansı bir mərhələsində o, həm cahil, həm də azad ola bilər, deməli o, heç vaxt mümkün olmayan bir şey istəyir."

Belə qəbul olunub ki, təhsil sosial proseslərə təsir göstərən ən mühüm faktorlardandır, çünki, o bir tərəfdən qabaqcıl texnologiayaların mənimsənilməsinə köməklik göstərir. Digər tərəfdən də dəyərlərin orientasiya sistemini formalaşdırır. Demokratik təhsil, cəmiyyətdəki hər bir fərdin bərabər təhsil alma haqqının təmin edilməsi deməkdir. Bu isə sosial bərabərliyin qorunmasına zəmin yaradır və inklüziv təhsilin mövcudluğu buna kömək edir. İnklüziv təhsilə dair dünya təcrübəsinin öyrənilməsi göstərir ki, bütün uşaqlar lap əvvəldən məktəbin təhsil və sosial həyatına daxil olmalıdır. Yalnız əlil uşaqlar deyil, bütün şagirdlər qayğı ilə, dayaq ilə təminatı inklüziv təhsil tətbiq edilən məktəblərdə mümkündür. Bu da öz növbəsində uğur qazanmaqda, təhlükəsizlik hiss etməkdə, birgə kollektivdə olmağı yüksək qiymətləndirməkdə onlara imkan verir. Bu məktəbin məqsədi bütün şagirdlərin dolğun həyatını və kollektivdə fəallığını təşkil etməyə yönəlmişdir. Bununla da onların qarşılıqlı əməkdaşlıq şəraitini yaratmaqdan ibarətdir.

"Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reablitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu (1992)" - Azərbaycan Respublikası, məhdudiyyətli şəxslərin hüquqlarını qoruyan və həmçinin, baş verə biləcək hüquq pozuntularının qarşısının alınması yolunda dövlət siyasətini təyin edir. Bu siyasət, əlilliyi və sağlamlıq imkanları məhdudluğunu ləğv etməyə və onların mədəni, sosial və iqtisadi hüquqlarından tam olaraq yararlanmalarına kömək edir. Reabilitasiya, qarşısının alınması, müalicə, təhsil, istihdam və digər sahələrdə hər bir vətəndaşla eyni imkanlara malik olmalarını təmin edir.

Həmçinin, məhdudiyyətli olanların öz potensiallarına uyğun şərtlər yaradılması üçün lazımi addımları atır.

Xalqının milli adət-ənənlərinə, mədəniyyətinə, ədəbiyyatına böyük qayğı ilə yanaşan Heydər Əliyev Azərbaycan elinin xilaskarıdır. Heydər Əliyev: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır."

Ölkənin və xalqın ən dəyərli varlığı uşaqlardır. Onların doğru şəkildə tərbiyə olunması və cəmiyyətə faydalı vətəndaşlar kimi yetişmələri məsuliyyətli bir və çətin işdir. Dünyada əhalinin demək olar ki yarısını əhatələndirən övladlarımızın tərbiyəsi və yetişməsi, hər bir ölkənin gələcəyinin inkişafına çox təsir göstərir. Buna görə də uşaqların diqqət problemlərinə müvafiq şəkildə diqqət yetirilməli və onlara qayğı hər zaman göstərilməlidir.

Lakin son bir neçə onillik müddətdə, cəmiyyətimizdə yaşanan mənəvi, iqtisadi və sosial problemlər onların həyatından, yaşantısından da təsirsiz ötüşmədi. Uşaqlar arasında təhsildən çıxma, məktəblərdə yaşlı yeniyetmələrin alverə cəlb edilməsi, təhsil ocaqlarında tədrisin keyfiyyətinin aşağı düşməsi, bir sözlə, uşaqlara qarşı əksəriyyətin qayğısızlığı bu müddət ərzində cəmiyyətdə narahatlığa səbəb oldu. Bu problemlər, uşaqların gələcəkdə cəmiyyətə faydalı vətəndaşlar kimi yetişmələri üçün təhlükəli bir bənzərliyə gətirib çıxarar. Uşaqların problemlərinə dövlət səviyyəsində diqqət yetirilməli və təhlükəsiz və sağlam bir mühitdə böyüdülmələri buna görə də təmin edilməlidir.

Uşaqlarımızın sağlamlığı, inkişafı və təhsili daima diqqət mərkəzindədir. Əhalimizin bəzi bölgələrində müasir təhsil ocaqları, uşaq baxımı vəziyyəti yaradılmış, uşaqların hüquqları qorunaraq müxtəlif həyat tərzlərini müsbətə doğru aparmaq üçün daha çox fəaliyyət göstərilməkdədir. Bu gün ölkəmiz uşaqların ictimai həyatda fəal iştirakına imkan yaradan şərait yaratmaqda, onların maraqlarına uyğun vətəndaşlıq təlimləri ilə məşğul olmaqdadır. Heydər Əliyev dövlətimizin uşaqlara qayğısı ən ümdə vəzifələrdən olduğunu bilirdi və bu fəlsəfə dövlət siyasətinin əsasını təşkilləndirir.

Uşaqların Beynəlxalq televiziya və radio günü münasibətilə keçirilən ənənəvi bayramında iştirak edən ulu öndərimiz Heydər Əliyev demişdir: "Artıq biz ictimai-siyasi cəhətdən çox sabit bir Azərbaycan yaratmışıq. İnsanlar rahat yaşasınlar və biz bunu, sabitliyi daimi edəcəyik. Əmin olun ki, siz bizim rastlaşdığımız çətinliklərlə rastlaşmayacaqsınız. Ancaq bu sizə imkan verəcək ki, bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz. Siz bizim ümidimiz, gələcəyimizsiniz."

Demokratik dövlətin milli təhsil sisteminin də ümdə vəzifəsi bütün uşaqların şəxsiyyət kimi formalaşdırılmasıdır. "Məktəb həyatı təkcə vermir, eyni zamanda bu, yüksək tərbiyə ocağıdır" –uşaq və gənclərimizin milli və ümumbəşəri dəyərlər əsasında formalaşdırılmasını, dövlətçilik ideyalarına sədaqət, vətənə, torpağa məhəbbət ruhunda tərbiyəsini daim ön plana çəkilməsini ulu öndərimiz söyləmişdir.

Məktəb təhsili uşaqlarımızın həyatında ən vacib və dərin izlər qoyan prosesdir. Bu proses məktəbdə öyrənilən biliklər və qazanılan təcrübələr aracılığı ilə uşaqların zövq, maraq və nailiyyət-lərinin formalaşmasına kömək edir. Bu səbəbdən təhsil prosesi müasir təhsil tənzimləmələrinə uyğun olmalı, yeniliklərə açıq, müxtəlif ixtisas sahələrinə uyğun təhsil proqramları təqdim edilməlidir. Məktəblər tələbələrə mənəvi dəyərlər, vətəndaşlıq mənsubiyyəti, mövzularında da təlimat verməlidirlər.

Əsas məqsəd təhsildə biznes sahəsində, inkişaf etmiş ölkələrdə mövcud olan praktik təcrübələr və mədəniyyətlərə nəzər salmaq və uşaqlarımıza təcrübələr və biliklər verməkdir. Bu, onların həyatına xeyirli bir şəkildə təsir edərək, milli inkişafımıza və gələcəyimizə kömək edəcəkdir. Məktəblər göstərilən məqsədə çatmaq üçün əsasən digər ölkələrin təcrübələrindən və beynəlxalq təşkilatların yardımından istifadə etməlidirlər.

Məktəbdənkənar müəssisələr, bu işdə ən vacib rollardan birinə malikdir. Uşaq və yeniyetmələrin savad almasını, biliklərə yiyələnməsini əhatə edilməsi ilə təhsil sisteminin işi bitmir. Onların şəxsiyyət kimi formalaşması da bu sistem daxilindədir. Təhsil sisteminə həmçinin, onların fəaliyyətlərinin bütün istiqamətləri, o cümlədən asudə vaxtlarının və istirahətlərinin səmərəli təşkili də aiddir. Təhsil Nazirliyinin müvafiq şöbələri, icra nümayəndəlikləri və hüquq-mühafizə orqanları, uşaqların məktəblərə cəlb edilməsi üçün bununla əlaqədar geniş tədbirlər həyata keçirir. Uşaqların, təhsili və hüquqlarının qorunması, sağlamlığı, inkişafı bu hərəkatın hissəsidir. Məhdudiyyəti olan uşaqların təhsilini təşkil etmək üçün geniş imkanlar ölkəmiz daxilində yüksək səviyyədədir. Hazırda, təhsil müəssisələrinin geniş şəbəkəsi bu tip uşaqlar üçün yaradılmışdır. Ancaq, bəzi uşaqlar təhsilinin təşkili üçün xüsusi yanaşma və formalar, daha artıq qayğı və diqqət tələb edir. Bu məqsədlə, inklüziv təhsil, ən optimal variantdır. Hər bir təhsil alanın fəaliyyətinin qəbul edilməsi inklüziv təhsilin əsas prinsipidir. Buna görə də, bütün uşaqların özünəməxsus tələbatlarını təmin edə bilmək üçün təhsil təşkil edilməlidir. Hazırki dövrdə məhdud imkanları olan insanlara dəstək xidmətinin inkişafı ideoloji olaraq "sosial model" adlandırılır. Göstərilən modelə əsasən insanın ailəsinin həyatında iştirakı, təhsil müəssisələrində təhsil alması, işləmək üçün hazır olması mütləq deyil. Əsas diqqət mühitin onların imkanlarına adaptasiya olunmasına, onların qabiliyyətlərinin inkişafı üçün sosial əlaqələr sisteminin yaradılmasına verilir.

İnklüziv təhsilin konsepsiyası, xüsusi tələbatları onların ehtiyaclarını mümkün geniş formada qarşılayacaq bir təhsil təmin etməyə, onların ictimaiyyətə inteqrasiyasına, mümkün qədər daha çox insanın onlarla birgə təhsil almağına, onların bərpa olunmasına və bədən və fikir səhhətlərinin inkişafına fokuslanır. Konsepsiya təhsil müəssisələrində yenilənmiş təlimat planları, uyğun məsələlər, sənaye tərəfindən təmin edilən texnologiyalar və müxtəlif təminatlar kimi bəzi konkret təchizatları ayrıca bu şəxslərin ehtiyaclarını təmin etmək üçün təqdim edir. İnklüziv təhsil, məhdud

imkanları olan insanların təhsilinə imkan yaradır və ictimaiyyətdə fəaliyyət göstərmələrini, öz potensiallarını reallaşdırmaq üçün mümkün olan hər şeyi etməyə çalışır.

1. Səhhətindən, fiziki və intellektual defektindən asılı olmayaraq bütün insanların təhsil almaq haqqı vardır.

2. Xüsusi təhsil sisteminin inkişafında inklüziv təhsil hal-hazırda aparıcı rol oynayan differensial təhsilin ləğvi demək deyil. Effekriv inteqrasiya təkcə kütləvi təhsilin daima təkmilləşməsi şəraitində mümkündür.

3. Körpə, erkən və məktəbəqədər yaş dövrləri xüsusi qayğıya ehtiyacı olan uşaqların ən vacib inkişaf dövrləridir. Uşaqların qeyd olunan bu dövrləri dövlərdən, cəmiyyətdən və ailədən yüksək diqqət tələb edir, çünki məhz bu dövrlərdə defektlərin qarşısı alınması imkanları əlverişlidir. Bünün üçün xüsusi təhsil sisteminə çatışmayan hissəni – erkən aşkarlanma və erkən yardım sistemini əlavə etmək vacibdir.

4. Valideynlər tibbi, sosial və təhsil müəssisələri reabilitasiyanın müxtəlif yolları haqqında məlumatlandırılmalıdırlar.

5. Məhdudiyyətli olanlar erkən yaşlarından normal uşaqların mühitinə inteqrasiya olunmalıdırlar. Onların valideynləri bu işdə mütəxəssislərin tamhüquqlu partnyorları olmalıdırlar.

6. Valideynlərin istəyini nəzərə alaraq, məhdudiyyəti olanlar erkən və məktəbəqədər yaşlı uşaqlar ümumi tipli məktəbəqədər müəssisələrə qəbul olunmalıdırlar.

7. Mütəxəssislərin köməyinin dərəcəsi və forması nöqsanın və uşağın fərdi xüsusiyyətindən asılıdır.

8. İnklüziv təhsilin müvəffəqiyyətlə tətbiq ediməsi üçün təzə formalı müəssisələr və məktəblər yaradılmalı, əvvəldən yaradılmış müəssisələrdə isə inklüziv təhsilin tətbiqi üçün fərqli mühit, inklüziv təhsilə uyğun mühit qurulmalıdır.

9. Hər uşağın öz fərdi tempində inkişaf etmək hüququ var. Nöqsanından asılı olaraq, hər uşaq ümumtəhsil məktəbinin proqramı əsasında tam, ya da qismən təhsil alır.

10. Məhdudiyyətli olanlara nöqsanından asılı olaraq ya fərdi məşğələlərdə, ya da bilavasitə dərs zamanı əlavə kömək göstərilir.

11. Valideynlər dərsdə, fərdi məşğələlərdə, dərsdənkənar və məktəbdənkənar tədbirlərin hazırlanması və keçirilməsində iştirak edə bilərlər.

12. Məhdudiyyəti olanların standart tipli siniflərdə təhsil alması ilə yanaşı, bir kateqoriyaya aid belə uşaqların ümumtəhsil məktəbinin xüsusi sinfində təhsil almaları da təşkil olunmalıdır.

13. İnklüziv təhsilin effektivliyini təmin etməkdən ötrü xüsusi və ümumtəhsil məktəblərin müəllimlərinin hazırlanması və yenidən hazırlanması məsələləri nəzərdən keçirilməlidir. Hətta defektoloq müəlimlər inklüziv təhsil şəraitində korreksion köməyin göstərilməsi üçün xüsusi hazırlanmalıdırlar.

14. Məhdudiyyətli uşaqların ümumtəhsilin və ali məktəbdə peşə təhsili almaq imkanını inklüziv təhsil nəzərdə tutur.

15. İnklüziv təhsil tədricə həyata keçirilməlidir. Bu prosesdə peşəkar kadrların hazırlanması və cəmiyyətin əlillərə münasibətinin dəyişməsi nəzərə alınmalıdır.

16. İnklüziv təhsilin həyata keçirilməsində əsas hüquqi sənəd "Sağlamlıq imkanları məhdud şəxslərin haqqında qanun"dur.

17. İnklüziv təhsil çərçivəsində həll olunan məsələlərin yeniliyini, sosial əhəmiyyətini, mürəkkəbliyini, kompleksliliyini nəzərə alıb, buna aid elmi tədqiqatları genişləndirmək, valideynlərin təlimlənməsinə yönəldilən proqramların işlənməsinə xüsusi diqqət yetirmək.

18. İnklüziv təhsilin reallaşması nazirliklərinin birgə ahəngdar fəaliyyətini tələb edir.

19. İnklüziv təhsil konsepsiyasının gündəlik həyata tətbiqi məhdudiyyətli insanlara qarşı əhalinin münasibətinin dəyişməsini tələb edir. Bu məqsədlə ictimaiyyətin, kütləvi informasiya vasitələrinin, qeyi-hökumət və dini təşkilatlatın, sahibkarların və s. səylərini birləşdirmək lazımdır.

Azərbaycanda inklüziv təhsil, hələ ki pilot layihələr çərçivəsində həyata keçirilən bir təhsil formasıdır və inkişafı üçün səmərəli iş aparılır. İnklüziv təhsil haqqında xüsusi qanun olmasa da, sağlamlıq imkanları məhdud insanların təhsil hüquqları müxtəlif sənədlərdə özünü əks etdirir. Bu sənədlər arasında 2001-ci ildə qəbul olunmuş "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili

haqqında Azərbaycan Respublikasının Qanunu", 2005-ci ildə Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı, 2009-cu ildə qəbul olunmuş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 2012-ci ildə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası, və 2013-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" yer alır. Bu sənədlərdə məhdudiyyəti olanların təhsili haqqında müddəalar öz əksini tapmış, son iki sənəddə isə prioritet məsələ kimi inklüziv təhsilin inkişaf etdirilməsi qarşıya qoyulmuşdur. Ölkədə deinstitutlaşdırma tədbirlərinə start verən 2006-cı ildə təsdiq edilmiş "Dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramı" çərçivəsində hazırlanıb və qəbul edilmiş plana əsasən, inklüziv təhsil komponentli ümumtəhsil məktəblərinə 7 internat məktəbinin transformasiya edilməsi nəzərdə tutulmuşdur. 2004-cü ildə, Dünyaya Baxış və Beynəlxalq Tibb Korpusu ilə Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin birgə əməkdaşlığı ilə inklüziv təhsil layihəsini icra etmişdir. Bu layihə, intellektual və fiziki inkişaf problemləri olan 22 uşağa Bakı, Sumqayıt və Mingəçevir şəhərlərində 4 məktəb və 3 ümumtəhsil məktəbində təlim vermiştir. Daha sonra, həyata keçirilən layihələr çərçivəsində Yasamal, Səbail, Xətai, Binəqədi, Qaradağ, Nərimanov rayonlarında, Yevlax, Sumqayıt və Mingəçevir şəhərlərində 17 ümumtəhsil məktəbi və 13 məktəb təhsil müəssisəsində 2005-2009-cu illərdəki layihələr əsasında 298 məhdudiyyətli uşaqlar təlim görmüşdür. Bu layihənin bir eksperiment olaraq başladılması, sağlam olanların məhdudiyyətli olanlarla birlikdə təhsilini dəstəkləməsi üçün nəzərə alınmışdır. Həmçinin, BMT-nin Uşaq Fondu və Azərbaycan Respublikası Təhsil Nazirliyi birlikdə 2014-cü il tarixində imzalanmış "2014-2015- ci illərə dair İllik Fəaliyyət Planı"na əsasən, 2015-ci ildən Bakı şəhərində 2 ümumtəhsil məktəbində ibtidai siniflərdən başlayaraq inklüziv təhsilin icrasına başlanılmışdır.

BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının 24-cü maddəsi, əlilliyə daha uyğun tərifler verməkdədir. Bu Konvensiyaya görə bütün dövlətlərin inklüziv təhsili tətbiq etmək öhdəliyini yerinə yetirməsini tələb edir və məhdudiyyətli olanların təhsil haqları tanınır. Bu öhdəlik aşağıdakıları əhatə edir:

- məhdudiyyətli olanların ümumtəhsil məktəblərinə qəbul edilməsini və təhsil almağa imkan vermək;
- inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq üçün əlaqədar məhdudiyyəti olan şəxslərin təhsil hüquqlarını ləngitmədən, tədbirləri götürmək;
- fərdi ehtiyaclara uyğunlaşdırılmış zəruri dəstək tədbirlərini təmin etmək və akademik və sosial inkişafa uyğun şərait yaratmaqla inklüzivliyin tam şəkildə təmin olunması.

Təhsildən kənarlaşdırılma, hansı cür olursa olsun, məhdudiyyətli uşaqların təhsillənmək hüquqlarını məhdudlaşdırır. Özü də bir diskriminasiya forması sayılır. Məhdudiyyəti olanların hüquqları haqqında Konvensiya tərəfindən təmin edilən bir öhdəliyə görə, bu səsəbdən dövlətlər inklüziv təhsil imkanlarını yaratmaq üçün gərəkənləri əldə etməlidirlər.

Azərbaycan kimi Konvensiyanı imzalayan bir tərəf olaraq, ölkəmiz bu öhdəliyi yerinə yetirmək üçün inklüziv təhsilin həyata keçirilməsinə ciddi diqqət məruz qoyub.

Məhdudiyyəti olan uşaqların xüsusi məktəblərdə və ya standart tipli məktəblərin daxilindəki xüsusi bölmələrdə təhsil alması, yaxud natamam inteqrasiyanın inklüziv təhsilə daxil olmaması bu səbəblə mümkün deyil. Bunun əvəzində, Azərbaycan hökuməti bu təhsil sistemini tətbiq etmək üçün tədbirlər planlaşdıraraq, məhdudiyyətli olanların ümumi təhsil müəssisələrində hər kəsə açıq olan şəraitdə təhsillənməsinə şərait yaradır. Bu bağlamada, inklüziv təhsil mühitində şəxsi tələbatlara uyğunlaşdırılmış məcburi təkanlar təklif olunur.

Bütün bu addımlar, Azərbaycan hökumətinin məhdudiyyəti olanların öyrənmə haqqlarının məhdudlaşdırılmasına və ya digər insanlarla bərabər olmaqdan məhrum qalmalarına icazə verməməyə çalışdığını göstərir. Bu da ölkəmizin, inklüziv və ehtiram verici bir mühitdə yaşamaq üçün əlverişli bir ölkə olduğunu sübut edir.

Boşluqları aradan qaldırmaq üçün inklüziv təhsilin tətbiqində vacib proseslər icra olunmuş, işlər görülmüşdür.

Hər bir vətəndaşın təhsil hüququ Azərbaycan Respublikasının Konstitutiyasında hər bir vətəndaşın təhsil hüququ qarşılanır.

2017-ci ildə məhdudiyyəti olanların məhdudiyyətsiz uşaqlarla birlikdə təhsilinin təşkili üçün "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlər Proqramı" qəbul olunmuşdur. Məhdudiyyəti olan uşaqlar üçün ölkəmizdə təhsil əlçatan bir şəkildə deyildir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunun beşinci maddəsinin ikinci bəndində yazılır: Dövlət cinsindən, irqindən, dinindən, dilindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir". Burada "sağlamlıq imkanları" sözü diqqəti cəlb edir.

Deməli, məhdudiyyəti olanların da təhsillənmək haqqı mövcuddur. Təcrübələr göstərir ki, təhsildən təcrid olunan əhali qrupları arasında məhdudiyyəti olanlar daha yüksəkdir.

Azərbaycanda məhdudiyyətli təhsildən kənarlaşdırılan uşaqların tutduğu rəqəm dəqiq bilinmir. 2020-ci ilin rəsmi statistikasına əsasən Azərbaycanda təqribən 62951 əlilliyi olan uşaq qeydiyyatdadır.

UNİCEF-in apardığı araşdırmalar nəticəsində məlum olub ki, məhdudiyyəti olanların valideynlərinin yalnız bir qismi əlillik dərəcəsinin müəyyənləşdirilməsinə görə lazımlı qurumlara yaxınlaşırlar. Nəticədə onu deyə bilərik ki, Azərbaycandakı məhdudiyyəti olanların sayı daha çoxdur. Əlilliyinə görə qeydiyyatda olan uşaqların təqribən ibtidai və orta məktəb yaşında olan uşaqlar 47000 nəfərdir.

Əlilliyi olan 12400 uşaq evlərində vəya evdə təhsil formasında, ya xüsusi məktəblərdə, ya da inernat məktəblərində təhsil almaqları ibtidai və ya orta təhsilə cəlb olunması Təhsil Nazirliyinin məlumatına əsasən bilinmişdir. Əlilliyi olan uşaqların bir qismi ümumtəhsil məktəblərdə təhsilə cəlb edilib, lakin onların qeydiyyatı aparılmadığı səbəbindən dəqiq sayları haqqında məlumat mövcud olmadığı ehtimal olunur [6].

Bunlarla yanaşı, "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin ümumi orta təhsil səviyyəsi üzrə davamlılığının təmin edilməsi barədə əmr keçmiş Təhsil Naziri Ceyhun Bayramov tərəfindən imzalanıb.

Bütün bunlar daha yaxşı işə götürülmə perspektivləri və keyfiyyətli təhsil almış əlilliyi olan yetkinlik yaşına çatmışlar arasında asılılığın azaldılması, əlilliyi olan uşaqlar və yeniyetmələr arasında sosial bacarıqların artırılması, əlilliyi olan insanlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması, əlilliyi olan şəxslərin keyfiyyətli təhsilə cəlb edilməsi onlar üçün daha çox imkan yaradılması vasitəsi ilə milli inkişafa uzunmüddətli olaraq müsbət təsir göstərəcəkdir. Bu da öz növbəsində böyük sosial uyğunlaşmaya gətirib çıxaracaq.

Bu səbəblə də, Ali məktəblərin müəllimlik, məktəbəqədər təhsilin pedaqogikası və Təhsildə Sosial Psixoloji Xidmət ixtisaslarında "İnklüziv təhsil" fənninin tədrisini məqsədəuyğun görmüşdür. Bu sahədə elmi-pedaqoji kadrların azlığını nəzərə alaraq, "İnklüziv təhsil" fənninin müəllimlik ixtisaslarında tədris olunması bizim fənn proqramının hazırlanması məqsədini Azərbaycan Respublikası Təhsil Nazirliyi qarşımıza qoydu.

Biz əgər bütöv və sağlam bir cəmiyyət istəyiriksə, ilk öncə təhsilin tamlığından keçir. Təhsilin tamlığını təşkil etmək və qarşıya çıxan əskikləri tamamlamaq üçün daim dünya təcrübəsi araşdırılır, milli sistemə tətbiqi labüd olan yeni variantlar tapılır və onların ölkəmizdəki effektivliyi məsələsi dəqiqləşdirildikdən sonra əməli işlərə start verilir. Əlilliyi olan uşaqlar üçün geniş imkanları böyük hədəfləri olan inklüziv təhsil yaradır.

İnklüziv təhsilin inkişafı üçün ölkəmizdə də böyük addımlar atılmış, ciddi işlər görülmüşdür.

Bunların nəticəsində qanunvericilik bazası yaradılmış, məktəblərin infrastruktur və texniki imkanları təkmilləşdirilmiş, müəllimlərin peşəkar bacarıqları artırılmış, dərslik və əyani vasitələr inklüziv təhsilə uyğunlaşdırılmışdır. Bu mühüm sahələrdə görülən işlər, inklüziv təhsilin inkişafı istiqamətində daha da məqsədə uyğun addımlar atılmasını təmin edir.

Uşaqların sağlam böyümələri və müasir dövrdəki tələblərə cavab verən inkişafı, ölkəmizdə daim diqqət mərkəzindədir. Dövlət rəhbərimiz cənab İlham Əliyev uşaqların hər sahədə inkişafına dəstək olmaq üçün önəmli qərarlar və sərəncamlar verir.

"Heydər Əliyev Fondu" tərəfindən yaradılan məktəblər, uşaq evləri və bağçalar, yeni tələblərə cavab verən infrastruktur və layihələr, müasir proqramlar özünün uğurlu nəticələri ilə fəxr və sevinclə doludur. Dövlətimiz uşaqlara layiqli, faydalı və müvəffəqiyyətli insan kimi böyümək üçün bütün imkanlarını səy göstərir.

Dünya ictimaiyyəti fikir birləşməsi ilə də qəbul edir ki, Cənab Prezidentimiz İlham Əliyevin uşaqların hüquq və azadlıqlarının qorunması ilə bağlı ciddi addımlar atması ölkəmizdə uşaqların inkişafına vacib təsir göstərir. Bu mövzuda özünü isbatlamış Heydər Əliyev Fondu birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında, xüsusi diqqət və nəzarət altında olan böyük bir təşkilatdır. Her il fondun göstərdiyi xidmətlər daha da inkişaf edir və genişlənərək böyüyür [2].

Azərbaycanın sabahı düşünülən uşaqlara yüksək səviyyəli qayğı göstərilməsi ilə yanaşı, cəmiyyətin bütün potensialının səfərbər edilməsinə də xidmət fondun fəaliyyətidir.

BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi və BMT-nin İnkişaf proqramının daimi nümayəndəsi Antonius Borek ilə Mehriban Əliyeva 2013-cü il fevralın 11-də görüşmüşdür. O, 2005-ci ildən Heydər Əliyev Fondunun UNDP ilə əməkdaşlığının başlaığını diqqətə çatdırmışdır.

"Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" layihəsinin indiyə qədər bir çox layihələrin həyata keçirildiyini deyən Mehriban Əliyeva bunlardan ən böyüyünün olduğunu vurğulamışdır. Bakı və regionlarda bu tipdən olan insanlar üçün informasiya-kommunikasiya (İKT) mərkəzləri layihə çərçivəsində inşa olunub.

İstifadə edilmiş ədəbiyyat

1. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? BMT-nin Uşaq fondu (UNICEF). Bakı, 2019.
2. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. Bakı, 2020.
3. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3.
4. "İnklüziv təhsil- Reallıqlar, çağırışlar, perspektivlər" Beynəlxalq elmi konfransın materialları (Könül Xudazadə) Bakı, 2020, 55 s.
5. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. Bakı, 2012, 311 s.
6. İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr, V Elmi-praktiki Konfransın məqalələr toplusu. (Gülay Qurbanova) Bakı, 2011, 44 s.
7. İsmayılova L. və başqaları, Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili. Bakı, 2009.

Mingəçevir Dövlət Universiteti

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur"

RESPUBLİKA ELMİ KONFRANSININ
M A T E R İ A L L A R I
3-4 may 2024-cü il

Yığılmağa verilib: 15.05.2024
Çapa imzalanıb: 22.05.2024

Tiraj: 150